


F.Lenormanın 1895-ci ildə tərtib etdiyi Turan xəritəsi

Sən hər dəfə kitab oxuyanda,

ağaclar sevinir və ölümdən sonrakı

həyata inanırlar...

Köhlən nəşriyyatı

Dünya tarixinin

# Turan dövrü

*(Tarixi xülasələr və tarixşünaslıq)*

Ələsgər Siyablı

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

**Buraxılışa məsul:** Nizami Əlisoy
**Elmi redaktorlar:** F.ü.f.d., dosent Aydın Qasımlı.
F.ü.f.d., dosent Arif Acaloğlu.
**Korrektor:** Gülər Uğur
**Mətn tərtibatı:** Yusif Əsgər
**Yekun oxunuş:** Nizami Əlisoy

**Ələsgər Siyablı. Dünya tarixinin Turan dövrü (Tarixi xülasələr və tarixşünaslıq). Elmi araşdırma.**
Bakı, "Köhlən" Nəşriyyatı – 2021, 635 səh.

© Ələsgər Siyablı / 2021
© Köhlən Nəşriyyatı / 2021
İSBN: 978-9952-8371-2-4

Kitabın Azərbaycan dilində nəşr hüququ "Köhlən" Nəşriyyatına məxsusdur. Bütün hüquqlar qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri qadağandır.

# İçindəkilər

GİRİŞ ........ 11
I FƏSİL. Qədim Mesopotamiya xalqlarının və mədəniyyətinin kökləri haqqında Turan nəzəriyyəsi ........ 21
II FƏSİL. Turanlıların və Türklərin irqi mənsubiyyəti haqqında antropoloji nəzəriyyələr ........ 34
III FƏSİL. Tur, Turan, Türk adları və onların mənası haqqında ........ 46
Turkman adı ........ 49
Tur və Turan adları ........ 53
Türk adı ........ 58
IV FƏSİL. Turanlı Öntürklərin ilkin vətəni ........ 72
V FƏSİL. Turan etnocoğrafiyası. ........ 84
VI FƏSİL. Mərkəzi Asiyadakı böyük Turan dövləti ........ 94
Anau və onun kralı Kuranq ........ 99
Böyük Turan dövləti ........ 102
VII FƏSİL. Turanlı öntürklərin Sumer-Kəngər dövləti ........ 136
Sumer və Kiengir adlarının mənası haqqında ........ 147
Sumerin sosial və siyasi quruluşu ........ 153
Sumerlər, subirlər və onların ilkin vətənləri haqqında ........ 157
Mesopotamiya mədəniyyətin ilkin yaradıcıları haqqında "substrat" dil teorisi ........ 161
Sumer və Mesopotamiyanın Akkad, Babil və Assuriya dövlətləri ........ 173
VIII FƏSİL. Sumerlərin Türklər və Ön Asiyanın digər turanlı xalqlarla dil və etnik qohumluq əlaqələri ........ 181
IX FƏSİL. Sumerin məhvi və sumerlilərin dünyaya dağılması ........ 192
X FƏSİL. Sumerli öntürklərin öz ilkin vətənləri Turana dönüşləri ........ 199
XI FƏSİL. Sumerin yaradılış əfsanəsi və onun İran və Turan miflərinə təsiri.... 210
XII FƏSİL. Mərkəzi Asiya xalqlarında və Türklərdə "Sumeru" əfsanəsi ........ 219
XIII FƏSİL. Öküz kultu və Oğuz adının Sumer kökləri ........ 223
Oğuz xaqan və Qopadşah əfsanəsi. ........ 229

XIV FƏSİL. Namrilər, Nimrud və onun turanlı Sak imperatorluğu ... 238
XV FƏSİL. Ön Asiyanın turanı ... 244
Turanlı ön türklərin ölkəsi Elam ... 256
Kas və ya Kusi türkləri ... 266
Aratta ... 283
Lullubilər ... 288
Qutlar, Quzlar və Quzan ölkəsi ... 290
Turukkular ... 298
Barsua və Barsillər ... 304
XVI FƏSİL. Subartu və ya Subir ölkəsi ... 309
Su ölkəsi və Ön Türk Su xalqı ... 326
XVII FƏSİL. Hurrilər ... 331
XVIII FƏSİL. Xattilər və Kiçik Asiyanın digər Turanlı xalqları ... 336
XIX FƏSİL. Urartu-Biayneli Turanlı dövləti ... 351
Urartu və Biayneli adlarının mənşəyi ... 353
Urartu və Azərbaycan ... 359
XX FƏSİL. Turanlı Maday Türkləri və Midiya dövləti ... 369
XXI FƏSİL. Arilərin ilk vətəni və ariçilik uydurmaları ... 383
Turan ərazisində Arilərin uydurma İran dövləti ... 386
XXII FƏSİL. Hindistan və Turuşka türkləri ... 405
XXIII FƏSİL. Çin mədəniyyətinin Turani mənşəyi ... 414
XXIV FƏSİL. Yaponiya və Turan ... 424
XXV FƏSİL. Saxta ermənistan tarixi və turanlı ermən xalqı ... 425
XXVI FƏSİL. Qədim Turan yurdu Azərbaycan ... 439
Sumer və Azərbaycan ... 440
Azərbaycan adının mənası və Azərbaycanda mövcud olmuş qədim dövlətləri ... 444
Alban/Aqvan/Alpan və Qarqar ... 461
Qafqaz Albaniyası və Mihranilər sülaləsi ... 463
Padan-Padar ... 466
Azərbaycan-Xəzərbaycan və Xəzərlər ... 467
XXVII FƏSİL. Gürcistan-Sakartvelo-Barseli ... 484
XXVIII FƏSİL. Misir uyqarlığı və onun Turanlı kökləri ... 497
XXIX FƏSİL. Avropanın Turanı ... 505
XXX FƏSİL. Germanlar və onların Turanlı mənşəyi haqqında ... 515
Qotlar ... 522
Tunqerlər ... 529
Vandallar ... 532
Franklar ... 533
Hunlar Frank dövlətinin qurucuları ... 535
Sarmat Türkləri avropalıların Ulu Ataları ... 536
Keltlər və Qallar ... 539
XXXI FƏSİL. Böyük Britaniya-Kimmer Öntürklərin dumanlı albionu ... 546
XXXII FƏSİL. Skandinavlar ... 554
XXXIII FƏSİL. İberlər və ispaniyanın Turanlı xalqları ... 558
XXXIV FƏSİL. İtaliya – Turanlı liqurların, iberlərin və etruskların vətəni ... 580
İtaliya və Turanlı Etrusklar ... 587
XXXV FƏSİL. Turanlı pelasqların ölkəsi Yunanıstan ... 598
Son söz ... 608
İstifadə olunmuş ədəbiyyat siyahısı ... 610

*Turanın böyük sevdalısı, müəllimim*
*Əbülfəz Elçibəyin əziz xatirəsinə həsr edirəm.*

*Türk Turandan gələ Xan ola.*
*Tüm acun Turan ola. Türk ola.*

# GİRİŞ

Qədim dünya tarixinin Turan dövrü fikri Qədim Şərq və eləcə də qədim dünyanın erkən tarixinin və mədəniyyətinin araşdırılmasına çox saylı əsərlər həsr etmiş Avropanın XVIII-XIX əsr tarixçi, arxeoloq, antropoloq və linqvist böyük bilim adamlarına məxsusdur. Onlar qədim mixi və heroqlif yazı mətnlərinə, arxeoloji, linqvistik və etnoloji elmi dəlillərə əsaslanaraq ari və sami irqlərinin tarix səhnəsinə qədəm qoymasından öncə min illər ərzində dünyanın Turan tayfaları yəni öntürk turlar tərəfindən məskunlaşdırılmış olduğunu və dünya mədəniyyətinin ilk rüşeymlərinin əsasının dünyanın ilk mədəni sakinləri olan turanlılar tərəfindən qoyulduğu fikrini irəli sürmüşlər. Mixi və heroqlif yazı sisteminin kəşf edilməsinin, metal emalı və dəmirin kəşfinin, ilk arxitektura abidələri və şəhərsalma ənənəsinin, meqalit və tumulların, heyvanların və o cümlədən atın əhliləşdrilməsi və bəslənməsinin əsasının dünyanın ən qədim irqi olan turanlılar tərəfindən qoyulması haqqında XVIII-XIX əsr Avropa tarixçilərinin, linqvist və etnoloqlarının görüşləri onların irəli sürdükləri Turan nəzəriyyəsində öz əksini tapmışdır.

Avropanın və o cümlədən çar Rusiyasının hakim dairələri öz işğalçılıq siyasətlərinə haqq qazandırmaq üçün bəşər uyqarlığının əsas yaradıcılarının arilər olduğu haqqında ariçilik nəzəriyyəsini ortalığa atdılar. Elmin, incəsənətin, fəlsəfənin, ədəbiyyatın və bütövlükdə bəşəriyyətin əldə etmiş olduğu dəyərlərin meydana çıxması və inkişafını arilərin, yəni avropa xalqlarının tarixi nailiyyətləri kimi qələmə verən ariçilik və ya aryanizm nəzəriyyəsi faşist Almaniyasının dünya ağalığı uğrundakı mübarizəsinin əsas ideoloji silahına çevrilmişdi. İkinci Dünya müharibəsindən sonra tarix elmində vəziyyət köklü dəyişikliyə məruz qaldı. Ariçilik nəzəriyyəsinin irqçilik mahiyyəti Yəhudi elmi və milliyətçi dairələrinin kəskin tənqidinə və ittihamlarına məruz qalaraq iflasa uğradı. Avropanın imperialist təmayüllü elmi və siyasi dairələri ariçilik terminini hind-avropalı termini ilə əvəz etdilərsə də, onun mürtəce və şovinist mahiyyəti dəyişilməz qaldı. Turan nəzəriyyəsinin milliyətçi bir görüş kimi dəyərləndirildiyi və avropasentrizmin hakim olduğu müasir tarix elmində bu nəzəriyyənin təkzib edilməsinə doğru yönəlmiş geniş bir cəbhədə hücumlar təşkil olundu. Ari və ya artıq bu dövrdə adlandığı kimi hind-avropa irqinin üstünlüyü haqqındakı görüşləri əks etdirən Avropasentrizm və ya Avropamərkəzçilik nəzəriyyəsi tarix elmində hakim ideologiyaya çevrildi. Arilər və samilər tarix səhnəsinə qədəm qoymadan öncə turanlı Ön Türk etnosunun min illər ərzində Yer kürəsini məskunlaşdıran və həyatın müxtəlif sahələrində ilk mədəniyyətin rüşeymlərini yaradan əsas irq olduğu haqqında XVIII-XIX əsrin böyük tarixçiləri, assuroloq, etnoloq və arxeoloqları H. Rauilson, E. Hinks, E. Norris, Y. Oppert, F. Lenorman, B. Landsberqer, F. Hommel, Klaprot, S. Kramer, C. Ferqusson, F. Molon, Eberhard, Mordtmann, Q. Maspero, M. K. Nibur, E.

Eykştadt, R. Pumpanelli, A. Unqnad və digərlərinin yazmış olduğu əsərlər və gəldikləri elmi nəticələr görməməzlikdən gəlinərək laqeydcəsinə tarixin arxivinə gömüldü. Tarix elminin bütün sahələri saxtalaşdırmalara və təhriflərə məruz qalaraq qədim turanlı öntürklərin bəşər tarixində oynadıqları önəmli rolun izləri silinməyə çalışıldı. Tarixin və mədəniyyətin bütün sahələrində tarixən əldə olunmuş nailiyyətlər öncə arilərin sonra isə samilərin adına yazıldı. XX əsrin ikinci yarısında imperialist dairələrin ideoloji silahına çevrilmiş hakim avropasentrizm nəzəriyyəsinin *başlıca vəzifəsi dünya mədəniyyətinin ilk yaradıcıları olan,* turanlı mənşəyə malik olduqları elmi dəlillərlə təkzib edilməz şəkildə sübut olunmuş sumerlərin turanlı kökünü inkar edən uydurma nəzəriyyələrə həsr olunmuş saysız hesabsız kitablar nəşr olundu.

Biz kitabın müxtəlif bölümlərində Turan tarixini, qədim öntürk turan tayfalarının ilk olaraq məskunlaşdıqları ölkələrin gerçək tarixini keçən yüzilliklərdəki Avropa tarixçilərinin elmi faktlarla zəngin, lakin bilərəkdən unudulmuş əsərlərindəki tarixi, linqvistik, arxeoloji və etnoqrafik dəlillərə istinad edərək şərh etməyə çalışacayıq. Biz inanırıq ki, müasir oxucuların geniş kütləsinə məlum olmayan, bir çox Avropa xalqlarının dilində nəşr olunmuş və yalnız arxivlərdə saxlanılan həmin əsərlərin məzmunu ilə tanışlıq gələcəkdə onlardan geniş istifadə etməklə Turan və Ön Türklərin tarixi haqqında daha dolğun və əhatəli əsərlərin yazılmasına səbəb olacaqdır.

Turanlılar adlanan öntürk (prototürk və ya qədim türklər) super etnosunun və onların ana yurdu olan Turanın tarixi bəşər tarixinin ən önəmli və ən qədim dövrünü təşkil edir. Hələ XVIII-XIX əsrlərdən etibarən Turların yəni Öntürklərin və onların vətəni Turanın qədim tarixi linqvistik, arxeoloji, etnoqrafik cəhətdən araşdırılmış və bu araşdırmaların nəticələrini özündə əks etdirən çoxsaylı əsərlər dərc edilmişdir.

Rus-sovet və müasir rüs tarixçilərinin böyük əksəriyyəti və bir çox qərb bilim adamları Turanın mövcudluğunu gerçək tarixi hadisə kimi deyil İran dilli dastan və rəvayətlərində əks olunmuş xəyali və əfsanəvi bir anlayış kimi təqdim edirlər. Lakin Avropanın görkəmli bilim adamı assuroloq, antropoloq və arxeoloqları Turanın tarixinin araşdırılmasına çoxlu əsərlər həsr etmiş və elmi faktlara söykənən dəyərli məlumatlar vermişlər. Avropanın arxivlərində mövcud olan bu əsərlərin bir çoxunun istifadəsi sovet dövründə qadağan olunmuş əsərlər siyahısına daxil idi. Sovet dövründə Turan və qədim türklərin tarixinin araşdrılması qadağan olunmuşdu və bu qadağaya məhəl qoymayan elm adamları pantürkist damğası ilə repressiyalara məruz qoyulurdu. Turan və turlar birmənalı şəkildə irandilli və iran mənşəli hesab olunurdular.

Turanın və turlar adlandrılan öntürklərin tarixi bir çox önəmli qaynaqlarda, ilk öncə Ön Asiyanın mixi yazılı abidələrində, Antik müəlliflərin əsərlərində, Mərkəzi Asiya və Sibirdə aşkar edilən runi yazılı abidələrdə, sanskrit ədəbiyyatda öz əksini tapmışdır. Arxeoloji və antropoloji araşdırmalar da Turan tarixinin bir çox cəhətlərini XVIII-XIX əsr Avropa tarixçilərinin qədim şərqin Sumer, Elam, Babil, Assuruya, Misir, İran, Hindistan, Hitit tarixinə həsr olunmuş çoxsaylı əsərlərində Turan və turanlıların, daha doğrusu Öntürklərin ən qədim tarixinin müxtəlif yönlərini özündə əks etdirən olduca zəngin, dəyərli və əhatəli bilgilər mövcuddur.

Çox təəssüflər olsun ki, bu dəyərli əsərlər müasir dövrdə bilim adamlarının *diqqətindən kənarda qalaraq unudulmuş, tarixin arxivinə* gömülmüşdür. Turan coğrafiyası, öntürklərin və bütövlükdə turanlıların yayıldığı areal yer kürəsinin geniş bir ərazisini əhatə edir. Ön türklər Turan irqinin tarixdə oynadığı rol baxımından ən əzəmətli və qüdrətli etnosunu təşkil edir. Ön türklər Sumer uyqarlığının yaradıcıları olan Turan irqinin başlıca etnosu kimi aparıcı rola malik olmuşlar. Həmin irqə mənsub olan və öntürklərlə qardaşlıq əlaqələrinə malik macarlar, finlər, monqollarla tarixin sonrakı inkişaf prosesində ümumi kökdən ayrılaraq Turan irqinin müstəqil qollarını təşkil etmişlər. Böyük tarixçi L. Qumilyov Ön türk super etnosunun yayıldığı ilkin ərazini Çin səddindən başlamış Karpat dağlarına qədər davam edən və Avrasiyanın Böyük Bozkırı adlanan ərazidən ibarət olduğunu yazır. Təkcə turanlı öntürklərin deyil, irəli sürülən fərziyyəyə görə hind-avropalıların da bir super etnos kimi ilkin təşəkkül tapdığı bu ərazi bütöv bir oykumen kimi formalaşana qədər bir çox qeoloji kataklizmlərə məruz qalmışdır.

Ön Asiyada öz mənbəyini Zaqros dağlarından götürən Fərat və Dəclə, Böyük və Kiçik Zab kimi böyük çaylarının suları Mesopotamiya adlanan İkiçayarası vadilərində torpağı münbitləşdirərək əkinçiliyin inkişafında, qədim insan toplumlarının və ilkin bəşər mədəniyyətinin formalaşmasında və gəlişməsində misilsiz rol oynamışlar.

İnsan toplumunun və bəşər mədəniyyətinin gəlişmiş olduğu mərkəz ilk öncə Asiyanın doğusunda meydana çıxmışdır. Öz başlanğıclarını əzəmətli dağ silsilələri olan Altay, Tanrı dağları (Tyanşan), Pamir və Himalay dağlarından götürən Amudərya və Sırdərya və ya əsgi adlarıyla Oksus və Yaksart, İrtış, Tarım, Hind, Qanq və Xuanxe çayları öz suları ilə vadilərdəki torpaqları münbitləşdirərək əkinçiliyin inkişafına, insan toplumunun gəlişməsinə səbəb olmuş və Aralıq dənizi hövzəsinə paralel şəkildə Mərkəzi Asiya timsalında ilkin bəşər mədəniyyətinin formalaşdığı mədəniyyət mərkəzinin yaranmasına təkan vermişdir. Qədim Turanın Anau şəhərində qazıntı aparmış İtalyan mənşəli amerikalı arxeoloq R. Pumpelli bu mədəniyyəti "oazis" və ya səhra/çöl mədəniyyəti adlandrır.

Qədim dövrlərdə öntürklərin iqlim dəyişikliyi təsiri ilə öz tarixi yurdlarını tərk edib müxtəlif istiqamətlərdə hərəkət etməsi hadisəsi köçərilik deyil, köçmənlik xarakteri daşıyırdı. Köçərilik isə bir təsərrüfat forması kimi heyvandarlıqla əlaqədar və tarixin daha gec zamanları üçün xarakterik olan bir hadisə idi.

Fransız orientalist və tarixçisi R. Qrossetin yazdığına görə İlk çağ dövrünün tarixindən bəhs edən bilim adamları böyük köçəri xalqların mədəni toplumların tarixində birdən-birə meydana çıxmasını onların qocalmış mədəniyyətləri cəzalandırmaq üçün Allah tərəfindən göndərilən bir vasitə kimi dəyərləndirirdilər. (Grosset R. 1938, Səh. 48)

Orta Asiya çöllərinin köçəriləri dünya tarixində mühüm rol oynamışlar. Onlar tarix ərzində 20 dəfə Turan yaylasından hərəkət edərək Hind və Qanq vadilərini, Dəclə-Fərat vadilərini işğal edərək ucqarların durğunlaşmış mədəniyyət mərkəzlərinə yeni insan axını əlavə etməklə canlılıq gətirmişlər. Xalqların bu köçləri böyük tənzimləyici gücə malik idi. Bu insan axını çayların dağlardan vadilərə axması kimi coğrafi qanunun bənzəri idi. Qədim mədəniyyətə malik müxtəlif xalqları vahid hakimiyyət altında birləşdirən türk və tatarlar mədəniyyətlərin çulğalaşmasına səbəb olurdular. (R. Grosset. 1921, Səh. 6)

Avropasentrist ruhlu bilim adamlarının bir çoxu iskit-sak, massaqetlər, sarmatlar kimi ön türk etnosuna mənsub tayfaları irandilli kimi qələmə verməyə cəhd göstərsələr də onların vahid türk etnosuna mənsubluğunu hətta qatı xristian katolik ideoloqları da etiraf etməyə məcbur olmuşlar.

İngiltərənin XIX əsr görkəmli katolik kilsə ideoloqlarından olan Kardinal Henri Neuman özünün "Türklərin tarixinə dair mühazirələr" əsərində yazır: "Geniş Çöllərərdə məskən salmış əhalini təşkil edən iskitlər, massaqetlər, sarmatlar, hunlar, monqollar, tatarlar, türklər eyni qədim köklərə malikdirlər. Eyni iqlim və mövcud həyat şəraiti onlarda eyni ənənənin və adətlərin yaranmasına səbəb olmuşdur. Mən buna uyğun olaraq bu əhalini ümumi adla tatar, ölkələrini də tatar ölkəsi adlandırıram. İskitlərdən sonra tarix səhnəsinə hunlar və onlardan sonra da tərkib baxımından müxtəlif, artıb törəmə cəhətdən üstün bir irq olan, tarixləri boyunca geriləmə və yüksəlmə keyfiyyətləri göstərən, 800 il ərzində dünyada ağalıq edən türklər gəlirlər". (Lectures on the History Turks. Cardinal H. Newman. 1854. Səh. 13, 23)

Kardinal Neuman hətta İsgəndərin Soqdianada türklərlə qarşılaşdıqları zaman ehtiyatlı hərəkət edib müdriklik göstərərək onlarla savaşmaqdan imtina etdiyini yazır. O doğruluq, dürüslük, ədalətlilik, qonaqpərvərlik kimi keyfiyyətlərin türk və tatarlara xas xarakterik əlamətlər olduğunu və bu cəhətdən avropalılardan fərqləndiklərini vurğulayır. Homer və ondan sonrakı yazarlar intellektual baxımdan yetənəkli avropalı həmvətənlərinin malik olduqları xainliq, riyakarlıq keyfiyyətləri qarşısında türklərin timsalında "köçəri çoban tayfaların" malik olduqları ərdəmliliyə heyranlıq göstərirdilər. (Cardinal H. Newman. 1854. Səh. 36)

Ön Türklərin bəşər tarixində oynadıqları önəmli rolu dəyərləndirən R. Qrosset yazır: "Bu köçərilər istər türk olsunlar, istər monqol, ağıllı, müvazinətli və praktik düşüncəli bir irqin övladlarıdırlar. Bu irq mühitin gerçəklikləri şəraitində yetişmişdir və təbiətən əmr vermək üçün yaranmışlar. Əksəriyyət etibarı ilə iflasa uğrayaraq soysuzlaşmış oturaq cəmiyyətlər böhranın təsiri ilə çökdükləri an köçərilər şəhərə daxil olur və tərəddüd etmədən ilk mübarizədə qalib gəldikləri hökmdarların taxtına əyləşirlər. Bu zaman biz onları Böyük Çin imperatoru, İran şahı və Hindistan hökmdarı timsalında görürük. Dərhal da mühitə uyğunlaşaraq Pekində yarı çinli, Reydə və ya İsfahanda yarı fars olurlar. Avropa tarixinin gedişini üç-dörd dəfə qəfləti gəlişləri ilə dəyişdirən böyük Asiya köçərilərini. Biz yalnız öz bilgisizliyimiz səbəbi ilə qeyri adi bir hal kimi dəyərləndiririk". (Grosset. R. 1938. Səh. 50, 49)

XIX yüzilliyin görkəmli Avropa tarixçiləri dünya tarixinin qədim dövrünə həsr etdikləri çoxsaylı araşdırmalarında turanlı adlandırdıqları öntürklərin tarixinə də geniş yer vermişlər. Onlar turanlıların təkcə Böyük Avrasiya qitəsinin mərkəzi hissəsinin deyil, bütün Yer kürəsinin başlıca super etnosu olduqlarını linqvistik, arxeoloji və etnoqrafik dəlillərlə təkzib edilməz şəkildə sübut etmişlər.

Hər bir etnos mövcud olduqları və fəaliyyət göstərdikləri tarixi dövr çərçivəsində özünəməxsus xüsusiyyətlərə malik əmək alətləri, məişət əşyaları, silah və sənət nümunələri şəklində öz maddi mədəniyyətlərini, yazı sistemi, folklor nümunələrini, dini etiqad və mifik təsəvvürləri, incəsənət növlərini özündə əks etdirən mənəvi dəyərlər sistemini yaradır. XIX yüzilliyin görkəmli tarixçiləri, dilçi filoloqları, arxeoloq və etnoloqları bəşəriyyətin qədim dövr tarixinə həsr etdikləri çoxsaylı araşdırmalarında onların Turan irqi adlandırdıqları müasir tarixi ədəbiyyatda isə Öntürklər və ya başqa deyimlə Prototürk adlandırılan super etnosa xas xüsusiyyətlər daşıyan bir çox konkret əlamətlər müəyyən etmişlər.

Qədim dövrlərdə insanların həyatında coğrafi determinizm adlanan coğrafi şərtlər önəmli rola malik idi. Etnosların öz yurdlarını tərk edib köçlərə məruz qalmalarının səbəbi yalnız iqlim dəyişikliyindən ibarət olmamışdır. Əhali artimi, daha doğrusu demoqrafik səbəblərlə yanaşı bu köçləri şərtləndirən ikinci önəmli amil eyni kökə malik qohum tayfalar arasında hakimiyyət və ya ərazi üstünlüyü əldə etmək uğrunda baş verən qarşıdurmalar və ya yadelli tayfaların istilasıdır ki, türklərin tarixində bunun çoxsaylı örnəkləri mövcuddur.

Avropanın XVIII-XIX əsr tarixçiləri, linqvistləri və arxeoloqları şifrəsini açdıqları qədim mixi və heroqlif yazı mətnlərinə, arxeoloji və etnoqrafik dəlillərə əsaslanaraq Yer kürəsinin bəşər övladı tərəfindən məskunlaşdrılmış Oykumen adlanan sahəsinin ilk mədəni sakinlərinin turanlı öntürklər olduğu fikrini irəli sürürlər. Onların irəli sürdükləri Turan nəzəriyyəsinə görə sami və ari irqləri tarix səhnəsinə qədəm qoymadan öncə dünyanın qədim mədəniyyətinin ilkin rüşeymləri Sakit okeandan Atlantik okeanın İspaniya sahillərinə və güneydə İkiçayarası və Aralıq dənizi hövzəsini əhatə edən ərazilərdə məskunlaşmış Turan irqi tərəfindən yaradılmışdır. Turan irqinin bir qolu da Asiya və Amerika qitələrini birləşdirən

Berinq boğazı və Atlantik okeanı üzərindən hərəkət edərək Amerika qitəsinə yayılmış və orda müxtəlif qədim mədəniyyətləri meydana gətirmişlər. Turan irqinin təşəkkül tapdığı arealı bir çox müəlliflər Avrasiya materikinin Ural və Altay dağları arasında böyük Bozkırdan ibarət hesab edirlər. Turanlı tayfalar burdan güney və doğu olmaqla iki istiqamətdə hərəkət edərək güneydə Mərkəzi Asiyanın Amudərya və Sırdərya vadilərində ilkin mədəniyyədin rüşeymlərini yaratmışlar ki, bunun ən bariz nümunəsi Anau mədəniyyətidir. Doğuya doğru hərəkət edən turanlıların bir qismi Qafqaz üzərindən hərəkət edərək Qafqazda və Zaqros dağlarının yaylalarında məskunlaşmış, sonra isə Mesopotamiya adlanan İkiçayarasına yayılaraq burda daha bir qədim mədəniyyətin əsasını qoymuşlar. Turanlı öntürklərin batıya doğru hərəkət edən qolu İspaniyaya qədər irəliləmiş və burda turanlı iber xalqını meydana gətirmişlər. İspaniyada iberlərə məxsus çoxsaylı ilkin mixi yazı nümunələri aşkar edilmişdir. Bu yazı işarələrinin bir çoxu türk tamqa işarələri ilə bənzərlik təşkil edir. Turanlıların bu köçləri samilərin və arilərin tarix səhnəsinə qədəm qoymalarından min illər öncə baş vermişdir.

Fransız assuroloqu F. Lenorman yazır ki, "Metaldan istifadə etmək ənənəsinin əsasını Misirdə, Okus çayının sahilində, Ön Asiyanı Arilərin böyük köçlərindən öncə doldurmuş olan, lakin qədim zamanlarda geri çəkilməyə məcbur olan turanlılar qoymuşdular. Mərkəzi Asiyanın köçəri xalqları hələ daş dövründə yaşadıqları zaman həmin xalq məskunlaşdıqları dağlardan əldə etdikləri dəmirdən və bürüncdən müxtəlif silahlar və alətlər emal etməkdə mahir idilər. Assurologiya araşdırmaları nəticəsində qədim insanların iskit adlandırdıqları və altay irqi ilə sıx əlaqədar olan, arilər və samilər gəlmədən öncə Asiyanın əksər arazilərində hakim olan və bu arazidə ilk mədəniyyətləri yaradan bizim turanlı adı verdiyimiz xalq olmuşdur". (Lenormant F. 1895, Səh. 175)

Almaniyanın XIX əsrdəki görkəmli etnoloqu Baron Bunzen Ümumdünya tarixinin, dilinin və dininin fəlsəfəsinə həsr etdiyi fundamental əsərdə Turanlıların bəşər tarixindəki rolunu təhlil edərək yazırdı: "Turan əhalisinin bölünərək yayılması ari irqinin öz ilkin yurdlarını tərk etməsindən daha öncə başlamışdır. Buna görə də arilər şərqə və ya qərbə, hansı istiqamətə getsələr orda Turun köçəri varislərinə rast gəlirdilər. Dünayanın bütün tarixi və xronoloji zaman kəsiyində Turan öz töhvəsini vermişdir. Avropanın şərqində və qərbində, şimalında və cənubunda müasir kökünü təşkil edən qədim kelt mədəniyyətinin əsasını Turan təbəqəsi təşkil edir. Hunnlar qədim Roma imperiyasının yıxılmasına vəsilə oldular. German və germanlaşmış dövlərtlərin yaradıcıları Turanlılar oldular.

Çox mümkündür ki, Şimali Amerikanın müxtəlif tayfa və xalqlardan ibarət olan yerlilərinin dilləri şimal qütbündəki eskimoslardan başlamış Meksikanın asteklərinə qədər eyni mənşəyə malik olub Turan irqinə mənsubdurlar, onların qafataslarının quruluşu da bunu təsdiq edir. Bu xalqların dillərinin bir-biri və eyni



zamanda Asiyanın turan dili ilə qrammatik quruluş baxımdan eyniliyi hamı tərəfindən qəbul olunur". (G. J. Bunzen, c. 2, 1854, Səh. 26, 111)

Türkmənistanda 1904-cü ildə italyan arxeoloq Pumpelli tərəfindən aşkar edilən, e. q. X-IX minilliklərə aid Anau şəhər mədəniyyəti bilim adamları tərəfindən dünyanın ən qədim mədəniyyəti hesab olunmuş və bünövrəsinin turanlı öntürklər tərəfindən qoyulduğu tarixi dəlillərlə sübut edilmişdir. Pumpelli e. q. VI minillikdə Anau sakinlərinin bir qisminin özləri ilə əhliləşdirdikləri heyvan növləri, taxıl, darı və s. nümunələr götürərək doğu istiqamətinə hərəkət etdiklərini və İkiçayarasında Sumer və Afrikada Misir mədəniyyətinin təməlini qoyduqlarını elmi dəlillərlə əsaslandırmışdır.

Anau ilə yanaşı Türkmənistanda aşkar edilmış e. q. VI minilliyə aid Ceytun, VII minilliyə aid Cəbəl, Böyük Balxan, Dam-dam Çeşmə qədim arxeoloji mədəniyyətlər yüksək inkişaf etmiş əkinçilik mədəniyyətlərinə malik olub qoyun, keçi kimi ev heyvanları bəsləməklə yanaşı, arpa və buğda taxıl məhsulları yetişdirmək səriştəsinə malik idilər.

Babil və Misir sivilizasiyalarından çox öncələri Xəzər dənizinin arxasındakı vadilərdə Aşqabad yaxınlığındakı Anauda yaşayan insanlar şəhərlərdə yaşayır, buğda, darı əkir, heyvanları əhliləşdirir və bəsləyirdilər. Bölgədə quraqlıq başlamadan öncə onlar öz yurdlarını tərk etmişlər. Yəqin ki, Misirin və Babilin mədəniyyətlərinin kökünü bu Anau mədəniyyəti təşkil edirdi. (H. Cordier. 1920. Səh. 6)

Lakin samilərin və hind-avropalı arilərin sonrakı dövrlərdə tarix səhnəsinə qədəm qoymaları ilə dünyanın böyük hissəsində məskunlaşaraq ilkin bəşər mədəniyyətinin əsasını qoymuş turanlılara qarşı təcavüzkar hərəkətləri başlamış oldu. Öncə Ön Asiyada Ərəbistan yarımadasından hərəkət edərək Mesopotamiya ərazisində yayılan vəhşi sami tayfalarının davamlı basqınları və təzyiqləri nəticəsində turanlı sumerlilər öz yurdlarını tərk edərək böyük köçlərə məruz qaldılar.

Tarix səhnəsinə daha gec qədəm qoyan hind-avropalı arilər iki qola ayrılaraq yayılmaları iki istiqamətdə baş verdi, onların bir qolu ilkin vətənləri olan Şərqi Avropadan hərəkət edərək Balkan üzərindən Anadoluya keçdilər. Hind-iranlılar adlanan digər qolu isə şərqə doğru hərəkət edərək Mərkəzi Asiyada iki hissəyə böləndülər, bir hissəsi şərqə doğru Hind çayı hövzəsinə, digəri isə qərb yönündə istiqamət götürüb Zaqros dağları və Mesopotamiyaya doğru hərəkət edərək burda məskunlaşmış turanlı Ön türk xalqlarının öz yurdlarını tərk edərək müxtəlif istiqamətlərdə köçlərinə səbəb olmuşdular. Beləliklə bəşər tarixinin ilkin irqi olan və dünyanın dörd tərəfinə yayılmış Turan irqi arilərlə yüzillərlə davam edən mübarizədə malik olduqları əraziləri çox zaman güzəştə getməyə məcbur olurdular. Ari irqinə mənsub iranlılarla turanlı öntürklər arasında Mərkəzi Asiya və Ön Asiyada baş verən və yüzillərlə davam edən qarşıdurma dünya tarixində İran-Turan müharibələri adı ilə öz əksini tapmışdır. Mərkəzi Asiyada turanlı türklərlə iranlı

Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

arilər qarşı qarşıya gəldikləri halda Ön Asiyada Aralıq dənizi hövzəsi və Mesopotamiyada arilərin meydana çıxması ilə bəşəriyyətin üç böyük irqi olan turanlılar, arilər və samilər bölgədə ağalıq uğrunda yüz illərlə davam edən qanlı qarşıdurmalar prosesinə cəlb olunmuşdular.

Turan və Türk adları kök etibarı ilə Sumerə bağlıdır. Tur və Turan adlarının sami və iran dilləri əsasında izahı uğursuz cəhdlərdir.

Böyük assuroloq J. Oppert yazır ki, Sumerlərin Tur sözü Zənd Avestada "turya" şəklində ifadə olunmuşdur və bu Afrasiyabın hökmranlıq etdiyi Turan adının ekvivalentidir. O Firudinin oğlanları Səlm, Tur və İrəç üçlüyünün əfsanəsində Asiya yaylalarını təcəssüm etdirir. Turlar Turun millətinə mənsub olub Aryaya və Sayrama qarşı mübarizə aparan insanlardır. Sonradan o Sem/Selm ilə yaxınlaşmışdır. Sumer dili əsas etibarı ilə Turan dilidir. (Oppert J. 1875, V-5Səh. 464)

Müasir dövrün assuroloqlarında Jerold Kuper yazır ki, istər Bibliya və klassik müəlliflərin əsərləri, istərsə də Assur və Babilə aid yazılı mənbələr Qədim Mesopotamiyada samilərlə yanaşı Turanlı etnolinqvistik bir qrupun da mövcudluğunu təsdiq edir. (Cooper Jerold. 1993. Səh. 173)

Tur və turanlı adlarının iran dili əsasında izahı məsələyə qərəzli yanaşmadır. Avropasentrizm ideologiyasını rəhbər tutan müasir bilim dünyası turanlı öntürklərin bir etnos kimi təşəkkül tapdığı ərazilərində ciddi cəhdlə iranlı və hind-avropalı izləri axtarmaqda davam edirlər. İngilislər Hindistanı işğal etdikləri zaman öz işğalçılıq siyasətlərinə haqq qazandırmaq üçün arilərin ilkin vətənlərinin Hindistan olması haqqında uydurma ariçilik nəzəriyyəsini antropoloji nəzəriyyə kimi irəli sürdülər.

Dəşti Oğuz və sonrakı dövrlərdə Dəşti Qıpçaq adlanan Avrasiyanın geniş çöllərində min illərlə mövcud olan Türk dövlətlərinin bir-birinə qarşı ağalıq uğrunda apardıqları qanlı müharibələr onların zəifləyib süquta uğramalarına və ərazidəki slavyan ünsürünün güclənməsinə səbəb olmuşdur. Əmir Teymurun Sibir xanı Toxtamışı məğlub etməsi və bu əzəmətli Türk dövlətinin süquta uğramasına səbəb olaraq son nöqtəni qoymuş oldu və slavyan knyazlarının güclənməsinə, vahid mərkəzləşmiş dövlət təşkilatının yaranmasına və Sibir və Türkistanın işğallarına əlverişli şərait yaratdı. İran dövlətinin özəyini təşkil edən Əhəməni dövləti turanlı ön türk Midiya dövlət təşkilatı üzərində bərqərar olub onun atributlarını mənimsədiyi kimi Rus dövləti də türklərin Qızıl Orda dövlət təşkilatının özülü üzərində bərqərar oldu və onun atributlarını mənimsədi. Bir çox türk peçenek, quz, polovets, tatar, kuman boyları Rus knyaz dövlətlərinin əsas hərbi gücünü, onların zərbə qüvvəsini təşkil edirdilər. Lakin getdikcə Rus dövlətində slavyan ünsürü üstünlük qazanaraq Xristianlığın da qəbul edilməsi ilə Hind-avropa dünyasının bir parçasına çevrildi.



İngilis xristian katolik ideoloqu Kardinal Neuman yazır ki, tatar ünsürü istər malik olduqları təmiz qanları və istərsə də qarışmış olduqları slavyan qarışımı ilə Rusiya İmperiyasında önəmli rol oynayırdı. (Cardinal H. Newman. 1854. Səh. 24)

Rusiya çarizm dövründə Qara dənizin şimalından başlamış Sibirin geniş əraziləri də daxil olmaqla böyük bir ərazini işğal etdi və bu işğallara haqq qazandırmaq üçün Cənubi Sibirin və Türkistanın hind və iranlı arilərin ilkin vətənləri kimi təqdim edən uydurma nəzəriyyələr irəli sürdülər. Rus şovinist elmi dairələri arxeoloji, antropoloji, toponimik faktları inkar edərək tarixin saxtalaşdırılması fəliyyətlərini müasir dövrdə də, davam etdirməkdədirlər.

# I FƏSİL. Qədim Mesopotamiya xalqlarının və mədəniyyətinin kökləri haqqında Turan nəzəriyyəsi

XVIII-XIX əsr Avropasının görkəmli tarixçiləri, arxeoloq və linqvistləri dünyanın qədim tarixinin dərindən araşdırılması nəticəsində Turan adlandırılan yeni bir elmi nəzəriyyə irəli sürmüşlər. Bu nəzəriyyəyə görə hələ sami və ari irqi tarix səhnəsinə qədəm qoymadan min illər öncə tarixin ilk dönəmlərində bilim adamlarının turanlılar adlandırılan Ön türklər doğu ərazilərində yerləşən öz ilkin vətənlərindən batıya doğru hərəkət edərək yer üzərinə yayılmış və ilkin bəşər mədəniyyətinin əsasını qoymuşlar.

Bu nəzəriyyə hansısa tək bir bilim adamının subyektiv emosiaonal düşüncəsinin məhsulu deyil, yüzlərlə müxtəlif peşə sahibi bilim adamlarının uzun illər ərzindəki kollektiv fədakar elmi fəalliyətinin nəticəsi idi.

XVIII-XIX yüzilliyin Avropa tarixçiləri, arxeoloqları, linqvistləri Qədim Şərqin xüsusən də Mesopotamiya adlanan İkiçayarasının tarixinin öyrənilməsində, mixi və heroqlif yazıların şifrəsinin açılaraq oxunmasında böyük uğurlar əldə etmişlər. Həmin yüzilliklərdə Ön Asiyaya səyahət edən bilim adamları, hərbi məqsədlə bu bölgəyə göndərilən avropalı hərbçilər qədim abidələri tədqiq edərkən burda rast gəldikləri qədim yazı nümunələri haqqında öz ölkələrindəki elmi dairələrə, dövlət məqamlarına məlumatlar göndərirdilər. Bu abidələri tədqiq etmək üçün təşkil edilən çoxsaylı elmi ekspedisiyalar müxtəlif bölgələrdə bir çox arxeoloji mədəniyyət mərkəzləri aşkar etdilər. İkiçayarasının quzeyində e.q. V minilliyə aid Hələf mədəniyyəti, V minilliyin sonu IV minilliyə aid Ur şəhərinin yaxınlığında Ubeyd mədəniyyəti, IV minilliyə aid Uruk mədəniyyəti, yenə eyni tarixi dövrə aid Xuzistanda Suz mədəniyyəti aşkar edilmişdir.

Bunların ardınca İtalyan arxeoloqu R. Pumpelli tərəfindən Türkmənistanda X-IX minilliyə aid olan və elm aləmində Ön Asiya mədəniyyətinin mənbəyi hesab edilən Anau mədəniyyəti aşkar edildi.

Hindistanda e.q. III minilliyə aid edilən Harappa və Mohenco Daro mədəniyyətlərinin aşkar edilməsi ilə turanlıların öz ilkin vətənlərindən hərəkət istiqamətləri tam şəkildə müəyyən edilmiş oldu. Adları qeyd olunan bütün bu mədəniyyətlər onları aşkar edən bilim adamları tərəfindən ümumi şəkildə Turan mədəniyyəti adlandırılmışdır.

Tarixin ilkin dövrlərinə aid arxeoloji abidələrdə aşkar edilən çoxsaylı mixi yazı mətnlərinin şifrəsinin açılaraq oxunması nəticəsində İkiçayarasında VI minillikdən etibarən mövcud olan və böyük inkişaf mərhələsi keçmiş qədim dövlətlərin

tarixini əks etdirən çoxsaylı əsərlər yazılmışdır. Mesopotamiya adlanan qədim İkiçayarasında və Misirdə IV minillikdən etibarən istifadə edilən ilk yazı növü piktoqrafik, yəni şəkili və ya təsviri yazı idi. Bu yazı inkişaf edərək mixi yazı sisteminə çevrilmişdir. Mixi yazını kəşf edən xalq sumerlərlərdir. Mixi yazının e. q. 3500-cü ilə aid gil lövhə üzərində olan ilk nümunəsi Sumerin Kiş şəhərində tapılmışdır. Ondan sonra Uruk şəhərində arxeoloji qazıntı zamanı tapılan mixi yazı sənədləri m.ö. 3300-cü ilə aid olmuşdur. 1886-cı ildə Misirin Amarn kəndində və 1906-cı ildə isə Türkiyənin Boğazköy qəsəbəsində mixi yazı lövhələrindən ibarət zəngin arxiv aşkar edildi. 1853-cü ildə İraqda Qoyuncuq adlı ərazidə qazıntı zamanı Assur hökmdarı Assurbanipalın paytaxtı olmuş Nineviyada Sumer, Akkad və Assur dillərində e. q. VII əsrə aid 25 min mixi yazı löhəsindən ibarət çox zəngin bir kitabxanası aşkar edilmişdir.

Alman alimi Q. Qrotofend 1621-ci ildə aşkar edilmiş və Karsten Nibur tərəfindən dərc edilmiş pers dilindəki Persopol mixi yazı mətninin şifrəsini 1802-ci ildə açа bildi.

İngilis ordusunun yüksək rütbəli zabiti olan H. Rauilson Qacar şahının ordusuna təlim vermək üçün göndərildiyi İranda 1827-ci ildə Bisütun qayası üzərindəki yazını aşkar etmişdi. Rauilson Ekbatan (Həmədan) şəhərinin yaxınlığında 105 metr hündürlükdə yerləşən və I Dara tərəfindən üç dildə yazdırılan e. q. 523-521-ci illərə aid Bisütun qaya kitabəsini öz həyatını təhlükəyə ataraq 1837-1844-cü illərdə surətini çıxarmağa nail olmuşdur.

Rauilson sonradan Bisütun mətnlərinin şifrəsini açа bildi və üç dildə: fars, elam-midiya və akkad dilində olan bu mixi yazı şifrəsinin açılması çox sayda digər mixi yazı mətnlərinin oxunuşunu asanlaşdırdı.

Bisütun yazısının elam-midiya mətnini 1855-ci ildə K. E. Norris oxuya bilmişdir. Onun başladığı işi isə mənşəcə alman aşkenaz yəhudisi olan, lakin elmi fəaliyyətini Fransada davam etdirən Y. Oppert olmuşdur. Mixi yazıların şifrəsini çözən dünyanın məhşur alimləri bu yazıların dilinin hansı xalqa aid olması məsələsində xeyli baş sındırmışlar. Norris ikinci mətnin dilini iskit-sak dili. Oppert, Lenorman və Mortdmann midiya dili adlandırırdılar. Nəhayət, nə sami, nə də ari dil ailəsinə mənsub olmayan bu dilin turanlı xalqlara aid olması əksəriyyət tərəfindən qəbul görmüşdür. Çünki bu dildə yazılan mixi yazıların meydana çıxdığı dövrdə sami və ari irqi hələ tarix səhnəsinə qədəm qoymamışdılar.

Müasir dövrün bilim adamları Bisütun kitabəsindəki ikinci mətnin dilini idioloji səbəblərə görə midiya dili adlandırmaqdan imtina edərək onu elam dili kimi qələmə verirlər. Çünki Midiyalıların dilinin türk dilləri ilə qohum və aqlütinativ quruluşa malik olmasının qəbul edilməsi midiyalıların hind-iran mənşəli xalq olması haqqında avropasentristlərin və iranistlərin irəli sürdükləri tezisi puça çıxarmış olur.



Sumer-akkad dilinin və mədəniyyətinin mənşəyi haqqında Turan nəzəriyyəsinin banisi görkəmli ingilis alimi Henri Rauilsondur. 1851-ci ildə Assurbanipalın mixi yazı kitabxanasını kəşf edən Rauilson bu mətnlərin yazıldığı aqqulyutativ adlandırılan hecalı dilin turan-türk mənşəyinə malik olduğu fikrini ilk dəfə irəli sürərək Turanizmin əsasını qoymuşdur.

XIX əsrdə mixi yazı mətnlərini oxuyan Qədim Şərq tarixinin böyük biliciləri Henry C. Raulinson, K. Norris, Edvard Hincks, Jules Oppert, Francois C. Lenorman, Arçibald H. Sayce, Edouard Sayous, Yrjo Sakari, Yrjo-Koskinen, K. A. Hermann, Otto Donner, H. Gelzer, Friedrich Delitç, F. Eberhard Şrader, H. H. Houerth, Fritz Hommel, Sophus Ruge, Oskar Peşel, Riçard Gosche və başqaları qədim Sumer, Akkad və Elam dilinin Turan-Altay dil ailəsinə mənsub olduğu haqqında nəzəriyyənin ən qatı tərəfdarları idilər.

Turan dili terminindən öncə qədim dünyanın ari və sami olmayan dillərini adlandırmaq üçün E. Rask, H. Rauilson, Y. Oppert və başqaları iskit dili terminindən istifadə edirdilər. Sonra Turan dili termini üstünlük qazandı.

Öz qrammatik qruluşuna görə sami və ari dillərindən köklü surətdə fərqlənən bu dil aqlütinativ və ya iltisaqi qruluşa malik olub sözün kökü dəyişməz qalır və sözdüzəltmə şəkilçilər vasitəsilə həyata keçirilir.

XIX yüzilliyin ikinci yarısından etibarən Turan adı ari və sami olmayan bütün dilləri özündə birləşdirən bir termin kimi istifadə olunmağa başlandı. Məhşur ingilis alimi, tarixçisi və etnoloqu Baron M. Bunzen yazırdı ki, "Mən ilk dəfə 1847-ci ildə sami və ari olmayan dillərdə danışan xalqları Turan adı altında birləşdirməyə risk etdim".

Beləliklə, H. Rauilson qədim mixi yazı mətnlərinin yazıldığı dili Turan dili, Baron Bunzen isə bu dildə danışan xalqları Turan xalqları adlandırmışlar.

1849-cu ildə Maks Müller Bunzenə yazdığı məktubda onun Turan dili və xalqı haqqındakı fikrini geniş təhlil etdi və dillər haqqında 1861-ci ildə irəli sürdüyü nəzəriyyəsində Turan dilini ari və sami dilləri ilə yanaşı bəşəriyyətin malik olduğu üçüncü bir dil ailəsi kimi müəyyən etdi. Maks Müller türk dilini Turan dilinin bir dialekti hesab edirdi və onun qrammatikasını tatar-türk qrammatikası adlandırırdı. O Turan dilini quzey və güney olmaqla iki qrupa ayırırdı. Quzey Turan qrupuna Ural-altay dillərini, Güney Turan qrupuna dravid dillərini, tamil, malay, tay və s. aid edirdi. (M. Müller. 1862, 198, 322)

Turan öntürk dilinin yayılma arealından bəhs edən fransız tarixçisi F. Lenorman yazırdı: "Aqlütinativ ifadələrdən ibarət olan turan dilində qədim tarixi zamanlarda Mesopotamiyadan şərqdəki ərazilərdə Midiyada, Susda, Babil və Xaldeydə danışırdılar. Anarian (ari olmayan) adlanan bu dildə aşkar edilən çoxlu mixi yazılı abidələr ümimi kökə bağlı olub morfoloji eyniyyət təşkil edərək inkişaf baxımından iki qrupa ayrılırlar. Birinci qrupa Midiya-Sus dili daxildir, proto mi-

diya dili arilərin işğalından sonra da fəaliyyətdə olan və hətta İranın Əhəmənilər sülaləsi hökmdarları tərəfindən sarayın rəsmi dəftərxana dili kimi müəyyən edilən Midiyanın arilərə qədərki dilidir. Sus və onun ətrafında bu dildə e. q. VIII-VII əsrlərə aid bir çox yazılı abidələr aşkar edilmişdir. Akkad və Sumer dilindəki idioqrammları biz birlikdə sumer-akkad adlandırsaq daha dəqiq olar. Bu dil turan dilinin ikinci qrupunu və ya xaldey qrupunu təşkil edir. Bu dil Babil və Xaldeyin qədim qeyri-sami xalqının dilidir. Akkad və ya sumer-akkad vahid bir dildir və özünü çox qədim dövrlərin birinci ali yazılı dili kimi də müəyyənləşdirərək çin dilində olduğu kimi kristallaşmış və aqlütinativ dilin ilk ibtidai fazasının qrammatikasını özündə əks etdirmişdir". (Lenormant F. 1895, Səh. 364)

Qədim İkiçayarası dillərin Turan-Altay dil ailəsini mənsubluğunu sübut edən başlıca dəlil Sumer dilinin də Altay dilləri kimi morfoloji baxımdan aqlütinativ yəni iltisaqi-bitişik quruluşa malik olması və lüğət tərkiblərində çoxsaylı eynimənalı sözlərin mövcud olması idi. Sumer mətnlərinin oxunuşu zamanı bu dilin lüğət tərkibində Altay dillərindəki sözlərlə məna baxımından eyniyyət təşkil edən yüzlərlə söz aşkar edildi. Sumer dili ilə müqayisə edilən heç bir dildə türk dillərində olduğu qədər eyni mənalı bənzər sözlər aşkar etmək bu günə qədər mümkün olmamışdır. Alman tarixçisi A. Unqnad yazır ki, sumerlilərin dili bir çox dillərlə müqayisə edilsə də, F. Hommelin bu dili türk dili ilə müqayisə edərək gəldiyi nəticə ən inandırıcı görünməkdədir. (A. Ungnad. 1923. Səh. 4)

Sumer və qədim dünyanın ari və sami olmayan digər xalqlarının dilləri və mixi yazının mənşəyi haqqındakı Turan nəzəriyyəsi XIX yüzillikdə Avropanın elm aləmində uzun illər davam edən çox böyük mübahisələrə və siyasi dairələrdə müəyyən narahatçılığa səbəb olmuşdur.

Türk tarixçi Prof. Yusif Ziya Özər yazırdı ki, Avropa bilim adamları ilkin mədəniyyətin turanlılar tərəfindən yaradılaraq sonradan bütün dünyaya yayıldığını açıq şəkildə etiraf etməkdən ehtiyat edirlər. Çünki bunu etiraf etdikləri təqdirdə ari irqinin keçmişinə böyük kölgə düşər və onların "bəşər mədəniyyətinin yaradıcıları" şöhrətinə zərbə vurulmuş olardı. Lakin bu çox yanlış təsəvvürdür, ona görə ki, arilərin əcdadı olan Ar tayfası da Tur tayfası kimi Türk boylarındandır. (Özer Yusif Ziya. 1932. Səh. 539)

Osmanlı Türk imperiyası XIX əsrdə öncəki qüdrətinə malik olmasa da Avropa dövlətləri onu hələ də təhlükəli bir düşmən kimi görürdülər. Ona görə də Qədim İkiçayarası xalqlarının dilinin və onlırın yaratmış olduqları ilkin mədəniyyətin Altay xalqlarına məxsus olması haqqında Turan nəzəriyyəsi tərəfdarlarının bir çoxu bu xalqın məhz türklər olduqlarını söyləməyə siyasi səbəblərə görə ehtiyat edirdilər. Sultan Mehmet Fatih İstanbulu fəth edərkən Roma papasına və Fransa kralına göndərdiyi məktubda da bu şəhəri fəth etməsinə səbəb olaraq yunanlılardan Troyanın intiqamını almaq olduğunu göstərirdi. Bu məktub tarixi bir sənəd kimi



Türklərin qədim turanlı öntürklərə məxsus olan ərazilərə iddialı olduqlarını göstəricisi idi. Avropa dövlətlərinin siyasi dairələri hesab edirdilər ki, arilər və samilər tarix səhnəsinə qədəm qoymadan öncə dünya mədəniyyətinin yaradıcılarının və onun ilk sakinlərinin türklərdən ibarət olduğunu etiraf etmək türklərin dünya ağalığı haqqındakı iddialarına siyasi cəhətdən haqq qazandırmış olar. Bu baxımdan da adları yuxarıda qeyd olunan bilim adamlarının bir çoxu ehtiyatlı tərpənərək sumerləri, akkadları, elamları, xattiləri, kassiləri, urartuluları, midiyalıları və digər xalqları mənşə etibarı ilə turanlı adlandırdıqları zaman birbaşa türkləri deyil turanlı finləri, monqolları və ya macarları nəzərdə tutduqlarını qeyd edirdilər. Çünki bu xalqlar böyük siyasi iddialara malik olmayıb Avropa üçün də hər hansı bir təhlükə törətmək gücündə deyildilər.

Mixi yazının kəşf edilməsi və ümümiyyətlə İkiçayarası xalqlarının turani mənşəyə malik olması məsələsində ehtiyatlı olmağı bilim adamlarına tövsiyə edənlərdən biri Ernst Renan (1823-1892) idi. Məhşur fransız filosofu, tarixçi və dinşünası Renan təkcə elm aləmində deyil, Avropa siyasi dairələrində də önəmli nüfuza malik idi. Katolik dininin qatı təəssübkeşi olan Renan aryanizm nəzəriyyəsinin himayədarlarından biri, türk və islam əleyhdarı olmaqla yanaşı, antisemit kimi də ciddi tənqidlərə məruz qalmışdı.

Turan nəzəriyyəsinin əsas tərəfdarlarından biri olan Y. Oppert, Ernst Renanın Turan xalqlarının adlarının müəyyən edilməsi məsələsində ona xəbərdarlıq etməsini şərh edərək yazırdı: "Mən onun (Renanın) anariyan (ari olmayan) mixi yazını kəşf edən Turan xalqlarının adlarının müəyyən edilməsi məsələsində son dərəcə ehtiyatlı olmaq haqqındakı fikrinə tamamilə şərikəm". (J. Oppert. 1898. səh. 13)

E. Renan Paris Asiya cəmiyyətinin 1868-ci il toplantisında mixi yazının kəşfinin turanlılara aid olması məsələsindən bəhs edərək demişdir: "Əgər biz sami və ari olmayanlar üçün Turan adını bir termin kimi qəbul etsək doğru bir ifadə işlətdiyimizə əmin olarıq. Lakin qəbul etmək lazımdır ki, Qədim Babil mədəniyyətinin bünövrəsini qoyanların fikrimizə görə yalnız dağıdıcılıqla məşğul olan və heç zaman özəl bir mədəniyyətə sahib olmayan Turanlı irqə mənsub macar, türk, finlərə aid edilməsi məsələsi bizi müəyyən mənada heyrətə salmaqdadır". Renanın turanlı türklərə qarşı sərt mövqeyinə etiraz edən Lenorman yazırdı: "Mən düşünürəm ki, böyük elmi bilik təcrübəsinə malik olan Renanın Turan irqinə qarşı münasibəti çox sərtdir və bu irqi o yalnız Çingiz xanın və Teymurun vəhşi dağıdıcılığı ilə əlaqələndirir və onun bu böyük irqə qarşı ittihamları şübhə ilə qarşılanmalıdır. Türklər macarlardan və finlərdən daha az çevik, daha ağır və möhkəmdirlər. Onlar islamın tarixində gördüyümüz kimi yalnız müstəsna dağıdıcı rola malik deyillər. Onların tarixində böyük şəxsiyyətlər və şanlı səhifələr də vardır, onlar ərəblərdə çatışmayan bir cəhət olan dövlət qurmaq məsələsində böyük səriştəyə malikdirlər". (Lenormant. 1877. 371, 372)

Böyük Britaniya ordusunun mayoru R.Konder uzun illər ərzində Mesopotamiya ölkələrində hərbi xidmətdə olmaqla bərabər xett/hitit tarixini, dilini və heroqlif yazı sistemini araşdırılmasına həsr olunmuş bir çox əsərlərin müəllifi idi. O araşdırdığı hitit heroqlif yazı sisteminin bir başa türk mənşəli olduğunu etiraf etməyin təhlükəli olduğunu qəbul edirdi. Ön Asiyanın qədim xalqlarının turanlı öntürk mənşəli olması haqqındakı elmi fikirlərə Britaniya siyasi dairələrinin mənfi münasibətini yaxşı bilən Konder yazırdı: "Mən xettlərin bu heroqlif yazı sistemini Altay yazı sistemi adlandırıram, çünki bu ad ümumi xarakter daşıyır və daha əhatəli və təhlükəsiz məfhumdur. Prof. Lenorman da akkad və protomidiya dilini təhlükəsizlik baxımından altay-uyğur dil ailəsinin türk və macar qolundan daha çox fin qoluna bağlamaqda haqlı idi. Altay dili məfhumu, heroqliflərin bu gün Suriyanın quzeyində və Kiçik Asiyada yaşamaqda davam edən türklərin və türkmənlərin əcdadları olan irqin mənsubları tərəfindən yaradıldığı haqqında mənim kəşfimin nəticəsini daha təhlükəsiz edir. Həqiqətən də bu gün Fələstində və Suriyada yaşayan türkmənlərin bura daha sonralar gəlmiş olsalar da xettlərin təmsilçiləri olduqları haqqında mənim üç il öncə risk edərək söylədiyim fikir bu gün daha dəqiq faktlarla sübut olunur". (Conder R. 1889. Səh. 29-30)

Danimarka tarixçisi və siyasət adamı "Assur və Babil tarixi" əsərinin müəllifi Markus fon Nibur öz əsərinin giriş hissəsində yazırdı: "Mən özümü məzəmmət etməliyəm ki, çox qorxmuşam. Ona görə ki, mən Fərat və Hind çayları arasındakı bütün ölkələrin əhalisinin tatar və ya turanlılardan ibarət olduqlarını yazmışam. Mən əsərimin əsasını təşkil edən bu fikri inkişaf etdirmək üçün özümdə cəsarət tapmalıydım. Bu məsələdə mənə qarşı istehzalara dözməyə məcbur oldum". (M. Nibuhr. 1857. Səh. 1)

E.Norris Bisütun kitabəsindəki ikinci mətnin iskit-sak dilində olduğunu və bu dilin türk və monqol dillərinə yaxın olduğunu Rauilsondan sonra ikinci olaraq bildirmişdir. (E. Norris. 1852. səh. 1)

M.Müller Turan dili məsələsi ilə əlaqədar M.Bunzenə 1849-cu ildə yazmış olduğu məktubda və digər əsərlərində Turan dil ailəsi haqqındakı tezislərini özünün dil nəzəriyyəsinin tərkib hissəsindən biri kimi təqdim etdi.

Maks Müller Bunzenə Turan dilinin klassifikasiya təsnifatı haqqında yazdığı məktubda deyirdi: "Mən cəsarət nümünəsi göstərərək cəmiyyətin müxtəlif siyasi formalarına uyğun olaraq dilləri öz xarakterlərinə görə ailə, hərbi və dövlət olmaqla üç ümumi sinifə bölürəm. Humboldtun morfoloji sinifləndirməsinə uyğun olaraq dilləri də izolyativ, aqlütinativ və flektiv dillər olmaqla üç sinifə bölürəm. Mən qeyd etməliyəm ki, hər bir siyasi orqanizmdə köçəri və ya ailəvi izləri aşkar edə bilərik. O baxımdan ari dilində çinlilərin və turanlıların keçmiş olduqları formasiyanın izlərini də aşkar edə bilərik". (Max Müller. 1854. Səh. 23, 24. )



Müller yazırdı ki, Turan dili fərqli bir dildir, o ideyanı, fikirləri yalnız sözlə ifadə etməklə kifayətlənmir, fikirlər arasındakı münasibəti də ifadə edir. Turanlıların həyatı çinlilərinki kimi uzunömürlülərin təcrid olunmuş ailə həyatı deyil, qəbilənin spiralvari burulğanının əhatə etdiyi turanlı insanını və ailəsini öz qəbilədaşları ilə ünsiyyətdən yalnız nazik çadır divarı ayırır. Turan dili ilə ari dili arasındakı fərq köçəri dili ilə siyasi dil arasında olan fərqlə eynidir. Turan dilində şəkilçilər sözün kökünə əlavə olunaraq əsas sözdüzəldici element kimi çıxış edirlər. (Max Müller. 1854. Səh. 25, 26)

Müllerin Turan dilini sırf köçərilərə xas dil kimi səciyyələndirməsi elmi gerçəkliyi əks etdirmir. Böyük bilim adamları tərəfindən Türk-Turan dili adlandırılan Sumer dili möhtəşəm əsərlərin yazılmış olduğu bəşər tarixinin ilk yazılı ədəbi dilidir.

Müller ari dilini siyasi-dövlət dili, turan-türk dilini hərbi dil, çin dilini isə ailə dili kateqoriyasına daxil edirdi. Onun fikrincə Turan xalqı öz kökünü dəyişilməz şəkildə qoruyub saxlamaq baxımından instinktiv hissə malidkdir. Bu hiss sözdüzəltmə prosesində də özünü göstərir, onlar kökü dəyişməz saxlayaraq çoxlu şəkilçilərdən istifadə edirlər. (Max Müller. 1854. Səh. 27)

Müllerdən sonra Mesopotamiya və Ön Asiyanın qədim tarixini və dillərini araşdıran Avropa tarixçilərinin əksəriyyəti sami və ari dillərinin hələ primitiv inkişaf dövrü yaşadığı bir dövrdə Turan dilinin qədim dünyada bəşəriyyətin əsas ünsiyyət vasitəsi olduğunu sübut etmişdilər. Müller sami, ari və hami dillərinə aid olmayan digər dilləri Turan dil ailəsi adı altında birləşdirmişdi. Müller Turan dillərini quruluş etibarı ilə sami, ari və hami dillərindən köklü surətdə fərqləndirən əsas əlamətin onun aqlyutativ yəni hecalı-bitişik xarakter daşıması ilə izah edirdi. Onun fikrinə görə Turan dilləri iki bölümə ayrılırdı: 1-ci şimal qrupunu təşkil edən Ural-altay dillərinin özü, 2-ci dravid, tibet, tay, kolar və malay-polineziya dilləri.

Turan nəzəriyyəsinin tərəfdarlarından biri Elizabet Sevell "Qədim Misirin tarixi" adlı əsərində Turan dilinin bəşəriyyətin ilk dili olduğu fikrini müdafiə edərək yazırdı: "Dünyanın bir hissəsini təşkil edən Batı Asiyada məskunlaşmış ilk insanlar tatarlar və ya Turan əhalisi olmuşdur. Onların dili olduqca sadə idi və ədəbiyyat yaratmağa əlverişli deyildi. O insanların danışdığı ilk dil forması olmuşdur. İndiyə qədər malik olduğumuz bilgilər ən qədim dövrlərdəki danışıq ünsiyyət formasının Turan dili oluğunu sübut edir. Bu dil Qafqazdan Hind okeanına qədər, Aralıq dənizi sahillərindən Qanq çayının mənsəbinə qədər olan ərazidə yayılmışdı. Onun dialektləri Batı yarımkürəsinin bütün ərazisində istifadə olunurdu. Turan dili Asiyanın beşdə dörd hissəsində və Avropanın uzaq guşələrində danışılan dildir. Finlər, saamlar, monqollar, tatarlar, tibetlilər Hindistanın dağlı tayfaları, Asiyanın quzeyində və Avropanın doğusundakı əngin çöllərdə köçərilik

edən tayfalar, o cümlədən türklər və macarlar da bu dildə danışırlar (E. Sewell, 1852. Səh. b1)

Macar alimi Qyarmati türk dillərinin macar dili ilə yaxınlığını təsdiq edən fikirlər irəli sürdü. Onun ardınca Klaprot Qafqaz dillərini araşdıraraq belə bir nəticəyə gəldi ki, osetin dilindən başqa bütün Qafqaz dilləri şimali Asiya və ya tatar samoyed dilləri ilə qohumdur. Remusat türk, monqol və mancur dillərinin qohumluğu fikrini rədd edir. Turan dilinin qarşılığı olaraq iskit dili terminini işlədən danimarkalı dilçi Rasmus Rask ilk dəfə olaraq iskit turan dilinin Skandinav və Qrenlandiya dillərinin sələfi olduğu ideyasını irəli sürdü. O, iskit dilinin Amerikanın şimalına da yayıldığını və bu dilin ari dilinə qədərki dövrdə Ağ dənizdən başlayaraq Qafqaz vadilərinə qədər bütün Asiyaya, Böyük Britaniya, Qalliya və İspaniyaya, yayılaraq başlıca dil təbəqəsini təşkil etdiyini fikrini irəli sürmüşdür. (M. Müller. 1854, Səh. 12-13)

R.Rask tatar və fin dillərinin qohumluğunu təkcə leksikoloji yaxınlıqdan ibarət olmadığını vurğulayır. Rask iskit-turan irqini dörd qola bölür: **1) Quzey Asiya, 2) Tatar-tirk, 3) Quzey Amerika, 4) Monqol-tunqus.** Aleksandr Kastren Raskdan fərqli olaraq Turan dilini dörd deyil beş qrupa bölür: **1) fin, 2) samoyed, 3) Türk-tatar, 4) monqol, 5) tunquz.** Qobelenə görə Turan dili tatar, monqol, tunqus, finlərlə bir ailə təşkil edir. (M. Müller, 1854, Səh. 13-14)

Turan nəzəriyyəsinin, Mesapotamiyada qədim danışıq dilinin turan dili olması haqqındakı elmi fikirlərin ən barışmaz əleyhdarı samitoloq bilim adamı yəhudi əsilli Yozef Hallevi idi.

Onu qıcıqlandıran əsas məsələlərdən biri sami mənşəli assurların mixi yazı sisteminin Y.Oppert tərəfindən turani kökə malik olduğunu sübut etməsi idi.

O, bu məsələləri araşdırılması ilə əlaqədar 1870-ci ildə "Babilin turani dilləri haqqındakı baxışların tənqidinə dair" adlı bir neçə xüsusi məqalə həsr etmişdir. Halevi sami dilindən öncə Mesopotamiyada əsas danışıq və ünsiyyət dili olan və mütəxəssislər tərəfindən turani dil ailəsinə aid edilən sumer-akkad dilini qeyri danışıq, suni dil və yalnız kahinlərin istifadə etdiyi şifrə dili hesab edirdi. O sumer dilini inkar edən belə bir nəzəriyyə irəli sürmüşdü ki, Mesopotamiyada sami dilindən başqa hər hansı bir qeyri sami danışıq dili mövcud olmamışdır. Lakin sonradan sumer-akkad dilində çoxsaylı mixi lövhələrin tapılıb onun fikirlərinin yanlışlığı sübut olunsa da, o ölənə qədər 40 il ərzində öz fikrindən imtina etmədi və Turan nəzəriyyəsinə qarşı mübarizəsini davam etdirdi. Osmanlının Ədirnə şəhərində doğulan və uzun illər orada yaşayan Halevi qatı anti turanist və türk əleyhdarı idi. O bir filoloq kimi Ədirnədə və sonra Buxarestdə yəhudi və sami dillərindən dərs demişdi. Avropa elm aləmində də müəyyən nüfuza sahib olan Halevi Sionizm hərəkatının təşkilatçılarından biri idi və dünya ölkələrini gəzərək



yəhudilərin xilası və birliyi uğrunda hərakata öncüllük edirdi. (Josef Halevy and the "Sumerian Problem", 1990. Səh. 12-13)

Qədim şərq tarixi və dil bilimcisi F.Lenorman 1875-ci ildə Halevinin Turan nəzəriyyəsinə qarşı yazdığı məqaləsini kəskin tənqid edən "Xaldeyin qədim dili və ondakı turani ifadələr" adlı bir məqalə ilə cavab verdi və onun akkad adlandırdığı sumer dilini turani dillərlə müqayisə edərək bu dilin turani dil ailəsinə mənsub olduğunu linqvistik dəlillərlə sübut etdi. Sonrakı linqvistik tədqiqatlar da sübut etdi ki, kök etibarı ilə turani və Ön türk dili olan Sumer dilindəki sami mənşəli sözlər bu dilə yüz illər ərzində sami akkadlarla sıx ünsiyyətləri nəticəsində keçmişdir. (J. Halevi and the "Sumerian Problem", səh. 14)

Lenormanla yanaşı Y.Oppert və E.Şroder də Mesopotamiya xalqının və mədəniyyətinin yalnız sami mənşəli olması haqqında Halevinin irəli sürdüyü nəzəriyyəni kəskin tənqid etdilər. Arxeoloji qazıntılar nəticəsində aşkar edilən çoxsaylı mixi yazılı tabletlər Mesopotamiyada samilərdən öncə yayğın bir danışıq dilinin mövcud olduğunu sübut etdi və Halevinin tərəfdarı olan görkəmli alimlər F.Deliç və F.Turea-Danqen "akkadist"lərin tərəfinə keçdilər. Halevinin Lenormana qarşı kəskin dillə yazdığı "Akkad dili Turani dildirmi?" adlı cavab məqaləsi və turanlı öntürklər əleyhinə gətirdiyi qeyri-elmi dəlillər gələcəkdə Mesopotamiyanın qədim turani dilinin inkar edilməsi sayəsində türk əleyhdarlarının mühüm istinad mənbəyi oldu. (J. Halevi and the "Sumerian Problem", 1990, Səh. 15)

Halevinin sumer dili və Turan nəzəriyyəsi əleyhinə 1874-cü ildə "Journal Asiaticue" jurnalında dərc etdiyi "Babilin yalançı turanlıları haqqında tənqidi müşahidələr" adlı digər bir məqaləsində Sumer dilinin Turan dili olmadığını, turanlıların heç vaxt Mesopotamiyada yaşamadıqlarını, sumer dilinin bir danışıq dili olmayıb yalnız sami və assur dilini ifadə etmək üçün bir ideoqrafik işarələr sistemi olduğunu, mixi yazının sami xalqlar tərəfindən kəşfi olduğunu iddia edirdi. Halevi samilərin dünya mədəniyyət tarixində önəmli bir rola malik olmadıqları haqqında ariyanizm ideoloqlarının fikirlərinə qarşı da etiraz edirdi.

Turan nəzəriyyəsinin böyük müdafiəçisi Y.Oppert özü alman əsilli aşkenaz yəhudisi idi və sefard əsilli bir yəhudi olan Halevinin türk əleyhdarı və sionist görüşlərini sərt tənqid edirdi. O, Halevinin bu məqaləsinə həmin jurnalın 1875-ci il nömrəsində elmi dəlillərə əsaslanan tutarlı bir məqalə ilə cavab verdi. O yazırdı ki, Halevi Susiana monarxlarının mətnlərindən xəbəri olmadığı üçün aşkar edilən 15 şəxs adına görə elamlıları samilər hesab edir. Lakin bu adların çoxunun qeyri sami mənası onun samilik maniyasının əleyhinədir. (J. Oppert, 1875, Səh. 442, 471)

J.Kuper Halevi haqqında yazırdı: "Görkəmli assuroloq olan Halevi sumerlərin mixi yazının yaradıcıları olduqları tezisini qəbul etmirdi və sumer dilini danışıq dili deyil, dini mətnlərin yazıldığı ölü dil hesab edirdi. Özü sami irqinə mənsub bir yəhudi olan Halevi mixi yazı kimi dahiyanə bir kəşfin samilər tərəfindən deyil,

hansısa başqa bir irqə mənsub xalq tərəfindən kəşf edildiyi ideyasını heç cür qəbul edə bilmirdi. O özünün qırx illik elmi fəaliyyətini sumerizmlə mübarizəyə həsr etdi". (Cooper Jerold, Sumerian and Arian, 1993, Səh. 172)

Halevinin Turan dili nəzəriyyəsinə və bu dilin daşıyıcıları olan turanlılara və sumerizmə qarşı hücumları bu nəzəriyyənin tərəfdarlarının sami dilinə və irqinə qarşılıqlı sayqısız ittihamlarına səbəb olurdu.

Alman Assuriyaşünaslıq məktəbinin banisi E.Şrader yazırdı ki, samilər epik əsərlər yaratmaq qabiliyyətini Babilin turanlı xalqı ilə kontaktları nəticəsində əldə edə biliblər və öz yazı sistemlərini və miflərini onlardan öyrəniblər. Bibliya əfsanələrini dərindən araşdıran Şrader samilərin öz şəxsi imkanlarından istifadə edərək öz epik ənənələrini inkişaf etdirmək məsələsində aciz olduqlarını çox əminliklə iddia edirdi. Şraderin bu iddiasını Halevi çox acıqla qarşıladı. (Cooper Jrold, 1993, Səh. 180-181)

Şrader samilərin İştar haqqındakı əfsanələrinin tamamilə sumerlərə məxsus olduğunu sübut edirdi.

O, samilərin malik olduqları yazı sisteminin, mifalogiyanın, tanrılar panteonunun və digər mədəniyyət ünsürlərini Babilin sami olmayan xalqına məxsus olduğunu sübut etmişdir. O, Babilin şimalındakı babillilərin, finikiyalıların və ibranilərin və bütövlükdə samilərin yerli xalq olmayıb Ərəbistandan gələrək ölkənin şərqində və cənubunda yayıldıqlarını sübut edirdi. (Cooper Jerold, 1993, Səh. 182)

Şrader deyirdi ki, ibrani yəhudilər ancaq Babilin sami olmayan xalqı ilə təmasdan sonra kəhanət qabiliyyətini mənimsəmişlər. Samilər mənimsədikləri təkallahlıq ideyasını Mesopotamiyanın cənubundakı turanlı xalqdan öyrənmişlər. Mixi yazı sistemini də Babilə Asiya yaylalarından gəlmiş qədim sakinlər kəşf etmişlər. Halevini xüsusən də özündən çıxaran məsələ Turanlılara samilərdən və digər insanlardan fərqli olan üstün keyfiyyətlərin şamil edilməsi idi. Lenormanın və Oppertin əsərlərində sumer dilinin və mifologiyasının və maqiya sisteminin turanlı xalqlarınkinə çox bənzədikləri sübut olunurdu. Halevi turanlı türkləri və macarları meşələrdən və çöllərdən gəlmə vəhşilər hesab edirdi. (Cooper Jerold, 1993, Səh. 182)

Lenorman Halevinin sumer və akkadların turanlı mənşəyə malik olmasını inkar edən fikirlərinə münasibət bildirərək yazırdı ki, bəşər irqinin böyük bir qolunu təşkil edən Turan xalqının erkən Kaldidə (Xaldeydə) məskunlaşması faktı artıq sübut olunmuşdur. O sumer-akkad dilinin turani mənşəyə malik olmasını şərtləndirən beş əsas amil müəyyən etmişdi. (Lenormant F., 1877, Səh. 267)

Müasir dövrdə bütün Assuroloqlar tərəfindən dəqiqliklə sübut olunmuş və qəti şəkildə ümumən qəbul edilmiş aşağıdakı dörd fundamental təkzibedilməz prinsip mövcuddur:

1. Sumer və ya akkad dili mövcuddur və heç kəs bunu şübhə altına ala bilməz.



2. *Anarian adlanan qeyri ari dilli* mixi yazı samilər gəlmədən öncə Dəclə və Fərat çayının aşağı axarlarında yaşayan bu xalq tərəfindən yaradılmışdır.

3. Bu dil aqqlyutativ dildir və onun dühası və qrammatikası sami dilindən tamamilə fərqlidir.

4. Bu dilin Midiyanın və Susiananın qeyri ari aqqlyutativ dilləri ilə qohumluğu mixi yazı mətnlərinin tədqiqi nəticəsində aydın olmuşdur. Bu dilin Turan və ya altay dil ailəsinə mənsubluğuna aid alimlərin verdikləri qərarı əks etdirən beşinci maddə də mövcuddur ki, bunun əleyhinə olanların dəlilləri bir o qədər də mükəmməl deyil. Mixi yazı sistemi Akkadın turan əhalisi tərəfindən kəşf edilmişdir və Xaldeyin akkad əhalisi assur dilindən öncə bu dildə danışırdılar. (Lenormant F., 1877, Səh. 267-268)

Lenorman Turan dilinin mövcudluğuna şübhə ilə yanaşanlara cavab olaraq yazırdı: "Mənim məqsədim orijinal mətnləri və xüsusən də akkad kitablarının parçalarını öyrənməklə qədim Xaldeyin və Babilin əhalisinin əsl mənşəyini müəyyən etmək sahəsindəki çətin problemin həllinə çalışmaqdı. Bu araşdırmalarımda bəzi bilim adamlarının fikirlərində müəyyən şübhələr mövcud olsa da Akkad xalqının turanlılardan ibarət olduğu haqda doğru bir qənaətə gəldim". (Lenormant F., 1877, Səh. 371)

Lenorman özünün Turan dili nəzəriyyəsinin digərlərindən tamamilə fərqli mahiyyət daşıdığını vurğulayaraq yazırdı: "Mən Maks Müllerdən fərqli olaraq Turan adına daha konkret və yığcam məna verirəm, Turanlılar Arilərin təbii rəqibləridirlər, Kastrenin təklif etdiyi Altaylı adının əvəzinə elm qəti şəkildə Turanlı adını qəbul etmişdir. Mənim fikrimə görə Kastrenin təklif etdiyi Altaylı adı bu günki turan irqinin olduqca lokal bir qrupunu əhatə edir. Bizim bu adı erkən tarixi dövrlərdə qədim Asiyanın çox geniş ərazilərində məskunlaşmış olan qohum əhali qruplarına şamil etməyimiz yanlış olardı, çünki onlar Altay dağlarından yenməmişdilər. Onların çıxış məntəqəsi sivil bəşəriyyətin dörd böyük irqinin ümumu beşiyi olan ərazidə idi". (Lenormant F., 1875, Səh. 381)

Lenorman sivil bəşəriyyətin dörd böyük qolunun ümumi vətəni dedikdə Zaqross dağ yaylalarını nəzərdə tuturdu.

Lenormanın fikrinə görə "Kastrenin nüfuzundan asılı olmayaraq o, öz vaxtsız ölümündən sonra tədqiqatlar nəticəsində aşkar edilmiş qədim tarixə dair faktlara deyil, öz vaxtındakı mövcud faktlara əsaslanırdı. Biz qafqazlı adından imtina edib ari adını qəbul etdiyimiz kimi Altaylı adı da Turanlı adı ilə əvəz olunmalıdır. Mən əminəm ki, Kastren sağ olsaydı o öz Altaylı nəzəriyyəsindən imtina edərdi". (Lenormant F., 1875, Səh. 381)

Lenorman Kastrenin Ural-altay dil nəzəriyyəsinə qarşı çıxmaqda haqlı idi. Çünki sami və ari dilləri termini özündə bu dillərə mənsub olan konkret bir super etnosu ifadə etdiyi halda Ural-altay dili məfhumu qeyri müəyyən xarakterə malik

olub ümumi coğrafi mahiyyət daşıyır və bu dil ailəsinin konkret bir super etnosa mənsubluğunu ifadə etmirdi.

Turan nəzəriyyəsinin ən böyük tərəfdarlarından biri də alman tarixçisi Frits Hommel idi. Öncələri Turan nəzəriyyəsinin əleyhdarı və qədim İkiçayarası mədəniyyətinin sami mənşəli olduğu ideyasını müdafiə edən Hommel sumerlərin yazılı abidələrini dərindən öyrəndikdən sonra bu nəzəriyyənin ən qatı müdafiəçisinə çevrildi. O sumerlərin etnik kök etibarı ilə və dil baxımından türklərlə qohumluğunu elmi linqvistik dəlillərlə sübut etdi. Sumer dilində məna və fonetik baxımdan türk dili ilə eyniyyət təşkil edən 350-dən çox söz müəyyən etdi.

Turan və altay dil ailəsi nəzəriyyəsini qəbul etməyən türk əleyhdarları, Avropasentrist mövqedən çıxış edən bəzi Avropa alimləri, xüsusən də ingilis Pritçard bu iki terminin yerinə heç bir anlam daşımayan, yunan dilində Allofon, "allosfun" tərkibindən ibarət, yəni mənası "başqa səs, başqa dil" olan, daha doğrusu bizdən olmayan, başqa mənşəyə malik olan dil anlamı daşıyan, yeni bir termin ortaya atdı.

Bəşər tarixinin ilkin mədəniyyətinin köklərini özündə əks etdirən Ön Asiyada aşkar olunmuş mixi yazı mətnlərinin və İkiçayarası ölkələrinin qədim tarixinin öyrənilməsinin Türklərin qədim tarixinin araşdrılmasında böyük önəmə malik olduğunu dərk edən ulu Atatürk bu mövzuda yazılmış əsərlərin türk dilinə çevrilib təbliğ olunmasına böyük əhəmiyyət verirdi. Onun təklifi ilə bu sahədə mütəxəssis olan bir çox Avropa bilim adamları araşdırmalarını davam etdirmək üçün Türkiyəyə dəvət olunmuşdular. Atatürkün nəzarəti altında yazılmış və türklərin gerçək tarixini əks etdirən dərs kitabları 1931-1949-cu illər arasında türk məktəblərində əsas dərs vəsaiti kimi oxudulmuşdur.

Bu kitablarda türklərin Anadoludakı mövcudluq tarixinin Malazgirt savaşından çox öncələrə dayandığı sübut olunmuşdur. Sumer və Assur mədəniyyətlərinə aid olan mixi yazı lövhələrində Anadolunun ermənilərdən və yunanlılardan daha öncə türklər tərəfindən məskunlaşdrıldığı, öntürklərə məxsus Turukku və Turki uyqarlıqlarının varlığı, bəşər mədəniyyətinin ilkin yaradıcıları olan sumerlərin dilinin türk dili olduğu bu kitablarda elmi dəlillər əsaslaraq isbat olunmuşdur.

XVIII-XIX əsr və daha sonrakı dövrdə bir çox assuroloq, antropoloq, linqvist və tarixçilərin turanlı ön türk xalqını samilər və arilər tarix səhnəsinə qədəm qoymadan öncə dünyanın ən qədim sakinləri və bəşər mədəniyyətinin ilkin yaradıcıları olduqları haqqındakı fikirləri imperialist dairələri ciddi narahat edirdi. Türklərin qədim və orta əsrlər dünya tarixindəki üstün rolunu və malik olduqları aparıcı mövqeyi inkar etmək üçün imperialist güclərin göstərişi ilə İkinci Dünya müharibəsindən sonra "avropasentrist" adlanan mürtəce bir plan hazırlandı. Bu plana əsasən Sumerlərin və Ön Asiyanın digər qədim xalqlarının Türk mənşəli olmalarını inkar edən, Sak/iskitlərin və Mərkəzi Asiyanın Turan mədəniyyətinin ari mənşəli olduğu, Çingiz xanın Türk deyil monqol olduğu haqqında konsepsiyalar hazırlanmalı və çoxsaylı əsərlər dərc edilməlidir. Bu məqsədlə 1944-cü il avqustun 9-da Moskvada Kommunist partiyasının Mərkəzi komitəsinin guya türk respublikalarında siyasi və ideoloji işi yaxşılaşdırmaq və milliyətçilik təzahürlərinin qarşısını almaq məqsədilə xüsusi bir qətnamə qəbul etdi. Bu qətnaməyə əsasən Rəşidəddinin "Oğuznamə" əsərinin və çoxsaylı digər orta əsr müəlliflərinin əsərlərinin tərcüməsində türklərlə əlaqədar məlumatlar saxtalaşdırıldı. Türk xalqlarının "Ural batur", "Manas", "İdeqey", "Dədə Qorqud" və s. kimi tarixi qəhrəmanlıq eposlarının dərc edilməsi və öyrənilməsi qadağan edildi. Türk xalqlarının qədim tarixinin öyrənilməsi məsələsindəki tabular Türkiyədən də yan keçmədi.

Sumer və Ön Asiyanın İmperialist ariçilik nəzəriyyəsini rəhbər tutan avropasentrizm konsepsiyası tarix elmində Atatürkün uyquladığı türk milliyətçiliyi ideyasını ortadan qaldırmağı özünün əsas məqsədlərindən birinə çevirmişdi. Təslimçilik mövqeyi sərgiləyən Türkiyə siyasi dairələri Atatürkün vəfatından sonra qərbin elmi və siyasi dairələrinin təzyiqinə tabe olaraq 1949-cu il 27 apreldə tarix kitablarından Atatürkün Türk milliyətçiliyi düşüncə sistemini qaldırmaq məqsədi ilə amerika elmi və siyasi dairələrini təmsil edən yəhudi əsilli amerika assuroloqu Vilyam Fulbraytın rəhbərliyi altında ABŞ-la sazişi imzaladılar. Bu sazişə görə Türkiyənin Avropaya inteqrasiyasının həyata keçməsinin başlıca şərtlərindən biri Türklərin öz tarixlərini Anadoludakı və Mesopotamiyadakı qədim mədəniyyətlərə bağlamaqdan imtina etmələri idi. Bu gün də Türkiyənin və bütövlükdə türk dünyasının tarixçi bilim adamlarının bir çoxu hələ də bu sazişə uyaraq Türk tarixinin şərhində avropamərkəzçilik konsepsiyanı rəhbər tutur, sumerləri qeyri türk, iskit-sakları və turanlıları irandilli kimi qələmə verən, Qafqazın və Anadolunun türkləşdrilməsini səlçuklularla əlaqələndirən konsepsiyanı müdafiə edirlər.

# II FƏSİL. Turanlıların və Türklərin irqi mənsubiyyəti haqqında antropoloji nəzəriyyələr

Türklərin irqi mənsubiyyəti məsələsi yüz illər ərzində elmi müzakirələrin əsas mövzusuna çevrilmişdir.

Bəşəriyyəti antropoloji cəhətdən müxtəlif irqlərə bölən bilim adamları bu haqda çoxsaylı nəzəriyyələr irəli sürmüşlər. Bu antropoloji nəzəriyyələrdə türklərin bu və ya digər irqə mənsubluğu da geniş müzakirələrə səbəb olmuşdur. Bu baxımdan Türklərin Turan və Alp irqinə mənsubluğu haqqındakı nəzəriyyələr ən geniş şöhrət tapmış nəzəriyyələrdir. Bu nəzəriyyələr bilim adamlarının xəyal məhsulu olmayıb sami və ari irqlərinin tarix səhnəsinə qədəm qoymalarından öncə dünyanı məskunlaşdırmış ilk super etnos olan turanlı öntürklərin tarixi keçmişinə aid rəvayət və əfsanələrdə əks olunmuş mifoloji hekayətlərə və qəhrəmanlıq eposlarında təsvir olunan gerçək tarixi hadisələrə əsaslanır.

Türkləri inadla monqoloid irqə aid etməyə cəhd göstərən bir çox avropalı bilim adamlarının iddiaları antropoloji dəlillərlə təkzib olunmaqda və türk xalqlarının bir çoxunda rast gəlinən monqoloidliyin bu irqə mənsub olan insanların tarixin çox gec dövrlərində türklərlə təmasları nəticəsində meydana çıxdığı elmi dəlillərlə sübut olunmuşdur.

Tur və Alp bir çox müəlliflərin qədim tarixi mənbələrə əsaslanaraq qeyd etdikləri kimi qədim turanlıların və öntürklərin iki önəmli eponimləri olmuşlar. Tur öntürk turların, Alp isə öntürk alpların ulu əcdadları kimi göstərdikləri qəhrəmanlıqlar bir çox xalqların əfsanə və rəvayətlərində öz əksini tapmışdır.

Antropoloq və etnoloqların bir çoxu kökünü öntürk turların təşkil etdiyi Turan irqini dünyanı ilk məskunlaşdıran və ilkin bəşər mədəniyyətinin əsasını qoyan irq kimi dəyərləndirir və dünyanın bir çox xalqlarını öz tərkibində birləşdirən müstəqil irq hesab edirlər.

İrqi mənsubiyyət baxımından Turan və ya Turanid terminini bəşəriyyətin müstəqil irqi kimi ilk dəfə elmi ədəbiyyata XX əsrin əvvəllərində fransız antropoloqu Josef Denker gətirmişdir. Jozef Denker "İnsan irqləri" adlı əsərində Turan (Turanid) irqini xüsusi bir irq kimi tanımlayaraq saçlarının düz olmasını onların xüsusi əlamətlərindən biri hesab edir. Türklərin Turan irqinə mənsub olduqlarını qeyd edən J.Denkerə görə Türk dilində danışan və turanlı adlandırılan xalqlar Asiyanın yarısını, Şərqi Avropanın böyük hissəsini, Şimal Buzlu okeanının sahillərini, İran yaylasını, Mərkəzi Rusiya və Qafqazın böyük hissəsini əhatə edən ərazilərdə yaşayırlar. (Denker J. 1913, Səh. 293, 375)

Alman antropoloqu Eqon Aykştedt bəşər irqlərinin tarixinə həsr olunmuş əsərində antropoloji baxımdan Avropalıları Turan və Alp irqi olmaqla iki qola bölür. Bəşəriyyəti Avropoid, Monqoloid və Neqroid olmaqla üç böyük irqə ayıran Aykştedt Turan (Turanid) irqini, Alp irqini, Aral irqini, Pamir irqini qohum irqlər hesab edir və bu irqlərin ümumi Avropa irqi altında birləşdirir. (Egon von Eikstedt. 1934, Səh. 134)

Aykştedt də Denker və Haddon kimi Turan irqini türk və tatarlardan ibarət hesab edir. O, Turan irqini qısabaşlı antropoloji tipə aid olduğunu və Asiyanın böyük ərazisinə yayılmış olduğunu yazır.

Turanlıların qafatasları orta dərəcədə geniş, yüksək və qısadır. Alınları olduqca yüksək və dikdir.

Eykştedt bəzi müəlliflərin Asiya və Monqol irqlərini eyniləşdirmələrinə etiraz edərək Turan irqinin Asiyanın böyük hissəsinə yayılmış olduğunu yazır: "Türkistan və Ön Asiya Turanlılarını monqoloid kimi qəbul etmək yanlışdır. Müasir dövrdə artıq Turan irqi bütün bilim adamları tərəfindən Avropa irqinə daxil edilir. Turanlılarda rast gəlinən bəzi monqoloid izləri onların bəşəriyyətin ilkin dövrlərindən etibarən Avropoid və monqoloid irqlərinin sərhəddində yaşayıb, monqoloidlərlə bioloji təması nəticəsində meydana çıxmışdır. Antropoloji tip olaraq Turanlıların bədən quruluşu ümumu olaraq orta böyüklüyə malik olsalar da, ancaq zərifdirlər, sifətləri orta dərəcədə uzundur, güclü şəkildə düz buruna və güclü tük sıxlığına malikdirlər. Almacıq sümükləri zəif çıxıntılıdır, gözləri zəif dərəcədə qıyıqdır. Turanlıların qafatasları orta dərəcədə geniş, yüksək və qısadır. Alınları olduqca yüksək və dikdir". (Egon von Eikstedt, 1934, Səh. 144, 170)

Aykştatdın fikrinə görə turanlı öntürklər bu günki Turana yəni Türkistana yəqin ki, ən qədim zamanlarda şimal ərazilərindən gəlmişlər. Turan nordik irqinin ilkin vətənidir.

Sibir turanlıların da mənsub olduğu Avropa irqinin ilkin vətənidir və sonrakı mədəniyyət mərkəzidir.

Eykştadt Turanı, yəni cənubu Sibiri bəşəriyyətin dinamik inkişafının əsas hərəkətverici qüvvəsi hesab edir. "Turan irqi Sibirin qərbindən durmadan çöllər boyunca hərəkət edirdilər. Öz özlüyündə barışcıl və mədəniyyətsever olan Turanlılar və türklər bozkırın heyvandar köçəri turanlılarının təzyiqi ilə qərbə doğru köçlərə məruz qalarkən, Avropadakı nordik irqə mənsub avropalıları da yerlərindən edib batıya doğru köçlərinə səbəb olurdular". (Egon von Eikstadt, 1934, Səh. 267)

Tarım hövzəsi və Asiyanın yüksək ovalıqları qədimlərdə olduğu kimi bu gün də turanlıların yurdudur. Turan indiki Türkmənistan və Qazaxıstanın yerləşdiyi ərazidir. Turanlılar güneyə doğru hərəkət edərək İran və Anadolu üzərindən geniş ərazilərə çıxdılar burda tundrada olduğu kimi rütubətli şərait mövcud idi. Lakin sonradan Turanlılar burda protoaralıqdənizi insanları timsalında bir rəqiblə

qarşılaşdılar. Turanlıların İran üzərindən qərbə doğru yürüşləri sonrakı tarixi dövrlərdə dəfələrlə təkraralandı. (Egon von Eikstadt, 1934, Səh. 280)

"Dünya tarixi" əsərinin müəllifi ingilis assuroloqu və tarixçisi F.Smit bəşəriyyətin böyük bir hissəsini öz tərkibində birləşdirən Turan irqinin qədim dövrdə Qafqazın tarixi ilə sıx bağlı olduğunu və bu irqin Mərkəzi və doğu Asiya, Şimal Buzlu okeanına qədərki düzənliklərdə, Avropada və hətta Amerikada geniş yayıldığını yazmışdır. Turan irqi, tatar/türkləri, hunları, monqolları, uqrları, kalmıkları, Amerikanın eskimoslarını əhatə edir. Turan irqinə mənsub olan xaldeylər (sumerlər) mədəniyyətin ilkin yaradıcılarıdırlar. Smitin gəldiyi qənaətə görə Ari dilləri ümumi Turan dili ailəsi içərisində baş verən proseslər nəticəsində ayrılaraq formalaşmışdır. (Smith Philp, Vol. I, 1865, Səh. 65)

İtalyanın görkəmli tarixçi və antropoloqu Françesko Molon liqurlara həsr olunmuş əsərində Turan irqinin tarixi coğrafiyasına da geniş yer vermişdir. Onun yazdığına görə Asiyanın böyük ərazisi bəşəriyyətin ikinci böyük hissəsini təşkil edən Turan irqinə məxsus idi. Buzluq erası sona çatdıqdan sonra Turan irqi ilk olaraq Ural dağları üzərindən batıya və güney-batıya doğru hərəkət edərək Avropaya gəlmişlər. Turanlılar ilk öncə Avropanın güney bölgələrinə doğru hərəkət etdikləri zamanı müxtəlif ərazilərdə dayanaraq məskən salmış və bir müddətdən sonra irəliləməyə davam etmişlər. Onlar ilk növbədə Aralıq dənizi hövzəsinə doğru yenmiş, Avropanın güney ərazilərində yerləşən İtaliyanı, İsveçrəni, Fransanın cənubunu və İspaniyanı məskunlaşdırmışlar. (Francesco Molon, 1880, Səh. 19)

Molon turanlıların miqrasiyası haqqında yazır ki, Ural-altaylı Turanlıların Mərkəzi Asiyadan ikinci axını Kiçik Asiya üzərindən Babilə və sonra Dunayın aşağısından Alp regionuna oldu. Babilin xarabalıqlarında Assuriyalılardan öncə burda Ural-altay xalqlarının yerləşmiş olduqları haqqında çoxlu dəlillər mövcuddur. Babildə 3000 min il öncə aqlütinativ ural-altay dilində danışan xalqlardan qalma çoxlu abidələr mövcuddur. (Francesco Molon, 1880, Səh. 32)

İngilis antropoloqu Oksford universitetinin professoru Con Beyker də özünün irqlərə həsr olunmuş "Rasa" adlı kitabında Turan irqini Avropa irqinə aid edir. (Joon R. Baker. 1974. Səh. 625)

Rus antropoloqları Turan adına ehtiyatla yanaşaraq Turan irqi terminindən qərəzli şəkildə imtina edir və onu "Cənubi sibir" irqi termini ilə əvəz edərək sibirin monqoloid xalqları ilə yanaşı Qazax və Mərkəzi Asiya türk xalqlarını bu irqə aid edirlər.

Macar antropoloqu A.Bartucz Turan irqinin ən başlıca tətqiqatçılarındandır. O bütün Türk xalqları ilə birlikdə macarları da bu irqə aid edir. Bartucz Turan irqini avropoid tipinə malik olduğunu və monqoloidliyin antropoloji əlamət şəklində türklərin bir qismində az da olsa sonradan meydana çıxdığını qeyd edir. O monqolları antropoloji tip olaraq Turan irqinə deyil, Sinid irqinə mənsub hesab edir.

(Laslo Rasonyi. cilt 1, 2002, Səh. 494-498)

Turanlı öntürklərə aid edilən ən önəmli nəzəriyyələrdən biri də Alp irqi nəzəriyyəsidir. Amerikanın görkəmli antropoloqu Nordik-ari irqi nəzəriyyəsinin banisi Madison Qrant Alp irqinin Asiya mənşəli olduğunu, kökünün Güney Sibirə bağlı olduğunu yazır.

Sonrakı yayılma prosesində Mərkəzi Tibet, Himalay və Hindikuş ətəklərində məskunlaşan bu irq Pamir, İran, Kiçik Asiyaya doğru hərəkət edərək Balkanlar üzərindən Avropaya yayılmış, güney-doğu Avropanı, Balkanları, Şimali İtaliyanı, Mərkəzi Avropanı əhatə etmişlər. M.Qrant türklər başda olmaqla qədim və müasir dövrün bir çox turanlı xalqlarını o cümlədən sumerləri, akkad, hititləri, midiyalıları, sarmatları, keltləri, bretanları, uelsləri, isveçrəliləri, şimali italyanları, aid edir. (Madison Grant. 1916, Səh. 124)

Qrant yumru qafaya malik olan Alp irqini digər yumruqafalı monqoloidlərlə qarışdırmamağı məsləhət görür. O, Avropada almanların əksəriyyətinin Alp irqinə mənsub olduqlarını, Alp irqinin Avropaya Balkanlar üzərindən neolit dövründə Kiçik Asiyadan daxil olduqlarını yazır. (Madison Grant, 1916, Səh. 122)

Madison Qrant İngiltərənin ilkin əhalisinin Alp irqinə mənsub olduqlarını, Stounhenc kimi dairəvi meqalit kurqanların sahiblərinin də Alp irqinə mənsub insanlar olduqlarını, lakin sonradan tam assimilyasiyaya uğradıqları fikrini irəli sürür. Onun yazdığına görə İsveçrənin göllər ətrafı ərazilərinin və İtaliyanın şimal ərazilərinin əhalisi m. ö. 5000-ci ildə çiçəklənmə dövrünü yaşayan Alp irqinə mənsub olmuşlar. Bu yumru qafalı Alp irqinin monqollarla heçbir əlaqəsi yoxdur. Avropada rastlanan yumru qafalı monqoloid izləri daha gec dövrdə yüz illərlə Şərqi Avropanı viran qoyan Hunların və tatarların dövründən qalmadır. (Madison Grant, 1916, Səh. 125)

M.Qrantın fikrinə görə Mərkəzi Fransanın əhalisinin əksəriyyəti Sezarın dövründə olduğu kimi indi də Alp irqinə mənsubdurlar. Belçikanın yüksəkliklərində, Elzas Lotarinqiyada, Tirolda, İsveçrədə, İtaliyanın şimalındakı Bavariyada, Baden Vürtemberqdə dağlıq əhalinin əksəriyyətini Alp irqi insanları təşkil edirlər. Lakin Bavariyada və Tirolda onlar xeyli dərəcədə nordik tevtonlularla qarışmışlar. Slavyan xalqlarının böyük əksəriyyəti də Alp irqinə mənsubdurlar. ( Madison Grant, 1916, Səh. 126)

İtalyan antropoloqu Q.Serqi Aralıq dənizi irqinin tədqiqinə həsr etdiyi əsərdə Avropanın ən qədim əhalisi olan iberləri və liqurları Turan irqinə aid edir. Serqi iberlərin kəllə sümüklərini tədqiq edərək onları pelasqlarla eyniləşdirir. O hesab edir ki, yumrubaşlı braxikefal iberlər asiya tipinə aiddirlər və onlar neolit dövrünün sonu və metal dövrünün başlanğıcında Asiyadan hərəkət edərək Rusiyanın cənubundan keçməklə Avropanın mərkəzinə, Aralıq dənizi regionuna və İberiya yarımadasına yayılmışlar. (G. Sergi. 1901, Səh. 160)

Fransız antropoloqu Marsellin Ball bəşəriyəti Nordik, Aralıq dənizi və Alp irqi olmaqla üç irqə bölür. Alp irqi Rusiyanın böyük hissəsini, Kiçik Asiyanı, Balkanları və Çexiyanı, İsveçrəni, Alp dağlarının batısını, Fransanın mərkəzini və Bretan əyalətini, Kantabriyanı, İtaliyanın quzeyini əhatə edir. Bu irq böyük, kiçik və ya orta bədənli, sifətləri geniş və yumru, başları yumru, geniş burunlu, gözləri açıq və ya tünd qəhvəyi, saçları qara və ya şabalıdı rəngdə antropoloji tipə malikdirlər. (Boule Marcellin. Les Hommes Fosilles Elementis de Paleontologie Humaine. Səh. 326)

Alp irqi başlıca olaraq dağlıq ərazilər üçün xarakterikdir. Alp irqinə sumerlər, akkadlar, hititlər, sarmatlar, slavyanlar daxildirlər. (Boule Marcellin. 1921. Səh. 348)

Alp irqi Asiya mənşəlidir, onlar ağ və sarı rəngdə ola bilərlər. Bu irqə mənsub olan ural-altaylılar buz dövrünün sona çatması ilə Qərbi Avropaya doğru hərəkət edərək yayılan ilk insanlar olmuşlar. Onların köçləri İlk zamanlar aramla olsa da neolit dövrünün sonundan ilkin vətənlərində faunanın səhraya çevrilməsi ilə əlaqədar kütləvi xarakter almışdır. Bürünc dövründə onlar artıq böyük kütlə halında Avropada məskunlaşmışdılar. (Boule Marcellin. 1921, Səh. 351)

M.Ball yazır ki, Pumpellinin Türkistanda tədqiqatları neolit dövründən başlayaraq müasir dövrümüzə qədər bir-birini ardıcıl əvəz edən beş mədəyyəti aşkar etmişdir. Ordakı ilk mədəniyyət m. ö. 8-ci minilliyə aiddir. (Boule Marcellin, 1921, Səh. 356)

Çex tarixçisi Bedrix Hroznı Ön Asiyada dolixokefal və braxikefal antropoloji tiplərin mövcudluğunu bu ərazinin ən qədim xalqı olan Sumerlərin braxikefal və dolixikefal olmaqla iki antropoloji tipə mənsub qafatasları və qədim heykəllərilə müəyyən olunduğunu və bu fərqliliklərin onların müxtəlif dövrdə iki axınla gəlib Mesopotamiyada yerləşmələri ilə izah edilməli olduğunu yazır. (B.Hrozni. 1953, Səh. 39-40)

Ural-altaylı türklər əsas etibarı ilə dolixokefal idilər, onların içərisində rast gəlinən broxikefallıq içlərinə qarışmış olan monqol ünsürlərin mövcudluğundan irəli gəlirdi.

Avropanın görkəmli tarixçi və antropoloqları Avropada tarixin ilkin dövrlərində məskunlaşan turanlı xalqların etnik kimiliyini müəyyənləşdirərək onların yayılma coğrafiyası və miqrasiya hərəkətlərinin istiqamətlərini də təsbit etmişlər. Avropanın bu qədim turanlı etnosları ümumi adla iberlər və liqurlar adlanaraq öz tərkiblərində çoxsaylı qədim tayfaları birləşdirmişdilər.

Fransız antropoloqu Jak Morqan da Avropanın, Qədim Asiyanın və Afrikanın şimalındakı əhalinin neolit döründə dolixokefal tipə mənsub olduqlarını yazır. Morqan hind-avropalıları və ariləri broxikefal tipinə aid edir. (Jacques de Morgan, 1925, Səh. 155, 172)



Təkcə İtaliyanın deyil, bütövlükdə Avropanın iberlərlə yanaşı ən qədim əhalisi olan və bu qitənin tarixində önəmli rol oynayan liqurların turanlılara mənsub olduğu fikrinin ilk müəllifi də Nikolucci olmuşdur. (Francesco Molon, 1880, Səh. 35)

İtaliyanın görkəmli tarixçisi Custin Nikolucci zəngin tarixi və etnoqrafik dəlilərə əsaslanaraq belə bir nəticəyə gəlmişdir ki, İtaliyanın bu günki liqur əhalisi qədim tarixi dövrdə təkcə İtaliyada deyil, həmçinin Fransada və İspaniyada məskunlaşmış liqurların birbaşa varisləridirlər. Avropada arilərə qədər məskunlaşmış əhali malik olduqları keyfiyyətlər baxımından turanlılar olmuşlar. Arilər İtaliyaya gəldikdən sonra digər bölgələrin turanlı əhalisi onlarla qaynayıb qarışaraq assimilyasiyaya uğrasalar da İtaliyanın şimalında Alp dağları ilə dəniz arasındakı Pyemont və Liquriya bölgəsinin qeyri ari əhalisi öz dillərini, adət-ənənlərini və etnik xüsusiyyətlərini qoruyub saxlayaraq vahid bir millət kimi təşəkkül tapmışlar. (Arturo İssel, Liguria Geologica e Preistorica, Səh. 69)

Molon yazır ki, İtaliyada, İspaniyada və Fransanın cənubunda məskunlaşan qədim xalqı Nikolucci və digər antropoloq bilim adamları ligurlar adlandrır və onları fin-uqor ailəsinə aid edirlər. Mən onları liquroidlər adlandrıram və onların liqur və iber olmaqla iki qoldan ibarət olduqlarını təsbit etmişəm. (Francesco Molon, 1880, Səh. 21)

Yuxarıdakı şərhlərdən də göründüyü kimi bir çox antropoloqlar liqurları ural-altay ailəsinin uqor/oqur qoluna aid edirlər.

Emmanuele Kelesia Liqur sözünün önündəki "li"-nin ön şəkilçi olduğunu və etnonomin "gur" və ya "quri" ola biləcəyini yazır. (E. Kalesia. Dell Antichissimo İdioma de Liguri, Səh. 10)

Bizim fikrimizə görə də Avropanın qədim turanlı xalqı olan Liqurların adları uqur-uqor etnoniminin qədim fonetik şəklidir. Bir çox müəlliflər də uqur və oqurları uyğur türkləri ilə eyniləşdrirlər.

F.Molon yazır ki, Mərkəzi Asiyadan gələn Turanlıların ural-altaylılara mənsub liqur və iber qolu laplandlar və finlərdən sonra Avropaya gələn ikinci miqrasiya idi. O, keltlərin timsalında iran-ari irqinə mənsub insanların turanlılardan xeyli zamanlar sonra Avropaya miqrasiya etdikləri fikrini irəli sürür. (Francesco Molon, 1880, Səh. 32)

"Alb" toponimi liqurların məskunlaşdığı ərazilərdə geniş yayılaraq Alp, Alba, Albano, Alban kimi çoxsaylı toponimlər meydana gətirmişdir. Molon Albion adının Saturnun oğlunun adından götrüldüyü haqqında Pampolio Melanın fikrini inandrıcı hesab etmir və Albano xalqının liqur mənşəli olduğunu və Appenin yarımadası boyunca yayılaraq Latium (Latsio) ərazisində də məskunlaşdıqlarını qeyd edir. (Francesco Molon. 1880, Səh. 36)

Nikolucci ilə yanaşı İtalyalı tarixçi və antropoloqları İssi, Livi və bir çox fransız antropoloqları da Liqurları turanlı irqinə aid edirlər. (G. Sergi, 1901, Səh. 162)

Q.Serqi qohum xalqlar olan liqurların və iberlərin yayılma coğrafiyasından bəhs edərək yazır ki, İberlər indiki İspaniyada və Portuqaliyada yeləşərək öz adları ilə böyük yarımadanı İberiya adlandırdılar. Liqurlar müxtəlif adlar altında İtaliyanın müxtəlif ərazilərində məskunlaşdılar və Fransanın güneyindən hərəkət edərək İspaniyada iberlərlə birləşdilər. Pelasqlar Yunanıstanda Peloponnes yarımadasında və dənizdəki adalarda məskunlaşmış, sonradan İtaliyaya və ordan Kiçik Asiyaya keçərək orda Khatti və ya Hitit adıyla yayılmışdılar. (G. Sergi, 1901, Səh. 33)

Yalnız Türk tarixçilərinin bir qismi deyil Avropa tarixçilərinin də bir çoxu Xattiləri, Hiksosları, Pelasqları turanlı Ön Türklər hesab edirlər.

G.Serqinin yazdığına görə zamanın gedişatında qarşılıqlı mübarizə, hökmranlıqlar və istilaların təsiri ilə bir çox xalqların adları dəyişikliyə məruz qalmış, digərləri öz adlarını qoruyub saxlamışlar. Pelasqiya Yunanıstan adlanmış, Khatti ölkəsi Finikiyaya çevrilmişdir. (G. Sergi, 1901, Səh. 34)

Hititlərə bir neçə əsər həsr etmiş italiyalı rahib Sezare De Karaya görə Xatti/Hititlər pelasqlardırlar və eyni zamanda Misiri işğal etmiş hiksoslar da pelasqlardırlar. De Kara hititləri bir xalq yox Misirə, Babilə və ya Assuriyaya birləşmiş bir çox xalqlardan ibarət siyası konfederasyon adlandrır. De Karaya görə Hititlərin ibtidai dağılma bölgələri Suriyanı, Kiçik Asiyanı, Skifiyanın cənubunu yəni Qara dəniz ətrafını və Azovu əhatə edirdi. (G. Sergi, 1901, Səh. 146)

Lemnos adsında tapılmış yazı etruskların pelasqların qərb qolu olduğuna heç bir şübhə yeri qoymur. Pelasqlar əsasən Yunanıstan və Kiçik Asiya ərazilərində yayılmışdılar. (G. Sergi, 1901, Səh. 166)

İngilis tarixçisi G.Smit də pelasqların turanlıar olduğu fikrini müdafiə edərək yazır: "Pelasqlar Yunanıstanın və İtaliyanın cənubunun hind-avropalılara qədərki dövrdə məlum olan ən qədim turanlı sakinləridirlər. İoniya və onun qonşuluğundakı adalar ilkin dövrlərdə pelasqlar tərəfindən məskunlaşmışdılar". (Smith Philip. 1888, Səh. 424)

Amerikalı antropoloq Harvard universitetinin professoru Vilyam Ripli "Avropa irqi" adlı əsərində bəşəriyyəti Tevtonik, Alp və Aralıq dənizi olmaqla üç antropoloji tipə ayırır və Aralıq dənizi tipini eyni zamanda İberiya tipi adlandırır. V.Ripli Avropanın Alp irqinin Asiya kökənlı olduğunu və türkmənlərin də Alp irqinə mənsub olduqlarını qeyd edir. Ripli Azərbaycanlılar ve Şimali Qafqaz türkləri ilə yanaşı tatarları da Alp irqinə aid edir. (William Z. Ripley, 1899. Səh. 419)

Ripli Mərkəzi Asiyada, Türkistan dağlarıı ətrafında və şimalda yaşayan türkmənləri, Aral-Xəzər çökəkliyində yaşayan türkləri monqoloid deyil Alp irqinə mənsub olduqlarını yazır. V.Riplinin fikrinə görə Alp irqinə mənsub insanların Avropaya gəlməsi ilə onların metalla tanışlığı eyni zamana təsadüf edir ki, bu da şərqlilərin Avropa mədəniyyətinə təsirinin sübutudur. O, Avropanın ilk mədəni



xalqı olan və Alp irqinə mənsub qədim Hallştadt mədəniyyəti insanlarını türklərlə eyniləşdirir və onların yunan mədəniyyətinin əsasını qoyan xalqla sıx qohumluq əlaqələrinə malik olduqları aşkar görsəndiyini yazır. (William Z. Ripley. 1899. Səh. 503)

Türk tarixçisi Yusif Ziya Özər də Alp irqinə mənsub insanları türklər adlandrır və yazır ki, arxeologiya elminin də təsdiq etdiyi kimi İberiya yarımadasından başlamış Rusiyanın dərinliklərinə qədər yayılaraq davam edən menqir, dolmen və təpələrdən ibarət abidələr, nəhayət, Qara dənizdən Sibirə qədər mövcud olan kurqanlar Alp insanlarının və ya turanlıların Avropaya doğru miqrasiyasını təsdiq edən abidələrdir. (Yisif Ziya Özer. 1932, Səh. 531)

F.Molon Alp adını tarixin qədim dövrlərindən etibarən İtaliyada və Avropanın digər ərazilərində məskunlaşmış turanlıların qədim liqur etnosu ilə əlaqələndirir. Onun yazdığına görə "Alb" toponimi ligurların məskunlaşdığı ərazilərdə geniş yayılaraq Alp, Alba, Albano, Alban kimi çoxsaylı toponimlər meydana gətirmişdir. Molon Albion adının Roma mifologiyasında Saturnun oğlunun adından götürüldüyü haqqında Pampolio Melanın fikrini inandrıcı hesab etmir və italiyanın Albano xalqının liqur mənşəli olduğunu və Appenin yarımadası boyunca yayılaraq Latium (Latsio) ərazisində də məskunlaşdıqlarını qeyd edir. (Francesco Molon. 1880, Səh. 36)

Alp Türklərlə əlaqədar qədim bir eponimidir. Qədim türk sözü olan Alp adının bir çox izahları mövcuddur. Qədim türk lüğətində Alp eponimi qəhrəman, igid, cəsur, bahadır, pəhlivan, cəngavər kimi izah olunur. (Древнетюркский сдоварь, 1969, Səh. 36)

Alp insanları əsasən dağlıq ərazilərdə məskunlaşmış dağlı insanlardır.

Bir çox qaynaqlarda göstərildiyi kimi Alp sözü Alb və Alm şəklində də ifadə olunur.

Almaniyada assurologiyanın atası hesab olunan Eberhrd Şrader akkad-sami dilində Alp-i/Alap sözünün öküz demək olduğunu yazır. (Eberhard Schrader. 1872, Səh. 26)

D.Miller və M.Şippin Akkad dilinə həsr olunmuş əsərində də, Alpu sözü "öküz" kimi tərcümə edilir və onun mixi ideoqramının Qud yəni öküz olduğu yazılmışdır. (D.Miller and M.Shipp. 1996, səh. 74)

İngilis tarixçisi Duqlas Freşfild "Qafqazın Kəşfi" adlı əsərində Alp sözünün mənasının iddia edildiyi kimi "ağ dağ" deyil "dağ çəmənliyi" anlamı daşıdığını yazır. (Douglas Freshfield. Səh. 65, 1896)

VI əsr Roma tarixçisi keşiş Sevilyalı İsidor da Alp sözünü liqur dilində yüksək dağ və dağ çəmənliyi anlamı daşıdığını yazmışdır.

Alup sözü sumer-akkad dilindən uqarit dilinə Alp şəklində keçmişdir və mənası öküz və ya qaramal deməkdir. (Wilfred Watson. 2007, Səh. 106)

Alp sözü ilə Alm sözləri sinonim sözlərdir. Yuxarıdakı izahlardan da göründüyü kimi sumer-akkad dilində Alpu və Alum/Alim öküz anlamı daşıyır. Alu-m Sumerin baş tanrısı Anın öz qızı İnannaya yardım üçün göndərdiyi səma öküzünün adı idi. (Friedrich Delitzsch. 1896, Səh. 59) .

Alim günəş tanrısı Utunun epitetlərindən biri idi və mənası vəhşi öküz deməkdir. Alp/Alb və Alm sözləri aydın şəkildə göründüyü kimi Alup və Alum sözlərinin qısaldılmış formasıdır. Qədim almanlar qaramal bəslədikləri dağ çəmənliyi və otlaqları Alp/Alb və ya Alm adlandırırdılar. (Alfred Helfenstein. 1982, Səh. 45)

Sumer dili lüğətlərində Alpi/Alim sözlərinin loqoqramı olan Qud sözünün öküz, buğa anlamı ilə yanaşı digər mənasının da "güclü", "cəsur", "qəhrəman" anlamı daşıdığı qeyd olunmuşdur. (Friedrich Delitzsch. 1914, Səh. 108)

Yuxarıdaki şərhlərdən də göründüyü kimi sumer-akkad dilində Qud/Alp sözü vəhşi öküz anlamı ilə yanaşı bir də güclü, cəsur, atılqan anlamı daşımış və bu azadlıq sevər, cəsur, güclü heyvan insanlar üçün də qəhrəmanlıq, igidlik simvoluna çevrilmiş, insanlar onu özləri ilə özdəşdirmişdilər.

Müxtəlif dillərdə Alp, Tur, Öküz, Kutur, Bizon və Yak adlanan vəhşi öküzün ənənəvi yaşayış arealı yüksək dağ yamaclarındakı çəmənlik və otlaqlar olmuş və ona görə də yüksək dağ yamacları onların adı ilə Alp və ya Alm/Alb adlanmışdır. Qədim türklərdə Alp Turan, Alr Ər Tonqa, Alp Teqin və. s. qəhrəmanlıq epitetləri daşıyan adlar geniş yayılmışdı.

Bir çox müəlliflərin o cümlədən F.Lenormarın, Seysin, Konderin, İsaak Teylorun ən sevdikləri nəzəriyyə turanlıların tarixə qədərki dövrdə Ön Asiyaya, Mərkəzi və Güney Avropaya yayılmaları nəzəriyyəsidir. Prof. Seys turanlıları "uqor-altay" irqi adlandıraraq buraya türkləri, tatarları və finləri aid edir. (Daniel Brinton. 1895, Səh. 74)

Lakin Turan irqi nəzəriyyəsinin əleyhdarları tarixəqədərki dövrdə, yəni sami və ari irqlərinin tarix səhnəsinə qədəm qoymadan öncə turanlıların yer üzünün əsas mədəni əhali kütləsini təşkil etdikləri fikrini qəbul etməyərək Kiçik Asiyanın turanlı xalqlarını və o cümlədən urartuluların aid olduqları "turanlı" terminini qeyri müəyyən "aloroid" və ya "allafon" termini ilə əvəz etməyə təşəbbüs göstərmişlər.

Daniel Brinton "Aloroid" nəzəriyyəsinə tənqidi yanaşaraq yazırdı: "Bir müddət sonra Mesopotamiya xalqlarının turani mənşəyi haqqındakı nəzəriyyənin tərəfdarlarının bir çoxu yeni bir "alarodiya" nəzəriyyəsinin tərəfdarlarına çevrildilər. Q.Bertin belə bir nəzəriyyə irəli sürdü ki, Batı Asiya tarixə qədərki dövürdə "ilkin irq" adlanan insan dölü tərəfindən məskunlaşmışdır. Qeyri müəyyən dilə və fiziki tipə malik olan bu insan növü bütün yer üzünə yayılmış və yüksək irqlərin meydana çıxması ilə ortadan qeyb olmuşlar. Lakin bu möcüzəvi məxluqların etnik mövcudluğu haqqında hər hansı bir elmi dəlil bəlli deyil". (Daniel Brinton. 1895, Səh. 76)

Almaniyanın XVIII-XIX əsr görkəmli antropoloqu İohan F.Blumenbax ilk dəfə bəşəriyyəti 1) Qafqaz (ağ irq), 2) Monqoloid (sarı irq), 3) Malay (qəhvəyi irq), 4) Neqroid (qara irq), 5) Amerikan (qırmızı irq) olmaqla 5 irqə bölmüşdür. O, Qafqazı bəşər irqinin beşiyi adlandırırdı. Blumenbax "ağ irqə" mənsub etdiyi avropalıları Qafqaz irqinə aid edirdi. O, Qafqaz irqi insanlarını gürcülərin timsalında ən mükəmməl insan tipi hesab edirdi. Blumenbax ural-altay xalqlarını Qafqaz irqinə deyil Monqoloid irqinə aid edirdi.

Amerikanın görkəmli arxeoloq və etnoloqu Daniel Brinton İohan Blumenbaxın Qafqaz irqi adlandırdığı "ağ irqi" "avroafrika" irqi adlandırmışdır. O yazırdı ki, "Mən sarı monqol və qara Afrika irqindən fərqlənən irqi "avroafrika" irqi adlandırıram. Çünki bu irq Şimali-qərbi Afrikanı və batı Avropanı əhatə edirdi. Qərbi Asiyada bu irq ən qədim tarixi zamanlarda olduğu kimi bu gün də üç böyük qol olan hind-german, sami və qafqaz qollarını özündə birləşdirmişdir. Ümumiyyətlə, qafqaz tayfaları hər zaman quzeydə, arilər mərkəzdə, samilər isə güneydə məskunlaşmışlar. Onun fikrinə görə ari irqi iddia edildiyi kimi Mərkəzi Asiyada deyil, Batı Avropada təşəkkül tapmış, ordan hərəkət edərək Hellospont və Bosfor vasitəsilə Kiçik Asiyaya və İrana, sonra isə Hindikuş dağlarında onların bir hissəsi ayrılaraq cənuba, Əfqanistan və Hindistana, digər hissə isə quzeyə Baktriyaya doğru hərəkət etmişdir. (Daniel Brinton. The Protohistoric of Western AsiaSəh. 78)

Albay A.Billerbekin irəli sürdüyü tezisə görə arilər m.ö. XIII yüzillikdə Qafqaz üzərindən keçərək Batı Asiyaya gəlmişlər və e.q. 800-cü ilə qədər Persiyanın hökmran irqinə çevrilmişlər. O zamana qədər Persiyada hakim irq monqollar, yəni türklər olmuşlar. (Daniel Brinton. 1895, Səh. 80)

Turanlıların aid edildiyi irqi tiplərdən biri də Aral irqi nəzəriyyəsidir. Alman assuroloqu Artur Unqnad bəşəriyyətin ən böyük irq ailəsini təşkil edən Aralıq dənizi (Mediterrane) irqinin bir neçə qola ayrıldığını və sumerlərin onun dördüncü qolunu təşkil etdiyini yazır.

Unqnad irəli sürdüyü digər bir nəzəriyyə Aral irqi nəzəriyyəsidir. O Sumer irqini Aral irqi adlandırmağın daha doğru ola biləcəyi fikrini irəli sürür.

Unqnad Xəzər dənizinin Güney doğusunda Damqan yaxınlığında aşkar edilən e.q. IV minilliyə aid Tepe-hisar arxeoloji mədəniyyətinə mənsub uzun başlı-dolixokefal insanlarının Aral dənizi mənşəli olduqları fikrini irəli sürür. Həmin irqin mənsubları sonradan Amudərya və Sırdərya vadilərinə, daha sonra Hindistana və quzey-batıya doğru Babilə qədər yayılmışlar. Bu insanları Xəzər hind-ari irqinə aid edən Kappersin əksinə olaraq Unqnad onları sumer irqinə və ya "aral" irqinə aid etməyin daha doğru olacağını qeyd edir. (Artur Ungnad. Subartu, Səh 6. )

Unqnad qafataslarının arxasında dik çıxıntıya malik insanları Ön Asiyanın ən qədim xalqı adlandırır. Antropologiya elmində qafatasların arxasında dik çıxıntı "Tuberkulum Turkum" yəni türk çıxıntısı adlanmışdır.

İkiçayarasında ilkin mədəniyyətin əsasını qoyan bu insanların məskunlaşdıqları Suriyanın quzeyi, İkiçayarası ərazi və sonradan Assuriya adlanan ərazi ən qədim zamanlarda Subartu adlanırdı. Qafataslarının arxasında dik çıxıntıya malik bu insanlar subar irqini təşkil edərək subar dilinə və özəl bir subar mədəniyyətinə malik idilər. (A.Ungnad, 1936, Səh. 23)

Sumer və subirlərin eyni kökdən olduqları fikrini müdafiə edən Emil Forrer subir dilini İkiçayarasının bir sumer dialekti kimi qəbul edir. (A.Ungnad. 1936, Səh. 230)

Turan nəzəriyyəsinin ən böyük müdafiəçilərindən biri olan böyük fransız assuroloqu Fransua Lenorman yazırdı ki, mən Asiyanın doğusunda yaşayan insanları turanlılar, dillərini isə Turan dili adlandırmışam. Lenorman turanlıların ilkin vətəni haqqında "yüksəliş və təkrar dönüş" adlandıra biləcəyimiz bir nəzəriyyə irəli sürmüşdür. Həmin nəzəriyyəyə görə Altay dağları turanlılar üçün üzərinə qalxaraq yüksəlmək və yeni yerləşim məntəqəsini tapmaq üçün bir çıxış nöqtəsidir. Hər dəfə Altay dağlarında məskunlaşaraq artıb çoxalan, qüdrətli bir axına çevrilən turanlı türklər yenidən öz yurdlarını tərk edərək yer üzərinə yayılırlar və bu hadisə tarixin müxtəlif dövrlərində yenidən təkrarlanır. Lenormana görə Kastrenin irəli sürdüyü Altaylı adı turanlıları məhdud bir məkana bağladığından bu ad daha geniş mahiyyət daşıyan Turan adı ilə əvəz olunmalıdır. (F.Lenormant. 1875, Səh. 381)

Turanlıların və türklərin aid edildikləri irq tiplərindən ən önəmlisi də, Aralıq dənizi irqidir. Aralıq dənizi irqinin sosial və fiziki təsvirini ilk dəfə 1851-ci ildə şotland antropoloqu Vilyam Rhipli vermişdir. Onun fikrincə Aralıq dənizi irqinə mənsub insanların qafatasları dolixokefal, gözləri badam formasında tünd qəhvəyi və ya qara, mülayim genişlikdə və ya uzunsov sifət, ensiz, nazik burun, tez bozlaşan qəhvəyi və ya qara saçlara malikdirlər. Onlar orta boylu bədən quruluşuna, dəriləri zeytun rəngində və tünd çalara malikdir.

Aralıq dənizi irqinin ən böyük tədqiqatçılarından olan Amerikalı antropoloq, Harvard universitetinin professoru Karleton S.Kun bəşər irqlərinin tədqiqinə dair bir çox əsər nəşr etmişdir. Onun irəli sürdüyü konsepsiyaya görə yuxarı paleolit-mezolit dövründə Avropa əhalisi neandertal qarışığına malik Homo sapienslərdən ibarət olmuşdur. Lakin neolit dövründə onlar Şimali Afrikadan və Yaxın Şərq tərəfdən gələn aralıq dənizi tipinə aid insanların güclü axını ilə qarşılaşdılar. Bunun sonucu olaraq təmiz Aralıq dənizi tipi yalnız Avropanın güneyində qorunub saxlanmışdır. Avropanın mərkəzində isə bu qarışım nəticəsində yeni bir insan tipi irqi olan Alp irqi meydana çıxdı. K.Kun türkləri və Sumerləri dolixokefal qafatasına malik tip olaraq Aralıq dənizi irqinə aid edirdi.

Sumerlərin ilk sülalə dövrünə aid arxaik tanrı heykəlləri sıx saqqallı, düz burunlu, saçları düz və ya dalğavari şəkildə təsvir olunmuşdur.

Onun fikrinə görə Avropaya zəngin çəmənlik və bərəkətli çöllər axtarışı ilə gəlib yerləşən insanlar nə sumerlilər, nə də babillilər deyildilər, lakin onlara qohum olan bu xalqların köçləri mədəniyyətəqədərki metal dövründə baş vermiş və Mesopotamiyanın mədəni təsirinə məruz qalmışdılar. Oksus və Yaksart ətrafı əraziləri əhatə edən mərkəzdən bir neçə istiqamətdə köç dalğası baş vermişdir. Arilər gəlmədən öncə İran yaylasının əhalisi uzun başlı dolixokefal idilər. (Coon C.S. 1939, Səh. 91)

Ural yaylasında yaşayan fin-uqor xalqları türklərlə birlikdə Altay dil ailəsinə mənsub olub ural və sumer dilləri ilə qohumluq əlaqəsinə malik olmuşlar. Altaylılar ağ rəngdə və avropoid idilər. Hunların Avropaya gedən hissəsi də ağ rəngli avropoidlər idilər. Türklər tarixən əsasən ağ dərili avropoid altaylılardan ibarət idilər. Onların az bir hissəsi monqoloidlərlə qarışmışdılar. Türkmənlər, azərbaycanlılar, osmanlı türkləri, səlçuklular ağ rəngli evropoidlər olub əsl türklərdirlər və onlar heç bir zaman monqoloid qarışığına malik olmamışlar. Sibirdə yaşayan monqollar, tunquslar daha sonrakı dövrlərdə Monqolustandan və Altaydan gələrək burda türklərlə qaynayıb qarışmışlar. (Coon C. S, 1939, Səh. 239)

Azərbaycan türklərini, türkmənləri Aralıq dənizi irqinə aid edən K.Kun fikrini geniş şəkildə izah edərək yazırdı: "Xəzər dənizinin şərqində və Aral dənizinin cənubunda yaşayan türkmənlər Orta Asiyada Aralıq dənizi irqinin davamçılarıdırlar. Türkmənlər əsas etibarı ilə dolixokefaldırlar.

Türkmənlərə ən yaxın qohum xalq olan Qafqazda və İranın böyük ərazisində məskunlaşmış azərbaycan türkləri monqoloidliyə daha az məruz qalmışlar. Azərbaycanlıların böyük hissəsi türkmənlərlə eynidirlər, az bir hissəsi yerli qafqazlılarla qaynayıb qarışmışlar. Azərbaycanlıların böyük hissəsi uzun qafalı dolixokefaldırlar, az hissəsi monqoloidlərlə qarışmış broxikefal tipinə mənsubdurlar". (Coon C. S. 1939, Sh. 422, 424)

Karleton Kun Aralıq dənizi tipinə aid etdiyi Sumerlərdən fərqli olaraq bu ərazidə "Armenoid" adlandırdığı subbraxikefal tipinə mənsub kəllə sümüklərinin də aşkar olunduğunu yazır. Yumrubaşlıqları ilə seçilən və "armanoid" adlandrılan bu tip III minillikdən etibarən bölgədə görünməyə başlayıb azlıq təşkil edirlər. (Coon C. S. 1939, Səh. 89)

Yüz illər ərzində yaşadıqları ərazilərin coğrafi iqlim şəraitinin təsiri ilə bəzən fərqli fiziki xüsusiyyətlərə malik olan, lakin eyni dildə danışıb ümumi etnik kökə bağlı olan Ön Türklər antropoloji əlamətlərinə görə müxtəlif irqi tiplərə aid edilirdilər.

# III FƏSİL. Tur, Turan, Türk adları və onların mənası haqqında

Tur, Turan və Türk adlarının etimologiyası uzun illər ərzində bilim adamları arasında müəyyən mübahisə və müzakirələrə səbəb olmuş və onların mənasının izahı ilə əlaqədar bəzən bir birini təkzib edən çoxsaylı şərhlər irəli sürülmüşdür.

Rəsmi tarixşünaslıqda Turan adının mənşəyi və bu eponimin etimalogiyası yalnız Avestaya, Şahnaməyə və yenə də fars dilli "Xudaynamə"yə əsaslanaraq izah edilir.

Avesta ənənəsinə görə indiki İranın şimal şərqindən yuxarıda yerləşən bölgə Turan adlanırdı. Bu adın Avestadakı "Tuiriyanam Dahyunam" sözündən yarandığı və mənasının köçəri iranlı tayfalarını nəzərdə tutan "turların ölkəsi" olduğu haqqında fərziyyələr irəli sürülmüşdür. Bu fərziyyələrə görə Sonrakı dövrlərdə bu söz "tura" və "Turan" forması alaraq turların ölkəsi anlamı daşımışdır.

Turan ölkəsinə öz adını vermiş olan turlar haqqında ən erkən yazılı məlumat e.q. VI əsrə aid edilən Kiçik Avesta mətnləri hesab olunur. Köçəri heyvandarlıq təsərrüfatı ilə məşğul olan Turan tayfaları ilə oturaq həyat sürən İran arasındakı yüzilliklər boyu davam edən qarşıdurma ilk olaraq məhz Avestada təsvir olunmuşdur.

Turan və Tur adının etimalogiyasının iran dilləri əsasında izahına qarşı 1875-ci ildə ilk çıxış edən böyük assuroloq Y.Oppert olmuşdur. Qədim mixi yazı mətnlərindəki elmi linqvistik dəlilləri əsaslanan Oppert Turan nəzəriyyəsinin banilərindən və sona qədər başlıca müdafiəçilərindən biri olmuşdur. O Turan adını və turanlıların etnik kökünü ari və iranlı mənşəyə bağlayan avrosentrist nəzəriyyəni puça çıxaran elmi fikirlərin müəllifidir. Avestanı, sanskrit mətnlərini və Firdovsinin "Şahnamə" dastanını əsas qaynaq kimi qəbul edən Turan nəzəriyyəsi əleyhdarları araşdrıcılar Tur və Turan adının Avestadakı və sanskrit mətnlərindəki "turiya" sözündən yarandığını iddia edirdilər. Onlar iran dilli mətnlərə əsaslanaraq köçəri turların da mənşə etibarı ilə iranlı arilər olduğu haqqında uydurma tezisləri əks etdirən çoxsaylı kitablar yazmışdılar.

XIX əsrin ortalarından başlayaraq XX əsrin əvvəllərinədək uzun illər ərzində Turan nəzəriyyəsinin ən qatı əleyhdarı və bu haqda bir çox məqalələrin müəllifi M.Halevi idi. Bu məsələdə Halevini kəskin tənqid edən Oppert 1875-ci ildə Haleviyə qarşı yazdığı cavab məqaləsində Turan adının mənşəyi məsələsinə tam aydınlıq gətirmişdir. "Journal Asiatuque"də dərc olunan bu məqalə ya bilərəkdən, ya da, diqqətsizlik üzündən unudulmuş, orda irəli sürülən elmi müddəalara heç bir tarixi əsərdə istinad edilməmişdir.

Sumerləri heç bir şübhəyə yer qoymadan turanlı hesab edən Y.Oppert elmi linqvistik dəlillərə istinad edərək yazırdı: "Sumer dili nə sami, nə də ari dillərinə aid deyil. Bu dil Turan dil qrupuna aiddir. Turan anlayışı geniş məna daşıyır. Anarian (ari olmayan) yazısını kəşf edən xalqın dili tam haqlı olaraq Turan dili adlanmalıdır. Turan dilində "Tur" adam, oğul deməkdir və bu sözdən kasta, tayfa mənası daşıyan mürəkkəb sözlər də yarana bilir. "Tur" sözündən Turtan, Turqal, Turquman kəlimələri yaranıb. Sumerlərin Tur sözü Zənd Avestaya keçərək orda "tuirya" şəklində ifadə olunur ki, bu ad Afrasiyabın hökmranlıq etdiyi Turan adının ekvivalentidir. Turan Firudinin oğlanları Səlm, Tur və İrəç üçlüyünün əfsanəsində Asiya yaylalarını təcəssüm etdirir. Turlar Turun millətinə mənsub olub Aryaya və Sayrama (samilərə) qarşı mübarizə aparan insanlardır. Sonradan o Sem/Selm ilə yaxınlaşmışdır. Sumer dili əsas etibarı ilə Turan dilidir. "Oppert yazırdı ki, əslində, Zənd Avestada adı çəkilən və Əfrasiyabın dövləti Turanın prototipi olan "Tuirya" ölkəsi elə Sumerdir. (Oppert J. 1875, V-5, səh. 464)

Oppert bu dəyərli araşdırması ilə, əslində, Ön Asiyada ari və samilərin turanlılara qarşı mübarizəsini özündə əks etdirən tarixi hadisələrin Avestada iranlıların tarixi əfsanələri kimi təqdim olunaraq təhrif olunduğu fikrini irəli sürmüşdür.

Oppert Tur sözünün iddia edildiyi kimi iran mənşəli deyil, etimaloji baxımdan turanlıların öz dillərinə məxsus eponim olduğunu və bu sözün sonradan ari və sanskrit dilinə keçdiyi haqqında fikrini elmi cəhətdən əsaslandırmışdır. Oppert Avestada Turya adının əks olunduğu himnin Sumer əfsanələrindəki "Oda müraciət" himninin sanskrit dilinə tərcüməsindən ibarət olduğunu və onun sonradan Avestaya daxil edildiyini tərcümə mətnlərindən nümunələrlə sübut edir. (Cooper J. 1993, Səh. 186)

Assuroloq J.Kooper də Oppertin bu fikrini təqdir edərək yazırdı: "Beləliklə, Oppert Zənd Avestadakı Tur sözünün iran dillərinə aid olmadığını, etimaloji baxımdan Turan mənşəli söz olduğu və Sumerin elə Turan olduğu fikrini irəli sürmüşdür". (Cooper J. 1993, Səh. 186)

Oppertin Turan və Turya sözünün sumer mənşəyi haqqındakı bu cəsarətli fikri ariyanizm tərəfdarlarının böyük narazılığına və ona qarşı kəskin hücumlara səbəb olmuşdur.

J.Halevi Assuriya adının mixi yazılarda və o cümlədən Bisütun və digər kitabələrdə Aturiya və Atur şəklində yazıldığını əsas götürərək Turan adının da bu sözdən yarandığını və sami mənşəli olduğu fikrini irəli sürürdü. Lakin Turan adının sami və ari deyil, mənşə etibarı ilə turanlıların öz dillərinə məxsus olduğu haqqında Oppertin mövqeyini müdafiə edən Fransız sumeroloqu və tarixçisi F. Lenorman yəhudi mənşəli assuroloq M.Halevinin Turan adını sami mənşəli hesab etməsinə qarşı çıxış edərək yazırdı: "M.Halevinin iddia etdiyi kimi turları İran ənənəsinə görə sami mənşəli Suriyalı hesab etmək yanlışdır. Tura adı iddia edil-

diyi kimi Assur adının pers qaya kitabələrində yazıldığı Athur adından yaranmamışdır. Pers gələnəkləri bizim turanlı adlandırdığımız xalqı birmənalı şəkildə bir şimal xalqı və bir irq olaraq Turan kimi qəbul edir. Turan adı protomidiya, akkad, uqor-fin və türk-tatar dillərində eyni şəkildə "oğul, ulu irqin oğlu, rəhbər" mənasında olan Tur sözündən yaranmışdır. Qədim iranlıların Turya adlandırdıqları Turanlılar özlərinə "Tur" adını ona görə qəbul etmişlər ki, bütün xalqlar öz köklərini nəcib qanın daşıyıcısı olan ulu bir əcdada bağlayırlar. Tur eponiminin qədim kökü Ön Asiyanın qədim sumer akkad, midiya, elam kimi turanlı xalqların dilində "ulu irqin oğlu, rəhbər" anlamı daşıyan və ulu bir əcdad olan Tura bağlıdır. (Lenormant F, 1875, Səh. 381)

Əslində, Halevi doğru olaraq qeyd etdiyi kimi Assuriya ərazisi samilər bura gəlmədən öncə burdakı yerli turanlı xalqın dilində Aturiya, Turan kimi ifadə olunurdu və Tur kökünə bağlı çoxsaylı yer adları mövcud idi ki, bu haqda digər bölümlərdə bəhs olunacaqdır.

Bir çox görkəmli tarixçi və linqvistlər Turan adının kökünün sumer dilindəki "tur" sözünə bağlı olduğu fikrini müdafiə edirdilər.

Görkəmli dilbilimçisi, dillər haqqında nəzəriyyənin banisi Maks Müller Turan adını "sürətli olan, daima hərəkətdə olan, ətrafda dolaşan" kimi izah edir. Türk adı əslində Turan irqinin ən qədim kollektiv adı olmuşdur. Çin müəllifləri hələ e. q. V əsrdə Hiunq-nuların bir qolu kimi Tukuelər haqqında bəhs edərkən bunu təsdiq etmişlər. Etimoloji baxımdan Türk adı arilərin Himalayın quzeyində yaşayan atlı köçərilərə və iskit-sak xalqına verdikləri Tura, Tuvaşa, Turuşka adlarından yaranmışdır. (Max Müller. 1854, Səh. 78)

Lakin Müller yanlışlıqla etimaloji baxımdan Türk adını arilərin Himalayın quzeyində yaşayan atlı köçərilərə və iskit-sak xalqına verdikləri Tura, Turvaşa, Turuşka adlarından yaranmış olduğunu yazır. Gerçəklikdə isə Turvaşa, Turuşka adları Türk adının həmin dillərdə təhrifə uğramış fonetik şəkilləridir.

Alman Sumerşünası, sumer dilinin lüğətini tərtib etmiş F.Delitç Tur sözünün sumer dilində çox mənalı söz olduğunu yazır: Tur-oğul, həyat, giriş qapısı, qapı, doğulma, ana bətni kimi anlamlar daşıyır. NinTur Sumerlərdə ana tanrıdır. (F.Delitzsch, Sumerische glossar, Səh. 163)

Fransız Lenorman da Tur sözünün geniş izahını verərək yazırdı ki, Sumer dilində Turqal və Nirqal eponimləri mövcuddur. Sumer dilində "tur" oğul deməkdir, "qal" böyük, əzəmətli deməkdir, "nir" isə rəhbər, prins anlamı daşıyır. Nirqal böyük, əzəmətli başçı, rəhbər deməkdir. Beləliklə, Turqal əzəmətli başçı, tanrının əzəmətli oğlu anlamındadır. Turan, turlar və türk etnonimlərinin kökünü təşkil edən Tur eponimi ulu əcdada, tanrıya bağlı olaraq ulu əcdadın, ulu irqin oğlu və rəhbəri deməkdir. (Lenormant F., 1877, Səh. 357-358)

Qədim turanlı öntürklərin dilindəki Tur sözü Türk ləhcələrinin bir çoxunda doğulmaq anlamında tur/tuur/tour/törə şəklində ifadə olunur, "tuq" isə dini mənada əlamət/işarə deməkdir ki, qədim turani dilində malik olduğu eyni mənanı kəsb edir. (Radlov V., 1905, Səh. 1253-1254; ДТС, S. 584)

Türk dillərində kökünü Tur sözünün təşkil etdiyi nəvə anlamında torun sözü də mövcuddur.

Etimoloji baxımdan sumer sözü olan Tur sonradan ari və sami dillərinə keçərək vətəndaşlıq qazanmış, lakin bu sözün mənşəyi araşdırılmadan yanlışlıqla həmin dillərə aid bir kəlimə kimi qələmə verilmişdir. Assur dilində sumer dilindən alınma çoxsaylı sözlər mövcuddur ki, bunlardan ən geniş istifadə olunanlardan biri də Tur sözüdür. P.Leander assur dilindəki sumer sözlərinin araşdırılmasına xüsusi bir əsər həsr etmişdir. (Leander P. 1903. )

Tur sözünün izahını verən Y.Oppert bu sözün "sakkanak" adında olduğu kimi assur dilinə onun saklar adlandırdığı turanlılardan keçdiyini yazır. Assurlarda general mənasında olan "Tur-tan" adı sak/iskitlərdən assurlara keçmişdir.

## Turkman adı

Türk xalqlarının böyük bir qolunu təşkil edən Türkmən adının etimalogiyası müxtəlif şəkillərdə izah olunur. Prof.Dr. İbrahim Kafesoğlu Türkmən adının etimologiyasına dair geniş bir məqalə həsr etmişdir. (İbrahim Kafesoğlu. Türkler cild 4. 2002, Səh. 1001-1008 )

Azərbaycan tarixçisi Ramil Ağayev də Türkmən adının izahına həsr etdiyi məqalədə etnonimin geniş izahını verir. O, F.Kırzıoğlunun Türkmən adının mənşəyinə dair belə bir maraqlı fikrini sitat gətirir: "F.Kırzıoğlu qıpçaqlara həsr etdiyi əsərində türkmanlarla bağlı məsələlərə də toxunur. Onun türkman sözünün mənşəyi ilə bağlı fikirləri maraqlıdır. Müəllif türkman sözünü Çin mənbələrində rast gəlinən "tü-kü-mön", "Tövrat"dakı saka "torqomalar" və bəzi qaynaqlarda eradan əvvəlki hadisələrdə adı çəkilən "dargaman" adı ilə bağlı olması ehtimalını irəli sürür. O, VIII əsr ərəb müəlliflərindən Vəhəb bin Münəbbihin əsərində rast gəlinən və hökmdar Zülqərneynlə qarşılaşdığı güman edilən "torgümanlar" adlı xalqa diqqət yönəldir.

Lakin Türkman etnoniminin əsl kökünün qədim turanlı öntürklərə məxsus eponim olan Turqumannu adının təşkil etdiyi qədim mənbələrdə öz əksini tapmışdır. Türkmən adının izahı ilk dəfə Mahmud Kaşğarinin "Divani lüğət-it Türk" əsərində verilmiş, türkmənlər və Makedoniyalı İsgəndərlə əlaqədar bir əfsanə də təqdim olunmuşdur". (R.Ağayev. Türkman anlayışı və onun etimologiyası ərəb və fars dilli müəlliflərin əsərlərində. Geostrategiya jurnalı №3, May-iyun 2015)

Məqalədə çox doğru olaraq Türkman adının əsl kökünün qədim turanlı öntürklərə məxsus eponim olan Tarqumannu adının təşkil etdiyi yazılsa da, bu etnonimin qədim tarixi kökləri izah edilməmiş, onun mənşəyinin məhz sumerlərə məxsus olduğu və eponimin lüğəti mənası izah edilməmişdir.

Bizə məlum olan yazılı ədəbiyyatda Türkmən adı ilk dəfə ilkin Orta əsrlər ərəb müəlliflərinin əsərlərində öz əksini tapmışdır.

Qafqazı, Azərbaycanı, İranı fəth edən, Türküstana, yəni Xorasana və indiki Türkmənistana gələn sami ərəblər qədim dövrlərdən etibarən Mesopotamiyada ünsiyyətdə olduqları və onların Turquman adlandırdıqları turan mənşəli insanlarla dil və antropoloji baxımdan eyniyyət təşkil edən türklərlə qarşılaşmış və qədim ənənəyə uyğun olaraq onları da Turquman adlandırmışlar.

İbn Haldun yazır ki, ərəb müsəlman ordusu hicri 111-ci ildə (729-730) Tiflis nahiyəsində olan "turkuman" ölkəsi üzərinə hücum edərək onları məğlubiyyətə uğratdı. İbn Haldun öz əsərində xəzərləri və türklərin eyni kökə malik olduqlarını vurğulayaraq xəzərlərin turkmam olduqlarını və bütün türklərin Yafəs nəslindən olduqlarını yazır. Yaqut Həməvi də öz əsərlərində türkmanlardan bəhs etmişdir. O, hələ islamaqədərki dövrdə Mərv ətrafında "Türkman" adlı kənd olduğunu bildirir. Onun yazdığına görə, ərəb xəlifələrindən Hişam bin Əbd-ül-Malik (724-743-ci illər) oğuzların hökmdarına elçi göndərib onu İslama dəvət etsə də o, bunu qəbul etmədi. O, Muğanda türkmanlara məxsus otlaqların yerləşdiyin yazır. (Ramil Ağayev. Geostrategiya jurnalı №3, May-iyun 2015)

Sami ənənsinə görə Turqum dedikdə türklər nəzərdə tutulur və xalqların şəcərə cədvəlinə görə Xəzər və ya Quzər Yafəsin soyundan olan Turqumun yeddinci oğlu idi və onun bütün oğlanları türk adları daşıyırdılar.

Yuxarıdakı sitatdan göründüyü kimi ərəblərin Turquman adlandırdıqları türklərlə ilkin qarşılaşdıqları zaman hələ onlar islamı qəbul etməmişdilər. Ona görə də, Türkman adının "türk-iman" yəni islamı-müsəlmanlığı qəbul etmiş "imanlı" türklər şəklində izah edilməsi özünü doğrultmur.

Oppert və Lenorman kimi böyük assuroloqlar Tarqumannu adının sumerlərə məxsus olduğunu və mənasının "insan oğlu" anlamı daşıdığını yazmışlar.

Oppertin izahına görə Assur mətnlərindəki "Tur-qumannu" sözü onun iskit adlandırdığı turanlı öntürklərin dilində "insan oğlu" mənasındadır, yəhudi/ibrani dilindəki "tur-qisli", "droqman" sözləri sak/iskit Turan mədəniyyətindən miras qalan ifadələrdir, "tur" sözü yəhudi və ərəb dillərində oğul mənasında işlənən "ben/bin" sözlərinin qarşılığıdır. (J.Oppert, Exispedition, Səh. 140)

Mixi mətnlərdə Tur-qumannu sözü tərcüməçi mənasında işlədilir, bu söz sumerlərə məxsus olan və onlardan miras qalan sözdür və gerçək anlamı "insan oğlunun dilində danışan" anlamı ifadə edir.

Qədim sumer mətnlərini assur dilinə tərcümə edən katiblər və ənənəvi olaraq bütün tərcüməçilər Tarqumannu adlandırılırdılar. Yəni assurlar sumer dilindəki mətnlərin assur dilinə tərcüməsini insan oğlunun dilindən assur dilinə tərcümə kimi mənalandırırdılar. Bütün hallarda sözün kökü fonetik dəyişikliyə uyğun olaraq Tur və ya Tor kəlməsidir. Turqumannu sözü tərcüman/tərcüməçi şəklində ərəb dilinə də keçmiş və bir çox dillərdə də müxtəlif fonetik formalada öz əksini tapmışdır.

Bibliyada türk adını özündə əks etdirən bir çox şəxs adları və eponimlər mövcuddur. Bəşəriyyətin etnik tarixinin əfsanələr formasında əks olunduğu və tarixi qaynaq kimi də qəbul edilən bu müqəddəs kitabda türklərin kökləri Qoq-Maqoq, Qimri, Aşquz və Tiras adları ilə əlaqələndrilirdi. Lakin məhz Turquman adı bilavasitə Türk adını özündə ifadə edən eponimdir. İkiçayarasının qədim turanlı xalqlarının dilindəki bu söz sami yəhudi dilində fonetik dəyişikliyə uğrayaraq Qomerin oğlu Torqarma formasında ifadə olunmuşdur. Əslində, sözün kökü ibrani dilində "Thurma" şəklindədir, alman dilində orijinala uyğun olaraq "Thorgarma" formasında tərcümə olunur, lakin nədənsə Rus tərcümələrində və bir çox müəlliflər tərəfindən yanlışlıqla Toqarma şəklində yazılaraq təhrif olunur. Görünür, rus tərcüməçilər diqqətləri Thurqarm sözünün kökünü təşkil edən "Turq/Turk" adından yayındırmaq üçün onu bilərəkdən təhrif etmişlər. Yaradılış kitabının azərbaycanca tərcüməsində də bu ad Togərma şəklindədir. Bu sözün İkiçayarasının qədim turanlı Öntürklərin dilində mənası Tur insanları və ya Tur insan oğulları anlamındadır və turanlı öntürkləri nəzərdə tutur.

Sonrakı dövrlərdə Turquman adı fonetik dəyişikliyə uğrayaraq Türkman şəklini almışdır. Türkman adının etimologiyası yanlış şərh olunaraq Türkman, yəni "mən türkəm" və ya islamı ilk qəbul edən türklər olaraq "türk iman" yəni imanlı türk kimi izah edilmişdir. Fikrimizə görə Türkmən və ya Türkəman etnoniminin kökündə sumerlərə məxsus Turqumannu sözü durur, yəni sözün kökü daha qədimlərə, Sumer dövrünə gedib çıxır. H.Petersen, E.Sturtevant kimi görkəmli hititoloqlar, o cümlədən İ.Qelb, O.Szemerenyi və bir çox bilim adamları da Hititlərin Tarkuma sözünü sumer-akkad sözü olan Tarqumannu sözündən yarandığını təsdiq edirlər. Sözün mənasını onlar şərh etmək, tərcümə etmək kimi izah edirlər.

Mixi yazı mətnlərində sözün ideoqramı *TRG* şəklində əks olduğu halda bir çox müəlliflər onu Turq deyil Tarq şəklində oxumağa üstünlük verirlər, ərəb dilində isə söz gerçək yazılışına uyğun olaraq Turquman, italyanca Turcimanno, ispanca Truchiman şəklində ifadə olunur. Ərəblərin turquman, ibranilərin tirqem, italyanların droqomanno, almanların Droqoman, farsların dilmanc söləri də eynən Tarqumannu sözündən yaranmışdır. (Jose V.G. Trabazo, 2014, Səh. 296)

Sumer dilinin böyük ustadları Oppert və Lenorman və digər müəlliflər isə "tarqumannu" sözünün sumer dilində olduğunu yazmış və onun aydın semantikasını da vermişlər. Bu sözün hind-avropa dillərində izahı yoxdur.

Assur mətnlərində *Turqumannu* sözü tərcüməçi anlamında geniş şəkildə əks olunmuşdur.

İtalyan hititşünası Joze Trabazo Sumerlərin Turqumannu sözünün xatti/hitit dilinə *Tarkummae* şəklində ifadəsinə xüsusi bir məqalə həsr etmişdir. Akkad dilindəki *tarqumannu* luvi dilində *tarkummiya* şəklində ifadə olunur və mənası Draqomana və ya tərcüməçi deməkdir. Bu söz uqarit dilinə *tarqumiyanu* şəklində xett dilindən keçmişdir.

Kammenhuberin yazdığına görə bu söz erməni dilinə *tarqman* şəklində xett dilindən deyil akkad və ya başqa naməlum dildən keçmişdir. Tarqumannu sözü məhz akkad dilindən ibrani dilinə *tirqem* ərəb dilinə - *turquman*, italyan dilinə *turcimanj/truchiman və* dünyanın digər dillərinə keçmişdir. Manzelli xett dilindəki *tarkummae* sözünün mənasının şərh etmək, yorumlamaq kimi izah edir. (Jose Virgilio G. Trabazo. 2014, Səh. 296)

Bəzi müəlliflər akkad dilinə sumer dilindən alınma bir söz olan Tarqumman sözünü sami mənşəli kimi izah etməyə cəhd edirlər. V.Soden, Tişler və bir çox müəlliflər Tarqumannu sözünün bəzi müəlliflər tərəfindən iddia edildiyinin əksinə bir sami-akkad mənşəli söz olmadığı fikrini müdafiə edirlər. Kammenhuber də bu sözün akkad dilinə digər bir naməlum dildən keçdiyini yazır. (Jose Trabazo. 2014, Səh. 296)

Sumerlər bir dövlət kimi dağılıb süquta uğradıqdan və onun xalqı dünyanın müxtəlif ərazilərinə yayıldıqdan sonra da onların dili "insan oğlu" dili mənasında olan Tarqumanu adı ilə uzun illər ərzində elm, mədəniyyət və dini ibadət dili kimi mövcud olmuşdur. Tarquman dili uzun illər ərzində Suriyada danışıq dili olmuşdur. İvrit dili danışıq dili kimi aradan çıxdıqdan sonra yəhudi icması öz dini ədəbiyyatlarını aramey dilində şərh etməyə məcbur oldular. Bu şərhlər Tarqum adlanırdı. Aramey dili Tarquman dili ilə sami dilinin qarışımından ibarət bir dil olmuşdur. Bu Tarqumların ən qədimi e.q. III əsrdə Fələstində "Tarqum Onkelos" adı ilə meydana çıxdı.

Fələstin Tarqumunun yazıldığı dil Qalileyin qərbi aramey dili Bibliyanın da tərcümə olunduğu Xristian versiyası Fələstin suriya dili idi.

Şərqi aramey dili Babilin yəhudi icmasının dili idi. Bu Babil Tarqumunun yazıldığı dildir. Bu dil suriya dilinin bir dialektinə çevrilmişdi. Bu suriya aramey dili ilkin xristian ədəbiyyatının yazıldığı dildir. Bu liturqiya, yəni dini ibadət dili ərəblərdən Hindistana qədər geniş bir ərazidə yayılmışdı. III əsrdən XIII əsrə qədər davam edən bu dil Roma papaları tərəfindən latın dili ilə əvəz edildi.



Şərqi suryani dili Turaya, yəni Tur dili adlanır. Bu Türkiyədəki Tur Abdində yaşayan Yakov-Yaqub xristianlarının dilidir. Suriyanilər Türkiyədə və Azərbaycanda aysorlar adlanırlar.

## Tur və Turan adları

Y.Oppert Sumer adını və dilini elm aləmində gündəmə gətirmədən öncə bu dili iskit dili adlandırırdı və qədim turanlı iskit dilini mada-iskit və kasdo-iskit olmaqla iki dialektdən ibarət hesab edirdi.

Oppert "Tur" sözünün etimoloji izahını şərh edərək yazırdı: "Tur "oğul" deməkdir (böyük oğul və ya ailənin başçısı deməkdir, kasdo/iskit dilində "tur" midya/iskit dilində isə "sak" oğul deməkdir. Midiyada arilərin işğalından sonra əyan və aristokrat təbəqə perslərdən ibarət olsa da, əhalinin aşağı təbəqədən ibarət olan əksəriyyətini təşkil edən turanlı midiyalılar hakimiyyət uğrunda mübarizədən heç vaxt əl çəkmədilər". (J.Oppert. 1865, Səh. 9, 10)

Y.Oppert Türk adının etimalogiyasına aydınlıq gətirərək yazir ki, iskit dilində mənası oğul demək olan "Tur" sözü türk, tatar adının kökünü təşkil edir. (J.Oppert. 1857, Səh. 15)

Oppertin və onunla həmfikir olan bilim adamlarının Tur və Turan haqqındakı fikirləri özlərində önəmli elmi və tarixi gerçəklikləri əks etdirir. Tarixi mənbələrdən də məlum olduğu kimi Zərdüşt peyğəmbər Ön Asiyada Manna ərazisində doğulmuşdur. O sonradan Avesta adı ilə təqdim olunan dini təlimini də manna dilində yazmışdır, lakin öz vətənində qəbul görməyən Zərdüşt öz təlimini təbliğ etmək üçün Mərkəzi Asiyaya üz tutmuşdur. Mannalılar etnik mənşə və dil mənsubiyyəti baxımından samilərin sumer/sumir adlandırdıqları Ön Asiyanın başlıca hakim etnosu olan kienqilərin və ya kəngərlərin çoxsaylı qollarından birini təşkil edirdilər. Zərdüştün təlimində Tur anlayışı öz kökünü sumer və manna ənənəsindən götürmüşdür və ilk insanın meydana gəlməsi haqqında öntürklərin yaradılış haqqında qədim əfsanəsini özündə əks etdirir. Mixi yazı uzmanlarının çoxsaylı izahlarından da göründüyü kimi Tur sözü oğul, doğulma, törəmə kimi anlamlar daşıyır. Tur öküzün yer üzərinə səplənən toxumundan yaranan, törəyən ilk insandır, böyük oğuldur ki, bütün bəşəriyyət ondan törənmişdir. Yəni Zərdüştün dini təliminə görə yer üzünün ilk insanları turlar, yəni türklər olmuşdur. Mixi yazı mətnlərindəki bilgilər də bunu təsdiq edir. Oppert, Rouilson, Lenorman, Hommel, Norris, Mordtmann və s. kimi böyük bilim adamları da mixi yazılardakı bu bilgilərə əsaslanaraq sami və ari irqinin tarix səhnəsinə qədəm qoymadan öncə bəşər mədəniyyətinin əsasını qoyanların Turanlılar və ya öntürk turlar olduqlarını yazırlar.

Tur sözü sumerlərdə oğul, doğulmaq mənasında olduğu kimi qədim və müasir türk dillərində "doğulmaq", "nəvə" anlamında Törü/Toru/Torun şəklində mövcuddur. F.Hommel türkcə-Sumercə sözləri müqayisə edərək yazır: "Sumercə Tur/ oğul-türkcə torun, törəmə; Sumercə Dinqir/dimir-türkcə tenqri/tanrı; sumercə yeraltı dünya Aral-türkcə yeraltı dünyanın sahibi Erlik. Tur, thoq sözü sumer dilində həmçinin doğulmaq, dünyaya gətirmək, nəsil, rüşeym anlamları daşıyır. (F. Hommel. 1885, Səh. 250)

İkiçayarasının və Avestanın əfsanələrində turların ilk insan oğlu kimi öküzün toxumlarından yaranması haqqında hekayətlər mövcuddur. Akkad yaradılış əfsanəsində insan "Tanrıçanın toxumu" yəni İştar ilahəsinin (Venera ilahəsi) toxumu kimi izah edilir.

Avestanın Bundaxşindəki yaradılış əfsanəsinə görə Ahuramazda ilk insan olan Qayomartı və öküzü eyni zamanda yaratdı. Mükəmməl təmizliyə malik iki yaradılış 3 min il yer üzərində yaşadıqdan sonra şəri təmsil edən Anqramanyu meydana çıxaraq öz gücünü göstərdi. Onun ilk işi öküzü öldürmək oldu. Lakin öküzün bədənindən düşən toxumdan xeyirli heyvan və bitkilər meydana gəldi. (Lenormant F. 1882, Səh. 60)

Şərq mifoligiyasında öküz məhsuldarlıq rəmzidir və burda öküzün öldürülməsi qışın sona çatması və mövsüm dəyişikliyi nəticəsində yazın gəlişi, bitki və heyvanların doğulması və həyatın yenilənməsi hadisəsini əks etdrir.

Otuz il sonra Anqramanyu Qayomartı öldürdü və bu ilk insanın yerə düşən toxumlarından ravənd bitkisi böyüdü, bu bitkinin ortasında arxaları bir-birinə bitişik qadın və kişi vardı. Ahuramazda onları bir-birindən ayırdı, onlara ağıl və ruh verdi, bütün insanlar bu qadın və kişidən törədilər. Onlar ilk insanlar olan Maşya və Maşyana idilər. (Lenormant F. Beginnings of History, Səh. 61)

Anqramanyu/Əhrimən bu hərəkəti ilə yalnız ruhlar aləmində mövcud olan varlığı, təbiət canlıları və insanlar şəklində yerə yendirdi və fiziki aləmin yaradılmasının səbəbkarı oldu.

Fikrimizə görə ilk insan Qayumart haqqındakı iran yaradılış əfsanəsi, hind-avropalılar bunu etiraf etmək istəməsələr də, Sumer yaradılış əfsanəsinin təhrif olunmuş variantıdır. Qayumart adının əsli Qu-martu şəklindədir və Sumer-akkad dilində "öküzün/buğanın oğlu" deməkdir. (F.Delitzsch. 1896, Səh. 391)

Qayumart Sumer yaradılış əfsanəsindəki göyüzü tanrısı, tanrıların atası Anın oğlu "öküzdən törəmiş öküz" tituluna malik Enkinin İran əfsanəsinə yansımış prototipidir. Sumer yaradılış əfsanəsində də, öküz/buğanı təcəssüm etdirən Enkinin mayasından canlı aləmin əsasını təşkil edən öküz timsalında təcəssüm olunan çaylar yaranmış və özü ilə bərəkət və məhsuldarlıq gətirmişdir.

Ahuramazda Qayumartı və öküzü eyni zamanda yaratmışdır. Əhrimən öküzü öldürdükdən sonra onun toxumlarından bütün canlılar və o cümlədən insan yaranmışdır. Sumer əfsanəsində də öküz obrazında Enki insanlar olan qadın və kişinin və bütün canlıların yaradıcısıdır. Dünyaya həyat verən Dəclə və Fərat çayları Öküzün mayasından yaranmışdır.



İranlıların mifologiyasında turanlılardan əxz etdikləri öküz obrazı mühüm yer tutur. Gənc oğlan obrazında təsvir olunan tanrı Mitra söl əli ilə öküzün biynuzundan tutmuşdur sağ əlindəki bıçaqla öküzü qurban verir. Öküz günəşin rəmzidir və o adətən axşamlar qurban verilir. Avestada və sanskrit əfsanələrinə görə Günəş tanrısının əmri ilə Mitra qurban verilən öküzün qanından təbiət canlıları, toxumlarından isə insanlar yəni oğullar-turlar yaranır. Qurban verilən öküz yaranışın və doğulmanın səbəbi və simvoludur, doğulmanın və yaradılışın başlanğıcı və atasıdır. Tur adı həm öküz, həm də oğul və doğulma mənasındadır.

Sumer dilində Tur sözü insan mənasında oğul, uşaq, körpə anlamı daşıdığı kimi kiçik, bala, cavan heyvanları da, o cavan öküzü də ifadə edirdi. (J.Halloran. Sumerian Lexicion, Səh. 45)

Sumer mifologiyasında Tur tanrıdır. T.Yakobsen tanrı Mardukun adının əslində Tur-Utu olduğunu və günəş tanrısı Utunun öküzü anlamı daşıdığını yazır. C. Qadd sumercə "luqal Mar-da-dinqirra" ifadəsinin emesal dialektinə uyğun olduğunu və əslində ifadənin "tanrısal kral Tur" şəklində olduğunu yazır. (Jacobsen T. 1968, səh. 104-108. ;Qadd C. 1924, Səh. 49)

Oppertin və Lenormanın da qeyd etdikləri kimi Tur tanrı adı idi və o Günəş tanrısı Utunun öküzü idi. Tur-Utu tanrı adı kassilərin Babildəki hakimiyyətləri dövründə tanrı Marduk şəklində ifadə olunurdu.

Tur İran rəvayətlərində Firudinin üç oğlundan biri və türklərin ulu atası hesab olunur. Əgər Turan sözünü iran əfsanələri əsasında izahını qəbul etsək onun mənası Tur adının sonuna cəm halını bildirən "an" şəkilçisini artırmaqla meydana gələn Turlar və Turların ölkəsi deməkdir. Avropa və Rusiya alimlərinin böyük qismi Turları irandilli hesab etsələr də, İranlılar lap qədimlərdən Turları türk, Turanı isə türklərin ölkəsi kimi qəbul etmişlər.

Avestada oturaq əkinçi və heyvandar xalqların ərazilərinə daima basqınlar edən, onları çapıb talayan şimal və şərqdəki köçəri xalqlar mənası şər ruhlu, amansız, vəhşi, talançı mənasında olan Tura adlandırılmışdır.

Sasanilər sülaləsinin hakimiyyəti dönəmində də Türklərin yaşadığı əraziləri Turan və Mərz-i Turan yəni Turanlıların ərazisi adlanırdı.

Firdovsinin "Şahnamə" əsərində və digər ərəb-fars mənbələrində İranı təmsil edən farslarla, sakları təmsil edən Turan arasında uzun illər ərzində davam edən və gah birinin gah da digərinin qələbəsi ilə nəticələnən çoxsaylı savaş səhnələri öz əksini tapmışdır. Bu savaşlarda Turanlıların başında iranlıların Əfrasiyab adlandırdıqları padşah dururdu. Mahmud Qaşqarlı və Yusif Balasaqunlu Əfrasiyabı Turan padşahı Alp Ər Tonqa adlandırırlar. İranlıların başında isə Kəyanilər süla-

ləsi, xüsusən də onlara mənsub olan və farsların Keyxosrov, avropalıların isə Kir adlandırdıqları şahları dururdu.

Turları inadcıllıqla irandilli tayfalar kimi qələmə verən avropa və rus tarixçilərinin iddalarının əksinə olaraq Şahnamə müəllifi Firdovsi heç bir şübhəyə yer qoymadan onların türklər olduqlarını aydın şəkildə yazmışdır.

Türklərin qədimdə adlarından biri Tur olduğu kumu digər adları da Sak idi. VI əsr Bizans tarixçisi Menandr Türklərdən bəhs edərkən onların qədim zamanlarda sak adlanrıldıqlarını yazır.

Fars dilində Turan həm turlar həm də turların ölkəsi deməkdir. Fransız tarixçi J.Blochet Avestada bəhs olunan Tur və Tura kəlmələrinin Türk demək olduğunu isbat etmişdir. İngilis türkoloq Marqvart da özlərini ilk dəfə Tura adlandıranların sak mənşəli massagetlər olduqlarını yazır.

Tur və Turan adlarını yalnız Avestaya və digər farsdilli mənbələrə əsaslanaraq izah edənlərin iddalalarının əksinə olaraq Ön Asiyada Avesta yaranmadan və İran dövləti meydana çıxmadan çox öncələr Tur və Turan adları müxtəlif formalarda şəhər, ölkə, etnonim, hidronim, teonim adları şəklində mövcud idi.

İngilis tarixçisi və Sumeroloqu E.Norris də digər müəlliflər kimi Tur adının öntürk dilinin bir qolu olan və onun sak dili kimi təqdim etdiyi midiya dilində geniş şərhini vermişdir. Onun yazdığına görə Bisütun kitabəsinin sak mətnində "Tur" sözünün mənası oğul deməkdir, bu söz həmçinin "doğulmaq", "törəmək" "yaranmaq" anlamları da daşıyır. "Tur" və "Tar" sözləri sak dilində ekvivalentdir və mənaları oğul və doğulmaq, törəmək deməkdir. Sakların dilində oğul sözü "Tur" və "Sakri" olmaqla iki müxtəlif şəkildə ifadə olunurlar. Lakin Tur oğul mənasında eyni zamanda bir titul ifadə etdiyi halda "sakri" sadəcə oğul yəni kiminsə oğlu deməkdir. Norrisin fikrinə görə türklərin ulu əcdadı Tur adının mənası qədim turanlıların dilində sadəcə oğul anlamı daşımır, Tur Tanrıın oğlu deməkdir. (Norris E. 1852, Səh. 185)

Yuxarıda XIX əsrin görkəmli assuroloq və tarixçiləri J.Oppertin, F.Lenormanın, E.Norrisin və digərlərinin Tur, Turan və Turuq/Turqu kimi eponimlərin elmi linqvistik izahlarını nəzərə alaraq bu sözlərin sumer dilində kokret etimologiyası əsasında şərh etmək olar.

Bizim fikrimizə görə Turan sözü Y.Oppertin də qeyd etdiyi kimi bilavasitə sumer dili ilə əlaqədə izah olunmalıdır. *Tur* sözü yuxarıda da, geniş surətdə şərh edildiyi kimi sumer dilində çox mənalı sözdür və bir mənası da "oğul" deməkdir. *Tur* eponimi Sumer dilində eyni zamanda müqəddəs bir yeri adlandırmaq üçün istifadə edilən bir metafordur. Oppertin, Lenormanın və Norrisin də qeyd etdiyi kimi Tur sadəcə bir "oğul" anlamı daşımayıb "Tanrının oğlu" deməkdir.

Sumer mifologiyasmda baş allah göyüzünün tanrısı *An* adlanır. *An* bütün Sumer tanrılarının atasıdır. Tanrı *An*-ın ideoqrafik mixi işarəsi səkkiz guşəli ulduzdur. Bu səkkiz guşəli ulduz tanrı simvolu kimi bütün önəmli sumer tanrılarının adlarının önündə qoyulur. Səkkiz guşəli ulduz tanrı sözünün genəl simvolu kimi sumerin ümumi tanrı anlayışı olan *Dinqir* sözü ilə ifadə olunur. Yəni *An* və *Dinqir* göy üzü tanrısı kimi sumerin baş tanrısını ifadə edən eyni mənalı sözlərdir. Bu izahı doğrulayan əsas dəlil ondan ibarətdir ki, sumerlərin *Dinqir* tanrısı ilə türklərin *Tenqri*-si ekvivalent təşkil edirlər və hər ikisi də göyüzünü – səmanı ifadə edirlər. (J.Halloran. Sumerian Lexicon. Səh. 6)

Dinqir Sumerlərdə göyüzünün tanrısı olduğu kimi, Tenqri də türklərdə göyüzünün tanrısıdır.

Bütün bu deyilənlərdən çıxan sonuc ondan ibarətdir ki. *Turan* sözünün sumer dilində mənası "Tanrının oğlu", yəni sumerlərin göyüzü tanrısı *An*-ın və Türklərin göyüzü tanrısı *Tenqri*-nin oğlu deməkdir. Turan eponimi zamanla yer, məkan anlamı qazanmışdır. Daha doğrusu, *Turan* tanrının oğullarının, övladlarının yaşadıqları məkan anlamı daşımışdır.

Turan adının sumer dilində digər bir izahı *A-Tura* sözündə ifadə olunur. *Tura* sumer dilində doğulma yeri, yurd anlamı daşıyır, öndəki "A" isə sumer dilində "ata", "nəsl" anlamı daşıyan sözdür. Turan adı da A-Tura sözündən yaranıb və anlamı ata yurdu, doğulma və ya əcdad yurdu deməkdir. (John Halloran. 1999, Səh. 7, 74)

Sumer mifologiyasında *An* göy üzünün tanrısı və bütün tanrıların atası və babası idi. O Mesopotamiyanın digər xalqlarının da ən önəmli tanrılarından birinə çevrilmişdir. Yağışın mənbəyi kimi məhsuldarlığa səbəb olan göyüzü tanrısı Anın epitetlərindən biri də "ürətən öküz" adlanırdı.

Tanrı Anın iki oğlu var idi. Enlil və Enki və hər ikisi də ataları An kimi öküz obrazında idilər. Başlarında öküz buynuzlu tac şəklində təsvir olunurdular.

"Enki və dünya düzəni" mətnində Anın oğlu Enki "öküzdən törəmiş öküz" adlanırdı. Bu ifadə Anın öküzlə özləşdrilməsinə uyğun olaraq onun ürətmək, törətmək kimi məhsuldarlıq keyfiyyətini əks etdrir. (Renate Marian van Dijk-Coombes. 2018, Səh. 11)

Tanrı sözünü ifadə edən *An* loqoqramının oxunuşlarından biri də "böyük, əzəmətli, nəhəng" deməkdir. Bu işarənin *Dinqir* teoniminin qısaldılmış şəkli kimi qəbul edildiyini qeyd edən G.Dossi İştaran adının İltaran və ya İlturan şəklində də oxunmasının mümkün olduğunu yazır. (G.Dossin. Səh. 76-78. Kramer Annivesary Volume. Neukirchen. 1976)

Sumer dilində İl/İlu tanrı deməkdir və İlturan və ya Elturan sözünün qədim turan dilində mənası Turan tanrısı anlamı daşımaqdadır.

# Türk adı

Türk adının etimologiyası bir çox müəlliflər tərəfindən, o cümlədən də İbrahim Kafesoğlu və Reha Oğuz Türkkan tərəfindən geniş şərh olunmuşdur. (İbrahim Kafesoğlu, Reha Oğuz Türkkan. Türkler, cild 1, Ankara, 2002)

Türk adının etimologiyasına həsr olunmuş əsərlərin heç birində bu sözün Sumer dilinin semantikası əsasında şərh olunmasına hər hansı bir cəhd göstərilməmişdir.

Kolumbiya Universitetinin keçmiş professoru Reha Oğuz Türkkan Türk adının mənşəyi məsələsini şərh edərək yazır: "Türkün ilk doğuşundan bəri T+R+K kökünə dayanan təməl bir soy-irq adı mövcud olmuşdur. Kökü Tur və ya Tür olan bu ad yalnız Altaylarda və Bozkırlardakı ilk türklərdə deyil, Xəzər dənizi ətrafından Orta Doğuya, Yaxın Doğuya və Aralıq dənizinin hər iki sahilinə, ayrıca Hindistan və Tanrı dağ bölgələrinə yayılan Ön Türklərdə də sıx-sıx rastlanır. Onun Türük və Törük kimi şəkilləri də vardır". (Reha Oğuz Türkkan. 2002, Səh. 594)

V.Bartold Türk kəlməsinin Orxun yazılarında təkrar-təkrar ifadə olunan "Türü" sözü ilə əlaqədar olduğunu fərz edir. Türü/Törə qanun, adət demək olduğu kimi Türk də qanunlara riayət etməklə birlik əldə etmiş xalq anlamındadır. Xan öz xalqına Türk və eyni zamanda Oğuz və Doqquz Oğuz da deyir. (V. Bartold. C. III, 2002, Səh. 1196)

Abulqazi Bahadur xanın yazdığına görə Mərkəzi və Quzey Asiyanın xalqları Nuhun oğlu, Yafəsin oğlu Türkdən törəmişlər. Onun törəmələri arasında Monqol və Tatar adlı iki qardaşın da adı çəkilir.

Z.V.Toqan türk və tur sözlərinin etimologiyasından bəhs edərək yazırdı: "Türk sözü qüvvət mənasını ifadə edir. Turan və türk sözlərinin kökü "tur" və ya "tür" ola bilər. "Tur-an" və "Türk" adları iran və yafetik dillərdə o cümlədən Fin-oqur dillərindən macarca "an" və "k" cəm şəkilçilərinin əlavəsi ilə yaranmışdır. Bəzi qaynaqlarda "Tuz" şəklində ifadə olunan söz "Tur" kəlməsinin "z" ləhcə ifadəsinə xas şəklidir. Bu söz "yaranış-oluşum" və "intizam-qayda" mənasında işlənmişdir. İran dastanında türklərin əcdadı kimi təqdim olunan Tur və Tuz eyni adlardır. Bəzi alimlər "Turan" sözünü yunan mənbələrinə əsasən Aral gölünün arxasında yaşayan "Tur"lara aid olduğunu və onların da yanlışlıqla irani bir tayfa olduğunu fərz edirlər. (Z.V.Togan, giriş. 1981, Səh. 44 )

Türk adının mənası müxtəlif şəkildə izah edilmişdir. Türk adının "güclü, qüvvətli" demək olduğu fikrini F.V.Müller, A. Le Coq, V.Thomsen, Qy.Nemeth, L.Bazin, L.Rasonyi, L.Qumilyov və Y.Öztuna kimi bilim adamları dəstəkləmişlər.

Türk adını Tür kökünə dayanaraq "törəmiş, insan, yaradılmış" mənasında izah edənlər isə Z.V.Toğan, A.Vamberi, F.Sümer kimi bilim adamları olmuşlar. Z.Göyalp və V.Bartold Türk adını "törəli, yəni törəyə malik olan" şəklində izah edirlər.



Mahmud Kaşğari "Divanü Lüğat-it Türk" əsərində Türk sözünü "olğunluq çağına, yetişkənlik çağına çatmış" şəklində izah edir. Ərəb yazılı qaynaqlarında Türk adı ilk dəfə Cahiliyyə dövrünün VI əsr şairi Al Nabiqa əl-Zübyaninin əsərində çəkilmişdir.

Bizans mənbələrində Türk adını ilk dəfə İstanbulun fəthindən sonra İtaliyaya gedən Bizanslı Th. Qazesin İtalyan humanisti F.Filelfoya yazdığı məktubda İstanbulu fəth etməklə Türklərin öz əcdadları Troyalıların intiqamını yunanlardan aldığı haqqında bəhs edərək çəkmişdir. (C. Anadol. 1996, Səh. 12)

Fikrimizə görə Türk sozünün ilkin ifadə forması sumer dilində mövcuddur və bu söz sumer dilinin leksikası əsasında uğurla izah edilə bilər. Yuxarıda bu sözün sumer dilində ilkin variantları kimi *Turqumannu, Turqu, Turukku* və s. şəklində Oppertin, Lenormanın, Norrisin və digər böyük assuroloqların şərhində öz əksini tapdığını qeyd etmişdik. Bu böyük bilim adamlarının da qeyd etdikləri kimi, sözün kökünü *Tur* eponimi təşkil edir. Söz iki tərkibdən ibarətdir *Tur-qu* və ya *Tur-uqu*. Öncə də qeyd edildiyi kimi sumer dilində Tur sözünün anlamlarından biri də "oğul" deməkdir, sözün ikinci tərkib hissəsi isə *uq/uqu/uku* kəlməsindən ibarətdir ki, sumer dili lüğətlərində bu sözün mənası "insan, əhali, xalq, kütlə, ölkə" kimi izah olunur. (J.Halloran, Sumerian lexicon, Səh. 18)

Y.Oppertin, F.Lenormanın və keçmişin digər böyük assuroloqlarının Tur-qu eponiminin izahına əsaslanaraq bu sözün qədim deyiliş forması ilə Turuk və müasir deyiliş şəkli olan Türk və ya Türük etnoniminin də kökünü təşkil etdiyi fikrindəyik. Yəni Türk adının mənası da özünün sumer dilindəki qədim fonetik şəkli olan Turuq kimi "oğulun xalqı" və daha doğrusu yuxarıda şərh olunduğu kimi "tanrının oğlunun xalqı" deməkdir. Qədim türk dilində *uq* sözünün bir mənası da "xalq", "qəbilə", "nəsl" deməkdir. (ДТС, 1969, səh. 367)

*Tur-qu* sözünün sumer dilində digər mənası da "kutsal, müqəddəs doğum yeri" anlamı daşıyır. Yəni varlığın, kainatın yarandığı məkan. (J.Halloran, 1999. Səh. 149)

Bir çox qohum dillərdə olduğu kimi *Turqu* sözü kassi dilinə də keçmişdir.

Amerikan assuroloqu H.Hilprext Nippur məbədinin kassi arxiv sənədlərinin linqvistik təhlilini verərkən belə nəticəyə gəlir ki, Kassilərin Turqu tanrı adı iki tərkibdən ibarət olub Tur "ər" Uqu isə "arvad"dır və kainatın vəhdətini, ilkin başlanğıcını təşkil edən qadınlığı və erkəkliyi təcəssüm edirlər. Tur sumerlərin An tanrısının, Qu isə Ki tanrısını təmsil edir. Onun şərhinə görə kassilərin Turqu tanrısı sumerin yerin və göyün vəhdətini təcəssüm edən *Anki* tanrısının ekvivalentidir. (Hilprecht H. 1908, Səh. 21)

An və Ki-nin, yəni göyün və yerin birləşməsi nəticəsində kainat yaranmışdır. Hilprextin də şərhindən aydın görünür ki, Tur və Qu paralel olaraq sumer tanrılar panteonunda iki ilkin başlanğıcı, göyü təcəssüm etdirən *An* tanrısını və yeri təcəs-

süm etdirən *Ki* tanrısının ekvivalentləridirlər. Turqu kassi mifologiyasında teonim olaraq həyatın ilkin başlanğıcını, göyün və yerin vəhdətini özündə təcəssüm etdirir. Sumerlərin *An-Ki* və onun kassi ekvivalenti olan *Tur-Qu* Türklərin dini inanclarında da, öz əksini tapmışdır. Türklərin yaradılış əfsanəsinə görə kainat yerlə göyün birləşməsi nəticəsində yaranmışdır. Göy Türk dövlətinin hökmdarı Bilgə Xaqan kitabəsində yazılmışdır: "Üze Gök Tenqri Asra yaqız yer kılındukta ekin ara kişi oqlu kılınmış. (Yukarıda mavi göy, aşağıda qara yer yaradıldığında ikisi arasında insanoğlu yaradılmışdır)". (Aysun Ata. Orhun Türkcesi. Eskişehir, 2011, Səh. 159)

Sumer əfsanəsinə görə hökmdarların *Quza* adlanan hakimiyyət taxtı göydən tanrı tərəfindən endrilmişdir, yəni hakimiyyət tanrının seçmiş olduğu şəxsə tanrı tərəfindən əta edilmiş və ona *Kut* verilmişdir. Əfsanəyə görə Sumerdə hakimiyyət taxtı ilk olaraq Erudi şəhər dövlətinə verilmiş və onun ilk sahibi 28000 il hakimiyyət sürmüş *Alulim* olmuşdur. Sumer mifologiyasında *Alu* An tanrısının öküzü, *ilu* isə Tanrı deməkdir. Sözün mənası "Tanrının öküzü" anlamındadır. (Friedrich Delitzsch. 1896, Səh. 60)

İngilis assuroloqu Vaddel Sumerin ilk hökmdarı Alulimin digər bir adının Ukus olduğunu yazır. (Waddell L. 1930, Səh. 204)

Ukus sözü türkcəmizdə öküz sözünün qədim fonetik şəklidir.

Sumerdə hakimiyyətə sahiblik növbəli olmuş, hər bir şəhər bəylik dövlətinin ölkə üzərində hakimiyyət dönəmi başa çatdıqdan sonra hakimiyyət taxtı digər şəhərə verilmişdir.

Hakimiyyətin türklərə tanrı tərəfindən verildiyi Göy Türk Bilgə xaqan kitabəsində də, öz əksini tapmışdır. Bilgə xaqan kitabəsində özünün Tanrı kimi göydə yaradıldığını, Tanrı buyurduğu üçün, kutu olduğu üçün xaqan olaraq taxta oturduğunu yazmışdır. "Annem hatunu yücəltən Tanrı, vatan verən Tanrı Türk halkının adı sanı yok olmasın deyə beni o Tanrı, kağan olaraq o taxta oturtdu". (Aysu Ata. Orun Türkcesi, Eskişehir. 2011, Səh. 143, 164)

Yuxarıda qeyd edildiyi kimi Y.Oppert də Turqumannu sözünü "insan oğlu" kimi izah edir. Sumerlərin *Turqu* eponimi sonrakı dövrlərdə kassilərin Turqu kralı, Hititlərin Tarku, Etruskların Tarxon və Turan, İbranilərin Turax tanrılarının kökünü təşkil etmişdir.

Elmdə Türk adının ən qədim yazılış formasının ilk dəfə *Tu-kyu* şəklində 542-ci ildə Çin səlnamələrində rast gəlindiyi fikri hakimdir.

Çinşünas Klaprotun yazdığına görə çin dilində *r* hərfi olmadığı üçün Tür-ük adı Tu-kyu şəklində yazılırdı. Türk etnoniminin ən qədim deyiliş forması kimi qəbul olunan "Tür-ük" və ya "Tör-ök" etnonimləri "Tür", "Tör" və "ük", "ök" olmaqla iki hecadan ibarətdir. Burdakı "ük" və "ök" kəlimələri türk dilində "okoq" qəbilə mənasında izah edilir. Türük adındakı qəbilə anlamı verilən *ük* sonluğu



sumer dilində insanlar, əhali, çoxluq, insan qrupu anlamı daşıyan *uq* sözünün dəyişik fonetik şəklidir. Türk dillərindəki uqul/oğul sözü də kök etibarı ilə sumerlərin *uq-lu* sözünə bağlı olub *uq* sözünün cəm şəklidir, çoxlu insan, çoxlu kişi deməkdir. Hər halda Türk sözünün ən doğru izahı sumerlərin Turqu sözünə daha uyğundur və Türk/Turuk sözünün kökünün Turqu sözünə dayandığına inanırıq.

Alman assuroloqu F.Hommel Zaqros dağlarının şərqində Urmiyə gölü hövzəsində yerləşən hurri-subar mənşəli xalqa mənsub Turukku etnonimini Türk adının ən qədim forması olduğu fikrini irəli sürərək yazırdı ki, Turukiləri Xəzər dənizi tərəfdən gələrək Midiya dağlarında yerləşən köçəri türk tayfaları kimi qəbul etmək olar. Beləliklə, Türk adının qədim forması Turukdur. Bizans müəllifləri də bunu Turkxoi şəklində yazırlar. Türk tayfaları ilə çox yaxın qohum olan sumerlər də Midiya dağları üzərindən İkiçayarasına, Babilə gəlmişlər. (F.Hommel. 1885, Səh. 501)

Turukku etnoniminin kökü Turuk olub, ən sondakı *ku* sonluğu Sumer dilində "torpaq, yer, ərazi" deməkdir. Turuk+ku yəni Turuk ölkəsi bir çox bəylik dövlətin birliyindən yaranmış konfedarativ xarakterə malik idi. Turukku uzun müddət ərzində Mesopotamiyanın şimalındakı şəhərlərə basqınlar yapan yarım köçəri qəbilə xalqı kimi qəbul olunurdu. Qüdrətli Assuriya və Babil dövlətləri bir neçə yüz il ərzində döyüşkən Turukkulara qarşı mübarizə aparsalar da, onu tamamilə özünə tabe edə bilmədi. Aramsız Assuriya hücumları qarşısında davam gətirə bilməyən Turukkuların böyük bir qismi Zaqros dağları yaylalarında məskunlaşmış digər xalqlar kimi şərqə doğru daha təhlükəsiz ərazilərə köçməyə məcbur olmuşlar. (Kitabın sonrakı bölümlərində Turukkular haqqında geniş bəhs olunacaqdır. )

Tarixi faktlara əsasən Türk adı bir dövlət adı olaraq iddia edildiyi kimi ilk dəfə Göy Türk dövləti adında deyil Hommelin də qeyd etdiyi kimi Turuk(ku) dövlətinin adında öz əksini tapmışdır.

A.Spayser Elamın qonşuluğunda Dəclə çayının doğusunda yerləşən Tukriş ölkəsinin Qutulərə aid olduğunu yazır. Onun fikrinə görə Lullibilərlə eyni qrupa daxil olan Turukki və Tukri/Tikriş eyni adın "r" hərfinin yer dəyişməsi ilə müxtılif formalarını təşkil edir. (A.Spayser, 1930, Səh. 96)

İngilis tarixçisi F.Smithə görə Mesopotamiyada ari, sami və turan irqləri arasında qarşıdurmanı irqlər arasındakı mübarizənin yalnız bir fazasını təşkil edir. O yazır ki, Asiya sakları olan tatar və fin tayfaları tərəfindən təmsil olunan və nə vaxtsa cənubun məhsuldar ölkələrinə axın edərək yerləşən böyük Turya və ya Turan irqi hansı səbəblərdənsə yenidən Mərkəzi Asiyanın bir o qədər də qonaqpərvər olmayan ərazilərinə geri dönmüşlər. Asiyanın qərbində 1500 il ağalıq edən iskit-saklar yenidən öz ilkin vətənlərinə geri dönüşü orda yerləşmiş arilərlə qarşıdurmaya və müharibələrə səbəb olmuşdur. (Smith P. 1888, Səh. 379)

Qədim Turan irqinin bir qolunu da Kiçik Asiyada məskunlaşmış Troya və Et-

rusklar təşkil edirdilər. Tarixi mənbələrdə əks olunduğuna görə Akkad çarı Sarqonun m.ö. 2312-ci ildə Sumerə qarşı başladığı işğalçılıq yürüşü nəticəsində sumerlilərin bir hissəsi öz vətənlərini tərk edərək müxtəlif istiqamətlərə mühacirət etmişdilər. Onların bir qolu da Kiçik Asiyaya hərəkət etmiş və burada bir çox xalqların formalaşmasına səbəb olmuşdur. Etnik köklərinin köçmən sumerlərin təşkil etdiyi xalqlardan biri də Troya tayfaları və etrusklar olmuşlar.

Troyalıları türk hesab edən XV əsr bizans müəlliflərinin fikirlərinə uyğun olaraq Etruskların Troya şəhərinə verdikləri "Truia" adı ilə iranlıların türklərə verdikləri "Tura" adı arasında mütləq bir bağlılıq vardır. Hər iki ad öntürklərin mixi yazılarda ifadə olunan Tur eponimi ilə əlaqədardır.

Bir çox müəlliflər Etruskların sumer mənşəyinə malik olduqları haqqında fikirlər irəli sürüblər.

Yunanlılar Etruskların adını "Tyrrhen" şəklində yazıb "Türhen" kimi tələffüz edirdilər. Yunan əlifbası dəyişikliyə uğramadan öncə onların Etrusklara verdikləri daha qədim ad isə "Turhan" idi. "Turhan" adı Etruskların İtaliyadakı əfsanələrində dəyişik şəkillərdə əks olunmuşdur.

Anadoludan İtaliyaya köçdükləri zaman Etrusklarm başçılarının adı Turhan idi. Strabon yazır ki, "Türhen İtaliya sahillərinə yanaşdı. Eyni bölgədə on iki şəhər saldı. Bu bölgə Türhenia adlandı. Türhen bu on iki şəhərin idarəsini Tarkhon adlı başçıya həvalə etdi. Şəhərlərdən birinin adı da Tarkhinia idi. Başçı Tarkhon hələ uşaq olduğu zamandan ağlı ilə ətrafdakıları təəccübləndirdiyi üçün əfsanədə ağ saçlarla doğulduğu qeyd olunmuşdur". (Adile Ayda, 1987, səh. 153)

İtaliya və etrusklar haqqındakı bölümdə bu haqda geniş bəhs ediləcəkdir.

Eramızın I əsrində yaşamış Romalı tarixçi Pomponiy Mela Herodotun öncə qeyd etdiyi yirklərin yerləşdiyi ərazilərdə, Volqa və Ural çayları boyunca yaşayan Turcia adlı tayfalardan bəhs edir

Herodot etruskların kökünü Kiçik Asiyaya bağlayır. Kiçik Asiyadan köçərək İtaliyaya gedən etruskların da kökü Tirasa bağlıdır. Yunan mifologiyasında Turas Troyanın ilk çarı və şəhərin əsasını qoyandır. Homer Turası yunan variantına uyğun olaraq Ares adı ilə təqdim edir. Yunan mifologiyasında Turos/Ares Trakyanın patronudur. Son genetik araşdırmalar nəticəsində etrusklarm Kiçik Asiya kökənli olduqlarının sübut olunması Herodotun versiyasını təsdiq edir. Etruskların adı da (latınca Etrusci) və ya qədim yunanca tirren/tirsen traklarla eyni kökdən gəlir. Etrusk adındakı "e" ön şəkilçidir və sözün kökü "trusk"-dur.

Ünlü italyan tarixçisi Luici Pareti "Le origini degli Etruschi" adlı əsərində yazır ki, "Bizanslı Stefanosa görə Tarkhon Tarkhinia şəhərinə öz adını vermişdir. Tarixçi Virqilə görə Tarkhon Etruskların Lidiya mənşəli başbuğu və Eneanın müttəfiqidir. O, Turhanın qardaşı, Heraklın isə nəvəsidir. Digərləri isə Tarkhonu Turhanın oğlu hesab edir. "Beləliklə, Paretinin verdiyi məlumatda Etrusklardan iki kralın adının



Tarkhun olduğu meydana çıxır. Bu ad iki tərkibdən ibarətdir Tur və Khan, Tur türklərin ənənəvi eponimi "khan" isə hökmdar ünvanıdır. (Adilə Ayda, səh. 154-155)

Türklərdə əkinçilik tanrısı Tari adlanırdı. Bu ad türklərdə əkinçiliklə əlaqədar bir çox sözün kökünü təşkil edir. Tarla, Tarım, Tariq, Taril, Tariqlıq, Tarı kimi sözlər həmin kökə bağlıdırlar. Kilikiyada əkinçilik tanrısı Tarhun adlanırdı, Hititlərin məhsuldarlıq tanrısı da Tarxuna adlanırdı. Türklərdə hakimiyyət mənsubu təbəqənin nümayəndələri Tarxan ünvanı daşıyırdılar. Romanın etrusk mənşəli aristokrat sülaləsi Tarkuniya adını daşıyırd. Bu adın kökünü Kiçik Asiyadakı turanlı öntürklərin Tarku tanrısı təşkil edirdi. (Yusif Ziya Özer. 1932, Səh. 360)

Türk adı ilə bənzərlik təşkil edən və onun dəyişik fonetik şəkli olan Turşa və Turuska adı həm Misirdə, həm də Hindistanda türklərlə əlaqələndrilən qədim eponimlərdir.

Turshalar e.ə. II minilliyin ikinci yarısında Misirə hücum edən və qədim müəlliflərin "dəniz tayfaları" adlandırdıqları tayfalardan biridir. Tursha adı iki tərkibdən ibarətdir, Tur-sha. Tur türklərin ənənəvi eponimi "sha" isə "sak" kəlməsinin qarşılığı, daha doğrusu Tursak adının dəyişik formasıdır.

Tursak eponimi Sumer mətnlərində də keçir və mənası Sumer dilində nəvə, yəni oğulun oğlu, digər bir anlamı isə oğulların rəhbəri-başçısı deməkdir. (J.Halloran. 1999, Səh. 45, 110)

Avesta Hindistanın sanskrit dilinə çevrildiyi zaman Tur adının qarşılığı kimi Turuşka adından istifadə olunmuşdur. Bu onu göstərir ki, hindlilər Sakları Tursak adlandırmışlar. İtaliyada latınlar Etruskları Tyrrhen adı ilə yanaşı "Tusc" adı ilə də adlandırırdılar. Lakin İtaliyanın bəzi yerlərində aşkar edilmiş yazılarda Etrusklara Turscı də deyildiyi məlum olmuşdur.

Bütün bu deyilənlərə nəticə vuraraq qeyd etmək labüd olur ki, Etrusklar, Chоular, Basklar və Turshalar da Saklar idilər ən doğrusu isə Türk saklar idilər. (Adile Ayda, 1987, səh. 160)

Hititlərin baş tanrısı olan Tarkuya Kiçik asiyanın bir çox xalqları tərəfindən etiqad olunurdu ki, bu onların etnik mənşə baxımından qohum olduqlarını sübut edirdi. Kiçik Asiya xalqları içərisində Tarxun adı geniş yayılmışdı. (Eduard Meyer. 1913, Səh. 702)

Hititlərin və Urartuluların tanrısı Tarku adı Bibliyada İbrahim peyğəmbərin atasının Terah adına çox bənzəyir. Tarku adı Hititlərin tanrı adı kimi II Ramzesin mətnlərində də Trq-Turuk şəklində ifadə olunub.

Assur mətnlərində əks olunmuş "Turahu" Suriyadakı Turakhi dağının adı ilə İbrahim peyğəmbərin atası Terah adının variantı olduğunu müasir tədqiqatçılar tərəfindən şərh olunur. Terah Sumerin Ur şəhərində doğulmuş sonradan Harrana

köçmüşdü. Terahın adı Quranda Azər şəklində ifadə olunmuşdur. Terah Tura adının, Azər/Adar isə yenə sumerlərin Atura eponiminin fonetik şəkilləridir.

Eduard Meyer də diqqəti Tur kökünə bağlı bir çox eponimlərə yönəldərək yazır ki, Kassilərın tanrılarının da adı Turqu idi. Etruskların tanrısının da adı Tarxon idi. Tarxunta adı yenə hititlərdə mövcud idi. (Eduard Meyer. 1913, Səh. 705)

P.Jensen Hitit mətnlərindəki Tarkunun Urmi ölkəsinin krallar kralı-şahlar şahı adlandığını yazır. O, Tarxunun hititlərdə tanrı adı olduğunu da vurğulamışdır. (Jensen P. Hittiter und Armenier. Səh. 51)

Friqiya və Trakiyalıların da Tarxu adlı tanrıları vardı. Tarxu hattilərin göyüzü tanrısı idi və Assur mətnlərində qeyd olunan Tarku tanrısı hattilərin ildırım və hava tanrısıdır. (Jensen P. Hittiter, Səh. 151-153)

Hilprextə görə Kassilərdəki Turqu adı bir tanrı adı idi. Hilprext Kassilərin Turqu tanrı adının Assur-babillərdə Bel və sumer-akkadlarda Anu tanrısı kimi eynilə göyüzü tanrısı olduğu fikrini irəli sürür. O, İbranilərin peyğəmbəri İbrahimin atası Terah və ya daha qədim forması olan Terih adının Tarxu adı ilə eyni olduğunu mümkün hesab edir. (Jensen P. 1898, Səh. 153)

Görkəmli alman tarixçisi və assuroloqu Eduard Meyer Turşalar haqqında yazırdı ki, hər iki Tursen və Etrusk sözünün kökü "Turs" və ya "Trus" olub və ondan "E-trur-ia" adı yaranıb. Hər iki adın şəkilçisiz kökünü "Turşa" və ya "Turuşa" təşkil edir. Turşalar Misir fironları Meneptah və III Ramzesin dövründə digər quldur dəniz tayfaları ilə birlikdə Nil vadisinə hücumlar təşkil etmişdilər. Herodot etruskların Lidiya mənşəli olduqlarını yazır. Etrusklar şərqdən qərbə doğru səfər edərək Ege dənizində quldurluqla məşğul olmuş və sonra dənizin məskunlaşmamış adalarını zəbt etmişlər. (Eduard Meyer. 1892, Səh. 27)

Aleksandr Virth Turşaların Kilikiyadan və ya Lemnosdan gəlmiş olduqlarını yazmışdır.

Herodotun yazdığına görə Tirren Atisin oğlu idi. Tarxon isə Tursenin qardaşı idi. Tarku və Tarxu adları arasında boyük bənzəyiş var. Həmçinin Anadoludaki Tarku ilə etruskların Tarqusu arasında bənzəyiş diqqət çəkicidir. Misirlilərin bəhs etdikləri Turşalar böyük yəqinliklə Turklərdir. (Hall H.R. 1913. Səh. 336)

Tur və Turan adının geniş surətdə təsbit olunduğu ən qədim areal Ön Asiyadır. Tur sözü ən qədim deyiliş formasında dünya mədəniyyətinin beşiyi olan Sumer dilində mövcud olmuş sonradan digər Ön Asiya xalqlarının dillərinə keçərək müxtəlif mənalarda işlənmiş, müxtəlif xalqlara məxsus olan bir çox tanrı adlarının və eponimlərin kökünü təşkil etmişdir. Qədim mixi yazı mətnlərdə sumerlərin şimali-şərqdəki dağlıq ölkədən gəldikləri yazılmışdır ki, bu həqiqətə daha uyğundur və həmin istiqamətdə dağlıq ölkəsi Aratta Azərbaycanda yerləşmişdir. Aratta ilə sumer arasında bir çox bənzərliklər mövcuddur. Sumer və Arattanın "Enmerkar və Aratta hökmdarı" adlı birgə eposlarında hər iki ölkənin hökmdarı İnanna ilahəsinə etiqad edir və hər biri onu öz ölkəsində sakin etmək haqqında mübahisə edirlər. Hər iki hökmdar sumerə xas ad daşıyırlar, Urukun hökmdarı Enmerkar, Arattanınki isə Ensuhkeşdannadır. Aratta sözünün Sumer dilində mənası "hakimiyyət verən", "güç verən", "yüksək, alicənab" deməkdir. (F.Delitzsch. 1914, Səh. 10)

Sumerlər hakimiyyətin tanrı tərəfindən Aratta dağların arxasında verildiyinə inanırdılar.

İranşünas Abayevin fukrinə görə Avestadaki tur terminini öz ümumiləşdirici əhəmiyyətinə görə qədim iran kitabələrindəki sak-iskit termininin ekvivalenti kimi qəbul etmək olar.

E.ə. 133 və 125-ci illər arasında Turan tayfaları olan alanlar, massagetlər, saklar və xionlar Tarım hövzəsindən və Orta Asiyada Qara dənizin şimalına mühacirət etdilər. Eradan qabaq II əsrdə isə digər turan tayfaları olan soqdlar və uturqurlar da Tavriya (Krım) yarımadasına köçdülər.

Don və Dneprin arasında məskunlaşaraq at ilxıları və üzərində çadırlar olan öküz arabaları ilə bir yerdən digər yerə köçəri həyat sürən iskitlər turanlılar idi. Müsəlman müəlliflərinin əsərlərində sak türkləri seqzi və saklab adları ilə də təqdim olunurdular.

İskit/sakların turan tayfaları olduğunu türk mənşəli İranlı tarixçi İtümadüs-səltənə də qeyd edir: "Sakalar və ya Saq Turanlı boyların qollarından biri idi. Onların yaşadığı yer doğudan Türkistan, güney-doğudan İmaus dağları (Kaşqarı Hotanla ayıran Tyanşan dağları), şimaldan Tatarıstandı. Onlar aynı Seqzi elidir ki, Sistanda yaşamışdır və bundan dolayı da Sistanı Seqistan adlandırmışlar". (M.T.Zehtabi, 2010, Səh. 198)

Beləliklə, Avestada qədim iran dilində şimalda soyuq ərazilərdə yaşayan köçəri xalqlar, yəni türklərin tura adı sonrakı dövrlərdə sak sözü ilə əvəz olunmuşdur. Buna baxmayaraq, türklərin ölkəsinə şamil edilən Turan adı uzun illər ərzində yaşamağa davam etdi. Sasanilər dövründə Türklərin yaşadıqları ərazi Turan adı ilə ifadə olunurdu. Bu Şahnamədə və digər iran dilli ədəbiyyatda da öz əksini tapmışdır.

Yuxarıda da qeyd etdiyimiz kimi Tura və Turan sözünün kökü Tur eponimindən yaranmışdır.

Riçard Frayın fikrinə görə islamın qələbəsindən sonra türklər haqlı olaraq daha erkən əcdadları olan turlarla eyniləşdirilmişlər. Onun şərhinə görə Turan sözü Turan olmaqla iki tərkibdən ibarətdir, iran dilində "an" sonluğu "Tur"un cəm şəklini bildirdiyi kimi eynilə də "k" sonluğu da türk dilində "Tur"un cəm formasıdır. Tur kəliməsi yəqin ki, Mərkəzi Asiyadakı qədim prototürklərin hansısa bir totemini əks etdirir. (Р.Фрай. 2002. Səh. 66)

B.Landsberqer "an" sonluğunun quti və kassilərə aid olduğunu və mənsubiyyət və cəm şəkilçisi olduğunu yazır.

Riçard Frayın bəhs etdiyi bu totemin öküz və ya buğa ola biləcəyi ehtimalını doğurur. Öküzün türk tayfalarının totemi olduğu haqqında çoxlu faktlar mövcuddur. Mənbələrdən əldə olunan bilgilərə görə hunların şanyuy hökmran sülaləsinin totemi öküz olmuşdur və əfsanəyə görə öküz (maral) hunların hərbi yürüşlərində onlara yol göstərmişdir.

Tatar tarixçisi R.Muhəmətdinov "Dünya sivilizasiyası tarixində Türklər" adlı əsərində təqdim etdiyi linqvistik cədvələ əsasən hind-avropa və sami dillərində öküz mənasında işlədilən "Tur" sözünün türk mənşəli olduğu fikrini müdafiə edir. (Р. Мухаметдинов. 2018)

Türk dillərinin bir çoxunda əhliləşdirilməmiş cavan öküz və buğa mənasında Tur, Tor sözləri geniş yayılmışdır. Altay və qırğız türklərinin dilində Torbak cöngə mənasında işlədilir. Qırğız və saqay türklərinin dilində "Tur" sözü həm doğmaq, həm də dana, gənc öküz anlamı daşıyır. (В.В.Радлов. T 3. 1998, Səh. 594, 725)

Qırğız və qazax dillərində Tur/tor sözünün bu anlamı sumer dilindəki *Tur* sözü ilə ekvivalent təşkil edir. Sumer dilində Tur sözünün oğul mənası körpə, bala, cavan heyvanlara da şamil edilir. Şimercə Qutur bala öküz deməkdir. (J. Halloran. 1999, Səh. 45)

Altay, teleut, saqay, şor, uyğur türklərinin dilində "Tura" sözü bina, ev, məskən və şəhər mənasında işlədilir ki, Tom Tura-Tomsk şəhəri, Aba Tura-Kuznetsk şəhəri, Bi Tura-Biysk şəhəri deməkdir. Bu sözdən düzəltmə "Turalı" sözünün mənası evi olan, məskun, şəhəri olan; "Turalık" isə əhali, məsgən salmaq mənasındadır. (В.В.Радлов, 1998, Səh. 727)

Turanın və Türkistanın İpək yolu üzərində yerləşən qədim şəhəri olan Turfan uyğur türklərinin dilində (Tur-pan) Turların vətəni, məskəni mənasındadır; "turlak" isə məskən, yurd deməkdir. Uyğurların keçmişdə İli çayı sahilində yaşayan oymaklarından biri "tarançı" (turançı) adlanırdı. (Уйгурско-русский словарь. M. 1968)

Əbülqazinin "Türkmənlərin şeceresi" əsərində Oğuzun qızıl çadırdakı fəxri yeri Tor/Tur adlanırdı və bu yerdə Oğuzun böyük oğlu Gün xan otururdu. Oğuz xanın törəsinə görə hökmdar çadırında iki Tor ola bilməzdi. Oğuzun oğlanlarından olan nəvələrinin ikisinin adı da Turbatlı və Turumçi idi.

Beləliklə, türklərin heyvandarlığı hind-avropalılardan və samilərdən öncə mənimsədiyi faktı onların dil quruculuğunda da birinciliyini şərtləndirir.

Sumer dilində Tur sözü Türk dillərində daşıdığı mənaya uyğundur və Tur/A-Tura, həmçinin müqəddəs yer, doğulma yeri, ziyarətgah, pir, məbəd anlamı da daşıyır. (J.Halloran. 1999, Səh. 49, 74. )

Qədim rus mifologiyasında öküz timsalında olan "Tur" Günəş, bolluq, bərəkət tanrısı idi, öküzü və günəşi təmsil edirdi. Homer də yunan allahı Aresi əslində



olduğu kimi Turos adlandırır. Sumer dilində günəş tanrısı Utunun simvollarından biri də öküz idi.

Şərqi Avropada Macarıstan və Qalisiya Tura olan etiqadın əsas mərkəzini təşkil edir. Qədim bulqarlarda günəş allahı Torku adlanırdı və ona qurbanlar verilirdi. Rumınlarda da qədim tanrılarından biri Turka adlanırdı.

Türklərin və turanlıların ulu əcdadı kimi qəbul edilən Tur tarixdə bir çox xalqların və etnik birliklərin eponimini, yəni ilkin əcdadını təşkil edir.

Skandinav və alman saqa/dastanlarında dünya xalqlarının bir çoxunun etnogenetik əfsanələri öz əksini tapmışdır. Şimali Avropa xalqlarının mənşəyi və dili haqqında orta əsrlərə aid traktatda Tor (Tur) və onun oğlu Odin skandinav xalqlarının ulu əcdadı adlandırılır: "Bütün mötəbər tarixlərin başlanğıcında yazılır ki, Avropanın şimalını türklər (Tyrkir) və Asiyadan olan insanlar (Asia menn) məskunlaşdırmışlar. Ona görə də inamla demək mümkündür ki, Sakslandda, Danimarkada, Svitodda (İsveçdə), Norveçdə və qismən də İngiltərədə yayılan və bizim şimal adlandırdığımız dil də onlarla birlikdə gəlmişdir. Bu xalqın başçısı Torun oğlu Odin idi, onun çoxlu oğlu var idi. Çoxlu insanlar öz köklərini ona bağlayırlar". (Снорри Стурлусон. M. 1980)

Odin as xalqının başçısıdır və traktatda aslarla türklər eyni xalq kimi təqdim olunur. Asların skandinaviyaya gəlmədən öncə yaşadıqları Kiçik Asayadakı əraziləri traktatda "Qotland", yəni tanrıların ölkəsi adlanır. Asların ilkin vətəni Böyük Svitod, yəni Böyük Skifiya adlandırılır ki, bu o deməkdir ki, onlar Troyanı da Skifiya hesab edirlər. Asların başçısı Odin və oğlanları gözəl simaya, sarsılmaz gücə malik olub müdrük, sehrbazlıqda mahir, mükəmməl adamlar olduqlarına görə insanlar onlara inam bəsləyərək özlərinin tanrıları adlandırır və qurbanlar kəsirdilər. (Мельникова E.A. 1986. Səh. 95)

Sturlusonun "Kiçik Edda" traktatında "Türa" Odinin oğlu, qurdun əmizdirdiyi "tək qollu As" və asların döyüş tanrısı adlanan kralıdır. Odinin digər bir oğlu kral Toradır ki, o "Odinin torpaqdan doğulan oğludur", "Asqardın və Midqardın müdafiəçisidir" (Снори Стурлусон. 1970. Səh. 78)

Turanlıların ulu əcdadı Tur Bibliya geneoloji əfsanəsində Tiras (Turas) və yunan variantı ilə Firas adlanır. Tiras Nuhun nəvəsi və Yafəsin ən kiçik yeddinci oğludur. Yəhudi tarixçi İosif Flavinin yazdığına görə Tiras bir çox xalqların, o cümlədən Trakların/frakların, Rifat, Aşkenaz və Torqomun əcdadıdır.

Skandinav saqalarında Trakiya konkret şəkildə skandinavların tarixi vətəni kimi göstərilir və traklar (frakiyalar) isə türklər adlandırılır və Bibliyada xalqların genealogiyasına uyğun olaraq yazılır: "Tirakiyada əvvəlcə Nuhun nəvəsi və Yafəsin oğlu, Tiras (Firas) yaşayırdı. Ondan Türklər (Tyrkir) adlanan xalq yarandı. Qədim kitablarda yazıldığına və insanların da dediklərinə görə bu torpaqlardan gələn Svitodlar (İskitlər) Norveçi, Danimarkanı, İslandiyanı və Qrenlandiyanı məs-

kunlaşdırdılar". (E.A.Мельникова, 1986, Səh. 96)

Rus tədqiqatçısı Andrey Leonova görə Kiçik Asiyadakı və Balkanlardakı "tr" və "trk" köklü etnonim və toponimlər turan və sak mənşəlidir. (A.Леонов. Mega-matrix.ru)

Fredeqardın "Xronika" əsərində türklərin franklarla birlikdə Troya mənşəli olduqları yazılmışdır.

Turlarla əlaqədar digər bir avropa xalqı franklardır. Frank Trak adının yunanca oxunuşudur. Avropa tarixinə həsr olunmuş anonim "Fredeqar Xronikası" əsərində Frankların mənşə etibarı ilə Troyadan olduqları yazılmışdır. Troya müharibəsindən sonra kral Eney İtaliyaya, troya xalqlarından biri olan frankların kralı, Priam isə Makedoniyaya mühacirət etmişdir. Eneydən sonra oğlu Askaniy kral oldu. Askaniyin oğulları Rom və Romul Romanın əsasını qoydular. Priyadan sonra kral olan Frankion (Friq) Frankların əcdadı idi və Frakiya onun adı ilə adlanmışdır. Frakiya və Trakiya eyni ölkənin müxtəlif yazılış formalarıdır. Kiçik Asiyada bir sıra dağıdıcı muharibələrdən sonra Franklar Avropada Dunay və Reyn arasında məskunlaşdılar. Frankların üçüncü qolu türklər idi, onlar Dunay çayının sahilində Frakiyanın qonşuluğunda yerləşmişdilər və kralları Turko idi. Franklarla onların arasında savaş oldu və türklər qalib gəldilər. Fredeqard Türklərin mənşəyini Troyaya bağlayır və bu şəcərəyə görə ən böyük german tayfaları olan franklar Britaniyanın əsasını qoyan britlər türklərlə eyni Troya kökünə malikdirlər. (Хроники Фредегарда. 2015. Səh. 88-89)

Britaniya tarixini qələmə alan Nenniy və Monmutlu Qalfrid də britlərin kökünü Troya çarı Priama bağlayırlar.

Altay türklərinin mifologiyasında tur maral obrazındadır. Sibirdən başlayaraq Şərqi Avropa da daxil olmaqla böyük bir ərazidə Tur eponimi ilə əlaqədar yüzlərlə coğrafi adlar mövcuddur. Tur adını özündə əks etdirən əsas mərkəz isə Macarıstandır.

Slavyanların xristianlığa qədərki paqanizm-bütpərəslik etiqadında günəş və bolluq tanrısı olan Tura inam mühüm yer tuturdu. "İqor polku haqqında dastan"-da knyaz Vsevolod döyüşkən, igid mənasında "Bay-Tur", "Yar-Tur" epitetləri ilə şöhrətləndirilir. Bu epitetlər təmiz türk mənşəlidir və peçeneq-polovets başbuqlarına aiddir, onların mənasını rus dilində izah etmək uğursuz cəhddir. Hər iki söz Tanrı Tura olan ehtiramı və şöhrətləndirməni, sevgini ifadə etməkdədir. Bay-Tur türk dilində əzəmətli, möhtərəm, səxavətli Tur deməkdir, Yar-Tur isə türkcə sevimli, əziz Tur mənasındadır.

Ruslar Tura olan etiqadı uzun əsrlər boyu qonşuluqda iç-içə yaşayaraq qaynayıb qarışmış olduqları qədim türklərdən, xüsusən də savir-bulqarlardan əxz etmişlər.

Tur eponimi ilə bağlı ən çox topoformat qədim türk yurdu olan Çelyabinskidədir (türkcə Çələbi). Misal üçün Turat, Turqayak, Baştur, Buytur, Balatur, Turatau, Turataş, Turxay, Turxan, Turnovo və s. toponimlər burda geniş yayılmışdır.

Tur tanrısının yayılma arealı çox genişdir. Bolqarıstanda onu Torku, Rumınyada onu Turka adlandırırlar, etrusklar onu Turmsa, xettlər Tarxu, assurlar Toura, keltlər Taranisa, skandinavlar isə Tora adlandırırlar. Danimarkada qədimlərdə Tura tanrısına heykəl ucaltmışdılar. Vaxtilə frankların köçüb yerləşdiyi Fransada Tur eponimi ilə əlaqədar Tur şəhəri və troyalılarm və etruskların köçüb məskən saldıqları İtaliyada Turin şəhəri mövcuddur.

Kassilərdə Tura yeraltı dünyasının tanrısıdır, hurri dilində bu söz *turi* şəklində ifadə olunur və aşağı deməkdir, xatti dilində *enna turina* "cəhənnəm tanrısı" adlanır, hurrilər bu tanrını Teşub, urartular Teyşeba adlandırırlar. (Arnaud Fournet. 2011, Səh. 4, 9)

Taru Xattilərdə atatanrı və göyüzü tanrısı idi, Tarunun simvolu öküz-buğa idi. Taru tanrısı xattilərdə Taru Katta, yəni əzəmətli, böyük Taru şəklində ifadə olunurdu. (PiotrTaracha. 2009, Səh. 53. )

Katta sözü dilimizdə də, ağa, başçı, böyük anlamında işlədilir.

Uqaritlər xattilərin Taru adını öküz anlamında Tur kimi ifadə edirdilər. Kökü Sumerlərə bağlı olan cavan öküz anlamındakı Tur sözü bir çox xalqlar tərəfindən mənimsənilərək geniş yayılmışdır.

Qədim kökləri Tur eponimi ilə bağlı olan türk xalqlarından biri tatarlar, qədim bulqarlar, qaraçaylar və balkarlardır. Balkar ərazisində Totur eponimi ilə əlaqədar çoxlu toponimlər və şəxs adları mövcuddur: Totur, Toturkala, Totur dağı və s. Totur balkar türklərində islamaqədərki tanrı adıdır və ona həsr olunan çoxlu dualar bu gün də söylənməkdədir. Mart ayı Toturnu al ayı adlanır və yazın gəlməsi ilə yeni il Totur bayramı bu ayda qeyd olunur. Balkarlarda qəhrəman sərkərdə olan Totura nəğmə və özəl bir "Döyüşçü Totur" rəqsi həsr olunmuşdur. Totur-Aştotur qaraçay və balkarlarda qurdların tanrısı, himayəçisidir. Ona mart ayında qeyd olunan Toturtoy bayramı həsr olunmuşdur və qoyun sürülərini qurdlardan qorumaq üçün ona dualarla müraciət olunur. Həmçinin ovçuların da himayəçisi olan Toturun qurdları düşmən sürülərinin üzərinə göndərə bilmək qüdrətinə malik olduğuna inanırdılar. Balkariyada Donqat qaya adlanan yerdə Aştotur adlanan müqəddəs daş var, həmin daş qurdların və ovçuların himayəçisi Totura məxsusdur. (Veb resurs: www.tatur-su-ВадимТатур. Тотур-покровитель волков Ашин)

İngilis tarixçisi Eduard Parker "Tatarlar" kitabında Hunların Mode xan dönəmində hakimiyyət uğrunda mübarizədə ona rəqib olan Tartur haqqında bəhs edir və onu sonradan haqqında Marko Polonun da bəhs etdiyi ağ tatarlar adını almış Tarturların başçısı olduğunu qeyd edir. Parkerə görə tatar etnonimi Tartur adından törəmişdir. (Едуард Паркер. 2010, )

Qədim Bulqar türklərinin tarixini tədqiq edən Riza Bariev Çinin şimalında möv-

cud olmuş syanbiləri şimali çin bulqarları, hunları isə onların varisləri hesab edir. Sonradan Volqa çayı ətrafında Bulqar adlı öz dövlətlərini yaradan bulqarların xanlarından biri Tatur adlanmışdır. Bulqar və polovets (qıpçak) türklərinin məskən saldıqları bir çox ərazilərdə Tatur eponiminə rast gəlmək olur. Macarıstan ərazisini təşkil edən Karpat dağının şimal hissəsi Tatur (Tatra) adlanır ki, vaxtilə burda kuman-qıpçaqların məskunlaşdıqları məlumdur. (Р.Х.Бариев. 2005)

Qıpçaq ordasının xanı Atrak (Taturun babası) gürcü çarı IV Qurucu Davidin dəvəti ilə onun müttəfiqi kimi Səlçuklara qarşı mübarizədə 40 minlik qoşunu ilə onun xidmətinə daxil olmuş və indiki Qazax-Borçalı bölgəsində hətta Tiflisdən Bərdəyə qədər olan ərazidə yerləşmişdi. David Atrakın qızı Turanduxt (Turan qızı) ilə evlənərək qıpçaqlarla qohumluq əlaqəsi qurmuşdur. Ona görə də Gürcüstan xronikası "Kartlis tsxovreba"da həmin ərazi taturların yaşadığı ərazi və azərbaycan türklərini də tatarlar adlandırmaqdadır. (Жизнеописания царя Давида. 1990. Səh. 134)

Türk xalqlarının ulu əcdadı olan Tur islamın təsirinə məruz qalmayan və qədim özəlliyini qoruyub saxlayan çuvaş türklərinin dini inanclarında onların tək tanrılarının adı kimi "Tura" şəklində ifadə olunmuşdur. O dünyanın yaradıcısıdır və göyün ən yüksək qatında yerləşir, onu "pireşti" adlanan xeyir ruhları əhatə edir. Tura öz şimşək çakici ilə zindana vurduğu zaman şimşək yaranır və o bu şimşəklə yer üzündəki şər qüvvələri məhv edir. Çuvaşlarda Türe/Tura teoniminin mənası Göyüzü Tanrısı demək olub erkək və ata başlanğıcdır. Çuvaşlar Tura ancaq ağ rəngli heyvan qurban kəsirlər. Çuvaş mifologiyasında Turun epitetlərindən biri Ene Tura inək Tanrısıdır və ana başlanğıcdır. Tura daima şərin təmsilçisi olan Şeytanla mübarizə aparır.

Etimoloji olaraq Öküz anlamı daşıyan və öküz obrazında təsvir olunan Tur bir çox xalqların dini inanclarında Tanrıdır. Hind-avropa tezisinin tərəfdarları Tur sözünün sanskritcə tura sözündən yarandığını və güclü, möhkəm, qüvvətli anlamı daşıdığını iddia edirlər. Lakin hind-avropalı arilər tarix səhnəsinə qədəm qoymadan öncə "tur" sözü çox mənalı söz kimi sumer və Ön Asiyanın digər turanlı öntürklərin dillərində mövcud idi. Sumerlərin cavan öküz mənasında ifadə etdikləri Tur sözü sonradan digər dillərə keçərək vətəndaşlıq qazanmışdır. Tanrı Tur sumerlərdə günəş tanrısı Utunun öküzü idi.

Dilimizdəki Bahadur adının guya sanskritcədəki baha-tur sözündən yarandığı fikri yanlışdır. Öküz anlamında olan Buqaş Ön Türklərin qədim qolunu təşkil edən kassilərin dilində buğa deməkdir və onların ən önəmli tanrılarıdır. Buqatur sözünün mənası kassi dilində "tanrının oğlu" deməkdir və bu Sumer dilindəki eyni məna daşıyan Qutur sözünün kassi dilində ifadə şəklidir. (Kassilərə həsr olunmuş bölümdə bu haqda geniş bəhs olunacaqdır.)

Ruslarda xristianlıqdan öncə Bay Tur tanrısı nəhəng öküz şəklində təsvir olunmuşdur ki, heç şübhəsiz bu qədim türk miflərinin təsiri ilə formalaşmışdır. Tur öküz anlamındadır və günəş tanrısını və bolluğu təmsil edir. Qədim almanlarda da xristianlıqdan əvvəlki tanrıları olan Tür mənşə etibarı ilə türk aslara məxsusdur, o, Odinin bacısı, nəhəng qadın Qimirdən doğulan oğludur. İskitlərin də Qoytosir tanrı adının mənası Göy Tanrı anlamındadır.

Mənşə etibarı ilə Öntürklərə mənsub olduqları bir çox müəlliflər tərəfindən sübut olunan Hurrilərin dilində də tur sözü öküz/buğa və erkək mənasındadır, hurri dilində həmçinin tur-oksə cavan öküz, dana mənasında işlənir. (И.М.Дьяконов; С.А.Старостин. 1988, səh. 188)

# IV FƏSİL. Turanlı Öntürklərin ilkin vətəni

Müasir dövrdə Ön türklərin və ümumilikdə turanlıların ilkin vətəni məsələsi elmdə müəyyən mübahisələrə fikir ayrılıqlarına səbəb olmuşdur. Türklərin və turanlıların ilkin vətənləri haqqında Altay nəzəriyyəsi və ya hipotezi uzun illər ərzində elmdə hakim mövqeyə malik klassik nəzəriyyə kimi mövcud olmuşdur. Bu hipotezə görə Türk xalqlarının ilkin vətəni Altay dağları ətrafı olmuş və onlar burdan tədricən bütün dünyaya yayılmışlar.

Lakin müasir dövrdə türk xalqlarının etnogenezi və ilkin vətəni ilə əlaqədar Altay nəzəriyyəsini təkzib edən bir sıra tezislər ortaya atılmışdır. Bunlardan biri də, Ön Türklərin ilkin vətənlərinin Ön Asiya, Zaqros dağları və Urmiyə gölü ətrafı olduğu haqqındakı tezisdir. Bu tezisin tərəfdarlarının fikirlərinə görə bir etnos kimi Ön Asiyada meydana çıxan ön türklər burda bəşər sivilizasiyasının əsasını qoymuş və dünyaya, o cümlədən Mərkəzi Asiyaya burdan yayılaraq mədəniyyətin ümümi inkişafına təkan vermişlər.

Azərbaycanda Altay nəzəriyyəsinin ən qatı əleyhdarı prof. Firudin Ağasıoğludur. O öz tərəfdarları ilə birlikdə "Urmu teorisi" adlı yeni bir tezis irəli sürmüşdür. Bu tezisə görə öntürklərin vətəni güman edildiyi kimi Ural-Altay ərazisi deyil Ön Asiya və Cənubi Qafqaz regionu və konkret olaraq Urmu gölü ətrafıdır. Lakin bu tezis bir mənalı olaraq qəbul görmür.

Əbülfəz Elçibəy Azərbaycanda Milli azadlıq hərəkatının lideri və ikinci prezident olmaqla yanaşı görkəmli tarixçi bilim adamı kimi Türklərin və o cümlədən Azərbaycanın qədim tarixi haqqında çox dəyərli fikirlər irəli sürmüşdür. O, çağdaş tarixi araşdırmalara əsaslanaraq tarixdə ilkin bəşər mədəniyyətinin mənbəyini təskil edən üc qədim mədəniyyət mərkəzinin mövcud oldugu fikrini irəli sürür. Elçibəyin təklif etdiyi tezisə görə bəşər mədəniyyətinin yarandığı ilk mərkəz ən qədim insan məskəni Ceyhun (Amudərya) və Seyhun (Sırdərya) çaylarının hövzəsi, Aral gölünün ətrafı və Turan ovalığı olmuşdur. Dünyada mədəniyyət ilk dəfə burada mərkəzləşmişdir. Ona görə də bir vaxtlar "Tarix Sumerdən başlayır" dediyimiz halda, indi tarix elmi bizdən "tarix Orta Asiyadan", ya da "Turandan başlayır" deməyi tələb edir. Bu ilk mədəniyyət mərkəzinin yaranma və varolma tarixi e.ö. X-VI minillikləri əhatə edir.

Bəşəriyyətin ikinci qədim mədəniyyət mərkəzini Kür-Araz mədəniyyəti təşkil edir. Bu mədəniyyətin mövcudluğu ilk dəfə 1940-cı ildə Azərbyacanda aparılan arxeoloji qazıntılar nəticəsində əldə edilən materiallara əsasən müəyyən olunmuşdur. Onun Kür-Araz mədəniyyəti adlanması e.ö. IV-III minilliklərə aid mədəniyyət abidələrinin əksəriyyətinin Kür-Araz çaylarının ovalığını əhatə edən çökəklikdə aşkar olunması ilə əlaqədardır.



Elçibəy Kür-Araz mədəniyyətinin Xəzər dənizinin qərb sahillərindən başlayaraq qərbə doğru Kür-Araz ovalıqları, Qızılüzən çayı boyu və Urmiyyə gölü ətrafındakı ərazilərin əhatə etdiyini yazır. Bu mədəniyyətin yaranma və mövcud olma tarixini Elçibəy resmi dünya tarixində qəbul edildiyi kimi e.q. IV-III minilliklərə deyil, eradan qabaq VII-II minilliklrə aid edir. (Ebülfez Elçibey. 1997. Səh. 16-19)

Əbülfəz Elçibəy Türklərin ilkin vətəninin və sumer mədəniyyətini ilkin təşəkkül tapdığı ərazinin Urmiyə gölü ətrafı olaraq qəbul edilməsinin əleyhinə olduğunu bildirərək yazırdı: "Bəzi tarixçilər Kür-Araz mədəniyyəti ilə yaxından tanış olmadıqları üçün, bu mədəniyyətin tərkib hissəsi olan Urmiyə mədəniyyətini "ilkin Sumer mədəniyyəti" adlandırırlar. Biz bu cür təyinatın tam əleyhinəyik. Bununla bərabər "Urmu mədəniyyəti" ilə Sumer (Kəngər) mədəniyyətinin bir-birindən tam ayrılmasının, təcrid edilməsinin də tərəfdarı deyilik. (Ebülfəz Elçibey. 1997, Səh. 19)

Əbülfəz Elçibəy tarixi varislik prinsipinə uyğun olaraq Orta Asiya-Turan, Kür-Araz və Sumer mədəniyyətlərini səkkiz min il davam edən böyük bir mədəniyyətin üç böyük mərhələsi hesab edir. Yaranmasında bir çox dünya xalqlarının ulu babalarının iştirak etdiyi bu mədəniyyətlərin yaradıcıları içərisində Türklərin ulu əcdadları önəmli, hətta birincilər sırasında yer almışlar. Azərbaycan bu böyük mədəniyyətin həm yaranmasında, həm daşınmasında, həm də bir-biri ilə bağlanmasında önəmli kilit rolunu yerinə yetirir.

Elçibəy Azərbaycanı bu üç mərhələli qədim mədəniyyətlərdən birincisi olan Turan (Ceyhun-Seyhun) mədəniyyətinin davamı, üçüncüsü olan Sumer-Kəngər mədəniyyətinin özülü hesab edir.

Yuxarıda deyilənlərdən aydın olduğu kimi Elçibəy Amudərya və Sırdərya vadilərini əhatə edən Orta Asiyanı və ya Turanı bəşər mədəniyyətinin beşiyi kimi qəbul etməklə yanaşı bu ərazini türklərin ilkin vətəni olduğu fikrini müdafiə edir.

Türklərin ilkin vətəni haqqında Volqa-Ural nəzəriyyəsini irəli sürən İsmail Miziyev də Altay nəzəriyyəsinin əleyhdarlarındandır. O Altay nəzəriyyəsinə qarşı çıxaraq yazır: "Türklərin ilk vətəni indiyədək Altay bölgəsi sayılmaqdadır. Lakin arxeoloji və etnoqrafik araşdırmalar burda Öntürklərin, onların dil və mədəniyyətlərinin izlərini ortaya çıxarmamışdır. Öntürklər sanki burda birdən-birə görünmüşlər. Kurqan mədəniyyətinin yaranmış olduğu Volqa-Ural (İtil-Yayik) çayları arası Türk xalqlarının aparıcı və başlıca mədəniyyət ənənələri üçün ilk vətən olmuşdur". (İsmail Mizi-Ulu. 1993, C. VIII)

Macar alimi Y.Nemeth də türklərin ilk vətənləri haqqında Altay və Mərkəzi Asiya nəzəriyyəsini təkzib edən fikirlər irəli sürərək yazırdı: "Türklərin ilk vətənlərinin Orta və ya Doğu Asiyada olması barədə köhnəlmiş nəzəriyyələr kifayət qədər əsaslandırılmamış, ya da köhnəlmişdir". (Вопросы истории, №6, 1963)

Türk tarixçisi Osman Karatay türklərin ana vətəni haqqındakı Altay nəzəriy-

yəsinin əleyhdarı olaraq bu haqdakı görüşünü belə əsaslandırır ki, Altaylar ancaq türklərin bir etnik bazası ola bilər. "Altay dünyasını Türk ana yurdu yapmaq ən başda bəşəri coğrafiyanın kurallarına uymur. Türk ana yurdu türklərin dünyanın dörd bir tərəfinə Türk ixracı üçün uyğun və verimli bir yer olmalıdır. Osman Karatay türklərin törəyiş yerlərinin Ön Asiyada olduğu fikrini müdafiə edərək burdakı ön türk insanlarının müxtəlif səbəblər üzündən köçə məruz qalaraq getdikləri Orta Asiyada bir türk ana yurdunun təşəkkül tapmasına səbəb olduqlarını yazır. Daha doğrusu onun fikrincə Orta Asiya türklər üçün bir törəyiş yeri deyil, bir Ana yurddur". (Osman Karatay. İst. 2003. Səh. 105)

Türklərin ilk təşəkkül tapdıqları ana yurdun Altaylar və bütövlükdə Mərkəzi və ya Orta Asiya olduğu haqqındakı tezislərin tənqidçiləri Turan çökəkliyi və Amudərya və Sırdərya vadilərində aşkara çıxarılan və e.q. X-VIII minilliklərə aid ilk şəhər mədəniyyəti və buğdanın aşkar edildiyi ilk əkinçilik mədəniyyəti olan Anau, e.q. VI minilliyə aid Kəltəminar və e.q. IV minilliyə aid Namazqa-Tepe, Qazaxıstanda e.q. 3500-cü minilliyə aid atın ilk əhliləşdrildiyi Botay kimi qədim arxeoloji mədəniyyətlərin mövcudluğunu nəzərə almırlar. Bu mədəniyyətlərin araşdırma sonucları həmin dövrlərdə hind-avropa arilərinin həmin bölgədə mövcudluqlarını tamamilə istisna edir. Ona görə də hind-avropa aryanizm tərəfdarı bilim adamları öz araşdırmalarında Turanlı Ön Türklərə məxsus olduğu heç bir şübhəyə yer qoymayan bu arxeoloji mədəniyyətlər haqqında söz açmağa həvəs göstərmirlər.

Türklərin törəyiş yeri və ya ilkin vətəni haqqında elmdə ən çox rəğbət görən və ən çox tərəfdara malik nəzəriyyə ayrıca götürülmüş Altay nəzəriyyəsi deyil, Ural-Altay nəzəriyyəsidir. Bu nəzəriyyəyə görə Ön türklərin və bütövlükdə turanlı xalqlarının ilkin vətəni Güney Sibirin Ural və Altay dağları arasındakı ərazidir.

Amerikanın Kolumbiya universitetinin keçmiş professoru, Reha Oğuz Türkkan Türkləri *etnos olaraq tarixi təşəkkül baxımından iki mərhələdən ibarət* hesab edir və onları adlandırmaq üçün Ön Türklər və İlk Türklər terminlərindən istifadə edir. O bir çox tarixi elmi dəlillərə əsaslanaraq Ön Türklər adlandırdığı Sumerlərin ilk yurdlarının bir çoxlarının fərz etdiyi kimi Ön Asiya və Mesopotamiya deyil, Ural dağları ilə Aral-Balxaş gölləri arasında olduğunu və onların e.q. 7000-5000-ci illərdə bu ərazidə təşəkkül tapdıqlarını və sonra Orta Asiyaya yenərək Xəzər dənizi sahillərindən dolanıb Zaqros dağları üzərindən Mesopotamiyaya endikləri fikrini irəli sürür. Reha Oğuz Türkkan türklərin ana yurdu və dünyaya yayılma prosesini tarixi dəlillərə əsasən məntiqi ardıcıllıqla aydınlıq gətirərək yazırdı: "Ön türklər doğum yerləri olan Aral-Balkaş gölləri arasındakı yurdlarını tərk edib bir neçə yüz il Mavəraünnəhrdə, Ceyhun və Seyhun çayları arasında və Anauda məskunlaşdıqdan sonra Zaqros dağları yoluyla güneyə enmiş, yenə də Fərat və Dəclənin iki çayı arası olan Mesopotamiyada, e.q. 4000-ci ildə Subarların timsalında



məskunlaşmışlar. Onların Elam qolu isə daha doğuda, körfəz bölgəsində yerləşmişdilər. *E.q. 3600-cü ildə isə Ön Türklərin arxada qalmış qolları olan Sumerlər* də Mesopotamiyaya köçüb Subarların davamı olaraq yurdlarını gəlişdirmişlər. E.q. 3000-ci ildə Böyük Tufan onların şəhərlərini viran qoyunca həyatlarında bir fasilə dövrü başlanmışdır. Az sonra sumerlər təkrar dirilmiş, Erudu, Ur, Uruk, Nippur, Kiş, Laqaş kimi böyük şəhərlərini tarixin ilk dövlətini qurmuşlar". (Reha Oğuz Türkkan. Türklər, cilt 1, 2002, Səh. 600)

Reha Oğuz Türkkanın Ön Türklərin ilkin vətəni haqqındakı görüşləri çex assuroloq Praşekin daha öncələri irəli sürdüyü görüşlərlə üst-üstə düşür.

E.q. 2500-2000-ci illərdə Mesopotamiyadan köçərək Altay dağlarının qərbində, Sibirin cənubundakı düzənliklərdə məskunlaşan Ön Türklər burada mövcud olan etnocoğrafi və iqlim şərtlərinə uyğun olaraq transformasiyaya uğramış və İlkin Türklər adı ilə yenidən tarix səhnəsinə qədəm qoymuşlar. Burda onlar şərqdən qərbə doğru yayılma tendensiyasına malik olan və E.Eykştedt, C.Voqel, B.Lundman, R.Knussmann kimi antropoloqların və başqalarının Sinid adlandırdıqları, digərlərinin isə monqoloid adlandırdıqları irqə mənsub insanlar olan monqollar, tunquzlar, mancurlar və çinlilərlə qonşuluq şəraitində yaşamışlar. Türk dilinin həm monqol dili, həm də fin-uqor dilləri ilə qohumluğu onların Altay dağlarından şərqdə məskunlaşan monqoloid tayfaları və qərbdə Ural dağları tərəfdə yerləşən fin-uqorların qonşuluğunda, yəni hər ikisinin məskunlaşmış olduğu ərazilərin ortasında təşəkkül tapdıqlarını sübut edir. Antropoloji tip olaraq avropoid irqinə mənsub olan türklərdə monqoloidlik yüz illərlə qonşuluq şəraitində yaşadıqları monqollarla ailə quraraq qaynayıb-qarışmaları nəticəsində meydana gəlmişdir. Monqoloid görünümü ancaq şərq ərazilərində məskunlaşmış türklərdə özünü bariz şəkildə göstərməkdədir. Monqolların məskunlaşdığı mərkəzi ərazilərdən qərbə doğru uzaqlaşdıqca doğuda məskunlaşmış Türkmən, Azərbaycan, Qafqaz, *Çuvaş və Anadolu türklərində monqoloidlik dərəcəsi* heçə yenmiş olur.

Nəticədə İlk Türklər bugünkü Monqolustanda yerləşən Ötükən-Orhun vadisini və Altayları özlərinin müqəddəs Ana yurduna çevirmişdilər. Çin qaynaqlarında bəhs olunan Su, Çu və Çou kimi Ön Türk boylarından sonra bu salnamələrdə adları çəkilən və Çin dövləti ilə daima mübarizə şəraitində olan Hyunq-nular və ya Böyük Hun imperatorluğudur. Çin salnamələri Göy Türk dövlətinin qurucuları olan Aşina boyunun kök etibarı ilə Su və Hyunq-nulara aid olduqlarını yazırlar. (Reha Oğuz Türkkan. Türkler, cilt 1, 2002, Səh. 602)

Klaprot, Vamberi, Radlov, Ramşted, Viedeman, Karsten kimi bilim adamları Türkləri monqoloid irqinə aid edərək onların Altay dağlarından şərqdəki hətta Baykal gölündən monqolların vətəni olan Qobi səhrasına qədərki ərazilərdə təşəkkül tapdıqlarını iddia edir və Ural-Altay nəzəriyyəsini qəbul etmirlər.

Ural-Altay nəzəriyyəsi tərəfdarları isə Türklərin avropoid antropoloji tipinə

mənsub olduqlarını və onların Altay dağlarında deyil, Altay və Ural dağları və Aral gölü arasındakı ərazidə təşəkkül taparaq tarixin sonrakı mərhələsində şərqdən gələn monqoloid irqinə mənsub insanlarla yüz illər ərzində davam edən ünsiyyət və qaynayıb qarışma nəticəsində türklərin yalnız bir qismində monqoloidliyin formalaşdığı fikrini müdafiə edirlər. Bu tezisin ən önəmli müdafiəçisi macar Qyula Nemetdir.

L.Rasonyi də Türklərin ana yurdunun Ural və Altay dağları arasındakı düzənlik olduğu tezisini müdafiə edir. (Laslo Rasonyi. Türkler. cilt 1, Səh. 494-498)

Z.V.Toğanın da fikrinə görə "Türkün vatanı Orta Asiya, daha doğrusu Türkün ana vətəni Tyanşanın qərb ve şimal yamacları ilə Aral gölü məntəqəsidir. V.Koppers də bu fikre meyl etmektedir". (Z.V.Toğan. 1981, Səh. 11)

Elmdə Mauvərünnəhr adlanan Amudərya və Sırdərya İkiçay arası ərazilər Türk tarixində Altaylar və Tanrı dağları qədər önəmli rol oynayaraq Mərkəzi Asiyadakı tarixi Turan ölkəsinin mərkəzini təşkil etmiş və sonrakı dövrlərdə tarixi ədəbiyyatda Türkistan adı ilə ifadə olunmuşdur.

Beləliklə, Türklərin törəyiş yeri və ya ilkin vətəni haqqında elmdə ən çox rəğbət görən nəzəriyyə ayrıca götürülmüş Altay nəzəriyyəsi deyil, Ural-Altay nəzəriyyəsidir. Bu nəzəriyyəyə görə ön türklərin və bütövlükdə turanlı xalqlarının ilkin vətəni Güney Sibirin Ural və Altay dağları və Aral gölü arasındakı ərazidir.

Türk arxeoloqu və tarixçisi Semih Günəri son dövrlərin arxeoloji və genetik araşdırmaları nəticəsində əldə edilən elmi dəlillərə əsaslanaraq Türklərin etnogenezini və onların dünyaya yayılma prosesini özündə əks etdirən yeni bir Türk-Altay tezisi irəli sürmüşdür.

S.Günəri Ural-Altay tezisinin özünə məxsus yeni bir dəyişik variantına uyğun olaraq Türk dilinin ən arxaik şəklini danışan xalqların ana yurdlarının Yenisey-Lena həyat alanı, quzeydə Anqara çayı və güneydə Baykal gölü arasındakı ərazini əhatə etdiyini yazır. Onun Türk-Altay adını verdiyi tezisə görə Türk dilli xalqlarının öz ana yurdları Yenisey-Lenadan köçərək dünyaya yayılmaları dörd mərhələdə gerçəkləşmişdir. İlk köç hərəkətinin hipotetik, yəni tamamilə bir fərziyyədən ibarət olduğu halda, digər üç köç dalğasının gerçəkləşməsini isə konkret arxeoloji dəlillərlə izləmək mümkün olmuşdur.

Paleolit-Mezolit dövründə baş verən birinci dalğa köçləri üç istiqamətdə baş vermişdir. Batıya doğru yönələn köçlər Yaxın Şərqi, doğuya doğru yönələn köçlər Uzaq Şərq və Quzey Amerikanı, güneye doğru yönələn köçlər Çinin quzeyini və Hind çayı vadilərini hədəf götürmüşdülər. Bu köçləri genetik araşdırmaların sonucları, mikrodilqi daş alətlərin Altay mədəniyyəti coğrafiyasından dünyaya yayılması ilə əlaqədar araşdırmaların nəticələri və dilə dair bəzi hipotetik fərziyyələrə əsaslanaraq izləmək mümkün olmuşdur. Bu mədəni qruplar e.q. 12000-ci illərdə Yenisey-Lena hövzəsini tərk etdikləri təxmin olunur.



Yenisey-Lena mənşəli Yaxın Şərq mədəniyyətlər topluluğunu təşkil edənlər Sumer, Mari, Elam, Hatti, Hurri, Hiksos, Kassi, Luristan dəmirçiləri qrupudur. Yaxın Şərqin oturaq mədəniyyətinə mənsub bu mədəniyyətlərin köklərində açıq şəkildə heyvandar köçəriliyi, yarım köçəriliyi, dillərində isə iltisamlı-bitişik xarakteri təsbit etmək mümkün olmuşdur.

Altaylarla Anadolu arasında baş verən ilk köçlər iki istiqamətdə gerçəkləşmişdir. Batıya doğru hərəkət edənlər Altaylardan Xəzərin quzeyi isiqamətindən Anadolu və Mesopotamiyaya doğru istiqamətlənmişlər. Xəzər dənizinin güneyi tərəfdən baş verən köç ilkin və daha qədimdir. Bu istiqamətdə baş verən köç Sumer, Mari və Elam kimi üç ana mədəniyyətin təməlini təşkil edən qruplardır. Hiksos, Kassi və Luristanın dəmirçiləri kimi digər mədəniyyətlər üç ana mədəniyyətin içərisindən ayrılmışlar. İkinci köç Xəzərin quzeyindəki bozqır üzərindən baş vermişdir. Bu istiqamətdə miqrasiyanı həyata keçirənlər Hatti və Hurri xalqlarının ataları idilər. (Semih Güneri. 2018, Səh. 705)

Müasir dövrün genetik araşdırmaları və arxeoloji qazıntılar nəticəsində aşkar edilən dəlillər Türklərin ana yurdu olaraq Ural-Altay nəzəriyyəsinin elmi gerçəkliyə daha uyğun olduğunu sübut edir.

Sovet dövrünün rəsmi tarixşünaslığında "iranizm" konsepsiyası hakim mövqeyə malik idi. Sovet-kommunist ideologiyasının tərkib hissəsini təşkil edən bu konsepsiya Türklərin əleyhinə olub onların qədim tarixini saxtalaşdırmağa yönəlmişdi. Arxeoloji, antropoloji və linqvistik faktlara məhəl qoymayan bu konsepsiyaya görə Sibir, Qazaxıstan və Orta Asiya irandilli xalqların qədim dövrlərdən etibarən məskunlaşdıqları ərazilər olmuş və sonradan türklər Altay dağları tərəfdən gələrək yerli iranlı xalqları türkləşməyə məruz qoymuşlar. Bu tezisi ortaya atmaqda əsas məqsəd özlərini hind-avropa və ya ari irqinə aid edən Rusiya hakim dairələrinin Türk yurdlarının işğalına haqq qazandırmaq siyasəti durur. İngilisər də Hindistandakı öz işğalçılıq siyasətinə haqq qazandırmaq üçün Hindistanın arilərin vətəni olması haqqında uydurma bir tezis irəli sürmüşdülər.

Müasir rus tədqiqatçı Dmitri Verxoturov türklərin ən qədim dövrlərdə etibarən vətəni olan Sibir ərazisini Sibirin Turanı adlandırır. O Sibirin iranlı-arilərin vətəni olduğu haqqında qərəzli qeyri-elmi iddiaları təkzib edərək yazır: "İranistlər bir ağızdan Sibir, Qazaxıstan və Orta Asiyanı "İran dilli xalqların vətəni" elan edərək e.q. I minilliyin ortalarına qədər bu ərazilərdə irandilli xalqların yaşadıqlarını iddia etməkdədirlər. Əgər "iranistlərin" nəzəriyyəsinə inansaq, onda belə çıxır ki, türklər e.q. I minilliyin ortalarında Altaydan gəlib "iran dünyasını" sürətlə zəbt edərək iranlıları türkləşdirmişlər.

Həm də onlar bunu o qədər məharətlə etmişlər ki, "qədim iran dünyasından" hətta əsər-əlamət və kiçik bir zərrəcik də qalmamışdır. Lakin Altaydan başlayaraq bütün bu bölgələri əhatə edən kurqan altı kərtmə ağac məzarlar, atla birlikdə dəfn

üsulu, çöl xalqlarına xas arxeoloji xüsusiyyətlər onların türk xalqları ilə mədəni varislik əlaqəsini sübut edir". (Верхотуров Д. 2005, Səh. 20)

XIX əsr Avropa tarixçilərinin arxeoloji və linqvistik dəlillərə əsaslanaraq samilər və arilər tarix səhnəsinə qədəm qoymadan öncə dünyanın ilkin əhalisinin turanlılardan ibarət olduğu və ilkin bəşər mədəniyyətinin turanlı öntürklər tərəfindən yaradıldığı haqqında gəldikləri nəticə müasir dövrdə genetik araşdırmalar nəticəsində də təsdiq olunmaqdadır.

Rus etnoloqu və genetik bilim adamı Anatoliy Klyosov insanların DNK nümunələrinin genetik araşdırmaları əsasında türklərin ilk vətənlərini və onların yer üzərində yayılma arealını müəyyən etmişdir.

Onun gəldiyi nəticəyə görə aqqlütativ dil qruluşuna malik öntürklər və flektiv dil qruluşuna malik hind-avropa ailəsinə mənsub qədim insanlar e.q. I minilliyə qədər Atlantik okeanına qədər olan Avrasiya ərazisində yayılaraq növbə ilə üstünlük əldə etmişlər. Bu qaploqruplara mənsub insan toplumunun hər ikisi də avropoidlər olmuşlar. O türkləri genetik baxımdan R1b, hind-avropalıları isə R1a qaploqruplarına aid edir. Onun yazdığına görə R1b qaploqrupunu təmsil edən öntürklər miladdan 16 min il öncə Güney Sibir ərazisində təşəkkül tapmışlar. Onlar bu ilkin vətənlərindən 8-6 min il öncə orta Volqa və Samara üzərindən qərbə doğru hərəkət edərkən bu ərazilərdə qədim kərtmə kurqan arxeoloji mədəniyyətin əsasını qoymuşlar. Onların digər qolu 5700 və ya 6000 min il öncə Qazaxıstanın quzeyinə doğru hərəkət edərək burda Botay arxeoloji mədəniyyətini meydana gətirmişlər. Öntürklər təxminən 6000-6800 il öncə Qafqaza doğru hərəkət etmiş sonra ordan Anadoluya keçmişlər, 5700 il öncə onlar Ön Asiyada yerləşmiş, ordan isə Afrikanın quzeyi ilə hərəkət edərək Priney yarımadasına keçmişlər. Priney yarımadası və ya İspaniyadan öntürklər təxminən m.ö. 3800 il Böyük Britaniya və İrlandiyaya keçmişlər. Öntürklər Avropa qitəsində m.ö. 4225-4150 il Flandriyada və İsveçdə məskunlaşmışlar. M.ö. 4500-4880 illər arasında öntürklərin R1b qaploqrupunun izləri Balkanlarda və İtaliyada meydana çıxır.

A.Klyosov bir çox bilim adamları kimi hind-avropalıların və öntürklərin təşəkkül tapdıqları ilkin vətənlərinin Cənubi Sibir olduğu fikrini müdafiə edir. Lakin hind-avropalılar öz ilkin vətənlərini tezliklə tərk edərək Avropada məskunlaşmışlar. Onun gəldiyi nəticəyə görə Öntürklərin müntəzəm axınlarla Avropaya daxil olması burda 10000 il öncə təşəkkül tapmış hind-avropa dilli R1a qaploqrupunun daşıyıcılarının öz yerlərini tərk edib təxminən 4800 il öncə, yəni m.ö. 3-cü minillikdə Avropadan Rusiya çöllərinə doğru hərəkət etmələrinə səbəb olmuşdur. 4500-4000 min il bundan öncə R1a1 qaploqrupunun daşıyıcıları olan hund-avropalılar Avropadan yox olmuş və R1b1 qaploqrupunun daşıyıcıları olan insanların burda məskunlaşması ilə Avropa türk xalqının məskəninə çevrilmişdir. Türklərin Avropada hökmranlığı e.q. I minilliyin ortalarına qədər davam etmişdir.



Avropanı tərk edən R1a1 qaploqrupuna mənsub insanlar indiki Rusiyanın güney çölləri ilə doğuya doğru hərəkət etmiş və türklərə məxsus qədim kurqan arxeoloji mədəniyyətinin hakim olduğu ərazilərdə məskunlaşaraq orda izlər buraxmışlar. Bu hadisə müasir dövrdə kurqan mədəniyyətinin hind-avropalı arilərə məxsus olması haqqında yanlış nəticələrə səbəb olmuşdur. Lakin protohind-avropa dilli insanların Rusiya çöllərində yayılması e.q. III minillikdə baş verdiyi halda, türklərin kurqan mədəniyyətinin tarixi e.q. IV minilliyə aiddir.

Eyni hadisə hind-avropalıların "qafqaz" qolunun ilkin vətəni kimi təqdim olunan "Anadolu nəzəriyyəsi" ilə əlaqədar olaraq da təkrarlanmaqdadır. Hind-avropalılar R1b1 qaploqrupuna mənsub insanların, yəni öntürklərin Anadoluda və Ön Asiyada məskunlaşıb orda ilkin bəşər mədəniyyətinin əsasını qoymalarından çoxçox sonralar işğalçı kimi bu əraziyə gələrək turanlı öntürklərin bir qisminin bu ərazidən köçlərinə səbəb olmuşlar.

Bütün bu hadisələr türk dilinin Avropada on mininci ildən başlayaraq, Rusiyada isə tarixin ilk dövrlərindən, e.q. I minilliyin ortalarına qədər oynadığı fundamental rolun təhrif olunmasına səbəb olmuşdur. (Клесов А. 2010. Səh. 2-3)

Müasir uyğurlar, qazaxlar, başkırdlar, Sibirin, Mərkəzi Asiyanın və Uralətrafı ərazilərin digər xalqları 16 min ildir ki öz kökləri ilə R1b1 qaploqrupuna bağlıdırlar.

Bu xalqlar doğudan batıya doğru hərəkət edərkən təbii olaraq öz nəsillərinin bir qismini keçdiyi ərazilərdə buraxaraq yayılmışlar. Öntürklər müxtəlif istiqamətlərdə hərəkət edib yayıldıqları zaman genləri də müxtəlif qarışımlar nəticəsində mutasiyaya uğrayaraq müəyyən dəyişikliklərə məruz qalmışdır. Onların ilkin R1b qaoloqrupu dəyişikliyə uğrayaraq R1b1, R1b1b2 və s. kimi qaploqrup şəkilləri almışlar.

Klyosov genetik araşdırmalar nəticəsində Qafqazın yerli xalqının da prototürklər kimi R1b qaploqrupuna mənsub olduqlarını yazır. Bu nəticə XVIII-XIX əsr və sonrakı dövr Avropa tarixçilərinin Qafqaz xalqlarının Turani irqə mənsub olduqları haqqındakı fikirlərini doğrulamaqdadır.

Mutasiyaya uğramış R1b1b2 qaploqrupuna mənsub türk dilində danışan insanların Avropada məskunlaşması 4200-3600 il bundan öncə baş vermişdir. Klyosov da bir çox tarixçi kimi öntürkləri protokeltlərin və protoitalyanların əcdadları hesab edir. (Клесов А. 2010, Səh. 11)

Flektiv dil qruluşuna malik R1a1 qaploqrupuna mənsub protohind-avropalıların təşəkkül tapdıqları Cənubi Sibir ərazisindən qərbə doğru hərəkət edib Avropanın Balkan ərazisində məskunlaşmaları 12 min il öncə baş vermişdir. Genetik araşdırmalar və linqvistik dəlillər nəticəsində məlum olmuşdur ki, 5 min il öncə Avropanı tərk edib Rus çöllərinə geri dönən R1a1 qaploqrupuna mənsub olan hind-avropa ailəsinə mənsub insanlar bir müddət sonra yenidən müxtəlif istiqa-

mətlərdə hərəkət etmişlər. 3500 il öncə, yəni e.q. 1500-cü illərdə onlar Ural, Cənubi Sibir, Mərkəzi Asiya, İran və Hindistan istiqamətində hərəkət edərək öz dillərini burda yaymışlar. Hind-avropalıların Avropaya doğru yenidən hərəkət edərək burda məskunlaşmaları 2900-2500-cü illər arasında baş vermişdir. R1a1 qaploqrupunun iranlı arilər adlanan qolunun Cənubi Sibirdən hərəkət edərək Orta Asiyada, İranda və Hindistanda məskunlaşmaları m.ö. 2-ci minillikdə baş vermişdir. (Клесов. A. 2010, Səh. 23)

Hind-avropalıların Ön Asiyaya gəlib məskunlaşmaları e.q. 1600-1000-ci illər arasında baş vermişdir. İranlılar isə şərqdən hərəkət edərək Qərbi Azərbaycan və Midiya ərazisinə e.q. IX əsrdə Gələrək məskunlaşmışlar. (Клесов A. 2010, Səh. 32)

Klyosov linqvistik və genetik dəlillərə əsaslanaraq Priney yarımadasındakı bask dilinin R1b qaploqrupuna mənsub türkdilli ailəyə aid olduğu fikrini müdafiə edir. Qədim öntürklər Sibirin cənubundan hərəkət edərək Volqa-Ural və Qafqaz üzərindən keçməklə Anadolu, Ön Asiya və Afrikanın quzeyi istiqamətindən Priney yarımadasına – İberiyaya gedərək orda məskunlaşmışlar.

Klyosovun fikrincə uyğurlar ən qədim qaploqrup tipinə malik olub doğuda öntürklərin ən qədim qalıqlarıdırlar.

Klyosovun genetik araşdırmalarının nəticəsi XIX əsr Avropa tarixçilərinin Avropa qitəsinin ən qədim sakinləri və bu qitədə ilkin mədəniyyətin yaradıcıları olan liqurların və iberlərin mənşə etibarı ilə turanlı ön türklər olduqları haqqındakı fikirlərini təsdiqləmiş olur.

Digər türk qruplarına gəldikdə isə Qafqaz türklərinin ümumi əcdadları 6 min ildən çox bir zamandır burda məskunlaşmışlar. Anadoludakı türklər 5500 ildir burda yaşayırlar, Ön Asiyadakı türklər 5300 ildir burda yaşayırlar. Türklər Avropada 4000 min ildir yaşamaqdadırlar. (Клесов A. 2010, Səh. 34)

R1b qaploqrupunun daşıyıcıları olan öntürklər 5700-5100 il öncə Qazaxıstanda Botay arxeoloji mədəniyyətinin əsasını qoymuşlar. Son arxeoloji məlumatlara görə at 5500 il öncə ilk olaraq Qazaxıstanda əhliləşdrilmişdir. (Клесов A. 2010, Səh. 40-41)

Son dövrlərdəki genetik araşdırmalar ilə arxeolojik araşdırlmaların nəticələrinin qarşılaşdırılmaları sayəsində insanların ən qədim zamanlarda baş verən miqrasiya hərəkətlərinin istiqamətlərini müəyyənləşdirmək yönündə böyük uğurlar əldə edilmişdir.

Amerikalı genetik uzmanı Erika Tamm və qrupu 2007-ci ildə Sibirdə və Amerikada aşkar edilən qədim insan qalıqlarının DNT nümunələri ilə həmin ərazilərdə yaşayan müasir insanların DNA nümunələrini, toplam 623 DNT nümunəsini müqayisə edərək həyata keçirdikləri bir genetik araşdırma nəticəsində "Berinq durğunluq modeli" adlı bir tezis irəli sürdülər. Bu tezisə görə m.ö. təxminən 28 min il qabaq Sibir əhalisindən 8-10 min nəfərlik bir qrup Berinq boğazı yaxınlığında Çukot yarımadasında yerləşərək Son Buz dövrünün sərt iqlim şəraitində əlverişli bir məskən seçərək burda təcrid olunmuş şəkildə minlərlə il yaşamışlar. Son buz dövrünün başa çatması ilə onlar Berinq boğazı üzərindən Amerika qitəsinə keçmiş və ordakı yerli insanları meydana gətirmişlər. (Tamm E. 2007)



Biri Sibirdə aşkar edilmiş e.q. VII-VI yüzilliklərə aid Arjan-2 adlı Abdıbel kurqanından əldə edilən və iskitlərə məxsus olan, digəri isə m.ö. IV-III yüzilliklərə aid Pazırık kurqanından əldə edilən hər iki DNT nümunələri müqayisəli şəkildə uzmanlar tərəfindən araşdırılmışdır. Genetik təhlillər nəticəsində əldə edilən bilgilərə görə hind-avropalı və iran mənşəli olduqları iddia edilən iskitlərin genləri iranlılardan tamamilə fərqlidir. Bu testlər nəticəsində iskitlərin ən çox başqırdlara, sonra isə Volqa tatarlarına, sırası ilə çuvaşlara və udmurtlara bənzədiklərini sübut edilmışdir. Bu analizlər iskitlərin çox az dərəcədə taciklərə də bənzədiklərini aşkar etmişdir ki, bu onların özbək və türkmənlərlə qarışması nəticəsində mümkün ola bilər. Abdıbel kurqanından əldə edilən maddi nümunələrin də Pazırık kurqanındakılarla eyni olduqları müəyyən edilmişdir. Beləliklə, genetik analiz nəticəsində Doğu bölgəsindəki iskitlərin Ön türklərin əcdadları olduqları aydın şəkildə sübut olunmuşdur. Pazırık kurqanından əldə edilən genetik analizin nəticəsi bu mədəniyyətə mənsub insanların hind-avropalı və iranlı olduqları iddialarını boşa çıxarmışdır. Pazırık kurqanı insanlarının genetik olaraq ən çox xakaslara, sibir tatarlarına, kazaklara və altay xalqlarına bənzəmələri iskitlərin etnik kök etibarı ilə Ön türklərə mənsub olduqlarını sübut etmişdir. Lakin Pazırık kurqanındakı insanlar tam monqoloid olmasalar da, onların genində monqoloid ünsürü az da olsa nəzərə çarpır. Araşdırmalar Asiyanın doğusuna doğru getdikcə türklərin genetik yapısında monqoloid izlərinin tədricən artdığını göstərir ki, bu da sonrakı gec dövrlərdə monqoloid tipinə mənsub insanların batıya doğru hərəkət etməsinin nəticəsidir. Burdan belə bir nəticə doğur ki, artıq e.q. IV-III yüzilliklərdə ön türklər kimi qəbul etdiyimiz iskitlər monqol irqi ilə müəyyən qarışıma məruz qalmışlar. E.q. IV-III yüzilliklərdəki iskit insanlarının genetik nümunələrinin 2400 il sonra həmin coğrafiyada yaşayan türk xalqlarına bənzəməsi türklərin bu coğrafiyaya eramızın ilk əsrlərində gələrək burdakı xalqı türkləşdirdikləri haqqındakı elmi gerçəkliyə uymayan iddialarını kökündən rədd etməkdədir. ("Ancestry and demography and descendants of İron Age nomads oft he Eurasian Steppe" internet saytı.)

Türkmənistanın paytaxtı Aşqabad yaxınlığındakı Anauda aparılan arxeoloji qazıntılar zamanı aşkara çıxarılan və e.q. 9000 il bundan öncəyə aid olan qədim mədəniyyət Sibirin güneyində təşəkkül tapan öntürk etnosunun güneyə doğru hərəkət edərək burda ilkin qədim mədəniyyətin əsasını qoyduqları haqqındakı bir sıra tezisləri təsdiq etməkdədir.

Klyosovun və digər genetika uzmanların genetik araşdırmaları və müasir ar-

xeoloji tədqiqatlar nəticəsində əldə edilən elmi dəlillər yüz il öncə Avropa linqvistlərinin, tarixçilərinin və etnoloqlarının Turanlı Ön Türklərin ilkin vətənləri və onların mərhələlərlə yer üzünə yayılaraq müxtəlif ərazilərdə bəşəriyyətin ilkin mədəniyyət mərkəzlərinin meydana gətirdikləri haqqındakı fikirlərini təsdiq etməkdədir.

Turan irqini Avropa irqinin bir qolu hesab edən Alman Antropoloqu Eqon Aykştatd Cənubu Sibiri əski Turan, Türkmənistandan başlayaraq Kazaxıstanı da əhatə edən Orta Asiyanı isə Yeni Turan adlandırır. O Sibiri Avropa irqinin, o cümlədən Turan və Nordik irqlərin ilkin vətəni və sonradan bəşər mədəniyyətinin mərkəzi olduğunu yazır. O, Turanı, yəni Sibirin güneyini bəşəriyyətin dinamik inkişafının əsas hərəkətverici qüvvəsi hesab edir. Turan irqi Sibirin qərbindən durmadan çöllər boyunca hərəkət edirdilər. Öz özlüyündə barışcıl və mədəniyyətsever olan Turanlılar və türklər bozkırın heyvandar köçəri turanlıların təzyiqi ilə qərbə doğru köçlərə məruz qalarkən nordik irqinə mənsub avropalıları da yerlərindən edərək batıya doğru köçlərinə səbəb olurdular. (E.Eikstadt, 1934, Səh. 267)

Aykştadt yazır ki, Turanlıları bir hissəsi ən qədim zamanlarda Sibirdən güneyə doğru hərəkət edərək yeni ərazilərdə məskunlaşdılar. Həmin yeni Turan indiki Türkmənistandan başlayaraq Qazaxıstanın yerləşdiyi ərazini də əhatə edən ərazilərdir. Turanlılar sonradan daha güneyə doğru hərəkət edərək İran və Anadolu üzərindən geniş ərazilərə çıxdılar, burda tundrada olduğu kimi rütubətli şərait mövcud idi. Lakin sonradan Turanlılar Ön Asiyanın bu ərazisində protoaralıqdənizi insanları timsalında bir rəqiblə qarşılaşdılar. Turanlıların İran üzərindən qərbə doğru yürüşləri sonrakı tarixi dövrlərdə dəfələrlə təkraralandı. (E.Eikstadt, 1934, Səh. 280)

Aral-Xəzər və Qaradəniz hövzəsinin yaşayış üçün əlverişli əraziyə çevrilməsi və turanlıların bu əlverişli şəraitdə inkişafı onların yaşayış və fəaliyyət alanlarının durmadan qərbə doğru genişlənməsinə və yeni ölkələrin meydana çıxmasına səbəb olurdu. Aral dənizi və Ural dağları arasındakı ərazi qərbə doğru uzanan təbii körpü və yol rolunu oynayırdı. Turanlıların Avropaya doğru yayılması burda Şimal dənizi ətrafında məskunlaşmış avropalı nordik irqin öz yerlərini tərk edərək Rusiyanın cənubuna doğru irəliləmələrinə səbəb oldu. Ural yolu turanlıların qərbə doğru yolu olduğu kimi avropalıların da geriyə, Sibirə doğru köçlərinin başlıca yolunu təşkil edirdi. Turani irqinin təsiri nəticəsində Avropada biodinamik hərəkətlilik başlamış oldu.

Turan çölləri dinamik inkişafın mərkəzi idi. Bu bözkırın yaşayış alanı kimi təkcə bioloji özəlliklərinin deyil, orda əhali artımının sosial psixoloji özəlliklərindən də irəli gəlirdi. Bozkırın geniş çöllərində bir-birinə bağlı olan insan qrupları geniş ataerkil ailənin meydana çıxmasına səbəb olmuş və bu insan birliyi modeli tarixin



ilkin dövrlərində əsası qoyulmuş dövlət təşkilatı üçün də model təşkil etmişdir. (E.Eikstadt, 1934, Səh. 281)

Turanlı Ön türklərin ilkin vətəni və onların təşəkkül tapdıqları ərazi məsələsində belə bir önəmli amil diqqəti cəlb edir ki, ilkin Turanlı uyqarlığının yaradıcıları olan Sumer və onların digər bir qolunu təşkil edən Subir/Subarlar da daxil olmaqla Ön türklərin məskunlaşdıqları və həyat sürdükləri ərazilər hər zaman çay sahilləri və vadiləri olmuşdur. Sumer və subirlərin varisləri olan Oğuzlar və digər türk etnosların da məskunlaşdıqları ərazilər Mərkəzi Asiyanın Amudərya və Sırdərya, İrtış, Yenisey, Orxun, Uzboy, Azərbaycanda Kür, Araz, Qızılüzen, Qərbi Asiyada Ural, İtil, Kama kimi böyük çayların sahil və vadiləri olmuşdur. Bu baxımdan dünya çaylarının böyük əksəriyyəti türk dilində çay anlamında olan İd, Okuz, Uz, Qus, Quzan, Balik, Araz kimi adlar daşımaqdadırlar.

Bu tarixi ənənyə uyğun olaraq görkəmli alman assuroloqu Aleksandr Virth Mesopotamiyadakı çaylardan və onun ətrafında məskunlaşmış turanlı xalqlardan bəhs edərkən "çayların adlandırma ənənəsi türkcədir" deyir. (Wirth A. 1905, Səh, 22)

Bununla, o, türklərin hər zaman çayların sahillərində məskunlaşdıqlarını və çay xalqı olaraq çay adlarının onlara bağlı və türkcə olduğunu vurğulayır.

# V FƏSİL. Turan etnocoğrafiyası.

Etnocoğrafiya etnosların qədim dövrdən başlayaraq müasir dövrə qədər yer üzərində yayılma və coğrafi ərazilərdə məskunlaşma hadisəsini əks etdrir. Etnocoğrafiya etnosların bütövlükdə və ya onun tərkib hissəsini təşkil edən ayrı-ayrı qəbilə və tayfaların yer üzərində yayılaraq məskunlaşması və müxtəlif ərazilərdə yaratdıqları özünəməxsus mədəniyyət mərkəzlərini arxeoloji, linqvistik, etnoqrafik, antropoloji və genetik araşdırma yolu ilə müəyyən edir. Bütün bu elmi dəlillərin müqayisəsi nəticəsində əldə edilən sonuclar etnosların formalaşdıqları öz ilkin yurdlarından hərəkət edərək məskunlaşdıqları coğrafi əraziləri və etnoslar arasındakı qohumluq və varislik əlaqələrini müəyyən etməyə imkan verir.

Biz Turan etnocoğrafiyası dedikdə qədim dövrlərdə Turan irqinə və ya Turan superetnosuna aid edilən müxtəlif qədim tayfaların, etnik birliklərin və xalqların dünyanın müxtəlif coğrafi ərazilərinə yayılaraq məskunlaşmasını nəzərdə tuturuq. Turan etnocoğrafiyasının formalaşması tarix öncəsindən hələ sami və hind-avropa (ari) irqi tarix səhnəsinə qədəm qoymadan min illər öncə başlamışdır.

Sovet tarixşünaslığında və Sovet Ensiklopediya lüğətində Turan coğrafiyasına qərbdə Xəzər dənizinin sahillərindən başlayaraq şərqdə Mərkəzi Qazaxıstan, şimalda çöl zonasını və cənubda Orta Asiyanın Qaraqum və Qızılqum səhralarını da əhatə edən ərazi daxil edilir. V.Bartold Turan coğrafiyasını Aral dənizinin əhatə edən ərazidən ibarət hesab edirdi. Rus sovet tarixşünaslığında Turanı qədim zamanlarda məskunlaşdıran əhalinin türklər deyil, irandilli tayfalardan ibarət olduğu fikri hakim idi. Türklərin bu ərazidə məskunlaşması məsələsi daha gec dövrlərə aid edilərək qane edicilikdən uzaq və olduqca ziddiyətli bir şəkildə təqdim edilirdi.

Rus tarixçisi B.Vaynberq Turanın tarixini e.q. VII əsrdən başlayaraq eramızın VIII əsrə qədərki dövrünü "iran dövrü" adlandırır. Onun fikrinə görə Turan eramızın VIII əsrindən başlayaraq peçeneq və oğuzlar tərəfindən türkləşdrilməyə başlamışdır. Turanın Xarəzm adlanan hissəsinin isə X-XII əsrlər arasında köçəri tayfaların axını ilə türkləşdiyini yazır. (Б.Вайнберг. 1999, Səh. 3)

Tarix elmini öz ideoloji məqsədlərinə tabe edərək siyasiləşdirən üzdəniraq tarixçilər türklərin ana yurdu olan Turanı e.q. VII ərsrdən etibarən iran dövrünə aid etdikləri zaman burda X minilliyə aid edilən yüksək inkişafa malik Anau arxeloji mədəniyyətini, VI-V minilliklərə aid Botay, Kelteminar, Namazqantəpə kimi digər mədəniyyətlərin mövcudluğunu xatırlamayaraq görməməzlikdən gəlirlər.

Çin səddindən başlayaraq Karpat dağlarına qədər uzanan Böyük Bozkır Avrasiya materikinin döyünən qəlbi, dünyaya yayılaraq onu məskunlaşdıran mədəni insanların təşəkkül tapdığı beşik idi.



Avropalıların Böyük Step və ya bizim dilimizdə Böyük Bozkır adlanan bu ərazini İranlılar doğru olaraq bu çölün əsl sahiblərinin adı ilə Turan, yunanlılar Skifiya, çinlilər isə Bey-xu adlandırırdılar.

Ön Asiyanın qədim tarixini və mədəniyyətlərini araşdıran XVIII-XIX əsr Avropa tarixçiləri dünyanı məskunlaşdıran ilk irqin Avrasiya bozkırının məhz bu Turan sakinləri, yəni öntürk turlar olduğu fikrini irəli sürərək onu elmi cəhətdən əsaslandırmışlar. Onlar öz əsərlərində turanlıları, Asiya köçərilərini mədəniyyətə yabançı, vəhşi kimi təqdim edən görüşləri təkzib edən dəyərli elmi fikirlər irəli sürmüşlər. Onların irəli sürdükləri tezislərə görə sami və ari irqləri tarix səhnəsinə qədəm qoymadan öncə minilliklər ərzində Turan irqi mövcud olmuş və onlar bu günkü bəşər mədəniyyətinin kökünü təşkil edən ilkin uyqarlığın əsasını qoyaraq mixi və heroqlif yazını kəşf etmiş, metal emalını və metal əşyaların istehsalını həyata keçirmiş, heyvanları, o cümlədən atı əhliləşdirmək və bəsləmək vərdişlərinə yiyələnmiş, ilk şəhər məskənlərini meydana gətirmişlər.

Turanın öntürk subetnosunun Asiyanın Böyük Bozkırından hərəkət edərək dünyanın müxtəlif ərazilərini ilkin məskunlaşdırdığı miqrasiya prosesini müasir genetika elmi araşdırmalar nəticəsində də izləmək mümkün olmuşdur.

Lev Qumilyov Avropada və Mərkəzi Asiyada iqlim dəyişikliyini tarixən türklərin taleyində önəmli rol oynadığını qeyd edirdi. O Türk irqinin tarixi inkişaf prosesindəki bir-birini ardıcıl əvəz edən proqress və reqress – yüksəliş və çöküş – dövrlərini, irəli sürdüyü passionarlıq və Mərkəzi Asiyada baş verən dövrü iqlim dəyişikliyi nəzəriyyəsi ilə izah edir. Atlantik okeanından gələn isti və rütubətli siklonun öz istiqamətini dəyişməsi nəticəsində torpağa bərəkət verən musson yağışları bəzən öz istiqamətini dəyişərək əsas yaşayış mənbəyi olan çöllərə deyil, Sibirin tayqa və tundra meşələrinə yağırdı. İbtidai dövrlərdən etibarən insan toplumunun əsas yaşayış mənbəyini təşkil edən təsərrüfat formaları ovçuluq, heyvandarlıq və əkinçilikdən ibarət idi. Təbiət hadisələrinə təsir edib onu öz məqsədlərinə uyğun şəkildə dəyişdirmək səriştəsinə malik olmayan qədim insanların həyatı bütövlükdə təbiət qüvvələrindən asılı idi.

Çaylarda suyun azalması əkinçiliyin, çöllərdə rütubətin azalması və otlaqların quruması isə heyvandarlığın inkişafına böyük zərbə vururdu. Bir neçə yüz ildən bir təkrar olunaraq dövri xarakter daşıyan bu iqlim dəyişikliyi hadisəsi Mərkəzi Asiyanın turanlı öntürk superetnosunun zaman-zaman öz yurdlarını tərk edərək daha əlverişli həyat məkanı axtarışına sövq edən köçlərinə səbəb olmuşdur. (Л.Гумилев. 1991, Səh. 23, 85)

Lakin turanlı öntürk xalqlarının bu köçləri köçərilik həyat tərzinin davamı deyil, iqlim dəyişikliyi və digər səbəblər üzündən məskunlaşdıqları ərazini kütləvi şəkildə tərk etmə məcburuyyəti üzündən baş verən köçmənlik xarakteri daşıyırdı.

L.Qumilyovun irəli sürdüyü passionarlıq nəzəriyyəsinə əsasən insan birliyi forması olan etnosların daxilində yaranan biokimyəvi enerji onların fəliyyətini stimullaşdıraraq hərəkətliliyə təkan verir.

Məhz etnosların daxilində yaranan passionar gərginlik etnoslarda əlaqə sistemini dəstəkləyir və onun sabitliyini və yaradıcı aktivliyini təmin edir. Etnoslarda passionar enerjinin artması nəticəsində baş verən passionar təkan onların yüksəlişinə, hərkətliliyinə və orijinal mədəniyyətlərin yaranmasına səbəb olmuşdur. (Л.Гумилев. 1991, Səh. 35)

Qumilyovun irəli sürdüyü passionarlıqla yanaşı coğrafi determinizm nəzəriyyəsinin tərəfdarları iqlim şəraitində baş verən dəyişikliklərin, yəni coğrafi amillərin insanların öz yurdlarını tərk edərək köçlərə məruz qalmasının başlıca şərtlərindən hesab edirdilər

Quraqlıq, toz tufanları və bunların nəticəsində baş verən qıtlıq heyvandar köçəri xalqları daima hərəkətdə olmağa, yer dəyişməyə, daha əlverişli şərait axtarmağa sövq edirdi. Lakin köçəri təsərrüfat forması insanların yaxın məsafələrə köçlərinə səbəb olsa da, insanların uzaq məsafələrə kütləvi miqrasiya hərəkətləri üçün təkanverici səbəb ola bilməzdi. İnsanların uzaq məsafələrə miqrasiya axınları köçərilik deyil, köçmənlik xarakteri daşıyırdı və onu şərtləndirən çoxsaylı səbəblər içərisində coğrafi və demoqrafik səbəblər önəmli rol oynayırdı.

Avropanın XVIII-XIX əsr tarixçiləri, linqvistləri, arxeoloq və antropoloqları tarixdən öncəki dövrdə qədim insan məskəni olan, coğrafi baxımdan Cənubi Sibiri və Uralı əhatə edən ərazini və Orta Asiyanı Turan adlandırırlar. Onlar bəşər mədəniyyətinin ilk rüşeymlərinin yarandığı Turan ərazisini tərk edib dünyaya yayılan öntürkləri əsasən Alp və Turan irqinə mənsub hesab edirdilər. Bu irqlərə mənsub olan və fiziki görünüş etibarı ilə avropoid tipinə aid insanlar tarixin ilk dövrlərində öz ilkin yurdları Turanı tərk edərək cənub və qərb istiqamətlərində irəliləyərək Ön Asiyada və Avropada məskunlaşmış, orda ilkin mədəniyyətin əsasını qoymuşlar. İlkin mədəniyyətin yaradıcıları olan bu xalqları Avropa tarixçiləri sumerlər, elamlar, liqurlar, iberlər, xattilər, kassilər, aslar, saklar, kimmerlər və sarmatlar adlandırırlar.

Beləliklə, istər müasir dövrün genetik və arxeoloji araşdırmaları istərsə də XVIII-XIX əsr və daha sonrakı dövrün assuroloqlarının və tarixçilərinin qədim mixi yazı mətnlərinə əsaslanaraq gəldikləri elmi araşdırmaların nəticəsinə görə onların özlərinin də ifadə etdikləri kimi Cənubi Sibirdə ilkin və Orta Asiyada isə yeni olmaqla bəşər mədəniyyətin təşəkkül tapdığı Turan adlı iki areal mövcud olmuşdur. Ön Türklər istər iqlim şəraiti, istərsə də digər səbəblər üzündən öz ilkin ana yurdları olan Turanı tərk edərək tarixin müxtəlif dövrlərində dəfələrlə təkrarlanan köçlərə məruz qalmış, Yer üzünün müxtəlif ərazilərinə yayılaraq məskunlaşmışlar. Lakin tarixi qaynaqlarda Mərkəzi Asiyadakı bu iki Turan arealından ayrılaraq qərbə doğru hərəkət edən insanlar Ön Asiyada və Avropada yeni mədəniyyət mərkəzlərinin əsasını qoydular. Bu ərazilərdə Turan adlı ölkələrin və hətta dövlətlərin meydana çıxdığı haqqında tarixi dəlillər də mövcuddur.



Avropanın bir çox görkəmli bilim adamları öntürklərin öz ilkin vətənləri Turanı tərk edərək tarixin çeşidli dövrlərində zaman-zaman doğuya və batıya doğru hərəkət etmələrini tarixi qanunauyğunluq kimi izah edirlər. Bəşər tarixində önəmli rol oynayan bu hadisələri müsbət dəyərləndirən fransız alimi R.Qrosset yazırdı: "Orta Asiya çöllərinin köçəriləri dünya tarixində mühüm rol oynamışlar. Onlar tarix ərzində iyirmi dəfə Turan yaylasından hərəkət edərək Hind və Qanq vadilərini, Dəclə-Fərat vadilərini işğal edərək ucqarların durğunlaşmış mədəniyyət mərkəzlərinə yeni insan axını əlavə etməklə canlılıq gətirmişlər. Xaqların bu köçləri böyük tənzimləyici gücə malik idi. Bu insan axını çayların dağlardan vadilərə axması kimi coğrafi qanunun bənzəri idi. Qədim mədəniyyətə malik müxtəlif xalqları vahid hakimiyyət altında birləşdirən türk və tatarlar mədəniyyətlərin çulğalaşmasına səbəb olurdular. (Grosset R. 1921, Səh. 6)

Fiziki görünüş baxımından Avropa irqinə mənsub turanlılar batıya və güney-batıya doğru hərəkət edərək Mərkəzi Avropada məskunlaşdılar, Anadoluda və Qafqazda yerləşdilər. Onlar həmçinin qarşılarında heç bir aralıqdənizi irqinə mənsub rəqibin mövcud olmadığı İranın yüksək yaylalarına məskunlaşdılar. Turanlılar Belucistan üzərindən Hindistana gedərək burda yerləşdilər. Burdakı hunlar, saklar, turuskalar, kuşanlar, hindiskitlər, eftalitetlər və qurcarlar turanlılardırlar. (E.Eikstadt, 1934, Səh. 282)

Etnoloq və tarixçilər insanların ilk kütləvi miqrasiyalarının buzluqların əriməsi ilə əlverişli iqlim şəraitin yaranması ilə əlaqələndirir və ilk miqrasiyanın Cənubi Sibir ərazisindən turanlılar tərəfindən gerçəkləşdirildiyi fikrini irəli sürürlər.

Görkəmli İtalyan arxeoloqu və paleontoloqu Françesko Molon Cənubi Sibiri və Ural dağlarını Turan irqinin vətəni hesab edir. Onun tezisinə görə buzluqların əriməsi ilə turanlıların şimaldan cənuba doğru hərəkəti başlamışdır. Onlar Cənuba doğru hərəkət edərək bir qolu Himalaydan şərqə, Hindistan və Ərəbistana doğru, digər qolu isə İran üzərindən Qafqaza və daha irəliyə doğru hərəkət edərək həmin əraziləri məskunlaşdırmışlar. (Fracesco Molon. 1880, Səh. 16)

Molon turanlıların Avropaya doğru hərəkətini və məskunlaşma yerlərini şərh edərək yazır: "Asiyanın böyük hissəsi bəşəriyyətin ikinci böyük hissəsini təşkil edən Turan irqinə məxsus idi. Buzluq erası sona çatdıqdan sonra ilk olaraq Turan irqi Ural dağları üzərindən batıya və güney-batıya doğru hərəkət edərək Avropaya gəlmiş, ilk öncə Avropanın güney bölgələrinə doğru hərəkət etdikləri zamanı müxtəlif ərazilərdə dayanaraq məskən salmış və bir müddətdən sonra irəliləməyə davam etmişlər. Onlar ilk növbədə Aralıq dənizi hövzəsinə doğru yenmiş, Avro-

panın güney ərazilərində yerləşən İtaliyanı, İsveçrəni, Fransanın cənubunu və İspaniyanı məskunlaşdırmışlar". (Francesco Molon, 1880, Səh. 19)

Molonun konsepsiyasına görə Ural-altaylı Turanlıların ilkin vətənləri olan Mərkəzi Asiyadan ikinci axın Kiçik Asiya üzərindən Babilə və sonra Dunayın aşağısından Alp regionuna oldu. Babilin xarabalıqlarında Assuriyalılardan öncə burda Ural-altay xalqlarının yerləşmiş olduqları haqqında çoxlu dəlillər mövcuddur. Babildə 3000 min il öncə aqlütinativ ural-altay dilində danışan xalqlardan qalma çoxlu abidələr mövcuddur. İtaliyada, İspaniyada və Fransanın cənubunda məskunlaşan bu xalqı italiyalı Nikolucci və digər antropoloq bilim adamları ligurlar adlandırır və onları fin-uqor ailəsinə aid edirlər. Molon bu ilk turanlıları liquroidlər adlandırır və onların liqur və iber olmaqla iki qoldan ibarət olduqlarını təsbit etdiyini yazır. (F.Molon, Al Popolo Ligure, Səh. 21)

Bu iki qohum xalq Bəsrə körfəzinə qədər bütün Aralıq dənizi hövzəsini əhatə edən İtaliya, İsveçrə, Fransa ərazisinə yayılaraq İtaliyada, İsveçrədə, Fransada və İspaniyanın güneyində məskunlaşmışlar, lakin onlardan öncə gəlib yerləşmiş qohum xalq olan Baskların dağlarla əhatə olunaraq qorunan ərazisinə müdaxilə edə bilmədilər. Ural və Altay arasında yaşamış olan bu xalqlar özləri ilə əhliləşdirmiş olduqları ev heyvanlarını da gətirmişdilər. (Francesco Molon. 1880, Səh. 22)

Klaprot türkləri Hind-avropalılardan sonra qədim dünyanın ən geniş yayılmış xalqı hesab edir. Onların yayıldıqları ərazi güney-batıda Adriatik dənizindən başlayıb, quzey-doğuda Lenanın Buzlu okeana töküldüyü ərazini əhatə etməkdədir. Buzların ərimısindən sonra başlanan Böyük tufandan sonra türklər indi başları əbədi qarla örtülü Böyük Altay dağlarından yenərək güney-doğu və güney-batı istiqamətindəki ərazilərə yayıldılar. Onlar çox erkən dövrlərdə Çin sərhəddi ərazilərində məskunlaşmışdılar. Çinlilər onları Hyunq-nular adlandırırdılar. (Klaprot, Asia Poliglotta. Səh. 225)

İngiltərədə nəşr olunan "Turanlılar və Panturanizmin soraq kitabı" adlı əsərdə Qədim Turanın Mərkəzi Asiyanı, yəni İranın şimalından Əfqanistanı, ordan Aral dənizi və şərqdə Çin Türkistanının da daxil olduğu ərazini əhatə etdiyi yazılmışdır. (A Manual of the Turanians and Panturanism, 1920. Səh. 13)

Fransız tarixçisi Maspero türklərin Ergenekon əfsanəsinin güman edildiyindən daha qədim dövrləri əks etdirdiyini və turanlıların dünyaya yayılmasını bu əfsanə ilə əlaqələndirmişdir. Pamir dağlarından şimalda Altay dağlarının arasında sıxışıb qalmış türklər əfsanəyə görə dəmir dağı əridərək xilas olmuş, onların bir qolu qərbə doğru hərəkət edərək Avropaya yayılmışlar, basklar onların son məntəqəsini təşkil edir. Turanlı türklərin digər bir qolu isə güneyə doğru hərəkət edərək Baktriya çöllərində qərar tutmuş, sonra Hindiquş dağ silsiləsini aşaraq öncə İran yaylasının doğu ucqarında yerləşdilər, onların böyük kütləsi isə qərbə doğru hərəkət edib, sonradan Midiya adlanan İran yaylasının batı hissəsində məskunlaşdılar. Bir neçə turanlı türk tayfası isə daha qərbə gedərək Kiçik Asiya yolunu tutmuş, Atropatenada və Armeniyada məskunlaşmışdılar. Turanlıların bir qolu daha cənuba doğru gedərək Susiananın düzənliklərində, Fərat və Dəclənin sahillərində məskunlaşmışdılar. (Caston Maspero. 1876, Səh. 135)

XIX əsrin bir çox bilim adamları o cümlədən ingilis assuroloqu E.Norris elmdə turanlı etnonimi öz təsdiqini tapmadan öncə turanlıları və hətta sumerləri iskit/-sak termini ilə ifadə edirdilər. İskit/saklar öz ilkin vətənlərindən eyni zamanda və ya tədricən hərəkət edərək ilk öncə İranın güneyi üzərindən Hindistana, digər istiqamətdə isə Misirə, Efiopiya və Nimibiyaya və Ərəbistanın cənubuna doğru hərəkət etmişlər. Eyni zamanda onlar Suriya və Kiçik Asiya üzərindən Yunanıstana, İtaliyaya, Qafqaz üzərindən quzey istiqamətində Avropanın və Asiyanın ən ucqar guşələrinə yayılmışlar. Bu yayılmanın mərkəzi Sinar-Sumer olmuşdur. Biz belə bir nəticəyə gəlirik ki, samilər və arilər tarix səhnəsinə qədəm qoymadan öncə Asiyanın, Avropanın və Afrikanın əhalisini əsasını təşkil edən böyük iskit-sak kütləsinin danışdığı dilin söz ehtiyatı az və ya çox dərəcədə bir-birlərindən fərqlənsə də oxşar qarammatik və dil qruluşuna malik idilər. (Norris M. 1852, Səh. 232)

Norris Sak-iskitlərin Suriya üzərindən Kiprə, Siciliyaya və Fransanın cənubu və İberiyaya (İspaniya) yayıldıqlarını, müasir bask dilinin və iberlərin sak-iskit mənşəyə malik olduqlarını sübut etdiyini yazır. O bu haqda öz fikrini daha da inkişaf etdirərək yazır, "Mən güman edirəm ki, Avropadakı böyük sak-iskit axınının kökünü tirren-pelasqlar, yəni etrusklar təşkil edir. Buna şübhə edənlərə qarşı bunu deyə bilərəm ki, makedoniyalılar, epirlər və albanlar hellen-yunanlılar istisna olmaqla bütün İlliriya xalqları sak-iskitlərə mənsubdurlar". (Norris E. 1852, Səh. 234)

Alman assuroloqu A.Virth turanlı türklərin qərbə doğru baş vermiş axınlarının üç mərhələdə baş verdiyini yazır. M.ö. IV minillikdən etibarən Turan irqinə mənsub Kas tayfası Avropaya və Afrikaya doğru köç etmişlər. Bu ilk turanlı axını idi. M.ö. II minillikdə isə Ön Asiyaya və Misirə doğru ikinci axın Qoqlar və Huklar (Huksos) olmuşlar. Turanlıların bu ikinci köçləri iskitlərin e.q. VII əsrdə iflasına və Qoqun Fələstindəki uğursuzluğuna qədər davam etmişdir. Turanlıların üçüncü axını Avropanı lərzəyə salan hun axınları olmuşdur. (A.Wirth, Səh. 1905, 231)

Qrosset Türk köçlərinin bəşər tarixinin inkişafındakı rolundan bəhs edərək yazırdı: "Avropa tarixinin gedişini üç-dörd dəfə qəfləti gəlişləri ilə dəyişdirən böyük Asiya köçərilərini biz yalnız öz bilgisizliyimiz səbəbi ilə qeyri-adi bir hal kimi dəyərləndiririk". (Grosset R. 1938, Səh. 49)

Görkəmli türk tarixçisi Yusif Ziya Özər yazır ki, əgər biz tarixin ilkin dövrlərində insan irqinin Yer üzərində yayılma mərkəzini axtarmaq istəsək, Arxeoloji tədqiqatlar və yer adları o mərkəzin Turan və Sibir olduğunu göstərməkdədir. (Y.Ziya Özer. 1932, Səh. 4)

İngilis arxitektura tarixçisi Ceyms Ferqusson dünyanın dörd bir tərəfində, Hindistan və Çindən başlamış, İspaniyaya qədər və Əfqanistandan başlamış Nil çayına qədər geniş ərazidə mövcud olan və tarixin ilkin dövrlərinə aid daşdan tikilmiş meqalit abidə və tumulların turanlılara məxsus olduğunu elmi faktlarla təsdiq edir. Ferqusson Turan irqinin öz ölən əcdadlarının dəfninə daha sayqılı yanaşdıqlarını və əcdad kultunun turanlılara xas bir keyfiyyət olduğunu yazır. Ferqusson ən qədim dövrdə hələ arilər və samilər tarix səhnəsinə qədəm qoymadan öncə turanlıların məskunlaşma arealını onlara xas dolmen, tumul və kurqan abidələrinin yayılma coğrafiyası üzrə müəyyən edir. Dolmen mədəniyyətinin turanlılara məxsus olduğunu qeyd edən Ferqusson turanlıların ilkin ana yurdlarının Mərkəzi Asiya və onun şimalında olduğunu ehtimal edir. Onlar burdan şərqə Hindistana, cənuba Okus çayı boyunca Baktriyaya və İrana, qərb istiqamətində isə Xəzər və Azov dənizi şimal sahili boyunca Dnepr, Visla çayları boyunca Baltik dənizi sahillərinə və bütün Avropaya doğru, Qafqaz üzərindən Suriya və Ərəbistana, hərəkət etmişlər. Beləliklə, güman etmək olar ki, turanlıların ilkin ana yurdları nisbətən şimalda olmuş və onlar tarixin ən erkən dövrlərində burdan bütün dünyaya yayılmışlar. Bəşəriyyətin bu ulu ailəsinin ilk məskənləri olan çöllərdə onlara xas çoxlu kurqanlara rast gəlmək olur. Onlar dəfn etdikləri əcdadlarının məzarları üzərində kurqanlar yaradır və bu kurqanların üzərində balbal adlanan üzləri şərqə doğru baxan daş heykəllər ucaldırlar, bu heykəllərin əllərində içki piyalələri olur. Varlı, adlı sanlı adamların məzarları üzərində piramida və ya daşdan evə bənzər tikili və ya böyük bürc ucaldırlar. (Fergusson J. 1872, Səh. 448)

Tarixin ən erkən dövrlərdən etibarən isə Turan irqinə mənsub olan insanlar öz ölülərinin məzarları üzərində dolmenlər və tumullar ucaldırdılar. Bu cür tumullar Asiyanın şimalında, Kiçik Asiyada geniş yayılmışdır, onları Etrusklar öz məzarları üzərində ucaldırdılar, Yunanıstanda, Germaniyada və Fransanın qərbində, Skandinaviyada və bütün Avropada onlara çox rast gəlmək olur. (Fergusson J. 1868, Səh. 80)

Dolmenlərin aşkar olunduğu yerlərdə hələ xristianlıq hakim deyildi və onu quran insanların damarlarında turanlı qanı hələ çoxluq təşkil edirdi. Məlum olduğu kimi bu tikililər dünyanın uzaq guşələrində Fransa və İngiltərədə VIII-IX əsrlərə qədər geniş yayılmışdı. Skandinaviyada isə bu dolmenlərin ucaldılması XI-XII əsrlərə qədər davam etmişdir. Ferqusson dolmenlərin mövcud olduğu bütün ərazilərdə onları yaradanların turan qanı daşıyan insanlar olduğunu yazır, o cümlədən, hətta Fələstində, İordaniyada və s. yerlərdə onların mövcudluğunu təsbit edir. (Fergusson J, 1872, Səh. 508)

Ferqusson dolmenlərin yayıldığı belə bir qanunauyğunluğu müəyyən etmişdir ki, harda dolmenlər mövcuddursa orda "Ak" sonluğu ilə bitən yer adları üstünlük təşkil edir. O dünyanın bir çox ərazilərində, o cümlədən Fransada və İspaniyada bu qanunauyğunluğu müşahidə etmişdir.

Arxeologiya elminin də təsdiq etdiyi kimi İberiya yarımadasından başlamış Rusiyanın dərinliklərinə qədər yayılaraq davam edən menqir, dolmen və təpələrdən ibarət abidələr, nəhayət Qara dənizdən Sibirə qədər mövcud olan kurqanlar Alp insanlarının və ya turanlıların Avropaya doğru miqrasiyasını təsdiq edən abidələrdir. (Y.Ziya Özer, 1932, Səh. 531)

Turanlıların öz əcdadlarının məzarları üzərində ucaltdıqları Menqir sözünü kelt dilində "uzun daş" kimi izah edirlər, lakin nəhəng daş abidə olan Menqir türk sözü olub "Menq" və "ir" olmaqla iki tərkibdən ibarətdir. Qədim türk dilində Menq-əbədi deməkdir, İr isə daş anlamındadır. Turanlı öntürklərin öz əcdadlarının məzarı üzərində yüksəltdikləri və ya əcdad ruhlarına sitayiş məqsədilə ucaltdıqları bu möhtəşəm abidələr "Əbədi daş" adlanırdı. (ДТС, 1969, Səh. 341)

Dolmen sözünü də kelt dilində "böyük daş" kimi izah edirlər, lakin fikrimizə görə dolmen məzarın qədim türkcə adıdır, *tol-man* olmaqla iki tərkibindən ibarətdir, mənası həyatın bitdiyi və ya başa çatdığı yer deməkdir. Qədim türklərdə öldü sözünü çox zaman "tiriqlik toldu" yəni həyatı başa çatdı şəklində ifadə olunurdu. (ДТС, 1969, Səh. 572)

İngilis tarixçisi Elizabet Sevellə görə dünyanın Batı Asiya hissəsində məskunlaşmış ilk insanlar tatarlar və ya Turan əhalisi olmuşdur. İndiyə qədər insanların malik olduğu bilgilər və onların danışdıqları ilk dilin ən qədim dövrlərdə danışıq ünsiyyət forması Turan dili olmuşdur. Bu dil Qafqazdan Hind okeanına qədər, Aralıq dənizi sahillərindən Qanq çayının mənsəbinə qədər olan ərazidə yayılmışdı. Onun dialektləri Batı yarımkürəsinin bütün ərazisində istifadə olunurdu. (Sewell E. 1862, Səh. b1)

Turan dili Asiyanın beşdə dörd hissəsində və Avropanın uzaq guşələrində danışılan dildir, bu ərazilərin əngin çöllərində yaşayan köçərilərlə yanaşı macarlar və türklər də bu dildə danışırdılar.

Sevellin yazdığına görə bəşəriyyətin ilkin dili olan Turan dilindən ilk ayrılan dil Ərəbistanda, Fələstində, Misirdə, Babildə, Sidonda, Tirdə danışılan hami dili olmuşdur, sonrakı mərhələdə hami dili inkişaf edərək sami dilinə çevrilmişdir. Dillərin bölünməsinin üçüncü mərhələsində formalaşan hind-avropa dilləri Turan dilindən ayrılmışdır.

Hind-avropa dilinin təmsilçiləri olan arilər e.q. 1500-ci illərdə batıya və doğuya yayılaraq buralarda kaloniyalar şəklində məskunlaşdılar. Onların doğuya doğru hərəkət edən qolu Əfqanistanda və Hind çayı boyunca, Pəncabda yayılaraq buranın yerli turanlı əhalisini tədricən dağlara doğru sıxışdırdılar, onların varisləri bu gün də müxtəlif turan ləhcələrində danışmaqdadırlar. Onların yerlərində məskunlaşan arilər isə bugünki hindus xalqını meydana gətirdilər. Arilərin digər qolu

batıya doğru hərəkət edərək Persiyada, Midiyada və quzey-batıda yerləşən qonşu ölkələrdə məskunlaşaraq buranın öncədən əsl yerli əhalisi olan turanlıları və ya iskitləri özlərinə tabe etdilər. (Sewell E. 1862, Səh. V, VI)

Bir çox tarixçilər, o cümlədən ingilis Robert Ellis Amerikanın güneyindəki Peru, Boliviya və digər ölkələrdə mövcud olmuş İnk imperiyasının yaradıcıları olan keçua xalqının turanlılar olduğunu yazır. R.Ellis və C.Ferquson öz araşdırmalarında sübut edirlər ki, İspaniyanın arilərdən öncəki qədim əhalisi iberlər Turan xalqı idi. R.Ellis yazdığına görə Kiçik Asiyanın ən önəmli xalqı turanlılar olmuşlar. O İtaliyanın ən qədim xalqları olan pelasqların, liqurlarm, etrusk və toskanalıların turanlılar olduğunu sübut edir. Hindistanın arilərdən öncə ən qədim əhalisi sanskritcə Turuşa adlanan türklər idi.

Turan nəzəriyyəsinin banisi hesab olunan ingilis tarixçi assuroloqu G.Rauilson "Millətlərin mənşəyi" adlı əsərində Babildəki ən qədim dövlət olan Kaldi (Xaldey) (sumer ölkəsi öncələri xaldey və ya kəldani adlandırılırdı) krallığının m.ö. 3783 il Turanlılar tərəfindən yaradıldığı fikrini irəli sürmüşdü. Onun yazdığına görə bəzi tarixçilər Mesopotamiyada Turan sülaləsinin mövcudluğunu m.ö. 8 min, 7 min il qabaq olduğunu əsaslandırmağa çalışırlar. Bu tarixi belə bir arqumentlə əsaslandırırlar ki, Tufan 10 min il əvvəl baş vemişdir və Nuhdan Nimruda qədər olan dövrdə hər bir hakimiyyət sülaləsi min il davam etmişdir. (G.Rawlinson. The Origin of Nation, Səh. 36)

Babildə samilərdən öncə turan hakimiyyəti mövcud idi və o zaman da ölkə ayrı-ayrı krallıqlara bölünmüşdü. Mesopotamiyada (Babildə) Turan svilizasiyasının hakimiyyət dövrü e.q. 2000-ci ilə qədər davam etmişdir, sonra onu 2000-ci ildən 1575-cü ilə qədər samilər davam etdirmişlər, 1575-dən 1545-qədər elamlıların hakimiyyət dövrüdür, 1545-ci ildən 1300-cü ilə kimi isə ərəblərin hakimiyyət dövrüdür. (G. H. Rawlinson. 1883, Səh. 410)

Arilərin mütəşəkkil subetnos kimi tarix səhnəsinə qədəm qoyması tarixini m.ö. 1500-1400 illərdən etibarən qəbul etsək, dünya tarixinin həmin dövrə qədərki tarixini Turan tarixi dövrü kimi səciyyələndirmək olar. Lakin onu da qeyd etmək lazımdır ki, arilərin tarix səhnəsinə qədəm qoymasını Turan dövrünün sona çatması kimi dəyərləndirmək yanlış bir düşüncədir. Arilərin peyda olması ilə dünya tarixində İran-Turan savaşları adlandırılan, dünyada iki irqin hakimiyyət uğrunda mübarizə apardığı və min illər ərzində davam edən tarixi dövr başlanmışdır.

Alman tarixçisi A.Virth bəşər tarixində ilk dövləti yaradanlar Mesopotamiyanın cənubunda sumerlər və akkadlar, yəni turanlılar olduğunu və onların şimaldan gəlmiş böyük ural-altay irqinə mənsub olduqlarını yazır. Onlar sonradan samilər tərəfindən ortadan qaldırılmışlar. (A.Wirth. 1905, Səh. 11)

F.Lenormanın irəli sürdüyü nəzəriyyəyə görə Turan xalqlarının ana yurdu Sumer-akkadın quzey-doğusundakı Zaqros dağları və onun yaylalarıdır. Lenormanın göstərdiyi bu ərazi Azərbaycan ərazisinə uyğun gəlməkdədir. Lenorman Türklərin mənşəyi və dünyaya yayılma prosesini özündə əks etdirən "Yüksəliş və təkrar dönüş" tezisini irəli sürmüşdür. Lenorman yazır: "Turanlıların yayıldığı çıxış məntəqəsi sivil bəşəriyyətin dörd böyük irqinin ümumu beşiyi olan ərazidə idi. Hətta bu gün Altayda yaşayan şimal turanlıları, uqro-finlər, samoyed türk-tatarlar, monqollar, tunquzlar üçün Altay beşik deyil, E.Renan da qeyd edirdi ki, türklərin indi yaşadıqları yer onların köçlərinin 3-cü mərhələsini təşkil edir və Altaylar onlar üçün yenidən qalxıb yüksələrək yeni yerləşim məntəqəsini tapmaq üçün bir çıxış nöqtəsidir. Hər dəfə Altay dağlarında məskunlaşaraq artıb çoxalan turanlı türklər yenidən öz yurdlarını tərk edərək yer üzərinə yayılırlar və bu hadisə tarixin müxtəlif dövrlərində yenidən təkrarlanır".

# VI FƏSİL. Mərkəzi Asiyadakı böyük Turan dövləti

Tarixin qədim dövrlərində Turan adlı dövlətlərin və ölkələrin mövcudluğuna müasir dövrdə şübhə ilə yanaşılıb nə qədər inkar edilsə də, tarixi qaynaqlarda və qədim müəlliflərin əsərlərində dünyanın müxtəlif ərazilərində bu adı daşıyan dövlətlərin və ya ölkələr haqqında geniş məlumatlar öz əksini tapmışdır.

Böyük Turan dövləti dedikdə ilk ağla gələn Mərkəzi Asiyada bu adla mövcud olan və bir çox mənbələrdə haqqında bəhs olunan, iran qaynaqlarında Əfrasiyab, türklər tərəfindən isə Alp Ər Tonqa adlandırılan hökmdarın hakimiyyət sürdüyü dövlətdir.

Türk xalqlarının böyük mütəfəkkiri Mahmud Kaşğari türklərin vətəni olan Turanın bir cahan dövləti olduğunu dilə gətirərək yazırdı: "Tanrının inayəti ilə günəş Türk bürclərində doğdu və göylərin bütün dairələri onların mülkləri üzərində döndü. Tanrı onlara Türk adını verdi və onları yer üzünə hakim qıldı. Dövrümüzün xaqanlarını onlardan çixardı, dünya millətlərinin idarə cilovunu onların əlinə tapşırdı, onları hamıdan üstün elədi, onları haqq üzrə qüvvətləndirdi". (Mahmud Kaşğari. C. 1, 2006, Səh. 55)

Tarixin qədim dövrlərində Mərkəzi Asiyada Turan adlı möhtəşəm bir dövlətin mövcudluğu ilk öncə bu ölkənin qonşuluğunda yaşayan və tarix boyu bu dövlətə qarşı mübarizə aparan iranlılara məxsus qaynaqlarda öz əksini tapmışdır. İlk növbədə zərdüştliliyin dini kitabı olan Avestada, sonra Firdovsinin "Şahnamə" epik dastanında, fars şairi Dəqiqinin əsərində, Təbərinin və Məsudinin tarix əsərlərində və bir çox fars və ərəb dilli qaynaqlarda Turan dövləti, onun hökmdarları və onların ərazisini istila edən iran tayfalarına qarşı mübarizələri öz əksini tapmışdır. Turan dövlətinin əsası Tarixdə Türk oğlan adı ilə tanınan Yafəsin oğlu Tur tərəfindən qoyulmuşdur. Turu onun oğlu Başanq əvəz etmişdir. Turan dövləti öz qüdrətli dövrünü Başənqin oğlu Əfrasiyabın, yəni türklərin əzəmətli qəhrəmanı Alp Ər Tunqanın dövründə yaşamışdır. Məhz onun dövründə Turan bir dünya dövlətinə çevrilmişdir. Qaynaqlarda verilən bilgilərə görə Turan dövlətinin ərazisi təxminən 6 mln. kv/km. bir sahəni əhatə etmişdir. (www.clever-geek.github.io. Country.Turan)

Yəni hələ arilər qərbdən gələrək İran adlanan coğrafiyanın quzey-doğusunda yerləşmədən öncə Turan dövləti Sibirin güneyini, Qazaxıstan da daxil olmaqla bütün Türkistanı, Əfqanistanı, İran yaylasını və Qafqaz da daxil olmaqla böyük bir ərazini əhatə edirdi. Xəzər dənizi Turanın daxili dənizi hesab olunurdu. Genetik araşdırmalara əsasən turanlı öntürklər bir etnos kimi 16 min il öncə öz ilkin vətənləri olan Sibirin cənubu və Ural dağları arasında təşəkkül tapmışlar. Onlar



zaman-zaman burdan müxtəlif istiqamətlərə yayılaraq bəşər tarixinin ilk mədəni insan təbəqəsini meydana gətirmişlər.

İngiltərədə nəşr olunan "Turanlıların və Pan-Turanizmin soraq kitabı" əsərində Turan coğrafiyasının sərhədləri müəyyən edilərək yazılmışdır ki, qədim Turan Mərkəzi Asiyanı, yəni İranın şimalından Əfqanistana qədər, ordan Aral dənizinə və şərqdə Çin Türkistanının da daxil olduğu ərazini əhatə edirdi. Ural-altay dil ailəsinə mənsub etnik birliklər içərisində yalnız türklər qədim Turanda yaşamaqda davam edirlər. Həmin kitabda yazıldığına görə turanlılar Aralıq dənizinin şərqindən Yapon dənizinə və Şimal Buzlu okeanın sahillərinə qədər olan Asiyadakı geniş ərazidə məskunlaşmışlar. Turanlıların iki əsas qolu Avropaya köç etdi, onların bir qolu şimala və qərbə doğru Baltik dənizi və Atlantik okean tərəflərində, cənubda isə Budapeştə tərəf hərəkər edərək bu ərazilərdə yerləşdilər, digər qolu isə cənub-şərqə doğru gedərək Balkanların böyük hissəsində məskunlaşdılar. (A Manual oft he Turanians and Pan-Turanianism, 1920, Səh. 13, 14)

Öntürklər bir etnos olaraq ilk öncə Cənubu Sibir də daxil olmaqla Volqa-Ural bölgəsində təşəkkül taparaq Turan birliyinin ilk rüşeymini yaratmışlar. Sonra tədricən güneyə doğru yayılaraq Aral və Xəzər dənizi arasındakı ərazilərdə hind-arilər bura qədəm qoymadan min illər öncə məskunlaşmış, Böyük Turan adlanan vətənlərinin mərkəzinə çevirmişlər. Genetik və arxeoloji araşdırmalar nəticəsində də məlum olduğu kimi bəşər mədəniyyətinin ilk rüşeymləri XI-X minilliklərdə Böyük Turan adlanan bu mərkəzdə yaranmış və burdan yer üzünün digər ərazilərinə yayılmışdır. İlkin bəşər mədəniyyətinin yarandığı qədim tarixi dövrdə ari və sami irqləri hələ tarix səhnəsinə qədəm qoymamışdılar.

XX əsrin əvvəllərində yaşamış Alman antropoloqu Egon Eykştadt Turanı, yəni cənubi Sibiri turanlıların ilkin vətəni və bəşəriyyətin dinamik inkişafının əsas hərəkətverici qüvvəsi hesab edir.

Turan çölləri dinamik inkişafın mərkəzi idi. Bu bozkırın yaşayış alanı kimi təkcə bioloji özəlliklərinin deyil, həmçinin orda əhali artımının sosial psixoloji özəlliklərindən də irəli gəlirdi.

E.Eykstadt turanlıların ilkin vətəni və onların yer üzərində məskunlaşması hadisəsini təfərrüatlı şəkildə təsvir edir: "Tarım hövzəsi və Asiyanın yüksək ovalıqları qədimlərdə olduğu kimi bu gün də turanlıların yurdudur. Turan indiki Türkmənistan və Qazaxıstanın yerləşdiyi ərazidir". (Egon Eikstedt, 1834, Səh. 282)

Turan ərazisi təkcə mərkəzi Asiyanı əhatə etmirdi, hind arilərdən öncə Hindistan ərazisi də qədim dövrdən etibarən turanlıların məskunlaşdıqları əraziyə daxil idi. Biruni Hind yarımadasının cənubundakı körfəzin Turan dənizi adlandığını yazır. (А.Бируни, 1963, səh. 196)

Aral-Xəzər və Qaradəniz hövzəsinin yaşayış üçün əlverişli əraziyə çevrilməsi və turanlıların bu əlverişli şəraitdə inkişafı onların yaşayış və fəaliyyət alanlarının

durmadan qərbə doğru genişlənməsinə və yeni ölkələrin meydana çıxmasına səbəb olurdu. Aral dənizi və Ural dağları arasındakı ərazi qərbə doğru uzanan təbii körpü və yol rolunu oynayırdı. Quraqlıq, toz tufanları və bunların nəticəsində baş verən qıtlıq heyvandar köçəri xalqları daima hərəkətdə olmağa, yer dəyişməyə, daha əlverişli şərait axtarmağa sövq edirdi.

Görkəmli Fransa tarixçisi Maspero türklərin Ergenekon əfsanəsinin güman edildiyindən daha qədim dövrləri əks etdirdiyi fikrini irəli sürmüş və turanlıların dünyaya yayılmasını bu əfsanə ilə əlaqələndirmişdir. Pamir dağlarından şimalda Altay dağlarının arasında sıxışıb qalmış türklər əfsanəyə görə dəmir dağı əridərək xilas olmuş, onların bir qolu qərbə doğru hərəkət edərək müxtəlif ərazilərə və o cümlədən Avropaya yayılmışlar. Metalın və digər filizlərin dağ süxurlarının üst qatlarında yerləşmiş olduğu Altay dağlarında mədənçilik fəaliyyəti ilə məşğul olan turanlılar zərgərlik sənətini də tezliklə mənimsəyərək bu sənətlərin Xaldeydə (Sumerdə) əsasını qoydular. Bu ölkədə aşkar edilmiş qədim məzarlarda çoxsaylı qızıl, bürünc, dəmir əşyalar: qolbağı, sırğa, bıçaq, balta, dəryaz tapılmışdır. (Gaston Maspero. 1876, Səh. 135, 141)

Maspero kimi Lenorman da türklərin qapanmış olduqları dar vadidən dəmir dağı əridərək xilas olub azadlığa çıxdıqlarını əks etdirən Ergənəkon əfsanəsinin kökünün türkütlərin meydana çıxdığı ilkin orta əsrlər dövrünə deyil, daha qədim dövrlərə, dəmirin kəşf edildiyi dövrə aid olduğunu qeyd edirdi. Türklərdə olduğu kimi Turan irqinə mənsub olan finnlərin də dini inanclarında metalla əlaqədar miflər mühüm yer tuturdu. (Lenormant F. 1877, Səh. 366)

Görkəmli İtalyan arxeoloqu və paleontoloqu Françesko Molon da Ural-Altay bölgəsini Turan adlandırır və Buzluqların ərimesi ilə turanlıların öz yurdlarını tərk edərək şimaldan cənuba doğru hərəkət etdiklərini yazmışdır. Asiyanın böyük hissəsi bəşəriyyətin ikinci böyük əhali qrupunu təşkil edən Turan irqinə məxsus idi. Onlar Cənuba doğru hərəkət edərək bir qolu Himalaydan şərqə, Hindistan və Ərəbistana doğru, digər qolu isə İran üzərindən Qafqaza və daha irəliyə doğru hərəkət edərək həmin əraziləri məskunlaşdırmışlar. Turan irqinin digər bir qolu Ural dağları üzərindən batıya və güney-batıya doğru hərəkət edərək Avropaya gəlmişlər. (Francesco Molon. 1880, Səh. 16, 19)

F.Molon heyvanların ilk olaraq turanlılar tərəfindən əhliləşdirildiklərini və Ural və Altay arasında yaşamış turanlı xalqların əhliləşdirmiş olduqları ev heyvanlarını da özləri ilə məskunlaşmış olduqları yeni ərazilərə gətirdiklərini xüsusi olaraq qeyd edir. (Francesco Molon. 1880, Səh. 22)

Klaprota görə dünyanın ən qədim xalqlarından olan türklərin yayıldıqları ərazi güney-batıda Adriatik dənizindən başlayıb, quzey-doğuda Lenanın Buzlu okeana töküldüyü ərazini əhatə etməkdədir. Buzların əriməsi ilə başlanan Böyük tufandan sonra türklər indi başları əbədi qarla örtülü Böyük Altay dağlarından yenərək



güney-doğu və güney-batı istiqamətindəki ərazilərə yayıldılar. Onlar çox erkən dövrlərdə Çin sərhəddi ərazilərində məskunlaşmışdılar. Çinlilər onları Hyunqnular adlandrırdılar. (Klaprot J. 1823, Səh. 225)

Yuxarıdakı şərhlərdən də göründüyü kimi Ön türklər bir etnos kimi təşəkkül tapdıqları və tarixçilərin 1-ci Turan adlandırdıqları Cənubi Sibirdən tarixin sonrakı dönəmlərində güneyə doğru Aral dənizi, Amudərya və Sırdərya çaylarının iqlimi daha əlverişli və yaşayış üçün daha münasib vadilərinə yayılaraq burda ilkin bəşər mədəniyyətinin rüşeymlərini yaratmış, ilkin şəhər mədəniyyətinin, əkinçiliyin əsasını qoymuş və heyvanların əhliləşdirilməsinə nail olmuşlar.

Mərkəzi Asiyanın bu əzəmətli Turan ölkəsinin sakinləri sonradan malik olduqları mədəniyyət ünsürlərini, əkinçilik vərdişlərini, heyvan bəsləmə və metalçılıq səriştəsini özləri ilə köçlərə məruz qalaraq məskunlaşdıqları yeni ərazilərə daşıyaraq orda yeni mədəniyyətlərin təşəkkül tapmasına səbəb olmuşlar.

Turanlıların ən qədim dövrlərdən öz yurdlarını tərk edərək müxtəlif isiqamətlərə və o cümlədən İran üzərindən batıya doğru yönəlmələri Amerikanın Nyu Hempşir Universitetindən İtalyan-mənşəli arxeoloqu R.Pumpellinin Anauda və ətraf ərazilərdə aşkara çıxardığı qədim arxeoloji mədəniyyətlərlə də sübut olunmuşdur. Turanlıların və eləcə də bəşəriyyətin indiyə qədər aşkar edilmiş ən qədim şəhər mədəniyyəti Türkmənistan ərazisində 1904-1908-ci illərdə arxeoloq Pumpelli tərəfindən araşdırılaraq öyrənilmiş Aşqabadın 8 km. Anau ərazisindəki şəhər mədəniyyətidir. Anau adını fars dilində Abe-nav (Yeni su) və ya "yeni yer" kimi izah edib onun kökünü iranlılara bağlamağa çalışsalar da, bu yaşayış məskəninin adı qədim zamanlardan türkcə Ana öy (ana ev) şəklində mövcud olmuşdur. Anau Türkmənistanın güneyində mövcud olmuş ən böyük qədim iqtisadiyyat, mədəniyyət və ticarət mərkəzi olaraq şəhərin və onun ətrafında məskunlaşmış əhali tərəfindən "Ana ev" adlandırılmışdır.

Pumpellinin irəli sürdüyü "Oasis teori" yəni "Vahə nəzəriyyəsi"nə görə tarix öncəsi ilk uyqarlıqlar məhz münbit torpaqların, rütubətin və bol suyun mövcud olduğu böyük çayların vadilərində yaranmışdır.

Avropanın və Asiyanın quzey ərazilərini əhatə edən buz qatlarının əriməsi nəticəsində əmələ gələn sel suları böyük çaylar şəklində guneyə doğru axaraq Batıda Mesopotamiya adlanan Zaqros dağları ilə Aralıq dənizi arası əraziləri, doğuda isə Turan ovalığı adlanan əraziləri öz suları ilə doyuraraq yüz illər ərzində davam edən proses nəticəsində bol rütubətə malik əkinçilik üçün əlverişli bərəkətli-münbit torpaqlara çevrilməsinə şərait yaratmışdılar. Nəticədə tarix öncəsi adlanan çağda bir-birindən uzaq məsafədə yerləşən bu iki ərazi bəşər uyqarlığının iki önəmli mərkəzlərinə çevrilmişlər. Lakin mövcud əlverişli şərait ilkin uyqarlığın ilk öncə Amudərya və Sırdərya çaylarının vadilərində yerləşən Turan vadisində yaranmasına səbəb olmuşdur.

Anau və onun ətrafında yerləşən qədim arxeoloji mədəniyyətlər də, məhz Amudərya və Sırdərya kimi nəhəng çayların suvardığı geniş vadiləri əhatə edən Turan ovalığında yerləşirdi.

R.Pumpelli Anau arxeoloji mədəniyyətinin tarixi ilə əlaqədar yazırdı: "Anau qazıntılarında aşkar etdiyimiz mədəni qatlar insan tarixinin 10 min il öncəki dövrünü əhatə edirdi. Anau vadisi coğrafi landşaft baxımından 10 min il ərzində sabit qalmışdı və xarabaların yerləşdiyi ətrafdakı torpaqlarda da əkinçilik fəaliyyəti davam edirdi". (Pumpelly R. 1908, Səh. 320)

Pumpellinin nəzəriyyəsinə görə bəşəriyyətin ilkin mədəniyyətinin beşiyi Turandır. Bəşər mədəniyyətinin ilk rüşeymi məhz Amudərya və Sırdərya vadilərində yerləşən Turan ovalığında yaranmış və bu mədəniyyətin daşıyıcıları olan ilk mədəni insanlar çeşidli səbəblər üzündən öz yerlərini tərk edərək müxtəlif ərazilərdə məskunlaşmış, onların bir qolu da Mesopotamiyaya gedərək orda yerləşmiş və burda möhtəşəm Sumer mədəniyyətinin əsasını qoymuşlar.

Pumpelli bəşər uyqarlığının əsası 10-9 min il öncə Anauda qoyulduğunu sübut etmişdir. Əkinçiliyin, sənətkarlığın və heyvanların əhliləşdirilməsinin əsası Anauda qoyularaq inkişaf etdirildiyi bir dövrdə yer kürəsinin digər ərazilərində insanlar hələ ibtidai ovçuluq və yığıcılığın hakim olduğu ibtidai icma quruluşu dövrünü yaşamaqda davam edirdilər. Anau arxeoloji mədəniyyətini dərindən araşdırıb onu dünya elminə tanıdan Pumpelli Sumer mədəniyyətinin kökünün Anauya bağlı olduğunu sübut etmişdir. Turan ovalığında aşkar edilmiş qədim arxeoloji mədəniyyət təkcə Anau ilə məhdudlaşmır, 2000-ci ilin başlanğıcında Amerika arxeoloqları Pensilvaniyanın arxeologiya və antropologiya muzeyinin professoru Frederik Hibertin rəhbərliyi altında və Rus arxeoloqlarının birgə fəaliyyəti nəticəsində Anauda və Türkistanın çeşidli bölgələrində, o cümlədən Türkmənistanın və Özbəkistanın müxtəlif ərazilərində Anau mədəniyyətinin davamı olan və e.q. 6000-4000-cü minilliklərə aid bir çox qədim yaşayış məskənləri aşkar edilmişdir. Arxeoloqlar Anauda üzərində yazı işarələri olan və təxminən e.q. 2300-ci ilə aid olan çox dəyərli bir möhür aşkar etmişlər.

Lakin həmin yazı nə Mesopotamiya, nə Misir və Çin yazılarına bənzəməməkdədir. Burdan belə bir nəticə hasil olur ki, Anauda yüksək inkişafa malik müstəqil bir uyqarlıq mövcud olmuşdur.

Pumpelli Anauda aşkar edilən müxtəlif dövrlərə aid at qalıqlarına əsasən atın məhz Anauda və ya onun ətrafındakı ərazidə əhliləşdirildiyi fikrini irəli sürmüşdür. Anauda tapılan möhürün üzərində Sumer ərazisindəki kimi Öküz başını təsvir edən üçbucağın üzərində iki qısa xətli idioqram əks olunmuşdur. Anau əhalisinin istifadə etdikləri əkinçilik və heyvandarlıq forması Mesopotamiyada olanla eyniyyət təşkil edirdi. Saxsı qabların forması və üzərindəki naxışlar da Sumer mədəniyyətinə xas xüsusiyyətlərə malik idi. Bütün bunlar Anau şəhər dövləti ilə Sumer arasında sıx bağlılığın mövcudluğunu sübut edirdi. Anaunun sakinləri Sumerdə olduğu kimi çayların istiqamətini dəyişdirərək mürəkkəb suvarma kanalları şəbəkəsi yaratmaqla əkinçilik mədəniyyətinin yüksək inkişafına nail olmuşdular.



Divarlarının uzunluğu 92 metrdən 152 metrə qədər olan bir-birindən yüz metr aralı çoxsaylı monumental binalarda yüzlərlə insanın yerləşə biləcəyi çoxsaylı otaqlar mövcud olmuşdur. Anau bütövlükdə böyük bir şəhər kompleksindən ibarət idi.

Pumpellinin gəldiyi nəticəyə görə Anau tayfalarının bir qismi quraqlıq səbəbi ilə batıya doğru köçləri zamanı əkinçiliklə məşğul olanlarla birlikdə əhliləşdirdikləri heyvan növlərini o cümlədən öküzü m.ö. 6000 mininci ildə Ön Asiyaya, ordan Misirə və Afrikaya, Qafqaz üzərindən isə Avropaya apararaq orda yayılmışdır. O Çin xronologiyasına əsaslanaraq Anauluların Hindistana və Doğu Asiyaya m.ö. 3468-ci ildə köçlərə məruz qaldıqlarını yazır. (Pumpelly R. 1908, Səh. 440)

Atın məhz Turandakı Anauda əhliləşdirilməsi və dünyanın digər bölgələrinə burdan yayılması Mesopotamiyadakı mixi yazı mətnlərində də işarələr var. Bu mətnlərdə at "şərqdən gələn heyvan" adlandırılır.

## Anau və onun kralı Kuranq

Mərkəzi Asiyadakı konfederativ Turan dövlətinin tərkib hissəsini təşkil edən Anau dövləti və onun hökmdarı Kiranq haqqındakı məlumatlar Hind Riqveda epopeyasında da öz əksini tapmşdır.

Riqvedada Şəfəq və günəş, ildırım və tufan, göy və yer, dəniz və od tanrılarına ithaf olunmuş minlərlə himn öz əksini tapmışdır. Həmin himnlər hindlilərəqədərki tarixi dövrə aid olub e.q. 1500-cü ildən sonrakı dövrün sərhəddini aşmamaqdadır və orda əks olunan hadisə və anlayışlar tarixi-astronomi hesablamalara görə e.q. 2500-ci ilin tarixindən etibarən baş vermiş olayları əks etdrir. (Brunnhofer Hermann. 1893, səh. 1)

Veda himnlərinin mənşəyi sanskrit arilərin beşçay hövzəsinə, yəni Pəncaba gəlmələrindən ən azı min il öncəyə aiddir. Vedaların sanskrit ariləri Pəncabın quzey-batısı tərəfdən İranın yüksək dağ yaylaları və Kabul dağ silsiləsi üzərindən keçərək gəlmişlər. Veda himnlərində əks olunan hadisələr, şəxslər və yerlər onların keçib gəldiyi Turanın və həmçinin İranın tarixi-coğrafi xüsusiyyətləri baxımından izah edilə bilər. Vedalarda bəhs olunan dəniz Qırmızı dəniz və şərqdə yerləşən Benqal körfəzi arasındakı dəniz sahəsini nəzərdə tutur. (Brunnhofer Hermann. 1893, Səh. 5)

Hind-avropalı bilim adamları tarixi dəlillərə məhəl qoymadan ciddi-cəhdlə hind-arilərin vətənlərinin Xəzər dənizi və Aral dənizi ilə əlaqələndirməyə çalışır-

lar. Lakin vedalarda aydın şəkildə yazıldığına görə hind-arilər qərbdən gəldikləri zaman öncə beş çayın töküldüyü bir dənizin ətrafında məskunlaşmışdılar. Bu dəniz isə əslində İran və Əfqanistan sərhəddində yerləşən böyük Hamun gölüdür. Hamun gölü böyük göllər sistemidir və onların bir qismi duzlu digər hissəsi isə şirin suludur. Hilmend, Farahrud, Haşrud, Harutrud və Rudhanə kimi beş çay Hamun gölünə tökülür. Hamun gölünün ortasında Vedalarda Çakavidra adlanan Sakistan ölkəsi yerləşir. Ondan cənubda isə paytaxtı Quzdar olan Turan ölkəsi və dövləti mövcud olmuşdur.

Riqvedada bəhs olunan veda çarı Kurunqa Şahnamədə adı keçən hökmdar Kurenqdir. Riqvedadaki himndə Kanva şairi Devatithi ona yüz rosso bəxş etmiş Anav kralı Krunqanın səxavətindən bəhs edir. Alman iranşünası Şpiqel Anav kralı Krunqanı Zabul kralı Kurenq ilə eyniləşdirir.

Brunhofer Kurenq adının vedaların ruhuna uyğun olmadığını yazır. Lakin Riqveda aydın şəkildə deyir ki, Kurunqa Anavın kralıdır. Coğrafiyaçı İsidor Xaraks Anavın İranın şərqində yerləşdiyini yazır.

Anav kralı Kurunqa adının türkcə anlamı qoruyucu, himayə edən deməkdir. Brunnhofer öz əsərini yazdığı zaman Anau şəhəri hələ arxeoloqlar tərəfindən aşkar olunmamışdı və həmin dövrün tədqiqatçıları Anavı İranın şimal-şərq əraziləri və indiki Əfqanistanın Zabul bölgəsi ilə eyniləşdrirdilər.

Brunhofer Mahabharatadakı Kuranq dağ adını Karatay çay adı ilə eyniləşdirir. Hindistandakı Karatoya çay adı İrandakı Kutrunqa dağ adından meydana gəlib ki, bu da Zabulu göstərir. Əgər Karatoya çay adı Zabulu və onun ətrafına aiddirsə onda onu Karot adından ayırmaq mümkünsüzdür.

Brunhofer yazır ki, mən Karatoya adını Turan xalq etimologiyasına uyğun olaraq Karasu adı ilə eyniləşdirirəm. (Brunnhofer Hermann. 1893, səh. 31)

Şahnamə bizə Zabul kralı Kurenq haqqında bəhs etdiyi zaman, əslində, onun Anav kralı Kurunq olduğunun coğrafi istiqamətlərini təyin etmiş olur.

Anonim "Tarixi Sistan" əsərində Kuranq Gərşaspın oğlu, Cəmşidin nəvəsi və Turun nəticəsi kimi təqdim olunur. Gərşasp Firudinin əmisi oğludur. Kuranq adı bir çox mənbələrdə Turank şəklində yazılır, bu da Türk adının təhrif olunmuş şəkli ola bilər. Turank Sakların ulu əcdadı Gərşaspın oğlu kimi təqdim olunur. Kuranq 30 il ömür sürmüş və Sakistan taxtına oğlu Nəriman sahib olmuşdur. Gəştasp isə özünü dini təlimə həsr etmişdir. "Tarixi Sistan"da Sistan adının əslində Siyustan və mənasının "cəsur kişilər ölkəsi" demək olduğu yazılmışdır. Suy adı Sakların əsl adları olan Su və Say adının ifadə şəklidir. (Тарихи Систан. M. 1974)

Brunhofer Şahnamədə bəhs olunan Mazəndaranın hökmdarı Auladın əslində Riqvedada bəhs olunan İranın şimal-qərb ucqarındakı kral Aulana olduğunu müəyyən etdiyini yazır və Aulana adının qurdun epiteti olan "ula" adı ilə əlaqədar olduğunu ehtimal edir və yazır ki, əgər biz "ula" adının mənasını qurd olduğunu



qəbul etsək o bizi birbaşa Avestadakı "qurdlar ölkəsinə" Vehrkana, Hirkani yə-Mazandarana gətirib çıxaracaq. Hirkaniyanın kralı Aulan Keykavusa qarşı savaşan və Rüstəmin xidmətində duran "Ağ Dev", yəni Devu-safeddir. Riqvedada fars adı "parçavah" şəklində ifadə olunur. "Prithu-Parçavah" isə parflar və farslar deməkdir. (Brunnhofer Hermann. 1893, səh. 32)

Kral Abyəvarti-Abivərd Şirinçayanın zirvəsində Turvaşa Vrikivanti məğlub etmişdir. Riqvedada Turvaşa adı istisnasız olaraq hər zaman Yadu və ya Yakşu ilə birlikdə ifadə olunur. Onlar mənşə etibarı ilə turanlılar idilər və arilərlə qonşuluqda yaşayırdılar.

Varçin və Vrika sözləri qurdlar ölkəsi Vehrkənanın sakini deməkdir. Turvaşalar-türklər Vehrkəniyə, yəni qurdlar ölkəsində yaşayırlar. Turvaşa adının kökünü Tus sözü təşkil edir. (Brunnhofer Hermann. 893, səh. 41)

Riqveda himnində yazıldığına görə Xorasanda yerləşən Abivərdin kralı Kəyamana Şirinçaya zirvəsində Turvaşa və Hirkanilərin birləşmiş qoşununu məğlub etdi. Riqvedada hind arilərin rəqibi Turvaşa-Yadu ümumi adla Nahus və ya Naqunun xalqı adlanır. Nahus/Naqa bu beş xalqı idarə edən hökmdar idi. Riqvedada turanlılar Nahuşa adlanan beş xalqdan ibarətdir: Turvaşa, Yadu, Druhyu, Anu, Piru. Bu xalqlar birliyinə Turvaşa-Yadu tayfaları başçılıq edir. Bütün bu qüdrətli gücə sahib olanlar özlərini Nahusa adlandırırdılar. Bu adın digər deyiliş şəkli Naqa-Naqus sözünün anlamı "Göyüzü" deməkdir. Əhəməni kralı Kserks də özünü kitabəsində naqa-naqus adlandırırdı. Bu kral hakimiyyət titulu idi. (Brunnhofer Hermann. Leipzig, 1893, Səh. 49)

Bu beş Turanlı xalqın vətəni Hirkaniya idi. Naqalar Hind Sanskrit ədəbiyyatında İlan xalqı adlandırılır və Avestada olduğu kimi onlar hind-ari deyil, Turanlı xalq kimi təqdim edilir.

Riqveda mətnlərində Turanlı xalqların Hindistanda hind-arilərdən öncə hökmran olduqlarını öz əksini tapmışdır.

İlan/Naqa hakimiyyət tritulu bir çox mənbədə qeyd olunduğu kimi midiya hökmdarlarının hakimiyyət titulu idi.

Riqvedanın qəhrəmanlıq rəvayətinə görə beş Turan xalqının idarə edən kralı Nahuşa ilk zamanlar yer üzərində ədalətlə hökmranlıq edirdi. Lakin sonradan o yolunu azaraq tanrılara qarşı baş qaldırdı və onları öz yerlərindən qovdu. Bundan qəzəblənən tanrı Aqastya onu lənətlədi və on min il ilan kimi yerə sərilərək yaşamağa məhkum etdi. Nahus və ya naqus böyük kral anlamı daşıyırdı.

Riqvedanın Mandala himnində Nahuşanın hazırlayaraq şöhrətləndirdiyi ilahi Saoma içkisi beş xalqın arasında böyük təsir gücünə malik idi. Turvaşa, Yadu, Druhyu, Anu, Pürudan ibarət bu beş xalq Hindistanın ən şimal-qərb ərazilərində köçərilik edən xalqlardı. (Brunnhofer Hermann. 1893, səh. 50-51)

Turanlıların İlan surətində təsvir olunan tanrı-kralı Nahuşa/Naqa Riqvedada yazıldığına görə yer üzünün hökmdarı olmuşdur, yəni hind-iranlılar tarix səhnəsinə qədəm qoymadan öncə Turanlılar yer üzünün hökmran xalqı idilər.

Riqveda rəvayətlərindən aydın olur ki, iranistlər tərəfindən ciddi-cəhdlə iranlı arilərin müqəddəs içkisi kimi təqdim olunan xaoma içkisi əslində şaman etiqadı ilə əlaqədar Turanlı tayfalara məxsus ritual içki olmuşdur.

Bu əfsanədən də göründüyü kimi Avestada iranlı arilərin Turan ərazisində yerləşməsinə türklər necə qarşı çıxırdısa, Riqvedada da yerli Turanlı xalqlar işğalçı hind-arilərin Hindistanda yerləşməsinə qarşı şiddətlə müqavimət göstərir və bu səbəbdən də, turanlılar ilanla eyniləşdrilir.

Riqvedada yazıldığına görə Turvaşa-Yakşu, Anava, Druhyu, Puru və Şiqru xalqları kral Bhedanın başçılığı ilə hücum edərək Pəncabı işğal etmişlər. (Brunnhofer Hermann. 1893, Səh. 132)

Anaulu boylar müasir dövrdə Türkmənistanda türkmənlərin çox qədim köklərə malik özəl etnik qrupunu təşkil edir. Anaulular digər türkmən boylarından fərqli olaraq özlərini Türkmənistanın güneyində qədim Anau şəhəri və ətrafında məskunlaşmış ən qədim sakinlər hesab edirlər. Anaulular öz etnoqrafik xüsusiyyətlərinə görə bir çox cəhətdən digər türkmən boylarından fərqlənirlər. Onlar bölgədə əkinçiliklə məşğul olan ən qədim sakinlərdir. Anaulular digər türkmən boylarından fərqli olaraq heç zaman çadır-yurtlarda yaşamamışlar, onların yaşayış məskənləri palçıq kərpicdən tikilmiş evlər olmuşdur. Sonradan Anau ərazisinə gəlib yerləşmiş köçəri təkə-türkmənlərin təzyiqi ilə anauluların bir qismi öz yerlərini tərk etmək məcburiyyətində qalmışlar. (Джикиев А. 1977, Səh. 66)

## Böyük Turan dövləti

Turanın bəşər uyqarlığının mərkəzi olduğu və bəşər tarixində oynadığı önəmli rol böyük bilim adamları tərəfindən elmi dəlillərlə sübut olunmuşdur.

Əbülfəz Elçibəy də türklərin ana yurdu Turanın bəşər tarixində oynadığı möhtəşəm rolu dəyərləndirərək yazır: "Çağdaş tarixçilik hərtərəfli araşdırmalardan sonra belə bir sonuca gəlmişdir ki, ən qədim mədəni insan məskəni Ceyhun və Seyhun (Amudərya və Sırdərya çaylarının hövzəsi, Aral gölünün ətrafı və Turan ovalığı olmuşdur. Dünyada mədəniyyət ilk dəfə burada mərkəzləşmişdir. Buna görə də, bir vaxtlar "Tarix Sumerdən başlayır" dediyimiz halda, indi "Tarix Turandan başlayır" deməyi tarix elmi bizdən tələb edir". (Ebülfez Elçibey. 1997, Səh. 16)

Görkəmli türk bilim adamı Yusif Ziya Özər dövrünün arxeoloji, linqvistik və etnoloji dəlillərinə əsaslanaraq Mərkəzi Asiyanın bəşər mədəniyyətinin ilk beşiyi olduğu haqqında tezis irəli sürmüşdür. Anauda, Honanda və Kansuda aşkar edilən arxeoloji abidələrin tədqiqi göstərir ki, neolit dövrünün daş mədəniyyəti Sibirdə və Orta Asiyada meydana çıxmış və inkişaf nəticəsində metal mədəniyyətinə çevrilərək bütün dünyaya yayılmışdır. (Yusif Ziya Özer. 1932, Səh. 6)

Pumpelli öküz kultunun ilk olaraq Babildə, Hindistanda və Misirdə yaranmış olduğunu iddia edən fikirlərə qarşı çıxır və aşkar edilən qədim artefaktların bu etiqadın ilkin vətəninin heç şübhəsiz öküzün ilkin əhliləşdirildiyi Anau və ətraf ərazilər olduğunu sübut etdiyini yazır. (Pumpelli, Səh. 441)

Atın Mesopotamiyaya şərqdən turanlılar tərəfindən gətiridiyinin ən mühüm dəlili müharibə zamanı döyüş vasitəsi kimi və təsərrüfatda qoşqu vasitəsi kimi istifadə olunan at Assur mixi yazı mətnlərində "Şərqdən gələn heyvan" idoqramı ilə ifadə olunmasıdır. (Tiele C. P. Teile I, 1886, Səh. 52)

V.Koppers də Anauda bol-bol aşkar olunan at qalıqlarına görə bu mədəniyyətin türklərə məxsus ola biləcəyi qənaətinə gəlmişdir. V.Koppers vətənləri Mərkəzi Asiyada olan öntürklərin atın ilk əhliləşdirilənlər və bununla əlaqədar olaraq atlı çoban mədəniyyətinin yaradıcıları olduqlarını yazır.

O köçəri heyvan bəsləmə mədəniyyətinin əsasının İç Asiyada proto-türklər tərəfindən qoyulduğunun bir gerçəklik olduğu fikrini müdafiə edir. IV minilliyin sonlarına doğru İran yaylasında yaşayıb bilavasitə Elamla yaxın münasibətdə olan və atdan istifadə edən tayfaların türk olduqları yəqindir. Onun fikrinə görə Hind-Avropalılar iddia edildiyinin əksinə olaraq bu kültürün yaradıcıları deyil, ilk alıcılarıdır. Atın ilk əhliləşdirilməsi və bununla əlaqədar atlı çoban mədəniyyətinin yaradılması da Türklərə bağlanmaqdadır. Ata və ümumən çoban mədəniyyətinin əsas ünsürlərinə sahib olmağı Hind-Avropalılar qədim türklərə borcludurlar. (Koppers W. 2002, Türklər, C. 1, Səh. 468)

Anaunun ətrafındakı ərazilərdə ən qədim zamanlardan etibarən əkinçiliklə məşğul olunmuşdur. Qazıntılar zamanı şəhərdəki mədəni təbəqələrdən müxtəlif əkinçilik məhsulları və alətləri aşkar olunmuşdur. Anauda aşkar edilmiş e.q. 5000-ci ilə aid ən qədim buğda və digər taxıl məhsulları bu şəhərdəki "Ağ buğda" muzeyində saxlanmaqdadır. Bu tapıntılar Anau və ətraf ərazilərdə heyvandarlıq, əkinçilik və sənətkarlıqdan ibarət bir-birini tamamlayan vahid təsərrüfat sisteminin mövcudluğunu sübut edir.

Türkistanın müxtəlif ərazilərində tarixi ardıcıllıq baxımdan bir-birini əvəz edən digər qədim arxeoloji mədəniyyətlər də aşkar edilmişdir. Anauda üzərində mixi yazını xatırladan işarələr olan möhür üzük və üzərində öküz, digər heyvanlar və tanrı təsvirləri olan üzüklər aşkar edilmişdir.

Anau daxil olmaqla qədim Turan ərazisində mövcud olan Kelteminar, Namazqa, Botay, Ceytun və s. arxeoloji mədəniyyətlərini Avropa alimləri ümumu adla Okus uyqarlığı adlandırırlar.

Pumpelli Turan dövlətinin paytaxtı hesab olunan Səmərqənd şəhəri yaxınlığındakı qədim Əfrasiyab şəhəri qalıqlarında da qazıntı işləri aparmışdır. O araşdırma-

lar nəticəsində belə nəticəyə gəlmişdir ki, çox qədim dövrə aid olan bu şəhərin əsası iddia edildiyi kimi Makedoniyalı İsgəndər tərəfindən deyil, tarixi ənənəyə uyğun olaraq məhz Əfrasiyabın özü tərəfindən qoyulmuşdur. (Pumpelly, Səh. 320)

Anauda arxeoloji mədəniyyətinin türklərin tarixi üçün ən böyük əhəmiyyəti orda aşkar edilən qafa taslarının monqoloid irqə aid olmadığıdır. Bu kəllə sümükləri türklərin ən mühüm antropoloji özəlliklərini təşkil edən dolixokefal və Aralıq dənizi tipidir. Ön Asiyada aşkar edilən qədim insanlara məxsus qafa tasları da yumrubaş braxikefal samilərdən fərqli olaraq dolixokefaldirlar. (Pumpelly, Səh 446).

Anauda aşkar edilən 10000-9000 il öncəyə aid yüksək inkişafa malik şəhər və əkinçilik arxeoloji mədəniyyətinin aşkar edilməsi bəşər mədəniyyətinin əsasının Turanda qoyulduğu haqqında XVIII-XIX əsr və daha sonrakı dövrdə Rauilson, Oppert, Hinks, Hommel, Q.Maspero, E.Aykşdat, C.Ferqusson və digər böyük assuroloq və tarixçilərin tezislərini təsdiq etməkdədir. Turan adı skeptik düşüncə sahibi bəzi bilim adamlarının guman etdiyi kimi yalnız bir əfsanəyə ilə tarixin yaddaşına həkk olunmuş xəyal məhsulu deyil. Tarixi toponimlər həmin ərazidə yaşamış xalqların tarixi yaddaşının silinməz izlərini daşımaqdadır. Turan adı bu gün də Turan ölkəsinin qədim sakinlərinin varisləri olan Türküstanın müasir türklərdən ibarət əhalisi tərəfindən Turan ovalığı adı ilə mövcuddur və ümumdünya coğrafi xəritələrində bu adla tanınmaqdadır.

Anau arxeoloji mədəniyyəti turanlı öntürklərin yalnız köçəri vəhşi tayfalardan ibarət olduğu haqqında formalaşmış qərəzli təsəvvürləri alt üst etdiyindən sovet dövründəki arxeoloji araşdırmalara və müasir dövrdə qərb bilim adamlarının apardıqları araşdırılmalara əsaslanaraq bu arxeoloji mədəniyyətin tarixini daha gec dövrlərə aid etməklə onun gerçək tarixini saxtalaşdırmağa çalışırlar. Lakin Pumpellinin bu arxeoloji mədəniyyətin 10-cu və 9-cu minilliyə aid olduğu haqqındakı təkzibedilməz faktlara söykənərək gəldiyi sonuc bir çox bilim adamları tərəfindən təsdiq olunmaqdadır.

Z.V.Toqan Anau mədəniyyəti haqqında yazır: "Bura o dövrdəki Ön Asiyanın Sumer və Sus, güney Asiyada Hindistanın Sind çayı hövzəsindəki Mahonco-Daro və Xarappa, Uzaq Şərqdə Çinin Yuanq-şao və Mancuriyada mövcud olmuş mədəniyyətlər üçün ilk başlanğıc, mərkəz və ocaq rolunu oynamışdır". (Z.V.Togan. 1981, Səh. 7)

Anau mədəniyyəti arilərdən çox öncəki dövrə aid olub hər hansı bir ari izi daşımadığından avropasentrizm nəzəriyyəsini rəhbər tutan müasir tarixçilər öz əsərlərində bu arxeoloji mədəniyyətə istinad etməkdən və onu xatırlamaqdan qaçınaraq onu diqqətdən kənarda tuturlar.

Turan yaylasındakı qədim arxeoloji mədəniyyətlər təkcə Anau və Türkmənistanla məhdudlaşmır.



E.q. VI minillikdə bəşəriyyətin böyük hissəsi yığıcılıq və ovçuluqla məşğul olub ibtidai həyat sürməkdə olduqları zaman Türkmənistandakı Ceytun arxeoloji mədəniyyətinə mənsub olan insanlar arpa və buğda becərir, süni suvarma sistemi yaradaraq yüksək əkinçilik mədəniyyətini inkişaf etdirir, qoyun və keçini əhliləşdirərək evcil heyvandarlıqla məşğul olurdular. Ceytunda 200 nəfərin yaşaya biləcəyi 30 böyük ev aşkar edilmişdir. Sami və hind avropalıların tarix səhnəsinə qədəm qoymasından min illər öncə turanlı öntürklərin şəhər tipli məskənlər salaraq, sənətkarlığın, əkinçiliyin və heyvandarlığın timsalında uyqarlığın yüksək inkişafına nail olmaları faktı "avropasentrizm" ideologiyası mərəzinə düçar olmuş qərbin və o cümlədən Rusiyanın elm dairələrinin ciddi narahatlığına və qeyri ciddi, elmi gerçəkliyi əks etdirməyən tezislərin irəli sürmələrinə səbəb olmuşdur.

Rus tarixçi, linqvist və arxeoloq bilim adamlarının ən çox sevdikləri nostratik hipotezidir. Nostratik dil hopotezinin əsasını danimarkalı linqvist Holqer Pedersen qoymuşdur. Bu hipotezə əsasən mənası "bizim yerli" demək olan Nostratik dil dünyanın əsas dil ailələrini, o cümlədən hind-avropa, sami, dravid və ural-altay dillərini öz tərkibində birləşdirən makrodil ailəsidir. Nostratik dilin buzlaşma dövrünün sonunda, mezolit dövründən 12-15 min il öncə meydana çıxdığı güman edilir.

Bu hipotezə əsaslanan A.Bomhard və K.Renfryu kimi avropa alimləri nostratik dilin vətəninin Asiya, yəni Anadoluda olduğunu və onu Çatal Höyük mədəniyyəti ilə əlaqələndirir və hind-avropalıların burdan Avropaya yayıldıqları fikrini irəli sürürlər. Rus-sovet alimləri V.İlliç-Svitiç, T.Qamkrelidze və İ.İvanov bu nəzəriyyəni əsas götürərək inkişaf etdirmişlər.

Rus tədqiqatçıları nostratik fərziyyəni dillərin qohumluğunu sübut edən gerçək fakt kimi qəbul etdikləri halda, qərbin bilim adamları onu yalnız bir fərziyyə hesab edərək gerçəkliyinə şübhə ilə yanaşır, bir çoxları isə ümumiyyətlə, onu rədd edirlər. Nostratik fərziyyənin ən barışmaz əleyhdarı müasir dövrün görkəmli ingilis arxeoloqu Jon Melloridir. Dünyanın görkəmli alimləri R.Dikson, L.Kempbel, C.Metisoff nostratik hipotezi qəbul etməyərək elmi gerçəkliyi əks etdirmədiyi fikrini irəli sürürlər.

Rusiyada nostratik dil hipotezinin ən barışmaz əleyhdarı türkoloq B.A.Serebrennikov olmuşdur. Jon Mellori hind-avropalıların vətənini Şərqi Avropa olduğu tezisini müdafiə edir.

Nostratik hipotezin tərəfdarları Türkistanda aşkar edilən və Ön Asiyanın qədim arxeoloji mədəniyyət nümunələri ilə bənzərlik təşkil edən artefaktların bura e.q. VII minillikdə Yaxın Şərqdən miqrasiya edən insanlar tərəfindən yaradıldığı fikrini irəli sürülər.

Rus arxeoloq Stanislav Qriqoryev nostratik dil hipotezini dəstəkləyərək bu dilin daşıyıcılarının ilkin vətəninin Anadolu olduğunu qəbul edir. S.Qriqoryev nos-

tratik dil ailəsinə mənsub insanların tədricən şərqə doğru yayıldıqlarını və neolit dövrünün əvvəlində Xəzərin şərqindən başlayaraq Amudəryanın orta axarını əhatə edən böyük ərazidə Kelteminar mədəni topluluğunun formalaşdığını qeyd edir. Onun fikrinə görə bu topluluq mənşəyini Anadolu nostratik dil ailəsi daşıyıcılarının təşkil etdiyi şərqi Xəzərətrafı mezolit mədəniyyətinin yerli Orta Asiya İkiçayarası mədəniyyətinin çulğalaşması nəticəsində meydana çıxmışdır.

Qriqoryev bu birləşmiş mədəni topluluğun ural-altay dil ailəsinin formalaşdığı ərazi kimi qəbul edir. Bu ərazini tərk edib quzeyə Ural tərəfə miqrasiya edənlər ural-uqor dil ailəsinə mənsub insanlar olmuşlar. Qriqoryev bu dilin kökünün ümumi ünsürlərini nostratik dil dialektlərinin təşkil etdiyini, lakin altay dillərində nostratik kökün daha az şəkildə ifadə olunduğunu qeyd edir. Ural-altay dillərinin qohumluğu onların ümumi nostratik kökə mənsub olmaları ilə izah olunur. Qriqoryev nostratik dilin tərkibində ural-altay dili dialektinin əsasının Zaqros dağlarında qoyulduğunu yazır. (С.Григорьев. 1999, Səh. 329)

Nostratik hipotez tərəfdarlarının Ön Asiyadan Orta Asiyaya köçlərin baş verdiyi haqqındakı fikirlərində gerçəkliyi əks etdirən rasional cəhət mövcuddur, lakin yanlışlıq bu köçlərin baş verdiyi tarixin müəyyən edilməsindədir. Sumerlilərin və Ön Asiyanın digər tayfa və xalqlarının Orta Asiyaya və dünyanın digər bölgələrinə köçlərə məruz qalması e.q. VII minillikdə deyil, köçəri sami tayfalarının, xüsusən də amorilərin Mesopotamiyaya kütləvi axınları və sami Assur dövlətinin bölgə xalqlarını tabe etmək üçün uzun illər ərzində apardıqları dağıdıcı müharibələri səbəbi ilə e.q. 2300-cü illərdən etibarən baş vermişdir. Sonrakı bölümlərdə bu haqda geniş bəhs olunacaqdır.

Belə bir faktı da qeyd etmək lazımdır ki, Anau, Kelteminar, Botay, Namazqa, Ceytun kimi qədim arxeoloji mədəniyyətlərin mövcudluğu sübut edir ki, sumer, elam və digər etnoslara aid insan qruplarının Ön Asiyadan Mərkəzi Asiyaya təkrar miqrasiyalarından öncə Turan regionunda inkişaf etmiş yüksək mədəniyyət mərkəzləri möbcud olmuşdur. Ön Asiya ərazisindən baş verən təkrar köçlər iqlim və digər səbəblər üzündən tənəzzülə uğramış bu mədəniyyətlərin yenidən inkişafına təkan vermişdir.

Mesopotamiya və Elamda bir çox arxeoloji abidələri tədqiq etmiş Almaniyanın görkəmli arxeoloq və tarixçisi E.Herzfeld Oksus uyqarlığının, Amudərya və Sırdərya ovalığında mövcud olmuş mədəniyyətin öz yaşına və əhəmiyyətinə görə Şərqdə İnd, qərbdə Fərat və Dəclə vadilərindəki ən qədim uyqarlıqlarla rəqabət apara biləcək önəmə malik olduğunu yazır. (Ernst Herzfeld. 1941. Səh. 96)

Avropanın böyük assuroloq tarixçisi və arxeoloqlarından biri olan Henri Frankfurt Türkistanın Türkmənistan, Özbəkistan, Tacikistan və Əfqanistan daxil olmaqla Xəzər dənizi və Pamir dağları arası geniş ərazilərini əhatə edən bürünc dövrünə aid Okus arxeoloji mədəniyyətinin tədqiqinə bir neçə əsər həsr etmişdir.



E.q. 2300-1500-ci illəri əhatə edən bu mədəniyyət dövründə Okus (Amudərya) çayı hövzəsinin cənubunda dağ ətəyi əraziləri və vadilərdə məskunlaşan sakinlər heyvandarlıq və əkinçiliklə məşğul olaraq suni suvarma şəbəkəsi yaratmışdılar.

H.Frankfurt Okus mədəniyyəti ilə Ön Asiya və xüsusən Elam arasında sıx əlaqələrin mövcud olduğunu yazır. Okus uyqarlığı Baktriya və Zərəfşan dağlarından əldə edilən qızıl, qalay, turkuaz, lacivərd, mis, gümüş, qurğuşun kimi qiymətli faydalı qazıntılarla zəngin idi. İnd hövzəsində, İranın qərbindəki Suzda, Bəsrə körfəzi sahillərində və Suriya-Anadolu ərazisində aşkar edilmiş maddi dəlillər Okus uyqarlığının bu regionlarla geniş ticarət əlaqələrinə malik olduğunu göstərir.

Xüsusən də o dövrdə yeganə lazurit mədənin mövcud olduğu Baktriya ilə bu qiymətli daşın Yaxın Şərqlə İran üzərindən ticarəti böyük önəm daşıyırdı.

Frankfurt arxeoloji dəlillərə əsaslanaraq rus tarixçi arxeoloqlarının hind-ari mənşəli hesab etdikləri Andronovo çöl mədəniyyəti mənsublarının Okus mədəniyyətinin də yaradıcıları olduqları tezislərini yanlış hesab edir. O, Okus mədəniyyətinin mənşəyi haqqında çöl hipotezinin linqvistik və digər dəlillərə əsasən ural-altay qrupuna bağlamağın daha inandrıcı və doğru olduğu fikrini irəli sürür. (H. Frankfurt. 2005. )

Okus arxeoloji mədəniyyətində aşkar edilmiş çoxsaylı qiymətli metal və daşlardan hazırlanmış artefaktlar onun Mesopotamiya və Misirin Orta Dövr padşahlığı ilə əlaqəsini sübut edir.

Türkmənistanın Acı-quyu arxeoloji abidəsində e.q. III minilliyin sonlarına aid ilan və qartal təsvirindən ibarət amulet tapılmışdır. Amulet üzərindəki bu təsvir, qartalın üzərinə minərək tanrıdan "doğum bitkisi" əldə etmək üçün göyüzünə yüksələn Sumerin tufandan sonra ilk kralı və tanrısı olan Etana haqqındakı miflə əlaqələndirməkdədir. Həmçinin məzarda bars üzərində oturmuş qanadlı tanrıça qadın təsvirli gerb möhür aşkar edilmişdir. (Sylvia Winkelmann. 2008. )

Rus tarixçi və arxeoloqları Yamnaya və Çöl-kurqan mədəniyyətlərini hind-avropa mənşəli hesab edərək Sibirin güneyində və hətta Orta Asiyadakı Okus mədəniyyətlərinin kökünü bu mədəniyyətlərə bağlayırlar. Lakin son illər rus mütəxəssislərinin də iştirak etdikləri Beynəlxalq genetik uzman qrupunun apardıqları DNA araşdırmaları bu iddiaları təkzib etməkdədir.

Gec Mis dövründən başlayıb erkən bürünc dövrünə qədər davam edən Yamnaya mədəniyyətinin izlərini analoji dövrdə Orta Asiyada və o cümlədən Tacikistanda müəyyən etmək mümkün olmamışdır. Genetik tədqiqatlar hind-iran mənşəli heyvandar əhali qrupunun Orta Asiyaya gəlişlərini e.q. 2100-ci ildən başlayaraq Yamnaya mədəniyyətinin artıq yox olmasından sonra gerçəkləşməyə başladığını sübut edir

E.q. 3000-cü minillikdən isə atın ilk olaraq əhliləşdrildiyi Qazaxıstanın Botay mədəniyyəti insanlarının güneyə köçləri və Okus mədəniyyəti insanları ilə qarış-

ması tendensiyası müəyyən olunmuşdur. Rus genetiklərinin də iştirak etdiyi Beynəlxalq genetika mütəxəssislər qrupunun apardığı tədqiqatlar Qazaxıstanın e.q. 3700-3100-ci illərə aid edilən Botay mədəniyyəti mənsubları ilə hind-avropalı mənşəyə malik hesab edilən Yamnaya mədəniyyəti mənsubları arasında hər hansı bir genetik qohumluq əlaqəsi müəyyən edə bilməmişdir. Qazaxıstanda və Qırğızıstanda aşkar edilmiş insan qalıqlarının DNA testi onların Yamnaya deyil, Botay mədəniyyətinin yaradıcıları insanlara mənsub olduqlarını sübut etmişdir. Atın məhz Yamnaya mədəniyyəti insanları tərəfindən əhliləşdirilməsi iddiaları onlardan yüz illərlə öncə Botay arxeoloji mədəniyyətində əhliləşdirilmiş at qalıqlarının aşkar edilməsi ilə təkzib olunmuşdur. Beləliklə, əhliləşdirilmiş atın hind-avropa mənşəli Yamnaya mədəniyyəti mənsubları tərəfindən bütün dünyaya və o cümlədən Avrasiyaya yayıldığı haqqındakı iddialar əsassız iddiadır. (Peter de B.Damgaard. Jour. Science 29 juni 2018, Səh. 360)

Genetik və arxeoloji tədqiqatlar sübut edir ki, Okus uyqarlığının əkinçi əhalisi IV-III minilliyin mis dövründə Güney Asiya və İran yaylasında əkinçi əhali təbəqəsinin yaranmasında əsas rol oynamış və Turan bu bölgəyə əhali miqrasiyasının əsas mənbəyini təşkil etmişdir. Bürünc dövründə Anadoludan şərq istiqamətində hərəkət edib Orta Asiyaya gələn əkinçi əhali qrupu burdakı Okus uyqarlığı insanları ilə qaynayıb qarışaraq mədəniyyətin yeni bir inkişafına təkan vermişdir. (V. Narasimhan. Jour. Science, vol. 365, 20199)

Hind-avropalıların ilkin vətəninin cənubi Rusiya çölləri və Ural olduğu haqqındakı fərziyyənin ən qızğın tərəfdarları olan rus alimləri bununla öntürklərin ilkin vətəni olan bu ərazilərin ruslar tərəfindən işğalına haqq qazandırmaq məqsədi güdür və bu əraziləri hind-avropalıların əzəli vətəni kimi təqdim edirlər

Rus arxeoloqları nostratik hipotezi əsas götürərək Ceytun arxeoloji mədəniyyətinin yaranmasından öncə e.q. VII minillikdə Yaxın Şərqdən Xəzər dənizi regionuna köçlərin baş verdiyini yazırlar. Onların fikrincə, bu köçmənlər əhliləşdirdikləri qoyun və keçiləri də özləri ilə gətirmişdilər. Bu insanlar mövsümi mağaralarda, o cümlədən Türkmənistanın Xəzər ətrafındakı ərazisi olan Böyük Balxanda Cəbəl və Dan-dam Çeşmə mağaralarında məskunlaşmışdılar. (Мезолитический комплекс памятника Туткуал. Русская Археология, 2015, №2, Səh. 30-45 )

Fransız tarixçisi və mifoloqu Bernar Serjan ise belə bir əsassız tezis irəli sürmüşdür ki, Ceytun arxeoloji dövrünün yaranmasından öncə e.q. VII minillikdə Yaxın Şərqdən gələn həmin insanlar sami-hami dili daşıyıcıları olmuşlar. Onlar sonradan şimal istiqamətində Qara dəniz sahillərinə doğru hərəkət edərək burda tədricən içlərində hind-avropalıların da olduğu avtoxton əhali ilə qarışmışlar. (Les Indo-Evropeens. 1995)

Halbuki tarixşünaslıqda mövcud olan ortaq baxışa görə e.q. IV minillikdə samilər hələ Ərəbistan yarımadasında vəhşi köçəri həyat sürürdülər.



Rus tarixçi arxeoloqu Pyankov türklərin Orta Asiyada mövcudluğunu hunların bu əraziyə gəlməsi ilə əlaqələndirir və bu regionun ən qədim əhalisini irandilli xalqlar olduğu fikrini irəli sürür. Qədim perslərin ilkin məskunlaşdığı ərazini cənub-qərbi İran hesab edən Pyankov fars dilinin Sasanilər dövründə, III-VII əsrlərdə, Orta Asiyanın şəhərlərində yayılmağa başladığını və burdakı yerli xalqı sıxışdırıb çıxardığını yazır.

Pyankov Orta Asiyada irandilli xalqın mövcudluğunu Avesta əfsanələri ilə əlaqələndirərək e.q. IX-VIII əsrlərdən etibarən onlara aid Ariyana adlı qüdrətli bir dövlətin mövcud olduğunu iddia edir. Guya bu dövlətin varisi isə kavi Viştaspın e.q. VII-VI əsrlərdə Bəlx vadisində yaratdığı dövlət olmuşdur. (Пьянков И.В. Журнал Восток. №6, 1995)

Rus müəlliflərinin əksinə olaraq qərb tarixçilərinin əksəriyyəti Viştaspın və ya başqa ifadə ilə Giştaspın yaratdığı Sak dövlətini Turan dövləti, sakları isə türklər hesab edirlər.

Onu qeyd etmək lazımdır ki, bir çox müəlliflər tərəfindən iran mənşəli söz kimi qələmə verilən Orta Asiyadakı çay və şəhər adı olan Bəlx Orta Asiyanın ən qədim toponimlərindən biridir və onun iran dillərinə heç bir aidiyyəti yoxdur. Bəlx əslində Baliq demək olub, sumerdə çay tanrısının və kralın adıdır və çay anlamı daşıyır. Baliq həmçinin Mesopotamiyada çay və şəhər adıdır. Türk dillərində də, Baliq çay deməkdir.

Türkistanda qədim əkinçi arxeoloji mədəniyyətlərin hind-iranlılara aid olduğunu sübut etməyin mümkün olmadığını görən Pyankov bu mədəniyyətin dravidlərə məxsus olduğu haqqında qeyri elmi, köhnəlmiş tezisi müdafiə edir. O cənub-qərbi İranın avtoxton əhalisi olan protodravidlərin e.q. V-IV minilliklərdə qərbdən hərəkət edərək Orta Asiyaya gəldiklərini və hind-iranlılardan öncə burda məskunlaşaraq qədim mədəniyyətin əsasını qoyduqlarını iddia edir. Pyankovun yazdığına görə dravidlər arilər Orta Asiyaya gələndən sonra da burda yaşamaqda davam edirdilər, lakin onlar ya hind-arilər tərəfindən tamamilə assimliyasiyaya uğramış, ya da heç bir iz buraxmadan dağlara çəkilmişlər. (Пьянков И.В. Журнал Восток. №6, 1995)

Halbuki elm nə linqvistik, nə də arxeoloji cəhətdən istər Ön Asiyada, istərsə də Orta Asiyada dravidlərin yüz, bəlkə də min illərlə mövcudluğunu sübut edə biləcək hər-hansı bir tutarlı dəlilə malik deyil. İstər İranın qərbində, istərsə də Orta Asiyada qədimdən məskunlaşmış irandilli xalqların nümayəndələri, hələ də yaşamaqda davam etsələr də, bu günə qədər həmin ərazidə dravid dilində danışan hər hansı bir insan toplumu aşkar etmək mümkün olmamışdır.

Orta Asiyada aşkar edilən ən qədim arxeoloji mədəniyyətlərdən biri də Qazaxıstan çöllərinin mərkəzində "Üç çayarası" adlanan Tobol, İrtış və İşim çaylarının bir-biri ilə ən yaxın məsafə təşkil edən vadilərində 1980-ci ildə aşkar edilmiş, e.q.

3500-ci ilə aid Botay arxeoloji mədəniyyətidir. Botayda atın əhliləşdirilməsi, bəslənməsi və təsərrüfat məqsədilə istifadə edilməsinin ən qədim mərkəzlərindən biri olduğu müəyyən edilmişdir. Arxeoloji araşdırma nəticəsində Botayda və onun ətrafındakı digər arxeoloji mədəniyyətlərdə 5500 il öncə insanlar tərəfindən at südündən qida kimi istifadə olunduğu sübut olunmuşdur.

Türkistanda Anau mədəniyyətinin davamı kimi dəyərləndrilən, Özbəkistanın Qaraqalpaq bölgəsində Aral dənizi ətrafında 1939-ci ildə məhşur rus-sovet arxeoloqu və tarixçisi S.P.Tolstov tərəfindən aşkar edilmiş, e.q. VI-III minilliklərə aid Neolit dövrünün Kelteminar mədəniyyətidir. Kelteminar mədəniyyətini sovet dövründə inadcıllıqla türklərə deyil, fin-uqorlara aid etməyə cəhd göstərirdilər. Lakin müasir dövrdəki linqvistik və genetik araşdırmalar sayəsində fin-uqorların tarix səhnəsinə çox gec dövrlərdə qədəm qoyduqlarını və onların bu mədəniyyətlə hər hansı bir əlaqələrinin olmadığı təkzib edilməz elmi dəlillərlə sübut olunmuşdur. Keltenminardakı oturaq əhali balıqçılıqla və ovçuluqla məşğul olurdu. Kelteminarın sakinləri 100-130 nəfər insanın yerləşə bildiyi böyük icma evlərində yaşayırdılar. VI minilliyə aid Kelteminar mədəniyyətinin aşkar edilməsi Orta Asiyanın hind-iranlıların ilkin vətəni olması haqqındakı əsassız iddiaları puça çıxarmış oldu. (С.П.Толстов. 1962. )

Türkistanın geniş ərazilərini əhatə edən Avropa arxeoloq və tarixçilərinin Okus uyqarlığı, Rus elmi dairələri tərəfindən isə Baktriya-Marqiana arxeoloji kompleksi adlandırılan qədim arxeoloji mədəniyyətin Turan uyqarlığı adlandırılması elmi məntiqə daha uyğun olardı.

Arxeoloji qazıntılar və genetik araşdırmalar R1a1 qaploqrupunun daşıyıcıları olan iranlı arilərin Cənubi Sibirdən hərəkət edərək Orta Asiyada, İranda və Hindistanda məskunlaşmalarının m.ö. 2-ci minillikdə baş verdiyini göstərməkdədir. (Клесов А. 2010, Səh. 23)

Bulqar türklərinin tarixi salnamələrinin müəllifi Baxşi İmanın "Cafqar tarixi" əsərində bulqar türklərinin qədim zamanlarda mövcud olmuş İdel dövlətini ilk Turan dövləti, Göytürklərin dövlətini isə ikinci Turan dövləti adlandırılır. Bulqar salnaməsinə görə İdel Turan dövlətinin əsası 15 min il öncə Volqa-Ural arasında 7 oğuz-türk və sak qəbilələrindən ibarət bulqar tayfa birliyi tərəfindən qoyulmuşdur. 12 min il öncə bulqarların Samar qolu Volqa-Uraldan Ön Asiyaya köçərək orda qədim Sumer dövlətini yaratmışlar. Samar-bulqarların bir hissəsi Azərbaycandan keçərkən orda qalıb məskunlaşmışlar. (Baxşi İman, 993, Səh. 11-12)

İranlıların Mərkəzi Asiyaya gələrək turanlı öntürklərin ərazilərində məskunlaşmaları tarixdə İran-Turan müharibələri adı ilə tanınan və iki irq arasında uzun əsrlər boyunca davam etməkdə olan mübarizəyə səbəb olmuşdur. Turanlı türklərin işğalçı iranlı arilərə qarşı mübarizəsi bir sıra fars və ərəb dilli qaynaqlarla yanaşı Avesta mətnlərində, Təbərinin, Məsudinin, İbn Əl-Əsirin, Firdovsinin "Şahnamə" poemasında da öz geniş əksini tapmışdır.

Tarix səhnəsinə digər irqlərdən daha gec qədəm qoymuş arilər, o cümlədən iranlılar haqqında hər hansı bir məlumata Bibliyanın yaradılış əfsanəsində rast gəlinməmişdir. Yaradılış əfsanəsinə görə Böyük tufandan sonra yeni doğulan bəşər övladının atası kimi təqdim olunan Nuh peyğəmbər yer üzünü idarə etmələri üçün üç oğlu – Yafəs, Sam və Ham – arasında bölüşdürmüşdür. Lakin hind-avropalılar öz köklərini Yafəsə bağlamaq üçün daha gec dövrlərdə onunla əlaqədar bir sıra hadisə və şəxs adları uydurmuşlar. Yaradılış əfsanəsində Türk oğlan adı ilə tanınan və türk-turan irqinin ulu əcdadı sayılan Yafəsə idarə etməsi üçün Anadoludan Çin də daxil olmaqla şərq əraziləri ayrılmışdır. Sam əfsanədə sami irqini, Ham isə həbəşləri və digər qara rəngli irqə daxil olan insanları təmsil edir. Göründüyü kimi bütün iddialara rəğmən, bu yaradılış əfsanəsində arilər təmsil olunmamışdır. Buna görə də arilər Bibliyanın yaradılış əfsanəsini təhrif edərək onun əsasında özlərinə uydurma bir yaradılış əfsanəsi tərtib etdilər. Onların bu əfsanəsində Nuh Firudinlə, Yafəs Turla, Sam isə Səlmlə əvəz edilmişlər. Farslar Hamı çıxararaq onun yerinə iranlıların ulu əcdadı kimi təqdim edilən İrəci daxil etdilər. İrəc adı isə Avestada Ariyanama veca sözünün qəsaldılmış şəklidir.

Görkəmli alman tarixçisi F.Şpiqel İranın qədim tarixinə həsr etdiyi əsərində yazırdı ki, İranlılar Avestada dünyanın yaradılması haqqında əfsanəni samilərin Bibliyada Yaradılış haqqındakı əfsanələrindən götürmüşlər. Bu əfsanənin ən qədim kökü Sumerlərə bağlıdır. Onun yazdığına görə Tufan haqqındakı Hind əfsanəsini də İran vasitəsilə Babil sami əfsanəsindən götürmüşlər. (F.Spigel. Band 1, 1871, Səh. 449-450)

İranlılar ərazilərinə işğalçı kimi gəldikləri turlara, yəni türklərə qarşı mübarizələrinə haqq qazandırmaq üçün öz əfsanələrinə ulu əcdadları İrəcin guya türklərin ulu əcdadı Tur və Səlm tərəfindən xaincəsinə öldrüldüyü haqqında uydurma bir hadisə daxil etdilər. Turan dövləti mövcud olduğu uzun dövr ərzində iranlıların davamlı axınlarına və ərazilərinə etdikləri təcavüzlərə qarşı onlarla daima savaş vəziyyətində olmuşlar. Bitib tükənməyən bu savaşlar gedişində gah bir tərəf, gah da digər tərəf üstünlük qazansalar da, fars dilli ədəbiyyat və mənbələrdə bu mübarizədə türkləri sonda həmişə məğlub kimi qələmə vermişlər. Tarixi gerçəklik də bundan ibarətdir ki, turanlı türklər mübarizə gedişində öz ərazilərinin bir qismini iranlılara güzəştə getməyə məcbur olmuşlar.

İngilis assuroloq Turanizm nəzəriyyəsinin banisi H.Rauilson yazır ki, Klassik müəlliflərin sak adlandırdıqları və Mərkəzi Asiyanın şimalına yayılmış Turan tayfaları arilər bu regiona gəlmədən çox öncələri Oksus çayının məhsuldar vadilərində məskunlaşmışdılar. Yustin də yazır ki, Baktriya dövlətini saklar yaratmışdılar.

Strabon da köçərilərin həmin məhsuldar çölləri zəbt etdikdən sonra orda Sakistan adlı dövlət yaratdıqlarını qeyd edir. (Rawlinson H.C. 1912. Səh. 8, 13)

Rus-sovet tarixçisi İ.Dyakonov yazır ki, Avestanın meydana çıxmasından öncə e.ə. IX-VII əsrlər arasında Orta Asiyanın şimal ərazilərində köçəri atlı turanlı/sak tayfalarının dövləti mövcud idi. Cənub ərazilərdəki oturaq əkinçi və şəhər əhalisi isə "dahya" adlanan kiçik siyasi birliklər, icmalar və şəhər dövlətləri tərkibində birləşərək öz dövlətlərini yarada bilməmişdilər. Turan adlanan mərkəzləşmiş hərbi aristokratik dövlət təşkilatına malik atlı köçəri tayfalar Orta Asiyanın bütün ərazisini öz hakimiyyətləri altına almışdılar. Burda xaqanın hökmranlığı altında hər kəsin tabe olduğu vahid dövlət təşkilatı mövcud olduğu kimi vahid dini etiqad sistemi də mövcud idi. Tarixi mənbələrdə və Avesta rəvayətlərində arilərin ölkəsi kimi təqdim olunan Aryaşayana və onun tərkibində olan Dranqiananın turların tayfasına mənsub olan Turan padşahı Franqrasyan, yəni Əfrasiyab tərəfindən zəbt olunaraq onun ərazisinə daxil olduğunu yazılır. (И.М.Дьяконов. 1971. Səh. 142-143)

Turan dövlətinin yaranma tarixini müəyyən etməyə çalışsaq, Anauda mövcud olmuş yüksək inkişafa malik şəhər mədəniyyətini istinad nöqtəsi kimi qəbul edə bilərik. Anauda və Türkistanda ona bənzər m.ö V minilliyə aid Namazqa təpə, Qazaxıstanda m.ö. III minilliyə aid Botay, Özbəkistanda Kelteminar, Əfrasiyab kimi qədim mədəniyyət mərkəzlərinin mövcudluğu Turanda ilkin dövlət təşkilatı rüşeyminin əsasının 8-7 minilliklərdə qoyulduğunu sübut edir.

E.ə. VI-V əsrlərdə Qara dənizin şimalından Baykal gölünə qədər ərazidə böyük bir türk dövləti mövcud idi. Bu möhtəşəm türk xaqanlığı Batı və Doğu yabquluqları adı ilə iki əsas qola ayrılmışdı.

Batıdakı yabquluq qonşuları tərəfindən Sak/İskit adı ilə tanındığı halda, Doğu yabquluqu qonşuları olan çinlilər tərəfindən Hsiunq-nu adı ilə tanınırdı. Turan adlandırılan bu böyük türk xaqanlığına bir zamanlar İran dastanında Əfrasiyab, ümumi Türk dastanlarında Alp Ər Tonqa və "Oğuznamə" dastanında Oğuz xaqan adlandırılan ulu hökmdar başçılıq edirdi.

XIV əsr ərəb müəllifi Al Omari Turan tarixindən bəhs edərək yazır ki, Turan xaqanlar ölkəsidir və türklərə məxsusdur, hökmdarları Əfrasiyabdır. Turanın sərhədləri Bəlx çayından başlayıb günəşin doğduğu yerdəki əraziləri də əhatə etməklə Dunay çayına qədər davam edir. Onun quzey sərhədləri isə Qıpçaq xalqının ərazisini, Saklab, Çərkəz, Rus və Macarları və onların şimalında məskunlaşmış çoxsaylı xalqların ərazilərini əhatə edir. Turanın tərkibinə çoxlu dövlətlər, ölkələr, xalqlar və vilayətlər daxildirlər. Al Omari Qızıl Orda dövlətini də Turan dövlətinin davamı adlandırır. (Ибн Фадлаллах Ал Омари. Т 1, 1884Səh. 226)

Tarixi qaynaqlardan da məlum olduğu kimi türklərin ulu əcadadı Tur, eyni zamanda Turan dövlətinin yaradıcısı olmuşdur. Tur ulu əcdad-eponim olaraq öz



adını türk ulusunun yaradıcı etnosu olan turlara vermişdir. Turların hakim etnos kimi Turan dövlətinin hakimiyyət sülaləsini təşkil etmələri haqqındakı məlumatlar kökünü Sumer və Ön Asiyanın digər qədim xalqlarının miflərinin təşkil etdiyi Avesta və digər irandilli qaynaqlarda da öz əksini tapmışdır.

Turların irandilli tayfalar olduqları haqqında əsası sovetlər dönəmində qoyulmuş qərəzli qeyri elmi tezisə uyanlar bu gün də mövcuddur.

Başqırdıstanlı araşdırmaçı B.Muratov Sovetlər dövrünün qeyri elmi qərəzli konsepsiyasına uyaraq Turları iran dilli etnos hesab edir, onun fikrinə görə hind-avropalı turların bir qrupu türkləşib türk dilini qəbul etdikdən sonra özlərini Türk adlandırmağa davam etmişlər. O yanlışlıqla öküz anlamındakı "tur" sözünü hind-avropa mənşəli və öküz mənasındakı "quz" sözünü onun türk dillərindəki ekvivalenti hesab edir. Onun fikrinə görə Türk dili köçəri iranlı tayfalar olan turların dili kimi onların altay tayfaları ilə müharibələri və evliliklər nəticəsində e.q. I minilliyin sonlarında meydana çıxmışdır. (Муратов. Б.А. БЭИП "Суюнь". Том. 2 Май 2015, Уфа-Урал №4 (1), Səh. 301-335)

Yuxarıdakı bölümlərdə qeyd etdiyimiz kimi Tur sözü Sumer mənşəlidir və turlar Sumer və Ön Asiyanın digər turanlı xalqlarının miflərində Tanrının oğlu kimi təqdim olunurlar. Tarixdə eponim və ya teonimlərin etnonimə çevrilməsi hadisəsinin çoxlu nümunələri mövcuddur. Türklərin nümunəsində də, Tur və Turqu eponimləri bir çox görkəmli assuroloq və tarixçilərin elmi dəlillərlə əsaslandırdıqları kimi Türk etnoniminin kökünü təşkil edir.

Bizim fikrimizə görə Turlar iki başlıca qoldan ibarət olmuşdur, onun yüksək hakimiyyət sülaləsi qolunu Alpturlar, aşağı tabe qolunu isə Asturlar təşkil edirdi. Alp və As öntürklərə məxsus qədim eponimlərdir. Alp sözü türkcə yüksək, ali anlamı daşıdığı kimi, As isə aşağı, aşağıda yerləşən, tabe anlamı daşıyırdı. Alplar yüksəklik və dağ yaylalarında köçəri heyvandarlıqla məşğul olan turanlı türklər, yəni dağlılar idilər. Aslar ilə düzənliyin oturaq əkinçi əhalisi olan türklər idilər. Köçəri heyvandar alplar atlı süvarilər olaraq daha çevik, mütəhərrik və mobil gücə gücə malik idilər. Aslarla müqayisədə üstünlüyə malik olduqları üçün onları tabeçilikdə və itaətdə saxlayır və yüksək, hakim təbəqəni təşkil edirdilər.

As boyu iskit sakların ən önəmli boylarından biri, bəlkə də hökmran boyu idi. As kişi adlanan as boyu eradan qabaq iskit-sakların tərkibində yürüşdə iştirak edərək Qafqaz üzərindən keçib Ön Asiyaya getmiş və Assur və Urartu yazılı mənbələrində As kişi adının təhrif olunmuş şəkli olan Aşquz/İşquza şəklində assur, İşqiuqulu şəklində urartu kitabələrində əks olunmuşdur.

As boyları bir çox türk xalqlarının etnogenezində önəmli rol oynamışlar. Göy Türk xaqanlığı dövründə as kişilərin adları müxtəlif hadisələrlə əlaqədar Orxon-Yenisey yazılı abidələrində əksini tapmışdır. Sovet dövrü tarixşünaslığında as və

alan boyları heç bir tutarlı elmi əsas olmadan irandilli tayfalar elan edilmiş və osetin xalqı ilə əlaqələndrilmişdir.

Qaraçay-balkar tarixçisi T.Mollayev də "as" etnoniminin mənasını "aşağı, düzənlik" kimi izah edərək qədim dövrlərdə Xəzər dənizinin çökəklik-düzənlik ərazilər olan vadilərdə yaşayan qaraçay-balkarların "as kişi" adlandırıldıqlarını yazır. Lakin onlar Qafqazın dağ yaylalarında məskunlaşandan sonra yeni ərazinin relyefinə uyğun olaraq artıq taulu-dağlı adlanmağa başladılar. Osetinlər indi də qaraçay-balkarları aslar adlandırmaqdadırlar. (Т.Моллаев. 2010)

İsmail Miziyev as və alan etnonimlərini məna baxımından eyni olduqlarını qeyd edir. Lakin öz ilkin düzənlik və vadilərdəki yurdlarını tərk edib dağlarda məskunlaşan as boyları "dağsas" və ya dağlı aslar adlandığı kimi, düzənlikdə qalan aslar "alanya aslar" adlanmışlar. (İsmail Mizi-Ulu. 1993)

Sak-iskitlərin əsas yaşayış məskənlərindən biri Azov dənizinin ətrafıdır. Bu dənizin tarixən məlum olan Azov-Azak-Karbalik adlarının hamısı türkcədir. Asov adı türkcə "aşağı ova", Asak isə "aşağı axar", yəni çayın ağzı deməkdir. Sakların dilində olduğu qeyd edilən Karbalik adı isə türk dilində bataqlıq – sulu yer anlamı daşıyan "balık" sözündən yaranıb və "böyük bataqlıq" anlamındadır.

Əmir Teymurun tarixçiləri Şərəfəddin Yəzdi və Nizaməddin Şami Teymurun Elburs dağlarına yürüşü zamanı onunla döyüşən As boylarının sərkərdələri Buriberdi və Burikanın adlarını çəkir ki, hər iki As sərkərdəsinin adı buri-qurd adı ilə əlaqədardır.

Ən qədim zamanlardan etibarən əsası turlar dövründə qoyulmuş türk tayfa birliyi içərisindəki ağalıq-tabelik bölgüsü pozulmaz törə şəklini alaraq bütün türk tarixi boyunca davam etmişdir. Bu bölgünü biz sak, hun, oğuz, kəngər, monqol-tatar dönəmlərində də aydın şəkildə görə bilirik. Oğuzlar, yəni turlar bu bölgüyə uyğun olaraq boz ok və üç ok şəklində iki qol təşkil edirdilər.

Yusif Ziyanın fikrinə görə Oğuz xaqan dastanında Boz ox və Üç ox ifadəsi yanlış şərh olunur. Boz sözünün qədim türk dilində gerçək anlamı Yer deməkdir, Üç ox isə, əslində, Üce ox, yəni Göyüzü və Səma mənasındadır. Məlum olduğu kimi oq sözü türklərdə qol/tirə və boy deməkdir. Boz ox qoluna mənsub oğlanların Göy, Dağ və Dəniz adları Yerüzü, Gün xan, Ay xan və Ulduz xan adları isə Göyüzü ilə əlaqədardır. (Yusif Ziya Özer. 1932. Səh. 366)

Oğuzlarda da boz ok adlanan və hakimiyyət rəmzi kimi yaya sahib olan böyük oğullar hakimiyyət sülaləsini təşkil edirdilər. Boz oklara tabe olan üç ok isə xaqanın vəzirləri ünvanına sahib idilər. Oğuzlarda bu bölgü eynilə Alptur və Asturlar arasındakı münasibətlərə uyğun idi.

Astur eponimi bir çox xalqlarda etnonim və toponim şəklində mövcuddur.

İsrailli assuroloq M.Zilberman Mesopotamiyanın Astur tanrısının bir çox xalqlarda, o cümlədən Fransanın Asturiya xalqının etnonimini təşkil etdiyini yazır. Astur sumerlərin İstar tanrısı adının dəyişik ifadə formasıdır. (Зилберман M. 016)

İngilis assuroloqu Vaddell "As Tur" eponimini Sumer və Misir mifologiyası ilə əlaqələndirərək Sumerin günəş tanrısının AsaTur adlandığını və onun misirdə İsida kimi ifadə olunduğunu yazır. AsaTur Ukusi kimi də yazılırdı. Sumerlərin tanrıları Asar misirlilərdə günəş tanrısı Osiris kimi, Aset isə İsis kimi ifadə olunur. (Waddell L.A. 1930, Səh. 164)

Teonimin etnonimə çevrilməsi hadisəsi bir çox xalqların və o cümlədən türk xalqlarının tarixində də rast gəlinir. Sumerin Astur tanrı adı sonralar türklərin bir qolu üçün etnonimə çevrilmişdir.

Qədim turanlı boyunu təşkil edən asturlar Qərbi Avropaya doğru hərəkət edərək Fransada və İspaniyada Asturiya adlı iki tarixi bölgənin əsasını qoymuşlar. Asturlar Ön Asiyada və Avropada geniş yayılaraq dərin izlər buraxmışlar. Xəzərin quzeyindəki qədim Astarxan şəhəri, yenə xəzərin güneyindəki Astarabad şəhəri Astur adından yaranmışdır.

Əsası Turanın ulu xaqanı Əfrasiyab – Alp Ər Tonqa tərəfindən qoyulan alpturların hakimiyyət sülaləsi türklərin gələcəkdə yaratmış olduqları dövlətlərdə xaqaniyyə hakimiyyət sülaləsi adını almışdır. Türk tarixinin sonrakı dövrlərində türk xaqanları öz hakimiyyətlərini legitimləşdirib ona qanuni don geyindirmək üçün öz nəsil şəcərələrini türklərin ulu xaqanı Əfrasiyaba bağlayırdılar. Alplığın əsası Alp Ər Tonqa – Əfrasiyab tərəfindən qoyulmuşdur. Türkün böyük qəhrəmanları və hökmdarlarının bir çoxu bu şərəfli ünvana layiq görülmüşlər. Mahmud Kaşğarinin yazdığına görə Əfrasiyabın mənsub olduğu hakimiyyət sülaləsinə məxsus özəl bir xaqaniyyə türkcəsi də mövcud idi ki, bu dil digər türk ləhcələrindən fərqlənirdi.

Alp Ər Tonqa adındakı "tonqa" sözü cəsur və atılqan bir heyvan olan bars mənasındadır, bu heyvan bəzi türk ləhcələrində tonqa, bəzilərində isə bars adlanır. Tonqa və bars türklərin totem heyvanları idilər. Bu ad sonradan tonqra şəklində önəmli türk tayfalarından birinin adı olduğu kimi. Bars adı da yenə türklərin qüdrətli hakimiyyət sülalələrindən birini təşkil edən barsil tayfasının adında öz varlığını qoruyub saxlamışdır.

Tur sözünün Sumer dilində digər bir mənası öküzdür ki, onun etimologiyası sonrakı bölümlərdə izah ediləcəkdir. Tur və sonradan Oğuz şəklini alan Quz adları sinonim olduğundan Astur adının digər bir variantı Asquz olmuşdur. Asturların totemi as, yəni sincab idi, as sözünün mənası məkan etibarı ilə aşağıda olan deməkdir. Hər iki totem heyvan tonqa/bars və as/sincab türklərin əsas yaşayış məskənləri olan dağ ətəyi çayların sahilində yaşayırdı. Təbiətdə də sincab güclü, sərt təbiətli, atılqan barsla müqayisədə dafa zəif və gücsüz olmaqla ona tabe vəziyyətdə olmuşdur. Tonqa və barsil tayfaları tur/quzlarla birlikdə hakimiyyət sülaləsinin qoşa qanadını təşkil edirdilər.

Tonqa adından da göründüyü kimi Əfrasiyab – Alp Ər Tonqa barsil, yəni tonqa boyuna mənsub olmuşdur.

Qədim zamanlarda bir etnos kimi Ural və Volqa ətrafında formalaşan prototürklər üçün Ural ətrafında və Sibir çöllərində sürülər halında yaşayan azadlıq sevər vəhşi yaklar, yəni vəhşi öküz və ya digər adla bizon bir güc, qüdrət və özgürlük simvoluna çevrilmişdir. Onlar özlərini bu cəsur, sərt, güclü heyvanla eyniləşdirərək onu özlərinin toteminə çevirmişdilər.

Alp Tur və Alp Turan adları sonradan türklərin qəhrəmanlıq və hakimiyyət tituluna çevrilmişdir.

Yenisey çayı vadisində Eleqeş çayı yaxınlığında Barlıkda tapılmış daş üzərindəki bir runi yazı mətnində altı oğuz budunun başbuğu Alp Turanın ölümündən bəhs olunur. (Малов С.Е. 1952, Səh. 21)

Lenormanın yazdığına görə Turan adı protomidiya, akkad, uqor-fin və türk-tatar dillərində eyni şəkildə "oğul, ulu irqin oğlu, rəhbər" mənasında olan Tur sözündən yaranmışdır. Qədim iranlıların turya adlandırdıqları Turanlılar özlərinə "Tur" adını ona görə qəbul etmişlər ki, bütün xalqlar öz köklərini nəcib qanın daşıyıcısı olan ulu bir əcdada bağlamaq istəyirlər. Tur eponiminin kökü Ön Asiyanın qədim Sumer-akkad, midiya, elam kimi turani xalqların dilində "ulu irqin oğlu, rəhbər" anlamı daşıyan ulu bir əcdada bağlıdır. (Lenormant F. 1875, Səh. 381)

Öküz və tur sözləri türk dilində hər ikisi eynimənalı sözlərdir. Tur sözünün hind-avropa mənşəli olması haqqında irəli sürülən fikirlər kökündən yanlışdır. Böyük Fransız tarixçi sumeroloqu J.Oppert "Tur" sözünün Ön Asiyanın qədim turanlı xalqının dilində "oğul", "doğulmaq", "törəmək" anlamı daşıdığı və bu sözün digər xalqların dilləri kimi iran dilinə də keçdiyini sübut edir. Bu söz qədim prototürk leksikonuna aiddir və Ön Asiyanın prototürk Sumer, elam və digər dillərindən sami və hind-avropa dillərinə keçmişdir. Bu baxımdan da tur və öküz sözləri ekvivalent sözlər hesab etmək olar. Ön Asiyanın qədim Sumer-akkad və digər xalqlarına məxsus miflərdə öküz yaradıcı əcdadır və ilk insan onun toxumlarından yaranmışdır. Bu mif sonradan Avestada da yer almışdır.

Öküzdən törəyən insan onun adı ilə tur, yəni öküz adlanmışdır. Türk dillərinin bir çoxunda tur sözü həm öküz, həm də doğulmaq, törəmək anlamı daşıyır. Oğuz dastanının uyğur versiyasında da türklərin ulu əcdadı Oğuz öküzlə Ay xaqanın izdivacından doğulmuşdur. Yəni adların mənasına uyğun olaraq Oğuz elə türklərin ulu əcdadı Tur və ya turun oğludur.

Türkoloq uzmanların əksəriyyəti oğuz sözünün öküz sözündən götürüldüyü fikrini müdafiə edirlər. Belə olduğu təqdirdə turlar dedikdə oğuzlar nəzərdə tutulur.

Turların Ön Asiyaya və Şərqi Avropaya yürüşləri saklardan yüzillərlə öncə baş vermişdi və sakların yürüşləri türklərin qərbə doğru yürüşlərinin yeni, təkrar bir mərhələsini təşkil edirdi

VII-XI əsrlər arasında tarixi Turan ərazisində onun varisi kimi mövcud olmuş Xəzər dövləti Turan dövlətinin ənənələrini davam etdirmişdir. Xəzər dövlətində də Turan dövlətində olduğu kimi hakimiyyətin əsas qolunu quz/turlar və barsillər təşkil edirdilər. Türklərin dövlət törəsinə uyğun olaraq hakimiyyət iki qoldan ibarət olurdu və bu qollar arasında münasibətlər bacanaq və ya küreqen boyu olmaqla sıx qohumluq əlaqələri əsasında qurulurdu. Dövlətdə sabitliyi qoruyub saxlamaq üçün Hakimiyyət sülaləsini təşkil edən boya mənsub xaqan mütləq hakimiyyətin digər qolunu təşkil edən boydan olan qızla evlənməli idi. Turanın qədim törəsinə uyğun olaraq quz/oğuz boyuna mənsub olan Xəzər xaqanı hakimiyyətin digər qolunu təşkil edən barsillərdən qız almalı idi. Görünür bu ənənə qədim Turan dövlətində də mövcud olmuşdur.

Aşağıdakı bölümdə bu haqda geniş bəhs olunacağı üçün qısa şəkildə qeyd edək ki, Xəzər adı yəhudi-ibrani dilində Quz-ər adının təhrif olunmuş şəklidir.

Bir çox araşdımaçılar məlum qaynaqlar əsasında Turan dövlətinin hakimiyyət sülaləsinin şəcərəsini müəyyən etmişlər. Turun oğlu Şatsəm (Zadşəm), Şatsəmin oğlu Başənq (Peşeng), onun oğlu Əfrasiyabdır. Dastanlarda və tarixi mənbələrdə Əfrasiyabın atası adlandırılan Türk xaqanı Peşənqin adı təmiz türkcə olub Başanqa sözündən ibarətdir və mənası "başda olan və ya başçı" deməkdir. (ДТС, 1969, Səh. 46)

Z.V.Toğana görə peçeneq boyunun adı Əfrasiyabın atası Beşənqin adından meydana gəlmişdir.

VIII-IX əsrlərə qədər Xarəzmin qərbində məskunlaşan peçeneqlər Eftalitlərin zamanında bir hissəsi Qəznə tərəflərə yerləşmişdir. X əsrdə peçeneqlərin bir hissəsi Yayik (Ural) hövzəsində yerləşmiş, böyük hissəsi isə Balkanlarda məskunlaşmışdılar. Onların bir bölümü Beçene (Bacanaq) adıyla Oğuz birliyinə daxil olmuşdular. (Z.V.Toğan, Rəşidəddin Oğuznaməsi, 2013, Səh. 98)

Tarixi qaynaqlara əsasən peçeneqlər kanqlıların bir tirəsi idi. Fikrimizə görə tarixin müəyyən dövründə Oğuz/Quz birliyinə daxil olan Kanqlı boylarından biri oğuzlarla bacanaq-küreqen münasibətlərində olduğu üçün həmin kanqlı boyu oğuzlar tərəfindən bacanaq/becene adlandırılırdılar. Bu bacanaq/peçeneqlər oğuzlarla aralarında yaranan ixtilaf nəticəsində ayrılaraq qərbə doğru getmiş və orda kumanlarla birləşərək Qıpçaq boy birliyini meydana gətirmişlər.

Ferdinand Justinin müəyyən etdiyi Turan hökmdarlarının şəcərəsinə görə Turan padşahı Əfrasiyabın 9 övladı olmuşdur. Onlardan biri Erenqız (Firenqiz) adlı qız, digər 8 isə oğlan idi. Turan hakimiyyət sülaləsinə məxsus şəxslərin türkcə adları fars dilində nə qədər təhrif olunsa da, bir çoxunun adı təmiz türkcə ifadə olun-

maqdadır. Əfrasiyabın Erenqızla yanaşı oğlanlarının Surxay, Kökbörü, Beycan, Qaraxan, Tezcan, Önderman, Barsqan kimi adları təmiz türkcədir. (Justi F. 1895, Səh. 394)

Turan dövlətinin mövcudluğundan etibarən onu idarə edən hakimiyyət sülaləsi gələcəkdəki bütün türk dövlətlərini idarə edən xaqanlar sülaləsinin özülünü təşkil etmişdir. Öz legitimliyini sübut etmək üçün böyük türk hökmdarlarının hamısı öz şəcərələrini Turan padşahı Əfrasiyaba bağlayırdılar. Beləliklə, Əfrasiyab - Alp Ər Tonqa türk xaqanlarının ulu əcdadı hesab olunur.

Mahmud Kaşğari Əfrasiyabın Barsqan adında oğlu və onun adını daşıyan Barsqan şəhərinin mövcud olduğunu yazır. Bu Əfrasiyabın Alp Ər Tonqa olmasını sübut edən bir faktdır, çünki Tonqa adı ilə Bars adı ekvivalent təşkil edirlər.

Z.V.Toqanın yazdığına görə Türk və monqollar Xaqanlar nəslinin V əsrdəki əfsanəvi Aşinadan törədiyinə inansalar da, əslində, Xaqanlar nəslinin başlangıcı xaqanların ulu əcdadı sayılan Sak hökmdarı Alp Ər Tonqadan başlayır. E.q. dövrlərdən etibarən Orta Asiyada müəyyən bir hökmdarlar nəsli mövcud olmuş, Sakların şərqi Avropa qolu olan iskitlər də daxil olmaqla Çin müəlliflərinin bəhs etdikləri şərqi Hun, Avropa müəlliflərinin əsərlərindəki qərbi Hun hakimiyyət sülaləsi və oğuzların yabqu hökmdar sülalələrinin nəsl şəcərəsi eyni kökə bağlıdır. Bütün bunlar türklərin uzun əsrlər boyunca transformasiyaya məruz qalsalar da, daima mövcud dövlət idarəsi kadrosuna malik olduqlarını və ilk baxışda dağınıq görünən müxtəlif dövr hakimiyyət sülalələri arasında bir genetik bağın mövcud olduğunu sübut edir. (Z.V.Togan. 1981, Səh. IV)

Əfrasiyabın hökmdar ünvanlarından biri də Alpdır. Alp ilə alplıq anlayışı tarixən Türk topluluqları və dövlətləri içərisində çox önəmli yer tutmuşdur. Alp ünvanı Türklərin hərb və ordu düzəninin təməllərindən birini təşkil edirdi. Türk dövlətlərinin əsaslandığı və ona uğur qazandıran tək güc, ordu, alplıq və şücaət olduğu kimi onun yüksəlişi və çöküşü də onun varlığına bağlı idi. Alplıq ünvanına sahib olan adam yalnız öldürməyi bacaran bir canlı döyüş maşını deyildi, yüksək və yetgin ruha malik bir qəhrəmandır. Alp öz cəsarəti, igidliyi və döyüş bacarığı, ətrafındakıları ruhlandıraraq öz arxasınca apara bilən yüksək xarizmaya malik bir bahadırdır. Alp Ər Tonqanın nümünəsində Türk xaqanlarının alplığı və bilgəlikləri xalqın onlardan bəklədikləri ən başlıca keyfiyyətlər idi. Alplıq bu ünvana layiq görülmüş adamın onu hər kəsdən fərqləndirən üstün keyfiyyətlərə malik olması deməkdir. Alp Ər malik olduğu yüksək əsgəri və idarəçilik keyfiyyətlərinə görə Alp Ər Tonqanın nümunəsində Tanrıdan kut almış xaqanlara və ordu başbuğlarına verilən bir ünvan mahiyyəti daşıyırdı. (Bahaeddin Ögel. C. 1, 1982, Səh. 245-249)

Əfrasiyabın, yəni Alr Ər Tonqa adındakı Tonqa sözü türkcə bars-bəbir mənasındadır. Tonqa adı igid, cəsur anlamında bir çox türk qəhrəmanlarının titulu olmuşdur. "Bars" (Tonqa) qədim türk boylarından olan Bərsillərin (bars-el) totemi idi. Alp Ər Tonqa adında olduğu kimi Bars Volqa (İtil) Bulqar çarlarının da uranı idi. Bars uran-totem olaraq çox zaman buynuzlu və qanadlı təsvir olunurdu. Bars adı ilə məlum olan ən qədim ölkə m.ö VIII-VI əsrlərə aid tarixi qaynaqlarda adı keçən, Ön Asiyada Urmiyə gölünün aşağısında yerləşən Barsua (Parsia) ölkəsidir. XIX əsrin bir çox tarixçiləri Assuriyanın bir vilayəti olan Barsuanın turanlı mənşəyə malik olub subir türklərinin bir qolu olduqlarını yazırlar.

Alp Ər Tunqa və Əfrasiyab Turanın ulu xaqanı olaraq təkcə Türkistanda qurulan dövlətdə hakimiyyət sülaləsinin kökünü təşkil etmirdi. Hindistanda qurulan Sak dövlətinin hökmdarı Azis də Ərtunqa adını bir az dəyişik şəkildə Erjuna kimi özünün hakimiyyət tituluna çevirmişdi. M.ö. 133-129-cu illərdə Hindistana gedib orda Kuşan dövlətini quran Kujula Kadfis Asizi məğlub edərək onun Ərtunqa ünvanını da mənimsədi və "Erjuna yasaqa", yəni Ərtunqa yasası adlı qanunlar yasasını qəbul etdi. Z.V.Toqan Erjuna adının Ərtunqa adının dəyişik şəkli olduğunu yazmışdır. (Z.V.Togan, 1981, Səh. 145)

Fransız tarixçisi Lenorman yazır ki, Turan adı I Daranın (m.ö. 521-435) kitabələrində və yunan müəlliflərinin əsərlərində rast gəlinməsə də, çox qədim tarixə malikdir. Turan adının ilkin forması olan Tura adı Zərdüştlüyün müqəddəs kitabı Avestadakı "turya" şəklində ifadə olunmuşdur.

Lakin J.Oppert Tur və Turan adlarının Avestaya qədim zamanlardan Ön Asiyada məskunlaşan öntürklərin öz dilindən keçdiyini linqvistik dəlillərlə sübut etmişdir.

Oppert Əfrasiyab adının iran mənşəyinə malik olduğu haqqında iddiaları təkzib edərək turanlı sakların dilində olan bu adın iranlılar tərəfindən təhrif edildiyini yazır.

İlana sitayiş qədim zamanlardan etibarən turanlıların dini etiqadında önəmli yer tuturdu. Turanlıların ali tanrısı böyük ilan (əjdaha) idi ki, Zərdüşt onu şərin simvolu kimi Ariyananın bayrağının gerbi etmişdi. İran əfsanələrində Əfrasiyab ilan adlandırılır. Oppert turanlı Midiyalıların dilində Əfrasiyabın böyük ilan mənasında "Farroursarabba" adlandığını yazır. (Lenormant F. 1887, Səh. 376)

Lenormanın yazdığı kimi Zərdüştün ilanı sitayiş obyekti kimi öz bayrağına həkk etdirməsi onun turanlı mənşəyə malik olmasını sübut edir. Görünür ilana etiqadın önəmli yer tutduğu zərdüştüliyin mahiyyəti sonralar təhrif olunmuş və müsbət səciyyə daşıyan ilan iranlıların təsiri ilə mənfi xarakter kəsb etmişdir. Zərdüştlik turanlı mənşəyə malik olsa da, turanlılar öz Tenqriçilik dinlərinə sadiq qalaraq onu qəbul etməmişlər.

Ön Asiyanın qədim turanlı xalqlarından olan və Zaqros dağının yaylalarında məskunlaşmış və B.Landsberqerin türklər hesab etdiyi, əsl adlarının Quz olan dö-

yüşkən Qutiləri də qonşu xalqlar "dağların sancan ilanı və ya əjdahası" adlandırırdılar.

İranlılar e.q. 900-cü ildə İran yaylasını işğal etdikdən sonra Turan dövlətinin ərazilərinə daima təcavüz edirdilər. Bu hadisələr Avestada da öz əksini tapmışdır. "Arilər və turanlılar Yaksart sahillərində Soqdiyada toqquşdular və ilk zamanlar turanlılar üstünlüyə malik idilər. Lakin iranlılar turanlıların işğalından xilas oldular. Avestada Turanın hökmdarı Franqrasyanın adını çəkir və orda mələklərə müraciətlə Franqrasyan üzərində qələbə çalmağa yardım etməsi üçün ona dua edirlər. Fravaşı min başlı düşmən turanlılara qarşıdır". (Lenormant F. 1887, Səh. 377)

E.q. 900-cu ildə tərtib olunmuş Avesta mətnlərindən məlum olur ki, iki düşmən xalq arasında mövcud olan sərhəd problemləri Ahuramazda tərəfindən çözülmüşdür. O baş verən sərhəd anlaşılmazlığını İran naminə yoluna qoymaq üçün nəhəng bir öküz yaratmış və İranla Turan arasında sərhəd o öküzün dırnaqları ilə qazdığı yerlə müəyyən olundu. Əfsanəvi öküzün qazdığı yer sonradan çaya çevrilmiş və türk dilində Okus adlanmışdır. İranla Turan arasında sərhəddi təşkil etmişdir. İki irq arasında sərhəddi müəyyən etmək üçün məhz öküzün seçilməsi təsadüfi deyildir. Çünki Tur/öküz türklərin eponimi, sitayiş etdikləri totemləri idi və onun müəyyən etdiyi sərhəddi pozmaq böyük günah hesab olunurdu. Bu hadisə, əslində, sumer mifologiyasında öküz obrazında təcəssüm olan tanrı Enkinin Fərat və Dəclə çaylarının yaratması ilə əlaqədar mifin Avestadakı yansımasıdır.

Turan dövlətinin mövcudluğunu və onun ulu xaqanı Əfrasiyabın gerçək bir tarixi şəxsiyyət olması faktının inkarı tarixi dəlillərə ziddir. Əfrasiyabın tarixi şəxsiyyət olması Türklərin iki önəmli yazılı mənbələri olan Mahmud Kaşöğarlının "Divani lüğət-it Türk" və Yisif Balasaqunlunun "Kutadqu biliq" əsərləri ilə təsdiq olunmaqdadır. Hər iki əsərdə iran mənbələrində Turan padşahı Əfrasiyab kimi təqdim olunan şəxsin əslində Turanın ulu xaqanı Alp Ər Tonqa olduğu inkaredilməz faktlarla təsdiq olunur. Hər iki əsərdə Alp Ər Tonqa haqqında türklər içərisində mövcud olan bir çox rəvayətlər və tarixi faktlar öz əksini tapmışdır.

Şahnamədə Turanın mərkəzi şəhəri və Əfrasiyabın paytaxtı türklərin Baykənd adlandırdıqları Kanqa şəhəridir. Bu əsərdən göründüyü kimi türk boyları Turan dövlətinin tərkib hissəsini təşkil edirdilər. Firdovsi yazır ki, Turan ordusu əsasən Çiqil, Oğuz, Taraz, Karluq və Türkmən boylarından təşkil olunmuşdu. "Şahnamə"də və digər irandilli mənbələrdə qeyd edildiyi kimi Əfrasiyabın Turan dövlətinin əsas hakimiyyət ünsürlərindən birini kanqlı/kəngər boyu təşkil edirdi və dövlətin mərkəzlərindən biri onların adı ilə Kanqa adlanırdı.

Bir çox mənbələrdə Əfrasiyab Kanqlı və Kəngər dövlətinin hökmdarı adlandırılır. Şahnamədə Dövlətin Kanqa adlanan paytaxtını türklər Baykənd, yəni şəhərlərin ağası adlandırırdılar. Əfrasiyabın Turan dövlətinin də əsas etnik özəyini təşkil edən Kəngər və ya Kanqlı boy birliyi türk dünyasının ən qüdrətli və geniş yayılmış boylarından biridir.

Şahnamədə də göründüyü kimi Turan dövlətlər konfederasiyası idi və bu konfederasiyanın başında mərkəz olaraq Əfrasiyabın hökmran olduğu Kanxa-Kanqlı-Kanqyuy dövləti dururdu. İllər, nəsillər dəyişsə də bu dövlətin əsas özəyini təşkil edən ərazi olan Sırdərya vadisində əfsanəvi Turan dövlətinin hökmdarı Əfrasiyabın hakimiyyət sülaləsi haqqında xatirələr orta əsrlərdə özlərini bu sülalənin varisləri kimi görən Uyğur, Qaraxanlı və Selçuklular dövrünə qədər davam etmişdir. (Вайнберг, 1999, Səh. 206)

Maraqlı cəhət burdadır ki, turanlı Sumerlər özlərini Lu Kienqir adlandırdıqları kimi Turan padşahı Əfrasiyab da Şahnamə və digər əsərlərdə bəhs edildiyi kimi Turanın Kanqli (mənbələrdə bu ad bəzən Kanqlı, bəzən də Kenqer şəklində yazılmışdır, *lı-li* türk dilində mənsubiyyət şəkilçisi olduğu kimi, *erlər* sonluğu da Sumer dilində kişi, adam, şəxs anlamındadır) hakimiyyət sülaləsinə mənsub idi.

Sumerlərin Kienqir adının mənası "əsilzadə ağaların ölkəsi", yəni Ki-ölkə, En-ağa, qir-əsilzadə/alicənab" deməkdir. Kəngərlərin Sumerin hökmran xalq olduqları onların yalnız etnos olaraq adlarında deyil, həm də dillərinin adında da öz əksini tapmışdır ki, Sumerlər öz dillərini *eme-kinqir,* yəni yerli ağaların və ya əsilzadələrin dili adlandırırdılar.

Digər müəlliflərlə yanaşı Amerikan sumerşünası Viliyam Stibing sumerlərin Kienqi adının gerçək mənasının məhz bu anlamı daşıdığını təsdiq edir. (William H. Stiebing. 1994)

Kəngərlər Sumerin şəhər dövlətlər birliyini təşkil edən çoxsaylı boyların əsilzadə və hökmran boyu idi və məhz bu səbəbdən də ölkə bu boyun adı ilə Kiengir/Kenger adlanırdı.

Tarixi ənənə baxımından sumerlilərin varisləri və Ön Asiyanın ən qədim xalqlarından olan Azərbaycan türkləri sahilində Sumerin yerləşdiyi Bəsrə körfəzini onların öz adları ilə Kəngər körfəzi adlandırırdılar.

Müxtəlif Sumer boylarının, o cümlədən onların hökmran boyu olan kəngərlərin tarixin müəyyən dövrlərində müxtəlif səbəblər üzündən öz yerlərini tərk edərək dünyaya yayıldıqları haqqında assurologiya və bütövlükdə tarix elmində müxtəlif fikirlər mövcuddur. Sumerlərin öz vətənlərini tərk edib dünyaya yayılma hadisəsini və səbəblərini Sumerə həsr olunmuş bölümdə izah edəcəyik.

Amerikan tarixçisi Filip Smit yazır ki, nə vaxtsa cənubun məhsuldar ölkələrinə axın edərək yerləşən böyük Turya və ya Turan irqi Mesopotamiyada irqlər arasındakı qarşıdurma səbəbi ilə yenidən Mərkəzi Asiyanın bir o qədər də qonaqpərvər olmayan ərazilərinə geri dönmüşlər. Onların geri dönüşü uzun illər ərzində arilərlə qarşıdurmalara səbəb olmuşdur. (Smith P. 1888, Səh. 379)

Yuxarıdakı iqtibaslardan da göründüyü kimi e.q. 10-9-cu minilliklərdə qədim

Turan ərazisində yerləşən Anau və ətraf bölgələrdə bəşəriyyətin ilk qədim şəhər mədəniyyətinin əsasını qoyan protosumerlər iqlim dəyişiklikləri səbəbi ilə Ön Asiyaya və Mesopotamiyaya köçüb yerləşmiş, lakin bir neçə min ildən sonra samilərlə baş verən davamlı irqi qarşıdurmalar nəticəsində yenidən Kəngər adı ilə öz ilkin ana yurdlarına geri dönməyə məcbur olmuşlar. Sumerlərin və onlara qohum olan Ön Asiyanın digər turanlı öntürk tayfalarının Mərkəzi Asiyaya geri dönmələri burda mədəniyyətin yenidən yüksəlişinə təkan vermişdir. Bu köçlər təkcə Turanda deyil, yuxarıda qeyd edildiyi kimi qonşu Çin ərazisində də dövlət təşkilatının yaranmasına və mədəniyyətin çiçəklənməsinə, heroqlif yazı sisteminin meydana çıxmasına səbəb olmuşdur. Sumerin Çinə təsiri məsələsi gələn bölümlərdə ətraflı şəkildə şərh olunacaqdır.

Təbəri Tarixində və digər tarixi mənbələrdə qeyd olunduğu kimi Əfrasiyabın paytaxtı əvvəlcə Bəlx şəhəri olmuş, Mənuçehrlə razılaşmadan sonra paytaxt Amudəryanın quzeyinə, indiki Səmərqənd ətrafına, yəni onun adını daşıyan Əfrasiyab şəhərinə köçürülmüşdür. Bəlx çayı İran və Turan arasında sərhəddi təşkil etmişdir. Onu da qeyd etmək lazımdır ki, Kəngər etnonimi sumerlərlə əlaqədar olduğu kimi Bəlx çayının adı da sumerlərlə əlaqədardır, Sumerlərin çay tanrısı Balix adlanırdı, "balix" sumer dilində çay demək olduğu kimi türk dilində də, çay anlamı daşıyır.

Tarixi mənbələrdən də məlum olduğu kimi Əfrasiyab Turanda Kanqa, Qanqdiz, Səmərqənd, Buxara, Termez, Bəlx, Mərv, Koçqarbaşı, Baykənd və digər şəhərlərin əsasını qoymuşdur. Səmərqənd və Baykənd Əfrasiyabın şəhərləri olub hər ikisi də yazılı qaynaqlarda Kanqdiz, yəni Kanqların şəhəri adlandırılırdı.

Əfrasiyab şəhəri öz dövrünün əzəmətli bir şəhəri, möhtəşəm Turan dövlətinin paytaxtı olmuşdur. Arxeoloji qazıntıların nəticəsində şəhərin 2750 il yaşı olduğu, Roma və Nankin kimi qədim şəhərləri ilə yaşıd olub əsasının m.ö. VIII əsrdə qoyulduğu məlum olmuşdur. Həmin əsrdən etibarən tarix səhnəsinə qədəm qoyan Sak-Turan dövlətinin hökmdarı Əfrasiyabın paytaxtı adından da göründüyü kimi bu şəhərdə yerləşirdi.

Əhəmənilər dövründə şəhər Soqdia vilayətinin mərkəzi olmuşdur. Əfrasiyab şəhər xarabaları Səmərqənddən şimalda Siyab çayının sahilində yerləşir. Turanın paytaxtı olan Əfrasiyab/Səmərqənd şəhəri e.q. 329-cu ildə Makedoniyalı İsgəndərin qoşunları tərəfindən istila edilərək minlərlə insan öldürülmüş və viran qoyulmuşdur ki, Səmərqəndin adı tarixi qaynaqlarda ilk dəfə bu hadisə əlaqədar çəkilir. Lakin İsgəndər şəhəri asanlıqla zəbt edə bilməmişdir, Turan qəhrəmanlarından Spitamen şəhəri ələ keçirmək üçün onu mühasirə etmiş yunan qoşunlarını döyüşlər zamanı böyük itgilərə məruz qoymuşdur. Z.V.Toqan tarixi qaynaqlara dayanaraq Səmərqəndi İsgəndərin hücumundan müdafiə edən Türk hökmdarının Qutlançin olduğunu yazır. İsgəndər zamanında Türkistanı idarə edən hakim təbəqənin Türklərdən ibarət olduğu İsgəndər haqqındakı hekayətləri ətraflı təsvir edən süryani və ərəb rəvayətlərindəki türk adlarından da görünməkdədir. (Z.V. Toqan, 1981. Səh. 386)

Yusif Z.Özer Turanın əzəmətli paytaxtı Səmərqəndi sumerlərlə əlaqələndirərək yazır ki, Orta Asiyadakı Sumerkəndin (Səmərqənd) coğrafi və tarixi abidələri onun Sumer xalqının təşəkkül tapdığı və yayıldığı mərkəz olduğunu sübut edir. Sumerkəndlilərin elamlılarla və Sumerlilərlə eyni irqə mənsubluğu heç bir şübhə doğurmur, ona görə ki, müasir dövrə qədər də hər iki xalq eyni tayfa birliyi olan Sumer adlarını daşımaqdadırlar. (Yusif Ziya Özer. 1932. Səh. 6)

Z.V.Toqan Əfrasiyabın batı ölkələrinə doğru yürüşündən bəhs edərək yazır: "E.ə. VII əsrdə yaşayan Sak hökmdarı olaraq qəbul etdiyimiz Alp Ər Tunqa – Əfrasiyab İtil (Volqa) çayı tərəfdən gələrək Dəmir qapı Dərbənd üzərindən Ön Asiyaya keçmiş, oradan İran və Xorasan yolu ilə Buxara ətrafındakı Baykəndə və Çu hövzəsinin yuxarı tərəflərində yerləşən Koçunqar Başı məntəqəsinə doğru gəlmişdir. Oğuz xanın səfərləri də eynən buna bənzər şəkildə baş vermişdir. İran rəvayətlərində Əfrasiyabın əsas qərərgahlarından biri kimi bəhs edilən Koçunqar Başı Qaraxanlılar zamanında da hökmdarların çox sevdikləri yaylaqlar idi. (Z.V.Toqan, 1981, Səh. 160 )

Turanın əzəmətli xaqanı Əfrasiyab öz ölkəsində quruculuq işləri həyata keçirmiş, çoxlu şəhərlər salmış, suvarma şəbəkələri yaratmışdır.

Mahmud Kaşğari Barçuk şəhərinin Əfrasiyabın qurduğunu yazır. Türk oymaqlarından çaruklar bu şəhərdə yaşayırlar. Onun yazdığına görə Əfrasiyab qızı ilə gizlincə sevişən Buxtun Nəssərin (Assuriya kralı Navuxodonosor) oğlu Beyzəni (Betzən) bu şəhərdə həbs etmişdir. (Mahmud Kaşğari, cild I, 2006, Səh 453)

Şahnamədə Əfrasiyabın həmin qızının adı Minujən, onunla sevişən və həbs olunan isə Giv oğlu Bijəndir. Buxtun Nəssər, yəni Navuxodonosor e.ə. VII əsrdə yaşamışdır və bu hadisə Əfrasiyabın həmin dövrdə yaşadığını sübut edən tarixi bir faktdır. Göründüyü kimi Firdovsi təkcə türk tarixini deyil, ərəb tarixini də farslaşdırmışdır. Kaşğariyə görə türklərin bir çoxu türklərin sərhəddinin Mərv əş-Şahicahandan başlandığını iddia edirlər, Mərv şəhəri də Əfrasiyab tərəfindən bina edilmişdir və Yenikənddən başlayaraq bütün Mavəraünnəhr (Çayarxası) və şərqə doğru ərazilər türk ölkəsidir, ona görə ki, Səmərqəndə Səmizkənd, Şaşa Daşkənd deyildiyi kimi burda Özkənd, Tünkənd şəhərləri də mövcuddur ki, onların hamısının adında türkcə şəhər demək olan kənd sözü var. Qədimdən türklərin saldığı bu şəhərlərin adları bu günə kimi də türklərin qoymuş olduqları şəkildə işlənməkdədir. Çoxsaylı köçlər nəticəsində bu şəhərlərdə farsların sayı çoxaldıqdan sonra buralar əcəm şəhərləri kimi qəbul edilmişdir. (M.Kaşğari, cild III, 2006, Səh. 151)

Mahmud Kaşğari Əfrasiyabın, əslində, Türklərin ulu xaqanı Alp Ər Tonqa olduğunu türklərin onun ölümünə həsr etdikləri bir ağı/yuğ ilə də təsdiq edir. Onun

öz əsərində təqdim etdiyi bu yuğ (ağı) şeir parçaları Azərbaycan və Anadolunun ilk fatehi olan Alp Ər Tonqa haqqında mövcud olan dastanın bəzi parçalarıdır. Əfrasiyabın ölümü ilə əlaqədar dastanın son bölümünü əks etdirən dördlüklərdən ibarət bu şeir parçaları XI əsrdə yazıya alınsalar da, daha qədim dövrlərə aid yaradıcılıq nümunələridir. Mahmud Kaşğari uzun illər ərzində türk ölkələrinə etdiyi səyahətlərdə Alp Ər Tonqa haqqındakı məlumatları və onun haqqındakı dastandan parçaları toplayaraq öz əsərinə daxil etmişdir.

Fransız tarixçisi və assuroloqu F.Lenorman yazır ki, assuroloqların araşdırmaları nəticəsində məlum olduğuna görə qədimlərdə iskit/sak adlandırılan altay irqinə mənsub turanlılar ari və samilər gəlmədən öncə Asiyanın əksər ərazilərində hakim olmuş və burda ilk mədəniyyəti yaratmışdılar. Samilər və arilər çoban həyatı yaşadıqları zamanlarda Yafəsin yerləşdiyi Asiya əraziləri artıq turanlılar tərəfindən mədəniləşdirilmişdi. (Lenormant F. 1895, Səh. 190)

Saklar, turlar, kəngərlər Turan dövlətinin əsasını təşkil edən əzəmətli türk boyları idi. Ona görə də Turan dövləti həmin boyların adı ilə bəzən Sak və Kəngər/Kanqlı adı ilə də adlandırılırdı.

III əsr Roma tarixçisi Mark Justin öz əsərində Pompey Troqa istinad edərək iskitlərin Asiyanın ən qədim xalqı olduğu və onun Misirdən, Yunanıstandan və Romadan daha qədim tarixə malik olması fikrini irəli sürür, iskitlərin qədim çarlarının adını qeyd edir. Troqa görə iskitlər şimal ərazilərindən gələrək Asiya üzərində üç dəfə hökmranlıq etmişlər. Onların axırıncı hökmranlığı m.ö. VII əsrdə baş vermişdir. Pompey Troqun Asiyanın tarixi ənənələri haqqındakı bu qeydlərinin gerçəkliyi elmi kəşflər nəticəsində etibarlı dəlillərlə təsdiq edilməkdədir. Pompey Troqun yazdığına görə iskitlər Herodotun güman etdiyi kimi 28 il deyil 1500 il Asiyada hökmranlıq edərək buranın qüdrətli hökmdarlarını onlara xərac ödəməyə məcbur etmişlər. (Юстин Марк. книги I-II, 2005)

Oppert, Rauilson, Norris, Lenorman və s. kimi XIX əsrin görkəmli tarixçiləri turanlıları çox zaman ümumi adla sak, dillərini də sak dili adlandırırdılar. Daranın Bisütun kitabəsi üç dildə yazılmışdır. Onun ikinci mətni qədim öntürk dilində yazılmışdı ki, o tarixçilər həmin dili sak və ya midiya-sak dili adlandırırdılar.

Qədim Turan etnosunun əsas tərkib hissələrindən birini təşkil edən As boyu Türklərin tarixində önəmli rol oynamışlar. Aslar sak türklərinin qərbə doğru yürüşlərində iştirak edərək hakim təbəqənin önəmli bir qolunu təşkil edirdilər. Sakların ordu birləşmələrinin tərkibində malik olduqları bu önəmli mövqelərinə görə saklar qədim mənbələrdə onların adı ilə ümumi şəkildə Asquz və ya Askişi adlanırdılar. Uzun əsrlər boyunca öz varlıqlarını qoruyub saxlayan As tayfaları bir çox türk xalqlarının etnogenezində müəyyənedici rol oynamışlar.

Göytürklər hakimiyyəti dövründə onların Azkiş/Askiş, yəni Az-kişi adıyla mühüm rol oynadıqları tarixi qaynaqlardan məlumdur. Azkişlər Hind sərhədləri yaxınlığında Kayı yabquları yanında da daima yüksək vəzifələrdə olmuşdular. Asların Alan adlı rəisləri Hun hökmdarı Mao-tunun dövlətində onun ən yaxın çevrəsini təşkil edən dörd qəbilədən biri kimi Çin qaynaqlarında təsbit olunmuşdur. (Z.V.Toqan, 2013, Səh. 126, 142)

As etnoniminin qədim Misir, Babil və Assur qaynaqlarında dəfələrlə əks olunması onların da sumerlərlə birlikdə Ön Asiyadan köçə məruz qalaraq dünyanın bir çox ərazilərinə, o cümlədən Mərkəzi Asiyada məskunlaşdıqlarını sübut edir.

Alman tarixçisi A.Qutşmid yazır ki, Makedoniyalı İsgəndərin dövründə Orta Asiyada Yaksart çayı İranın hakimiyyəti altında olan ərazilərlə orda məskunlaşmış saklar arasında sərhəddi təşkil edirdi. Bu saklar tarixdə ilk rast gəlinən türk xalqını təşkil edirdilər. Sakların krallarının qardaşının adı Kartasis idi, bu ad türkcə qardaş deməkdi. İranlılar Okus çayı vadilərindəki çöllərdə yaşayan və onların irsi düşmənləri olan bu turanlı saklardan çox qorxurdular. (Alfred Gutschmid. 1888, Səh. 2)

Turanlı Saklar qədim mənbələrdə Türk adının qədim deyiliş forması olan Turşa, Turska, Turukka kimi bir birinə bənzəyən adlarla qeyd olunmuşlar. Turshalar e.q. II minilliyin ikinci yarısında Misirə hücum edən və qədim müəlliflərin "dəniz tayfaları" adlandırdıqları tayfalardan biridir. Tursha adı iki tərkibdən ibarətdir, Tur-sha. Tur türklərin ənənəvi eponimi, "sha" isə sak kəlməsinin qarşılığı, daha doğrusu, Tursak adının dəyişik formasıdır. Avesta Hindistanın sanskrit dilinə çevrildiyi zaman Tur adının qarşılığı kimi Turuşka adından istifadə olunmuşdur. Bu onu göstərir ki, hindlilər Sakları Tursak adlandırmışlar. (Adile Ayda, 1987, Səh. 156-157)

Romalılar Etruskları Turska, Misirlilər isə turanlı dəniz xalqını Turşa adlandırdılar ki, bu adlar da Tursak adının təhrif olunmuş şəklidir. Turlar və saklar eyni xalqa verilən müxtəlif adlardır və bəzən bu iki adı birləşdirib Tursak şəklində ifadə edirdilər.

Turlar Əfrasiyabın hökmdar olduğu Turan dövlətinin aparıcı etnik ünsürünü təşkil edirdilər və hakimiyyət sülaləsi onlardan təşkil olunduğundan dövlət onların adı ilə Turan dövləti adlanırdı. Türk tarixində dövlətin hakimiyyət sülaləsini təşkil edən boyun adı ilə adlanmasını əks etdirən çoxlu misallar mövcuddur. Kəngər dövləti, Bulqar dövləti, Xəzər dövləti, Eftalitlər dövləti, Hun dövləti, Türkeşlər dövləti, Karluq dövləti və s.

Avestada köçəri xalqların ərazisi olan Aryanamvayca Turan ərazisini təşkil edirdi və onunla Aryaşayana (Arilər ölkəsi) arasındakı sərhəd farsların Datya adlandırdıqları Amudərya çayı idi. Turan ölkəsinin adı Avestada çox zaman Aryanam-vayca şəklində ifadə olunurdu və bu ərazi arilərə aid deyildi. Aryanam-vayca, yəni Turan ərazisində ən böyük tayfa birliyi turlardan ibarət idi. Turların mərkəzi Kanxa-Kanqlı adlanırdı və Əfrasiyab turların hakimiyyət sülaləsinə mənsub

idi. Saklar və dahalar turlarla birlikdə Turan ölkəsinin başlıca tayfa birliklərini təşkil edirdilər. (Вайнберг, 1999, Səh. 206)

Avestada Turan dövləti tərkibindəki türk boylarının adları dəyişikliklərə məruz qalmış, iranlılaşdırılaraq təhrif olunmuş və ari tayfaları kimi təqdim olunmuşdur.

Avestada insanların dini və ya kult ittifaqını ifadə etmək üçün "aryaman" terminindən istifadə edilir, lakin bu termin təkcə ariləri deyil, ümumiyyətlə, insanların tayfa birliyini ifadə edir ki, bu ari olmayanlara da şamil edilirdi.

"Farvardin yaşt"da Orta Asiya və Qazaxıstanda məskun olan köçəri xalqların adları əks olunmuşdur, bunlar sıra ilə airyana, tura, daha, sairima və kainadır. Avestanın təqdim etdiyi bu etnonimlər bəzi iranşünasların iddia etdiyi kimi iranlı ariləri deyil, bu ərazidə yaşayan və iranlı olmayan Orta Asiyanın Şimal-Şərqi regionunda məskunlaşmış və əcdadların ruhuna etiqad edən tayfaların və əyalətlərin siyahısıdır. Beləliklə, Farvardin yaştada bəhs olunan və Turanın qədim boylarını təşkil edərək bir-biri ilə qonşuluqda yaşayan bu tayfalararı nəzərdən keçirək:

**1.** Airyana-Ariaklar e.ə. I minilliyin ikinci yarısından eramızın I minilliyinə qədər sabit şəkildə Sırdəryanın deltasında həyat sürmüşlər. Ptolomey onları e.ə. I əsrdə hələ də Sırdəryanın aşağı axarında yaşayan köçəri tayfa kimi təqdim edir.

Ptolomey və Strabonun yazdıqlarına görə Oks çayının qarşı tərəfində və Yaksart çayının sol sahilində Ariaka ölkəsində "ariaka" tayfası yaşayırdı ki, bu sözün türkcə mənası "çay arxasında olan" deməkdir. Bu sözü ari tayfasının adı ilə əlaqələndirənlərin iddialarına rəğmən, sözün mənasından da göründüyü kimi ariaklar türk tayfaları idilər. Bu gün də Amudəryanın sol sahilində yaşayan Xarəzm vilayətinin özbəkləri sağ sahilində yaşayan özbəkləri ariyaklar və ya ariakdakilər, yəni "çay arxasında olanlar" adlandırırlar. Yunanca Transaksoniya və ərəbcə Mavərənnəhr adları da bu sözdən yaranaraq mənaları eynilə çay arxasında olan deməkdir. (Страбон География, Книга XI, )

"Ariaka" türkcənin arqa-yaq sözündən olub qarşı tərəf, arxa tərəf "arxa yaxa" deməkdir ki, Ptolomey bunu yunan dilinə uyğun şəkildə ifadə etmişdir. (*Древнетюркский словарь.* 1969, Səh. 53, 237)

**2.** Dahalar da Sirdəryanın deltasında ariakların qərbində yaşayırdılar. Arxeoloji tədqiqatlar Dahaların bu ərazidə e.q. VII-II əsrlər arasında məskunlaşdıqlarını təsdiq edir. Sırdərya deltasının quruması ilə əlaqədar dahaların bir hissəsi e.ə. III-II əsrlər ərzində cənuba doğru Parfiya sərhədlərinə köç etmişlər. Yerdə qalan hissəsi isə digər sak tayfalarına qarışmışlar.

Mifalogiyanın görkəmli tədqiqatçısı Mirçi Eliade Rumıniya Daki tayfaları haqqında bəhs edərkən onları sakların bir qolu olan daha tayfaları ilə əlaqələndirərək yazır: "Qədim zamanlardan dahalar (daklar ) özlərini "qurd" və ya qurda bənzər adlandırırdılar. Strabon da Xəzər arxası sakların "dai" adlandırır. Onların etnik adları böyük ehtimalla iran dilindəki "dahae" qurd sözündəndir. Qurd isə ən qədim zamanlardan türklərin totemi, ulu əcdadı və onlara yol göstərən olmuşdur.



3. Turların məskunlaşdığı ərazilər Sırdəryanın orta axarından başlayaraq şərqə doğru dağlıq ərazilərdir. Tədqiqatlar göstərir ki, bu ərazilər turların oturaq və yarım köçəri məskənləridir. Aşkar edilən arxeoloji abidələr və üzərlərində bığlı balballarin quruldugu kurqanların yayılma arealını nəzərə alsaq, turların mövsimi otlaqlarının Mərkəzi Qazaxistana qədər geniş bir sahəni əhatə etdiyini görürük.

4. Sayrimlər-Markvart və bir çox tədqiqatçılar sayrimləri sarmatlarla eyniləşdirirlər. Lakin bu mübahisəli məsələdir. Bu etnonimi iran dillərinə əsasən izah etməyə cəhd göstərən V.İ.Abayev onu "sairiama" və "arya-raman" şəklində şərh edərək iran dillərində guya "arilərə sülh gətirən" mənasında olduğunu iddia edir. Çin mənbələrinin verdiyi məlumata görə e.q. II əsrin əvvəllərinə qədər yuxarıda qeyd etdiyimiz bu tayfaların yaşadığı regionin qonşuluğunda Yeddisu və Tyanşan ərazisində tədqiqatçıların sak kimi qəbul etdikləri "say" adlı tayfa yaşamışdır. E.q. bu sak Sayramlar usunlar tərəfindən sıxışdırılaraq öz ərazilərindən çıxarılmışdır. Sayrimlərin Avestaya əsasən yaşamış olduğu ərazidə indi də Sırdərya vadisində Sayram şəhəri, Yeddisu vadisindəki İli çayı mənbəyində Sayram gölü mövcuddur. Bu hər iki toponim "say" türk tayfasının tarixən yaşamış olduğu ərazidir. Say boyu sakların tayfa birliyinin əsas tərkib hissələrindən birini təşkil etməklə sonradan Sak tayfa birliyinin tərkibində Qara dənizin quzeyində məskunlaşmışdılar. (Вайнберг. 1999, Səh. 208)

Saylar Çin salnamələrində saklara verilən addır. M.Kaşğari Sayram sözünün türkcə dayaz çay mənasında olduğunu yazır. Yəni digər türk boyları kimi Say boyunun məskunlaşdığı ərazi çay sahillərini təşkil edirdi. Çin tarixi ədəbiyyatında say (çu, su) tayfaları haqqında məlumatlar mövcuddur. Tədqiqatçılar bunu çinlilərin saklara verdiyi ad kimi qəbul edirlər və "sai"nin sak sözündən törəyərək onun ilk hecasını təşkil etdiyini yazırlar.

5. Kaina fikrimizə görə çin mənbələrində kanqyu adlanan kanqar/kəngər boy adının Avestada təhrif olunmuş şəklidir.

Şahnamədə Əfrasiyab əfsanəvi Turun nəvəsidir, turlar ilkin dəmir dövründə, yəni təxminən e.q. VII əsrdə Orta Asiya və Kazaxıstanın şimal-şərq ərazilərində köçəri və yarımköçəri tayfaları öz rəhbərliyi altında birləşdirərək Turan adlı möhtəşəm bir dövlət yaratmışlar. Avestanın "Farvardin-Yaşt" bölümündə adları çəkilən sayrim, ariyaka, daha tayfaları turların rəhbərliyi altında birləşən həmin tayfalardır. E.q. III əsrdə Aralın şərqində, Karatau dağlarının şimalında və Sırdəryanın orta axarı mərkəz olmaqla Turan ərazisində Çin xronikalarında adı Kanqyu kimi qeyd olunan dövlət mövcud olmuşdur. Kanqyu Kanqlı/Kəngər adının çin dilində ifadə formasıdır. Eramızın ilk əsrlərinə qədər mövcud olan Kanqyu dövləti Turan dövlətinin davamı kimi Əfrasiyab və onun hakimiyyət sülaləsi haqqın-

da ənənələrini yaşatmış və bu ənənələr sonrakı Türk dövlətləri olan Qaraxanlılar, Səlcuklular və Uyğur hakimiyyət sülalələri tərəfindən davam etdrilmişdir.

Turan, əsasən, türklərin vətəni olsa da, burda qeyri türklər, o cümlədən soqdlar da yaşayırdılar. Əfrasiyabın və övladlarının hakimiyyət sürdüyü Turan Şahnamədən və digər mənbələrdən göründüyü kimi dövlətlər konfederasiyası idi. Sak, Kanq, Hotan, Eftalit, Kuşan, Daha kimi dövlətlər bu birliyə daxil olub Əfrasiyabın başçılığı altında İranın təcavüzünə qarşı birgə mübarizə aparırdılar. Saklar, massagetlər, kanqlar, sarmatlar, parflar, eftalitetlər də etnik mənşə baxımından turanlılar adlandırılırdılar.

Avestada bəhs edilən Turan tayfalarından biri də hyaunlardır. Əfrasiyabın oğlu Ərcasp İran qaynaqlarında turanlı bir tayfa olan hiyunlarin, yəni xionitlərin hökmdarı kimi göstərilir. Avestada adı Hiyun kimi qeyd olunan xionitlər türk, hun və ağ hunlar kimi qəbul olunurlar. Zərdüşlüklə düşmən münasibətdə olub, mübarizədə məğlub olaraq Türkistanın içərilərinə doğru geri çəkilən Ərcasp e.q. 563-cü ildə ölən Zərdüştlə müasir idi.

Avestanın Yaştlarında Kavi Viştasp düşmənləri və divlərə ibadət edən "hyauna" zalimi Ərcasp və onun qardaşı haqqında bəhs edilir. "Hyauna"lar Avestada turların qonşuluğunda yaşayan xalqdır E.Herzsfeld onları ortaasiyalı "xionit"lər adlandırır. "Hyauna"ların, yəni xionların Avestada adları çəkilməyən sakların bir qolu olması mümkündür". (Вайнберг, 1999, Səh. 210)

"Ard Yaşt"dakı Aşi himnində "çox müdrik Viştasp" "xiyon zalimi" yalançı Arcasp və ucu şiş dəbilqələr qoyan digər xiyon qəhrəmanları üzərində qələbə çalması üçün Data (Amudərya) çayı kənarında dua edir. "Xiyon zalimi" Ərcaspın qardaşı xiyon rəhbəri Vandarmaniş də öz növbəsində "əzəmətli Viştaspa" qalib gəlmək və yüzlərlə ari əsgərini məhv etmək üçün Varakşa (Aral) dənizi kənarında Ardvi Suraya dua edir. (С.Г.Кляшторный. Султанов Т. И. 2009, Səh. 13)

Ərcasp və Vandarman adlarının etimalogiyasına gəldikdə Vandarman adı türkcə Öndərmən adının, Arcasp isə Erjapsa adının fars dilində təhrif olunmuş formalarıdır.

Hyaun adı çin mənbələrindəki Hyung-nu adının, yəni hun adının Avestada fars dilinə tərcümədə təhrih olunmuş şəklidir. Onlar tarixdə "Ağ hunlar" adı ilə məlumdur.

Alman tarixçisi F.Althaym Avestada bəhs olunan xionları Eftalitlərlə eyniləşdirərək onların türk mənşəli xalq olduğu fikrini müdafiə edir. Onun fikrinə görə xionlar xalqın ümumi adı, eftalitetlər isə onların hakimiyyət sülaləsinin adıdır. O Eftalitlərin dilindəki iran mənşəli sözlərin uzun illər ərzində öz əsarətləri altında saxladıqları iranlıların təsiri nəticəsində yarandığını yazır. "Eftal/Yaptal" etnomini o türkcə yapmaq, yaratmaq, etmək mənasında "yap" felindən və "til" şəkilçisindən ibarət "yaradan", "quran" demək olduğunu yazır. (F.Altheim. 1959 )



Eftalitləri "ağ hun"lar olaraq da qəbul edirlər. Qədim türk xalqlarından olan eftalitlərin adı Azərbaycan və Anadolu türkləri içərisində "abdal", "avdal", "abdallı" şəklində boy adları olaraq öz mövcudluğunu günümüzə qədər qoruyub saxlamışdır. Eftalit və ya Ak hun dövləti güclənib həm Sasanilərə, həm də Göy türk dövlətinə təhlükə törətdiyindən 710-cu ildə hər iki dövlətin birləşmiş qüvvələri tərəfindən dağıdılaraq ortadan qaldırılmışdır.

İranlı adlandrılan hind-arilərin Orta Asiyaya gəlmələri burda yüz illər ərzində davam edən İran-Turan müharibələrinə səbəb olmuşdur. Əhəmənilər dövründə turanlı midiyalılardan hakimiyyəti xəyanət yolu ilə zəbt edən arilər Midiya ərazisinin şərq sərhədlərini təşkil edən Orta Asiyadakı Turan dövlətinin ərazilərini ələ keçirmək üçün hərbi yürüşlər təşkil edirdilər.

Əhəməni Kirin hökmranlığı dövründə Turan hökmdarı Massagetlər boyuna mənsub Tomris idi, bəzi müəlliflər Tomrisi Əfrasiyabın nəvəsi adlandırırlar. Kir massagetlərin hökmdarı Tomrislə mübarizədə e.q. 530-cu ildə məğlub olaraq öldürülmüş və iranlı Əhəməni hökmdarlarının basqınlarının qarşısı bir müddət alınmışdır.

Əfrasiyabın türk mənşəyə malik olması bir sıra rus tarixçiləri tərəfindən də təsdiqlənməkdədir. Pyankovun yazdığına görə Turanlıların adlarının bir çoxu, o cümlədən Əfrasiyab adının iran dilləri əsasında izahı mümkün deyil. Əfrasiyabın özü də arilərin başa düşmədikləri bir dildə danışırdı. Bu Turan elitasının öz doğma dillərini qoruyub saxladıqlarını göstərməkdədir. Əfrasiyabın Turan dövlətinin ərazisi Amudərya və Sırdəryanın aşağı axarlarındakı Kanq və Kattan başlayaraq Çin ölkəsinə və Çin dənizinə qədər olan geniş sahələri əhatə edirdi, Əfrasiyabın paytaxtı isə Sırdərya çayından cox uzaqlarda, Şaş və İsficabın arxasındakı Kanq şəhəri idi. (И. В. Пьянков. 2012, Səh. 602-606)

Qədim İran qaynaqlarına əsaslanan Biruni, Nəsəfi, Təbəri və Narşahi kimi müəlliflər qədim Turan dövlətinin sərhədlərinin Məşhəd və Səraxs şəhərlərinin ortasına qədər uzandığını qeyd edirlər. Onlar bu ərazinin ortasında Məzduran, yəni Turan sərhəddi anlamında Mərzi Turanın mövcud olduğunu yazırlar. Bu o deməkdir ki, bir vaxtlar Turan Türk dövlətinin sərhədləri daxilində olan Maveraunnəhr və Xorasan sonradan Əhəmənilər tərəfindən işğal olunmuşdur.

Masalik al-Absar adlı əsərdə Turan coğrafiyası daha geniş bir biçimdə təqdim olunaraq Volqa çayı Turan çayı adlanır və Turanın qədim hökmdarlarının yay iqamətgahlarının Ark dağ adlandrılan Ural dağları olduğu qeyd olunmuşdur. ("Türk və Turan Tarihi", www.kıbrıs1974.com)

Sak türkləri sovet dövründə tarix elminin ideoloji silaha çevrildiyi bir şəraitdə iran mənşəli bir etnos kimi qələmə verilmişdir. Lakin Avropa tarixçilərinin bir çoxu qədim mənbələrə əsaslanaraq sakların türk mənşəli xalq olduğunu təkzib edilməz faktlarla sübut etmişlər.

Antik dövrün bir çox tarixçiləri kimi Bizans tarixçisi Menandr da, türklərlə sakların eyni xalq olduğunu qeyd edərək yazır: "Qədimlərdə saklar adlanan türklər sülh təklifi ilə çar Yustinə elçi göndərdilər. Türklər Bizans elçisi Zimarxı qəbul edərkən şər ruhları qovmaq üçün sak/iskit dilində sözlər söyləyərək onu alovun içərisindən keçirib atəşlə pak etmə ritualından sonra onu xaqan Dizavulun "Akdaq" adlı qızıl dağda yerləşən çadırına gətirdilər. (Менандр Протектор. История. 2002. Səh. 157-164 )

Əfrasiyabı sak hökmdarı kimi təqdim edən Z.V.Toqanın yazdığına görə Ön Asiya səfərində Midiyalılarla hakimiyyət uğrunda mübarizədə həlak olan Saka Türk qəhrəmanı Alp Ər Tonqanın ölümünə ağı qoşaraq əsrlər boyunca xatirələrdə yaşamışlar. Bu ağıdan göründüyü kimi İranlılar Səyavuşun Baykənddə öldürülməsinə hər il matəm saxladıqları kimi türklər də Türkistanda, Anadoluda və Azərbaycanda iranlılar tərəfindən öldrülən Alp Ər Tunqaya – Əfrasiyaba matəm saxlamışlar. (Z.V.Togan. 1981, Səh. 3)

Əfrasiyab dəfələrlə iranlıların məskunlaşdığı əraziləri ələ keçirib onların taxttacına sahib olmuşdur. Onun son olaraq İranda taxt-tacı ələ keçirib hakimiyyət sürməsi on iki il davam etmişdir.

Təbərinin nəğl etdiyi rəvayətə görə Zev bin Tahmasp Əfrasiyabı Fars ölkəsindən Abenman ayının ruzi abanında (Aban ayı İran hicri-şəmsi təqviminin 8-ci ayı; 23 oktyabr-21 noyabr) çıxarmışdır. Buna görə də Farslar bu günü tarixi bayram – Qurtuluş günü kimi qeyd edirlər, çünki məhz həmin gün onlar Əfrasiyabın on iki illik zülmündən xilas olmuşdular. Bu bayram Farsların Novruz və Mehrican bayramları ilə yanaşı üçüncü böyük bayramlarıdır. (Təbəri, C. II, 1991, Səh. 650)

Şahnamədə də Keyxosrov başçılıq etdiyi iran qoşunu Əfrasiyabı Orta Asiyadan təqib edərək onu Azərbaycanda ələ keçirməyə nail olur. Əfrasiyab Saekasta, yəni Urmiya gölü yaxınlığındakı dağda mağara içərisində düzəldilmiş və adına Həngi Əfrasiyab deyilən yeraltı sarayına sığınmışdı.

Firdovsi Şahnaməsində digər mənbələrdə davam edən uzun mübarizə və təqibdən sonra Əfrasiyabın Keyxosrov tərəfindən hiylə ilə ələ keçilərək Çiçəst gölündə, yəni Azərbaycanın Urmiyə gölündə öldrüldüyü yazır.

Şahnamədə Keyxosrov kimi təqdim olunan Midiya hökmdarı Kiaksar Madiyə, yəni Əfrasiyaba hiylə quraraq onu qədim adı Saekasta (Sak gölü) adlanan Urmiya gölü yaxınlığında təşkil etdiyi ziyafətə dəvət edərək içirdib sərxoş etmiş və yoldaşları ilə birlikdə qətl etmişdir. Bununla da Kiaksar Madi tərəfindən döyüşdə öldürülən atası Kaştaritinin intiqamını almışdır. Kiyaksarın Əfrasiyabı öldürməsini qədim mənbələr e.ə. 626-cı ildə baş verdiyini yazırlar. Şahnamədə bu gerçək tarixi hadisə İran şahı Keyxosrovun atası Siyavuşu öldürən Turan padşahı Əfrasiyabı yenə hiylə yolu ilə ələ keçirərək qətlə yetirməsi şəklində öz təsvirini tapmışdır.

Əfrasiyab – Alp Er Tonqa haqqındaki İran rəvayətlərində də onun həyatının



Urmiyə gölündə sona çatdığı nəql edilir. Bu rəvayət qədim türklərdə ölülərini suda/çayda batırmaqla dəfn etmə adətlərini xatırlatmaqdadır. Biruni və digər müəlliflər Əfrasiyabın öldrülməsi nəticəsində İran şahlarının onun əlindən xilas olmasını iranlılar tərəfindən hər il tiremah ayının 13-də (23 iyun) "Tireqan" bayramı kimi şənliklərlə qyd etdiklərini yazırlar. (Orhan Şaik Gökyay. Divani Lüğətit Türk və Alp Ər Tonga)

X əsr tarixçisi Narşahi Əfrasiyabla Keyxosrov arasında baş verən hadisələri bir az fərqli biçimdə təsvir edərək yazır ki, Keyxosrov atası Səyavuşun intiqamını almaq üçün Əfrasiyabın sığındığı Ramitan qalasını iki il mühasirədə saxlamış və onun qarşısında, yəni çayın o biri sahilində Ramuş qəsəbəsini salmışdır. Keyxosrov Ramuşda Samanilər dövrünə qədər qalan bir atəşpərəst məbədi də tikdirmişdir. Uzun mühasirədən sonra Keyxosrov Əfrasiyabı öldürə bilmişdir. (Наршахи Мухаммед, 1897, Səh. 24)

Turan padşahı Əfrasiyab öldrüldükdən sonra dəfn edildiyi məzar türbəsinin Buxaranın Mabid qapısı yanında bir təpənin üzərində müsəlman müqəddəslərindən Xoca Əbu Hafizin məzarı yaxınlığında yerləşdiyini yazan Narşahiyə görə bu qapı öz adını şəhərin ərəb valilərindən Mabid-ül Hayldan almışdır. (Мухаммад Наршахи. История Бухары. Ташкент. 1897. Səh. 34)

Sasanilər dövrünün hökmranlıq təsəvvürlərinə görə dünya üç hissəyə bölünmüşdü, batı əraziləri Hrom/Roma, ortada İran, onun quzey-doğusunda isə Sasanilərin daima mübarizə vəziyyətində olduqları türklərin yurdu olan Turan yerləşirdi və sasanilər qədim tarixi ənənəyə uyğun olaraq bu ərazini öz gerçək adı ilə adlandırırdılar.

Böyük Turan dövləti süquta uğradıqdan sonra tarixin çeşidli dövrlərində onun əhatə etdiyi ərazilərdə bu dövlətin varisləri olan və müxtəlif adlarla adlanan dövlətlər təşəkkül tapmışdır. Həmin qədim türk dövlət təşkilatlarından biri də Xarəzm dövləti idi.

Biruninin yazdığına görə Xarəzmlilər öz tarixlərini Makedoniyalı İsgəndərin gəlməsindən 980 il öncədən, yəni e.ə. 1292-ci ildən, Keykavusun oğlu Siyavuşun Xarəzmə gəlməsi ilə başlayırlar.

Rus-sovet tarixçisi L.Tolstov IV-III minilliklərdə Xarəzmin Orta Şərqin qədim mədəniyyətləri ilə şimalın hiberboreya ərazisi arasında bağlayıcı rola malik olduğunu yazırdı. (С.П.Толстов. 1948, Səh. 10-11)

Qədim Turan ərazisində mövcud olmuş qüdrətli imperiyalardan biri türklərin Day tayfasına mənsub aparn boyunun Arsaq sülaləsi tərəfindən qoyulmuş Parfiya olmuşdur.

Ön Asiyada və İranda hakimiyyət mənşə etibarı ilə Sak sülaləsi olan Arsaqların (e.ə. 250-eramızın 226-cı illəri) əlinə keçmişdir. Sülalənin banisi Arsaq eramızın XIII əsrində olduğu kimi e.q. III əsrdə də, Oqurca yaxınlığında Amudəryanın Xə-

zər dənizinə töküldüyü Sarıqamış körfəzinin aşağısında, indiki Aday/Adağı boyunun yerləşdiyi yerlərdə yaşamış heyvan bəsləyən köçəri Dahae (Day) tayfasının Aparn/Parn və ya Baran qəbiləsinə mənsub idi. Strabon Dahalar haqqında onların dilinin və adətlərinin iskitlərlə eyni olduğu üçün qonşuları üzərində hakimiyyət sürə bildiklərini yazır. Onun yazdığına görə Arsaqın işi çətinə düşəndə müttəfiqləri olan Apasiak və Aslara, yəni as və apasaklara sığındığını yazır. Burdan məlum olduğu kimi Arsaqın güc mənbəyi iskit boyları, hədəfi isə iran tayfaları idi. Arsaqlar iranlı Partları (Parf) itaət altına alaraq adlarını da özlərinə tayfa adı qəbul etdilər və tezliklə Amudəryada və İnd çayından başlayaraq Ön Asiyadakı Fərat çayına qədər olan ərazidəki ölkələri fəth edərək Romanı da ağır məğlubiyyətə uğradıb böyük bir imperiya yaratdılar. (Z.V.Togan, 1981, Səh. 47-48)

Danimarka tarixçisi M. Nibur Z.V.Toqanın əksinə Parf adının iranlı deyil, türk mənşəli hesab edərək yazırdı: "Turandakı öntürklərin mühüm qollarından birini Saklar təşkil edirdi. Sak tayfalarına mənsub olan Dahalar da Turan mənşəli idilər, onların Aparn tayfasının adından Parn-Parf adı meydana gəlmişdir". (Nibuhr M. K. 1857, Səh. 182)

Sumerlərlə Turan dövləti arasında yuxarıda qeyd etdimiz bağlılıqla yanaşı, bu ərazi Ön Asiyanın digər qədim xalqlari ilə də tarixi bağlara malik olmuşdur.

S.Tolstov Xarəzm adı ilə Ön Asiyadakı hurri adı arasında bir bağlılıq olduğunu ehtimal edir. O Hurri/Mitanni hökmdarı Şauşatar ilə xarəzm hökmdarı Şauşafar adının heyrətamiz dərəcədə bir-birinə bənzədiyini qeyd edir. Mitanni allahı Şauşkaş xarəzm hökmdarı Şauşla eyniyyət təşkil edir. Mitanni kralı Artatama ilə xarəzm hökmdarı Artamux adları arsında bənzəyiş göz önündədir. Özbək dilində arpa sözü kanal deməkdir, protoxett dilində də arpa bulaq deməkdir. Tolstovun yazdığına görə Orta Asiya xalqlarının Ön Asiyanın yafetik dilli qədim xalqları ilə etnoqrafiq əlaqələri qədim hind-avropaya qədərki dövrün dərinliklərinə dayanır. Xarəzm adının "Hvari/Hvarrıni adı ilə əlaqəsini nəzərə almadan "hurri" problemini həll etmək mümkün olmaz. Akademik V.Struve də Moxencedaroda tapılan yazıları hurri tayfalarına aid edir. (С.П.Толстов. 1948, Səh. 82-83)

Turanın qədim əyalətlərindən biri olan Baktriyanın iranlı mənşəyə malik olmaları haqqında sovet tarixşünaslığında hakim bir baxış mövcud olmuşdur. Lakin ingilis assuroloqu Lekuperi Baktriya adının Ön Asiyadan köçüb burda yerləşmiş turanlı Bak tayfalarının adı ilə əlaqədar olduğunu və bu ölkənin qədim əhalisinin Bak tayfaları olduğunu sübut etmişdir.

Böyük ingilis assuroloqu Turanizm nəzəriyyəsinin banisi H.Rauilson yazdığına görə Baktriyanın əhalisinin əsasən saklardan ibarət olduğuna çox az şübhə vardır. Klassik müəlliflərin sak adlandırdıqları və Mərkəzi Asiyanın şimalına yayılmış Turan tayfaları arilər bu regiona gəlmədən çox öncələri Oksus çayının məhsuldar vadilərində məskunlaşmışdılar. Yustin də yazır ki, Baktriya dövlətini saklar yaratmışdılar. Strabon da köçərilərin həmin məhsuldar çölləri zəbt etdikdən sonra orda Sakistan adlı dövlət yaratdıqlarını qeyd edir. (Rawulinson C. 1912, Səh. 12)



Yuxarıda da qeyd edildiyi kimi Turan dövlətinin ərazisi Doğu Türkistan da daxil olmaqla, Xotandan başlamış, Azərbaycan da daxil olmaqla, Dəclə çayına qədər olan ərazini əhatə edirdi. Xotanın hökmdarı Piran da şəcərə cədvəlinə görə Turun nəslinə mənsub olub Əfrasiyabın vəziri və ən sədaqətli silahdaşı idi. Piranın adı türkcə Boran adının təhrif olunmuş şəklidir.

Tarixi hadisələrdən də göründüyü kimi Turanın ulu hökmdarı Əfrasiyab – Alp Ər Tonqanın da fəaliyyəti başlıca olaraq Azərbaycanla bağlı idi. Onun adı Sakların başbuğu Madi və Midiya hökmdarı Astiaqın adı ilə də eyniləşdrilir.

Bir çox Ərəb müəllifləri və o cümlədən Balami Azərbaycanı da Turan ölkəsinin sərhədləri içərisinə daxil edir. Bugünkü Bakı şəhəri ilə Quba arasında yerləşən Şabran şəhəri Əfrasiyabın Azərbaycan ərazisindəki mərkəzi şəhəri idi. Sonrada Şabran Əfrasiyabın qardaşı Aruz Qocanın paytaxtı olmuşdur.

Şabran Subir-an adının fonetik şəklidir, mənası subirlər və ya Subir ölkəsi deməkdir. Barsil tayfası bəzən iddia edildiyi kimi Xəzərlər dövründə deyil, əslində, e.ə. VII əsrdə iskit/sakların tərkibində gəlib Qafqazda və Azərbaycanda yerləşmişdilər. Onlar qədimdən hökmran tayfa idilər və Xəzər xaqanları yalnız onlardan qız alırdılar. Mirzə Bala "Azərbaycan tarixində Türk Albanya" adlı əsərində Herodotun "çar iskitlər" kimi bəhs etdiyi iskit hökmdarlar sülaləsinin barsillər olduğunu və onların bugünkü borçalı türklərinin əcdadları olduqlarını yazır. (Mirzə Bala. 1952, səh. 15)

Qədim mənbələrdə Cənubi Azərbaycandakı Qanzaq şəhərinin Turan padşahı Əfrasiyab – Alp Ər Tonqa tərəfindən inşa edildiyi yazılır. Bir sıra mənbələrdə Qanzakın Midiyanın ilk pytaxtı olduğunu, Strabon isə Qanzakı Atropatenanın yay paytaxtı olduğunu yazır. Key Xosrov Çayçast (Urmiyə) gölü yaxınlığında Əfrasiyabı öldürdükdən sonra Çeyçast yaxınlığındakı Turan tanrılarının məbədini də dağıdır və yerində atəşpərəstlərin Azərquşnəsp məbədi tikilir. (C.Касумова. 1983, Səh. 19)

Mahmud Kaşğari Azərbaycanda Əfrasiyab – Alp Ər Tonqa ilə əlaqədar yerlər haqqında məlumat verərək onun Barsqan və Bariman adlı iki oğlunun və Kaz adlı qızının olduğunu yazır. Əfrasiyab qızının Azərbaycanda oynadığı və ov etdiyi Kazsuvı adlı çayın sahilində bir qala salaraq orda yaşamış və həmin şəhər onun qızının adı ilə Qəzvin şəhəri adlanmışdır, bu sözün mənası Kazın oynadığı yer deməkdir. Qəzvinin yaxınlığında yerləşən Qum şəhəri də türk şəhəridir ona görə ki, qum türk sözüdür. (Mahmud Kaşğari, 2006, Cild III, Səh. 151) .

Turan dövlətinin adı tarixdən izsiz silinməmişdir. Turan dövlətinin süqutundan sonra onun əhatə etdiyi geniş ərazilərdə onun varisləri olan Turan adlı kiçik dövlətlər öz varlıqlarını qoruyub saxlamışlar.

Çox qədimlərdən İranın cənubunda böyük Turan dövlətinin əhatə etdiyi ərazi-

də Bəlucistanda, Sakestanla qonşuluqda paytaxtı Quzdar adlanan kiçik Turan mövcud olmuşdur. Bu Turan əyaləti hind-iran arilərinin Mərkəzi Asiyaya olan təcavüz və işğalları nəticəsində böyük Turan arealından ayrı düşərək öz varlığını qoruyub saxlamış və yabançı etnosların əhatəsində bir anklava çevrilmişdir.

Qədim Turan dövləti ərazisində öz varlığını qoruyub saxlamış Turan adlı kiçik dövlət indiki İranın güney-batısında, Belucistan adlı ərazidə uzun zaman ərzində mövcud olmuşdur. Alman tarixçisi G.Hüzinq yazır ki, qədim zamanlarda İranın şimalında və şərqində turanlı altay tayfaları yaşayırdılar.

Kirmanın fars əhalisi bir neçə yüz il öncə Belucistana soxulmuşlar. Orda bu günə qədər brahuilər yaşamaqdadırlar. Farslar oranın və eyni zamanda Mekranın əhalisini Turya və Turan adlandırmışlar.

Farslar Kirman da daxil olmaqla İran yaylasının qüzey ərazilərini işğal etdikdən sonra Turanın ucqar güney ərazisində yerləşən paytaxtı Quzdar olmaqla kiçik Turan dövləti adı ilə bir anklava çevrilmişdir. (Hüsing G. 1916, Səh. 13)

Turlar Çingiz xanın dövründə Turə boyu adı ilə Çingiz xanın ata tərəfdən birbaşa əcdadlarıdırlar və torələr "ağ sümük", yəni aristokrat təbəqəyə mənsubdurlar. Turələr sultan titulunda digər tayfalar tərəfindən onları idarə etmək üçün dəvət olunurdular. Bu fakt Turan padşahı Əfrasiyabın – Alp Ər Tonqanın soyundan olan Turələrin (Turların) hakimiyyət sülaləsi olduqları haqqında türklərin qan yaddaşında mühafizə olunmuş xatirələrin izlərini təşkil edir.

Tarixi ənənəyə uyğun olaraq öz sülalələrinin mənşəyini Əfrasiyaba bağlayanlar Qaraxanlılar, uyğur və səlçuqlularla məhdudlaşmamışdır. Əmir Teymur da öz dövlətini Turan dövləti adlandırırdı. Teymurilər sülaləsinin tarixçisi Şərəfəddin Əli Yəzdi Əmir Teymur dövlətinin də Turan dövləti adlandığını yazır, bu məlumat Kazaxıstanın Karsakpay mədənində tapılan və 1391-ci ildə cağatay dilində yazılmış olan bir kitabədə də Teymurun özünü Turanın sultanı adlandırması ilə də təsdiq olunur.

Tarixi Turan ərazisində mövcud olan və bu adın çoxsaylı toponimlərdə əks olunduğu digər bir ərazi türklərin ana yurdu olan Sibirdə yerləşirdi.

Sibirdəki Turan dövlətinin əsası Çingiz xanın oğlu Cuçi xanın 5-ci oğlu Şeybanı xana savaşdakı qələbələrinə görə kiçik qardaşı Batı xan tərəfindən verilmiş ərazilərdə Şeybaninin varisləri tərəfindən qoyulmuşdu. Əbülqazi Bahadur xan da "Türklərin şəcərəsi" əsərində əsası Çingiz xanın nəvəsi Şeyban xan tərəfindən Sibirdə qoyulmuş dövləti Turan dövləti adlandırır. Şeyban xanın varisləri tərəfindən idarə edilən Turan dövləti Taybuqa xanın dövründə güclü bir dövlətə çevrilərək Qızıl Orda xaricində müstəqil bir xanlıq olmuşdur. Taybuqa Kereyitlərin xanı Toğrul xanın (Van xan) oğlu idi və Çingiz xanın xüsusi himayəsi altında böyümüşdü. Taybuqa xan dövlətinin paytaxtını Çingiz xanın şərəfinə onun ata tərəfdən əcdadları olan turə boyunun şərəfinə Çinqi Tura adlandırmışdı. Toxtamış xanın dövründə Sibir xanlığı bütün Qızıl Orda ərazisini əhatə edirdi. Əmir Teymurun Toxtamışa qarşı mübarizəsi Sibir-Turan xanlığını xeyli zəiflətmiş və Rus knyazlıqlarının güclənməsinə səbəb olmuşdur.

Turan dövlətinin axırıncı hökmdarı XVI yüzillikdə 44 il hökmranlıq etmiş Kuçum xan olmuşdur. Paytaxtı Çinqi Tura (indiki Tümen) şəhəri idi. Turan dövlətini ataman Yermakın başçılığı ilə rus kazak qoşunu 1595-ci ildə işğal edərək mövcudluğuna son qoymuşdur. Turan xanlığının öz adını Sibirdəki Tura çayının adından götürüldüyü iddia edilir. Əslində isə istər çay adı, istər dövlətin adı və Sibirin güneyində Tur adı ilə mövcud olan çoxsaylı yer adları yüz illərlə burda mövcud olmuş Turan dövləti və turların adları ilə əlaqədardır. Bu Turan dövləti Şimali Qazaxıstanı, Omsk və Tümen vilayətlərini, Xakasiyanı qərbdə isə Başqırdıstan da daxil olmaqla böyük bir ərazini əhatə edirdi.

Assur mənbələrində haqqında bəhs olunan və turlar və ya quzlarla əlaqədar Quzar adlı digər iki bəylik dövlətindən biri Urmiyə gölünün şimalında, digəri isə Diyala və Dəclə çayları arasındakı ərazidə yerləşirdi. Adlarından da göründüyü kimi bu kiçik Turan dövlətləri turanlı quz/oğuz boyunun məskunlaşdığı ərazi olmuşdur.

Yəqin ki, qədim zamanlarda İranın şimal-şərqində turanlı altay tayfalar yaşayırdılar. Qədim zamanlarda Ardilanda da türklər məskunlaşmışdılar ki, Qızılbunda, Marunda və buna bənzər türk dilində olan qədim yer adları bunu sübut edir. Yaxınlıqdakı Qafqaz regionunda mövcud olan türk dili dialektləri də bunu təsdiq edir. Bu əraziyə gələn iran tayfaları onlara yabançı olan bu xalqların məskunlaşdığı ərazilərdən keçərək gəlmiş və onların bir çoxunu öz yerlərindən sıxışdırmışlar. (Georg Hüsing. 1916, Səh. 13)

Turan Doğu Türklərinə və Batı Türklərinə bölünür. Doğu türklərindən Altay, Sayan dağları, Sibirin güneyi, Monqolustan, Cunqariya, Çin ərazisində yaşayan türklər xarici təsirlərə az məruz qalmışlar. (Czaplicka M. 1918, Səh. 21)

Çex alimi Çzapliçkanın yazdığına görə etnoloji baxımdan yanaşılsa, İran türkləri əsl Turanlılardır, lakin onlar tarixin sonrakı gedişində iranlıların təsirinə məruz qalmışlar.

Usunlar Turanın doğusunda İli və Çu çayları vadilərində m.ö. II yüzilliyin sonlarından miladın I yüzilliyinə qədər hökmranlıq etmiş, Tyanşanda yerləşmiş Kanqyu-kanqlı tayfaları ilə bölgədə hakimiyyət uğrunda mübarizə aparırdılar.

Çzapliçka yazır ki, Tarixi, etnoloji və arxeoloji dəlillər sübut edir ki, müasir Turanlı türklər ilk dövrlərdən hiunq-nu adı ilə məlum olan Mərkəzi Asiyanın qədim türk irqinin az dəyişikliyə uğramış varisləridirlər. Mərkəzi Asiyanın turanlı türkləri hiunq-nuların və tuk-yuların qenealoji varislik xəttini daha çox qoruyub saxlamışlar nəinki İran təsirinə məruz qalmış Azərbaycan və osmanlı türkləri. (Czaplicka M. 1918, Səh. 21, 108)

# VII FƏSİL. Turanlı öntürklərin Sumer-Kəngər dövləti

Assurologiya elminin ən önəmli tərkib hissəsini təşkil edən elm sahəsi sumerşünaslıq adlanır. Bu elmin əsası XIX əsrin ortalarından qoyulmuşdur. Sumer Mesopotamiyanın güneyində m.ö. VI minillikdən etibarən mövcud olmuş ən qədim insan svilizasiyasıdır. Qədim mixi yazı mətnlərini aşkar etmiş bilim adamları bu mətnlərin dilini sumer dili, ölkəni isə Sumer adlandırmışlar. Avropanın və o cümlədən Türkiyə elmi ədəbiyyatında bu ölkənin adı əsl deyiliş formasına uyğun olaraq Sumer şəklində yazıldığı halda biz onu rus variantında bir sıra tarixi terminlərdə olduğu kimi yanlışlıqla Şumer şəklində yazırıq. Ona görə də ölkənin adının Sumer şəklində yazılmasını uyğun gördük. Sumerlərin dili, tarixi və mənşəyi haqqında bir çox nəzəriyyələr irəli sürülmüşdür. Sumerin bəşər uyqarlığının yaranmasında və ümumdünya tarixinində oynadıqları önəmli rolu nəzərə alaraq sumerşünaslığın ən böyük nümayəndəsi S.Kramer "dünya tarixi Sumerdən başlayır" fikrini irəli sürmüşdür.

Sumerlərin mənşəyi və onların ilkin vətəni məsələsi geniş müzakirə mövzusu olmuşdur. Sumerlərin yaradılış əfsanəsində onların Mesopotamiyaya quzey-batı tərəfdən, dağlıq bir ərazidən gəldikləri, sonradan Dilmun adlı adada yerləşdikləri və Mesopotamiyada məskunlaşdıqları əks olunmuşdur. Görkəmli sumerşünaslar olan S.Kramer, B.Landsberqer və başqaları bu tezisi dəstəkləyərək Sumerlərin Mərkəzi Asiyanın dağlıq ərazilərindən gəlib öncə Zaqros dağları ərazisində yerləşdikləri, sonradan İkiçayarasında məskunlaşdıqlarını və sumerlərin Altay mənşəli, türklərlə qohum olduqları fikliri irəli sürürlər.

Çex əsilli alman assuroloqu Bedrzix Hrozni da sumerlərin Mesopotamiyaya Mərkəzi Asiyadan, daha dəqiq olaraq Türkistan və Qazaxıstandan iki axınla gəldikləri fikrini irəli sürmüşdür.

Sumerlilərin ilkin axını e.q. 6000 minillikdə baş vermişdir. Bütün dəlillər sübut edir ki, e.q. VI minillikdə sumerlər Türküstanın və ya Qazaxıstanın şərqində yaşayırdılar. Ona görə ki, onların dilində şərq dağ anlamında *im kur-ra* şəklində ifadə olunurdu. Sumer dilində Arali və akkad dilində Arallu adı "yeraltı dünya" və ya tanrıların doğulduğu "dünya dağı" anlamındadır. Peyğəmbər İsayiyə görə bu dağ şimalda yerləşirdi. Sumer dilində bu dağın adını Ural şəklində müəyyən etmək olar. Sumer dilində *a və u* hərfləri bir-birlərini tez-tez əvəz edirlər. Arallu dağları assurlar tərəfindən qızıl mədənlərinə malik dağ kimi təsbit edilmişdir. Eyni şəkildə *Kaphusi* (kaspi və ya kaphus Sumer dilində gümüş deməkdir) dağları adını da Qafqaz adı kimi qəbul edirik. Qızıl Qafqaz dağlarında olduğu kimi Ural dağlarında da var. Aral gölü "adalar gölü" deməkdir. Sumerlər Altay dağlarının yamaclarından və İrtış çayının hövzəsindən keçərək Azərbaycana, Cənubi Qafqaza gəlmiş, sonra hərəkət edərək Səncər dağlarından aşaraq Mesopotamiyanın güneyində məskunlaşmışlar. Yüzillər sonra onların başqa bir qrupu yenə də Qafqazları keçib Azərbaycana gəlmiş və burdan hərəkətlə Anadoluya, Suriya və Babilə keçmişlər. Onlar keçdikləri cənubi Qafqaz və Azərbaycanda, Anadoluda və Suriyada yerləşərək yüzillər davam edən uzunmüddətli dayanacaq qurmuş və yeni mədəniyyətlər yaratmışlar.

Sumerlərin birinci köç dalğasını təşkil edən Ubeyd uyqarlığı mənsubları dolixosefal tipə malik idilər. Onların köçlərinin ikinci dalğası isə Qafqaz, Anadolu və Mesopotamiyada braxisefal tipli əhali ilə qarışmışdılar. Sumer dili altay və türk-tatar dillərinin bir çox xüsusiyyətlərinə malikdir. Sumer dili həmçinin hind-avropa və türk-tatar dilləri elementlərinin ibtidai rüşeym formasında qarışığını da özündə əks etdrir. Sumerlərin *Dinqir* adlanan göyüzü tanrısı türklərin göyüzü tanrısı *Tenqri* ilə eyniyyət təşkil edir. Qafqaz regionunda bu qarışıq sumer dili bir çox qafqaz dillərinin təsirinə məruz qalmışdır. Ubeyd uyqarlığının avropoid tipli insanları dolixosefal olduqları halda, onların Mesopotamiyanın şimalında məskunlaşmış qolları olan subirlər armenoid adlanan urartu-turanlıların braxisefal tipinə mənsub olmuşlar.

Sumerlərin Mesopotamiyaya ilk gələn axını Ubeyd mədəniyyətini, ikinci gələnlər isə Uruk mədəniyyətinin yaradıcılarıdırlar. Uruk mədəniyyətinin yaradıcıları Sumerə şimal-şərqdən gəlmişlər. Onlar Mərkəzi Asiyadan köçəri xalqların təzyiqi ilə öz yerlərini tərk etməyə məcbur olmuş və öz Ubeydli həmtayfalarının izi və ardınca güneyə doğru hərəkət edərək Sumerin çay və kanallarla suvarılan münbit və məhsuldar ərazilərində məskunlaşmışlar. Onlar ilk öncə Qafqazın güneyində, daha doğrusu Azərbaycanda məskunlaşdıqları zaman burdakı ustalardan metalçılıq işini mükəmməl öyrənmişlər. Sumerlərin ikinci axınla gələn və Mesopotamiyanın şimalında məskunlaşan qolu *Subir* adı ilə məlumdur.

Sumerlərin ilk köçəri axını e.q. 6500-3800-ci illəri əhatə edən Ubeyd arxeoloji mədəniyyətini, ikinci köç axınları isə e.q. 4000-3100-cü illəri əhatə edən Uruk arxeoloji mədəniyyətinin əsasını qoymuşlar. (B.Hrozny, 1953, Səh. 55, 56)

Hroznunun sumerlərin Mesopotamiyada məskunlaşmadan öncə yüz illər ərzində Güney Qafqaz-Azərbaycan ərazisində yaşadıqları haqqındakı fikirləri sumerlilərin İkiçayarasına Arattadan gəldikləri və Aratta mədəniyyətinin sumerlərin yaratdığı haqqındakı tarixi dəlilləri təsdiq etməkdədir.

Azərbaycanın Milli azadlıq hərəkatının lideri və ilk prezidenti Əbülfəz Elçibəy görkəmli tarixçi kimi qədim türk və Azərbaycan tarixi haqqında bir sıra orijinal tezislərin müəllifidir. Elçibəy sumerlərin ilkin vətəni və etnik mənşəyi haqqında da orijinal fikirlər irəli sürmüşdür. O sumer mədəniyyətinin yarandığı ilkin ərazi haqqında fikirlərini belə ifadə edirdi: "Sumer mədəniyyətinin köklərini, daha

doğrusu Sumerdən qabaqkı (proto sumer) mədəniyyəti və tarixi araşdıran elmlərin əldə etdiyi nəticələrə diqqətlə yanaşdıqda, burada Azərbaycanın gərəkli yer tutduğu açıq-aydın görünür.

Sumerlər Mesopotamiyaya şimal-şərqdən girmiş, ona qədər uzun müddət Zaqrosun şimal-şərqində yaşamışlar. Zaqrosun şimal-şərqinin Azərbaycanda yerləşdiyini hər kəs xəritədə görə bilər. İndi hesab etmək olar ki, sumerlər əvvəl Azərbaycanda yaşamış, oradan Mesopotamiyaya axışıb yeni məskəni dövlətlərinin mərkəzinə çevirmişlər". (Əbülfəz Elçibəy, 2003, Səh. 11, 14)

Elçibəy Sumer mədəniyyətini yaradan xalqların özəyini Azərbaycanda yaşayan və oradan axışaraq Mesopotamiyanın mərkəzi əyalətlərində yerləşən xalqlar və tayfalar təşkil etdiyini yazır. Elçibəy bir sıra müəlliflərin fikirlərinə, sumer miflərinə və arxeoloji araşdırmalara əsasən Azərbaycanın sumerlərdən qabaq da Mesopotamiya ilə əlaqəsinə aid tarixi dəlillərin mövcudluğunu vurğulayır. Sumerlərin Dumu-su (Dumuzi) tanrısı ilə bağlı əfsanədə o, bütün heyvan və bitkilərin həyatvericisi, onun o dünyadan qayıtması isə hər il baharın başlanmasına səbəb sayılmışdır. Qaynaqların da göstərdiyi kimi Dumuzi inamı Şimali İrandan, yəni Cənubi Azərbaycandan gəlmişdir. Bundan başqa Azərbaycanın cənubunda "Dolmatəpədə" aparılan qazıntılar zamanı aşkar edilən və e.ə. V minilliyin ortalarına aid edilən saxsı qablar və üzərlərindəki naxışlar Sumerdə aşkar edilən gil qablara çox yaxındır. (Ə.Elçibəy. 2003, Səh. 23)

Ə.Elçibəy Sumer mədəniyyətinin, onların etnik mənşəyinin tarixi kökləri və digər arxeoloji mədəniyyətlərlə əlaqəsini hərtərəfli təhlil edir və çağdaş tarixçiliyin əldə etdiyi nəticəyə əsaslanaraq belə qənaətə gəlmişdir ki, ən qədim mədəni insan məskəni Ceyhun (Amudərya) və Seyhun (Sırdərya) çaylarının hövzəsi, Aral gölünün ətrafı və Turan ovalığı olmuşdur. Dünyada mədəniyyət ilk dəfə burda mərkəzləşmişdir. Bu ilk mədəniyyət mərkəzinin yaranma və varolma tarixi e.q. X-VI minillikləri əhatə edir.

Dünyanın qədim mədəniyyətinin toplandığı ikinci mərkəz Xəzərin qərb sahillərindən başlayaraq qərbə doğru Kür-Araz ovalıqları, Qızılüzən çayı ovalıqları və Urmiyə gölü ətrafını əhatə edir. Bu mədəniyyətin yaranma və varolma tarixi e.q. VII-II minilliklərə dayanır.

Tarixi baxımdan Sumer qədim mədəniyyətin üçüncü mərhələsini əhatə edir. Bu mədəniyyət Dəclə və Fəratın hövzəsi, Patağ (Zaqros) dağlarının ətəklərindən Ərəbistan yarımadasının şimal-şərqində olan ərazini əhatə edir və e.q. IV-II minilliklərə bağlıdır. Bütün bu mədəniyyətlər varislik əlaqələrinə malikdirlər. Elçibəyin gəldiyi nəticə bundan ibarətdir ki, Azərbaycan ilkin olan Turan mədəniyyətinin davamı və üçüncü olan Sumer mədəniyyətinin özülüdür və hər iki mədəniyyət üçün bağlayıcı məntəqə rolunu oynayır. Elçibəy qədim tarixin araşdırılmasında belə bir yekun nəticəyə gəlir ki, "Tarix Sumerdən başlayır" deyimi "Tarix Turandan başlayır" deyimi ilə əvəz olunmalıdır. (Ebülfüz Elçibey, 2007, Səh. 16-17)

Ə.Elçibəyin dünyanın qədim tarixi və o cümlədən Sumer tarixi haqqında irəli sürdüyü elmi tezislər onun özündən əvvəlki görkəmli tarixçi və assuroloqların əsərlərində də öz təsdiqini tapmışdır.

Sumerlərin turanlı mənşəyə malik olmaları və Mərkəzi Asiyadan köçərək Mesopotamiyada yerləşdikləri haqqındakı nəzəriyyə elmi baxımdan daha inandırıcı və qəbul ediləndir.

İtalyan mənşəli amerikalı arxeoloq Rafael Pumpelli indiki Türkmənistanda apardığı arxeoloji qazıntılar zamanı aşkar etdiyi artefaktlara və elmi dəlillərə əsaslanaraq Sumer mədəniyyətinin kökünün Anau mədəniyyətinin təşkil etdiyini sübut etmişdir. Bəşər uyqarlığının əsası 10 min-9 min il öncə Anauda qoyulmuşdur. Əkinçiliyin, sənətkarlığın və heyvanların əhliləşdirilməsinin əsası Anauda qoyularaq inkişaf etdrildiyi bir dövrdə yer kürəsinin digər ərazilərində insanlar hələ ibtidai ovçuluq və yığıcılığın hakim olduğu ibtidai icma qruluşu dövrünü yaşamaqda davam edirdilər. Anau arxeoloji mədəniyyətini dərindən araşdırıb onu dünya elminə tanıdan İtalyalı arxeoloq Pumpellinin gəldiyi qənaətə görə Sumer mədəniyyətinin kökü Anauya bağlıdır. Anauda aşkar edilmiş və üzərində mixi işarəli yazıya bənzəyən möhürün tapılması onun mixi yazının ilk variantı ola biləcəyi haqqında fikirlər doğurmuşdur". (Pumpelly R. 1908. )

Anauda yüksək əkinçilik mədəniyyətinin mövcud olması ilə yanaşı heyvanların əhliləşdirilməsi və bəslənməsi və evcil heyvandarlıq təsərrüfatının inkişafı sumerlərin öz ilkin vətənləri olan Anau və ətraf bölgələrdə oturaq həyat tərzinə malik həyat sürdüklərini sübut edir. Sumerlər ikinci vətənləri olan Mesopotamiyada da əkinçilik, sənətkarlıq və ev heyvandarlığına əsaslanan oturaq təsərrüfat fəaliyyəti ilə məşğul olmuşlar.

Görkəmli ingilis assuroloq tarixçisi Leonard Kinq sumerlərin mənşəyi haqqında yazır: "İndiki dövrə qədər biz sumerlərin mənşəyi haqqında yalnız onların özləri haqqında verdikləri məlumatlar əsasında fikir yürüdürdük. Lakin Türkistanda aparılan araşdırmaların nəticəsi bizə əminliklə söyləməyə imkan verir ki, sumerlərin ilkin vətənini Babil düzənliklərindən doğudakı dağların arxasında axtarmaq lazımdır. İtalyan arxeoloqu Pumpellinin Aşqabad yaxınlığındakı Anauda apardığı arxeoloji qazıntılar nəticəsində İran yaylasının batısında qədim mədəniyyətlə bənzərlik təşkil edən tarixə qədərki mədəniyyətin izləri aşkar edilmişdir. Pampellinin ekspedisiyasının arxeoloji araşdırmaları Mərkəzi Asiyada irqi hərəkətliliyin fəallaşması nəticəsində doğudan sumerlərin və onlardan sonra digər miqrasiyaların baş verdiyini göstərir". (Leonard W. King. 1916. Səh. VII)

Türk dünyasının görkəmli tarixçilərindən olan Reha Oğuz Türkkan Sumerləri, Subarları və Elamları Ön Türklər (proto türk) adlandıraraq onların ana yurdu və

dünyaya yayılma prosesini tarixi dəlillərə əsasən məntiqi ardıcıllıqla aydınlıq gətirərək yazırdı: "Ön türklər doğum yerləri olan Aral-Balkaş gölləri arasındakı yurdlarını tərk edib bir neçə yüz il Mavəraünnəhrdə, Ceyhun və Seyhun çayları arasında və Anauda məskunlaşdıqdan sonra Zaqros dağları yoluyla güneyə yenmiş, yenə də Fərat və Dəclənin iki çayı arası olan Mesopotamiyada, e.q. 4000-ci ildə Subarların timsalında məskunlaşmışlar. Onların Elam qolu isə daha doğuda körfəz bölgəsində yerləşmişdilər. E.q. 3600-cü ildə isə Ön Türklərin arxada qalmış qolları olan Sumerlər də Mesopotamiyaya köçüb Subarların davamı olaraq yurdlarını gəlişdirmişlər. E.q. 3000-ci ildə Böyük Tufan onların şəhərlərini viran qoyunca həyatlarında bir fasilə dövrü başlanmışdır. Az sonra sumerlər təkrar dirilmiş, Erudu, Ur, Uruk, Nippur, Kiş, Laqaş kimi böyük şəhərlərini tarixin ilk dövlətini qurmuşlar". (Reha Oğuz Türkkan. Türklər, cilt 1, 2002, Səh. 600)

Görkəmli türk bilim adamı Yusif Ziya Özər dövrünün arxeoloji, linqvistik və etnoloji dəlillərinə əsaslanaraq Mərkəzi Asiyanın bəşər mədəniyyətinin ilk beşiyi olduğu haqqında tezis irəli sürmüşdür. Anauda, Honanda və Kansuda aşkar edilən arxeoloji abidələrin tədqiqi göstərir ki, neolit dövrünün daş mədəniyyəti Sibirdə və Orta Asiyada meydana çıxmış və inkişaf nəticəsində metal mədəniyyətinə çevrilərək bütün dünyaya yayılmışdır. Yusif Ziya dəmir dövrünün metal mədəniyyətinin Elamda təşəkkül taparaq Elam mədəniyyətinin çiçəklənməsi nəticəsində yayılan qolları kimi təqdim etməyi doğru hesab etmir. Orta Asiyadakı Sumerkəndin (Səmərqənd) coğrafi və tarixi abidələri onun sumer xalqının təşəkkül tapdığı və yayıldığı mərkəz olduğunu sübut edir. Sumerkəndlilərin elamlılarla və sumerlilərlə eyni irqə mənsubluğu heç bir şübhə doğurmur, ona görə ki, müasir dövrə qədər də hər iki xalq eyni tayfa birliyi olan Sumer adlarını daşımaqdadırlar. (Yusif Ziya Özer. 1932, Səh. 6)

Asiyanın quzeyini və Avropanı əhatə edən buzların ərimısi Sibirin cənubunda 10 min və daha çox illər ərzində məskunlaşaraq inkişaf etmiş və artıb çoxalmış türklərə dünyanın qapısını açmışdır. Bu hadisə öz mədəni inkişaflarının yüksək səviyyəsinə nail olmuş Turanlıların güneyə və qərbə doğru köçlərinə şərait yaradaraq malik olduqları ilkin mədəniyyəti bütün dünyaya yaymağa imkan yaratmışdır. Çində, Hindistanda, Babildə, Misirdə və Aralıq dənizi hövzəsindəki mədəniyyətlərin eyni tarixi dövrdə meydana çıxıb oxşar cəhətlərə malik olmalarının səbəbi onların vahid Turani kökə malik olmalarındadır. (Y.Z.Özer, 1932, Səh. 536)

Bilim adamları belə bir ümumi fikrə malikdirlər ki, Sumer, Elam, Misir və Hitit mədəniyyətləri ümümi mənşəyə malikdirlər. Qara dənizin quzeyindəki mədəniyyət də qədim Sumer-elam mədəniyyətinin davamıdır. Bütün bu mədəniyyətləri neolit dövrünün başlanğıcında yüksək mədəniyyətin ikişafına nail olmuş xalq özü ilə gətirmişdir. Bu yüksək mədəniyyət zirvəsinə çatmış xalqın Orta Asiyadan gəlmiş olduqları Suzda, Hindistanda və Pumpellinin Türkistandakı Anauda apardığı arxeoloji qazıntılar nəticəsində sübut olunmuşdur. Andersonun Çinin quzeyində arxeloji qazıntılarda aşkar etdiyi mədəniyyət abidələrinin sumer abidələri ilə eyniyyət təşkil etməsi o mədəniyyətin yaradıcıları olan Türklərin həmin dövrdə Çinə Orta Asiyadan getdiyini göstərir.



Beləliklə, bütün arxeoloji, antropoloji və linqvistik dəlillər mədəniyyətin ilkin mərkəzinin Orta Asiya olduğunu göstərir. (Yusif Ziya Özer, 1932, Səh. 532)

Orta Asiyanın ilk dövrlərdən türk irqinin qədim məskəni olduğu görsəndiyi halda, "avropasentrizm" nəzəriyyəsinin tərəfdarları onların tezislərinə uyğun gəlməyən bu tarixi gerçəkliyi ortadan qaldırmaq üçün belə bir fərziyyə irəli sürülmüşlər ki, Mərkəzi Asiya arilərin qədim vətəni olmuş, lakin türklərin təzyiqi altında öz yerlərini tərk edərək güneyə və doğuya köçə məcbur olaraq bu torpaqları tamamən türklərə buraxmışlar. Lakin bu tezis tarixi dəlillərə uyğun deyil, Mərkəzi Asiya ən qədim zamanlardan türklərin vətəni olmuşdur. (Yusif Ziya, Səh. 10)

Türkləri hind-avropalıların ümumi əcdadı hesab edən Yusif Ziyanın tezisinə görə Türk dili bütün Avropa dillərinin kəsişmə nöqtəsini təşkil edir. Bir çox linqvistik dəlillər hind-avropa xalqlarının mənşə etibarı ilə ayrı-ayrı Turan qruplarından meydana gəldiklərini sübut edir. (Yusif Ziya Özer, 1932, Səh. 168)

L.King sumer və samilərin qarşılıqlı münasibətləri haqqında yazırdı ki, Mərkəzi Ərəbistanda iqlim dəyişikliyi nəticəsində baş verən quraqlıq nəticəsində sami tayfaları Suriya üzərindən hərəkət edərək Fərat çayı sahillərinə gəlmiş və Babildə ilk Akkad məskənləri salmışdılar. Babil mədəniyyətinin formalaşmasında sumerlərin əvəzsiz rolu olmuşdur. Dövlət, hüquq, ədəbiyyat və incəsənət sahəsindəki bilgilərini samilər sumerlərdən almışdılar. Araşdırmalar göstərir ki, yəhudilərin əxz etdikləri Babilin və Assuriyanın daha sonrakı dövrlərə aid dini və mifoloji ədəbiyyatı öz mənbəyini sumerlərdən götürmüşdür. Sumerin və Akkadın ilkin tarixi samilərlə mübarizə şəraitində keçmiş və bu mübarizənin sumerlər üzərindəki təsiri neqativ olmuşdur. (Leonard W. King. 1916, Səh. IX)

Digər bir ingilis arxeoloqu və tarixçi Leonard Valley də Sumer mədəniyyətinin samilər üzərindəki böyük təsirə malik olduğunu qeyd edirdi. Mesopotamiya birbiri ilə rəqabət aparan əhalinin məskunlaşdığı iki ölkədən ibarət idi. Quzeyin Akkad adlanan hissəsinin əhalisi əksəriyyət etibarı ilə samilərdən ibarət idi. Güneydə isə qarışıq əhalidən ibarət olan ölkə Sumer adlanırdı. Sumerlilər burda yaşayan samilər üzərində üstünlüyə malik olub, öz dillərini və mədəniyyətlərini onlara qəbul etdirmişdilər. (Leonard Woolley. 1928. Səh. 2)

Sumerlərin dili və etnik mənşəyi məsələsi uzun illər ərzində tarixçilərin, linqvistlərin və etnoloqların geniş müzakirə mövzusu olmuşdur. İrəli sürülən nəzəriyyələr içərisində sumerlərin turanlı və türk mənşəli olduqları haqqındakı XIX əsr Avropa tarixçilərinin Turanizm nəzəriyyəsi sumerlərin tarixi, dili və dinlərinin hərtərəfli tədqiqi üzərində qurulmuş ən mükəmməl nəzəriyyədir.

Assurologiyanın, yəni, əslində, sumerologiyanın atası hesab olunan Y.Oppert Zend Avestada adı "tuirya" şəklində çəkilən Əfrasiyabın dövləti olan Turanın elə Sumer olduğunu yazırdı.

İkiçayarası ərazidə turanlı öntürklərin yaratdığı ən qədim dövlət Sumer-Kəngər dövləti olmuşdur. Bu dövlət və ölkə indi rəsmi tarixşünaslıq tərəfindən qəbul olunan Sumer adından öncə müxtəlif şəkildə adlandırılmışlar.

Sumer adı avropalıların Bibliya adlandırdıqları Tövratın Yaradılış kitabında Sinnar şəklində ifadə olunur. Həmin kitabda əks olunan əfsanəyə görə insanların Tufandan sonra şərqdən gələrək məskunlaşdıqları ilk ölkə Sinnar-Sumer olmuşdur. Tarix elminin qəbul etdiyi rəsmi konsepsiyaya görə Sumer mədəniyyəti İkiçayarasında m.ö. VI minillikdən etibarən mövcud olmuş ən qədim mədəniyyətdir.

Sumerdə Eredu, Ur, Larsa, Uruk, Laqaş, Umma, Kiş, Nippur və s. kimi yüksək mədəniyyətə malik şəhər dövlətləri mövcud olmuş, sonra onlar ittifaq təşkil edərək vahid dövlət şəklində birləşmişlər. Sumerlilər özlərini "Saq-qiq", bəzi mənbələrə görə isə "Kein-qir" adlandırırdılar.

Sumerlilər öz dillərini "emeqir" adlandırırdılar. "Saq-qiq" sözü Sumer dilində "qarabaşlılar" olduğu üçün bəzi müəlliflər sumerliləri qara dərili efiopiyalı kuşilər və hindistanlı dravidlərlə eyniləşdirən fikirlər irəli sürmüşlər.

Sumer adı akkadların bu xalqa verdiyi ad kimi qəbul olunur. Fərat və Dəclənin aşağı vadilərində məskunlaşmış sumerlilər tədricən güclənmiş və Sumer dövləti Bütün İkiçayarası ərazini öz hakimiyyəti altında birləşdirmişdir.

Dünyanın ən böyük sumerşünaslarından biri olan Samuel Kramerin yetişdirməsi və özü də görkəmli Sumerşünas olan Muezzez İlmiye Çığ uzun illər ərzində araşdırıb öyrəndiyi sumer mətnlərinə əsasən belə bir fikir irəli sürür ki, Sumer dövləti güclü olduğu çağlarda, sınırları doğuda Hindistana (Dilmun), batıda Aralıq dənizinə (Ebla, Martu), hətta Kiprə, quzeydə Aratta, Hurruma, güneydə Misir və Həbəşistana qədər genişlənmişdir. Bu yerlərə gedən əsgər və tacirlər və oralardan ticarət məqsədilə gələn insanlar sumer mədəniyyəti ilə geniş əlaqələr yarada bilmişdilər. (M.İ.Çığ. 1996, Səh. 47)

Mesopotamiyadakı qədim mədəniyyət mərkəzi olan ölkə Y.Oppertin təklifi ilə Sumer adlanmadan öncə Xaldi və Akkad adlanırdı. M.ö. 2270-ci ildə sami tayfaları Sarqonun başçılığı ilə Sumerin quzey ərazilərini işğal etdilər və ölkə Sarqonun özünə paytaxt etdiyi sumerlilərin Aqade şəhərinin adı ilə Akkad adlanmağa başladı. Əhali isə dövlətin adı ilə akkadlar adlansa da, onlar, əslində, sumerləşmiş samilər idilər. Sarqon tədricən Ur şəhərindən başqa bütün Sumeri öz hakimiyyətinə tabe etdi. Bundan sonra dövlət Sumer-akkad dövləti adlanmağa başladı. Sarqonun işğalından sonra da sumer dili yüz illər boyunca əsas ünsiyyət vasitəsi olaraq qalmaqda davam edirdi.



Sumer adına qədər İkiçayarasının cənubundakı Fərat və Dəclə çaylarının mənsəbindəki ərazi Xaldey, yəni Kəldi adlanmışdır. Kəldi/xaldeylər müasir elmdə sami kimi tanınsalar da, XIX əsrin bir çox assuroloq və tarixçiləri onları kassi və ya kassilərlə qarışmış xalq hesab edirdilər. Türklərə xas yarım köçəri həyat sürən maldar və əkinçi Kaldilərin bura Kassilərlə qonşuluqdan Zaqros dağlarından gəldikləri güman olunur. Onlar tayfa qruluşuna malik olub tayfa başçıları tərəfindən idarə olunurdular. M.ö. IX əsrdə kaldilər öz ərazilərində tam möhkəmlənmişdilər. Kassilər e.q. 1770-ci ildə Babil dövlətinə hücum etdikləri zaman xaldeylərin Kardinaş adlanan dövlətləri öz müstəqilliklərini qoruyub saxladılar.

Xaldeylərin İkiçayarasında hakimiyyət uğrunda Assuriyaya qarşı m ö. 1721-ci ildə başladıqları mübarizə uzun illər ərzində davam edərək, nəhayət, Babilin işğalı və xaldeylərin Yeni Babil adlı dövlətin yaranması ilə başa çatdı. Tövratda xaldeylərin adı sami dilində Ur-Kasdim şəklində ifadə olunduğu üçün bu dövləti bəzi müəlliflər Kasdim adlandırırlar. Kasdim adı da bu ölkənin əhalisinin kas/kassilər olduğunu sübut edir. Müasir tarixçilər xaldeyləri sami mənşəli hesab edirlər, lakin XIX əsr Avropa tarixçilərinin bir çoxunun linqvistik və tarixi dəlillərə əsaslanaraq onların turanlı türk mənşəli olduqları haqqındakı fikirləri aşağıda geniş şəkildə şərh olunur.

Qədim İkiçayarası xalqın turanlı mənşəyə malik və dillərinin turan dili olduğu haqqında Turan nəzəriyyəsinin banilərindən biri və əsas müdafiəçisi alman əsilli aşkenaz yəhudisi, öz elmi fəaliyyətini əsasən Fransada davam etdirən XIX əsrin böyük tarixçilərindən sumerologiyanın atası Y.Oppert olmuşdur. Turan nəzəriyyəsinin əsas əleyhdarı isə mənşə etibarı ilə Ədirnə şəhərindən sefard yəhudisi olan Y.Halevi idi. Halevi sumer dilini canlı bir danışıq dili deyil, kahinlərin bir şifrə dili hesab edir və İkiçayarasındakı qədim mədəniyyətin sumerlər tərəfindən yaradıldığı faktını qəbul etməyərək, bu mədəniyyətin samilərə məxsus olduğu fikrini inadla müdafə edirdi. Oppert Halevinin fikirlərinə qarşı Turan nəzəriyyəsini müdafiə edən dolğun bir cavab məqaləsi yazmışdır. Oppertin Geniş oxucu kütləsinə məlum olmayan 1875-ci ildə yazdığı və "Journal Asiatuque" 5-ci nömrəsində 442-500-ci səhifələri əhatə edən "Sumer və ya heç nə" adlı həmin məqalədə turan və ya öntürk dilində bir çox sözlərin sami və assur dilinə keçərək samiləşdiyini yazır və onların mənasını açıqlayır. Məqalənin Turanın və Öntürklərin tarixini öyrənmək üçün böyük elmi əhəmiyyətə malik olduğunu nəzərə alaraq geniş şərhini verməyi vacib olduğunu düşünürük.

Oppert yazır ki, müqayisəli filologiya ilə məşğul olanlar bilirlər ki, 5 min il öncə mövcud olan sumerin turan dilini onun XIX əsrdəki varisləri olan turan dilləri ilə müqayisə edərək eyni mənalı sözləri müəyyən etmək nə dərəcədə çətin bir işdir.

Sumer dilindəki idioqramların təhlili göstərir ki, bu dil bir şimal mənşəyinə malikdir. Sumer flora və faunasını əks etdirən ideoqramlar bunu sübut edir. Su-

mer dili misirlilərdən fərqli olaraq aslanı, pələngi, pişiyi, dəvəni, qatırı, fili, gərgədanı, begomotu ifadə edən sözlərə malik deyil. Ancaq iti, qurdu, çaqqalı, ayını, eşşəyi, maralı, keçini, quzunu və öküzü ifadə edən sözlərə malikdir.

Bitkilərə gəldikdə isə heroqliflər məhdud şəkildə ağacı, qamışı, kolu, yarpağı, taxılı, arpanı ifadə edir, lakin palmanı, buğdanı və başqalarını ifadə etmək üçün sadə işarələrə malik deyil və onları mövcud elementlərdən istifadə etməklə yaradılan ideoqrammlarla ifadə edirlər. Bu amillər sumer xalqının şimal mənşəyinə mənsub olduğunu sübut edir.

Oppert sumer dilinin turan türk dilləri üçün böyük əhəmiyyətə malik olduğunu nəzərdə tutaraq, bir çox müəlliflərlə yanaşı özü də Sumer dilini Turan dillərinin sanskriti adlandırır, yəni bütün turan dilləri və o cümlədən türk dili sumer adlanan bu ilkin dildən törənmişdir.

Oppert yazırdı ki, Sumerlər Ön Asiyada Turanın yeganə övladı deyil. Regionun iki böyük çayları olan Fərat və Dəclə çaylarının və onların qollarının vadilərində qədim sivilizasiyaya malik əhalisi turanlı mənşəyə malik çoxlu ölkələr mövcuddur.

Oppert Turan nəzəriyyəsinin əleyhdarı Halevinin bütün Ön Asiya tarixini samiləşdirmə cəhdlərinə etiraz edərək yazırdı: "Halevinin yuxarıda adları çəkilən Susiana monarxlarının mətnlərindən xəbəri olmadığı üçün aşkar edilən 15 şəxs adına görə elamlıları samilər hesab edir. Lakin adların çoxunun qeyri-sami mənası samilik maniyasına qapılanların əleyhinədir. Bibliyanın və klassik yunan müəlliflərin qədim Mesopotamiyada turanlıların mövcudluqları haqqında susmaları heç nəyi sübut etmir". (Oppert J. 1875, V-5, Səh. 473)

Turan nəzəriyyəsinin banilərindən və sona qədər başlıca müdafiəçilərindən olan J.Oppertin turanlılar qarşısında ən önəmli xidmətlərindən biri turanlıların ari və iran mənşəli olduqları, Turan adının isə etimoloji baxımdan fars dilindən alınma söz olduğu haqqındakı uydurma paniranist nəzəriyyəni mixi yazı mətnlərindəki linqvistik və elmi tarixi dəlillərə əsaslanaraq təkzib edib puça çıxarmasıdır. Avestanı, sanskrit mətnlərini və Firdovsinin "Şahnamə" dastanını əsas mənbə kimi qəbul edən bir çox üzdəniraq tarixçilər Tur və Turan adının Avestada və sanskrit mətnlərində mənası guya "sürətli atlılar" olan iran dilindəki "turiya" sözündən yarandığını iddia edir və turların mənşə etibarı ilə iranlı arilər olduğu haqqında uydurma tezisləri özündə əks etdirən yüzlərlə əsər yazmışdılar. Lakin Oppert Haleviyə yazdığı cavab məqaləsində bu məsələyə tam aydınlıq gətirmişdir. "Journal Asiatuque"də dərc olunan bu məqalə ya bilərəkdən, ya da diqqətsizlik üzündən unudulmuş, orda irəli sürülən elmi müddəalara heç bir tarixi əsərdə istinad edilməmişdir.

Y.Oppert Turan adının mənasına aydınlıq gətirərək yazırdı: "Sumer dili nə sami, nə də ari dillərinə aid deyil. Bu dil Turan dil qrupuna aiddir. Turan anlayışı geniş məna daşıyır. Anarian (ari olmayan) yazısını kəşf edən xalqın dili tam haqlı



olaraq Turan dili adlanmalıdır. Turan dilində "Tur" adam, oğul deməkdir və kasta, tayfa mənası daşıyan mürəkkəb sözlər də yarada bilir. "Tur" sözündən Turtan, Turqal, Turquman kəlimələri yaranıb. Sumerlərin Tur sözü Zənd Avestaya "tuirya" şəklində keçmişdir, bu Əfrasiyabın hökmranlıq etdiyi Turan adının ekvivalentidir. O Firudinin oğlanları Səlm, Tur və İrəç üçlüyünün əfsanəsində Asiya yaylalarını təcəssüm etdirir. Turlar Turun millətinə mənsub olub Aryaya və Sayrama qarşı mübarizə aparan insanlardır. Sonradan o Sem/Selm ilə yaxınlaşmışdır. Sumer dili mükəmməl bir Turan dilidir və Sumer elə Turanın özüdür". (J.Oppert. 1875, V-5, Səh. 464)

Oppert Tur sözünün turan dilində olduğunu və onun sonradan ari və sanskrit dilinə keçdiyi haqqında fikrini elmi əsaslarla sübut edir. Oppert linqvistik araşdırma əsasında Sumerlərin "Oda müraciət" himninin Sanskrit dilinə tərcümə edilərək sonradan Avestaya daxil edildiyini öz əsərində tərcümə mətnlərindən nümunələrlə sübut edir. Oppertin bu cəsarətli fikri ariyanizm tərəfdarlarının böyük narazılığına və ona qarşı hücumlara səbəb olmuşdur.

XIX əsr fransız assuroloqu Turan məsələsində Oppertlə həmfikir olan F.Lenorman da sumerləri turanlı xalqı hesab edir: "Qədim tarixi dövrlərdə Sumer, türkləri, finləri və tatarları öz tərkibində birləşdirən, alimlərin Turan adlandırdığı bəşəriyyətin böyük qoluna mənsub idi. Qədim dönəmlərdə Susiananın və Midiyanın da əhalisinin böyük hissəsi bu irqə mənsub idi Müasir etnoqrafiya elmi Turan xalqlarının köklərinin mərkəzinin şərqdə Aral dənizi ətrafında olduğunu qəbul etmişdilər. (F.Lenormant. Histoire des Peoples Orientaix. Pari. 1884. Səh. 47)

Lenorman da Akkad adlandırdığı sumerlərin qədim dini inanclarında Od allahının mühüm önəm daşıdığını, Avestanın qatlarında Veda himnlərində Oda sitayiş haqqında heç bir məlumatın olmadığını nəzərə alaraq oda sitayişin turanı xalqlarından götürüldüyü fikrini qəbul etdiyini yazır. (Lenormant F. 1877, Səh. 197)

J.Oppert Sumerin Turan olduğu haqqındakı fikrini əsasladıraraq yazırdı ki, özlərini "Sumerin və Akkadın hökmdarı" adlandıran Turan kralları burda Sumer sözünü öndə ifadə edirdilər. Ona görə ki, Sumer sonralar Assuriya adlanan ölkənin turanlı adı idi. İlk zamanlarda kiçik bir ərazidə istifadə olunan sami dilindəki Assuriya adı sonradan genişlənərək turanlı Sumer adını sıxışdırıb onu əvəz etmişdir. Ölkədə turan dilində yazan Turan hökmdarları öz ölkələrinin adını mənası "əsl ağaların ölkəsi" demək olan *Kienqi* idoqramı ilə ifadə edirdilər. Lakin ölkəni ələ keçirən sami hökmdarlar bu adın yerinə sami dilində üç işarədən ibarət *A. qa. De* - Akkad adını qəbul etdilər. (Weissbach P.N.Die Sumerische Frage. Leipzig 1898)

Bu şərhlərdən göründüyü kimi təkcə Y.Oppert deyil, eyni zamanda, F.Lenorman, P.Vaybax və digərləri də tarixi və linqvistik dəlillərə əsaslanaraq Mesopotamiyanın Assuriyadan öncə Turan adlandığını yazırlar.

Y.Oppert Sumer dilində bir çox anlayışlara aydınlıq gətirmişdir. Bibliyada bütün yer və şəxs adları samiləşdirildiyi kimi Sumercə Turqal adı da sami dilində Tidal şəklində əks olunmuşdur. Tidal Hammurapının assurca mətnlərində Turxal adlandırılır. Tudxulu, yəni Turqalı müəlliflərin bir çoxu o cümlədən Şrader Qutilərin kralı kimi təqdim edir və Bibliyadakı "qoim" xalqının Qutilər olduğu fikrini irəli sürür. Tarixi mənbələrdə Turqal köçəri xalqların böyük hökmdarı kimi təqdim olunur. Quti hökmdarı Turqal/Tudxul Elam çarı Kudurlomerin Hammurapiyə qarşı müharibəsində onun dörd müttəfiqindən biri idi.

Assuriya dövlətində kraldan sonra ikinci şəxsin adı Sumercə iki mixi işarə ilə yazılır "Tur" və "Tan", yəni TurTan, Tur-adam və oğul deməkdir, Tan-isə əzəmətli anlamındadır. Turtan Assuriya ordusunda hərbi yürüş zamanı kralı əvəz edən baş sərkərdə idi. Dövlətdə kraldan sonra ikinci şəxs olub baş sərkərdə və vəzir vəzifələrinə malik olan TurTan sözünün mənası hökmdarın əzəmətli oğlu anlamındadır. Bu titul assur-sami dilinə sumerlərdən keçmişdir və onun assurca qarşılığı "maru idlu" sözüdür.

Oppert yazır ki, Mesopotamiya ərazisində Kudur Naqhuntaya, Silhaka, Undas Armana, Umman Aldasa, Teummana və s. məxsus mətnlərdə olduqca çoxlu turanizmlər mövcuddur. Bu mətnlərdə "kik" göyüzü deməkdir, "murun" torpaq deməkdir, "eva" ev deməkdir, "atta" ata deməkdir, "khan-ik" qüdrətli deməkdir, "kuti" gətirmək deməkdir. Mada-sumercə ölkə deməkdir. Sumer dilində "e" ev deməkdir, "qal" böyük deməkdir. Bu söz sami və ibrani, aramey dilinə "hekal" şəklində keçmişdir və mənası böyük ev-saray, abidə deməkdir. Beləliklə, "hekal heykəl" sözünü samilər Turan dilindən almışlar.

Anarian mixi yazı sistemindən istifadə edən beş xalqdan biri olan samilər bu yazını kəşf etməmişlər. Bu yazını kəşf edənlər turanlı midiyalılar və Susianlar da deyillər, bu yazı öncələri kasdi-iskit, protoxaldey və akkadlı adlandırılan, əsl adları isə sumerlər olan xalq tərəfindən yaradılmışdır. Bu mixi yazı işarələrini kəşf edənlər bu işarələri elə öz danışdıqları dildə də ifadə edirdilər. (Oppert J. 1875, V-5, Səh. 493)

*Mada* Sumercə ölkə deməkdir. *El* Sumer sözü olub, müqəddəs, kutlu deməkdir ki, "ellu" sözü də ondan yaranmışdır. Sumerlərin müqəddəs, kutlu anlamı daşıyan *Ellu* sözü türk dilindəki Ulu sözü ilə ekvivalent təşkil edir. *An*-sumercə göyüzü, səma, Annu-tanrı, Dinqir deməkdir. Lenorman bu sözü Dimir sözü ilə eyniləşdirir. Su-(qatu) Turan sözüdür mənası baş, başçı deməkdir.

1851-ci ildə Assur kralı Assurbanipalın mətnlərini aşkar edən ingilis assuroloqu Ser Henri C.Rauilson bu mətnlərin yazıldığı hecalı mixi yazının Turani mənşəyə malik olduğunu ilk dəfə qeyd edərək Turanizmin əsasını qoydu. O zaman sumer mədəniyyəti hələ kəşf olunmamışdı. Assuriyalılar bu yazı sistemini min illər ərzində istifadə etdilər. Sumer dili aqqlütativ hecalı dildir və bu dil Turan irqinə məxsusdur.



## Sumer və Kiengir adlarının mənası haqqında

Sumer adını etnik və linqvistik termin kimi tarixi ədəbiyyata gətirən Oppert olmuşdur. Oppert öncələr xaldey, kasdim və iskit dili kimi adlandırılan dilin məhz onun təklifi ilə Sumer dili adlandırmağa başlandığını, Sumer dilinin aqlütativ hecalı dil kimi Turan irqinə məxsus olduğunu və müzakirələrdən sonra səs çoxluğu ilə *Ki. En. Qi* sözünün Sumer sözü ilə ekvivalent təşkil etdiyini yazmışdır. (Oppert J. 1875, V-5, Səh. 442-480)

Oppert onu bu məsələdə tənqid edənlərə cavab olaraq bildiridi ki, sumer-sinnar sözü kienqi sözünün fonetik dəyişikliyə uğramış şəklidir.

Lakin görkəmli assuroloqların bir çoxu, o cümlədən Oppertin dostu F.Lenorman Sumer adının əleyhinə çıxmışlar. Sumer termininin qəti əleyhdarlarından biri olan İngilis assuroloqu Leonid Vaddel yazırdı ki, "Sumer adı assuroloqlar tərəfindən uydurulmuş bir addır. İlk Assuroloqlar Mesopotamiyanın aşağısında yerləşən ərazini yanlışlıqla bir sami sözü olan Sumer adlandırmışlar. Onlar doqmatik şəkildə iddia edirdilər ki, *Kienqi* ideoqramı fonetik qanunlara uyğun olaraq Sumer şəklində oxunur. Sumer adı uzun müddət assuroloqlar tərəfindən sami xalqı olan akkadlara aid edilirdi. Sonradan samilərin bu adı akkadla əvəz edildi. Artıq on illərdir ki Sumer Mesopotamiyanın ilk sivil imperiya insanlarının adı olaraq istifadə edildiyindən biz də onu bu şəkildə istifadə etməyə məcburuq". (Waddell L. The Makers of Civilization in Race and History. London 1929, Səh. 5)

Sumerlər özlərini heç vax Sumer adlandırmamışlar. Onlar özlərini kienqir, ölkələrini isə Kalam adlandırmışlar. Sumer sami akkadların kienqilərə verdikləri addır. Sami akkadlar Sumeri işğal etdikdən sonra, akkad kralları həmin ölkəyə verdikləri ada uyğun olaraq özlərini Sumer və akkad kralı adlandırırdılar. Bu ənənəyə uyğun olaraq ölkədə yenidən hakimiyyətə yiyələnən Sumer hökmdarları və eləcə də kassi və kuti hökmdarları özlərini Sumer və akkad kralları adlandırırdılar.

Subir sözünün mənası Sumer dilində düzənlik xalqı deməkdir. Bu söz Eden ideoqramı ilə yazılırdı və mənası düzənlik deməkdir. Sumeru isə yenə də Akkad sami dilində Su xalqı və ya əhalisi deməkdir. Digər bir varianta görə isə Sumer sözünün ikinci hissəsini təşkil edən amaru və ya maru sözü ikiçayarası deməkdir. Sumer dili lüğətlərində yazıldığı kimi Sumer adının sami dilində digər bir anlamı çay xalqı, yəni çay sahilində yaşayan xalq deməkdir. Ki-en-qir sözünun mənası, Ki-ölkə deməkdir, En-ağa, sahib, hakim deməkdir, Qir sözü Ki=ir söz birləşməsindən yaranıb mənası sulu yer və ya bataqlıq yer mənasındadır. Digər bir variantda isə Qir sözünün mənası yerli, əsl deməkdir. (The Chicago Assyrian Dicto-

nary, vol, 17, Ş part. III, 1992, P. 273-274 ; J. Halloran. 1999, Səh. 41. )

Yəni Kienqir sözünün mənası "ölkənin əsl sahibi, ağası" deməkdir. Bu söz gəlmə samilərdən fərqli olaraq sumerlərin yerli xalq olduğunu və ya onların bu ərazidə sami akkadlardan daha öncə məskunlaşmış olduqlarını təsdiq edən bir sübutdur. Bu Sumerlərin yalnız adında deyil, dillərinin adında da, öz əksini tapmışdır, sumerlər öz dillərini *eme-qir* adlandırırdılar ki, onun mənası "yerlilərin və ya əsilzadələrin dili" deməkdir.

Maraqlı cəhət burdadır ki, turanlı sumerlər özlərini Lu Kienqir adlandırdıqları kimi Turan padşahı Əfrasiyab da Şahnamə və digər əsərlərdə bəhs edildiyi kimi Turanın Kanqli (mənbələrdə bu ad bəzən Kanqlı bəzən də Kenqer şəklində yazılmışdır, lı-li türk dilində mənsubiyyət şəkilçisi olduğu kimi, er/ər sonluğu da Sumer dilində olduğu kimi kişi, adam, şəxs anlamındadır) hakimiyyət sülaləsinə mənsub idi. Heç şübhəsiz Turan padşahı Əfrasiyabın mənsub olduğu kanqlı/kəngər hakimiyyət sülaləsi boyunun kökü Sumer kienqirlərinə bağlıdır.

Sumer etnoniminin kökünü Su etnonimi təşkil edir. Su xalqı həm Sumerin, həm Subir xalqının, həm də Mesopotamiyanın şimalında və Zaqros dağlarında məskunlaşmış Sutu və ya Su etnosunun kökünü təşkil edirdi.

Amerikan sumeroloq Vilyam Stibinq Sumerlərin özlərini Kienqir adlandırdıqlarını və sözün "əsilzadə ağaların ölkəsi" demək olduğunu, açılışını Ki-ölkə, En-ağa, qir-əsilzadə/alicənab kimi şərh edir. (William H.Stiebing, 1994)

Bəzi bilim adamları güman edirlər ki, sumerlər dəniz yolu ilə Bəsrə-Kəngər körfəzi üzərindən gələrək Mesopotamiyanın güneyində və ya doğusunda məskunlaşmışlar. Digərləri belə fikir yürüdürlər ki, onlar quzeydən hərəkətlə Xəzər dənizi yaxınlığından keçib İranın şərqindən quru yolu ilə gəlmişlər. V.Stibinqin bəyəndiyi fikir ondan ibarətdir ki, Sumerlər batı İran ərazisindən gəlmiş və sonra onlar samilərlə birlikdə Ubeyd və Uruk dövründə güney Mesopotamiyada məskunlaşmışlar. İlk öncə akkadlar sumer dilini yazı dili kimi istifadə edirdilər, lakin 2330-cu ildən etibarən onlar sumer mixi yazı sistemini akkad dili qaydalarına uyğunlaşdırdılar. Təxminən e.q. 2000-ci ildən gec olmayaraq akkad dili Mesopotamiyanın quzey-doğusunda Assuriya, mərkəzdə və güneyində isə Babil dialektinə bölündü. (William H.Stiebing, 1994)

Mixi yazı mətnlərini ilk araşdıran XIX əsr tarixçi və linqvistləri bu yazını kəşf edən və Ön Asiyada ilkin mədəniyyətin əsasını qoyan xalqları öncə iskit/saklar sonra isə ümumi adla turanlılar adlandıraraq onları siyasi səbəblər üzündən birbaşa türk adlandırmaqdan ehtiyat etmişlər. Lakin həmin dövrdə yeganə olaraq böyük alman assuroloqu F.Hommel siyasi amillərə məhəl qoymadan bu qədim Ön Asiya mədəniyyətinin ilkin yaradıcıları kimi türklər üzərində qoyulmuş tabunu sındırdı. Öncələri Turan nəzəriyyəsinin əleyhdarı olan F.Hommel sumerlərin ədəbi və tarixi abidələrini dərindən öyrəndikdən sonra Turan nəzəriyyəsinin əsas



müdafiəçilərindən biri oldu və sumerlərin etnik kök və dil baxımından türklərlə qohumluğunu elmi və linqvistik dəlillərlə sübut etdi.

Assurologiya elminin gəlib keçmiş ən böyük sumerşünaslarından olan Hommelin fikirlərinin türklərin qədim tarixi üçün böyük elmi dəyərə malik olduğunu nəzərə alaraq onun əsərlərinin geniş şərhini verməyi lazım bildik.

Hommel 1885-1888-ci illər arasında qədim Ön Asiya tarixinə dair "Babillilərin və assuriyalıların tarixi", "Qədim Şərqin tarixi", "Antik dövrün tarixi və coğrafiyası", 1915-ci ildə isə "Sumer və akkadlar Altay xalqlarıdırlar" adlı sumerşünaslığın şah əsərləri hesab olunan fundamental əsərlər və çoxsaylı elmi məqalələr həsr etmişdir.

Hommel sumerlərin türk mənşəli olduqları haqqında yazırdı: "Mərkəzi Asiyanın türk mənşəli xalqı olan sumerlər Xəzər dənizi üzərindən dağ silsiləsini aşaraq Babilin güneyində məskunlaşmış, tarixin başlanğıc dövründə böyük bir mədəniyyətin əsasını qoymuşdular. Onlar yeni vətənlərində ölkənin təbii şərtlərinə uyğunlaşdılar. Hommelə görə sumerlilərin özadlandırmaları olan Kienqi sözünün sumercə mənası ölkə deməkdir, bu ad sonradan Sinqir kimi ifadə edilmiş və nəhayət, Shumir və Sumer şəklini almışdır. (Hommel F. 1885, Səh. 220)

F.Hommel yazır ki, Sumer dilində türkcə mənası "yer" demək olan "Kur" sözü mövcuddur və bu söz ölkə mənasındadır. Bu söz eyni zamanda "dağ" anlamı da daşıyır və bu sözlə Babilin şərqində yerləşən dağlar nəzərdə tutulur. Bu aydın şəkildə onu göstərir ki, Midiya ilə sərhəddə və ondan arxada yerləşən dağ silsiləsi sumerlərin ilkin vətəni olmuş və onlar sonradan Babilin cənubunda məskunlaşmışlar. Onların bu əraziyə gəlmə olduqları belə bir dəlillə sübut olunur ki, sumerlərin dilində aslan, at, Palma, üzüm sözlərini bildirən ideoqramlar mövcud deyil. Sumerlər cənub ərazilərində bitən bitki adlarının ifadə olunmadığı dillərini özləri ilə Xəzər dənizinin arxasında yerləşən Orta Asiyadakı vətənlərindən gətirmişdilər.

Hommelin yazdığına görə Sumerlərin özləri ilə gətirdikləri din Mərkəzi Asiyada türk xalqlarının etiqad etdikləri şamanizm dinidir. Onların islama qədərki dinlərində Yer və Göy ruhlarına etiqad başda olmaqla çoxsaylı şər ruhlarına qarşı ovsun və dualarla mübarizə kultu mərkəzi yer tutur.

Sumerlər Babilin cənububda dəniz sahilində çay vadilərində məskunlaşdıqdan sonra onların dini inamlarında yeni etiqad formaları təşəkkül tapdı. Onların şamanist dinləri tədricən samilərin dini inanclarının təməlini təşkil edən yeni bir forma kəsb etdi. (Hommel F. 1885, Səh. 253)

Hommel Oppert və Lenormanla birlikdə Turanizm nəzəriyyəsinin qəti əleyhdarı olan J.Halevinin sumer dilinə qarşı kəskin yazılarına elmi arqumentlərə əsaslanan tutarlı cavablar verərək yazırdı: "Fəratın vadisində məskunlaşaraq orda kanallar çəkən, mədəniyyətin əsasını qoyan, mixi yazını kəşf edənlər samilər deyil,

onlardan tamilə fərqli mənşəyə və dilə malik bir xalq olan sumerlərdir. Uzun illərdir ki, Parisli yəhudi əslli bilim adamı Halevi sumer dilinin canlı bir dil deyil, gizli bir şrift olduğu haqqında nəzəriyyə irəli sürmüşdür. Halevinin sumer dili haqqında gerçək olmayan nəzəriyyəsinə qarşı mən sadə faktlara əsaslanaraq sumer dilinin altay dilləri ilə qohumluğunu sübut edən dəlilləri bütün çılpaqlığı ilə ortaya qoyaraq sübut edirəm. Antropoloji tiplərinə görə samilərdən tamamilə fərqlənən Sumerlərin kəllə sümüyü uzunsov-dolixokefal, saçları qara, samilər isə yumrubaşlı braxikefal idilər". (Hommel F. 1885, Səh. 241-242)

Hommel fikrinə davam edərək yazırdı: "Beləliklə, biz Babilin şimalında e.q. IV minilliyin başlarında bir-biri ilə əlaqəsi olmayan iki xalq görürük. Bunlardan birincisi öz qanları və dilləri ilə Asiyada geniş yayılmış qədim türk altay tayfalarından ibarət olan Sumer və akkadlar. İkincisi bu əraziyə köçəri olaraq gələn Sami Babillər idi ki, onlar sumer mədəniyyətinə qovuşmuş və onu sonradan inkişaf etdirmişlər". (F.Hommel. 1885, Səh. 7)

F.Hommel dünyanın ən qədim mədəniyyəti olan sumer mədəniyyətinin yaradıcıları olan türklərin islam dinini qəbul etməklə ərəb sami mədəniyyətini mənimsəmələrini tarixin bir ironiyası hesab edərək yazırdı: "Sumerlər dünyada qədim mədəniyyəti yaratdıqları zaman onların qardaşları və əcdadları olan türk-tatarlar hələ də Asiyanın daxili çöllərində azad köçəri həyatı sürməkdə idilər. Türklərin Asiyadakı bu qədim qolu Orta əsrlərin başlarında sami ərəblərin islam mədəniyyətini qəbul etməklə ərəblərin türklərin azadlıq ruhunun simvolu olan qurda qalib gəlməsinə səbəb oldular. Ərəblərin İslam dinini qəbul edən türk-tatarlar bilmirdilər ki, Babil mədəniyyətinin müəllimi vaxtilə məhz onların özləri olmuşlar. Qədim sumer mədəniyyətini yaratmış olan türklərin ərəblərin sami mədəniyyətini qəbul etmələri tarixin bir ironiyası idi. (F.Hommel. 1885, Səh. 7)

Babil dövründən Sumer ərazilərində koloniyalar şəklində məskunlaşan və sumerlərlə bir o qədər də qaynayıb qarışmayan samilər sonradan assurlar adı ilə e.q. 1800-ci ildə meydana çıxdılar. (Hommel F. 1885, Səh. 6)

Qədim Mesopotamiya dillərinin və tarixinin görkəmli mütəxəssisi olan Artur Unqnad yazır ki, sumer dili bir çox dillərlə müqayisə edilsə də, bu dilin türk dilləri ilə müqayisəsində F.Hommelin əldə etmiş olduğu nəticə ən inandırıcıdır.

Ümumiyyətlə, assurologiya elmində sumer dilinin ari və sami dillərinə aid edilməsi cəhdləri ciddi tənqidlərə məruz qalsa da, bu günə qədər Hommelin sumer dilini elmi linqvistik əsaslarla türk dillərinə aid etməsini təkzib etməyə heç bir ciddi bilim adamı cəsarət göstərməmişdir.

Sumer dilinin araşdrıcıları sumerlərin "kienqi" adını yalnız ölkə deyil, həmçinin düzənlik anlamında da izah edirdilər. Bu məsələni şərh edən F.Lenorman yazırdı ki, Xaldey kralları "unqal Kienqi ki Akkad" ünvanı daşıyırdılar, bu Akkad və Sumer imperiyası krallarının daşıdığı ən yüksək ünvan idi. Uruk və digər şəhər kralları bu ünvanı daşımırdılar. M.Şrader bu titulu "Kienqi və Akkadın kralı" kimi oxudu. Burda Kienqi Sumer adının ekvivalentidir. Lakin "kienqi" sözü akkadca məhşur sözdür və mənası ölkə deməkdir. Mənə elə gəlir ki, ölkə və dağ kimi tərcümə olunan Kienqi və Akkad sözləri arasındakı əlaqə əslində düzənlik və dağ şəklində olmalıdır, çünki kienqi sözü həmçinin düzənlik anlamında da işlədilir". (F.Lenormant. 1877, Səh. 233)

Digər bir assuroloq A.Spayserin fikrinə görə "Kienqir" ideoqramı danışıqda "Kemer" kimi ifadə olunurdu, sumerlər özlərini "kienqir" adlandırırdılar. Samilər bu adı Semir və Sumer şəklində ifadə edirdilər. Sumerlər isə öz ölkələrini Kalama, yəni ölkə adlandırırdılar. Lakin onun mənasını dəqiq müəyyən etmək mümkün olmamışdır, bu şəhər mənasında da ola bilər. (Spayser A. 1930, Səh. 56)

İngiltərənin Oksford universitetinin qədim dünya tarixinə həsr etdiyi samballı çoxcildlik əsərdə sumer dilinin mənşəyi məsələsinə münasibət bildirərək yazılmışdır: "Sumer mədəniyyətinin aşkar edildiyi yüz il ərzində bütün araşdırma cəhdlərinə baxmayaraq, onların hər hansı bir xalqla qohumluq əlaqələrini müəyyən etmək mümkün olmamışdır. Avrasiyanın məlum olan dilləri içərisində onlara quruluş etibarı ilə ən yaxın olanı çoxlu şəkilçilərə malik türk dilləridir. Bu iki dil arasında bənzərliyi göstərən nümunə kimi əsasən türk dilindəki Tenqri adının sumer dilinin müxtəlif dialektlərində tanrı anlamındakı Dinqir, Dimmir və Tiher adları göstərilir". (The Cambridge Ancient History, 1970, Səh. 151)

Görkəmli türk bilim adamı Prof. Yusif Ziya Özer "Arilər və Turanlılar" adlı əsərində sumerləri türk mənşəli olduqlarını, linqvistik və tarixi dəlillərlə sübut edir və Səmərqənd şəhərinin adındakı Samar sözünü Sumer sözü ilə əlaqələndirən Yusif Ziya türkcə Tur və Ur sözlərinin göy-səma kimi izah edərək onları Tanrı adı ilə bağlı ən qədim türk tayfaları hesab edir. Tur adının Tanrı anlamı daşımasını sübut edən amil tarixin ən qədim türk boylarından olan çuvaşların tanrını Tura adlandırmalarıdır. (Yusif Ziya Özer, 1932, Səh. 343)

Onun fikrincə Türklərin qədim Ur tayfası Sumerdə Ur və Uriq şəhər dövlətlərinin əsasını qoymuşlar. Urdun ölkəsinin adı da Ur tayfasının adından yaranmadır. Avropanın müxtəlif ölkələrində kökünü Ur sözünün təşkil etdiyi çoxlu yer adları mövcuddur.

İtil Bulqar tarixçisi Baxşi İman "Cafqar tarixi" adlı əsərində sumerləri etnik mənşə baxımından türklər olduğunu və Bulqar türklərinin bir hissəsinin 12 min il öncə Volqa-Uraldan Ön Asiyaya gedərək orda sumer xalqını meydana gətirdiklərini, bir hissəsinin isə sonradan köçüb Kiçik Asiyada yerləşmiş və türk xalqının kökünü təşkil etdiklərini və Volqa boyundakı Samar şəhərinin Sumerin bulqarca adı olduğunu yazır. (Бахши Иман. 1993)

İsmail Mizi-Ulu prototürklər adlandırdığı Sumerlərin ilkin vətəninin kurqan mədəniyyətinin geniş yayıldığı Volqa və Yayik (Ural) çayları arası ərazilər olduğu

və onların e.q. IV minilliyin sonu və III minilliyin əvvəllərində Ön Asiyaya köçərək yerləşdiklərini yazır. O Sumer adının əslində "çay xalqı" demək olan Suv-ər sözünün samiləşdirilərək Somar-Sumər şəkli aldığı fikrini irəli sürür. (İsmail Mizi-Ulu. 1993, Səh. IX)

Əbülfəz Elçibəy Tövratın qədim ərəb dilindəki əlyazmalarında adı Cumər şəklində ifadə olunan Sumerin Məcuc, Maday, Yavan, Tubal, Maşak və Tirasla birlikdə Yafəsin oğlu olduğunun yazıldığını qeyd edir. Onu da əlavə etməliyik ki, tarixi ədəbiyyatda Yafəsin digər bir adı Türk oğlandır. Bu fakt sübut edir ki, Cumər/Sumer öz qardaşları ilə birlikdə türkdilli xalqlara mənsub olmuşlar. Cumərin də Əşkənaz, Rifas və Tuqarmə, daha dəqiq ifadə olunsa Turqama adlı oğulları olmuşdur. (Ə.Elçibəy. 2003, Səh. 28)

Bütün bu deyilənlərdən aydın olur ki, istər Sumer, istərsə də Subir adlarının kökündə Su kəlməsi durmaqdadır və sumerlərin və subirlərin eyni etnik kökə malik olduqlarını göstərir. "Sumeru" sami mənşəli akkadların özlərini Kienqir adlandıran Mesopotamiyanın güneyindəki sulu-bataqlıq ərazidə məskunlaşmış xalqa verdikləri addır. Əgər biz Sumer adını akkad dilinin etimologiyası əsasında izah etsək, o akkad dilində iki tərkibdən ibarət olub *Su-meru* şəklində yazılır.

Osman Nedim Tuna sumer dilindəki Sumer etnoniminin kökünü təşkil edən "Su" sözünü su, sulu yer, bataqlıq kimi tərcümə edir. (Osman N.Tuna. 1997)

Sumer dili lüğətlərində etnonimin kökünü təşkil edən *SU* sözü sumer dilində olduğu kimi türk dillərində də eyni ilə maye, su, toxum, rüşeym və soy anlamında izah edilir. (F.Delitzsch. 1913, Səh. 135-136)

Adın ikinci tərkib hissəsini təşkil edən *Meru* sözü isə akkad və ümumiyyətə, sami dillərində ölkənin sakini, əhali, xalq, oğul anlamı daşıyır və *Tur* loqoqramı ilə ifadə olunur. Beləliklə, Sumeru sözünün lüğəti mənası "Su xalqı" və ya əhalisi deməkdir. (F.Delitzsch. 1896, Səh. 390; D. Miller and M. Shipp. 1996, Səh. 73)

Sumerlərin Su xalqı adlanması onların məskunlaşmış olduqları sulu və bataqlıq ərazinin relyefi ilə əlaqədar olub, onların Sumer adlı vətələrinin və xalq olaraq da özlərinin sudan və çamurdan yarandıqları onların yaradılış əfsanəsində də öz dolğun əksini tapmışdır. Bu haqda Sumerlərin yaradılış əfsanəsi bölümündə geniş surətdə bəhs olunacaq.

*Su* etnonimi təkcə Sumer xalqının deyil, Ön Asiyanın sumerlərlə qohumluqları sübut edilmiş Sutu və Subir/Subartu xalqlarının və o cümlədən türklərin suvir/savir və su boyunun da etnik kökünü təşkil edir. Subar sözü Sumer mixi mətnlərində *Lu-Su* loqoqramı ilə yazılır və mənası Su xalqı və ya əhalisi deməkdir. (Joon Halloran. 1999, Səh. 15) Subartu bölümündə bu xalq haqqında geniş bəhs olunacaqdır.

Yuxarıda da, qeyd etdiyimiz kimi Sumerlər özlərini Kiengir adlandırırdılar, bu adın mənası "əsilzadə ağaların ölkəsi" deməkdir. Bu ad Sumer hökmran sülaləsinin öz ölkələrinə verdikləri addır. Sumerin bütöv xalqı isə sumercə *Lu-Su* adlanırdı və anlamı "su xalqı" deməkdir.



Sami Akkadların bu xalqa verdiklər Sumeru adı da sumercə Lu Su adının tərcüməsidir və anlamı yenə də "su xalqı" deməkdir. Qaraxanlılar, Səlçuklar, osmanlılar, qacarlar, əfşarlar öz dövlətlərini hakim sülalənin adı ilə Qaraxanlı, Səlçuk, Osmanlı, Qacar, Əfşar dövləti adlandırırdılar. Bu dövlətlərin əhalisi isə türklər idilər və digər xalqlar da onları eyni ilə türklər adlandırırdılar.

## Sumerin sosial və siyasi quruluşu

Sumerlərin İkiçayarasına gəlmədən öncə ilk məskənlərinin Dilmun adlı adada olduğu haqqındakı xatirələri "Enki və Ninhursanq" dastanında öz əksini tapmışdır. Dilmundakı həyat onların təsəvvüründə cənnətin timsalı olub insanların yaşadığı "qızıl dövrü" əks etdirirdi. Bir çox araşdırıcı Dilmunu Bəhreyn adası ilə eyniləşdirir. Lakin Bəhreyndə arxeoloji araşdırmalar sonucu aşkar edilən mədəniyyət izləri İkiçayarası mədəniyyətindən sonrakı dövrə aid olub. Elmi araşdırmalar müəyyən etmişdir ki, Dilmunun sumerlilərin ilkin vətəni olması haqqındakı ideya mesopotamiyanın daha gec dövrlərə aid mixi mətnlərinin mifoloji konstruksiyasından ibarətdir.

Sumer şəhər dövlətlərinin birliyindən yaranan konfederativ bir dövlət quruluşuna malik idi. Hər bir şəhər dövləti *ensi* adlanan bir yönətici tərəfindən idarə olunurdu. Ensi həmin şəhərin inzibati yönətici rəhbəri olmaqla yanaşı həm də dini rəhbər kimi baş rahibi roluna malik idi. Ensinin başlıca vəzifəsi şəhərdəki məbəd icmaları arasında koordinasiya yaratmaq idi. Hər bir şəhərin sosial həyatı məbəd icmalarının toplusundan ibarət idi. Bir çox sumeroloqun rəyinə görə icmalar qəbilə mənsubiyyətinə görə təşkil olunurdu. Hər bir şəhərin himayəedici tanrısı vardı. Bu şəhər tanrıları həmin şəhərin, onun əhalisinin və onun rahib-kralının simvolu idi. Hər şəhərdə onu himayəçisi olan tanrıya onun adını daşıyan bir məbəd inşa edilirdi. Şəhərin və onun məbədinin əsasını qoyan hər hansı bir şəxsin deyil, həmin tanrının adı ilə adlandırılırdı. Şəhərlər arasındakı savaş və müəyyən əlaqələr himayəçi tanrıların savaşı şəklində təqdim olunurdu. Sumerdə tanrılar ata ruhunu təmsil edirdilər. Şəhər dövlətlərinin tanrıları hakimiyyətin bu və ya digər sülalə mənsubiyyətini əsaslandırılmasında önəmli ideoloji rol oynayırdı. Həyatda baş verən bütün hadisələr tanrının və onunla bağlı eponim qəhrəmanların fəaliyyəti ilə əlaqələndirilərək izah olunurdu.

Hökmranlığın və hakimiyyətin mifik mənşəyi mütləq şəkildə hansısa bir tanrının himayəsi ilə əlaqələndirilirdi. Tanrılar çox zaman insani və tarixi keyfiyyətlərə malik olurdular. ( Mario Liverani. 1988. Səh. 109)

Görkəmli sumeroloq Torkhild Yakobsen Sumer cəmiyyətini ibtidai demokrati-

yanın hakim olduğu bir ölkə kimi dəyərləndirirdi. Məbəd icması siyasi xarakter daşımayan bir dini institut olub icmanın sosial həyatını tənzim edirdi. Siyasi hakimiyyət öncələri vətəndaşlara məxsus idi. Şəhərin tanrısının rəhbərlik etdiyi ali hakimiyyət şəhərin bütün azad kişi vətəndaşların iştirak etdiyi və bir qrup icma ağsaqqalının yönətdiyi icma məclisinə məxsus idi. Şəhər tanrıları insan surətində təsəvvür olunurdular, insan emosiyalarına malik idilər, insanlarla eyni mühitdə yaşayırdılar və siyasi cəhətdən demokratik prinsiplər əsasında təşkil olunmuşdular. Tanrılar insanlarla eyni sırada icma məclislərinin müzakirələrində fəal iştirak edirdilər. İcma məclislərinə adətən tanrıların atası Göyüzü tanrısı An rəhbərlik edirdi. Lakin *Anu* hakimiyyəti hava tanrısı Enlillə bölüşürdü. Anu və Enlil məclisə müzakirə üçün məsələlər də təqdim edirdilər. Tanrılar fikir mübadiləsi aparır və məsələlərə aydınlıq gətirirdilər. İcma məclisi icmalar arasındakı münaqişələri həll edir, sülh və müharibə haqqında qərarlar qəbul edirdi. Ehtiyac olduğu təqdirdə icma öz içərisndən birinə ali hakimiyyət səlahiyyətləri verərək unu "ensi", yəni hakim seçirdi. İcma məclisi və ağsaqqallar şurası kralların hakimiyyətinə nəzarət edib lazım olduğu təqdirdə onu məhdudlaşdırmaq hüququna malik idilər. (Torkhild Jakobsen. Journal of Near Easten Studies. Chicago, 3/2, Juli 1943, Səh. 159-172)

Sumerdə hər bir şəhər o şəhərin əhalisini doğuran anadır, ona görə də Sumer mifologiyasında şəhər tanrıçaları şəhərin və onun torpağının Torpaq ana tanrıçasıdır. Sumerdə bu və ya digər şəhərin sakini həmin şəhərin övladı hesab olunurdu və həmin şəhərin adı ilə "Unuq Tur", "Eridu Tur", yəni "Unuqun oğlu" və ya "Erudinin oğlu" adlanırdılar. Sumer mifologiyasında şəhər və ümumiyyətlə sumerlini öz məhsulu ilə bəsləyib yedirən torpaq ana bətni hesab olunaraq kutsallığa malik idi.

Şəhərin siyasi idarəçilik təşkilatı olan icma məclisi yüksək dərəcədə güclü mənlik və özünü təsdiq şüuruna malik idi. İnsanın özü tərəfindən yaradılmış bu sosial institut cəmiyyətin ilkin dövrlərindəki ailə və qəbilə bölgüsünü əvəz edirdi. Burda insanlar arasındakı qarşılıqlı münasibəti qohumluq əlaqələri deyil, birgə həyat şəraiti müəyyən edirdi. Şəhər icması hər hansı bir kənar yabançı hakimiyyəti və ya avtoriteti qəbul etmirdi. Şəhərin hər hansı bir hakimiyyətin üstünlüyünü qəbul etməsi zorakılığa əsaslanmayıb könüllü xarakter daşıyırdı, çünki onun suverenliyi şəhərin icmasına məxsus idi. Hər bir şəhər himayəçi tanrının rəhbərliyi altında şəhər icmasının yerli avtonomiyaya malik olduğu, hər bir vətəndaşın ortaq mənfəət maraqlarının təmin edildiyi və xalq kütlələrini nəzarətdə saxlayan və cari işlərə rəhbərlik edən bir qrup nüfuzlu şəxslərdən ibarət oliqarxların timsalında icma rəhbərliyi mövcud idi. Azad insanlardan ibarət İcma ali siyasi hakimiyyətə malik idi. İcma məclisində hər hansı bir məsələnin ağsaqqallar şurasının rəhbərliyi altındakı müzakirəsi əməli çoxluq əldə edilənə qədər davam edilirdi. Ağsaqqallar şurası məclisin işinə rəhbərlik etsələr də ali hakimiyyətə malik deyildilər. Çoxluğun iradəsinə tabe olunması andiçmə ilə ifadə olunurdu. Şəhər "ensi" adlanan hakim tərəfindən idarə olunurdu və o həmçinin dini rəhbər rolunu yerinə yetirirdi. Ensi şəhəri ya icma adından, ya da şəhərin tanrısı adından idarə edirdi. Sumer şəhərində fövqəladə hallarda hər hansı məqsədəuyğun fəaliyyət və ya təcili bir qərarın qəbul olunması tələb olunarkən onun həyata keçirilməsini "böyük adam" demək olan "luqal" adlanan krala həvalə edirdilər. Kral hakimiyyəti "bala" adlanan dönüşümlü mahiyyət daşıyıb zaman baxımından məhdud xarakter daşıyırdı. (H.Frankfort. 1959, Səh. 69-79)

Sumerdə Türklərdə olduğu kimi hökmdarlara tanrı tərəfindən kut verilməklə hakimiyyətləri qanuniləşdirilirdi. Sumerlərdə Kuta sözünün anlamı türklərin Kut sözü ilə eyni anlam daşıyır. Göründüyü kimi Türklərdə hökmdara tanrı tərəfindən Kut verməк gələnəyinin kökü Sumerlərə bağlıdır. (M.Liverani, 1988, Səh. 156)

Akkad kralı Sarqonun Nippurda aşkar edilmiş kitabəsində yazılmışdır ki, o Kişin kralı kimi tanrı Anu tərəfindən ona Kuta verilmişdir, kutsanmışdır, yəni məsh edilmişdir, mühafizə və himayə edilmişdir. (M.Liverani, 1988, Səh. 123)

Sumer tarixi Tufanaqədərki və Tufandansonrakı olmaqla iki dönəmdən ibarətdir. Sumerdə ilkin mədəniyyətin mərkəzi Eredu şəhər dövləti olmuş və hakimiyyət taxtı ilk olaraq göylərdən bu şəhərə nazil olmuşdur. Eredu tufan nəticəsində tənəzzülə uğradıqdan sonra onun sakinlərinin bir qismi e.q. XXIII əsrdə Fərat çayının yuxarı axarında sonradan Babil adlanan Ka-Dinqira şəhərinin əsasını qoymuşlar. Ka-Dinqira tanrı qapısı deməkdir. Burda Enkinin oğlu tanrı Marduk-Amar-utuya və ya əsl adı ilə tanrı Tur-Utuya, yəni Utunun öküzünə həsr olunmuş məbəd mövcud idi. (*Дьяконов И.М.* 1959. səh. 165. )

Amerikan assuroloqları Vilyam Hall və Vilyam Simpsonun yazdığına görə Sumerin ilk kralı tufana qədərki dövrdə Erudu şəhərinin kralı olub öküz və ya erkək maral obrazında təmsil olunan Alu-lim adlanır. Alu-limin digər bir mixi işarə oxunuşu Ukusdur. Yarım əfsanəvi hökmdar olan Alu-limin hakimiyyəti Cəmdət-Nəsr dövrünə aid olub, m.ö. XXX əsrə aid edilir. İlahi mənşəyə malik Alu-limin hakimiyyətindən sonra İkiçayarasının sel suları altında qərq edən tufan baş vermişdir. Əfsanəyə görə Alu-lim 28800 il hökm sürmüşdür. (Hall William. Simpson William Kelli. 1971. Səh. 32)

Mixi idioqramı ilə Ukus kimi ifadə olunan Alu və Alim adının sumer-akkad dilində mənası vəhşi öküz deməkdir. Sumerin ilk kralı Ukusun adının öküz anlamı daşıması onun türklərin ulu xaqanı Oğuzla eyniləşdirilməsi fikri doğurur. Bəzi araşdrıcılar Alu-limi Bibliya əfsanələrindəki ilk insan Adamla eyniləşdrirlər. Alulimidən sonra krallıq Alal-qara məxsus olmuşdur, o 36 min il hökm sürmüşdür.

Sumerin Tufana qədərki dövrdə hökmdarlarının hakimiyyət dövrlərinin min illər ərzində davam etməsi haqqında mixi lövhələrdə əks olunan bilgilər Sumer

tarixinin başlanğıcının güman edildiyindən daha qədim köklərə malik olduğunu sübut edir.

İngili assuroloqu Leonid Vaddelə görə isə Ukus Kiş salnaməsinə görə birinci Sumer sülaləsinin ilk kralıdır. O Ukusinin hakimiyyət dövrünü m.ö. 3378-3349-cu illər olaraq göstərir. Ukusi sonrakı Sumer kralları dövründə Tur ünvanını qəbul etmişdir. Sumer-akkad kralı Böyük Sarqonun da adı Misir kitabələrində titulu Ukus adlanır. (Waaddell L. 1929, Səh. 62, 78)

Kiş xronikasına görə ilk Sumer sülaləsinin banisi olan Ukusinin adı sumer mixi ideoqramlarının müxtəlif oxunuş variantlarında Qusur, Ukuşu və Qaur kimi də ifadə olunur. Vaddelə görə günəşə sitayiş edən ilk Sumer kralları Tor, Tur, Ar-Tur kimi titullar daşıyırdılar. Sumerli Odin, Od və ya Adam mis dövründə m.ö. 3378-ci ildə Kiçik Asiyada ilk şəhəri salmış, burda sumer yazısından istifadə etmiş, kənd təsərrüfatının, monoqam nigahın əsasını qoymuş və oddan istifadəni inkişaf etdirmiş, ilkin mədəniyyətin və sənaye istehsalının əsasını qoymuşdur. Bütün bunlar Kiş hökmdarı Ukusinin dövründə baş vermişdir. (Waddell L. 1929, Səh. 468)

Sumerin Umma şəhər dövlətinin ilk hökmdarı və ya patesisi də Ukus adlanmışdır. O sumerin məhşur kralı Luqal-Zaqqesinin atası idi. Görünür ki, Ukus Sumerin qədim hökmdarlarının hakimiyyət titulu olmuşdur. Sumerin ilk kralı Ukus ilə Öküz adı maraqlı assosiasiya yaradır və Oğuz adı ilə bənzərlik təşkil edir.

Sumerlilər sonradan akkad adlanan samilərlə ilk dəfə sumercə Ki-uri, yəni şimaldakı məskən və ya ərazi adlanan Fərat və Dəclənin yuxarı hövzəsindəki ərazidə rastlaşmışlar. Samilərin Varum adlandırdıqları həmin ərazi Sarqonun dövründə onun özünə paytaxt etdiyi burdakı Aqade şəhərinin adı ilə Akkad adlanmışdır. Hələ e.q. XXIV əsrdə bu ərazidə samilər çox seyrək əhali kütləsinə malik idilər və başlıca olaraq heyvandarlıq, karvan ticarəti və müharibə, yəni soyğunçuluqla məşğul olurdular. Samilər əsas etibarı ilə qeyri oturaq çoban tayfalardan ibarət idilər. (Дьяконов И. М. 1959, Səh. 166. )

Sami akkadların Sarqonun başçılığı ilə Sumerdə qiyam nəticəsində hakimiyyəti zəbt etməsindən sonra Sumerin şəhər dövlətlərinin federativ əsasda birləşərək seçilmiş kral-ensilər tərəfindən idarə olunmasına son qoyuldu. Akkad dövlətinin yaradıcısı Sarqon Kiş krallığının 83 yüksək vəzifəli məmurlarından biri idi. M.ö. 2340-cı ildə o Aqade adında öz şəhər dövlətini yaratdı və sonradan Uruk şəhərini ələ keçirmiş Luqalzaqqesiyə qalib gəldi və ardınca digər şəhərləri də ələ keçirib İkiçayarasında monarxiyaya əsaslanan ilk imperiya dövlətinin əsasını qoydu. Araşdırıcılar onun sami mənşəli olduğunu iddia edirlər. Onun sumer ərazilərini işğalından sonra yaratdığı hakimiyyəti dövründə yazı işləri sami dilində aparılmağa başladı. Sarqonun titulu "dörd cəhətin kralı" idi ki, İkiçayarasında hakimiyyət sürmüş gələcək hökmdarlar da bu ünvanı mənimsəmişdilər.



## Sumerlər, subirlər və onların ilkin vətənləri haqqında

İkiçayarasının ən qədim sakinlərindən olan subarlar və ya subirlərlə sumerlərin əlaqələri sumerşünaslığın ən maraqlı problemlərindən biridir.

Hititşünaslıq və assurologiya elmi üzrə böyük avtoritet hesab edilən alman əsilli İsveçrəli Emil Forrer Sumer və subirlərin eyni etnik kökə malik olduqlarını və subir dilinin sumer dilinin bir dialekti olduğu fikrini müdafiə edirdi. Forrer Ön Asiyanın bir çox qədim dillərinin, o cümlədən Kiçik Asiyanın qədim xalqı olan xatti dilini də sumer dili ilə əlaqələndirir və onları birlikdə arilərə qədərki Hatti-sunqir Avtoxton xalqı adlandırır. (Emil Forrer. Journal Asiatuque, Paris 1930 okt-dec. Səh. 227-228)

İ.Qelb də sumerlərin və subarların eyni kökə malik olduqları haqqındakı fikri dəstəkləyir. O sumerlərin irqi mənsubluğu haqqında öncəki dövrlərdə irəli sürülən fikirləri qəbul etmirdi. Onun irəli sürdüyü nəzəriyyəyə görə İkiçayarasının güneyindəki qədim toponimlər İkiçayarasının quzeyindəki sumer hesab edilməyən yer adlarına bənzəməkdədirlər. O sumerlərin sami olduqları haqqındakı fikirləri rədd edərək onların dillərinin subarlara aid bir substrat dil olduğu fikrini irəli sürürdü. (Gelb İ.Hurrians and Suberians, 1944. )

H.Frankfortun irəli sürdüyü nəzəriyyəyə görə sumerlər Ubeyd dövründə Zaqros dağları tərəfdən gələrək Mesopotamiyada məskunlaşan ilk sakinlər olmuşlar. Başlanğıcdan 3-cü minilliyin ortalarına qədər İkiçayarasında hakim olan sumer dili sonradan akkadların sami dili ilə əvəz olundu. Daha sonra onları assurlar əvəz etdilər. Lakin bütün tarix ərzində İkiçayarasının qədim mədəniyyəti öz ilkin sumer özəlliyini qoruyub saxlamışdır. Sumerlər zikkurat məbədlərini dağı simvolizə edən süni təpəciklər üzərində ucaldılırdı. Tanrılara həsr olunmuş ziqquratların adına mütləq dağ, yəni *kur* sözü əlavə olunurdu. Dini mahiyyət daşıyan "Dağ" sözü Sumerlilərin təsəvvüründə müqəddəs Yer ilə Göy arasında birləşdirici funksiyanı yerinə yetirərək bağ rolunu oynayırdı. Sumerlərin dini etiqadına görə "Dağ" yerin və bütün təbiətdəki həyatın sirli enerjisinin cəmləşdiyi mərkəzdir. Sumerlər tanrı ilə ünsiyyəti süni təpələr üzərində ucaltdıqları dağ formasındakı məbədləri vasitəsilə həyata keçirirdilər.

Amerikalı assuroloq H.Frankfortun yazdığına görə Uruk dövründə Mesopotamiyaya gələn samilər onun şərqində məskunlaşaraq sumerlərlə onların ilkin vətənləri olan Zaqros dağları tərəfdəki qohum tayfaları olan elam, quti, kassi və s. ilə aralarındakı əlaqəni pozmuşlar. (H.Frankfort. 1951. Səh. 57-58)

F.Lenorman da sumerləri Turanlı mənşəyə malik olub qədim tarixi dövrlərdə Sumeri, türkləri, finləri və tatarları öz tərkibində birləşdirən, alimlərin Turan adlandırdığı bəşəriyyətin böyük qoluna mənsub hesab edir və ilkin vətənlərinin şərqdə Aral dənizi ətrafında olduğunu yazır. (Lenormant F. 1884, Səh. 47)

Rus assuroloqu Zinaida Raqozina da sumerlərin köklərini Altayla əlaqələndirərək yazır ki, Sumerlərin yazı işarələrində yaşadıqları ərazidə bol olan palma və şiri göstərən uyğun yazı işarələri yoxdur, şiri onlar ur-maq böyük it işarəsi ilə göstərirlər. Lakin onlar Sumer ərazisində mövcud olmayan metalların bütün kompleksini göstərən uyğun yazı işarələrinə malikdirlər. Bu fakt onu göstərir ki, sumerlərin gəldikləri ərazidə zəngin metal mədənləri mövcud olmuşdur ki, bu da Altay və ya digər dağlıq ərazi ola bilər. Bu gün də Altaylarda çox saylı turan tayfaları yaşamaqda davam edirlər. (Рагозина З., 1902. Səh. 167)

Digər bir alman assuroloqu H.Vinkler də aydın şəkildə sumerlərin türklərlə qohumluq əlaqələrinə malik olduqlarını qeyd edir. "Babil mədəniyyətinin mənbəyini sami xalqları deyil, sumerlər qoymuşlar. Sumerlərin dili samı və hind-avropa dillərindən tamamilə fərqlənir və qruluşuna görə tatar dilinə bənzəyir. Babilin cənubunda yaşayan sumerlər üçün bu dar ərazi zolağının kifayət etdiyini düşünmək yanlış olar. Yəqin ki onlar daha geniş bir əraziyə yayılmışdılar ki, Mesopotamiyanın şərqində məskunlaşmış qeyri sami Elam xalqı da onlara qohum xalq kimi görsənir". (H.Winckler. 1892, Səh. 20)

Subartu dilinin və tarixinin əsas tədqiqatçısı və "Subarizm" nəzəriyyəsinin banisi alman alimi Artur Unqnad da öz əsərlərində sumer dilinin və tarixinin araşdırılmasına geniş yer vermişdir. O, sumerlər haqqında yazır: "Fərat və Dəclə çaylarının mənsəbində aşkar edilən qədim abidələr bu ərazidə qədimdən məskunlaşmış iki müxtəlif dil daşıyıcılarını və iki fərqli irqə mənsub xalqın mövcudluğunu təsbit etməyə imkan verir, Dəclənin şərqində elamlıları və qərbində sumerləri. Bi iki xalq regionun avtoxton xalqları və ya ən erkən tarixi dövrdə bura gələrək məskunlaşmış insanlardırlar. Sumerlər tarix öncəsi zamanlarda burda yerləşərək mixi yazını kəşf etmiş xalqdır". (A.Ungnad. 1923, Səh. 4)

Artur Unqnad tarixdə "Aral" irqi adlı nəzəriyyənin banilərindən biridir. Unqnad sumer irqini Aral irqi adlandırmağın daha doğru olduğu fikrini irəli sürür. (A.Ungnad, Subartu, Səh. 4)

Unqnad Xəzər dənizinin güney-doğusunda Damqan yaxınlığında aşkar edilən m.ö. 4-cü minilliyə aid Tepe-hisar arxeoloji mədəniyyətinə mənsub uzun başlı-dolixokefal insanlarının Orta Asiyadakı Aral dənizi mənşəli olduqlarını yazır. Onlar sonradan Amudərya və Sırdərya vadilərinə, daha sonra Hindistana və quzey-batıya doğru hərəkət edərək Babilə qədər yayılmışlar. Bu mədəniyyətə mənsub insanların hind-ari irqinə aid edilməsinə qarşı çıxan Unqnad onları "aral" irqinə mənsub hesab edirdi. (Ungnad A. 1936, Səh 6)

A.Unqnad sumerlərin mənşə etibarı ilə dağlı xalq olduğunu şərh edərək yazırdı: "Sumerlər Babilinin, yəni İkiçayarasının sel sularından azad olmuş seyrək əhaliyə malik ərazisinə gələrək oranı məskunlaşdırmışlar. Arxeoloji dəlillər də sübut edir ki, sumerlər İkiçayarasının ilk sakinlərindən olmuşlar. İlkin vətənlərinin dağlıq yerdə olduğunu xatırlayan sumerlər öz məbədlərini suni dağ şəklində inşa edirdilər, onlar inanırdılar ki, tanrıları İkiçayarasını doğu tərəfdən əhatə edən dağlarda yaşayırlar və onların bu dağ şəklində inşa etdikləri məbədləri ziyarət etməyə gəlirlər. Sumerlərin ilahəsi Ninhursaqa dağların sahibidir, sumerlərin baş tanrılarına ayinləri icra etmək üçün yaratdıqları süni dağlar, dağ formasındakı məbədləri, Babildə ucaltdıqları və dağı təcəssüm etdirən nəhəng qüllə onların əsgi zamanlarda dağa tapındıqlarını sübut edir. Ancaq bu sıradağlar onların Babildə məskunlaşdıqları ərazidən çox uzaqlarda yerləşirdilər. Sumerlər Mesopotamiyaya gəlmədən öncə yaşadıqları ilkin vətənlərində Dağ tanrılarına sitayiş edirdilər". (Ungnad A. 1936, Səh. 10)

Artur Unqnad və bir çox digər müəlliflərin də təsdiq etdikləri kimi Sumerlər düzənlik əraziyə gəldikdən sonra dağ tanrılarına olan etiqadlarını yaşatmaq üçün öz tanrılarının şərəfinə pilləli təpələr şəklində *E-kur* adlanan müqəddəs dağ məbədləri ucaldırdılar. İlkin vətənlərinin dağlıq ərazidə olduğu haqqındakı təsəvvürləri sumerlərin dillərində də öz əksini tapmışdır. Onlar doğu küləyini "im kura" adlandırırdılar.

Unqnad sumerlər haqqında bütün bu dəlilləri nəzərə alaraq onların ilkin vətənlərinin Pamirin batısında, Amudərya (Oksus) vadisində, yəni indiki Türkistanda olduğu fikrini müdafiə edir. Unqnad sumerlərin Amudərya vadilərindən Gəldikləri haqqında onun nəzəriyyəsinin Koppersin araşdırmaları ilə də təsdiq olunduğunu qeyd edir. O Pumpellinin arxeoloji ekspedisiyasının Doğu Türkistandakı araşdırmalarının nəticəsində əldə etdiyi dəlillərə əsasən sumerlərin əcdadları olan əhalinin baş verən iqlim dəyişikliyi səbəbi ilə öz yerlərindən köçlərə məruz qaldıqları fikrini müdafiə edir. (Ungnad A. 1936, Səh. 11)

Unqnadın ehtimalına görə dünyada qaramal bəsləyən ən qədim xalq olan sumerlər qədim vətənləri olan Cənubi Sibirdən Oksus (Amudərya) bölgəsinə gəlmiş, sonra ordan da hərəkət edərək ilk öncə Aralıq dənizi ətrafındakı, yəni Zaqros dağları və ətraf ərazilər olan qədim vətənlərində məskunlaşmış, ondan sonra Babil-İkiçayarası ərazisinə yenmişlər. (Ungnad A. 1936, Səh. 12)

Unqnad qafataslarının arxasında dik çıxıntıya malik insanları Ön Asiyanın ən qədim xalqı adlandırır. Bu çıxıntı antropologiya elmində "Tuberkulum turkum", yəni "türk çıxıntısı" adlanır.

Unqnad İkiçayarasında ilkin mədəniyyətin əsasını qoyan bu insanların məskunlaşdıqları ərazinin Suriyanın quzeyini, İkiçayarasını və sonradan Assuriya adlanan ərazini əhatə etdiyini və hamin ərazilərin birlikdə ən qədim zamanlarda Subartu adlandırıldığını yazır. Qafataslarının arxasında dik çıxıntı olan bu insanlar subar irqini təşkil edərək subar dilinə və özəl bir subar mədəniyyətinə malik idilər. (Ungnad A. 1936, Səh. 23)

Unqnad İkiçayarasının qədim sakinləri olan sumerləri və subir/subarları fərqli irqlərə mənsub insanlar hesab edirdi. Onun fikrinə görə Subirlər İkiçayarasının samilərdən və sumerlərdən öncə burda ilkin mədəniyyətin əsasını qoymuş Ön Asiya və taur (dağlı) irqinə mənsub xalq hesab edirdi. Unqnad samiləri şərq-Aralıq dənizi irqinə, sumerləri isə Orta Asiyadan gəlmə "Aral" irqinə aid edirdi. Sumerlər əsası subirlər tərəfindən qoyulmuş ilkin mədəniyyəti inkişaf etdirərək onu yüksək səviyyəyə çatdırmış, samilər isə bura daha gec dövrlərdə qədəm qoymuşlar.

Unqnad Sumerlərin Mərkəzi Asiyadan gəldikləri faktını belə bir dəlillə əsaslandırırdı ki, Sumer yazı işarələri ilə çin heroqlifləri arasında əlaqənin mövcudluğunu inkar etmək mümkün deyil. Bu fakt onu göstərir ki, sumerlər mükəmməl bir şəklə malik olan yazı işarələrini Babildə deyil, gəldikləri ilkin vətənlərində kəşf etmişdilər. Bele bir amil düşündürücüdür ki, çinlilərin öküz anlamı daşıyan *"qud"* sözü Sumerlərin "qud" sözündən yaranmışdır. Hind-avropalılar da öküz anlamındakı "qou" sözünü sumerlərdən götürmüşlər. (Ungnad A. 1936, Səh. 12)

Unqnadın bu fikri ondan daha öncə İngilis sumeroloqları Ceyms Ball və Devid Littin 1913-cü ildə Çin və Sumer dillərinin müqayisəsinə həsr olunmuş əsərində də öz əksini tapmışdır. Onlar əksər tədqiqatçıların qəbul etdikləri belə bir fikrə əsaslanırlar ki, sumer yazısının ilkin variantı şəkilli-piktoqrafik və ya heroqlif xarakterə malik olmuşdur. Lakin sonrakı inkişaf mərhələsində hələ 4-cü minilliyin uzaq dövründə bu yazı tədricən ortadan qalxmış və mixi yazı işarələri ilə əvəz olunmuşdur. Ancaq bu şəkli təsvir tam şəkildə qeyb olmamış, xətti yazı sistemində də günəş, ay, ulduz, su, ağac, insan və s. kimi təbiət hadisələrinin təsvirlərini ifadə edərkən onların piktoqrafik təsvirlərini özünə məxsus simvollar şəklində əks etdirməyə davam etmişdir.

Beləliklə, Çin heroqliflərinin Sumer mixi xətti yazı sistemi ilə əlaqəsi artıq sübut olunmuşdur. Eyni zamanda çin dilinin sumer dili ilə əlaqəsi bu dillərdəki bir çox sözlərin paralel müqayisəsi zamanı da meydana çıxmışdır.

Ceyms Ball və Devid Litt çin dilində yüzlərlə sözü və onlardan yaranan söz birləşmələrini sumer dilindəki sözlərlə müqayisə edərək onların məna baxımından eyniliyini müəyyən etmişlər. (C.Ball and D. Litt. 1913. )

Sumer uyqarlığı İkiçayarasından xaricdə də geniş bir sahəyə yayılmışdı. İngilis assuroloqu Sidney Smit yazır ki, Xəsər dənizi yaxınlığında Astrabadda tapılmış bir çox əşyalar ilkin sumer mədəniyyəti nümunələri ilə bənzərlik təşkil edir. Bu əşyaların Babildən aparıldığı və həmin dövrdə İkiçayarasından Xəzərə doğru böyük bir ticarət yolunun mövcud olduğu sübut olunur. (S.Smith. 1928, Səh. 52)

Sumer hakimiyyətinin təsir dairəsi ona məxsus olan silindrik möhürlərin yayılma arealı ilə müəyyən olunur. Sumer silindrik möhürləri Troyada, Misirdə və İranın şimal şərqində Xəzər sahillərində də aşkar edilmişdir. (Frankfort H. 1951, Səh. 84-85)

Sarqonun hakimiyyəti ilə başlayan sami ağalığı dövründə sumerlər özlərini "qarabaşlılar" adlandırırdılar ki bu onların həmin dövrdəki hakim deyil, tabeçilik vəziyyətini özündə əks etdirirdi.

Frankfortun yazdığına görə sumerlərin ənənəvi hakimiyyət idarəçilik sisteminə son qoymuş Akkad ağalığı bütün İkiçayarası tarixinin faciəvi dövrünü təşkil edir. İkiçayarası şəhərlərinin Akkad ağalığına qarşı üsyanları yeni-yeni işğallara səbəb olmuşdu. M.ö. 2018-ci ildə Akkad sülaləsinin hakimiyyətinə Zaqros dağları tərəfdən gələn Qutilər tərəfindən son verildi. M.ö. 2025-ci ildə Elam dövlətinin amorilərlə birlikdə hərbi təcavüzü Urun 3-cü sülaləsinin hakimiyyətinə son qoydu.

Bir çox müəlliflər Sumerdə Qutilərin hakimiyyət dövrünü mənfi çalarlarla təsvir edir, onların hakimiyyətini sami amorri tayfalarının dağıdıcı təsiri ilə eyniləşdirirlər.

Lakin ingilis assuroloqu L.Vaddel Sumerdəki hakimiyyətləri dövründə krallarının Tur titulu daşıdıqları Qutilərin sumerdəki hakimiyyət dövrünün Sumer tarixinin "qızıl dövrü" adlandırıldığını yazır. Qutilər Sumerdə mədəniyyətin çiçəklənmə dövrünə səbəb oldular. Bu dövr təkcə Sumerin intibah dövrü deyil, bütünlükdə qədim dünyanın intibah dövrü adlanır. M.ö. 2495-ci ildə Erexi işğal etməklə Mesopotamiyada Quti hakimiyyət sülaləsinin əsası qoyuldu. Quti tayfasını "Kral hakimiyyətini zəbt etmiş Quti ordusu" kimi adlandırırdılar. Qutilər haqqında ilk məlumatı 1911-ci ildə Prof. Şeyl vermişdir. Vaddell Quti və Khati adlarının eyni mənşədən olduqlarını və onların eyni xalq olduqları fikrini irəli sürür. (Waddell L.A. 1929. Səh. 358. )

Hititlərin e.q. 1595-ci ildə kassilərlə birlikdə işğalı nəticəsində Hammurapinin akkad dövlətinin süqutuna səbəb oldu. Midiya dövləti isə e.q. 611-ci ildə Assuriya dövlətinin varlığına son qoydu. (Frankfort H. 1951, Səh. 89)

## Mesopotamiya mədəniyyətin ilkin yaradıcıları haqqında "substrat" dil teorisi

E.Spayser, S.Kramer, B.Landsberqer Mesopotamiya mədəniyyətinin ilkin yaradıcıları haqqında "Substrat" hipotezini irəli sürmüşlər. Onlar İkiçayarasının qədim sakinləri kimi Subirləri əsas götürürlər və Mesopotamiya uyqarlığının yaradıcılarını sumerlər deyil, Subarları hesab edirlər.

Əslində "substrat" dil nəzəriyyəsinin banisi, keçmiş Ukraynalı yəhudi əsilli Amerikan assuroloqu və arxeoloqu Efraim Spayser olmuşdur. O 1930-cu ildə ilk dəfə belə bir tezis irəli sürdü ki, mixi mətnlərdə Mesopotamiyanın güneyində göstərilən bir çox qədim yaşayış yeri adları sumer dilində deyil. O burdan belə bir

nəticə çıxardı ki, sumerlər Mesopotamiyanın yerli xalqı olmayıb onlardan öncə burda yaşayan xalqın ərazisini işğal edərək yerləşmişlər

E.Spayserin fikrinə görə sumer şəhərlərinin bir çoxunun adı elam dilindədir və Elamlar onlara qohum dağlı xalqları olan lullubilər və kassilərlə birlikdə sumerlərə qədər İkiçayarasının qədim sakinləri idilər.

İkinci dünya müharibəsindən sonra sumerologiyanın ən populyar tədqiqatçısı əslən Ukraynalı aşkenaz yəhudisi "Tarix Sumerdən başlayır" və sumerlər haqqında bir çox digər əsərlərin müəllifi Samuel Kramer idi. Əsərləri bir çox dünya dillərinə tərcümə olunan Kramer ən çox təbliğ olunan müəlliflərdəndir. Kramer də Spayser və Landsberqer kimi qədim İkiçayarası mədəniyyətinin ilkin yaradıcılarının sumerlər deyil, samilər olduğu haqqında, əsası J.Halevi tərəfindən qoyulmuş "Semitizm" nəzəriyyəsini öz əsərlərində çox ustalıqla arqumentləşdirmişdir. Onun əsərlərinin populyarlığının və geniş təbliğ olunmasının əsas səbəbi də bundan ibarət idi. Lakin Kramer bu məsələdə kompromis variantdan istifadə edərək İkiçayarası mədəniyyətin ilkin yaradıcılarının sumerlər deyil, samilər olduğu tezisini rəhbər tutsa da, bu mədəniyyəti inkişaf etdirib yüksək səviyyəyə çatdıran sumerlərin turanlı olduqları, Xəzər dənizinin arxasından gəldikləri və Ural-altay dil ailəsinə mənsubluğu ideyasını irəli sürmüşdür. Kramer sumerlərin m.ö. 4-cü minilliyin ikinci yarısında Sumer ərazisinə gəldiklərini yazmışdır.

S.Kramer Sumerlərin Mesopotamiyaya gəlmədən yaşadıqları ölkənin dağlıq ərazi olan Aratta olduğu fikrini irəli sürür. Onun fikrinə görə sumerlərin öz ilkin vətənləri haqqındakı xatirələri sumerlərin erkən dövrlərə aid əfsanəvi kralları Qilqameş, Enmerkar və Luqalband dastanlarında öz əksini tapmışdır. Bu dastanlardan da göründüyü kimi sumerlər Xəzər dənizi tərəfdə yerləşən Aratta dövləti ilə qeyri adi dərəcədə sıx bağlı olmuşlar və bu sumerlərin həmin ərazidən gəldikləri haqqında fikirlər doğurur. Onların dilləri də aqqulyatativ qruluşa malik olub Ural-altay dillərinə bənzəməkdədir. (Kramer S. 1963. Səh. 42)

Kramerə görə artıq e.q. 3-cü minilliyə doğru sumer mədəniyyəti və uyqarlığı Aralıq dənizindən Hindistana və güney-batıda Efiopiyaya, quzeydə Xəzər dənizinə qədər olan geniş bir ərazidə yayılmışdı.

Kramerin yazdığına görə Fərat və Dəclə çaylarının Fars körfəsinə töküldiyi mənsəbinin bataqlıq ərazilərində yerləşən Sumer ərazisi ilk olaraq təxminən e.q. 4500-4000-ci illər arasında insanlar tərəfindən məskunlaşdırılmışdır. Kramer daha öncələri Ladsberqerin linqvistik dəlillərə əsasən gəlmiş olduğu belə bir fikri müdafiə edirdi ki, Sumer ölkəsinin ilkin əhalisi sumerlər olmamışlar. Bu ərazidəki Fərat və Dəclə çaylarının ilkin İdiqlat və Buranu adları və bir çox şəhər adları sumercə deyillər. O Sumer sənədlərindən çətinliklə olsa da əldə edilən məlumatlara əsasən Sumerdə yaşayan ən qədim xalqın subarlar olduğu tezisini qəbul edirdi. Onun fikrinə görə məhz subarlar Sumerdə önəmli sivil gücü təşkil etmiş, oranın ilk fermerləri, əkinçiləri, heyvandarları, toxucuları, dəmirçiləri, dulusçuları, balıqçıları və digər sənət sahibləri olmuşlar. (Kramer, The Sumerians, Səh. 40)

Subarları protoevfrat etnosuna aid edən Kramer protoevfratların ardınca və sumerlərdən öncə samilərin öz ilk vətənləri olan Ərəbistan yarımadasından hərəkət edərək müntəzəm axınlarla Suriya üzərindən İkiçayarasına daxil olduqlarını və qədim protoevfrat əhalisi ilə qarışaraq sumerə qədərki sami ünsürün üstünlük təşkil etdiyi ilkin yüksək mədəniyyətin əsasını qoyduqları fikrini irəli sürür. Daha sonrakı dövrdə İkiçayarasına gələrək məskunlaşan sumerlər özlərindən öncə samilər və protoevfratlar tərəfindən əsası qoyulan yüksək mədəniyyəti mənimsəyərək inkişaf etdirmişlər. (Kramer S. 1963, Səh. 42)

Bir çox görkəmli assuroloqlar H.Frankfort, B.Hroznu və o cümlədən Vilyam Hallo Mesopotamiya mədəniyyətinin ilkin yaradıcılarının sumerlər deyil, samilər və protoevfratlar olduğu haqqında Kramerin fikirlərinin əleyhinə çıxırdılar. Mesopotamiyada uyqarlığın yaranması yerli olmayan etnik ünsürlərin bu əraziyə gəlməsi nəticəsində baş vermişdir. Bu əraziyə ən qədim gəlmə qatılımçılar quzeydə izlərinə rast gəldiyimiz Subirlər olmuşlar. Subarların quzeydə e.q. 3500-2900-cu illərə aid Qavr mədəniyyətini, güneydə isə m.ö. 3500-3100-cü illərə aid Uruk dövrü mədəniyyətini əhatə edir. Bu arxeoloji mədəniyyət təbəqəsinə mənsub insanların dili bir neçə coğrafi adla, sonrakı dövrə aid mətnlərdəki bir çox sözlə və subarlı olduqları təsdiq edilən şəxs adları əsasında müəyyən edilmişdir. Lakin aşkar edilmiş bir ovsun mətninin alt yazısında onun subar dilində olduğu qeyd edilmişdir ki, bu subar dilinə aid ilk ədəbi yazıdır. Mətndəki hələ tam oxunmamış digər ovsunların da subar dilində olması mümkündür. Mesopotamiyada Subarlara aid mədəni təbəqənin güneyə nisbətən quzey ərazilərdə daha uzunmüddətli və qalıcı şəkildə mövcudluğu onların digər ərazilərə yayılmaları üçün quzeyin əsas istinad məntəqəsi rolunu oynadığını sübut edir. Ona görə də sonradan Anadolunun doğusu, Suriya, Babil və Assuriya adlanan quzey ərazilər orda ilkin məskunlaşan insanların adı ilə Subar və ya akkadca Subartu adlanmışdır.

Lakin subarlar m.ö. 3100-cü ildə güneyə yendikləri zaman burda özlərindən daha üstün bir uyqarlığa sahib insanlarla qarşılaşdılar. Bu mədəni təbəqəyə malik insanlar sumerlər idilər. Sumerlərin özlərinin Mesopotamiyaya güneydən Bəsrə körfəzi tərəfdən gələn ilk insan olduqları düşüncəsinə malik idilər. Sumerlər bu əraziyə gələn subarları özlərinə tabe etdilər və subar kəlməsi sumer dilində qulkölə anlamı daşımağa başladı. (Hallo Wiliyam and Williyam Kelly Simpson. 1971, Səh. 22)

B.Hroznu Subir və Sumerlərin eyni xalq olduqları, sumerlərin İkiçayarasına subirlərdən öncə gələrək Ubeyd mədəniyyətinin, bu əraziyə ikinci axınla gələn subirlərin isə Uruk mədəniyyətinin əsasını qoyduqlarını fikrini irəli sürür. Sumerlərlə eyni kökdən olan bu xalqı Subir adlanırdılar. Sumerlərin ikinci dalğası olan

subirlər öncə vaxtilə Ubeyd proto Sumerlərinin yerləşdikləri şimali Babildə yerləşdilər. B.Hroznı bu ərazidə yerləşən Subirlərin adının sumerlərin ilkin adları olan *sugir* adından yarana biləcəyi fikrini irəli sürmüşdür. Bu *suqir* adı eme-sal dialektinin fonetik qaydalarına uyğun olaraq *subir-subar* və *sumer* şəklində dəyişikliyə uğraya bilər. (B. Hrozny. 1953, Səh. 40)

E.Mayer də B.Landsberqerin və sonralar S.Kramerin İkiçayarasının sumerlərdən öncə samilər tərəfindən məskunlaşdırıldığı fikrini müdafiə edir. (Soltysiak A. Studies in Historical Antropology, vol 4, 2004)

Alman tarixçiləri F.Hommel və H.Vinkler yəhudi əsilli Kramerin əksinə olaraq samiləri İkiçayarası mədəniyyətin yaradıcıları yox, sumerlərdən sonra bu mədəniyyəti inkişaf etdirən etnos adlandırırlar. İkiçayarasında qədim mədəniyyətin yaradıcılarının sumerlər olmadığı tezisini müdafiə edən bilim adamları öz arqumentlərini sumer dilində bu dilə aid olmayan çoxlu sözlərin mövcudluğu ilə əsaslandırırlar.

1944-cü ildə o zaman Türkiyədə mühacir həyatı yaşayan yəhudi əsilli alman Berno Landsberqer bir məqalə ilə çıxış etdi və A.Şpayzerin tezisini dəstəkləyərək Mesopotamiyadakı Ur, Uruk, Larsa, Adab, Nippur və Sippar kimi önəmli yer adlarının və bir çox geniş istifadəli kültür terminlərin və sözlərin sumer dilində olmadığı fikrini irəli sürdü. O bu sözlərin protoevfratlılar adlandırdığı insanlara məxsus olduğunu iddia etdi və hipotetik substrat dili tezisini irəli sürdü.

Landsberger Ankara universitetinin jurnalında dərc etdiyi məqalədə 3-cü minilliyə aid sumer sənədlərində mədəni baxımdan önəmli əhəmiyyətə malik əkinçiliyə aid *apin* (xış), *engar* (cütçü), *ulusin* (buğda pivəsi), *nimbar* (xurma ağacı), *nukarib* (bağban), *taskarin* (fıstıq ağacı) sözləri, *simug* (dəmirçi), *tibira* (metalçı) kimi terminlərin, Buran, İdiqla, Hubur kimi çay adlarının sumercə olmadığını iddia edirdi. Landsberqer əkinçilik metodları və istehsalla əlaqədar vərdişlərin sumerlərə deyil, onlardan öncəki sakinlərə aid olduğu haqda tezisin müəllifidir. O Sumerdə olmayan bu qədim sakinləri protoefratlar adlandırmışdır. Arxeoloqlar Sumerdə aşkar edilən qədim mədəniyyəti Ubeyd mədəniyyəti adlandırmışlar və bu ilkin mədəniyyətin sumer olmayan protoefvfratlara aid olduğu fikrini irəli sürmüşlər". (Kramer S. 1963, Səh. 41)

Sumerlərin dillərində və yer adlarında mövcud olan qeyri sumer sözlərinin İkiçayarasının sumerlərə qədərki daha qədim sakinlərinə aid olması və sumerlərin mixi yazı sistemini və digər mədəniyyət ünsürlərini özlərindən əvvəl mövcud olan daha qədim avtoxton xalqdan əxz etdikləri haqqındakı elmi mübahisələr uzun illər ərzində davam etmişdir.

Oksford Universitetinin 1970-ci ildə nəşr etdirdiyi 9 cildlik "Qədim tarix" adlı fundamental əsərdə B.Landsberqerin İkiçayarasının sübstrat dili və sumerəqədərki "protoevfrat" xalqı nəzəriyyəsi ilk dəfə elmin son naliyyətləri əsasında elmi dəlillərlə təkzib edilmişdir. Həmin əsərin 1-ci cildində yazıldığına görə "bəzi bilim adamları samilərin İkiçayarası regionunda sumerlərdən daha qədim tarixə malik olduqlarını və onlara önəmli təsir göstərdiklərini iddia edirlər. Lakin bütün bu iddialar gerçəklikdən çox uzaqdır və faktlarla təsdiq olunmur". (The Cambridge Ancient History. Prologemona and Prehistory. V 1, P 1, 1970, Səh. 147)

Assurologiya elmində belə bir fərziyyə irəli sürülmüşdür ki, Babilin, yəni Mesopotamiyanın mədəni varislik prosesində tarixi ardıcıllıq baxımından bir fasilə mövcuddur və bu fasilə regiona sumerlərin gəlişi ilə əlaqədardır. Bu görüşə görə Sumerlər İkiçayarasına m ö. IV minilliyin son dövründə Ubeyd mədəniyyəti başa çatdıqdan və ya III minilliyin başlarına aid Uruk və Cəmdət Nəsr mədəniyyətlərindən sonra gəlmişlər və onların gəlişi boyalı saxsı qablardakı ornament dəyişikliyi ilə də təsdiq olunur. Lakin Oksford univeristetinin dərc etdiyi əsərdə əks olunduğu kimi Babildə son illərin arxeoloji araşdırmaları nəticəsində məlum olmuşdur ki, burda qədim məskənlərin mövcudluğu Ubeyd mədəniyyətindən daha erkən dövrlərə aiddir və mədəniyyətlərdəki varislikdə hər hansı bir fasilə mövcud deyil. Məsələnin mahiyyəti bundan ibarətdir ki, saxsı qablar və inşaat üslubunda baş verən dəyişikliklər etnik mənsubiyyətdə və dildə hər hansı bir dəyişikliyin baş verdiyinin göstəricisi deyil.

Müasir dövrün sumeroloqlarından olan D.Pottun qənaətinə görə Spayserin mühakimələrinin bir çoxu saxtadır və xüsusən də onun Cəmdət Nəsr mədəniyyətinin (m.ö. 3100-2900) etnik mənşəyi haqqındakı fikirləri yanlışdır. Bununla belə onun mühakimələri bu gün də özünə bir çox tərəfdar toplamış və B.Landsberqerin geniş təqdirinə və şərhinə səbəb olmuşdur.

Kembric "Qədim tarix"in müəllifləri "protoevfrat" nəzəriyyəsinin əsassızlığını arxeoloji və antropoloji dəlillərlə sübut edərək yazırdılar ki, əldə olan nümunələrə əsasən ən erkən dövrlərdən etibarən Mesopotamiya insanlarının malik olduqları antropoloji tiplərin ümumi varisliyini izləmək mümkündür. Bütün məlum yaş səviyyələrində Qafa tasları bənzər dolixokefal və braxikefal qarışımından ibarət eyni tipə malikdirlər. (The Cambridge Ancient History, 1970, Səh. 151)

Həmin əsərdə yazıldığına görə Sumerlərin samilərdən daha öncə İkiçayarasında məskunlaşdıqlarını sübut edən başlıca dəlillərdən biri Sumer şəhərləri yaranmadan öncə bu ərazidə mövcud olan Fərat, Dəclə, Habur, Balikh çaylarının və onların çoxsaylı qollarının adlarının sumercə olmasıdır. Əgər bu çayların hər hansı birinin qədim adı sami dilində olsaydı, o zaman samilərin sumerlərdən öncə və ya onlarla eyni zamanda İkiçayarası ərazisinə gəldikləri sübut edilmiş olardı. Lakin belə bir sübut möcud deyil. Qədim dünyanın digər hissələrində olduğu kimi Mesopotamiyada da çay adları həmin ərazidə ilkin məskunlaşmış qədim xalqa məxsus dilin daşıyıcılarıdırlar.

Sumer dilində Fərat çayının adı Buran adlanır, alman sumeroloqu Delitç sözün

kökünün sumercə *Bur* olduğunu və mənasını "güclü su qaynağı" kimi tərcümə edir, onun fikrincə Habur çayının adı da bu sözdən yaranmadır və eyni məna kəsb edir. Türk dillərində kökü Bur olan və su ilə əlaqədar "burulğan", "boran" kimi sözlər mövcuddur.

Dəclə Sumercə İdiqna adlanır və Delitç bu sözü "axan çay" kimi tərcümə edir. Habur adı Sumercə *Hen-bur, Habburu* sözündəndir və Sumercə *Hubur* şəklində ifadə olunur, mənası "çiçəklənən gövdə" deməkdir. Sumerdə Hubur yeraltı dünyanın "məhsuldar çayı"nın adıdır. Mesopotamiyada Balix çayının adı Sumercə Çay tanrısının adıdır və kralların siyahısında tanrı ünvanına malik olub Tufandan sonra Kişin ilk kralı olmuş Etananın oğlu kimi qeyd olunmuşdur. Balix Etanadan sonra Kişin kralı olmuşdur. (The Cambridge Ancient History, T 1, 1971, Səh. 148)

Öküz də qədim türkcədə çay anlamı daşıyıb və həmçinin öküz-buğa deməkdir.

Balix-qədim zamanlarda Mesopotamiyanın şimalında çay idi və Harranın yaxınlığından axaraq Fərata birləşən qolu idi. Balix şəhəri isə Sumerin qədim Ubeyd dövründə həmin çayın sahilində yerləşirdi. Qədim türk dilində də Balik çay anlamındadır və Turanın qədim Bəlx şəhərinin adı da bu çay adından götürülmüşdür. Bulqar türklərinin adı da Balik adından Baliqer, yəni çay xalqı deməkdir.

Həmdullah Qəzvininin 1340-cı ildə yazdığı "Nüzhət ül-Qülub" əsərində Güney Azərbaycanın Savə bölgəsində Qutluq Baliğ (müqəddəs şəhər) adlı şəhərin adını çəkir.

İskitlər Azov dənizini Karbalık adlandırırdılar. Bu sözün mənasını indiyədək müxtəlif şəkildə, o cümlədən "böyük balıq" kimi izah edirlər. İ.Miziyev bu sözün mənasını "çoxlu, bol" balıq kimi izah edir. Lakin sakların Azov dənizinə verdikləri Karbalık adının indiyə qədərki izahları yanlışdır. Baliq sözü Sumer dilində su və çay adı ilə əlaqədar olub həmçinin çay sahili, sulu yer, bataqlıq mənaları da daşıyır. Qədim türk dilində də Baliq çay sahilində salınmış şəhər anlamı ilə yanaşı lil, lehmə, zığ, palçıq, yəni sulu bataqlıq yer anlamındadır. (ДТС, 1969, Səh. 8)

Məlum olduğu kimi Azov dənizinin sahilləri böyük bataqlıq ərazilərdən ibarətdir və məhz buna görə də turanlı iskitlər bu dənizi böyük bataqlıq anlamında Karbalık adlandırırdılar.

Müasir dövrün görkəmli assuroloqu Gonzalo Rubio sumer dilinin müasir araşdırma nəticələrinə əsasən Landsberqerin və Kramerin sumer dili ilə əlaqədar "substrat" nəzəriyyəsinin əleyhinə çıxır və bu məsələ ilə əlaqədar irəli sürülən fikirləri təhlil edərək yazır: "Landsberqerin proto-efrat sözləri kimi təqdim etdiyi sözlərin etmologiyasına sumer dilinin müasir araşdırması səviyyəsində yanaşıldığı zaman onların sumer kökənli olduqları meydana çıxır. Məsələn, onun protoevfrat dilinə aid etdiyi "bahar" sözünün mənası su sincabı olub, sami dilində "bhr" kökündən yaranıb mənası "qazmaq" deməkdir. Dyakonov da "banana" sözündə olduğu kimi təkrarlanan hecalardan ibarət olan sumer sözlərinin bu dilə aid olmadığını qeyd edir. Emberlinq sumer dilindəki "banana" və ya təkrarlanan hecalardan ibarət sözlərin başqa bir qeyri sumer dilinə aid olduğu fikrini rədd edir və bu sözlərin adlandırma praktikası gedişində və inzibati stenoqrafiyası ilə əlaqədar yarandıqları fikrini irəli sürür, onların akkad adları ilə əlaqədar olduğunu bildirir". (G.Rubio. Journal of Cuneiform Studies. Vol. 51, 1999, Səh. 2-3)

1931-ci ilin sentyabrında Almaniyanın Layden şəhərində sumerlərin Güney Mesopotamiyanın yerli xalqı olması məsələsi orientalistlərin 18-ci konqresinin xüsusi müzakirə mövzusuna çevrildi. İncəsənət tarixçisi və assuroloq-arxeoloq Anri Frankfort bu məsələyə həsr olunmuş xüsusi bir məruzə ilə çıxış etdi və onun bu mərizəsi "Arxeologiya və Sumer problemi" adlı kitab şəklində dərc olundu. Frankfort Sumerin ən qədim dövrünü əhatə edən "Cəmdət Nəsr" və ondan sonrakı arxeoloji mədəniyyətlərə aid heykəllərdə və relyeflərdə əks olunmuş insan fizionomiyası təsvirlərini təhlil edərək onlar arasında hər hansı bir fərqin mövcud olmadığını və hamısının eyni Sumer tipinə aid olduqlarını müəyyən etdi. O eyni zamanda "Cəmdət Nəsr" və III Uruk dönəmi yarıpiktokrafik mətnlərin eyni ilə xalis sumer mətnləri olduğunu və Güney Mesopotamiyanın qədim "Cəmdət Nəsr" və sonrakı gec dönəm əhalisi arasında tam varisliyin mövcud olduğunu sübut etmiş oldu. (Potts D.T. 1997, Səh. 44-45)

Frankfort eyni tərzdə Uruk dövrü (m.ö. 3800-3100) artefaklarını da tədqiq edərək eyni nəticə əldə etmişdir. Qabartmalarda insan təsvirlərinin və xüsusən də kişilərin xarici görünüşlərini tədqiq edərkən onların uzun ətək geyimlərinin, saqqallarının, qırxılmış yuxarı dodaqlarının, başın arxasındakı saç düyünlərinin Uruk və ondan sonrakı dönəmlərdə tamamilə eyni olduqlarını təsbit etdi. Frankfort Uruk və ondan sonrakı dönəmlərdə damğa və silindir möhürlərin istifadəsində, kərpic hörgülərin memarlıq üslubundakı varisliyi müəyyən etdi və Uruk dönəmində də Güney Mesopotamiya mədəniyyətinin məhz Sumerlərə məxsus olduğunu sübut etmişdir. (Potts D. T. 1997, Səh. 45)

Müasir dövrün görkəmli Sumeroloqları H.V.Hallo və V.K.Simpson yeni elmi dəlillərə əsaslanaraq gəldikləri nəticəyə görə Mesopotamiyanın güneyində Sumer adlanan ərazidə məskunlaşan insanlar bütün əsas komponentləri ilə birlikdə uyqarlığın ilk yaradıcılarıdırlar. Sumer samilərin onlara verdikləri addır, öz ölkələrini isə onlar Kienqir, dillərini Emeqir, özlərini isə Saq-qiqa, yəni qarabaşlılar adlandırırdılar. (Hall Wiliyam and Williyam Kelly Simpson. 1971, Səh. 2)

Arxeoloqların gəldikləri nəticə bundan ibarətdir ki, şərq tərəfdən Mesopotamiyanın güneyinə gələn və suvarma üsulu ilə ilkin primitiv əkinçiliklə məşğul olan insanlar sumer mədəniyyətinin yaradıcılarıdırlar. (Potts S.T. 1997, Səh. 55)

Qədim Ur şəhərində qazıntılar apararaq Sumerin qədim mədəni qatlarını aşkar edən ingilis arxeoloqu Ser Leonard Volley olmuşdur. L.Volley yazırdı ki, Yaxın zamanlara qədər Misir mədəniyyətinin ən qədim mədəniyyət olduğu və digər

qərb mədəniyyətlərinin ondan qaynaqlanaraq ilham aldığı güman edilirdi. Lakin Fərat sahillərində Sumer mədəniyyətinin aşkar edilməsi nəticəsində məlum oldu ki, m.ö. 3500-cü ildə hələ barbarlıq dövrü yaşayan nəinki Misir mədəniyyətinin, həmçinin Babil, Assur, İvrit, Finikiya mədəniyyətlərinin kökünü Sumer mədəniyyəti təşkil edir. Artıq sivilizasiyanın kökünün yunanlara bağlandığı haqqındakı fikirlər öz önəmini qeyb etmişdir. Sumer mədəniyyəti bəşər uyqarlığının təməlini təşkil edərək onun inkişaf yoluna işıq saçan bir məşəl rolunu oynayır. (Woolley, Leonard. 1938, Səh. 88)

L.Volleyin Ur şəhərində apardığı arxeoloji qazıntılar baş vermiş gerçək bir tufanın izlərini aşkar etmiş və onun əfsanə deyil, gerçək bir tarixi hadisə olduğunu təsdiq etmişdir.

Ubeyd mədəniyyətində aşkar edilən saxsı qablardakı ornamentlər Elamda aşkar olunanlarla bənzərlik təşkil etməsi onların ümumi mənşəyə malik olması Ubeyd mədəniyyəti mənsublarının Mesopotamiyanın güneyinə Elam dağları tərəfdən gələrək məskunlaşdıqlarını sübut edir. Ubeyddə aşkar edilmiş toxa, oraq və digər alətlər şərqdən gələrək burda mədəniyyətin əsasını qoyan insanların əkinçi xalq olduğunu sübut edir. ( Woolley, Leonard, 1938, Səh 31-33)

L.Volley tufan məsələsinə aydınlıq gətirərək yazır ki, Sumer krallarının siyahısını tərtib edənlər Sumerin hakimiyyət tarixində tufanın bir fasilə yaratdığını güman edirlər. Lakin tufan heç də Mesopotamiyanın tarixində bir fasiləyə səbəb olmamışdır. Tufan yalnız Ubeyd mədəniyyətinin fəaliyyətinə son qoymuşdur. Tufan nəticəsində Sumerin heç də bütün şəhərləri suda qərq olmamışdır, süni təpəliklər üzərində inşa edilmiş bir sıra şəhərlər, o cümlədən Ur şəhəri xilas ola bilmişlər. (Woolley, Leonard, Ur of the Chaldees, 1938, Səh. 36)

"Substrat" dil məsələsində son nöqtəni qoyan G.Rubio müasir elmi dəlillərə əsaslanaraq uzun illər ərzində apardığı diqqətli araşdırmaları nəticəsində müəyyən etmişdir ki, Sumer dilində mövcud olan və sumerlərə qədərki substrat dilə aid olduğu sübut edilməyə çalışılan terminlər uzun illər ərzində Sumerin iqtisadi-ictimai həyatında baş verən inkişaf prosesində texniki yeniliklərin tətbiqi gedişində digər dillərdən tədricən qəbul edilərək işlək halına gəlmiş sözlərdir və hər hansı bir qədim substrat dilin qalıqlarından ibarət deyillər. (Gonzalo Rubio. Journal of Cuneiform Studies. Vol. 51, 1999)

Rubio Sumerəqədərki "substrat" dil məsələsini şərh edərək yazır ki, müasir elm Sumerəqədərki dilin və etnik qrupun mövcudluğu haqqında heç bir dəqiq elmi sübuta malik deyil. İbtidai dövrdə sumer dilində öz izlərini buraxa biləcək monolit bir substrat mövcud deyil. Aşkar edilmiş dəlillər başqa dillərdən mürəkkəb və qarışıq qeyri müəyyən mənimsəmələrdir. Arxaik dövrə aid sumer dini ideyaların mənşəyi də eyni tərzdə izah oluna bilər". (Gonzalo Rubio. Journal of Cuneiform Studies. Vol. 51, 1999Səh. 2-3)



Sumer qrammatikası haqqında əsərin müəllifi Ditz O.Edzard da G.Rubionun Sumer "substrat" dili əleyhinə olan fikirlərini dəstəkləyir və Sumer dilində aşkar edilən və bu dilə aid olmadığı iddia edilən sözlərin uzun illər ərzində sami dilləri və xüsusən də akkad dili ilə qarşılıqlı ünsiyyət və təsir nəticəsində yarana biləcəyi fikrini irəli sürür. (Ditz Otto Edzard. 2003, Səh. 4-5)

Müasir dövrün assuroloqlarından olan G.Qreq də "substrat" dil məsələsində öz araşdırmaları sonucunda eyni nəticəyə gəlmişdir. Qreqin fikrinə görə sumer dilindəki qeyri sumer sözlərinin mövcudluğunu müasir dövrdə kompüter texnologiyası və digər sahələrə aid ingilis dili terminlərinin digər dillərdə istifadə olunması kimi dəyərləndirmək olar.

Sumer mədəniyyətinin mənşəyi haqqında irəli sürülən "substrat" dil nəzəriyyəsi Türklərin qədim tarixi baxımından da böyük bir önəm daşıyır. Bu nəzəriyyənin müəllifləri və başlıca tərəfdarları A.Spayser, B.Landsberqer, S.Kramer kimi yəhudi əsilli görkəmli assuroloqların əsas məqsədi bəşər mədəniyyətinin kökünü təşkil edən Sumer mədəniyyətinin əsl yaradıcılarının sumerlər deyil, onların iddia etdikləri kimi samilər və naməlum etnik mənşəyə malik "protoevfrat" adlandırılan yerli xalq olmuşdur. Yəhudiləri bəşəriyyətin ən qədim xalqı və bəşər uyqarlığının ilk yaradıcıları kimi təqdim edən yəhudi əsilli bir çox bilim adamı Orta Asiyadan gələn türk mənşəli sumerlərin sami irqinin tarix səhnəsinə qədəm qoymalarından min illər öncə Mesopotamiyada ilkin bəşər uyqarlığını yaratmış olduğu faktını heç cür qəbul edə bilmirlər. Ona görə də "substrat" dil nəzəriyyəsini qəbul etdirməkdə məqsəd keçmişin və müasir dövrün görkəmli bilim adamları sumeroloq, antropoloq, arxeoloq və tarixçilərinin ilkin bəşər mədəniyyəti olan Sumer uyqarlığının yaradıcılarının etnik mənşə baxımdan ön türk (prototürk) sumer/kəngərlər olduqları haqqındakı Turanizm nəzəriyyəsini təkzib etməkdir.

Təəssüflər olsun ki, Azərbaycan və Türkiyədə də sumerlərin türklüyü haqındakı elmi dəlillərə göz yuman və ilkin bəşər mədəniyyətinin yaradıcılarının sumerlər olduğunu inkar edən "substrat" dil nəzəriyyəsinin tərəfdarları mövcuddur

XIX əsrin əvvəllərində qədim xalqların mifologiyasının tədqiqinə həsr olunmuş çoxcildli əsərlərin müəllifi ingilis alimi David Makkenzi İkiçayarasının qədim xalqlarının miflərini və onların yaratmış olduqları mədəniyyətin köklərini də araşdırmış, bu xalqların, o cümlədən sumerlərin etnik mənşəyi barəsində də fikirlər söyləmişdir.

Qədim tarixi dövrdə Babil ərazisi bir çox şəhər dövlətlərə bölünmüşdü. Sonrakı dövrdə quzeydəki şəhərlər Akkad adı altında, güneydəkilər isə Sumer adı altında azad dövlətlərin konfederasiyası formasında birləşdilər. Bu bölgü həm coğrafi, həm də etnik xarakter daşıyırdı. Akkadlar sami dilli idilər və xarici görünüşləri də sami tipinə mənsub idi. Sumerlərin isə üzləri və başları qırxılmış, dik burunlu idilər və sami tipindən fərqlənirdilər. Onlar sami dilində danışmırdılar və Babilin

məlum olan ən qədim sakinləri idilər. Samilər gələnə qədər onlar əkinçiliklə məşğul olurdular və yaxşı ınkişaf edirdilər. Makkenzi elmi araşdırmaların nəticəsinə uyğun olaraq yazırdı ki, "sumerləri öncə onların qədim heykəllərinin görünüşünə görə monqol tipi ilə eyniləşdirdilər. Lakin sumerlərin daha gec təsvirlərini əks etdirən heykəlləri onların monqoloid olmadıqlarını göstərdi, sumerlərin etnik mənşəyi haqqında ən geniş təqdir olunmuş nəzəriyyələrdən biri onların ural altay tipinə və xüsusən də türklər və finlərlə eyni tipə mənsub olmaları haqqındadır. Sumerlərin dilinin ural-altay dili kimi aqqulyutativ quruluşa malik olması bu nəzəriyyəni daha da əsaslandırmış oldu. Sumerlərin sifətləri dik və başlarının arxası uzun idi ki, onların dolixokefal olduqlarını göstərir". (Mackenzie D. 1915, Səh. 4-6)

Makkenzi aşkar edilmiş bir çox dəlillərin Sumer mədəniyyətinin Mərkəzi Asiya mənşəli olması faktını inandırıcı göstərdiyini yazır. Türkistanın Çin və Rusiya ərazisində aparılan arxeoloji tədqiqatlar nəticəsində əldə edilən dəlillər keçmişdə bu ərazilərdə məhsuldar təbii şəraitə və yüksək tərəqqiyə malik cəmiyyətlərin mövcud olduğunu göstərir. Mədəniyyətin bu qədim ocaqlarından quraqlıq, su çatışmazlığı və tozlu küləklər səbəbi ilə insanların vaxtaşırı məcburi köçləri baş vermişdir. Makkenzi yazırdı: "Pumpellinin Türkmənistanın Anau qədim yaşayış məskənində apardığı arxeoloji qazıntılar nəticəsində son daş dövrünə aid tərk edilmiş qədim mədəniyyətin qalıqları aşkar edilmişdir. Orda tapılan saxsı nümunələri üzərindəki geometrik ornamentlər ondan çox uzaqlarda yerləşən Suz, Elam, Babil sərhədlərində, Kiçik Asiyadakı Boğazköydəki hitit paytaxtında, Qara dəniz ətrafında və Balkanlarda aşkar edilənlərlə böyük bənzərlik təşkil edir. Bu tapıntılar iqlim şəraiti ilə əlaqədar Mərkəzi Asiya ərazisindən zaman-zaman irqi köçlərin baş verdiyini göstərən önəmli dəlillərdir. Anauda mis dövrünə aid tapılan artefaktların içərisində bir saxsı heykəlcik Sumerdə dini məqsədlə istifadə edilən heykəli çox xatırladır". (Mackenzie D. 1915, Səh. 4-6)

Misir mumiyalarını və misirlilərin qədim köklərini tədqiq edən yəhudu əsilli etnoloq Elliot Smitin gəldiyi nəticəyə görə sumerlər firon sülalələrinə qədərki Aralıq dənizi irqinə mənsubdurlar. Bu irqin doğu qolu Hindistana qədər, batı qolu isə Böyük Britaniya və İrlandiyaya qədər yayılmışdır.

Ərəblər də bu irqə daxildirlər və onlar yəhudilərin mənsub olduqları sami tipindən tamamilə fərqlənirlər. Sumer mixi yazılarının məhz Mesopotamiyada kəşf edildiyini sübut edə biləcək ilkin ibtidai variantını indiyədək aşkar etmək mümkün olmamışdır. Bu fakt mixi yazının bu əraziyə gələn Sumerlərin özləri ilə gətirdikləri haqqındakı fikrin elmdə üstünlük qazanmasına səbəb olmuşdur. (Mackenzie D. 1915, Səh. 4-6)

Makkenzinin gəldiyi nəticələr müasir antropologiya elmi tərəfindən də təsdiq olunmaqdadır. Türklərin başları arxadan uzunsovdur və antropoloqların türk çıxıntısı adlandırdıqları bir çıxıntıya malikdirlər və türklər əsas etibarı ilə dolixokefal tipinə mənsubdurlar. Türklərin müəyyən qismində müşahidə olunan braxikefallıq onların uzun illər ərzində monqollarla qarışmaları nəticəsində meydana gəlmişdir.

Sumer tarixində mübahisələrə səbəb olan məsələlərdən biri də "qarabaşlılar" məsələsidir. Sumer tarixini tədqiq edən bilim adamları içərisində bəzi mixi yazı mətnlərində sumerlərin özlərini "qarabaşlar" adlandırmalarını əsas götürərək sumerləri qara dərili dravid və ya kuşi xalqlarına mənsub olduqları haqqında fikirlər mövcuddur.

Əslində bir çox bilim adamları dravidləri həm dil, həm də, etnik mənşə baxımdan turanlı olduqları fikrini irəli sürürlər.

Albrext Virth dravid məsələsinə aydınlıq gətirərək yazır: "Hindistanda əhalinin arilərdən fərqli bir qolunu təşkil edən Dravidlər də türklər və monqollar kimi Turan irqinə mənsubdurlar və yue-çi, monqollar və türklər kimi şimali şərqdən Hindistana gəlmişlər və burda qara rəngli irqdən olan Kolh və ya Kolar adlı tayfalarla o qədər içdən qaynayıb qarışmışlar ki, bədənlərinin quruluşu və rənginə görə onlardan fərqlənməməkdədirlər. Kohl tayfaları sonradan dravidlər tərəfindən şərqə doğru sıxışdırılmışlar. Dravidlər öncə yaşadıqları Belucistan tərəfdən arilər tərəfindən sıxışdırılaraq Hindistana köçməyə məcbur olmuşlar". (A.Wirth, 1915, Səh. 5)

Assuroloqların bir çoxu sumerlilərin dravidlərlə eyniləşdrilərək dərilərinin tünd rəngli olması ilə əlaqədar "qarabaşlı" adlanmaları haqqındakı fikirləri təkzib edir, bu məsələni fərqli şəkildə izah edirdilər.

İngilis tarixçi assuroloqu Georq Smit "Kaldilərin mənşəyinin izahı" adlı əsərində bu məsələyə aydınlıq gətirərək yazırdı: "Dünyanın yaradılışı haqqındakı Babil mifində deyilir ki, dünyanın və insanların ali yaradıcısı baş tanrı Beldir. Lakin insanları günəş tanrısı Merodax yaratmışdır. Dünyanın yaradılışı haqqındakı himndə deyilir ki, tanrı insanları qarabaşlı yaratmışdı. Tanrı tərəfindən "qarabaşlı irq"in yaranması haqqında akkadların əfsanələrində də əks olunmuşdur.

Sinnaherib də qarabaşlı insanları itaət altına aldığını yazır. Samilərə qədər Akkad-sumer və Elamın əhalisi eyni irqə və dilə malik olan turanlılardan ibarət idi. Qarabaşlı ifadəsi İkiçayarasının qədim xalqı olan turanlılara onları öz hakimiyyətləri altına alan samilərin verdikləri addır və hakimiyyət sahibləri samilər itaət altına aldıqları turanlılardan özlərini fərqləndirmək üçün onlara bu adı vermişlər. Qarabaşlar sözünün həqiqi mənası ikinci dərəcəli, tabe etdirilən xalq mənasındadır". (G. Smith, 1880, Səh. 80-81. )

Eduard Meyerin yazdığına görə Xammurapi "salmat kakkadi", yəni qarabaşlılar ifadəsi ilə qara saçlı samiləri nəzərdə tutur, sumerlər isə saçlarını hər zaman təmiz qırxırdılar. (Meyer E. 1906, Səh. 22)

Sumerin görkəmli tədqiqatçılarından Zakariya Sithçin "qarabaşlılar" ifadəsinə aydınlıq gətirərək yazırdı ki, Sumer mətnləri tanrı Enlilin dünyaya "qara başlı xalq" yaradılmadan öncə gəldiyini qeyd edirlər. Qarabaşlılar kəliməsi sumerlilərin öz timsalında bütünlükdə insan oğlunu ifadə etmək üçün istifadə etdikləri termindir. Sumer mifologiyasında sumerlər tanrının yaratdığı ilk insanlardırlar. İlk insanı, yəni Adapanı – ilk sumerlini tanrı Anın oğlu Enki arvadı Ninmax ilə birlikdə palçıqdan yaratmışdılar. O atası An və qardaşı Enlil ilə birlikdə sumerin üç yaradıcı baş tanrısından biridir. (Z.Sithçin. 2016, Səh. 77, 82)

G.Smith də, sumerlilərə şamil edilən "qarabaşlılar" ifadəsinə aydınlıq gətirərək yazırdı: "Samilər də əslində sarı rəngdə idilər və misirlilərlə eyni idilər. Sumer-akkadın turanlı əhalisinin qarabaşlı adlandırılması onların rənginin və dərilərinin zəncilərinki kimi qara olması anlamına gəlmir. Sadəcə onların dərisi bir az tünd idi. İki dilli Assur mətnlərində "qarabaşlı" adlanan yerli əhali Adamatu və ya "qırmızı dərili" adlandırılır. İlk insanlar arasındakı fərqliliyin əsası samilərin müqəddəs kitabı olan Yaradılış kitabında qoyulmuşdur. Onun altıncı bəndində deyilir ki, Tanrının oğulları Adamın artıb çoxalan nəslindəki qızları bəyənib onlarla evləndilər. Bu evlənmədən yeni nəsl törəndi və dünyanı şər əməllər bürüdü. Özlərini dini ənənyə görə tanrının övladları hesab edən sami assurlar sumer-akkadın yerli əhalisini İkincidərəcəli, itaət altına alınmış qarabaşlılar hesab edirdilər... Buna görə də akkad və babillilərin etnik mənşəcə kuşi, Efiopia və ya Misirlə əlaqədar olduqları haqqındakı fikirləri tamamilə bir kənara atmaq lazımdır". (G. Smith, 1880, Səh. 82, 185)

Sumerlər də evləndikləri qul qadınlardan olan övladlarını qarabaşlar adlandırırdılar və onlar adətən cəmiyyətdə ikinci dərəcəli rol oynayırdılar. Bu gün də dilimizdə kəniz və xidmətçi anlamında bu cür insanlara verilən "qaravaş" deyimi yaşamaqdadır. Zaman keçdikcə sayca artıb çoxalan bu ikinci dərəcəli törəmə insanlar cəmiyyətin önəmli bir əhali kütləsini təşkil etmişlər.

Sumer və türk dillərinin qarşılıqlı müqayisəsini təhlil etmiş Prof. Osman Nədim Tuna sumer dilindəki "qaruvaş" sözünün türkcə eynilə "qaravaş" şəklində ifadə olunduğunu və mənasının da qadın kölə demək olduğunu yazır. Qaravaş adı ən qədim zamanlardan etibarən türk dastan və rəvayətlərində qaravaş şəklində də ifadə olunmuşdur. (Osman Nedim Tuna. Ankara, 1997)

Fikrimizə görə Sumerə aid edilən "qarabaşlılar" ifadəsinə ən doğru yanaşmanı amerikan sumeroloqu Herman Vanistifout tərəfindən ifadə edilmişdir. Onun yazdığına görə Sumer dastanlarında sumerlər üçün ifadə olunan "qarabaşlar" epiteti ideoloji səciyyə daşıyırdı. Tanrı obrazında təcəssüm olunan Sumer krallarının epiteti "xalqın çobanı" idi. Qarabaş qoyun sürüsü timsalındakı xalq öz çoban-krallarının himayəsi və qayğısı altında həyat sürürdü. (Herman Vanistiphout. Epics of Sumerian Kings the Matter of Aratta, Atlanta 2003, Səh. 49)



Sumer dilində *Kun* sözü xalq, əhali, ölkə bildirməklə yanaşı həm də, sürü anlamında qoyun və digər heyvanlar anlamı da daşıyırdı. (F.Delitsch, 1914, Səh. 129)

Həqiqətdə də tarixdə özünü xalqın çobanı adlandıran ilk Sumer luqal/kralı Etana olmuşdur.

Çoban-kral ənənəsi sumerlərdən Mesopotamiyanın digər xalqlarına və hətta Misirə belə yayılmışdır.

Ataerkilliyin bünövrəsinin türklər tərəfindən qoyulduğu və bu sosial düzənə uyğun olaraq ata-çoban adlanan patriarxal ailənin başçısının dövlətin başçısı kimi "xalqın çobanı" adlanması ənənəsi öntürk sumerlərdə daha qabarıq şəkildə özünü göstərmişdir. Böyük tufandan sonra sumerin Kiş şəhər dövlətlərinin hakimi və Sumerin ilk mərkəzi dövlətinin hökmdarı olmuş və 1500 il hökm sürmüş "kral çoban" ünavanına malik Etanna özünü "xalqın çobanı" adlandırmış və bu ənənə ondan sonrakı hökmdarlar Qudea, Şulqi, Xammirapi və hətta kassi hökmdarları tərəfindən davam etdirilmişdir.

Aykştadt Turan çöllərində ataerkil ailənin əsasını qoymuş türklərin köçlər nəticəsində yerləşdikləri Ön Asiyada dövlətçiliyin əsasını qoyduqlarını yazır. "Öz ailəsinin çobanı olan Ata bu dövlətlərin kralları olaraq özlərini "xalqın çobanları" adlandırırdılar. Misir fironu Horuz, o cümlədən sumer-akkad kralı Xammurapi, Navuxodonossor özlərini "xalqın çobanları" adlandırırdılar. Beləliklə, Turan irqinə xas patriarxal köçəri ailə təşkilatındakı başçı-ata çobanın təsiri ilə oturaq əkinçi həyatın anaerkil quruluşunun dağılmasına səbəb oldu". (E.Eikstadt, 1934, Səh. 281)

Anaerkilliyə əsaslanan icma birliyinin təşkil etdiyi müstəqil "şəhər dövlət" təşkilatı ataerkilliyin hakim sosial təşkilatlanmaya çevrilməsi ilə vahid hökmdar tərəfindən idarə edilən mərkəzləşdirilmiş avtoritar dövlət təşkilatının yaranmasına səbəb olmuşdur.

Alman türkoloqu F.Şvarts türklər içərisində də xalqın iki təbəqədə ibarət olduğunu yazır. Qırğızlar iki hissədən ibarətdirlər, Qaraqırğızlar və Ağqırğızlar. Qaraqırğızlar xalqın sadə, qara camaatına, yəni kök etibarı ilə ali, hökmran təbəqəyə malik olmayanlara verilən addır. Qırğız və qazaxlar aristokrat təbəqəyə hakim zümrəyə malik olan hissəsi "Ağ sümük" adlandıqları kimi sadə, tabe xalq kütləsi "qara sümük" adlanırdılar. Qara qırğızlar tam köçəri həyat sürdükləri halda, aristokrat təbəqə düzənliklərdə məskunlaşıb yarımköçəri və ya oturaq həyat sürürdülər. (Schwarz F. Turkestan. 1900, Səh. 14)

## Sumer və Mesopotamiyanın Akkad, Babil və Assuriya dövlətləri

Hələ XIX əsrdən etibarən bilim adamları arasında Ön Asiyada qədim mədəniyyətin əsasını qoyan xalqın Sumer, Akkad, Kaldey/Kəldi və ya Babil adlandırılması və bu xalqların etnik kökü məsələsi müəyyən mübahisələrə səbəb olmuşdur.

Sumer adı Y.Oppertin təklifi ilə Mesopotamiyanın güneyində məskunlaşmış turanlı xalqın adı kimi elmi dairələr tərəfindən rəsmən qəbul olmadan öncə onlar İskit, Xaldey/Kaldi, Akkad və Babil adlanırdılar.

M.ö. IV minillikdə qərb tərəfdən köçəri xalqların yeni bir dalğası gələrək sumerin şimal ərazilərində məskunlaşmağa başladılar. Bunlar yerli turani Sumerlərdən fərqli olaraq sami Nuhun oğlu Samın törəmələri olub sami mənşəli xalq idilər. Samilərlə sumerlər Mesopotamiyada ağalıq uğrunda uzun illər ərzində mübarizə aparmışlar.

**AKKAD.** Mesopotamiyanın qərb ərazisi bura e.q. 2900-cu illərdə gəlib yerləşmiş sami etnik ünsürlərindən ibarət idi. 2300-cü ildə onlar Akkad adı ilə Aqade şəhərinin rəhbərliyi altında bölgədə dominant rolu oynayırdılar. Sumerlərin assimiliyasiyasına məruz qalmış akkadların sami mədəniyyəti Sumer mədəniyyətinin bütün özəlliklərini mənimsəmişdi. Bölgənin sumerləşməyə məruz qalmamış sami əhalisi Amurru və ya Amoritlər adlanırdılar. Doğu bölgəsində yerləşən Elam coğrafi və mədəniyyət baxımından sumerin təsiri altında olub xeyli dərəcədə qaynayıb qarışmışdılar. (Hall Wiliyam and Williyam Kelly Simpson. 1971, Səh. 23)

Sumer adı tarixi ədəbiyyata J.Oppert tərəfindən gətirilmişdir. O ölkəni cənubda Sumer və şimalda Akkad olmaqla iki hissədən ibarət hesab edirdi.

F.Lenorman Babil və Xaldey adlarının yerinə Sumer və Akkad adlarının istifadə olunmasını təklif edən Oppertə etiraz edərək öz mövqeyini linqvistik və tarixi arqumentlərlə isbat etməyə çalışırdı. İki akkad sözü olan "sumer" və "akkadı", yəni biri düzənlik, digəri dağlıq mənasında olan sözləri iki ayrı-ayrı ölkə anlamında işlədərək Babil və Xaldey adlarını "Sumerlər ölkəsi" və "Akkadlılar ölkəsi" adları ilə əvəz etmək absurd bir ifadə olub sağlam düşüncəyə uyğun deyil. Çünki bu sözlər hər hansı bir etnik anlam daşımayıb coğrafi ifadələrdən ibarətdirlər. (F. Lenormant. 1877, Səh. 404)

E.q. 2350-cü ildə sami irqinə mənsub olan Sarqon Kiş şəhərinin ensi-hökmdarı Ur-Zababanı devirərək hakimiyyəti ələ keçirdi və 2347-ci ildə Umma və bütün sumerin ensisu Luqal-zaqesiyə qarşı üsyan qaldırıb onu məğlub etdi və Sumerin digər şəhərlərini də özünə tabe edib hakimiyyətini Elam, Suriya, Libya və quzeydə Toros dağlarına qədər genişləndirdi. Sarqon Sumerdə şəhər bəylik dövlətləri olan məbəd-ensi idarəçiliyinə son qoymuş və ölkədə vahid mərkəzləşdirilmiş dövlət hakimiyyəti qurmuşdur. Sarqon dövlətin paytaxtı kimi sumerin ənənəvi mərkəzi şəhərlərini deyil, ölkənin quzeyində kiçik sumer şəhəri olan Aqade şəhərini seçdi. Sarqonun hakimiyyəti dövründən başlayaraq Sumer bu şəhərin adı ilə Akkad adlanmağa başladı. Onun dövründə samilər bütün Mesopotamiya boyunca geniş surətdə yayılmağa başlamış sami dili akkad dili adı ilə geniş ünsiyyət vasitəsinə çevrilmişdir.



Tədricən güclənən Akkad qüdrətli hökmdarı Sarqonun zamanında bütün Mesopotamiyanı ələ keçirərək böyük imperiyaya çevrildi. Sarqon bütün Mesopotamiyanın elm, ədəbiyyat və inzibati dili olan turanlıların kienqir dilinin əhəmiyyətini dərk edərək bu dildə mövcud olan bütün yazıların toplanıb assur dilinə tərcümə olunaraq gil lövhələr üzərinə köçürməsini həyata keçirmişdi. Məktəblərdə sami akkad və sumer dili paralel öyrənilirdi. (Парозина, 1902, Səh. 256)

Fransız assuroloqu Lenorman "Akkad" sözünün etimalogiyasından bəhs edərkən onun izahının turani dillərdən tərcümə olunmuş Assurbanipalın assurca leksoqrafik lövhələrində assur dilində "matuv elituv", yəni "yüksək yer" və ya "qublu" dağlar mənası daşıdığını, "qalxmaq, yüksəlmək" mənasında olan bu sözün "aka-akku-akkad" şəklində inkişafa tabe olduğunu yazır. Onun fikrincə Akkad adı akkad dilində, yəni qədim turan dilindədir. (Lenormant F, 1875, Səh. 353)

Lenorman yazırdı ki, Sumer və Akkad adları akkad dilinə məxsusdur. Hər iki adın məxsus olduğu dilin sahibləri sami olmayan turan irqinin iki bölümünü təmsil edərək bu sözlərlə özlərinin coğrafi durumlarını ifadə edirdilər. (F.Lenormant. Chaldean Magic. 1877, Səh. 405)

J.Oppert Akkad adının sami dilində "dağ, yüksəkluk" demək olduğunu və bu sözün Turan türk dilində dağ anlamı daşıyan Arta sözü ilə ekvivalent təşkil etdiyini yazır. (Oppert J, 1875, T V, Səh. 273)

M.Menant və M.Şraderin fikirlərinə görə Sumer və Akkad adları coğrafi xarakter daşıyırdı və samilər gəlmədən öncə eyni irqin və ya eyni xalqın yaşadığı iki coğrafi ərazini təşkil edirdilər. Belə olduğu təqdirdə onlar iki fərqli xalqın adını daşımayıb yalnız coğrafi mahiyyətə malik idilər. Sumerlər və akkadlar qeyri sami mənşəyə malik idilər. (F.Lenormant. Chaldean Magic, Səh. 355)

Akkad adının mənası Lenormanın izah etdiyi mənada qədim türk dilində mövcuddur. Qədim türk dillərində "Ak/Aq" geniş mənalı sözdür, o dağın zirvəsi, yüksək, qalxmaq, yuxarı çıxmaq mənasında izah olunur, "qat" isə dağın qatı və ya təbəqə anlamındadır. Beləliklə, Akkad sözünün türk dilində mənası "yuxarı qatdakı" ərazi və ya yuxarıdakı yer mənasındadır. Akkad Sumerin, yəni İkiçayarası ərazinin yuxarısındakı şimal hissəsini əhatə edirdi və yerləşdiyi əraziyə uyğun olaraq belə adlanmışdır. (ДТС, 1969, Səh. 16, 432)

**BABİL.** Babil ərazisi sami amori tayfaları bura gəlmədən öncə turanlı tayfaların, o cümlədən sumerlərin və subarların məskunlaşdığı ərazi idi.

İtalyan tarixçisi və antropoloqu Françesko Molon Ural-altaylı Turanlıların Mərkəzi Asiyadan ikinci axınının Kiçik Asiya üzərindən Babilə və sonra Dunayın aşağısından Alp regionuna olduğunu, Babilin xarabalıqlarında Assuriyalılardan öncə burda Ural-altay xalqlarının yerləşmiş olduqları haqqında çoxlu dəlillər mövcud olduğunu yazır. Babildə 3000 min il öncə aqlütinativ ural-altay dilində danışan

xalqlardan qalma çoxlu abidələr mövcuddur. (Francesco Molon, Al Popolo Ligure. Preistorici Contemporane, Səh. 21)

Babil adı bu şəhərin sumer dilində "tanrı qapısı" anlamı daşıyan *Ka. Dinqir. Ra. ki* adının sami-akkad dilinə tərcümədə "tanrı qapısı" olan *Bab-ilim* sözünün qısaldılmış şəklidir. Babil Mesopotamiyanın güneyində Fərat çayının sahilində yerləşən kiçik sumer şəhəri olmuşdur.

Amorilər Babil şəhərini ələ keçirdikləri zaman o kiçik bir şəhər idi.

İlk dəfə Akkad kralı Hammurapi (m.ö. 1793-1750) Babil şəhərini özünə paytaxt elədi və tezliklə Sumeri eləcə də, İkiçayarasının quzeyini işğal edib Yaxın Şərqdə yeni qüdrətli bir dövlətin əsasını qoydu. Hammurapinin hakimiyyət dövründən etibarən bütün ölkə Babil, sumer və akkadlılar isə babillilər adlanmağa başlandı.

Amorilərin Babildəki hakimiyyətinə e.q. 1740-1735-ci illər arasında Qutların kralı Puzur-sin tərəfindən son qoyuldu və amorilər bütünlüklə Assuriyadan qovuldular.

İngilis tarixçisi G.Smit "Yaradılış haqqında Xaldey əfsanələri" adlı əsərində yazır ki, Babilin qədim adı Sumer dilində Tin-Tir idi ki, onun mənası həyat ağacı deməkdir. Həyat ağacının mövcud olduğu yer Eredu şəhərinin yaxınlığında yerləşmişdir. Babil əfsanələrində həyat ağacı ilanla birlikdə təsvir olunur. (Smith G. 1880, Səh. 85)

F.Lenorman da Babil şəhərinin Sumer-akkadca daha qədim adının hər hansı bir sami izi daşımayan Tin-tir olduğunu və qədim turan dilində həyat ağacı demək olduğunu yazır. (Lenormant F, 1877, Səh. 353)

Əfsanəyə görə yarı balıq yarı adam cildində olan "müdrikliyin əfəndisi" Hea Kan Kəngər körfəzindən çıxaraq qədim babillilərə mədəniyyəti və savadı öyrədirdi. (Smith G. 1880, Səh. 106 )

Babil şəhər dövlətini idarə edən ilk hakimiyyət sülaləsinin əsası Şumu Abum (m.ö. 1894-1881) tərəfindən qoyulmuşdur.

İngilis assuroloq A.Seycin yazdığına görə Bibliyada Babil həmçinin mənası tam aydın olmayan Kasdim adlandırılır. Ölkənin Kaldi adı mixi yazı mətnlərində ilk dəfə m.ö. XXII əsrdə bu ərazidə yerləşərək adları çəkilən Kaldi tayfasının adından götürülmüşdür. Bu tayfanın prinsi Merodox-Baladan Bütün Babili öz hakimiyyəti altına almışdı. Kaldilər Babildə əhalinin mühüm bir hissəsini təşkil etdikləri üçün ölkəyə öz adlarını verə bilmişdilər.

Babil əhalisinin bir hissəsini də Elam dağlarından gəlmiş kassilər təşkil edirdilər. Onlar Babili işğal edərək 577 ilə qədər hakimiyyət sürmüşdülər və onların hakimiyyəti dövründə Babillilər Xaanadakı Kassilər adlanırdı. (Sayce A. H. 1885 Səh. 13, 14)

**KALDİ/XALDEYA.** Rus tarixi ədəbiyyatında Xaldey, Babil mətnlərində Kaldi Bibliyada Kasdim adlanan xalqın adı ilk dəfə e.q. 878-ci ildə Assur kralı II Assurnasirpalın salnaməsində qeyd olunmuşdur. Kaldilər Kəngər körfəzinin quzeyində çayların yaratdığı bataqlıq ərazidə məskunlaşmışdılar. Oppertin sumer adını assurologiya elmində qəbul etdirməsinə qədər sumerlər ümumi adla Kaldi adlandırılırdılar.

Bibliyada Babilin qədim əhalisi olan kaldiləri Kasdim adlandırıldıqları üçün bir çox tarixçilər də öz əsərlərində xaldeyləri Kasdim adlandırırlar. Bibliyada peyğəmbərlər Yeremiy və Avvakum şimaldan gələn köçəri xalqın israil xalqının düşmənləri olan Xaldeyi və Babili cəzalandırıb yerlə yeksan etmələrindən bəhs edirlər.

Müasir tarixçilər xaldi/kəldi xalqını inadcıllıqla sami mənşəli kimi təqdim etsələr də, XIX əsrin görkəmli assuroloq alimləri onların etnik mənşəyi haqqında daha fərqli fikirlər irəli sürmüşlər.

Ümumiyyətlə, İkinci dünya müharibəsindən sonra assurologiya elmində gerçək tarixi faktlar saxtalaşdırılmaqla Ön Asiyanın qədim tarixinin samiləşdirilməsi və ariləşdirilməsi məsələsi geniş vüsət almışdır.

Keçmiş yüzilliklərin görkəmli assuroloqları kaldi, kəldani/xaldilərin etnik baxımdan samilərin və avropalıların kassi adlandırdıqları turanlı ön türk kas və ya kuslara mənsub olduqlarını yazırlar.

İlk Kassi kralı Karaindaşdır. Karaindaş Karduinaş ölkəsinin də kralı idi və Assur hökmdarı ilə and içərək ölkələrinin bərabər hüquqa malik olduqlarını və hər birinin öz ölkəsini idarə edəcəkləri haqqında razılığa gəlmişdilər.

Alman assuroloqu Huqo Vinkler kaldi/xaldeyləri kök etibarı ilə kassilərdən hesab edərək yazırdı: "E.q. II minilliyin ortalarında kassi işğalı dönəmində Babilin cənubundakı dəniz sahili ərazilər ayrılaraq öz müstəqil dövlətlərini yaratdılar. Bu dövlət özünü Karduniaş adlandırırdı. Bu ad kassi dilinə aid ola bilər, çünki, adın axırındakı "iaş" sonluğu kassi dilində ölkə deməkdir. Coğrafi baxımdan o "Dəniz ölkəsi" deməkdir. Bəsrə körfəzi sahilindəki bu ölkə assurlar tərəfindən də "Kəldi ölkəsi" adlanırdı. Bu ərazi kəldi və ya xaldilərə məxsus idi. Kassilər öncə Kalduiaş ölkəsində möhkəmlənmiş və burdan Babilə hücum etmişdilər. Qeyri sami xalq olan Xattlar da sumerlərlə qohum xalq idilər və arameylər tərəfindən Mesopotamiyadan sıxışdrılıb çıxarılmışdılar". (Winckler H. 1892, Səh. 87)

Vinkler kimi Lenorman da bir çox assuroloqlardan fərqli olaraq kaldilərin mənşə etibarı ilə kassilərə mənsub olduqlarını və ölkənin adının Kassi hökmdarı Karaindaşın adından qədim deyiliş formasının Karduniaş olduğu fikrindədir.

Lenorman Kaldi dövlətinin yaranma tarixində bəhs edərək yazırdi ki, Babilin cənubunda dəniz sahili ərazilərdəki xalqın bir qismi öz müstəqilliklərini qoruyub saxlaya bildilər və Karduniaş adı altında öz dövlətlərini qurdular. Güman olunur ki, bu kassi dilindədir və Kaldi/Xaldi həmin xalqın adı, sondakı "iaş" isə kassi dilində torpaq və ya yer deməkdir. Mixi yazılı sənədlərdə Kaldu adı böyük Akkad xalqının tayfalarından birinin adıdır. M.ö. VIII əsrdə Kaldu tayfası Dəclə və Fərat

çaylarının cənubunda mühüm bir mövqe əldə edərək Babildə hakimiyyət sülaləsini təşkil etdi və Assuriyanın böyük rəqibinə çevrildi. Onlar Nineviyada hakimiyyəti devirərək Nabupalasarın başçılığı altında Kaldi-Babil imperiyasının əsasını qoydular.

Qədim tarixin görkəmli tədqiqatçılarından olan danimarkalı assuroloq Maks Nibur yəhudilərin kasdim adlandırdıqları kaldi xalqı haqqında yazırdı: "Kasdimlərin mənşəyi məsələsi tarixçilər arasında müəyyən fikir ayrılığına səbəb olmuşdur. Kasdimlər bütün Babil əhalisi ilə eynidir yoxsa onların bir hissəsinimi təşkil edirlər. Əksəriyyət etibarə ilə kasdim-xaldeylər tatar-türklərlə eyniləşdirilir. Müller və başqaları xaldey müdriklərini tatar-türk və ya saklar olduqlarını təsdiq edir. Oppert kasdim-xaldeyləri Sumerin qədim sakinləri olan turanlı türklərlə və ya saklarla eyniləşdirir. Beləliklə, yanlışlığa qapılmadan kasdimlərin tatarlar olduqlarını qəbul etmək lazımdır. Kasdim adı Mesopotamiyanın qədim dilində "kas"-iki, "dim"-axın deməkdir. Bu izahat kasdim-xaldeylərin Babilin hökmran xalqı deyil, adi təbəələri olduqlarını göstərir. Əgər biz kasdimlərin Babilin döyüşçü əsgər xalqı olduğunu qəbul etsək o zaman onlar Babilə e.q. 800-cü ildə gəlmişlər. Lakin Kasdimlər iskit saklar olsaydılar, o zaman yəhudilər onları Zaqrosda və Mesopotamiyanın quzeyində yaşayan iskitləri adlandırdıqları kimi aşkuza adlandırardılar. "(Nibuhr M K., 1857, Səh. 153)

Kaldilər sonradan Sumerlərin dini etiqad ənənəsinin bir çox xüsusiyyətlərini davam etdirərək xaldey adı ilə Ön Asiyada ovsunçuluq, falabaxma, münəccimlik və həkimlik fəaliyyətlərini əsas peşəyə çevirərək xüsusi bir təbəqə təşkil etmişlər.

Lenorman milli kimliklərini qeyb edən xaldeylərin əhalinin özəl bir təbəqəsinə çevrildikləri haqqında yazır ki, Assur krallarının sarayında xidmət edən şaman-falabaxan-münəccim xaldeylər Babildə Nineviyada protoxaldey kuşilərin varisləri idilər. Onlar həkimlik işi ilə də məşğul olaraq insanları ovsunla və xalq təbabət üsulları ilə müalicə edirdilər. Onlar samilərə qədərki dövrdə Sumer və Akkad imperiyasının qurucuları idilər. Babillərin sarayından Nineviyaya Assur hökmdarlarının sarayına gələrək öz etnik kimliklərini qeyb etmiş xaldey və kasdim adı ilə münəccimliklə, fala baxmaqla, sehrbazlıqla məşğul olurdular. (Lenormant F. 1887, Səh. 36)

**ASSURİYA.** Assuriya indiki İraq ərazisində mövcud olan qədim Mesopotamiya dövlətlərindən biri idi. Assuriya tarixi e.q. 2400-cü ildən başlayıb e.q. 605-ci ilə qədər davam edən Qədim, Orta və Yeni dövrləri əhatə edirdi. Assuriya ərazisi samilər buranı işğal etmədən öncə öntürk Subir etnosunun məskunlaşdığı ərazi idi. Orda həmçinin kassilər, qutilərin bir hissəsi və Elamın etnik tərkibinin ən önəmli hissəsini təşkil edən namri və ya bars tayfa birliyi məskunlaşmışdılar.

Assuriya dövlətinin yaradıcıları akkadlardan fərqli olaraq sumerləşməyə məruz qalmamış vəhşi *sami amori tayfaları idi*. Assuriya dövləti yaranmadan öncə həmin ərazi yerli turanlı xalqının adı ilə Subartu və ya Subir adlanırdı. Bir çox *qədim mənbələrdə, o cümlədən Əhməni kitabələrində* Assuriya Aturiya, yəni turların ölkəsi adlanırdı.

Teodor Noldeke Assuriya adının əslində Suria adından yarandığı fikrini irəli sürür. Suriya sözünün də mənası yenə də Subir xalqının adından ibarət olub Su xalqı deməkdir. Assuriya adının samilərin Aşşur tanrılarının adından yaranmış olduğu da iddia edilməkdədir. Əslində isə Aşşur adı Aturiya adının samiləşmiş şəklidir. Assuriya ərazisində samilər burda yerləşmədən öncə Tur və Turan teonimlərini özündə əks etdirən etnonim və toponimlər mövcud olmuşdur. Diyala çayının qədim adı Turan olmuşdur. Dəclənin sahilində subarlara məxsus qədim müqəddəs məbədin mövcud olduğu Me Turan adlı şəhər dövləti var idi.

Çox amansız və dağıdıcı bir gücə malik olan Assuriya regiondakı dövlətləri özünə tabe etmək üçün uzun illər ərzində dağıdıcı müharibələr aparmış, çoxsaylı şəhər bəylik dövlətlərini əsarət altına alaraq ağır xəraclar ödəməyə məcbur etmiş, şəhərləri, kəndləri viran qoymuş, minlərlə insanı əsir alaraq köləyə çevirmiş və çoxsaylı turanlı tayfaların öz yurdlarını tərk edərək köçlərinə səbəb olmuşdur. Peyğəmbər İsaya Bibliyada assurları vəhşi və döyüşkən xalq adlandırır. Assurlar olduqca qaniçən və zülmkar idilər və əsirlərə işgəncə verməkdən həzz alırdılar. (F. Mürtder. 1891, Səh. 103)

Lenorman Mixi yazılı abidə mətnlərinin tədqiqi nəticəsində əldə edilən məlumatların və tarixi faktların böyük dəqiqliklə Assuriya hakimiyyətinin qədim Ön Asiyada Turanlıların ağalığına son qoymuş olduğunu yazır. Fərat və Dəclə çayları vadisində samilərin Assuriya dövlətinin yaranması qədim tarixdə əhalinin izdihamlı kütləsini təşkil edən turanlılar arasında əlaqə baxımından onları bir-birindən təcrid edən bir maneəyə çevrilmişdir. Babilin və Xaldeyin bu böyük turanlılar kütləsi öz yerlərindən qoparılaraq köçlərə məruz qalmış, getdikləri yeni ərazilərdəki əhaliyə əlavə olunmuşlar. Turanlıların ilkin vətənlərinin Ön Asiyada olduğu haqqında Turanizm nəzəriyyəsinin fəal müdafiəçisi olan Lenorman vaxtilə İkiçayarası əhalisinin böyük əksəriyyətini təşkil edən turanlıların, Assuriyanın işğalçı hökmdarlarının istilası nəticəsində öz yurdlarını tərk edib getdikləri Asiyanın bütün digər istiqamətlərdəki ərazilərdə məskunlaşmış olan turanlı midiyalılarla, suslularla (elamlı), Fərat və Dəclənin mənbəyinin başladığı dağların əhalisi ilə, moskilərlə, tibarlarla və digərləri ilə qarşılaşdıqlarını yazırdı. (Lenormant F. 1875, Səh. 381)

Sami Assuriya dövləti Mesopotamiyadakı Turan dövlətlərinin və mədəniyyətinin özülü üzərində qurulmuşdu. Lenorman İkiçayarası ölkələrini işğal edən sami mənşəli Assuriya dövründə də turan dilinin öz varlığını qoruyub saxladığını yazır və bu dövlətin inzibati idarəçilik və hərbi sistemində isifadə olunan bir çox terminlərin turan mənşəli olduğunu linqvistik dəlillərə əsasən sübut edir.

Assuriya sarayında orduya "turtanu" və "siltanu" titullarına malik iki komutan başçılıq edirdi. Turtanu sağ ordu qoluna, Siltanu isə sol ordu qoluna başçılıq edirdi. Siltanu sözünün Sami mənşəli olub "qırmızı" mənası daşıdığı ehtimal olunur. "Turtanu" adının etimalogiyasını sami dilində tapmaq mümkün olmamışdır, görünür onun kökləri daha qədimlərə dayanır. Mixi yazılı lövhələrdən də göründüyü kimi Turtanu dövlətdə və orduda mühüm bir vəzifə olmuş və ordunun generallisimus rütbəsinə bərabər idi. Turtanu dövlətdə kraldan sonra ikinci vəzifə hesab olunurdu və kralın yoxluğu zamanı dövlətə rəhbərlik edirdi. Kralın əmrinə əsasən onun yeri həmişə kralın sağ tərəfində olurdu. Turtanu adı mixi işarəli yazıda iki formada yazılmışdır assurca "turtanu", qədim akkad dilində isə "turdan" şəklində yazılmışdır və mənası "qüdrətli başçı" deməkdir. (Lenormant F. 1875, Səh. 363-364)

Lenomarın Assur ordu komutanı Turdan adını qədim turanlılara bağlaması bu adın qədim türk dilində Tarxun/Turxan və ya Tardu adlarının qədim fonetik forması olduğunu göstərir. Yunan mənbələri Göytürk imperatorluğu dövründə 576-cı ildə Turxan adlı şahın Soqdiyanı idarə etdiyini yazırlar.

Assuriya ordusunun komutanları "Sak" adı daşıyırdılar. Lenorman bu sözün qədim xaldey-akkad dilindən qalma turan mənşəli olduğunu və "sak" sözünün mənasını "başçı" kimi izah edir. Ordu başçılarının "Sud-sak" – böyük başçı adlandıqlarını yazır. (Lenormant F. 1875, Səh. 364)

Qədim Mesopotamiya tarixinin ən önəmli araşdırıcılarından biri olan alman alimi F.Hommelin yazdığına görə Assur adı Sumercə "A-usar" sözündən ibarət olub mənası "su sahəsi" və ya "sulu çöl" deməkdir. Onun fikrincə samilər gəlmədən öncə Assurun daha qədim adı Gu və ya Quti olmuşdur. Assur krallarından birinin adı da Kara-kardaş idi. Assurun qədim şəhərləri Kalax indi Nimrud adlanır, Arba-ilu indi Ərbil adlanır. (F.Hommel. 1889, Səh. 39, 40)

Uzun sürən müharibələr nəticəsində döyüşkən öntürk xalqı olan madlar və onların Midiya dövləti e.q. 605-ci ildə Assuriya imperiyasının mövcudluğuna son qoyaraq onların uzun illər ərzində turanlı xalqlara etdikləri zülmün intiqamını almışlar. Yəhudi mənşəli tarixçilərin bir çoxu sami Assuriya dövlətinin dağılmasını böyük təəssüf hissi ilə qeyd edirlər.



# VIII FƏSİL. Sumerlərin Türklər və Ön Asiyanın digər turanlı xalqlarla dil və etnik qohumluq əlaqələri

Müasir dövrdə tarix elminin artıq sovetlərin dövründəki kommunist ideologiyasının inhisarından xilas olmasına rəğmən müstəqilliyimizin indiki dövründə də Azərbaycanın və digər Türk ölkələrinin bəzi tarixçiləri o dövrün ətalətindən xilas ola bilməyərək avrosentrizm və elmi sionizm təbliğatına uyaraq sumerlərin türk mənşəli olduqları haqqında böyük assuroloq bilim adamlarının təkzib edilməz linqvistik, enoqrafik və tarixi dəlillərinə göz yumaraq onların türklüklərini hələ də inkar etməkdədirlər.

Sumerlərin sami və hind-avropa xalqları ilə istər dil, istərsə də etnik kök baxımından əlaqələrini sübut etmək sahəsində göstərilən bəzi cəhdlər tam tutarsız təşəbbüs kimi bilim adamları tərəfindən qətiyyətlə rədd edilmişdir.

Sumerlərin turanlı mənşəyə malik olmaları və xüsusən də onların türklərlə qohumluq əlaqələri keçmişin böyük assuroloqlar, arxeoloq və etnoloqları tərəfindən təkzib olunmaz dəlillərlə sübut olunmuşdur. Yuxarıda da qeyd etdiyimiz kimi bir çox görkəmli assuroloq, Sumeroloqlar və o cümlədən Hrozni Sumerlərin ilkin vətəninin Orta Asiya-Türkistan və Azərbaycan, daha doğrusu Turan olduğu haqqında ortaq fikirə malikdirlər.

Hrozniyə görə bütün dəlillər sübut edir ki, e.q. VI minillikdə sumerlər Türküstanın və ya Qazaxıstanın şərqində yaşayırdılar. Onlar Altay dağlarının yamaclarından və İrtış çayının hövzəsindən keçərək Azərbaycana, Cənubi Qafqaza gəlmiş, uzun illər ərzində burda məskunlaşdıqdan sonra hərəkət edərək Sancər dağlarından aşaraq Mesopotamiyanın güneyində yerləşmişlər. Yüzillər sonra onların başqa bir qrupu yenə də Qafqazları keçib Azərbaycana gəlmiş və burdan hərəkətlə Anadoluya, Suriya və Babilə keçmiş, ilk öncə Ubeyd, sonra Uruk mədəniyyətini yaratmışlar. Hrozni sumer dilinin də türk dilinə xas bir çox xüsusiyyətlərə malik olduğunu yazır.

İkinci dünya müharibəsindən sonra və xüsusən də 70-ci illərdən başlayaraq sumerlərin dilinin türk mənşəli olması haqqında tərəddüdlər meydana çıxsa da, müasir dövrdə sumer dilinin ural-altay dillərinə mənsubiyyətini inkar edən müddəalar artıq elmi əhəmiyyətini itirmişdir. Üzərindən 157 il keçməsinə baxmayaraq sumer dilinin digər dillərlə müqayisəsi heç bir lazımi nəticə vermədiyindən ural-altay nəzəriyyəsi yenidən aktuallıq qazanmışdır. Sumer dilinin leksik tərkibindəki sözlərin macar və fin dilləri daxil olmaqla Ural-Altay dillərinin lüğət tərkibindəki sözlərlə uyğunluğu minlərlədir və onun ən çox hissəsi türk dillərinin payına

düşür. Müasir dünya dillərinin heç biri sumer dili ilə bu qədər yaxın qohumluq əlaqələrinə malik deyil.

XIX əsrdə sumer qrammatikası və leksikası bir o qədər də mükəmməl öyrənilməmişdi. Assurologiya elminin inkişafı sumer dilinin ural-altay dilləri ilə müqayisəli təhlili üçün yeni əlverişli imkanlar yaratmışdır. Sumer mətnlərinin yeni texnologiya əsasında elmi şəkildə öyrənilərək tərcümə olunması onun türk dilləri ilə elmi müqayisəli təhlili sahəsində, arxeologiya və genetika elminin inkişafı isə sumerlərin etnik mənşəyinin müəyyən edilməsi sahəsində türk bilim adamları qarşısında geniş imkanlar açır.

Nineviyada zəngin Assurbanipal mixi yazılı arxivinin tapılması ilə 1855-ci ildə assur dilindəki mixi yazılar oxunmuşdur. Oxunan mətnlərdə assur dilinə aid olmayan çoxlu sözlər var idi. Assur dilində olmayan həmin cümlələri oxuyan Rauilson bu dili öncə iskit sonra isə turan dilində olduğunu, mixi yazının da onlar tərəfindən yaradıldığı fikri irəli sürdü. Uzun illər ərzində iskit və turan dili adlanan həmin dili Oppert 1869-cu ildə sumer dili adlandırdı və onun turan dilləri olan türk, fin və macar dili ilə eyni qohum bir dil olduğunu fikrini irəli sürərək Turanizmin əsasını qoydu. Hommel, Falkenştayn, Kramer, Hartmut Smökel kimi görkəmli sumerşünaslar sumer dilini türk dilinə bənzədirdilər.

Əbülfəz Elçibəy sumerlərin mənşə etibarı ilə türk olduqlarını bir mənalı şəkildə qəbul edərək Sumer-Kəngərlərin ilkin dövlət qrumunun Azərbaycanda, Kür-Araz ovalığında Urmu gölünün ətrafında yarandığı fikrini irəli sürmüşdür. (Ebülfez Elçibey. 1997, Səh. 18)

"Ən qədim Azərbaycan tarixinin ümumbəşəri dəyəri orasındadır ki, dünyanın siyasi, mədəni tarixinin özülü sayılan Sumerin yaranma və inkişafında böyük rol oynamışdır. Sumerlər əvvəlcə Azərbaycanda yaşamış, oradan Mesopotamiyaya axışıb yeni məskəni dövlətlərinin mərkəzinə çevirmişlər. (Ə. Elçibəy. 2003, Səh. 14)

Böyük sumeroloq Kramer Müezzez Çığa "Tarix Sumerdən başlar" kitabı ilə əlaqədar yazmışdır ki, "Bu Türkcə kimi bitişik bir dildə danışan və Güney Mesopotamiyaya miladdan 6-7 min il öncə Orta Asiyadan köçmüş olan Sumer xalqı haqqında kitabdır. Sumerlilərin türklərlə əlaqədar bir xalq olduğu fikri Atatürk zamanında keçərli idi. Bunun belə olduğu həqiqətən heç də uzaq deyil".

Digər bir görkəmli sumeroloq Benni Landsberqer yazırdı ki, "Sumer dili həm dil baxımından, həm də bütün Asiya boyunca dağlıq bölgələrdə danışılan dil olması baxımından önəmlidir. Bu növdən olan və hələ də danışılaraq yaşayan dil türk dilidir".(M.İ.Çığ. Sumerler və Türkler, 2018)

Sumer dili ilə türk dilini qarşılaşdırmaq o qədər də asan iş deyil. Arada 4-5 min il fərq vardır. Türklərin ilk yazılı abidəsi kimi qəbul edilən Orxon abidələrinin yazıldığı dövrdən bu günə qədər 1500 il bir zaman keçib və türk dili xeyli dərəcədə inkişaf etmişdir. Sumer dili də ayrı bir dil qrupuna aid olan akkad dili vasitəsilə oxunduğundan əlavə çətinliklər yaratmışdır. Akkad dilində Sumer dilində mövcud olan ı, o, ö, ü kimi səsli və ç, f, ğ, q kimi səssiz hərflər yoxdur. Sumercədə palifoniya qaydası mövcuddur və hər mixi işarə bir neçə cür oxunur. Hər bir mixi işarəsinin həm təsviri, həm də abstrakt anlamı vardır. Eyni zamanda hər bir mixi işarəsinin loqoqram ifadəsi ilə yanaşı bir də heca oxunuşu vardır. Sumer dili də ilk yazı mətnlərinin aid olduğu e.q. 3000-ci illərdən e.q. 1850-ci illərə qədər mövcud olduğu zaman ərzində xeyli inkişaf yolu keçərək dəyişikliyə məruz qalmışdır. (M.İ.Çığ. Sumerler ve Türkler, 2018)

Sumer dili də türk dili kimi fellərlə çox zəngindir. Şəkilçilər kökə əlavə edilir. Qadın və kişi cinsi yoxdur. Qısa cümlədə geniş anlayış ifadə olunur. Kramer də bu zorluqları nəzərə alaraq sumer dilinin hələ tam tərcümə edilə bilinmədiyini və bunun gələcəkdə tam mümkün ola biləcəyini söyləmişdir.

Sumer dilinin və mixi yazının oxunuşundakı mürəkkəbliyin mixi yazı mətnlərinin şifrəsinin açılmasında çətinlik törətdiyini mixi yazı şifrəsini ilk açan ingilis rahibi və linqvisti Edvard Hinkis də XIX əsrdə qeyd etmişdir.

Edvard Hinks yazır ki, sami mənşəli assur və babillilər turanlıların aqqlütinativ köklü sumer mixi yazı sistemini qəbul edərkən bu yazıya öz dillərinə uyğun polifoniya qaydasını tətbiq etdilər. Bunun nəticəsində mətnlərin xarakterindən asılı olaraq hər bir mixi işarəsi bir neçə formada ifadə olunmağa başlandı. Assurlar bu polifoniya qaydasını sumer dilindən tərcümə etdikləri yüzlərlə mixi lövhələrindəki mətnlərə də tətbiq edərək onların oxunuşunu və tərcüməsini çətinləşməsinə səbəb oldular. Turanlı mənşəyə mənsub və sumerlilər kimi aqqlütinativ dilli Elamlılar və urartulular isə assur-babillərin polifoniya qaydasını qəbul etmədilər və mixi işarələri qədim sumer ənənəsinə uyğun olaraq davam etdirdilər. (Edward Hinks. 1863, Səh. 10)

İ.Dyakonov yazır ki, sumer sözlərini sami akkad dilinin qanunauyğunluqları əsasında tərtib olunmuş akkad mixi yazı işarələri vasitəsi ilə mükəmməl şəkildə ifadə etmək mümkün deyil. (И.М.Дьяконов. 1954. Səh. 48)

Bütün bunlara rəğmən Sumer dilini türk və bütövlükdə ural-altay dilləri ilə müqayisə edən bilim adamları bu sahədə böyük uğura imza atmışlar. Hommel Sumer dilində 350 söz müəyyən etmişdir.

Prof. Osman Nədim Tuna Sumer dilində 165 türkcə söz müəyyən etmişdir. O bir türkoloq bilim adamı kimi sumer və türk dillərinin qarşılıqlı əlaqəsi haqqındakı tezisini 1940-cı illərin axırında Amerikada türkoloq və sumeroloqların konqresində irəli sürmüş və hər hansı bir etirazla qarşılanmayaraq qəbul edilmişdir. O, ömrünün 40 ilini türk dilləri ilə sumer dilinin qarşılıqlı araşdırılmasına həsr etmiş və sumer dilində 32 səs əvəzlənməsinin türk dillərində qarşılığını müəyyən etmişdir. Osman Nədim Tuna "Sümer ve Türk Dillərinin Tarixi əlaqəsi"nə həsr etdiyi əsərində Türklərlə Sumerlərin tarixi əlaqələrini sübut etmiş və Türklərin

sumerlərin timsalında ən azı e.ö. 3500-4000 il Anadolunun doğu bölgəsində yerləşdiklərini tarixi linqvistik dəlillərlə sübut etmişdir. Onun tezisinə görə türk dili 5500 il öncə bağımsız iki qoldan ibarət bir dil olaraq mövcud idi. İlk Ana Türk dili isə 10000 illik qədim bir tarixə malikdir. (Osman Nədim Tuna. Sümer ve Türk Dillerinin Tarihi İlgisi İle Türk Dilinin Yaşı Meselesi, Ankara, 1990)

Oljas Suleymenov hələ sovet dövründə bütün qadağalara rəğmən pantürkist ittihamlarına məruz qalaraq "Az i Ya" adı möhtəşəm bir əsərində sumer dilini türk dili ilə müqayisə edərək 65 sumer-türk sözü müəyyən etmişdir.

Azərbaycanda Sumer dili ilə Azərbaycan türkcəsi arasında leksik paralellər apararaq müqayisəli şəkildə araşdıran ilk bilim adamı Aydın Məmmədov olmuşdur. O hələ 1980-ci ilin əvvəllərində Sumer dilində 122 sözün türk dilində məna baxımından eyniliyini və ya yaxınlığını müəyyən edə bilmişdir. A.Məmmədov yazır ki, hind-avropaçılıq dilçilik elmində inhisar yaradaraq Avropa və Asiyanın qədim mədəniyyət mərkəzlərinin əksəriyyətində hind-avropa dillərində danışan xalqları "məskunlaşdırmış" və dilin tarixini xalqın tarixi ilə birlikdə öyrənməyə çağıran tarixi dilçilk elminin inkişafı qarşısında əngəllər yaratmışdır. Lakin türk dilləri ilə qədim Ön Asiyanın dillərindəki yazılı mənbələr, o cümlədən sumer dili arasında mövcud olan çoxsaylı müştərək sözlər göstərir ki, türk dillərini Cənubi Qafqaz ərazisində təcəssüm etdirən Azərbaycan dilinin qədim layları qəbul edilən rəsmi baxışların iddia etdiyi kimi eramızın ilk əsrlərinə deyil, daha qabaqlara, ən azından üç-dörd min il bundan öncəyə aiddir. (Aydın Məmmədov. Azərbaycan Filologiya Məsələləri, 1983, Səh. 5-24)

Ömrünün 40 ilini sumer dilinin tədqiqinə həsr etmiş Yüksək mühəndis Selahi Diker sumer dilini türk dilləri ilə qarşılaşdıraraq "Türk Tarihi Sumerde başlar" adlı əsər yazmış və sumer dilində 500 türk sözü müəyyən etmiş və sumer qrammatikasını dərindən təhlil edərək sumer dilində bütün türk dialektlərinin mövcud olduğunu, lakin oğuzlara xas z dialektinin daha yayğın olduğunu və sumer qrammatikasının əslində türk dili qrammatikası olduğunu müəyyən etmişdir.

Selahi Diker yazır ki: "Ən əski dil sumercədir. Akademik bilim adamları hər nə qədər sumercədəki türkcə kəlimələrin başqa bir dildən alıntı olduğunu iddia etsələr də, bu kəlimə sayısını 1000-ə çıxarmaq mümkündür. Halbuki Çex yəhudisi Hroznu tək bir "woda" (su) sözü ilə hititləri hind-avropalılara aid etmişdir. Yabançı sumeroloqlar "uyqarlığımızın təməlləri sumerlərə bağlanır" deyərək sumerləri qeyb olmuş bir millət kimi təqdim edirlər, çünki yüzillərdir barbar adlandırdıqları türklərin sumer mədəniyyətinin varisləri olduğunu qəbul etməyi özlərinə sığışdırmırlar. (Selahi Diker, 2001)

Selahi Diker əsası Spayser, Landsberqer və Kramer tərəfindən qoyulan "substrakt" dil nəzəriyyəsinə əsasən sumer dilindəki türk sözlərinin bu dilə aud olmayan digər bir dildən alınması haqqındakı fikirlərin əleyhinə çıxır və bu sözlərin qətiyyən alıntı olmadığını, sumer dilindəki çoxsaylı sözlərin və kral adlarının türkcə olduğunu, bütövlükdə sumer qrammatikasının da bir türk dili qrammatikası olduğunu çoxsaylı müqayisəli qarşılaşdırma ilə sübut edərək Türk tarixinin 5000 il öncə Sumerdə başladığını sübut etmişdir.

Müasir dövrdə Sumer dilinin ən böyük tədqiqatçılarından biri fin sumerşünası Helsinki Universitetinin professoru Simo Parpoladır. Parpola 2004-cü ildən etibarən "Sumer və Ural-altay dilləri arasında linqvistik əlaqələr" adlı proqram üzərində işləyir və bu məsələyə həsr olunmuş bir neçə əsərin müəllifidir. Parpola sumer dilinin ural-altay dillərinə aidiyyatı məsələsini şərh edərək yazır ki, assurologiyanın ilkin mərhələsində sumer dili adətən ural-altay dillərinə mənsub hesab edilirdi. Bu görüşün müəllifləri Edvard Hinkis, Henri Rauilson və Yozef Oppert idi. Eyni zamanda Fridrix Delitz və Fransua Lenorman kimi görkəmli assuroloqlar da bu görüşü dəstəkləyirdilər.

Simo Parpola sumer dili lüğətini 75 faiz öyrənərək bu dildə 1700 söz və fonemin ural-altay dili etimologiyası ilə məna uyğunluğunu müəyyən etmişdir. Porpola qeyd edir ki, sumer dilinin altay dilləri ilə bağlantısı gözardı edilmiş kimi görünsə də, bu dilin türk dilləri ilə genetik bağlantısı çox güclüdür, çünki sumer dilinin türk dilləri ilə uyğunluğa malik olan başlıca dil ünsürlərini əsas etibarı ilə təməl kəlmələr və qrammatik morfemlər təşkil edir ki, onlara ural dillərində də rast gəlinir. (Simo Parpola, 2016)

Parpola sumerlərin Mesopotamiyaya şimaldan Ural dil ailəsinin yaşadıqları bölgədən gəldikləri fikrini irəli sürür. Onun fikrinə görə Sumerlər bir etnos olaraq Xəzər və Qaradəniz bölgəsində, Qafqazdan şimalda Volqa çayı və Xəzər arasındakı ərazidə oturaq həyat tərzi sürərək təşəkkül tapmışdılar. Parpola sumerlərin vətənini m.ö. 3700-cü ilə aid olan Şimali Qafqazdakı Maykop mədəniyyəti ilə əlaqələndirir və Maykop mədəniyyəti mənsublarının sonrakı dövrlərdə də Uruk ilə ticarət əlaqələrinə malik olduqları fikrini irəli sürür.

Onun gəldiyi qənaətə görə m.ö. 3500-ci ildə Dunay və Don arasında məskunlaşmış hind-avropalılar dinamik şəkildə şərqə doğru genişlənməyə başlayaraq 3300-cü ildə Qara dənizin Qafqaz sahillərinə çatdılar. Bu yayılma sumerlərin Qafqaz üzərindən hərəkət edərək Diyala çayı vadilərinə və Mesopotamiyaya köçlərinə səbəb olmuşdur.

Öz araşdırmasında sumer dilinin ural-altay dilləri qrupunun fin-ural dilləri ailəsi ilə müqayisəsinə üstünlük verən Parpola sumer dilində *uqu* kəlimənin izahını verərkən onun tac və başın ustü və ya tac hissəsi anlamı daşıdığını və C.Vestenholz və M.Ciqristin *uqu* sözünün həmçinin "beyin" anlamı da daşıdığını aşkar etdiklərini yazır. Parpola *uqu* sözünü ural-fin dillərində beyin anlamında *ajkwo/aiko* sözləri ilə müqayisə edir. Lakin türk dillərində *uqu* sözünün analoqu ağıl və dərk etmək anlamı daşıyan *uq-uquq-uquş* şəklində mövcuddur. (ДТС, 1969, Səh. 613)

Sumer dilində *AN* loqoqramının göyüzü və ulu tanrı anlamı ilə yanaşı bir də üçüncü şəxsin təkində "olmaq" felini ifadə edən *am* oxunuşu vardır. Türk dilində uyğun olaraq *Ani* sözü *ol, olmaq,* canlı və cansız əşya üçün "O" idioqramı istifadə olunur. (ДТС, 1969, Səh. 45, 366)

Dünyanın böyük sumeroloqlarından biri olan Hommel sumerləri dil baxımından deyil etnik mənşə baxımından da türk sayır və onların ilkin vətənlərinin Orta Asiya, yəni Turan olduğunu qeyd edirdi: "Mərkəzi Asiyanın türk mənşəli xalqı olan sumerlər Xəzər dənizi üzərindən dağ silsiləsini aşaraq Babilin güneyində məskunlaşmış və tarixin başlanğıc dövründə böyük bir mədəniyyətin əsasını qoymuşdular. Onlar Mesopotamiyanın güneyindəki yeni vətənlərində ölkənin təbii şərtlərinə uyğunlaşdılar və onların şamanist dinləri tədricən samilərin dini inanclarının təməlini təşkil edən yeni dini forma kəsb etdi. (F.Hommel, 1885, Səh. 253)

Hommel Sumer və türk dilləri arasındakı qohumluq əlaqəsini linqvistik araşdırmalara əsasən sübut etdiyini vurğulayaraq yazırdı: "Mən öncəki əsərlərimdə də araşdırmalar əsasında Sumer və türk dillərinin müqayisəsini verərək bu dillərin qrammatik quruluş və söz ehtiyatı cəhətdən heyrətamiz dərəcədə eyni kökə malik olduqlarını sübut etmişəm. Sumerlər cənub ərazilərində bitən bitki adlarının ifadə olunmadığı dillərini özləri ilə Xəzər dənizinin arxasında yerləşən Orta Asiyadakı vətənlərindən gətirmişdilər. Sumer dilindəki bir çox heyvan adları, metal adları, mədəni ifadələr və çoxlu fellər türk-monqol dillərində də eyni mənaya malikdirlər. Sumer dilində Adda-türkcə ata; Sumercə Anna-türkcə ana; Sumercə Uqul-türkcə oğul; Sumercə Tur, oğul-türkcə torun, törəmə; Sumercə Dinqir/dimir-türkcə tenqri/tanrı; Sumercə yeraltı dünya Aral-türkcə yeraltı dünyanın sahibi Erlikdir. Tur, thoq sözü türk dilində olduğu kimi sumer dilində həmçinin doğulmaq, dünyaya gətirmək, nəsil, rüşeym anlamları daşıyır".

Hommel sumer və türk dilləri arasındakı varislik əlaqəsini təsdiq edərək yazırdı ki, Türk xalqlarının Mərkəzi Asiyadakı qədim əcdadlarının bir qolunu təşkil edən sumerlərin dili miladdan təxminən 5000 min il öncə türklərin dilinin necə olduğunu bizə göstərir (Hommel F. 1885, Səh. 245-252)

Landsberqer Sumer dilinin quruluş xarakteri haqqında yazırdi ki, Sumer dili öz qruluşuna görə aqlütinativ, yəni *bitişkən dildir. Quruluş etibarı ilə sumer* və türk dilləri bir-birlərinə çox bənzəyirlər. Sumer sözlərinin kökü tək hecalıdır və kəlimə sözün kökünün önünə və ya sonuna şəkilçilər əlavə etməklə yaradılır və bu zaman kök dəyişikliyə uğramır. Türk dili də bitişkən dildir, söz kökə şəkilçilər əlavə etməklə yaranır, yalnız türk dilində sumer dilindən fərqli olaraq ön şəkilçilər yoxdur. Sumer dili yalnız fenomenolojik baxımdan deyil, eyni zamanda tarix baxımdan da bütün Asiya boyunca uzanan dağlıq ərazidə danışılan geniş bir dil qrupuna aiddir. Bu qrupa daxil olan əsas dil ailəsi Türk dilləridir. Sumerli üçün danışmaq hadisəni izah etməkdən ibarətdir. Onlar cümləni təşkil edən tərkibləri öz zehnlərində ifadə etdikləri məntiqə görə sıralandırırdılar. Sumer dilində söz kökləri çox azdır, fikirlərini zəngin şəkildə mövcud olan əşya adlarının və feil məvhumlarını tərkiblərə ayırmaqla ifadə edirlər. Sumerli kral sözünü-böyük adam, baxmaq sözünü-göz açmaq, saray sözünü böyük-ev kimi ifadə edirlər. Onlar, haqqında düşündükləri əşyaları da bu cür tərkiblərə ayıraraq sıralandırırlar.

Landsberqer sumer dilini kompleksif dil adlandırır. Sumerlərin yaşamında dini məbədlər mühüm rola malikdirlər. Dünya hadisələri tanrıların söylədikləri formula uyğun olaraq, ilahi nizama görə baş verir. (Landsberger B. 1990, Səh. 7)

Landsberqer sumer dili ilə türk dilinin qohumluğu ilə yanaşı qutilərin dillərinin *də türk dili ilə qohum olduğunu elmi linqvistik dəlillərlə* sübut etmişdir. Yəni burdan belə bir məntiqi nəticə hasil olur ki, qutların dili Sumer dili ilə yaxın qohumluq əlaqələrinə malik olmuşdur.

Turan tayfalarının öz ana yurdları Orta Asiyadan çox qədim zamanlardan etibarən müntəzəm köçlər şəklində qərbə doğru hərəkət edərək Ön Asiyada məskunlaşdıqları və burda dünya sivilizasiyasının kökünü təşkil edən möhtəşəm mədəniyyətlər yaratdıqları fikrini irəli sürənlərdən biri də görkəmli Azərbaycan tarixçisi M.T.Zehtabidir. Onun fikrinə görə Sumer və Elamlar e.q. 6 min il öncə Qafqazdakı Dərbənd keçidindən keçərək Azərbaycan üzərindən gəldikləri zaman onların müəyyən qismi burda qalmış, uzun əsrlər boyunca quti və lullubi xalqlarını meydana gətirmişlər. Quti, lullubi və kassi xalqlarının Orta Asiyadan gələn Elam köçlərindən qalmasını Zehtabi onların dillərinin elam dilinə çox yaxın olması faktı ilə izah edir. (M.T.Zehtabi, 2010, Səh. 114)

İngilis assuroloqu D.Makkenzinin yazdığına görə sumerlərin etnik mənşəyi haqqında ən geniş təqdir olunmuş nəzəriyyələrdən biri onların ural-altay tipinə və xüsusən də türklər və finlərlə eyni tipə mənsub olmaları haqqındadır. Sumerlərin *dilinin ural-altay dili kimi aqlütinativ qruluşa malik olması* bu nəzəriyyəni daha da əsaslandırdı. Sumerlərin sifətləri dik və başlarının arxası uzun idi ki, onların dolixokefal olduqlarını göstərir. (D.Mackenzie. 1915, Səh, 4-6)

Müasir dövrün assuroloqlarından Ross Marşal da sumerlərin türklərlə eyni etnik kökə malik olduqlarını yazlır: "Sumerin tufanaqədərki yeddi qədim şəhərinin sumer əhalisi ural-altay dilinə mənsub insanlar idilər. Tufandan sonraki daha gec dövrlərdə salınmış beş yeni şəhərin əhalisi hind-iranlı arilərdən və slavyanların qarışımından ibarət idi. Şimalda yerləşən Mari və Aqade şəhərinin əhalisi samilərdən ibarət idi". (Ross Marshall. 2008, Səh. 8)

Sumer dilinin Türk və digər Turan dilləri ilə qohumluğu haqqındakı Turanizm nəzəriyyəsinin əsası hələ XVIII-XIX əsrlərdə mixi yazı mətnlərinin şifrəsini açan ilk sumeroloq və assuroloq linqvist və tarixçilər tərəfindən qoyulmuş və bu haqda çoxsaylı əsərlər yazılmışdır. Həmin görkəmli bilim adamları sumer və onların dilinin Ön Asiyada türk və turanlı mənşəyə malik yeganə xalq olmadıqlarını, Meso-

potamiyaya qonşu ərazilərdə, o cümlədən Zaqros dağları yaylalarında, Kiçik Asiyada, Suriya və Fələstinin daxil olduğu Aralıq dənizinin güney-doğu ərazilərində məskunlaşmış çoxsaylı xalqların dil və etnik mənşə baxımından sumerlərlə qohumluq əlaqələrinə malik olduqları haqqında dəyərli elmi fikirlər irəli sürmüşlər.

Elamlıların, kassilərin, qutilərin, Xattilərin, lullubilərin, urartuluların, turukkaların, midiyalıların, mannaların sumerlərlə qohumluq əlaqələrinə malik olduqları haqqında XVIII-XIX əsr və sonrakı dövr müəlliflərin əsərlərində çoxsaylı elmi fikirlər mövcuddur.

Turanizm nəzəriyyəsinin banilərindən biri Oppert yazırdı ki, Sumerlər Ön Asiyada Turanın yeganə övladı deyil. Regionun iki böyük çayları olan Fərat və Dəclə çaylarının və onların qollarının vadilərində qədim sivilizasiyaya malik əhalisi turanlı mənşəyə malik çoxlu ölkələr mövcuddur.

Sumer dilinin böyük bilicisi olan Hommel Elam və onunla qonşu xalqların sumerlərlə qohumluq əlaqələrinə malik olduqları haqqında fikri müdafiə edirdi. Onun yazdığına görə Babildən doğuda Bəsrə körfəzi sahillərində yerləşən Elam, Babilin və Misirin tanıdığı ən qədim mədəniyyətə malik mərkəz idi. Elam samilərlə qarışmadan öncəki Sumer mədəniyyətinin bir qolu kimi qəbul olunsa da ondan yüksəkdə deyildi və sumerlərdən əxz edilmiş özəl yazı sisteminə malik idi. E.q. 3000 mininci ildə Elam artıq möhkəmləndirilmiş şəhər qalalarına malik olan siyasi baxımdan böyük təsirə malik xalq idi. Elamın qədim adı Anşan idi, sumerlər ölkəni İlamma adlandırırdılar ki, mənası yüksək ölkə deməkdir. Samilər bu ada "tu" sonluğu əlavə edərək İlamtu şəklində ifadə edirdilər. Elamlar mənşə etibarı ilə sami olmayan xalq idi. (Hommel F. 1885, Səh. 272, 273)

Elam kral adlarının etimalogiyası və onların adlarındakı "k" sonluğu elamlıların kassilərlə, hititlərlə və urartularla qohumluğunu göstərir. Anzan adını Oppert elam dilində "düzənlik" və həmçinin "ölkə" mənası daşıdığını və bu sözün kassi dilində kral anlamındakı "ianzi" sözü ilə əlaqədar olduğunu yazır. Babil dilindəki Anzan adı sami assurlar tərəfindən Anşan formasında tələffüz olunmuşdur. Elamın şimalındakı dağlarda onlara qohum xalq olan vəhşi təbiətli kassilər yaşayırdılar. (Hommel H. 1885, Səh. 274)

Lenorman yazır ki, Akkadların (sumer) dil və etnik mənşə baxımından turan irqinə mənsubluğunu qəbul etsək, o zaman onlar Mərkəzi Asiyadan Fars körfəzinə qədər yayılmış olan eyni xalq və irqə mənsub olan xalqlar zəncirinin bir halqəsini təşkil edirdilər. Vesterqard, Norris, De Solsi, Mordmann, Oppertin cəhdləri nəticəsində sübut edilmişdir ki, tarixin ilk dövrlərindən etibarən həmin ərazidə yaşayan Midiya xalqının dili mənşə etibarı ilə bir tərəfdən türk-tatarların, digər tərəfdən isə Xaldeyin akkad dili ilə, yəni sumer dilinə bağlı olmuşdur. (F.Lenormant. 1877, Səh. 218)



Kramerin də gəldiyi nəticəyə görə sumerlər İkiçayarasına yenmədən öncə uzun illər ərzində Aratta adlı ölkədə yaşamışlar. Kramerin bu fikri Elçibəyin Sumer dövlətinin təməli Azərbaycanda qoyulub, fikrini təsdiq edir, çünki Aratta Urmiyə gölünun güneyindəki dağlıq ərazini əhatə edən ölkədir.

Sumer qrammatikasının müasir müəlliflərindən Ditz Edzard Sumer dilini müasir dillərlə, o cümlədən türk, macar və digər dillərlə müqayisə edərkən sumer dili ilə onlar arasında təxminən 2000 il bir zaman fərqinin mövcud olduğunu nəzərə almağın vacibliyini qeyd edir. Yəhudi mənşəli Amerikan dilbilimcisi və ədəbiyyatçısı Georg Ştaynerə görə Sumer və Elam dillərinin lüğət tərkibi arasında aparılan paralellər zaman fərqinə uyğun olan yeganə doğru müqayisədir. Stayner sübut etmişdir ki, sumer və elam dili arasındakı morfoloji quruluş fərqinə baxmayaraq, bu iki dil eyni dil qrupuna aiddirlər. Sumer və elam dili arasındakı başlıca fərq sumer dilindəki feil köklərinə çox sayda önek və şəkilçi sonluqların əlavə olunmasıdır. Elam dilində isə yalnız şəkilçi sonluqlarla istifadə olunur. Sumerlər və elamlar həqiqətən də qohum olsalar da onların dillərinin yaxınlıq problemi özünün tam həllini tapmamışdır. (Ditz Otto Edzard. 2003. Səh. 3)

Mixi yazı mətnlərinin şifrəsini ilk olaraq çözmüş ingilis rahibi və linqvisti Edvard Hinks də aqlütinativ qruluşa malik Sumer dilinin Elam dili ilə eyni dil ailəsinə mənsubluğu fikrini irəli sürmüşdür. (Edward Hinks, 1863, Səh, 18)

Lenorman, Oppert kimi müəlliflər təsdiq edirlər ki, Sumerin mixi yazısını turanlılar və iskitlər icad etmişlər. Qədim dövrlərdə Oksus çayı sahillərindən Mesopotamiyaya gələn turanlılar öz sivilizasiyalarını, yazılarını və dillərini də bura gətirmişlər. *AT* mixi yazılarda ata deməkdir, türk dilində də bu eynilə *ata* adlanır. Tur Midya dilində "oğul" deməkdir. Türklər midyalılarla eyni mənşəyə malikdirlər. (Edward Hinks. 1863, Səh. 6)

Kassilərin, yəni gerçək adları Kas və ya Kus olan qədim Ön Asiya etnosunun dillərini araşdıran Amerikalı araşdırıcı Arnaud Fournet yüzlərlə kassi, hurri, xatti və urartu sözlərini müqayisəli şəkildə araşdıraraq onların eyni kökə malik olduqlarını müəyyən etmişdir. (Arnaud Fournet. 1978)

Fournet hurri dilini türk dilləri ilə müqayisə edərək olumlu nəticələr əldə etmişdir. Onun ehtiyatla gəldiyi nəticəyə görə Hurri dilinin Türk dilləri ilə ümumi cəhətləri az olsa da, hurri dili tipoloji baxımdan türk dillərinə çox yaxındır və hurri dilində də, türk dillərində olduğu kimi *şt* istisna olmaqla saitlərin harmoniyası yoxdur. (Arnaud Fournet. A Manual of Hurrian, 2013, Səh. 5)

İngilis assuroloqu Vaddell sumerlərin Kuria adlandırdığı Kiçik Asiyaya və Suriyaya köçüb yerləşən Khatti (Xatti) tayfalarını sumerlərlə eyni mənşəyə malik və onların bir qolu hesab edirdi. Sumerlərin qalıqları olan khattilərin sonradan öz yerlərini tərk edib Finikiyada, Suriyada, Kilikiyada, Kiçik Asiyada Kuria ərazisinə yerləşmələrinin səbəbi Assuriyanın sami kralı Sarqonun şimal və şərq istiqamə-

tində yerləşən ölkələrə qarşı apardığı dağıdıcı müharibələri olmuşdur. (Waddell L. 1929, Səh. 45)

Arxeoloq və assuroloq Volleyə görə Sumerlər qarasaçlı, dilləri aqlütinativ quruluşa malik olub fiziki tip olaraq hind-avropalı olsalar da, dilləri etimoloji cəhətdən qədim türk Turan dilinə bənzəyirdi. Sumer əfsanələrində təsvir olunduğuna görə onlar dağlıq bir ölkədən gəlmiş və Bibliyanın yaradılış əfsanəsində təsvir olunduğuna görə Sinnar ölkəsində yerləşmişdilər. Onların gəldikləri bu dağlıq ölkə Elam idi. (Leonard Woolley, 1928, Səh. 46)

Spayser İkiçayarasının sumerlərdən öncəki xalqın doğudan gəldiyini və bu xalqın elamlar olduğunu iddia edir və iki xalqın qohum xalqlar olduğu fikrini müdafiə edir.

G.Smit Samilərəqədər Sumer-akkad və Elamın əhalisinin eyni irqə və dilə malik olan turanlılardan ibarət olduğunu yazır. (G.Smith, 1880, Səh. 80)

Alman assuroloqu Huqo Vinkler də sumerlərin Midiya və Elam xalqlarının mənsub olduqları eyni tayfalara mənsub olduqlarının mümkün olduğunu yazır. (Hugo Winckler, 1892, Səh. 78)

Amerikanın görkəmli assuroloqu Frankfort sumerləri Zaqros dağları ətəklərində və yaylalarında yaşayan elam, quti, kassi və digər sami olmayan xalqlarla qohumluq əlaqələrinə malik olduğu fikrini müdafiə edir. Onun yazdığına görə Uruk dövründə Mesopotamiyaya gələn samilər onun şərqində məskunlaşaraq sumerlərlə onların ilkin vətənləri olan Zaqros dağları tərəfdə qalan qohum tayfaları elam, quti, kassi və s. ilə aralarındakı əlaqəni pozmuşlar. (H.Frankfort. 1951. Səh. 57-58)

Sumer və subirlərin eyni kökdən olduqları fikrini müdafiə edən Emil Forrer subir dilini İkiçayarasının bir sumer dialekti kimi qəbul edir. Emil Forrer Kiçik Asiyanın qədim xalqı olan Hatti dilini Sumer dili ilə əlaqələndirir və onları birlikdə Hatti-sonquer avtoxton etnos adlandırır. ( Emil Forrer. Journal Asiatuque, Paris 1930 okt -dec. Səh. 227-228)

Artur Unqnad Hitit dövlətinə mənsub olanların böyük əksəriyyəti istər ərazi, istər dil mənsubiyyəti və istərsə də dini etiqad baxımından subarlılara aid olduqlarını yazır. Bu insanların hititli olması yalnız onların Hitit dövləti təbəələri olması ilə müəyyən olunurdu. Özlərini xaldi adlandıran Urartulular da Önasiya irqinə mənsub idilər, daha doğrusu subarlar idilər. Zəncirli, Karkamış, Tell Halafın daş abidələrində təsvir olunmuş insan tipləri e.q. 2-ci minillikdə bölgəyə gələn arilərdən öncəki xalq olan urartululara dini və dil baxımından Dəclənin şərqindəki Ön asiya-subar insan tipinə mənsubdurlar. (Artur Ungnad, 1936, Səh. 176-177)

Virtin yazdığına görə qeyri sami xalq olan xattlar Sumerlərlə qohum xalq idilər və sonradan arameylər tərəfindən Mesopotamiyadan sıxışdırılıb çıxarılmışdılar. O bu xalqın Xanti kimi yazılan adının əslində Xan olduğunu, sondaki "ti" əlavəsinin isə sami dilinə xas ölkə bildirən şəkilçi olduğunu yazmışdır. Xattilər sonradan Kummux adı ilə e.q. 1100-cü ildə Assurlarla döyüşmüşlər. Onlar Kommaqendə məskunlaşmışdılar. Kummuxların qalıqları bu gün Qafqazda məskunlaşan kumuxlardır (A.Wirth, 1905. Səh. 27)



Bu fikri irəli sürməklə Virt Qumux türklərinin mənşə baxımından xattilərlə və sumerlərlə eyni etnik kökə malik olduqlarını təsdiq edir.

Köniq maday/midiyalıları subirlərlə eyniləşdirərək yazır: "Amadai, Matai və Madai adların bu xalqın subar xalqı ilə möhkəm şəkildə qarışmış olduğunu göstərir. Zaqrosun hind-avropa dillərinə qədərki dillərində "t" və "d" yerdəyişimi xarakterik əlamət təşkil edir. Madalar bura daha öncələri köçüb gəlmiş subarlar, lullubilər və qutilərlə eyni kökə mənsub idilər. Madarlar bir köçəri heyvandar xalq kimi at bəsləməkdə mahir idilər və madar atları böyük şöhrətə malik idi. Midiyanın ilk hökmdarı Dayyakunun adı bir subar adı idi. (König F.W. 1934, Səh. 8)

Hommel sosial təbəqələşməyə uyğun olaraq Sumer dilinin də bu təbəqələrin sosial statusunu özündə əks etdirən dialeklərə bölündüyünü yazır. Sumer-akkadda bir neçə dil ləhcəsi mövcud idi. "Eme-qir" müqəddəs dil, əyanların və ya əsilzadələrin dili, bu dil ölkənin köklü əhalisi olan kienqi-sumerlərin dili idi, "eme sal" qadınların dili idi. "İmi lux" kölələrin dili idi. Sami akkadlar Sumeri işğal etmədən öncə sumerlərə tabe olan kölələr idilər. F.Hommelin yazdığına görə Akkadın qədim adlarından biri Meluxa olmuşdur. Meluxa sözünün mənası "Kölə dilində danışan ölkə" deməkdir. (Hommel F. 1885, Səh. 234, 235)

Sumer toplumunun ilkin dövrlərdə tribal-tayfa xarakterinə malik olması sumer dilinin dialektlərə malik olması ilə də sübut olunur. (Дьяконов И.М. 1959. səh. 164)

Sumer dili qrammatikasını tərtib etmiş Arno Poebel Sumer mixi mətnlərini araşdıraraq bu dilin 5 dialektə malik olduğunu müəyyən etmişdir. (A.Poebel. 1923, paraq. 4)

Keçən əsrlərin və müasir dövrün görkəmli bilim adamlarının linqvistik, arxeoloji və antropoloji elmi tarixi dəlillərə əsasən tarixin ilkin dövrlərində Ön Asiyada məskunlaşmış, sami və ari olmayan əhalinin böyük əksəriyyətini təşkil edən turanlı mənşəyə malik xalqların Sumerlərlə etnik və dil baxımından yaxın qohumluq əlaqələrinə malik olduqları haqqındakı fikirləri bu əlaqələri inkar edən qeyri elmi, qərəzli mövqe sərgiləyən bəzi araşdırıcıların tezislərini kökündən təkzib etməkdədir.

# IX FƏSİL. Sumerin məhvi və sumerlilərin dünyaya dağılması

Sumerlərin tarixin müəyyən dövrlərində müxtəlif səbəblər üzündən öz yerlərini tərk edərək dünyaya yayıldıqları haqqında assurologiya və bütövlükdə tarix elmində müxtəlif fikirlər mövcuddur.

Vəhşi köçəri sami tayfaları olan amoreylərin bir qrupu e.q. XXI əsrin ortalarında batı istiqamətindən Mesopotamiyaya soxulmuş, digər bir qrup isə Kənaan ərazisinə daxil olmuşlar. Sumerin Ur şəhərinin III hakimiyyət sülaləsi bu vəhşi dağıdıcı tayfaların quzeydən olan hücumlarının qarşısını almaq və Mesopotamiyanın güneyini onlardan müdafiə etmək üçün Fərat və Dəclə çayları boyunca səhrada divar ucaltmışdılar. Lakin köçəri amoreylər bu divarlardan aşmağa cəhd göstərməyərək, batıdan doğuya doğru birbaşa hərəkət edib yuxarı Mesopotamiyaya daxil oldular. Öncə Fərat çayını və sonra Diyalanı keçərək doğu tərəfdən batıya doğru irəliləyib Mesopotamiyanın aşağı çöllərinə daxil oldular və davamlı axınlar halında tədricən Mesopotamiyanın geniş ərazilərində məskunlaşaraq öz dağıdıcı qarətçi basqınları ilə Sumer şəhərlərini viran qoymağa başladılar. Bu basqınlar nəticəsində sumer əhalisi özünü qorumaq imkanlarından məhrum oldu, şəhər divarları arxasına sığınaraq basqınlardan qorunmağa çalışdılar, amoreylərin heyvan sürüləri əkinləri viran qoydu. Əkinçilik və sənətkarlıq tənəzzülə uğradı. Sumer xalqının tarixində baş vermiş bənzər fəlakətlər onların öz yurdlarını tərk edərək müxtəlif istiqamətdə köçlərinə səbəb olmuşdur.

Müasir dövrün görkəmli assuroloq tarixçiləri Hallo və Simpson Qədim Yaxın Şərqin tarixinə həsr etdikləri əsərdə köçəri amoritlərin sumer mədəniyyəti üçün təşkil etdikləri fəlakəti təsvir edərək yazırlar: "Sumer dilində tufan anlamı daşıyan *amaru* sözü faktiki olaraq sumerlilərin samilərə verdikləri *ammarru* sözü ilə omonim təşkil edir. Bu söz oyunu ilə sumerlər onlar üçün həqiqi bir fəlakət təşkil edən dağıdıcı sami axınlarını tufanla eyniləşdirirdilər. Sumerlər sami amurruların batıdan ardıcıl davam edən təcavüzkar axınlarının nəticəsində çoxsaylı qurbanlar vermiş dağıntıya məruz qalmışdılar. Hər halda sumerlər samilərin m.ö. 2900-cu ildə baş verən ilk dağıdıcı axınını tufanla eyniləşdirirdilər". (Hall Wiliyam and Williyam Kelly Simpson, 1971, Səh. 33)

Tədricən İkiçayarasında məskunlaşan amorilər mədəni səviyyə baxımından sumerlərdən çox aşağı səviyyədə olduqlarından sumer dilini öyrənir, ədəbi və dini əsərlərinin surətini çıxarır, tərcümə edir və digər şəhərlərdə kitabxanalara yayırdılar, beləliklə, sumerlilərin təhsil sistemi, dinləri, əfsanələri və ədəbi əsərləri öyrənilməyə davam edildi. Sumer dili tədricən danışıq dili olmaqdan çıxaraq dini etiqad və ayin dilinə çevrildi və bu bizim eranın ilk əsrlərinə qədər davam etdi.



Sumer-akkad dövlətinin fəaliyyətinə sami xalqlarından olan amoritlər son qoyaraq Babil krallığı adı ilə yeni bir dövlət qurdular.

Sumerin samilərlə münaqişəsi və samilərin Sumer ölkəsini istila hərəkətləri və onların müqəddəs məbədlərinin dağıdılması ammorrilərin basqınlarında daha öncələri başlamışdı.

*Ekur* Sumer dilində "dağ evi" deməkdir. Tanrıların toplandığı yer və məclisləridir. Ekur məbədləri Sumerdə ən hörmətli, müqəddəs, kutsal bina idi. Samilər onu ziqqurat adlandırırdılar. Enkur-ziqquratlar Mesopotamiyada etiqad və sitayiş obyekti olaraq An, Enlil, Enki və Ninhursaq tanrılarına həsr olunurdu. Ekurun dağıdılması Urun işğal edilməsi ağısında əks olunmuşdur. Sumer xalqı üçün önəmli əhəmiyyətə malik bu müqəddəs sitayiş mərkəzlərinin dağılması onlar üçün böyük faciə təşkil etmişdir. Ekur ilk dəfə tufan və daşqın nəticəsində dağılmışdır. Ekurların və onunla əlaqədar ilahi qanunların Sumer xalqı üçün böyük fəlakət hesab olunan tamamilə dağılması sami akkad kralı Böyük Sarqon tərəfindən e.q. 2300-cü ildə həyata keçirilmişdir. Ekurların və Sumerin ikinci dağıntı fəlakətinə məruz qalması Sarqonun sülaləsinə mənsub olan akkad kralı Naram-suenin (e.q. 2273-2219) Babil şəhərlərinin sumerlərə qarşı üsyanına başçılıq edib hakimiyyətə gəlməsi nəticəsində baş vermişdir. Samilərin Naram-sin adlandırdıqları Naram-suenin Sumer, Lullubi və Zaqros dağlarındakı xalqlara qarşı apardığı dağıdıcı müharibələri və tanrı Enlilə məxsus Ekurun bünövrədən yerlə yeksan edilməsi sumerlilərin məhşur "Enlilin Aqade lənəti" adlı mətnində öz əksini tapmışdır. Sumer ərazisinə qarşı digər dağıdıcı hadisələr ümumi adla "Su xalqları" adlandırılan Kassi, Qutu, Subar və Elam xalqlarının hücumları nəticəsində baş vermişdir. Uzun illər ərzində davam etmiş bu üç dağıdıcı müharibələr nəticəsində sumerlər və bölgənin digər əhalisinin müəyyən hissəsi öz yurdlarını tərk edib quzey, batı və digər ərazilərə köçlərə məcbur qalaraq dünyanın müxtəlif bölgələrinə yayılmışlar. (Jerrold Cooper, 1983)

Akkad kralı Naram-Suen sumerlərin Nippur şəhərinin sami akkadlara qarşı itaətsizliyinə cavab olaraq sumerlər üçün son dərəcə müqəddəs hesab olunan Enlilin Ekur məbədini dağıtmağı əmr edərək ordakı qiymətli əşyaları Akkada aparmışdır. Bundan qəzəblənən tanrılar Naram-Sueni və Akkadı lənətləmiş, "Aqade lənəti"ndə yazıldığı kimi tanrı Enlil Zaqros dağlarındakı xalqı olan Qutiləri Nippuru müdafiə etmək və akkadlıları cəzalandırmaq üçün dəvət etmişdir. Bu şeirdə qutilər sumerin müdafiəçisi və müttəfiqi rolunda çıxış edirlər. Nippurun yardımına gələrək sumerləri xilas edən qutilər akkadları cəzalandırmış, Naram-Suen döyüşdə öldürülmüş və Qutilərn hökmdarı Errudipizir Sumerin və Akkadın kralı titulunu qəbul etmişdir.

Naram-sueni qutilərin əli ilə öldürüb Akkad dövlətini dağıtmaqla Tanrı Enlil Mesopotamiyanın digər şəhər dövlətlərini akkadlardan xilas etmək məqsədi gü-

dürdü. Enlilin sumerləri müdafiə etmək üçün qutiləri çağırması Məhəmməd peyğəmbərin "mənim doğuda bir xalqım var, hər kəsə qızdığım zaman onlaı çağırıb üzərlərinə göndərərəm" deməsini xatırladır.

Tanrı Enlilin Sumer ölkəsini yabançı akkad işğalından xilas etməsi üçün Quti kralını köməyə çağırması quti və sumerlərin etnik kök baxımından son dərəcə yaxın ilişgilərə malik olduğunun göstəricisidir.

Naram-Suen Qutilərlə döyüşlərdə öncələr də bir neçə dəfə məğlub olmuş və onları itaətə gətirə bilməmişdi. Naram-suenin öldürülməsindən sonra Ur şəhərinin başçılığı ilə Sumer-akkad dövlətində hakimiyyət yenidən Sumerlərə məxsus olur.

Sumer-akkad dövlətinin sonuncu hökmdarı İbbi-Suenin (e.q. 2227-2003) hakimiyyətinin son çağlarında başı Elamla müharibəyə qarışdığından çoxsaylı sami amorit köçəri tayfaları öz qoyun sürüləri ilə Mesopotamiyanın güney ərazilərini istila etməyə başladılar. Ölkəni işğal etməyə onların gücü yetməsə də onlar əhalini qarət edir, şəhərlərə soxulur, yolları kəsir, sürülərini arpa zəmilərində otarır və əhalini şəhər divarlarının arxasında gizlənməyə məcbur edirdilər. Amoritlərin fəaliyyət göstərdikləri ərazilərdə təsərrüfat həyatı dağılmağa başlamışdı. Ölkədə ərzaq qıtlığı və talanlar başlamışdı. Sumer-akkad dövlətində xaos hökm sürməkdə idi.

Köçəri sami tayfaları olan amoritlər Şuruppak və Eblada aşkar edilmiş mətnlərdən göründüyü kimi Yaxın Şərqə 3-cü minilliyin ortalarından etibarən mövcud olmuşlar. II minilliyin ilk əsrlərində isə artıq uyqarlıqdan yoxsun vəhşi təbiətli amoreylər Mesopotamiya şəhərlərində geniş yayılmışdılar. Sumerin öz müstəqilliyini davamlı olaraq qoruyub saxlayan Ur şəhər dövləti daima amoreylərlə mübarizə şəraitində olmuş və sonrakı dövrlərə məxsus mixi yazılı ədəbiyyatda Ur dövlətinin iflasa uğramasına aromeylər günahlandırılmaqdadır. Ur dövləti yıxıldıqdan sonra amoreylər bir çox şəhər dövlətlərində hakimiyyəti zəbt etmişdilər. (Mierop M. A History, Səh. 89)

Sumer ərazisini zəbt etmiş köçəri amori samilərin Sumerdə hakimiyyəti ələ keçirməsi ilə sumerlərə xas bir çox tarixi, dini, mifik, mənəvi-əxlaqi ənənələr də aradan qalxdı. Sumerlərin baş tanrısı An (simvolu öküz buynuzlu tac idi, Marduk da qızıl öküz adlanırdı) Babil və Assuriya dönəmində transformasiyaya uğrayaraq Marduk və Assurla əvəz olundu.

Sumer viran olaraq, sahibsiz bir ölkəyə çevrilincə xalqın yerdə qalan hissəsi alman yazar və araşdrıcısı Hans Baumanın da qeyd etdiyi kimi, dörd tərəfə dağıldı, sumerli həkimlər və astronomlar, memar və heykəltəraşlar, möhür ustaları və katiblər başqa ölkələrdə öyrətmən oldular və oralarda mədəniyyət və elmin inkişafına təkan verdilər. (Hans Baumann. New York, 1969)



Samilərin axını və təcavüzləri nəticəsində sumerlərin regionda hakimiyyətinə son qoyuldu, şəhər-dövlətlərin ilahi qanunla müəyyən edilmiş dönüşümlü hakimiyyət dönəmi sona çatdı və ölkədə zorakılığa söykənən monarxiya imperiyası bərqərar oldu. Sumerlərlər kütləvi halda öz yurdlarını tərk edib qonşu ərazilərdə məskunlaşmağa məcbur oldular. Mesopotamiyanın mixi mətnlərində bu dövrün faciəli durumunu özündə əks etdirən və "yıxımdan qaçanlar" anlamı daşıyan *Munnabtutu* termini ilk dəfə məhz m.ö. 2020-ci illərdən işlənməyə başlamışdır. *Munnabtutu* termini bugünki anlamda yurdlarını tərk edən "köçkünlər" mənasındadır. Onlar yalnız evlərini, mallarını, işlərini deyil, mənsub olduqları ölkələrini də qeyb edib başqa xalqların torpaqlarında dini etiqadlarına və şəxsi təhlükəsizliklərinə təminat axtarışı ilə yabançı ölkələrə sığınan sumerlilərin "dövlətsiz qaçqınlar" kütləsini təşkil edirdilər.

Beləliklə, e.q. XX əsrin əvvəllərindən başlayaraq Mesopotamiyada və o cümlədən Ön Asiyada baş verən sosial-siyasi proseslərin gedişində mixi yazı mətnlərində iki maraqlı termin: *apirü* və *munnabtutu* geniş şəkildə istifadə olunmağa başlandı. Hər iki termin müasir anlamda özündə "qaçqın" və "köçkün" anlayışlarını ifadə etməkdədir. *Apirü* termininin lüğəti mənası "köklərindən qopmuş, etnik və sosial baxımdan dışlanmış, məhrum olmuş" anlamındadır. Apirü sözü türk dilində "məhrum olma, ayrılma" anlamı daşıyan Adiri/Atiri sözü ilə eyni məna kəsb edir. (ATC, 1969, Səh. 11)

*Apirü* Sumer-akkad dilində, *Munnabtutu* isə assur sami dilində olub hər ikisi də təxmini olaraq "qaçqın, köçkün" anlamı daşıyıb sinonim sözlərdir. (Giorgio Buccellati. 1977, Vol. 36, Səh. 145-147. )

Zakaria Sitçinin yazdığına görə Sumerlərin öz yurdlarını tərk edərək hara getdiklərini, yad ölkələrdəki mədəniyyətlərdə bir-birinin ardınca baş verən inkişaf hadisələri əsasında müəyyən etmək olar. Yazıları mixi işarələrdən ibarət olan, elmi və ədəbi dillərində sumercədən alınma saysız kəlmə və istilahlar olan, tanrıları yerli adlarla ifadə olunsa da, tanrı panteonları sumer panteonunun təkrarından ibarət olan, mifləri sumer miflərinin eyni olan, qəhrəmanlıq dastanları sumer qəhrəmanlıq dastanlarından ibarət olan xalqlar bu ərazilərə köçərək yerləşmiş sumerlərin varisləridirlər. (Z.Sithçin. 1993, Səh. 397)

Sumer fəlakətlərin baş verməsi nəticəsində dağıldıqdan sonra iki-üç yüz il ərzində dünyanın müxtəlif ərazilərində qurulan yeni ulus dövlətləri qəti şəkildə söylənə bilər ki, sumerlərin getdikləri yerlərdə qurduqları dövlətlərdir.

Mesopotamiyaya axın edərək burda hakim olan, Marduka və Nabuya sitayiş edən amorilər sonradan sumer mədəniyyəti bünövrəsi üzərində öz hakimiyyət sülalələrini təsis edərək Babil dövlətini qurdular. Sumeri təşkil edən xalqlar və tayfalar da daxil olmaqla Mesopotamiyanın sami olmayan əhalisi Yaxın Şərqin, Asiya və Avropanın simasını kökündən dəyişdirən əzəmətli bir köç hərəkətini

gerçəkləşdirdilər. Bu köçlər Babilin quzeyində Assuriyanın, quzey-doğuda Hitit krallığının, batıda hurri-mitanni krallığının, Qafqazlardan başlayıb doğuya yayılan Hind-ari krallıqlarının, güneydə "çöl xalqının", güney-doğuda "Dəniz xalqları" krallıqlarının yaranmasına səbəb oldu. (Z.Sithçin, 1993, Səh. 397)

Sumerli köçmənlər Mesopotamiyanı əhatə edən ölkələrdəki xalqların himayəsinə sığınaraq onların gəlişmiş modern dövlətlərə çevrilməsində katalizator rolunu oynadıqları halda, bir qismi daha uzaq ölkələrə gedərək orda məskunlaşmışlar. (Z.Sithçin, 1993, Səh. 397)

Bu köçlər nəticəsində Sumer mifləri, onlara aid mədəni, elmi ədəbi nailiyyətlər də onların məskunlaşdıqları yeni ərazilərdəki xalqların ortaq malına çevrildi.

Bir zamanlar Xəzər dənizi sahillərində yaşayan və sonradan Hind çayı vadisinə köçən hind-arilərin özləri ilə gətirdikləri mifləri sumer miflərinin yeni bir varianti idi. Zaman və onun ölçülməsi, dövrə kimi qavramlar sumer mənşəli idi. Hind-arilərin bu köçləri zamanı onların içərisinə sumerlər də qarışmışdılar.

E.q. 2000-ci illərə yaxın Çində 200 il ərzində anidən sirli bir dəyişiklik baş vermişdi. İbtidai kəndlərdən ibarət olan ölkə hökmdarlarının bürünc silahlara, atlı arabalara və yazı sənətinə vaqif olduqları, divarlarla əhatə olunan şəhərlərə malik bir ölkəyə çevrilmişdir. Bir çox müəlliflər və o cümlədən Viliyam Vatson bu gəlişimin səbəbinin batıdan gələn köçmənlər olduğu fikrindədirlər. (W.Wathson, 1966)

Bu Sumerin yıxılmasından sonra sumerlilərin yayılmış olduqları ərazilərdəki mədəniləşdirici təsirlərinin nəticəsi idi. Çində e.q. 1800-ci illərdə sirli bir şəkildə anidən bir uyqarlıq meydana gəlmiş, Şanq sülaləsinin hakimiyyət başına gəlməsi ilə yazı sistemi də tətbiq olunmuşdur.

Oksford universitetindən C.J.Ball 1913-cü ildə yazdığı "Çincə və Sumercə" adlı əsərdə çin heroqliflərinin sumerin təsviri yazısı əsasında yaradıldığını sübut etmişdir. Ceyms Ball və Devid Litt çin dilində yüzlərlə sözü və onlardan yaranan söz birləşmələrini sumer dilindəki sözlərlə müqayisə edərək onların məna baxımından eyniliyini müəyyən etmişlər. (C. Ball and D. Litt. 1913)

Onların hər iki dildə müəyyən etdikləri eyni mənalı sözlərdən bir neçə nümunəni nəzərdən keçirək: Çin dilində *nqu/qiu* öküz demək olduğu kimi, Sumer dilində də ona bənzər şəkildə *Qu/qud* öküz deməkdir. Çin dilində *yet/nyit* günəş demək olduğu kimi, Sumer dilində də *ud, utu* günəş deməkdir. Çin dilində *hek/hi/kok* gecə-qara demək olduğu kimi, Sumer dilində *qr/qiq/kukku* gecə və qara deməkdir. Çin dilində *huk/uk* günəşli/gündüz deməkdir, sumer dilində də *uq* gündüz deməkdir. Çin dilində *ki* torpaq, dünya deməkdir, sumer dilində də *ki* torpaq və dünya deməkdir. Çin dilində *kuan/kun/kon* rəhbər, ağa, başçı deməkdir, sumer dilində *Qun/u-qunu* ağa/rəhbər, xanım, xanım əfəndi, deməkdir. (C.Ball and D.Litt. 1913, Səh. 2-4)



C.Ball və D.Littin yazdığına görə "Sumer dialektlərində tanrı anlamındakı *Di. Qir* və *Dinqir* adları sumerin digər bir dialektində *Dimer* formasında ifadə olunmuşdur. Çin dilində isə tanrı adının açılışı *T'anq-li* şəklində ifadə olunur. İstər sumer, istərsə də çin dilindəki tanrı adı qədim türklərin *Tenqri* adı ilə əlaqədardır". (C.Ball and D.Litt, 1913, Səh. 9)

On iki aydan ibarət təqvim, günü on iki bərabər saata bölməklə zamanı hesablamaq, heyvan adlarından ibarət zodiak təqvimi və astronomik müşahidələr aparmaq ənənəsi tamamilə sumer mənşəlidir.

Müxtəlif xalqların miflərinin sumer kökünə bağlılığı daha geniş xarakter almışdır. Orta Asiyadan başlayaraq Çin, Hindistan və Yaponiya da daxil olmaqla bütün dini inanclarda Göy və Yer tanrılarından və ya Yer üzünün Sumeru adlı göbəyində iki tərs piramida kimi qum saatına bənzər şəkildə bir-birinin üzərində duraraq bir-birinə bağlanan Göy və Yerdən bəhs edilir. (Z.Sithçin, 1993, Səh. 400)

Linqvistik və digər dəlillərin də göstərdiyi kimi Sumeri tərk edən *Munnabtutu*, yəni köçgünlərin bir qolu Qara dəniz ətrafından dolaşaraq Qafqazlardan keçmiş, quzeyə və Volqaboyuna hərəkət edərək burda qədim adı Samara olan şəhər qurmuşlar. Sonra isə Baltik dənizinə doğru getmişlər ki, burda yaşayan finlərin dili Sumer dilindən başqa heç bir dilə bənzəmir. Bəzi müəlliflər Eston dilini də sumer kökünə bağlayırlar. Bəzi arxeoloji və linqvistik dəlillər sumerli köçmənlərin digər bir qrupunun isə Dunay çayı boyunca irəlilədiklərini və dillərinin sumer dili xaric heç bir dil ilə qohumluq əlaqələri göstərmədiyi macarların sumerlərə mənsub olduqları haqqındakı inamlarını dəstəkləməkdədir. Sumerlərin məhz bu ərazidən keçdiklərini sübut edən dəlillər Dunay çayının Qara dəniz ilə birləşdiyi nöqtədə yerləşən Rumuniyanın Dakiya bölgəsində aşkar edilən "təqvim məbədləri" adlanan və Qara dənizin Stonehengi sayılan və bir neçə terras üzərində inşa edilən tikililərdir. (Z.Sithçin, 1993, Səh. 402)

Türk tarixçisi R.O.Türkkan yazır ki, onun Ön Türklər adlandırdığı Sumer Böyük Tufandan sonra yenidən yüksəliş dövrünə qədəm qoymuş, lakin quzeydən və Ərəb yarımadasından davamlı şəkildə gəlib basqınlar edən sami tayfaları Sumerin sərhədlərində yerləşməyə başlamış və Akkad dövlətini qurmuşdular. E.q. 2350-ci illərdə Sumer orduları Akkadı ələ keçirib öz hakimiyyətlərini yenidən bərpa etsələr də, 2334-cü ildə akkadlı Sarqon yenidən Sumerdə hakimiyyəti ələ keçirir. E.q. 2279-cu ildə Sumer öz hakimiyyətini yenidən bərpa edir və bu e.q. 2100-cü ilə qədər davam edir. Kəldanlılar və Amorit Babillilər Mesopotamiyanı tamamilə ələ keçirirlər və bu torpaqlar Ön Türklərin yurdu olmaqdan tamamilə çıxır. Elamlar qısa bir zaman içərisində Babili ələ keçirsələr də, sonucda bu bölgə tamamilə ərəblərin və ibranilərin ölkəsi halına gəlir". (R.O.Türkkan. 2002, C. 1, Səh. 600)

Sami tayfalarının Mesopotamiyada ilk təcavüzkar axınları və Sumer şəhərlərinə basqınları nəticəsində sumerlərin öz yerlərini tərk edib müxtəlif ərazilərdə, o

cümlədən də Kiçik Asiya ərazisində məskunlaşaraq burda müxtəlif adlar altında dövlətlər qurmuşdular. Bu dövlətlərdən biri də Khatti tayfalar birliyinin Kiçik Asiya ərazisində qurduqları çoxsaylı şəhər bəylik dövlətləri konfederasiyası idi. Lakin amansız və dağıdıcı assur tayfalarının II Sarqonun başçılığı ilə yeni bir dövlət qurmaları və qonşu xalqlara qarşı işğalçılıq yürüşləri sumerin varisləri olan Khatti dövlətinin dağılmasına və öz yurdlarından yeni bir köç dalğasına məruz qalmalarına səbəb olmuşdur. İngilis assuroloqu Vaddell sumerlərin qalıqları olan khattilərin sonradan öz yerlərini tərk edib Finikiyada, Suriyada, Kilikiyada, Kiçik Asiyanın digər ərazisinə yerləşmələrinin səbəbini Assuriyanın sami kralı Sarqonun şimal və şərq istiqamətində yerləşən ölkələrə qarşı apardığı dağıdıcı müharibələrlə əlaqələndirirdi. (Waddell L. 1929, Səh. 45)

Vaddelin yazdığına görə II Sarqon e.q. 717-ci ildə Khattilərin cənubdakı paytaxtı Karkemişi tutaraq onun kralını öldürdü və əzəmətli Karkemiş şəhərinə öz qubernatorunu təyin edib əyalət şəhərinə çevirdi. Kimmerlər də Xappadokiyanın şimal hissəsini ələ keçirdilər və bu hadisələr Kiçik Asiyadan və Zaqros dağları ərazisindəki xalqların böyük köçlərinə səbəb oldu. (Waddell L. 1929, Səh. 45)



# X FƏSİL. Sumerli öntürklərin öz ilkin vətənləri Turana dönüşləri

Qədim tarixi dövrlərdə etnosların miqrasiyası məsələsi tarix, etnologiya və arxeologiya elmlərinin ən önəmli araşdırma mövzularından birini təşkil edir. Miqrasiya proseslərini tarixi aspektdə araşdıran bilim adamları ona təkan verən iki faktoru, müsbət aspektdə "cəzb edici" və mənfi aspektdə "itələyici" olaraq müəyyən etmişlər. Miqrasiyalar yaxın və uzaq olma baxımından da fərqlənirlər.

Miqrasiyada "Geri dönüş" nəzəriyyəsini irəli sürən Georg Qmelx miqrasiyanın hər zaman iki istiqamətdə baş verdiyini və ilkin miqrasiyanın ardınca mütləq geri dönüş axınının gerçəkləşdiyini qeyd edir. O geridönüş miqrasiyasını miqrantların öz ilkin vətənlərinə geri dönərək məskunlaşması kimi dəyərləndirir. (G.Gmelch. 1980, Səh. 135-159)

Bu nəzəriyyəyə uyğun olaraq David Antoni miqrasiyanı ikitərəfli hərəkətə malik yola bənzədir. "Uzaq məsafələrə köç zamanı yol istiqaməti və marşrutu gediləcək ərazi haqqında öncədən məlumatın olması böyük önəm daşıyır". (D.Anthony, Vol. 92, №4, Januar 1990. Səh. 895-914, )

Geri dönüş miqrasiyasını labüd edən səbəblər önəmlidir. Miqrasiya axınlarının əksəriyyəti miqrantların gəldikləri məkana geri dönüşündən ibarət qarşı axın şəklində inkişaf edir və "axın və əks axın" formasında gerçəkləşir. Hər bir köç axını sonucda əks axınla nəticələnir. Arxeoloji nümunələr əsasında müəyyən olunmuşdur ki, uzaq məsafələrdə yerləşən ölkələrlə baş verən ticarət adətən vaxtilə həmin ölkələrdən gələn miqrantlar vasitəsilə həyata keçirilir. (E.Lee. №1, 1966, Səh. 904)

E.q. III minillikdə artıq Mesopotamiyadan İran yaylası üzərindən Mərkəzi Asiyaya, Okus uyqarlığının ərazisinə doğru geniş ticarət yolu mövcud idi. Sumerdən və Elamdan Turana müxtəlif kult əşyaları, qızıldan və saxsıdan heykəlciklər, amuletlər, bəzək əşyaları gətirilir, Mesopotamiyaya isə Okus uyqarlığı ərazisinin zəngin mədənlərindən lapis-lacivərd, qalay, mis məmulatlar aparılırdı. Bürünc dövründə bu dəyərli metallar Mesopotamiyada məişət əşyaları ilə yanaşı silah hazırlanması üçün böyük ehtiyac duyulan xammal idi. Mövcud olan bu geniş ticarət əlaqələri və uzun məsafəyə malik karvan yollarının yaxşı öyrənilməsi gələcək qarşılıqlı miqrasiya prosesləri üçün əlverişli zəmin yaradırdı.

Sumerlərin öz ilkin ana yurdları Mərkəzi Asiyadakı Turandan Mesopotamiyaya köçləri və min illər sonra yenidən geri köçlərə məruz qalmaları yuxarıda haqqında bəhs etdiyimiz "geridönüş" nəzəriyyəsinin tarxi planda gerçəkləşməsidir. Bu nəzəriyyənin ən parlaq örnəyini türklərin öz ilkin vətənləri Turandan müxtəlif istiqamətdə baş verən köçləri və fərqli zaman kəsiyində yenidən öz vətənlərinə geri dönmələridir. Fransiz tarixçisi R.Qrosset Orta Asiya çöllərinin turanlı köçəri-

lərinin dünya tarixində mühüm rol oynadıqlarını qeyd edərək yazır: "Onlar tarix ərzində 20 dəfə Turan yaylasından hərəkət edərək Hind və Qanq vadilərini, Dəclə Fərat vadilərini işğal edərək ucqarların durğunlaşmış mədəniyyət mərkəzlərinə yeni insan axını əlavə etməklə canlılıq gətirmişlər. (Grosset R. 1921, Səh. 6)

Türklərin tarixin müxtəlif mərhələlərində köçüb yerləşdikləri ərazilərdən öz tarixi vətənlərinə yenidən geri dönüşlərini özündə əks etdirən bir çox konsepsiyalar irəli sürülmüşdür.

Amerikan tarixçisi Filip Smit yazır ki, nə vaxtsa cənubun məhsuldar ölkələrinə axın edərək yerləşən böyük Turya və ya Turan irqi Mesopotamiyada irqlər arasındakı qarşıdurma səbəbi ilə yenidən Mərkəzi Asiyanın bir o qədər də qonaqpərvər olmayan ərazilərinə geri dönmüşlər. Onların geri dönüşü uzun illər ərzində arilərlə qarşıdurmalara səbəb olmuşdur. (Smith P. 1888, Səh. 379)

Lenorman Türklərin mənşəyi və dünyaya yayılma prosesini özündə əks etdirən "Yüksəliş və təkrar dönüş" tezisini irəli sürmüşdür. Lenorman yazır: "Turanlıların yayıldığı çıxış məntəqəsi sivil bəşəriyyətin dörd böyük irqinin ümumu beşiyi olan ərazidə idi. Hətta bu gün Altayda yaşayan şimal turanlıları, uqro-finlər, samoyed türk-tatarlar, monqollar, tunquzlar üçün Altay beşik deyil, E.Renan da qeyd edirdi ki, türklərin indi yaşadıqları yer onların köçlərinin 3-cü mərhələsini təşkil edir və Altaylar onlar üçün yenidən qalxıb yüksələrək yeni yerləşim məntəqəsini tapmaq üçün bir çıxış nöqtəsidir. Hər dəfə Altay dağlarında məskunlaşaraq artıb çoxalan turanlı türklər yenidən öz yurdlarını tərk edərək yer üzərinə yayılırlar və bu hadisə tarixin müxtəlif dövrlərində yenidən təkrarlanır".

Etnosların köçlərə məruz qalaraq öz ana yurdlarını tərk edib yeni ərazilərdə məskunlaşmaları və uzun illərdən sonra yenidən ana vətənə geri dönüşlərinin klassik nümunəsi türklərin "Oğuz xaqan" dastanında öz əksini tapmışdır. Böyük tarixçi Z.V.Toqan Oğuz xaqanın Ön Asiyaya yürüşünü və yenidən öz ölkəsinə geri dönüşünü sak türkləri ilə əlaqələndirir. Lakin Oğuz adının Sumer kökləri haqqındakı bölümdə də izah etdiyimiz kimi Oğuz adını sumerlərin ilk mifik hökmdarı Ukus və ya Ukurla əlaqəsini mümkün hesab edir və qədim sumer əfsanəsinin qan yaddaşı kimi türklərin dastanında əksi olduğunu güman edirik. Bu fikrin yəqinliyini izah etmək üçün bəzi faktlara nəzər yetirək.

Dünyanın heç bir etnosu sumerlərə təkcə dil baxımından deyil həm də miflərdəki bənzəyiş və etnonimlərin tarixi varisliyi baxımından türklər qədər yaxınlığa malik deyillər. Fikrimizə görə rus versiyasına uyğun olaraq bizim Sumer adlandırdığımız, əslində isə bütün dünyanın qəbul etdiyi kimi adları Sumer olan xalqın kökünü Su etnosu təşkil edir. Keçmişin bir çox sumerşünas və assuroloqları, o cümlədən Emil Forrer Ön Asiyanın iki qədim xalqları olan Sumerləri və Subirləri eyni etnosun iki qolu hesab edirlər. Subirlərin adı mixi mətnlərdə iki ideoqramla yazılır. *Su. Eden. Ki* – "Yüksəkdə olan Su xalqı" və *Lu su ki* (su xalqının ölkəsi) ideoqramları ilə yazılır. Akkadlar ölkənin adını Subartu, xalqın adını isə Subar şəklində ifadə edirlər. "Eden" idioqramının gerçək oxunuşu "*bir*" şəklindədir və mənası yüksək, yuxarı, göyüzü deməkdir. "Su. Eden. ki" ideoqramının açılışı "su-bir. ki" şəklindədir. Ən qədim dövrlərdən subarlarla ən yaxın ünsiyyətdə olan sumerlər onların adını ən düzgün şəkildə *Subir* kimi ifadə edirlər. (Ungnad A, 1936, Səh. 24-25)

Bu izahdan da göründüyü kimi güneydə yaşayan sumerlər şimalda, yuxarıda yaşayan və eyni etnik mənşəyə malik olduqları xalqı "yuxarıda yaşayan sular" adlandırırdılar.

*Sumeru* adı samilərin bu xalqa verdikləri ad olub xalqın sumer dilindəki *Lu-Su adının* sami dilində tərcüməsidir və mənası "su xalqı və ya su insanları" deməkdir. Sami dilində "meru" sözü *sumer* dilindəki *Lu* sözünün tərcüməsidir və mənası akkad və assur dili lüğətlərində "oğul, əhali, xalq" anlamı daşıyır. (F.Delizsch. 1896, Səh. 390; AkkadianDictonary.org)

Sami dilində "amaru" sözünün digər mənası "çay arası" deməkdir. Sumeru xalqını təşkil edən etnosun ümumi adı Su, onun hakimiyyət təbəqəsini təşkil edən hökmdar sülalə boyu isə *Kiengir* adlanırdı. Kiengir sözünün mənasını bir çox sumeroloqlar, o cümlədən Amerikan sumeroloqu Vilyam Stibinq sumerlərin özlərini Kienqir adlandırdıqlarını və sözün "əsilzadə ağaların ölkəsi" demək olduğunu və açılışını Ki-ölkə, En-ağa, qir-əsilzadə/alicənab kimi şərh edir. (William H. Stiebing. 1994)

Sutu və Lu. Su ideoqramının kökünü təşkil edən Su xalqı Mesopotamiyanın şimalında və Zaqros dağları yaylalarında məskunlaşmış qədim turanlı xalqdır. Sonradan Mərkəzi Asiyaya köçə məruz qalan bu xalq türklərin məhşur *Su* xalqını təşkil etmişlər və Çində Çou/Çu adı ilə dövlət yaradaraq hakimiyyət sürmüşlər. Sumerlərin hakimiyyət boyunu təşkil edən Kienqirlər Çin və İran mənbələrində KanxaKanqyu türk dillərində isə Kanqlı/Kəngər adı ilə məlum olub Mərkəzi Asiyada dövlətlər quraraq uzun illər davam edən hakimiyyət sülaləsi kimi mövcud olmuşlar. Turan hökmdarı Əfrasiyabın da bu hökmdar boyuna mənsub olduğu Şahnamədən və digər irandilli qaynaqlardan məlumdur.

Ubar-Tutuk Sumerin Şuruppak şəhər dövlətinin kralı idi və 18 il hakimiyyət sürmüşdü. (T. Jacobsen. 1973. Səh. 75)

Tutuk adı uyğurlarda ve göytürklərdə geniş yayılmış bir addır və bu ad şahzadələrin və sərkərdələrin titulu kimi istifadə olunurdu.

Türklərin mənşə etibarı ilə Sumerlə bağlılığı Nuh haqqındakı əfsanədə də öz əksini tapmışdır. Hind-Moğol tarixçisi Abulfazl Allami yazır ki, Yafəs öz arvadı və ailəsi ilə yaşadıqları Suku-samani adlı ölkəni tərk edib onun üçün müəyyən edilmiş şərq və şimal ölkələrinə yola düşdükləri zaman o lazım olduğu təqdirdə yağış yağdırmaq üçün ona bir dua öyrətməsini atasından xahiş etdi. Nuh ona is-

tədiyi zaman yağış yağdıra biləcək üzərində müqəddəs adın yazılmış olduğu bir daş verdi. (Абул Фазл Аллами. 2003, Səh. 106-113)

Burda Yafəsin yaşadığı ölkə Su-ku Samani ölkəsi Sumeri nəzərdə tutur. Su sumer etnosunun gerçək adı, "ku" isə sumer dilində yer, sahil və ərazi anlamındadır, Saman isə Samar/Sumer adının ərəb mənbələrindəki adıdır. Abulfazl Allaminin qədim mənbələrə əasaslanaraq Yafəs haqqında verdiyi bi önəmli bilgi türklərin ulu əcdadı və bir çox mənbələrdə Türk və ya Türk oğlan kimi adlanan Yafəsin Sumer-ön türk mənşəli olduğunu sübut edir.

Mesopotamiyanın şimalında və Anadoluda öz böyük imperiyalarını yaratmış Kheta/Xatti xalqı Mərkəzi Asiyada Xatay dövlətinin əsasını qoymuşlar. Xatayların hökmdarı Piran Şahnamədən də məlum olduğu kimi Əfrasiyabın vəziri və baş sərkərdəsi kimi iranlılara qarşı mübarizədə onun ən sədaqətli müttəfiqi olmuşdur. Piran adı kassilərin başçı, rəhbər anlamındakı Buri adına uyğundur.

Piran adı türklərin Boran adı ilə həmahəngdir.

Mesopotamiyada Baliq şəhər dövlətinin əsasını qoyan və burda Baliq çayına öz adını verən və kökünü sumerlərin çay tanrısı Balix teoniminin təşkil etdiyi Baliqerlər Türkistana köçdükdən sonra burda Balix şəhərinin əsasını qoymuş, öz adlarını həmin ərazidəki çaya vermiş və türklərin Bulqar xalqınn kökünü təşkil etmişlər. Baliqer adının mənası "çay adamı və ya çay əhalisi" deməkdir.

Volqa çayının adı da Bulqar\Baliqer adının təhrif olunmuş variantıdır. Volqanın digər bir qədim adı da İtil də sumer dilində çay anlamındakı "İd" sözündən və mənsubiyyət şəkilçisi olan "il" sonluğundan ibarətdir.

İngilis sumeroloqu və sinoloqu C.Ball Sumerlərin e.q. 4000-ci ildə Mesopotamiyaya köçlərindən öncə Mərkəzi Asiyanın yüksək dağlıq ərazisində Çinlilərlə qonşuluqda yaşamış ola biləcəklərini və sonradan qərb isiqamətində hərəkət etdikləri fikrini irəli sürür. O sumer dilindəki *Qun/Uqun* sözünü türklərin Hun xalqı ilə əlaqələndirir və kral, rəhbər, ağa, başçı anlamı daşıyan bu sözün türklərdə də eyni məna daşıdığını və onların Hu(n) və ya Ku(n) adlanan hökmrın irqi və ya tayfanı təmsil etdiyini yazır. Çinlilələr bu sözü eyni mənada *kuan, kun, kon* şəklində ifadə edirlər. (C.J.Ball, D.Litt. 1913, Səh. 4, 64)

Mixi yazı mətnlərində və Bibliyada adları Aser/Aşquza/İşquza şəklində keçən turanlı boylar Türkistanda Orxon/Yenisey runi yazılı abidələrində As və Askitürk boy adı olaraq məlumdurlar.

Ön Asiyanın köçlərə məruz qalmış Subir xalqı geniş bir əraziyə yayılaraq türklərin tarixdən məlum olan Sabir/Savir/Suvar boyunun meydana gətirmişlər. Mesopotamiyanın Tukriş xalqı Orta Asiyada Turkeş boyu kimi öncə Göytürk xaqanlığının tərkibində əsas boylardan biri olmuş sonradan müstəqil Turkeş xaqanlığının əsasını qoyaraq Sulu xaqanın rəhbərliyi altında uzun zaman ərəb ağalığına qarşı mübarizə aparmışlar.



Mesopotamiyanın şərqində və Zaqros dağları yaylalarında məskunlaşmış Kussi Kassi və Qut/Quz boyları Oğuz/Quz türklərinin kökünü təşkil edən qədim boylardır.

Zaqros dağı yaylalarında yüz illər boyunca öz dövlətlərinə malik olan döyüşkən Turukkular bu adla məlum olan ilk türk boyudur ki, onlar Mərkəzi Asiyaya köçlərdən sonra Çin mənbələrində *Tukyu* adı ilə məlum olub Aşina ailəsinin hökmran olduğu Göytürk xaqanlığının əsasını qoymuşlar.

Sumerli Ön Türklər e.q. 2000-ci illərdə öz yurdlarından ayrılaraq dünyanın dörd bir tərəfinə köçlərə məruz qalmışlar. Reha Oğuz Türkkan Mesopotamiyanı tərk edən Sumerlərin bir qolunun yenidən geriyə öz ilkin yurdları olan Orta Asiyaya döndüklərini və orda İlk Türk etnosunun təşəkkül tapmasına səbəb olduqlarını yazır. (Reha Oğuz Türkkan. 2002, C. 1, Səh. 600)

M.ö. 2300-cü ildə Sumerin Sarqon tərəfindən işğal edilməsi sumer əhalisinin bir qisminin Etruskların timsalında Kiçik Asiyaya və digər tayfaların müxtəlif ərazilərə, o cümlədən Mərkəzi Asiyaya mühacirətinə səbəb olmuşdur. Yəni öntürklər yenidən öz ilkin vətənlərinə geri dönmüşlər.

XIX əsrin görkəmli fransız assuroloqu, orientalisti və müqayisəli filologiya üzrə görkəmli mütəxəssis London universitetinin professoru Albert Terrien de Lakouperi Çin səlnamələri və Mesopotamiya mixi yazı mətnlərinə əsasən Ön Asiyadan bir çox tayfaların öz yurdlarını tərk edərək Mərkəzi Asiyaya, Türkistana və Çinə miqrasiyasının əks etdirən bir neçə əsər həsr etmişdir. O öz araşdırmalarında Bak və ya Bek adlanan 100 tayfadan ibarət Turan tayfa birliyinin Elam və Mesopotamiyadan miqrasiya hərəkətinin Akkad hökmdarı Sarqonun regiondakı dövlətlərə qarşı işğalçı hücumları ilə başladığını və akkad və babillərin digər hökmdarları zamanında da, davam etdiyini yazır. Çin əfsanələrində də öz əksini tapdığı kimi Bakların bu ölkəyə köçüb orda yerləşmələri sumerlər də daxil olmaqla Mesopotamiya xalqlarının köç dalğasının tərkib hissəsini təşkil edir.

A.Lakouperi yazır ki, e.q. III minilliyin 2-ci yarısında Elamın yaxınlığında, Zaqros dağlarının şərqində Baktiyari təpəliklərinin quzeyində geniş ərazilər uralaltay tayfaları tərəfindən məskunlaşdırılmışdı. Onların içərisində çoxsaylı Bak tayfaları vardı ki, ticarətlə məşğul olaraq Xorasanın böyük çöllərindən duz, qalay, gümüş, asbest, Bədəxşandan lapis-lazur və Şərqi Türkistandan ağ və tünd ya da yeşim gətirərək Elam üzərindən Babillə ticarət edirdilər.

Terrien De Lakouperi Bak tayfasının Çinə köçləri haqqında bilgilərin çin səlnamələrində də öz əksini tapdığını yazır: "Çinin qədim tarixinin ən məhşur bilicilərindən Huanq-Pu-Mu III yüzillikdə belə bir qədim rəvayətdən bəhs edir ki, çinlilərin Şennunq adlandırdıqları Sarqon dövlətinin zamanında Huanq-ti araba və qayıqlar hazırlayaraq onu müşaiyət edən şəxslərlə birlikdə 900 min li uzaq bir

məsafə qət edərək qərbdən şərqə, dünyanın o başında yerləşən Çinə səfər etmişlər. (Terrien de Lacouperi. 1894, Səh. 2)

Çinə səfər edən Bak tayfalarının ilk başçısı Elam kral tituluna uyğun olaraq Naqhunta ünvanı daşıyırdı (çin versiyasında Nai Hvanqti), o öz xalqını Çin Türkistanına gətirmiş və sonra Qaşqarda və Tarım çayının sahillərində yerləşdirmişdir. Bura sonra Çinin çiçəklənən Lob nur adlı bir bölgəsinə çevrilmişdir. Şərqə doğru hərəkət etdikləri zaman Bak tayfalarının bir neçə qolu ayrılaraq şimala doğru, Yeniseyin şimal hövzəsinə doğru hərəkət etmişlər. Məhz həmin yerdə qədim yazı nümunələri aşkar edilmişdir. (Terrien de Lacouperi. 1894, Səh. 5)

Görkəmli alman sumerşünası F.Hommel də Sumerin Çinə mədəni təsiri haqqında bəhs edərkən yazır ki, London Universitetinin sinoloq professoru Terriyen de Lukaperinin yazdığına görə e.q. 2300-ci ilə yaxın Elam kralı Kudur-Naxundinin dövründə Elam və Babilin sərhəddində məskunlaşmış olan "bek tayfa" adlanan yüz Turanlı tayfa yurdlarını tərk edib Şan irqinin (tibetli siyamlar) yaşadığı Çin ərazisinə gələrək özləri ilə gətirdikləri mixi yazının əsas elementlərini onlara verdilər və özləri də fiziki və linqvistik cəhətdən onlara qaynayıb qarışdılar. (F. Hommel. 1889, Səh. 98)

İstər Cənibi Sibir və Volqaboyu, istərsə də Türkistanda mövcud olan bir çox Sumer mənşəli toponimlərin və etnonimlərin meydana çıxması turanlı öntürklər olan sumerlərin Mesopotamiyadakı yurdlarından köçərək bu ərazilərdə yerləşmələrinin nəticəsində yaranmışdır.

Türkistan və ya Turan coğrafiyasının qədim tarixinin və onun qədim əhalisinin etnik kimliyinin müəyyən edilməsində etnolinqvistika və arxeologiya elmləri çox böyük önəm daşıyır.

Arxeoloji araşdırmalar qədim dövrlərdə Mesopotamiya-elam uyqarlığı ilə Orta Asiyanın Okus uyqarlıqları arasında sıx əlaqələrin mövcud olduğu haqqında tarixi qaynaqlarda öz əksini tapmış məlumatları təsdiq etməkdədir.

Tarixi coğrafiyada Orta Asiya adlandırılan, lakin qədim tarixi ənənə baxımında Turan adlanan ərazidə mövcud olan qədim dövrə aid arxeoloji abidələr elmi əhəmiyyəti baxımından Ön Asiya və eləcə də Mesopotamiya abidələrindən geri qalmır. Okus uyqarlığına aid arxeoloji abidələrin araşdırılmasında önəmli rol oynayan sovet-yunan arxeoloqu V.Sarianidi Baktriya-Marqiana arxeoloji mədəniyyətini e.q. VI minilliyə aid edir və onun əsas mərkəzinin Türkmənistandakı Qonur təpə, Namazqa təpə və Altın təpə olduğu fikrini irəli sürür. V.Sarianidi və rus-sovet arxeoloqlarının böyük əksəriyyəti elmi obyektivliyi deyil, ideoloji prinsipi əsas götürərək onların "Baktriya-Marqiana arxeoloji mədəniyyəti", qərb bilim adamlarının isə "Okus uyqarlığı" adlandırdıqları arxeoloji abidələr kompleksində aşkar edilmiş artefaktların gerçək mahiyyətini saxtalaşdıraraq onları Avesta mifologiyası əsasında şərh etməklə, onu dərin elmi-məntiqi təhlilə məruz qoymadan



mexaniki şəkildə hind-iran arilərinə aid etmişlər.

Avropanın bir çox bilim adamları keçmişdə və müasir dövrdə Mərkəzi Asiyanın tarixi və arxeologiyası üzrə bir çox elmi araşdırmalar aparmış və sovet dövründə bizə məlum olmayan çoxsaylı əsərlər həsr etmişlər. XX əsrin böyük arxeoloq, orientalist və assuroloqu holland əsilli Henri Frankfurt dərindən araşdırdığı Mesopotamiya uyqarlığı ilə bərabər Okus uyqarlığının da tədqiqinə bir neçə əsər həsr etmiş, onlar arasında dərin elmi təhlilə əsaslanan paralellər müəyyən etmişdir. H.Farankfurt Okus uyqarlığının hind-iranlılarla əlaqəsinə həsr etdiyi əsərində bu uyqarlığın hind-iran mənşəli olduğunu iddia edən fikirlərin qətiyyətlə əleyhinə çıxmışdır. O e.q. 3000-2500-ci illər arasında formalaşan Okus mədəniyyətinə aid Şəhri Soxtda aşkar edilmiş yazılı lövhə, Baktriyada aşkar edilmiş slindrik möhürlər, monumental arxitektura, müxtəlif təsvirlər və dəfn üsulunun protoelam dövrü üçün xarakterik olduğunu, bu mədəniyyəti məhz protoelam və uruk ünsürlərinin Okusun orta hövzəsindən başlayaraq Afanasyevo, Kelteminar, Zərəfşanı əhatə edən çöl dünyasının qarşılıqlı təsiri nəticəsində yarandığı fikrini irəli sürmüşdür.

Frankfurt bütün arxeoloji dəlillərin Okus mədəniyyətinin Hindistandakı Xarappa mədəniyyəti ilə əlaqədar olduğunu sübut edir.

Okus uyqarlığı Baktriya və Zərəfşan dağlarından əldə edilən qızıl, qalay, turkuaz, lapis-lacivərd, mis, gümüş, qurğuşun kimi qiymətli faydalı qazıntılarla zəngin idi. Hind çayı hövzəsində, İranın qərbindəki Suzda, Bəsrə körfəzi sahillərində və Suriya-Anadolu ərazisində aşkar edilmiş maddi dəlillər Okus uyqarlığının bu regionlarla geniş ticarət əlaqələrinə malik olduğunu göstərir.

Xüsusən də, o dövrdə yeganə lacivərd mədəninin mövcud olduğu Baktriya ilə Ön Asiya ölkələri arasında İran yaylası üzərindən bu qiymətli daşın ticarəti böyük önəm daşıyırdı.

Okus uyqarlığının hind-iran və hind-arilərlə əlaqələndirilməsi yanlış hesab edən Frankfurt Okus mədəniyyətini çöl mənşəli olması haqqındakı hipotezin hind-arilərlə deyil, linqvistik və digər dəlillərə əsasən ural-altay qrupuna bağlamağın daha əhəmiyyətli və doğru olduğu fikrini irəli sürür.

Frankfurt Okus uyqarlığının hind-iran və hind-arilərlə əlaqələndrilməsini yanlış hesab etdiyi kimi, rus tarixçi arxeoloqlarının hind-ari mənşəli hesab etdikləri andronovo mədəniyyəti mənsublarının Okus mədəniyyətinin yaradıcıları olduqları haqqındakı tezislərini də arxeoloji dəlillərə əsasən yanlış hesab edir. O Okus uyqarlığının tərkib hissəsini təşkil edən bürünc dövrünə aid Baktriya və Marqiana arxeoloji mədəniyyətlərinin e.q. 2500-ci il və ondan sonrakı dövrdə Mərkəzi Asiyanın yerli və həmçinin Elam və Hind hövzəsinin ari olmayan mədəniyyətlərinə xas elementlərin sintezindən, lakin yerli elementlərin üstünlüyə malik olması ilə yarandığı fikrini irəli sürmüşdür. (H.Frankfurt. Paris, 2005)

Okus uyqarlığına aid arxeoloji abidələrdə aşkar edilmiş ikonoqrafiyalar üzərindəki mifoloji süjet və təsvirləri dərin elmi təhlililə məruz qoyan Frankfurt onları türklərin qədim dini inanc sisteminin tərkib hissəsini təşkil edən şamanizmlə əlaqələndrir.

Frankfurt təbiət və insan həyatının müəyyən dönüşümlərini özündə əks etdirən Okus uyqarlığına məxsus ikonoqrafik sxemlərin Hind və Avesta miflərinin yaxşı məlum olan sxemlərindən tamamilə fərqləndiyini və forma və stil baxımından əminliklə Baktriyada və Marqianada dərin kökə malik elam-mesopotamiya bədii ifadə dili ilə əlaqədar olduğu fikrini irəli sürür.

Frankfurt Okus uyqarlığı simvolik sistemlərinin Avrasiyanın şamanizm adlandırıla biləcək çox qədim mənşəyə malik ümumi kainat mifologiyasının ifadəsi olduğunu yazır.

Okus uyqarlığına aid arxeoloji abidələrdə aşkar edilən daşdan, misdən, qızıldan, gümüşdən hazırlanmış çoxsaylı möhür, vaza və digər əşyalardan ibarət artefaktlar üzərində ümimi relyef şəklində və ya dərin basma üsulu ilə mifoloji varlıqlar həkk edilmiş, kiçik dairəvi formadakı heykəlciklərdə, tanrılar, şeytanlar və digər mifik obrazlar təsvir olunmuşdur. Müxtəlif mifoloji səhnələrin təsvir olunduğu bu süjetlərdə qədim Okus uyqarlığında tanrı və insan arasındakı iyerarxik münasibətlər hekayətvari şəkildə əks olunmuşdur.

Frankfurt bu mifik süjetləri dərindən təhlil edərək iearxiyanın ən üst cərgəsindəki ali təbəqəsini elam-mesopotamiyalıların kaunak adlandırdıqları (dilimizdəki köynək sözü) uzun xəz geyimlərdə təsvir olunan mifik varlıqların təşkil etdiyini müəyyənləşdirmişdir. Yuxarı cərgədə taxt və ya heyvanlar üzərində oturmuş kaunak geyimindəki bu saqqallı kişilər digər varlıqlar üzərində üstünlüyə malik olub onlara nəzarət edən ali tanrılardır. İkinci cərgədə olan tanrılar qısa don geymiş və ya çılpaq vəziyyətdə olub ayaq üstdə və ya dizüstdə oturmuş vəziyyətdə təsvir olunmuşlar. İkinci cərgədə ölümlü adi varlıqlar isə qısa don geyinmiş yalnız ayaq üstündə, heyvanları idarə etmə, yer şumlama, ikitəkərli araba üzərində gəzmə və itlə ov etmə səhnələrində təsvir olunurlar.

Mifoloji ikonoqrafiyada ierarxik sistem tam şəkildə öz əksini tapmışdır. Kiçik heykəlcik və ya relyef səhnələrdə birinci sırada təsvir olunan qadın Okusun qadın ilahəsinin ali qadın tanrıçanın obrazıdır. Onun təsviri elamın bitgi tanrıçasına çox bənzəməkdədir. (H.Frankfurt. 1994, Səh. 407)

Okus uyqarlığına məxsus ikonoqrafik təsvirlərdə öküz və digər otyiyən heyvanlar geniş təmsil olunurlar. Xüsusən də tez-tez rast gəlinən ilan təsvirləri Okus ikonoqrafiyasında mərkəzi yer tutur. İlan bu səhnələrdə öküzlərə, qoyunlara və quşlara hücum edən vəziyyətdə təsvir olunur.

İlan çox vaxt kişi surətindəki tanrı və ya qartal surətindəki tanrı ilə mübarizədə təsvir olunur. O heç vaxt qadın ilahəsi ilə kontaktda təsvir olunmur. Mifologiyada ilan əjdahalarla bir başa qohumluğa malikdir və əjdaha ilanın atası hesab olunur. İlan tanrısına etiqad Elamda önəmli yer tutur. Baktriyada insan sifətli ilana sitayiş mövcud idi. (H.Frankfurt. 1994, Səh. 409)

Əjdaha Mesopotamiyadan və Elamdan başlamış Çinə qədər qədim şərq mifologiyasının önəmli ünsürüdür. O qışda suyu saxlayır, yazda isə buraxır. Hindistan və İran mifologiyasında əjdaha düşmən obrazında təsvir olunur. Əjdaha ilə bəzən mübarizə aparılır, bəzən o üstün mövqeyə malik olur. Çox zaman o məhsuldarlıq və bitgi tanrıları ilə eyniləşdrilir. Məhsuldarlıq tanrısı bitgi örtüyünün normal dönüşümünü əjdaha döngüsü ilə nizamlayır. Əjdaha ilahi mahiyyət daşıyıb həm xeyiri, həm də şəri, eynilə həm ölümü və həm də həyatı təmsil edir. Suyun qarşısını almaqla ölümü, suyu verməklə həyatı təmsil edir. (H.Frankfurt. 1994, Səh. 412)

İran və Hind mifologiyasında İlan və ya əjdaha Turan öntürk xalqlarını təmsil edir. Mərkəzi Asiyaya işğalçı kimi gələn Hind-ari və İran-arilərinin bölgədə məskunlaşmasına qarı çıxaraq onlara qarşı mübarizə aparan bölgənin avtoxton sakinləri olan Turanlı ön türklər bu işğalçı arilər tərəfindən düşmən və şər obrazı kimi ilan və ya əjdaha ilə eyniləşdrilir və Naqa-ilan xalqı adlandırılır.

Frankfurt yazır ki, İran və hind mifologiyasında Əjdahanın öldrülməsi gerçək zaman çərçivəsində baş verən bir tarixi hadisə deyil, zamanda mövsüm dəyişilməsi hadisəsinin mifoloji təcəssümüdür.

Frankfurt Baktriya-Marqiana arxeoloji mədəniyyətinə aid ikonoqrafiyalardakı mifoloji təsvirləri şərh edərkən onların hind-ari və iran mifologiyası ilə əlaqəsi haqqında bəhs etmədiyini yazır. Ona görə ki, bu süjetləri Avesta və iran mifologiyası əsasında şərh edən rus tədqiqatçılarının əksinə olaraq o ikonoqrafiyalarda mifoloji simvolların və təsvirlərin Avesta mətnləri və hind-ari və iran mifologiyasına heç bir aidiyyəti olmadığını xüsusi ilə qeyd edir. (H.Frankfurt. 1994, Səh. 415)

Frankfurt Avestada bəhs olunan xaoma narkotik içkisi haqqında yazır ki, arxeoloji qazıntılar zamanı Marqiananın Taqolok ziyarətgahında aşkar edilmiş xaşxaş və efedra budaqları ekstaza nail olmaq üçün içilən narkotik içkilər hazırlanmasında istifadə olunurdu ki o bütün Avrasiya məkanında ən qədim zamanlardan ovçu və heyvandar tayfalar tərəfindən istifadə olunurdu və Avestaya dəxli olmayan qədim dini mətnlərdə öz əksini tapmışdır. Çinin Sintszyan-Uyğur bölgəsində aşkar edilmiş e.q. III minilliyə aid mumiya da efedra ilə dəfn edilmişdi, Altayda iskit məzarında həşiş aşkar edilmişdir. Narkotikə aid bu ənənələr əkinçiliyəqədərki şamanist və totemist toplumlarda yaranmışdı və onu Avestaya əsasən hind-iran ənənəsi hesab etmək yanlışdır.

Okus uyqarlığında narkotik içkilərin istifadə olunması, çoxsaylı quş təsvirləri, yer, göy və yeraltı aləmdən ibarət çox qatlı kainat, insan və heyvan arasındakı qarşılıqlı metamorfoz, məkanın dörd çeyrəyə bölünməsi, dirəyin və ya ağacın dünyanın mehvəri olması haqqındakı təsəvvürlər ilkin şamanizm elementlərini

özündə əks etdrir.

Okus uyqarlığında şamanizmin mövcudluğunu sübut edən təkzibedilməz fakt Marqianada aşkar edilmiş, üzərində ayinləri yerinə yetirən heyvanların və ya heyvan maskasındakı insanların təsvirləri olan silindrik möhürdür. Orda əllərində kult və ya musiqi alətləri olan rəqs edən və ya ayinə rəhbərlik edən inəklər, əlində davul çalan meymun, heyvan surətindəki insanlar təsvir olunmuşdur.

Şübhəsiz bütün bunlar şamanist ayin və ya inisiyasiya (həsr etmə) ritualıdır.

Frankfurtun dərin elmi təhlilə əsasən gəldiyi nəticəyə görə Okus uyqarlığının mifologiyası Mərkəzi Asiyanın əkinçiliyəqədərki qədim şamanist mədəniyyətinə xas xüsusiyyətləri, Elam mifologiyasına xas cəhətləri və ikonoqrafik dili, yerli mifoloji yaradıcılığı öz tərkibində birləşdirmişdir. Qısacası Okus uyqarlığının mifologiyasında və dini inancında əks olunan simvolik sistem Orta Asiyanın naturalist və şamanist dininin və elam-mesopotamiya mifologiyasının periferiya formasını özündə əks etdirir. (H.Frankfurt. 1994. Səh. 416)

İtalyanın müasir arxeoloqu Enriko Askalone son illərdə Okus uyqarlığının tərkib hissəsini təşkil edən Baktriya-Marqiana arxeoloji mədəniyyətinə aid müxtəlif ərazilərdə aşkar edilmiş Elam, akkad və Marhaşi-Jiroft mədəniyyətlərinə aid çoxsaylı artefaktlar haqqında bəhs edir. Türkmənistanın Qonur təpə məzarlığında aşkar edilmiş Sarqon dövrünə aid akkad möhürü, Jiroft mədəniyyətinə aid üç silindrik möhür və çoxsaylı digər artefaktlar aşkar edilmişdir.

Eyni zamanda Okus uyqarlığı ərazisində Baktriya və Marqiana ustaları tərəfindən hazırlanmış e.q. III-II minilliklərə aid bir çox əşyalar, o cümlədən qızıl boyunbağı, bürünc soomorf balta, gipsdən hazırlanmış heykəlcik, Suriyanın Ebla şəhəri xarabalıqlarında və Orta Elamda kral məzarlığında aşkar edilmişdir. Aşkar edilmiş artefaktları və qarşılıqlı mədəni təsiri dərindən təhlil edən Enriko Askalone Okus uyqarlığı və Elam-Marhaşi regionu arasında baş verən geniş miqrasiya hərəkətləri və ticarət mübadiləsi nəticəsində ənənələrin, sənətkarlıq təcrübəsinin və intellektual birikimin qaynayıb qarışaraq vahid mədəni inteqrasiya sisteminin formalaşmasına səbəb olduğunu yazır. (Enrico Ascalone. 2018. Səh. 27-37)

Rus arxeoloq S.Qriqoryevin fikrincə e.q. VI minilliyə aid Xəzərin şərqindən başlayaraq Amudaryanın orta axarını əhatə edən böyük ərazidə formalaşan Kelteminar mədəni topluluğu Anadolu nostratik dil ailəsi daşıyıcılarının təşkil etdiyi şərqi Xəzərətrafı mezolit mədəniyyətinin yerli Orta Asiya İkiçayarası mədəniyyəti ilə çulğalaşması nəticəsində meydana çıxmışdır. O bu birləşmiş mədəni topluluğu ural-altay dil ailəsinin formalaşdığı ərazi kimi qəbul edilə biləcəyini yazır. (С.Григорьев. 1999, Səh. 329)

Mərkəzi Asiyada aşkar edilmiş zəngin və çox geniş bir sahəni əhatə edən və böyük elmi dəyərə malik arxeoloji abidələr kompleksi bu regionun bəşər uyqarlığının formalaşmasında onəmli rol oynayan mədəniyyət mərkəzi olduğunu sübut



edir. Avropa tarixçi və arxeoloqlarının Okus uyqarlığı, rus bilim adamlarının Baktriya-Marqiana arxeoloji kompleksi kimi səciyyələndirdikləri bu arxeoloji abidələr kompleksinin öz gerçək adı ilə Turan uyqarlığı adlandırılması daha doğru və elmi yanaşma olar.

Sumer ərazisinə samilərin dağıdıcı basqınları nəticəsində sumerlilərin miqrasiyaya məcbur olmaları digər regionlar kimi Azərbaycan ərazisinə də öz təsirini göstərmişdir.

Miqrasiya nəzəriyyələrini araşdıran Stepan Batiuk Kür-Araz mədəniyyətinin inkişafının II dönəmini e.q. 2300-ci ildə Akkad kralı Sarqonun Sumerin Uruk şəhərini işğal edərək dağıtması nəticəsində Uruk mədəniyyəti sona çatması və insanların Mesopotamiyadan Qafqazın güneyinə miqrasiyası ilə əlaqələndirir. Bu dövrdə Kür-Arazda keramikanın texniki və estetik aspektlərinin böyük inkişafı baş verir. Məhz bu dövrdə Kür-Araz mədəniyyətinə yerli olmayan yabançı uyqarlığın təsiri özünü Güny Azərbaycanın Kanqavar vadisindəki Göytəpə, Yanıqtəpə və Qodintəpə mədəniyyətlərində biruzə verir. (Stephan Denis Batiuk. 2015, Səh. 25)

Kür-Araz mədəniyyətinə mənsub əhali qrupları əsasən dağ yaylalarında və dağlar arası vadilərdə məskunlaşmışdılar. Yaşadıqları ərazilər metallarla və qiymətli və yarımqiymətli daşlarla zəngin idi.

Dağlıq ərazidə bol ehtiyata malik alətlər hazırlamaq üçün daşlar, ağac məmulatları və heyvandarlıq məhsullarına Mesopotamiya toplumlarının böyük ehtiyacı vardı. Güney Azərbaycan ərazisində Köhnəşəhər timsalında sənətkarlıq mərkəzi olan şəhərlərdə metal emalı və ixtisaslaşmış sənətkarlıq məmulatı istehsalına dayanan iqtisadiyyatın inkişafı Uruk kaloniyalarının çökməsi ilə yaranan tədarük vakumunun doldurulmasına və mədəniyyətin inkişafı və genişlənməsinə zəmin yaradırdı. Uruk mədəniyyətinin çökməsi və siyasi mərkəzləşmənin iflası ilə yaranan boşluq Kür-Araz mədəniyyətinin inkişafını şərtləndirən önəmli amildir. (Carlos Quiles. 2019, Səh. 262)

# XI FƏSİL. Sumerin yaradılış əfsanəsi və onun İran və Turan miflərinə təsiri

Sumer tarixi Tufandan önсəki və Tufandan sonrakı olmaqla iki tarixi dövrə bölünür. Sumer mixi yazı mətnlərində Tufandan öncə min illər ərzində mövcud olmuş hakimiyyət sülalələrindən bəhs edilərək hakimiyyət sürmüş kral sülalələrinin siyahısı müəyyən edilmişdir.

N.S.Kramer tərəfindən tərcümə edilən bir sumer mixi yazı lövhəsində Tufandan öncə mövcud olmuş beş böyük Sumer şəhərindən bəhs olunur.

Sumer yaradılış əfsanəsi sumerin mövcud olduğu relyefin-ərazi quruluşunun xüsusiyyətlərini özündə əks etdirirdi. Sumerlilər Mesopotamiyanın cənubunda Kəngər körfəzi sahillərində, Fərat və Dəclə çaylarının mənsəbində çoxsaylı qollarının yaratdıqları bataqlıq və gölməçələrdən ibarət ərazidə məskunlaşmışdılar. Sumerlilər özlərinə həyat alanı yaratmaq üçün su kanalları çəkir, bataqlığı və gölməçələri qurudur, orda yaşayəş məskənləri salır, taxıl məhsulları əkmək üçün əkin sahələri və heyvanları üçün otlaqlar yaradırdılar. Dəniz geri çəkildikcə sumerlilər öz yaşayış ərazilərini genişləndirir, çayların gətirdiyi münbit torpaqlarda əkinçiliyi və onunla əlaqədar, sənətkarlığı və heyvandarlığı inkişaf etdrir, şəhərlər salırdılar.

Sumer yaradılış əfsanəsində və ümumiyyətlə mifologiyasında su önəmli yer tutur. Sumer yaradılış əfsanəsinə görə öncə hər tərəf Absu adlı geniş və dərin sudan ibarət ilkin okeanla əhatə olunmuşdu. Lakin su öz-özlüyündə yaradılışın təməli ola bilməz. Torpaq da öz özlüyündə yalnızca yaradılışın təməlini təşkil edə bilməz. Yaradılış-həyat hər iki təməl ünsürün, torpağın və suyun qarışımından yarana bilər. Suyun və torpağın qarışımı çamur-palçıqdır. Su ilə qarışmış çamur sumerli üçün həyat qaynağı idi. Sumerli üçün torpaq qadını, ananı, ana bətnini doğurqanlığı təcəssüm edirdi.

Su torpağı mayalandıran-dölləndirən element idi. Suyun döllənidirilməsindən sonra o yarılaraq sumerli üçün həyat qaynağı olan bitki cücərtilərini doğururdu Sumer mifologiyasında insanın yaradılışı da torpağın bitkiləri doğurması ilə eynidir. Sumer yaradılış əfsanəsində insan da tanrı tərəfindən həyatın mənbəyi olan həmin o çamurdan yaradılmışdır.

Annu ilkin suyu təmsil edən yaradılışın ana tanrıçası idi. Annu Göyüzü tanrısı Anı, yer üzü tanrısı Kini və su tanrısı Apsunun timsalında ilk tanrıları doğurmuş ana və dəniz tanrıçasıdır. Annu sudan bir dağ çıxardır. Oğlu hava tanrısı Enlil bu dağı iki hissəyə ayırır, dağın üstü göyüzü, altı yerüzü olur. Göyə göyüzü tanrısı An, yerə isə Yer tanrısı Ninki ilə Hava tanrısı Enlil sahib olur.

"Enki və dünya düzəni" mifoloji mətnində yazıldığı kimi Sumer ölkəsi anadır



Ana tanrı Nammunu və ya başqa deyimlə Annunu təmsil edir. Nammu bataqlıq sularını təsvir edən *Enqur* idioqramı ilə ifadə olunur. Daha dəqiq ifadə etsək ana tanrıça Nammu bataqlıq suları ilə qapanmış Sumer ölkəsini təmsil edirdi.

Bataqlığı təmsil edən ana tanrı Nammu Sumerin simvoludur. Bütün varlıq, o cümlədən şəhərlər və tanrılar da, ana bətni hesab olunan Sumer tərəfindən doğrulmuşdur. Bataqlığı təşkil edən başlıça element su və torpağın qarışımından ibarət olan çamur-palçıq bütün canlıların rüşeymidir. İnsan da bu çamur rüşeymdən yaranmışdır. (İbrahim Mahir Demirel. Sumerce tabletlər. Mitoloji öyküler. Academia.edu. Səh. 12-13)

Sumeru sami akkadların Mesopotamiyanın Kienqir xalqına verdiyi addır.

Osman Nedim Tuna sumer dilindəki Sumer etnoniminin kökünü təşkil edən "Su" sözünü su, sulu yer, bataqlıq kimi tərcümə edir. (Osman N. Tuna. 1990)

Sözün ikinci tərkib hissəsini təşkil edən "meru" sözü akkad dilində "oğul, əhali, sakin" anlamı daşıyır. Sumer adının lüğəti mənasına uyğun olaraq anlamı "Su xalqı" deməkdir. Akkadca Su-meru adı sumercə *Lu-Su* adının tərcüməsidir və hər ikisi də "Su xalqı" deməkdir.

Sumer yaradılış əfsanəsinə görə insanlar yaradılmadan öncə tanrılar yaranmışdır. Sumer kahinlərinin təsəvvüründə dünya ilk öncə bir-biri ilə birləşmiş olan və sonradan ayrılmış yer və göydən ibarət olmuşdur, yastı bir diskdən ibarət olan yer Absu adlanan və Enkinin hakimiyyətində olan okean suyunun üzərində yerləşmişdir. Dünyanın altı isə Yeraltı dünya adlanan hissədən ibarət olmuşdur.

Annu ilkin suyu təmsil edən yaradılışın ana tanrıçası idi. Yaradılışın ilk mərhələsində ilkin dünya dənizini təcəssüm etdirən tanrıça Nammu və digər deyilişlə Annu yaranmış, sonra o torpaq tanrıçası Uraşunu, göyüzü və ədalət tanrısı Anı yaratdı. *An* əslində ilahi ierarxiyanın ali mahiyyətini təmsil edirdi, ali hakimiyyəti təcəssüm edirdi. O ali hakim, hakimiyyətin himayəçisi, tanrıların atası idi. Dünyanın üç pilləli qruluşunda *An* göyüzü aləminin, ulduzların və havanın sahibidir. *An* passiv ali yaradandır. Enlil yaradıldıqdan sonra atası An-nın bir çox funksiyaları ona keçmişdir. An göyüzündə qalmaqda davam edir və yalnız yerdə baş verən hadisələri seyr edirdi. Yer üzündəki işləri onun qüdrətli oğlu Enlil yerinə yetirərək yer üzərindəki bütün işləri idarə edirdi. Yerüzünün və küləklərin tanrısı olan Enlil göyüzünün və bütün varlığın, insanların yaradıcısı-atası və baş tanrı Anın və yerüzünün ana tanrısı Kinin oğlu idi. O həmçinin Nippur şəhərinin tanrı himayəçisi idi. Enlil sözü iki hissədən ibarətdir *En* ağa, yönətici, *lil* isə külək deməkdir. Enlilin titulları Turan, "Böyük dağ", "Yad ölkələrin kralı", "Vəhşi öküz", "şiddətli fırtına" və tacir idi. Sumer, Akkad və digər xalqlar Enlili kainatın yaradıcısı, atası və hökmdarı hesab edirdilər.

Enlil yer üzündə torpağı idarə edirdi, onun qardaşı Enki yer altındakı dünya dənizi Absuda yaşayırdı və Su tanrısı idi, o zaman-zaman yer üzünə qalxaraq özü

ilə rütubət və yağmur gətirirdi. Atası An və qardaşı Enlil kimi Enki də öküz obrazında olub başında öküz buynuzları ilə təsvir olunurdu. Enkinin titullarından biri "öküz oğlu öküz" idi. Enki adındakı En – ağa, sahib, Ki isə torpaq deməkdir, sözün mənası "torpağın ağası" deməkdir. Enki dağları, vadiləri, suları və dənizləri müxtəlif canlılarla məskunlaşdırırdı. Sumer mifologiyasında o həmçinin insanların da yaradıcısıdır. Əfsanəyə görə tanrıların törəmələri artıb çoxalmış və yer üzündəki qidanı yeyib azaltmışlar, tanrı və tanrıçalar Enkidən xahiş etmişlər ki, yer üzündə yeyəcək və içəcəklərin miqdarını artırmaq üçün tədbir görsün. Lakin Enki onların sözlərini saya almamış, nəhayət, Enkinin və bütün yaradılışın ulu anası Nammu işə qarışmış və Enkidən tanrı övlad və uşaqlarını aclıqdan və susuzluqdan xilas etməyi tələb etmişdir. Enki yeraltının hökmdarı tanrıça Ninmax ilə birlikdə yeni canlı məxluqlar yaratmaq üçün öncədən içərisi rüşeymlərlə mayalanmış çamur-palçığı ayaqlayaraq yoğurmuş və Ninmax ondan ilk canlı insan olan qadını və kişini yaratmışdır. Lakin qüsurlu olan bu qadın və kişini Enki bəyənməmiş və özü palçıqdan mükəmməl keyfiyyətlərə malik insanlar, qadın və kişi yaratmışdır. Ona görə də Sumer mifologiyasında öküz obrazında olan "öküz oğlu öküz" adlanan Enki, yəni öküz insanların yaradıcısı idi.

Sumer mifologiyasında Tur həm öküz, həm də oğul anlamı daşıyır. Tanrı Tur günəş tanrısı Utunun öküzü idi. Babil və Kassi mifologiyasında o Marduk adlanırdı. Tur və ya turiya sözü Avestaya sumer mifologiyasından keçmişdir. Avestadakı türkləri təmsil edən turlar öz kök etibarı ilə sumer miflərinə bağlıdır və eyni ilə öküzü və oğulları təcəssüm etdirir.

Sumer mifologiyasında göy üzünün tanrısı və bütün tanrıların atası və babası An yağışın mənbəyi kimi məhsuldarlığa səbəb olub "ürətən öküz" adlanırdı. Anın oğlu Enki də dünya düzəni mətnində "öküzdən törəmiş öküz" adlanırdı. Tanrı Enki həmçinin çayların yaradıcısıdır. Sumer yaradılış əfsanəsində öküz obrazında təcəssüm olunan və "öküz oğlu öküz" adlanan Enki həyatın və yaradılışın ilkin mənbəyini təşkil edən Fərat və Dəclə çaylarının yaradıcısı və su ilə əlaqədar tanrıdır. Bu iki çay Öküz timsalındakı Enkinin mayasından yaranmışdır. Ona görə də çay onu yaradan öküz obrazındakı Enki ilə, yəni öküzlə eyniləşdrilmişdir. (Renate Marian Van Dijk-Coombes, 2018, Səh. 11)

Türklərdə çayın öküz adlanması Sumer mifologiyasında Öküz obrazındakı Enkinin çayların yaradıcısı obrazı ilə əlaqədardır. Sumer dilində öküz anlamındakı Qud sözü çox zaman Quz kimi də ifadə olunur. Digər bölümlərdə də izah etdiyimiz kimi sumer tanrısı və ilk kralı Ukuz adlanırdı.

Türk əfsanələrində də çeşidli yaradılış motivləri mövcuddur. Türklərdə də kainat ilk öncə böyük sudan ibarət olmuşdur. Tanrı Ülqən tanrı Erlik ilə birlikdə bu suyun üzərində uçurlar. Ülqən dənizdən çıxan qayanın üzərinə qonur. Ana tanrıça Aq-enə Ülqənə yeri və göyü necə yaradacağını söylüyür. Ülqən yerə və göyə "ol" deyir, yer və göy tanrının sözü ilə yaranırlar. Ülqən 6 gün ərzində kainatı yaradır. (Bahaaddin Ogel, 2010, Səh. 332, 433)

Muazzez İlmiye Çığ sumer və türk miflərini qarşılıqlı müqayisə edərək aralarında çox böyük bənzərliklər müəyyən etmişdir. Bahaaddin Öqel Türk mifologiyasının təməlinin uzay və dünya ilə əlaqədar inanış və anlayışlardan ibarət olduğunu yazmışdır. Sumer və türk yaradılış əfsanələrində bənzər cəhətlər olduqca çoxdur.

*Asar* sumer tanrısı əkinçilik tanrısı idi. *Asar*-ın ideoqram oxunuşu "asariq" şəklindədir və sözün sumer dilində mənası *a* – su, *sar* – bağ, yaşıllıq və *riq* – yardım etmək şəklində izah edilir". (Andreas Johandi, 2019, Səh. 15)

Tanrı Asar Sumerin və eləcədə bəşər övladının yaratmış olduğu ilk dövlət olan Eridu ilə əlaqədar idi. Yunanlılar Aserin Misirdəki prototipi olan İsidanı tanrı Osiris kimi ifadə edirdilər.

Asarın qədim fonetik forması Baba şəklində idi. Asarın akkad dilindəki Asaralimnunun mənası "hökmdarın öküzü Asar" deməkdir. Tanrılara həsr olunmuş məbəd himnlərində Asar yerdə tufan yarada bilən qızğın təbiətli iri buynuzlu qaramalın tanrısı kimi mədh olunurdu. Alim, yəni öküz günəş tanrısı Utunun epitetlərindən biri idi. Sumer ədəbiyyatında *Qud-Alim* Günəş tanrısı ilə əlaqədardır. Burda Qud Sumer dilində öküz, Alim isə akkad dilində bizon, yəni vəhşi öküz deməkdir. Alim, yəni öküz, tanrı Utunun epitetlərindən biridir. Bizon-öküz (*kusarikku*) *Ninurtanın* rəqibidir. O Mesopotamiya sənətində insan sifətli bizon-öküz obrazında təsvir olunur.

Mesopotamiyada "çox güclü prins" Asarın təxəllüs-ləqəblərindən biri idi. Asarın və ya babil mətnlərindəki ifadə şəkli ilə Asar-alimnun məbəd himn mətnlərində öküzə xas qızğınlıq, *ur-saq* döyüşkən-savaşçı, ovu ələ keçirən bars *pirig-tur kar dabbe* kimi təsvir olunur. (Pirig-tur leopard, bars deməkdir) Asarın aqressiv xarakteri, onun tufan kimi qəzəbli öküz, düşmən torpaqlarına ardıcıl zərbələr yendirən savaşçı epitetləri Mesopotamiya mifologiyasında gənc savaşçı tanrı tipləri ilə əlaqədardır ki, onların ən bariz nümayəndəsi Ninurta idi. Utu tanrısına həsr olunmuş bir himndə deyilirdi ki, "*Utu qud-alim kurra dub ba-re*", yəni "Utu dağlarda gəzən vəhşi öküzdür". (Andreas Johandi, 2019, Səh. 87)

Asar tanrısının öküz simvolu onun əkinçilikdə rolu ilə əlaqədar idi ki, sumer mixi lövhələrində öküz torpağı becərmək, şumlamaq işində öküzün gücündən istifadə olunurdu.

*Du-ku* (dilimizdə Doğa, təbiət) sumer mifologiyasında "kutsal təpə" deməkdir. O "səma və ya yerüzü dağında" yerləşən kosmik məkandır. Ora Anunak tanrılarının ilk zamanlar yaşadıqları və insan mədəniyyəti ünsürlərinin meydana gəldiyi (əkinçilik, heyvandarlıq, toxuculuq və s.) məkandır. Ora qoyunların və taxılın evinin yerləşdiyi, tanrı Enlilin "müqəddəs ağuşu" *du-ku* adlanan məkandır. Türk dil-

lərində *Du-ku* Doğa və ya təbiət anlamı daşıyır.

*Du-ku*-nun alternativ variantı kimi tanrı ağuşu adlanan yer əlverişli iqlim şəraiti ilə insan sivilizasiyasının meydana gəlməsində mühüm rol oynayan Zaqros dağının rütubətli, münbit ətəkləri kimi şərh olunur. Beləliklə, "səma və yer üzünün dağı" məfhumu hələ yer ilə göyün bir-birindən ayrılmadığı bir aləmi ifadə edən bir anlayışı nəzərdə tutur.

Du-ku eyni zamanda kosmik Du-kunun yer üzündəki qarşılığı olan Qirsu, Nippur və Eriduda müqəddəs məbədlərin-tapınakların adlarıydı. (J.Black and A. Green. 1998, Səh. 72)

Sumer mifilogiyasında ilk tufan və yerüzünün, yəni Sumerin və onun şəhərlərin onları himayə edən tanrılar arasında bölünməsi hadisəsi təsvir olunmuşdur. "Tanrılar An, Enlil, Enki və Ninhursaq Qarabaşlı xalqı (sumerliləri) yaratdıqdan sonra, Krallıq göyüzündən yendirildikdən sonra o, ayinləri və ilahi qanunları mükəmməlləşdirdi. Təmiz yerdə beş şəhər qurdu. Birinci qurulan Eridu şəhəri idi, liderliyi Nudimmuda verdi. İkinci Bad-Tibira şəhəri idi, kral Dimuziyə verdi. Üçüncü Larak şəhəri idi, Endurbilhursaqa verdi. Dördüncü Sippar şəhəri idi, qəhrəman Utuya (Günəş tanrısı) verdi. Beşinci Şuruppak şəhəri idi, onu Suda verdi. Sonra Tufan oldu. Sonra Sumerlərin patesisi kral Ziusudra nəhəng bir gəmi inşa etdi. Yeddi gün, yeddi gecə. Tufan ölkənin hər tərəfini əhatə etdikdən sonra, kral Ziusudra Rəb, su tanrısı Utunun önündə diz çöküb dua etdi. Kral bir öküzü və bir qoyunu qurban kəsdi".

Sumerlilərə verilən "qarabaşlı" adı onların mifoloji görüşləri ilə əlaqədardır. Sumer kralları tanrı tərəfindən xalqı idarə etmək üçün kut, yəni hakimiyyət səlahiyyəti verilən idarəçidir. Sumerdə qoyunçuluq təsərrüfatın ən önəmli sahəsini təşkil edirdi. "Qabaşlı" sumerdə adətən qoyunlara sürüyə verilən addır. Sumer kralları tanrı tərəfindən onlara verilən səlahiyyətlə öz xalqını idarə edən çoban kimi təsəvvür olunurdu. Sumer mifologiyasında ilk çoban kral Etana idi. Sumerdə başlayan çoban-kral ənənəsi kassilərdə, elamlarda, Ön Asiyanın digər xalqlarında və hətta Misir fironları tərəfindən davam etdirilmişdir. Qaravaş sözü sumerdə "xidmət edən, tabe olan", yəni qara camaat anlamı daşıyırdı.

Sumerlilərin Tufan əfsanəsi yəhudilərin Tövrat kitabında və digər xalqların tufan haqqındakı əfsanələrin əsas qaynağını təşkil etmişdir. İngilis arxeoloqu Leonid Volley Ur şəhərində qazıntılar apararaq çox dərin qatlardakı gil təbəqələrdə tufanın izlərini aşkar etmişdir.

Enlil An-ın oğludur, tanrıların atasıdır, havanın hökmdarıdır, insanların və tanrıların taleyini o müəyyən edir, o tanrıların və insanların taleyində aktiv rol oynayır. Tanrılar ierarxiyasında o orta dünyanın – insanlar aləminin hökmdarıdır. Tanrı An öz şəhəri Uruku idarə etməyi qızı Nannardan olan nəvəsi İnannaya həvalə etmişdi və Anın qüdrətli "vəhşi səma öküzü" akkadların Nerqal adlandırdıqları Qu-qal-annanı və digər adı ilə Alimi ona yardım üçün göndərmişdi.

"Sumer miflərində Nerqal öküz obrazında təsvir olunur və sumerin qədim piktoqraf işarəsi ilə *Kuş-unu* kimi yazılır. Nerqal yeraltı dünyanın hökmdarıdır. Ən qədim sumer mətnlərində Nerqal öküz tanrı *Kut* adlanır və Qud sumer dilində öküz deməkdir. Nerqal adının mixi ideoqramının oxunuş formasından biri də *Ukur* şəklindədir. Bu söz müxtəlif oxunuşlarda Ukuz kimi də ifadə olunur". (Wiggermann-Nergal, 1999, Səh. 216)

Nerqalın sumer dilindəki adı Qud-an şəklindədir. Yəni tanrı An-nın öküzü. Qud sözündəki *d-z* dəyişikliyi ilə bu söz Quzan şəklini almışdır.

Sumer mətnlərində ilk insan Adapanı, yəni Adamı tanrı Enkinin və ya Eanın oğlu adlandırırlar. Tanrıların atası An da Adapanı Enkinin övladı adlandırır. Enkinin titullarından biri Turan, yəni tanrının oğlu idi. (Sithçin Z., 2016, Səh. 277)

Nerqal Kuta şəhərinin Sumer tanrısı idi. Kuta və ya sumer mətnlərində qeyd olunduğu kimi Qudua Dəclə və Fərat çaylarının arasında Mesopotamiyanın quzeyində yerləşirdi. Şəhərin əhalisi qutilərdən ibarət olub qədim dövrlərdən etibarən şəhər Qutilərə məxsus olmuşdur. Assuriya kralı Qutilərin 5 tayfasını bu şəhərdən Samaraya köçürmüş və ordan 10 yəhudi tayfasını isə Kutidə yerləşdirmişdir. Nerqal əslində Qutilərin Kuta tanrısıdır. (Trevor Bryce, 2009, Səh. 174)

Valter Berkert sumer-akkadın savaş tanrısının yunanlılar tərəfindən özlərinin müharibə allahı Ares obrazı olaraq mənimsədiklərini yazır. O eyni zamanda Nerqal obrazının da yunanlılar tərəfindən mənimsənilərək Herakl üçün prototip təşkil etdiyini yazmışdır. (W.Burkert, 1987, Səh. 169)

Sonrakı yaradılışda bitki və hava tanrısı Enlil və onun arvadı qidalanmanı təcəssüm edən taxıl tanrıçası Ninlil yaradıldı. Daha sonra savaş tanrısı Nirqal və yeraltı dünyanın tanrıçası Ereşkiqal, qamış tanrıçası Ninqal və Ay tanrısı Nanna tanrıların varisləri olaraq yaradıldılar. Ninqal və Nanna günəş tanrısı Utunun, doğurqanlıq tanrısı İnannanın və Atəş/od tanrısı Nuskunun valideynləridirlər. Sumerlər inanırdılar ki, tanrılar yaradıldıqdan sonra insanlar tanrıların ilahi kəlimələrindən yaranmışdılar.

İnannanın Zaqros dağlarının arxasında yerləşən Aratta tanrıçası olduğu güman edilir. İnanna çoban kral Dimuzi ilə evlənmişdi və o ana tanrıça hesab olunur. İnannananı Bibliyadakı Havvanın prototipi olduğu güman edilir.

Tiamat akkadca olub sumer dilində Ti-ama şəklində ifadə olunur. *Ti* sözü sumer dilində ruh, can deməkdir, *Ama* isə ana deməkdir. Tiama/Tiamat Ana ruhu anlamı daşıyır. Tiamatın oğlu Kinqu tanrı Mardik tərəfindən öldürülmüş və qanı palçığa qatılaraq ondan insan yaradılmışdır.

Sumer yaradılış əfsanəsində Enlil və onun arvadı Ninlil Göyüzünü və yerin birlik və vəhdətini təcəssüm etdirirdi. Enlil göyüzünün tanrı atası, Ninlil isə yerüzünün, torpağın ana tanrısı idi. Nippur məbədində aşkar edilən mətnlərdə onla-

rın vəhdəti-birliyi kainatı təşkil edirdi. Göyüzünün tanrısı Enlilin Adı ilu-Turan, yəni tanrı Turan kimi ifadə olunurdu. Burda Tur-an Sumer dilindən tərcümədə Anın oğlu deməkdir. (H.V.Hilprecht, 1908, Səh. 39)

*Ekur* Sumer dilində "dağ evi" deməkdir. Tanrıların toplandığı yer və məclisləridir. Ekur Sumerdə ən hörmətli, müqəddəs, kutsal bina idi. Samilər onu ziqqurat adlandırırdılar. Enkur-ziqquratlar Mesopotamiyada etiqad və sitayiş obyekti olaraq An, Enlil, Enki və Ninhursaq tanrılarına həsr olunurdu. Ekurun dağıdılması Urun işğal edilməsi ağısında əks olunmuşdur. Sumer xalqı üçün önəmli əhəmiyyətə malik bu müqəddəs sitayiş mərkəzlərinin dağılması onlar üçün böyük faciə təşkil etmişdir. İlk dəfə tufan və daşqın nəticəsində dağılmışdır. Ekurların və onunla əlaqədar ilahi qanunların sumer xalqı üçün böyük fəlakət hesab olunan tamamilə dağılması sami akkad kralı Böyük Sarqon tərəfindən m.ö. 2300-cü ildə həyata keçirilmişdir. Ekurların və Sumerin ikinci dağıntı fəlakətinə məruz qalması Sarqonun sülaləsinə mənsub olan akkad kralı Naram-sin/suen (e.q. 2273-2219) Babil şəhərlərinin üsyanına başçılıq edib hakimiyyətə gəlməsi nəticəsində baş vermişdir.

Naram-sin Sumer, Lullubi, Zaqros dağlarındakı digər xalqlara qarşı apardığı dağıdıcı müharibələri və Enlilə məxsus Ekurun bünövrədən yerlə yeksan edilməsi sumerlilərin məhşur "Enlilin Aqade lənəti" Mətnində öz əksini tapmışdır. (Jerrold Cooper, 1983)

Sumerdə və ondan sonra Mesopotamiyada digər dövlətlərin kral saraylarının qarşısında yarı öküz, yarı insan və ya yarı aslan, yarı insan təsvirində Sakkanakki adlanan heykəllər qoyulurdu. Sakkanakku sözünü Delitç (qapı qoruyucusu, qapıcı, hökmdar, möhür vuran, möhürçü kimi tərcümə edir. (Hilprecht, 1908, Səh. 87)

Mesopotamiyanın güneyində, Sumerdə ən qədim dövrdən belə hesab edirdilər ki, bulaqlar, quyular, çaylar, kəhrizlər, göllər öz sularını yer altındakı Abzu və ya Enqur adlanan yeraltı şirin su okeanından götürürlər. Duzlu su dənizi isə əksinə yerin üstündə olub yer üzünü əhatə edir.

Abzu özəl bir dünya idi və müdrik tanrı Enkinin, onun arvadı Damqalqunun (Damkinin) və anası Nammunun və ona tabe olan bir çox məxluqların 19-cu evi idi. Yer altı dünya isə Abzudan aşağıda yerləşirdi. Belə bir təsəvvür mövcud idi ki, yeraltı dünyaya Habur çayından keçib gedilirdi.

Konrad Volka sumer mətnlərinin oxunuşuna həsr etdiyi əsərində *Absu* tanrı adının əslində mixi yazılış şəklinin *Suab* formasında olduğunu, lakin nədənsə bir çox müəlliflərin onu Absu kimi yazdıqlarını qeyd edir. Suab Enkinin sualtı evidir. Suab-Absu Pasirrada Enkiyə həsr olunmuş məbədə deyilir. (K.Volka. 1999. səh. 111)

Məbədlərdəki müqəddəs su ilə dolu çənləri də abzu adlandırırdılar. Yerüzünün və küləklərin tanrısı olan Enlil göyüzünün və bütün varlığın, insanların yaradıcısı atası idi. *An* Sumerdə göy üzünü ifadə etməklə yanaşı, göyüzü tanrısının adıdır. O tanrı Urasın varisi və onun eynidir, həmçinin ilkin olan Ansar və Kisarın oğludur. An bütün tanrıların atasıdır. Yer üzünün tanrısı Uras onun arvadıdır. An sonradan Ki ilə evlənmişdir. (J.Black and A.Green, 1998, Səh. 30)

*Ansar* və *Kisar* dünyanın ilkin başlanğıcını təşkil edən qadın və kişi cinsini təmsil edirlər. *An* göyüzünü, *Ki* isə yerüzünü təcəssüm etdrirlər. Ansar və Kisar göyüzünün tanrısı, baş tanrı Anı doğurmuşlar. (J.Black and A.Green. 1998, Səh. 34)

Mesopotamiyanın Nerqal tanrısı yunanlıların Herakl-Herkul, Nabu isə Apollon tanrısının prototipidir.

Kassilərdə şaquli ox işarəsi kudurru adlanırdı və Sirius ulduzunu təmsil edirdi. Sumer-akkad dilində kudurru sözünün mənası ox deməkdir. Kudurru sözünün kökü kut şəklindədir. Simvolu ox olan Kuturru hakimiyyəti təmsil edirdi. Kassilərin hakimiyyəti dövründə Kuturru qəbilə-klan ərazilərini müəyyən etmək üçün daş abidə şəklində ucaldılırdılar. Bu Kuturru abidələr həmin qəbiləyə və onun başçısına həmin ərazi üzərində hakimiyyət səlahiyyəti verirdi.

Oğuzlarda da, ox hakimiyyət rəmzi kimi Oğuz xaqan tərəfindən boy yönəticilərinə verilirdi. Görünür bu ənənə kök etibarı ilə kassilərə bağlı olmuşdur.

Eramızın V əsrində yunan tarixçisi Herodot ərəblərin Orotalt və Alilat tanrılarının adını çəkir. Quranda bu adlar əl-Lat, əl-Uzza və Manat Allahın qızları kimi qeyd olunur. Bu tanrılar bir başa Mesopotamiya tanrılarından əxz olunmuşlar. (J. Black and A.Green. 1998, Səh. 35)

*Aruru* – Mesopotamiyada ana və doğuş tanrıcalarının adı idi. Aruru türk Tenqri inancında Umay ananın ekvivalentidir.

*Asaq* – Sumerlərin Luqale poemasında Ninurta-Ninqirsu tərəfindən məğlub edilən yırtıcı-iblis idi. Asaq olduqca qorxunc bədheybət xarici görünüşə malik idi və onun təsiri ilə çaydakı balıqlar canlı-canlı qaynayırdılar. Asaq, An və Kinin çiftləşməsindən doğulmuşdur. Asaq qaya və ya daş obrazında təcəssüm edirdi. Asaqın dağla çiftləşməsi nəticəsində onu döyüşlərdə müşaiyət edən ordusu qayalar-dağlar dünyaya gəlmişdir. Asaq haqqındakı mifdə Ninurtanın ona və dağlara məğlub olması Mesopotamiyanın düzənlik əhalisinin Zaqros dağlarında yaşayan boylar qarşısında keçirdiyi həyəcanı və qorxunu əks etdirir. Sumer poemasındakı ovsun yolu ilə hücum edərək insanlara baş qızdırması xəstəliyi olan asakku gətirən və onları öldürən yeddi başlı aslan-əjdaha obrazındakı Asaq iblisə tanrı Ninurtanın qalib gəlməsi hadisəsi təsvir olunur. (J.Black and A. Green, 1998, Səh. 36)

Asaqın türk mifologiyasında ekvivalenti olan Azaq türklərdə hiyləgərliyin, yolundan azmağın, çaşqınlığın, günahkarlığın, yalançılığın simgəsidir. (ДТС, 1969, Səh. 72)

Bu keyfiyyətlərinə görə türklərin Azaqı Sumerdə iblis, ofsun keyfiyyətinə malik olan, insanları yolundan azdırıb, çaşdıran, yanlış yola sövq edən Asaqı ilə eyniyyət təşkil edir.

*Ea* və ya *Ae* Ay və su tanrısının Sumer dilində mənası Su evi deməkdir. Çünki Sumercə A-su anlamı daşıdığı kimi, E-ev deməkdir. Ea sözünün düzgün oxunuşu *AE* şəklindədir və xatti və digər xalqlar onu Ay şəklində ifadə edirlər. Samilərə və ərəblərə bu ad "hyya" formasında keçmişdir və tərcüməsi "həyat" deməkdir. (P. Espak. 2006, Səh. 33)

Türklərdə Ay planetinin adı Sumerlərin bu Ea/Ae tanrısının adından götürülmüşdür. Ea Enkinin titullarından biridir.

Hommelin yazdığına görə Sumer-akkadların İştara həsr olunmuş himnində Tur-kulumnu tanrısına həsr olunmuş məbəd haqqında bəhs olunur. Elamla sərhəddə İştara həsr olunmuş Tur-ilu Tanrı qalası adı ilə üç şəhər salınmışdı. (Hommel F. 1885, Səh. 225)

Turqu Sumer tanrısının adı, "ilu" isə Sumer-akkad dilində allah deməkdir.

Laqaşda aşkar edilmiş erkən sülalə dövrünə aid Sumer tanrılar siyahısında qida tanrısı Aşnan və Qantura-lu adlı tanrılara da bağışların verildiyi qeyd olunmuşdur. Qantura-lu Sumercə Qantura tanrısı və ya Qanturanın adamı deməkdir. (Andreas Johandi. 2019, səh. 28)



# XII FƏSİL. Mərkəzi Asiya xalqlarında və Türklərdə "Sumeru" əfsanəsi

Sumerlərin öz yurdları Mesopotamiyanı tərk edərək köçlərə məruz qalması ilə müxtəlif xalqların miflərinin sumer kökünə bağlılığı daha geniş xarakter almışdır. Orta Asiyadan başlayaraq Çin, Hindistan və Yaponiya da daxil olmaqla şərq xalqlarının dini inanclarında Göy və Yer tanrılarından və ya Yer üzünün Sumeru adlı göbəyində iki dağ formasında tərs piramida kimi qum saatına bənzər şəkildə bir-birinin üzərində duraraq bir-birinə bağlanan Göy və Yerdən bəhs edilir. (Z.Sithçin. 1993, Səh. 400)

Sumerin və onun xalqının etnik və coğrafi mənşə baxımından Mərkəzi Asiyaya və Turana bağlılığı bu ərazidəki xalqlara məxsus olan Sumeru əfsanəsində də öz təsdiqini tapır. Bu əfsanə yalnız Mərkəzi Asiyanın türk və digər turanlı xalqlarında mövcuddur.

Dağ kultu sumer mifologiyasında önəmli yer tutur. Sumer dilində *Kur* həm dağ, həm də ölkə anlamı daşıyırdı. Yaradılış əfsanəsində sumerlərin dağlıq bir ölkədən gəldikləri təsvir olunur. Dağ sözü sumer yazısında üç üçbucaq şəklində mixi işarəsi ilə ifadə olunurdu. Sumerlər dağı müqəddəs hesab edirdilər və anlamı "dağ evi" olan və müxtəlif tanrılara həsr olunan Ekur adlı məbədlərini dağ şəklində pilləli kiçik təpə kimi ucaldırdılar. Müqəddəs dağa sitayiş və onunla əlaqədar dağ kultu sumerlərdən digər xalqlara Sumer adının fonetik şəkli olan Sumeru formasında keçmişdir. Mərkəzi və Şərqi Asiyanın bir çox xalqlarının miflərində Sumeru dünyanın mərkəzi kimi təsəvvür olunan əzəmətli müqəddəs dağdır.

Hindistanın Buddizm və hinduizm dinlərinə görə müqəddəs dağ Sumeru dünyanın mərkəzidir. Cənnət bu dağın başında yerləşir. Hər iki dini etiqada görə Sumeru Hindistandan quzeydə şimal qütbü tərəfdə yerləşir. Hinduist mənbələrində böyük tufandan sonra yer üzünü su basdığı zaman Himalay dağlarının bir zirvəsi su üzərində qalmışdır ki, bu müqəddəs zirvə Sumeru adlanır. İskit/saklar öz dini inanclarına əsasən inanırdılar ki, bütün böyük çaylar Quzeydəki müqəddəs dağlardan axırlar. Heç şübhəsiz Sumeru əfsanəsini hind-arilər onlardan öncə bu ərazidə yaşamış turanlı tayfalardan əxz etmişlər.

Böyük türk mütəfəkkiri Ə.R.Biruni yazır ki, Dünyanın ən soyuq şimal tərəfində yerləşən Sumeru dağının dörd tərəfinin hər biri sarı, qırmızı və ağ rənglə qiymətli metal və daşlarından ibarətdir. Onun cənub tərəfi bizim dünyamıza tərəf baxır və göy rəngli yaxont-lacivərd daşından ibarət olduğu üçün səmamız da göy rəngdədir. Sumeru son dərəcə parlaq olub günəş kimi işıq saçır. Göyüzü krallığının hakimiyyət taxtı Sumerunun ən yüksək zirvəsində yerləşir. (Абу Райхан Бируни, 1995, Səh. 236)

Sumer mifologiyasında da, hakimiyyət kutu Aratta dağlarının arxasından əta olunurdu. Sumerlər inanırdılar ki, yeraltı dünyaya giriş Zaqros dağlarından şərqdə günəşin çıxdığı ərazidədir. Onların miflərinə görə yeraltı dünya-Kur tanrıların ziyarət etdikləri və hakimiyyət-kutu almaq istədikləri dağ Zaqrosdan şərq tərəfdədir. ( Jeremy Black and Anthony Green, 1998, Səh. 114)

Sumerlər Zaqrosu və ondan şərqdəki dağları Aratta adlandırırdılar. Buddizmdə Sumeru dağı dörd qiymətli maddədən ibarətdir, onun şərq tərəfi gümüş, cənub tərəfi lazurit, qərb tərəfi yaxonta, şimal tərəfi qızıldan ibarətdir. Sumer dağı və ölkəsi tanrıların məkanıdır. Sumeru kainatın mərkəzidir. Günəş, ay, ulduzlar onun ətrafında fırlanırlar.

Buddizm və hinduizmdə Sumeru Himalay dağları və onun Kaylas zirvəsi ilə eyniləşdirilsə də, dini əfsanələrdə bu dağın daha şimalda, soyuq ərazidə Buzlu okean tərəfdə yerləşdiyi qeyd olunur.

Bu quzey dağları heç şübhəsiz Qərbi Sibirdən başlayıb Sakit okeana qədər davam edən, Altay və Sayan dağ silsilələrini də əhatə edən 4500 km uzunluğa malik Cənubi Sibir dağ silsiləsidir.

Yenisey, Ob, Lena, İrtış, Anqara, Katun və s. kimi böyük çaylar öz mənbələrini bu dağlardan alırlar. Altay dağlarının ən uca zirvəsi müqəddəs "Üç Sumer" adlanır. Sibir türklərinin kosmoloji təsəvvürlərinə görə Böyük tufan nəticəsində yer üzünü su basarkən Üç Sumer dağı tufandan xilas olan ilk insanın, yəni Alıbın məskunlaşdığı məkan olmuşdur.

Burda Alıb adı türklərin eponimlərindən biri olan Alp adı ilə assosiasiya yaradır. Yuxarıda bəhs etdiyimiz kimi Alp öntürklərin də mənsub olduqları Alp irqinin yaradıcısıdır. Alp və ya Alup sumer-akkad dilində öküz deməkdir.

Altay türklərinin dini inanclarına görə onların baş tanrısı Altay dağlarının *ezisi* Altayın bu müqəddəs *Üç Sumer* zirvəsində yaşayır. Burda *Eezi* adı sumerlərdə ruhani ata və şəhər idarəçiləri hesab olunan *Ensi* ilə ekvivalent təşkil edir.

Umay Ene və ya Humay Ana türklərin ali qadınsal tanrısı olub dünyanın ilkin qadın başlanğıcını, ana bətnini təmsil edir. Umay anaların və uşaqların himayədarıdır. Türklərin dini etiqadına görə Umayın məkanı Üç Sumer dağıdır.

Türklərin qədim tenqriçilik inanc sistemində Tenqri göyüzünün ali tanrısı olub, dünyanın ilkin kişi başlanğıcını təmsil edir. Göy Tenqri ata tanrıdır, o bitkilərin, heyvanların və göy gurultusunun yaradıcısıdır. Türk inanc sistemində Tenqri dünyanı ali yaradıcı tanrısı və göyüzünün simvoludur.

Sibir türklərinin dini inanclarında Altay dağı nəhəng Avrasiya materikinin ən yüksək mərkəzi və kəsişmə zirvəsi, dünyanın dörd okeanından bərabər məsafədə yerləşən göbəyi adlandırılır. Altayın Üç Sumerusu adlanan Sumeru kainatın mərkəzidir.

Altay dağları ən qədim dövrlərdən etibarən türklərin mifoloji təsəvvürlərində sakral məkan olmuşdur. D.Q.Savinov Altayı Yama xaqanın dövlətinin ərazisi hesab edir. II əsr Misir tarixçisi Ptolomey Altayın İmay dağı adlandığını və Skifiyanın orda yerləşdiyini yazır. Avropanın XVII əsr xəritələrində də, Altay "Altai, İmaus, mons Scythiae", yəni tanrı Yamanın evi adlandırılır. Avropalıların İmaus adlandırdıqları Yama sanskrit ədəbiyyatda yeraltı və ölülər dünyasının allahıdır. Yama Türklərin tanrısı Erlikin prototipidir, Erlik isə Sumer tanrısı Enkinin ekvivalentidir.

Altay türklərinin təsəvvüründə Altay dağlarının sahibi, həmin dağın müqəddəs ruhu, ağ libas geyinmiş qoca kişi obrazında təsvir olunan Ezinin məskəni Üç Sumer dağıdır. Altayın Ezisinə sitayiş əlaməti olaraq dağ keçidlərində qaya və ya ağaclara "kıyra buular" adlanan qədim ayinlə əlaqədar rəngli lentlər bağlanır. Altaylılar inanırlar ki, Böyük tufan zamanı dünyanı su basanda bəşəriyyətin Sal üzərindəki əcdadları Katun çayının sahilində yerləşən Adıqan dağına yan almış və orda məskunlaşaraq sonradan yer üzərinə yayılmışlar. Potanin altaylıların bu yaradılış əfsanəsini tatarların qədim salnamələrində cənnətin yerləşdiyi İtıqan dağı və Otxan Tenqri dağı əfsanəsi ilə əlaqələndirir. (Г.Н.Потанин. Т. 1, 1881. Səh. I-X)

Altaylı kamların təsəvvürünə görə Adıqan dağının ruhu ətrafdakı vadilərdə yaşayan insanları himayə edirdi. Ona görə də kam-şamanlar Adıqa dağının ruhuna at qurban kəsirdilər.

Altaylı türklərin qədim dini təsəvvürlərinə görə Üç Suyre və ya Üç Sumer tanrıların məkanıdır. Qədim türk dilində *Suyra* sivri demək olub şiş kimi uca zirvə deməkdir. (ДТС, 1969, Səh. 513)

Qədim türklər, monqollar və tibetlilər Sumer sözünü müqəddəs dağ kimi izah edirlər.

Üç Sumer üç dağ zirvəsindən ibarətdir. Bu dağın zirvəsi gedər-gəlməzdir, çünki ora yeraltı dünyanın qapısıdır. Dağın zirvəsində yaşayan müqəddəs Yaman Quş əjdahaya qalib gəlmişdir.

Göy Tenqriyə etiqad edən qədim türklər Üç Sumerin göylərə yüksələn zirvəsinin əzəmətindən vəcdə gələrək Altaya və Üç Sumer dağına sitayiş edirdilər. Bu dağın ətrafında ov etmirdilər, tanrıları və dağın ruhunu narahat etməmək üçün hündürdən danışmırdılar.

Vətən həsrəti və ya özləm bir türk xəstəliyidir. Vətəndən uzaq yerlərə köçmək məcburiyyətində olan Türklər bütün həyatları boyu bu həsrəti öz içlərində yaşatmışlar. Bu həsrətin ən böyük simvolu isə dağlara qarşı özləm hissi olmuşdur. Dağların gözəlliyindən və əzəmətindən heyrətlənən və vəcdə gələn türklər ona qarşı həsrət hissi yaşayır və çöllərdəki öz məzarlarını dağların simvolik timsalı olan təpə-kurqanlar şəklində qururdular. Türklərin çadırları da dağ formasında konusvari və dairəvi olurdu.

Türklər qədər dağlara qarşı heyranlıq və özləm hissi yaşayan digər bir xalq

mənşə etibarı ilə ön türklər olan sumerlərdir. Sumerlər dağlıq ölkədən ibarət olan öz ilkin vətənləri haqqındakı xatiratlarını öz miflərində, təsviri sənət və dastanlarında əbədi xatirə kimi yaşatmışlar. Onlar öz ibadətgahlarını dağa bənzədərək pilləli təpə şəklində qurur və onu Ekur "dağ evi" adlandırırdılar. Sumer yazısısında Kur sözü həm dağ, həm də vətən və ölkə anlamı daşıyırdı. Sumer yaradılış əfsanəsində dağların yaranması haqqında mifik hekayətlər mövcuddur. Əfsanəyə görə ana tanrıça Annu sudan ucları konusvari şəkildə bir-birinə birləşmiş dağ çıxardır. Oğlu hava tanrısı Enlil bu dağı iki hissəyə ayırır, dağın üstü göyüzü, altı yerüzü olur. Enlilin bir titulu da "Böyük dağ"dır. Əfsanədən də göründüyü kimi yer üzü ilk öncə bir dağ şəklində yaradılmışdır.



# XIII FƏSİL. Öküz kultu və Oğuz adının Sumer kökləri

İstər Azərbaycan türklərinin, istərsə də digər türk xalqlarının miflərində, əfsanə və dastanlarında öküzün ulu əcdad və totem rolu haqqında müxtəlif versiyalar öz əksini tapmışdır.

Türkologiya elmində Oğuz adının etimologiyası haqqında bir çox mülahizələr irəli sürülmüşdür. İlk öncə bir şəxs adı olaraq tarixi qaynaqlarda və əfsanələrdə öz əksini tapan Oğuz kəliməsi sonradan türklərin bir boy adı olaraq öz təsdiqini tapmışdır. Oğuz onomin-şəxs adı və etnonim kimi kökündə öküz sözünün durduğu haqqında bir çox mülahizələr də mövcuddur.

Görkəmli türkoloq Ə.B.Ercilasun Oğuz adının etimalogiyasına həsr etdiyi məqaləsində Öğuz-Oqur-uyğur etnoniminin geniş etimoloji təhlilini vermişdir. Ercilasun Oğuz adının kök etibarı ilə öküz kəliməsinə bağlılığı ilə əlaqədar Bazinin fikirlərini dəstəkləyərək yazır "Mən də dastan qəhrəmanının adı olaraq Oğuzun öküz ilə bir ve eyni olduğunu düşünürəm". (Ahmet Bican Ercilasun, 2015, Səh. 16)

Ə.Ərcilasun Oğuz adının kök etibarı ilə öküz adına bağlılığı haqqında Luis Bazin və Denis Sinorun ondan daha öncə irəli sürdükləri fikirləri dəstəkləyir. Ərcilasunun gəldiyi nəticəyə görə "Qəbilə anlamına gələn və sonradan bir türk boyunun adı olan Oğuz ilə dastan qəhrəmanı Oğuz fərqli kəlmələrdir. Qəbilə anlamındakı Oğuz adının kökü, "oklar", "boylar" anlamındakı *ok-uz*-dan gəlir. Dastan qəhrəmanı Oğuz adı isə öküz kəlməsi ilə eynidir". (A.B.Ercilesun. 2015, Səh. 19)

Rus-sovet türkoloqu S.P.Tolstov da Oğuz adının öküz anlamı daşıdığını yazır. (Толстов С. П. 1947. №3, Səh. 80. )

Ərcilasunun fikrinə görə dastan qəhrəmanının adı olan Öküz sonrakı zaman kəsiyində transformasiyaya uğrayaraq Oğuz boy adı ilə eyniyyət qazanmışdır.

Oğuz adının etimologiyası haqqında mülahizələr irəli sürən araşdırıcıların nəzərindən bu adın sumer mifogligiyası ilə əlaqəsi ehtimalı diqqətdən kənar qalmışdır.

Fikrimizə görə istər dastan qəhrəmanı Oğuz olsun, istərsə də boy adı olaraq Oğuz etnonomi olsun, hər ikisi də kök etibarı ilə sumerlərlə və Ön Asiyanın qədim turanlı xalqları ilə əlaqədardır.

Sumer dilində öküz adı iki müxtəlif ideoqramda "*Qu, Qud, Ud*" və həmçinin bala öküz "*Tur-Qu*" şəklində ifadə olunmuşdur. (Halloran J. 1999, Səh. 45)

Sumer dilində *Tur* sözü bir çox mənalarla yanaşı oğul, kiçik, balaca, bala həm insana, həm də heyvanlara aid termin kimi istifadə olunur. Sumer mifologiyasında tanrı Tur günəş tanrısı Utunun öküzü adlanır.

İlk olaraq sumer dilində öküzü ifadə edən Tur və Qu/Qud və Ud adları dünyanın bir çox dillərinə keçərək vətəndaşlıq qazanmışdır. Bir çox türk dillərində də öküz adı tur şəklində ifadə olunur. Turlar haqqında əfsanə Avestaya və ordan da iran əfsanələrinə Sumer dilindən keçmişdir. Yuxarıdakı bölümlərdə qeyd etdiyimiz kimi Sumerin baş tanrısı Anu göyüzü tanrısı olub öküz obrazında təsvir olunurdu, simvolu öküz idi və başında öküz buynuzu olmaqla təsvir olunurdu və titulu "ürətən öküz" idi. Daha doğrusu "ürətən öküz" adlanan Anu bütün varlığın və o cümlədən də insanların yaradıcısı idi. Oppert və Lenorman da qeyd edirdilər ki, türklərin ulu əcdadı olan Tur adının mənası "oğul" deməkdir, ancaq bu sıradan bir oğul yox, Tanrının oğludur. "Ürətən öküz" titulu daşıyan Anunun mixi ideoqramı Dinqir, yəni Tenqri şəklində yazılırdı. Tenqri Anın sumer dilində "tur" adlanan hər iki oğlu öküz obrazında təcəssüm və təsvir olunurlar, Enlil "vəhşi öküz", Enki isə "öküz oğlu öküz" ünvanları daşıyırdılar. Bu baxımdan Tur və turlar dedikdə "ürətən öküz" adlanan Tenqri Anın öküz ünvanı daşıyan oğlanları və onların törəmələri nəzərdə tutulurdu.

Avestada turlar haqqındakı əfsanə və digər iran əfsanə və eposlarında türklərin əcdad eponimi və Turanın ilk hökmdarı kimi təqdim edilən Tur mənşə etibarı ilə Sumer mifologiyasına bağlıdır və Tanrı Anın oğlanları ilə əlaqədardır. Tur sözü tək halda oğul sözünü ifadə etdiyi kimi, Turan da "turlar", yəni cəm halda oğullar sözünü ifadə edir.

Ön Asiyanın turanlı xalqlarının mifoloji təsəvvürlərini özündə əks etdirən Avestada Mitra günəş tanrısının istəyi və onun şərəfinə öküzü öldürərək qurban verir və öküzün qanından təbiət canlıları toxumundan isə insanlar yaranır. Öküz ilkin atanı, kişi gücünü, ürəmə, döl və məhsuldarlığı, fiziki gücü və hakimiyyəti təcəssüm etdirir. Türklərin Avestada və İran əfsanə və eposlarında mifik əcdad eponimi Tur adlanır. Tur sözünün kökü Sumerlərə bağlıdır və oğul anlamı daşımaqla yanaşı bala öküz, gənc öküz kimi mənalar da daşımaqdadır.

Bir çox türk xalqlarında, o cümlədən Qırğız və saqay türklərinin dilində "Tur" sözü həm doğmaq, həm də dana, gənc öküz anlamı daşıyır. (В.В.Радлов, 1998, Səh. 594, 725)

Beləliklə, kökünü qədim turanlı öntürklərin əfsanələrinin təşkil etdiyi Avestada turların insanların ilkin başlanğıcı, atası olan öküzdən törəndiyi haqqında rəvayətlər öz əksini tapmışdır.

Oğuz xaqan dastanın uyğur versiyasında yazılmışdır ki, Oğuzun anası Ay xandır, Ayın və Öküzün izdavacından doğulan Oğuzun ayağı öküz ayağı kimi, beli qurd beli kimi, kürəyi samur kürəyi kimi, sinəsi ayı sinəsi kimi idi. Doğuşdan bədəninin malik olduğu qeyri adi əlamətlərə və bənzərliyinə görə də Oğuz adı öküz adı ilə eyniləşdirilir. Öküzlə Ay xaqanın evlənmə hekayətinin başında mavi rəngli bir öküz təsviri verilmişdir. Bu öküz təsviri heç şübhəsiz Oğuz xaqanın atasının



təsviridir. Denis Sinor da bu öküz-buğa təsvirinin Oğuzun atasına aid ola biləcəyi fikrini irəli sürür. (Denis Sinor, 2012)

Oğuzun atasının mavi rəngli öküz təsviri onun tanrısal mahiyyəti daşıdığına işarədir. Sumer göyüzü tanrısı An başında buynuzlarla öküz surətində təsvir olunur və titulu "ürətən öküz" idi. Mavi rəng göyüzünü və onu təmsil edən Tenqrinin rəngidir. Dastan qəhrəmanı Oğuz da öküz obrazında təcəssüm olunan Tenqrinin oğludur və doğuşdan atasının əlamətlərini daşıyır.

Öküzün Oğuz xaqanla eyniləşdirilməsi və əcdad kultu mahiyyəti qazanması nəticəsində öküz obrazı bir çox türk boylarının toteminə çevrilmişdir. Öküz və ya buğa qırğız türklərinin də ulu əcdadı və onqonudur.

Aristov yazır ki, oğuz boy adı və Oğuz xan haqqındakı əfsanə qədim türklərin öküz kultu ilə əlaqədardır. Qədimlərdə müxtəlif heyvanlar müqəddəsləşdirilərək türk boylarının onqonlarına çevrilmişdilər. Oğuzların 24 boyundan hər birinin onqonunu bir heyvandan ibarət idi. (Аристов Н.А., 2003, Səh. 187)

Oğuz xan bəzən Adam və bəzən də Nuhla eyniləşdirilən ilk fars hökmdarı Kayumərsin müasiridir. (Julius Klaporot, 1823, Səh. 5)

X əsrdə Qaraqum, Qızılqum və Aral gölü hövzəsindən başlayaraq Xəzərlərin ölkəsinə qədər uzanan böyük çöllük Dəşti Oğuz adlanırdı.

Herodotun yazdığına görə İskit/Sakların atası öküz surətində Tarqitaydır. O Sumerlərin öküz şəklində təcəssüm olan tanrısı Enlil ilə eynilik təşkil edir. Tarqitay adının sibir türklərinin dilində öküz anlamı daşıyan *tur* və ya *tor* sözü ilə əlaqədar ola bilər. (Fizuli Bayat, 2004, Səh. 5)

Fikrimizə görə Tarqitay adının kökünü sumerlərin Turqu sözü təşkil edir və anlamı öküz oğlu deməkdir bu ad öküzü özlərinin əcdadı hesab edən sakların eponiminə çevrilmişdir. Adın sonundakı "tay" sonluğu isə türk dilində ölkə və yer mənasındadır.

Kişin sülalə xronikasında Ukusi Nuhla eyniləşdirilir. Sumer mifologiyasında *Ukusi* Sumerin ilk insanı Adamın prototipi idi. Vaddel Ukusu sumerlərin Nuhu hesab edirdi. Prof. Hallo isə Sumerin kralı Luqal saqqazinin atası, Umma şəhər dövlətinin kralı Ukusu sumerin Nuhu hesab edirdi. (Ross Marshall. 2008, Səh. 8)

Oğuz xaqan dastanının uyğur versiyasında Ay xanın oğlu Alp Oğuzun onqonlarından biri göy rəngdə qotaz şəklindəki quyruğunu yuxarı qaldırmış bir Qutur öküzdür. Oğuz xanın oğullarının ölkəsi olan Qara dağda (Qaraçuk) daşlar üzərində çoxlu öküz təsvirləri aşkar edilmişdir. Araşdırıcılar Noyon ulada Hsiunq-nu hökmdarlarına məxsus məzarlardakı öküz təsvirlərini və Batı Oğuz ərazisində aşkar edilən çoxsaylı Qutur/öküz təsviri olan lövhələri Oğuz dastanı ilə əlaqələndirirlər. (Emel Esin, 1985, Səh. 129)

Sumerlərə aid mixi yazılı mətnlərdə və əfsanələrdə öküz kultu ilə əlaqədar hadisələr əks olunmuşdur. Bu mətnlərdə öküz adı sumer dilinə məxsus dialektlərdə

və akkad dilində fərqli şəkildə yazılır və ifadə olunur.

Ön Asiyanın bir çox turani dillərində öküz Qut sözü ilə ifadə olunur. Zaqros dağlarında məskunlaşmış turanlı xalq da Qut adlanır. Alman əsilli yəhudi sumeroloq B.Landsberqer Qut adının əslində Quz olduğu fikrini irəli sürür. Yəni kökü Sumercə öküz anlamı daşıyan *Qud* sözü *d-z* əvəzlənməsi ilə Quz şəklini almışdır. Sumer dilində öküz anlamında olan *Qud* sözü akkad dilində *Kus/Quz* şəklində eyni mənalı sinonim söz olaraq ifadə olunur. (Landsberger B. 1934, Səh. 94)

Misir sivilizasiyasının sumer mənşəli olduğu fikrini irəli sürən İngilis assuroloqu Vaddelin yazdığına görə Ukus birinci sumer sülaləsinin ilk kralıdır. Akkad kralı Sarqonun da adı misir kitabələrində Ukus adlanır. (Waddel L. Egiptian Civilization: its Sumerian origin, Səh. 204)

Amerikan assuroloqu Vilyam Simpsonun yazdığına görə Sumerin ilk kralı tufana qədərki dövrdə Erudu şəhərinin kralı olub öküz və ya erkək maral obrazında təmsil olunan Alu-lim adlanır. Alu-limin digər bir mixi işarə oxunuşu Ukus şəklindədir. Yarım əfsanəvi hökmdar olan Alu-limin hakimiyyəti Cəmdət-Nəsr dövrünə aid olub, e.q. XXX əsrə aid edilir. İlahi mənşəyə malik Alu-limin hakimiyyətindən sonra İkiçayarasının sel suları altında qərq edən tufan baş vermişdir. Əfsanəyə görə Alu-lim 28800 il hökm sürmüşdür. (Hall William; William Kelli Simpson, 1971, Səh. 32)

Sumerin hökmdarlar siyahısına görə hakimiyyət tanrı tərəfindən göyüzündən əta olduqdan sonra sumer dilində *Quza* adlanan hakimiyyət taxtı ilk olaraq Eridu şəhər dövlətinə verilmiş və hökmdarlıq taxtının ilk sahibi 28800 il hökm sürmüş Alu-lim, yəni Ukuz-Oğuz olmuşdur. Kralın hakimiyyət rəmzi lazurit-lapisdən hazırlanmış əsa idi ki, o da göydən yendirilirdi. *Alu* göyüzü tanrısı Anın öz qızı İnannanın istəyi ilə yaratdığı səma öküzü idi.

Assurlar səma öküzünü öz dillərində Qud-anna tanrısı adlandırırdılar. Sumer dilindən alınma bu söz sonradan transformasiyaya uğrayaraq Quzan şəklini almış ola bilər.

Azərbaycanın istər quzeyi, istərsə də güneyində çoxsaylı Quzan yer adları mövcuddur ki, bu toponimlər qədim quz boyları ilə əlaqədardır.

Sumer dilində hökmdar taxtı anlamı daşıyan *Quza* sözü *İş-qu-za* loqoqramı ilə yazılırdı. (Leander P. Die Sumerischen Lehnwörter im Assyrischen. Səh. 23)

Göründüyü kimi Sumerin ilk kralı Ukus ilə Öküz adı maraqlı assosiasiya yaradır və Oquz adı ilə bənzərlik təşkil edir. Ukus sözünün kökü Qus və ya Quz kəliməsindən ibarətdir. *U* Sumer dilində çoxlu mənalara malikdir, onlardan biri güclü, qüdrətli, erkək, eyni zamanda daha spesifik bir məna əldə etmək üçün bəzər isimlərin əvvəlinə əlavə edilən pronominal bir önəkdir. (Halloran, Səh. 4)

Sumer tanrılar panteonunda *Kusu* adlı tanrı yeraltı dünyanın tanrısı Enmeşarır oğlanlarından biri idi. Kusu öküz anlamı daşıyan *Mın. Qud* loqoqramının oxunuş



şəklidir və mənası öküz demək olub Kusu kimi yazılır və tələffüz edilirdi. Qud və Kusu eyni adın fərqli Sumer dialektlərində ifadə şəkli idi və mənası "tanrısal öküz" deməkdir. Kusu kimi tələffüz olunan öküz Qud "ilahi mənşəyə malik" öküz və heyvandarlıq tanrısıdır. (Frank Simons, 2018, Səh. 123-148. )

Ukus (m.ö. 2350) Sumerin Umma şəhər dövlətinin hökmdarı-ensisi idi. Ukus Urukun və bütün Sumerin hökmdarı məhşur Luqal-Zaqesinin atası idi. (Leonard King, A History of Sumer. Səh. 188)

Beləliklə, *U* önəkini öküz mənasında olan Quz və ya Kuz sözünün önünə artırılmaqla o Ukuz, yəni türk dillərində oquz/uquz/öküz fonetik şəklini almışdır.

İlkin orta əsr ərəb tarixçiləri İbn Əl-Əsir, Əl Bəlxi, İstəxri, İbn Balazuri, İbn Havkal ənənəvi olaraq Oğuzları əl-quz, ölkələrini isə əl Quziyyə, yəni quzlar ölkəsi adlandırırlar. Min illər ərzində Ön Asiyada turanlı qut/quz, kas/kus (kassi) xalqları ilə qonşuluqda və iç-içə yaşayan sami ərəblər turanlı öntürkləri onların qədim adları ilə Quz kimi tanımışdılar. Onlara tarixən məlum olan bir dildə danışan bu xalqlarla dünyanın müxtəlif yerlərində istər Sibirin güneyində, Volqaboyunda, istərsə Türkistanda qarşılaşan ərəblər qədim ənənəyə uyğun olaraq onları oquz deyil, quz adlandırmışdılar.

Samilər quti və kassilərin məskunlaşdıqları Dəclə çayından şərqə Zaqros dağlarına qədərki əraziləri Quzan, yəni quzların ölkəsi adlandırırdılar.

Mesopotamiyada Türk dilində öküz adının sinonimi olan Buğa şəxs adı kimi geniş yayılmışdı. Öküz adının digər bir qarşılığı da türk dillərində buğa, buqa, buka şəklində yazılır.

Assur mətnlərindəki coğrafi adlarda Subir adlı çay "id uz subir ki" kimi qeyd olunmuşdur. Mətnlərdə çay adlarından aydın olur ki, "uz" sözü Sumer-akkad dilində axın və çay mənasındadır. (Ungnad A. 1936, Səh. 61)

Sumerlərdə çay anlamı daşıyan *Uz* sözü eyni ilə çay mənasında Qızıluzən, Uzboy kimi türk hidronimlərində qorunub saxlanmışdır. Makedoniyalı İsgəndərin dövründə yunanlar Amudərya çayının Öküz şəklində ifadə olunan adını Oksus adlandırırdılar.

Mahmud Kaşğarinin "Divani Lüğat-it Türk" əsərində *öküz* sözünün heyvan mənasındakı anlamı ilə yanaşı çay-irmaq mənası daşıdığı da yazılmışdır. O *Öküzün* Ceyhun və Fərat kimi çaylara verilən ad olduğunu yazır. Kaşğari oğuzları Yafinc və İla çayları vadilərində yaşadıqlarını və bu çayların arasında İki Öküz adlı bir şəhərin də mövcud olduğunu yazır. (Mahmud Kaşğari. 2006, C 1, Səh. 129-17)

Vamberi yazır ki, öküz/öqüz türk dilində çay mənasındadır. Şeybanilər dövründə də Okus çayı Öqüz adlanırdı. Makedoniyalı İsgəndərin dövründə Öküz çay adı Oksuz (Oxsus) şəklində yunan dilinə keçmişdir. (Wamberi H. 1898, Səh. 106)

Müasir sumeroloq Daniel Patterson Ukus sözünün fərqli bir anlam haqqında yazır ki, Aqa – Sumer dilində üstün olan, tacın ardıcılı, varis deməkdir. Aqa-us

qvardiyaçı əsgər, tacı mühafizə edən anlamındadır. Aqa-us daha qədim Sumer mixi mətnlərində Uku-us şəklində ifadə olunmuşdur. (Daniel Patterson, 2018, Səh. 308)

Uk Sumer dilində çox mənalı sözdür. Bu söz həmçinin insan, xalq, əhali, kütlə deməkdir. Bir çox assuroloq bilim adamı, o cümlədən Dyakonov Sumer dilində *Uz* sözünün çay anlamı daşıdığını qeyd edirlər, belə olan surətdə Uk-uz Sumer dilində çay insanları, çay xalqı anlamı daşıyır. Sumerin ilk hökmdarının adı qədim mixi işarəsi ilə *Ukuz* adlanmışdır. Bütün bunlardan belə qənaətə gəlmək olur ki, Oğuz adı kök etibarı ilə sumerlərə bağlıdır. Uzbek adı da bu mənada Uz, yəni çay xalqının və insanlarının ağası, hökmdarı demək olur. Amudərya çayının qədim dövrlərdə Xəzər dənizinə töküldüyü qolu Uzboy adlanırdı və bu gün də Amudəryanın qollarından biri Uzboy adlanmaqdadır.

Bütün bu şərhlər Sumer dilində Ukuz adının çay xalqı anlamı daşıya biləcəyi fikrini doğurur. Sumer dilində *uq* əhali və xalq anlamı daşıyır, *uz* çay deməkdir. Sumerlər Dəclə və Fərat çayları arası vadilərdə yaşadıqlarından mümkündür ki, onları həmçinin çay əhalisi və ya xalqı mənasında Ukuz adlandırırdılar. Bütün qədim mənbələrdə türklərin Oğuz boyunun Amudərya, Sırdərya, Uzboy və digər çayların vadilərində məskunlaşdıqları qeyd olunmuşdur. Türklərlə əlaqədar iki tərkibdən ibarət olan Oquz adındakı *oq* sözünü araşdırıcıların əksəriyyəti qəbilə/boy anlamında izah edirlər *uz* isə çay və su mənasındadır. Türk dilində də Sumer dilində olduğu kimi Oquz sözü su və ya çay xalqı anlamı daşıyır. Türklərdə *oq* kəlməsi sumerlərin *uq* sözü ilə eyni məna daşıyıb onun dəyişik fonetik variantıdır.

Sumerlərin böyük-əzəmətli su tanrısı Enki Sumeri yaradan üç ali tanrıdan biri və eyni zamanda Dəclə və Fərat çaylarının yaradıcısı idi. Onun adı "Yerin ağası-hökmdarı və şirin su Apsu ilə əlaqədar idi. Bəzi mətnlərdə, o cümlədən İşmə-Daqana aid mətndə Enki Abzunun böyük öküzü, digər bir mətndə isə Eridunun vəhşi öküzü adlanır. Enki ilə əlaqələndirilən Öküzün məhsuldarlıq-doğurğanlıq keyfiyyəti ilə əlaqədar "Enki və dünya düzəni" mifoloji mətnində deyilir ki, Enki öz nəzərlərini Sumer üçün böyük əhəmiyyətə malik ikiçayın yerləşdiyi əraziyə yönəldir. Enki qızğın öküz kimi şəhvətlə ayağa qalxdı, penisini qaldırdı, öncə Fərata sonra Dəcləyə mayasını boşaltdı və Dəcləni axan çeşmə suyu ilə doldurdu. Dəclə vəhşi öküzün bu doğurmasından ürəkdən sevindi. Dəclə bundan sonra əqrəb sancdıqdan sonra balaları ilə birlikdə yabanı otlaqda qaçan vəhşi inək kimi düzənliyə daldı. Dəclə doğdu, şərab kimi dadlı axan su ilə doldu. Su bərəkət gətirdi insanların yeyəcəyi arpa, taxıl cücərdi.

Sumer yaradılış əfsanəsində öküz obrazında təcəssüm olunan və "öküz oğlu öküz" adlanan başında öküz buynuzu ilə təsvir olunan Enki həyatın və yaradılışın ilkin mənbəyini təşkil edən Fərat və Dəclə çaylarının yaradıcısı və su tanrısıdır. Bu iki çay Öküz timsalındakı Enkinin mayasından yaranmışdır. Ona görə də çayı onu yaradan öküz obrazındakı və "öküz oğlu öküz" adı daşıyan Enkinin Öküz adı ilə eyniləşdirilmişdir.



Sumer mifologiyasında göy üzünün tanrısı və bütün tanrıların atası və babası An yağışın mənbəyi kimi məhsuldarlığa səbəb olub "ürətən öküz" adlanırdı. Anın oğlu Enki də "dünya düzəni" mətnində "öküzdən törəmiş öküz" adlanırdı. (Renate Marian Van Dijk-Combes. 2018, Səh. 11)

## Oğuz xaqan və Qopadşah əfsanəsi

Amudərya (Okus) çayı sahilində aşkar edilən və adı "Okus xəzinəsi" kimi məhşur olan e.q. V-III əsrlərə aid qızıl və gümüşdən ibarət 170 qiymətli və nadir artefaktın içərisində bir möhür-üzük öz qeyri adiliyi ilə diqqəti xüsusi olaraq cəlb edir. Üzüyün möhür formasında olan üz hissəsində taxt üzərində oturmuş insan başlı qanadlı öküz təsviri vardır. Həmin təsvirin yanında isə arami əlifbası ilə "Okso" sözü həkk olunmuşdur.

Bir çox müəlliflər həmin təsviri iran mifləri ilə və Qopadşahla əlaqələndirirlər. Heç şübhəsiz ki, Okso öküz adının fonetik şəkli olmaqla bərabər Qopadşah da Oğuz xaqanla əlaqədar mifoloji obrazdır.

Türkistanda və Mərkəzi Asiyanın türklərə aid digər ərazilərində tapılan müxtəlif əşyalar üzərindəki öküz-adam təsvirini iranşünaslar İran əfsanələrinə bağlayaraq Qopatşah adlandırırlar. Buna əsas kimi də Parf dövrünün pəhləvi dilində yazılmış VI əsrə aid "Menoq-i Xrad" adlı mənbəyə istinad edirlər. Orda yazılmışdır ki, "Qopatşah Eranvecdə Hvaniraz vilayətindədir. O ayağından bədəninin ortasına qədər öküz, ortadan yuxarı bədəni adamdır. Və o həmişə dənizin sahilində oturur. Müqəddəs canlılara dua mərasimini yerinə yetirir və müqəddəs suyu dənizə axıdır. Bu müqəddəs suyun tökülməsi nəticəsində dənizdəki saysız hesabsız zərərli canlılar öləcəklər". (West E.W. 1885. Səh. 111)

Mətndən göründüyü kimi Qopadşah çayın sahibi və ya ağası obrazında təsvir olunur və çay suyunu dənizə axıdan odur. Arxeoloji qazıntılar zamanı üzərində hökmdar və öküz-adam təsviri olan çoxsayda yaşma daşından hazırlanmş çox sayda lövhələr və üzük möhürlər aşkar edilmişdir. Öküz-adam ayaqlarını önə uzadıb, başını qürurla yuxarı qaldıraraq oturmuş və ya ayaq üstündə təsvir olunurlar. Yada\yaşma daşından hazırlanmış, üzərində saqqallı öküz adam təsviri olan və Daşkənd muzeyində saxlanılan möhür üzüyü arxeoloqlar m.ö. V-IV əsrlərə aid edirlər. Üzərində öküz-adam təsviri olan yaşma daşından hazırlanmış bu artefaktların əksəriyyətinin tarixi miladdan öncəki dövrlərə aiddir.

Justin İran adlarına həsr olunmuş kitabında Qopadşahı tarixi şəxsiyyət kimi qəbul edir və Qopadşah adının Əfrasiyabın qardaşı Aqrirəzin ləqəbi olduğunu və onun ölkəsinin Çinlə Türkistan arasında yerləşən Saokavastanın hökmdarı oldu-

ğunu yazır. Tarixən Saokavastanın Saklar ölkəsi olduğu məlumdur. (Justi F. 1895, Səh. 117)

Lakin Sakların tarixən məlum olan ölkəsi Sakaşen Azərbaycanda yerləşirdi və burda iki mühüm şəhər Qanzak və Şabran sakların paytaxtları kimi adları tarixi ədəbiyyatda qeyd olunmuşdur. Əfrasiyabın qardaşı Atağızlı Aruz qoca sakların hökmdarı idi və paytaxtı da dəniz sahilində yerləşən Şabran şəhəri idi. Aruz adı Əğrirəz/Aqrirez adının dəyişik fonetik formasıdır. Kassi dilinin müasir görkəmli araşdırıcılarından olan Arnaud Fournet kassi və hurri dillərində *Aq-ri-ri-as* sözünün anlamının "ölkəni yönəldən, başçı, rəhbər" olduğunu yazır. Kassi və hurri dilinin hər ikisində *Aq* və Aqu rəhbərlik etmək deməkdir. (Bu söz türk dilinə *Aqa* şəklində keçmişdir). Bu sözdən kassilərin hakimiyyət sülaləsi Aqum yaranmışdır ki, mənası Ağam, rəhbərim deməkdir. (Arnoud Fournet, 2011, Səh. 6)

Soqda əfsanələrində bəhs olunan öküz surətindəki su tanrısı Qopadşah, soyları Əfrasiyaba bağlanan Göytürklərin Soqdadakı hakimiyyət sülaləsini təmsil edirdi. Soqdiananın paytaxtı Buxara adının buğa adından yarandığı da ehtimal edilməkdədir. Qopatşah əfsanəsinin türklərə aid olduğu yəqindir. Türklərin qədim vətəni olan Baykal yaxınlığında da üzərində Qopadşahın, yəni öküz adamın təsviri olan bir möhür də tapılmışdır. (Emel Esin, 1985, Səh. 130)

Alman iranşünası Humbax Qopadşahla əlaqədar hadisələrin baş verdiyi Eranvezin (Arya veyca) Azərbaycanda olduğu fikrini irəli sürür, Denkar isə onu ümumiyyətlə qeyri İran ərazilərində baş verdiyini yazır. Assur-babil mifologiyasındakı İnsan başlı öküz Persopolis sarayının qarşısında qoyulan heykəlin və Avestadakı Qopadşahın prototipi olmuşdur. Qədim Elamda tapılan və e.q. 4 minilliyə aid olan silindir lövhədə də yarı öküz, yarı insan şəklində olan təsviri vardır. (Potts D. 1996, Səh. 12)

"Dinai Minoq" kitabının pəhləvi dilindən alman dilinə tərcüməçisi Vest öz şərhində yazır ki, Airan Veca öncə Zərəfşan çayından şimaldakı ərazilər adlansa da, sonrakı pəhləvi ədəbiyyatında onun Aturpatakan-Adarbiqan olduğu müəyyən edilmişdir. (West E.W. 1885, Səh. 87)

Bütün pəhləvi mənbələrində Qopatşahın məskəni İrandan kənar ərazilərdədir. Qopadşah əfsanəsini araşdıran Ratvelidze Qopad adındakı sözün kökünün öküz mənasında olan Qo və ya Qod kəlimələrindən ibarət olduğunu, sondakı pad və şah sözlərinin isə sinonim təşkil etdiyini və hər ikisinin də sahib, ağa, hökmdar anlamı daşıdığını yazır. (Ртвелидзе. 1995, Səh. 70)

Sumer-akkad dilində insan başlı öküz "kusarikki" adlanırdı ki, onun hərfi mənası vəhşi öküz deməkdir. (Schramm W. 2010, Səh. 16)

Bu sözün mənasını türkcə aydınlaşdırsaq "kuz/quz" öküz deməkdir, "ar/er" isə adam, sondakı "iqqi/iqe" sözü isə yekə, böyük və ya ağa deməkdir. Beləliklə, Akkad dilinə Sumer dilindən keçmiş Kusarikki sözünün mənası ayaqları öküz



ayağı bədəni insan bədəni şəklində doğulmuş öküzlə eyniləşdirilən Oğuz xaqanın timsalıdır.

Avestadakı Qopadşah adı əslində sumer-akkad dilindəki Kusar sözünün təhrif olunmuş şəklidir. Sumer dilində Qu və Quz öküz deməkdir. Sözün əsli Quz/Kuz öküzü, yəni Oğuzu bildirir. *Kusarikki* sözünün türk dilində mənası "Böyük Öküz adam" olub, əslində Oğuz şah deməkdir. Avestanın Bundaxşin bölümündə Qopatşahın adı "Qaus pada" kimi izah olunur və mənası öküz ayaqlı deməkdir. Göründüyü kimi Qopad adı Öküz ayaqlı Oğuzun ekvivalentidir.

Qopadşah adı kassi dilində *Bader-Sah* adının qədim iran mənbələrinə keçmiş fonetik şəklidir. Fournet Kassi dilinde *Bad-er* sözünün mənasını "öküz adam" kimi izah edir, *sah* isə tanrı deməkdir, beləliklə, sözün mənası kassi dilində "Öküz adam tanrı" anlamı daşıyır. (Arnaut Fournet, 2011, Səh. 7, 17)

Samilərin Kassi/kaşşi adlandırdıqları Kas etnoniminin əsli Quz/kus şəklindədir və Quz eponimi sonradan xalqın etnoniminə çevrilmişdir. Kassi dilinin müasir bilginlərindən olan Arnout Furnet bu dildə Quz adına bağlı bir neçə tanrı adı müəyyən etmişdir. Kassi dilində *Quz-ar* tanrı adı da mövcuddur və mənası öküz adam deməkdir. Bu söz yenə kassilərdə öküz-adam tanrı obrazına etiqadı əks etdirməkdir. Bu adla əlaqədar kassilərdə Quzar Buqaş, Quzar İlu kimi tanrı adları mövcuddur. (Arnout Fournet. Kassite language, Səh. 13)

Kassi hökmdarları özlərini "Tanrıların kutsal öküzü" adlandırırdılar. (Kamal Balkan. 1948, Səh. 729)

Georq Hüsinq Elamın güney ləhcəsində kassi xalqının öz adını *Kussi* şəklində ifadə etdiklərini yazır. (Georg Hüsing, 1908, Səh. 24)

Quti etnoniminin sumer loqoqramı *Qudu-a-ki* şəklində yazılırdı ki, bu Quti ölkəsi adının qədim mətnlərdə yazılış şəkli idi. (D.Miller, Mark Shipp. 1996. Səh. 76)

Etnonimin sumer dilindən tərcüməsi "Qutilərin ölkəsi" deməkdir. Quti etnoniminin kökünü də Qut\Qud sözü təşkil edir ki, mənası öküz deməkdir.

Landsberqer qutilər haqqında yazır ki, Qutium xalqının adındakı akkadlara məxsus nisbət şəkilçisi olan *ium* sonluğunu kənara qoysaq, yerində Qut adı qalır. Bu adı daşıyanlar tariximizdə türklərlə ən yaxın münasibət göstərən, hətta bəlkə onunla eyniyyət təşkil edən tayfadır.

Qutilərin yaşadıqları ərazidə Mesopotamiyanın şimal-qərbində Habur çayının yaxınlığında yerləşən dəmir dövrünə aid Quzan şəhər dövləti mövcud idi. Arameylər buranı işğal etdikdən sonra özlərinə paytaxt etmişdilər. E.q. 808-ci ildə Assuriya kralı III Adadnirari Quzanı işğal etmişdir. II Sarqon yerli Quti əhalisini Samarraya köçürərək yerinə yəhudiləri yerləşdirmişdir.

Tanrı An öz şəhəri Uruku idarə etməyi qızı Nannardan olan nəvəsi İnannaya həvalə etmişdi və akkadların Nerqal adlandırdıqları Anın qüdrətli "vəhşi səma öküzü" Qu-qal-annanı ona yardım üçün göndərmişdi. "Sumer miflərində Nerqal

öküz obrazında təsvir olunur və Sumerin qədim piktoqraf işarəsi ilə *Kuş-unu* kimi yazılır. Nerqal yeraltı dünyanın hökmdarıdır. Ən qədim sumer mətnlərində Nerqal öküz tanrı *Kut* adlanır ki, Qud Sumer dilində öküz deməkdir. Nerqal adının mixi ideoqramının oxunuş formasından biri də *Ukur* şəklindədir. Bu söz müxtəlif oxunuşlarda Ukuz şəklində də ifadə olunur. (Wiggermann-Nergal, 1999, Səh. 216)

Sumer dilində dialekt fərqliliyinə uyğun olaraq bir çox eynimənalı sözlərin sonu *d-r-z* hərfləri ilə bitir. Bu dialektlərə uyğun olaraq öküz anlamındakı *Qud* sözü digər dialektlərdə *Quz, Ukuz və Ukur* şəklində yazılır. Mənşə baxımından kökü sumer dilinə bağlı olan Türk dilləri də sumer dilinə xas bu dialekt fərqliliyini qoruyub saxlamışdır. Türk dillərində də Oğuz sözü müxtəlif dialektlərdə Quz, Uquz, Oqur, Ukur şəklində ifadə olunur.

Alman türkoloqu Şott Ural-altay dilləri üçün ümumi olan ökür/ökör/üker/ukur sözlərinin türk dilində öküz şəklində ifadə olunduğunu yazır. (W.Schott, 1849, Səh. 57)

Uyğur araşdırıcı Alimcan Hidayət Çinin Şanq sülaləsi dörünə (e.q. XVI-XI əsrlər) aid salnamələrdə çincə "Qui-fanq" adındakı "Qui" kəlməsinin Oğuz adının çincə ən qədim yazılış şəkli olduğunu qeyd edir. "Qui" heroqlifi həmin dövrdə "qür", "üqü", "wuku" şəklində tələffüz olunurdu və əslində "Oqur" sözünün çin dilindəki traskripsiyonudur. Oquz, Oqur sözləri isə "Uyğur" sözünün qarşılığıdır. (Alimcan İnayet, 2008, Səh. 1-8)

Müxtəlif dillərdəki tarixi mətnlərdə Uyğur adının yazılış şəklini və mənasını təhlil edən Alimcan İnayət əsgi Türkcədə çay anlamına daşıyan *Öquz/üqüz* sözü, *öqüz/üqüz-oquz/uquz-öqür/üqür-oqur/uqur* şəklində dəyişikliyə məruz qalaraq Uyğur şəklini almış olduğunu, nəticə etibarı ilə "Oquz" və "Uyğur" sözlərinin eyni kökdən gələrək "çay-nəhir" demək olduğnu yazır. Eyni adı daşıyan bu iki boy uzun tarixi zaman içərisində fərqli coğrafi və mədəni şəraitdə yaşadıqlarına görə fərqli inkişaf xüsusiyyətlərinə malik olmuş və iki fərqli etnik topluma çevrilmişlər. (Alimcan İnayet, 2008, Səh. 1-8)

Uyğur araşdırıcı etnoqrafı Abdurehim Habibulla Uyğur adının qədim deyiliş formalarından birinin "Udqur" şəklində olduğunu və onun sonrakı dövrlərdə fonetik dəyişikliyə uğrayaraq Uyğur şəklində ifadə edildiyini yazmışdır. Rus türkoloqu Baskakov Oquz və Oqur sözlərinin önündəki "O" tək hecalı sözü qədim türk dilində "düşünmək" anlamı daşıdığını və onun ağıl və təfəkkür anlamındakı "öq" sözünün də ondan yarandığını qeyd edir. (Alimcan İnayet, göstərilən əsər)

Sözün ilk hecasını təşkil edən *Ud* sözünü Osman Nədim Tuna sumer dilində "öküz" anlamı daşıyan *Qud* sözünün türk dilindəki fonetik ifadəsi olduğunu yazır. *Ud/Uz* qədim türk dilində "buğa və inək" anlamı daşıyır. (Osman N. Tuna. 1990; ДТС, 1969, Səh. 605)



F.Bayat "Uyğur" adının mənasını "öküz və ya buğa" qəbiləsi kimi izah edir. (Füzuli Bayat. 2007, C 1, Səh. 183-186)

Oğuz adının etimologiyasını araşdıran Denis Sinor Oğuz adının mənasının "buğa və öküz" olduğunu yazır və bu sözün bütün türk ləhcələrində eyni məna daşıdığını və Oğuz adının çuvaşlarda "oqur" şəklində yazıldığını bildirir. (Denis Sinor. 2012, 4(1-2))

Oğuz/Oqur sözünü türkcənin *r* dialektində danışan boylar Oqur/qur, türkcənin *z* dialektində danışan boylar isə Oğuz/quz şəklində ifadə edirlər. Bir çox müəlliflər Oqur və Oquz adlarındakı *qur/quz* sözlərinin müstəqil şəkildə də işləndiklərinin və yenə də öküz anlamı dağıdığını yazırlar. Lakin Alimcan İnayət həmin sözlərin də yalnız çay-nəhr anlamı daşıdığını yazır. (A.İnayet, 2008, Səh. 1-8)

Yuxarıdakı şərhlərdən belə nəticə alınır ki, Öküz/Okus/Quz/uz/ud sözləri türk dilində fərqli fonetik şəkildə ifadə olunsalar da türk dilində həm öküz, həm də çay anlamı daşımaqdadır.

Öküz kultunun ilkin mənbəyini Sumer mifologiyası təşkil etmiş və sonradan o digər xalqların mifoloji sistemində önəmli yer tutmuşdur.

Oğuz adına türk runi yazılı qaynaqlarında ilk dəfə Barlık çayı sahilində tapılmış Yenisey kitabəsində rast gəlinir. Bu kitabədə "Altı Oğuz budunu" haqqında bəhs edilir. Kitabə "Öz Yiqən Alp Turan" adlı bəyə həsr olunmuşdur. Altı Oğuz budunun Bəyi olan Alp Turan gənc yaşda dünyasını dəyişmiş və bu kitabə onun xatirəsi şərəfinə ucaldılmışdı. Kitabənin mətni belə oxunmuşdur: "Öz Yiğən Alp Turan altı oğuz budundan on üç yaşında ayrıldım". Orxon abidələrindən daha qədimə, VI-VII əsrlərə aid olan bu kitabə altı boydan ibarət olan Oğuzların öncəki yurdlarının Yenisey/Ulu Kem çayının sahillərində olduğunu işarə edir. (F.Sümer, 1992, Səh. 27)

Börü-qurd bir çox türk böylarının əcdadı olduğu halda qırğız türklərinin əcdadı öküzdür. Qırğızların şəcərəsində qırğızları Sayan dağının quzeyindəki bir mağarada öküzdən törədikləri haqqında rəvayət mövcuddur.

Arxeoloji qazıntılar göstərir ki, öküz kultu türk xalqlarının və tayfalarının qədim tarixində önəmli yer tutur. Xakasiyada II minilliyə aid Okunev mədəniyyətində qadın-ana və onun əri öküz obrazları mərkəzi yer tutur. Başında öküz buynuzları olan qadının öküz fiqurları ilə birlikdə ikonoqrafik təsviri bu obrazların məhsuldarlıq kultu ilə və nəslin uğurlu davamı ideyası ilə bağlılığını göstərir. Beləliklə, qədim türklərin əcdadları olan Okunev mədəniyyətinə mənsub insanların təsəvvüründə öküz, bir tərəfdən günəş obrazı, digər tərəfdən qədim insanların xüsusən də köçərilərin həyatında mühüm rol oynayan "su", "çay" və "məhsuldarlıq" kimi anlayışlarla eyniləşdirilirdi. (M.Д.Хлобыстина. 1971, Səh. 170-171)

Azərbaycan xalqının əcdadları olan turanlı mannaların dini-mifoloji görüşlərində öküz önəmli yer tuturdu. Arxeoloji qazıntılar zamanı mannalılara məxsus

artefaktlarda həyat ağacı və onun ətrafında dik durmuş iki qanadlı öküz və keçi, digər bir əşyalar üzərində insan sifətli öküz, qanadlı öküzlər və keçi təsvirləri geniş yer tutur. (Azərbaycan tarixi, 1994, Səh. 112)

Öküz kultu qədim öntürklərin mifologiyasında və dini etiqad sisteminin önəmli tərkib hissələrindən birini təşkil edirdi. Öküz-adam təsviri şərdən qoruyucu funksiyası daşıyaraq qapı ağzını ya da xəzinəni mühafizə edirdi. Öküz böyürtüsü göy gurultusunu, yağışı və məhsuldarlığı təmsil edirdi. Səmavi tanrılar çox zaman Öküz obrazında ilahələr isə onun arvadı kimi təsvir edilirdi.

Assurların etiqadına görə öküz günəşdən doğulmuşdur. Öküz günəşlə nə qədər əlaqələndirilsə də o buynuzuna görə ayla daha çox eyniləşdirilir. Öküz buynuzu çox zaman ayparanı təmsil edir.

Öküz buynuzu günəş şüalarının ox kimi istifadə edən yayla eyniləşdirilir. Öküz eyni zamanda ayparanın və dolun ayın timsalında həm qadını, həm də kişinin simvoludur.

Qədim xatti xalqı buynuzları arasında günəş təsviri olan öküzü özlərinin baş tanrısı hesab edirdilər. Qədim şərqin bütün mədəniyyətlərində öküz hakimiyyət ideyasını təmsil edir. Gücü təmsil edən öküz həm sitayiş, həm də rəqabət simvolu olaraq bir çox mifik qəhrəmanların qüvvət ölçüsünə çevrilmişdir.

Quz adı ilə bağlı olan Bit-Aqusi adının mənası Qusi ölkəsi deməkdir və dəmir dövründən mövcuddur. Aqusi ölkəsi Fərat çayının qərbində, Karxemış və Patt arasında yerləşirdi və Hamat krallığı ilə qonşu ərazidə idi. Dövlətin banisi Yakanlı Qusi adlanırdı. Ölkənin paytaxtı Arpad adlanırdı. (Trevor Bryce, 2009, Səh. 127)

Hitit dövründə də mövcud olan Aqusi bəylik ölkəsi sonralar Urartu dövlətinin əsas əyalətlərindən biri olmuşdur. Ölkənin paytaxtı Arpad uğrunda Assuriya və Urartu arasında uzun illər ərzində savaşlar baş vermişdir. Hökmdar Quzu böyük bir sülalənin banisi idi. Qonşuluqdakı Karxemış və ya qədim adı ilə Karqamış bəylik dövlətinin kralının adı da Kuzi-Teşub idi. Karqamış adının Qilqameşdən törəndiyi haqda fikirlər mövcuddur.

Ön Asiyanın qədim turanlı xalqları olan sumerlərdə, qutlarda, kassilərdə, mannalarda və hətta assurlarda öküz-adam təsvirli tanrılara etiqad önəmli yer tuturdu. Yarı öküz yarı adam obrazı hakimiyyət, qüdrət rəmzi olmaqla yanaşı onların qoruyucu funksiyasına uyğun olaraq heykəlləri hökmdar saraylarının girişində qoyulurdu.

Qopadşah, yəni öküz-adam təsvirlərinin çoxu nefrit, yəni yada/yaşma daşından hazırlanmışdır. Yada daşı tarixən türkün müqəddəs daşı kimi tanınmışdır. Rus tədqiqatçıları nədənsə bu tarixi faktın üzərindən sükutla keçirlər. Tarixi ədəbiyyatda yada daşı türk daşı kimi məhşurdur. Yada daşı türklərdə hakimiyyət rəmzidir və bu sehirli daşa sahib olmaq uğrunda türklər arasında hətta qarşıdurmalar baş vermişdir. Arxeoloji qazıntılar nəticəsində üzərində öküz təsviri olan



və boyundan asılmaq üçün lövhə şəklində hazırlanan bir çox yada daşı aşkar edilmişdir. Tarixən məlum olduğu kimi yada daşı türklərin ulu əcdadı Tur və ya Yafəs tərəfindən hakimiyyət rəmzi olaraq türklərə verilmişdi. O daşın üzərindəki öküz rəmzi olaraq Turun və ya Oğuzun təsvirindən ibarətdir.

Qədim dövrlərdə türklərin Kutur adlandırdıqları yakı, yəni saçaqlı tükə malik vəhşi öküzü qüvvət və əzəmət simvolu kimi qəbul edirdilər. Qədim türklər vəhşi yak öküzünü dialekt fərqinə görə Kutadqu Biliq əsərində Qutur və Divani Lüğətit Türkdə isə Qutuz adlandımışlar. (ДТС, 1969, Səh. 474, 475

Yakın, yəni Qutur və ya Qutuzun vətəni Sibirin güneyi və batı Asiya yaylaları idi. Maraqlı cəhət orasındadır ki, bu iki adın önlərinə o hərfi artırılıb ortadakı *t* hərfini ixtisar etməklə türklərin böyük etnik birliyini təşkil edən oqur və oquz etnonimlərini meydana gətirir. Avestada və digər fars və ərəb dili ədəbiyyatda türklərin ulu əcdadının Tur və Tuz kimi yazılışı da bu dialekt fərqlərindən irəli gəlir.

Əgər biz Qutur adının mənasına Hommelin də qeyd etdiyi kimi türklərin 5 min il öncəki qədim dilini təşkil edən Sumer dilinin semantikası ilə izah etsək, Qutur sözündəki Qu Sumer dilində öküz deməkdir, tur isə oğul və adam deməkdir. Sumer dilindən tərcümədə Qutur öküzün oğlu və ya öküz adam anlamı daşıyır. Oğuznamə dastanından da məlum olduğu kimi Oğuz öküz ilə Ay xaqanın izdivacından bədəninin ortasına qədər öküz, yuxarı hissəsi isə insan şəklində doğulmuşdur. Beləliklə, Qutur türklərin ulu əcdad-eponimidir və qədim türklər öz ongonları kimi qəbul etdikləri öküzü-vəhşi turu Qutur adlandırmışlar. Oqur və Oğuz adlarının qısaldılmış şəkli olan Quz və Qur sonradan hakimiyyət tituluna çevrilmişdir. Qur xan, Əmir Teymurun Qur Əmir titulu Qur sözündəndir.

Son dərəcə atılqan, cəsur və yaraşıqlı Qutur türklərdə alplıq və qəhrəmanlıq timsalı idi. Türklərin böyük, ulu qəhraman mənası daşıyan Alpbaqatur adı əslində Alp Buqa tur, onun qısaldılmış şəkli isə Alpbaturdur. Eberhardın yazdığına görə Qoturu və onun quyruğundan hazırlanmış tuğu özünün gerbinə çevirmiş tarixən məlum olan ilk dövlət e.q. I minillikdə Çində hakimiyyət sürmüş türk mənşəli Çou sülaləsinin dövləti olmuşdur.

Göytürklərin Aşina xaqan boyu V əsrdə və ondan öncəki tarixlərdə Juan-juan dövlətinin tabeliyində olub Altay dağlarının ətəklərində məskunlaşmışdılar. Bu ərazi qədim zamanlardan etibarən türklərin Qutur və ya Qotuz adlandırdıqları vəhşi öküz-yakların yayıldıqları ərazilər idi. 540-cı ildə Bumin xan Aşina boyunun xanı oldu və bu dövrdən etibarən Qutur təsviri və onun qotuz adlanan quyruq hissəsi Aşina boyunun və gələcəkdəki Qöktürk imperatorluğunun tuğuna və bayrağındakı gerbinə çevrildi. Eberhard Çinlilərin "kutu" və ərəblərin "hutu" adlandırdıqları eftalit/xuttalları türklərin Kutluq hakimiyyət ünvanı ilə əlaqələndirir. (Emel Esin. 1985, Səh. 127)

Kassilərdə şaquli ox işarəsi kudurru adlanırdı və Siriusu təmsil edirdi. Sumer-

akkad dilində kudurru sözünün mənası ox deməkdir. (J.Black and A.Green. 1998, Səh. 35)

Elamlarda Kudur hakimiyyət titulu idi. Kudur Kut sözü ilə də əlaqədardır. Kut tanrının verdiyi güc, qüdrət, hakimiyyət anlamı daşıyırdı. Bu baxımdan bu sözün loqoqramı olan ox işarəsi də eyni məna kəsb edirdi. Varislik ənənəsinə uyğun olaraq Ox oğuzlarda da hakimiyyət simvolu daşıyırdı.

Türk dilində öküz adının sinonimi kimi buğa adı da mövcuddur. Kassi dilində *Buqa-aş* tanrı adıdır. Bu Buqa sözü eyni ilə türk dilindəki Buğa mənasında olub həm də tanrı adıdır, *Aş-Yaş* isə "ölkə" deməkdir. Türklərdə Buğa, Ruslarda Boq, farslarda baqa, almanlarda Bock kimi yazılır. (Arnaud Fournet, 2011, Səh. 9)

Türkcədə Buğa adı bir çox qeyri türk dillərində də eyni kökdən gəlməklə ruscada "bık", macarcada "bika", yəhudicə "bik", farsca "boqe", osetincə "boq" şəklində yazılır. Atın e.ə. V mininci ildə əhliləşdirilməsindən daha öncə əhliləşdirilən və nəqliyyat vasitəsi kimi əvəzsiz rol oynayan öküz sak, hun və digər qədim türk etnoslarının təsərrüfat həyatında malik olduqları əhəmiyyətə görə heyvanların çarı adlandırılırdı. Türklərdə tanrılaşdırılmış Öküz/buqa obrazı ruslarda "Boq" şəklində onların allahının adına çevrilmişdir.

Bir çox xalqların dini etiqadlarında öküz/buğa insanlar tərəfindən ilahiləşdirilərək tanrı obrazında təsəvvür olunur. Sanskritcə "qo", ingilis dilində "ko", Sumercə "qu" öküz, buğa mənasında işlədilməklə həmçinin allahın epiteti kimi "güclü və qüdrətli" mənasında da işlədilir. Bir çox etnoslarda öküz buynuzu ayparanı, yəni nur saçan buynuzu təmsil edərək tanrısal mahiyyət daşıyır.

Öküzün ilahiləşdirilməsi bir çox xalqlarda öküz və tanrı kəlimləsinin eyni sözlə ifadə edilməsi şəklində özünü göstərir. Bir çox xalqların dilində öküz və ya buğa təxminən eyni kəlmə ilə adlanır.

Öküz adı yunan dilində "tauros", latınca "taurus", assurca "tavra", urartu-hurri dillərində "thur", türkcə "tur" sözləri ilə ifadə olunur. Tur türklərin əcdad eponimidir, çuvaşlarda "Ture" tanrı deməkdir, "Tor" german-skandinavlarda tanrıdır, "Turtak" akkadlarda yeraltı allahı, "Turta" qədim misirdə yeraltının öküz tanrısıdır. Öküz alnamında işlədilən Qu/qou və Tur adı bütün dillərə sumer dilindən keçmişdir.

Rus türkoloqu A.N.Kononov Tur və Turan adlarını fərqli izahını verir. O Turan adını və türk etnonimini Şahnamədəki Tur adına bağlamağı yanlış və süni etimalogiya hesab edir. O türk adının kökünü türk dillərində evin və çadırın fəxri yeri, qapının qarşısındakı baş tərəf mənasında işlədilən "tör", "tür" sözlərinə bağlayır. Türk xalqlarında hər bir boyun öz onqonu-totemi olmuşdur, türklər monqollardan fərqli olaraq onqona "töz" deyirdilər. Türklərdə bu "töz"lər etiqad edilən ilkin ruhu, tanrıçaları, yəni totemi və tanrını təmsil edirdilər və onların müxtəlif əşyalardan hazırlanmış fiqurlarına evin ən mötəbər, fəxri yerində adətən qapı ilə üzbəüz baş tərəfdə yer ayırırdılar ki, bu yer "tör/tür" adlanırdı. Türk dillərində r-s/z əvəzlənməsi qaydasına uyğun olaraq və türk dialektlərindəki ifadə fərqliliklərinə görə "töz" tör/tür şəklini almışdır. Çuvaş dilində tör/tür-töz sözləri fonetik dəyişikliyə uğrayaraq tanrı mənasında Tur, Tura şəklini almışdır. (A.H.Кононов, 1949, Səh. 45-47)

Bu izah türk sözünün mənasının qüc, qüdrət demək olduğu fikrini irəli sürən Y.Nemetin ehtimalını da doğruldur, ona görə ki, kəlmənin ilk hecasını təşkil edən tür/tur sözü türklərin totemik təsəvvürlərinə uyğun olaraq etiqad etdikləri kiçik tanrını, idolu, onqonu, onun gücünü, qüdrətini eyni zamanda onların dünyasının, göy qübbəsinin kiçik təkrarından ibarət olan çadırda, otaqda, ocaqda onun malik olduğu fəxri, mötəbər yeri təcəssüm edir. Tör/tür sözü özünün morfoloji və semantik inkişafını mənası qanun, adət demək olan "törə/törü" sözündə tapmışdır. Törə türklərin ictimai, siyasi və şəxsi həyatlarını tənzimləyən qanun və qaydalar məcmusudur.

# XIV FƏSİL. Namrilər, Nimrud və onun turanlı Sak imperatorluğu

Nimrud və namrilərlə əlaqədar hadisələr qədim Ön Asiya tarixinin Turanla əlaqədar ən maraqlı səhifələrindən birini təşkil edir.

Nimrud tarixdə ilk imperiyanın yaradıcısı hesab olunur. Bizim Tövrat adlandırdığımız müqəddəs kitab Bibliyanın yaradılış əfsanəsində Nimrud Nuhun oğlu və Hamın Kuşdan olan nəvəsi kimi təqdim olunur. O yer üzündə ilk dövlətin və ilk imperiyanın yaradıcısıdır. Nimrudun imperiyasının mərkəzi Bibliyada Sinnar adlandırılan Sumer ölkəsi idi. O Babili, Ereki, Akkadı və Kaldini öz tərkibində birləşdirmişdi. Nimrud əfsanələrdə tanrı qarşısında ən mahir ovçu idi. Məhşur Babil qülləsini Nimrud tikdirmişdi.

Qədimlərdə İkiçayarasında Mosul şəhərinin yaxınlığında Dəclə çayının orta axarı vadisində əsasının Nimrud tərəfindən qoyulduğu ehtimal edilən Nimrud şəhəri mövcud olmuşdur. Nimrud şəhərinin xarabalıqları indiki Kalax şəhərində yerləşir. Nimrud Türkiyədəki Urfa şəhərinin də qurucusudur. Urfada Nimrud qalası mövcuddur Türkiyədə iki Nimrud dağı vardır.

Quranda Nimrud Kənanın oğludur. O İbrahim peyğəmbəri odun içərisinə atan zalım bir müstəbid kimi təsvir olunur. (Kananlar Fələstinin samilərə qədərki turanlı əhalisinin adıdır). Bir çox müəlliflər Bibliya yaradılış əfsanəsinə əsaslanaraq Nimrudu Hami Kuşilərə aid edirlər.

Lakin E.Norris, F.Hommel, Baron Bunzen, G.Rauilson, Artur Evans, D.Brinton kimi görkəmli assuroloq və etnoloqlar Nimrudun Hami irqinin Kuşi qoluna mənsub həbəş və Efiop olduğu haqqındakı fikirlərin əleyhinə çıxır onu turanlı namri və kas, kusu tayfasına mənsub olduğu fikri müdafiə edirlər.

Brintonun Bibliyanın xalqların etnik mənşəyinin müəyyən olunmasında mənbə kimi qəbul edilməsinin əleyhinə çıxırdı. Onun fikrinə görə "Yaradılış" kitabında xalqların genealogiyası məsələsi etnoqrafik baxımdan əhəmiyyətli ola bilər. O coğrafi, siyasi və hətta tarixi baxımdan da müəyyən marağa səbəb ola bilər. Lakin o etnik mənşə ilə əlaqədar məsələlərdə mənbə kimi qəbul edilə bilməz. O Nimrudun hami mənşəli olduğu fikrini qəbul etmirdi.

Brinton yazır ki, sonrakı araşdırmalar Nimrudun hami olması haqqındakı bu qədim əfsanəni doğrulayacaq hər hansı bir əlavə dəlil aşkar edə bilmədi. Asiyada hami dili dialektinin heç bir nümunəsi Ərəbistanın güneyindən başqa heç bir yerdə aşkar olunmadı. Bu dəlil Nimrudun həqiqətən də turanlı namri tayfasına mənsub olduğunu və onun rəhbərliyi altında İkiçay ərazisinə gəlib hakimiyyəti ələ keçirən namrilərin sonradan Elamlı namrilərlə qaynayıb qarışdığını sübut edir. (D.Brinton, 1895, Səh. 73)



Ovçuluqda və düşmənə qarşı döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə xalq tərəfindən 18 yaşında hökmdar seçilən Nimrud o zamanlar Ur şəhərində yaşayan İbrahim peyğəmbərin atası Terahı (Quranda adı Azərdir, Azər isə Adar adının fonetik şəklidir) özünə baş vəzir götürmüşdür. Bibliya əfsanəsinə görə Nimrud öncələri onun sərkərdəsi və vassalı olan Elam kralı Kudurlemora qarşı savaş açmış, lakin ona məğlub olduğu üçün onun vassallığını qəbul etmiş və Elam kralı ilə birlikdə Sadom və Qamorra krallığına qarşı müharibədə iştirak etmişdir. (Еврейская Энциклопедия Брокгауза и Ефрона, СПб, 1908-1913)

Bibliya əfsanəsinə görə Nimrudun ovçu və qəhrəman əsgər kimi uğurlarının sirri onun heyvan dərisindən ibarət libasında idi. E.Norris Nimrudun mənsub olduğu namrilərin saklar olduğunu və namri sözünün samilərin dilində bars demək olduğunu yazır. Məlum olduğu kimi Əfrasiyabın əsl adı olan Ər Tonqa adındakı tonqa sözünün də qədim türk dilində mənası bars idi. Əfrasiyab bir çox qədim miniatürlərdə kürəyində bars dərisi olduğu halda təsvir edilmişdir. Bars dərisi onu döyüşlərdə silah zərbələrindən qoruyurdu. Görünür ki, Əfrasiyabın mənsub olduğu Tonqa və ya bars turanlı sak tayfaları ilə yanaşı qədim Ön Asiyanın namri saklarının da totemi bars olmuşdur. Türk buddizminin mərkəzi olan Turfandakı Koçu-İdikut dövlətinə aid abidələrdəki divar rəsmlərində Tonqa (bars) və aslan dərisinə bürünmüş qəhrəmanlar təsvir olunmuşdur.

Norris Namri sözünü bars sözünün sami dilinə tərcüməsi hesab edir.

XIX əsrin ingilis assuroloqu Edvin Norris namriləri Elamın əsas tayfası hesab edirdi. Onun yazdığına görə Sakların bir qolu olan namrilər Babillilərin samilərə qədərki əcdadları idilər. Namrilər Assuriya hakimiyyəti dövründə Midiya da daxil olmaqla bütün Elam ərazisini əhatə edirdi. Namri adı mixi yazılarda hər zaman Elamla birlikdə çəkilir. Namri ölkəsi Elamdan aşağıda Kiçik Zab çayı ilə Zaqros dağları arasında yerləşirdi. Sarqonun müasiri Humba Neqas hər iki xalqın kralı idi. Suzdakı və elamdakı mixi yazıları eyni xarakterə malikdirlər. (Norris Edwin. 1852, Səh. 236)

Norris namriləri İkiçayarası ərazisinin tarixində oynadığı önəmli roldan bəhs edərək yazırdı: "Assur mətnlərində namri adı başda yazılır, çünki Kiçik Zab çayını keçdikdən sonra ilk yerləşim yeri onlara məxsusdur. Mən indi farsların istifadə etdikləri Nimruzu skiflərin Namiri adının təhrif edilmiş forması hesab edirəm. Bibliyadakı Nimrod adı Namrilərin adından yaranmışdır".

Norris namri və sak adlarını eyni xalqın iki fərqli adı kimi izah edir. Namri adı ilə Sak adının fərqi ondan ibarətdir ki, namri adını bu xalqa samilər vermişlər sak adını isə arilər vermişlər. Namri adı ovçu bəbir-bars deməkdir, sak adı isə ovçu it deməkdir. (Norris E. 1852, Səh. 238)

XIX əsr Avropa tarixçiləri Nimrudun tarixi şəxsiyyət olduğunu təsdiq edirlər. G.Smit Nimrudu sumerlərin dastanındakı Gilqameşlə eyniləşdirir, A.Seys isə

Nimrudu Marduk tanrının insanlaşdırılmış obrazı hesab edir. Volfram Soden Nimrudun sumerin tanrısallaşdırılmış kralı Ninurta olduğunu yazır. Bibliya əfsanəsinə görə dünyada ilk hökmdar Nimrud olduğunu nəzərə alaraq onu Babilin ilk kralı Sarqonla eyniləşdrirlər.

İngilis assuroloqu E.Norris Zərdüşt və Nimrud haqqında maraqlı tarixi dəlillər təqdim edir. Onun fikrinə görə Zərdüştün kitabındakı saklar Bibliyadakı Nimrudla eynidirlər. Bibliyanın Yaradılış kitabındakı Nimrudun mənsub olduğu xalq samilər Babilə gəlmədən öncə bu ölkənin yerli sakinləri idi. Nimrud adı Nimru və ya namri adından götürülmüşdür ki, adın sonundakı "ut" sami dilində cəm şəkilçisidir. Nimr adı bəbir və ya bars deməkdir və bu ad samilərin öz qonşuları saklara verdikləri addır. Samilər bu adı saklara döyüş zamanı öz rəqiblərini təqib edərkən göstərdikləri xüsusi məharətə görə vermişdilər. (Norris E. 1852, Səh. 228)

Hommel Nimrudun doğulduğu yerin Kassilərin ölkəsində olduğunu yazır. Nimrud dastanında Nimrudun tanrısının adı Luqal-turdadır və mənası Gənclik gücünə malik kral deməkdir. (F.Hommel, 1885, Səh. 221)

Macar mifologiyasında Nimrud Hunor və Maqor, yəni Hun və Macar qardaşlarının atasıdır. Ov zamanı Hun və Macar şahzadə qardaşları Azov dənizində bir maral (Öküz) görmüşlər və maral onları dənizdə arxasınca apararaq heyvanlar üçün bol otlaqların olduğu gözəl bir vadiyə çıxararaq özü yox olmuşdur. Qardaşlar geri dönüb o ovalıqda yaşamaq üçün atalarından icazə almış və orda məskunlaşmışdılar.

Namri tayfası sak-iskit irqinin bir qolu və elamlarla qohum tayfa olmuşdur və mixi yazı mətnlərindən də göründüyü kimi onlar Zaqros dağlarında, Kiçik Zab çayının ətrafına məskunlaşmışdılar. Norris yazırdı ki, Assur yazılarında Namrinin bir çox kral adları sami mənşəyə malik olub Assur tanrılarının adlarını daşısalar da, mən onları sami olmayan orijinal sak-namri adlarının sami dilinə tərcüməsi kimi qəbul edirəm, çünki Elamda və Suzda aşkar edilən yazı mətnlərində sami tanrılarının adlarına rast gəlmədim. (Norris E. 1852, Səh. 236)

Norris kussiləri kassilərlə eyniləşdirir və onun yazdığına görə mənşə etibarı ilə sak-iskit hesab etdiyi Kuşilərin əsas yayılma mərkəzi Susianada yerləşirdi və onlar burdan şərqə yayılaraq genişlənmişlər. Suzun və Elamın sak-iskit yazıları və Kissia, Kossea, Xuz, Afar və s. kimi sak-iskit adları onların yayılma arealını göstərir. Norris Kirmandan doğuya olan ərazi bütün Sasanilər dövrü ərzində Kuşan adlandığını yazır və türklərin Turşa kimi tanınan tayfalarının qurmuş olduğu Kuşan imperiyasının bu Ön Asiyadan gedən turanlı kuşanlar tərəfindən qurulduğunu qeyd edir. (Norris E. 1852, Səh. 233)

İran yaylasında yerləşən və qədim yaşayış məskəni olan Kaşan adlı şəhərin adı Kassilərlə əlaqədardır. Kaş-an sözünün mənası iddia edildiyi kimi fars dilindəki kərpic mənasında olmayıb, mənası Kasların yeri deməkdir. Mərkəzi Asiyada mövcud olmuş türklərin Kuşan imperiyasının adı da Kus/Kuş kassilərin adı ilə əlaqədardır.

XIX əsrdə bir çox assuroloqlar Kuşiləri Turan irqinə mənsub olduqlarını və onların ilkin vətənlərinin Afrikada deyil, Asiyada, Elam ərazisində yerləşdiyini, sonradan Afrikaya köçdükləri fikrini irəli sürmüşlər. İngilis tarixçisi G.Rauilson da bu fikri müdafiə edir. Onun yazdığına görə Hamın ikinci oğlu olan Samnan dörd əsas xalq meydana gəlmişdi: Kuş, Misraim, Put, Xanaan.

Hamın oğulları Kuş və Misraim idi. Kusi adını Efiopiya ilə eyniləşdirirlər. Yunanlıların Ehiopiya adı verdikləri ölkəni İbranilər Kuş adlandırırdılar. (G.Rawlinson. The Origin of Nation, Səh. 192)

Lakin Bibliyadan da göründüyü kimi cənnət ölkəsi olan və Qihon çayının suvardığı Kuş Afrikada deyil, Asiyada yerləşmişdir. Peyğəmbər Ezekil Kuşu Asiyada Persiya ilə yanaşı göstərir. İsayi isə onu Elama bağlayır. Görünür bu vadi Ərəbistandan başlayaraq Mesopotamiyanı və ondan şərqə doğru geniş bir ərazini əhatə edirdi. Yaradılış kitabının müəllifi Kuşun ibtidai əhalisinin Efiopiyadan başlayaraq şərqə – Ərəbistan, Mesopotamiya və ondan şərqə doğru yerləşən kassilərin də Hamın övladları olduqlarını və bu ərazilərdə məskunlaşdıqlarını ifadə etmişdir. (G.Rawlinson, 1883, Səh. 193)

Beləliklə, qədim yəhudi və sami yazılı mənbələrində Kuş ölkəsının Zaqros dağlarında, Elamla qonşuluqda, Persiya ilə yanaşı göstərirlər. Bu ərazi Qud/Quzların və bir çox müəlliflərin Kus adlandırdıqları Kassinin yerləşdiyi ərazidir. Kuş adı Kus və Quz adının sami dilindəki fonetik şəklidir. Samilər çox zaman adlardakı *d* hərfini *z* kimi, *s* hərfini *ş* kimi tələffüz edirlər. Beləliklə, Kuşilərin əslində Quz və Kas/kuzlar olduğu və Nimrudun da bu qədim turanlı öntürk boyunun öndəri olduğu və indiki Efiopiya adlanan ərazini işğal etdiyi və sonradan yenidən qərbə doğru hərəkət edərək Bibliyada Sinnar adlandırılan Mesopotamiyanı öz hakimiyyəti altına alaraq burda tarixin ilk imperator dövlətini yaratdığı tarixi bir gerçəklikdir. Efiopiyanın adı da mixi yazılı mənbələrdə Kusi kimi yazılmışdır və bu fakt da orda hakimiyyətin Kusi-kas turanlılara məxsus olduğunu sübut edir.

Görkəmli alman tarixçisi və siyasətçisi X.Karl Bunzen (17991-1860) "Evrənsəl tarix fəlsəfəsinin ana xətləri" adlı əsərində Turan tarixi ilə əlaqədar bir çox tezislərin və elmi fikirlərin müəllifidir. Onun Turan haqqında söylədiyi "Asiya və Avropanın sami və iranlı olmayan bütün xalqları ən qədim dövrdə təşəkkül tapmış üçüncü bir ailəni meydana gətirir. Bu ailəni 1847-ci ildə mən cəsarət göstərərək Turanlı adlandırdım". Sözləri dünyanın qədim tarixinin və dilinin Turan dövrünü özündə əks etdirən Turan nəzəriyyəsi tərəfdarları üçün istinad nöqtəsini və cəsarət örnəyini təşkil edirdi.

B.Niburla da yaxın münasibətdə olan Bunzen təkcə görkəmli diplomat kimi siyasət aləmində deyil, elm aləmində, tarix və etnologiya sahəsində böyük nüfuz

sahibi idi. Dünyada ilk monarxiyanı yaradaraq İkiçayarasında ən qədim imperiya dövlətinin əsasını qoyan Nimrudun sami və hami deyil, Turanlı olduğu haqqında cəsarətli fikri irəli sürən Bunzen olmuşdur. O elmi linqvistik və arxeoloji dəlillərə əsaslanaraq yazırdı: "Nemrud mənşə etibarı ilə kuşit deyildi, turanlı və Mesopotamiyalı idi. Onlar daha öncələr Afrikanın bir qismini işğal edərək burda məskunlaşmışdılar və sonra Asiyaya geri dönərək orada ilk böyük dövləti, imperiyanı yaratmışdılar. Dünya tarixi hər zaman xalqların müəyyən istiqamətdə axının və geriyə axınının şahidi olmuşdur. Nemrud və onun xalqı da Qərbi Asiyadan gələrək Fələstin və Suriya üzərindən keçib Nil vadisinə yayılmışdılar". (C.J.Bunsen, Vol. 1, 1854, Səh. 192)

Bunzen dünyanın böyük bir hissəsini işğal edən turanlı skif/sakları təmiz tatar və turanlı hesab etdiyi Nimrudun varisləri adlandırır.

G.Smit də Nimrudun kuşi olduğu haqqındakı fikrin əleyhinə çıxır. "Nemrudun atasının adı Kuş akkadın günbatan və işıq tanrısı Kus, Kusi ilə eyniləşdirilə bilər və sözün mənası "dinclik" və "qaranlıq-zülmət" deməkdir. Beləliklə, Nemrudun atası Kusun Hamın oğlu Kuşi və Efiopiya ilə heç bir əlaqəsi yoxdur. Yaradılış kitabında Kuşı ilə Nemrudun atası Kusun adı sadəcə bənzərlik təşkil etdiyindən eyniləşdirilmişdir. Buna görə də akkad və babillilərin etnik mənşəcə kuşi və Efiopia və ya Misirlə əlaqədar olduqları haqqındakı fikirləri tamamilə bir kənara atmaq lazımdır". (Smith G. 1880, Səh. 185)

Bir çox müəlliflər Nimrud ilə Zərdüşt arasında müəyyən əlaqələrin mövcud olduğunu qeyd edirlər. Akkadın və Sumerin hökmdarı Naram-Suen (m.ö. 2273-2219) sonradan Dinqir, yəni tanrı adını qəbul edərək Dinqir Naram-Suen ünvanı ilə hökm sürmüşdür. O Sarqonun nəvəsi və ya oğlu hesab olunur. Suen sözünün akkad dilində mənası sevilən deməkdir. Göründüyü kimi qədim turanlıların dilindəki bu söz türk dilindəki sev/sevmək sözü ilə eynilik təşkil edir. Türk ləhcələrinin bir çoxunda "sevmək" sözü "süyu və suyqen" şəklində də ifadə olunur.

Samilər Nimruda Orion ulduz bürcünün təmsilçisi kimi sitayiş edirdilər. Əfsanəyə görə Orion tərəfindən dəvət edilən Zərdüşt ataşdə qeyb olmuş və ilahiləşdirilərək külü babillilər tərəfindən tilsim kimi istifadə olunmuşdur. Babildə xalqın Nimruda ümumi batil sitayişi sonradan bir çox Yunan əfsanəsinin qaynağını təşkil etmişdir. (Norris E., 1852, Səh. 229)

Norris İkiçayarasının qədim xalqlarının Zərdüşt haqqındakı əfsanələrindən bəhs edərək yazırdı: "Biz ilk Zərdüştlə əlaqədar oda sitayiş kultunun necə formalaşdığı haqqındakı rəvayətləri də nəzərdən keçirək. Oda sitayiş və Nimrudla əlaqədar hadisələr nə qədər Babillə və samilərin İbrahim peyğəmbərin sobası ilə əlaqələndirilsə də, qədim zərdüştilərin oda sitayişin kökü saklarla əlaqələndirirəm. İndi aydınlaşdıraq görək bu Namri və ya babilli kimdir və onun saklarla etnik əlaqələri nədən ibarətdir". (Norris E. 1852, Səh. 230)



Yunanlıların verdikləri Efiopiya adı qədim mixi mətnlərində Kusu kimi, krallarının da adı Tarku kimi qeyd olunur. Georg Evans Misirin və Kusun kralının Turax olduğunu yazır ki, Turax adı Bibliyada çəkilir və o XXV sülalənin kralıdır. Sennaharib öz annallarında onu Tarku adlandırır və onun adı Assurbanipalın annallarında da dəfələrlə çəkilir. Orda qeyd olunur ki, Tarku Musurun (Misirin) və Kusunun (Efiopiya) kralıdır. (Georg Evans. 1983. Səh. 57)

Evansın dediyində bir həqiqət var. Kassilərin hökmdar ünvanlarından biri Turqu və ya Tarku idi. Turqu və ya Turku həmçinin kassi/kusların əzəmətli tanrısı idi.

Efiopiyanı özlərinə tabe etmiş olan Kassi hakimiyyəti dövründəki dövlət də onların adı ilə Kusu adlanmışdır.

# XV FƏSİL. Ön Asiyanın turanı

Turan adında bir neçə tarixi ərazi mövcud olmuşdur. Tarixin ilk dövrlərində Mərkəzi Asiyadakı Turan adlanan ana yurdları tərk edərək Ön Asiyada məskunlaşan turanlı tayfalar burda Turan adı ilə şəhərlər, yaşayış məskənləri və dövlətlər qurmuşlar.

İkinci dünya savaşından sonra "avropomərkəzçilik" ideologiyasının tarix elmində hakim mövqe tutması nəticəsində Mərkəzi və Ön Asiyada ilkin bəşər mədəniyyətlərinin turanlı öntürklər tərəfindən yaradıldığı haqqında assurologiya və sumerşünaslıq elmlərinin əsasını qoymuş Avropanın görkəmli alimlərinin gəldikləri elmi nəticələri təkzib etmək üçün tarixi gerçəklikləri saxtalaşdıran uydurma tezislər irəli sürülmüşdür. Sumerlərin, kassilərin, qutilərin, xattilərin, hurilərin, urartuların, subarların, midiyalıların etnik mənşə və linqvistik baxımdan türk etnosuna mənsub olmaları haqqındakı elmi gerçəklik gözardı edilərək onları hind-avropalı, sami mənşəli, bunlar mümkün olmadıqda isə mücərrəd dravid və ya aloroid kökə bağlamaq yönündə uğursuz tezislər irəli sürülməkdədir.

Ön Asiyanın qədim tarixini araşdıran Avropanın XVIII-XIX əsr tarixçi, assuroloq, arxeoloqları Mesopotamiya, güney və batı Aralıq dənizi, Zaqros dağları və batı Anadolu ərazisini tarixin ilkin çağlarında sami və hind-avropa xalqları tarix səhnəsinə qədəm qoymadan öncə turanlı xalqlar tərəfindən məskunlaşdırılmış olduğunu elmi dəlillərlə sübut etmişdilər. Sumerşünaslığın və ya elmdə qəbul olunmuş şəkli ilə assurologiya elminin baniləri olan böyük bilim adamları Rouilson, Oppert, Lenorman, Norris, Hommel, Modtmann, Nibur, Q.Maspero və digərləri Sumer də daxil olmaqla turanlı tayfaların məskunlaşdıqları Ön Asiya ərazisini İkiçayarası da daxil olmaqla Turan, əhalisini isə turanlılar adlandırırlar.

Sumer, Elam və Kiçik Asiya da daxil olmaqla Ön Asiyanın böyük ərazisində tarixin erkən dövrlərindən etibarən turanlı tayfalar tərəfindən ilkin mədəniyyətin əsası qoyulduqdan sonra ilk öncə samilər və daha gec dövrlərdə isə hind-avropalılar bu əraziyə köçərək məskunlaşmış və tədricən turanlıları bu ərazidən sıxışdıraraq digər ərazilərə köçlərinə səbəb olmuşlar. Sumer də daxil olmaqla turanlı öntürklərin Ön Asiyada yaratmış olduqları çoxsaylı dövlətlər uzun illər ərzində öncə köçəri vəhşi sami tayfalarının və daha sonra hind-avropalı və iranlı köçmənlərin təcavüzlərinə qarşı öz varlıqlarını qoruyub saxlamaq uğrunda şiddətli müqavimət və direniş göstərmişlər.

Tarixi qaynaqlar Mərkəzi Asiyadan sonra Turan adlanan ikinci bir ölkənin Ön Asiyada mövcud olduğunu qeyd edirlər. Tarixi ədəbiyyatda Assuriya adlandırılan ərazidə tarixin qədim dövründə (samilərin bu ərazini işğal etməsindən öncə) Turan adlı ölkənin mövcud olduğu sübut edilir.



Görkəmli İtalyan arxeoloqu və paleontoloqu Françesko Molon yazır ki, buzluqların əriməsi ilə bəşər tarixinin ilkin çağlarında insanların şimaldan cənuba doğru hərəkəti başlamışdır. Onlar Cənuba doğru hərəkət edərək bir qolu Himalaydan şərqə – Hindistan və Ərəbistana doğru, digər qolu isə İran üzərindən Qafqaza və daha irəliyə doğru hərəkət edərək həmin əraziləri məskunlaşdırmışlar. Molon Asiyanın böyük qisminin bəşəriyyətin böyük hissəsini təşkil edən Turan irqinə məxsus olduğunu yazır. Buzluq erası sona çatdıqdan sonra ilk olaraq Turan irqi Ural dağları üzərindən batıya və güney-batıya doğru hərəkət edərək Avropaya gəlmişlər.

"Ural-altaylı Turanlıların Mərkəzi Asiyadan ikinci axını Kiçik Asiya üzərindən Babilə və sonra Dunayın aşağısından Alp regionuna oldu. Babilin xarabalıqlarında Assuriyalılardan öncə burda Ural-altay xalqlarının yerləşmiş olduqları haqqında çoxlu dəlillər mövcuddur. Babildə 3000 min il öncə aqqlütinativ ural-altay dilində danışan xalqlardan qalma çoxlu abidələr mövcuddur". (F.Molon. Al Popolo Ligure, Səh. 21)

Assurologiya elminin atalarından biri olan Oppert Turya adının əks olunduğu himnin (sanskritcə əsərdə) Sumer dilindən tərcümə olunduğu fikrini irəli sürmüşdür. O deyirdi ki, Zend Avestada adı çəkilən və Əfrasiyabın dövləti Turanın prototipi olan "Tuirya" elə Sumerdir. (Cooper Jerold, 1993, Səh. 186)

Avestanın ilk öncə assuroloqların Subir/Subartu xalqına aid etdikləri manna və ya midiya dilində yazıldığı haqqında fikirlər irəli sürmüşlər. Görünür ki, bu müqəddəs kitabda kökü sumerlərə bağlı olan Tura və Turya adları manna dili vasitəsilə Avestaya keçmişdir.

J.Oppert yazırdı ki, özlərini "Sumerin və Akkadın hökmdarı" adlandıran Turan kralları öz titullarında Sumer sözünü öndə ifadə edirdilər. Ona görə ki, Sumer sonralar Assuriya adlanan ölkənin turanlı adı idi. İlk zamanlarda kiçik bir ərazidə istifadə olunan sami dilindəki Assuriya adı sonradan genişlənərək turanlı Sumer adını sıxışdırıb onu əvəz etmişdir. Ölkədə Turan dilində yazan Turan hökmdarları öz ölkələrinin adını mənası "əsl ağaların ölkəsi" demək olan *Kienqi* idoqramı ilə ifadə edirdilər. Lakin ölkəni ələ keçirən sami hökmdarlar bu adın yerinə sami dilində üç işarədən ibarət *A.qa.de*, yəni Akkad adını qəbul etdilər. (Weisbach P.N. 1898)

J. Oppert Mesopotamiyada yeni Turan mədəniyyətinin əsasını qoymuş Sumeri Turan adlandırmaqda haqlıdır. Çünki Tur və Turan adını istər tanrı adı olaraq, istərsə də bu adın əks olunduğu şəhər, dövlət və ölkə adı olaraq dünyaya bəxş edən türanlı öntürklər olan sumerlərdir.

Ukus-Oğuz adının tanrı və kral adı kimi ilk dəfə Sumerdə yarandığı kimi Turan tanrı, hökmdar və ölkə adı da ilk dəfə Sumerdə yaranmışdır.

Sumerin Sippar şəhərinin və Tufanaqədərki dövrdə Sumerin yeddinci kralı tanrısal mənşəyə malik Enme Turan olmuşdur. Onun adının sumer dilində mənası "güclülərin öndəri Turan" deməkdir. Enme tanrısal mənşəyə malik kralların titulu idi və bu titulu bir neçə Sumer kralı da daşımışdır. Enme Turan e.q. 2900-cü ilə qədərki dövrdə 21000 il hakimiyyət sürmüşdür. Turan sözünün mənası tanrının oğlu deməkdir. Sami dilinə tərcümə edilmiş mifdə Turan-ki tanrı tərəfindən göyüzünə qaldırılmışdır. Enme-Turandan sonra hakimiyyətə Ubar-Tutu gəlmişdir. Ubar-Tutu tufanaqədərki dövrün sonuncu Sumer kralı, Sumerin Nuhu adlanan Ziusudranın atası idi. (Pritchard James. 1955)

Tutuk Mərkəzi Asiyanın qədim Türk dövlətlərində geniş yayılmış titul olub əyan və sərkərdələrə verilirdi.

Qaston Maspero türklərin dünyaya yayılması haqqında bəhs edərək yazır ki, Pamir və Altay dağlarının arasında sıxışıb qalmış türklər əfsanəyə görə dəmir dağı əridərək xilas olmuş, onların bir qolu qərbə doğru hərəkət edərək Avropaya yayılmışlar ki, basklar onların son məntəqəsini təşkil edir. Turanlı türklərin böyük kütləsi isə qərbə doğru hərəkət edib sonradan Midiya adlanan İran yaylasının batı hissəsində məskunlaşdılar. Bir neçə turanlı türk tayfası isə daha qərbə gedərək Kiçik Asiya yolunu tutmuş, Atropatenada və Armeniyada məskunlaşmışdılar. Turanlıların bir qolu daha cənuba doğru gedərək Susiananın düzənliklərində, Fərat və Dəclənin sahillərində məskunlaşmışdılar. (Gaston Maspero. 1876, Səh. 135)

Masperoya görə Turanlılar Fərat sahillərində məskunlaşdıqdan sonra xalq kimi formalaşaraq yazı əldə etdilər, bəşəriyyətin ehtiyac duyduğu sənaye sahələrini yaratdılar, qanunvericiliyin və dinin cəmiyyət həyatındakı tənzimləyici qaydalarını tətbiq etdilər. Onların yazıları öncə eynilə Misir heroqlifləri kimi idi. Hər bir işarə təmsil etmək istədiyimiz əşyanın təsvirindən ibarət idi.

Tanrı ideyası səkkiz guşəli ulduz şəklində ifadə olunurdu. Arı işarəsi kralın geri dönməsini ifadə edirdi. (Gaston Maspero. 1876, Səh. 139)

Metalın və təmiz filizlərin dağ süxurlarının üst qatında yerləşdiyi Altay dağlarında mədənçilik və metalçılığı mənimsəyən və zərgərlik sənətinin təməlini qoyan turanlılar bu sənətlərin Xaldeydə (Sumerdə) əsasını qoydular. Turanlılar həmçinin Pont (Qara dəniz) dənizinin sahillərində və mərkəzi yaylaların mədənlər və dağlar bölgəsində, yaşayırdılar. Dağlarda məskunlaşmış turanlılar saspirlərin, xaldilərin, kolxların, xaliblərin, tubal və moskların timsalında öz mövcudluqlarını Roma işğalına qədər qoruyub saxlamışdılar. Kiçik Asiyadakı Turanlılar Fərat çayı sahillərində olduğu kimi arilərin və samilərin təzyiqləri nəticəsində sıxışdırılıb çıxarıldılar. (Gaston Maspero. 1876, Səh. 238)

Maspero Sumer və Anadoluda qədim mədəniyyətinin yaradıcılarının məhz turanlılar olduğunu yazır.



Fransiz tarixçisi Qrosset Orta Asiya çöllərindəki turanlı köçərilərinin dünya tarixində mühüm rol oynadıqlarını qeyd edərək yazır: "Onlar tarix ərzində 20 dəfə Turan yaylasından hərəkət edərək Hind və Qanq vadilərini, Dəclə Fərat vadilərini işğal etmiş, ucqarların durğunlaşmış mədəniyyət mərkəzlərinə yeni canlılıq gətirmişdir. Bu insan axını çayların dağlardan vadilərə axması kimi coğrafi qanunun bənzəri idi. Qədim mədəniyyətə malik müxtəlif xalqları vahid hakimiyyət altında birləşdirən türk və tatarlar mədəniyyətlərin çulğalaşmasına səbəb olurdular. Anauda aşkar edilən qədim mədəniyyət sumerlərin quzey-batıdan gələn turanlı olduqlarını və Türkistandan gəldiklərini sübut edir. (Grosset R. 1921, Səh. 5-6)

Yuxarıda gətirilən sitatlar və müəlliflərin fikirləri Mesopotamiyada tarixin ilkin dövrlərində Mərkəzi Asiyadan gələrək Zaqros dağları və İkiçay ərazisində məskunlaşan və assuroloqların böyük əksəriyyətinin turanlılar adlandırdıqları tayfaların həqiqətən də, Turan adlı bir ölkəsi və dövlətlərinin mövcud olduğunu sübut edir. İkiçay arasının toponimlərində və şəxs adlarında çoxlu türk mənşəli sözlər var idi. Strabon Assuriyanın qədim paytaxtı və onların allahının adını daşıyan Assurun əsl adının Aturiya olduğunu yazır.

İstər Assur, istərsə də Babildə samilər burda məskunlaşmadan öncə turanlı subar (subir), sumer, hurri, kassi tayfaları yaşayırdılar. Onların ən qədimləri bəzən qısaldılmış şəkildə adlanan *Su* və ya *Subarlar* idilər. Aturiyanın (Assuriya) ən qədim hökmdarları burda e.q. III minillikdə məskunlaşmış subarlar idilər. Assur şəhəri öz adını subarların qədim tanrısı Aturun adından götürmüşdü. Elmdə hər ikisi əkləmli turani dil olan subar və hurri dilinin qohum dillər olduğu fikri hakimdir. Hurrilər burda e.q. II minillikdə Habur çayı hövzəsində, o cümlədən Arrapxa və Nuzidə geniş yayılmışdılar. Assurun qədim əhalisi olan Subar dövründə onların hökmdarları "çadırda yaşayan" adlandırılırdılar ki, bu ifadə onların heyvandar tayfalar olduqlarına işarədir. Onlar Assura şimal, ya da şərq ölkələrindən gəlmişdilər. Samilər bölgəyə hakim olmadan öncə Babilin adı "Tintirki" idi. Tintirek qədim türk dilində həyat ağacı deməkdir. Bu ağac qədim Babil şəhərinin mərkəzində ucaldılmışdı. (Yusuf Hikmet Bayur, 1930, Səh. 367)

Digər bir versiyaya görə isə Babilin adı sumercə "Ka-dinqir" adlanırdı, bu sözdəki "Ka"-qapı, "Dinqir" (Tenqir) isə tanrı deməkdir və beləliklə, Babil "Tanrı qapısı" adlanırdı. Akkadların dilində də Babil adı sumer dilindən tərcümə olub "Bab +ilm" şəklində idi və mənası yenə də sumer dilindən tərcümədə "tanrı qapısı" deməkdi. (Johannes Fleming. 1883, Səh. 1, 11)

Fransız assuroloqu Lenorman Turan adının etimalogiyasına aydınlıq gətirərək onun kökünün iranlılara deyil, sumerlərə bağlı olduğunu yazır.

Turan adı protomidiya, akkad, uqor-fin və türk-tatar dillərində eyni şəkildə "oğul, ulu irqin oğlu, rəhbər" mənasında olan Tur sözündən yaranmışdır. Pers gələnəkləri bizim turanlı adlandırdığımız xalqı birmənalı şəkildə bir şimal xalqı və

bir irq olaraq Turan kimi qəbul edir. Qədim iranlıların turya adlandırdıqları Turanlılar özlərinə "Tur" adını ona görə qəbul etmişlər ki, bütün xalqlar öz köklərini nəcib qanın daşıyıcısı olan ulu bir əcdada bağlamaq istəyirlər. Tur eponiminin kökü Ön Asiyanın qədim Sumer-akkad, midiya, elam kimi turani xalqların dilində "ulu irqin oğlu, rəhbər" anlamı daşıyan ulu bir əcdada bağlıdır. (F.Lenormant. 1875, Səh. 381-383)

*Turan* adını ən doğru şəkildə linqvistik dəlillərə əsaslanaraq sumer dilinin etimologiyası ilə izah etmək mümkündür. Yuxarıdakı bölümlərdə qeyd etdiyimiz kimi sözün kökünü təşkil edən *Tur* kəlimasinin sumer dilində "oğul" anlamı mövcuddur. Görkəmli assuroloqlar Oppert və Lenorman Tur adının mənasını şərh edərkən onu sumer dilində sadəcə oğul anlamı daşımadığını tanrının oğlu demək olduğunu qeyd edirlər. Adın ikinci tərkib hissəsini təşkil edən *An* isə Sumerin ali və göyüzü tanrısıdır. Sumer dilindən tərcümədə *Turan* sözünün mənası "Tanrının, yəni An-ın oğlu" deməkdir. Sumer mifologiyasında Anın oğlu Enki dağları, vadiləri, suları və dənizləri müxtəlif canlılarla məskunlaşdırırdı. O, həmçinin Sumerlilərin timsalında insanların da yaradıcısıdır. Enki yeraltının hökmdarı tanrıça Ninmax ilə birlikdə yeni canlı məxluqlar yaratmaq üçün öncədən içərisi rüşeymlərlə mayalanmış palçığı ayaqlayaraq yoğurmuş və Ninmax ondan ilk canlı insan olan qadını və kişi yaratmışdır. Lakin qüsurlu olan bu qadın və kişini Enki bəyənməmiş və özü palçıqdan mükəmməl keyfiyyətlərə malik insanlar, qadın və kişi yaratmışdır. İnsanları və digər canlıların yaradıcısı olan Enki atası An kimi öküz surətində təcəssüm olunurdu.

Diyala çayının sahilində Me Turan şəhər dövləti mövcud idi. Me Turan önəmli bir qədim şəhər olub Diyala çayının şimal sahilində yerləşirdi və qalıqları İraqda Tel Haddad şəhəri yaxınlığında qazıntılar zamanı aşkar edilmişdir. Şəhər Eşnunna tanrısının himayəsində idi və Assur kralı İpiq Adad zamanında işğal olunduqdan sonra burda assuriyalı amoritlər hökmranlıq edirdi. (D.Frayne. 1990. Səh. 699)

*Me* Sumer dilində müqəddəs deməkdir. Me Turan subarlar zamanı inşa olunmuş müqəddəs məbəd ətrafında tikilmiş şəhər dövləti kimi subar tanrılarından biri Turan adını daşımışdır. Ölkə də bu tanrının və şəhərin adından Turan adlanmışdır.

Turan-ki məbədi Anın oğlu Enlilə həsr olunmuşdu. Tanrı Anın oğlu yerüzünün və küləklərin tanrısı olan Enlil göyüzünün və bütün varlığın, insanların yaradıcısı – atası idi. Göyüzü tanrısı Anın və yerüzünün ana tanrısı Kinin oğlu idi. O həmçinin Nippur şəhərinin tanrı himayəçisi idi. Enlil sözü iki hissədən ibarətdir En-ağa, yönətici, lil isə külək deməkdir. Enlilin titulları Turan, "Böyük dağ", "Yad ölkələrin kralı", "Vəhşi öküz" şiddətli fırtına idi. Sumer, Akkad və digər xalqlar Enlili kainatın yaradıcısı, atası və hökmdarı hesab edirdilər. (Hilprecht, Babylion Expedition, Səh. 87)



Sumer dilində Turan adının digər bir uyğun etimologiyası "ana bətni, ana rəhmi, doğulma yeri", yəni yurd mənasındakı *Tura* sözü ilə əlaqədardır. (J.Halloran. Sumerien Lexicon, 1999, Səh. 74)

Turan adının sumer dili etimologiyası əsasında izahı "müqəddəs doğulma yeri, əcdad yurdu" anlamı daşıyır. Sumer yaradılış əfsanəsində Enlil və onun arvadı Ninlil Göyüzünü, yerin birlik və vəhdətini təcəssüm etdirirdi. Enlil göyüzünün tanrı atası, Ninlil isə yerüzünün, torpağın ana tanrısı idi. Nippur məbədində aşkar edilən mətnlərdə Onların vəhdəti-birliyi kainatı təşkil edirdi. Göyüzünün tanrısı Enlilin adı "ilu Turan", yəni tanrı Turan kimi ifadə olunurdu. Burda Tur Sumer dilindən tərcümədə Anın oğlu deməkdir. (H.V.Hilprecht. The Babylonium Expedition. Philadelphia 1908. Səh. 39)

Sumerdə Ekur və ya zikkurat adlanan məbədlər çox zaman An və Enlil tanrılarına həsr olunurdu.

Sumerin Nippur və Larsa şəhərində ziqquratlar *E-Turan-ki* adalanırdılar. Bu ziqquratlar An tanrısına həsr olunmuşdur. *Kİ* Sumer dilində yer, ərazi, *Tur*-müqəddəslik, kutluluq, *E* isə ev anlamı daşıyır. Yəni *E-Turan-ki* sözünün anlamı "Turan evinin yerləşdiyi yer" mənasındadır. Bu adın digər yazılış forması da *Me-Turan-ki* şəklindədir, burda *ME* Sumercə müqəddəsliyi kutluluğu bildirir. (H.V. Hilprecht. 1908, Səh. 75)

Me-Turan şəhər dövləti tanrı Enlilə həsr olunmuş bir məbədin yerləşdiyi mərkəz ola bilər. Çünki Enlililin titullarından biri Turan idi.

Sitçin Turan adının kökünü təşkil edən Tur.an.ki ifadəsinin sumercə göy-yer bağı, yəni göyün və yerin birləşdiyi yer demək olduğunu yazır. (Z.Sithçin. 2007, Səh. 55)

Mesopotamiya da daxil olmaqla Ön Asiyada qədim tarixi dövrlərdən etibarən Turan, Turiya, Atur, Turukku, Turqu, Turxu/Tarxu, Tarku/Turku, Turqumman, Turkiş, Turuşa və s. kimi köklərini Tur kəliməsi təşkil etdiyi çoxsaylı toponim, eponim, teonim, etnonim, hidronimlər və şəxs adları mövcuddur. Bütün bu sözlər etimoloji olaraq sumer dilinə və onunla qohum olan digər dillərə bağlı olub, bu dillərin leksikologiyası əasasında izah olunur. Bu anlayışların kökünü təşkil edən *Tur* kəliməsinin Sumer dilində çoxlu anlamları ilə yanaşı bir də "oğul, nəvə, kiçik, balaca, körpə" mənaları vardır. Bu anlayışlar məna etibarı ilə insanlara aid olduğu kimi həmçinin, heyvanlara da aiddir. Misal üçün Qu-tur Sumer dilində "bala öküz" və ya "oküzün balası və ya oğlu" deməkdir. (J.Halloran. Sumerian Lexicon, Səh. 95)

Çox vaxt Tur sözü cavan öküz və ya dana mənasında da işlədilirdi. Tur sözü öküz anlamında Sumer dilindən sami dilinə *Thur* şəklində keçmiş və digər dillərdə də eyni anlamda vətəndaşlıq qazanmışdır. *Tur* sözü uqarit dilində öküz deməkdir. Müəlliflər bu sözün uqarit dilinə güney-batı Asiyanın qədim dillərindən keçdiyi fikrindədirlər. (Wilfred G. Watson. 1999, Səh. 96)

Tur sumer tanrılarından biri idi və günəş tanrısı Utunun öküzü adlanırdı. Enlilin oğlu tanrı Mardukun kassi donəmində Babilin tanrısı idi və sumercə deyilişi Tur-Utu şəklində idi.

İngilis assuroloqu Vaddelin yazdığına görə Günəşə sitayiş edən ilk Sumer kralları Tor, Tur, Ar-Tur kimi titullar daşıyırdılar. Odin, Od və ya Adam, Mis dövründə e.q. 3378-ci ildə Kiçik Asiyada ilk şəhəri salmış, sumer yazısını istifadə etmiş, kənd təsərrüfatını, monoqam nigahın əsasını qoymuş, oddan istifadəni inkişaf etdirmiş, ilkin mədəniyyətin və sənayə istehsalının əsasını qoymuşdur. Vaddelə görə bu Sumer Kiş şəhər dövlətinin hökmdarı Etana adlanan Ukusinin hakimiyyət dövrü ilə başlamışdır. Sumerin tanrısı və tufandan sonra ilk kralı və eyni zamanda Kiş şəhər dövlətinin ilk kralı Ukusidən sonra Sumerin kralları Tur ünvanını qəbul etmişlər. (Waddell L. 1929, Səh. 78)

Ukusinin adı mixi ideoqramı olaraq Qusur, Ukuşu və Qaur kimi də oxunur. (Waddell L. 1929, Səh. 468)

Aqade şəhər dövlətində hakimiyyət sürən və adları sumer hakimiyyət sülaləsi siyahısında olan krallardan biri Dudunun oğlu Su-Turuldur (m.ö. 2168-2154). Turul adı əslində Turan və Turnatdır. Bu ad Diyala çayının sumercə adıdır. (Douglas Frayne. 1993, Səh. 214)

Sumerin Quti hakimiyyət sülaləsi dövründə Urukun şimal-şərqində yerləşən Adab şəhər dövlətinin hökmdarı Uru-Tur adlanırdı. (Douglas Frayne. 1993, Səh. 256)

Akkad dövlətinin paytaxtı olan Aqade şəhərinin kralının Su-Turul və ya Turan adı daşıması onun Su xalqına mənsubluğunu sübut edir.

Ön Asiyadakı Turan yalnız sumerlərlə əlaqədar bir anlayış deyildi. Assuroloqlar Ön Asiyanın Mesopotamiya adlanan Fərat və Dəclə çayları vadilərində ilkin mədəniyyətin əsasını qoyan turanlı sumerlərlə yanaşı ən qədim çağlardan qonşu ərazilərdə onlarla etnik baxımdan qohum olan bir çox xalqların və tayfaların məskunlaşmış olduqlarını qeyd edirlər.

Kökü Tur və Turan kəlimələrinə bağlı olan çoxlu yer adları, eponim, teonim və etnonimlər həmin xalq və tayfaların məskunlaşdıqları ərazilərdə də geniş yayılmışdı. Assuroloq bilim adamlarının əksəriyyəti həmin xalqların ümumi turanlı mənşəyə malik olub istər etnik və istərsə də ümumi mədəni köklərlə sumerlərə bağlı olduqlarını inandırıcı elmi dəlillərlə sübut etmişlər.

İngilis assuroloqu R.Konder Əsas yurdları Midiyada olan turanlıların yayılaraq özləri üçün biri güney-batıda Sumerlər, digəri quzey-doğuda Kassilər olan iki yuva qurmuş olduqlarını yazır. (Conder R. A. 1898, Səh. 88)

Filip Smit Turanlıların dünyanın çox geniş bir ərazisinə yayılmış olduqları haqqında yazırdı: "Turan irqi qədim dövrdə Qafqazın tarixi ilə də sıx bağlı olmuşdur. Turan irqi Mərkəzi və doğu Asiya, Şimal Buzlu okeanına qədərki düzənliklərdə



Avropada və hətta Amerikada geniş yayılmışdır. Turan irqi, tatar/türkləri, hunları, monqolları, uqrları, kalmıkları, Amerikanın eskimoslarını əhatə edir. Turan irqinə mənsub olan xaldeylər (sumerlər) mədəniyyətin ilkin yaradıcılarıdırlar. Ari dilləri ümumi Turan dili ailəsi içərisində baş verən proseslər nəticəsində ayrılaraq formalaşmışdır". (Smith Philp, Vol. 1, 1865, Səh. 65)

Tarixi mənbələrə, o cümlədən mixi yazı mətnlərinə istinad edən XVIII-XIX və XX əsr Avropa tarixçilərinin bir çoxu Assurların Mesopotamiya adlanan İkiçayarasının şimal ərazilərini işğalından öncə bu ərazinin Aturiya və ya Turan adlandırıldığını öz əsərlərində qeyd edirlər. Bu coğrafiya tarixin ilkin dövrlərindən etibarən samilər gəlmədən öncə subir, kassi, qud/quz, namri və sak/iskit tayfalarının məskunlaşdığı ərazilər olmuşlar.

Strabon da Coğrafiya əsərində Mesapotomiyanın şimalında Arbela (indiki Ərbil) ilə bitişik Aturian adlı ərazinin mövcud olduğunu yazır. (Страбон, 1994, 6-12)

Edvin Norris Bisütun yazısının bütün mətnlərində Aturiya adlı ölkənin adı çəkildiyini yazır. Norris pars dilindəki mətndə Aturiyanın Armeniyada yerləşən bir vilayət olduğunun, lakin sak dilindəki mətndə Armeniya adının əks olunmadığını yazır. Onun fikrinə görə Aturiya ölkəsi və onun harada yerləşdiyi sak tayfalarına yaxşı məlum olduğundan sak mətnində Armeniya adının yazılmasına ehtiyac duyulmamışdır. Armeniya adı Assur mətnində də verilməmişdir. (E.Norris. 1852, Səh. 164)

Alman tarix əsərlərində Assuriyanın Əhəmənilər tərəfindən işğal olunmasından sonra adının kitabələrdə Assuriya deyil, əslinə uyğun olaraq Turan şəklində yazıldığı qeyd olunur. Əslində, Elam dilində olan Atur adı sami dilinin xüsusiyyətlərinə uyğun olaraq Assur və ya Aşşur şəklində yazılırdı.

Atur və ya Turan ərazisində mövcud olan ən qədim şəhərlərdən biri indiki Suriya Türkiyə sərhəddi yaxınlığındakı Ras əl Ayn şəhərinin yerində olan Quzan şəhəridir, onu bəzən Qurzan şəklində də yazırlar. Quzan şəhəri arxeoloji qazıntılar və assur yazılı mənbələrindən məlum olduğuna görə e.q. 1200-ci illərdən mövcud olmuşdur. Digər bir Quzan ölkəsi Urmiyə gölünün qüzey-doğusunda yerləşirdi. Hər iki yer adları heç şübhəsiz bu ərazilərdə məskunlaşmış turanlı Kas və ya Qud/Quz tayfalarının adları ilə əlaqədardırlar.

İngilis assuroloqu Sidney Smit yazır ki, Assur adı mixi yazı mətnində A-usar şəklində yazılmışdır onu sami sözü kimi qələmə vermək yanlışdır. Bu söz bir orijinal sumer adıdır. Bu adı Aşer şəklində hind-avropa adı kimi və Aşur formasında sami adı kimi də təqdim eləmək yanlışdır. Makedoniyalı İsgəndərin dövründəki mətnlərdə Assuriya adı Aturiya şəklində yazılırdı, aramey və suriya mətnlərində də At-tur şəklində yazılır. (Sidney Smith. 1928, Səh. 102)

Digər bir ingilis assuroloqu G.Kameron da Qutilər Babilə hücum etdikləri zaman Turan ölkəsinin Assur salnamələrində yazıldığı kimi qədim adı Turnat olan Diyala çayının sahilində yerləşdiyini yazır. (G.Cameron. 1936, Səh. 38)

Görkəmli assuroloq A.Şpayser Mesopotamiyada mövcud olmuş Tukrişin Qutulərə məxsus bir ölkə olduğunu yazır. Tukriş Elamın qonşuluğundadır. Lullibilərlə eyni qrupa daxil olan Turukki və Tukri/Tikriş müxtəlif şəkildə yazılan eyni adın "r" hərfinin yer dəyişməsi ilə müxtılif formalarını təşkil edir. (A.Spayser. 1930, Səh. 96)

Tukriş yəqin ki, bu ərazidə məskunlaşmış turanlı Quti tayfalarından birinin adı olmuşdur. Onların məskunlaşdığı ərazi bu tayfanın adından Tukriş adlanmışdır. Bizim Dəclə adlandırdığımız Tuqris çayı öz adını həmin xalqın adından götürmüşdür. Aramilər bu əraziyə gəldikdən sonra Tukriş ölkə adı tədricən Arameya və ya Armenia şəklində dəyişmişdir.

Tukrişlər sonradan Türkistanda mövcud olan turkeşlərin əzəmətli Turqeş xaqanlığının qurucuları olmuşlar. Kökləri Sumerin və Mesopotamiyanın turanlı Kəngər və Tukriş xalqlarına dayanan kəngər və turqeş boyları sonrakı dövrlərdə köçüb yerləşdikləri Türkistan tarixində önəmli rol oynamışlar

Şpayser İkiçayarasının etnik coğrafiyasından bəhs edərək samilərdən öncə Mesopotamiyanın və qonşu ərazilərin mixi mətnlərdə Elam, Quti, Subir, Ammarru (Mar-tu) və Sutium kimi adlandıqlarını və bu ölkələrin erkən tarixdə Sumer tərəfindən siyasi birliklər şəklində qruplaşdırılmış olduqlarını yazır. (A.Spayser, 1930, Səh. 124)

Danimarka assuroloq tarixçisi Nöldekeyə görə Aşşur və ya Assur adının qədim deyiliş forması Athur formasında olmuş, Daranın kitabəsində də o Atur şəklində yazılmışdır. Klassik yunan müəllifləri Strabon, Arrian da Assuru Athur şəklində yazırlar. Sami mənşəli arameylər də Atur kimi ifadə edirlər. (T.Nöldeke, 1886, Səh. 271)

Babil kitabələrində ilahə Turua Babil tanrısı Mardukun arvadıdır. (F.Hommel. 1885, Səh. 793)

Assuriya mixi yazı mətnlərində Assur ölkəsi və ya Asur tanrısının ölkəsi adlanır. Qədim coğrafi adı isə Aturiyadır. Assuria Dəclə çayının sol sahilində yerləşir. (F.Mürtder. 1891, Səh. 95)

Assurları öz əcdadları hesab edən samilər xüsusən də yəhudilər Samilərdən öncə bu ərazidə turanlı subirlərin və digər tayfaların məskunlaşdıqlarını və samilərin bu ölkəyə işğalçı kimi gəlib yerləşdikləri haqqında tarixi qaynaqlarda mövcud olan dəlilləri rədd edirlər. Əslində Assur adı turanlı Aturiya adının samiləşdirilmiş formasıdır.

Assuriya və Hatti ölkəsinin sərhəddində mövcud olan Turira şəhəri uzun zaman ərzində hər iki dövlət arasında mübahisəli ərazi olmuşdur. Tarixi mənbələrdən məlum olduğuna görə mühüm ticarət mərkəzi olan Turira şəhər dövləti Karkemişin quzeyində yerləşirdi. Turira təxminlərə görə Dəclə çayının üzərində Tuşan bölgəsində yerləşirdi.



Amerikalı assuroloq Georq Smit İkiçayarası ərazidə turanlıların və samilərin qarşılıqlı münasibətlərinə aydınlıq gətirərək yazırdı: "Fərat çayının vadisində ilk mədəniyyəti yaradanlar böyük Turan irqi olmuşdur. Assuroloq alimlərin əksəriyyətinin qəbul etdiyi fikrə görə Babil və Assuriya sivilzasiyasının, ədəbiyyatının, elminin və mifologiyasının yaradılması sami xalqının işi olmayıb, başqa xalq tərəfindən yaradılmışdır və onlar sami dilindən tamamilə fərqli bir dildə danışırdılar. Assuroloqlar belə bir fikir də irəli sürürlər ki, ilkin tarixi dövrdə turanlıların ərazisi sami irqi tərəfindən işğal olunmuş və onların yaratmış olduqları yüksək mədəniyyət və sivilizasiya, ədəbiyyat, incəsənətin hər bir növü, mifologiya və qanunlar samilər tərəfindən mənimsənilmiş və bu işğalçılar öz dillərini turanlılara qəbul etdirmişlər. (G.Smith. 1875, Səh. 449)

Emil Forrer Xatti dövlətinə aid mixi yazı mətnlərini araşdırarkən Mursilinin Halab kralı və digər Hurri kralı ilə müharibəsindən bəhs edərkən Aruar ölkəsi ilə yanaşı həmin ərazidə mövcud olan Turan ölkəsinin də adını çəkir. (Emil Forrer. 1926, Səh. 12)

Subartu dövlətinin görkəmli tədqiqatçısı Artur Unqnad Assuriya ölkəsinin gerçək adından bəhs edərək yazır: "Əhəmənilər dövrünə aid mətnlərdə Assuriya hər zaman Aturiya kimi yazılmış və bu ölkənin mərkəzi şəhəri isə Atur adlanmışdır. Yunanlar da Assuriyanı Aturiya adlandırırdılar". (A.Ungnad. Subartu. Səh. 126)

Sumerlərin Subar/Subir adlandırdıqları ölkəni akkadlar *elatu*, yəni "yüksəkdə olan ölkə" adlandırırdılar. (A.Ungnad. 1936, Səh. 26)

Fikrimizə görə öntürk etnosu olan Subar adlanan Su xalqının *Elatu* adı sonradan türklərdə yaylalarda yaşayan heyvandar tayfaların *Elat* adının kökünü təşkil etmişdir.

Yəqin ki, farslar Aturiya adını bölgənin qədim əhalisi olan midiyalılardan əxz etmişdilər. Midiyalılar tarixi ənənəyə uyğun olaraq Assuriyanın ərazisinin Subartu ərazisi kimi qəbul etdiklərindən assurları işğalçı kimi görmüş, ölkəni onun assurlardan öncəki adına uyğun olaraq Aturiya adlandırmışdılar.

O.Şröder mixi yazı mətnlərində Quti ölkəsi ilə Midiyanın və Subir ölkəsi ilə Qutinin adlarının yanaşı çəkilərək eyniləşdirildiklərini yazır.

Görkəmli alman assuroloqu F.Köniqin fikrinə görə *Matai* və ya *Madai xalqı* subar xalqı ilə möhkəm şəkildə qarışmışdı. Midiyanın ilk hökmdarı Dayakunun da adı bir Subar adı idi. (König F.W. 1934, Səh. 8)

Tarixçi Hroznu da Mesopotamiyanın qədim xalqları olan Qutilər, Kassilər və Lullubilər bir-birlərinə qohum xalqlar olduqlarını yazır.

Artur Unqnadın yazdığına sonradan bir hurri tanrısı kimi tanınan Hepet ilahəsi Misir heroqlif mətnlərində Subarların tanrısı adlandırılan Tur-Teşubun arvadı idi. Tur sonradan subarlara qohum xalqlar olan hattilərdə Tarku, hurrilərdə Teyşebu adlanmışdır. (A.Ungnad, Subartu, səh. 137)

Hommel Mesopotamiyada Tur tanrısına etiqadın geniş yayılmış olduğunu, Sumer-akkadların İştara həsr olunmuş himnində Tur-kulumnu tanrısının şərəfinə ucaldılmış məbəd haqqında bəhs olunduğunu yazır. Elamla sərhəddə, yəni Aturiya və ya Turan adlanan ərazidə İştara həsr olunmuş Tur-ilu, yəni Tanrı qalası adı ilə üç şəhər salınmışdı. (F.Hommel, 1885, Səh. 225)

Emil Forrer Tur eponiminin Sumer dilində olduğu kimi Xatti dilində də mənasının "oğul" və "nəvə" anlamı daşıdığını yazır.

Avropanın böyük tarixçilərindən biri hesab olunan alman alimi Eduard Meyer Tur kökünə bağlı Mesopotamiya ərazisindəki qədim tanrı adlarının geniş izahını vermişdir. Onun yazdığına görə Hititlərin baş tanrısı olan Tarkuya Kiçik Asiyanın bir çox xalqları tərəfindən etiqad olunurdu ki, bu onların etnik mənşə baxımından qohum olduqlarını sübut edirdi. Kiçik Asiya xalqları içərisində Tarxun adı geniş yayılmışdı. (Meyer E. 1892, Səh. 702)

Hititlərin və Urartuluların tanrısı Tarku adı Bibliyada İbrahim peyğəmbərin atasının Terah adına çox bənzəyir. Tarku adı Hititlərin tanrı adı kimi II Ramzesin mətnlərində də öz əslinə daha uyğun olaraq Turuk şəklində ifadə olunmuşdur.

Assur mətnlərində əks olunmuş "Turahu" Suriyadakı Turakhi dağının adı ilə İbrahim peyğəmbərin atası Terah adının varintı olduğunu müasir tədqiqatçılar tərəfindən də təsdiq olunur. Terah Sumerin Ur şəhərində doğulmuş sonradan Harrana köçmüşdü. Terahın adı Quranda sami dilinə uyğun olaraq Azər şəklində ifadə olunmuşdur. Kassilərın tanrılarının da adı Turqu idi. Etruskların tanrısının da adı Tarxon idi. Tarxunta adı yenə hititlərdə mövcud idi. E.Meyer Tur kökünə bağlı bütün bu qədim eponimlərin kökündə "thur"- öküz adının olduğunu təsdiq edir. (Meyer E. 1892, Səh. 705)

Bibliyanın tədqiqatçısı Renz Assuriyanın paytaxtının Attur şəhəri olduğunu, assurların onu sami dilinə uyğun olaraq Aşşur adlandırdıqlarını yazır. Assuriya adı yunanca Aturia və Suria şəklində yazılırdı, Aramey dilində "twr-tur", suriya dilində "atur", qədim pers dilində "atur" formasında yazılırdı. (Johannes Renz, 2016)

Bibliya ensiklopediyasının müəllifi D.Şenkel Aturiyanın coğrafi mövqeyini müəyyən edərək yazırdı: "Gerçək adı Aturia olan Assuriya quzeydən və doğudan Qorduen dağları ilə, güneydən Böyük Zab çayı, batıda isə Dəclə çayı ilə həmsərhəddir. Ərəb müəllifləri də Nimrud şəhərinin əsl adının Atur olduğunu yazırlar. (D.Schenkel, 1875, Səh. 267)

Bütün bu tarixi dəlillərə əsasən söyləmək mümkündür ki, Qədim türklərin ulu əcdadı olan Tur Assur krallığının adı ilə də bağlıdır. Akkadların Assur adlandırdıqları ölkə assurların öz dialektində Atyr kimi ifadə olunur. Rus tədqiqatçi A. Leonova görə Atur sözünün əvvəlindəki başlanğıc "A" səsi etimoloji kökə aid deyil, sözün önünə onun ifadəsini asanlaşdırmaq məqsədilə əlavə edilib. Buna görə



də Assur adının kökü əslində "Tur"dur. (Андрей Леонов, Потомки "туранцев" в европейском этногенезе: от саков до фрягов. Megamatrix.ru)

Alman assuroloqu F.Hitziq yazılı mənbələrə əsasən Assuriya və Aturiyanın müxtəlif ərazilərdə yerləşən ayrı-ayrı ölkələr olduğunu yazır. İbrani mənbələrindən də göründüyü kimi Assuriya Dəclə çayından batıda yerləşirdi, onun doğu sərhəddini Fərat çayı təşkil edirdi və beləliklə, Assuriya iki çay arası ərazini əhatə edirdi. Dəclənin doğusunda yerləşən ərazi isə Aturiya adlanırdı. Adların mənaları eyni olmadığından onların zahiri bənzəyişi aldadıcı ola bilər. Aturiya adı qədim fars dilində Athura şəklində yazılırdı. Athura sözünün mənası su üzərindəki ölkə deməkdir. Hitziq bəhs olunan bütün bu ərazidə qədimdən etibarən yerli iskit xalqının yaşadığını qeyd edir və buna uyğun olaraq da Aşşur sözünün türk dilində ötə, ötə tərəf, qarşı tərəf mənasında olan "aşırı" sözü ilə müqayisə edir və bunun çayın ötəsi, qarşısında olan ölkə mənası daşıdığını yazır. Onun yazdığına görə Assur adlanan ərazi Musanın kitabında Aram adlanır bu ibrani dilində ikiçay arası deməkdir. (F.Hitzig, 1871, Səh. 4-5)

Hitziq Assuriyada hökm sürən Sinnaheribin sülaləsinin də bir midiya sülaləsi olduğunu yazır.

Assur Mixi yazı mətnlərində adı keçən Athur-uşna bir krallıq, ölkə adı olub, həm də şəhər adıdır. Adın sonundakı "uşna" assur dilinə xas sonluqdur və sözün kökü Athurdur. Athur şəhəri Anadoluda Ürqüpdə və ya yaxınlığında olduğu təxmin edilir. (Remzi Kuzuoğlu. 2007, Səh. 39, 189)

Alman assuroloqu Artur Unqnad İkiçayarasının qədim Turan ərazisinin Subir və ya Subar ölkəsinin ərazi sərhədlərinə uyğun olduğunu yazır. Bu ərazi Babilin quzeyində Dəclə, yəni Tukriş çayının doğu sahillərindən başlayaraq doğuda Zaqros dağlarına qədər, quzeydə isə Urartuya qədər, güneydə Diyala çayının quzeyini əhatə edirdi. (A.Ungnad, 1923, Səh. 4)

Mesopotamiya ərazisində mövcud olmuş qədim turanlılara məxsus şəhər, çay, müxtəlif yer adları tarixin sonrakı dövrlərində tarixi varisliyə uyğun olaraq türklərə məxsus toponim, hidronim və etnonimlər şəklində öz əksini tapmışdır.

Sumerin Ninurta haqqında mifində Turan daşı haqqında bəhs olunur. Turan Sumerlərin Diyala çayına verdikləri addır. (Thorkild Jacobsen. 1987, Səh. 266 )

Aturiya adının mənası Atur ölkəsi deməkdir. Bu ad çox zaman kassi dilinə məxsus mənsubiyyət və yer anlamı daşıyan *an* şəkilçisi qəbul etməklə Aturan və ya Turan şəklində yazılırdı.

Assur dövlətinin əsasını qoymuş krallar Uspi və Kikinin subarlı mənşəyə malik olmaları tam universal hesab olunur. Bununla bərabər qutilər də bu ərazidə 90 il hakimiyyət sürmüşlər. Aşşur şəhərindəki arxeoloji qazıntılar burda Sumerin böyük mədəni təsiri olduğunu göstərir. III minillikdə hurilər Assuriyanın böyük əra-

zisini işğal etmişdilər və Assur/Atur şəhəri hər tərəfdən hurri məskənləri ilə əhatə olunmuşdu.

Assurun adı qədim assur dilində Atur şəklində yazılır. Samilər onu Aşşur və ya Assur şəklində yazıb ifadə edirlər. Xristian assurlular öz dillərini turaya adlandırırlar. Sözün kökü Tura kəliməsidir. Ərəblər indi də xristian assurları "turon", dillərini də "tourani" adlandırırlar. Tura sözünü "dağ" anlamı daşıdığı qeyd olunur. Mənbələr m.ö. III minillikdə Assur şəhərinin yerləşdiyi ərazidə subarların məskunlaşdığını qeyd edirlər və orda hökm sürən kralların sübar mənşəli olduqlarını yazırlar. Bu gün də Türkiyədə yaşayan assur-suryanilərin xristian kilsəsi qədim ənənəyə uyğun olaraq Xaldey kilsəsi adlanır. Onlar digər xristian müqəddəslərinin şərəfinə dini ayinlər-liturqiyalar yerinə yetirdikləri kimi bu liturqiyaların böyük qismi suryanilərin, yəni qədim atur/turların və öntürklərin əcdad eponimi olan Qomerin oğlu Turqamaya həsr olunmuş və onun adı ilə dini ayinlər və himnləri icra edirlər. Turqama suryanilərin İsus Xristos, Mariya, Pavel, Pyotr və s. bərabər dini müqəddəslər panteonuna daxildir. Suryanilər rus və biz türklərdən fərqli olaraq öz ulu əcdadlarının adını təhrif olunmuş şəkildə Toqarma kimi deyil, orijinalda olduğu kimi doğru olaraq Turqama şəklində ifadə edirlər.

Turan dünyası müxtəlif qruplara bölünmüşdür. M.ö. II minillikdən etibarən qruplaşma gözə çarpmaqdadır. Asiyanın şərqində tibetliləri, dravidləri də əfatə edən Turan dünyasının sərhədləri qərbdə Kiçik Asiyanı da öz içərisinə alaraq Krit adasına qədər uzanmaqda idi. Kiçik Asiyanın turanlı Alaroid xalqının məskunlaşdığı ərazi halə kimi Mesopotamiyanı əhatə edirdi. Qərbdə beş sami mənşəli dövlət Turan dünyası qarşısında sıxışmış vəziyyətdə idi. (Wirth A. 1905, Səh. 24)

Turanlılar adlandırıldıqları kimi barbarlar deyildilər, onlar sivilizasiyanı Qərbi Asiyaya ilk gətirənlərdir. Onlar Avropanın cənub sahilləri boyundakı qədim dünyaya incəsənəti və elmi də ilk olaraq yaymışlar. Turanlılardan sonra tarix səhnəsinə qədəm qoymuş sami və ari irqləri bünövrəsi Asiyalı turanlılar tərəfindən qoyulmuş, lakin müəyyən zaman kəsiyində unudulmuş bəşər sivilizasiyasının sahibliyini üstlənmişlər. (Conder R.A. Vol. 19. 1890, Səh. 43)

Görkəmli tarixçi və assuroloqların yuxarıdakı şərhlərindən aydın olur ki, qədim dövrlərdə Zaqros dağlarından başlamış Mesopotamiyanın şimalını və Fələstinə qədərki qərb ərazilər Ön Asiyanın sumer, subir, su, kas, quti, xatti kimi qədim Turanlı xalqların məskunlaşdığı ərazi olmuş və qədim mixi mənbələrdə bu ərazi Turan adlanmışdır.

## Turanlı ön türklərin ölkəsi Elam

Elam ölkəsi Zaqros dağlarının güneyində, İndiki İran yaylasının cənubunda Dəclə çayından şərqə doğru vadi və dağlıq ərazidə, müasir Xuzistan və Fars əyalətlərini də əhatə edən ərazidə yerləşirdi. Mesopotamiya ilə həmsərhəd olan Elam ərazisindən Kərha və Karun adlı iki çay axaraq qədim zamanlarda Fars körfəzinə indi isə Şətt ül-Ərəb çayına tökülür.



Elam qədim Ön Asiyanın e.q. 3-cü minillikdən, e.q. VI əsrə qədər davam edən qüdrətli dövlətlərindən biri olmuşdur. Yunanların Sus adlandırdıqları Şuşi və Anşan və ya Anzan Elamın ən böyük şəhərləri idi. Anşan indiki Şirazın yaxınlığındakı Təpəmalyan şəhər xarabalığıdır. Elamın digər şəhərləri Simaşki, Avan, Baraxsa, Marhaşi və ya Adamdun şəhərləri idi.

Elam adı ümumiləşdirici bir termin olub konkret bir etnosu ifadə etmir. Elam ərazisi iran tayfalarının bölgəyə gəlməsindən öncə eyni etnik kökə və dil qrupuna mənsub qohum tayfalar tərəfindən məskunlaşdırılmışdı.

Ön Asiyanın ikinci ən qədim mədəniyyəti hesab olunan Elamla Sumer arasındakı etnik, dil və mədəni əlaqələr məsələsi uzun illər ərzində assurologiya elminin ən çox müzakirə və mübahisələrə səbəb olan mövzudur. Bu məsələyə münasibətdə bilim adamları arasında Elam və Sumer mədəniyyətlərinin eyni kökə və hər iki xalqın eyni etnik mənşəyə malik olduqlarını qəbul və təkzib edən iki fikir ayrılığı mövcuddur.

XX əsrin Mesopotamiya, Elam və qədim İran arxeologiyası üzrə böyük mütəxəssis və tarixçi alman alimi Ernst Herzfeldin qənaətinə görə arxeoloji qazıntılar nəticəsində Suz I və Suz II abidələrində aşkar edilmiş boyanmamış saxsı qablar Sumerin Uruk mədəniyyətinə aid boyasız saxsı qab nümunələrinə o qədər bənzəməkdədirlər ki, onların eyni olduğu düşüncəsini yaradır. Burdan belə bir nəticə hasil olur ki, Elamın Suz I mədəniyyəti Sumerin Ubeyd dövrünə, Suz II isə Cəmdət Nəsr dövrünə, yəni Mis dövrünün başlanğıcı və son mərhələsinə uyğundurlar. E.q. IV minilliyin tarixəqədərki dövrünə aid Elamda baş verən hadisələrlə Sumerdə baş verən hadisələr sıx əlaqədar olmuşdur. Tarixəqədərki və sonrakı tarixi dövrdə hər iki regiondakı əhali arasında təmas fasiləsiz şəkildə mövcud olmuş bu insanların həyatını idarə edən hadisələr sonrakı dövrlərdə də paralel şəkildə davam etmişdir. (Ernst Herzfeld. 1941. Səh. Səh. 5)

Alman assuroloqu Georq Hüzinq Zaqros dağları və orda yaşayan xalqların tarixinə həsr etdiyi əsərdə Kassilərə də geniş yer vermişdir. Hüzinq Zaqros dağlarında məskunlaşmış qədim xalqlar olan kassi və lullubiləri Elamlılarla eyni etnik mənşəyə malik qohum xalqlar adlandırır. (Georg Hüsing, 1908, Səh. 24)

Quzey-batıdan gələn və ağ irqə mənsub həmin tayfalar Zaqros dağları üzərindən tarixin erkən çağlarında Elama gələrək burda məskunlaşmış, öz dillərini, miflərini və kultlarını sumerlərlə paralel olaraq yerli xalqa qəbul etdirərək hakim xalqa çevrilmişlər. Linqvistik araşdırmalar onların Qafqaz qrupuna mənsub olduqlarını göstərir. Onların Elam ərazisinə mühacirəti təxminən e.q. 3-cü minilliyin ortalarında baş vermişdir. Bu tayfaların gəlişi zaman-zaman təkrarlanaraq Elam im-

periyasının formalaşmasına şərait yaratmışdır. (Georg Hüsing, 1908, Səh. 60)

Potts G.Huzinqin kassilərin elam tayfaları olması haqqındakı fikrini qəbul etməyərək bu tezisin nə linqvistik, nə də antropoloji baxımdan təsdiq olunmadığını yazır. O elamlıların və kassilərin yaxın münasibətlərini iki hakimiyyət sülaləsi arasında uzun illər ərzində davam edən nigah əlaqələri ilə izah edir. Bu nigah əlaqələrini bəzi müəlliflər I Kuriqalzunun dövründən başlayaraq e.q. 1290-1170-ci illəri əhatə edərək 120 il ərzində davam etdiyi fikrini irəli sürürlər. Lakin Potts I Kuruqalzinin hakimiyyətinin e.q. 1375-ci ildən öncə başladığını və bu evlilik əlaqələrinin üzərinə daha 85 il gəlmək lazım olduğunu yazır. Aşkar edilmiş mixi mətnlər və arxeoloji dəlillər e.q. XIV əsrdə kassilərin kralları II Burnabriaş və II Kuriqalzu dövründə qədim mətnlərdə Dilmun adlanan Bəhreyni öz hakimiyyətləri altına aldıqlarını və orda bir kassi qubernatorunun hakimiyyət sürdüyünü sübut edir. (Potts D. T. 2006. Səh. 115)

Lakin bir çox görkəmli assuroloqlar elamlıların kassilərlə və Zaqrosda məskunlaşmış digər turanlı xalqlarla qohumluğu ideyasını müdafiə edirlər.

Elam dilini və tarixini tədqiq edən görkəmli assuroloqların sırasında Yusif Yusifov da özünəməxsus yer tutur. O dünya üzrə tanınmış ən görkəmli elamşünaslarından olub "Elam. İctimai-iqtisadi tarix" adlı fundemental bir əsərin müəllifidir.

Elamın erkən siyasi tarixi Avan sülaləsinin hakimiyyəti ilə başlamışdır. Sumerlər Elamı *Nim. Ma. Ki* adlandırırdılar. *Nim* sözünün Sumercə mənası "yüksək ölkə" deməkdir. Akkadlar Elamı *Kur. Ellammatum* adlandırırdılar, elamlar özləri isə ölkələrini *Hatamti* və ya *Haltamti* adlandırırdılar, *hal* elam dilində "ölkə" deməkdir, adın bütövlükdə mənası "krallar və ya prinslər ölkəsi" deməkdir.

Qədim farslar da Elamın sumer dilindəki mənasına uyğun olaraq onu *Uaca* və ya *Uca* adlandırırdılar. Bu söz eynililə Türk dilindəki "uca" anlamındadır. Heç şübhəsiz bu söz Əhəmənilərin iran dilinə Elamın etnik kökünü təşkil edən turanlı öntürk tayfalarından birinin dilindən keçmişdir. Rəşidəddin Oğuznaməsində də Oğuz Sabalan, Aladağ. Ağdıberi dağlarını və bütün Azərbaycanı fəth edəndən sonra öz xüsusi atlarını Ucanın geniş və gözəl otlaqlarına buraxır. Dastanda qeyd olunan Ucan Elamın yerləşdiyi yüksək dağlıq yaylaları nəzərdə tutur.

Uçan yaylası bu gün də Güney Azərbaycanın geniş yayları olaraq mövcuddur.

Farslar Elamı, həmçinin Xuzistan adlandırırdılar. Elam dili qrammatik quruluşuna görə aqqlütinativ-bitişik dildir. Elamın qədim yazı sistemi piktoqrafik olmuş, sonra xətti yazı sisteminə keçilmiş, daha sonra isə mixi yazıdan istifadə edilmişdir.

Elamın ən qədim dövr hakimiyyət sülaləsini Avan şəhərinin hökmdar sülaləsi (e.q. 2700-1600) təşkil edirdi. Elamla qonşuluqda Kassi, Quti, Aratta, Namri kimi ölkələr yerləşmişdi.



Alman assuroloqu F.Hommel Elamı Ön Asiyada Sumerdən sonra ən qədim mədəniyyət adlandırır və bu arazidəki sami və ari olmayan digər qədim xalqlarla qohumluq əlaqələrinə malik olduqlarını yazır. "Babildən doğuda Fars körfəzi sahillərində yerləşən Elam Babilin və Misirin tanıdığı ən qədim mədəniyyətə sahib idilər. Elam samilərlə qarışmadan öncəki Sumer mədəniyyətinin bir qolu kimi qəbul olunsa da ondan yüksəkdə deyildi və sumerlərdən əxz edilmiş özəl yazı sisteminə malik idi. M.ö. 3000-ci ildə Elam artıq möhkəmləndirilmiş şəhər qalalarına və siyasi baxımdan böyük təsirə malik xalq idi. Elamın qədim adı Anşan idi, sumerlər ölkəni İlamma adlandırırdılar ki mənası yüksək ölkə deməkdir. Samilər bu ada "tu" sonluğu əlavə edərək İlamtu şəklində ifadə edirdilər. Elamlar mənşə etibarı ilə sami olmayan xalq idi. (Hommel F., 1885, Səh. 272, 273)

Elam kral adlarının etimalogiyası və onların adlarındakı "k" sonluğu elamlıların kassilərlə, hititlərlə və urartulularla qohumluğunu göstərir. Anzan adını Oppert elam dilində "düzənlik" və həmçinin "ölkə" mənası daşıdığını və bu sözün kassi dilində kral anlamındakı "ianzi" sözü ilə əlaqədar olduğunu yazır. Babil dilindəki Anzan adı sami assurlar tərəfindən Anşan formasında tələffüz olunmuşdur. Elamın Anşan bölgəsində hakimiyyəti ələ keçirmiş Əhəmənilərdən olan Kirin əsl adı Kuraş kassi-elam dilində "çoban" deməkdir. (Hommel F. 1885, Səh. 274)

Lenorman Elam adının samilərin bu xalqa verdiyi ad olduğunu və sözün kökü olan "el" kəlimasinin "yüksək ölkə" anlamı daşıdığını yazır. "Elam düzənlik Xaldeydən fərqli olaraq Dəclə və Persia arasındakı dağlıq ərazidə yerləşir. Elamların sami xalqı kimi təqdim edilməsi bizi təəccübləndirdi, ona görə ki, linqvistik baxımdan Elam samilər üçün qəti şəkildə yabançıdır. Bizim mixi yazı abidələrində bu dilə aid oxuduğumuz kəlimələr aqqlütativ quruluşa malikdir və arilərə qədərki qədim proto midiya xalqının dili ilə sıx əlaqədə olub, müəyyən dərəcədə altay dilləri ilə xüsusən də onun türk dili qolu ilə əlaqədardır". (Lenormant F. 1895, Səh. 280)

Fərat və Dəclə hövzəsində, Babil və Xaldeydə iki fərqli əhali qrupuna və iki fərqli dilə rast gəlirik. Bir tərəfdən sami-kuşilər və digər tərəfdən Sumer və Akkada, həmçinin Elam və Midiyaya aid olan turanlılar. Müsbət mənada demək lazımdır ki, Sumer və Akkad turanlılar qrupunda özəl bir qol təşkil edirlər. Onların turan dili inkişafdan qalaraq malik olduğu arxaik şəklini qoruyub saxlamışdır. (Lenormant F. 1895, Səh. 308)

Edvard Norris Elamlıların öz ölkələrini "Afarti" adlandırdıqlarını bu adın "Amarda" tayfasının adı ilə əlaqələndirir, hər iki adın müxtəlif varsiyalarını şərh edir. "Elam və ari-farsların adlandırdıqları kimi Uvaca deyil, mənim oxuduğum dərəcədə "Afartı" ölkəsi və "Afarti" xalqı adlandırılır. Mən bu sözü "Avar", "Amar", "Abar" kimi izah edirəm. "A" kimi oxunan birinci hecadan sonra sözün oxunuşunu "Han" kimi qəbul etmək olar ki, bu fars dilində "Handita" sözünə uyğundur. Sözün ikinci hissəsi Qambisin qardaşı Smerdis və ya Mardis və ya Mardos adını

əks etdirir. Bu ad Xəzər dənizi yaxınlığında yaşayan köçəri Amardis və ya Mardis adını əks etdirmiş ola bilər. Bu tayfanın bir qolu Suz və Parsua arasında məskunlaşmışdı. Bu yazı Amardi tayfasına mənsub insanların dili ola bilər. Afarti və Amardi tayfası öz adını yaşadıqları bu vilayətə verə bilərlər". (Norris E. 1852, Səh. 4, 13, 164)

Norris Bisütun kitabəsinin Sak (onu Midiya və elam dili də adlandırırlar) mətnində Suzun adının yunanca Susiana, parsca Uvaca və samicə Elam adlarından tamamilə fərqli olan sakların öz dilində Afar(ti) kim yazıldığını qeyd edir. Roulinson Norrisin onun kitabına yazdığı qeydlərinə yazdığı cavab şərhində Elamın sakca adını "Afar" şəklində açılışını verir və bu adı Əfrasiyab adı ilə əlaqələndirir. (Norris E. 1852, Səh. 252)

Hər halda bu Əfrasiyab adının izahının fərqli bir versiyasıdır. Bizim fikrimizə görə Əfrasiyab adının birinci tərkib hissəsi Sakların öz dillərində Afar adından və qədim türkcə nəsl anlamındakı "soy" və ya "sue/suev" sevmək sözündən ibarət ola bilər.

Dyakonov da Assur samilərin Sin tanrısının kök etibarı ilə elamlıların kökü Sumer tanrısı Zuenə bağlı olan "Suen" eponimindən yarandığından bəhs edərək yazır ki, suen adı sonradan assur samilərin Sin, yəni ay tanrısına çevrilmişdir. Suen sumercə Zuen şəklində yazılırdı. (Дьяконов И. 1959, Səh. 2570)

Elamla qonşuluqda yerləşən Namri ölkəsinin adı sumer dilində *Kur. Zalaq* şəklində yazılırdı, akkadlar onu *Namar* adlandırırdılar. Namri krallığı Diyala çayının şərqində Zaqros dağlarının şimal-şərqində yerləşirdi. Namri ölkəsinin ərazisində əsasən kassilər yaşayırdılar. Kassi kralı Nazi Maruttaşın kitabəsində hökmranlığı altında olan ölkələr siyahısında Namri adı da yazılmışdır. Kassilərin xabba və ya xamba boyunun mənsub olduğu Bit Habbar ölkəsinin kralı İanzu e.q. 842-ci ildə Namrinin də kralı idi.

E.Norris Ön Asiyanın ən qədim turanlı tayfalarından olan namriləri Elamın əsas etnoslarından biri hesab edirdi. Onun yazdığına görə Sakların bir qolu olan namriləri Babillilərin samilərə qədərki əcdadları idilər. Namrilər Assuriya hakimiyyəti dövründə Midiya da daxil olmaqla bütün Elam ərazisini əhatə edirdi. Namri adı mixi yazılarda hər zaman Elamla birlikdə çəkilir. Namri ölkəsi Elamdan aşağıda Kiçik Zab çayı ilə Zaqros dağları arasında yerləşirdi. Sarqonun müasiri Humba Neqas hər iki xalqın kralı idi. Suzdakı və elamdakı mixi yazıları eyni xarakterə malikdirlər.

Norris yazırdı ki, Assur yazılarında Namrinin bir çox kral adları sami mənşəyə malik olub Assur tanrılarının adlarını daşısalar da, mən onları sami olmayan orijinal sak-namri adlarının sami dilinə tərcüməsi kimi qəbul edirəm, çünki Elamda və Suzda aşkar edilən yazı mətnlərində sami tanrılarının adlarına rast gəlmədim. (Norris E. 1852, Səh. 236)



"Assur mətnlərində namri adı başda yazılır, çünki Kiçik Zab çayını keçdikdən sonra ilk yerləşim yeri onlara məxsusdur. Mən indi farsların istifadə etdikləri Nimruzu skiflərin Namiri adının təhrif edilmiş forması hesab edirəm. Bibliyadakı Nimrod adı Namrilərin adından yaranmışdır. Norris namri və sak adlarını eyni xalqın iki fərqli adı kimi izah edir. Namri adı ilə Sak adının fərqi ondan ibarətdir ki, namri adını samilər vermişlər sak adını arilər vermişlər. Namri adı ovçu bəbirbars deməkdir, sak adı isə ovçu it deməkdir". (Norris E. 1852, Səh. 238)

F.Hommel namriləri samiləşmiş kassilər adlandırırdı.

Eduard Meyer yazır ki, Babil mətnlərində saka və kimmerlərin adları Namirri formasında ifadə olunmuşdur. (Meyer E. 1913, Səh. 907)

Bütün bu tarixi faktlar Elam ölkəsinin etnik tərkibinin başlıca qollarından birini təşkil edən namiri tayfalarının kimmer-saklardan ibarət olduqlarını təsdiq edir.

Kimmer və sakların Herodotun iddia etdiyi kimi Ön Asiyaya m.ö. VII yüzillikdə gəldikləri haqqındakı fikirlər tarixi faktlarla təkzib olunmaqdadır. Saklar Ön Asiyaya daha erkən dövrdə gəlib Azərbaycanda, o cümlədən Urmiyə gölü ətrafında və İkiçayarası ərazidə məskunlaşmışdılar və onların burda məskunlaşmış olduqları ərazi samilər tərəfindən Namri adlanırdı.

Elamda hakimiyyət varisliyi ənənəsi eynilə türklərdə olduğu kimidir, hökmdar öldükdə hakimiyyət onun qardaşına keçirdi və onun oğlanları hakimiyyətə yiyələnmək üçün əmilərinin ölümünü gözləməli idilər. Elam kralı Urtaki öldükdən sonra hakimiyyət onun qardaşı Umman Aldasa keçdi, onun ölümündən sonra isə hakimiyyət Urtakinin oğlu Teomana verildi. (Smith G. 1875, Səh. 162)

Assuroloq A.Virt Elamda titulun və tanrı adının türkcə şərh edərək yazırdı: "Elamlılarda hökmdarların "kutur" ünvanı mövcud idi, bu Bibliyada da öz əksini tapıb. "Kutur" sonradan hunlardakı əzəmətli, ali anlamı daşıyan "kut/kutu" ünvanı ilə eyniyyət təşkil edir. Elam dilindəki "kudur" sözü "xidmət edən" kimi izah edilir, lakin "kutur" Babillərdə Tanrı anlamı daşıyır. Türklərdə bu ünvan "kut" və "kutlu/kutluq" şəklində ifadə edilir və mənası xoşbəxt, səadətli deməkdir. Mən əminəm ki, elamlıların "Turqu" və ya "Turku" tanrısı türklərin də tanrısı olmuşdur. Alaroidlərdə də Tarxu tanrı adı eyni kökdən gəlmədir, finlərdə bu "taxol" şəklində mövcuddur. Elamın Teuman kralının adı Hunların ilk hökmdarı Teoman adı ilə eynidir". (A.Wirth, 1905, Səh. 201)

F.Şpiqel də Norrisin şərhini qəbul edirdi. "Perslər Babil mixi mətnlərində Elam adlandırılan ölkəni Uvaca, yəni Uca adlandırırdılar. Bisütun yazısının sak və ya midiya dili adlandırılan ikinci mətnində bu ölkə Afarti adlanır. Afarti adını ilk dəfə Norris müəyyən etmişdir. Bu üç addan hansının xalqın öz adı olduğunu müəyyən etmək istəsək o zaman bisütunun ikinci mətnindəki Afarti adı xalqın öz adı olduğunu qəbul etmək olar. Pliniy Elamla Midiya arasındakı sərhəddə yaşayan

xalqı Amardi adlandıraraq onların sak mənşəli olduqlarını qeyd edir. (Spigel F. 1863, Səh. 130)

Elam mətnlərinin sonrakı təhlili Norrisin Afarti kimi oxuduğu adın əslində Amarda olduğu müəyyən olunmuşdur.

M.Nibur Ön Asiyanın qədim etnoslarının türklərdən ibarət olduğunu qəbul edərək Susun, Elamın və bütün İranın Assuriya dönəmində türk-tatarlar tərəfindən məskunlaşdığını yazmışdır. (Nibuhr M. 1857, Səh. 144)

Alman tarixçisi A.Billerbeck də Elamın əhalisini siyasi baxımdan türk və turanlı adlandırmaqdan ehtiyat edərək onları qədim monqollar adlandırır: "Susun quzey və quzey-batı dağlıq ərazilərini erkən tarixi dövrlərdə ağ rəngli, orta boylu və möhkəm bədən quruluşuna malik, braxikefal tipli, bizim qədim monqol irqi adlandırdığımız xalq yaşamaqda idi. Onları iskitlər də adlandırırlar. Bu xalqın haradan gəlib Ön Asiyada yerləşdikləri tam aydın deyil. Lakin onlar çox səmərəli xalqdır, hara gedirlərsə orda yüksək mənaviyyata zəmin yaradır, həmişə təkmilləşməyə meyllidirlər, sənətkarlıqda mahirdirlər, dilləri sadə və lakonikdir; ox, yay və nizə onlarım daimi silahlarıdır. Onların bölgəyə gələn ilk tayfaları atı minik və yük heyvanı kimi özləri ilə gətirmişdilər. İlk döyüş arabaları da bu monqollara məxsus idi ki, misirlilər onunla ilk dəfə m.ö. III minilliyin sonrasında tanış olmuşdular. Qədim monqolların Ön Asiyaya köçləri yüz illərlə davam etmişdir. Ölkəni quzeydən başlayaraq öncə Urmiya ətrafında, sonra isə Ardilan (Ardilan türkcə dağlıların eli deməkdir) və Luristanda və digər ərazilərə yerləşən bu xalqın ilk gəlişləri m.ö. V minilliyin başına təsadüf edir". (A.Billerbeck, 1893, Səh. 24)

Billerbek adı Anşan olan ölkənin xalqının anşanlılardan ibarət olan əhalisinin dilinin kassi dili, amardların danışdığı apri dili və sus/xuz dili olmaqla üç dialektdən ibarət hesab edirdi. Bu dillər sumer və akkad dilləri kimi aqqlütativ quruluşa malik idi. Billerbekə görə Sumerin hökmran xalqının dili ilə anşan dili eyni kökə malik olub qohum dillər idi. Babilin işğalından sonra Elamda hakimiyyətə gələn kral Kudur Naqhunta olmuşdur. Naqhunta elamda tanrı adıdır. Kudur sözünü Seys kassi dilində "xidmətçi və yükdaşıyan" kimi tərcümə edir.

Əfsanəyə görə Kudur Naqhunta iki fərqli xalqı eyni hakimiyyət altında birləşdirmişdi. Qara neqroid irqə mənsub düzənlikdəki əhalini və dağlarda yaşayan ağ irqə mənsub xalqı yunan müəlliflərinin yazdığı əfsanəyə görə Memnon Şəfəq ilahəsi Eosun və Efiop Titonun oğlu idi. Onun anası əslində dağlıq Kassinin şəfəq saçan qarlı dağlarının ilahəsi, Susun ilahə Avrorası idi. Memnon Babil tanrısı Kudur Naqhunta adını qəbul etmişdi və Elamın çoxsaylı hökmdar sülaləsinin əsasını qoymuşdu. Kudur Naqhunta Memnonun özü idi yoxsa onun varisidir, bu yunan əfsanəsi bunu aydınlığa qovuşdurmur. (A.Billerbeck, 1893, Səh. 35)

Simaşki Zaqros dağlarının aşağı ətəklərində Elamın arxasında indiki Fars əyalətində İsfahan yaxınlığında yerləşirdi. Simaşki sülaləsi e.q. 2030-1890-cı illər arasında Susda hakimiyyətə yiyələnərək Elamda hakimiyyət sülaləsinin əsasını qoymuşdular. Şimaşki sülaləsini hakimiyyətdə onlara qohum tayfalar olan Sukkalmah xanədanı əvəz etmişdir. Elam Şimaşkilərin və Sukkalmahların hakimiyyəti dövründə Asiyanın batısında ən güclü bir dövlətə çevrilmişdi. Onların hakimiyyəti dövründə Elamın öz ərazilərini daha da genişləndirilməsi cəhdlərinin qarşısı Babildə Hammurapinin hakimiyyəti tərəfindən alındı. (T. Bryce. 2009, Səh. 718)

Kudur ünvanı ilə bərabər Elamda uzun müddəd hakimiyyətdə olan (e.q. 1850-1505) hakimiyyət sülalələrindən biri də Sukkal-mah sülaləsi mənsubları olub Sukkal ünvanı daşıyırdı. Sukkal-mah Elamın ali hökmdarı olub mənası "Böyük sukkal" deməkdir. Əyalətləri idarə edən hökmdarlar isə sadəcə Sukkal ünvanı daşıyırdılar. Sumer dilində *Sukkal* sözünün mənası eyni türk dilində olduğu kimi "ağ saqqal, müdrik" deməkdir. Sumerlər bu sözü titul kimi vəzir və elçi anlamında da işlədirlər.

Sumerdə tanrı Enlilin oğlu yeraltı dünyasının öküz surətindəki tanrısı Nerqalın vəziri tanrı Namtar Sukkal ünvanı daşıyırdı. Göytürk xaqanlığı və Türqeş xaqanlığında da Sakkal hakimiyyət titulu idi. 706-cı ildə Türqeşlərin xaqanı Sakal xaqan oldu. Xaqanlıqdan öncə o Talas ətrafı ərazi olan Ulunun hakimi idi. Çin mənbələri onun titulunun Sakal tutuk olduğunu yazırlar və sakal sözünün də saqqal anlamında izah edirlər. (B. Радлов, 1989, Səh. 220)

Türklərdə Sakal boy adları da mövcuddur. V.Radlov Sakal-telenqit çuyların boyu, Kara sakalı isə kazax-qırğızların kiçik ordasının alçın tayfasının boy adı olduğunu yazır. (B. Радлов, Səh112)

Y.Yusifov Sukkal sözünü "elçi" kimi izah edir. Sumer dilini türk dilləri ilə müqayisəli şəkildə araşdıran Osman N. Turan sumerlərin Sukkal sözünün eynilə türk dillərindəki "Ağ saqqal, müdrik" anlamı daşıdığını yazır. (Osman N.Tuna. 1990)

Sukkal sülaləsinə mənsub bir çox hökmdar adları eynilə türk adları kimi ifadə olunur: Attakuşu, Kutuçuluş, Kutur̆şilxak, Attameral, Ebərət, Kuk-kirvəş, Tan-uli və s.

Elamda Teuman, Kurtaq kimi türkcə olan kral adları ilə yanaşı türkcə olduqları şübhə doğurmayan Taru, Kutur, Kiq, Atta, Kuduz, Ebar kimi hakimiyyət sülalə ünvanları mövcud idi.

Rus assuroloq Zinaida Raqozina Elamda məskunlaşan xalqın dilinin turani və ya ural-altay mənşəli olub sumer-akkad dili ilə qohum olduğunu yazır. Elam adı da turanlı mənşəyə malik idi və Akkad adı kimi "dağlıq ölkə" mənası daşıyırdı. Elamlıların turani mənşəyə malik olmaları Assur abidələrindən də görünür. Assur divar barelyef abidələrində tikinti işləri görərkən təsvir olunan elamlı əsirlərin dik almacıq sümüklü və geniş yastı sifət qruluşları onların turanlı olduqlarını sübut edir. (Зинаида Рагозина, 1902, Səh. 256)

Cənubda yerləşən Elamın Susiana bölgəsində əhalisinin böyük əksəriyyətini turanlılar təşkil edirdilər. Babildən də öncə mədəniyyət mərkəzi olan Elam e.q. XXIII əsrdə böyük bir ərazini işğal etmək qüdrətinə malik idi. Bu ölkə Asiyanın qərbində bir çox irqlərin sərhəddində yerləşirdi.

Qədim zamanlarda turan ünsürü bu ölkədə hakim mövqeyə malik olmuş, etnik və mənəvi cəhətdən tam üstünlük ona məxsus idi. Məhz o, öz dilini istər rəsmi ünsiyyət vasitəsi, istərsə də ümumi danışıq dili kimi başqalarına qəbul etdirirdi. (Lenorman F. 1895, Səh. 309)

Lenorman mixi yazı mətnlərinə əsasən Mərkəzi Asiyadakı ən sonuncu ölkədən başlayaraq Kiçik Asiyanın qəlbinə qədər böyük bir ərazidə turanlıların məskunlaşdığını böyük əminliklə qeyd edir: "İndi biz nəzərlərimizi Mesopotamiyanın iki nəhəng çayının başlandığı dağ silsiləsinə yönəldək (Zaqros dağları), Biz orda e.q. IX-VIII əsrlərdə turanlıları və onların ustalıqla əsasını qoyduqları yaşayış məskənlərini görəcəyik. Tədqiq etdiyimiz çoxsaylı Assur yazılarında böyük sayda qeyd olunan coğrafi adlar və şəxs adlarının mənşəyi bizə bölgənin şərqdəki sonuncu ölkəsindən başlayaraq Kiçik Asiyanın qəlbinə qədər uzanan ərazidə məskunlaşmış əhalinin zəncirvarı şəkildə bir-birinə bağlı olduğunu və onların Midiyanın ilkin sakinləri kimi eyni irqə mənsub olduqlarını görəcəyik". (Lenormant F. 1895, Səh. 309)

Bir çox müəlliflər istər sumer-akkad, istərsə də Elamda və Ön Asiyanin digər ərazilərində yaşayan xalqları siyasi səbəblər üzündən bir başa turanlı öntürklər adlandırmağa cəsarət etmədiklərindən onları monqol, fin, dravid və ya başqa adlarla adlandırırdılar. Billerbekdə bu səbəbdən elamlıları və qutiləri monqol kimi təqdim edir.

Farslar İrana gəlmədən öncə Elam tayfaları bu ərazidə 3 min il ərzində hökmranlıq edərək yüksək mədəniyyət qurmuşdular. Elamlıların qonşuluğunda yaşayıb onlara etnik baxımdan qohum tayfalar olan qutu, lullubi və mannaların məskunlaşdıqları ərazilərdə Farslardan öncə maday (midiya) tayfaları öz dövlətlərini qurmuş, midiyalılar yüksək dərəcədə elamlıların mədəni təsirinə məruz qalmışdılar. Elam dili quti və lullubilərdə idarəçilik dili olub sənədlər bu dildə tərtib olunduğu kimi Midiyada da idarəçilik və ticarət dili idi. Farslar Elamın mühüm vilayətlərindən biri olan keçmiş paytaxtı Anşanı ələ keçirərək orda uzun əsrlər boyu mövcud olan yüksək mədəniyyəti sahibləndilər. Anşan Elamın üç mühüm tayfalarından biri olan xuzi və ya huzilərə məxsus idi.

Elamda məskunlaşan xalqların türk mənşəli olduqlarını yalnız keçən əsrlərin müəllifləri deyil, müasir dövrün də bir çox görkəmli arxeoloq və assuroloqları tərəfindən elmi dəlillərlə təsdiq edilməkdədir. Müasir dövrün böyük arxeoloqlarından Nyu-York universitetinin professoru Elam, Mesopotamiya və Qədim Şərq tarixi və arxeologiyası üzrə bir çox fundamental əsərlərin müəllifi Daniel Potts Elam haqqında yazırdı: "Elamda Teoman, Kudur kimi bir çox hökmdar adları Türk adları ilə eyniyyət təşkil edirlər. Daranın Bisütun kitabəsində yazıldığına görə Əhəmənilərə tabe olmayıb e.q. 522-ci ildə üsyan qaldıraraq özünü Elam hökmdarı elan edən şəxs Aşşena və ya Assena adlanırdı. Bu ad Göytürklərin ulu əcdadı Asena adını xatırlatmaqdadır". (Potts D., 1999, Səh. 14-17)

Bir çox müəlliflər Elam mədəniyyətinin formalaşmasında dravidlərin iştirakı və dravid dilinin turan dil ailəsinə daxil olduğu haqqında fikirlər irəli sürmüşlər. Bu məsələyə münasibət bildirən Lenorman yazır: "Turan dil qrupuna aid etdiyimiz altay dilləri və dravid dilləri Morfoloji cəhətdən yaxın bənzərliyə malikdirlər. Bu fakt coğrafi baxımdan da uyğunluq təşkil edir. Bu iki dilin yayıldığı coğrafi areallar qədim dövrlərdə bir-biri ilə təmas nöqtəsinə malikdilər. Dravid dilində danışan əhali Susiananın cənubunda Ərəb dənizinin sahilindəki İranın Kirman vilayətindən başlayaraq Belucistan da daxil olmaqla Hindistanın qərb sahillərini əhatə edən ərazidə məskunlaşmışdılar. Yaşadıqları coğrafiyada aralarında mövcud ola biləcək təmaslara və hər iki dilin aqqlyutativ qruluşa malik olmasına baxmayaraq bu dillərin qohumluğu tam şəkildə müəyyən edilməmişdir". (Lenormant F. 1895, Səh. 366)

Elamın-Susun yerli əhalisini perslər "Uvaca" (bu söz Suzun yerləşdiyi yüksək dağlıq bölgənin adına uyğun olaraq türkcə "uca" adının dəyişik fonetik şəklidir) adlandırırdılar, yunanlar "Oüks" adlandırırdılar, bu günki adları isə xuzistandır. Elam və ya "elamtu" sami dilindədir. Turanlılar öz ölkələrini Susian adlandırırmışlar, çünki bu ölkənin kralı da ölkənin adına uyğun olaraq Susanak adlanırdı. (J.Oppert. 1865, Səh. 11)

Elamın qədim turanlıları öz ölkələrini "huzi" adlandırırdılar. Oppert Xuzistan adının Bisütun qaya kitabəsində və Əhəmənilərə məxsus digər kitabələrdə Kusia=Kuusu=kusi şəklində yazıldığını qeyd edir. (J.Oppert, T II, 1851-1854, Səh. 19)

Heç şühəsiz bu ad "quz" adının dəyişuk fonetik formasıdır. Qədim yunan müəllifləri də Xuzistanı və ya Suzu "Oüks", yəni öküz adlandırırdılar ki, bu ad Kudur sözü ilə eyni məna kəsb edir. (ДТС, 1969, Səh. 474)

Danimarkalı assuroloq Karsten M.Nibur Elamın Qutilərlə eyni olduğunu və Elam və Susdakı xuzi xalqının adının quti adı ilə eyniyyət təşkil etdiyini qeyd edir. Belə ki, Elamın quzeyndə Xuzhqan rud adlı çay da mövcuddur. (Nibuhr Marcus Carsten, 1857, Səh. 166)

Əslində ölkə qədim zamanlardan Suziana və ya buranın avtoxton əhalisi olan Xuzilərin adı ilə Xuzistan adlanırdı və Elam adı isə tövratdan götürülmüş adıdır və paytaxtı da Suz şəhəri idi. Huzistan əyaləti Kəhra və Karun çaylarının vadisində yerləşir. Strabon Suzda kissilərin yaşadığını yazir.

Avropanın bir çox tarixçiləri qədim yunan müəlliflərinə əsaslanaraq Suziananı "Uksi"lər ölkəsi (Pays d'Uxiens) adlandırırlar. Bu fikir Suz, Suziana, Huz, Quz və

Ukuz adlarının eyni kökdən olan sözün müxtəlif deyiliş formaları olduğunu isbat edir. Adın Suz və Xuz şəklində olan kökünün müxtəlif izahları verilsə də heç biri gerçək mənanı əks etdirmir. Sözün əslinin "Oğus" olduğu və sami dillərinə xas ifadə və yazılış xüsusiyyətlərinə uyğun olaraq "Qus" şəkli aldığı sözün gerçək izahını təşkil edir. Sami xalqları Oğuzları Quz və ya Qus adlandırırlar. Oğuz adı türk dilində çay vadisi mənasında işlənir. Bu söz türk ləhcələrində də Quz, Uquz, Uz şəklində də, ifadə olunaraq oğuzları nəzərdə tutur. (Yusuf Hikmet Bayur, 1930, Səh. 362)

Suz və Anşan Xuzistanın (Oğuzistanın) ən mühüm şəhərləri idilər.

Kiçik ordu və qəbilələr şəklində yaşayan Oğuzlar hər zaman çay vadilərində və dərələrində yaşamağa üstünlük verən uca boylu, uzun saçlı və gur saqqallı türklər bu xüsusiyyətlərinə görə Oğuzlar adını almışdılar. Strabon Huzistanı şərq tərəfdən yüksələn və onu Farsistandan ayıran dağ silsiləsinin Uksie adlandığını yazır. Uksilərin (Ukuzlar) ölkəsi Suziana (Xuzistan) vilayətinin şərqində Kəngər (Bəsrə) körfəzinin sağ sahillərində, Zaqros dağlarının cənubunda, indi Kuhi Sefid adlanan Uksı dağ silsiləsinın yüksək yaylalarında və bu dağın ətəyində Karun çayının ətrafındaki vadilərdə çox qədimlərdən məskunlaşmışdılar. Suz və Anşan Uksianın ən mühüm şəhərləri idilər. Strabon uksiləri heyvandarlıqla məşğul olan köçəri dağlılar və vadidəki əkinçilər olmaqla iki qoldan ibarət olduqlarını yazır. (Страбон, 1994, XV, III, 2, 4)

Güney Azərbaycan tarixçisi Hüccətulla Zakir Elamın adlarından biri olan Xuzistan adının azərbaycan türkcəsində izahını verərək yazır: "Elamın digər bir adı Xuzistandır. Elamlılar özlərini xuzi, ölkələrini xuzistan adlandırırdılar. Xoz, xuzi, xuzeyin "ağa", "malik" "ərbab" mənasındadır.

Xuzistan xuzilərin ölkəsi deməkdir. Xuzeyin/Xozeyin sözü Azərbaycanda və Türkmənistanda ağa, başçı, buyruq verən anlamındadır. Xuzistan, yəni ağaların, buyruq sahiblərinin, böyüklərin oturduğu yer, onların ölkəsi deməkdir. Xuzistanda yaşayan böyük dövlət və mədəniyyət quran elamlar türklər idilər. Sonrakı dövrdə onların yerini soydaşları olan madlar tutmuşlar". (Hüccətulla Zakir. 2007, Səh. 85)

## Kas və ya Kusi türkləri

Kassilər dünya tarixində dərin izlər buraxmış qüdrətli turan tayfalarından biridir. E.q. III minillikdə Mərkəzi Asiyadakı Turan adlanan vətənlərindən, Xəzər dənizinin güney əraziləri üzərindən gələrək Ön Asiyada yerləşdikləri bir çox müəlliflər tərəfindən qeyd olunan kassilər altı əsr ərzində Mesopotamiyada qüdrətli bir dövlətin əsasını qoymuşdular. Kassilərin məskunlaşdıqları ərazilərin mərkəzi hissəsi Azərbaycanda yerləşirdi.



Klassik yunan tarixçiləri kassiləri Kossi və kissi adlandırırlar. Mixi yazı mətnlərində isə bu dağlı xalqın adı sami ənənələrinə uyğun olaraq Kaşşu və ya Kassu şəklində qeyd olunmuşdur. Onlar qədim müəlliflərin əsərlərində cəsur və döyüşkən xalq kimi təqdim olunur. Bir çox tədqiqatçılar aşağıda bəhs olunduğu kimi Kassi adını Kossi, Kussi və Quzi kimi şərh edirlər. Georq Hüzinq kasların özlərini öz dillərində Kusi adlandırdıqlarını yazır.

Kassilərin quzeydə və Hurrilərin isə güneydə yeni bir hakim xalq kimi meydana çıxmaları qədim dövrün ən önəmli siyasi hadisələridir. Kassilər artıq XVIII əsrdə Babilin quzeyində yaşayırdılar. Onları regionun digər xalqlarından fərqlənən adlarına görə tanımaq olurdu. Onlar qəbilə-tayfa sosial təşkilatına malik olub həyat fəaliyyətləri çöl və kənd təsərrüfatı sahələrinin çulğalaşdığı ərazilərlə sıx əlaqədar idi. Kassilər Fəratın orta vadilərindəki şəhərləri əhatə edən ərazidə özlərinin ilk dövlətlərini yaratmışdılar. Paytaxtı Terke olan Hana hakimiyyət sülaləsi kassilərə mənsub idi. Babil mətnlərində Kassi dili lüğətinin mövcudluğu haqqında bəhs olunsa da, indiyədək kassi dilində hər hansı bir mətn aşkar edilməmişdir. (Mierop M. History, 2015, Səh. 123)

E. q. 1595-ci ildə xattilərin Babilə hücumundan istifadə edən cəsur dağlı xalqı olan kassilər Babildə sami amaoreylərin hakimiyyətini devirərək 575 il davam edən hakimiyyət sülaləsini təsis etmiş və altı əsr davam edən qüdrətli bir dövlət qurmuşdular.

Ox atmaqda mahir olan bu xalq elamlılarla qohum idilər və Susdan quzeydə Elamla Midiya arasındakı sərhəd olan dağlarda məskunlaşmışdılar. Kassilərdən güneydə Dəclə və dağ silsiləsi arasında Suti və ya Su adlanan xalq yaşayırdı. Kassilərdən şimalda isə Qu və ya Quti adlanan digər xalq məskunlaşmışdı. Qutilərdən aşağıda Assuriya yaxınlığında samiləşmiş kassilər olan namri xalqı yaşayırdı. Quti və Sutilərin yerləşdiyi ərazinin ortasında Alman (Arman) və Padan adlanan xalqlar məskunlaşmışdılar. (F.Hommel, 1887, Səh. 38)

Alman tarixçi-arxeoloqu E.Herzfeld yazır ki, Yunanlar qədim midiya prototipinə uyğun olaraq kassiləri Kaspioi adlandırırlar. Kaspi dənizi, Kaspi qapıları adı bu xalqın adından yaranmışdır. Kassilərin kral adları və onların dilindən qalmış bəzi yer adlarının akkad dilindən problemli tərcümələri onların dilinin elam dili ilə qohumluğunu, yəni yerli dil olduğunu sübut edir. Linqvistik və arxeoloji dəlillər tarixəqədərki dövrdə bütün yüksək dağlıq ərazisində vahid bir xalqın məskunlaşmış olduğunu sübut edir ki, bu xalq kassilər olmuşlar. Herzfeld kassilərin Ön Asiyaya köçləri haqqında yazır ki, "e.q. III minilliyin sonunda biz insanların miqrasiyasının şahidi oluruq. Bu dövrdən başlayaraq İran yaylasının mərkəzi və güneyi üçün yabançı olan özəl xüsusiyyətlərə malik saxsı qablara rast gəlirik. Onlar Astrabaddan başlamış Anadoluya qədər olan ərazidə yayılmışdır. Bu saxsı qabların yayıldığı ərazilər türk tayfalarının Türküstandan Anadoluya miqrasiya yolunu

təşkil edir. Türklərin yaxın tarixdə baş verən miqrasiyaları tarixdən öncəki dövrdə də baş verirmişdir". (Ernst Herzfeld. 1941Səh. 178)

Elamın da yerləşdiyi Zaqrosun yüksək yaylalarında məskunlaşmış yerli xalqlar vahid bir etnik qrupa mənsub idilər. Bu qrupun adını müəyyənləşdirdiyimiz zaman onu iranlı və ya ari adlandıra bilmərik, çünkü arilərin köçüb burda yerləşmələrindən öncə həmin etnik qrup burda çox qədimdən mövcud idi. Assur və babillərin bu ərazidəki xalqa verdikləri Manda (köçəri) adı müasir Azərbaycan və Urmiyə gölü ətrafındakı qədim Midiya Atropatenə aiddir. (E.Herzfeld. 1941, səh. 181)

Herzfeld İran yaylasında iranlı arilərə qədər məskunlaşmış olan qədim xalqları ümumi bir adla kaspilər adlandırdığını yazır. (Ernst Herzfeld. 1935. Səh. 2)

Bəzən Kassiləri bir dil nümunəsinə görə mənasız şəkildə hind-arilərə aid edirlər. Bu görüş kassilərin dilində aşkar edilmiş bir neçə sözə, o cümlədən Şuriaş tanrı adına əsaslanır, lakin arilərin Surya günəş tanrısı adı kassilərin Oks və Yaksart vadisində uzun zaman arilərlə qonşuluqda yaşamaları nəticəsində meydana gələ bilər. Türkistan tayfaları qərbə doğru şimal yolu ilə gəlmişlər. Bu günki arilər (iranlılar) kassilərin bir başa varisləridirlər. Kassilər ari dilini mənimsəmiş olsalar da, irqi baxımdan onları öz içlərində əritmişlər. (Ernst Herzfeld. 1941. Səh. 182)

Hertsfeld bugünki iranlıları kassilərin birbaşa varisləri adlandırmağı etnik mənşə və dil mənsubiyyəti baxımından deyil, coğrafi varislik baxımından aid edir. O kassilərin hind-arilərə aid edilməsinə etiraz edir və onları Türkistan tayfaları hesab edir.

Herzfeld Zaqros dağının qayalarında qazılmış insan təsvirləri əsasında kassilərin xarici görünüşlərini müəyyən etməyə imkan verdiyini yazır. Dağlarda aşkar edilmiş bu təsvirlər çoxunluqla kassilərlə əlaqədar olan lullubilərə aid olub onların kralı Annubaninin öz düşmənləri üzərində zəfər səhnələrini təsvir edir. (Ernst Herzfeld. 1941, Səh. 183)

Tarixi mənbələrdə e.q. III minilliyin sonunda Midiya və Persia arasındakı bölgədə, müasir İran-İraq sərhədləri boyunca məskunlaşan kossi adlı yeni bir xalq yad edilir. Onların ilk yerləşdikləri yer müasir Luristan olmuşdur ki, bu gün də onların qədim Baqsa və ya daha doğrusu *Ba-Qusay* adları qoruyub saxlanmışdır. Bu gün həmin ərazidə yaşayan Lur xalqı onların varisləri hesab oluna bilərlər, lakin lurlar midiya dilində deyil, fars dilində danışırlar. Mükəmməl qəbilə qruluşuna malik lurlar ari köçmənlərinin varisləridirlər. Kassilər 6 əsrə yaxın Babildə Karduniaş adlı 3-cü hakimiyyət sülaləsi kimi hökm sürmüşlər. (Ernst Herzfeld. 1941, Səh. 181)

Herzfeld görə turanlı kassilər tarixin gec dövrlərində iran dilini qəbul etmiş olsalar da, lakin etnik mənşə baxımından öz varlıqlarını qoruyub saxlamışlar. Bu gün Luristanda və Bəktiyarda qədim tarixi dövrdən yaşayan və kassilərin varisləri kimi qəbul edilə bilən türk boylarının bir çoxu etnik baxımdan türk olduqlarını



qəbul etsələr də bir çoxu lur və bəktiyar iranlı ləhcələrində danışmaqdadırlar. Bu qədim türk boylarının xüsusən də qaşqay və ağacərilərin Orta Asiyadan gəlmə olduqları haqqında tarixi mənbələrdə heç bir qeyd yoxdur.

Luristanın Xurrəmabad bölgəsi tarixi Cibal Azərbaycan olub türklərinin yaşadığı bir bölgədir və indiki əhalinin 10%-ni, yəni 168 minini türklər təşkil edir. Luristan şahsevən, çardolu və qaşqay türklərinin qədim yerləşim ərazilərindəndir. Luristana daxil edilən Bəktiyari vilayətinin bir çox şəhərlərində qaşqay, lirki, ağacəri türkləri yaşayır, Buricin qəzası qaşqay türklərinin qədim məskənidir. (Rəcəb Albayraq, C. 1, 2016, Səh. 327)

Herzfeldin bəhs etdiyi Baqausa adı kassi və ya kusilərin anlamı buğa demək olan Buqaş tanrı adıdır və Baktiyari adı da Baqa və ya Buqatura adının təhrif olunmuş şəklidir və anlamı Buqa tanrısının oğlu deməkdir.

Bir çox bilim adamları Kassilərin əsl yaşayış yerlərinin Zaqros dağı yaylaları, yəni Azərbaycandır. Onların bir hissəsi də İran yaylası tərəfdən gələrək Zaqros dağları üzərindən keçib Babildə və Mesopotamiyanın digər ərazilərində məskunlaşmışlar. J.Reade və R.Zadok Zaqrosun ətəyində yerləşən Namrini "Mat Kassi", yəni Kassi ölkəsi və xalqın da "namar kassiləri" adlandığını yazırlar. Onlar həmçinin Zaqrosun qərbindəki toponimləri və mixi mətnlərdəki şəxs adlarını təhlil edərək orda İran dilindən sonra ən geniş yayılan dilin Böyük Midiyanın kassi dili olduğunu müəyyən etmişlər. (Potts D.T. 2006. Səh. 114)

Spayser də Kassilərin Diyala çayının güneyində yerləşdiklərini, lullubi və turukkularla qonşuluqda yaşadıqlarını yazır. Kssilərin əraziləri Urmiyə gölü hövzəsinə qədər yayılmışdı. Kassilərin Babildə ilk hökmdarları Burnabriyaş idi. (A. Spayser, 1930, Səh. 124)

Vaddel Kassilərin Tell-Amarna mixi lövhə mətnlərində adı çəkilən Kusalarla eyni olduqlarını yazır.

Buqaş-kassilərin dilində buğa-öküz deməkdir və kassilərin eponimidir. Sanskrit dilində Qotların dilində Baqa, ingilis dilində mənası Qod-allah deməkdir. (Waddell L. 1929, Səh. 454, . 461)

Elamla Kassi arasında uzun illər ərzində davam edən çox yaxın münasibətlər tarixçi və assuroloqların geniş müzakirələrinə səbəb olan önəmli mövzulardan biridir. Bu yaxın münasibətləri bilim adamlarının bir çoxu onların eyni etnik mənşəyə malik olmaları ilə izah edirlər.

Alman assuroloqu Georq Hüzinq Zaqros dağları və orda yaşayan xalqların tarixinə həsr etdiyi əsərdə Kassilərə də geniş yer vermişdir. Hüzinq Zaqros dağlarında məskunlaşmış qədim xalqlar olan kassi, lullubi və midyalıları Elamla qohum xalqlar adlandırır. Kassiləri yunanlar *kossi,* assurlar isə *kassi* adlandırırlar. Elamın öz güney ləhcəsində isə xalqın öz adı *Kussi* şəklində ifadə olunur. (Georg Hüsing, 1908, Səh. 24)

Quzey-batıdan gələn və ağ irqə mənsub həmin tayfalar Zaqros dağları üzərindən tarixin erkən çağlarında Elama gələrək burda məskunlaşmış, öz dillərini, miflərini və kultlarını sumerlərlə paralel olaraq yerli xalqa qəbul etdirərək hakim xalqa çevrilmişlər. Linqvistik araşdırmalar onların Qafqaz qrupuna mənsub olduqlarını göstərir. Onların Elam ərazisinə mühacirəti təxminən m.ö. 3-cü minilliyin ortalarında baş vermişdir. Bu tayfaların gəlişi zaman-zaman təkrarlanaraq Elam imperiyasının formalaşmasına şərait yaratmışdır. Bu iki əhali qrupu batıda Lullubilər və doğuda Kasiaplardırlar. Lullubilər sonrakı Assuriya ərazisindən, Diqlatın aşağı axarlarından başlayaraq onun vadisi boyunca yuxarıya doğru qalxaraq onun güney-doğu ərazilərində məskunlaşmışlar. Onların məskunlaşdıqları ərazi Xəzərin güneyindəki Qirkaniya və Hindistana qədər uzanaraq Urmiyə gölünün batı əraziləri və Elama qədərki əraziləri əhatə edirdi. Bu xalqların hökmran təbəqəsinin titulu "İanzu" adlanırdı.

İanzu titulu əsasən Urmiyə gölü ətrafında mövcud olmuş qüdrətli turanlı dövlətlərindən biri Mannada hakimiyyət titulu olmuşdur. Mannalar kassi, qut və midiya tayfaları ilə qohum tayfalar idi.

Manna Barsuadan quzeydə yerləşən güclü bir dövlət idi və Diyala çayının vadilərində yerləşən bir çox bəylik dövlətlərinin konfederasiyasından ibarət idi. Assuriya bu bəylik dövlətlərinin önünə qəbilə, tayfa mənasında Bit sözünü artırırdılar. Bu dövlətlərdən biri Subi bəylik dövləti Urmiyə gölündən doğuda Təbriz düzənliyində yerləşirdi. Subi subirlərin dövləti olmuşdur. Bit kas/kusilərin dilində ölkə və ya yer deməkdir və bu söz onlardan assurlara keçmişdir.

Başqa bir bəylik dövləti də Elipidən şimalda Arazi və Bit Kapsi idi. Bit Kapsi Qızıl Uzən çayının aşağısında yerləşirdi. M.ö. 744-cü ildə hamısı Assuriya tərəfindən tabe edildi. (William B. Fisher, İlya Garschevitch. 1985, Səh. 62)

Litva dilində Qafqaz Kapase kimi yazılır. Kapasi Sumer dilində "pambıq və ağ" anlamı daşıyırdı. Azərbaycanda yerləşən Kəpəz dağının adı bu qədim anlayışı özündə ifadə edir. Bit Kapsi dövləti kassi/kusların həmin dövrdə hələ də öz varlığını qoruyub saxlamış bəylik dövlətidir.

Türk dillərində və xüsusən də uyğur türkcəsində də "Kebez və Keppez" sözü eynilə sumer dilində olduğu kimi "pambıq" deməkdir. Pelliot və Lqeti bu sözü uğursuz şəkildə sanskrit dilindən alınma olduğunu iddia edirlər. (Этимологический словарь тюркских языков. 1997, səh. 12)

Coğrafiyaçı Strabon kassiləri Kaspi qapılarına qədər olan ərazilərdə yaşadıqlarını, kaspi tayfasının kassilərlə eyni olduqlarını və Kazvin şəhərinin də onların adından yarandığı fikrini irəli sürür. Kasiapların, yəni kassilərin məskunlaşdığı ərazi indiki Azərbaycan ərazisini təşkil edirdi. Onlar Urmiyə gölünün quzey əraziləri üzərindən gələrək tədricən gölün doğu və güney istiqamətlərində genişlənmiş və Həmədandan Elam üzərindən Babilə gedən karvan yollarının keçdiyi əraziləri də öz nəzarətləri altına almışlar. Onların Anubani tanrısına etiqad Xəzər dənizindən başlayaraq Bəsrə körfəzinə qədər olan ərazidə yayılmışdı. (Georg Hüsing. 1908, Səh. 60)

Azerbaycanin qedim tarixinde önemli rol oynayan kas ve kaspilərin eyni mənşəli olduqlarını qebul eden Elçibey kasların da dünya tarix meydanına sumerler ve qutlar kimi Azerbaycandan çıxdığını ve teqriben 1300 il Yaxın Şerqin tarixi taleyinde aparıcı rol oynadığını qeyd edir. O qədim mənbələrə əsasən kas, kassi, kaspi, adı ile tanınan qədim azərbaycanlıların IX-XII əsr ərəb dilli tarix kitablarında "xəzər" adı ilə xatırlandığını da göstərir. Elçibəy bu fikri ilə kaspi və xəzərlərin eyni etnonimin fərqli ifadə şəkillləri olduğunu təsdiq edir. Çünki qədim mənbələrdə kaser/kuser/quzer kimi ifadə edilən etnos sonrakı tarixi dövrlərdə ərəb və digər sami dilli mənbələrdə xəzər və xuzer şəklində ifadə olunurdu.

Yunanların Persey əfsanəsindəki Andromedin anası gözəllik simvolu Kassiop kassilərin himayədar tanrıçasıdır. Kassiopun yeri Bəsrə-Kəngər körfəsinin quzeyidir. Assur kralı Assurbanipal Kassi tanrısı Ammon Kassiparın heykəlini Elamın paytaxtı Suz şəhərində gördüyünü yazmışdır. Həmədanın qədim adı olan Akbatanın güneyində Zaqros dağ silsiləsinin bir hissəsi kimi yüksən Alvan dağları mövcuddur. Əfasnəyə görə orda qədimlərdə yunanların "Orant" adlandırdıqları Ürvand adlı "fəlsəfə və ya müdriklik daşı" deyilən bir bitki bitirmiş ki, ondan qızıl emal etmək üçün istifadə olunurmuş. Kassilər Kaspi adlı tanrıya etiqad edirdilər, o kassilərin Ay tanrısı ola bilər, çünki Kaspi sözü babil dilində "gümüş" deməkdir. (Georg Hüsing. 1908, Səh. 28)

Potts G. Huzinqin kassilərin elam tayfaları olması haqqındakı fikrini qəbul etməyərək bu tezisin nə linqvistik, nə də antropoloji baxımdan təsdiq olunmadığını yazır. Lakin XIX əsrin digər bir görkəmli alman arxeoloqu və tarixçisi Ernst Herzfeld də elamlıların və kassilərin və həmin bölgədə yaşayan digər xalqların qohumluqları fikrini müdafiə edərək yazırdı: "Elamlar onları şimal qonşuları olan kassilər, Ellipilər, lullubi və qutilər və onlara bitişik olan urartular yüksək dağ yaylasındakı xalqlar arxeoloji dəllilərə əsasən eyni etnik mənşəyə və dil qrupuna mənsubdurlar, onları biz subarlar və ya huri adlandıra bilərik. Əgər İran yaylasının iranlı arilərə qədərki qədim xalqa bir ad vermiş olsaq, mən onları kaspilər adlandıraram". (Ernst Herzfeld. 1935. Səh. 2)

Kaspi sözünün kökünü Kas adı təşkil edir, adın sonundakı "pi" isə elam dilində cəm şəkilçisidir. D.Potts elamlıların və kassilərin yaxın münasibətlərini onların etnik birliyə malik olmaları ilə deyil, iki hakimiyyət sülaləsi arasında uzun illər ərzində davam edən nigah əlaqələri ilə izah edir. Bu nigah əlaqələrini bəzi müəlliflər I Kuriqalzunun dövründən başlayaraq e.q. 1290-1170-ci illəri əhatə etdiyini 120 il ərzində davam etdiyi fikrini irəli sürürlər. Lakin Potts I Kuruqalzinin hakimiyyətinin e.q. 1375-ci ildən öncə başladığını və bu evlilik əlaqələrinin üzərinə

daha 85 il gəlmək lazım olduğunu yazır. (Potts D.T. 2006. Səh. 115)

Holland assuroloqu J. van Deyk Berlin Muzeyində aşkar etdiyi bir məktuba əsasən müəyyən etmişdir ki, Elam və Kassi hökmdar sülalələri arasında uzun dövr ərzində davam edən nigah əlaqəsi mövcud olmuşdur. Əldə olunmuş müqaviləyə əsasən Elam kralları Kassi şahzadələrinə evlənirdilər.

Bu nigahlarla dövlətlər arasındakı əlaqələr daha da möhkəmlənməklə bərabər Kassilərin Elam dövləti üzərindəki siyasi təsirini də gücləndirirdi. Qüdrətli Kassi hökmdarları öz şahzadələrindən doğulan Elam krallarını müdafiə etmək üçün bu qohumluq əlaqələrindən istifadə edib Elama qarşı hərbi müdaxilə həyata keçirirdilər.

Elam kralı Şutruk Nahuntanın Berlin muzeyində aşkar edilən məktubunda Babilin Kassi kralından tələb edir ki, Babil taxt-tacının Elam kralı kimi ona verilməlidir, bu taxt-tac Kassi şahzadələri ilə nigahdan doğulmuş Elam krallarının varislik haqqıdır. Şutruk Nahuntanın özü də Kassi kralı Melişuhunun qızı ilə evlənmişdi. Məktubda Kassi şahzadələri ilə evlənmiş on Elam kralının adı çəkilir. Şutruk Nahunta özünü Kassinin əzəmətli hokmdarı Kuruqalzunun qızının nəslinə mənsub sayırdı. Şutruklar sülaləsi bütünlüklə kassi mənşəyinə malik idilər. Kurruqalzu e.q. XVI əsrdə hakimiyyət sürərək Karduniaşın və Babilin kralı idi.

Elam kralı Pahir-İşşan Kassi kralı Kuruqalzunin böyük qızı ilə evlənmişdi. Elam kralı Untaş-Napirişa kassi şahzadəsindən doğulmaqla yanaşı, həmçinin Kassi kralı II Burnabriaşın (e.q. 1354-1328) qızı ilə evlənmişdir və bu siyahı daha da davam etdirmək olar.

Kassilərin Mesopotamiyadakı hakimiyyətlərinə məhz onların öz törəmələri olan Şutruk sülaləsi tərəfindən son qoyuldu. Şutruk Nahuntanın oğlu Kutur Nahunta Babilin kassi hökmdarı Zababa-Şuma-iddini hakimiyyətdən devirərək Mesopotamiyada hakimiyyətə sahib oldu. Kassilərin axırıncı kralı Ellil-nadin-ahe (e. q. 1160-1157) Kutur Nahuntaya qarşı üsyan qaldırdı, lakin elamlılara məğlub olub əsir alındı və Elama aparıldı. Beləliklə, əzəmətli kassilərin Babildəki hakimiyyətinə onların şahzadə qızlarından törəyən kuzenləri olan Elam kralları tərəfindən e. q. 1155-ci ildə son qoyuldu. ( J. van Dijk, 1986, səh. 159-70)

Assuroloqlar Landsberqer, Hommel, Ungnad və başqaları Alvand dağları yaylalarında Alman və ya Alban/Aqvan adlı bir ölkənin və bəylik dövlətinin mövcud olduğunu qeyd edirlər. Heç şübhəsiz, Alvand adı Alban/Alman/Alpan/Aqvan adının dəyişik fonetik şəklidir.

Amarna dövründə Kassi kralları Misir fironları ilə müntəzəm olaraq yazışmalar aparırdılar. (Gwendolyn Leick. 2003, Səh. 172)

Alman tarixçisi A.Billerbek Zaqros dağı və Kassilər haqqında yazırdı: "Zaqros adınının sami-babil dilində mənası "yüksək olmaq, uca olmaq" deməkdir. Kassilər Zaqros dağlarında Midiya və Elamın sərhəddində yaşayırdılar. Kassilərlə qonşuluqdakı dağlarda qut və sut tayfaları yaşayırdılar. Sutlar ox atmaqda mahir tayfa idi. Bizim tanıdığımız ilk kassi kralı Karaindaş idi, o özünü "Qüdrətli hökmdar, Babilin, Sumerin, Akkadın Kassinin kralı" adlandırırdı. Susdan güney-doğuda Huşş və Habardib tayfaları məskunlaşmışdılar. Herodot onları Uksi və Amardlar adlandırır. Huşşların ölkəsi Səfidrud və Zoreh çaylarının yuxarısında, Sərdəşt, Kazerun, Şiraz və Firuzabadın qarşısında yerləşirdi. Amardlar isə indiki Bəxtiyar vilayətində yaşayırdılar". (A.Billerbeck, 1893, Səh. 36)



Baxtiyari və Baktriya adları eyni kökə malik olub *Bak* və ya *Baqa* tayfasının adından yaranmışlar.

Vaxtilə Zaqros dağlarının yaylalarında və Namri ərazisində məskunlaşan Bak tayfaları Kutur Nahuntanın Babilə hücumları və kassilərlə müharibəsi nəticəsində öz yerlərini tərk edib şərqə doğru hərəkət edərək Çin ilə sərhəd Türkistan ərazilərində məskunlaşmış, Çində ilkin mədəniyyətin təməlini və bir neçə hakimiyyət sülaləsinin, o cümlədən Çou sülaləsinin əsasını qoymuşdular.

Herzfeld Baktiyari adının qədim kassi dilində Baqsa və ya *Baqus-ai* şəklində ifadə olunduğunu yazır. İstər Baq tayfa birliyinin, istərsə də Baqsa adı kassilərin Buqaş tanrılarının adı ilə əlaqədar ola bilər. Bu tayfalar öz adlarını Baqaş/Buqaş kassi tanrısının adından götürmüşlər. Türkistandakı Baktriya ölkəsinin adı da kassilərlə onların Bakaş tanrısı bə Bak tayfası ilə əlaqədardır.

Alman assuroloqu A.Virt Ön Asiyanın bir çox turanlı xalqları, o cümlədən Kassilər haqqında qiymətli məlumatlar vermişdir. Onun yazdığına görə, Samilər böyük qüvvə ilə Turanlılara qarşı yeni bir müharibəyə başladıqda Babil çarı Naramsin onlara qarşı mübarizə aparmaq üçün Elamla, Lullubi və Kassi ilə ittifaq bağlamağa məcbur oldu. Kas və ya Kusi hökmdarı Elamın hökmdarı ilə eyni damğa daşıyırdı. Virth kassilərin etnik kimliyi haqqında suala onların Orta Asiyalı olduqlarına inandığını və onların ilkin yaşadıqları yurdun Qafqaz ola biləcəyi və adlarının Kasak və ya kaş adı ilə eyni olduğu fikrini irəli sürürdü. Kaş Tibetin qədim adı olmuşdur. Kaşqar və Kaşmir adı da bununla əlaqədardır. Yue-çilərin digər bir adı kaş olmuşdur. Kassilər sonradan Kuz=Susa və ya xusilərə öz adlarını vermişlər, Xusistan-Susiana. Elamın şərqində yaşayan bu dağlı xalq kussilər adlanırlar. (Wirth A. 1905, Səh. 18)

Virtin yazdığına görə Kassilər atı özləri ilə Ön Asiyaya və Misirə gətirmişlər. Kassilərin qohumları Xattilər Homerin yazdığı kimi qatırın ilk sahibləri və onu yetişdirənlər olmuşlar. Eddada deyildiyinə görə etrusk Turşalar germanlara at bəsləməyi öyrətmişlər.

Atın İkiçayarasına şərqdən turanlılar tərəfindən gətiridiyinin ən mühüm dəlili müharibə zamanı döyüş vasitəsi kimi və təsərrüfatda qoşqu vasitəsi kimi istifadə olunan at Assur mixi yazı mətnlərində "Şərqdən gələn heyvan" idoqramı ilə ifadə olunmasıdır. (Tiele. C.P. 1886, Səh. 52)

Yaxın Şərqdə olduğu kimi digər ərazilərdə də atın meydana çıxmasından öncə təsərrüfatda *onaqr* (ayqır) adlanan vəhşi eşşəklər istifadə olunurdu Ön Asiyada böyük əraziləri işğal edən Kassilər çox yerə öz adlarını vermişdilər. Onlar Susun aşağısında yerləşən Anzanı da ələ keçirmişdilər. Anzan bir müddət samiləşsə də sonradan öz elam və kassi dillərini bərpa etdilər. Mənbələr İran Əhəməni şahlarının özəl danışıq dillərinin xuzi dili olduğunu yazırlar. (Wirth, Geschichte Asiens, Səh. 21)

Virthin yazdığına görə e.q. IV minillikdən etibarən Turan irqinə mənsub Kas tayfası Avropaya və Afrikaya doğru köç etmişlər. Bu ilk turanlı axını idi. M.ö. II minillikdə isə Ön Asiyaya və Misirə doğru ikinci axın Qoqlar və Huklar (Huksos) olmuşlar. Turanlıların bu ikinci köçləri iskitlərin e.q. VII əsrdə iflasına və Qoqun Fələstindəki uğursuzluğuna qədər davam etmişdir. Turanlıların üçüncü axını Avropanı lərzəyə salan hun axınları olmuşdur. (Wirth A. 1905, Səh. 231)

Qüdrətli kassi xalqının öz hakimiyyətləri altına aldıqları ərazi daha uzaq məsafələrə yayılaraq Bəhreyn adasını da əhatə etmişdir. Aşkar edilmiş mixi mətnlər və arxeoloji dəlillər e.q. XIV əsrdə kassilərin kralları II Burnabriaş və II Kuriqalzu dövründə qədim mətnlərdə Dilmun adlanan Bəhreyni öz hakimiyyətləri altına aldıqlarını və orda bir kassi qubernatorunun hakimiyyət sürdüyünü sübut edir. (Potts D. T. 2006. Səh. 115)

Huqo Vinkler kassilər haqqında yazır ki, Babili işğal edən kassilər Midiyanın və Babilin sərhəddindəki Zaqross dağlarında yaşayan qəddar kissi tayfalarıdırlar, onlar Sus ətrafında da yaşayırdılar. Kassilərin etnik baxımdan hansı xalqlar ailəsinə daxil olduqları və dillərinin mənşəyi hələ tam məlum olmasa da, lakin onların Midiya və Elam xalqları ilə eyni tayfalara mənsub olduqları mümkün görünür. (Hugo Winckler. Geschichte Babylionies und Assyriens. 1892, Səh. 78)

Fransız assuroloq Lenorman kassi dilini Turan dilinin əsas qollarından biri hesab etdiyi Midiya-Sus dili ilə qohum dil olduğunu yazır. (Lenormant F., 1895, Səh. 364)

Şrader kassiləri qeyrisami mənşəyə malik olduqlarını sumer dili ilə qohumluğu versiyasını irəli sürür. Kassilərin, yəni gerçək adları Kas və kus olan qədim Ön Asiya etnosunun dillərini araşdıran fransız mənşəli Amerikalı araşdırıcı Arnaud Fournet yüzlərlə kassi, hurri, xatti və urartu sözlərini müqayisəli şəkildə araşdıraraq onların eyni kökə malik olduqlarını müəyyən etmişdir.

Xattilərin Nuzi xalqının adı mixi şirifləri ilə əsli Nuzahe şəklində yazılırdı. Nuzilər hurri, Xett və Urartu mənşəyinə, yəni ümumi mənşəyə malik idilər. Fournet Hurri və kassi dillərinin də çox yaxın əlaqəyə malik olduqlarını müqayisəli şəkildə linqvistik dəlillərlə müəyyən edərək çoxlu örnəklər verir. Kassi dilində *Ab* "başçı" deməkdir, hurri dilində *Abi* "başçı, öndər" deməkdir.

Kassi və hurri dilinin hər ikisində *Aq* rəhbərlik etmək deməkdir. Bu sözdən kassilərin hakimiyyət sülaləsi Aqum yaranmışdır ki, mənası Ağam, rəhbərim deməkdir. *Aq-ri-ia-aş* söz birləşməsinin kassi və hurri dilləində mənası "o ölkəni yönəldir" və ya "o yönəldir", yəni rəhbərlik edir şəklindədir.

Kassi dilində *Atta* ata deməkdir, *Atta-nu* – onlar atadır.

Kassi dilində *Badar* öküz deməkdir, (qədim türk dillərində vəhşi öküz Qutur adlanır. Badar sözü türklərin Batur sözü ilə səsləşməkdədir.

Kassi dilində *Buqas* – tanrı deməkdir. Bu adın mənası Buğa olub, Türklərdə Buğa, Ruslarda Boq, farslarda Baqa, almanlara Bock şəklində keçmişdir.

Kassilərdə Alban, Akmul, Tişpak, şəxs adı var idi.

Kassi dilində *Buri-aş* və ya *Buri-yaş* "ölkənin başçısı, rəhbəri" deməkdir.

Kassi dilində *Ez* – getmək, gəzmək deməkdir.

Kassi dilində hakimiyyət titulu olan *Kadaşman* sözü inanan, etiqad edən deməkdir. Kadaşman Turqu Turqu tanrısına etiqad edən deməkdir.

Kassilərdə *Qandaş* hakimiyyət titullarından biridir mənası *qadi* – kral, hökmdar deməkdir. Kassilərin Kadaşman və Qandaş adlarının türk dilində mənası "qohum, doğma" deməkdir. Mahmud Kaşğari Kanqdaş Kadaş sözünü türk dilində ata bir qardaş kimi izah edir. (ДТС, 1969, Səh. 401)

Kassilərdə *Kazak* sözü vardır ki, bu söz hurrilərdə *Kaşali* şəklində ifadə olunur və hər iki dildə mənası "təmiz və əsl" anlamı daşıyırlar.

Kassi dilində *Quzar* tanrı adıdır, bu adla Quzar Buqaş, Quzar ilu kimi tanrı adları yaranmışdır.

Kassi dilində *Nazi* sözü müdafiə etmək, qorumaq mənasındadır. Nazi Buriaş, Nazi Buqaş sözləri Buriaşın himayə etdiyi, Buqaşın himayə etdiyi, qoruduğu anlamı daşıyırlar. Hurri dilində bu söz Naqi və Nah Şəklində ifadə olunurlar və eynilə qorumaq, müdafiə etmək anlamı daşıyırlar.

*Kassi dilində Nahuia sözünün mənası idarə edənin, yəni hakimin, idarəçinin* oturduğu yer və ya müdafiə yeri, istehkam, inzibati mərkəz anlamları daşıyır. Dilimizdəki rayon, inzibati ərazi mənasındakı "nahiyə" sözü kassi dilindəki *Nahuia* sözündən yarandığı heç bir şübhə yeri qoymur.

Kassi dilində *Naşbu* sözü də xalq, məxluq, canlı anlamı daşıyır.

Mixi yazı mətnlərində Kassi dilində Turia adı qeyd olunmuşdur.

*Ubri* – sözü kassi dilində rəhbər, ağa, başçı deməkdir.

*Uzi* – kassi dilində himayə etmək, qorumaq deməkdir.

*Yaş* – kassi dilində ölkə deməkdir, hurri dilində bu söz *eşe* kimi ifadə olunur və mənası torpaq, dünya, yer anlamındadır. Kassi dilində *Tsah/Sah* tanrı deməkdir. (Arnoud Fournet. 1978 Səh. 3-17)

*Buriaş* – kassi tufan tanrısı, bu söz türklərin Boran sözü ilə ekvivalent təşkil edir. Buriaş Sumerin tufan tanrısı öküz timsalında olan İşkurun ekvivalenti idi.

Kassi tanrıları:

*Harbe* – kassi tanrısı Sumerin AN və babilin Enlil tanrısının ekvivalentləri idi.

*Şukamun* – yeraltı dünyanın tanrısı, Sumerin Nerqal tanrısının ekvivalentidir.

*Suriaş* – günəş tanrısı, Sumerin Utu və ya Şamaş tanrısının ekvivalenti idi.

*Buqaş, Turqu, Maruttaş* və *Sipak* kassi tanrıları idilər. (Jeremy Black and Antony Green. 1982, Səh. 110-112)

Türqeş xaqanlığının banisi Baqa Tarkan (699-766-cı illər) titulu daşıyırdı. Baqa Tarkan özünü on okların xaqanı adlandırırdı, çünki Türqeşlər özlərini on oklar adlandırırdılar. Kas türklərinin Buqaş tanrı adı türklərdə Baqa/Buqa şəklində eponimə və hakimiyyət tituluna çevrilmişdi.

Alman assuroloq Deliç kassi dilindən bir çox sözlərin izahını vermişdir:

*Ulam* – oğul (türk dialeklərində oğul sözünün *ulan/uğlan* variantı mövcuddur); *Baş-hu* – tanrı; *Bur* – ağa; *Ka-ra* – köməkçi, yardımçı, xidmətçi (qədim türk dilində *qara* eynilə qara camaat, kütlə, təbəə anlamı daşıyır); *Kuk-la* – xidmətçi; *Qiq-i* – göy, səma; *Tur-ux* – külək, tufan; *Xala* – tanrıça; *İaaş* – ölkə; *İan-zu* – kral; (Deliztsch F. Die Sprache der Kossäer. Leipzig 1884, səh. 40)

Kassilərin vətəni Zaqros dağlarında Kiçik Zab çayının şərq sahillərində, Kirmanın qərbində yerləşirdi. Müasir Alman assuroloqu Julian Reade namrilərlə kassiləri eyniləşdirir və onların Namri ölkəsində məskunlaşmış olduqlarını yazır. İranın indiki Luristan əyalətində kassilərin adını daşıyan Kasqanrud çayı mövcuddur. Kassilərin boylarından biri də *Qamu* adlanırdı. (Julian Reade. Mesopotamia. British Museum press, 2000)

Kassilərin *Qamu* boyu sonradan *Qamu-er* şəklində Azərbaycanın müxtəlif ərazilərində məskunlaşaraq Qamuər/Qəmərli adlı toponimləri meydana gətirmişlər. Gürcüstanın Başkeçid rayonundakı Qəmərli kəndi, Ermənistanda azərbaycan türklərinə məxsus qədim Qəmərli şəhəri və mahalı (Artaşat), yenə Üçkilsədə (Eçmiədzin) Qəmərli kəndi qədim kassi tayfasının yerləşdiyi ərazilər olmuşdur.

Kassilərin *Khabar* boyu Babildə hakimiyyəti ələ keçirdikdən sonra Babil/Mesopotamiyada məskunlaşmışdılar. Görünür Kassilərin *Kabar* boyu sonradan Azərbaycanın güneyində və qüzeyində Kəvər şəklində bir çox yer yaşayış yerləri və coğrafi əraziyə öz adlarını vermişlər. İndiki Ermənistan adlanan ərazidə vaxtilə azərbaycan türklərinə mənsub Kavər adlı qədim yaşayış məskənində məskunlaşaraq bu qədim şəhərə öz adlarını vermişlər. Ermənilər bi əraziyə köçürüləndən sonra yerli xalq bu şəhərdən didərgin salınmış və adı öncə Nor-Bəyazit, daha sonra isə Kamo olaraq dəyişdirilmişdir.

Kassilərin digər tayfaları isə öz vətənlərində Zaqros dağlarında Elamın quzeyqərbindəki ərazidə yaşamaqda davam edirdilər. Kassilərin Babildə məskunlaşdıqları ərazi sonradan Quzan ölkəsi adlanmışdır. Kassilərin məskunlaşdıqları digər bir Quzan ölkəsi isə Urmiyə gölünün qüzey-doğusunda yerləşirdi.



Alman assuroloqu Billerbek kassilərin əsas vətəninin Azərbaycan olduğunu yazırdı. Kassilər Susun şimalından başlayaraq Urmiya gölünə qədərki dağlıq ərazini əhatə edirdi. O çoxlu kiçik knyazlıqlardan ibarət idi. Onların qonşuluğundakı Azərbaycan və Ardilanda qədimlərdən etibarən kassilər məkunlaşmışdılar. (Billerbek A. 1893, Səh. 50)

Kassilər m.ö. 1595-ci ildən 1155-ci ilə qədər, yəni 576 il Babildə hakimiyyəti ələ keçirərək hökmran olmuşlar. Onların Babildə hakimiyyətlərinə eyni mənşədən olduqları elamlılar son qoymuşdular.

Almaniyada Assurologiyanın atası hesab olunan, qədim şərq tarixi üzrə böyük avtoritetə malik Fridrix Delitç kassilərin tarixini və dillərini tədqiq edərək onları altaylı və monqol mənşəli hesab edirdi. Kassilərin ərazisi Susun şimalından başlayaraq Urmiya gölünə qədərki dağlıq ərazini əhatə edirdi. O çoxlu kiçik knyazlıqlardan ibarət idi. Kassilərdən quzey-batı tərəfdə Qutilərin ölkəsi yerləşirdi. Onlar tamamilə monqol tayfalarından ibarət idilər. "Delitç burda monqol dedikdə kassilərin turanlı mənşəyə malik olduqlarını nəzərdə tutur. Alman assuroloqu hurri, kassi və urartu dillərindəki mixi mətnlərini araşdırarkən bu dillərin qohum dillər olduğunu və bu dillərdə bir çox sözlərin ekvivalent təşkil etdiyini müəyyən etmişdir. (Delitzsch F., Die sprache der Kossaier, səh. 14)

İngilis assuroloqu A.Saysın yazdığına görə Babil əhalisinin bir hissəsini də Elam dağlarından gəlmiş kassilər təşkil edirdilər. Qeyri sami dilində danışan kassilər Babili işğal edərək 577 ilə qədər hakimiyyət sürmüşdülər və onların hakimiyyəti dövründə Babillilər Haanadakı Kassilər adlanırdı. (Sayce A. 1885, Səh. 14)

Kassi tarixinin ən görkəmli araşdırıcılarından biri türk tarixçisi Kamal Balkan olmuşdur. Kamal Balkan 1943-cü ildə "Babildə feodalizm araşdırmaları. Kaslar dövründə Babil" adlı B.Landsberqin rəhbərliyi altında dissertasiya müdafiə etmişdir. Onun bu dissertasiyası tədqiqatçılar üçün əlçatmazdır və yəqin ki, geriyə dönməz şəkildə itirilmişdir. Onun əsərinin tezisləri 1945-ci ildə H.Qutebork tərəfindən alman dilinə, 1986-cı ildə isə alman nüsxəsindən B.Foster tərəfindən ingilis dilinə tərcümə edilmişdir. (M.A.Редина-Томас, 2018, Səh. 10)

Kamal Balkan Kas tarixinə həsr olunmuş "Kas tarixinin ana xətləri" kitabı türkiyədə nəşr olunmuşdur. Azərbaycan tarixçisi Mirheydər Mirzəyev də Babil Kassi dövlətinin ictimai-iqtisadi tarixinin müxtəlif aspektlərinin tədqiqinə həsr olunmuş dissertasiya müdafiə etmişdir.

Kamal Balkanın yazdığına görə Kas hökmdarları özlərini "Kassinin çobanı" adlandırırdılar. Mixi yazı mətnlərində Kassi adı Kaşşu şəklində ifadə olunmuşdur. Kassilərin kralı Kurqalzinin adı mixi yazı mətnlərində *"re`i Kaşşi"* şəklində yazılmışdır və mənası "Kasların çobanı" deməkdir. (K.Balkan. 1948, Səh. 724)

Kassi kralları özlərini xalq tərəfindən etiqad olunan müxtəlif müqəddəs heyvana bənzədirdilər. Onlar özlərini "Tanrıların Nurlu Barsı, tanrıların qutsal ökü-

zü, bəylərin bəyi, dörd cəhətin kralı, Sumerin kralı, Akkadın kralı" adlandırırdılar. (K.Balkan, 1948, Səh. 729)

Kassi krallarının bu epitetindən göründüyü kimi bars və öküz kaslar üçün iki kutsal totem heyvan olmuşdur. Samilər Barsı namri adlandırırdılar. Namri tayfası Zaqros dağları ilə Diyala çayının arasında məskunlaşmışdılar. Namri ölkəsi krallığını həm kassilərə, həm də Elama aid edirdilər. Yuxarıda qeyd etdimiz kimi bir çox müəlliflər Elam krallarına tabe olan namri ölkəsinin əhalisinin etnik mənşə baxımından kassilərlə eyni olduqlarını yazmışlar.

Kassi dili aqqulyutativ dil ailəsinə daxil edilir. Kassi dilinin hind-avropa dil ailəsinə aid edilməsi cəhdləri iflasa uğramışdır.

Kassilər sosial təşkilatın tayfa-nəsl birlikləri formasında şəklində birləşmişdilər. Kassi əraziləri tayfalar arasında bölüşdürülmüşdü və bu ərazilərə tayfa başçıları rəhbərlik edirdilər.

K.Balkan kassilərə həsr olunmuş öz dissertasiyasında yazırdı ki, Kassi dövlətində torpaqlar hökmdara məxsus idi və o bu torpaqları pay şəklində tayfa başçılarına və əyanlara verirdi.

Kassi bəylik dövlətləri *Bit,* yəni "evlər" adlandırılırdılar. Bu tayfalara məxsus ərazilər isə *bitu,* yəni ev adlanırdı, tayfa və ya inzibati ərazilərin sərhədlərində bu ərazinin həmin tayfaya və ya onun başçısına məxsus olması haqqında yazılı daşlar qoyulurdu, bu daşlar *kudurru* və ya *bitu,* həmin ərazinin idarəçisi və ya bəyi *Bitu-elu* və ya *bel bitum* adlanırdılar. Sumer mixi işarəsi ilə bu söz *E. Hİ. A. ERİN kaşşi* formasında ifadə olunurdu və mənası "Kassilərin evinin başçısı" anlamı daşıyırdı. *Erin* sözü burda "başçı" anlamı daşıyır. Bu "tanrı evləri" anlamına da gəlir. *Bitu* sözü qədim türk dilində *Bitik* – yazı anlamı daşıyırdı və qədim türklərdə *Bitiq taş* ənənəsi mövcud idi və bu ənənə dilimizdə *Bitili daş* ifadəsi şəklində qorunub saxlanmışdır.

Kasların tayfa sülalələri *Bukaşum* adlanırdı. *Buqaş* buğa və öküz deməkdir və kasların tanrısı idi. Kassilərin *Buqa* tanrı adı Sanskrit dilində Baqa, Qotların dilində Bhaqa, ingilis dilində mənası God – allah deməkdir. (Waddell L. The Makers of Civilization in Race und History, Səh. 461)

Elçibəy Dədə Qorqud dastanında qəhrəman Buğacın adının kassi tanrısı və kralı Buqaş adından yarandığı fikrini irəli sürür.

Ön Asiyadan başlamış Mərkəzi Asiyaya qədər geniş bir ərazidə məskunlaşmış əzəmətli Kas/kusi öntürk etnosunun dini etiqadı və tanrılar panteonu bu bölgədə məskunlaşmış xalqların dini inancları üzərində böyük təsirə malik olmuşdur. Kusların ali tanrılarından olan Buqaş tanrı adı Buqa, Boq, Baqa şəklində bir çox xalqlarda teonimlərin kökünü təşkil edir. Kassilərin Buqaş tanrısı Assur mixi mətnlərində Baqamaştu şəklində ifadə olunur. Bu ad sonradan Baqamazda formasında Avestaya yansımış və tədricən Ahuramazda şəklini almışdır.



Rus araşdırıcı Marina Redina Kassi tayfalarından birinin adının *Şamharu* adlandığını yazır, bu etnonim Azərbaycanın Şamxor adına uyğundur, ancaq nədənsə xalq tərəfindən Şamxor adlandırılan bu qədim yaşayış yeri indi Şəmkir kimi ifadə olunur. (Марина Редина-Томас, 2018, Səh. 31)

Kassi tayfalarının Babilin Sippar şəhəri rəhbərliyinə yazdıqları məktubda Tarqumannu, yəni tərcüməçi adı da qeyd olunmuşdur, çünki Kassilər akkad dilini bilmirdilər.

Kassi sülaləsinin Babildəki hakimiyyəti dövründə Hatti krallığı ilə Babil arasında qardaşlıq münasibətləri mövcud idi. Bu olduqca səmimi qardaşlıq münasibətləri Hatti kralı III Hattuşilinin Babilin kassi sülaləsi kralı Kadaşman Turquya və sonra onun oğlu Kadaşman Enlilə bu qardaşlıq əlaqəsi haqqında yazdığı məktublardan da görünməkdədir. Kadaşmanlar həmişə qardaşlıq münasibətində olduqları Xatti şahzadə qadınları ilə evlənməklə bu ittifaqı daha da möhkəmləndirirdilər. Kassi hökmdarı II Burna-Briaş da öz qızını Xatti kralı I Suppililiumasaya ərə vermişdi və o baş hərəm anlamında olan *Tavananna* ünvanı daşıyırdı. (Марина Редина-Томас, 2018, Səh. 135)

Xattilərin bu sözünün türk dilinə məxsus Tavan – ana sözü ilə eyniyyət təşkil etdiyi aydın şəkildə görünməkdədir. Kassi kralları Misir fironu ilə müharibədə Xattilərə dəstək olmuşdular.

Bəzi müəlliflər Namri ölkəsinin kassilərə mənsub olduğunu və narmilərin bir kassi tayfası olduğu fikrini irəli sürürlər. Hətta Fərat çayının orta axarındakı Habur ölkəsinin xalqının kassilərin *khabur* boyunun təşkil etdyini yazırlar. Kassilər Haburda Qandaşın rəhbərliyi altında paytaxtları Terke olan ilk kassi Hana dövlətinin əsasını qoymuşdular. Habur adı mənbələrdə çox zaman Khabur kimi də yazılır.

Mənbələr Kas tayfalarının birləşərək Babil ərazisində ilk dövlətlərini yaratma tarixini m.ö. 1795-ci ilə, Xett kralı I Mursilisin Babili dağıtdığı və tanrı Mardukun heykəlinin Hanaya aparıldığı tarixə aid edirlər. "Aqum Kakrim kitabəsi"nə görə Babildə ilk Kassi hökmdarı olan II Aqum 24 il sonra bu heykəli öz hökmranlığı dövründə Babilə geri qaytarmışdır.

Hanada yaradılan kassi dövlətinin kralı Kaştil-aşu adlanırdı. Landsberqer Kas sülalə adlarının bu sülalələrin ilk yaradıcılarının adlarından yarandığını qeyd edirdi. Qurucu hökmdar əcdadın adı sonradan hakimiyyət titulu kimi nəsldən nəslə ötürülürdü. Kaştiliaş, Aqum, Kara İndaş və s. (Landsberger B. 1954)

B.Landsbergerin yazdığına görə Kassi kralı II Aqum öz kitabəsində digər ölkələrlə birlikdə Zaqros dağları ərazisində yerləşən Alman və Padan adlı iki bəylik dövlətinin də kralı adlandırır. Padan vadidə, Alman isə Zaqros dağının yaylasında Qutilərlə qonşuluqda Elamın quzeyində yerləşirdi. Alman adını bəzi bilim

adamları Aqvan və Alban şəklində yazırlar və bu sözlərin sinonim olduğunu qeyd edirlər. (B.Landsberger, 1990)

Kassilər haqqında yazan müəlliflər onların ox atmaqda mahir olduqlarını, atın ilk dəfə Ön Asiyaya onların gətirdiklərini, at bəsləməkdə və döyüş arabaları hazırlamaqda usta olduqlarını qeyd edirlər.

Kassilərin hökmdarlar sülalələrindən biri tanrı adı olan Aqu ilə başlayırdı. Hommel bu titulun Ay mənasını bildirən "A-qu-um" kimi ifadə olunduğunu yazır. "Aqu kak rimi" mixi yazılarda Kassi və Akkadın hökmdar titulu idi. (F.Hommel, 1889, Səh. 37)

Aqumdan sonra Babildə hakimiyyətə gələn II Burna-Buriaş Assur kralı III Puzur Aşşur (m.ö. 1503-1479) ilə məhşur sülh müqaviləsi bağlamışdır. Təxminən m.ö. 1430-cu illərdə hakimiyyət sürmüş Karaindaş özünü ilahə "İnannanın sevimli çobanı" adlandırırdı və onun şərəfinə məbəd ucaltmışdı. O özünü "Babilin, Sumerin, Akkadın, kassilərin və Karduniaşın hökmdarı" adlandırırdı. Kardiniaş kassilərin Babilə verdikləri ad idi.

Babil hökmdarlarının A siyahısında Babildə 576 il 9 ay kökmranlıq etmiş 36 Kassi hökmdarının adı qeyd olunmuşdur. Babil hökmdarlarından bəziləri e.q. XIII əsrdən etibarən babil adları daşısalar da, onlar mənşə etibarı ilə kassi idilər.

Kassilərin qadın adlarından biri Nadbat adlanırdı və xalqımızın Nabat qadın adı ilə eyniyyət təşkil edir. Kassilərdə çox zaman qadın adlarının axırına *bani* sözü əlavə edilirdi.

Kassi krallarının Aqum, Kadaşman, Turqu, Kara İndaş, Kara kardaş, Nazi, Ulam, Kuru, Adad kimi titullarının Türkcə olduğu heç bir şübhə doğurmur. Kassilər Babildə hökmranlıq etsələr də titullarında həmişə Kassi adını özündə əks etdirən "Şar Kissati", yəni Kassi çarı ifadəsi mövcud olmuşdur.

Babildəki üçüncü mühüm etnik ünsürü təşkil edən kassilər şərqdə Babillə sərhəd olan dağlarda məskunlaşan cəsur dağ xalqı idi. Onlar m.ö. II minilliyin ortalarında dərələrdən axın edərək Babil ölkəsində hakimiyyəti ələ keçirib yüz illər boyunca ona sahib oldular. Son nəticədə isə qalib gəldikləri ölkənin mədəniyyətini qəbul etdilər. Kassi dili arilərə qədərki Urartunun (armeniyanın) və elamlıların dili ilə qohum olan xett dilinə yaxın olub böyük alorad tayfalarının dili idi, onların bugünki varisləri bu gün Qafqazın cənubunda yaşayan gürcülərdir. (F.Hommel. Geschichte Babylion und Assyrien, Səh. 8)

Amerikan arxeoloqu və etnoloqu Daniel Brinton Hommelin və digər müəllifləri kassi və urartuluları gürcülərlə eyniləşdirən fikirlərini tənqid edərək yazır ki, Qafqaz xalqlarının güneyində onların qonşuluğunda Van gölünün ətrafında Assur mətnlərində Urartu adlanan ölkədə Herodotun alaroid adlandırdığı xalqlar yaşayırdılar. Seys, Lehmann və Hommel qeyri sami dilində danışan bu xalqları gürcülərlə eyniləşdirirdilər. Lakin onların mədəniyyətləri, dilləri və hətta dəfn



qaydaları da gürcülərdən tamamilə fərqlənirlər. Urartululara məxsus aşkar edilmiş qalıqlar onların yayılma coğrafiyasının Araz üzərindən və Ordubaddan şərqə doğru davam etdiyini göstərir. (Daniel Brinton. 1895, Səh. 83)

Tarixi qaynaqlar Elamın qonşuluğunda yaşayan Kassilərin dağlılar olduqlarını və çadırlarda yaşadıqlarını qeyd edirlər. (Daniel Brinton. The Protohistoric of Western Asia. 1895, Səh. 92)

Kassilər Mesopotamiyanın və qonşu ölkələrin tanınmış ağaları idilər. Sumer və Babil mətnlərində kassilər "dünyanın dörd tərəfinin hökmdarları" adlanırlar. Onlar Nil ölkəsini də işğal etmişdilər. Ehtimal olunur ki, Misiri işğal edən və əsl adları Huk olan köçəri Huksoslar kassilərə yaxın qohum idilər. Huk adının əslində Bibliyadakı Qoq olduğuna inanıram. Alarod dilində "ma" sözü ölkə deməkdir və bu anlamda Ma-Qoq qoqların ölkəsi anlamındadır. Mesopotamiyanı işğal edən ilk Kassi hökmdarının adı Qandaş olmuşdur, bu ad Dəclənin əsas qollarından biri olan Qundes adına çox bənzəyir, bu Herodotun qeyd etdiyi Kerkanın qədim adıdır. Çayların adlandırma ənənənəsi türkcədir. Kassilərin İsamiti adı da türkcədir və türk hökmdarlarından birinin adı İstemi olmuşdur. Kassilər Mesopotamiyada m.ö. 2-ci minilliyə qədər hökmran olmuşlar. (A.Wirth, 1905, Səh. 22)

Alman assuroloqu Aleksandr Virtin kassilərin türk mənşəli olmaları haqqındakı elmi dəlillərə söykənən cəsarətli fikirləri böyük önəm daşıyır.

Alman assuroloqu Unqnad kassiləri hind-avropa mənşəyə aid edənlərə qarşı etiraz edir. O kaspi/kasların *Suriaş* tanrısının hindlərin *suriya* adlı tanrısı adı ilə bənzərlik təşkil etməsinin kaspi/kasları hind-avropa mənşəli elan edilməsinə heç bir əsas vermədiyini yazır. Çünki hindlilərdən başqa hind-avropalıların heç bir xalqında Suriya adlı tanrı təsbit olunmamışdır. Onun fikrinə görə kassi/kaspilərin vətəni Xəzər/Kaspi dənizi sahilləri olmuş və onlar bu dənizə öz adlarını vermişlər.

Unqnad Hüzinqin Kaspilərin elam tayfaları ilə qohumluq əlaqələrinə malik olmaları haqqındakı tezisini dəstəklədiyini qeyd edir. (A.Ungnad. 1936, Səh. 19-20)

Azərbaycanın görkəli tarixçisi Əbülfəz Elçibəy də kassilərin etnik mənşəyi haqqında yazır: "Kaslar Azərbaycanın ən qədim əhalisindən olan bir tayfa ittifaqı imiş. Kaslar və ya kassilər e.ö. III minilliyin başlanğıcında Azərbaycanın cənub-qərbindən, Urmiya gölü ətrafı və Zaqros dağlarından Mesopotamiyaya da yayılmış, dinc yolla həmin arazidəki dövlətlərin içərisinə girmiş, orada müxtəlif peşə və sənət sahələrində, xüsusən hərbi işlərdə xidmət etmişlər". (Ə.Elçibəy, 2003, Səh. 24)

Elçibəy Kas etnoniminin kökünü təşkil edən kas-kaz-xaz adlarının eyni mənada, bir xalqın müxtəlif şəkildə ifadə olunan adı olduğunu qeyd edir. Onun fikrinə görə Kas adı həmçinin Kas-ər, Kes-ar, Xəz-ər, Ak-kas, Ak-kaz sözlərinin kökünü təşkil edən eyni sözün müxtəlif ifadə şəkilləridir. (Ə.Elçibəy, 2003, Səh. 27)

Elçibəy kassların öncədən Xəzər dənizi ətrafında yaşadıqlarını və sonradan Azərbaycanın cənubunda və cənub-qərbində daha çox bir yerə toplaşmışdıqlarını

və Xəzər dənizinin adının da bu tayfa birliyinin adından götürüldüyü fikrini irəli sürür. Dacldən şimal-şərqdəki dağlarda bugünki Kərkük və Urmiya gölü boylarından Araza qədərki dağlarda bugünki Kərkük və Urmiyə boylarından Araza qədərki ərazilərdə yurd salan kaslar e.q. III minilliyin sonlarında Mesopotamiyaya dinc yolla yayıldıqları halda, e.q. II minilliyin başlanğıcında, təqribən e.q. 1741-ci ildə güclü bir hücumla oradakı Babil dövlətini dağıtmış, öz hakimiyyətlərini bütün Mesopotamiyaya yaymışlar. (Əbülfəz Elçibəy, 2003, Səh. 25)

Aşşurbanipalın mixi yazılı lövhələr kitabxanasında Kassilərin hökmdarlarına aid lövhələr də mövcuddur. Kassi hökmdarlarından Aqum-rim özündən əvvəlki hökmdar olan atası Aqum-rabinin adını çəkir. O özünü "Kaşşu və Akkadın, Babili, Uliaşın, Padan və Albanın, Qutinin kralı" adlandırır. (H.Winkler. 1892, Səh. 80)

İlk Kassi kralı Karaindaşdır. Karaindaş Karduinaş ölkəsinin də kralı idi və Assur hökmdarı ilə and içərək öz ölkələrinin bərabər hüquqlu olub hər birinin öz ölkəsini idarə edəcəkləri haqqında razılığa gəlmişdilər.

E.q. II minilliyin ortalarında Babilin cənubunda dəniz sahili əraziləri ayrılaraq öz müstəqil dövlətlərini yaratdılar kassi işğalı dönəmində. Bu dövlət özünü Karduniaş adlandırırdı. Bu ad kassi adı ola bilər, çünki, adın axırındakı "iaş" sonluğu kassi dilində ölkə deməkdir. Coğrafi baxımdan o "Dəniz ölkəsi" deməkdir. Fars körfəzi sahilindəki bu ölkə assurlar tərəfindən də "Kəldi ölkəsi" adlanırdı. Bu ərazi kəldi və ya xaldilərə məxsus idi. Kassilər öncə Kalduiaş ölkəsində möhkəmlənmiş və burdan Babilə hücum etmişdilər. (Hugo Winkler. 1892, Səh. 87)

Assuriya kralı Sanneherib (e.q. 705-681) öz annallarıda dağların cəsur xalqı olan kassilərə qarşı həbi yürüşündən, onların Bit-Qubatti, Bit-Kilamzax, Xar-Dişbi və Xar-xar kimi şəhər qalalarını ələ keçirərək çoxlu at və digər heyvan sürülərini ələ keçirdiyini və xərac aldığını yazır. (Delitzsch F. 1884, Səh. 4)

Delitzin adlarını qeyd etdiyi Qubatti və Xarxar/Qarqar Azərbaycanda qədim yaşayış məskənləridir.

Makedoniyalı İsgəndər Əhəmənilərə qarşı müharibədə Daranı təqib edərkən Zaqros dağlarında yaşayan kassilərlə də mübarizə aparmalı olmuşdur. Tarixçi Diador cəsir döyüşçü və mahir oxatan kimi səciyyələndirdiyi kassilərin Midiya dağlarında uksilərlə qonşuluqda yaşadıqlarını və İsgəndərin qoşununa böyük tələfatlar verdiklərini yazır. Dağlarda 40 gün davam edən döyüşdə kassilərə qalib gələ bilməyən İsgəndər Əhəməni qoşununu təqib etməyə davam etməsinə izn verməlari üçün kassilərə barışıq təklif etmiş və tabe olacaqları təqdirdə onlara qarşı savaşı durduracağına söz vermişdir. (Delitzsch F. 1884, Səh. 2)

Yuxarıda Şərqin qədim tarixini tədqiq edən görkəmli assuroloqların, tarixçilərin, arxeoloq və etnoloqların Kassilərin ilkin vətəni, onların dil nümunələri, miqrasiyası və Orta Asiyadan gələrək yerləşdikləri Ön Asiya ərazilərində yaratdıqları və yüz illərlə davam edən dövlətləri haqqında fikirləri ilə tanışlıq bu qədim qüdrətli xalqın türk etnosuna mənsub olduqları və məskunlaşdığı əsas ərazinin Azərbaycan olduğu haqqında qəti fikir yürütməyə imkan verir.



## Aratta

Aratta Mesopotamiyanın mixi yazılı mənbələrində adı çəkilən qədim dövlətlərindəndir. Aratta ölkəsi haqqında əsas məlumatlar Sumer dastan və əfsanələrində, Assurriya kitabələrində əks olunmuşdur.

Aratta dövləti ilə Sumer arasındakı münasibətlər e.q. III minilliyin əvvəllərinə aid "En-Merkar və Aratta hökmdarı", "En-Merkar və En-Sukuşsiranna", "En-Merkar və Luqalbanda", "Luqalbanda və Hurrum dağı" adlı dörd Sumer dastanında öz əksini tapmışdır.

Arattanın yerləşdiyi ərazinin müəyyən olunması tarixçilər arasında müəyyən mübahisə və müzakirələrə səbəb olmuşdur. Aratta haqqında bəhs edən Kramer sumer dastanlarında Sumerin Xəzər dənizi tərəfdə yerləşən Aratta dövləti ilə qeyri adi dərəcədə sıx bağlı olduğunu və bu bağlılığın onların həmin ərazidən gəldikləri haqqında fikirlər doğurduğunu yazır. Onların dilləri də aqlütinativ qruluşa malik olmaqla Ural-altay dillərinə bənzəməkdədir. (Kramer S. 1963. Səh. 42)

Sumer dastanlarında verilən bilgilər Arattanın Azərbaycan ərazisində yerləşdiyini sübut edir. Bu dastanları tərcümə və tədqiq etmiş dünyanın böyük Sumeroloqlarından biri Kramer ordakı dəlillərə əsasən Arattanın Urmiyə gölünün güneyində yerləşmiş olduğu fikrini müdafiə edir. Kramer Luqalbanda haqqındakı mifə əsaslanaraq Arattanın Urmiyə gölü yaxınlığında Hurum dağlarında (hurrum-kur-raka) yerləşdiyini və bu dağların sonradan hurrilərin vətəni olduğu fikrini irəli sürmüşdür. (Kramer S. 1963. Səh. 275)

Kooper Arattanın təxminən qədim Elamdan şərqdə indiki İranın mərkəzi ərazilərində yerləşdiyini yazır. Ora lazurit-lacivərd ticarətində olduqca önəmli rol oynayırdı. Aratta adı ümumiyyətlə varlı və zəngin dağlıq bir yer kimi təqdim və təsəvvür olunur. Aratta və Sumer arasında yaxın münasibətlər mövcud idi və hətta tanrıları da eyni idi. Arattalılar sumer adları daşıyırlar. Aratta dastanında Urukun (Unuq) və Sumerin hökmdarı Enmerkar öz şəhərini və bütün Sumeri qiymətli daşlar və metallardan ibarət əşyalarla bəzəmək istəyir. Sumerdə mövcud olmayan bütün bunlar isə dağların arxasında yerləşən Aratta şəhərindədir.

Unuqun göndərdiyi qasid Arattaya 7 dağ üzərindən keçib getməlidir. Dağlar dastanda hökmdar taxtı kimi təcəssüm olunur və onun üzərində Tanrıça İnanna oturmuşdur. Dastanda sumerlər üçün ifadə olunan "qarabaşlar" epiteti bir ideoloji səciyyə daşıyır. Tanrı obrazında təcəssüm olunan Sumer krallarının epiteti "xalqın çobanı" idi. Qarabaş qoyun sürüsü timsalındakı xalq öz çoban-krallarının himayəsi və qayğısı altında həyat sürürdü. (Herman Vanistiphout, 2003, Səh. 49)

Sumerlər inanırdılar ki, yeraltı dünyaya giriş Zaqros dağlarından şərqdə günəşin çıxdığı ərazidədir. Onların miflərinə görə yeraltı dünyanın yerləşdiyi Kur tanrıların ziyarət etdikləri və hakimiyyət-kutu almaq istədikləri müqəddəs yer Zaqrosdan şərq tərəfdə yerləşən dağlıq ərazidir. (Jeremy Black and Anthony Green. 1998Səh. 114) Həmin dağlıq ərazini onlar Aratta adlandırırdılar. Sumer tanrıçası Nisibaya həsr olunmuş himndə deyilir ki, Tanri Enki laciverddən yapılmış E-zaqin məbədini Nisibanın sərəncamına verdi.

İran yayalasının Kirman vilayətində Xəlil rud çayının sahilində yerləşən Jiroft arxeoloji mədəniyyəti bürünc dövrünə aid olub e.q. III-I minillikləri əhatə edir. Burda önəmli qazıntı işləri 1966-cı ildə amerikanın görkəmli arxeoloqu Jozef Kolduellin rəhbərliyi altında aparılmışdır.

Geniş bir sahəni əhatə edən bu mədəniyyət əsasən Elam dövrünə aid edilir. Burda qazıntı işləri aparmış iranlı arxeoloq Yusif Məcidzadə Jiroft mədəniyyətini və ora daxil olan Marhaşi və Baraxşanı Sumerin Uruk şəhəri ilə rəqabət aparan Aratta dövləti ilə eyniləşdirir.

İran tarixçisi Cahanşah Dərəxşani Aratta ölkəsi adının onun sakinləri olan aratey tayfasının adından yarandığını və guya onların qədim arilər olduqları və sonradan Persiyaya köçərək orda məskunlaşdıqları fikrini irəli sürür.

Ermənilər tarixdəki saxtakarlıqlarını davam etdirərək Arattanı ilk erməni dövləti adlandırırlar.

Avropa arxeoloq və assuroloqları Daniel Pott başda olmaqla Jiroft mədəniyyətini mixi mətnlərdə Elamın şərqində yerləşdiyi qeyd olunan və e.q. III minilliyə aid şəhər dövləti Marhaşi və ya Varahşa ilə eyniləşdirirlər. Sumerin Adab şəhərinin ensisi Luqalannemundaya aid lövhədə Arattanın və Elamın Quti ölkəsinin güneyində yerləşdiyi yazılmışdır. Elamın şərqində dağlıq ərazidə yerləşən Varahşanın ziynət əşyaları, xüsusən də qiymətli daşlarla zəngin olması Sumer hökmdarlarının diqqətini cəlb edirdi. Frankfurt Marhaşi adını Marqiana ilə eyniləşdirirdi.

Tədqiqatçılar Marhaşi mədəniyyətinin Elam, Okus uyqarlığı və Xarappa mədəniyyəti arasında əlaqələndirici funksiyanı yerinə yetirdiyi fikrindədirlər.

Assuriya kralı II Sarqon (e.q. 722-705) şərq ölkələrinə hərbi yürüşü zamanı Manna ərazisindəki Rappa və Aratta ölkəsinin dağlarındakı çayların üzərindən asanlıqla keçərək maneələri dəf etdiyini öz zəfər kitabəsində təsvir edir. (Thureau Dangin. 1912, Səh. 9)

II Sarqonun kitabəsi də Arattanin Azərbaycanın Urmiyə gölü ətrafında mövcud olmuş Manna ölkəsində yerləşdiyini sübut edir.

Assuroloq Turea Danqin mətində *aratta. ki* adının oxunuşunu Arattu kimi yazır. Sözün kökü Arat və ya *Arat/Arta* olub, *tu* akkad dilində Elamtu, Subartu adlarında olduğu kimi yer və ölkə bildirir.



Azərbaycanın Elam və Qədim Şərq tarixi üzrə dünya şöhrətli tarixçisi Yusif Yusifov da, Kramer kimi Aratta ölkəsinin Azərbaycanda Urmiyə gölü ətrafında yerləşdiyini elmi dəlillər əsasında sübut edir. Yusif Yusifovun müəllifi olduğu "Qədim Şərq tarixi" və "Azərbaycan tarixi" kitablarında Arattanın tarixi dolğun şəkildə öz əksini tapmışdır. Urmiyyə gölü hövzəsi tarixi ədəbiyyatda Mesopotamiya adlanan İkiçayarasının şimal-şərqində yerləşirdi. Buraya Azərbaycanın Araz çayından güneydə olan torpaqları daxil idi. E.q. III minillikdə Urmiyə gölü hövzəsində tayfa ittifaqları dövlət halında birləşməyə başladı. İkiçayarasının bu ərazilə siyasi və iqtisadi əlaqələri sumer-akkad mixi yazı mətnlərində əks olunmuşdur. Bu qaynaqlar Aratta ölkəsi, kuti, lullubi, su, turukku tayfaları haqqında bəhs edirlər. Sumer və Akkad hökmdarları Urmiyə gölü hövzəsi ölkələri ilə iqtisadi əlaqələr yaratma, bəzən də bu ölkələri özlərinə tabe etmək məqsədi güdürdülər. Eyni zamanda Akkad hökmdarları və sonradan isə Assuriya kralları bu ərazidəki tayfaların Mesopotamiya ərazisinə hərbi müdaxilələrin qarşısını almaq üçün əks hərbi yürüşlər təşkil edirdilər. Sumer, Akkad və Assuriya hökmdarları Urmiyə gölü hövzəsi ölkələrinin malik olduqları zəngin təbii sərvətləri və coğrafi şəraiti haqqında yetərli dərəcədə məlumatlara malik idilər. (Yusif Yusifov, 1992)

Aratta Güney Azərbaycanda e.q. III minilliyin başlarında meydana gəlmiş ilk dövlət qurumu idi. Onun ərazisi Urmiyyə gölünün güney və güney-doğu hissəsini əhatə edirdi. Diyala çayının yuxarı axarı və müasir Zəncan-Qəzvin ərazisi Arattanın aşağı sərhədlərini təşkil edirdi. Enmerkar dastanında Aratta yaxınlığında Zubi dağı və Qaradağ adı çəkilir. Bu dağlar İraqın Süleymaniyə tərəfdən İrana girişində, Urmiyyə gölünün güneyində Kiçik Zab çayının şərqində yerləşən Kur taq və ya Qara dağ sıra dağlarıdır. (Yusif Yusifov, Bakı, 1992, Səh. 160)

Alman assuroloqu Hroznu Türkistandakı öz ilkin vətənlərini tərk edən sumerlərin Qafqaz üzərindən keçdikdən sonra bir neçə yüz il Azərbaycan ərazisində məskunlaşaraq burda yeni bir mədəniyyətin əsasını qoyduqlarını və sonradan Mesopotamiyaya gedərək orda məskunlaşdıqları fikrini irəli sürür. Həmin ərazidə Aratta adlanan dövlət qurulmuşdur. Sumer mətnlərində arattalıların sumerlərlə eyni adı daşımaları və eyni tanrılara etiqad etmələri məhz bu səbəblə izah oluna bilər.

Aratta dövləti Sumer şəhər dövlətləri ilə iqtisadi, siyasi və mədəni əlaqələrə malik idi. Sumer dastanlarından məlum olduğu kimi Sumerin Uruk şəhər dövləti ilə Aratta arasında münasibətlər gah düşmənçilik, gah dinc, gah dostluq xüsusiyyətləri daşıyırdı. Urukun ensisi En-Merkar Arattanın Uruka tabe olmasını tələb edirdi. Aratta hökmdarı da öz növbəsində En-Merkarın Arattaya tabe olmasına çalışırdı. Lakin sami tayfaları Uruk şəhərini mühasirə etdikləri zaman En-Merkar hərbi yardım üçün Aratta hökmdarına müraciət etmişdir. Sumerlər Uruk şəhərindəki məbədləri bərpa etməkdən ötrü tikinti materiallarına, qiymətli metal və daş-

lara ehtiyac duyurdular. Uruk hökmdarı En-Merker bu materialların Arattadan gətirilməsini istəyirdi. Bunun üçün o qasidlər göndərir, yazışmalar aparır və özü də bu ölkəyə səfər edirdi.

Zəngin mədənlərə malik Aratta ölkəsinin əhalisi qızıl, gümüş, qurğuşun, mis, dağ daşı, laciverd daşı hasil edirdi. Qiymətli metallardan və daşlardan hazırlanmış məmulatlar İkiçayarasına ixrac edilirdi. Azərbaycanda da laciverd yataqları vardı. Qədim əhali lacivərdin çıxarılması və yonulması ilə məşğul olurdu. Orta əsr müəllifi Həmdullah Qəzvini yazırdı: "Lacivərdin ən yaxşı yataqları Bədəxşandadır, lakin bir yataq Mazandaranda və Azərbaycandakı Dizmarda, digəri Kirmanda vardı".

Yəqin ki, qədim zamanlarda Azərbaycanda lacivərdin yataqları Arattanın nəzarəti altında imiş və xüsusi sənətkarlar lacivərdin hasil edilməsi ilə məşğul olurdular. Mesopotamiyada lacivərdə böyük ehtiyac vardı. Ondan məbəd və saray tikintilərinin bəzədilməsinə sərf edilir, möhür, qiymətli bəzək-düzək və digər məişət əşyalarının hazırlanmasında istifadə olunurdu. (Azərbaycan tarixi, 1994)

Yusif Yusifov Arattanın dağlıq ərazi olduğunu və sumer-akkad mətnlərində onun "dağ" anlamında *aratalaratu* şəklində ifadə olunduğunu yazır. O digər dillərdə dağ anlamı daşıyan belə bir sözün mövcud olmadığını qeyd edir. Aratta toponimi öntürk dillərində *arata, aratu, alateya* variantlarında öz əksini tapmışdır. Azərbaycanda və digər türk ərazilərində bu ad Alatau, Alatoo, Alataa, Aladağ formasında "yüksək, böyük" olan dağ/tau mənasında oronimlər təşkil etmişlər. (Ю. Юсифов, 1988, Səh. 15-39)

Sumerlərin dastanında deyilir ki, En-Merkarın göndərdiyi Sumer qasidi Qara dağı keçdi, beş, altı, yeddi dağı aşdı və Aratta ölkəsinə daxil oldu. Dastanda adı çəkilən Qara dağ indiki İran-İraq sərhəddinin Süleymaniyyə bölgəsindən Güney Azərbaycana keçidi təşkil edən Qara dağla eynidir. E.q. VIII əsrdə Assur hökmdarı II Sarqon da həmin dağlardan keçərək Mannaya daxil olmuşdu. E.q. VIII əsrdə Urartu hökmdarı I Argişti (e.q. 786-764) Mannaya yürüşü zamanı Alateya dağlıq ölkəsinin adını çəkir. Alateya Urmiyyə gölünün güney və güney-doğu ərazilərini əhatə edirdi. Aratta və Alateya adları eyni adın *r-l* əvəzlənməsi ilə iki variantını əks etdirir. Azərbaycanın böyük bir ərazisini əhatə edən Urartu dövləti özündən əvvəlki qədim Aratta ərazisində yaranmış və sonradan əldə etdiyi yeni ərazilər hesabına genişlənmişdir. Urartunun adı da mənası "dağlıq ölkə" demək olan Aratta adının dəyişik fonetik şəklidir. (Yisif Yusifov, 1992, Səh. 332)

Azərbaycanın böyük ziyalısı və bilim adamı M.Zehtabi Aratta haqqında yazır ki, Urartu dövlətinin və xalqının adı Aratta sözündən yaranmışdır. Urartu, Aratta, Ararat və adı Assur mənbələrində çəkilən Arateya mənası dağ beli demək olan "Art" sözündəndir. Tarixi mənbələrdən məlumdur ki, Urartu dövləti e.ə. 2400-cü illərdə Urmiyə gölü ətrafına köçüb bu ərazidə yerləşən hurri tayfaları tərəfindən



yaradılmışdır. (M.T.Zehtabi, 2010, Səh. 109)

Adları ilk dəfə m.ö. XIII əsrdə Assuriya kralı Salmanassarın səlnaməsində çəkilən Urartu adı Assur mənbələrində "Kur Artaya Uri" şəklində ifadə olunmuşdur. Assur dilində "kur" ölkə mənasındadır, "Arta" dağ və yüksək yer anlamındadır ur isə xalq, əhali deməkdir, beləliklə, assurların urartululara verdikləri "Kur Artaya Uru" adının mənası "Dağlıq ölkəsinin xalqı" deməkdir. (Б.Б. Пиотровски, 1959, Səh. 30)

Urartu adı qısa şəkildə "Ur Arta" şəklində ifadə olunurdu. Bibliyada ölkənin Urartu adının "art" şəklində yazılışını bir çox müəlliflər nədənsə onun oxunuşuna daha uyğun olan "u" deyil, "a" hərfi artırmaqla Ararat kimi izah edirlər. (Б.Б. Пиотровски, 1959, Səh. 30)

Urartu dilində *Arte* dağ deməkdir *Arte-ne* dağlar deməkdir. Kur Artenie dağlar ölkəsi deməkdir, İ.Dyakonov da Urartu adının kökünü "Artey" sözünün təşkil etdiyini və urartu mətnlərindəki mənasının dağ və ölkə demək olduğunu yazır. (Дьяконов И.М. 1963, Səh. 95, 42)

Aratta və Urartu adlarının kökünü təşkil edən *Artelarta* sözü qədim türk dilində mənası eynilə "dağ", "dağlar" və "dağ aşırımı" olan Art şəklində ifadə olunmuşdur. (ДТС, 1969, Səh. 55)

Batıda yerləşən Aratta dağlıq ölkəsi adı sonrakı dövrlərdə Zaqros dağları və şərqi Anadoluda yaşayan turani xalqların dilində dağ mənasında Arta şəklində mövcud olmuşdur.

Samilər və arilər Mesopotamiyaya və gənəlliklə Ön Asiyaya gəlmədən öncə burda uku qohum etnos məskunlaşmışdı, İkiçayarasının güneyində sumerlər, quzeyin düzənlık və dağlıq hissəsində subir/subartular. Aratta dövləti Zaqros dağlarının quzeyində Urmiyyə gölünün güneyindəki geniş dağlıq ərazidə yerləşirdi. Onun sakinləri etnik mənşə baxımından subirlər idilər. Bir çox müəlliflər Mesopotamiyanın quzey ərazilərində və Arattanın da yerləşdiyi Zaqros dağları və onun quzey və şərq ərazilərində məskunlaşmış kassi, quti, lullubi, midiya, manna, urartu və xatti xalqlarını etnik baxımdan subirlərə mənsub hesab edirdilər.

Dağ yayalalarında məskunlaşan tayfalar çox zaman ümumi adla "dağlılar" mənasında Arteya və Artalılar adlandırılırdılar.

Edvard Norris Əhəməni kitabələrindəki mətnləri araşdıraraq belə nəticəyə gəlir ki, mətnlərdə qeyd olunan "Arta"lılar (Artaei) adı Parsların, yəni Barsların (İranlı perslər deyil) özlərinə verdikləri addır. Herodotun bəhs etdiyi Saqartalı adının kökü də bura bağlıdır və Herodot saqartların köçərilərlə eyni dildə danışdıqlarını yazır. Artalar köçəri sak tayfaları idi. Sak dilindəki mətnlərin məhz Artaların yaşadıqları ərazidə mövcud olması belə bir ehtimal doğurur ki, Kirin əcdadları və onların mənsub olduqları tayfa bu dağlı saklara mənsub olmuşlar. (E. Norris. 1852, Səh. 201)

Roulinson Bisütun mətnlərində "Ar və Art" sözünün dağ anlamı daşıdığını yazır və bu sözlə başlayan yer adlarını dağla əlaqədar olduğunu qeyd edir. Raulinson Arminiya adının da bu anlamda dağlıq ölkə demək olduğunu qeyd edir. Onun fikrinə görə İrandakı Arburz dağ adının da bu sözlə əlaqədardır (H.C. Rawlinson, 1849, Səh. 33)

Azərbaycanın qədim şəhəri Ərdəbilin adı "dağ beli" mənasındakı Artabel adından yaranmışdır.

## Lullubilər

Lullubi ölkəsi Urmiyyə gölünün güneyində Aratta ərazisində yerləşirdi. Lullubi Arattadan sonra Azərbaycanın güneyində yaranmış ikinci qədim dövlətdir.

Alman assuroloqu və arxeoloqu Ernst Herzfeld su, turukku və lullubu tayfalarını ümumilikdə Aratta əhalisi hesab edərək onların altay-türk etnik birliyinə aid edir. Onun fikrinə görə eyni ərazidə məskunlaşmış turukku, su və lullubi tayfalarının dilləri Aratta əhalisinin dilləri ilə eyni olub altay-türk etnolinqvistik mənşəyə malikdirlər. (Ernst Herzfeld. 1986, Səh. 90-93)

Lullubi ölkəsinin adı ilk dəfə Akkad kralı Sarqonun Quti dövlətinə qarşı hərbi yürüşündə adı çəkilir. Sarqonun nəvəsi Naram-sin hakimiyyəti dövründə Lullubi kralı Satuni (e.q. 2230-200) Akkad dövlətinə qarşı hərbi birləşmələrdə iştirak edirdi. Qaradağ ərazisində Naram-sinə qarşı döyüşdə Satuni məğlubiyyətə uğramışdır. Naram-sin öz qələbəsini "Qələbə daşı" kitabəsində əbədiləşdirmişdir.

Lullubi dövləti kralları İmmaşqunun (e.q. 200-2170) dövründə güclü dönəmini yaşamışdır. Lullubinin ən məhşur və qüdrətli hökmdarı Annubanini (e.q. 2170-2150) olmuşdur. O düşmənləri üzərində qələbələrini daş sütunlar üzərində həkk etdirirdi. Onun Batir dağındakı daş sütununda düşməninə qalib gəlməsini əks etdirən təsvirdə İştar tanrısı da əks olunmuşdur. Lullubilər göyüzü, bərəkət və məhəbbət tanrılarına etiqad edirdilər. Bəzi müəlliflər lullubiləri, qutiləri subarlara aid edirlər. Digərləri onları Elam xalqlarından hesab edirlər.

Assuroloq G.Huzinq lullubilər haqqında yazır ki, Zaqros dağlarının doğu silsiləsi Elam dilində Sunqur adlanırdı və mənası "Kral dağları" deməkdi. Bu ad bir qala adı da ola bilər. Burda yaşayan xalqın adı *Lullubi* olub, sondakı *bi* cəm şəkilçisidir, Lullu-bi adının mənası Lullular, yəni Lullu xalqı deməkdir. Assur dilində bu Lullu-mi formasında yazılırdı. Müasir dövrdə də Diyala çayının yuxarı qollarından biri Lulu adlanmaqla bərabər Zaqros dağlarının həmin ərazidəki silsiləsi də Lulu adlanır. Assur kralı Sarrukin həmin bölgəyə m.ö. 717-ci ildə hərbi səfəri zamanı Lullu-Uqnu şəhərini ələ keçirdiyini öz kitabəsində qeyd etmişdir. Burdakı uqnu sözünün mənası "mavi" deməkdir. Lullubilər də Elam tayfasıdır. (Georg Hüsing. 1908, Səh. 19, 20)



Qonzalo Rubio Lullubi adını fərqli şəkildı izah edir. Urmiyə gölünün güneydoğusunda yerləşən Lullubi ölkəsinin adı hurri-urartu dili ilə əlaqədardır, *lulu/ lullu* sözünün mənası yabançı, yad deməkdir və bu söz hititlərin dilinə *lulaxxi/lulaxi* şəklində keçmişdir. Hititlər dağların mədəni olmayan sakinlərini belə adlandırırdılar. Maraqlı orasıdır ki, Dəclə çayından şərqdə, Lullubi ölkəsindən şimalda məskunlaşmış Subar və ya Subir xalqı da eyni ilə yabançı-mədəni olmayan ifadəsi ilə adlanırdılar. Heç şübhəsiz Subarların dili də hurrilərin dili ilə eynidir. (Gonzalo Rubio. 2007, Səh. 10)

Bəzi müəlliflər Lullubiləri hurri mənşəli hesab edirlər. Sumerin "Luqalbanda və Anzu" əfsanəsində Luqalbanda Arattanı mühasirəyə almaq üçün hərbi səfər zamanı Uruk Hökmdarı En-Merkarın ordusunu axtararkən Lullibi dağında Anzu adlı nəhəng quşla rastlaşır.

Qutilər Akkad dövlətini məğlub etdikləri zaman Lullubilər quti kralı Erridupizirə qarşı üsyan qaldırmışdılar. Lakin Quti kralı üsyanı yatıra bilmişdir.

Böyük Sarqonun kitabəsində Lullubi kralı Anubanini onun düşməni adlandırılır. Bir qaya relyefində döyüşdə qalib gəlmiş Anubanini Assur-babil İştar ilahəsi ilə birlikdə təsvir olunmuşdur. Assur-babil mətnlərində çox zaman bütün dağlı xalqları ümumi "lullu" termini ilə adlandırırdılar.

Bəzi mətnlərdə Lullubi və Zamua adı birlikdə çəkilir. Lullubi ölkəsinə qarşı hərbi səfərlərini əks etdirən mətnlərdə onların divarlarla əhatə olunmuş 19 şəhərinin olduğu, çoxlu qaramal sürülərinə, metala, at ilxısına, parça və şəraba malik olduqlarını və Assuriya kralı Aşurbanipalın onları ələ keçirdiyini yazılmışdır.

Naram-sinin zəfər kitabəsində lullubilər döyüşkən dağlı xalqı kimi təsvir olunurlar. Onlar heyvan dərisində sinələri açıq, qısa saqqallı, uzun saçları sıx hörüklənmiş şəkildə təsvir olunurlar. (Bahrani Zainab. 2008. )

Emil Forrerə görə Lullubi xalqı öncələri bütün Midiyaya hakim idilər. (Emil Forrer. 1926, Səh. 26)

E.ə. II minilliyin əvvəllərində Urmiya gölü hövzəsində yaşayan turukku və su tayfaları siyasi tarix səhnəsinə qədəm qoyurlar. Onlar əvvəlki dövrlərdə Aratta, o dağıldıqdan sonra isə Kutium və Lullubum dövlətlərinin tərkibinə daxil idilər. Lullubilər Diyala çayı üzərində məskunlaşmışdılar. (Landsberger B. 1924, Səh. 230)

Assuroloq Aviqdor Spayser Lullu adının Zamuanın ən mühüm yaşayış məskəni olan Atlila adından yarana biləcəyi fikrini irəli sürür. Atlila Aşurnasirpal tərəfindən bərpa edilərək Tur-Aşur adlandırılmışdır. (Spayser A. 1930, Səh. 100)

Atlila dəmir dövründən mövcud olmuş şəhər dövlətidir və Zamua ölkəsində yerləşmişdir. O Mesopotamiyanın şimal-şərqi və İranın şimal-qərb əraziləri arasında daha doğrusu Urmiyə gölünün güneyində, Azərbaycan ərazisində yerləşirdi. Assuriya çarı II Assurnasirpal m.ö. 880-ci ildə Zamuaya hərbi yürüş edərkən Atlilanın da adını çəkir. Onun yazdığına görə Babil çarı Sibir Atlilanı dağıtdığı

üçün o şəhəri yenidən bərpa etmiş və adını dəyişdirərək Tur-Asur qoymuşdur. (Trevor Bryce. 2009, Səh. 92)

Batir-dağdır Lullubi kralı Anubani (e.q. 2300) orda öz təsvirini və tanrı İştarın təsvirini ucaltmışdı. Bu təsvirlərdə Lullubi kralı Anubanini və digər krallar öz düşmənlərini ayaqları altına aldıqları şəkildə təsvir olunurlar. ( Thureau-Dangin. 1907, Səh. 246)

Lullubilərin Annubanin, Tardu, İkki, Satuni, İmmaşkuş, Zabini, Dada kimi kral adları maraq doğurur.

Batir dağı indiki Kirmanda Zöhrab şəhəri yaxınlığında Saripul adlı dağdır. Maqan isə Maqan adlı dağda yerləşən ölkə idi. Naramsin onun kralı Maniyə qalib gələrək çoxlu qənimət ələ keçirmişdi. (Thureau-Dangin. 1907, Səh. 260)

Şarur Sumerdə kedrdən müdafiə üçün hazırlanmış silahdır. Şarur Sumer tanrısı Ninqirsuyun uruqallu silahıdır. Uru müqəddəs paya və ya dirəkdir. Uruqallu Savaşda tufan silahı kimi istifadə olunur. Uruqallunun tərcüməsi fiqurlu payadır. Onu döyüşdə istifadə edirdilər. (Thureau-Dangin, 1907, Səh. 268)

## Qutlar, Quzlar və Quzan ölkəsi

Tarixi ədəbiyyatda çox zaman Quti və Qutium şəklində ifadə olunan xalqın əsl adı Qut olmuşdur. Qutlar ilkin mənbələrə əsasən tarix səhnəsinə e.q. XXIII əsrdə qədəm qoymuşlar.

Akkadın ilk hökmdarı olan Sarqonun (m.ö. 2340-2234) kitabələrindəki ərazilərin kadastro qeydlərində Qut tayfalarının Zaqros dağında yerləşdikləri ərazi quzeydə Diyala çayı sahilindəki Lullubi ölkəsi ilə güneydə Der şəhəri arasındadır. Digər qədim mixi yazı sənədləri də Qutilərin ölkəsinin quzeydə Subartu ölkəsi ilə güneydə Elam ölkəsi arasında yerləşdiyini göstərir.

Mixi yazı mətnlərindən məlum olduğuna görə Zaqros dağlarında məskunlaşmış Quti tayfalarının bir qismi Akkad kralı Naram-suenin (m.ö. 2260-2223) məğlub olmasından sonra Dəclə çayının yuxarı vadilərinə köçərək burda Subar xalqı ilə qaynayıb qarışmışlar. Qutilərin böyük bir hissəsi aşağı vadilərdə samilərin Aşur adlandırdıqları Atur ölkəsində məskunlaşmışdılar. Atur sonradan sami assurlar tərəfindən işğal olunmuşdur.

Landsberqerin yazdığına görə Qutlar m.ö. 2400-cü il tarixlərində Fərat çayının orta vadilərinə yerləşmiş və burda üç şəhər salmışdılar. Qutilər Akkadların müqavimətini qıraraq Habur, Balih və Orta Fərat vadilərini ələ keçirmişlər. (Landsberger B, 1990, Səh. 20)

B.Hroznu öz tədqiqatlarında Qutların, Lullubi və Kassi xalqları ilə qohum olduğu fikrini irəli sürür. Onun araşdırmalarında və tərtib etdiyi xəritədə qədim dövrlərdə Qut xalqının ilkin vətənlərinin Xəzər dənizinin güney-doğusu ilə Okus çayının arasındakı bir ərazidə, Türkistanda yerləşdiyi təsbit olunmuşdur. Qutlar daha sonra m.ö. 2500-2400-cü illərdə Xəzər dənizi boyunca batıya doğru hərəkət etmiş və daha sonra Zaqros dağlarının quzey-doğusuna yerləşmişlər. Qutların dili ilə qədim Türk dili arasında təsbit edilən bənzərlik Hroznunun Qutların Türkistan mənşəli olduqları haqqındakı tezisini dəstəkləməkdədir. (B.Hrozny. 1940)

Kutilərin adı mixi mətnlərdə adətən "uğnum Kutium", yəni kuti tayfaları adlanırlar. Dyakonov Quti adının düzgün oxunuşunun Kuti-um şəklində olduğunu yazır. Kuti hökmdarları əslində Kuti tayfa birliyinin başçıları idilər. Mətnlərdən göründüyü kimi kuti hökmdarları hərəsi bərabər şəkildə 6 il olmaqla hakimiyyət sürmüşlər. Görünür, onlar ümumi razılaşma əsasında ölkəyə müəyyən zaman ərzində rəhbərlik etmək üçün seçilirdilər. Yeganə olaraq I Yarlaqab 15 il hökm sürmüşdür. Kuti hökmdarlarından biri də İbate adlanırdı. (Дьяконов И.М. 1959. səh. 238)

M.A.Beck "Mesopotamiyanın Atlası" adlı əsərində Qutların yerləşdikləri yerin Zaqros dağlarında Nuzi (Yorğan təpə) və Arrappanın (Kərkük) doğusunda, Kiçik Zab və Diyala çayları arasında olduğunu müəyyən etmişdir. Qutlar da Ön Asiyanın bir çox xalqları kimi Kür-Araz mədəniyyətinə aid edilirlər.

Onların ilk kralları mixi mətnlərinə əsasən e.q. 2210-2004-cü illərdə hakimiyyət sürmüş Erridu-puzur və İmta olmuşlar. Qutların əzəmətli hökmdarı Erridu-puzur e.q. 2200-ci ildə Akkad kralı Naram-suenə qalib gələrək Nippur şəhərini ələ keçirmiş və qutların Mesopotamiyada 91 il davam edən hakimiyyət dövrünün əsasını qoymuşdur. Qutların akkadlara qarşı savaşı sumerin "Aqade lənəti" adlı ağı şeirində öz əksini tapmışdır.

Samilərin Naram-sin adlandırdıqları Naram-suenin Sumer, Lullubi və Zaqros dağlarındakı xalqlara qarşı apardığı dağıdıcı müharibələri və Enlilə məxsus Ekur məbədinin bünövrədən yerli yeksan edilməsi sumerlilərin məhşur "Enlilin Aqade lənəti" adlı mətnində təsvir olunur.

Akkad kralı Naram-Suen sumerlərin Nippur şəhərinin sami akkadlara qarşı itaətsiliyinə cavab olaraq sumerlər üçün son dərəcə müqəddəs hesab olunan Enlilin Ekur məbədini dağıtmağı əmr edərək ordakı qiymətli əşyaları Akkada aparmışlar. Bundan qəzəblənən tanrılar Naram-Sueni və Akkadı lənətləmiş, tanrı Enlil Zaqros dağlarındakı xalqı olan Qutiləri Nippuru müdafiə etmək və akkadlıları cəzalandırmaq üçün dəvət etmişdir. Bu şeirdə qutilər sumerin müdafiəçisi və müttəfiqi rolunda çıxış edirlər. Nippurun yardımına gələrək sumerləri xilas edən qutilər akkadları cəzalandırmış, Naram-Suen döyüşdə öldürülmüş və Qutilərin hökmdarı Errudi-puzur Sumerin və Akkadın kralı titulunu qəbul etmişdir. Naram-sueni qutilərin əli ilə öldürüb Akkad dövlətini dağıtmaqla Tanrı Enlil Mesopotamiyanın digər şəhər dövlətlərini akkadlardan xilas etmək məqsədi güdürdü. (Jerrold Cooper, 1983)

Naram-Suen Qutilərlə döyüşlərdə öncələr də, bir neçə dəfə məğlub olmuş və

onları itaətə gətirə bilməmişdi. Qutilər hər zaman sami akkadlara qarşı çıxaraq turanlı Sumeri onların hücumlarından müdafiə etmişlər. Qutların hakimiyyəti dövründə Sumer şəhər dövlətlərini idarə edən ensilər öz müstəqilliklərini qoruyub saxlamış və qutilərə xərac ödəməkdə davam etmişlər. Qutilər zamanında Sumer sami basqınlarından qorunmuş, ölkədə əmin-amanlıq bərqərar olmuş, ticarət və əkinçilik inkişaf etmişdir.

Ümumiyyətlə, Ön Asiyanın qədim turanlı xalqları olan Qutlar, Kaslar və Turuklar Sumer mədəniyyətinin çökməsində önəmli rol oynayan və sumerləri itaət altına alıb Mesopotamiyada öz dövlətlərini yaradan vəhşi təbiətli samilərin əsl qənimlərinə çevrilmişlər. Ona görə də sami dövlətlərin kralları mixi mətnlərində bu xalqlar haqqında qərəzli aşağılayıcı fikirlər yazır, onları dağıdıcılıqda suçlayırlar.

Qutların Naram-sin üzərində qələbəsi Akkad dövlətinin yıxılmasına və Yeni Sumer dövrünün yaranmasına səbəb olmuşdur. Qutilərin Mesopotamiyada hökmranlığına m.ö. *2109*-cu ildə Sumerin Ur şəhərinin kralı Utuhenqal və sərkərdə Ur-Nammu tərəfindən Qutu kralı Triqanı məğlub etməsi ilə son qoyuldu. Utu-heqal kitabələrində qutiləri "dağ ilanları və ya əjdahaları" adlandırır. Yəni onlardan çox qorxduğunu biruzə verirdi.

Məğlubiyyətdən sonra Qutlar Zaqros dağları yaylalarına geri dönmüş və Triqan qutilərin bir hissəsinə rəhbərlik edərək şərqə doğru hərəkət etmiş, Tarım hövzəsində və Hindistanın şimalında məskunlaşmışlar. Onlar Hindistanda Vedi dininin əsasını qoymuşdur. Bu din sonradan hind-arilərin dini kimi qələmə verilmişdir.

Əfrasiyabın Turanın ilk padşahı olduğunu qeyd edən Məsudi "Muric əz-Zeheb" əsərində onun Kiçik Zab və Böyük Zab çayı arasındakı ərazini öz hakimiyyəti altına aldığını burdan Kir və ya Zav tərəfindən qovulduğunu yazır. Məsudinin bu məlumatı iran əfsanələrində "ilan, əjdaha" adlanan Əfrasiyabın eynilə sumerlər və Ön Asiyanın digər xalqları tərəfindən "dağların qorxunc ilanı və ya əjdahası" adlanan Triqanla eyniləşdirilməsini mümkün hesab edir. Görünür Qut Quzların hökmdarı Triqan haqqındakı tarixi hadisələr sonradan bu bölgədə yerləşmiş olan iranlıların əfsanəsinin kökünü təşkil etmişdir.

Bir çox müəlliflər etnik mənşə baxımından Qut, Lullubi və Subirlərin eyni kökə və eyni dövrün miqrasiya axınına, yəni Subir/Subar kökünə mənsub olduqları fikrindədirlər.

Prof. Landsberqer Qut tarixinin ən önəmli araşdırıcılarındandır. 1937-ci il sentyabrında Ankara Universitetinin Sumerologiya elmi kafedrasının müdiri Prof. Landsberqer İstanbulda Uluslararsı II Türk Tarix Konqresinin Atatürkün iştirak etdiyi toplantısında "Ön Asiya tarixinin əsas məsələləri" adlı bir məruzə ilə çıxış etmişdir. Ön Asiya tarixinin digər problemləri ilə yanaşı Prof. Landsberqer konqresə təqdim etdiyi məruzədə Qut dilinin qədim Türk dili ilə oxşarlığı məsələsinə də aydınlıq gətirmişdir. Landsberqerin Qut dili ilə Türk dillərinin qarşılıqlı müqayisəsi üzrə gəldiyi nəticəyə o zamanlar Ankara Universitetində Türkoloq müəllimləri olan Prof. A. von Qabain və Prof. L.Raszyoni də dəstək vermişlər. (Landsberger B. 1990, Səh. 16)

Landsberger Qutların dili ilə türk dilini müqayisə edərkən onların arasında zaman fərqini də nəzərə almağı labüd heasab edərək yazırdı ki, təbii olaraq eyni dil ailəsinə mənsub olan dillərdən birinin 3 min əvvələ aid sözlərinin etimoloji baxımdan müasir dillə tam eyniyyət təşkil edərək asanlıqla başa düşülə biləcəyini gözləmək sadəlövhlük olar.

Lakin Landsberqerin Qut və Türk dilləri arasında təsbit etdiyi bənzərliklər hindavropalıların dilinin Ön Asiyanın qədim dilləri ilə qohumluq əlaqələrini sübut edə biləcək ən cüzi dəlilə həssaslıqla yanaşan Avropa bilim adamlarının diqqətindən kənarda qalaraq elmi nəşrlərdə geniş əksini tapmamışdır. (Landsberger B. 1990, Səh. 7, 8)

Prof. Landsberqer Qut dilindəki bir çox termin və sülalə adlarının müqayisəli təhlilini vermişdir. Hititlərdə olduğu kimi Qutların da, ilk hökmdarlarının adı sonrakı hökmdarların hakimiyyət ünvanına çevrilirdi. Hititlərdə *Tabarna* və qutilərdə *Yarlaqan* adları sonradan hakimiyyət titullarını təşkil etmişdilər. Tabarna adı sonradan türklərdə hakimiyyət titulu olan El Teber adı şəklində meydana çıxmışdır. Yarlaqan titulu da uyğur türklərində bir hakimiyyət titulu idi.

Landsberqer yazır ki, Qutium xalqının adındakı akkadlara məxsus nisbət şəkilçisi olan *ium* sonluğunu kənara qoysaq yerində Qut adı qalır. Bu adı daşıyanlar tariximizdə türklərlə ən yaxın münasibət göstərən, hətta onunla eyniyyət təşkil edən tayfadır. Landsberqer Sumer dilində öküz anlamında olan və Quti etnoniminin də kökünü təşkil edən *Qud* sözünün akkad dilində *Kus/Quz* şəklində eyni mənalı sinonim söz olaraq ifadə olunduğunu yazır. (Landsberger B. 1934, Səh. 94)

Qut dilinin qrammatik qruluşunun bəzi özəlliklərini də müəyyən edən Landsberqer yazır: "Qut dilində bizə məlum olan sözlər yalnız kral adlarıdır. Bu adlar türk dilində fellərin sonuna *e-qan, a-qan, miş, iş, ti, ap, la, lak* şəkilçilərini artırmaqla yaranmış sifətlərdən ibarətdirlər. Adların bir çoxunun kökünü *yar, yarla* sözü təşkil edir ki, mənası xəbər verən deməkdir. Yarlaqan şəxs adı Orxun kitabələrindəki Yarqan şəxs adını xatırladır. Qutların yardım edən anlamındakı Triqan adı, uyğurların "mükəmməl" mənasındakı *triqa* sözünü xatırladır. Şarlak adı bir çox türk ləhcələrində qanadlı və məməli heyvan adıdır". (Landsberger B. 1990, Səh. 8)

"Qut dilində *El-ulumiş* sözü türk dillərində "ölkəni böyütmüş", "böyüdən" anlamı daşıyırş. Qədim Türk dilində *il, el* "ölkə, dövlət, qəbilə" anlamı daşıyır. Qutların kralı *El-ulumeş Kut* adındakı *El* sözü də yəqin ki, eyni mənanı daşımaqdadır. *Uluq* qədim türk dilində "böyük, əmir, başbuq, anlamı daşımaqdadır". (Landsberger B. 1990, Səh. 32)

Landsberqer digər müəlliflərdən fərqli olaraq Qutilərin İkiçayarasında 91 il deyil, 125 il hökm sürdüklərini qeyd edir. Landsberqerin Qut və Türk dilləri arasında təsbit etdiyi bənzərliklər Avropa bilim adamlarının diqqətindən kənarda qalaraq elmi nəşrlərdə geniş əksini tapmamışdır.

Sumerlərin Kiçik Asiyaya olan bir çox köç axınlarla yanaşı Sumer mədəniyyəti də müxtəlif zamanlarda Anadolunu öz təsiri altına almışdır. Bu hadisə ilk dəfə olaraq Assur tacirləri və mixi yazı xəttatlarının m.ö. 2000-1900-cu illərdə Anadoluya səfərləri ilə bu yazıların yerli xalq tərəfindən mənimsənilməsi və istifadəsi ilə başlamışdır. (Landsberger B. 1990, Səh. 9)

Çox keçmədən Babil yazısı və Sumer elmi Hititlərin kral sarayına daxil olmuşdur. Bu hal Hitit dövlətinin iflas etdiyi m.ö. 1200-ci illərə qədər davam etmişdir.

İngilis assuroloqu Vaddelin yazdığına görə Sarqona qədər olan dövrdə Sumer sülalələri özlərini Qut adlandırırdılar. Qutilərin Sumerdəki hakimiyyət dövrü Sumer tarixinin "qızıl dövrü" adlandırılır. Onun digər müəlliflərdən fərqli olaraq təsbitinə görə Qutilər və ya Khetalar Sumerdə mədəniyyətin çiçəklənmə dövrünə səbəb oldular. Bu dövr təkcə Sumerin deyil, qədim dünyanın intibah dövrü adlanır. Qutilər m.ö. 2495-ci ildə Erexi işğal etməklə Mesopotamiyada Quti hakimiyyət sülaləsinin əsasını qoydular. Quti tayfasını "Kral hakimiyyətini zəbt etmiş Quti ordusu" kimi adlandırırdılar". Qutilər haqqında ilk məlumatı 1911-ci ildə Prof. Şeyl vermişdir. Vaddell Quti və Khati adlarının eyni mənşədən olduqlarını və onların eyni xalq olduqları fikrini irəli sürür. O Avropada mövcud olmuş Qot tayfalarının adının Khatti adının dialektik forması olduğu və Avropanın Qot tayfalarının Qutilərin varisləri olduqları fikrini irəli sürür. Britaniyanın Romaya qədərki qədim krallarının sikkələrində da Katti titulu daşıyırdılar və qədim brittlər qottlar idilər. (Waddel L. 1929, Səh. 358)

L.Vaddel Qutların yerləşdiyi ərazi haqqında yazır: "Qutilərin İlk Sumer sülaləsinin banisi Ukusinin paytaxtı Tar və ya Uku tar və ya Ukhuda yerləşirdi ki, bu şəhər Pteriyada Xappadokiyada idi. Qutium Taurus dağlarının şərqində yerləşirdi. Yunan-Roma dövründə həmin ərazi Katonia adlanırdı. Yəqin ki, Qutim Khatti və Xattinin qədim tayfa adlarından olmuşdur. Qutinin paytaxtı bir neçə sumer mətnlərində "Dağlıq Qutim" adlanırdı. Ora, yəqin ki, Karxemişdən quzeydə yerləşən Maraş, Kissia və ya Xurmi şəhəri imiş. Sumerin Quti hakimiyyət sülaləsi dövründə Urukun şimal-şərqində yerləşən Adab şəhər dövlətinin hökmdarı Uru-Tur adlanırdı". (Waddel L. 1929, Səh. 359)

V.Henninq qutilərin e.q. VI-VIII əsrlərdə Türkistanın Tarım hövzəsinə köçdükləri fikrini irəli sürmüşdür. Lakin bəzi müəlliflər o cümlədən V.B.Henninq heç bir əsaslı elmi dəlilə söykənmədən quti dilinin toxar dilinə, yəni hind-avropa dilinə mənsub olduğu fikrini irəli sürmüş və Orta Asiyadakı irandilli tayfa kimi qələmə verilən toxarları qutlarla eyniləşdirmişlər. (Henning W.B. 1978, Səh. 215-230)



Henninqin bu iddiasını əsas götürən sovet linqvistləri Qamkrelidze və İvanov hind-avropalıların vətəninin Yaxın Şərq və Anadolu olduğu haqqında uydurma nəzəriyyə irəli sürdülər.

Lakin Çinin Uyğur bölgəsinin Tarim hövzəsində son dövrlərdə aparılan arxeoloji araşdırmalar nəticəsində əldə edilən artefaktların və mumiyaların təhlili bu hind-avropa nəzəriyyəsini alt-üst etmişdir. Tarim hövzəsində uzun illər ərzində qazıntı işləri aparan arxeoloq və assuroloqlar J.P.Mallory və Victor H. Mair sübut etdilər ki, xarici görünüş etibarilə avropoid olan Laolan gözəli adlandırılan mumyanın hind-avropa irqi ilə heç bir əlaqəsi yoxdur. Mumiyaların genetik tədqiqatları və artefaktların elmi təhlili Çinin Uyğur bölgəsində Tarım insanının turanlı mənşəyə malik olub Türkistanın Oksus vadisinin şəhər mədəniyyətlərinə aid artefaktlarla eyniyyət təşkil edirlər. Bu mədəniyyət nümunələri və mumiyaların genetik tipləri qaploqrup olaraq şərqi Aralıq dənizi Turan irqi tipinə aiddir. (J.P. Mallory, 2000)

Qutilərin və subarların mixi yazı mətnlərində "namrum", yəni açıq rəngli olduqları J.Oppert və Sidney Smit tərəfindən müəyyən edilmişdir.

Bir çox Assur mətnlərində Subir, Quti, Midiya eyniləşdirilir, daha doğrusu eyni ölkə kimi qeyd olunur. Həmin mətndə yazılmışdır ki, "Qutium ölkəsi Midia ölkəsidir". Digər bir mətndə yazılmışdır ki, "şərq Subartu və Qutiumdur". (A.Ungnad. 1936, Səh. 61, 74)

Hava durumu ilə əlaqədar mətnlərin birində yazılmışdır ki, "Hava şərq tərəfdə buludlu olursa demək Subartu kralı ac olduğunu göstərir". Başqa bir mətndə ölkələrin Ayla əlaqədar yerləşdiyi istiqamətlər qeyd olunarkən Subartunun və Qutimun birlikdə Ayın arxa hissəsində yerləşdiyi qeyd olunur. Assur mətnlərində Subartu və Quti ölkəsinin bəzən şimalda, bəzən də şərqdə yerləşdiyi qeyd olunur. (A.Ungnad. 1936, Səh. 72-75)

Bir çox müəlliflər Qutilərin lullubilərlə bir-birlərindən ayırd ediləmiyəcək qədər yaxın olduqlarını yazırlar.

A.Spayserə görə Mesopotamiyanın quzeyində yerləşən Tukriş ölkəsinin adı Qutulərə aiddir. Tukriş Elamın qonşuluğundadır. Lullibilərlə eyni qrupa daxil olan Turukki və Tukri/Tikriş eyni adın "r" hərfinin yer dəyişməsi ilə müxtəlif formalarını təşkil edir. Qutilər Assur mətnlərində "dağların sancan ilanı" adlandırılır. Quti krallarının siyahısında Varla, Yarlaqan, Arlaq, Triqan, Şarlaq adlarına rast gəlinir. (A.Spayser, 1930, Səh. 96)

Landsberqerlə yanaşı Spayser də Qut kral adlarının türk adları ilə eyniyyət təşkil etdiyini yazır.

Yəhudi tarixçisi İosif Flavi yazır ki, Assuriya kralı Salmanassar İsraili işğal edib onun dövlətinə son qoyduqdan sonra ona müqavimət göstərmiş on yəhudi tayfasını əsir edib Midiyaya və Persiyaya sürgün etdi. Salmanassar bu yəhudilərin əvə-

zinə dağlarda yaşayan və Qut adı daşıyan çayın sahilində yerləşən Qutların ölkəsindən onların beş tayfasını gətirib İsraildə və Samarrada yerləşdirdi. Bu qutların hər bir tayfasının öz tanrısı vardı. İbranilər samaralıları Qutilər adlandırırlar yunanlılar isə Samarilər adlandırırdılar. İsraillilərin qızıl öküzə etiqadının kökü qutilərə bağlıdır. Qutilər israilliləri öz tanrıları olan "qızıl öküz"ə etiqada sövq etmişdilər. İudaizm dini ənənəsinə görə samaralılar quti mənşəlidirlər. Musa peyğəmbər Misir əsirliyindən geri döndüyü zaman israil xalqının öz dinlərini tərk edib qutilərin qızıl Öküz tanrısına etiqad etdikləri gördükdə çox qəzəbləndi və onları öz dinlərinə qaytardı. (Flavius Josephius. 2002)

Yəhudilərin Terah, bir çox müəlliflərin isə Turak adlandırdığı, İbrahim peyğəmbərin atasının mənşə etibarı ilə quti olduğu haqqında fikirlər mövcuddur.

Öküz kultu qutilərin dini inanclarında önəmli yer tuturdu. Sumer mənşəli Buğa-öküz kultu bütün Ön Asiyada geniş surətdə bir etiqad obyektinə çevrilmişdi. Aşşur və ya Atur məbədində, Babildə, Kaanan elində, Suriyada öküzə etiqad edilirdi. Bu öküz tanrısına etiqadın yayıldığı ərazilərdə, o cümlədən Sumerdə bu dinə etiqad edən rahiblərin xədim edilməsi gələnəyi mövcud idi. (Landsberger B. 1990, Səh. 11)

Ayı təmsil edən Öküzün günəş tanrısına qurban verilməsi timsalında sumerlərin ölən və dirilən tanrı etiqadı bütün Ön Asiyaya yayılmış, hətta Avestada və Vedalarda öz əksini tapmışdır.

Vecihe Hatipoğlu yazır ki, Güney Mesopotamiyadakı Sumer uyqarlıq dairəsini Quzey Mesopotamiyaya yayaraq yaşadan Qutlar və sonra da Kassilərdir. Qısa şəkildə ifadə etsək Sumer Mədəniyyəti quzeydən güneyə yenir. Qürurla bildirmək lazımdır ki, kasların (kassilərin) dillərinin Türkcə olduğunun aydınlaşması ilə Sumer problemi də aydınlığa qovuşmuşdur. Son araşdırmaların nəticəsinə görə Sumer dilinin türk dili olduğu aydın olmuşdur. V.Hatipoğluna görə Türk tarixi e.ə. 3500-ci illərdə yaşamış olan Sumerdən başlamalıdır. E.q. 2500-ci illərdə hökmranlıq edən Qutilər, e.q. 1700-ci illərdə hakimiyyət başına gələn Kassilər (Quzlar) arasındakı zaman fərqi sadəcə hakimiyyət dövrləri arasındakı fərqlərdir. Əslində türklər bu ərazilərdə yüz illər ərzində fasiləsiz olaraq yaşamışlardır. E.q. 1700-ci illərdə III Babil krallığını Kas (kassi) Qandaş qurmuşdur.

Prof. Emin Bilqiç Sumer dilində yazının e.ə. 3100-cü illərdə icadı ilə öz dövründə yalnız sumerlilərin tarixi, ədəbi, dini, hüquqi və iqtisadi yazışma dili olmadığını, bu dilin Xetlərin, Urartunun, Babil və Assuriya dövlətlərinin mövcud olduqları dövrdə, hətta İsa peyğəmbərin doğumuna qədər Orta Şərqin məktəb və elm dili olmağa davam etmişdir. (Sadi Bayram, 1980, Səh. 85)

Buna görə də xetlər, hurrilər, urartular, yahudilər, samilər Sumer əsərlərinin bir çoxunu öz dillərinə tərcümə edərək geniş şəkildə təqlid etmişlər.

Qut xalqının adı Bibliyada Qoyin şəklində ifadə olunmuşdur. Mesopotamiyanı



şimaldan aypara formasında əhatə edən dağ silsiləsində yerləşən ölkə mixi mətnlərdə Quti adlanır. Hammurapinin dastanında Qutinin və ya Bibliyada adlandığı kimi Qoyinin bir hökmdarı Tudxul adlanan Tidaldır. Qoyinin və ya Qutinin hökmdarı Tidal digər vassal hökmdarlar Hammurapi, Ariok və yəhudi kralı İbrahimlə bərabər Elam hökmdarı Kedor-Laqomerin başçılığı altında Ölü dənizə doğru yürüş etmişlər. (A.Wirth, 1905, Səh. 21 )

Qutlar yaşadıqları ərazilərdə bir neçə kiçik bəylik dövlətləri də yaratmışlar.

Ön Asiyada Quzan və ya Qurzan adında iki ölkə mövcud idi. Biri indiki Suriya, Türkiyə sərhəddində yerləşən Tell-Halaf adlı xarabalıqların yerində Habur çayının vadisində yerləşirdi, digəri isə Urmiyə gölünün quzey-batısında yerləşirdi. Habur çayı ətrafında yerləşən Quzan şəhəri m.ö. II mininci ilin ortalarında Hurrilərin paytaxtı olmuşdur. Sonradan burda arameylər yerləşmişlər. M.ö. VIII əsrdə Quzanı işğal edən Assuriya İsraildən yəhudilərin bir qismini gətirib burda yerləşdirmişlər. Yəqin ki, Assuriyanın zülmündən xilas olmaq üçün Quzan əhalisinin bir qismi köçərək Kiçik Asiyanın şimal ərazilərində yerləşmişlər.

Quzan Mesopotamiyanın şimal-qərbində Habur çayının yaxınlığında yerləşən dəmir dövrünə aid şəhərdir. Arameylər buranı işğal etdikdən sonra özlərinə paytaxt etmişlər. M.ö. 808-ci ildə Assuriya kralı III Adadnirari Quzanı işğal etmişdir. II Sarqon yerli Quti əhalisini Samarraya köçürərək yerinə yəhudiləri yerləşdirmişdir. (Trevor Bryce, 2009, Səh. 277)

Quzan Bit-Bahiani ölkəsinin paytaxtı idi və Habur vadisində yerləşirdi.

Quzan adı ilə Azərbaycanda çoxsaylı toponimlər mövcuddur.

Bit-Aqusi Qus ölkəsi deməkdir və dəmir dövründən mövcuddur. Karxemış və Patt arasında yerləşirdi və Hamat krallığı ilə qonşu ərazidə idi. Dövlətin banisi Qusi adlanırdı. Ölkənin paytaxtı Arpad adlanırdı. Assuriyanın bu əraziləri işğalından sonra assurlara qohum xalq olan arameylər əraziyə axışmışlar. Aqusi krallığı Assuriyaya qarşı mübarizədə Urartu ilə müttəfiqlik edirdi. Lakin Assur çarı II Sarqonun dövründə bölgənin digər kiçik dövlətləri ilə bərabər Assuriya tərəfindən tabe edildi. (Trevor Bryce. 2009, Səh. 127)

Quzan ölkəsinin adı Bibliyada da çəkilir və Habur və Balix çayları üzərində yerləşirdi.

Assur kralı Salmannasar digər dölgə dövlətlərinin hökmdarları ilə yanaşı Kimmix Hökmdarı Qudaspi, Quzi hökmdarı Aramedən də xərac alırdı. (Hugo Winckler. Geschichte Babylionies und Assyriens. (Hugo Winckler. 1892, Səh. 193

Kappadokiyada Kayseriyyə yaxınlığında tapılmış və e.q. XV əsrə aid olan qaya üzərində həkk olunmuş barelyefdə taxt üzərində oturmuş hökmdarı təsvir olunur. Onun yanında kobud xətt ilə yazılmış və qismən pozulmuş mətn tarixi bir hadisəni əks etdirir. Artes adlı yabançı başçı əsir edilərək adamlarının müşaiyəti ilə öz paytaxtından Qauz tayfasına məxsus olan Erime ölkəsinin Tarqontim adlı

işğalçı kralının hüzuruna gətirilmişdir. (Conder R.A. 1898, Səh. 42)

Mətndən göründüyü kimi Erime ölkəsi Anadolunun şərqində yerləşirdi, Hitit mətnindən də aydın olur ki, bu ölkə Quz tayfalarına mənsubdur və kralın da titulu türklərdə olduğu kimi Tarkun adlanır. Bu ölkə yunan mətnlərində Arima və Armeniya adlanmışdır. Hayklar friqiyalıların tərkibində Balkanlardan gələrək bu ölkədə yerləşmişlər və ölkənin qədim adına uyğun olaraq erima/ermən/armen adlanmışlar.

Quz adı daşıyan bütün bu şəhərlərin və bəylik dövlətlərinin əsası Qut tayfaları tərəfindən qoyulmuşdur. Yuxarıda qeyd etdiyimiz kimi Qut-Qud-Quz sözlərin sonundakı hərflərin əvəzlənməsi ilə fonetik dəyişikliyə uğrayaraq müxtəlif şəkildə ifadə olunmuşdur.

De Roosi Şərqi Anadoluda Kussar bəylik ölkəsinin və şəhərinin yerini müəyyənləşdirərək onun Samuha ölkəsi ilə yanaşı Kızıl İrmaq çayı vadisində yerləşdiyini yazır. Hitit mətnlərində yazıldığına görə Kussar şəhərində kral sarayı və məbəd var idi. Kaniş dövlətinin qüdrətli kralı Anita Kussar kralı Pithanın oğlu idi. Kaneşin kralı Zuzu Anitanın varisi idi.

Kussar tanrısı Nin Dinqir məbədindəki kahinlər boyunlarına qızıldan boyun bağı asırdılar. Kussar haqqındakı bu məlumatlar e.q. XIII əsr Hitit kralı II Muvatallinin dövrünə aiddir. II Muvatallinin qardaşı III Hattusili baş tanrı İştara həsr etdiyi himni öz əcdadı Kussar kralı I Hattusilə ithaf etmişdir. (De Roosi. 2015. Səh. 1-17)

## Turukkular

Turukkular bürünc və dəmir dövründən etibarən Mesopotamiyada və Ön Asiyanın Zaqros dağları yaylalarında yaşamış qədim turanlı etnosdur. Turukku ölkəsi Zaqros dağlarının şimal-qərb vadilərində Urmiyə gölü hövzəsində yerləşirdi. O bir çox bəylik dövlətin birliyindən yaranmış konfedarativ xarakterə malik idi. Onun Aratta dövləti ərazisində yerləşdiyini əhalisinin mənşə etibarı ilə subirlərə, hurilərə, qutilərə, mannalara mənsub hesab edirlər. Turukku uzun müddət ərzində Mesopotamiyanın şimalındakı şəhərlərə basqınlar yapan yarım köçəri qəbilə xalq kimi qəbul olunurdu. Lakin Şemşar arxivinə əsasən sonrakı tədqiqatlar göstərir ki, Turukku bir çox əsilzadə soyların ərazi hökmralığına malik bəylik dövlətlərdən təşkil olunmuş mürəkkəb siyasi təşkilatdan ibarət olmuşdur. İtabalhum bu bəylik dövlətləri içərisində ən önəmli mövqeyə malik olmuş və konfederasiya dövlətinə başçılıq etmişdir. Bir çox müəlliflər turukkuları heyvan dərisindən libas geyən yarım-köçəri tayfalar birliyi kimi xarakterizə edirlər.

Akkad kralı Naram-Sinin kitabə mətnində adı çəkilən Turukku ölkəsinin Subartunun arxasında yerləşirdiyi yazılmışdır. (Ungnad A. 1936, Səh. 40)

Turukkular haqqında Assuriya və Babil kralları, I Şəmşi-Adad, I Adadnirari, İsmi Daqannın kitabələrində bilgilər mövcuddur. Assuriya və Babil kralları cəsurdöyüşkən tayfalar olan Turukkuların hücumlarından qorunmaq üçün onlarla daima mübarizə şəraitində olmuş, lakin onları heç zaman tam şəkildə özlərinə tabe edə bilməmişlər.

Turukkular haqqında ən erkən önəmli məlumatlardan biri Babil kralı Hammurapinin (e.ə. 1792-1752) kitabəsində verilmişdir. Orda Elam ərazisində mövcud olan Quti, Subartu ilə yanaşı Tukrişin də adı çəkilir. Həmin dövrə aid digər mənbələrdə bu ad Tukru kimi ifadə olunur. E.q. I minilliyin əvvəllərində həmin ölkənin adı dağlı xalqların yaşadığı Turukku ölkəsi şəklində qeyd olunur. E.q. II minillikdə Turukku Lullubinin quzeyində, Mesopotamiyanın şimal-şərq tərəfində və Zaqros dağlarının şimal-qərbindən Urmiyə gölü sahillərini də əhatə edən ərazidə yerləşirdi. E.q. IX-VII əsrlərə aid Assur mətnlərinin birində ölkənin ərazisi Lullubi-Turukku kimi qeyd olunmuşdur.

Fransız arxeoloq Luis Delaprot (1842-1925) xettlərə həsr olunmuş əsərində Boğazköydə tapılan kitabələrdən birində Urmiya gölü hövzəsində 17 dövlətin hökmdarının Akkad hökmdarı Naram-Suenə qarşı ittifaqında Turukki hökmdarı İlşu Nailin də adının çəkildiyi qeyd olunmuşdur. Turukkuların mərkəzi ərazisi Azərbaycanda Urmiyə gölünün güneyində yerləşirdi. Burdakı Həsənlu yaşayış yerində arxeoloji qazıntılar zamanı Turukku dövlətinə məxsus artefaktlar aşkar olunmuşdur. Avropanın bir çox görkəmli bilim adamları Turukkuların öntürklər olduqları haqqında qəti fikirlər söyləmişlər.

Turukkuların türklüyü haqqında ilk dəfə qəti fikir bildirən alman assuroloqu Frits Hommel olmuşdur. 1880-ci illərin ortalarında yazdığı əsərdə o bu haqda deyirdi: "Turukilər Xəzər dənizi tərəfdən gələrək Midiya dağlarında yerləşən köçəri türk tayfaları kimi qəbul etmək olar. Beləliklə, Türk adının qədim forması Turukdur. Bizans müəllifləri də bunu Turkxoi şəklində yazırlar. Türk tayfaları ilə çox yaxın qohum olan sumerlər də Midiya dağları üzərindən İkiçayarasına Babilə gəlmişlər". (Hommel F. 1885, Səh. 501)

Alman assuroloqu və arxeoloqu Ernst Herzfeld su, turukku və lullubu tayfalarınını ümumilikdə Aratta əhalisi hesab edərək onların altay-türk etnik birliyinə aid edir. Onun fikrinə görə eyni ərazidə məskunlaşmış turukku, su və lullubi tayfalarının dilləri Aratta əhalisinin dilləri ilə eyni olub altay-türk etnolinqvistik mənşəyə malikdirlər. (Ernst Herzfeld. 1986, Səh. 90-93)

B.Landsberqer e.q. II minilliyin əvvəllərində Urmiya gölü hövzəsində yaşayan turukku və su tayfalarının siyasi tarix səhnəsinə qədəm qoyduqlarını, onların əvvəlki dövrlərdə Aratta, o dağıldıqdan sonra isə Kutium və Lullubum dövlətlərinin tərkibinə daxil olduqlarını yazır. (Landsberger B. 1924, Səh. 230)

Lullubi dövləti dağıldıqdan sonra turukku tayfaları müstəqil siyasi qüvvəyə çevrildilər. Onlar Assuriya ilə Azərbaycan arasında yerləşən Şuşara ərazisi uğrunda

mübarizə aparırdılar. Bu ərazidə hurrilər və subarlar məskunlaşmışdılar. Qaynaqlardan məlum olduğu kimi Azərbaycandakı qədim öntürk tayfaları ayrı-ayrı bəyliklər şəklində mövcud olub xırda hökmdarlar tərəfindən idarə olunurdular. Turukkilərin bir neçə, lullubilərin isə daha çox hökmdarları var idi. Kutilər və lullubilər kimi turukkilər də Zaqros dağlarını aşaraq İkiçay arasına daxil olub basqınlar edir və Assur dövlətinin sərhədlərinə təhlükə yaradırdılar.

Turukkular I Şamsi-Adad (m.ö. 1813-1781) və oğlu İsme-Daqan zamanında qədim Assur krallığına qarşı ciddi bir təhdid təşkil edirdi. Ona görə də, Şamsi-Adad onları itaət altına almaq üçün bir çox hərbi əməliyyatlar həyata keçirdi. Lakin Turukkulara qarşı gərgin mübarizə lazımi nəticəni vermədi, onların ərazisinin yalnız bir qismi işğal oluna bildi. Şamsi-Adad Turukkulara qarşı mübarizədə uğur qazanmaq üçün onların əzəli düşmənləri qutilərlə bir ittifaq müqaviləsi imzalamağa məcbur oldu.

Turukkular bundan narazı qalaraq qutlara qarşı hücumlara başladılar. Turukkularla Quti krallığı arasında baş verən qarşıdurma Assur kralı Şamşiadadı (e.q. 1813-1781) bu ölkələrə qarşı hərbi yürüşə başlamağa sövq etdi. Turukkuların yerli başçılarından biri Lidayanın rəhbərliyi ilə bir çox Turukku şəhəri e.q. 1779-cu ildə Assuriyaya qarşı üsyan qaldırdılar.

Assuriyanın Turukkularla mübarizə uzun sürdü. Turukkulara qarşı hərbi yürüşlər ilk öncə Şamşi-Adadla onun sərkərdəsi Caşmahaddu ilə məktublaşmalarından məlum olur. Assuriya kralı Şamşi-Adad Babili işğal etdikdən sonra Ekkalattun şəhərini özünə qərargah etmişdi və oğlu varis-şahzadə İsme-Daqanı ora canişin təyin etmişdi.

Lakin Turukku kralı Zaziya I İsme-Daqanın (m.ö. 11780-11741) Ekalattum taxtına sahib olmasına böyük əngəllər törətmişdir. İsme-Daqan öz mövqeyini möhkəmləndirmək üçün Turukkulara qarşı hərbi yürüşlər təşkil edirdi və bu yürüşlərdə orduya atası Şamşi-Adadın vaxtında olduğu kimi baş sərkərdə Caşmahaddu rəhbərlik edirdi.

Şərq ölkələrini tabe etmək üçün hərbi yürüşləri zamanı Assur kralı İsmidaqanın öz sərkərdəsi Casmahaddu ilə yazışma mətnlərindən göründüyü kimi onlara ən çox müqavimət göstərə Turukku krallığı olmuşdur. Turukkular assur qoşunlarına xeyli itki vermişlər. İstər İsmidaqan istərsə də Casmahaddu öz kitabələrində Turukkuların döyüşdə göstərdikləri cəsurluqlarından bəhs edirlər. Turukkuların bir neçə şəhəri mühasirəyə alınmış və onlar aclığa məhkum edilmişdilər. Turukkular bəzən dağlara çəkilir və yenidən Assur qoşunlarına həmlələr edirdilər. Assurlar bir neçə şəhəri ələ keçirməyə müvəffəq olsalar da Turukkunu tam məğlub edərək tabe edə bilməmişdilər. (Christian Kisch. Der strategische geschichte. Die Babylonier und Perser)



Turukku dövlətinə mənsub bəyliklərdən biri Kiçik Zab çayının sahilində yerləşən və paytaxtı Şuşarra şəhəri olan Utum dövləti idi. Turukku dövlətlər konfederasiyasına daxil olan bəylik dövlətlərindən biri də İtapalhum adlanırdı. Turukku krallarından birinin adı Pişendan idi onun oğlu isə Tibiti adlanırdı. Tibiti adı İskitlərin kralı Tabiti ilə böyük bənzərliyə malikdir. (Christian Kisch. 2011, Səh. 168)

Pişendan adı Turan padşahı Əfrasiyabın atası Peşəngin adını ilə bənzərlik təşkil etməkdədir. Assur xronikalarında İsmi-Daqanla Yasmab Addunun yazışmalarında qeyd edildiyi kimi Turukku tayfalarından birinin adı Burrit adlanırdı.

Assur mətnlərində İsmi Daqanın Turukkularla müharibəyə rəhbərlik edən Yasman Addu ilə yazışmalarında Turukkularla mübarizənin çətinliklərindən və bu xalqın cəsurluğundan, onların hərbi şücayətindən bəhs olunur. Turukkularla mübarizədə çətinlik çəkən Assur sərkərdəsi Yasman Addu onların müqavimətini qırmaq üçün qalalarını mühasirədə saxlayaraq ordakı əhalini aclığa məhkum edirdi. (Georges Dossin. 1938, Səh. 1-11)

Şamsi-Adadın həmin bölgədəki Ekkallatum canişini olan oğlu İsme-Daqan qardaşı Mari canişini Yasmah-Adduya yazdığı məktubda bildirirdi ki, Turukku hökmdarı Lidayanın fəaliyyəti nəticəsində bölgədə Assuriyanın hökmranlığını saxlamaq mümkün deyil. Lidaya Turukkunun Arrapha və Qabra şəhərlərinin əhalisini köçürmüşdü. Turukkular Şamsi-Adadın paytaxtı Şubat-Enlil şəhəri yaxınlığındakı Amurzakkum şəhərinə toplaşıb oranı öz istehkamlarına çevirdilər. İsme-Daqan hücum etdiyi zaman turukkular şəhəri tərk edib dağlara çəkildilər. İsme-Daqan turukkuları təqib etdiyi zaman pis hava şəraiti onların irəliləməsinə mane olurdu. Ona görə də, turukkular öz zəif və yaralı yoldaşlarını öldürüb döyüş arabalarının bir çoxunu tullamağa məcbur oldular və assurlar gəlməmiş Dəclə çayını keçməyi başardılar. Onlar Tiqinanum ölkəsinə gəlib orda dağıntı törətdilər.

Bütün bölgə ölkələrini işğallara məruz qoyub şəhərləri viran qoyan, insanları amansızlıqla qətlə yetirən, minlərlə insanları əsir alıb kölə edən qəddar assurlular cəsur və döyüşkən turukku-öntürklərin əlində aciz qalmışdılar.

Savaşda mahir olan turukkulardan yaxa qurtarmaq üçün İsme-Daqan Zaziya ilə hücum etməmək haqqında barış anlaşması yaparaq Zaziyanın qızını öz varisi Mut-Aşkur ilə evləndirdi. Assur hökmdarı I İşme-Daqan özünün yazdığı kimi turukkilərə qarşı hərbi yürüş təşkil edib onları dağlara çəkilməyə məcbur edir və onlardan çoxlu əsir alır. Lakin döyüşən tərəflər arasında vasitəçilik edən qutilər əsir turukkulərin azad edilməsinə nail olurlar. Əldə olunan razılaşmaya baxmayaraq turukkilərin digər başçısı Lidaya assurlara qarşı çıxış edərək Aşağı Zab çayının yuxarı hövzəsindəki ərazini zəbt edib Şuşarranı assurlardan təmizlədi.

Lakin İsme-Daqanla Zaziya arasında münaqişə bitmədi. Zaziya 4 min nəfərlik əsgərlə Dəcləni keçib İsme-Daqanın Ekkalatuna olan yolunu kəsdi. Öz təbəələrini turukkulardan qorumaq istəyən İsme-Daqan savaşda məğlub oldu və turikkular

ələ keçirdikləri şəhərin hakiminin başını kəsərək İsme-Daqana göndərdilər. Quti, lullubi və turukkular Şuşarra uğrunda Assuriya ilə gah mübarizə aparır, gah da münaqişəni sülh yolu ilə həll edirdilər. Turukkulara qarşı uzunmüddətli mübarizə qədim Assuriya krallığının zəifləməsinə və nəticədə çökməsinə səbəb oldu.

E. q. 1763-cü ildə Mesopotamiyada hakimiyyəti ələ keçirən Babil çarı Hammurapi də turukkuların hücumlarından qorunmaq üçün Zazulya ilə barış sözləşməsi imzalamağa cəhd edirdi.

Mənbələrdə qeyd olunur ki, turukkular e.q. 1769-1768-ci ildə Mardaman şəhərinə hücum edərək qarət etmişdilər. Hammurapinin hakimiyyətinin 37-ci ilində Babilin Turukkunu məğlub etdiyi qeyd olunmuşdur.

Son bürünc dövründə hakimiyyətə gələn Assur çarı I Adad-Nirari (m.ö. 1307-1274) şərq ölkələrinə qarşı başlatdığı hərbi əməliyyatlar zamanı qutiləri, lullubiləri tabe etsə də turukkuları qismən itaət altına ala bildi. (T.Bryce. 2009, Səh. 721-722)

Mari sarayı mixi yazı mətnlərindən göründüyü kimi Şərq ölkələrinə yürüşü zamanı Assuriya hökmdarlarının Turukkularla mübarizə uzun illər ərzində davam etmiş və onları tam şəkildə itaət altına almaq mümkün olmamışdır. Assur qoşunlarına qarşı mübarizədə partizan mübarizəsi taktikasından istifadə edən Turukku hökmdarları Assur qoşunlarına böyük tələfatlara məruz qoymuşlar.

Turukku ilə Mesopotamiya arasında müxtəlif xammaddə və hazır məhsul emalı üzrə önəmli bir ticarət əlaqələri mövcud idi. Turukkular bu məqsədlə Mesopotamiyada Samilərin Tukriş adlandırdıqları bir ticarət kaloniyası şəhər salmışdılar. (Kuzuoğlu Remzi, 2007, Səh. 162)

Turukku adı son dəfə Babil və Sumer-Akkadın hökmdarı Hammurapinin (m.ö. 1792-1750) m.ö. 1760-cı ildə hərbi yürüş təşkil edərək Mesopotamiyanın şimal-şərqindəki ərazilərini öz hakimiyyətinə tabe zaman çəkilir. Görünür Hammurapinin bu hücumu qarşısında davam gətirə bilməyən Turukkular öz ərazilərini tərk edərək şimal isiqamətinə köç etmişlər. Bir müddət sonra Çin salnamələrində *Tu-kyu* tayfaları haqqında məlumatlar öz əksini tapmışdır. Çin dilində *"r"* hərfi olmadığı üçün onlar Turuk adını bu şəkildə ifadə edirdilər.

Turukkuların cəngavərliyi və adlarının oxşarlığı baxımından onların bir türk boyu olduğunu bir çox Qərb assuroloqları da təsdiq edirlər. Turuku adı Orxun abidələrindəki mətinlərdə də Türük şəklində yazılmışdır.

Tuman və Tumana assur və hitit mətnlərində adı keçən şəxs və yer adı kimi məlumdur. Anadoludakı Kastomonu şəhərinin qədim Tumana şəhəri olduğu ehtimal edilir. Şəhərin adının Kas və Tuman sözlərinin birləşimindən ibarət olması yəqindir. (Kuzuoğlu R. 2007, Səh163)

Tuman yer və şəxs adı olaraq tarixin sonrakı dövrlərində geniş yayılmış adlardan biri olmuşdur.

Ön Asiyada Urmiya gölü hövzəsi ən qədim zamanlardan çox saylı turani Ön



türk etnoslarının təşəkkül taparaq məskunlaşdıqları və ilkin dövlət qurumlarının yarandığı ən mühüm mərkəz olmuşdur. Urmiya gölü ətrafında yurd salmış aratta, kuti, subir, hurri, turukku, lullubi və manna boy birlikləri qonşuluqdakı Akkad, Assuriya, Babil kimi dövlətlərlə mübarizədə öz dövlət müstəqilliklərini və etnik mövcudiyyətlərini qoruyub saxlamaq üçün yüz illər ərzində gərgin mübarizə şəraitində varlıqlarını sürdürməyə məcbur olmuşlar.

Qızılbunda ölkəsi Mannanın və Midiyanın şimal-şərqində eyni adı daşıyan dağ silsiləsində yerləşirdi. Sarqonun öz kitabəsində yazdığına görə Qızılbunda nə Mannanın, nə də Midiyanın hakimiyyətini qəbul etməmişdir. (Herzfeld E. 1941, Səh. 196)

Sibir və ya Subir adlı şəhər Qızılbunda şəhəri kimi qeyd olunur. V Şamşi -Adad Nairi ölkəsinə 3-cü hərbi yürüşü zamanı (m.ö. 823-811) Midiya və Parsua arasında Zaqros dağları ərazisində yerləşən Qızılbundaya qarşı da savaşmış onun bir neçə şəhərini, o cümlədən Kinaki, Karsibutu, Uraşunu ələ keçirmişdir. O Sibir şəhərinin hakimi Bel-Alidən xərac almış və Sibir şəhərində özünün əzəmətli abidəsini ucaldaraq üzərində Nairi ölkəsindəki qələbələrini təsvir etmişdir. (Trevor Bryce. 2009, Səh. 258)

Turukku və ya turuk etnonimi F.Hommelin də təsdiq etdiyi kimi "türk" boy adının erkən formasıdır. Etnonimin kökünü Turuk adı təşkil edir "uk/uq" somluğu sumer dilində və Ön Asiyanın onlara qohum digər dillərində və həmçinin türk dillərində "insan/əhali/kütlə" anlamı daşıyır. Beləliklə, Turukku adının mənası Turuk xalqı və ya əhalisi deməkdir. Turuq və ya Turqu sözünün sumer dilində anlamı "müqəddəs doğum yeri", "kutsal əcdadların yeri" deməkdir. Turukkuların bu cür adlanması təsadüfi deyil, kökləri sumer və subirlərə bağlanan bu etnos Sumerlərin özləri üçün əcdadlarının yurdu və müqəddəs məkan hesab etdikləri şərqdəki dağlıq ərazidə, Aratta ərazisində məskunlaşmışdılar. Sumerlərə məxsus Turuk eponimi sonradan bu xalqın etnoniminə çevrilmişdir. (C.Halloran. 1969, Səh. 18, 149)

M.Kaşğarinin "Divan Luğət-it Türk" əsərində Türkün sözünün anlamı oymaqların, ellərin toplaşdığı yer, ata evi, ata ocağı, əcdadların yurdu kimi izah edilir. Göründüyü kimi Sumer dilindəki Turqu sözü türk dilindəki Türkün sözü ilə aradan 5000 il zaman keçməsinə rəğmən eyni anlama malikdirlər. Bu önəmli linqvistik dəlil Türklərin etnos olaraq və dil baxımından Sumerlərə bağlılığnı bir daha sübut etməkdədir. (Mahmud Kaşğari, C. 1, 2006, Səh. 433)

Adətən türk etnonimi qədim türk ləhcələrində "türük", "turuk" şəklində ifadə olunurdu. Digər yabançı dillərdə də türk etnonimi hind qaynaqlarında "turukka-turuşka", tibet qaynaqlarında "druq/druqa" formasında ifadə edilmişdi.

Bütün bu tarixi dəlillər sübut edir ki, dünyanın bir çox bilim adamlarının Ön Asiyada e.ö. dövrlərdə türk varlığına biganə münasibətinə rəğmən e.ə. III-II min-

illiklərdən etibarən Ön Asiyanın və Azərbaycanın ən qədim sakinləri əksəriyyət etibarı ilə öntürklərdən ibarət olmuş və onlar çox da fərdiləşməmiş ümumi bir prototürk dilində danışmışlar.

Tukriş Orta bürünc dövründə mövcud olmuş şəhər dövləti idi. Elamdan şimalda yerləşirdi. Assuriya çarı I Şamşiadad (m.ö. 1796-1775) öz kitabəsində Tukriş və "yuxarı ölkə" hökmdarlarının ona Aşşur şəhərinə xərac gətirdiyini yazır. Xammurapi də Ur şəhərindəki öz kitabəsində Elam, Tukriş, Quti, Subartunu istila etdiyini yazır. (Trevor Bryce. 2009, Səh. 718)

Bir çox müəlliflər Tuqriş və Turikkuların eyni xalq olduqlarını və Tuqrişin Turukkuların ticarət kaloniyası olduğu fikrini irəli sürürlər.

A.Spayser Turukki-Tukriş adlarına aydınlıq gətirərək yazır: "Armeniya adlanan ərazinin öncəki adı Tukriş olmuşdur. Tukriş ölkəsinin adı Qutilərə aiddir. Tukriş Elamın qonşuluğundadır. Lullibilərlə eyni qrupa daxil olan Turukki və Tukri/Tikriş "r" hərfinin yer dəyişməsi ilə eyni adın müxtəlif formalarını təşkil edir". (A. Spayser, 1930, Səh. 96)

E.q. III minilliyin sonunda Tukrişdə Arisen adlı hökmdar hakimiyyət sürmüşdür. İlk əvvəl hurrilərə aid edilən Arisen adı türk dilində "cəsur adam", "nəcib adam" mənasındadır. Tukriş ölkə adı da tukri etnonimindən və axırdakı ad yaradan "ş" şəkilçisindən ibarətdir. Tukrişlər türk tarixinin gec dövrlərində Orta Asiyada öncə Göytürk imperatorluğunun tərkib hissəsini təşkil edən Turgeş boy birliyi şəklində meydana çıxmış, Göytürklər dövləti süquta uğradıqdan sonra öz dövlətlərini yaratmış və ərəblərin işğalına qarşı uzun illər ərzində mübarizə aparan əzəmətli Turqeş xaqanlığının əsasını qoymuşlar.

Əhali artımı, coğrafi-təbii şərait və digər etnoslarla baş verən münaqişə zəminində Ön Asiyadakı turanlı öntürk sumer, qut, kassi, turukku, tukriş, xatti, xalqları şimala və şimal-şərq istiqamətində köçlərə məruz qalmış, bir qismi Azərbaycan və Qafqazın şimalında, digər qismi isə ilkin yurdları olan Türkistanda məskunlaşmışlar.

## Barsua və Barsillər

Barsua Azərbaycan ərazisində yerləşən və adı çoxsaylı mixi yazılı mətnlərdə qeyd olunan Ön Asiyanın qədim dövlətlərindən biridir. Almaniyanın görkəmli assuroloqu E.Şrader Barsuanın Azərbaycanda yerləşdiyini yazır. Barsua Urmiya gölünün güneyində Zamu və İllipi ölkələrinin arasında, Zaqros dağının quzeyində yerləşirdi. III Salmanassarın m.ö. 858 və 856-ci illərdə Assuriyanın quzeyində və doğusunda yerləşən ölkələrə hərbi yürüşündən sonra yazdırdığı zəfər lövhəsində fəth etdiyi və Xəraca bağladığı ölkələrin siyahısı da verilmişdir. Bu ölkələr sırası ilə Hubuşkiya, Kirruri və Quzandir. Quzan Urmiya gölünün quzeyində yerləşirdi və Midiya şəhəri idi. Assurbanipal Hubuşkidə Barsua kralının gətirdiyi xəracı qəbul edir və işğal olunmamış digər ərazisini də özünə tabe edir. (Schrader E. 1878, Səh. 164, 166)

Şrader Barsuanı Midiya ilə əlaqələndirərək yazır ki, Barsua Midiyanın batısında və Elamdan quzeydə Mannanın yanında yerləşirdi. Barsuanın xalqı Elamla və Midiyanın güneyindəki İllipi ilə birlikdə idi. Barsua ola bilər ki, Midiyanın bir tayfası idi. Barsuadan doğuda Arazias yerləşirdi. Araziasdan doğuya İllipin yanında Qarqar adlı şəhər və ölkə yerləşirdi. Quzeydə isə Ardiya yerləşirdi. Sarqon 28 Midiya tayfasının başçısını İllipdə qəbul etmişdi. (Schrader E. 1878, Səh. 173, 174)

Arazias adı Araz çayının adı ilə əlaqədar ola bilər. Arazias Urmiyə gölünün güneyində yerləşən Barsuadan doğuda yerləşirdi. Ehtimal ki, bu ölkə hardasa Araz çayına yaxın bir yerdə yerləşmişdir.

Markvart Araziasın çayının və ölkəsinin əsl adının Arqan olduğunu yazır. Əslində çayın qədim adlarından biri də Murat sudur. Bu adların hər üçünün mənası türkcədir. Görünür, Arqan Arazias ölkəsinin və çayının adlanmasının yerli dillərin birindəki variantıdır. Arazias adı mənbələrdə daha çox ifadə olunur.

Barsua adının oxunuşunu bəzi müəlliflər Parsua şəklində də qeyd edirlər. Barsua və ya Parsuanı irandilli və ya fars ölkəsi kimi təqdim etmə meylləri də mövcud olsa da, bir çox görkəmli bilim adamları bu fikri təkzib edirlər.

Assur krallarının mətnlərində Assuriyanın hakimiyyətinə tabe olan və onun vilayətlərindən biri kimi xərac verən Barsuanın adı da qeyd olunmuşdur. Barsua Persiadan tamamilə fərqli bir ölkədir.

Midiya tarixinin müəllifi Dyakonov qeyd edir ki, Diyala çayının yuxarısında Zamua ölkəsinin və Mannanın qonşuluğunda yerləşən Parsua (elamca Pasava) akkad dilində "diyar, ölkə" mənasında olub fars dili və fars etnik adı ilə heç bir əlaqəsi yoxdur və Parsuanın farsların vətəni olduğu və onların e.ə. VIII-VII əsrlərdə burdan çıxarılaraq indiki Fars əyalətində yerləşdikləri haqqındakı iddialar tamamilə yanlışdır. Parsuada hər hansı bir irandilli toponim və şəxs adı mövcud olmamışdır və bu adın farslar tərəfindən cənubdakı fars ölkəsinə verildiyi haqqında fikir də yanlışdır. (Дьяконов И., T I, 2012, Səh. 179)

Artur Unqnad Subirlərin Barsu və ya Parsu adlı tanrılarının olduğunu yazır. Görünür müxtəlif heyvanları özlərinin totem əcdadı hesab edən bir çox öntürk xalqlarında olduğu kimi Subirlərin tanrılarından biri də türklərdə mənası pələng demək olan Bars olmuşdur.

Barsua ölkə adının subirlərin Bars tanrı adından yaranması daha gerçəkçi bir yozumdur. Bars da qurd və öküz kimi ən qədim dövrlərdən turanlı ön türk xalqlarının əcdad totemi olmuşdur. Qədim turanlı etnos olan subirlərin Bars teonimi sonradan türklərdə eponim və etnonim olaraq Barsil tayfa birliyinin adında öz əksini tapmışdır.

İngilis assuroloqu Norris də Bisütun kitabəsində Pars adının əslinə uyğun olaraq "Bars" şəklində yazıldığını və mənasının ölkə demək olduğunu qeyd edir. (Norris E. Memoir on the Scytic version, Səh. 170)

Norris Əhəməni kitabələrindəki mətnləri araşdıraraq belə nəticəyə gəlir ki, mətnlərdə qeyd olunan "Arta"lılar (Artaei) adı Parsuaların, yəni Barsların (İranlı perslər deyil) özlərinə verdikləri addır. Herodotun bəhs etdiyi Saqartalı adının kökü də bura bağlıdır və Herodot saqartların köçərilərlə eyni dildə danışdıqlarını yazır. Artalar köçəri sak tayfaları idi. Sak dilindəki mətnlərin məhz Artaların yaşadıqları ərazidə mövcud olması belə bir ehtimal doğurur ki, Kirin əcdadları və onların mənsub olduqları tayfa bu dağlı saklara mənsub olmuşlar. (Norris E. 1852, Səh. 201)

Əhəməni sülaləsinin banisinin adı Bisütun kitabəsində Akkamaniş kimi yazılmışdır. Bu ad və Əhəmənilərin bir çox şahlarının adının əvvəlindəki Arta sözünün fars mənşəli olmasına bir çox araşdırıcılar tərəfindən şübhə ilə yanaşılır (Artakserks, Artaban və s.).

Əhəmənilərin bir çoxunun adının əvvəlindəki Arta sözü də onların Barsuanın Arta tayfasına mənsub olduqlarını göstərir. İranlı ariləri özlərinin şanlı əcdadları hesab edən hind-avropalı alimlər bu faktların üzərindən sükutla keçməyə üstünlük verirlər.

Parsua bir neçə şəhər-bəylik dövlətlərindən ibarət ölkə idi. Assuriya çarları Parsuanı tabe etmək üçün ora dəfələrlə hərbi yürüşlər etmişlər.

Urartu və Assuriya Parsuanı tabe etmək uğrunda mübarizə aparırdılar. II Sarqonun dövründə Parsua tamamilə tabe edib xəraca bağladı və Sarqon m.ö. 716-cı ildə işğal etdiyi qonşu şəhərləri də Parsuaya birləşdirdi. Parsua uzun müddəd Assuriyaya sədaqətli bir dövlət kimi onun müttəfiqi oldu. M.ö. 653-cü ildə Aşşurbanipal Assuriyaya qarşı yenidən baş qaldıran Parsuanı Elama etdiyi səfəri zamanı yenidən tabe edir. Parsuanın kralı Kuraş çoxlu xəracla birlikdə böyük oğlunu ona girov kimi göndərir.

Aşşurbanipalın Elama və onunla qonşuluqda, Zaqros dağları ərazisində yerləşən Assuriyaya tabe olmaq istəməyən döyüşkən ölkələrə və o cümlədən Parsuaya qarşı m.ö. 653-cü ildə təşkil etdiyi qanlı dağıdıcı yürüşdən sonra Parsu və bölgədəki digər ölkələrin adları tarixi salnamələrdən silinərək bir daha çəkilmir. (Trevor Bryce. 2009, Səh. 529)

Assurbanipal Quzan ölkəsindən Asu xalqının gətirdiyi xəracı qəbul etdiyini yazır. Parsua adı e.q. 844-cü ildən məlumdur. Köniqin yazdığına görə Barsuanı assurlar mataylarla eyniləşdrir və barsualıları midiyalı kimi qəbul etdiklərindən Assuriyanın mənafeləri zərbə aldığı üçün onlar bura hərbi yürüş etmişdilər. Amadai, Matai və Madai adların bu xalqın subar xalqı ilə möhkəm şəkildə qarışmış olduğunu göstərir. Zaqrosun hind-avropa dillərinə qədərki dillərində "t" və "d" yerdəyişimi xarakterik əlamət təşkil edir. Midiyalılar, yəni Matalar Ön Asiyaya daha öncəki illərdə gələrək yerləşmişdilər.

F.Köniq iran-ari mənşəli Parsumaşın Barsu ilə heç bir əlaqəsi olmadığını və Barsunun paytaxtı Baraxse olduğunu yazır. Baraxsenin digər bir adı Marahşa idi. Barsua Assuriyanın tabeçiliyində bir ölkə idi. Xaldey mətnlərində Parsua və Barsa adı eyni məna daşıyır və Barsanın paytaxtı Bustus şəhərində bu ölkənin kralı assur mənbələrində Ariya adlanır ki, bu ad subar mənşəli addır. (König F.W. 1934, Səh. 8. 9)

F.Köniqə görə Barsu adının mənasını "s", "t" hərflərinin yerdəyişimi ilə əlaqədar hecalı dildəki "Parther" döyüşçü və ya süvari kimi tərcümə etmək olar. Barsu ölkə və xalq adı bu "döyüşçü" sözündən yaranmışdır.

Mata adının m.ö. VIII əsrdə Barsa Adi ilə eyniləşdirilməsi hər iki adın eyni məna daşıması ilə əlaqədardır. Madaylar çox uzun illərdən bəri onlardan fərqli bir dialektdə danışan barsualılarla birlikdə Ön Asiyada məskunlaşmışdılar.

Fars dilində pələng adlanan Barsın əsas vətəni mixi yazı mətnlərində Azərbaycanın Lənkəran ərazisindən başlayıb Xəzər dənizinin cənub sərhədləri boyunca şərqə doğru davam edir. Sami dilində *Nimer/Namri* adlanan Bars İraqın şərqində, Suruyada, İranın qərbində və Kiçik Asiyada çox yayılmışdı. (Landsberger B. 1934. Səh. 67)

Hititlərin dilində Leopard, yəni Bars *Parşa* adlanır. Barslar Ön Asiyanın qüdrətli öntürk xalqından biri olmuşdur. Dağ yaylalarında yerləşən Barsuanın böyük bir qismi Zaqros dağlarının ətəyində qərbə doğru düzənlik ərazidə məskunlaşmışdı. Samilər bu düzənlik bars xalqını öz dillərində namri adlandırırdılar. Tarixi mənbələrdə adı İkiçayarasında ilk imperiya dövlətini yaratmış kral kimi qeyd olunan Nimrudu da bars-namri xalqına mənsub hesab edirlər. Bir çox müəlliflər namribarsları subar və kas/kusi mənşəli hesab edirlər.

B.Landsberqer qədim Mesopotamiyanın faunasına həsr etdiyi əsərdə bir çox məsələlərə aydınlıq gətirmişdir. Sumer-akkad dilində Aslan *Şeru* adlanır və bu söz İran dillərinə Şir şəklində keçmişdir.

Sumer dilində *barbaru* qurd deməkdir, bu ad *(ur)-barra* ideoqramı ilə ifadə olunur. *Ur* Sumer dilində ümumən it anlamı daşıyır və çox zaman bütün vəhşi, yırtıcı heyvan adının əvvəlinə bu "ur" sözü artrılır. "Barbarru" sözünün sumer dilində digər mənası "yabançı/barbarlıq" anlamı da daşıyır. Qədim ərəb şairləri çox zaman qurdu poetik ifadə ilə "Şirhan" adlandırırdılar. Bu söz ərəb dilinə və bu dildən də Avropa dillərinə Barbar şəklində keçmişdir. Bu söz türklərin Börü sözü ilə həmahəngdir. Barbaru – qurd bəzən Nimru – barsla paralellik təşkil edir. Qurd anlamındakı Barbaru adı sumer dilində yırtıcı mənasında "Parrisu" – Bars epiteti ilə adlanırdı. Yəni qurd da bəzən Bars adlanırdı. (Landsberger B. 1934. Səh. 76, 78)

Murad Adji yazır ki, e.ə. 550-ci ildə Böyük Persiya dövlətinin yaranmasında

Avrasiyadan gəlmiş bars, dah və mad köçəri türk tayfalarına borcludurlar.

Lakin tarixi qaynaqlardan məlum olduğu üzrə turanlı bars, mad tayfaları perslər Ön Asiyaya gəlmədən daha öncə burda məskunlaşmışdılar.

Bars ən qədim zamanlardan türk boylarının totemi-onqonu olmuş və bu ön-türk subirlərdən qalma tarixi ənənənin davamıdır. Bars sözü türk dialektlərində iki fərqli Bars və Tonqa şəklində adlanmışdır. Barsua ölkəsinin ərazi və etnik mənşə baxımından Subarlara aid olduğu kəsindir. Assurların Mesopotamiyanın şərqində yerləşən ölkələri özlərinə tabe etmək üçün yüz illərlə apardıqları dağıdıcı savaşlar nəticəsində bu ərazidə yaşayan xalqlar öz yurdlarını tərk edib şimal və şərqdəki daha təhlükəsiz ərazilərə köçərək yerləşmişlər. Ön Asiyanın Barsua ölkəsinin əhalisi də bu məcburi köçlərə məruz qalmış Volqaboyu və Cənubi Sibir ərazisində yerləşərək Türk etnosunun Barsil/Barsel boyunu təşkil etmişlər. Barsillər öndərləri Bedi Barsil başçılığı altında Göytürk xaqanlığı dövründə adları oğuzlarla birlikdə qeyd olunur. Barsillər sonrakı dövrdə Xəzər xaqanlığının hakimiyyət qollarından birini təşkil etmiş Xəzər xaqanlarının hakimiyyət sülaləsi üçün dünür/bacanaq boyunu təşkil etmişlər.

Tehranın dövlət muzeyində II Kirin möhürü saxlanılır və onun üzərində runi yazı və bars təsviri var.

Qumilyov Barsil türk tayfalarının Volqa və Terek çayları arasında yaşayan bulqar türkləri olduqlarını yazır. Barsillərin bir qolu hunların təzyiqi qarşısında Balkanlara ordan da İspaniyaya keçmişlər. Barsil Bars-el sözündəndir. Kataloniyanın paytaxtı Barselonanın adı da barsil sözündəndir. Digər ispan şəhəri Araqon türk tayfanlarında arqunların adından götürülmiş ola bilər. (Закирьянов К.К. 2013. Səh. 38)



# XVI FƏSİL. Subartu və ya Subir ölkəsi

Subartu İkiçayarasının m.ö. 3300-cü illə 1200-ci il arasında adı yazılı qaynaqlarda qeyd olunan qədim ölkəsidir. Subarlar Ön Asiyanın turanlı mənşəyə malik qədim etnosudur. Subir adı qədim sumer mətnlərindən məlumdur. Sumerlər onları Subir, akkadlar isə Subartu adlandırırdılar. Onların qədim İkiçayarasına gəlişlərinin dəqiq tarixi məlum deyil. E.ə. III minillikdə onlar artıq bu regionda yaşayırdılar. Bir çox tədqiqatçılar subirləri hurrilərin əcdadları hesab edirlər. Subirlər qərb və şərqi olmaqla iki qola bölünürlər. Şərqi subirlər Urmiyə gölünə qədərki ərazidə yaşayırdılar. (Y.Yusifov. 1992, Səh. 52)

Akkad kralı Naram-Sinin (e.q. 2254-2218) səlnamələrində yazıldığına görə Subartu Dəclənin şərq bölgəsindən başlayıb qərbə doğru Aralıq dənizinə qədər olan ərazini əhatə edirdi. Subarların Habur bölgəsində məskunlaşmış hurrilərlə eyni xalq olduqları haqqında fikirlər mövcuddur. Yeni Babil dövründə naməlum dildə yazılmış əfsun duasının subar dilində olduğu güman edilir.

Akkaddan sağ tərəfdə Fəratın şimal hissəsindəki çəmənliklərlə örtülü düzənliklərində Amanos dağları tərəfdəki yüksək yayalalarda hititlərə qohum xalq olan, Babillərin Subar adlandırdıqları xalqı yaşayırdı. Subar krallığı Akkad, Elam və Amoritlərlə qonşu idi. Subarlar köçəri xalq idi.

Subartu adı "Su-edin-ki" idioqramı ilə yazılırdı, bu ideoqramı Vinkler və Strassmayer Suri şəklində oxuyurdular və Subartunu Suri şəklində qəbul edərək onun Zaqros dağlarından Aralıq dənizinə qədər böyük bir ərazini əhatə etdiyini yazırdılar. (Eduard Meyer. 1913. Səh. 509)

Suri adını müəlliflər Su ölkəsi kimi izah edirlər ki, Suriya adı da bu sözdən yaranmışdır. Assurologiya elmində Sumer və Subartu arasındakı əlaqə ən geniş müzakirə və mübahisələrə səbəb olmuş mövzudur. Avropanın bir çox görkəmli assuroloqları Sumerləri və Subirləri etnik mənşə və linqvistik baxımdan eyni kökə bağlı olan eyni etnosun iki fərqli qolu adlandırırlar.

Çex mənşəli alman assuroloqu B.Hroznu ural-altay dil ailəsinə mənsub Sumerləri öz ilkin vətənləri Türkistandan köçərək Mesopotamiyanın güneyində yerləşən ilk axın, Subirləri isə həmin ərazidən köçüb Mesopotamiyanın quzeyində yerləşən ikinci axın hesab edir. Onun izahına görə "Sumerlərin ikinci dalğası olan subirlər vaxtilə Ubeyd protosumerlərinin yerləşdikləri şimali Babildə yerləşdilər. Burda yerləşən Subirlərin adı sumerlərin ilkin adları olan *sugir* adından yarana bilər. Bu *suqir* adı sumerin eme-sal dialektinin fonetik qaydalarına uyğun olaraq *subir-subar* və *sumer* şəklində dəyişikliyə uğraya bilər. Xatırlatmaq yerinə düşər ki, Sumerin tufandan sonra ilk çoban-kral ünvanına malik kralı Etananın oğlu və ondan sonra kral taxtına sahib olmuş Balix Mesopotamiyanın şimalındakı Balix çayının sahilində yerləşən Baliq çayı və eyni adlı şəhərin adını daşıyırdı. Bu fakt onu

göstərir ki, Sumerin hakimiyyəti Mesopotamiyanın şimalını da əhatə edirdi. Mixi mətnlərdə Sumerin Mesopotamiyanın şimal-şərqini əhatə edən ərazisi Şanqar, şimal-qərb isə Subir adlanırdı. Beləliklə, bu adlar Sumer xalqının Babiləqədərki qədim dönəmdə iki hissəsini təmsil edirdi. Sumerlərin braxikefal və dolixikefal olmaqla iki antropoloji tipə mənsub olmaları aşkar edilən qafatasları və qədim heykəllərlə müəyyən olunmuşdur. Bu fərqliliklər onların müxtəlif dövrdə iki axınla gəlib Mesopotamiyada yerləşmələri ilə izah edilməlidir". (B.Hrozni. 1953, Səh. 39)

Hroznunun sumer dilində qeyd etdiyi *Suqir* adı "Su yeri və ya ölkəsi" demək olub *Lu-Su* sözünün eyni məna kəsb edən variantıdır. G.Hüzinq yazır ki, Zaqros dağlarının doğu silsiləsi Elam dilində Sunqur adlanırdı və mənası "Kral dağları" deməkdi. Bu ad bir şəhər qalası adı da ola bilər. (Georg Hüsing. 1908, Səh. 19, 20)

Beləliklə, Subirlərin sumer mətnlərində Şanqar və ya Şunqar şəklində ifadə olunan ərazisi Azərbaycanın Sunqur dağları və əyaləti ilə eynilik təşkil edir. Bu dağlar Aratta dağları kimi də məhşurdur.

E.Forrer sumer və subirlərin eyni etnik kökə malik olduqlarını və subir dilinin Sumer dilinin bir dialekti olduğu fikrini müdafiə edirdi. Forrer Ön Asiyanın bir çox qədim dillərinin, o cümlədən Kiçik Asiyanın qədim xalqı olan xatti dilini də Sumer dili ilə əlaqələndirir və onları birlikdə arilərə qədərki Hatti-sunqir Avtoxton xalqı adlandırır. (Emil Forrer. 1930 okt-dec. Səh. 227-228)

İ.Qelb də sumerlərin və subarların eyni kökə malik olduqları haqqındakı fikri dəstəkləyir. O İkiçayarasının güneyindəki sumer toponimlərinin onun quzeyində sumer hesab edilməyən subir mənşəli yer adlarına bənzədiklərini yazır. O sumerlərin sami olduqları haqqındakı fikirləri rədd edərək substrat dilə aid edilən sözləri subarlara aid bir substrakt dil olduğu fikrini irəli sürürdü. (Gelb İ. 1944)

Lakin sumer və subirlər arasında rəqabətlə bərabər müəyyən düşmənçilik də mövcud idi. E.q. 2000-ci ilə aid Qədim Babil dini mətnlərin birində Sumer tanrısı İştar atası Ana müraciətlə deyir, "Anu, Sumerin qəniməti yüksəyə qalxmamalıdır. Subir parçalanma hədəfi olmalıdır. Sumer hər il Subiri parçalasın". Mətnin açılışı ondan ibarətdir ki, tanrılar qərara almışlar ki, Sumerin əldə etdiyi qənimətlər dağlara daşına bilməz, gələcəkdə sumerlər Subirdəki qənimətləri hər il ölkəyə gətirməlidirlər. (A.Ungnad. 1936, Səh. 62)

Sumer və Subirlər arasındakı düşmənçiliyin kökü qədimlərə dayanmaqdadır. Bu məsələdə iki baxış mövcuddur. Birinci baxışa görə Subirlər Mesopotamiyanın gəlib yerləşən ilk xalq olmuş və ondan sonra gələn sumerlər tərəfindən tədricən öz yerlərindən şimal ərazilərinə doğru sıxışdırılmışlar. Digər bir ehtimala görə isə ilk öncə sumerlər İkiçayarasının güneyində məskunlaşmış və bura sonradan gəlib yerləşməyə cəhd göstərən subirlərlə uzun zaman çərçivəsində mübarizə şəraitində olmuşlar və subirləri getdikcə şimal ərazilərə doğru sıxışdırmışlar.



Lakin bir çox müəlliflərin arxeoloji və linqvistik dəlillərə əsasən təsdiq etdikləri kimi sumerlər və subirlər eyni etnik mənşəyə və dilə malik olmuş və Mesopotamiyaya eyni şimal-şərqdə yerləşən eyni ərazidən, daha doğrusu Türkistandan müxtəlif dövrlərdə iki axın şəklində gəlib Mesopotamiyada yerləşmişlər.

Müasir dövrün assuroloqları V.Hallo və V.Kellinin gəldikləri nəticəyə görə Mesopotamiyada uyqarlığın yaranması yerli olmayan etnik ünsürlərin bu əraziyə gəlməsi nəticəsində baş vermişdir. Bu əraziyə ən qədim gəlmə qatılımçılar quzeydə izlərinə rast gəldiyimiz Subirlər olmuşlar. Subarların quzeydə m ö. 3500-2900-cu illərə aid Qavr mədəniyyətini, güneydə isə m.ö. 3500-3100-cü illərə aid Uruk dövrü mədəniyyətini əhatə edir. Bu arxeoloji mədəniyyət təbəqəsinə mənsub insanların dili bir neçə coğrafi adla, sonrakı dövrə aid mətnlərdəki bir çox sözlə və subarlı olduqları təsdiq edilən şəxs adları əsasında müəyyən edilmişdir. Lakin yeni aşkar edilmiş bir ovsun mətninin alt yazısında onun subar dilində olduğu qeyd edilmişdir ki, bu subar dilinə aid ilk ədəbi yazıdır. Mətndəki hələ tam oxunmamış digər ovsunların da subar dilində olması mümkündür. Mesopotamiyada Subarlara aid mədəni təbəqənin güneyə nisbətən quzey ərazilərdə daha uzunmüddətli və qalıcı şəkildə mövcudluğu onların digər ərazilərə yayılmaları üçün quzeyin əsas istinad məntəqəsi rolunu oynadığını sübut edir. Ona görə də, sonradan Anadolunun doğusu, Suriya, Babil və Assuriya adlanan quzey ərazilər orda ilkin məskunlaşan insanların adı ilə Subar və ya akkadca Subartu adlanmışdır. Lakin subarlar m.ö. 3100-cü ildə güneyə yendikləri zaman burda özlərindən daha üstün bir uyqarlığa sahib insanlarla qarşılaşdılar. Bu mədəni təbəqəyə malik insanlar sumerlər idilər. Sumerlərin özlərinin Mesopotamiyaya güneydən Bəsrə körfəzi tərəfdən gələn ilk insan olduqları düşüncəsinə malik idilər. Sumerlər bu əraziyə gələn subarları özlərinə tabe etdilər və subar kəlməsi sumer dilində qul-kölə anlamı daşımağa başladı. (Hallo Wiliyam and Williyam Kelly Simpson. 1971, Səh. 22)

Subartu tarixinin ən böyük tədqiqatçılarından olan Artur Unqnad "Pansubarizm" adlı bir nəzəriyyə irəli sürmüş və subarların tarixinə dair "Subartu" adlı fundamental bir əsər həsr etmişdir. Unqnad bu nəzəriyyəsində subarları Aralıq dənizi, İkiçayarası, İran və cənubi Qafqaz arasındakı ərazilərin ən qədim əhalisi hesab edir. Subirlər Fələstindən başlamış Urartuya və hətta Qafqaza qədər olan ərazidə məskunlaşmış ən qədim əhali idi. Subirlər e.q. 5000-ci ildən etibarən samilərin təzyiqilə getdikcə doğuya doğru sıxışdırılmağa başlanmışdır. (A.Ungnad, 1923, Səh. 9)

Unqnadın irəli sürdüyü nəzəriyyəyə görə Anadoludan Misirə qədər olan ərazidə yaşayan subarlar öncələri Atur adlı tanrının şərəfinə Atur (Assur) adlanan şəhər dövlətinin və sonradan bütövlükdə Assuriya adlanan dövlətin də əsasını qoymuşlar. Bir çox müəlliflər əsli Atur və Aturiya formasında olan adların sami dilinin fonetik şəklinə uyğun olaraq Assur və Assuriya şəklində ifadə olunduğunu yazırlar. Artur Unqnad subarların hurrilərlə eyni xalq olduğu fikrini müdafə

edərək Xett və Mittani dövlətinin də subarlar tərəfindən yaradıldığı fikrini irəli sürmüşdür. O Habur çayı hövzəsini Subartunun mərkəzi hesab edirdi. E.q. 4-cü minillikdə samilərin İkiçayarasına doğru istilalarının genişlənməsi nəticəsində subirlər və sumerlər tədricən şərqə doğru sıxışdırılmışlar. Öncə aşağı vadilərdə məskunlaşmış elamlar sumerlər tərəfindən doğuya doğru Zaqross dağları tərəfə sıxışdırılmışlar. E.q. 4-ci minillikdə doğudan və batıdan hərəkət edən xalqların qarşılaşması Babildə baş vermişdir. E.q. 3-cü minillikdə Qutilərin tarix səhnəsinə qədəm qoyması ilə İkiçayarası xalqlarının yenidən yerdəyişməsinə səbəb olmuşdur. E.q. 2500-cü ildə sami assurlar İkiçay arasının doğusunu istila etmişlər.

Unqnad Subirlərin bir qolunun erkən dövrlərdə ayrılaraq Van gölü ətrafına məskunlaşdıqlarını və sonradan Urartuluları meydana gətirdiklərini yazır. O hurrilirən dilini də subir dil qrupuna aid olduğunu qeyd etmişdir. (A.Ungnad, 1936)

Ungnad Ön Asiya irqi adlandırılan insanları subar irqi adlandırmağı daha məqsədəuyğun hesab edir. Qədim zamanlarda dünyanın insanlar tərəfindən hələ seyrək çəkildə məskunlaşdırıldığı dövrdə insanlar eyni bir irqə və dilə malik idilər. Babillilər sumer adları daşısalar da, tam şəkildə sumer irqinə mənsub deyildilər, onlar irqlər qarışığından ibarət idilər.

Unqnad bəşəriyyətin ən böyük irq ailəsini təşkil edən Aralıq dənizi (Mediterrane) irqinin bir neçə qola ayrıldığını və sumerlərin onun dördüncü qolunu təşkil etdiyini yazır. O bir çox bilim adamının Ön Asiya və ya "taur" adlandırılan irqi "subar" irqi adlandırır. Unqnad Sumer irqini Aral irqi adlandırmağın daha doğru ola biləcəyi fikrini irəli sürür. (Ungnad A. 1936, Səh. 4)

Unqnad Xəzər dənizinin güney doğusunda Damqan yaxınlığında aşkar edilən e.q. 4-cü minilliyə aid Tepe-hisar arxeoloji mədəniyyətinə mənsub uzun başlı-dolixokefal insanlarının Aral dənizi mənşəli olduqları fikrini irəli sürür. Onlar sonradan Amudərya və Sırdərya vadilərinə, daha sonra Hindistana və quzey-batıya doğru Babilə qədər yayılmışlar. Bu insanları Xəzər hind-ari irqinə aid edən Kappersin əksinə olaraq Unqnad onları sumer irqinə və ya "Aral" irqinə aid etməyin daha doğru olacağını qeyd edir. Unqnada görə sumer dilinin sami dilləri ilə müqayisəsi hər hansı bir uğurlu nəticəyə gətirib çıxarmamışdır. Sumerlər Babilin sel sularından azad olmuş seyrək əhaliyə malik ərazisinə gələrək oranı məskunlaşdırmışlar. Arxeoloji dəlillər də sübut edir ki, sumerlər İkiçayarasının ilk sakinləri olmuşlar. (Ungnad A. 1936, Səh. 6-7)

Unqnad qafataslarının arxasında dik çıxıntıya malik insanları Ön Asiyanın ən qədim xalqı adlandırır. İkiçayarasında ilkin mədəniyyətin əsasını qoyan bu insanlar Suriyanın quzeyində, İkiçayarası ərazidə və sonradan Assuriya adlanan ərazidə ən qədim zamandan məskunlaşdıqları ərazi Subartu adlanırdı. Qafataslarının arxasında dik çıxıntıya malik bu insanlar subar irqini təşkil edərək subar dilinə və özəl bir subar mədəniyyətinə malik idilər. (Ungnad A. 1936, Səh. 23)



Unqnadın qeyd etdiyi qafatasının arxasındakı dik çıxıntı antropologiyada "türk çıxıntısı" və ya latınca "Tuberculum Turkum" adlanır və dolixisefal tipə aid türk/turan irqinə etnik mənsubluğun əsas əlamətlərindən biri hesab olunur.

Subartu coğrafi termini mixi yazı mətnlərində Ön Asiya xalqlarının dialektlərinə uyğun olaraq fərqli formalarda ifadə olunur. Sumer-akkad mətnlərində subartu adı *"Su"* və *"Eden"* ideoqramları ilə ifadə olunur. Ölkənin adı tam şəkildə *"Kur. Su. Eden. /Eden. Ki. Kur. subartu"* şəklində yazılmışdır. Bu ifadənin mənası "Subartu ölkəsinin xalqı" deməkdir. Assur və babil mixi yazılarında sami dilinin "ş" və "s" əvəzlənməsinə uyğun olaraq subartu adı "Şu-bar-te" və "Şa-maş-te" şəklində yazılır. Akkadlar ölkənin adını Subartu, xalqın adını isə Subar şəklində ifadə edirlər. Sonrakı oxunuşlarda "Eden" idioqramının gerçək oxunuşunun *"bir"* olduğu məlum oldu və beləliklə, "Su. Eden" sözünün açılışının *"su-bir"* şəklində olduğu müəyyən edildi. Ən qədim dövrlərdən subarlarla ən yaxın ünsiyyətdə olan sumerlər onların adını ən düzgün şəkildə "Subir" kimi ifadə edirlər. (Ungnad A. 1936, Səh. 24-25)

Unqnadın fikrinə görə *Subir* adını sumerlər subirlərin özlərindən götürmüşdülər. Daha doğrusu Subarlar özlərini Subir adlandırırdılar. Sumerlər subirlərin yerləşdiyi şimal ərazilərinə uyğun olaraq subir adını coğrafi məhfum kimi Yeraltı dünya, şimalın Dağlıq ölkəsi mənasında işlədirdilər. (Ungnad A. 1936, Səh. 113)

Sumerlər öz qədim dialektlərində elamlıları *"su-qir"* və *"sa-qir"* adlandırırdılar, bu ad həm Elamı ölkəsini, həm də Subartunu ifadə edir. Bu o demək idi ki, elamlar Subartu ilə qohum bir əhalini təşkil edirlər. Artıq m.ö. 2700-cü ilin başlarında Sumer kralı Eannatum (e.q. 2500-2400) dövründə subirlər Elamın batısındakı Subir-Subartu adlanan bölgəyə axışaraq orda məskunlaşmışlar. (Ungnad A. 1936, Səh. 197)

Hər iki xalqın sumerlər tərəfindən eyni adla adlandırılması o mənanı daşıyır ki, subarlar və elamlar eyni mənşəyə malik olmuş qohum xalqlar idilər. Bir çox müəlliflər də yuxarıdakı bölümlərdə bəhs etdiyimiz kimi Zaqros dağları və Elam ərazisində yaşayan xalqları subar mənşəli hesab edirdilər. Əhəmənilər dövrünə aid mətnlərdə keçmiş Subar əraziləri olan Assuriya hər zaman Aturiya kimi yazılmış, bu ölkənin mərkəzi şəhəri isə Atur adlanmışdır. Yunanlar da Assuriyanı Aturiya adlandırırdılar. (Ungnad A. 1936, Səh. 126)

Amerikanın görkəmli assuroloqları E.Spayser və E.Xiera Assuriya dövlətinin əsasının turanlı Subirlər tərəfindən qoyulduğunu əminliklə qeyd edərək yazırlar: "Assur dövlətinin əsasını qoymuş krallar Uspi və Kikinin Subar/Subir mənşəyə malik olmaları tam universal hesab olunur. Bununla bərabər qutilər də bu ərazidə 90 il hakimiyyət sürmüşlər. Aşşur şəhərindəki arxeoloji qazıntılar burda Sumerin böyük mədəni təsiri olduğunu göstərir. III minillikdə hurrilər Assuriyanın böyük ərazisini işğal etmişdilər və Assur şəhəri hər tərəfdən hurri məskənləri ilə əhatə olunmuşdu". (Edward Ch. and Ephraim E. Speiser. Vol 6, (1924-1925) Səh. 75-92)

İqnasius Qelb də Hurri və subirlərə həsr etdiyi əsərdə assur dilində Subartunun sumer mixi işarəsi ilə "su-qir", Elam isə "sa-qir" ideoqramları ilə ifadə olunduğunu yazır. Bu iki ölkə arasında yaxın əlaqənin qədim mətnlərdə də öz əksini tapmış və qədim mətnlərin coğrafi siyahısında Subartu ölkəsinin Anşanı da əhatə etdiyi ifadə olunmuşdur. Bu mətnlərdə birgə Subar və Anşan krallığından bəhs olunur, astroloji əlamətlərdə də bu iki ölkə yanaşı qeyd edilir. (İ.Gelb. 1944, Səh. 86)

Alman tarixçisi Tiel də Subarların ölkəsinin Anşanı əhatə etdiyini yazır. Müxtəlif bilim adamlarına məxsus bu fikirlər Subir və Elamın tarixən vahid etnik mənşəyə malik olduqlarını və çox zaman eyni dövlət təşkilatı tərkibində birləşdiklərini sübut edir.

Unqnadın, Qelbin *suqir* termini haqqındakı şərhləri B.Hroznunun şərhinə uyğundur və hər iki izah sumerlərin, subirlərin və elam tayfalarının eyni kökə malik olduqlarını sübut edir. Unqnadın şərhinə görə sumer mətnlərində rast gəlinən "suqir və saqir" sözləri *"b"* və *"q"* əvəzlənməsinə uyğun olaraq "subir" adının sumer dialekt variantlarıdır. Elam ölkəsi sumer dilində ayrıca *"iqi-nim"* ideoqramı ilə də ifadə olunur. Sumer dilində Elam adını ifadə edən "nim" sözünün mənası "yuxarıda olan, yüksək" deməkdir (bu sözün akkadca qarşılığı "elu" sözüdür). "Hubur" sözü isə sumer dilində "aşağıda olan, dərin" anlamı daşıyır. Beləliklə, sumer dilində "hubur" dərin-aşağı, "nim" isə yüksək-yuxarı anlamları daşıyırlar. Vadidə yerləşən Babil əhalisinə görə Subartu yuxarıda yerləşən ölkə idi. Hammurapinin mətnlərində də Subartu dağlarından bəhs olunur. Bu dağlar subirlərin məskunlaşdıqları Zaqros və şimalda yerləşən Taurus dağları idi. Beləliklə, Sumer mətnlərində Subartu adını ifadə edən və "bir" şəklində ifadə olunan *"Eden"* ideoqramının mənası "yüksək, yayla, göy, səma" deməkdir. Sumercə *subir/saqir* adının akkadca qarşılığı *"elatu"* şəklindədir və mənası "yüksək, yuxarı" mənasındadır. (Ungnad A. 1936, Səh. 26)

Görünür sumer-akkad dialektindəki bu *elatu* sözü türklərin dağ yaylalarında köçəriliklə əlaqədar "elat" termininin kökünü təşkil etmişdir.

Sumer dilində "Hubur" sözü dərin, aşağı, vadi anlamı daşımaqla yanaşı mifoloji baxımdan "Yeraltı dünya, ölülər aləmi" anlayışlarını da ifadə edirdi. Sumerliləri mifoloji təsəvvürlərinə görə quzeydə yerləşən Yeraltı dünyaya günəş işığı düşmürdü və Subartu da Quzeydə yerləşirdi. Sumer və Babillilərin təsəvvüründə quzeydə yerləşən Subir və ya Subar ölkəsi Yeraltı dünyanın girişində idi və onlar üçün Yeraltı dünya və Subir sinonim anlayışlar idilər. Hər halda sumerlilərin qədim mifoloji təsəvvürlərinə görə Yeraltı dünya anlayışı, Quzey, Cəhənnəm və Subartu anlayışları ilə eynilik təşkil edirdilər. Unqnada görə ifadə baxımından subir=subur və hubur sözlərinin yaxın əlaqəyə malikdirlər. (Ungnad A. 1936, Səh. 27)

Yeraltı dünya dağları digər şəkildə Arallu adı ilə də ifadə olunurdu. Qızıl metalı "nab-nit a-ra-al-i" şəklində ifadə olunurdu və mənası Arallunun, yəni "Yeraltı dağların məhsulu" adlanırdı. Subartu adının ifadə olunduğu ən qədim mətn Laqaş kralı I Eannatuma (m.ö. 2720-2670) aid mixi lövhədədir. İstər Eannatum, istərsə də Naram-Sin Subartunu Elamın yaxınlığında göstərirdilər. Mətndə adı çəkilən Turukku ölkəsi Subartunun arxasında yerləşirdi. (Ungnad A. 1936, Səh. 40)

O.Şröder Assur dilindən tərcümə etdiyi mətnlərin birində Assuriyanın Subartu ölkəsi olduğu, Quti ölkəsinin Midiya olduğu yazılmışdır. Mada ayrıca bir ölkə adı deyil, sumercə mənası ümumiyyətlə ölkə anlamı daşıyır. Assur mətnlərindəki coğrafi adlarda Subir adlı çay "id uz subir ki" kimi qeyd olunmuşdur. Mətnlərdə çay adlarından aydın olur ki, "uz" sözü sumer-akkad dilində axın və çay mənasındadır. (Ungnad A. 1936, Səh. 61) "Kur" sözü yad ölkə deməkdir, Sumerlərdə çay anlamı daşıyan *Uz* sözü eyni ilə çay mənasında Qızıluzən, Uzboy kimi türk hidronimlərində qorunub saxlanmışdır.

Fikrimizə görə Araz çayının ilkin variantını təşkil edən adı Ara-ukus və ya Ara-uz şəklində olmuşdur, *Okuz* və *Uz* sonluqlarının hər ikisi də türk dilində çay anlamı daşıyır. Yunanlar da çayın adını Araksse (Arakse) şəklində ifadə edirlər, bu Ara-ukus adının yunan dilindəki ifadə şəklidir. Araz/Arauks adı Türk dilindən tərcümədə Arada olan çay anlamı daşıyır.

Qədim Babildə dünya dörd hissəyə bölünürdü. Birinci hissəni Akkad, yəni Babilin özü təşkil edirdi, ikinci hissəni Elam təşkil edirdi, üçüncü hissəni Amurru, yəni Assuriya təşkil edirdi, dördüncü hissə isə Subir şəklində yazılan Subartu təşkil edirdi. Çox zaman ölkələr siyahısında Quti və Amanos (Türkiyənin güneyində Taurus) dağı Subartuya daxil edilirdi və bu adlar birlikdə yazılırdı. (Ungnad A. 1936, Səh. 69)

Subir dilində çay sözü *"burat"* və ya *"purat"* şəklində ifadə olunur, bu adın digər bir variantı "Arat" şəklindədir. Fərat/Eufrat çayının adı subir dilində Urat və Arat çay mənasındakı sözlərdən yaranmışdır. Dəclə çayının adı subir dilində *"ammu"* şəklində yazılmışdır. Türk dilindəki Murad-su adı subir dilindəki Purat və ya Urat çay adından götürülmüşdür. Bu ad sonradan şəxs adı kimi türklərdə geniş istifadə olunmuşdur və sultan Murad adı da bu sözdən yaranmadır. (Ungnad A. 1936, Səh. 97)

Unqnadın bu izahdan görünür ki, Türkistanın Amudərya adındakı *amu* sözü və Sibirdəki Amur çayının adı subirlərin çay anlamındakı *ammu* sözü ilə əlaqədardır.

Ur hakimiyyət sülaləsinin üçüncü dönəminə aid (m.ö. 2200-ci il) sənədlərdə yad ölkələrdən olan şəxslərin adları əks olunmuşdur. Onların içərisində vətənləri Su ölkəsi olan insanlar da vardır ki, onlar "lu.Su.ki" şəklində yazılmışdır və mənası "Su ölkəsinin insanı" deməkdir. Burda *Su* sözü Subir adının kökünü təşkil edir və bir çox mixi yazı mətnlərdə Subartunun adı qısaldılmış şəkildə *lu Su* kimi də ifadə olunur. (Ungnad A. 1936, Səh. 105)

Yuxarıda sumerlərə həsr olunmuş bölümdə izah etdiyimiz kimi istər Su-meru, istərsə də Su-bartu etnonimlərinin kökü *Su* kəliməsindən ibarətdir və hər ikisinin də kökünü etnik baxımdam eyni kökdən ibarət *Su* etnosu təşkil edir.

E.Spayserin qeyd etdiyinə görə sumer dilində iki dialekt mövcud olmuşdur, *Eme-qu* sumerlərin əsas qədim dialekti idi, *Eme-sal* isə yeni dialekti idi ki, bu dialektdə sumer olmayan əhali danışırdı.

Sumer dilindəki Subur və hubur qohum sözlərdir. Sumer dilində Subur sözünün mənası yüksək deməkdir. Hubur sözünün mənası isə "dərin, aşağı, Yeraltı dünya, ölülər dünyası və Quzey" demək idi. Subar və Habur mifoloji baxımdan yeraltı dünyasının müxtəlif təbəqələrini təşkil edirdilər. Buna uyğun olaraq da Subartu zülmət, quzey ölkəsi, həmçinin Arallu Yeraltı dünya dağı və ya Quzeyin dağlıq ölkəsi adlanırdı. Qızıl Yeraltı dünya dağı Arallunun məhsulu hesab olunurdu. (Ungnad A. 1936, Səh. 110)

H.Vinkler yunan müəlliflərinin əsərlərindəki Suria ölkəsi adının Subar (Subria=Suvria) adından yarandığı fikrini irəli sürür. Suria adının mənası Su ölkəsidir və "ria" mənsubiyyət şəkilçisidir.

Subartu ölkəsinin qalıqları Şubria adı ilə öz dövlət varlığını qoruyub saxlamışdı. Şubria ölkəsi Dəclə çayının yuxarısında Nairi dövləti ilə qonşuluqda, Diyarbəkirin qüzey-doğusunda yerləşirdi və onun Kullumeri və Uppume adlanan mərkəzi əraziləri Subartunun baş tanrısı Teşub adından Teyşuba adlanırdı. Urartu Subrianı öz hakimiyyəti altına aldıqdan sonra onun hökmdarının "Şar kişşati" ünvanını da mənimsəmişdi. Bu titul qısaldılmış şəkildə Şura adlanırdı. (Ungnad A. 1936, Səh. 112-113)

Perslər Assuriyanı Aturiya adlandırırdılar. Yəqin ki, farslar Aturiya adını bölgənin qədim əhalisi olan midiyalılardan əxz etmişdilər. Midiyalılar tarixi ənənəyə uyğun olaraq Assuriyanın ərazisinin Subartu ərazisi kimi qəbul etdiklərindən assurları işğalçı kimi qəbul edirdilər və ölkəni onun assurlardan öncəki adına uyğun olaraq adlandırırdılar. Aturiya adının anlamı "yüksək, dağlıq ölkə" deməkdir.

Babillərlə çoxsaylı müharibələr aparan subartuların dilləri faqqında bəzi nümunələr babil mətnlərində mövcuddur. Subartu dilində ağa sözü "ene" kimi ifadə olunur, qadın isə "aştu" sözü ilə ifadə olunur. Hurri tanrısı kimi qələmə verilən Hepet və ya Hepa subirlərin baş ilahəsi və Misir yazılarında Subar tanrısı kimi qeyd olunan Tur-Teşupun arvadı idi. Sumer-akkadların *ilum* tanrı sözü subir dilində *ene* adlanırdı. Subar-hurri tanrılarından biri Astapin adlanırdı və sumerlərin tanrısı Enlilin oğlu İlbaba ilə eyniyyət təşkil edirdi. İştar tanrıçası subirlərdə Şauşka adlanırdı. Subirlərin Parsi tanrısı sumerlərin Nerqal tanrısı ilə eyni idi. Subirlərin digər bir tanrıları da Naqarsi adlanırdı. (A.Ungnad. Səh. 65-66)

Babil mənbələrində hər hansı bir Hurri ölkəsi və ya Hurrilər adına rast gəlinmir. Kassi dövrünə aid mətnlərdə və dini əfsanələrdə Hurri adı çəkilmir. M.ö. XV yüzilliyə və ondan sonrakı dövrlərə aid babil şeirlərində Subartu və Assuriya adları əks olunmuşdur. Babillilərin Hurri haqqında anlayışları yoxdu, Assuriyanın işğal edərək mirasına sahib çıxdığı dövrə qədər həmin ərazini onlar yalnız Subartu kimi tanıyırdılar. Hurri kimi təqdim olunanlar əslində subarlar idilər. (Ungnad A., Subartu, 1936, Səh. 138)

Ön Asiyanın və özəlliklə khati və huri tarixinin və dilinin görkəmli araşdırıcısı Emil Forrer yazır ki, e.q. 2400-cü ildə qutilər şimali Mesopotamiyanı, yəni Babili işğal edib orda 120 il Qutium sülaləsi adı ilə hakimiyyət sürdülər. Sumerdən Babilin şimalına miqrasiya o qədər güclü idi ki, sumerlər həmin əraziləri Ki-uri adlandırırdılar ki, sonradan bu ad fonetik dəyişikliyə uğrayaraq Hurri/Xuri şəklini almışdır. (Emil Forrer, 1930, Səh. 237)

Ki-uri sözünün digər bir oxunuş şəkli Kuria şəklindədir. Sumerlər şimal əraziləri "dağlıq ölkə" anlamında Kuria adlandırırdılar. Kür çayının adı da bu sözdən yaranmışdır. Subarların Aqasi, Aqiyə, Namər kimi şəxs adları bu gün də xalqımız içərisində geniş yayılmış adlardır.

Subirlərin ən qədim qollarından birini Van gölü ətrafında məskunlaşan urartulular təşkil edirdilər. Onların dili subir dili əsasında yaranmış, ya da onun bir alt qolunu təşkil edir. Özlərini tanrıları Haldinin şərəfinə bəzən xaldi adlandıran Urartulular da önasiya irqinə mənsub idilər daha doğrusi subarlar idilər. Zəncirli, Karkemiş, Tell Halafın daş abidələrində təsvir olunmuş insan tipləri m.ö. 2-ci minillikdə bölgəyə gələn arilərdən öncəki xalq olan urartululara və dini və dil baxımından Dəclənin şərqindəki önasiya-subar insan tipinə mənsubdurlar. (Ungnad A. 1936, Səh. 176-177)

İrqi, dil, mədəniyyət və siyasi inkişaf baxımından öz qonşu xalqlarından kəskin fərqlənən subarlar yalnız İkiçayarasının deyil, Aralıq dənizinın batısından Kappadokiyaya qədər, doğuda İran dağ silsiləsinə, quzeydə Urartuya qədər olan geniş ərazinin ən qədim əhalisi idi. Subar irqi digər irqlərlə müəyyən dərəcədə qarışmış olsa da, yenə də həmin ərazidə mövcud olmaqdadır. (Ungnad A. 1936, Səh. 194)

Unqnadın fikrinə görə Babildə ilkin mədəniyyəti yaradanlar sumerlər olmamışlar, İkiçayarasında mədəniyyətin başlanğıcını təşkil edən Ubeyd mədəniyyətinin yaradıcıları önasiya-subar irqinə mənsub insanlar olmuşlar. Subarlar Fərat və Dəclə vadilərinin dəniz suyundan azad olmuş torpaqlarında məskunlaşaraq bu iki çay boyunca yerləşən və heç kimə mənsub olmayan əraziləri özlərinin geniş vətənlərinə çevirmişlər. İkiçayarasındakı ilkin Ubeyd mədəniyyəti "Şərq" irqinə mənsub olan samilərə, nə də bura sonradan gələn "Aral" irqinə mənsub olan sumerlərə aid deyildi. Bu mədəniyyət İkiçayarasının yerli xalqı olan və "Ön Asiya" irqinə mənsub olan subarlara aid idi.

Sonrakı Uruk mədəniyyəti dövründə Babilə sumerlərin ilk axını başlanması ilə qədim subar əhali yox olmamış, əksinə, yeni gələnlərlə qaynayıb qarışmışlar. Su-

merin qədim ərazisində, xüsusən də Cəmdət Nəsr dövrünə aid ərazidə sumerlərdən fərqlənən önasiya-subar tipinə mənsub insan təsvirlərinə rastlanması bununla izah edilməlidir. M.ö. 3000-ci ilin başlanğıcına doğru önasiya-subar tipinin yayılma arealı məhdudlaşaraq sumerlərin Subir, akkadların Subartı adlandırdıqları ölkə çərçivəsində varlığını qoruyub saxlamış və bu günə qədər Suriya adı altında öz varlığını davam etdirmişdir. (Ungnad A. 1936, Səh. 196)

Akkad kralı Naram-Sin m.ö. 2500-cü ildə Subartunu Elam sərhədlərinə və Amanus dağlarına qədər olan ərazisini işğal etdi. Lakin Subartu Kiçik Asiyanın dərinliklərinə və Suriyanın içinə qədər uzanmış geniş bir ərazini əhatə edirdi. Sonrakı dövrlərdə digər bölgələrdən köçüb gələnlərlə əlaqədar olaraq bu ərazilərdəki subir əhalisinin azalmasına səbəb olmuşdur. M.ö. 2000-ci ilin başlarında doğudan batıya doğru hurri əhalisinin köçü baş vermişdir.

A.Unqnad Kiçik Asiyada tarixi proseslərin gedişi və xalqlar arasındakı münasibətləri şərh edərək yazır: "Bizim bildiyimizə görə Hurrilər önasiya-subir irqinə mənsub xalqların bir siyasi birliyi idi və yalnız arilərdən ibarət hakim təbəqənin idarəsi altında idilər. Hurrilər adı ilə tanıdığımız və tarixi Subir ərazilərində rast gəldiyimiz çoxsaylı şəxs adları hurri adları kimi deyil, subir adları kimi qəbul olunmalıdırlar. Batıdan luvilərin və hititlərin timsalında, doğudan mitannilərin timsalında gələn hind-avropa işğalçıları Babilin Subartu üzərində siyasi təsirinin aradan qalxmasına səbəb oldu. Tarixdə yeni siyasi adlar peyda oldu və böyük bir ərazini əhatə edən Subartu adı yalnız kiçik bir ərazi ilə məhdudlaşdı. Jensen Amarn mətnlərinə əsaslanaraq subirlərin dilini Mitanni dili kimi təqdim edir, lakin bu o qədər də uğurlu müqayisə deyil. Mitanni ölkədə hökm sürən hind-avropa mənşəli bir yabançı sülalədən qaynaqlanan siyasi ad idi. Naram-Sin dövründə hurrilərə qədərki qədim Subartu ərazilərindəki adlar Babillilər tərəfindən subar dilinə aid edilirdi. Lakin Mitanni kralı Tuşratanın məktubunda həmin adlar yanlış olaraq mitanni adları kimi təqdim olunur və Boğazköy mətnlərində siyasi səbəblər üzündən bu dil hurri dili adlandırılır. Babil dönəmində də hurrilərə qədərki subir tanrıları kimi tanınan tanrılar hurri tanrıları kimi təqdim olunurlar". (Ungnad A. 1936, Səh. 198)

Subar xalqının mərkəzi böyük ehtimalla Habur çayı mənsəbindəki Tell Halafda yerləşirdi və burda aşkar edilən rəngli keramik mədəniyyəti də subarlara məxsus idi. Subartu tanrıları eyni zamanda hurri tanrıları idilər və hurrilərə qədərki dövr subartu əyalətlərində etiqad olunan bu tanrıları Babillilər də subar tanrıları kimi təqdim edirlər. Bu tanrılara etiqad edilən ərazi 2-ci minillikdə bizə Suriyadan Xappadokiyaya qədər uzanan geniş subar əraziləri olduğunu göstərir. Geniş əhatəli Subar mədəniyyəti hurrilərin adına yazılmışdır. Hitit dövlətinə mənsub olanların böyük əksəriyyəti istər ərazi, istər dil mənsubiyyəti və istərsə də dini etiqad baxımından subarlılar idilər. Bu insanların hititli olması yalnız onların Hitit dövləti təbəələri olması ilə müəyyən olunurdu.

Arxeoloji qazıntılar zamanı Oppenhaym tərəfindən Tell Halaf və Cebelet əl Bedada aşkar edilən insan tiplərinin hititlərlə heç bir əlaqəsi yoxdur. Hitit dövləti ərazisindəki yanlışlıqla hititlər kimi qələmə verilən xalq bu ərazidə mövcud olan köklü subar əhalisidir və Hititli deyimi əslində bir siyasi anlayışdır. Xett imperiyası dövründə də onun subar ərazilərindən ibarət olan hissəsindəki xalqın bu dövlətə önəmli təsiri vardı, belə ki, bu ölkənin kralı III Hattuşil mənəvi cəhətdən bir "subar xetti" idi. (Ungnad A. 1936, Səh. 200)

Sumer və Elamlılarla yanaşı Babildə qədim zamanlardan məskunlaşmış dörd xalqdan ikisi Amurru və Subartudur. Amurru Babilin şərqində Aralıq dənizinə qədərki əraziləri əhatə edirdi, Subartu Fəratın doğusunda Zaqross dağlarına qədər, quzeydə Urartuya qədər olan ərazini əhatə edirdi. Babilin bütün quzeyini və quzey-batı ərazisini əhatə edən, Sumer və Akkadların Subir adlandırdıqları Subartular bu regionun tarixində mühüm rol oynamışlar. Subir dil ailəsinə mənsub olan dillərdən biri də hurri dilidir. Hurrilər Suriyanın batısında, Fələstində və güneydə Ölü dənizə qədər olan ərazidə məskunlaşmışdılar. (Ungnad A. 1923, Səh. 7)

E.Forrer Lullubi ölkəsinin Quzey sərhədlərinin Xəzər dənizinə qədər uzandığını qeyd etmişdir. Unqnad subarlarda Navar-ari, Kisa-ari adlarındakı "Ari" sözünün subar dilində çoxmənalı söz olub, bir mənasının da "vermək" olduğunu, "Navarın verdiyi", "Kisin verdiyi" anlamı daşıdığını yazır və "ari" sözünün "ölkə", "məskən" kimi izah edir. Qədim mixi mətnlərinə əsaslanan Unqnad Assuriya dövlətinin mərkəzi şəhəri Aşşurun və ya əsgi adı ilə Aturun Subar ölkəsində yerləşdiyi və subir mənşəli olduğunu yazır. (Ungnad A. 1936, Səh. 146)

Unqnadın subar dilində "ari" sözünə verdiyi izah bu sözün türk dilində torpaq, yer, ölkə anlamındakı "yer, eri/eriq" sözünə uyğundur.

Mesopotamiyanın ən qədim əhalisinin kimliyi haqqında iki mühüm əsər mövcuddur. Spayserin "Mesopotamiyanın mənşəyi" və Unqnadın "Subartu" əsərləri. Spayser Mesopotamiyanın ən qədim əhalisini hurrilər, Unqnad isə Subirlər adlandırır.

İngilis assuroloqu Sidney Smit 1928-ci ildə yazdığı "Assuriyanın qədim tarixi" adlı əsərində Subartu ilə də əlaqədar dəyərli bilgilər verir. Onun yazdığına görə "Aşşurbanipalın astroloji mətnlərində Assuriyanın şimal şərqi Subartu adlanır. Yeni Babil səlnamələrində də bu ölkənin adı Subartu kimi qeyd olunmuşdur. Tuşratada aşkar edilən yazıların dili subarcadır və Kərkükdə tapılan sənədlərdəki adlar subar adlarıdır. Sumer dövründə Dəclənin şərqində məskunlaşmış olduqları dəqiq müəyyən olan xalq Elam xalqı idi, ondan quzeydə isə quti və lullubilər məskunlaşmışdılar. Çox mümkündür ki, bu xalqların dilləri mənşə baxımından bir-birinə bağlı olmuşlar. Sənədlərdə çox zaman Qutium və Subartu adları birləşdi-

rilmişdir. Qutilər və subarlar fiziki tip olaraq eyni şəkildə sifətlərinin xarakterik rəngi ağ olaraq qeyd olunur. Beləliklə, subarlar həm dil, həm də xarici görünüş baxımından Zaqros dağlarındakı əhali ilə əlaqədardırlar. Onlar Sumerin qara saçlı əhalisindən fərqlənirlər. (Smith S. 1928, Səh. 70, 72)

Subar əhalisi m.ö. II minillikdə İkiçayarasından Zaqros dağlarına yayılmışdılar. Assur və Babil mətnlərindən də göründüyü kimi subarlar Assuriya ölkəsinin əsas əhalisini təşkil edirdilər və Akkad sülaləsi dövründə Assuriyanın şimal və şərq əraziləri Subartu adlanırdı. E.q. III minilliyin axırlarında Subarların Namar krallığı Arizen bölgəsini də idarə edirdi. Tarixi dəlillər Assuriya əhalisinin ilkin sumer dönəmində subarlar olduğunu sübut etdiyi kimi, Arxeoloji dəlillər də, subar mədəniyyətinin Sumer mədəniyyəti xarakteri daşıdığını və bu iki xalq arasında uyumun mövcud olduğunu sübut edir. (Smith S. 1928, Səh. 73)

Assuriyada əhalinin əsas tərkibini təşkil edən subarlar şimaldakı Arbela düzənliyində və Dəclə çayı vadisi boyunca Zabın aşağı axarına qədərki ərazidə məskunlaşmışdılar. Assuriya ölkəsi isə bir tayfanın hakimiyyəti altında olub Kərkükin cənub şərqindən qərbdəki Sincar dağlarına doğru uzanan ərazini əhatə edirdi. Subarlar sumerlərlə hər zaman konflikdə olmaqla yanaşı, sumer mədəniyyəti ilə daimi kontakt şəraitində idi. (Smith S. 1928, Səh. 102)

Aviqdor Spayser və Benno Landsberqer kimi Qədim Şərq tarixinin böyük alimləri də Subar və Hurrilərin eyni xalq olduqları fikrini müdafiə edirdilər. Qədim akkadlar da hurriləri subar adlandırırdılar. Subirlər məskunlaşdıqları yerlərdə bir çox şəhər bəylik dövlətləri yaratmışdılar. Bu bəyliklərin ən önəmliləri Sinar tabletlərində adı keçən Fərat çayı üzərindəki Mari və Habur çayının Fəratla birləşdiyi yerdəki Hana bəyliyi idi.

B.Landsberqer də bir çox müəlliflərin ciddi-cəhdlə hind-avropalı kimi qələmə verdikləri Mitanni əhalisini subarlar hesab edir. Onun fikrinə görə "Sonradan Mittani adlanan dil əslində bir subar dilidir. Mittani adlanan ərazi qədim dövrlərdə Babil və Assur mətnlərində Subartu adlanırdı. Assuriya əhalisi subar və akkad xalqlarının qarışımından ibarətdir. Subartu Assuriyanın şərqində yerləşirdi. Ərbildə, Samarrada, Kərkükdə subarlar məskunlaşmışdılar. Hammurapi Turukku, Kakmum və Subarum dağlarına etdiyi səfərdən bəhs edir. Assuriyanın qədim kralları da Subarları geniş dağ ərazilərində Qutinin, Lullubinin və Kassinin yanaşı yaşadıqlarını qeyd edirlər. Subartunun doğu sərhədləri Urmiyə gölünə qədər uzanırdı". (Landsberger B. 1924, Səh. 229, 232)

Alman assuroloqu Köniq Amadai, Matai və Madai adlı xalqın subar xalqı ilə möhkəm şəkildə qarışmış olduğunu qeyd edir. Zaqrosun hind-avropa dillərinə qədərki dillərində "t" və "d" yerdəyişimi xarakterik əlamət təşkil edir və bu xalqın adının müxtəlif şəkildə ifadə olunmasına səbəb olduğunu yazır. (König F.W. 1934, Səh. 8)



Subartu/subirlər haqqında yazılan ən mühüm əsərlərdən biri də Amerikalı alim İ.Qelbin 1944-cü ildə yazdığı "Hurrilər və subarlar" əsəridir.

Unqnad və Landsberqerdən fərqli olaraq İ.Qelbin fikrinə görə hurrilər və subarlar tamamilə fərqli xalqlardır. Alman assuroloqu F.Deliç subartunun yerləşdiyi ərazinin Suriyanı da əhatə etdiyini yazmışdır. Spayser hesab edirdi ki, assurlara aid edilən Uşpia və Kikiyanın əsasını subirlər qoymuşlar. Spayzer Mesopotamiyanın ən qədim əhalisinin subirlər və ya hurrilər olduğu haqqındakı fikirlərinin əleyhinə çıxaraq qeyd edir ki, hurrilərin Mesopotamiyada ən qədim izləri m.ö. 3000-ci illərə aiddir. (İ.Gelb, 1944, Səh. 6)

G.Fridrix subarların və hurrilərin eyni kökdən olduqları və eyni dildə danışdıqlarını bildirərək alman və Deutç eyni olduğu kimi hurri və subirlərin də eyni etnik kökə malik olduqlarını qeyd edir. (İ.Gelb, 1944, Səh. 14)

Subartu adının ən qədim loqotipi Şuburdur. Şubur adının mənasına gəldikdə isə Sumercə "qaşan şubur-ra" iki dilli Sumer-akkad dini mətnlərində bu söz akkad dilindəki "ber irşi tum" sözünə uyğundur və tərcüməsi "Yer üzünün ağası" mənasındadır. Akkad dilindəki Er/Eri eş tanri adı "erreşum" sözündən ibarət olub mənası əkinçi deməkdir və sumerlərin "denqer" adının ekvivalentidir. Bu o deməkdir ki, denqerin ağası olduğu Subur yer altı dünyanı deyil, becərilən yerüstü dünyanı əhatə edir. Subur və ya sumercə ifadə olunduğu kimi subar/subir loqoqramı akkad dilində qul mənasındakı "ar-du" sözünə uyğundur. Nəhayət, Qiş-Şubur sözü qədim mətnlərdə konkret bir ağac növünü müəyyən etmək üçün işlədilir. (İ.Gelb, 1944, Səh. 23)

Ki Subar və ya İna Subari sözləri Subar ölkəsində mənası daşıyır. Çox zaman Subartunun qısaldılmış forması kimi Su sözündən də istifadə olunur. (İ.Gelb, 1944, Səh. 28)

Assuriya mətnlərində ölkənin adı Mat Subarı, yəni Subari ölkəsi şəklində yazılır. Boğazköydə aşkar edilən mətnlərdə Şarri Subriu-Subir krallığı yazılmışdır.

Babil tarixi mətnlərində Assuriya ərazisi Subir adı ilə, assurlular isə subarium, yəni subarlar kimi ifadə olunmuşdur. Assurlar isə Subartunu həmişə döyüşdükləri yad ölkə yabançı xalq adlandırırdılar.

Bu onu göstərir ki, assurlulardan öncə Subir adlanan ölkənin yerli sakinləri olan subirlər yabançıların işğalı ilə barışmamış və assurlara qarşı uzun illər ərzində müqavimət göstərmişlər.

Unqnad öncə hurriləri Yaxın şərq əhalisinin başlıca substratı hesab edirdi, sonra o bu adı subarlarla əvəz etdi. Spayzer elamları Babilin ilk sakinləri, hurriləri isə İkiçayarasının quzeyinin ilk əhalisi hesab edirdi. (İ.Gelb, 1944, Səh. 45, 52)

Babil mətnlərində Subartu Elam və Quti ilə yanaşı siyasi bir vahid kimi qeyd olunur. Subartu Babilin quzeyində Dəclə sahillərindən başlayaraq Zaqros dağlarına qədərki əraziləri əhatə edir. Ölkənin quzey sərhədləri məlum deyil, güney

sərhədləri isə Diyala çayının şimalını əhatə edir. Subartunun şəhərləri əkin üçün əlverişli Dəclənin şərq ərazilərində yerləşirdi. (İ.Gelb, 1944, Səh. 85)

İ.Qelb Subir və Elam rasındakı əlaqəyə daha da aydınlıq gətirərək yazır: "Yeni assur dilində Subartu sumer mixi işarəsi ilə "su-qir", Elam isə "sa-qir" ideoqramları ilə ifadə olunmuşlar. Bu iki ölkə arasında yaxın əlaqə qədim mətnlərdə də əks olunmuşdur. Qədim mətnlərin coğrafi siyahısında Subartu ölkəsi Anşanı da əhatə edir. Bu mətnlərdə birgə Subar və Anşan krallığından bəhs olunur, astroloji əlamətlərdə də bu iki ölkə yanaşı qeyd edilir. (İ.Gelb, 1944, Səh. 86)

Qerb Doğu Asiyanın qədim toponimikasına həsr etdiyi məqalədə subarlara məxsus Aqbani dövlətinin adını qeyd edir. (İ.Gelb, 1938, Vol. 55)

Spayserin fikrinə görə Mesopotamiya substrat əhalisi subirlər də daxil olmaqla əsas etibarı ilə asiatik və ya yafetik tərkibdən ibarət idilər. Onlardan sonra samilər Mesopotamiyaya daxil oldular və ən nəhayət e.q. 2000-ci ildə isə subirlər kimi asiatik və ya yafetik olan hurrilər gəldilər. Hurrilərin yerləşmiş olduqları ərazi sumer mətnlərində Subir adlanır. Mesopotamiyanın şimalı və qonşu ərazilər mixi mətnlərdə Elam, Quti, Subir, Ammarru (Mar-tu) və Sutium kimi adlarla adlanırlar. Bu ölkələr erkən Sumer tərəfindən siyasi birliklər şəklində qruplaşdırılmışdılar. (Mürtder F., 1891, Səh. 124)

Alman assuroloqları Hommel və Mürtder də Sutu ölkəsi haqqında bəhs edirlər. Adın kökünü Su kəliməsinin təşkil etdiyini, "tu" sonluğunun isə yer anlamı daşıdığını yazır. Su ölkəsi Subarların bir hissəsi idi. Lakin bəzi müəlliflər Sutiləri, yəni Su-tu xalqını inadcılıqla heç bir arxeoloji və linqvistik dəlil gətirmədən sami amorrilərə aid edirlər. Ancaq görkəmli assuroloqların gətirdiyi dəlillər bu xalqın samilərə heç bir aidiyyətinin olmadığı və onların Subir etnosunun tərkibinə aid olduğunu göstərir.

Akkad sülaləsinin hakimiyyəti dövründə Subartu Mesopotamiya bütün quzey ərazisinə şamil edilirdi. Həmin dövrdə Subartu Qutini və hətta Lullubinin bir hissəsini əhatə edirdi. Subir adının necə yarandığını biz indi müəyyən edə bilmirik, yəqin ki, bu ad Elamın namir adı kimi sumerlər tərəfindən müəyyən edilmişdir. (Mürtder F, 1891, Səh. 126)

Subir ərazisi davamlı olaraq Assuriyalıların hücumlarına məruz qalırdı. E.q. 1360-cı ildə Assur kralı Belnirari Subar ölkəsinin yarısını işğal etdi. (Mürtder F. 1891, Səh. 145)

Assuriya Subartunu tabe etmək üçün uzun illər ərzində ora hərbi yürüşlər təşkil edərək mübarizə aparmışdır. I Tiqlatpalasar (e.q. 1114-1076) itaət etməyən Subartuya qarşı böyük hərbi yürüşü zəfərlə başlatdığı zaman Xatti ölkəsinin 4 min Kaşka və Urumu qoşunu tərəfindən ələ keçirilmiş bu ölkənin barışçı bir şəkildə ona tabe olduğunu bildirir. II Assurbanipal tabe etdiyi ölkələrin sırasında Subartunun da adını çəkir. Babil mətnlərində Assuriya Subartu, əhalisi isə subar adlanırlır.

Gec dövrlərdəki Assur mətnlərində Subartu Şubriya şəklində ifadə olunur. Şubriya indiki Muş şəhərindən cənub əraziləri və Vanın şərq ərazilərini də əhatə edirdi. (Trevor Bryce, 2009)

Artur Unqnad Midiyalıların subar dilində danışdığını yazır. Ümumiyyətlə, Əhəmənilərin bütün kitabələrində Assur adı bu ərazinin daha qədim adı olan Atur şəklində ifadə olunur. Subarlar uzun illər ərzində öz dövlətlərinin mövcudluğunu qoruyub saxlamışlar.

E.q. I minillikdə bölgənin iki güclü dövləti olan Assur və Urartu arasında Subar və ya assur mənbələrində Subriya adlanan ölkə bir tampon dövlət mövqeyinə malik idi. Böyük ehtiyac hiss etdiyi xam maddə mənbələrini ələ keçirmək üçün quzey və doğu ölkələrinə hərbi yürüşlər təşkil edən Assur krallarının yolu Dəclə çayı ətrafında yerləşən Subar ölkəsi üzərindən keçirdi. E.q. X yüzillikdə Assur kralı II Tukilti Ninurta yazırdı: "Subria ölkəsindən Nairi ölkələrinə qədər uzanan yüksək dağlarla əhatə olunmuş bölgəni ələ keçirdim və orda ələ keçirdiyim qənimətləri Assura apardım". Subiria həm quzey yolu üzərindəki strateji ərazi kimi, həm də zəngin təbii ehtiyatlara malik ölkə kimi Assuriya üçün böyük önəm daşıyırdı. Assur kralları ölkələri üçün lazım olan ağac və mədən məhsullarını burdan əldə edirdilər. Subar kralı biri güneydə, digəri qüzeydə olan Assuriya və Urartu dövlətləri ilə münasibətdə tarazlı bir siyasət yürütməyə cəhd edirdilər. (Buket Beşikçi, Muhammet Akdoğan, 2018, Səh. 140)

E.q. 609-cu ildə Babil çarı Nabupalassar Midiya ilə birlikdə Assuriyanı işğal etməsi şərəfinə yazdırdığı mixi lövhədə Assuriya adı çəkilmir və onun yerinə ölkə öz qədim Subar adı ilə qeyd olunur. Bəzi müəlliflər qədimdə İkiçayarasının bütövlükdə Subir və ya Subartu adlandırıldığını qeyd edirlər. Nabupalassar Assuriyanı tam işğal etdikdən sonra qurduğu yeni dövlətin ərazisindən subirləri qovmuşdur. Nabupalasar yazır ki, mən subirləri öldürdüm və bu düşmən ölkəsini zibilliyə və xarabalığa çevirdim. (Streck M. 1916, Səh. 421, 422)

Assur zülmünə davam gətirə bilməyərək Assuriyadan və Urartudan qaçan çoxsaylı insanlar dağlıq və meşəlik ölkə olan Subirə sığınırdılar. Lakin Nabupalassarın lovğalıqla iddiasına rəğmən tarixi mənbələr Subir dövlətinin məhv olmadığını və öz varlığını uzun illər ərzində qoruyub saxladığını qeyd edirlər.

Əhəməni şahi II Kambizin (e.q. 530-522) dövründə Subar dövləti mövcud idi və o öz kitabəsində ələ keçirdiyi Subarlı əsirlər haqqında bəhs edir.

Assuriya dövlətinin qonşu ölkələrə qarşı apardığı amansız işğalçılıq siyasəti, qonşu dövlətlər arasında davam edən dağıdıcı savaşlar regionun bir çox xalqların öz yurdlarını tərk edib daha təhlükəsiz ərazilərdə məskunlaşmalarına səbəb olmuşdur.

Subir və Suların eyni xalq olduğu və ya eyni etnosa mənsub iki qoldan ibarət

olduqları haqqında iki fərqli fikir mövcuddur. Tarixin sonrakı dövründə sabir/savirlər və su xalqı iki müxtəlif boy kimi tarix səhnəsinə qədəm qoyaraq türklərin tarixində önəmli rol oynayan etnoslara çevrildilər.

Yüz illər boyunca bu savaşlardan ən çox zərər görən etnoslardan biri olan sabir/subarların böyük hissəsi öz yurdlarını tərk edərək müxtəlif istiqamətlərdə köçlərə məruz qalmışlar. Onların bir hissəsi Azərbaycana gələrək burda məskunlaşmış, digər hissəsi Volqa və Ural çayları hövzəsinə köç etməyə məcbur olmuşlar. Mənbələr eramızın II əsrində subar/sabir boylarının savir adıyla Xəzər dənizinin şimalında yaşadıqları haqqında məlumat verirlər. Savirlər bulqar boy birliyinin tərkibinə daxil olaraq bölgənin ictimai-siyasi həyatında fəal iştirak etmişlər. Hun konfederasiyasına daxil olan savirlər sonradan Volqa Bulqar dövlətinin əsas aparıcı etnoslarından biri olmuş, tatar və çuvaş xalqlarının etnogenezində mühüm rol oynamışlar. Sibir adı da savir/subir adından yaranmışdır.

Sumer etnosunun kökünü təşkil edən Su xalqı isə Subirlərdən fərqli olaraq Mərkəzi Asiyada, Türkistanda, Çin sərhədləri yaxınlığında Çu və ya Su adı altına yaratdıqları qüdrətli dövlət Çin səlnamələrində öz əksini tapmışdır. Makedoniyalı İsgəndərin Hindistana yürüşü zamanı Türkistanda Su xaqanlığı ilə savaşı haqqında qaynaqlarda bilgilər mövcuddur. Sumerlərin hökmran sülalə boyunu təşkil edən Kəngərlər e.q. IV yüzillikdə Türkistanda qədim Çin mənbələrində adları Kanqyu/Kanqa şəklində keçən dövlət yaratmışlar.

Ş.Günaltay subir/subar sözünün "çay arası" mənası ifadə etdiyini yazır. Sözün birinci hissəsi olan Sub qədim türkcədə "su" demək olduğu kimi aru da "ara" deməkdir. (Ş.Günaltay. Yakın Şark II, Nihat Çetinkaya, 1996, Səh. 4)

"Azərbaycan tarixi" əsərində Subir/Subar adlarının türk mənşəli olduğu və etnonimin başındakı sub/suv sözünün qədim türk dillərində "su, çay" mənasında işləndiyi, sondakı ir/ar isə "ər, kişi" mənası daşıdığı yazılmışdır. Ola bilsin ki, qədim zamanlarda su və çay kənarlarında yaşayan türk tayfaları əraziyə uyğun olaraq belə adlanırdılar. (Azərbaycan tarixi, 1994, səh. 80)

Assuriya dövlətinin qonşu ölkələrə qarşı apardığı amansız işğalçılıq siyasəti bir çox xalqların öz yurdlarını tərk edib daha təhlükəsiz ərazilərdə məskunlaşmalarına səbəb olmuşdur. Bu işğallara ardıcıl şəkildə məruz qalan Subir etnosunun müəyyən hissəsi müxtəlif ərazilərə köçlərə məcbur olmuşlar. Subir/Subarların bir qolu da İtaliyanın güneyinə Kalabriyaya köçərək orda öz dövlətlərini qurmuşlar. Subari adlanan bu dövləti e.q. 721-ci ildə Kalabrianın şərq sahillərində qurulmuşdu. İtaliya Subarlarının mənşəyi haqqında fərqli fikirlər mövcuddur. Onları dəniz xalqlarından olan axeylər hesab edirlər. Digər bir fərziyyəyə görə onlar hattilərin ahiyya adlanan bir tayfası idilər və yunanlılara aid deyildilər, qədim Miken mədəniyyətinə mənsub idilər. Lakin bütün fərziyyələrdə Subarilərin şərqdən – Kiçik Asiyadan gəldikləri yəqin idi.



Zəngin və təmtəraqlı həyat sürməyi sevən Subarislilərin israfçılığı öz dövrlərində bir zərb-məsələ çevrilmişdir. Sibaris çox varlı bir ticarət mərkəzi idi və e.q. 510-cu ilə qədər "Sy" hərflərinin və hər iki tərəfində "Çay tanrısı" simvolu olaraq öküz təsvirlərinin həkk olunduğu öz pul vahidi olan sikkələrini buraxırdı. Məlum olduğu kimi öküz obrazında təsvir olunan Tur qədim turani xalqların eponimi idi. Strabonun da yazdığı kimi Subaris şəhər dövləti 25 şəhər polisini və dörd yerli tayfanı öz hakimiyyəti altında birləşdirən kiçik bir imperiya təşkil edirdi.

İtaliyadakı bu Subar dövlətinin gerbi öküzbaşlı tanrı idi və bu subar sikkələrində də əks olunmuşdur. Öküz kultu Ön Asiya subarlarının və onların bir qolu hesab edilən xettlərdə böyük önəm daşıyırdı. Dənizdən dənizə gəzən subarilər dənizdə və sahillərdə uzun zaman ağalıq etmişlər. Onlar Miletin ən güclü dövlətinə çevrilmişlər. Subar ərazisində qazıntılar zamanı aşkar edilən artefaktlarda Subarilərin baş şəhəri Turia adlandığı məlum olmuşdur. Subarisin əzəməti və şəhər əhalisinin dəbdəbəli həyatı və hədsiz israfçılığı ətraf şəhərlərin və xüsusən də onun rəqibi, əhalisinin əsl yunanlılardan ibarət olan Kraton şəhərinin qısqanclığına səbəb olurdu. İki şəhər arasında e.q. 510-cu ildə baş verən döyüşdə Kratonlular Krati çayının istiqamətini dəyişərək onu Subarisə doğru yönəltdilər, iki çayın axınına qapılan şəhər suların altında qərq oldu. Kretonlar oranı dağıtdıqdan sonra subarilər Turia adı ilə yeni bir şəhər saldılar. (Max Kleinschmit, 1894, Səh. 2)

Qədim müəlliflər Herodot, Diodor və Strabon e.q. VIII əsrdən başlayaraq İtaliyanın cənubunda Subar (Subaris) adlı şəhərin tarixi haqqında geniş bilgilər verirlər. Herodotun Tarix əsərində İtaliyanın cənubunda Subaris (Subar) şəhəri haqqında bəhs olunur və bu şəhərin qonşu Kraton şəhəri və ona yardım edən Sparta çarı Dorieus tərəfindən məhv edildiyi yazılmışdır. (Herodot, 2012, V, 44-46)

Tarixi mənbələr şəhərin əsasının e.q. 720-ci ildə yunanlı axeylər tərəfindən qoyulduğu göstərilir və bu adın Axeyada bir bulağın adından götürüldüyü fərz olunur. Strabon Sibarisin əsasının Axeyin Qelika şəhərindən olan İs tərəfindən qoyulduğunu yazır. Sibaris Krati və Sibari çaylarının arasında yerləşirdi. Subar-Sibar adının su və çayla əlaqədar olduğu bir çox müəlliflər tərəfindən təsdiq olunmaqdadır.

Qədim müəlliflər Subarisin 300 min əsgər çıxara bildiyini yazırlar. Strabonun yazdığına görə Axeyli Miskel tanrının istəyi ilə yeni şəhərin əsasını qoymaq üçün göndərildiyi zaman Sibarinin artıq mövcud olduğunu görmüşdür. (Страбон, 1994, VI, I, 12)

Klassik müəlliflərin bəhs etdikləri İtaliyanın cənubundakı subarları turan mənşəli pelasqlar adlandırsalar da, yəqin ki, onlar nə zamansa Ön Asiyadan köçüb orda yerləşən subar adlı ön türklərin bir qolu olmuşlar.

Z.V.Toqan Ön Asiyada çox qədimlərdən mövcud olan Subar və Subari etnonimlərinin əslində sub-er və sub-eri şəklində olduğunu və bu adın sü-er (Sumer-

ləri nəzərdə tutaraq) şəklində də deyilə biləcəyini mümkün hesab edir. Subarların Hindistana köçərək hindlilərə qarışanlar "Subar oğulları" şəklində adlandırırlar. Subarların Hindistandakı qalıqları Munda qəbiləsinin dağınıq oymağı şəklində Madras və Kalkutta arasında yaşamaqdadırlar.

Alman iranşünas tarixçisi Şvarts islam dönəmində belə Subar ölkəsinin öz varlığını qoruya bildiyini yazır. Ərəb coğrafiyaçısı İstəxri İranda Sabur adlı çiçəklənən, sevimli, abad ölkə haqqında bəhs edir. Sabur öz geniş, müxtəlif meyvələrlə zəngin bağları ilə məhşurdur. Sabur ölkəsi və ya vilayəti dağların yaxınlığında (Zaqros) yerləşir. Vilayətin ən böyük şəhəri Nübendeqandır. Sabur şəhərinin əsası onun kralı tərəfindən qoyulmuşdur. Burda müqəddəs Atəş məbədi yerləşir. Saburdan bir xeyli aralıda dağlıq ərazidə Bala Sabur yerləşirdi. Saburun əsas şəhərləri Kazerun, Nübendeqan və Qurre şəhərləridir. Sabur Zaqros dağlarının şərqində Elamla bitişik ərazidə indiki Luristan vilayətində Kuhquliyədə yerləşirdi. Saburu Sasani Şapurun adı ilə əlaqələndirsələr də, onun tarixi Subar və Subartu ilə əlaqədardır. (Schwarz P. 1932, Səh. 30-33)

Saburun yerləşdiyi ərazidə bu gün də türk boyları məskunlaşmaqda davam edir.

## Su ölkəsi və Ön Türk Su xalqı

Su boyu Ön Türklərin ən qədim etnoslarından biridir. Bir çox müəlliflər, o cümlədən Z.V.Togan, R.O.Türkkan, Ə.Elçibəy Su xalqını Türk adı daşıyan etnosla birlikdə Ön Türklərin ikinci bir qolunu təşkil etdikləri fikrini irəli sürürlər.

"İlk doğulduqları yer Türkmənistan və Xarəzm-Mavəraünnəhr ərazilərini əhatə edən Turan ovalığı olan Ön Türklərin bir hissəsi S hərfi ilə başlayan Suvar, Subir, Sumer, Sabir, Sibir, Çu, Çou, Şou kimi müxtəlif adlarla məlum olmuşlar. Bu adların kökünün Su kəliməsindən ibarət olduğu və qeyd olunan adların eyni Su xalqına məxsus adın dəyişik fonetik şəkillləri olduğu təkzib olunmaz gerçəklikdir". (Reha Oğuz Türkkan. Türkler cild 1, Ankara, 2002, Səh. 595)

Kökünü qədim Ön Türklərin bir qolu olan Su boyunun təşkil etdiyi xalqın yayıldığı areal Mesopotamiyadan Çinə və Aralıq dənizindən Qara dənizə qədər olan geniş bir ərazini əhatə etməsi Türk tarixində onların nə qədər önəmli bir yerə malik olduqlarını göstərir.

Reha Oğuz Türkkanın qeyd etdiyinə görə Su türklərinin adlarından da göründüyü kimi onların məskunlaşdıqları ərazi, İlk Türklərin doğulduqları və yerləşdikləri dağlıq və düzənlik ərazilərdən fərqli olaraq hər zaman böyük suların sahillərində, ətrafında və suarası ərazilərdən ibarət olmuşdur. Ön Türklərin Su etnosunun məskunlaşdıqları ən qədim ərazilər Dəclə, Fərat, Habur, Zab çaylarının sahilləri, Urmiyə gölünün ətrafı, Xəzər dənizi, Balxaş və Aral göllərinin ətrafı, Amudərya və Sırdərya çaylarının vadiləri və Qara dənizin şimalı sahilləri və ordakı çayların sahilləri idi.



Ön Türk Su etnosunun bir qolu daha qərbə doğru hərəkət edərək Baltik sahillərində, Alp dağlarının ətəklərində yerləşərək german, kelt və digər Avropa xalqlarının etnik kökünü təşkil edən önəmli boylardan biri olan Suevlər idi. Müasir tarix elmi suev tayfasını isveç xalqının etnik kökünü təşkil edən etnik qrup adlandırır. Tasit, Jordan və Bremenli Adam bu tayfanın adını sueb, suev və svear şəklində qeyd edirlər. Bu eyni suev/sueb adının müxtəlif şəkildə ifadəsindən ibarətdir. İsveç (Svealand) adı bu tayfanın adından götürülmüşdür.

Ön Türklərin Su etnosu daha şimal ərazilərə doğru yayılaraq ümumi turanlı kökə malik olduqları Fin xalqının da etnik kökünü təşkilində önəmli rol oynamış və öz adını Su-omi şəklində bu xalqa vermişdir.

Mixi yazılı mənbələrində Sutu adlı xalqdan bəhs olunur. Sözün kökünü Su etnonimi təşkil edir, *tu* sonluğu isə sami dilinə xas mənsubiyyət şəkilçisidir. Köçəri tayfalar konfederasion dövlətinin əhalisini təşkil edən Su xalqı Fərat çayının orta axarının qərbində və həmçinin Zaqros dağlarının yaylalarında məskunlaşmışdılar. Köçəri döyüşkən xalq olan Sular geniş bir ərazidə fəaliyyət göstərək hətta Suriya və Fələstin ərazisində, Nil çayının deltası tərəflərdə yaşayan xalqlara təhlükə yaradır, ərazidə basqınlar törədirdilər. Su xalqının adı Assuriya kralı I Aşşur-uballitin Amarna məktublarında Assuriya və Suriya arasında ərazi üçün yaratdıqları təhlükə ilə əlaqədar da qeyd olunur. Bir neçə yüz il Babil də Sutu tayfalarının davamlı basqınlarına məruz qalırdı. Babil kralı Nabu-aplaiddin (m.ö. 888-855) sutuları öz ərazilərindən qovduğunu bildirmişdir. Babilin sonrakı çarları dövründə sutuların adı artıq çəkilmir, yalnız həmin ərazilərdəki arameylərin adı çəkilir. (Trevor Bryce. 2009, Səh. 679)

Kramer sumerlərin sonuncu hakimiyyət sülaləsi olan III Ur sülaləsi (e.q. 2212-2004) dövrünə aid mətnlərdə Sutu ölkəsinin adının *Lu SU ki* loqoqramı ilə ifadə olunduğunu və mənasının Su xalqının ölkəsi anlamı daşıdığını yazır. III Ur sülaləsinin hökmdarı Şu-Sin Su ölkəsini və Simaşkini tabe etmək üçün onlara qarşı hərbi yürüş təşkil etmişdi. Görkəmli assuroloqlar Torkhild Jakobsen Su xalqının Zaqrosun dağlı köçəri xalqı olduqlarını, İ.Qelb isə suların subirlər olduğunu fikrini müdafiə edirlər. (I.Gelb. Hurrians and Subarians. Chicago, 1944, Səh. 24-27)

İ.Dyakonov və digər müəlliflər heç bir inandırıcı dəlil göstərmədən Su xalqını sami mənşəli olduqları fikrini irəli sürürlər və Su etnonimini Tövratdakı Şet/Set adı ilə eyniləşdirirlər. İ.Qelbin Su xalqının subirlərlə eyni olduqları fikri daha inandırıcıdır. Su xalqının yaşadığı geniş ərazilər sonrakı dövrlərdə sami amorilər tərəfindən işğal edilmişdir.

Pyotr Ştaynkellerin izahına görə sumercə Lu SU loqoqramı akkad dilində *Şumaşkim* şəklində ifadə olunur və Şumaşki ilə Suların eyni xalq olduğu fikrini irəli sürür. (Piotr Steinkeller. On the Identity of the Toponym LU. Su: Journal oft he

American Oriental Society 108/2, 1988)

Göründüyü kimi əsl adları Sumaşki olan Simaşki Zaqros dağlarının aşağı ətəklərində Elamın arxasında indiki Fars əyalətində İsfahan yaxınlığında yerləşirdi. Simaşki sülaləsi e.q. 2030-1890-cı illər arasında Susda hakimiyyətə yiyələnərək Elamda hakimiyyət sülaləsinin əsasını qoymuşdular. Şimaşki sülaləsini hakimiyyətdə onlara qohum tayfalar olan Sukkalmah xanədanı əvəz etmişdir. Elam Şimaşkilərin və Sukkalmahların hakimiyyəti dövründə Asiyanın batısında ən güclü bir dövlətə çevrilmişdi. Onların hakimiyyəti dövründə Elamın öz ərazilərini daha da genişləndirilməsi cəhdlərinin qarşısı Babildə Hammurapinin hakimiyyəti tərəfindən alındı.

Mixi yazı mətnlərində Fərat çayının ətraflarında Hit və Rapik bölgəsində köçəri Sutu tayfasının yaşadıqları haqqında məlumatlar vardır. Dəclənin doğusunda dağlıq ərazidə məskunlaşmış Quti, Turukku və Kakmu xalqları İkiçayarasının vadisində yaşayan əhali üçün böyük təhlükə təşkil edirdilər. (Dossin G. 1938, Səh. 116)

Alman assuroloqları Hommel və Mürtder də Sutu ölkəsi haqqında bəhs edirlər. Adın kökünü Su kəliməsi təşkil edir, "tu" isə yer anlamı daşıyır. Su ölkəsi Subarların bir hissəsi idi. Ona görə də Assur kralları bu döyüşkən xalqlardan gələn təhlükənin qarşısını almaq və onları tabe etmək üçün zaman-zaman bu ərazilərə hərbi yürüşlər təşkil edirdilər.

F. Hommel də Su xalqı haqqında yazırdı ki, Kassilərdən güneydə Dəclə və dağ silsiləsi arasında Suti və ya Su adlanan xalq yaşayırdı. Kassilərdən şimalda isə Qu və ya Quti adlanan digər xalq məskunlaşmışdı. Qutilərdən aşağıda Assuriya yaxınlığında samiləşmiş kassilər olan namri xalqı yaşayırdı. Quti və Sutilərin yerləşdiyi ərazinin ortasında Alman (Arman) və Padan adlanan xalqlar məskunlaşmışdı. (F.Hommel. 1887. Səh. 38)

Su xalqının yerləşdiyi ərazidə Sibir adlı şəhər də mövcud olmuşdur. V Şamşi Adad Nairi ölkəsinə 3-cü hərbi yürüşü zamanı (e.q. 823-811) Midiya və Parsua arasında Zaqros dağları ərazisində yerləşən Qızılbundaya qarşı da savaşmış onun bir neçə şəhərini, o cümlədən Kinaki, Karsibutu, Uraşunu ələ keçirmişdir. O Sibir şəhərinin hakimi Bel-Alidən xərac almış və Sibir şəhərində özünün əzəmətli abidəsini ucaldaraq üzərində Nairi ölkəsindəki qələbələrini təsvir etmişdir. (Trevor Bryce. 2009, Səh. 258)

E.q. 1116-247-ci illər arasında Çini idarə edən və çinlilərin Çu adlandırdıqları Su sülaləsinin bit türk boyu olduğu qəbul edilmiş fikirdir. Çu dövründə Çində biri sehrbazlıq, digəri dini təbəqəni təmsil etmek üzrə türklərə xas ikili krallıq sisteminin hakim olduğu məlumdur. Çu kral isimlerinin dörd hecalı olmaları onların türk olduqlarına işarədir. Çular m.ö. 2000-ci illərdə Ön Asiyadan gələrək öncə Monqolistanda və Türkistanda yerləşmiş, sonra Vey nehri sahillərində məskunlaşmışdılar. (Z.V.Togan, 1981, Səh. 30)



Qədim Çin mənbələrində bu ölkənin sərhədləri yaxınlığında So/Su adlı türk tayfalarının yaşadıqları haqqında məlumatlar vardır. Alp Ər Tonqa dastanı ilə yanaşı türklərin qədim Su dastanı da mövcuddur. Su dastanı Mahmud Kaşğarinin Divanında Türkmən adının izahı maddəsində öz əksini tapmışdır. Divanda yazıldığına görə İsgəndər Zülqərneyn e.q. IV əsrdə Türkistana hücum etdiyi zaman Səmərqəndi almış, sonra Su türklərinin yurduna doğru irəliləmişdir. Türklərin gənc hökmdarı Su Balasaqun yaxınlığında öz iqamətgahında otururdu. Bəylər İsgəndərin yaxınlaşdığını və onunla savaşıb savaşmayacaqlarını Sudan soruşurlar. Hökmdar İsgəndərin yaxınlaşdığını eşidincə toplanma əmri vermiş və Çin-Uyğur tərəfə hərəkət etmişlər. Səhər olduğu zaman uyğun bir yerdə durub dincəlmiş və axşam yenidən hərəkət əmri verildiyi zaman 22 adam ailəsi ilə birlikdə minik heyvanı tapa bilmədikləri üçün orda qalmışlar. Ertəsi gün onlar piyada getməyə hazırlaşan zaman yanlarına yenə iki adam gəlmişdir. O iki nəfərə də tezliklə İsgəndərin gələcəyini və onlarla bərabər getməyi təklif etdikləri zaman yeni gələnlər "Bəylər, İsgəndər gəlib keçici adamdır, gəlib gedər, biz isə yurdumuzda qalarıq" cavabını vermişlər.

O zaman 22 nəfər o iki nəfərə qəzəblənib "Qal ac" deyib getmişlər və o iki nəfərin törəmələri xalaç/qalac adını almışlar. İsgəndər gəlib o 22 adamı gördükdə onlara "Türk manənd", yəni türkə bənzəyirlər demişdir ki, türkmən adı ordan qalmadır.

İsgəndər türklərin ordusunu təqib edirdi. Hökmdar Su Uyğur sərhəddinə yaxınlaşıb durdu və qoşunu üçün əlverişli yer seçib döyüş üçün hazırlıq gördü. Döyüş zamanı türklər şücaət göstərmiş və bir gecə basqını zamanı İsgəndərin qoşununu məğlub etmişdilər. Savaşdan sonra İsgəndər türk hökmdarı ilə barışmışdır. Bir müddət orda qalan İsgəndər bir neçə uyğur şəhəri salmış, sonra qoşununu çəkib getmişdir. İsgəndər getdikdən sonra Su da Balasaquna geri dönmüş və orda Su adlı bir şəhər salmışdır.

Z.V.Toqana görə Su dastanında əks olunan rəvayətdə ilk aryani basqınlarına məruz qalan türk qəbilələri doğu tərəfə çəkilmiş və sonradan geri dönərək Su adlı hökmdarın başçılığı altında Çu çayı hövzəsində Su və ya Çu sülaləsinin kakimiyyəti altında öz dövlətlərini qurmuşlar. Onların qurduqları bu dövlət bir sak dövləti idi. O e.q. VIII əsrdə mövcud olan böyük Sak dövlətinin mərkəzinin Orta Tyanşanda olduğunu qeyd edir. Görünür ki, Su/Şu adlı bu dövlər sonradan Sak adlanmışdır. Yaxud da Su və Sak adları böyük hökmran xalqın iki ayrı qollarının adları ola bilər. (Z.V.Togan. 1981Səh. 33)

İsgəndərin Türkistana səfəri ilə əlaqədar söylənən rəvayətlərdə Çu hövzəsində yaşayan 23 Türk və ya 22 Türkmən qəbiləsinin əkinçiliklə məşğul olub torpaqlarına bağlı olduqları səbəbi ilə yadellilərin hakimiyyətini qəbul edərək yurdlarında qaldıqları, digər soydaşları olan Türkmənlərin isə onlara tabe olmayıb vətənlərini

tərk edərək Çin tərəfə getmələrini Z.V.Toqan türklərin oturaq əkinçi və heyvandar köçəri olmaqla iki fərqli təsərrüfat sistemınə bağlayır. Ərəblərin İsgəndər haqqındakı rəvayətlərində də "şəhər Türkləri" (Türk əl mudun) ilə "köçəri Türklər" (Türk əl barari) bir-birlərindən fərqlənirdilər. (Z.V.Togan, 1981, Səh. 29)

V.Koppers Çuları Çinə atı ilk gətiren türklər olduqlarını yazmışdır. Koppers Türkistandan Çinə gələn türklərin bura özləri ilə dövlətçilik sistemi gətirən atlı türklər olduqlarını yazmışdır. (Z.V.Togan, 1981, Səh. 23)

Mahmud Kaşğari Su xalqı haqqında əfsanədə Su xalqının qərbdən gələn aryanilərin təzyiqi ilə şərqə doğru köçlərə məruz qaldıqlarını yazır. Türkistanda və Sibirdə Su adı daşıyan çoxlu etnonimlər qədim Su etnosunun qalıqları şəklində mövcuddur.

Su kökünə bağlı boylar-su kakmın-Beltir boyu. Su karqa-abakan tatarları, Su-an-kazax qırğız böyük orda tayfası, Suan-nayman boyu Qazax Orta ordası, Sukar-kaçinlər boyu, Sulaxlı-özbək kırkmen üz boyu. (Радлов В. 1989, Səh. 89-111)



# XVII FƏSİL. Hurrilər

Hurri adına ilk dəfə XIX əsrdə Assuriya kralı Assurbanipalın Nineviyada aşkar edilmiş kitabxanasının mixi yazılı mətnlərində rast gəlinmişdir.

Hurrilər Turan adı ilə bağlı Ön Asiyanın ən qədim xalqlarından biridir. Hurri dilinin kəşfi 1887-ci ildə Nil vadisindəki Amarna arxivinin tapılması ilə başlayır. Burda Mitanna kralı Tuşrattanın Misir fironu III Amenofisə yazdığı 494 sətrlik məktub hurricə ən uzun mətndir. Misir kitabələrində hurrilər "Kharru" şəklində yazılmışdır. Sonradan Türkiyənin Boğazköy qəsəbəsində hititcə, akkadca olaraq iki dildə yazılmış hurricə mətnlər hurri dilinin öyrənilməsində böyük rol oynamışdır. Hurrilər öz dillərini "Hurrvohe", adlarını isə hurri adlandırırdılar. Qədim şərq tarixi metəxəssisi A.Spayser hurriləri Yafetik ailəyə mənsub hesab edir. Hurrilərin urartu dili ilə yaxın qohum və ya eyni dil olduqları, hurrilərin urartu xalqının və dövlətinin yaranmasında başlıca rol oynadığı elmi dəlillərlə təsbit olunmuşdur. Hurrilərin ibrani yəhudilərə güclü təsir göstərdikləri və hürri qanunlarının Tövratda əks olunan qanunların əsas mənbəyini təşkil etdiyi haqqında fikirlər mövcuddur.

Bir çox müəlliflər, o cümlədən A.Unqnad, A.Spayser, B.Landsberqer hurrilərlə subirlərin və urartuluların eyni xalq olduqları fikrini irəli sürürlər.

Hurrilər e.q. III minilliyin sonlarında yaşadıqları Ön Qafqazdan tədricən Anadolunun şərqinə doğru irəlilədikləri sonra isə daha geniş bölgəyə yayıldıqları, Van gölündən başlayaraq Mesapotamiyada, Habur və Balix çayları hövzəsində, Aşağı Zab və Diyala çayları sahilləri və Urmiyə gölünün qərb sahillərini əhatə edən geniş bir ərazidə məskunlaşmışlar. Hurrilərin adı Tövratda Harim/Hori şəklində qeyd edilmişdir. Qədim Şərq tarixşünaslığında bir "Hurri-Subar-Urartu" problemi mövcuddur ki, bir çox tarixçilər onların eyni mənşəyə və dilə malik olduqları fikrini ortaya atmışdılar. Lakin tarixi qaynaqlarda Subarların bölgəyə hurrilərdən daha öncə gəldikləri təsbit olunduğundan onları bir-birlərindən fərqləndirməyə başladılar. Hurri və Urartu dili bir-birlərinə çox yaxın və ikisi də bitişkən dildir. Alman alimi Qoetze Urartu dövlətinin e.ə. IX əsrdə onların Hurrilərlə birləşməsi nəticəsində meydana çıxdığı fikrini irəli sürür. Avropa alimləri hurri tarixinin son dövrlərini əhatə edən Mitanni dövlətini bir neçə şəxs adına istinad edərək hind-avropa mənşəli hesab edirlər. Sovet və rus tarixçi və qədim dil bilginlərinin bir çoxu hurri dilini şərqi Qafqaz mənşəli hesab edirlər.

Amerikalı araşdırıcı Arnaud Fournet yüzlərlə kassi, hurri, xatti və urartu dilindəki sözləri müqayisəli şəkildə araşdıraraq onların eyni kökə malik olduqlarını müəyyən etmişdir. (Arnoud Fournet, American Oriental seriens 37, 1978)

Hurri, urartu dillərini müqayisəli şəkildə araşdıran Aleksey Kassian Hurri-urartu dil ailəsinin bir-biri ilə sıx əlaqədə olan iki dildən, hurri və urartu dillərin-

dən ibarət olduğunu və hər iki dilin vahid bir proto dilin iki qolunu təşkil etdiklərini, hər iki yazılı dilin daşıyıcıları olan xalqın Kür-Araz mədəniyyəti ilə əlaqədar olduğunu yazır. (Alexey Kassian, 2011, Səh. 383)

Coğrafi yaxınlıq və tipoloji bənzərlik baxımından hurri-urartu dillərini hələ XIX əsrin ortalararından etibarən quzey Qafqazın şərqi-qafqaz dilləri olan Naxodağıstan dil qrupu ilə əlaqələndirirdilər. Bu ideyanı sonrakı illərdə sovet alimləri İ.Dyakonov, Q.Klimov, S.Starostin və başqa alimlər inkişaf etdirdilər. İ.Dyakonov və S.Starostin bu məsələyə aid 1986-cı ildə "Hurri-urartu dili şərqi-qafqaz dili kimi" adlı xüsusi bir monoqrafiya həsr etdilər.

Lakin müasir araşdırıcı Aleksey Kasianın yazdığına görə son onilliklərdə 80-ci illərdən fərqli olaraq istər Quzey Qafqaz dillərinin araşdırılması, istərsə də hurrişünaslığın inkişafında önəmli irəliləyişlər əldə edildi. Bu son araşdırmalar sonucunda hurri-urartu dillərinin şimali-qafqaz dilləri ilə əlaqəsi məsələsinin öz cəlbediciliyinin itirməsinə və tərəfdarlarının xeyli azalmasına sıbəb oldu. (Alexey Kassian, 2011, Səh. 384)

Hurrilərin Qafqaz mənşəyi nəzəriyyəsini kəskin tənqid edən Holqer Petersen, Arno Fourne, Allan Bomhard, Q.Cahuqyan və başqaları hurri-urartu dilinin hind-avropa dil ailəsinin kiçik nostratik bir qolu olduğunu sübut etməyə cəhd göstərdilər. (Arnout Fournet and Allan R.Bomhardt, 2010)

Lakin müasir tədqiqatlar, o cümlədən müasir dövrün ən mükəmməl ensiklopedik əsəri olan Ensiklopediya Brittanika hurri-urartu dillərinin hind-avropa dilləri ilə qohumluğunu qeyri mümkün hesab edərək bu nəzəriyyəni qətiyyətlə rədd etdi.

Aksey Kassian Ermənilərin heç bir əsaslı elmi dəlil gətirmədən özlərini hurri və urartuluların varisləri elan etmələrinə etiraz edir və müasir dövrün genetik və linqvistik ararşdırmaları sonucunda bu iddiaların tamamilə əsassızlığının sübut etdiyini qeyd edir. (Alexey Kassian, 2011, Səh. 384)

Bir çox fin araşdırıcı, o cümlədən Mikael Reuter "hurri" sözünü fin dilində yabançı və ya "yabançı tacir, yad adam" mənasında işləndiyini yazırlar. (Mikael Reuter, 1999)

Hurri sözünün digər bir mənası fin dilindəki "buri", yəni qurd olduğu fikrini fin araşdrıcı R.Nirvi irəli sürür. (R.Nirvi. 1982, Səh. 79)

Hurriləri subirlərin davamı kimi dəyərləndirən müəlliflərin əksinə olaraq bir çox müəlliflərin fikrinə görə Hurrilər e.q. III minilliyin ortalarında Mesopotamiyanın quzeyinə quzey-doğu tərəfdən gələrək məskunlaşmışlar. M.ö. XVI əsrdə hind-avropa mənşəli mitannilər Anadoluya gəlmişlər. E.q. 1500-ci ildə onlar burda hind-avropa mənşəli sülalənin başçılığı ilə əsasını hurrilərin bir hissəsinin təşkil etdiyi Mitanni adlı dövlət qurmuşlar.

Hurri mifologiyasında öküz kultu böyük önəm daşıyır. Hurri və Şeri Xett mifologiyasındakı tanrılar panteonunda onların baş tanrısı hava və ya tufan tanrısı Tarxuntanın arabasını çəkən ilahi mənşəyə malik öküzləri və onun mühafizəçiləri, müşaiyət edənləri idi. Onların xett dilindən tərcüməsi "gecə və gündüz" deməkdir. Dualarda və andlaşmalarda onlara müraciət edilirdi ki, tanrılar hüzurunda onların adından zəmanət versinlər. (Gwendolyn Leick, 2003, Səh. 151)

Böyük tarixçi Z.V.Toğan hurriləri etnik mənşə baxımından türklərlə əlaqələndirərək yazır: "Elam dilində türkcə ilə müştərək sözlər və bunlardakı at bəslənməsi, Hurrilərin dillərinin türkcə ilə akrabalıq dərəcəsini arz edən xüsusiyyətlər, bu hurrilərin Türkistandakı Hattal türklərinin ve Ön Asiyadakı səlçuklular dövrinin at bəslənmə və ilxıçılığı Ön Asiyada türk izlərini təşkil edir. (Z.V.Togan. 1981, Səh. 22)

Hurrilərin tanrısı Teşşupun günəş tanrıçası Hepattan olan oğlu Şarruma öküz obrazında idi. Hepatın qızı Alanzu adlanırdı. Hititlərin və bölgənin baş tanrısı Tarxuna da öküz obrazında idi. Livilər və Anadolunun digər qeyri hind-avropa xalqı olan khatilər Tarxunanı Taru adlandırırdılar və bu sonradan Tarxun şəklini aldı. Türk dilinə xas Tarxun adı ilə yanaşı türk eponimlərinə xas digər bir ad hurrilərin Alanzzu tanrıçasıdır. Alanzzu Teşşubanın və Hepatın qızı idi və ehtiyacı olan insanlara yardım tanrısı idi. Luvilər Kiçik Asiyanın qərb ərazilərində Troyaya qədər olan sahədə məskunlaşmışdılar.

Ön Asiyanın qədim turanlı xalqlarına xas bir çox teonimlər sonradan türk xalqlarının eponim və qəhrəmanlarının adlarında öz əksini tapmışdır. Hurrilərin və khatilərin ümumi tanrıları olan Teşşubun və Hepatın qızı insanlara yardım, xeyirxahlıq tanrıçası Alanzzu monqol və türklərin ulu ana əcdadları olan Alanqu adı ilə eyniliyi şübhə doğurmur.

A.Fournetə görə Hurri dilinin Türk dilləri ilə ümumi cəhətləri az olsa da, hurri dili tipoloji baxımdan türk dillərinə çox yaxındır və hurri dilində də, türk dillərində olduğu kimi -*şt*- istisna olmaqla, saitlərin harmoniyası yoxdur. Hurri dilində *Ardi* – şəhər deməkdir. *Şiye/şive* – su deməkdir. *Tabirima* – qara metal, dəmir deməkdir. (Arnout Fournet. 2013, Səh. 5, 6)

Ş.Günaltay hurri adının "mağara" mənası daşıdığını və bu adın hurrilərə onların məskunlaşdıqları əsas mərkəz olan Urfanın yaxınlığındakı Nemrud mağaraları ilə əlaqədar verildiyini yazır. Görünür mağara kultu çox qədimlərdən türklərin inanclarında özəl bir yer tutmuş, türk boylarının yaradılış əfsanələri mağara ilə əlaqədar olmuşdur. Orta Asiyadan başlamış Anadoluya qədər böyük bir coğrafiyadakı türk yurdlarında müqəddəs hesab edilən bir çox mağaralar ziyarət məkanlarından birinə çevrilmişdir. (N.Çətingaya, 1996, Səh. 7-8)

Qaynaqlardan məlum olduğuna görə Böyük Hun dövləti zamanında müqəddəs bir "Ata mağarası"nın mövcud olmuş və ilin müəyyən vaxtlarında burda törənlər təşkil olunaraq qurbanlar verilmişdi. Sibirin Tobalar boyunun qayaları ma-

ğara formasında oyaraq "Ata mağara"sı şəklinə saldıqları və burda göyə, yerə və Xan soyunun əcdadlarına qurbanlar kəsildiyi çin qaynaqlarında əks olunmuşdur.

Şahnamədə və digər qaynaqlarda Əfrasiyabın "Hanqe Əfrasiyab" adlı yer altında misdən tikilmiş müqəddəs mağara sarayı olduğu qeyd olunmuşdur.

Fikrimizə görə Əfrasiyabın "Hanqe Əfrasiyab" yeraltı mağara sarayı Təbriz yaxınlığındakı qədim Kəndovan mağara yaşayış məskənidir.

Alman alimi Vilhelm Qornot Rus-sovet alimlərinin Ön Asiyaya atlı döyüş arabasının hind-avropa mənşəli mitannilər tərəfindən gətirildiyi fikrini rədd edir və bunun yerli hurrilər tərəfindən yaradıldığını və sonra bütün Ön Asiyaya Misirə və Egey dənizi sahillərinə yayıldığının əksəriyyət tərəfindən qəbul edildiyini yazır. (Вилхельм Горнот, 1981, Səh. 25)

Z.V.Toqan elamların dilində müştərək türk sözlərinin olduğunu və onların at bəsləmə ənənələrinin türklərlə eyni olduğunu yazır. Toqana görə hurrilərin dilləri ilə türk dilinin qohumluğunu isbat edən dəlillərin mövcud olması və hurrilərdə at bəsləmə və ilxıçılıq vərdişlərinin Türkistandakı Hattal (eftalit/ağ hunlar) türkləri və Səlçuqlularla eyniyyət təşkil etməsi tarixdən öncəki dövrlərdə Ön Asiyada türk izinin mövcudluğunu sübut edir. Anadoluda e.ö. yaşayan və Strabonun bəhs etdiyi kumanları da Toqan hurrilərrilərə məxsus Subar, Khuri və Metan (Mitanna) adları kimi qədim türk tayfalarına məxsus adlar hesab edir. (Z.V.Togan, 1981, Səh. 12, 469)

Görkəmli hititşünas Emil Forrer yazır ki, e.q. 2400-cü ildə qutilər şimali Mesopotamiyanı, yəni Babili işğal edib orda 120 il Qutium sülaləsi adı ilə hakimiyyət sürdülər. Bu zaman Babilin şimalına miqrasiya o qədər güclü idi ki, sumerlər həmin əraziləri Ki-uri adlandırırdılar ki, sonradan bu ad fonetik dəyişikliyə uğrayaraq Hurri/Xuri şəklini almışdır. *Ki* sumer dilində ölkə deməkdir, uri isə Ur şəhərinin sakinləri anlamında uriləri ifadə edir.

Sumerlər Mesopotamiyadakı şimal ərazilərini də Ki-uri adlandırırdılar. Hurri etnoniminin Ki-uri adının fonetik şəkli olduğu fikri daha inandırıcı görünür. Ona görə ki, Hurrilərin tarix meydanına qədəm qoyması Forrerin də düzgün təsbit etdiyi kimi təxminən e.q. 2400-cü illərə təsadüf edir.

Bir çox müəlliflər də Hurrilərin subar və sumer mənşəyə malik olduqları fikrini dəstəkləyirlər.

Emil Forrer B.Hroznunun da şərh etdiyi kimi Hurri adının Sumerin Uri şəhəri adının assur dilində dəyişik fonetik şəkli olduğu fikrini müdafiə edir.

Forrer sumerlərin köçlərə məruz qalmış Ur şəhəri əhalisini timsalında hurrilərin geniş bir əraziyə yayıldığını Lullubilərdən sonra mövcud olan Manna dövründə də, ordakı Aşeri, Aişari kimi adların hurri adları olduğunu yazır.

O qohumluq əlaqələrini dəqiq müəyyən etmək imkanında olmasa da, hurri dilinin türk dilinə bənzədiyini təsbit etdiyini və hurrilərin mənşə etibarı ilə Türkistandan gəlmə fikrində olduğunu yazır. Hurrilər də türklər, türkmənlər və monqolların orta əsrlərdə gəldikləri kimi e.q. 2500-cü illərdə Orta Asiyadan gəlmişlər. Bundan sonra türk və türkmənlərin Yaxın Şərqə gəlmələrində eramızın 1200-cü ilinə qədər bir fasilə yaranmışdır. Bunun səbəbi Türklərin Orta Asiyadan qərbə doğru yollarının hind-avropalılar tərəfindən qarşısının kəsilməsi olmuşdur. Bu dövrdə türklərin köç istiqamətləri və ya yürüşləri Çin və Monqolustan tərəfə baş vermişdir. (Emil Forrer, 1930, Səh. 236-240)

Monqolların "Gizli tarixi"ndə Hori-Tomat adındakı "Hori" sözü Kuri (Huri/Khuri) adlandırılan tayfalardır. Çingiz xan dövründə də adları çəkilən Kurilər, Tumat, Tölös və Burqutlar ilə birlikdə eyni boylar konfederasiyasına daxil idilər. Bartold müsəlman coğrafiyaçıların Qırğızların şərqində yaşayan "Furi" adlı boyun Kurilər olduğunu qeyd edir. O "Furi" sözünün qurd mənasındakı "Böri" olduğu fikrini irəli sürür. Bartold Biruni və Afvinin əsərlərinin bir çox əlyazma nüsxələrində "Kun" (Hun) adı yerinə "Furi" sözünün işləndiyini yazır. (V.Bartold, 1975, Səh. 155-156)

Tolstov Xarəzm adı ilə Ön Asiyadakı hurri adı arasında bir əlaqə, bağlılıq olduğunu ehtimal edir. O Hurri/Mitanni hökmdarı Şauşatar ilə xarəzm hökmdarı Şauşafar adının heyrətamiz dərəcədə bir-birinə bənzədiyini qeyd edir. Mitanni allahı Şauşkaş xarəzm hökmdar adı Şauşla eyniyyət təşkil edir. Mitannı kralı Artatama ilə xarəzm hökmdarı Artamux adları arsında bənzəyiş göz önündədir. Özbək dilində arpa sözü kanal deməkdir, protoxett dilində də arpa bulaq deməkdir.

Orta Asiya xalqlarının Ön Asiyanın yafetik dilli qədim xalqları ilə etnoqrafiq əlaqələri qədim hind-avropaya qədərki dövrün dərinliklərinə dayanır. Xarəzmi – Hvari/Hvarrını nəzərə almadan "hurri" problemini həll etmək mümkün olmaz. Akademik V.Struve də Moxencedaroda tapılan yazıları hurri tayfalarına aid edir. (С.П.Толстов. 1948, Səh. 81-83)

# XVIII FƏSİL. Xattilər və Kiçik Asiyanın digər Turanlı xalqları

E.q. III minillikdə Anadolu mərkəzi ərazisində Xatti adlı turanlı ölkə mövcud idi. Mixi yazı mətnlərində ölkənin hökmdarlarının digər hökmdarlara yazdıqları diplomatik yazışmalarda öz ölkələrini *Khati* və ya *Xatti* adlandırırlar.

Bu qədim mədəniyyəti və Anadoluda ilk dövləti yaradan xattiləri XIX əsr Avropa tarixçilərinin bir çoxu aloroid, yəni sami və ari olmayan və turanlı hesab edirlər. M.ö. 2500-ci ildən başlayaraq Akkad mixi yazı mətnlərində Anadoluda mövcud olan "Hatti ölkəsi" haqqında bəhs olunur. Bu ölkənin mövcudluğu mixi yazı mətnlərində təsbit olunduğuna görə 1500 il yəni e.q. 630-cu ilə qədər davam etmişdir. Hatti ölkəsinin adı Bibliyada Heth və Hittim şəklində yazılmışdır və tarixçilər də nədənsə xalqı öz adlandırmalarına uyğun olaraq *Khati* şəklində deyil, Bibliyadakı Hitit yazılış formasına üstünlük verirlər.

E.q. XV əsrdə Balkan yarımadası tərəfdən gəlib Anadoluda yerləşən hind-avropa tayfaları tədricən güclənərək xatti şəhərlərini ələ keçirməyə başladılar və bir müddət sonra ölkənin böyük hissəsində hökmran oldular. Onlar min illər ərzində mövcud olan turanlı hatti mədəniyyətini və dövlət quruluşunu mənimsəyərək özəlləşdirdilər. Bu yeni gələn tayfalar özlərini Nesilli və ya Naşilli adlandırırdılar. Bu işğalçı hind-avropa, yəni ari tayfaları Kussar şəhərini özlərinə paytaxt etdilər. Kuşşar şəhərinin kralı Anita Xatti kralı Piyusti məğlub edərək dövlətinin paytaxtı Hattuşu yerlə yeksan edib xarabalığa çevirmişdir. Hattişada və digər Hatti şəhərlərində qazıntı aparan arxeoloqlar əldə etdikləri mətnlərdə bu ölkənin Hatti adına rast gəlirdilər, lakin onlar ölkənin Bibliyadakı Hittim adına uyğun olaraq əlkənin adının Hittit variantına üstünlük vermişlər.

Huqo Vinklerə görə qeyri sami xalq olan Xattlar Sumerlərlə qohum xalq idilər və arameylər tərəfindən Mesopotamiyadan sıxışdırılıb çıxarılmışdılar. Həmin bölgənin Parsua, Andiya, Ellipi ölkələrinin əhalisi də arilər deyildilər. (Hugo Winckler. 1892, Səh. 215)

Xattilərin imperiyası Xəzər dənizinin güneyindən başlayaraq Asiyanın batısına doğru, Kiçik Asiya, Babil və Nilə qədər böyük bir ərazini əhatə edirdi. İbrahim peyğəmbər hələ Suriya çöllərində şeyxlik etdiyi dövrdə xattilər Hevrona və Yerusəlimə hakim idilər. (Willis Boughton. 1897. Səh. 101)

Ön Asiyanın qədim etnik tarixini araşdıran alman tarixçisi A.Virt Turan irqinin Alaroid qrupunun İkiçayarasını şimaldan aypara şəklində əhatə etdiyini yazmışdır. İlk Alaroid tayfaları Kiçik Asiyadan Mesopotamiyanın şimalına II minillikdə daxil olmuşdular. Onların nümayəndəsi xattilər qüdrətli bir dövlətin əsasını qoydular. Alman assuroloqu A.Virt Bu xalqın Khanti kimi yazılan adının əslində Xan olduğunu, sondaki "ti" əlavəsinin isə sami dilinə xas ölkə bildirən şəkilçi olduğunu yazmışdır. Xattilər sonradan Kummux adı ilə m.ö. 1100-cü ildə Assurlarla döyüşmüşlər. Onlar Kommaqendə məskunlaşmışdılar. Kummuxların qalıqları bu gün Qafqazda məskunlaşan kumux türkləridir.

Kiçik Asiyada və Suriyanın şimalında e.q. 1300-cü ildə hökmranlığı ələ alan xattilər 500 il ərzində Misirin istilasının qarşısını alaraq ölkəni işğaldan qorudular. E.q. 1313-cü ildə xattilər öz qohum tayfaları olan moşi, dardan, luk, pidas, karkaş və yavanlarla ittifaqda Misirə qarşı yürüş təşkil edərək ona təsirli zərbə vurdular. Bu döyüşdə şimalın barbar dəniz xalqlarının bir qismi Misirin tərəfində öz qohum tayfalarına qarşı vuruşurdular (A.Wirth, 1905, Səh. 27)

Misir fironu şərqə doğru xattilər üzərinə yürüş təşkil etdiyi zaman xattilərin çağırışı ilə etrusklar, dardanlar, sardinlər, Troyalılar, siciliyalılar xattilərin tərəfində müharibəyə qatılmışdılar.

Xattilər Kiçik Asiyanın yerli xalqı deyildilər, onların geyimləri də soyuq və dağlıq bir iqlimə malik əraziyə uyğun şəkildə idi. Onların çəkməsi ucu meylli idi və qar şəraitinə uyğun olub, bugünkü türklərin ayaqqabısına bənzəyirdi. Xattilərdə ölkə ideyasını əks etdirən ideoqram üç və ya iki dağ təsviri ilə əks olunmuşdur. (Willis Boughton. 1897, Səh. 102)

Mesopotamiyada sami tayfalarının basqınları nəticəsində Sumer şəhərlərinin viran olması sumerli Ön Türklərin öz yurdlarını tərk etmələrinə və quzey istiqamətində hərəkət edərək Anadolunun daha təhlükəsiz sami məskənlərindən uzaq ərazilərində məskunlaşdılar. Sumerli Ön Türklərin Anadoluya gətirdiyi Mesopotamiya mədəniyyətinin əsası Güney Anadoluda Çatalhöyükdə qoyuldu. Tarixi mənbələrdə Hatti adlanan bu mədəniyyət tunc dövrünə aid parlaq şəhər mədəniyyətləri şəklində təşəkkül tapmış və Anadolunu Ön Türklərin yurduna çevirmişdir. Ege dənizi sahillərində bu mədəniyyəti yaradan Ön Türklər Lidiya və Likiya dövlətlərinin qurucuları olan lidlər və liklər idilər.

Mərmərə və Balkanlarda Ön Türk Sumer mənşəli uyqarlığının əsasını qoyaraq inkişaf etdirən Pelasqlar Troya dövlətinin əsasını qoydular.

Lakin Qafqazlar üzərindən e.q. 2000-ci illərdə Anadoluya gəldikləri güman edilən hind-avropalı arilər olan Nuzi və Livi tayfaları dağınıq Xattilərin bir hissəsini tezliklə öz hakimiyyətləri altına alaraq Hitit-Mitanni dövlətinin əsasını qoydular. E.q. Balkanlardan gələn hind-avropalı Aka, Friq, Helen-yunan tayfaları Hitit dövlətini yıxdılar. Akalar Troya şəhərinə hücum edib dağıtdılar.

E.q. 1000-ci ildə Ön Türk lidlərin Truska boyları "dəniz xalqları" adı altında Aralıq dənizi üzəri ilə hərəkət edərək İtaliyanın quzey-batısında yerləşərək orda Etrusk mədəniyyətinin və dövlətinin əsasını qoydular. Balkanlardakı Ön Türk pelasqlar da İtaliyaya quzey tərəfdən girib Etruskiyada Turksklarla birləşmişdilər. Lakin Etrusklar öz dövlətlərini və türk kimliklərini sona qədər qoruya bilmədilər.

E.q. 400-cü ildə Latın İtalyanlar Etrusk dövlətini məğlubiyyətə uğradıb hakimiyyətə yiyələndilər.

Ege dənizindəki Lid xalqının bir başqa Truska qolu İtaliyaya gedənlərdən daha öncə dəniz yolu ilə Amerika qitəsinə istiqamət götürərək Meksikada Vera Kruze adlı sahil bölgəsində məskunlaşaraq burda Olmek adlı böyük bir uyqarlıq yaratmışdılar. Bu uyqarlıq Meksikadan Peruya qədər genişlənmiş, lakin minillər ərzində Amerikanın yerli qızıldərili xalqı içərisində ərimişdir. (Reha Oğuz Türkkan. Türkler, cilt 1, 2002, Səh. 602) .

Hind-avropalıların təzyiqi ilə Xattilər Kiçik Asiyanın doğusundan güneyə, İkiçayarasına doğru hərəkət etmiş və bu ərazidə xalqların köçlərinə səbəb olmuşdular. Khattilər İkiçayarasının sami olmayan subarlarla qohum xalq idilər.

L.Vaddelə görə Şərqi Kur adlanan Kiçik Asiyanın şərqi və Suriya sumerlərin bir qolu olan Khatti tayfalarının köçüb yerləşdiyi ərazi idi. Sumerlərin qalıqları olan khattilərin öz yerlərini tərk edib Finikiyada, Suriyada, Kilikiyada, Kiçik Asiyada Kuria ərazisinə yerləşmələrinin səbəbi Assuriyanın sami kralı Sarqonun şimal və şərq istiqamətindəki ölkələrə qarşı apardığı dağıdıcı müharibələri idi. II Sarqon e.q. 717-ci ildə Khattilərin cənubdakı paytaxtı Karkemişi tutaraq onun kralını öldürdü və əzəmətli Karkemiş şəhərinə öz qubernatorunu təyin edib əyalət şəhərinə çevirdi. Kimmerlər də Xappadokiyanın şimal hissəsini ələ keçirdilər və bu hadisələr Kiçik Asiyadan və Zaqros dağları ərazisindəki xalqların böyük köçlərinə səbəb oldu. (Waddell L. 1929, Səh. 45)

Boğazköy mixi mətnlərində Xatti hökmdarı Hələbə qarşı mübarizə apararkən hurri şəhər dövlətləri olan Arura və Turan da xattilərə qarşı mübarizədə iştirak edirlər.

İngilis assuroloqu L.Vaddell Quti və Khati adlarının eyni mənşədən olduqlarını və onların eyni xalq olduqları fikrini irəli sürür. O Qot adının Khatti adının dialektik forması olduğu fikrindədir. Beləliklə, Avropanın Qot tayfaları da Qutilərin varisləri kimi təqdim olunur. Britaniyanın Romaya qədərki qədim krallarının sikkələrində Katti titulu daşıyırdılar və qədim brittlər qottlar idilər. (Waddell L. 1929, Səh. 358)

Qutilərin İlk Sumer sülaləsinin banisi Ukusinin paytaxtı Tar və ya Uku tar və ya Ukhuda yerləşirdi ki, bu şəhər Pteriyada Xappadokiyada yerləşmişdi. Qutium Taurus dağlarının şərqində yerləşirdi. Yunan-Roma dövründə həmin ərazi Katonia adlanırdı. Yəqin ki, Qutim Khatti və Xattinin qədim tayfa adlarından olmuşdur. Qutinin paytaxtı bir neçə Sumer mətnlərində "Dağlıq Qutim" adlanırdı. Ora yəqin ki, Karxemişdən quzeydə yerləşən Maraş, Kissia və ya Xurmi şəhəri imiş. (Waddell L. 1929, Səh. 359, 360)

Çex tarixçisi Hroznunun Xettlərin mixi yazı mətnlərinə əsasən 1915-ci ildə onların dillərini hind-avropa dili elan etməsi fikrini bir çox alimlər, eyni zamanda



qədim Şərq tarixinin görkəmli mütəxəssisi Seys tərəfindən qətiyyətlə rədd edilmişdir. Arilərin Ön Asiyaya gəlişləri e.q. XV əsrin ortalarına aiddir. Bu zaman Parşatarın oğlu Sauşşatar Mesopotamiyada Mitanni dövlətinin əsasını qoydu. Mitannilərin dilinin ari dili kimi qələmə verilməsi yanlışdır. Mitannilərin dili yerli xalqın öz dili idi. Sauşşatarın yazdığı məktubda Mitanni adı *Maitanni* şəklində ifadə olunmuşdur və mənası ippadrom, yəni *maydan* deməkdir. Mitannilərin hakim sülaləsi arilər olduğu halda xalqın dili subar dilinin bir dialekti idi və kaspi/kassi dil ailəsinə aid idi. (Ernst Herzfeld. 1941, Səh. 190)

Hattilərr Misir mətinlərində Kheta, Assuriya mətnlərində Khatti, Bibliyada isə Heth, Hittim adlandırılırlar. Xattilərin Kussar şəhərinin hökmdarı Xattusil digər xatti şəhərlərini və tayfalarını tabe edib vahid xatti dövəli tərkibində birləşdirərək xattilərin böyük kralı ünvanını qazanmışdı. (Cowley A. E. 1929, Səh. 12)

Xattilərin digər kralı Mursil və ya Musasir Mitanni dövlətini işğal etmişdi.

Xattilərin sumerlərlə eyni mənşəyə malik olub Assuriyanın təzyiqi ilə köçüb şimal ərazilərdə yerləşdikləri haqqındakı tezisə qarşı çıxan bir çox müəlliflər Xattilərin Qafqazdan gələrək Kiçik Asiyada məskən salmaları haqqında fərziyyələr irəli sürmüşlər.

Seys, Jensen, Rastovsev xattilərin Qafqaz mənşəli olmaları haqqında fərziyyələrin müəllifləridir. Xattilərə aid ən mühüm artefaq olan və üzərində Boğazköydə aşkar edilən xett emblemlərindəki təsvirlərlə eyni təsvirlər həkk olunmuş bürünc kəmər Rusiyanın cənubunda, yəni Qafqazda aşkar edilmişdir. Qafqazdan gələn xettlər öncə Kiçik Asiyada Boğazköydə məskunlaşmış, sonra batıya doğru yayılmışlar. (Cowley A. 1929, Səh. 24)

Xattiləri hitit və ya xett kimi təqdim edən və onların hind-avropa irqinə mənsub olduqları haqqındakı tezisin tərəfdarları xettlərini əsas qolunun Anadolunun mərkəzində, onların digər qolunu təşkil edən luvrları isə qərbdə, gələcək Lidiya torpaqlarında yerləşdiklərini qeyd edirlər və xett heroqliflərinin məhz hind-avropa mənşəli bu luvr tayfalarına məxsus olduğunu qeyd edirlər. Linqivistik və arxeoloji dəlillərə əsaslanaraq hind-avropalı luvrların Kiçik Asiyaya onların məskunlaşdıqları ilk vətənləri olan Qaradənizin Qafqaza qədər və Dunay arasındakı şimal sahilləri oluğunu və e.q. III minillik ərzində onların Avropanın dərinliklərinə yayıldıqları müəyyən olunmuşdur. Ceyms Makkuin onların Anadoluya Qafqaz istiqamətindən yoxsa Bosfor və Dardanel boğazları vasitəsilə daxil olduqları məsələsinin araşdrıcılar arasında mübahisə mövzusunu təşkil etdiyini yazır. Hind-avropa dilində danışan xalqlar Anadoluya e.q. 2000-ci ildə daxil olmağa başlamış və e.q. 1400-1200-cü illər arasında məskunlaşmışlar. (Джеймис Маккуин, Хетти и их соседи, 1983)

Anadoluda ən qədim mədəniyyətin qurucuları olan xattilərin tarıxı, dili və etnik mənşəyi məsələsində Hind-avropa nəzəriyyəsini rəhbər tutan bilim adamlarının fikirləri böyük qarışıqlığa səbəb olmuşlar.

Suriyanın və Xatti-hitit tarixinin və dilinin araşdırılmasına bir neçə əsər həsr etmiş ingilis Mayor Konder Xattilərin Mərkəzi Asiyadan, yəni Türkistandan gəldiklərini linqvistik və etnoqrafiq dəlillərlə sübut edirdi. Konder yazırdı: "Suriyanın şimalında məskunlaşmış qeyri sami xalq "kheta" və ya "khati" adlanırdı ki, onları Bibliyadakı hittitlərlə eyniləşdrirlər. Onların hakimiyyəti Hələbdən Qalileyaya qədər, hətta qüdrətli dövrlərində Fələstinə qədər genişlənmişdi.

R.Konder görə II Ramzesin papiruslarında Suriyanın quzeyindəki xattilərə mənsub 17 knyazın adları qeyd olunmuşdur. Bu adları öyrənməyi nəticəsində hattilərin Turan irqinə mənsub olduqlarına və onların akkadlarla yaxın olduqlarına əmin olduğunu yazır. Tur, Sar, Nazi, Lul, Essebu, Lar, Tarkon, Tarkun sözləri Xatti başçılarının adlarının tərkib hissələridir və akkad dilində başçı və prins anlamı daşıyır. "Lul" hunlarda geniş istifadə olunur və başçı deməkdir, "Lar" isə etrusklarda başçı deməkdir.

Tarkon etrusklarda Tarxun kimi ifadə olunur və müxtəlif türk dialeklərində də başçı və prins anlamı daşıyır. "Nazi" Sus və akkad dilində prins deməkdir.

Konder yazır: "Mənim Çindən başlayaraq Etrusklara, Finlərdən Xaldeylərə qədər olan müqayisəli araşdırmalarım nəticəsində hittit dilindəki şəxs və coğrafi adların ən çox türk-tatar dillərinə yaxın olduğunu sübut etdi. Hittit dili Midiya və Akkad dilləri ilə eyni qrupa mənsubdurlar".

Hittitlərin II Ramzeslə bağladıqları müqavilədə onların tanrılarının adlarından dinləri haqqında məlumat əldə edə bilirik. Onlar günəşə, aya, dağlara, çaylara, buludlara və dənizə sitayiş edirdilər. Bu animistik təsəvvürlər bütün Mərkəzi Asiya xalqları üçün xarakterik idi. (Conder R. 1890, Səh. 32, 33)

R.Konder xatti-khetaları Mərkəzi Asiyada türklərin qədim bir qolu olan xataylarla eyniləşdirir: "Suriyanın sami olmayan xalqı turani mənşəyə malik idi və türk və monqollarla eyni kökdən olan bu xalqın şərqə doğru uzantısı akkadları və midiyalıları da əhatə edirdi. Kheta adlanan bu xalq Mərkəzi Asiyanın böyük xitay xalqı ilə eyniyyət təşkil edirlər. Xitaylar Kaşqarda Türkistanın ən məhsuldar bərəkətli bölgəsi olan Xatayda məskunlaşmışdılar. Qaraxitay dövlətinin özülünü təşkil edən xitaylar türk mənşəli idilər. Xataylar sitayiş etdikləri müqəddəs taxtı savaş zamanı özəl bir çadır-məbəddə özləri ilə daşıyırdılar. Mən Kheta və xitayların eyniyyət təşkil etdiklərini və hər ikisinin də tatar-türk olduqları haqqında elmi dəlilləri qəbul etsəm də, onların Türkistanın mərkəzindənmi və ya Xəzər dənizi sahillərindənmi gəldiklərini haqqında qəti fikir söyləyə bilmərəm". (Conder R 1890, Səh. 36)



Konderin yazdığına görə Xitay dilinin tədqiqatçısı Hovord onların dilinin türk dialektlərindən ibarət olduğunu və monqol dili ilə də yaxınlığa malik olduğunu qeyd edir. "Mənim Suriyada xitay dilində aşkar etdiyim sözlər və coğrafi adlar akkad dilindəki bir çox sözlərlə eyniyyət təşkil edir. Bir çox münasibətlər baxımından xitaylar Suriya khetaları ilə eyniyyət təşkil edirlər. Onların da atları və döyüş arabaları vardı. Onlar mahir xəttat idilər və bu yazı sənətini özləri ilə Çinə gətirmişdilər. Onlar göy və yer ruhlarına, müqəddəs dağlara və digər təbiət hadisələrinə sitayiş edirdilər. Mərkəzi Asiyanın Turan tayfaları zaman-zaman iskit, hun, uyğur, xitay və monqol adları ilə Aralıq dənizi sahillərinə və Avropaya gələrək məskunlaşmışlar". (Conder R. 1890, Səh 37)

Qaraxitaylar və xüsusən də onun xatay boyları bir çox türk xalqlarının etnik tərkibini formalaşmasında mühüm rol oynamışlar. Qaraxitayların bir qolu olan türk mənşəli turqutlar isə monqol mənşəli xalqların etnik tərkibinə daxil olmuşlar, Anadolunun güneyindəki Xatay vilayətinin adı da Suriyanın qədim turanlı xitay xalqının adından yaranmışdır.

Əldə edilən məlumatlar çox qədim zamanlarda Kiçik Asiyanın Xappadokiya, Kariya və Lidiya bölgələrində kheta mədəniyyəti ilə eyniyyət təşkil edən mədəniyyətin mövcudluğunu sübut edir. Kheta mədəniyyətinin bu ərazidə mövcud olması onun əhatə dairəsinin isiqamətini göstərərək bu mədəniyyətin doğuda Midiya və Akkad, güneydə Kheta (Suriya) və batıda Etrusk mədəniyyəti ilə bir başa bağlılığını ortaya qoyur. Kaşkay tayfası xett tayfası idi və Fəratın qərbində məskunlaşmışdılar. Kaşqaylar sonradan bölgədə baş vermiş etnik toqquşmalar səbəbi ilə öz yurdlarını tərk edərək qədim Turan ərazisi olan Xuzistanda, Zaqros dağlarının yaylalarında yerləşmişlər.

Prof. Seys Kiçik Asiyanın batısında qamqam, kilikiya və midya tayfalarına məxsus şəxs adlarının kheta adları ilə eyni olduğunu göstərmişdir.

Klassik müəlliflərin əsərlərində verilən Kiçik Asiyadakı lidiya və kari dillərinə məxsus bir çox sözlər aydın şəkildə türk mənşəlidir. Karilərin dilində Kos sözü qoyunu bildirir və quzu/kozu sözüylə, buryatlarda qoyun sözü ilə eyniyyət təşkil edir. Kari dilində Taba dağ deməkdir, türk dilində də dağa "təpə" deyilir. Karilərin dilində "Lail" sözü tiran, kökmdar deməkdir, bu söz Hittitlərdə "Lel" şəklində ifadə olunur. Akkadlar hökmdar və tiran sözünü "Lil" və ya "Lala" şəklində ifadə edirlər. Bu söz hunlarda "Luli" başçı, rəhbər mənasında işlədilir. Qədim turani öntürk dillərində hökmdar, başçı mənasında işlənən "lil", "lel", "lala" sözlərinin Azərbaycan türkcəsindəki qarşılığı "Lələ" sözüdür ki, bu söz ehtiram əlaməti olaraq böyük qardaşa və ya sayqılı, dəyərli insanlara, böyüklərə müraciət formasıdır.

Hititlərin Kheta dilini Lidiya və Karia dili ilə çox bağlayan digər bir dəlil qədim zamanlarda Lidiya və Karia ilə birlikdə yaradıldığı təsbit edilən Kheta heroqlifləridir. Bu yazılar təkcə heroqliflərdə ifadə olunan hecalardan ibarət deyil, Kiçik

Asiyanın güney və batı sahillərində aşkar edilən daş heykəllər də Khetanın mənsub olduğu eyni sistemə aiddirlər. Xappadokiyadakı Pteriya nəhəng heykəlləri də eyni xarakter daşıyaraq heroqliflərlə müşaiət olunurlar. Beləliklə, Suriyanın quzeyində mövcud olmuş Kheta irqi və sivilizasiyası erkən dövrlərdən Anadoludan Bosfora qədər mövcud olan irq və sivilizasiya ilə eyniyyət təşkil edir.

Xappadokiyada tapılmış silindirlərin üzərində heroqliflər və müxtəlif heyvanlar, at, maral, öküz, qanadlı döyüşçülər, insanbaşlı aslan, qartal başlı mələk, günəş təsvirləri vadır. Burda iki ilahə təsviri də vardır: Ana ilahə Nana və Turanlıların Venerası İstar və həmçinin at, maral və öküz turanlıların müqəddəs heyvanları idi və khetalar onları tanrılara qurban verirdilər. Kiçik Asiyadakı allahlar panteonu akkadlarla eyniyyət təşkil edirdi. (Conder R. 1890, Səh. 38-39)

Villi Bounqton yazır ki, Turanlı Xettlərin dini bu bölgənin bütün turan xalqları üçün ümumi idi. Batı Asiyanın samiləri öz dinlərini Turanlılardan əxz etmişdilər. Finikiyalıların Astarta, Efeslərin Artemidası, yunanlıların Afroditası Turanlılara mənsub idi. Xettlərin Atarqatisi Babilin Nana, kənanlıların Aştoret tanrısı idi. Xettlərin Sutex Babilin günəş tanrısı, Kaananın Vaal tanrısı idi. Xettin Karxemiş, Kadeş, Maboq şəhərləri müqəddəs şəhərlər olub hər birinin sitayiş üçün məbədləri vardı. Savaş tanrısı Sutex xettlər üçün böyük önəm daşıyırdı. Karxemişdəki Aqartisə sitayiş məbədi ən görkəmli idi. (Willis Bounghton. 1897, Səh. 118)

Suriyanın cənubundakı böyük fələstin xalqı da turan mənşəli idilər, lakin samilərlə qarışmışdılar.

Misir barelyeflərində təsvir olunan fələstinlilərin saqqalsız sifətləri qətiyyən samilərə bənzəmir. Bibliyada verilən çoxlu fələstin şəhər və şəxs adlarını ivrit dilində izahı mümkün olmur.

H.Hitziq fələstinlilərin pelasqlar olduqlarını təsdiq edir. Fələstinlilər sünnətli xalq deyildilər və turanlıların ənənəsində sünnət mövcud olmamışdır. Fələstin şəhəri Aşdod Sarqonun kitabəsində döyüşkən hittit şəhəri kimi təqdim olunur. Fələstində indi də Xatt adlı yaşayış məskənləri mövcuddur.

Fələstinlilərin turanlı olduqlarını sübut edən ilginc bir örnək fələstin rahibləri tərəfindən qapının astanasına ayaq basmağın pis əlamət hesab edilməsidir. Monqollarda da belə adət vardı. XIII əsr tarixçilərinin yazdığına görə Manqu xanın qəbuluna gələn elçilərə öncədən qapının astanasına ayaq basmamağı tövsiyə edirdilər. Qapının astanasına ayaq basaraq büdrəyən bir avropalı elçi xanla görüşdən və fəxri libasdan məhrum edilmişdir. Beləliklə, astana/kandar üzərinə ayaq basmadan tullanıb keçmək inamı fələstinliləri doğunun turan irqi ilə bağlayır. (Conder R, 1890, Səh. 41)

Belə bir inam azərbaycan türklərində də mövcuddur, qapının astanasında görüşmək və astanada büdrəmək uğurlu əlamət hesab olunmur.



Bütün bu qeyd olunan dəlillərə əsaslanaraq Mayor Konder belə bir nəticəyə gəlir ki, qədim xalqların Mesopotamiyada, Midiyada, Kiçik Asiyada və Suriyada buraxmış olduqları tarixi izlər müqayisə edildikdə buraxılan ən çox izlər türk və uqorların timsalında böyük Turan irqinə məxsus möhtəşəm izlərdir. Mədəniyyətin qədim mərkəzi ya Xəzər dənizinin güneyi, ya da Mərkəzi Asiya olmuşdur. Ancaq belə bir fakt inkar edilməzdir ki, xatti/hititlər, lidiyalılar, karilər, xappadokiyalılar və İtaliya etruskları və ya tirrenləri Türkistan tatarlarına mənsubdurlar. Konder Fələstində Suriyada araşdırmaları zamanı rast gəldiyi çoxsaylı meqalit abidələrin və dolmenləri məhz Turanlılara məxsus olduğunu qeyd etmişdir. Turanlılara məxsus bu çoxsaylı daş abidələrin və barelyeflərin bir çoxu Xanaanda yəhudi İuda krallarının zamanında dağıdılmışlar. İstisnasız olaraq yalnız Turanlılara məxsus olan bu abidələr Suriya və Fələstindən başqa, Kiçik Asiyada, Midiyada və İtaliyada da mövcuddur. (Conder R. 1890, Səh. 50)

Konder öz əsərində 100 hittit sözünün Midiya, Sus/elam, Etrusk, Türk və Monqol dillərindəki sözlərlə qarşılıqlı müqayisəsini vermişdir. Bu sözlərin böyük əksəriyyətinin türk dillərində qarşılığı müəyyən olunmuşdur.

Hititcə: Ab=ev, iqamətgah; akkadca: ab; türkcə: ev, eb, oba, ova;

Hititcə: Ai=ev; akkadca: E; Midiyaca: E; Sus/elamca: Ua; türkcə: oy, öy

Hititcə: Aka=başçı, rəhbər: akkadca: Aqa; türkcə: Ağa, aqa, aka

Hititcə: Adda=ata, türkcə=ata

Hititcə: Tur, Tar=başçı, öndər, allah; akkadca:tur, tar; uyğurca: törə=prins, şahzadə, çuvaşça:tura=tanrı

Hititcə: Tur-iqamətgah, yaşayış yeri, məskən, düşərgə; akkadca: tur=məskən, yaşayış yeri;

Türkcə: turuq, turaq=məskən, sığınacaq, yaşayış yeri; tura=qala, bürc, istehkam.

Hititcə: Tar=vadi; türkcə:Tar=tarla, dərə/tərə;

Akkadca: Sak=qəhrəman, başçı, rəhbər, birinci olan; Midiyaca: Sak=oğul deməkdir.

Hitit simvollarını əks etdirən emblemlərdə insan qurbanının təsviri verilmişdir və "TurSak" yəni ilk doğulan adlanır. (Conder R. 1890, Səh. 44, 48)

Xappadokiyada Kayseriyyə yaxınlığında tapılmış və e.q. XV əsrə aid olan qaya üzərində həkk olunmuş barelyefdə taxt üzərində oturmuş hökmdar təsvir olunur. Onun yanında kobud xətt ilə yazılmış və qismən pozulmuş mətn tarixi bir hadisəni əks etdirir. Artes adlı yabançı başçı əsir edilərək adamlarının müşaiyəti ilə öz paytaxtından Erime ölkəsinə Qauzların Tarqontim adlı işğalçı kralının hüzuruna gətirilmişdir. Tarqontim kral titulu Kiçik Asiyanın və Suriyanın digər monqol, yəni türk başçılarını xatırladır. Bu başçı hitit dilindəki digər bir emblemdə özünü "Erime ölkəsinin Tarkuntimi", yəni Erime ölkəsinin kralı, başçısı adlandırır. Tar-

kuntim Kiçik Asiyanın turani tayfalarının kral ünvanı olmuşdur. Mətnin orijinalında Erim ölkəsinin kralının tittulunu əks etdirən cümlə belədir: *"Eli an Tarquntimme Sar Mat Quza (an)... melama uri Sarutu izzau Artes Sar Mat Erime"*. (Conder R. 1898, Səh. 42)

Mətndəki Tarquntim ünvanı türklərin Tarxan ünvanına uyğundur. Göründüyü kimi Erime ölkəsi Anadolunun şərqində yerləşirdi, Hitit mətnindən də aydın olur ki, bu ölkə Quz tayfalarına mənsubdur və kralın da titulu türklərdə olduğu kimi Tarkun adlanır. Bu ölkə yunan mətnlərində Arima və Armeniya adlanmışdır. Hayklar friqiyalıların tərkibində Balkanlardan gələrək bu ölkədə yerləşmişlər və ölkənin qədim adına uyğun olaraq erima/ermən/armen adlanmışlar. İsrailin kralı Solomonun anası da bir Hittit şahzədəsi idi, yəni qanında turanlı qanı vardı. Öz kökləri ilə Mərkəzi Asiyaya Oksusun şimalındakı türklərin Xatay ölkəsinə bağlı olan Khetaların və ya Hitit dövlətinin varlığına Assuriya hökmdarı Sarqon tərəfindən son qoyuldu. Bu günkü türklərin xarakterindəki qətiyyətlilik və mübarizlik keyfiyyətləri min il ərzində Misirlilərin və Assuriyalıların qarşısında davam gətirmiş hititlərin keyfiyyətləri ilə bənzərliyini müşahidə edirik. (Conder R. 1898, Səh. 85)

Rus araşdrıcı A.Abraşkin e.ə. XVIII- XIX əsrlərdə Kiçik Asiyada mövcud olan böyük Xett dövlətinin əarazisinin e.q. V-VI əsrlərdə digər köçəri tayfalar tərəfindən istila olunduğunu və xettlərin böyük hissəsinin Çinin şımalına köçməyə məcbur qalaraq özləri ilə bərabər atları və atlı döyüş arabalarını da gətirdiklərini yazır. O zamana qədər çinlilərin bu haqda hər hansı bir təsəvvürləri yox idi. Onlar qonşu dövlətləri də özlərinə tabe edərək Çinin şimali-qərbində Qərbi Çjou dövlətini yaradıb, Çini öz hakimiyyətləri altına aldılar. Lakin saklar xettləri Çinin şərqinə doğru sıxışdıraraq Çinin şimalındakı əraziləri öz nəzarətləri altına almışdılar. O Sibirin cənubunda məskunlaşan ket, xant və çinlilərə verilən kidan/kitay adlarının öz mənşələrini bu Kiçik Asiyadan gəlmiş xettlərdən götürdüklərini yazır. O Yenisey çayının adının Kiçik Asiyadakı xettlərin Nesa şəhərinin adından, Tuva adının isə xettlərın digər bir şəhəri olan Tuvana adından yaradığı fikrini irəli sürür. (А.Абрашкин. 2008. Səh. 189)

Akademiklər N.Marr və S.Tolstov xett dilinin türk dilləri ilə dərin əlaqələrə malik olduğunu yazırlar. Xettlərin Kiçik Asiyada qalan hissəsi oğuz Lidiya dövlətini təşkil etdilər, Kir Lidiyanı işğal edib onun hökmdarı Kerezi əsir aldıqdan sonra xettlərin as (uz/oğuz) qolu öncə Azov ətrafına, sonra Baltik ətrafına və Skandinaviyaya gedərək burda baltlar-qotlar adı altında məskunlaşdılar. Bu gün də qazax türkləri içərisində baltalı boyu mövcuddur. (Закирьянов К. 2013, Səh. 38)

Uzun illər ərzində Fələstində, Suriyada və Kiçik Asiyada XIX əsrin axırlarında tədqiqatlar apararaq hitit heroqliflərini öyrənmiş və şifrələrini açan ingilis mayoru və xettşünası Konder bu heroqlifləri türklərə bağlayaraq Altay heroqlifləri adlandırmışdır. Konder xett heroqlif yazısının xett mixi yazılı mətnlərindən daha qədim olduğunu sübut edir. O bu heroqliflərlə yazılan mətnlərin ifadə etdiyi dilin altay-uqor dil ailəsinə mənsub edərək, akkad və protomidiya dillərinin də bura daxil olduğunu yazır. O bu heroqliflərin Misir heroqlifləri ilə eyni mənşəyə malik olduğunu və Çin heroqliflərinin də kökünün Altay piktoqram yazılarının təşkil etdiyi fikrini müdafiə edir. O öz tədqiqatlarını Biritaniya muzeyində saxlanan Fərat çayının sahillərindəki Karxemişdə G.Smit tərəfindən aşkar edilmiş, üzərində aslan barelyefləri olan lövhələrdəki heroqlif mətnlərin üzərində apardığını yazır. Bu Altay heroqlifilə yazılı mətnlər Türkiyədə Boğazköy və Yazılıqayada da aşkar edilmişdir.

R.Konder "Altay heroqlifləri və Hitit yazıları" adlı əsərində yazır: "Prof. Seysin Altay mənşəli qədim yazıları araşdırmaları öz mükəmməlliyi və dərinliyi ilə digər araşdırmalardan köklü şəkildə fərqlənirlər. Mənim araşdırmalarım da bir başa onun yazdıqlarının təsiri altında meydana gəlmişdir. Mən xettlərin bu heroqlif yazı sistemini Altay yazı sistemi adlandırıram, çünki bu ad ümumi xarakter daşıyır və daha əhatəli və təhlükəsiz məfhumdur. Prof. Lenorman da akkad və protomidiya dilini təhlükəsizlik baxımından altay-uqr dil ailəsinin türk və macar qolundan daha çox fin qoluna bağlamaqda haqlı idi. Altay dili məfhumu heroqliflərin bu gün Suriyanın quzeyində və Kiçik Asiyada yaşamaqda davam edən türklərin və türkmənlərin əcdadları olan irqin mənsubları tərəfindən yaradıldığı haqqında mənim kəşfimin nəticəsini daha təhlükəsiz edir. Həqiqətən də bu gün Fələstində və Suriyada yaşayan türkmənlərin bura daha sonralar gəlmiş olsalar da xettlərin təmsilçiləri olduqları haqqında mənim üç il öncə risk edərək söylədiyim fikir bu gün daha dəqiq faktlarla sübut olunur". (Conder R. 1889, Səh. 29-30)

Avropasentrist nəzəriyyəsini rəhbər tutan və zaman fərqini nəzərə almadan hər bir qədim dildə və mədəniyyətdə hind-avropa izləri tapmağa cəhd edən bilim adamları xett dilinin turani prototürk mənşəyini inkar etmək üçün ümumi xett dili anlayışını inkar edərək bu dili luvr, xappadokiya, kilikiya və s. o dövrdə Xett xalqının tərkib hissəsini təşkil edən tayfalırının dillərinə aid edirlər. Bu ona bənzəyir ki, alman dili məfhumunu inkar edərək onu ayrıca bavariya dili, frank dili, saksoniya dili, turingiya və s. dillər adlandıraraq ayıraq. Ya da Azərbaycan turkcəsini əfşar dili, qacar dili, kəngərli dili, şahsevən dili və s. dillərə bölək. Əlbəttə bu alman dili və azərbaycan dili üçün məntiqi bir yanaşma olmadığı kimi xett dili üçün də məntiqli deyil.

Konder böyük zəhmət bahasına xett heroqliflərinin şifrəsini açaraq heroqliflərin ifadə etdikləri çoxsaylı söz və cümlələrin mənasını altay dilləri ilə xüsusən də türk dillərində gerçək izahlarını vermişdir.

Kaui Sira=Kaui/kay=hakim; Sir=kral, hökmdar; akkad dilində də Kay və ya kue sözü mövcuddur və mənası sitayiş, etiqad etməkdir, (Haşiyə: Kay sözü pers dilinə

akkad və ya midiya dilindən keçmiş ola bilər. İranşünaslar Şahnamədəki Keyqubad, Keykavus adlarındakı "key" sözünü Avestadakı "Kavi" sözü ilə əlaqələndirirlər, lakin onun hitit və akkad dilindəki Kaui/kay sözündən yarandığı daha inandırıcıdır. (Conder R. 1889, Səh. 129-130)

A.Virt Khatti ərazisində məskunlaşmış turanlı tayfalar haqqında yazır: "Van gölünün cənubunda Kirxi dövləti mövcud idi. Karka adlanan Kilikialılar burdan gəlmişdilər. Onlar kaşkalarla qohum idilər. Kiçik Asiyanın Alaroidlərə aid olan dəniz xalqlarından Lukilər, kuyilər, moşlar, xaliblər, Tabal və ya Tibarlar bu ərazidə məlum olan tayfalar Turan dünyasına mənsub idilər. Tibarlar Bibliyada Tubal adlanırlar, Tabriz və Tabaristan adları ehtimal ki, Tibar və ya Tubal adlarından yaranmışdır. Midiyanın və Marqiananın qeyri ari Tapur tayfası Mərkəzi Asiyanın indiki türk xalqlarından olan Tobalarla qohumdurlar. (Wirth A. 1905, Səh. 27)

Tarak bir hitit şəxs adıdır və "Tar"ın mənası oğul və ya başçı deməkdir, "ak" isə böyük deməkdir.

Hitit silindirlərinin birində Tarakın arxasında maral təsviri var. Başqa bir silindirdə aslanın, maralın və atın üzərində tanrıların təsviri verilmişdir, arxada isə xaç formasında emblem təsviri vardır. Ümumiyyətlə, xett silindir və digər abidələrdə xaç formasındakı emblemlərə çox rast gəlinir. (Conder R. 1889, Səh. 244)

Bu faktlar xaçın turanlılara məxsur bir rəmz olduğu haqqında Murad Acdjının fikirlərini təsdiq edir.

Prof. Seys R.Konderin "Altay heroqlifləri" əsəri haqqında yazdığı tənqidi məqalədə hitit heroqlifləri dilinin sami dilində olmadığını və bu heroqlif mətnlərinin aşkar edildiyi ərazidə samilərin yaşamadığını qeyd etmiş və perslərin regiona gəlməsinə qədərki dövrdə sami dilinin məlum olmadığını yazmışdır. Xettlərin Kipr ilə əlaqəsinin mövcudluğu hamı tərəfindən qəbul olunmuşdur.

Misirin Karnak məbədi və digər abidələrdəki təsvirlərdə Xettlərin saç hörükləri, ayaqlarındakı qar ayaqqabıları və ya türk ayaqqabıları onların Altay mənşəli olduqlarını sübut edir, bu ayaqqabıları Altay xalqı olduqları qəbul edilən etrusklar da geyinirdilər. (Conder R. 1889, Səh. 251)

Turanlıların bütün Kiçik Asiyada yayıldıqlarını Lenorman da qəbul etmişdir. O hesab edir ki, Vesterqaardın, Norrisin, De Solsinin, Oppertin və Mordmanın araşdırmaları qədim Midiya dilinin bir tərəfdən türk-tatar və monqol, digər tərəfdən Xaldeyin akkad dili ilə əlaqəsini müəyyən etmişdir.

Assuriya yazılarında ifadə olunmuş çoxsaylı coğrafi və şəxs adları akkadlarla (Sumerlər) qədim Midiyanın eyni irqi mənşəyə malik əhalidən ibarət olduqlarını və bu əhalinin Kiçik Asiyanın mərkəzinə qədər yayılmış olduğunu sübut edir. Beləliklə, xettlərin də altaylı əhali qrupu zəncirinin bir həlqəsi olduğu sübut edilmiş olur. Akkad dilinin fin dili ilə əlaqəsini müəyyən edən böyük alim İsak Teylor Etruskların da Altay irqinə aid olduğunu sübut etmişdir. Etruskların akkadlarla əlaqəsinin müəyyən edilməsi Midiya və Hititlər kimi bir-birindən uzaq məsafədə yerləşən xalqlar arasında da sıx əlaqənin mövcudluğunu mümkün etmişdir. (Conder R. 1889, Səh. 252)



R.Konder Xettlərin Altay və ya Quzey Turan mənşəyinə malik olduqlarını sübut edən və bu baxımdan onları Suruyanın və Fələstinin digər əhali qruplarından fərqləndirən aşağıdakı xarakterik keyfiyyətləri müəyyən etmişdir.

1) Möhkəm və iri bədən quruluşuna malik olmaları, başlarının iri və qara saçlı olması, üzlərinin saqqalsız və almacıq sümüklərinin dik olması, qısa burun və qıyıq gözlü olmaları.

2) Dillərinin aqqlütativ-bitişik quruluşa malik olması.

3) Ruhların bütün təbiət və həyat hadisələrinin səbəbi olduğu haqqında animist etiqada malik olmaları.

4) Tilsim və ovsunlara inanaraq heyvan ayağı və quş pəncələrini boyundan, divardan asma və təsvirlərini həkk etmək.

5) Əcdadların ruhuna etiqad etmək və onların şərəfinə məbəd və ya abidə ucaltmaq.

6) Ailə münasibətlərində ekzoqamiya adəti, yəni həmişə yad tayfadan evlənmək ənənəsinə riayət etmələri.

7) Yeni doğulan uşağın gələcək uğur və səadəti üçün atanın alt köynəyinə və ya yataq əşyasına bürünməsi.

8) Bədii sənət dühasına malik olmaları, güllərə, rəsmlərə, keramik və metal emalı sənətinə sevgi. (Conder R. 1889, Səh. 272-273)

İngiltərə tarixçisi A.Kouli Xett sənətinin özünəməxsus üslubunun onu özü ilə bərabər gətirən qalib irqin xarakterindən irəli gəldiyini yazır. Onlar heroqlif yazılarının ilkin formasını da özləri ilə bərabər Qafqazdan gətirmişdilər. Qərbdəki abidələr də onlara məxsusdur. Qafqazda Azərbaycanın Gədəbəy rayonunda 1899-cu ildə üzərində müxtəlif təsvirlər olan Xettlərin kralına məxsus əsa tapılmışdır. (Cowley A. E. 1929, Səh. 34)

Kiçik Asiya yaylasının şərqində və şimal şərq hissəsində Turanlılar məskunlaşmışdılar. Klassik müəlliflər onların qalıqlarını Moşe (Meşex) və Tubal (Tebel) adlandırırdılar. Assuriya mixi yazı lövhələrində onların adları Muskai və Tuplai şəklində və paytaxtları Mazakanın adı e.q. XII-VII yüzilliklər arasında Xappadokiya düzənliyinin sakinləri kimi hər zaman yanaşı qeyd olunur. Mixi yazılarda Meşexlərin krallarının adları Turan mənşəlidir. İosif Flaviy də onları sonradan kappadokiyalıların bu regiondan şimala Gürcüstan tərəfə qovduğunu və onların ordan Qara dənizin şimal sahillərinə və çağdaş Rusiyanın cənub ərazilərinə yayılmış olduqlarını yazır. Moskavi və ya Moskova şəhərinin adı onlardan qalan yer adıdır. Qədim müəlliflər onları Turanlı iskitlər adlandırırlar. Maks Müller qədim Gürcü-

stanının və digər Qafqaz xalqlarının dialektlərini Turan dil ailəsinin görkəmli, ancaq pozulmuş ləhcələri hesab edir. (Smith P. 1888, Səh. 420)

Alaroid adlandırılan turanlı tayfalar olan axeylər Axey adasından, sardlar Sardinyadan, skillər Siciliyadan gəlmişdilər. Alaroid köçəri tayfalarının bir qismi Qafqaz və Suriya üzərindən gələrək Avropanın cənubunda məskunlaşmışdılar. Tayfalar yerləşdikləri yerlərə və şəhərlərə öz adlarını verirdilər. Turşalar Kilikiyadan və ya Lemnosdan gəlmişdilər. Sakruşalar Şərqi İrandakı (Türkistan) sakarukaları xatırladır, onların qonşuluğundakı Toxarlar isə mixi mətnlərdə Bəyazid və Xoy arasında yaşadıqları qeyd olunan Dahirləri xatırlatmaqdadır. Adları piramidlərdə qeyd olunan Takkarlar Homerin bəhs etdiyi Teukrlara uyğundur. (A.Wirth, 1905, Səh. 28)

Tarixdə İlk sikkəni pul vahidi kimi istifadə edən Lidlər qeyri ari mənşəyə malik turanlı alaroid xalqlarına mənsub idilər, onların hökmdarlarının adları da Qoqqi. Kadis, Alyatt, Ardis, Sadyatt alaroid, yəni turanlı adlarıdır. (A.Wirth, 1905, Səh. 52)

Alman tarixçisi F.Hommel hattiləri hind-avropalı deyil, aloroid, yəni sami və ari olmayan, turanlı hesab edirdi. XIX əsrin görkəmli ingilis etnoqrafı D.Brintona Xattlar haqqında bir çox etnoqrafik bilgilər verərək yazırdı ki, Xatt dilindəki Tarqathazas, Tarthisebu qalların dilində Tartontis, Turon kimi adlarla eyni səslənir və burda ön şəkilçilər olan tar, "tur", "thar", "dor" sözlər üstündə, üzərində, önündə, çarpaz kimi mənalar daşıyır. Adətən belə qəbul olunmuşdur ki, Efes ilahəsi Diana xett mənşəlidir və onun Artemida adı Anadolu sozüdür və onun sitayiş etdiyi qara konusvari daş bir meteoritdir. Bu kelt dilində "Artan"-daş deməkdir və bu sözdən Artqal, Artbran, Artobriq və s. kimi adlar yaranmışdır. (D.Brinton, 1895, Səh. 101)

Brintonun xatti dilində təqdim etdiyi adların mənası ilə həmin adların tərkibindəki sözlərin mənası eyniyyət təşkil edir.

Artemida adındakı "Art" sözü qədim türk dilində dağlıq, dağ və dağ beli mənasındadır. "Tur" sözü türkcə dur, durmaq felindəndir və nəyinsə ustündə durmaq anlamındadır. (ДТС, 1969, Səh. 55, 586)

Rus dinşünas alimi S.Qlaqolev 1902-ci ildə Dünya xalqlarının dinlərinin tarixinə həsr etdiyi əsərində Hititlərin tarixi və dini etiqadları haqqında olduqca maraqlı məlumatlar vermişdir.

S.Qlaqolev Misir dövlətinin əsas rəqibi olan Xettlərin bu qüdrətli dövlət üzərində malik olduqları təsirindən bəhs edərək yazırdı: "Misiri işğal etmiş hiksosların başlıca etnik tərkibini xettlər təşkil edirdilər. Xettlərin baş tanrısı Sutex hiksosların da tanrısı idi. Hiksoslar Misirdən qovulduqdan sonra fironlar özləri Asiya tərəfə işğalçı yürüşlər edirdilər. Misirlilər uzun illər ərzində əsas rəqibləri olan xettlərlə mübarizə aparırdılar. Misir fironu Naharin xett şahzadəsi Ti ilə evlənmişdi və o Misir tanrısı Amona etiqad etməkdən imtina etmişdi. Tinin oğlu IV Amonhotep anasının təsiri ilə Misirdə dini çevriliş edərək xettlərin tanrısı olan Günəş kultunu rəsmi din elan etdi. II Ramzes də xettlərə qarşı hərbi yürüşə başlasa da uğur qazana bilmədi və xettlərlə bağlanan sülh sazişinə görə xett kralının qızı Kheta Sir ilə evləndi". (Глоголев С. 1902, Səh. 167)

Peyğəmbər İzekiy Yerusəlimin yaranması haqqında bəhs edərkən onun atasının amorey, anasının xett olduğunu yazır. Bu məlumat xettlərlə yəhudilərin bir-birləri ilə nə qədər yaxın münasibətdə olduğunu göstərir. (Глоголев С. 1902, Səh. 167-168)

Xettlərin ən qüdrətli tanrısı Astarta ilahəsi idi. O Venera ulduzunu təmsil edirdi. Onun kultu bütün Kiçik Asiyaya yayılmışdı. Astartanı yunanlar özlərinə Atarqatis və Derketo allahları kimi qəbul etmişdilər.

Xettlərin Tar və ya Tarku tanrıları da vardı. Türk dillərində katta sözü böyük, başçı anlamı daşıyır. *Katta* Hatti mifologiyasında kral və tanrı adını ifadə edir. (Piotr Taracha, 2009 Səh. 53. )

*Taru Katta* Hattilərdə Atatanrı və Hava-göyüzü tanrısı idi. Taru tanrısının simvolu şimşək və öküz idi. Taru hititlərdə Tarxunta adlanırdı.

Xattilər Günəş və Ay tanrılarına etiqad edirdilər. Günəş dairəsi təsviri xett emblemlərində həmişə əks olunurdu. Heyvanlardan aslan, bars, at kultu mövcud idi, öküz kultu böyük önəm daşıyırdı.

Qartal kultu çox önəmli idi və günəşi təmsil edirdi. Xettlərdə iki başlı qartal xettlərin sitayiş obyekti və gerbləri idi. Orta əsrlərdə Fərat ətrafında və Suriyadakı türk bəyliklərinin gerbi də qartal idi. Parfiya dövlətinin gerbi ikibaşlı qartal olmuşdur. (Глоголев С. 1902, Səh. 176, 177)

Xettlərin sitayiş obyekti olan mühüm əşya Betil adlanan daş parçası idi. Betil daşına sitayişi yunanlar xettlərdən götürmüşlər. Xettlərin digər bir önəmli sitayiş obyekti tərəfləri düz olan üçbucaqdır. Onlar bu qeometrik fiquru güc, qüvvət və hətta həyat mənbəyi hesab edirdilər və xettlərin möhürlərinin əsas elementini təşkil edirdi. Bəzən übucağın ortasına göz təsviri əlavə edirdilər. (Глоголев С. 1902, Səh. 178, 179)

Xettlərdə həyat ağacına etiqad da onların dini inamlarında mühüm yer tuturdu. Xettlərin dini ayinləri əsasən açıq havada dağ yamaclarında həyat ağacının və ya digər sitayiş obyektlərini ətrafında yerinə yetirilirdi. Yazılıqaya abidələrindəki daş üzərindəki təsvirlərdən göründüyünə görə xett ibadətgahları üstü açıq məbədlər şəklində də mövcud olmuşdur. Öküz kultu xettlərdə önəmli yer tutduğu kimi öküzü qurban verməк də xüsusi bir ayinlə həyata keçirilirdi. (Глоголев С. 1902, Səh. 179, 181)

Hitit dilində öküz Quduş kimi ifadə olunur. Bu söz sumer dilində Qud sözünün hitit dilində "uş" fonetik əlavəsindən yaranaraq Quduş şəklini almışdır. Müm-

kündür ki, Quduş sumer dilində "öküz oğlu" anlamındakı Qutur sözünün fonetik şəklidir.

Xettlərin Betil daşına olan etiqadı türklərin yada daşına olan etiqadı aralarında bir varisliyin mövcudluğunu təsdiq edir. Əfsanəyə görə Nuh peyğəmbər turanlı türklərin ulu əcdadı olan Yafəsə Turan ölkəsinin idarəçiliyini tapşırdığı zaman ona hakiyyət rəmzi olan və gedəcəyi quraqlıq çöllərdə yaşış yağdırması üçün yada daşı vermişdi. Turanlı xettlərlə iç-içə yaşayan və qohumluq əlaqələrinə malik yəhudilər Betil daşının timsalında yada daşının türklərə məxsus olduğunu bilirdilər.

Şübhə yoxdur ki, üçbucaq xettlərdə önəmli sitayiş obyekti olan öküzün başının simvolik təsviridir, çünki bu heyvan xettlərdə və digər turani xalqlarda güc, qüvvət, həyat mənbəyi, döl mənbəyidir. Mixi və heroqlif yazılarda da üzərində iki xətt olan üçbucaq öküzün rəmzidir. Xett qaya rəsmlərində üçbucaq sitayiş obyekti kimi təsvir olunur və o tanrısal gücün bütövlüyünü ifadə edirdi.

XIX əsrdə dünyanın müxtəlif ərazilərində qədim meqalit, dolmen və tumulları tədqiq edən igilis arxeoloqu və arxitektura tarıxçisi C.Ferqusson ilana və həyat ağacına sitayişi turanlı öntürklərə xas etiqad forması fesab edirdi.

Göründüyü kimi bir çox bilim adamının Turanlı kökə mənsub hesab etdikləri xattilərlə türklərin dini inanc sistemi və etnik ənənələri arasında böyük bənzərliklər mövcuddur.

Anadoluda qüdrətli dövlət və zəngin bir mədəniyyət yaratmış olan Hatti-hititlərin turanlı və öntürk mənşəli olmaları haqqında Avropanın XIX əsrdəki görkəmli tarixçilərinin əsərləri türk tarix elminin diqqətindən kənarda qalmış, bu məsələdə avropasentrizm idealogiyasını rəhbər tutan hind-avropa konsepsiyası əsas tezis kimi qəbul edilmişdir.

Sovet dövrü tarixşünaslığında və tarix elmində də avrosentrizm ideologiyası hakim idi və görkəmli Avropa tarixçilərinin tarixin müxtəlif dövrlərinin tədqiqinə həsr olunmuş əsərlərinin yalnız hind-avropa tezisini qəbul və vəsf edən qismi rus dilinə tərcümə olunurdu.



# XIX FƏSİL. Urartu-Biayneli Turanlı dövləti

Urartu tarixi Ön Asiyanın və eləcə də Azərbaycanın qədim tarixinin ən mühüm səhifəsini təşkil edir. Lakin təəssüflər olsub ki, tariximizin bu önəmli səhifəsinin tədqiqinə lazımi diqqət göstərilməmiş, bu ölkənin və xalqın tarixi şəriksiz mülk kimi ermənilərin ixtiyarına tərk edilmişdir. Halbuki tarixi faktların da şahidlik etdiyi kimi, Van gölü ətrafı istisna olmaqla, Urartunun mərkəzi hissəsini Azərbaycan əraziləri təşkil edirdi. Bütün Güney Azərbaycan ərazisi, Naxçıvan və Göyçə gölü ətrafı, Zəngəzur, Araz çayı sahilindəki Ələmdar da daxil olmaqla qədim Azərbaycan əraziləri 300 ildən çox zaman ərzində Urartu dövlətinin tərkib hissəsini təşkil etmişdir.

Ermənilər tarixi saxtakarlığa imza ataraq heç bir əsas olmadan özlərini Urartunun varisləri hesab edirlər. Halbuki istər etnik mənşə, istərsə də dil mənsubiyyəti baxımından onların Urartuya heç bir aidiyyətləri yoxdur. Bu məsələnin onların xeyrinə şişirdilməsində Türkiyə torpaqlarına qarşı iddialarını əsaslandırmaq üçün Sovet dövrü tarixşünaslığının böyük rolu olmuşdur. Sovet dövründə tarix elmi kommunist ideologiyasının önəmli tərkib hissəsini təşkil edirdi. Kommunist partiyası rəhbərliyinin göstərişi ilə qədim tarixi ərazilər tarixi və etnik varislik ənənələri nəzərə alınmadan bu və ya digər xalqa aid edilir və həmin tarixi ərazilər üzrə elmi araşdırmalar onların müəyyən etdikləri xalqa həvalə olunurdu. Xett və hurri tarixi gürcülərə və digər Qafqaz dilli xalqlara aid edilmiş və bu sahədəki tarixi araşdırmalar onlara həvalə olunmuşdu. Urartu tarixi ermənilərin inhisarına verilmişdi. Biz isə sovet tarixşünaslıq elmi tərəfindən bizə "güzəştə gedilmiş" kiçik bəylik dövlətləri olan Manna və Atropatena ilə kifayətlənmiş, Urartu dövləti tarixini araşdırmaqdan imtina edərək onu ermənilərə güzəştə getmişik. Azərbaycan tarix elmi tərəfindən Urartu tarixinə qarşı ögey münasibət müstəqilliyimizin bu günkü dövründə də davam etməkdədir. Sovet dövründə qədim tariximizin önəmli dövrünü təşkil edən Midiya mənşə edibarı ilə irandilli elan edilmiş və İran tarixinin bir bölümünə çevrilmişdir.

Aleksey Kassianın yazdığına görə ermənilər heç bir əsaslı elmi dəlil gətirmədən özlərini hurri və urartuluların varisləri elan edirlər. Lakin müasir dövrün genetik və linqvistik ararşdırmaları bu iddiaların tamamilə əsassız olduğunu sübut etmişdir. (Alexey Kassian. 2011, Səh. 384)

Coğrafi yaxınlıq və tipoloji bənzərlik baxımından hurri-urartu dillərini hələ XIX əsrin ortalararından etibarən quzey Qafqazın şərqi-qafqaz dilləri olan Naxodağıstan dil qrupu ilə əlaqələndirirdilər. Bu ideyanı sonrakı illərdə sovet alimləri İ.Dyakonov, Q.Klimov, S.Starostin və başqa alimlər inkişaf etdirdilər. İ.Dyakonov və S.Starostin bu məsələyə aid 1986-cı ildə "Hurri-urartu dili şərqi-qafqaz dili kimi" adlı xüsusi bir monoqrafiya həsr etdilər.

Lakin son onilliklərdə 80-ci illərdən fərqli olaraq istər Quzey Qafqaz dillərinin araşdırılması, istərsə də hurrişünaslığın inkişafında önəmli irəliləyişlər əldə edildi. Bu son araşdırmalar sonucunda hurri-urartu dillərinin şimali-qafqaz dilləri ilə əlaqəsi məsələsi öz cəlbediliyini itirmiş və tərəfdarlarının xeyli azalmasına sıbəb oldu. (Alexey Kassian. 2011, Səh. 384)

Urartu adına ilk dəfə Assur kralı Salmanaserin dövründə (e.q. 1274-1245) Assur mixi yazılı mətnlərində rast gəlinir. I Salmanassar bir kitabəsində e.q. 1275-ci ildə ona qarşı üsyan etmiş olan Urartu ölkəsinə qarşı hərbi yürüş təşkil etdiyini və bu ölkəni məğlub edərək 51 şəhərini viran qoyduğunu yazır.

Assur krallarının kitabələrində onların Uruaturu və Nairi adlı iki tayfa birliyi dövlətlərinə qarşı mübarizələrindən bəhs edilməkdədir. Birləşmiş Urartu dövlətinin tarixən məlum olan ilk kralı e.q. 858-844-cü illərdə hökm sürdüyü təxmin edilən Aramu olmuşdur. Urartunun Van gölü yaxınlığında mərkəzi şəhəri Tuşpanın onun tərəfindən salındığı güman olunur. Assur kralı III Salmanassar öz kitabəsində Urartuya qarşı hərbi yürüşü zamanı Aramunun Ərzurum yaxınlığında yerləşən öz şəhəri Arzaşkundan Atturi dağlarına qaçıb gizləndiyini yazır.

Urartunun adı bir dövlət kimi tarixi mənbələrdə e.q. 845-ci ildə onun kralı Sardurun adı ilə əlaqədar Van gölünün yaxınlığında aşkar edilən bir akkad mixi yazı lövhəsində qeyd olunmuşdur.

Urartu kralları I Sardur (m.ö. 832-825) və onun oğlu İşpuni özlərini ilk öncə Nairi ölkəsinin kralları adlandırırdılar. Onlar mənşə etibarı ilə Kakia və Hubişkiya ölkəsinə mənsub idilər. Bir çox müəlliflər Kakiya və Hubişkianın Subir ölkəsinə məxsus qədim ərazilər hesab edirlər. Bu ərazi sonradan ümumilikdə Nairi adını almışdır.

Urartuluların mənşə etibarı ilə subirlər olduğu fikrini irəli sürən Artur Unqnad yazırdı: "Özlərini xaldi adlandıran Urartulular da önasiya irqinə mənsub idilər, daha doğrusu subarlar idilər. Zəncirli, Karkemiş, Tell Halafın daş abidələrində təsvir olunmuş insan tipləri e.q. 2-ci minillikdə bölgəyə gələn arilərdən öncəki xalq olan urartululara, dini və dil baxımından isə Dəclənin şərqindəki önasiya-subar insan tipinə mənsubdurlar". (Ungnad A. 1936, Səh. 177)

Müxtəlif bəylik dövlətlərinin mövcud olduğu bir ərazidə təşəkkül tapan birləşmiş Urartu dövləti e.q. IX əsrdə onun ilk hökmdarı kimi qəbul edilən Sardur tərəfindən yaradılmışdır.

Hurri dövlətinin süqutundan sonra Anadolu ərazisində yerləşən kiçik bəylik dövlətləri özlərini cənubda güclü bir dövlətə çevrilən Assuriyadan qorunmaq üçün birləşərək öncə Nairi və Uruatru adı altında iki dövlət yaratmış, sonra onlar Uruatru adı ilə vahid bir konfederativ dövlətdə birləşmişdilər.

Qədim şərq tarixi üzrə böyük avtoritet olan alman tarixçisi E.Meyerin yazdığına görə Xattilər Kiçik Asiyanın doğusundan güneyə İkiçayarasına doğru hərəkət etmiş və bu ərazidə xalqların köçlərinə səbəb olmuşdular. Khattilər İkiçayarasının sami olmayan subarlarla qohum xalq idilər. (Meyer E. Səh. 648)

Meyer Mitanni dövlətini ari mənşəli hesab edən bəzi iddialara rəğmən bu xalqın özlərini adlandırma, dil və din baxımından Kheta/hititlər olduqları fikrini irəli sürür. Samilər və misirlilər onları "Naharain", yəni su ölkəsi, su kənarında yaşayanlar adlandırırdılar, bu ad sonradan Nairi şəklini almışdır. (Meyer E. 1892, Səh. 671)

Avstriya tarixçisi Erix Fayql yazır ki, Urartu ölkəsinin önəmli hissəsini təşkil edən Nairi ölkəsinin adı türkcədir. Mixi yazılarda Nahor şəklində yazılmış adın On-ur=Oghur sözü ilə eyniyyət təşkil etdiyi kəsindir. Macarların Hunqar adı da bu kökdəndir. (Erich Feigl, Urartu, Səh. 12)

E.q. 810-cu ildə İşpinu və onun oğlu Manua dövründə Urartu öz sərhədlərini genişləndirmiş, Urmiyənin şərqi və qərbindəki Mannaya qədərki əraziləri də öz dövlətinin tərkibinə daxil edərək qüdrətli bir dövlət yaratmışdılar. Urartu kralları öz ölkəsində geniş qalalar şəbəkəsi yaradırdılar.nBu qalalar yarandıqları yerlərin adının qarşısına Uru sözü artırılmaqla Uru Tayşebau, Uru Ziuqinu adlı yaşayış məskənlərindən ibarət qala-istehkamlar formasında təşkil olunurdu.

## Urartu və Biayneli adlarının mənşəyi

Assur mətnlərində Urartunun adı çox zaman "Kur Artaya Uru" kimi qeyd olunmuşdur. Bəzən qısa şəkildə UruTur şəklində yazılırdı. Assur dilində "kur" ölkə mənasındadır, "Arta" dağ və yüksək yer anlamındadır, "ur" isə xalq, əhali deməkdir, beləliklə, bu ölkənin assur mətnlərində öz əksini tapmış "Kur Artaya Uru" adının mənası "dağlıq ölkəsinin xalqı" deməkdir.

Azərbaycan tarixçisi Zehtabi Urartu dövlətinin və xalqının adının Aratta sözündən yarandığını yazır. Urartu, Aratta, Ararat və adı Assur mənbələrində çəkilən Arateya mənası dağ beli demək olan "Art" sözündəndir. Tarixi mənbələrdən məlumdur ki, Urartu dövləti e.ə. 2400-cü illərdə Urmiyə gölü ətrafına köçüb bu ərazidə yerləşən hurri tayfaları tərəfindən yaradılmışdır. (M.T. Zehtabi, 2010, Səh. 109)

Fikrimizə görə Urartu ölkəsinin adını Beştamda yerləşən bir neçə qala kompleksindən ibarət Uru Tur sözündən yaranaraq "qala xalqı" mənasında izah etmək olar. Qədim türk dilində Tura sözü də ayrıca qala deməkdir. Qiyasəddin Qeybullayev Urartuluların dilindəki Uru sözünü qədim türk dilində nəsl, tayfa olduğunu yazır. (ДTC, 1969, Səh. 587, 615)

Bibliyada ölkənin adı sami dilində səssizlərin adlarda əks olunmadığı qaydasına uyğun olaraq "*rrt*" şəklində yazılmış, lakin nədənsə onun açılışını əslinə uyğun şəkildə Ururut kimi deyil, "a" hərfi artırmaqla Ararat kimi şərh edilmiş, buna

uyğun olaraq ölkənin ərazindəki əzəmətli dağ da Ararat adlanmışdır. Lakin artıq Avropa tarixi ədəbiyyatında dağın əsl adı Ururut kimi qeyd olunur.

Onu da qeyd etmək lazımdır ki, Bibliyaya istinadən Ararat adlandırılan bu əzəmətli dağın qədim adı Dəməşqli Nikolaus (Nikolaus von Damaskus) Nuhun gəmisinin yan aldığı Ağrı dağını Ararat deyil Bars dağı adlandırır. (Z.Ran. Səh. 40)

Smit Ağrı dağına qədim sakinlərin verdiyi adın Ararat deyil, "Argeus və ya Argiş dağ" olduğunu və "ağ dağ" anlamı daşıdığını yazır. (Smith P. Histoire ancient oft he Orient. 1888, Səh. 417)

Lakin qədim türk dilində *Ağrı* sözü "ikiyə bölünmüş, haça" deməkdir. Bu söz iki qoşa dağdan ibarət Ağrı dağının adına tamamilə uyğundur. (ДТС, səh. 15)

Urartu mixi yazı lövhələrinin ən çox aşkar edildiyi bölgələr Van gölü ətrafı ilə yanaşı Urmiyə gölü və Təbriz ətrafı ərazilərdir.

Kral Rusanın (m.ö. 735-714) şərəfinə Azərbaycanda Urmiyə gölünün quzeyində Xoy vilayəti ərazisində yerləşən Beştam adlanan şəhərdə ucaldılmış qalalar kompleksi Uru Tur adlanırdı. Şəhərin Beştam adı da bu beş qalanın cəmini özündə əks etdirir. Ölkənin Urartu adı da məhz Xoy ərazisində yerləşən Beştamdakı bu Uru Tur adından götürmüşdür. Azərbaycan ərazisində Urartu dövründə çoxlu belə qala şəhərlər mövcud olmuşdur. Beştam adının mənasının erməni və fars dilində izahı uğursuz cəhdlərdən ibarətdir. Bu söz aydın şəkildə türk dilində beş dam-beş bina və ya qala deməkdir.

Zab çayının şərqində yerləşən Musasir Urartunun mədəniyyət mərkəzi idi. Sarqonun kitabəsində yazıldığına görə Urartu krallarının tacqoyma mərasimləri Assurların Musasir adlandırdıqları Urartunun Ardi şəhərində həyata keçirilirdi (Ard/Art sözü qədim türk dilində yüksəklik, dağlıq yer deməkdir). Haldi Urartu dövlətinin ali tanrısı, onun himayədarı idi.

B.Piyatrovskinin, İ.Dyakonovun və digər müəlliflərin yazdığına görə Urartulular öz ölkələrini heç vaxt Urartu adlandırmamışlar. Onlar öz dövlətlərini *Biaineli* və ya *Biainili* adlandırırdılar ki, mənası cəm şəkildə "Biay ölkələri" deməkdir, sözün kökü "biay"-dır. (Б.Б.Пиотровски. 1959, Səh. 30)

Diyakonovun izahına görə Biaineli sözündə sözün kökü "Biay", "n" isə birləşdirici hərf, "eli" isə mənsubiyyət şəkilçisidir. (Дьяконов И, 1963, Səh. 44 )

Belə olduğu təqdirdə Biayneli adı Biay ölkəsinə mənsub olanlar anlamı daşıyır.

İ.Meşşaninov urartu dilində *aini* sözünün yer, torpaq, ölkə mənası daşıdığını yazır, o zaman *Biainili* adının mənası yenə də Biay ölkəsi demək olur.

İndiyə qədər Biayn adının dəqiq bir etimologiyasını vermək mümkün olmamışdır. Ona görə ki, Urartunu qərəzli şəkildə Ararat və Armeniya ilə əlaqələndirən və onu erməni tarixinin tərkib hissəsi kimi qəbul edən avropasentrist ruhunun hakim olduğu rəsmi tarixşünaslıq bu sözün kökünün türkcə Bəy demək olduğu, Biaynili sözünün isə mənasının Bəyliklər olduğunu inadla görməməzlikdən gəlir-



dilər. Fikrimizə görə Biaynili sözünün kökünü *Bəy* kəlməsi təşkil edir. Bu bir titul və ya hökümdar sülalənin adı ola bilər. *Biaynili* sözünün mənası Bəyliklərdir və ya Bəylərin ölkəsi deməkdir. Türklərdə *Bəy* titulunun kökü mənşə etibarı ilə öntürklər olan Urartudan gəlməkdədir.

Urartu dövləti bütün ərazisi boyunca Qala bəyliklərindən təşkil olunmuş dövlətlər birliyi idi. Urartu dövlətinin tərkibində Bit-Biay adlı ayrıca bir ölkə və bəylik dövləti də mövcud olmuşdur ki, onlar Urartu dövlətinin hakim sülalə boyunu təşkil etmiş və dövlətin adı da bu hökmran sülalə boyunun adı ilə "Biayneli", yəni Bəylərin ölkəsi və dövləti adlanmışdır.

Z.V.Toqan *Bəy* adının e.q. Türkistanda yaşamış Usunların və Doğu Türkistandakı Kuça xalqının hökmdarlarının titulu olduğunu yazır. Urartunun Bəylərin ölkəsi və ya dövlət adı və onun hökmran Bəy sülaləsi öz varlığını sonrakı türk boylarının tarixi varlığında da qoruyub saxlamışdır.

Fikrimizə görə Azərbaycanın ən qədim yaşayış məskəni olan qədim Beyləqan şəhərinin adı da kök etibarı ilə Urartunun Bəy hakimiyyət sülalə boyu ilə əlaqədardır.

Görkəmli sumeroloq Landsberqer qutların və eyni zamanda kök etibarı ilə onların bağlı olduqları subirlərin dilində "qan" sonluğunun türk dillərində də eyni məna və ifadə anlamı daşıdığını yazır. Landsberqer və Yakobsen qut dilindəki "ulu" sözünün türklərdə də eynilə "ulu, böyük" anlamı daşıdığını yazırlar. Türklərin böyük, başbuq, başçı anlamındakı "uluq" sözünün kökü də ona bağlıdır. (B. Landsberger. 1990, Səh. 31-32)

Yuxarıdakı şərhlərə əsaslanaraq Beyləqanın ilkin deyiliş formasının "Beyuluqan" şəklində olduğunu, mənasını "Ulu Bəylərin məskəni" şəklində izah edə bilərik.

Urartunun öntürk Bəy sülalə boyunun sonrakı tarixi yayılma arealını Türkistanda da izləmək mümkündür. Türküstanın əzəmətli Bayurqu boyu türk tarixində önəmli rol oynayaraq bir çox dövlətlərin yaranmasında həlledici rol oynamışdır. Əsl adları "Bay uruqu" olan Bayurqular ərəb və çin mənbələrində də öz əksini tapmışdır. Çin salnamələrində onlar "bae-qu" adlanırlar və anlamı "bay xalqı və ya boyu" deməkdir. Bayurqu boyu Baykal gölünün ətrafında məskunlaşmış və öz adlarını "Bay-köl/göl" şəklində bu türk gölünə vermişlər. Qazaxlar haqlı olaraq Bayurquları hələ e.q. I minillikdən etibarən bu ərazidə mövcud olmuş öz əcdadları hesab edirlər.

Bayurqular öz ulu əcdadları Urartu dövründən qalma öz atçılıq/ilxıçılıq ənənələrini Türkistanda da davam etdirmişlər. Yaylaq yerləri Selenqe çayı ətrafında olan Bayurqular heyvandarlıq və sənətkarlıqla məşğul olmuş və ilxıçılıqla əlaqədar bütün süvari atçılığa aid bütün ləvazimat və silahların istehsalı ilə məşğul olmuşlar. Urartu dövründə malik olduqları o əzəməti və hökmran mövqelərini qo-

ruyub saxlamağa çalışan Bayurqular öz başbuğlarını Böyük İrki adlandırırdılar ki, bu titul urartuların "hökmdar, başçı" anlamındakı "İrti və ya Eirqi" tituluna uyğundur. Bayurqu Göytürk runi kitabələrində "Yir Bayurku" (Bayurku ölkəsi) adlanırlar. Bayurqular çox zaman uyğurlarla birlikdə konfederasiya təşkil edirdilər və Göytürklərə qarşı mübarizə apararaq onlara tabe olmaqdan imtina edirdilər. Qapaqan xanı 716-cı ildə Bayurqular pusquya salıb öldürmüşdülər. Bayurqular öz varlıqlarını XVIII-XIX əsrlərdə Qazaxıstanın Kiçik Juz boy birliyinin tərkibində Bayulı (Bay oğlu) boyu olaraq davam etdirmişlər.

Urartu dövlətini təşkil edən iki əsas siyasi birlik Nairi və Urumi idi. Digər bəylik dövlətləri bu iki böyük siyasi qrumun ətrafında birləşərək konfederasiya təşkil etmişdilər. Biay və Bəy boyu dövlətin hökmran sülaləsini təşkil edirdi.

Urartunun cənub ərazisində yerləşən ölkələrdən birinin adı Şupriya adlanırdı Bu ölkə e.q. III minillikdə bir hurri/subartu ölkəsi idi, Supriya Subari adının sami dilində ifadə formasıdır. Şupriya qədimdən Arme-Urme tayfasının məskunlaşdığı ərazidir. Urartu dövlətinin yaranmasında mühüm rol oynayan bu hurri-subar boyu Urartu konfederasiyasına birləşmiş, sonradan Urmiyə gölünün ətrafında məskunlaşmış və öz adını bu gölə vermişdir.

Mixi yazılı mənbələrdə Arme, Urme, Urum şəklində yazılan bu turan tayfası Urmiyə və Van gölü arasındakı ərazidə yerləşmişdilər. Sonradan Urartu dövlətinin süqutu dönəmində Arme/Erme adlanan əraziyə gələn erməni hayklar bu tayfanın məskunlaşdığı ərazidə yerləşdiklərindən ordakı ərazinin və daha öncəki xalqın adı ilə armen/ermən adlanmışlar.

*Urumu* Mesopotamiyanın şimalında, Türkiyənin güneyində, Dəclənin yuxarı hövzəsində Mardin və Şırnak bölgəsi və Turabdin dağlarında yerləşən qədim ölkənin adıdır. Assur kralı I Tiqlatpalasar (m.ö. 1114-1076) Urum ölkəsinə qarşı hərbi yürüşdən bəhs edir. Assuriya kralları Urumu ölkəsinə dəfələrlə hərbi yürüşlər edərək xərac almışlar. (Trevor Bryce. 2009, Səh. 756)

Assurların bu hücumları qarşısında urumlar daha şimala və şərqə doğru köçlərə məruz qalmışlar. Paul Zimanskinin yazdığına görə Urartulular özlərini çox zaman Şuri və Şurel-ini, yəni Şuri ölkəsi adlandırmışlar. Bu ad urartu krallarının titullarında "Şuri ölkəsinin kralı" kimi öz əksini tapmışdır.

Şuri adının mənası müxtəlif şəkildə şərh olunur. Zimanski bu sözü Şupria, yəni Subir/subar ölkəsinin adı ilə əlaqələndirir, onu döyüş arabası, qılınc və s. mənasında da izah edirlər. (P.Zimansky, 1985, Səh. 51)

Urartu krallarının titul olraq öz dillərində isifadə etdikləri ünvanlardan biri də *Alusi* idi, bu zözün mənası "başçı/öndər" və ya "vali/qubernator" kimi izah olunur. Bu titul paytaxt Tuşpa şəhərinin hakimi, idarəçisinə aid olurdu. Urartu kralları öz ölkələrini nəzərdə tutduqları zaman özlərini Sar Mat *Biainili*, yəni Biay ölkəsinin kralı, Sar Mat Şurelnili yazdıqları zaman isə tabeçiliklərində olan digər ölkələri nəzərdə tuturdular. (P.Zimansky, 1985, Səh. 51)



Urartu kralları savaş zamanı öz ordularına şəxsən rəhbərlik edirdilər.

Sardurun Van qalasında qayaya yazdırdığı bir kitabədə döyüş zamanı əldə etdiyi uğurdan və ordunun tərkibi haqqında önəmli bilgilər verir. Həmin kitabədə iki termin diqqəti cəlb edir. Sarduri hərbi mükəlləfiyət formasında xidmətə cəlb olunan insan qrupunu *Ururda* adlandırır, döyüş zamanı məhv edilən insanları *turi* adlandırır. (P. Zimansky, Səh. 57)

Bu mətndəki "Ururda" türk dilində "ordu" sözünün ekvivalentidir, "turi" sözü türk dilində düşmən, nifrətəlayiq olan mənasındadır. (ДТС, 1985, Səh. 587)

*Şusi* sözü urartu dilində "qala" deməkdir. Sardurun kitabəsində məhsulu çəkib ölçmək istifadə olunan ölçü vahidi *Kapi* adlanır ki, bu türk dilində "qab" sözünə tam uyğundur. (P.Zimansky, 1985, Səh. 73, 74)

II Rusanın Topraqqalada tapılmış kitabəsində Urartunun tabeçiliyində olan İşqiquli ölkəsinin kralı Saqa-Tarranın Manna ölkəsinə getdiyi yazılmışdır. Bu ad Saqa Turran şəklində də ola bilər. Sak sözü bir etnonim olduğu kimi, həm də başçı, rəhbər anlamı da daşıyır.

Urartuda əyalətlər *Naqu* termini ilə adlanırdı. Bu söz kassi dilindəki *Nahiya*, yəni "nahiyə" sözünün fonetik şəklidir. Nahiya termini inzibati ərazi vahidini ifadə edirdi.

Yuxarıdakı bölümlərdə qeyd etdiyimiz kimi Assurologiya elminin bir çox görkəmli nümayəndələri Hurri, hatti, urartu, quti, midiya, manna və elam tayfaları dillərinin subir dili olduğu və bu xalqların etnik baxımdan subir/subarlara mənsub olduqları fikrini irəli sürmüşlər.

M.Salvini kral İşpuinidən başlayaraq bütün urartuluların vahid bir dildə danışdıqlarını və bu dilin nə hind-avropa, nə də sami dili olmadığını yazır. Urartu dilinin yalnız hurri dili ilə qohumluğu müəyyən edilmişdir. Salvininin fikrinə görə Urartu krallığı əhalisini vahid hakimiyyət altında birləşməsini şərtləndirən əsas amil ilk öncə onların ümumi dilə malik olmalarıdır. Daha doğrusu vahid dilə mənsub olma Urartuda kiçik bəylikləri vahid hakimiyyət altında birləşməsinin təməl ünsürünü təşkil edirdi.

Sonradan kral İşpuni tərəfindən dövlətin baş tanrısı kimi Haldi tanrısına etiqadın bütün ölkəyə şamil edilməsi xalqın birliyinin dini ideoloji əsasını təşkil etmişdir. (Salvini M. 2011, Səh. 87)

Urartu dilində çar/kral türkcəyə bənzər şəkildə "ereli" adlanırdı, hurri dilində isə "evri" adlanırdı. (Дьяконов, T I, 2012, Səh. 143)

*Ereli* hakimiyyət titulunun mənası türkcə "Elin əri-başçısı" mənasındadır. Qədim Türklər də hökmdarı urartululara bənzər şəkildə Eliq adlandırırdılar.

Almaniyada Ön Asiyanın qədim tarixinə həsr olunmuş bir əsərdəki mixi mətnlərdə Urartu krallarının özlərini Subaru (Şura) ölkəsinin və Biain ölkəsinin kralı adlandırdıqları yazılmışdır. Urartu dilində "patari" şəhər deməkdir. (Handbuch der Orientalistik. 1969, Səh. 33, 38, 39)

Bir çox müəlliflər Urartu dilini hurri dili ilə eyniləşdirirlər. Lakin M.N. van Loonun yazdığına görə Urartu dili protohurrilərin dilidir. Uratu və hurrilər bir-birlərinə çox yaxın olan dillərdə danışmışlar. Bu baxımdan onların ataları eyni etnik kökə mənsub ola bilərlər.

Nəticə etibarı ilə eyni etnik kökə mənsub olub eyni əcdaddan törəmiş olan hurrilər və urartulular köçlərə məruz qalaraq müxtəlif ərazilərdə məskunlaşmışdılar. Urartulular Anadolunun yüksək yaylalarındakı dağlıq bölgələrində yerləşmiş, hurrilər isə onlardan öncə gələrək Mesopotamiyanın qüzeyinin düzənlik ərazilərində oturaq həyat tərzini mənimsəyərək burdakı uyqarlıqlarla təmas halında olmuşlar. Bu yerləşim özəllikləri onların dillərində müəyyən fərqliliklərin yaranmasına səbəb olmuşdur. (Orhan Varol. 2005, Səh. 28)

Avstriya tarixçisi Erix Fayqın da qənaətinə görə Hurrilər və urartulular eyni etnik kökə malikdirlər, dilləri ekləmli dil olub Ural-Altay dilləri ilə bənzərlikləri vardı. Hurrilərin və hattilərin dili də eyni kökə malik olub ekləmli dillər idilər. Hurrilərin Teşup tanrısı Urartulılarda Teyşeba adlanırdı, bu tanrıların arvadları da çox bənzər şəkildə Hupa və Hepatdır. (Erich Feigl, Səh. 13)

Artur Unqnad urartuluları etnik mənşə etibarı ilə subarlar hesab edirdi. Onun fikrinə görə özlərini bəzən etiqad etdikləri baş tanrıları Haldi tanrısının adından haldi/xaldi adlandıran Urartulular da ön asiya irqinə mənsub idilər, daha doğrusu subarlar idilər. Mixi yazı mətnlərində Haldi şəklində yazılan bu tanrının əsl adı Aldi idi. Zəncirli, Karkemiş, Tell Halafın daş abidələrində təsvir olunmuş insan tipləri e.q. 2-ci minillikdə bölgəyə gələn arilərdən öncəki xalq olan urartululara din və dil baxımından Dəclənin şərqindəki önasiya-subar insan tipinə mənsubdurlar. (A.Ungnad, Subartu, 1936, Səh. 177)

Alman filosofu və tarixçisi O.Şpenqler Urartu, Hurri, Mitaniləri turanlı xarakterə malik olduqlarını, Samiram dastanı, Abram (İbrahim peyğəmbər) və Nuhun Turanlı mənşəyə malik olduqlarını yazır. Quti, Urartu, Mitanni ölkəsinin xalqları kassi dilində danışırdılar. Urumlar və Nairi biaynlar eyni xalqdırlar. (Oswald Spengler. 1966. Səh. 203)

Türk tarixçisi və urartu dili mütəxəssisi Altan Çilingiroğlu Urartu dilinin türk dili ilə yaxınlığnı müəyyən etmişdir. (Çilingiroğlu A. 1998, Səh. 149)

Urartu dövləti ilk vaxtlar Nairi və Urartu olmaqla iki hissədən ibarət olmuş, sonradan onun ərazisinə yeni-yeni torpaqlar daxil edilmişdir. İlk öncələr Nairi adı yalnız Dəclənin quzeyindən başlayıb Van gölü ətrafı ərazilərə aid edilirdi. Sonradan əsl Nairinin Urmiyə gölü və onun ətrafından ibarət olduğu müəyyən edildi. Mixi mətnlərdə Urmiyə gölü "Aşağı Nairi gölü" adlanırdı.

Urartuda əkinçiliklə yanaşı əhalisinin böyük qismini köçəriliklə məşğul olması səbəbi ilə heyvandarlıq və maldarlıq təsərrüfatı geniş inkişaf etmişdi. Urmiyə, Van, Göyçə gölünün Alman və ya Alpan adlanan otlaqlarla zəngin ərazisi bu təsərrüfat növlərinin inkişafı üçün əlverişli şərait yaradırdı. Atçılıq da çox inkişaf etmişdi və Urartu atları regionda çox məhşur idi. Alman sözünün kökünü Alm kəliməsi təşkil edir, bu söz Alp-Alb adının dəyişik fonetik formasıdır. Alman sözü Alp sözü ilə eyni mənalı olub yüksək, ucalıq, dağ yüksəkliyi, dağ çəmənliyi anlamı daşıyır.

İtalyan tarixçi Rafaele Biskione Urartunu özünəməxsus bir "qalalar dövləti" adlandırır. Əslində Urartu dövləti bu qala bəyliklərindən ibarət olan və ümumi hökmdar kral tərəfindən idarə olunan bir konfederativ dövlət idi. (Rafalele Biskione, 2002, Səh. 365)

Urartu əhalisi bu qalalardan ibarət məskənlərdə məskunlaşmışdılar, hər bir qala bir inzibati idarə mərkəzini, dini ayinlərin həyata keçirildiyi məbədləri təşkil edirdi. Müharibə zamanı əhali bu qalalara sığınaraq müdafiə istehkamı yaradırdılar. Bu qalalar öz-özlüyündə kiçik dövlətlər rolunu oynayırdılar. (Paul Zimansky. 1995, Səh. 105)

## Urartu və Azərbaycan

Urartu Azərbaycan ərazisində mövcud olmuş qədim dövlətdir və Azərbaycan tarixinin önəmli tərkib hissəsini təşkil edir. Sovet dövründə Urartu ölkəsi ermənilərə aid edilmiş və onun tədqiqi erməni alimlərinin inhisarına verilmişdir. Bu gün də Azərbaycanın tarix elmində Urartuya qarşı bir ögey münasibət mövcuddur. Bizim laqeydliyimiz sayəsində ermənilər dünya elmi dairələrinin gözündə özlərini urartuluların varisləri kimi qələmə verməyə nail olmuşlar. Halbuki Urartunun və urartuluların nə etnik mənşə, nə də dil mənsubiyyəti baxımından ermənilərə heç bir aidiyyətləri yoxdur. Bir çox görkəmli tarixçilər, o cümlədən Virth uratuluları türklərlə əlaqələndirərək yazır ki, Türk dilinə yaxın olan Urartuların dilində çoxlu türk sözləri aşkar edilmişdir, məs: bin-min, su=su, çələbi=ağa, və s. Bəzi tədqiqatçılar Urartu dilinin Culfa yaxınlığında yüksək dağ əhalisi arasında qalıqlarının mövcud olduğunu deyirlər. (Wirth A. 1905, Səh. 48)

Urartu tarixi haqqında xüsusi bir əsər yazan Meşşaninov da urartunu Subarlarla əlaqələndirir. Urartu və ya Nairi haqqında ilk tarixi məlumat Assur kralı Assuruballitin (e.q. 1410-1393) Fərat çayının şərqində yerləşən geniş əraziyə malik Subar krallığının Arzanias ölkəsinə basqınını təsvir edən salnamədə rast gəlinir. Yüz il sonra Subarlara qarşı yürüşü I Adadnirari yenidən təkrar etdi. Sonra Salmanassar və onun varisləri Subartuya, onun quzeyindəki əraziyə işğalçı yürüşlə-

rini yüz illərlə davam etdirdilər. Bu dağıdıcı yürüşlər nəticəsində Subartu dövləti süquta uğramış və uzun zamandan sonra subar tayfaları yenidən birləşərək Subartunun varisi olan Urartu dövlətini yaratmışlar. Lakin assurların Urartu üzərinə də yürüşlərini davam etdirmiş. Urartu ölkəsinə qarşı bu davamlı yürüşlər də salnamələrdə öz əksini tapmışdır. (Мещшанинов И.И. 1927. Səh. 16)

Nəticədə Assuriyanın varlığına Subartunun və Urartunun varisləri olan Midiya dövləti son qoymuşdur.

Meşşaninovun yazdığına görə assurların Urartu adlandırdığı ölkə öncə Nairi adlanırdı və sonradan Biayini adlanmağa başlayır. Görünür Biay və ya Bəy boyu ölkədə hakimiyyət sülaləsini təşkil etdikdən sonra dövləti öz adları ilə Biayneli adlandırmışlar. Dövlətin adının hakimiyyət sülalə boyunun adı ilə adlanması turanlıların tarixində olduğu kimi sonrakı türk tarixində də bir ənənə təşkil etmişdir. Səlcuqlu, Qaraxanlı, Osmanlı, Qacar və s. kimi türk dövlətlərinin adları hakimiyyət sülalə boyunun adını daşımışlar.

Assurlar və urartululara qonşu digər xalqlar mixi yazı mətnlərində Urartunu "Kur Artaya Uru", yəni dağlı ölkənin xalqı adlandırırdılar. Dyakonov Urartu mixi mətnlərində ölkənin tez-tez "Arteya" adlananan adını "Dağlar ölkəsi" kimi izah edir. O həmçinin Urartu mətnlərində Aza adlı ölkədən də bəhs olunduğunu yazır. Urartu dilində "E"-ailə, nəsl, təsərrüfat və həmçinin məbəd deməkdir. (Дьяконов И. 1963, Səh. 38)

Güney Azərbaycanının Talış dağları yaylalarında Ağ evlər qəsəbəsi yaxınlığında hürrilərə aid möhür aşkar edilmişdi. Dyakonov bu möhürün hurrilərin Urmiyə gölünün şimal ərazisi yolu üzərində yerləşən həmin ərazi ilə sıx münasibətlərin mövcud olması ilə əlaqədar ola biləcəyini yazır. Dyakonov Kheta mədəniyyətinin cənubi Qafqazda böyük təsirə malik və sıx əlaqələrin mövcud olduğunu yazır. O Qafqazın cənub ərazilərinin Urartu dövlətinin tərkibinə qatılmasının e.q. VIII əsrdə baş verdiyini yazır. Urartular bu ərazilərdə özünün çoxsaylı inzibati mərkəzlərini yaradırdılar. (Дьяконов И. 1963, Səh. 11-12)

Urmiyə gölü hövzəsi Assur kralı III Salmanassarın (e.q. 858-824) dövründən etibarən "Aşağı Nairi gölü" adı ilə məlumdur. Burda aşkar edilmış çoxsaylı urartu epiqrafik abidələri bu ərazilərin ən erkən dövrlərdən Urartu krallığının hakimiyyəti altında olduğunu göstərir. Onlar Van ətrafına burdan köçüb yerləşmişdilər. Haldi tanrısının baş məbədi də burdakı Ardi şəhərində yerləşirdi. (Salvini M. 2011, Səh. 87)

Bisütun kitabəsində Urartunun Van gölü ətrafını əhatə edən keçmiş əraziləri Armini adlanır. Beləliklə, bu adın Van gölünün ətraf ərazilərini əhatə etdiyini nəzərə alsaq, Urartu dövlətinin ən böyük ərazisini və ikinci mərkəzini Zaqros dağlarından başlamış, Urmiyə gölü ətrafı və Göyçə golü ərazisi də daxil olmaqla, Azərbaycan ərazisi təşkil edirdi.



Salvini Urartu dövlətinin ikinci mərkəzi ərazisinin mərkəzi şəhəri Bastam olan Azərbaycan ərazisinin təşkil etdiyini yazır. Bastamı Salvini Urartunun şərq ərazilərindəki ən böyük şəhəri hesab edir. Urartu kralı Minuanın dövründə Urmiyə gölü yaxınlığında Taştəpə ərazisində Mesta şəhər qalasının salınması ilə Manna ölkəsi ərazisinin istilasına başlanmışdır. Mestadan və Hasanludan başlayaraq Azərbaycan ərazilərinin Urartu hakimiyyətinə tabe edilməsi e.q. 820-810-cu illər arasında İspuini və Menua tərəfindən Naxçıvan da daxil olmaqla Arazdan şimaldakı daha uzaq ərazilərin daxil edilməsi ilə başa çatır. (Salvini M. 2011, Səh. 87-88)

Salvininin 1997-ci ildə Güney Azərbaycanın Sərab şəhərinin 20 km-də yerləşən Razlikdə aşkar etdiyi bir urartu mixi lövhəsində II Arqiştinin burda bir istehkam qala saldığından bəhs edilir. Bu müdafiə istehkam qalası "Arqiştei irdusi" adlanırdı. II Arqiştinin "Haldei irdusi" adlandırılan digər bir mixi yazı lövhəsi isə Əhərin yaxınlığında Şişe kəndində yüksək bir dağda aşkar edilmişdir. Salvini urartu dilində olan bu *irdu* sözünü "mühafizəçi" və ya "qarnizon" kimi tərcümə edir. Yəni "Haldei irdusi" Haldinin qarnizonu deməkdir. Dağın yüksək zirvəsində ucaldılaraq Azərbaycanı dörd tərəfinə nüfuz edən bu kitabə belə bir ideyanı əks etdirir ki, baş tanrı Haldi Urartuya aid bu əraziləri mühafizə edir. (Salvini M. 2009, Səh. 505)

Salvini birbaşa ifadə etmək istəməsə də, burda *irdu* sözünün türk dilində *ordu* sözünün ekvivalenti olduğu aydın şəkildə görünməkdədir və hər iki mətnin adı əslində "Arqiştinin ordusu" və "Haldinin ordusu" kimi oxunmalıdır.

Fikrimizə görə qədim yaşayış mərkəzi olan Ordubad şəhərinin adı urartuluların "irdu-bad" sözündən yaranmadır. "Bad" sözü urartu dilində sumer dilində olduğu kimi "qala, istehkam" anlamı daşıyır. Sumer Emesal ləhcəsində bu *Urudubad* şəklində ifadə olunur və anlamı yüksəkdəki şəhər və ya metalçıların şəhəri deməkdir.

Urartu dövlətinin mərkəzini Güney Azərbaycanın Urmiyə gölü hövzəsi və ətraf ərazilər təşkil edirdi. Bununla yanaşı Azərbaycanın Naxçıvan, Ordubad, Culfa, Göyçə gölü ətrafı, Zəngəzur və Arazın qarşı tərəfində Ələmdara qədər böyük ərazilər Urartunu dövlətinin tərkibinə daxil idi. I Arqiştinin quzey istiqamətində Araz və Göyçə gölü arası ərazilərə təşkil etdiyi bu səfərləri zamanı Erebuni qalası salınmışdır. Bu səfərlər zamanı Araz çayı sahilində yerləşən Qulha şəhərini də ələ keçirmək üçün o iki səfər təşkil etmişdir.

Bir çox müəlliflər Urartu dövlətinin əhatə etdiyi ərazidə Araz çayı sahilində Qulha adlı ölkənin mövcudluğu haqqında bəhs edirlər. Onlar bu ölkənin adını Gürcüstanın Kolxida ölkəsi və ordakı kolx əhalisi ilə əlaqələndirirlər. Fikrimizə görə Araz vadisində yerləşən Qulha ölkəsi bir çox qədim Urartu abidələrinin və kral İşpunu və Menuaya aid kitabələrin mövcud olduğu Culfa şəhəri və onun ətraf əraziləridir.

Urartunun Gulha şəhərini Gürcüstanın Kolxida vilayətinin adı ilə eyniləşdirilməsi elmi gerçəkliyi əks etdirmir. Çünki Gulha mixi mətnlərdə qeyd edildiyi kimi Araz çayı sahilində yerləşirdi və Gulha adının Culfa adı ilə həmahəng səslənməkdədir.

Naxçıvanın Culfa rayonu ərazisində İlanlıdağda qaya üzərində Urartu kralları İşpunu və Menuaya aid iki mixi yazılı kitabə aşkar edilmişdir. Salvini bu kitabələri tədqiq və tərcümə etmişdir.

Güney Azərbaycanın daxil olduğu Urartu ərazisində Şuşi adı ilə bir neçə qala mövcud olmuşdur. Urartuluların dilində Şuşi sözünün mənası qala deməkdir və bu söz Azərbaycanın Şuşa qalası adına tam uyğundur.

Azərbaycan və Anadolu ərazisində Nurşen və ya Noraşen adlı bir çox qədim yer adları mövcuddur. Sovet dövründə bu yerləşim yerlərinin adları erməni dili əsasında izah olunurdu. Halbuki bu Nurşen adı etimoloji baxımdan qədim urartulara mənsubdur.

Mixi yazı kitabələrində yazıldığına görə I Arqişti indiki İrəvan şəhərinin yerləşdiyi ərazini nəzarət altına almaq və burda Erebuni qalasını inşa etmək üçün Anadoludakı Hate (Hatay) və Şupadan 6600 əsgər gətirtmişdir. Bu kitabələrdə gətirilən əsgərlər urartuca *LU qunaşin* adlandırılır və M.Salvini bu ifadəni "savaş insanlar" kimi tərcümə edir. (Salvini M. 2011, Səh. 90)

Burda Urartuca *qunaşin* kəlməsinin türk dilində eyni məna kəsb edən "qoşun" sözü ilə eyni anlam daşıdığı diqqəti cəlb edir.

Bu epiqrafik abidələr Urartu dövlətinin öz ərazilərini Xəzər dənizinə doğru genişlənmə istiqamətini göstərirdi. Salvini Azərbaycanda Araz çayı sahilində urartulara məxsus Naşteban kəndinin xarabalıqlarının üzərində yüksələn təpəliklərdə də mixi yazı mətnlərinin qalıqlarını aşkar etmişdir.

S.Krollun bəhs etdiyi Güney Azərbaycanın Uşnu şəhərinin güneyindəki Kalatqah qalasını Arxeoloq Zimanski Elam dövründən mövcud olan Ujaya şəhəri və ölkəsi ilə eyniləşdirir. Mixi yazı mətnlərində Uçaya Elamın adlarından biridir. Sarqonnun kitabəsində yazıldığına görə Ujaya Urartunun ən uc nöqtəsi və Hubuşkiyaya bitişik ərazi kimi qeyd olunur. (Stephan Kroll, 2011, Səh. 160)

Ujaya adı Azərbaycanın Ucar şəhəri adında öz varlığını qoruyub saxlamışdır. Oğuz xaqan dastanında Oğuz bölgəyə hərbi yürüşləri zamanı at ilxısını Ucar yaylasında otlatdırırdı. Məlum olduğu kimi Sardur da hakimiyyət uğrunda mübarizəyə həmin ərazidən başlamışdı.

Müasir dövrdə Urartu tarixinin ən görkəmli araşdırıcısı olan İtalyalı tarixçi M. Salvini bu ölkənin tarixinə bir neçə əsərlə yanaşı "Urartunun şərq əyalətləri və İran Azərbaycanında tarixin başlanğıcı" adlı xüsusi bir əsər həsr etmişdir. Salvini Azərbaycan ərazilərini Urartunun əsas mərkəzi ərazilərindən biri olduğunu qeyd edir.

Salvininin yazdığına görə Urartu tayfalarının ilkin vətəni Subarların ölkəsində



Qərbi Azərbaycan ərazisindəki Revanduz vilayəti olmuşdur. Salvini haqlı olaraq indi İraq ərazisində yerləşən keçmişdə subarlara məxsus olan Kakia və Hubuşkiya indi isə Ravandüz adlanan vilayəti tarixi Azərbaycan ərazisi hesab edir. Urartu hökmdarları ilk öncə IX əsrin axırlarından etibarən Zaqros dağlarından şərqdəki Azərbaycan ərazilərini öz hakimiyyətləri altına almağa başlamışlar. Salvininin fikrinə görə Urartu krallığı əhalisini vahid hakimiyyət altında birləşməsini şərtləndirən əsas amil ilk öncə onların ümumi dilə malik olmalarıdır. Daha doğrusu vahid dilə mənsub olma Urartuda kiçik bəylikləri vahid hakimiyyət altında birləşməsinin təməl ünsürünü təşkil edirdi.

Urmiyə gölü hövzəsi Assur kralı III Salmanassarın (m.ö. 858-824) dövründən etibarən "Aşağı Nairi gölü" adı ilə məlumdur. Burda aşkar edilmış çoxsaylı urartu epiqrafik abidələri bu ərazilərin ən erkən dövrlərdən Urartu krallığının hakimiyyəti altında olduğunu göstərir. Onlar Van ətrafına burdan köçüb yerləşmişdilər. Haldi tanrısının baş məbədi də Assurların Musasir adlandırdıqları burdakı Ardi şəhərində yerləşirdi.

M.Salvini də Urartu dövlətinin ikinci mərkəzi ərazisinin mərkəzi şəhəri Bastam olan Azərbaycan ərazisinin təşkil etdiyini yazır. Bastamı Salvini Urartunun şərq ərazilərindəki ən böyük şəhəri hesab edir. (Salvini M. 2011, Səh. 87)

Bastam adı Beştam adının fonetik şəklidir və anlamı "beş dam və ya beş ev" deməkdir. Bastam beş qaladan ibarət möhtəşəm itehkam kompleksi idi.

Naxçıvanın Culfa rayonu ərazisində İlanlıdağda qaya üzərində Urartu kralları İşpunu və Menuaya aid iki mixi yazılı kitabə aşkar edilmişdir. Salvini bu kitabələri tədqiq və tərcümə etmişdir. Kitabədə yazılmışdır ki, Urartu kralları Sardur oğlu İşpuini və İşpuini oğlu Menuanın tanrı Haldinin himayəsi ilə Arşinea şəhərini və onun ölkəsini, Ania şəhərinin ölkəsini tabe etdilər və Puluadi ölkəsində Haldi tanrısının şərəfinə bir kitabə ucaltdılar. Puluadidə Haldinin arvadının şərəfinə buğa və inək qurban verildi. (Salvini M. 1998, Səh. 95)

Assuriyanın Urartuya qarşı təcavüzləri nəticəsində Urartu hökmdarları öz dövlətlərinin ərazisini şərqə və şimal-şərqə doğru genişləndirməyə üstünlük verirdilər. Arqiştinin Sisianda aşkar edilmiş daş kitabəsində yazılmışdır: "Mən bu yolla Amusa şəhərinə doğru yönəldim". M.Salvini Amusa şəhərini Qarabağın indiki Xankəndi şəhərinin yerində olduğunu müəyyənləşdirir. Amusa Xocalı qədim yaşayış yerinin əsgi adı da ola bilər. (Salvini M. 2009, Səh. 505)

Minuadan sonra hakimiyyətə gələn I Arqişti (m.ö. 780-756) yeni ərazilər əldə etmək üçün quzey ölkələrinə səfərlər təşkil etmişdir. Onun dövründə Göyçə gölü və Araz çayı arasındakı ərazilərdə güclü idarə/inzibati mərkəzlər qurmuşdur. Arqişti bu hərbi səfərlər haqqında çoxsaylı kitabələrində məlumat verməkdədir. Bu kitabələrdə o həmin ərazidə yerləşən Diauehe, Şiraze, Bia, Aşqalaşi, Huşa, Tariu,

Zabahae, Eriahe, İqane, Apuni kimi ölkələri tanrı Haldinin yardımı ilə tabe etdiyini yazır. (Köroğlu K. Belleten *2001, LXIV/241*. Səh. 723)

Türkiyənin Arqiştiyə məxsus Ortakənd kitabəsində və Sarıqamış kitabəsində Arqişti onun ölkəsinin ən ucqar nöqtəsində yerləşən Tariu ölkəsinə qarşı səfər edərkən yol üzərindəki Ahuria və Aştu şəhərlərinin də özünə tabe etdiyindən bəhs edilir. (Koroglu K. 2001, Səh. 726)

Ahuria indi Şərur rayonunda qədim Axura kəndi ərazisidir. Burda qədim qala xarabalığı mövcuddur. I Arqiştinin quzey istiqamətində Araz və Göyçə gölü arası ərazilərə təşkil etdiyi bu səfərləri zamanı Erebuni qalası salınmışdır. Bu səfərlər zamanı Araz çayı sahilində yerləşən Qulha şəhərini də ələ keçirmək üçün o iki səfər təşkil etmişdir. Gümrünün 8 km. quzeyində yerləşən Qanlıca kəndində tapılan Urartu kitabəsində Eriahe və İşququlu ölkələrinin tabe edilməsi də qeyd olunmuşdur. (Koroglu K, 2001, Səh. 725)

İ.Meşşaninov Urartu kralı II Sardurun (m.ö. 764-735) Azərbaycan ərazisinə Kür-Araz çayları arasına yürüşü zamanı bu ərazinin Kuxa-Albani adlandığını yazır, onun fikrinə görə Sardurun kitabəsində qeyd olunan bu ad Albaniya adının əks olunduğu ən qədim abidədir. (Мешшанинов. *И. И.* 1927, Səh. 33)

Burdakı Kuxa adı da Gulha adının dəyişik fonetik şəkli ola bilər.

Alman Urartuşünas alimi Stephan Krollun yazdığına görə Assur kralları II Sardurun m.ö. 750-ci ildəki səfəri və Salmanassarın bir çox səfərlərinin və xüsusən də 3-cü səfəri ilə əlaqədar kitabələrində verilən bilgilərə görə Azərbaycan ilk dövrlərdən etibarən Urartunun mərkəzi ərazisini təşkil etmişdir. Krollun yazdığına görə Qərbi Azərbaycan Naxçıvan da daxil olmaqla Urartulular tərəfindən fəth olunmamışdı ora e.q. IX əsrdən etibarən əzəli Urartu torpaqları idi, eyni etnik və dil birliyinə malik olan insanların yaşadıqları ərazilər işğal deyil, vahid hakimiyyət altında birləşdirilmişdi. E.q. IX əsrin ortalarından VIII əsrin sonlarına qədər Urartu ərazisinə daxil olan Azərbaycan torpaqları 150 il ərzində Assuriya krallarının basqınlarına məruz qalmışdır. Bu ərazilərin eyni etnik birliyə mənsub Urartu dövləti tərkibində birləşdirilməsi onların yüz illər ərzində Assuriyanın dağıdıcı basqınlarından qorumuş oldu. (Stephan Kroll, 2011)

Miladdan öncə IX yüzillikdə Urartu kralı Minuanın dövründə Urmiyə gölü yaxınlığında Taştəpə ərazisində Mesta şəhər qalasının salınması ilə Manna ölkəsi ərazisinin istilasına başlanmışdır. Mestadan və Hasanludan başlayaraq Azərbaycan ərazilərinin Urartu hakimiyyətinə tabe edilməsi e.q. 820-810-cu illər arasında İşpuini və Menua tərəfindən Naxçıvan da daxil olmaqla Arazdan şimaldakı daha uzaq ərazilərin daxil edilməsi ilə başa çatır. (Salvini M. 2011, Səh. 87-88)

Eyni etnik kökə malik olan Urartu və Manna arasında düşmənçiliyin əsas səbəbi Mannanın Urartunun əzəli düşməni Assuriya ilə müttəfiqlik əlaqələrinə malik olması idi.



Ağrı dağ və Van gölü arasında yerləşən və özlərini Biayn ölkəsi adlandıran Urartu əhalisini bir çox tarixçilər xaldular adlandırırlar. Halbuki Haldi urartuların tanrısı idi və bu ad etnik yox, dini mənsubiyyəti bildirirdi. Paytaxtları Tuşpa adlanırdı. Alman assuroloqu A.Vith urartu dilinin türk dili ilə yaxın qohumluq əlaqələrinə malik olduğunu yazır. "Türk dilinə yaxın olan Urartuların dilində çoxlu türk sözləri aşkar edilmişdir, məs.: bin-min, su=su, çələbi=ağa, və s. Bəzi tədqiqatçılar Urartu dilinin Julfa yaxınlığında yüksək dağ əhalisi arasında qalıqlarının mövcud olduğunu yazırlar". (Wirth A. 1905, Səh. 48)

Hitit mətnlərində Tarku Urmi ölkəsinin krallar kralı-şahlar şahı adlanır. Jensen Tarku adını Urmi ölkəsinin kralı kimi şərh edir. Tarxu adı isə tanrı adıdır. (Jensen P. Hittiter und Armenier. Səh. 70)

Urumlar Urartunun etnik yapısının başlıca boylarından birini təşkil edirdilər. Urumi ölkəsi Urmiya gölünə bitişik ərazidə yerləşirdi. Urartu dövlətinin ərazisi Van və Urmiya gölü ətraflarını əhatə edirdi.

S.Kramer Sumerin Ur şəhərinin adının sumer mixi mətnlərində Urim şəklində yazıldığını qeyd etmişdir. (Kramer S. The Electronic text Corpus of Sumerian Literature. *1963*, Səh. 28, 298)

Bu belə bir fikri əsaslandırır ki, Urartu dövlətinin əsas tərkib hissəsindən birini təşkil edən Urumlar Ur şəhərindən köçərək Mesopotamiyanın şimalında yerləşmişlər.

Türk bilim adamı Yusif Ziya Özer urumları türklərin ən qədim boylarından biri hesab edirdi. Onun yazdığına görə Dünya şəhəri Roma adı da Urum adından yaranmadır, sözün kökü Ur kəlməsidir və mənası Göy deməkdir. Romanın əsası Ur adlı türk tayfası tərəfindən qoyulmuşdur. Türk rəvayətində türklərin ulu əcdadı Börtə Çinə ilə Romul və Remin qurd tərəfindən bəslənmələri eyni mahiyyətdə olub paralel təşkil edir. İtaliyada Tarent və Brindisi şəhərlərinin arasında yerləşən Uria şəhəri də bu tayfanın adını daşıyır. Biz əminliklə deyə bilərik ki, İtaliyanın bütün xalqları və tayfaları türk mənşəlidirlər. Urumlar türklərin ən qədim tayfası olmuşdur. Türkistandakı Urumçi şəhərinin adı da onların adından gəlmədir. (Yusuf Ziya Özer, 1932, Səh. 338)

Yusif Ziyanın tezisi ilə yanaşsaq, Urartu dövlətini etnik tərkibinin başlıca hissəsini təşkil edən urumlar türk mənşəli tayfalardır, onlar öz adlarını Urmu gölünə vermiş və Urartu adı da bu tayfanın adından yaranmışdır. O Urartu sözünün kökünü Urar kimi, yəni səma insanları kimi izah edir, "tu" isə mənsubiyyət bildirən şonluqdur. (Yusif Ziya Özer, 1932, Səh. 337)

Türklərin qədim Ur tayfası Sumerdə Ur və Uriq şəhər dövlətlərinin əsasını qoymuşlar. Urdun ölkəsinin adı da Ur tayfasının adından yaranmadır. Bu tayfanın adı sumerin Ur şəhərində məskunlaşmış ön türk boyunun adındandır. Urumlar

Anadoluda məskunlaşmış Eymur və Azərbaycan ərazisindəki qədim Ayrum boyunun kökünü təşkil etmişlər.

Sumer tarixində "Uruk yayılmaçılığı və ya genişlənməsi" adı ilə bir tarixi dövr mövcud olmuşdur. Sumerin əsas iqtisadi və ticarət mərkəzi olan Ur şəhərinin əhalisi İkiçayarasında baş verən quraqlıq və iqlim dəyişikliyi səbəbi ilə yaranan böhran əkinçiliyin, sənətkarlıq və ticarətin tənəzzülə uğramasına səbəb olmuşdur. Sumerin əsas iqtisadi və ticarət mərkəzi olan Ur şəhərinin əhalisi iqtisadi böhran nəticəsində quzey və doğu ərazilərində ticarər kaloniyaları yaradaraq orda məskunlaşırdılar. Ur əhalisinin köçlərinin səbəblərindən biri də vəhşi köçəri sami amorit tayfalarının sumer şəhərlərinə basqınları idi. Bunların nəticəsində Ur şəhərinin urum adlanan əhalisi Kiçik Asiyada və Zaqros dağlarının şimalındakı ərazilərdə məskunlaşaraq orda urumlardan ibarət yeni etnik əhali qrupları yaratmışdılar.

Qədim Assur mətnlərindəki coğrafi adları araşdıran R.Kuzuoğlu da belə bir elmi nəticəyə gəlmişdir ki, Urim, Ura, Urair, Uram, Urbel (Erbil), Ursu kimi Babil, assur və hitit mətnlərində adları keçən yer və şəhər adları sumerin qədim Ur şəhərinin adı ilə bağlıdır və Ur şəhəri əhalisinin köçərək yerləşdiyi ərazilərə verilən adlardır. (Kuzuoğlu R. 2007, Səh. 169-170)

Urartu dövründə qala tikmək çətin bir iş deyildi. Erkən dəmir çağında Azərbaycanın hər yerində Urartu dövrünə aid çoxlu qalalar inşa edilmişdir. Güney Azərbaycanın Urmiya ətrafı ərazilərində, Bastamda, Maku, Xoy, Miyandov və s. yerlərində e.q. 800-cü ilə aid Urartu kralları Arqişti, İşpunu, Menua dövrünə aid çoxsaylı abidələr və mixi yazı kitabələri mövcuddur. Xoy şəhərinin yaxınlığında yerləşən və Urartunun çox önəmli istehkam qala şəhəri olan və mühüm ticarət yolları üzərində yerləşən Bastam qalasının qədim adı Rusai Uru Tur adlanırdı və Van Tuşpa qalası ilə birlikdə ölkənin ən böyük qalası idi. Qalanın fəth edildiyi zaman dağıntıya məruz qalmasından sonra onu yenidən bərpa edən kral II Rusa (m. ö. 680-655) ətraf əraziləri suvarmaq üçün Ağ çaydan çəkilən kanallar şəbəkəsi yaratmışdı. Arxeoloji qazıntılar Bastam qalasının tarixinin m.ö. III minilliyə aid olduğunu göstərir. (Stephan Kroll, 2011, Səh. 165)

Babil kralı II Sarqonun dövründə onun müttəfiqi olan Mannanın Urartunun daxili işlərinə qarışması nəticəsində Sarqon e.q. 714-cü ildə Azərbaycanın Urmiya bölgələrinə 8 dəfə hərbi səfər təşkil etmişdir. (Stephan Kroll, 2011, Səh. 155-160)

Ərmin ölkəsi Anadolunun şərqində yerləşən bir bəylik idi. Urartu krallığı Midiyalılar tərəfindən süquta uğradıldıqdan sonra, Əhəməni şahı Daranın Bisütundakı kitabəsində bu ərazinin Van gölü ətrafındakı hissəsi Armini adı ilə satraplıq kimi qeyd olunmuşdur.



Kimmer və saklar Urartu ilə hər zaman yaxın münasibətdə olmuşlar. İ.Dyakonov yazır ki, İşqi-Uqulu indiki Ermənistanın Qimri şəhəri və ətraf ərazilərini əhatə edən ölkənin adı idi və Urartuya daxil idi. (Дьяконов И. 1963, Səh. 95)

Qimri şəhərinin adı Kimmerlərin adından yaranmışdır. Görünür kimmerlər özlərini Qimri adlandırırdılar. Assur mənbəlrində də sak-kimmerlər qimirri adı ilə qeyd olunurlar.

Kimmer-sakların bir bəylik ölkəsi kimi Uratu dövlətinin tərkibində olan İşqiqulu bəyliyi Urartu ilə birlikdə Assuriyaya qarşı hərbi yürüşlərdə iştirak edirdi. Türkiyənin Topraqqala ərazisində aşkar edilən bir Mixi yazılı bəlgədə İşqiqulu kralının oğlu Saqa-Dumu-Tar Urartu kralı Arqiştinin oğlu Rusa ilə birlikdə Mana ölkəsinə gedərək Assuriyaya qarşı hərbi yürüşə qatıldıqları bildirilməkdədir. (Suzan A. Mutlu. 2017, Səh. 232)

Fikrimizə görə Sak türklərinə məxsus İşqiuquli adı "Asoğulları" adının qədim fonetik şəklidir. V.Radlov İşkuli boyunu Özbəklərdə "kırkmen üz" boy birliyinin tərkibində mövcud olduğunu yazır. (Радлов В. 1989, Səh. 103)

Urartunun tanrılar panteonu çoxsaylı tanrıları özündə birləşdirir. Urartu tanrıları baş tanrı Haldi, Teyşeba, Şivini, Hutuini ilə yanaşı Turani adlı tanrıları da mühüm yer tutur. Urartuda tanrılara verilən qurbanların miqdarı onların etiqad sistemində malik olan önəmlərinə görə müəyyən edilirdi.

Haldiyə 17 buğa və 34 qoyun, Teyşebaya 6 buğa və 12 qoyun, Şiviniyə 4 buğa və 8 qoyun, Turaniyə isə 1 buğa və 2 qoyun qurban verilirdi. Tanrıların hər biri Urartu bəyliklərində etiqad edilən tanrılardır. Ölkənin baş tanrıları ilə yanaşı hər bəylik dövlətinin öz tanrısı vardı.

Mixi yazı mətnlərində Haldi şəklində yazılan tanrının gerçək adı Q.Melikişvilinin fikrinə görə Aldi idi. O öncə Batı Azərbaycanda yerləşən assurların Musasir adlandırdıqları, urartululara məxsus Ardini ölkəsinin tanrısı idi. Yuxarı Anzafda aşkar edilən və ilkin Urartu dövrünə aid bir barelyefdə tanrı Haldi/Aldi alov dili timsalında bir geyimdə, ayaqları alov dilimləri ilə əhatə olunmuş və əlində şəfəq saçan bir nizə ilə təsvir olunur. Onun bədəninin yuxarı hissəsi isə daha uzun alov şüalarla əhatə olunmuşdur. Haldi çox zaman aslanın və ya öküzün üzərində durmuş şəkildə təsvir olunur.

İ.Meşşaninov Aldi adını Ardi kimi təqdim edir və onun Urartuluların Günəş, işıq və gündüz tanrısı olduğunu yazır. M.Salvini Haldi və ya Aldi tanrısının Teyşeba tanrısından fərqli olaraq mənşə etibarı ilə hurri və urartuluların ümumi tanrısı olmadığını yazır. Haldi ilk dəfə Urartu İşpua və onun oğlu Menuanın dövründə Urartunun baş tanrısı kimi qəbul edilmişdir. Lakin bu tanrının baş məbədinin yerləşdiyi Musasir m.ö. 714-cü ildə Assur kralı Sarqon tərəfindən fəth edilib məbəd dağıldıqdan sonra Haldi baş tanrı mövqeyini itirmişdir. Assur mixi yazılarında o Baqamaştu Ardi tanrısı kimi qeyd olunmuşdur.

Urartu tanrılar panteonuna daxil olan tanrılardan biri də Haldinin arvadı tanrıca Aruubanu idi. Arubanu Ardi şəhərinin tanrıçası idi. Onun adını Baqmaştu və ya Baqbartu kimi də oxuyurlar. J.Praşekin yazdığına görə urartuların və assurların ümumi baş tanrısı etiqad etdikləri Baqmaştu sonradan Zərdüştün dinində Ahuramazda adlandırılmışdır. (Praschek J. 1906, Səh. 114)

Urartuların Arubanu tanrıça adının müasir türk dillərində mənası gözəl, nurlu xanım deməkdir. "Banu" sözü bu gün də dilimizdə xanım sözünün ekvivalenti kimi işlənməkdədir. *Banu* sumer dilində qadınlığı bildirir və anlamı "təmiz, nurlu" deməkdir. (F.Deliztsch, 1896, Səh. 180)

Urartu eyni etnik kökə malik olduğu Mnnanı tabe etmək məqsədilə ona qarşı apardığı müharibə nəticəsində Manna dövlətinin süqutuna səbəb olmuşdur. Manna dövlətinin varisi Midiya dövləti də Kiaksarın dövründə e.q. 690-cı ildə Mannanı və Urartu dövlətlərinin varlığına son qoyaraq öz ərazisinə birləşdirdi.



# XX FƏSİL. Turanlı Maday Türkləri və Midiya dövləti

Rəsmi tarixşünaslıqda Midiya adlanan Maday dövləti Azərbaycan ərazisində mövcud olan ən qədim dövlətlərdən biridir. Midiya adı tarixi qaynaqlarda ilk dəfə Assur salnaməsində IX əsrin 30-cu illərində çəkilmişdir. Assur hökmdarı III Salmanasar (e.q. 860-825) basqın etdiyi bu ölkəni Amadai adlandırır. Digər mixi yazı mətnlərində Midiya Maday, Matay və Amaday kimi adlandırılmışdır.

Biz ilk dəfə Midiya adı ilə e.q. 836-cı ildə Assur kralı III Salmanassarın Namri ölkəsinə hərbi yürüşü ilə əlaqədar mətndə rast gəlirik. O Parsua/Barsda 27 ölkənin krallarından xərac qəbul etdikdən sonra Parsuadan Matay ölkəsinə hərəkət edərək Arazias və Qarqar ölkələrinə doğru qalxır və buranı bu bölgənin paytaxtı edir. Sonrakı dövrlərdə bu hər iki ölkələrdə mataylar və barsualar yaşayırdılar.

Parsua adı e.q. 844-cü ildən məlumdur. Barsuanı assurlar mataylarla eyniləşdirir və barsualıları midiyalı kimi qəbul etdiklərindən Assuriyanın mənəfeləri zərbə aldığı üçün onlar bura hərbi yürüş etmişdilər.

Midiya Manna ölkəsinin güney-doğusunda yerləşirdi. Mannanın Qızılbunda vilayəti hər iki ölkənin sərhəddini təşkil edirdi. Maday batı tərəfdən Namri, quzey tərəfdən Parsua ilə sərhəd idi. Adları kitabədə Amaday şəklində yazılan Maday gələcək Midiya dövlətinin özəyini təşkil etmişdir. Maday yüksəklikdə yerləşirdi ona görə də Salmanassar Arazias və Xarxara yürüşdən geri döndüyü zaman yüksəkliyə qalxdığını qeyd edir. Namri Diyala çayının mənbəyində yerləşirdi. Namridən sonra o Parsuaya doğru getmiş, sonra Maday tərəfə qalxmış, ondan sonra Araziasa tərəf hərəkət etmişdir. Madai adı assür dilinin cəm formasındadır sözün kökü isə Madadır. Oppert sözün əslinin sumer-akkad dilində Mata olduğunu yazır. Bu ad qədim midiyalıların öz dillərində də Mata şəklindədir.

Mata/Madadan başqa Zaqros dağı ətrafında Namri, Xarxar, Parsua, İlli, Quzan, Zamua və Kurrir ölkələri yerləşirdi. Madalar elamlılara qohum xalq kimi qəbul edilir. Elam dilində Mata-Matai həm ölkə həm də xalq deməkdir. (Praschek. J.V.Band 1, 1906, Səh. 10-16)

Assuriya krallarının bəzi kitabələrində Qutium adı ilə yanaşı Maday adı da yazılır. Əslində Quti və Maday xalqları ərazi etibarı ilə hər zaman qonşu olmuş və Azərbaycan və Midiyanın Mərkəzi hissəsində iç-içə yaşamışlar. Midiyalıların ölkəsi bugünkü Həştəri, Urmiyə gölünün cənubi-qərbi, Qızılözən vadisi, Zəncan, Rudbar, Xalxalın cənub ərazilərindən ibarət olmuşdur. Qutilərin ölkəsinin ərazisi isə Həmədan, Eraq, Elvəndin ətrafı, Savə, Kaşan (Kassilərin adından) və Qumun qərb tərəfləri olmuşdur. (M.T.Zehtabi, 2010, Səh. 207)

Avropanın XIX əsr bir çox görkəmli tarixçiləri heç bir şübhəyə yer qoymadan Midiyalı madları turanlı türklər, bir çoxları isə subir və elam etnosuna aid edirlər. Emil Forrer lullu və midiyalıları eyni mənşəyə malik hesab edir və Lulu xalqının öncələri bütün Midiyaya hakim olduğunu yazır. (Emil Forrer. 1926, Səh. 26)

Fransanın görkəmli tarixçisi Q.Maspero midiyalıların etnik mənşəyi haqqında yazır ki, Pamir dağlarından şimalda Altay dağlarının arasında sıxışıb qalmış türklər əfsanəyə görə dəmir dağı əridərək xilas olmuş, onların bir qolu qərbə doğru hərəkət edərək Avropaya yayılmışlar. Turanlı türklərin digər bir qolu isə güneyə doğru hərəkət edərək Baktriya çöllərində qərar tutmuş, sonra Hindiquş dağ silsiləsini aşaraq öncə İran yaylasının doğu ucqarında yerləşdilər, onların böyük kütləsi isə qərbə doğru hərəkət edib, sonradan Midiya adlanan İran yaylasının batı hissəsində məskunlaşdılar. (G.Maspero. 1876, Səh. 135)

Midiya tarixinə aid xüsusi əsər həsr etmiş alman assuroloqu E.Köniq midiyalı madayları subar mənşəli xalq hesab edərək yazır ki, Amadai, Matai və Madai adların bu xalqın subar xalqı ilə möhkəm şəkildə qarışmış olduğunu göstərir. Zaqrosun hind-avropa dillərinə qədərki dillərində "t" və "d" əvəzlənməsi xarakterik əlamət təşkil edir. Midiyanın ilk hökmdarı Dayyakunun adı bir subar adı idi. (König F.W. 1934, Səh. 8)

Mata adının e.q. VIII əsrdə Barsa adı ilə eyniləşdirilməsi hər iki adın eyni məna daşıması ilə əlaqədardır. Madaylar çox uzun illərdən bəri onlardan fərqli bir dialektdə danışan barsualılarla birlikdə Ön Asiyada məskunlaşmışdılar. Medlər İran adlandırdığımız əraziyə Türkistandan gəlmişdilər. M.ö. X yüzillikdə Ön Asiyaya gələrək Zaqros dağları ətrafında məskunlaşan Madalar burda sami dövlətləri ilə mübarizəyə başlamışlar. Madaların və digər köçəri xalqların mal, qoyun sürüləri və at ilxıları ilə bərabər yeni otlaqlar axtarışı məqsədilə Türkistandan başlayan digər xalqlarla birlikdə bu köçləri Avropanı və Asiyanı lərzəyə salmışdır. (König F.W. 1934 Səh. 10)

M.T.Zehtabi Midiya adının kökünü təşkil edən Med sözünün mənasını izah edərək yazır: "Med/Met kəliməsi e.ə. 5-4 minilliklərdə Sumer dilində "mətin", "sağlam", "dözümlü" mənasında işlənmişdir. Qutilərin Babildə 91 illik hökmranlıqları dövründə onların ilk başbuqları olan İmta adı da İmta-Met-Med-Mad sözünün ən qədim şəkli olmuşdur. (M.T.Zehtabi, 2010, Səh. 211)

Fikrimizə görə Midiya adının kökünü təşkil edən Med-Mad-Mat sözünün ən gerçək izahı İngiltərənin nüfuzlu tarix nəşri olan "Kembric qədim tarixi" əsərində verilmişdir. Bu samballı elmi əsərdə "Meta" sözü elam dilində qələbə demək olduğu yazılmışdır. Midiyalıların elam tayfalarından biri olduğunu nəzərə alsaq, bu izah gerçəkliyə tam uyğundur. (The Cambridge ancient, V-1, PART 2, 1970, Səh. 669)

Qədim turanlı öntürklərin dilində olan bu söz Hun hökmdarı Mete xanın adında əks olunmuşdur və mənası qalib gələn, qalib anlamındadır və ona bütün düş mənlərinə qalib gəlməsi şərəfinə verilmişdir.

Madalar heyvandarlıqla yanaşı əkinçiliklə də məşğul olur və bunun üçün la zım olan suvarma şəbəkəsi və kanallar da çəkirdilər. Midiya atları Ön Asiyad böyük şöhrət qazanmışdılar. Madalar bura daha öncələri köçüb gəlmiş subarlar lullubilər və qutilərlə eyni kökə mənsub idilər. Madarlar bir köçəri heyvanda xalq kimi at bəsləməkdə mahir idilər və madar atları böyük şöhrətə malik idi. On lar assurlara çoxlu at göndərirdilər. (König F.W. 1934. Səh. 13)

Midiyanın madaylar gəlmədən öncəki əhalisi subarlardan, lullubilərdən, quti lərdən, xaldeylərdən və kassilərdən ibarət idi. Ariya tez-tez təkrarlanan bir suba adıdır və iranla heçbir əlaqəsi yoxdur. (König F.W. 1934. Səh. 57)

İngilis assuroloqu Konder Ön Asiyadakı turanlı tayfaların əsl yurdlarının Zaq ros dağlarından başlayaraq şərqə doğru geniş bir ərazini əhatə edən Midiya olduğu fikrini irəli sürərək yazır ki, əsas yurdları Midiyada olan turanlılar yayılara özləri üçün biri güney-batıda Sumerlər, digəri quzey-doğuda Kassilər olan iki yuva qurmuşdular. (Conder R. 1898, Səh. 88)

R.Konder Ajdahaq-yırtıcı ilan adını Midiya hökmdarlarının sülalə adları olduğunu və Midiya hökmdarlarının Uvakşatara, Kvakşatara, Kyakşarşa adlarının Tarqitay adı Turketay adı ilə, Caqatay adı Sakatay kimi türk adları ilə eyniyyət təşkil etdiyini yazır. (Conder R. 1898, Səh. 125)

İngilis tarixçisi Georq Simit Xaldeylərin mənşəyinə dair yazdığı əsərdə midiyalıların etnik kökləri haqqında yazırdı: "Midiya sülaləsi elamlılar idilər və ya onlar elamlılarla eyni etnik mənşəyə malik idilər. Bu irq akkadlılarla (sumer) çox sıx əlaqədə idilər. Bu irq Xəzər dənizinin cənubundan İran körfəzinə qədər olan ərazidə məskunlaşmışdılar. Qədim midiyalılar güman olunduğu kimi e.q. IX əsrdən sonra heç də iranlı arilər tərəfindən şərqdəki yerlərindən sıxışdırılıb qovulmamışdılar. Onların vətəni "Karsak kurra" adlanan Şərq (yəni Zaqros) dağında idi, Akkadlar və onların qan qohumları olan midiyalı madaylar Tufandan sonra gəminin onların ilkin vətənlərindəki bu dağa yan aldığına inanırdılar. Akkadlılar həmin ölkəni öz dillərində ölkə demək olan "mada" adlandırırdılar və Midiyalıların adı da bu sözdən ibarətdir. Bu Mada ölkəsindən insanlar zaman-zaman aşağıdakı məhsuldar ərazilərə yenərək Babil ərazisində məskunlaşırdılar. Dağlı mənasında olan akkadlıların özləri də ordan gəlmişdilər. Xaldeydə uzun illər ərzində hökmranlıq etmiş kassilər də oralı idilər". (Smith G. 1880, Səh. 196)

G.Smitin bəhs etdiyi "Karsak kurra" dağı İkiçayarasının turanlı xalqlarının Zaqros dağlarına verdikləri addır və onların dilində "Sağdakı böyük dağ" anlamı daşıyır. Ümumiyyətlə, qədim mixi yazı mətnlərini araşdıran bir çox tarixçilər turanlı öntürklərin İkiçayarasına yayılmadan öncə uzun illər ərzində məskunlaşdıqları bu dağ yayalasını onların ikinci əsas vətəni hesab edirlər.

Digər bir ingilis tarixçisi Filip Smit "Qədim şərqin tarixi" adlı əsərində Midiya tarixi ilə əlaqədar tarixi ədəbiyyatda öz əksini tapmayan dəyərli məlumatlar verir.

F.Smit Midiya adının Əhəməni yazılarında Mata şəklində ifadə olunduğunu yazır. Mənası "ölkə" demək olan bu söz Turan etimalogiyasına malikdir. Midiyalılar sonradan ari hesab olunsa da, onların adı Zənd-Avestadakı mühacir ari tayfalarının siyahısında verilməmişdir. Yaradılış kitabında da Maday Yafəsin törəməsi kimi təqdim olunur. (Phlip Smith. 1888, Səh. 405)

Smit bütün qədim müəlliflərin də Midiyanın arilərdən öncə saklar və ya turan irqi tərəfindən məskunlaşdığının qeyd etdiklərini yazır. Midiyada ari işğalına qədər istifadə olunan dil Turan dilinin midya-sak dialekti idi və əhalinin ümumi danışıq dili olmuşdu. Kasdi-iskit dili Babildə hakim mövqeyə malik olan xaldeylərin əsas dili idi və Turan dilinin Xaldey-sumer dialektini təşkil edirdi, sonrakı dövrlərdə xaldeylər onu öz aralarında müqəddəs din dili kimi mühafizə etmişdilər. (Philip Smith. 1888, Səh. 351)

Bibliya yaradılış əfsanəsində Maday Yafəsin üçüncü oğludur. Yafəs və ya digər ifadə ilə Türk oğlan turanlı irqinin ulu əcdadı idi.

Tarixi ədəbiyyatda Midiya dövlətinin yaradıcısı olaraq Deyok qəbul edilir. Assuriya və Babil Midiyanı tabe etmək üçün onun ərazisinə dəfələrlə hücumlar etmişlər. Tarixin atası Herodot da Midiyanın ilk hökmdarının Deyok olduğunu yazır. Deyok adı Haqmatana kimi yazılan Ekbatanı özünə paytaxt etmişdi.

C.Raulinsona görə Deyok adı yalnız şəxs adı deyil, bir sülalə adıdır və Midiya kralları mənşə etibarı ilə turanlılara mənsubdurlar. Perslər Turanlıları özlərinə düşmən hesab etdikləri kimi, Midiyalıların turanlı olduqlarını bildikləri üçün onları da düşmən hesab edirdilər. (Nibuhr M. 1857, Səh. 176)

Herodotun yazdığına görə Deyok midiya tayfalarının toplantı yeri, yəni qurultay yeri olan Ekbatanda tayfalar birliyinin rəisi seçilmişdi. Tayfa birliyi rəislərinin, hökmdarların, xan və xaqanların qurultaylarda, qenqeşlərdə seçilməsi ənənəsi Türk-Monqollar zamanında da davam etmiş, Azərbaycanın Muğan bölgəsi hökmdarların seçildiyi tarixi qurultay yeri olmuşdur. Dyakonov "Hanqmatana adını "ham"-birlikdə və "qam"-getmək şəklində izah edir. (Дьяконов, T I, 2012, Səh. 199)

Zehtabi bu sözün Halmatan şəklində olduğunu və mənasının "Hal"-vətən, yurd, Mat-Mad-Med etnonimindən və "an" qədim türk dilində cəm şəkilçisindən ibarət olduğunu yazır. O Mad=Med sözünü həmçinin el, oba, xalq şəklində izah edir. (M.T.Zehtabi, 2010, Səh. 211)

Maday, Mad və ya Mat etnonimi sonrakı dövrlərdə Türk xalqlarında eponimə çevrilərək Altay türklərinin "Maday qara" qəhrəmanlıq dastanında xalq qəhrəmanı Maday Qaranın sərgüzəştlərini əks etdirmişdir. Matay boyu qazax türklərinin Orta juza aid olan Nayman boy birliyinə daxil olan qədim boylardandır. Matayların bir qolu da Kence matay adlanırdı. Şakerimin "Qıpçak" şəcərəsinə görə



Boyun ulu əcdadı Matay Toleqetayın oğlu və Naymanın nəvəsi idi və Qıpçak boy birliyinə daxil idilər. (Радлов B. 1989, Səh. 111, 114)

Fikrimizə görə Hanqmatan şəhərin əsl adı olan Akbatan adının təhrif olunmuş şəklidir. "Ak" sözü türk dillərində "su, axın, axıntı" anlamındadır və sözün mənası "su batan" deməkdir. Akbatan yer adı eyni mənada Sibirdə də mövcuddur. Akbatan adının digər bir izahı da "yüksəkdə olan şəhər" kimi də ola bilər.

Deyok (m.ö. təxminən 712-675-ci illər) Muq, Arizant, Buz, Strokat, Budin və Paretak olmaqla altı maday tayfasını öz hakimiyyəti altında birləşdirərək vahid Midiya dövlətini yaratmışdır. Bir çox müəlliflərin qeyd etdiyi kimi Herodot Midiyalılar haqqında məlumatı bir iranlıdan almışdır və adları təhrif olunmuş şəkildə qeyd etmişdir.

Vilhelm Şott qədim türk dilində Muqan adını öküz və buğa mənasında olduğunu yazır. Muqa-tur türk və monqol dillərində buynuzsuz öküz deməkdir. (W. Schott. 1849. Səh. 38-39)

Fikrimizə görə Muq adı "Buqa" adının *m-b* əvəzlənməsi ilə yaranmışdır. Buqaş kassilərdə baş tanrı idi. Arizant və Arazias ölkə və çay adıdır və turanlı tayfanın adını ifadə edir. Buz Elam ərazisindəki Quz/xuz etnonimini ifadə edir. Budin "bütün" sözünün ifadə şəklidir və türklərin Budun sozünün də kökünü "bütün" sözü təşkil edir.

Yusif Ziya yazır ki, Herodotun yunan dilində təhrif olunmuş şəkildə verdiyi bu midiya adlarının mənaları aydındır. Maqların türk olmalarına heç bir şübhə yoxdur. Onlar cəmiyyət içərisində ruhani kahin təbəqəsini meydana gətirirdilər. Hər qəbilə müəyyən sosial funksiyanı yerinə yetirirdi. İrəli sürülən ehtimallara görə Arizantlar-əsgər, Buzlar-əkinçi və yerli, Budilər-işçi və kölə, Strokatlar-heyvandar, Paretekatlar-çadırda yaşayan köçərilər idilər. Onlardan yalnız Arizantlar sözün əvvəlindəki "ari" sözünə görə birbaşa arilərə aid edilir. Digər beş tayfa ari olmayıb turanlı idilər. Gerçək bir həqiqət odur ki, e.ə. XII əsrdə Midiya bütün qarşı iddialara rəğmən türk və turanlı ölkəsi idi. (Yusuf Hikmet Bayur, 1930, Səh. 354)

Midiyanın paytaxtı Ekbatanın yeddi hasarla əhatə olunması bu tayfaların mərkəzi hakimiyyətə qarşı üsyanları müqabilində nəzərdə tutulan ehtiyat tədbiri idi. Turanlı qanı daşıyan tayfalar tədricən özləri üçün ümumi maday (midiya) adını qəbul etdilər. Köçəri və yarımköçəri həyat sürərək "çadırda yaşayan" və "köçəri" adlandırılan bu tayfalar öz heyvan sürüləri ilə İranın qərb və mərkəzi ərazilərinin çöllərində öz ənənəvi həyat tərzlərini davam etdirirdilər. Midiya dövləti öz hakimiyyətinin yüksəliş illərində qərbdə Qalis və Araz çaylarından başlayaraq şərqdə Hind çayına qədər geniş çöl və dağlıq sahələri əhatə edən geniş əraziyə malik idi. Qəbilələrə ayrılmış olmalarına baxmayaraq, təhlükə qarşısında dərhal birləşə bilirdilər. (З.Рагозина. 1903, Səh. 300)

Midiya Böyük Midiya və Kiçik Midiya olmaqla iki hissədən ibarət olmuşdur.

Hər ikisi də Azərbaycan ərazisində yerləşirdi.

F.Smitə görə Assur kralı II Salmanassarın Midiyanın işğalından sonra Böyük Midiya Ardalan adlanmışdır. Assurhaddon da e.q. 670-ci ildə Azərbaycandakı Bikini dağının ətraf ərazilərini əhatə edən Bikini ölkəsinə yürüş etmişdir. Smit Deyok adının qədim iran rəvayətlərindəki Midiyalıların hakim təbəqəsinə məxsus Dahhaq adı şəklində Turanlıların sitayiş etdikləri ilan olan və öz bayraqlarında emblem kimi təsvir etdikləri "yırtıcı Zöhhaq" adına uyğun gəldiyini yazır. (Philip Smith. 1888, Səh. 406)

Turanlılar Baktriya və Soqdiananın məhsuldar torpaqlarını ələ keçirmək üçün arilərlə mübarizə apardıqları zaman turanlıların digər bir qolu olan saklar Marqiana üzərindən qərbə doğru hərəkət etdi və Midiya və Zaqrosun yüksək dağ yaylalarında məskunlaşdılar. Burda turanlılar daha öncədən Midiya ərazisində məskunlaşaraq hökmran idilər və İranın mərkəzi əyalətlərinin iskit-sak xarakterinə malik olması da bunu sübut edir. (Smit P. 1888, Səh. 380)

Mixi yazı mətnlərində Kaştariti adlanan Midiya kralı Fraort (e.q. 675-653) Assuriyanın davamlı hücumlarının qarşısını alaraq e.q. 672-ci ildə ölkəsinin tam müstəqilliyinə nail oldu. Həmin dövrdə təxminən e.q. 653-cü ildə İskit/sak dəstələri quzeydən Ön Asiya ərazisinə hərbi yürüş gerçəkləşdirdilər. Assuriya sak/iskitləri öz tərəfinə çəkib Midiyaya qarşı yeni hücumlara başladı. Assuriya və iskit qoşunları ilə döyüşlərin birində Kaştariti öldürüldü. Atasından sonra hakimiyyətə gələn Kiyaksar Assuriyanın paytaxtı Nineviyanı fəth etmək üçün müttəfiq axtarışında idi. Assuriyanı bölüşdürmək uğrunda belə bir müttəfiq Babil hökmdarı Nabupalasar oldu, Kiyaksar öz qızını Nabupalasarın kiçik yaşlı oğluna verdi.

Midiya dövləti Kiyaksarın (e.q. 625-585-ci illər) hakimiyyəti dövründə öz yüksəliş dövrünü yaşamışdır. E.q. 625-ci ildə Kiyaksar şimaldan, Nabupalasar cənubdan hücum edib qələbə çalma ərəfəsində olanda qəflətən iskitlərin çoxsaylı ordusu midiyalılara hücum etdilər.

28 il ərzində iskitlər Asiyada ağalıq edərək hər yeri darmadağın etdilər. Misirə qədər getdilər, onlardan ən çox zərər görən midiyalılar oldu. Kiyaksar onların başçısını dəvət edərək hiylə ilə öldürdü. Asiya iskitləri heç şübhəsiz turan irqinə mənsub idilər. Çingizin və Teymurun orduları onların varisləri idilər. Bunlar həmin xalqıdırlar ki, Kir Yaksartın arxasında onlarla müharibədə məğlub oldu və öldürüldü. Kiyaksarın zamanında Fələstinə hücum edərək dağıdan iskitlər də turanlılar idilər. (F.Lenormant. 1884, Səh. 122)

Kiaksar ilk növbədə 28 il ölkəsində ağalıq edən sakların başçısı Madini e.q. 625-ci ildə dəvət etdiyi bir ziyafətdə yoldaşları ilə birlikdə qətl edərək sak hökmranlığına son qoydu. Güneydə yerləşən Fars əyalətini də Midiyanın tərkibinə daxil edən Kiaksar Urartu və Manna ərazisini də Midiyaya birləşdirərək bu dövlətlərin varlığına son qoymuşdur. Kiaksarın ən böyük qələbəsi Midiyaya qarşı həmişə böyük təhlükə təşkil edən Assuriya üzərində olmuşdur. Babil ilə ittifaqa girən Kiaksar e.q. 616-612-ci illər ərzində Assuriyaya qarşı uğurlu müharibə apararaq onun bir çox şəhərlərini, o cümlədən paytaxt Nineviyanı tutub taladı və e.q. 605-ci ildə Assuriya ərazisi iki dölət arasında bölüşdürülərək varlığına son qoyuldu. Ön Asiyanın ən qüdrətli dövlətinə çevrilən Midiya batıda Anadolunun mərkəzindən başlamış, doğuda Hind çayına qədər olan böyük bir ərazini əhatə edirdi.

Ari irqinə mənsub olan İran əhalisi Okus çayı ətrafındakı öz ibtidai yerlərini tərk edib yeni yurd axtarmaq üçün qərbə doğru hərəkət edərək Midiyaya və Parsuaya gəldilər, onların digər qolu isə Hindistan istiqamətinə yendilər. İranlılar Kirmanda yerləşdikləri zaman Midiyada güclü müqavimətə rast gəlmədilər. Turanlılar Midiyanın əsas xalqı idilər. İranlılar işğalçılar kimi gəlmişdilər. Tezliklə ağalıq uğrunda turanlılarla iranlılar arasında şiddətli mübarizə başladı və on illərlə davam etdi. (Lenormant F. 1895, Səh. 93)

Öncə Urmiyə gölünün güneyində turanlılardan ibarət Barsua/Parsua ərazisi və ətrafında yerləşən iranlılar sonradan güneyə doğru irəliləyib həmin adla Parsumaş ərazisində paytaxtları Pasargad olan öz dövlətlərini yaratdılar. Midiya Parsumaşı da özünə tabe etmişdi.

Kiaksarın oğlu Astiaqın dövründə Midiya ilə Babil arasında münasibətlər gərginləşmiş, ölkə daxilində hökmdarla zadəganlar arasında qarşıdurma güclənmişdir. Hakimiyyətdəki farsmeyilli qüvvələr başda sərkərdə Harpaq olmaqla Fars vilayətinin satrapı Kambizin oğlu Kir ilə əlaqəyə girərək Astiyaqa qarşı qiyam qaldırmışlar. Kir Astyaqın qızı Mandananın və Fars hakimi Kambizin oğlu idi. Kir üsyançı fars əyanlarının köməyi və Sərkərdə Harpaqın yardımı ilə üç il davam edən müharibə nəticəsində ölkənin paytaxtı Ekbatanı ələ Keçirmiş və babası Astiyaqı əsir almışdır. Bununlada m.ö. 550-ci ildə 127 il mövcud olmuş qüdrətli Midiya dövləti xəyanət nəticəsində süquta uğramış və hakimiyyətə fars Əhəməni sülaləsi yiyələnmişdir.

Böyük tarixçi assuroloq Oppert İranlıların şərqdən gələrək Midiyada yerləşməsini və sonra orda hakimiyyəti ələ keçirmələrini İran Turan mübarizəsinin tərkib hissəsi kimi şərh edərək yazırdı: "Uzunmüddətli mübarizədən sonra İran Turan üzərində qələbə çaldı, lakin onu məhv edə bilmədi. Bu müharibənin sonu idi. Lakin iranlılar başarısızlığa uğradılar, turanlılar milli varlıqlarını qoruyaraq aristokrat təbəqəni təşkil edib möhkəmləndilər. Bir-birindən qətiyyətlə fərqlənən iki xalqın birgə yaşayışı çətinliklərlə müşaiyət olunurdu və iki irqin mübarizəsi dini müstəviyə keçdi. Onların dini sistemləri arasında böyük fərqliliklər var idi. Midiya hind-avropalıların axınına məruz qalsa da, onun əhalisi keçmişdə olduğu kimi indi də böyük Turan ailəsinə mənsubdur. Midiya dilində Tur adı öz dillərində "oğul" deməkdir (böyük oğul və ya ailənin başçısı deməkdir, kasdo/skif dilində "tur", midya/skif dilində isə "sak" oğul deməkdir). Midiyada arilərin işğalından

sonra əyan və aristokrat təbəqə perslərdən ibarət olsa da, əhalinin aşağı təbəqədən ibarət olan əksəriyyətini təşkil edən turanlı midiyalılar hakimiyyət uğrunda mübarizədən heç vaxt əl çəkmədilər. (J.Oppert. 1865, Səh. 9, 10)

Ölkəni işğal edən iranlılar yalnız hakim təbəqəni təşkil edərək azlığa malik idilər. Əhalinin böyük kütləsi öz doğma dilində danışmaqda davam edirdi, hətta Əhəmənilər məcbur olub Madilərin turani dilini sarayın əsas dəftərxana dili etmişdilər. (Lenormant, Origines historikues de l'Humanite, səh. 309)

İran və Turan irqinin mübarizəsi sonradan dini müstəviyə keçmişdir. Onların dini sistemləri arasında böyük fərqliliklər var idi. İranlıların gətirdikləri zərdüştlüklə midiyalıların maq dini arasında ziddiyətlər mövcud idi. Maqlar aristokratik təbəqənin əsasını təşkil edirdi. Xeyirlə şərin mübarizəsindən ibarət dualizm sisteminə əsaslanan Zərdüştlük Asurların dinindən bütpərəstliyi və çoxallahlığı əxz etmişdi. (F.Lenormant. 1895, Səh. 94)

Sovet tarixşünaslığının rəsmi konsepsiyasına görə midiyalılar hind-avropa mənşəli irandilli tayfalar olub e.q. IX əsrdə iran tayfaları ilə birlikdə gələrək İran yaylasında yerləşmişdilər. Rus-sovet tarixçiləri Midiya ərazisində daha öncə mövcud olmuş və maday tayfaları ilə eyni kökdən olan Quti, lullubi və manna tarixi gerçəkliyini görməməzlikdən gələrək midiyalıları hind-avropa mənşəli və ariyani hesab etdikləri midiyalıları e.q. IX əsrdə farslarla birlikdə İranın qərb və mərkəzi bölgələrinə gəldiklərini iddia edir və ariyani farsları və midiyalıları İran regionunda mədəniyyətin ilk yaradıcıları hesab edirlər.

İran tarixçiləri Madaları və Partları (Parflar) hər hansı bir sübuta ehtiyac duymadan qəti şəkildə aryani kimi qələmə verirlər. Onların da farslarla birlikdə e.ə. IX əsrdə bölgəyə gəlib yerləşdiklərini iddia edirlər. Halbuki elmi gerçəklik bunun tamamilə tərsinədir. Çünki Orta Asiyadan gəlmə eklemli (aqqlütativ) dilli xalqlar, tayfalar və ellər arilərdən üç min il öncə istər İranda, istərsə də Azərbaycanda müxtəlif dövlətlər quraraq hakimiyyət sürmüşlər. Dərin araşdırmalar arilərin e.q. IX əsrdən başlayaraq Ön Asiyaya gəlməyə başladıqlarını dəlillərlə sübut etməkdədir. Arilər özlərinin ilkin vətəni hesab etdikləri İranın Fars vilayətinə Bəsrə körfəzi sahillərinə gəlmədən öncə burda sami xalqları, elamlar və sumerlər yaşamaqda idilər. (M.T.Zöhtabi. 2010, Səh. 28, 39)

XIX əsr Avropanın görkəmli tarixçilərinin əksəriyyəti Midiya tarixi və midiya etnosunun mənşəyi haqqında tam fərqli mövqeyə malik idilər. Bu tarixçilərin qədim mixi yazı mətnlərinə və arxeoloji dəlillərə əsaslanaraq Midiya tarixi haqqında elmi gerçəklikləri əks etdirən əsərləri rus dilinə tərcümə edilməyərək görməməzlikdən gəlinmiş, elm aləmi, geniş oxucu kütləsi üçün naməlum qalmışdır. Onların əsərləri rus-sovet və azərbaycan sovet tarixçilərinin midiya tarixi haqqındakı saxta uydurma konsepsiyalarını tam şəkildə təkzib edirlər. Onlar Midiya xalqını turanlı türk, dillərini isə onların xaldey adlandırdıqları Sumer və akkad, o cümlədən iskit, tatar, türk dilləri ilə qohum dil hesab edirdilər.

Midiya tarixi üzrə görkəmli mütəxəssis Y.Oppert Midiya dili və tarixi haqqında bəhs edərək yazır: "Bihisütunda I Daranın üç dildə yazdırmış olduğu kitabənin birinci siradakı mətni Zənd dilinin bənzəri olan qədim farscadır, üçüncü mətn babilcədir, ikinci mətn isə hansı dildə yazıldığı mübahisələrə səbəb olmuşdur. Mən bu mətnin midiya dilində yazıldığını qətiyyətlə söyləyirəm. Mən bunu təsdiqləyən bir, çox digər dəlillər də gətirə bilərəm ki, bu yazını yazanlar Midiyada yaşayan turan tayfalarından başqası ola bilməzlər. Başqa bir dəlil kral adlarıdır. Herodotun öz əsərində verdiyi midiya krallarının Dayaukku, Vak-iştara, Arsee-uqqi kimi adları Ktesi səlnaməsində Dahyuka, Uvakhşatara, Arstiyuqa kimi yazılaraq mənası farslar tərəfindən dəyişdirilib arianiləşdrilsə də, bunlar turani adlardan ibarətdir. Bihisütun kitabəsində Midiyalılara qohum dil olan suslu elamlara aid olan bu adlar qəsdən ariləşdirilərək təhrif olunmuşlar. Bu onu sübut edir ki, fəxri fars dilindən sonra ikinci yeri tutan bu dil midiya sülaləsinin dilidir. Herodot midiyalıların əvvəlcə arilər adlandırıldıqlarını yazır. Lakin faktlarla müəyyən olundu ki, medler arilərdən tamamilə ayrıdırlar. Midiya xalqı və med adı qətiyyən aricə deyil, midiya sümercə mada, yəni ölkə deməkdir. Sonradan ari düşüncəsini sahiblənmiş perslər və sasanilər hakimiyyəti zəbt edərək Midiyada farslaşdırmanı həyata keçirmiş və qeyri ari adı olan Midiya adını tarixdən silmişlər ki, bu gün Midiya artıq İran adlanmaqdadır. Mada sözü cəm halındadır. Madape sözü xalqın mənşə kökü̈dür onlar müvəqqəti olaraq arilər üzərində hakimiyyət quraraq öz sülalələrini onlara qəbul etdirdilər. Bihisütundakı kitabədə ikinci yazı midiya dilində olub onlara məxsusdur. Qədim fars dilində və babil dilindəki mətndə Midiyanın paytaxtı Raqu şəhəri haqqında "Midiyada yerləşən" şəhər ifadəsi midiya dilindəki mətndə qeyd olunmamışdır. Kitabədəki ikinci mətnin təhlili və tərcüməsi onun midiya dilində yazılmış olduğunu göstərir. Mən bütün dəlillərə əsaslanaraq əmin oluram ki, bu mətnin yazıldığı dil və bu dildə danışan xalq ari deyil, turani mənşəyə malikdirlər". (J.Oppert. 1876, Səh. 1-7)

Rus tarixçi Raqozinanın yazdığına görə "Pers əhalisi midiyalılarla qarışıq deyildi. Perslər qarşılaşdıqları zaman zərif midiyalıları hər cəhətdən təqlid etməyə başladılar. Onlar midiyalıların geyindiyi və yunanlılar tərəfindən "midiyalı xalatı" adlandırılan geyimlərini də özəlləşdirdilər. İranlıları öz əsarəti altına almış aristokratik hakim təbəqəni təşkil edən bu xalq başqa mənşəyə malik olub qeyri irani və köçəri idilər". (Ragozina 3, 1888, səh. 278)

Midiyalı madayların dilinin ilk yazılı nümunəsi Daranın Bisütun qaya kitabəsindəki ikinci mətndə əks olunmuşdur. Bu mətnin Rauilsondan sonra ikinci tədqiqatçısı olan ingilis filoloqu, linqvisti və şərqşünas assuroloqu Edvard Norris həmin mətndəki dilin mənşəyi haqqında yazırdı ki, "Albay Roulinsonun mənə verdiyi mətni araşdırıb oxudum və Raulinsondan sonra mən ikinci olaraq bu yazını

iskit yazısı adlandırdım. Bu dil türk və monqol dilinə də yaxındır. İskit yazısının hansı dövrdən istifadə olunmağa başlandığı tam məlum deyil, lakin Kirin Murqabda aşkar edilmiş və e.q. IV yüzilliyə aid olan yazısının iskit dilinə tərcümə edilmiş qısa mətni iskit yazısının ilk nümunəsidir. Görünür bi yazı Kirə qədər istifadə olunmamışdır. E.q. 405-ci ildə hakimiyyətə başlamış Atrakserks Mnemonun Suzda tapılmış yazısını da bu yaxınlarda əldə etdim. İskit adlandırdığım bu dil Persiyada yaşayan köçəri bir xalqın dilidir. Bu dil Avropanın şərqində onun Asiya ilə birləşən yerdə tatar dilinin bir qoludur. (Norris E. 1852, Səh. 1-2)

Əlbəttə Norrisin bu dilin Kirə qədər istifadə olunmamışdır fikri ilə razılaşmaq olmaz, ədəbi bir yazılı mətn şəklində əks olunmuş bu dil heç şübhəsiz daha qədim zamanlardan etibarən istifadə olunaraq cilalanmış bir yazılı dil şəklini almışdır.

Lenorman midiya dilini turan dil ailəsinin antik dövrə aid yazılı sənədlərə malik olan və ilkin Xaldey-sumer dilinin yaddaşı olan yeganə dil hesab edir. Eyni kökə malik olan Akkad dili ilə midiya dilinin müqayisəsi bizim üçün mühüm əhəmiyyət daşıyır. Midiya dili Midiyanın arilərə qədərki dilidir. Əhəmənilər bu dilin əhəmiyyətini dərk edərək onu dövlətin rəsmi dəftərxana dili hesab etdilər. (F.Lenormant, 1875, Səh. 313)

Z.Raqozina da midiya tayfalarını elam və Turani kökə mənsub olduğunu təsdiq edərək yazırdı: "Mardlar İraq ərazisində Farsdan qərbə doğru yüksəkliklərdə yaşayan köçəri mənşəli xalq idilər. Medlər elam və kassilərlə eynilə oxşar xalqlar olub indi Bəxtiyarilərin yaşadıqları dağlıq ərazilərdə məskunlaşmışdılar. Onların dili aqqlütativ tipə mənsub olub yunanlıların Susian adlandırdıqları Elamda danışılan dilin eyni idi və qədim sumer, akkad dillərinə sıx bağlı idi. Həmçinin onlar aqqlütativ Ural-Altay Turan dilinə mənsub idilər". (Ragozina З., 1888, Səh. 278)

Lenorman Akkad adlandırdığı sumer dilində və Midiya dillərindəki 39 sözü nümunə üçün qarşılaşdıraraq onların yüzdə doxsan faiz eyni məna kəsb etdiyini müəyyən etmişdir. Onun fikrinə görə Assuriya yazılarında ifadə olunmuş çoxsaylı coğrafi və şəxs adları akkadlarla qədim Midiyanın eyni irqi mənşəyə malik əhalidən ibarət olduqlarını və bu əhalinin Kiçik Asiyanın mərkəzinə qədər yayılmış olduğunu sübut edir. Beləklə, xettlərin də altaylı əhali qrupu zəncirinin bir həlqəsi olduğu sübut edilmiş olur.

Akkad dilinin fin dili ilə əlaqəsini müəyyən edən böyük alim İsak Teylor Etruskların da Altay irqinə aid olduğunu sübut etmişdir. Etruskların akkadlarla əlaqəsinin müəyyən edilməsi Midiya və Hititlər kimi bir-birindən uzaq məsafədə yerləşən xalqlar arasında da sıx əlaqənin mövcudluğunu mümkün etmişdir. (Conder R. 1889, Səh. 252)

E.q. III əsrdə yaşamış Babil tarixçisi Beroz Qutilərin 21 sülaləsini Midiya sülaləsi kimi təqdim edir. Rus tarixçisi Diyakonov Zərdüştün də adının yazıldığı bu Quti sülalələri siyahısını öz dövlətlərini Quti ərazisində yaratmış midiyalılarla qutilər arasında təbii varislik əlaqəsinin mövcudluğu ilə izah edir. Dyakonov yazır ki, e.q. IX-VIII əsrlərdə Midiyanın bütün ərazisində, o cümlədən onun tərkib hissəsi olan indiki Cənubi Azərbaycan ərazisində Assur mənbələrinə görə quti, lullubey, manna və kassi dilləri yayılmışdı. Bu dillər bir tərəfdən qədim mədəniyyətlər yurdu olan Elam dillərinə, digər tərəfdən də Şimali Azərbaycan ərazisində yayılmış alban, kaspi və digər dillərə qohum idi. (Дьяконов И., 2012, Səh. 39, 67)

Quti və lullubilərin şərq bölgələrini təşkil edən Həmədan, Qum, Kaşan, Qəzvin, Zəncan kimi ərazilərdə, yəni Mərkəzi Midiyada Assuriyanın istilaları nəticəsində uzun zaman ərzində öz dövlətlərini yarada bilməsələr də, öz varlıqlarını qoruyub saxladılar, lakin Assuriya dövləti zəiflədikdən sonra üsyan etdilər və Maday dövlətini yaradaraq Assuriya işğalına son verdilər. Buna görə də bəzi qədim tarixçilər haqlı olaraq Maday hökmdarlar sülaləsini Qutu hakimiyyət sülaləsinin davamı kimi qəbul edirlər.

Midiya "mada" sözünün yunanca yazılış formasıdır. Avestada maqlar "atravan" adlanır və bu şərqi iran dillərinə uyğundur, "maq" sözü isə madaların dilində kahinlərə verilən addır, maqlar eyni zamanda midiyalıların ən mühüm tayfasıdır. Avropa dillərində büyü/ovsun mənasında işlədilən və maq sözünün ekvivalenti olan magy/magic geniş yayılmışdır. Zərdüştlik dinin əsas mənbəyini qədim azərbaycanlıların etiqad etdiyi Baqa Mazda tanrısına olan inamdır. Bu haqda Assuriya çarı II Sarqonun e.ə. 714-cü ilinə aid kitabəsində məlumat verilir. Azərbaycan ərazisində tarixçilərin mənşələrini yafetik dil ailəsinə aid etdikləri çoxsaylı quti, lullubi, kasit, elam, turukku, urartu tayfalarının qüdrətli dövlətləri mövcud olmuşdur. Midiya tayfaları bu qüdrətli dövlətlərdən biri olan Urartu dövləti mədəniyyətinin və dini baxışlarının varisləri olmuşlar.

Alman tarixçisi Königə görə Midiyalıların ilkin matai, madai fomasındakı adları bu tayfaların artıq e.q. 836-cı ildən etibarən subar xalqları ilə güclü şəkildə qarışmış olduğunu göstərir. Onun fikrincə Dayyaku bir subartu adı idi. Assur kitabələrində qeyd olunan midiya şəxs adlarının yüzdə doxsanı subartu dilində olub onlara aiddir. İranşünasların istinad edərək medlərin ariyani olduğunu ispatlamağa çalışdığı Ariyana şəxs adı tez-tez istifadə olunan subartu adıdır. Assur mətnlərində rast gəlinən və midiyalılara aid olan Baqa-ilu allah mənasındadır. Midiyalıların etiqad etdiyi Baqa tanrısı Avestada xoş qarşılanmırdı, onlar Ahura-mazda deyil, Assara-Mazaş deyirdilər. E.q. V əsrdə Avestadakı və zərdüştlikdəki Mitra və Anahita qədim midiyalılara məlum deyildi. (F.W.König. 1934, Səh. 8, 55, 58)

II Sarqonun kitabəsində Qutilər Midiyalılardan fərqli göstərsələr də, Assurhaddon və Assurbanipalın salnamələrində Quti adı Midiyalılara şamil edilirdi. Assur mənbələri Deyok adını Daiukku şəklində yazırlar. Ahura Mazda adının əsli Aura Baqa şəklindədir, kassi və ya quti dilindədir. (The Cambridge History of İran. Vol. 2, 1968, Səh. 140)

Ajdaha və ya Anqromanyu Turanlıların milli tanrıları idi və o Ahuramazdadan üstün idi. (F.Lenormant. 1877, Səh. 233)

Lenorman Madayların dini etiqadları haqqında yazır ki, çox güclü əlamətlər bizi belə bir fikrə gəlməyə vadar edir ki, turan tayfaları içərisində ilan allahlarına sitayiş mövcud idi. Akkadlar ilanı özlərinin Göyü təmsil edən baş ilahi atributlarından birinə çevirmişdilər. İran dini ənənələrində qədim Midiyalıların İlan obrazındakı allahları şərin, zülmətin təmsilçisi kimi təqdim olunurdu. İlan cildinə girmiş Aqromanyu Ahuramazdanın səma cənnətinə daxil olmuşdur. İran mifologiyasında Traeton\Firudin ƏjDahaka və ya ilan Dahakaya qarşı mübarizə apararaq ona qalib gəlsə də, sonda özləri də Əjdahaya sitayişi qəbul etmişlər. Bu əfsanədə ƏjDahaka ariləri uzun illər boyu öz hakimiyyətləri altına almış və ilan tanrısına sitayiş edən turanlı midiyalıları təmsil edir. Xorenli Moisey Ermənistanı öz əsarətləri altına almış turanlı midiyalıların ilana sitayişlərini nəzərdə tutaraq Midiya hökmdarı Astiyaqı əjdaha ilə eyniləşdirir. (F. Lenormant. 1877, Səh. 233)

Fars xronika və dastanlarında Dahhaqin Midiya kralı Deyokla eyni şəxs olduqları müəyyən etmək olur. Herodotun təsvir etdiyi Deyokla Şahnamədəki Dahhaq eyni şəxslərdirlər. Sumerdən başlayaraq dünya xalqlarının mifologiyası əjdaha haqqında əfsanələr və onunla mebarizə süjetləri ilə zəngindir. Qədim əfsanələrdə əjdaha quraqlığın və qıtlığın simvolu idi. İranda isə o həmçinin mənəvi zülmün və şərin rəmzi idi. Avestada Aji Dahaka üç başlı, altı gözlü və buynuzlu görkəmi ilə daha bədheybət və qorxunc görünüşə malikdir. Midiyanın ilk çarı Deyok Assur arxitekturasını və saray etiketini təqlid edirdi və Midiya dövləti də Assur hərbi simvollarını qəbul etmişdi. Şahnamədə də qədim İranın bayrağı "Daravaşi Qavia"nın uzun illər ərzində Midiyanın tabeliyində olan İrana Deyok dövründən miras qaldığı qeyd olunmaqdadır. (J.C.Coyajee, 1936, Səh. 245)

Ermənilər midiyalıları "Mar", yəni ilan, Ermənistanı işğal etmiş Astiaqı isə Əjdəha adlandırırdılar. Bu amil iranlıların Deyok sülaləsini Əjdaha adlandırılması faktını doğrulayır. (J.C.Coyajee. 1936, Səh. 262)

Zərdüştlük dini dualis xarakter daşıyırdı və Hörmüzd ilə Əhrimanın timsalında xeyirlə şərin mübarizəsi dinin əsas ideyasını təşkil edirdi. Əhrimanın timsalında ilan eyni zamanda Əfrasiyabı təmsil edirdi. Əfrasiyab iranlılar gəlmədən öncə Midiyanın bir çox vilayətlərində tanrı kimi qəbul olunurdu. Zərdüşt dinini qəbul edən iranlılar Midiyaya gəldikdən sonra burdakı turanlı maqlar Əhrimanla eyniləşdirilən Əfrasiyabı, yəni Əhriməni Hörmüzd ilə barışdırmaq istəyirdilər. (Lenormant F. 1887, Səh. 413)

İranlılar Xeyir allahı kimi qəbul edib etiqad etdikləri Hörmüzün əksinə olaraq onların Midiyada yerləşmələrinə qarşı kəskin müqavimət göstərən Əfrasiyabın timsalında şəri təcəssüm edən tanrı obrazı yaratdılar.



İranlılar Ön Asiyaya gəldikdən sonra burda Assuriyadan təbiətin böyük və ali allahı olan Milita və ya Anahiti özlərinə allah kimi qəbul etdilər. Anahit Friqiya və Xappadokiyanın allahlar anası ilə Finikiyalıların Astarta (Sumer-akkadların İştarta allahı) allahı eyni idilər. Xappadokiyanın Allahlar anasının daş üzərindəki barelyefi Midiya ilə Assuriyanın sərhəddi olan Malatyanın Yazılı qaya adlı yerində Midiyanın Kiçik Asiyada ən ucqar ərazisində, qaya üzərində həkk olunmuşdur. Çəkinmədən demək olar ki, bu əsər midiyalılara məxsusdur. Herodotun Mitranı Venera ilə eyniləşdirməsi tamamilə yanlışdır. (Lenormant F. 1887, Səh. 414)

İranlıların gətirdikləri zərdüştlüklə midiyalıların maq dini arasında ziddiyətlər mövcud idi. Maqlar aristokratik təbəqənin əsasını təşkil edirdi. (Lenormant F, 1895, Səh. 94)

Herodotun yazdığına görə Kiaksarın midiya uşaqlarını dil və ox atma sənətini öyrətmələri üçün iskitlərə həvalə etməsi maraqlı bir ənənənin mövcudluğundan bəhs edir. Pers dilində danışan arilərin Midiya ərazisinə axınları nəticəsində ölkənin ilkin əhalisini təşkil edən turanlıların çox hissəsini öz yurdlarını tərk etmələrinə səbəb olmuşdu. İskitlərin Midiya ərazisində geniş surətdə yayılmaları turan dilinin yenidən canlanmasına səbəb olmuşdur. Bu zərurətdən irəli gələrək Kiaksar belə bir qərar qəbul etmişdi. Bu hadisə bizim midya-iskit dili adlandırdığımız yeni bir ləhcənin yaranmasına səbəb olmuşdur. (J.Oppert. 1857, Səh. 18)

Axır zamanlarda arilərin kral sülaləsi və aristokrat təbəqəsi ölkədə hökmran olsa da, midiyalılar bir xalq olaraq heç zaman Turana mənsubluqdan kənarda qalmamışdır. Bu məsələdə Zərdüştlük kitablarından əxz edilmiş pers əfsanələri heç zaman nəzərdən qaçırılmamalıdır.

Midiyalıların dinini Kir Zərdüşliklə əvəz etdi, Maq Qaumatın rəhbərlik etdiyi maqların və midiyalıların əlindən hakimiyyəti tamamilə almaq üçün dində dəyişiklik edərək üstünlüyü Əhrimandan Hörmüzə verdi. Yezidlərdə Əhrimana olan müsbət münasibət midiya dinin qalığıdır.

Əsl midiyalılar olan maqlara inam bəsləyən və xaldeylərlə qohum xalq olan xalqın aşağı təbəqəsini təşkil edirdi. Midiyalıların Zərdüşt tərəfindən dəyişdirilmiş dinləri yezidlərin dini ilə əlaqədar ola bilər. (J.Oppert. Vol. 1, 1854, Səh. 76 )

Vesterqard, Norris, De Solsi, Mordmann, Oppertin cəhdləri nəticəsində sübut etmişdir ki, Midiyalılar ilk dövrlərdə yaşayan xalqın dili mənşə etibarı ilə bir tərəfdən türk-tatarların, digər tərəfdən isə Xaldeyin akkad (Sumer) dili ilə bağlı olmuşdur. (Lenormant F. 1877, Səh. 218)

Protomedlər adlandırdığımız xalq Assur kitabələrindən də məlum olduğu üzrə iranlılar gəlməmişdən öncə müstəqil bir dövlətə malik olmuşlar və iranlılar da bu dövlətdə güclü yalnız sayca azlıq təşkil edən bir kastadan ibarət olmuşlar. Əhəmənilər dövründə hələ də bu xalq öz doğma dilində danışırdı və midiyalıların turan dili nəinki öz mövcudluğunu qoruyub saxlamışdı, hətta o Pers krallarının

sarayında rəsmi dəftərxana dili kimi istifadə olunurdu. Midiya turanlıları öz dinlərini də qoruyub saxlamışdılar və iranlı işğalçılar da onların dini etiqadlarını qəbul etmişdilər, bu dinin kahinləri olan maqlar müqəddəs imtiyazlara malik idilər və yalnız uzun müddətdən sonra Zərdüşt dininə qarşı mübarizədən əl çəkdilər. Maqların dininin Zərdüştlüyə aid edilməsi tamamilə yanlışdır və bu Persiyaya deyil, Midiyaya səyahət etmiş olan Herodotdan başlayaraq, yunan müəlliflərinə aid olan səhvdir, sonrakı araşdırmalar bu dinlərin nəinki bir-birlərindən fərqləndiklərini, hətta aralarında düşmənçiliyin olduğunu sübut etdi. Öz hakimiyyəti dövründəki hadisələri Herodotdan yaxşı bilən Qiştaspın oğlu Dara Bisütun qaya kitabəsində yazır ki, özünü yalandan Smerdis elan edən Qaumatın hakimiyyəti zamanı müvəqqəti olaraq dövlətə sahiblik edən Maqlar iranlıların gətirdikdikləri dini öz dinləri ilə əvəz etməyə çalışırdılar. (Lenormant F. 1877, Səh. 218)

Dara yazırdı: "Bizim irqimizin əlindən alınan hakimiyyəti mən yenidən geri aldım. Qaumatanın maqlarını dağıtdıqları məbədləri mən yenidən bərpa etdim və xalqa qaytardım. Mən Qaumatanın və maqların aradan qaldırdıqları müqəddəs nəğmələri və himnləri yenidən bərpa etdim. Mən dövləti onun ilkin formasında Midiyada, Persiyada və digər vilayətlərdə yenidən bərpa etdim".

Yalançı Smerdis Qaumata öldürüldükdən sonra maqlara qarşı perslərin başlatdıqları qətliamlar hər il dönümlərində bayram mərasimi formasında maqlara qarşı eyni qəddarlıqla davam etdirilirdi. (Lenormant F. 1877, Səh. 2190)

Mazda dinində altarda yanan daimi odun mazdaeizmin ilkin formasında maq dininin və midyalı turanlıların dini etiqadlarında od kultunun perslərin istilasından öncə böyük önəm daşıdığını sübut edir. Ulduzlara sitayiş midiya maq dinində çox inkişaf etmişdi, lakin bu etiqada biz Zəndlərdə rast gəlmirik.

Herodotun da yazdığı kimi Midiyanın paytaxtı Ekbatanın yeddi divarlarından hər biri fərqli bir rənglə rənglənmişdi ki, hər bir müqəddəs rəng bir planeti təmsil edirdi. Belə bir sirli hal Xorenli Moiseyin ikinci Ekbatan adlandırdığı Atropatenanın Qanzak şəhərində də müşahidə edilirdi.

Sasanilər dövrünün şairi Nizami özünün "Xəmsə" əsərində Bəhram Gurun tikmiş olduğu sarayda yeddi planeti təmsil edən bu stilin mövcudluğundan bəhs edir. Bu birbaşa Babil svilizasiyasının dinindən götürülmüşdü. Babilin Navuxodonossor tərəfindən bərpa edilmiş məhşur Borsipa qülləsinin hər biri ayrı rəngdən ibarət olan yeddi qatdan ibarət idi. Eyni əlamətlər Xorsabad sarayında və ziqqiratın bağçasında da müşahidə olunurdu. (Lenormant F. 1877, Səh. 228)

Midiya dövlətinin tarixi təkcə Azərbaycan türklərinin deyil, bütövlükdə Turan tarixinin önəmli səhifəsini təşkil edir. Midiya dövləti və onun hakimiyyət sülaləsi iranlıların xəyanəti nəticəsində süquta uğramışdır. Turan padşahı Əfrasiyab və Qacarlar sülaləsinin sonuncu padşahı Əhməd şahın dövründə Qacar Türk dövləti də eyni xəyanətin qurbanı olmuşlar.



# XXI FƏSİL. Arilərin ilk vətəni və ariçilik uydurmaları

Ariçilik və ya aryanizm nəzəriyyəsi ingilislərin Hindistanı işğalı ilə vüsət qazanmışdı. İngilis imperialistləri Hindistanda öz işğallarına hüquqi don geyindirmək üçün guya avropalıların etnik kökünü təşkil edən ari irqinin ilkin vətəninin hind-iranlıların ana yurdu olan Hindistan olduğu haqqında uydurma tezislər irəli sürdülər. Lakin onların arilərin kökünün Hindistandakı axtarışları bir nəticə vermədi və bu yarmadada aşkara çıxarılan Mohence Daro və Harappa kimi qədim mədəniyyətlərin ari hindlilərə deyil, buranın ən qədim əhalisi olan turanlılara aid olduğu aşkara çıxdı. Ari nəzəriyyəsi sonradan alman nasional sosialistlərinin irqçilik təbliğatının əsas ideoloji silahına çevrildiyi üçün ari adı hind-avropalı adı ilə əvəz olundu.

J.Praşek Arilərin vətəninin Avestaya əsasən Ariyanam Vayco, yəni Amudəryanın güneyində olduğunu, onların Midiyaya və Parsuaya gəlib məskunlaşdıqlarını yazır. Onlar ilk öncə quzey-batıdan iki istiqamətdə hərəkət edərək bir qolu başlıca olaraq İranın quzey-doğusunda və Hindistanda yerləşmiş, digər bir qolu onların çıxış məntəqəsi olan güney-doğu Avropadan hərəkət edib Qafqaz üzərindən və Urmiyə ətrafından Midiyaya və Parsuaya gəlib yerləşmişlər. Beləliklə, Midiyada turanlı və ari olmaqla iki əhali qrupu qarşı-qarşıya gəlmişdir. (Praschek J.V. Band 1, 1906, Səh. 17)

Görkəmli tarixçi Dyakonov hind-avropa dil ailəsinin meydana çıxması məsələsini şərh edərkən, qəti şəkildə bildirir ki, "İranın avtoxton əhalisi IV və hətta III minillikdə nəinki iran dilində, hətta hind-avropa dilində danışa bilməzdilər. Ona görə ki, linqvistik dəlillərə əsasən protohind-avropa dili mərkəzi-şərqi Avropanın çox məhdud bir ərazisində təşəkkül tapmış və onun müxtəlif qollara ayrılması bütün III minillik ərzində baş vermiş, ümumi hind-iran qolu isə bir az daha erkən dövrdə ayrılmışdır. Bizə məlum olduğu üzərə e.q. 2300-cı ildən 1150-ci ilə qədər İran yaylasının qərb sərhədi dağlıq ərazilərinə səfər edən sumerlər, akkadlar, elamlılar və assuriyalılar burda nəinki hind-iran, hətta ümumiyyətlə hind-avropa dillərinin hər hansı bir daşıyıcıları ilə rastlaşmamışdılar. O zamanlar İranın indiki Luristan əyalətində yaşayan və e.q. XVIII əsrdən e.q. XII əsrə qədər Babildə hökm sürərək orda öz sülalələrini yaratmış olan kassilər dil etibarı ilə hind-avropalı deyildilər və kassilərin panteonunda hər hansı bir hind-avropa allahı mövcud olmamışdır. (И.М.Дьяконов. 1971, Səh. 129)

İran və Ön Asiyanın qədim tarixi üzrə böyük avtoritet hesab olunan Dyakonov irandilli tayfaların İranın qərbinə e.ə. I minilliyin əvvəllərində gəlməsi haqqında özünün də əvvəllər tərəfdarı olduğu rəsmən qəbul olunmuş görüşlərin heç bir po-

zitiv dəlillərə əsaslanmadığını yazır. Yazılı mənbələrdə ilk fars hakimiyyət sülaləsi hesab olunan olan Əhəmənilərin e.ə. VII əsrin əvvəllərində yaşadıqları təsbit olunduğundan bu tarix sözsüz şəkildə irandilli xalqların Ön Asiyaya gəlişləri tarixi kimi qəbul olunmaqdadır. (И.М.Дьяконов. 1971, Səh. 128)

Parsua adı Assur kralı III Salmanasarın e.q. 837-ci ildə etdiyi bir hərbi səfərlə əlaqədardır. Parsa və Parsua adları yəqin ki, eyni sözün müxtəlif variantlarıdır və araşdırıcılar bu sözün iran dilində olduğuna şübhə ilə yanaşırlar. Alman alimi E. Hertsfeld Parsuanı assur sözü hesab edir və mənasının "kənar ölkə", "diyar" olduğunu bildirir. (Р.Фрай. 2002)

Tarix elmində hökm sürən avrosentrizm tərəfdarları dünyanın bir çox qədim xalqlarını hind-avropalı elan edib ariləşdirməyə nə qədər cəhd göstərsələr də, arilər adlandırılan hind-avropalıların indiyə qədər ümumi qədim dilləri ola biləcək bir dil müəyyən edə bilməmişlər. Belə bir dilin sanskrit dili olduğu haqqında müəyyən fərziyyələr mövcud olsa da bu məsələ qəti bir şəkildə öz həllini tapmamışdır. Sanskrit və ya Veda dilinin tarixi m.ö. 1500-1300-cü illərdən başlayır və bütün hind-avropalların deyil, yalnız hind-arilərin ən qədim dili hesab olunur. Hind-avropalıların ümumi dilinin kökünü təşkil edəcək dil nümunəsi indiyə qədər tapılmamışdır.

İngilis assuroloq Kondera görə Arilər ilk dəfə e.q. 1300-cü ildə tarix səhnəsinə qədəm qoydular. M.ö. 850-ci ildə onlar Qafqazda və Van gölünün ətrafında peyda oldular. Onların ilk vətəni Xəzər dənizinin quzeyində idi və onların əsas qolları indiki Rusiyanın cənub çöllərindən müxtəlif istiqamətlərdə hərəkət edərək fin və digər turanlı tayfaları sıxışdıraraq bütün Avropaya yayıldılar. Onların hind və iranlı adlanan şərq qolları Persiyaya və Hindistana yayıldılar. Onların bir qolu olan Avropalı friqlər Frakiyanın vifiniləri ilə birlikdə təxminən e.q. 1000-ci ildə Kiçik Asiyanın quzeyini işğal etdilər. Ermənilər friqiya mənşəli idilər və m.ö. V yüzillikdə şərqə doğru hərəkət etmişdilər. (Conder R. 1898, Səh. 89)

Arilərin və ya hind-avropalıların ilkin vətəni məsələsi böyük mübahisələr doğurmuşdur. Əgər arilərin Asiyadan gəlmiş olduqları qəbul edilmiş olsa, o zaman Avropa yaxın şərqlilərin bir kaloniyası durumuna düşmüş olur. O zaman Yunanıstanın bütün dünya mədəniyyətinin beşiyi olması haqqında ideya iflas etmiş olacaqdır. (A.Wirth, 1905, Səh. 31)

Arya sözünün mənası araşdırıcılar tərəfindən müxtəlif şəkildə izah edilir.

Amerikalı tədqiqatçılar E.Bryant və L.Pattonun 2005-ci ildə "Hind ari mübahisələri" adlı əsərdə yazdıqlarına görə e.q. 1500-cü illərdə Şərqi Avropadakı hind-avropa kütləsinin bir qolunu təşkil edən hind-arilər Xəzər dənizinin quzeyindən Şərqə doğru Ural üzərindən hərəkət edərkən burda fin-uqorlarla uzun zaman kontaktda olmuşlar. Fin-uqorlar Ural dağları tərəfdə hind-arilərin yollarını kəsmiş və əsarət altına alaraq uzun müddət bu regionda məskunlaşmağa məcbur



edərək onlardan qul kimi isifadə etmişlər. Hind-arilərin *arya adları* ural dilində "qul" anlamında *orya* sözündən yaranmışdır. Bu ad sonradan hind-arilərin etnik adına çevrilmişdir. Lakin qədim hind-ari tezisinin tərəfdarları bu faktı "müstəmləkəçi irqçi bir ifadə" olduğu üçün rədd etmişlər. Maks Müller 1863-cü ildə yazdığı "Dillərin elmi haqqında mühazirələr" əsərində sanskrit dilində *arya* sözünün əkin əkənlər kimi izah edir. Digər müəlliflər isə bu sözün mənasını Vedalardan gələn dini-mədəni bir ifadə olduğunu və guya mənasının "əsilzadə/alicənab" olduğu fikrini irəli sürmüşdür. (Edwin Bryant and Laurie Patton. 2005, Səh. 271)

Müller də Baron Bunsene yazdığı məktubda Qədim sanskrit dilində Ar kökündən Arya sözünun yarandığını və mənasının üçüncü kastaya, yəni hüquqsuz, kölə kateqoriyasına mənsub insanlara verilən "ar", yəni qara camaat, aşağı təbəqəyə mənsub kişi və ya adam demək olduğunu yazır. Guya sonradan bu söz Arya şəklində şərəfli, torpağın sahibi, ağası anlamı daşımışdır. (Max Müller. 1854, Səh. 21)

Zamanla Ural dağları üzərindən hərəkət edən hind-arilər Türkistana yenmiş, burda iki qola ayrılmışlar. İrəli sürülən "Ari istilası nəzəriyyəsi"nə görə Hindistana soxulan arilər burdakı yerli xalqa qarşı amansızlıq göstərmiş və onun turanlılara məxsus orijinal mədəniyyətini, o cümlədən Xarappa və Mahenco Daro şəhərini və onun mədəniyyətini dağıtmış və kasta sistemi tətbiq etməklə ölkə əhalisini hüquqsuz vəziyyətə salaraq özlərinə tabe etmişlər. (Edwin Bryant and Laurie Patton, 2005, Səh. 235)

Ari mənşəli ilk adlara biz Suriyanın şimalında m.ö. 1400-cü illərdə rast gəlirik. Yunan mənşəli tayfalar xattların ordusunda muzdlu hərbi dəstələr kimi iştirak edirdilər. Sonradan onlar dənizə doğru hərəkət edərək m.ö. 1210-cu ildə öz arzuları ilə su vasitəsilə Nil ölkəsinə və dənizdəki digər ərazilərə yayıldılar. (Wirth A. 1905, Səh. 31)

Hind-iranlılar hind-avropa və ya ari irqinin bir qolunu təşkil edirlər. Məlum nəzəriyyəyə görə onların ilkin vətəni Baltik dənizinin sahillərindəki Prussiya ərazisidir. Sonra onlar Rusiyanın günüy çöllərinə yendilər. Burdan da hərəkət edərək Qafqaz üzərindən Araz və Kür çayları vadilərindən keçərək Xəzərin güneyinə Hirkaniya tərəfə üz tutdular və tədricən bütün İran yaylasına yayıldılar.

Frakiyalı friqlər və axeylərdən ibarət qrup m.ö. XVI yüzillikdə Dunay ətrafına Balkan yarımadasına yenib orda yerləşdilər və bu ərazi Frakiya adlanmağa başladı. Axeylilər isə Elladanı zəbt etdilər. (Grosset R. 1921, Səh. 30)

İngilis tarixçisi Sevellin yazdığına görə hind-avropa dilinin təmsilçiləri olan arilər e.q. 1500-ci illərdə batıya və doğuya yayılaraq buralarda kaloniyalar şəklində məskunlaşdılar. Onların doğuya doğru hərəkət edən qolu Əfqanistanda və Hind çayı boyunca, Pəncabda yayılaraq buranın yerli turanlı əhalisini tədricən dağlara doğru sıxışdırdılar, onların varisləri bu gün də müxtəlif turan ləhcələrində danışmaqdadırlar. Onların yerlərində məskunlaşan arilər isə bugünki hindus

xalqını meydana gətirdilər. Arilərin digər qolu batıya doğru hərəkət edərək Persiyada, Midiyada və quzey-batıda yerləşən qonşu ölkələrdə məskunlaşaraq buranın öncədən əsl yerli əhalisi olan turanlıları və ya iskitləri özlərinə tabe etdilər. (Sewell E. 1862, Səh. 6)

Arilər batı və güney istiqamətinə doğru hərəkər etdikləri zaman burda daha öncə məskunlaşmış turanlılarla qarşılaşdılar. Hellen yunanlar qərbdə özlərinə yabançı irq olan Alaroidlərlə, pelasqlarla və samilərlə qaşı-qarşıya gəldilər. Şərqdə isə hindlilər yayıldıqları zaman dravidlərlə və qara dərililərlə toqquşdular və dravidləri şərqə doğru kolarların ərazisinə sıxışdrıb iki hissəyə böldülər. (A. Wirth, 1905, Səh. 34)

Smith Ari dillərini müstəqil dil ailəsi olmayıb, ümumi Turan dili ailəsi içərisində baş verən proseslər nəticəsində ayrılaraq formalaşmış olduğunu yazır. (Philp Smith, Vol. 1865, Səh. 65)

## Turan ərazisində Arilərin uydurma İran dövləti

Məqsədimiz İrana həsr olunmuş bu bölümdə onun tarixinin geniş xülasəsini vermək deyil, tarixi dəlillərə və görkəmli bilim adamlarının fikirlərinə əsaslanaraq bu ölkənin qədim tarixinin üzəri ciddi-cəhdlə ört-basdır edilən gerçək məqamlarına diqqəti yönətməkdir. Öz ilkin vətənləri Şərqi Avropadan istər Balkanlar üzərindən Anadoluya, istərsə də şərqə doğru hərəkət edib Türkistanda, Hindistanda və Midiya ərazisində məskunlaşan hind-avropalılar və hind-arilər getdikləri hər yerdə onlardan min illər öncə bu ərazilərdə məskunlaşmış turanlıların müqaviməti ilə qarşılaşmış və iki irqin arasında yüz illərlə davam edən qanlı toqquşmalar xalqların böyük köçlərinə səbəb olmuşdur.

İran və arya sözlərinin mənası müxtəlif şəkildə izah olunur. Sanskritdəki Arya sözü sifət halında sadiq, müti anlamında izah edilir. Zənd dilində də bu söz "erya" şəklində ifadə olunur və anlamı yenə də sadiq, müti, qanuna riayət edən şəklində mənalandırılır. Bu sözlərin türk dilində ifadəsi er/ər şəklindədir. Türk dilindəki Er/ərən sözü Ariyan şəklində iran dillərinə keçmişdir. Türk dilində Er/ərən sözünün mənası erkək, hörmətə layiq, mərt mənasındadır. Türklərin hərbi sistemində su və çeri hərbi təbəqəsindən sonra ərənlər gəlir. Əhəmənilər anzanit türkləri idilər. Onlarda türkcə olan Okus, Kodaman adları vardı. Kserksin sərkərdələrindən birinin adı Aryaman idi. (Yusif Hikmət Bayur. 1930, Səh. 333)

F.Köniq Ariya sözünün tez-tez təkrarlanan bir subar adı olduğunu və iranla heç bir əlaqəsi olmadığını yazır.

Amerikalı tədqiqatçılar E.Bryant və L.Pattonun yuxarıda da qeyd etdikləri kimi e.q. 1500-cü illərdə Şərqi Avropadakı hind-avropa kütləsinin bir qolunu təşkil edən hind-arilər Xəzər dənizinin quzeyindən Şərqə doğru Ural üzərindən hərəkət edərkən burda fin-uqorlarla uzun zaman kontaktda olmuşlar. Fin-uqorlar Ural dağları tərəfdə hind-arilərin yollarını kəsmiş və əsarət altına alaraq uzun müddət bu regionda məskunlaşmağa məcbur edərək onlardan qul kimi isifadə etmişlər. Hind-arilərin *arya adları* ural dilində "qul" anlamında *orya* sözündən yaranmışdır.

"Ariana" adı Eran (İran) şəkli alaraq tezliklə Asiyanın bu bölgədəki arilərini əhatə etdi. Dyakonov "Ari-jana" sözünün hurri dilində "Allah qardaş verdi" mənasında olduğunu yazır. (Дьяконов И, T I, 2012. Səh. 67)

Qədim Oğuzlar farsları "Soqaq" adlandırırdılar, bu sözün mənası acgöz, gözüdoymaz, paxıl, xəbis deməkdir. (ДТС, 1969, Səh. 508, 514)

Zamanla Ural dağları üzərindən hərəkət edən hind-arilər Türkistana yenmiş, burda iki qola ayrılmışlar. İrəli sürülən "Ari istilası nəzəriyyəsi"nə görə onların bir qolu şərqə doğru hərəkət edib Hindistana soxularaq burda turanlılara məxsus Mohenco-Daro və Harappa mədəniyyətlərini amansızlıqla məhv etmişlər.

Hind-arilərin ikinci qolu isə Türkistanda turanlıların təzyiqi ilə qərbə doğru Xəzər dənizinin güneyi üzərindən hərəkət edərək Zaqros dağları tərəfdə Midiyada və Barsuada yerləşmişlər. Digər bir versiyaya görə Avropadakı Balkan ərazisindən hərəkət edən hind-iran tayfaları Qafqaz dağları üzərindən güneyə doğru hərəkət edərək Xəzərin güneyindəki Mazandaran-Hirkaniya üzərindən şərqə doğru irəliləmişlər.

İran bir coğrafi anlayışdır və İran yaylasını əhatə edən ərazi kimi qəbul edilir. Lakin bir çox qərb və rus müəllifləri bu ərazidə qədim və orta əsrlər dövründə mövcud olmuş Aratta, Midiya, Əhəməni, Parfiya, Səfəvi, Əfşar və Qacar kimi dövlətləri İran dövlətləri kimi qələmə verirlər.

Yuxarıda da izah edildiyi kimi görkəmli tarixçi və iranşünas alim İ.Dyakonov iranlıların Ön Asiyada mövcudluğunu e.q. VII əsrin əvvəllərində ilk fars hakimiyyət sülaləsi hesab olunan Əhəmənilərin gəlişi ilə başladığını yazır. Lakin Əhəməni dövlətinin iran dövləti kimi təqdim olunması tarixi saxtakarlıqdan başqa bir şey deyil. Tarxi hadisələrin təhlili nəticəsində istər Əhəməni sülaləsinin etnik mənşəyi, istərsə də, onların yaratmış olduqları dövlətin iranlı/ari xarakterə malik olması görkəmli bilim adamları tərəfindən şübhə ilə qarşılanmaqdadır. Avropasentrizm nəzəriyyəsinin tarix elmində hakim ideologiyaya çevrilməsi nəticəsində qərbdə qədim Yunan, şərqdə isə Əhəməni dövləti əsasını hind-avropalıların qoymuş olduqları bəşər mədəniyyətinin iki mərkəzi kimi təqdim olunmaqdadır. Lakin tarixdə İran adı ilə süni şəkildə yaradılan ilk dövlət 1920-ci illərin ortalarında ingilis və rusların Qacar türk dövlətinə qarşı xəyanətləri nəticəsində ingilislərin təlqini ilə özünə Pəhləvi ləqəbi götürmüş Rza Savadkuhinin yaratdığı İran adlı dövlətdir.

İran tarixinin Əhəmənilərə qədərki Pişdadilər və Kəyanilər dövrü tamamilə əfsanə xarakteri daşıyır. Farslar məskunlaşmış olduqları müxtəlif ərazilərdə özlə-

rindən əvvəl orda yaşayan xalqlara aid əfsanə və miflərdən əxz etdikləri hadisə və qəhrəmanları özləşdirərək özlərinə uydurma tarix icad etmişlər.

Danimarkalı iranşünas Kristensenin yazdığına görə Kəyanilər haqqındakı əfsanələr ola bilər ki, iranlı olmayan xalqların əfsanələrindəki süjetlərdən mənimsənilmişdir. Kavi Zərdüştü himayə edən Viştaspın ünvanıdır, lakin bu ünvanı daşıyan öncəki şəxsiyyətlərin adları tarixi mənbələrdən məlum deyil. İranın və Midiyanın tarixindən bəhs edən Yunan müəlliflərinin əsərlərində belə bir tarixi və ya əfsanəvi şəxslərin mövcudluğu haqda heç bir bilgi verilmir. (Artur Christensen. 1931. Səh. 6)

Kavi sözü Pahlav-Parflar dövründə Kay şəklini almışdır. Parflar və Sasanilər dövründə Avestaya edilən əlavələr nəticəsində Key Qubad Kəyani sülaləsinin ilk şahı kimi təqdim edilmişdir. Kəyanilər haqqında əfsanələr müxtəlif ədəbiyyatlarda öz əksini tapmışdır. Zərdüştlüyü qəbul edib onu himayə edən Kavi Viştasp və onun oğlu Spontodata tarixi mənbələrdəki Viştasp və onun oğlu Dara ilə eyni adamlar deyillər, çünki axırıncılar zərdüştlüyə aid deyildirlər. (Artur Christensen. 1931, Səh. 43)

Hitit dilində Kaui Sira=Kaui/kay=hakim; Sir=kral, hökmdar; akkad dilində də Kay və ya kue sözü mövcuddur və mənası sitayiş, etiqad etməkdir. (Conder R 1889, Səh. 130)

Kay sözü pers dilinə akkad və ya midiya dilindən keçmiş ola bilər. İranşünaslar Şahnamədəki Keyqubad, Keykavus adlarındakı "key" sözünü Avestadakı "Kavi" sözü ilə əlaqələndirirlər, lakin onun hitit və akkad dilindəki Kaui/kay sözündən yarandığı daha inandırıcıdır. Bir çox tədqiqatçılar Şahnamədəki Kəyani sülaləsinin əslində Midiya sülaləsi olduğu fikrini irəli sürmüşlər.

İran tayfalarının ilk öncə Urmiyyə gölünün güneyində Midiya və Barsua ərazisində məskunlaşmışlar. Onların tarixdəki mövcudluğu assur salnamələrində Anşan və Parsumaşla əlaqədar çəkilir.

Alman assuroloqu F.Hommel Barsua-Pars məsələsinə aydınlıq gətirərək yazır: "Midiyanın Urmiyadan aşağı vilayəti olan Parsua adı Assur mətnlərində Barsua kimi yazılmışdır. Əhəmənilərin ilkin olaraq hakimiyyəti ələ keçirdikləri Midiyanın Barsua əyalətində yerli əhali alaroid, yəni turanlı idilər. Əhəmənilər bu adı Elamdan aşağı ərazini işğal edəndən sonra ora daşıdılar. Bu iran xalqının Baktriyadan Midiyaya və ordan da Parsuaya köçləri haqqındakı tarixi bəlgələrə də uyğundur. Bu Zənd Avesta ənənəsindən də aydın göründüyü kimi Parsua ilə Persianın bir-biri ilə heç bir əlaqəsi mövcud deyil, bu sadəcə sözlərin təsadüfi bənzərliyindən ibarətdir. Əhəmənilər Elamın cənubunda ələ keçirdikləri mərkəzdən kənar təhlükəsiz ərazidə Parse şəhərini salmışdılar. İran yaylasındakı Midiya dövlətin özləşdirərək böyük bir imperiyaya çevirən Dara bu şəhəri əzəmətli bina və saraylarla zənginləşdirdi. Bu əyalət şəhərin adına uyğun olaraq Persiya adlandırılmışdır". (F. Hommel, 1889, Səh. 89, 95)

Barsuadan Güneyə doğru hərəkət edən Ari tayfası olan perslər indiki Şiraz vilayəti və Niris dağlarını əhatə edən Fars əyalətində məskunlaşmışdılar və tədricən öz torpaqlarını Belucistana qədər genişləndirmişdilər. Onların qonşuluğundakı Azərbaycan və Ardilanda qədimlərdən etibarən kassilər məkunlaşmışdılar. Perslərin Əhəməni ailəsinə mənsub knyazları Çispis idi. O Midiya kralı Kiyaksarın Nineviyaya yürüşünə qatılaraq ona dəstək vermişdi. O Anşan knyazının varis qızı ilə evlənmişdi və bu səbəbdən də önəmli bir ərazi olan Anşanı ələ keçirərək öz oğlu Kirin idarəsinə vermişdi. Onu isə hakimiyyətdə oğlu Kambiz əvəz etmişdi. Kambizdən sonra Pers dövlətinin qurucusu olan oğlu Böyük Kir Anşan kralı olmuşdu. (Billerbeck A. 1893, Səh. 50)

F.Hommel Kuraş, yəni Kir adının bir alaroid elam-kassi adı və mənasının da çoban-naxırçı demək olduğunu yazır.

Bir çox tarixçilər Urmiyyə gölünün güneyində mövcud olan Barsua ölkəsi əhalisinin turanlı, midiyalı və ya sak olduğunu yazırlar. Şərqdən gələn iranlı tayfalar yalnız Barsuada məskunlaşandan və ordan cənuba doğru hərəkət edib Kirmanda Parsaqrdad şəhərinin əsasını qoyub özlərinə paytaxt edəndən sonra bu şəhərin adından ümumi adla Parsumaş adlanmışlar. Həmin dövrə qədər onlar müxtəlif adlara malik tayfalar birliyindən ibarət idilər və bu tayfaların yalnız üçünün iran mənşəli olduqları ehtimal olunur.

F.Köniq iran-ari mənşəli Parsumaşın və ya Parsuanın Barsu ilə heç bir əlaqəsi olmadığını və Barsunun paytaxtı Baraxse olduğunu yazır. Baraxsenin digər bir adı Marahşa idi. O, Barsunun Assuriyanın tabeçiliyində bir ölkə olduğunu yazır. Xaldey mətnlərində bu ölkənin kralı assur mənbələrində Ariya adlanır ki, bu ad subar mənşəli addır. (König F.W. 1934, Səh. 9)

Edvard Norris Əhəməni kitabələrindəki mətnləri araşdıraraq belə nəticəyə gəlir ki, mətnlərdə qeyd olunan "Arta" adı Barsların (İranlı perslər deyil) özlərinə verdikləri addır. Herodotun bəhs etdiyi Saqartalı adının kökü də bura bağlıdır və Herodot saqartların köçərilərlə eyni dildə danışdıqlarını yazır. Artalar köçəri sak tayfaları idi. Sak dilindəki mətnlərin məhz Artaların yaşadıqları ərazidə mövcud olması belə bir ehtimal doğurur ki, Kirin əcdadları və onların mənsub olduqları tayfa bu dağlı saklara mənsub olmuşlar. (Norris E. 1852, Səh. 201)

E.Norris Perslərin Əhəməni hökmdar tayfasını tatar-turanlı hesab edir. Buna uyğun olaraq o Pers hökmdarlarının adlarının kökünü təşkil edən Artaier sözündəki Arta kəlməsini tatar, yəni türk dilində olduğunu qeyd edir. Art sözü türk dilində artmaq, çoxalmaq, güclənmək, böyük anlamı daşıdığı kimi, Artai həmçinin dağlı anlamı da daşıyır. (ДТС, 1969, Səh. 55)

Əhəmənilərin bir çoxunun adının əvvəlindəki Arta sözü də onların Barsuanın Arta tayfasına mənsub olduqlarını göstərir. İranlı ariləri özlərinin şanlı əcdadları hesab edən hind-avropalı alimlər bu faktların üzərindən sükutla keçməyə üstünlük verirlər.

Əhəməni sülaləsinin banisinin adı Bisütun kitabəsində Akkamaniş kimi yazılmışdır. Bu ad və Əhəmənilərin Artakserks, Artaban və s. şahlarının adının əvvəlindəki Arta sözünün fars mənşəli olmasına bir çox araşdırıcılar tərəfindən şübhə ilə yanaşılır. Bisütun kitabəsində Pars adı əslinə uyğun olaraq "Bars" şəklində verilmişdir. Norris bu adın ölkə adı olduğunu qeyd edir. (Norris E. 1852, Səh. 170)

Bars həmin ərazidə yaşayan turanlı boyun totemi idi. Onlara qohum olan namrilər Diyala çayı ilə Zaqros dağları arasında məskunlaşmışdılar. Assuroloqlar "namri" sözünün sami dillərində bars demək olduğunu yazırlar. Nimrudun adı da mənsub olduğu namri tayfasının adından götürülmüşdü.

Virt yazır ki, Əhəmən adı Persia tarixində önəmli yer tutsa da, onun adı nə Vendidanın qədim mətnlərində, nə də Kəyanilər sülaləsinin əfsanələrində öz əksini tapmamaşdır. Görünür Əhəmənilər Vendidanın yaranmasından sonra meydana çıxmışlar. Əhəmən-Akhaman adının mənası "dostcanlı", "dostlu" demək olan qədim farsca "akha" sözündən yaranmışdır. (Smith P. 1888, Səh. 488)

Alman tarixçisi Virt qədim mənbələrdə İran Əhəməni şahlarının özəl danışıq dillərinin xuzi dili olduğunun yazıldığını qeyd edir. Xuzi dili isə əksəriyyət tərəfindən turan dili kimi səciyyələndirilir. (A.Wirth, 1905, Səh. 21)

Yuxarıda Barsu bölümündə izah etdiyimiz kimi Parsumaş və sonradan Pars adlanan və ərəblərin Fars adlandırdıqları ərazi adının qədim Turan ərazisi olan Barsua ilə bir əlaqəsi yoxdur. Belə bir versiya mövcuddur ki, Barsuanın turanlı Arta boyuna mənsub olan Akaman/Əhəmən sülaləsi iranlı tayfalara rəhbərlik edərək onlarla birlikdə Kirmanda, Persopolisdə yerləşmiş və orda iran tayfalarının dövlətini öz rəhbərlikləri altında qurmuşdular.

İranlıların Kirmanda məskunlaşdıqları və sonradan Parsua və Parsa adlanan vilayətin adının assur dilində mənası "ölkə" deməkdir. Bu məsələyə aydınlıq gətirən rus araşdırıcı Anatoliy Fomenkonun yazdığına görə 1702-ci ilə aid Rus hərbi xəritəsində Moskva ölkəsi ilə yanaşı "Moskovie Pars" sözü də yazılmışdır. Bu onu göstərir ki, təkcə antik və orta asrlər dövründə deyil, hətta XVI-XVII əsrlərdə belə "Pars/Persiya" sözü farsların ölkəsi mənasında deyil, sadəcə ölkə mənasında işlədilirdi. Hətta Monqol imperiyasının qalıqlarını təşkil edən bir çox ölkələr, o cümlədən Rusiya, Türkiyə, Fransa və İranın özü Persiya adlanırdılar. (Г.В.Носовский, А.Т.Фоменко, 1995)

Əhəmənilər Anşanı və Susu ələ keçirdikdən sonra Barsuadan köçərək burda yerləşmişdilər. Sonradan onlar Kirmanda dağların arxasında Mesopotamiya kimi təhlükəli bir mərkəzdən uzaqda özlərinə yeni bir paytaxt salaraq adını Persopol



yəni əvvəlcə yaşadıqları vilayətin adından Pers şəhəri qoydular və bu əyalət həmin şəhərin adı ilə Pers və ya Persia adlandı və millətin adı da buna uyğun olaraq perslər adlanmağa başladı. Avestada doğru olaraq farsların əsl adı aryana kimi göstərilir.

Digər bir alman tarixçisi A.Billerbeck yazırdı ki, Bisütun kitabəsində Kirin yazdırdığı mətn üç dildə olmuşdur: pers dilində, Daranın ana dili olan sus/xuzi dilində və Babil-Assur dilində. (A.Billerbeck, 1893, Səh. 27)

Ari və türk tayfaları arasında həmişə ağır ziddiyyəd mövcud olmuşdur, Perslərin tarixində ölkədə yaşayan və itaət altına alınan saklar və türkmənlərlə ari perslər arasında siyasi ziddiyyətlər həmişə mövcud olmuşdur. Bu ziddiyyətlər Hindistanda da mövcud olmuşdur. Beləliklə, iki önəmli və böyük xalq kütləsi olan arilər və turanlılar qarşı-qarşıya durmuşdu. (Nibuhr M. 1857, Səh. 146)

Sak-iskitləri batıya, Qara dənizin şimal sərhədlərinə doğru köçləri Turanda xalqların böyük hərəkətinə səbəb oldu. Görünür iranlı arilərin də öz vətənlərini tərk edib üzü qərbə doğru duzlu səhra boyunca hərəkət etməsinə səbəb elə bu sak-iskit köçləri olmuşdur. Arilərin bu köçləri onların Midiyada saylarının çoxalmasına və güclənmələrinə səbəb olmuşdur. Arilərin qərbə doğru iki böyük axınları baş vermişdir biri Aral dənizinin şimalından başlayaraq Xəzər dənizi tərəfdən və Qafqaz üzərindən Ağrı Dağı istiqamətində, digəri isə Dunay tərəfdən Trakiyaya və ordan Anadoluya olmuşdur. Arilərin Persiyanı işğalı məhz bu zaman baş vermişdir və işğalı həyata keçirən bu hökmdar tayfa sülaləsinin baniləri Qiştasp və Daranın əcdadları olan Əhəmənilər idi. (Nibuhr M. 1857, Səh. 150)

Amerikan tarixçisi Matt Waters Kambiz və onun oğlu II Kirin fars olmadıqlarını, əslən elamlı olduqları fikrini müdafiə edir. O Kir/Kuruş adının elam dilində olduğunu və mənasının "qayğıkeş, diqqət göstərən" anlamı daşıdığını yazır. (M. Waters. 2015. )

Yunan tarixçisi Ktesiy Kirin Astiaqın nəvəsi və Əhəməni sülaləsinə mənsub olmadığını yazır. O köçəri mard tayfasına mənsub Atradat adlı bir quldurun oğlu olmuş və Astiyaqın sarayına təsadüfən düşərək çevikliyi nəticəsində sarayın baş saqisi vəzifəsinə yüksəlmişdir.

Kirin bir Anşanlı olduğu mənbələrdə göstərilmişdir və onun iran və ya arilərlə hər hansı bir əlaqəsi haqqında orda bir bilgi yoxdur. İran və iranlı adı yalnız I Daradan sonra meydana çıxmışdır. Kirin əsl adı Ağradat olmuşdur. (Yusif Hikmət Bayur. 1930, Səh. 371)

Əhəmənilər Midiya hakimiyyətini xəyanətlə ələ keçirmişlər. Kirin Astiyaqın nəvəsi olması haqqındakı fikri Herodot "Tarix" əsərində irəli sürmüşdür. Midiya kralı Astiaq öz qızı Mandananı Fars vilayətinin hakimi I Kambizə ərə vermişdi. Anşan vilayətinin hökmdarı Kambizin oğlu və farsların pasarqad tayfasından olan II Kir (e.ə. 559-530) Astiyaqın nəvəsi idi. Rəvayətə görə Farsların Midiyada

hakimiyyəti ələ keçirməyə can atdıqlarını bilən falçı maqlar bu haqda Astaiaqı xəbərdar etmiş və belə bir təhlükə qarşısında onun hakimiyyətini farslardan qorumağa hazır olduqları haqqında ona olan sədaqətlərini belə bəyan etmişdilər: "Hökmdar! Taxtın sənin əlində qalmağının bizim üçün də əhəmiyyəti var. Əgər kökmranlıq bu fars oğlunun əlinə keçsə, onda özgə əlinə düşər, biz midiyalılar qul olarıq, farslarda da bizə yadellilər kimi həqarətlə baxarlar. Amma hələ ki, hökmdarımız sənsən, öz tayfamızdansan, idarə işində biz də iştirak edirik, sənin yanında böyük şərəf sahibiyik. Ona görə də, sənin arxanda durub hakimiyyətini qorumağa tam əsasımız var". (Herodot, 2012, I, 120)

Farsların Midiyada hakimiyyəti ələ keçirməsindən ehtiyat edən Astiaq qızı Mandananın oğul doğduğunu və maqların rəmlinə görə fars mənşəli nəvəsinin Midiya taxt-tacına sahib olacağı xəbərinə əsaslanıb onu öldürmək qərarına gəlir. Lakin təsadüfən nəvəsi Kir sağ qalır və babası Astiaqa qarşı üsyan qaldıraraq Midiyada hakimiyyəti ələ keçirmək üçün fəaliyyətə başlayır. Farslar midiyalıların hakimiyyətindən narazı idilər və onların əsarətindən xilas olmaq üçün fürsət gözləyirdilər. Astiyaqın sərkərdəsi Arpaq bir çox əyalət idarəçilərini, əyanları, Fars satrapının oğlu və Astiaqın nəvəsi Kirə məktub göndərib öz tərəfinə çəkə bilir. Üsyan xəbərini eşidən Astiaq ordunu səfərbər edir və özü də üsyançı farslara qarşı döyüşdə iştirak edir. Kir üsyançı fars əyanlarının köməyi və Sərkərdə Arpaqın yardım etməsi nəticəsində müharibə üç il davam edir.

Lakin Arpaqın başçılığı altında ordunun mühüm hissəsinin xəyanəti nəticəsində Astiaq məğlub olur. Paytaxt Akbatan ələ keçirilir, Kir babası Astiyaqı əsir alır və Midiya taxt tacına sahib olur. Arpaq Astiaqın qarşısına keçib "dünən kral olduğun halda bu gün kölə olmaq necə bir şeydir" deyib təhqir etdiyi zaman Astiaq ona müraciətlə demişdir: "Sən yerüzündə ən abdal və haqsız insansan, bir halda ki, bu işi özün görə bilirdinsə, özün də taxtda otura bilərdin, məndən intiqam almaq üçün Midiyalıları köləliyə məhkum etdin. Krallığı özün ələ ala biləcəyin halda onu mütləq başqasına vermək lazım idisə o zaman onu bir farsın yerinə bir midiyalıya verməliydin. Bu işdə heç bir günahı olmayan midiyalıları ağalıqdan köləliyə düşürdün. Dünənə qədər midiyalıların köləsi olan farslar, bu gün onların ağası səviyyəsinə qalxdılar". (Herodot, 2012, I, 129)

Kir öz hakimiyyətini qanuniləşdirmək və gələcəkdə taxt-taca hər hansı bir iddiaya imkan verməmək üçün Astiaqın qızı Amitidanın əri Spitamı öldürür və onunla evlənir. Farslar arasında hakimiyyətin atadan oğula keçməsinə baxmayaraq, qadın xəttilə hakimiyyətə sahib olmaq hüququ da müəyyən əhəmiyyət kəsb edirdi. Antiq yazarların verdiyi bilgiyə görə, II Kirin oğulları II Kambiz və Bardi öz bacılarına evlənmişdilər. I Dara Kirin iki qızı və Bardinin qızı ilə nigah bağlamışdı. II Dara bacısı Parisatidaya, II Artakserks isə arvadı vəfat etdikdən sonra iki qızı Atossaya və Amestridaya evlənmişdi. Makedonoyalı İsgəndər də İranı işğal etdikdən sonra özünü Əhəməni şahlarının varisi kimi qələmə verərək III Daranın və III Artakserksin qızları ilə nigah bağlamışdı.



Farslar Midiya mədəniyyətinin bir çox cəhətlərini, o cümlədən dövlət quruluşunu mənimsəmişdilər. Bir neçə il ərzində Kir Midiya dövlətinin tərkibinə daxil olan ölkələri də əsarəti altına aldı. Öz hökmdarlıq tituluna bir müddət Midiya şahı ünvanını da əlavə edən Kirin bu hiyləsi müqabilində qədim yunanlar, misirlilər və digər xalqlar onun bu ünvanı bir miras kimi əldə etdiyini fərz edirdilər.

Antik müəlliflərin bir çoxu Kirin hökmdar sülaləsinə mənsubluğunu inkar edirlər. Uzun illər ərzində İran şahlarının sarayında əsirlikdə yaşamış e.q. V əsr yunan tarixçisi Knitli Ktesinin yazdığına görə Kir köçəri mard tayfasından olan quldur Atrdatın oğlu idi, sonradan Astiaqın yanında xidmətə götürülərək yüksəlmiş, lakin maqlar Astiaqa bu fars oğlunun onun taxt-tacına təhlükə törədəcəyini söylədikdən sonra Kir Fars vilayətinə qaçmış və orda Astiaqa qarşı üsyan qaldırmışdır. Strabon yazır ki, Kir onun əsl adı deyildir. Pasarqadın yaxınlığındakı Kir çayı sahilində Astiaqa qalib gəldiyi üçün əsl adı olan Aqradatanı Kir adı ilə əvəz etmişdir. Yustin isə Kir adının mənasının çoban olduğunu və uzun zaman çobanlıq etdiyi üçün belə adlandığını yazır. Digər rəvayətə görə yoxsul Kir Astiaqın sarayında xidmət edərək onun rəğbətini qazanmış və nəticədə hökmdar onu saqi (şərab paylayan) təyin etmişdir. Ümumiyyətlə Kirin iran/fars mənşəli olduğuna dair elm aləmində çoxlu şübhələr var.

Görkəmli iranşünas alim və öz iranpərəstliyi ilə məhşur olan V.İ.Abayev İran tarixində bir çox adların iran dili etimalogiyası ilə izahının mümkün olmadığını və bu səbəbdən də onların qeyri iranlı mənşəyə malik olduqları haqqında fikirin hakim olduğunu yazır. Bu tarixi adlardan biri Kir, digəri Kambiz, üçüncüsü isə Spitamendir. Şpiqelə görə də Kuru-Kuruş-Kir adı bir iran adı deyil, bir çay adıdır. Kambiz də çay adıdır. (Spiegel F. Band 1, 1871, Səh. 442)

Qədim fars mənbələrində və kitabələrdə "Kuruş" şəklində yazılan Kirin adı elam dilində yazılış şəkli "Kuras", yəhudi mənbələrində isə "Kores" şəklindədir. Qərbin görkəmli tarixçiləri X.Bartolome, F.Veysbax, H.Şeder, R.Fray Kuruş adının iran dillərində etimalogiyasının mümkün olmadığını və onun qeyri iran mənşəyə malik olduğu fikrini qəti surətdə müdafiə edirlər. F.Andreas farsların deyimi ilə Kuruş adının elam dilindəki Kurasın təhrif olunmuş şəkli hesab edir.

R.Fray "İranın İrsi" əsərində yunan mənbələrində "Kambujia" kimi təqdim edilən digər bir əhəməni kökmdarı Kambiz adının iranlılara qədərki yerli xalqın, yəni elam/huzi dilində olduğunu yazır.

Ktesiyə əsaslanan Nikolay Damaski Kirin İran hökmdar sülaləsinə mənsub olmadığını yazır. Sonraki arxeoloji araşdırmalar da Kirin Pasarqaddakı kitabəsinin Kirin özü deyil, Dara tərəfindən yazılan saxta kitabə olduğu sübut olunmuşdur. Avropa tarixçilərinin bir çoxu Əhəməni sülaləsinin əsasını qoyan hökmdarın məhz

Dara olduğu fikrini irəli sürürlər. Araşdırıcıların gəldiyi nəticəyə görə Dara Əhəməni sülaləsinin vahid şəcərəsini yaratmaq üçün Kiri və onun atası Kambizi Əhəməni nəslinə aid etmiş, öz soy kökünü də onlara bağlayaraq əhəməni şəcərəsinə daxil etmişdir. Dara bu kitabəni tarixi fakt kimi qələmə vermək üçün II Kirin adından Pasarqadda fars, elam və akkad dilində yazdırmış və özünün qədim hökmdar sülaləsinə mənsubluğunu təsdiq etmək üçün mətni də Kirin adından "Mən Kir Əhəməni çarı" sözləri ilə başlamışdır. Araşdırıcılar bu faktlara əsaslanaraq Anşan sülaləsinə mənsub olan II Kirdən fərqli olaraq əsl fars mənşəyə malik Daranı Əhəməni sülaləsinin banisi hesab edirlər.

İndiyə qədər məlum olan iki yüzdən çox qədim iran kitabə yazılarından yalnız I Daranın təxminən e.ə. 519-cu ildə qədim fars, elam və akkad dilində tərtib olunan məhşur Bisütun qaya kitabəsi əsl tarixi abidə xarakteri daşıyır. Bisütun kitabəsinin elam və akkad mətnlərində Əhəmən adı çəkilmir, Kir və Kambiz özlərini yalnız Çişpişin varisləri hesab edirlər. Persopoldan əldə edilən və II Kirə aid edilən 93 nömrəli dairəvi möhürdə və Kambizə aid yazılarda Çişpişin oğlu Kir onun oğlu Kambiz və onun oğlu Kir Anşan hökmdarları kimi qeyd olunaraq Əhəmənin adı çəkilmir. Yalnız Pasarqard kitabəsində Kirin əhəmənilərə aid olduğu bildirilir ki, o sonradan da yazılmış ola bilər. (К.А.Ибрагимова. Т. 5, Вып. 1, ч. 2, 2014 )

Əhəməni hökmdarlarından adı akkad mənbələrində "Si-is-pi-is", elam yazılarında isə "Sispis", farsca Çişpiş şəklində yazılan Kirin atasının adı da mübahisə doğuran məsələlərdəndir. Çişpişin adının da qeyri iran mənşəyə malik olduğu fikrini müdafiə edən iranşünas bilginlər bu adı kimmerlərin Teuspa, urartuların Teseba adı ilə eyniləşdirirlər.

Tarixdən məlumdur ki, Zərdüştün bir adı da Spitamen olmuşdur. Midiya hökmdarı Astiaqın qızı Amitanın milliyətcə midiyalı olan ərinin adı da Spitamen idi və bəzi müəlliflər onu Zərdüştlə eyniləşdirirdilər. Məlum olduğu kimi Makedoniyalı İsgəndər e.q. 329-cu ildə Türkistana yürüşü zamanı Soqdianada Spitamen adlı sak başbuq ona qarşı üsyan qaldırmış və yunan ordusunu çətin vəziyyətdə qoymuşdu. Nəhayət döyüş zamanı Spitamen öldrülmüşdü.

Zərdüştü hər vəchlə iranlı və fars kimi qələmə verməyə çalışan bəzi tədqiqatçılar onun midiyalı kimi təqdim olunmasına etiraz edirlər.

İranşünas İ.V.Abayev müxtəlif dəlillər gətirərək Zərdüştün iranlı olmasını sübut etməyə cəhd göstərir, hətta onu sak kimi qəbul etsə, midiyalı kimliyinə etiraz edir. (И.В.Абаев. 1971, Səh. 272)

Kadusi tayfaları Azərbaycanda üsyan qaldırdığı zaman, Kir üsyanın yatırılması üçün göndərilmiş, lakin Astiaqa xəyanət edərək kadusilərlə birləşmişdir. Kambizin ölümündən sonra Kirə Anşan kralı ünvanını Babil şahı Nabonidin özü təqdim etmişdi. Kir babillilələrə müraciətində bütün sülaləsinin Anşandan olduğunu, özü haqqında isə "Mən Kir (farsca Kuruş), kainat hökmdarı, Babil kökmdarı, Sumer və Akkad hökmdarı, dünyanın dörd cinahı hökmdarı, Kambizin oğlu, böyük hökmdar, Anşan hökmdarı, Kirin nəvəsi-böyük hökmdar, Anşan hökmdarı, Çişpişin nəticəsi-böyük hökmdar, Anşan hökmdarı, qədimdən şah nəslindənik". (Yusif Yusifov. 1992, Səh. 359)

Göründüyü kimi burda Kir nə özünün, nə də əcdadlarının Pars kökmdarı olduqları haqqında heç bir söz demir. E.q. 547-cu ildə Kir Kiçik Asiyaya yürüş edərək Lidiya kralı Krezi məğlub edir və bu bölgədəki yunan şəhərlərini də işğal edərək onları Lidiya satraplığına birləşdirir. Sonra o üzünü şərqə tutaraq Orta Asiya bölgəsində bir sıra əraziləri işğal edir. Kir daha sonra 546-cı ildə Qərbi Türkistana yürüş edərək saklarla müharibə edir.

E.q. 530-cu ildə Kir massaget tayfalarına qarşı yürüş təşkil edir və Massaget hökmdarı Tomrisə elçi göndərir. Lakin Tomris Kirin əsl niyyətinin onun ölkəsini ələ keçirmək olduğunu dərk edir və evlənmə təklifinə rədd cavabı verir. Massagetləri Strabon sak adlandırırdı. Massagetlərin yerləşdiyi ərazi müəyyən mübahisələrə səbəb olan məsələdir. Herodot massagetlər haqqında yazır ki, onlar Araz çayının o tərəfində issedonlar ilə üzbəüz yaşayır və Araz çayı matienlərin ölkəsindən axır. Matienlər isə Urmiyə gölünün qərbində yaşayırdılar. Tarixi qaynaqlardan da məlumdur ki, VII əsrən əvvəllərindən başlayaraq Azərbaycan ərazisində iskit/saklar məskən salmış, hətta öz dövlətlərini yaratmışdılar.

Kirin Sakistan sakları ilə e.ə. 546-cı ildəki müharibəsinin digər bir variantını da yunan müəllifi Ktesiy təqdim edir. Onun yazdığına görə Sak ölkəsinə hücum edən Kir sakların ali hökmdarı Amorqu əsir almağa müvəffəq olmuşdur. Rəvayətə görə Amorqun arvadı Sparetra üç yüz minlik kişi və iki yüz minlik qadınlardan ibarət qoşun toplamış və Kirin üzərinə yürüş edərək onu ağır məğlubiyyətə uğratmışdır. Döyüş zamanı Kirin özü, qardaşı Amitis və üç oğlu, sərkərdəsi Parmisis əsir götürülmüş və Amorqla dəyişdirilərək azad edilmişlər. (Ктесий. *История Персии. Перевод Д.В.Мещанский*)

Saklar Kiri məğlub etsələr də hər il müəyyən vergi müqabilində formal olaraq Əhəmənilərin hakimiyyətini qəbul edirlər və şərq sərhədlərinin qorunmasında mühüm qüvvə təşkil edirlər. Kirin Babilistan üzərində e.q. 539-cu ildə qələbəsi ilə Fələstini də öz hakimiyyəti altına alaraq Yaxın Şərqin ən böyük dövlətinin hökmdarına çevrildi.

Digər rəvayətə görə Kir Orta Asiyadakı sak/massagetlərə qarşı yürüşə başlamışdır və Herodotun adını çəkdiyi Araz çayı əslində Amudərya, Meotid gölü isə Aral dənizidir. Tomris Kirdən ölkəsini tərk etməsini tələb edirsə də, iranlılarla müharibə labüd olur. Massagetlərlə döyüşdə Kir hiylə yolu ilə əsir aldığı Tomrisin oğlu Sparqapis özünə qəsd edir. Tomris oğlunun ölümünü xəbər alınca ordusu ilə Kirə qarşı hücuma keçir, fars ordusu darmadağın edilir və döyüşdə öldürülən Kirin başını qanla dolu tuluğun içərisinə qoyur. Bir çox müəlliflər Tomrisi Əfrasi-

yabın qızı və ya nəvəsi adlandırırlar.

Kirin Türkistana hərbi yürüşləri və onun sak və massaqetləri öz hakimiyyəti altına alma cəhdləri İran Turan mübarizəsinin bir mərhələsini təşkil edirdi. Kirin əsir alaraq ölümünə səbəb olduğu Tomrisin oğlu Sparqapisin adının Lenorman Midiyanın turan dilində yazılmış qaya kitabəsində "Sbarrak pikti" kimi yazıldığını qeyd edir və mənasın "savaşda yardım edən" olduğunu yazır. (Lenomart, Historie ancenne de l'Orient, Səh. 497)

Əhəməni hökmdarları hakimiyyətin yenidən midiyalıların əlinə keçəcəyindən çox ehtiyat edirdilər. II Kirin oğlu II Kambiz (e.ə. 530-522) Misirə qarşı hərbi yürüşdə olarkən e.q. 522-ci ildə İranda dövlət çevrilişi baş verir və qardaşı Bardi hakimiyyəti ələ keçirir. Herodotun yazdığına görə hakimiyyətin əslində midiyali maq Smerdis (Qaumata) tərəfindən ələ keçirildiyi xəbərini alan Kambiz ölkəsinə geri dönərkən Suriyada atdan yıxılaraq ağır yaralanır. O gələcəkdə hakimiyyətinə qarşı ən böyük təhlükənin qardaşından gələcəyini zənn edərək onu öldürtmüşdü. İndi isə təhlükə farsların əzəli düşməni midiyalılar tərəfindən baş vermişdi. O farsları dəvət edərək onlara müraciətlə vəsiyyət edircəsinə dedi: "Ey farslar, krallığımın qoruyucusu tanrılar adından sizə vəzifənizin nədən ibarət olduğunu söyləyirəm. Taxtın midiyalılara keçməsinə izin verməyin. Əgər hiylə ilə ələ keçirsələr, siz də hiylədən istifadə edin. Əgər zorla alsalar, siz də zorakılığa əl atın, ordunuzla onların əlindən alın. Əgər krallığı xilas etməsəniz, bütün farsların sonu mənimki kimi olsun". (Herodot, 2012, III, 65)

Yolda vəfat edən Kambizin heç bir övladı olmadığından hakimiyyət varisliyi məsələsi mümkün deyildi. Qaynaqların verdiyi məlumata görə Qaumata adlı bir midiyalı maq özünü Bardi adlandıraraq fars hakimiyyətinə qarşı üsyan qaldırır və yeddi ay hakimiyyətdə qalır. Əhəməni nəslinə mənsub Fars satrapı Quştaspın oğlu Dara Qaumatanı yalançı Bardi kimi qələmə verərək sui-qəsd təşkil edir, Bardi öldürülür və taxtı ələ keçirir.

Herodot Qautamanın öldürülməsi xəbərini eşidən farsların bayram etdiklərini və maqları kütləvi surətdə qətl etməyə başlandığını yazır. İosif Flaviyin yazdığına görə Farslar hər il Qaumatanın öldrülməsi gününü "maqafoniya" bayramı, yəni "maqların öldürülməsi" bayramı kimi qeyd edirdilər.

Kir Astiaqa qarşı mübarizədə və Midiya taxt-tacını ələ keçirməsində ona yardım edən üsyançı midiyalı əyan və idarəçilərinə bir müddət yüksək vəzifələr verdisə də, bu uzun müddət davam etmədi. Qaynaqlardan da məlum olduğu kimi Kirin e.ə. 550-ci ildə Midiyada hakimiyyəti ələ keçirməsinə qədər Astiaqa qarşı mübarizəsi beş il davam etmişdir. Öz mövqelərini möhkəmləndirdikdən sonra o hakimiyyəti 7 fars ailəsinin əlində cəmləşdirdi və bir müddət sonra öz krallıq ünvanından Midiya adını sildirdi. Farsların və midiyalıların ayrı-ayrı millətlər olduğu və aralarında daima bir etnik qarşıdurma və düşmənçiliyin mövcud olduğunu



və heç bir vaxt bir-birlərinə etibar etmədikləri qarşılıqlı mübarizə faktlarından da bəlli olur.

Dara da e.q. 522-ci ildə saklara qarşı yürüş edir, Amudəryanın sahilində sakların Skunxa adlı başçılarını məğlub etmişdi. Daranın dövründə Əhəməni imperiyasına daxil olan ərazilərdəki xalqlar iranlıların zülmündən xilas olmaq uğrunda dəfələrlə üsyanlar qaldırmışlar. İranlıların şərqdə və şimalda məskunlaşmış köçəri Turan tayfaları ilə arası heç vaxt kəsilməyən mübarizəsi xatirələrdə daima canlı olaraq yaşamışdır. Minillərlə il davam edən mübarizədə arilər turanlılara üstün gəldilər, lakin onlar turanlı mayasını yox edə bilmədilər, bu maya bir çox arilərdə, hətta sakandinavlarda bu gün də mövcuddur.

İranlılar min il yarım ərzində turanlıların bir qismini ariləşdirməyi başardılar, lakin bu qan qarışığı olmadan mümkün deyildi. E.q. 650-ci ildən bəri Azərbaycanda və Ardalanda midiyalıların idarəsi altında yaşayan iranlılar Əhəmənilərin timsalında öz dövlətlərini yaratmaqla Asiyanın taleyini dəyişməyi bacarmışdır. (Wirth Geschichte Asians und Osteuropas, Səh. 50)

Əhəmənilər Hindistandan başlamış Qafqazın güneyi, İran yaylası və Kiçik Asiyanı əhatə edən turanlı xalqların əzəli yurdu olan ərazilərdə turanlı ön türklərin Midiya dövlətində hakimiyyəti xəyanət yolu ilə ələ keçirərək öz dövlətlərini yaratmışdılar. Əhməni dövlətinin mövcudluğuna Makedoniyalı İsgəndər 10 il davam edən müharibə nəticəsində son qoymuş və onun ərazisini öz imperiyasının tərkibinə daxil etmişdir.

İranlıların sonradan məskunlaşdıqları Mazandaranın qədim adı Hirkaniya olmuşdur. Arilər gəlmədən öncə Hirkaniya ərazisində turanlılar yaşayırdılar. Şahnamədəki Mazandaran şahının adı Auladdır. Hindlilərin epik Riqveda dastanında isə kral Aulana Hirkaniyanın kralıdır. Mazandaran və Hirkaniya eyni ölkədir. "Aula" qədim riqveda dilində qurd deməkdir, bu sözün digər bir sinonimi qurd mənasında Avestada işlənən "vhrika"dır. Hrikana sözü "vhrika"-dan yaranmışdır və mənası "Qurdlar ölkəsi" deməkdir. (H.Brunnhofer, 1889, Səh. 32)

Yunan və Romalı müəllifləri turanlı tayfaları Anariyaka, yəni ari olmayan adlandırırdılar. Pliniy Xəzər dənizinin cənubunda məskunlaşan Tapirlər, Anariyaklar, Staurlar və Hrkaniyada tayfaların adlarını qeyd edir. O Anariyakların eyni zamanda Mavuannəhrdə də məskunlaşdıqlarını və iranlıların onları saklar adlandırdıqlarını yazır. Türk və monqollordan ibarət olan anariyaklar ən qədim zamanlardan Oksus çayının qarşı tərəfində və Xəzərin cənubunda məskunlaşaraq arilərə qarşı dağıdıcı basqınlar edirdilər. Alman tarixçisi Şpiqelin yazdığına görə Anariyalar, yəni türklər ən qədim zamandan arilərlə yanaşı Midiyada və Atropatenada da məskunlaşmışdılar.

Şahnamədə Turan şahzadəsi Əfrasiyabın ov etdiyi Şehd çayı Qerurud çayıdır. Bu çay Məzandaranda yerləşir, o deməkdir ki, ən qədimlərdən turanlılar iranın

təkcə sərhəddindəki Oksus (Amudərya) çayının arxasında deyil, İranın batısında və güneyində yaşayırdılar. (H.Brunnhofer, 1889, Səh. 77)

İranlılar Orta Asiyaya gəldikdən sonra Oksus çayı İran və Turan xalqları arasında bir sərhəd çayı olmuşdur. Daranın kitabəsində qeyd olunan "Şaka tya taradaraya" sözü dəniz arxası sakları, yəni Xəzər dənizi arxasında yaşayan sakları ifadə edir.

Antik müəlliflərin verdiyi məlumata görə Fars əyalətində məskunlaşan on-on iki iranlı tayfalardan yalnız üçü "pasarqad", "marafi" və "maspi" tayfaları arilər idi. O tayfalardan dördü qeyri arilər olub təmiz köçəri tayfalar idilər. Qərbdə dağətəyində yaşayan "amarda" tayfası kassi və elamların qarışığından törənmişdi. Digərlərinin dilləri quruluş etibarı ilə aqqlünativ dilli olub turanlı və ya ural-altay qrupuna mənsub idilər. Onların yaşadıqları ölkə Anşan adlanırdı və Elamın tərkibində idi. (З.Рагозина. 1903, Səh. 312-313)

Əslində Amarda tayfası turanlı midiyalıların etnik kökünü təşkil edən boy olmuşdur və arilərlə bir əlaqəsi yox idi. Midiya və parslara aid edilən Marafi boy adı ilan adının sami/arami və iran dillərində birləşimindən ibarətdir, ikisinin də mənası ilan deməkdir. Afi arami dilində, mar iran dillərində ilan deməkdir. (Yusif Hikmət Bayur. 1930, Səh. 347)

Marafilər iranlı ola bilməzdilər, çünki iranlılarda ilana sitayiş kultu mövcud olmamışdır, ilana sitayişi müəlliflərin əksəriyyəti turanlılara xas bir etiqad olduğunu qeyd edirlər. İran dastan və rəvayətlərində bəhs olunan hadisələr və qəhrəmanların adları əksəriyyət etibarı ilə turanlı öntürklərdən əxz edilərək təhrif olunmuş və iranlılaşdırılmışdı.

Avestada köçəri xalqların ərazisi olan Aryanamvayca Turan ərazisini təşkil edirdi və onunla Aryaşayana (Arilər ölkəsi) arasındakı sərhəd farsların Datya adlandırdıqları çay, yəni Amudərya çayı idi. Turan ölkəsinin adı Avestada çox zaman Aryanam vayca şəklində ifadə olunurdu və bu ərazi arilərə aid deyildi. Aryanam vayca, yəni Turan ərazisində ən böyük tayfa birliyi turlardan ibarət idi. Turların mərkəzi Kanxa-Kanqlı adlanırdı və Əfrasiyab turların hakimiyyət sülaləsinə mənsub idi. Saklar və dahalar turlarla birlikdə Turan ölkəsinin başlıca tayfa birliklərini təşkil edirdilər. (Вайнберг Б., Этногеография Турана в древности, 1999, Səh. 206)

Kanqxa adı Kəngər adının iran dilində təhrif olunmuş şəklidir.

Lelekovun yazdığına görə Avestanın "Farvardın Yaşta" bölümündə müəllif tur, daha, sayram kimi köçəri tayfalarla yanaşı arya tayfasının da adını çəkir. Lakin o arya dedikdə İranı və ariləri deyil, Sırdərya çayının deltasında məskunlaşmış ariyaka tayfasını nəzərdə tuturdu.

Lakin Avesta mətnlərini şərh edən müəlliflər arya sözünü inadcıllıqla ari və İran kimi qələmə verməyə davam edirlər. Yunan müəllifi Ptolomeyin eramızın I minilliyin başlarında da öz əsərində ariyaka tayfası haqqında bəhs etmişdir. Ari-



akların məskunlaşdıqları Qazaxıstandakı Yeddiasar arxeoloji mədəniyyəti Ku-vandari çayının və Sırdəryanın deltaları arsında yerləşib e.q. I minilliyə və ya daha erkən dövrə aid idi. (Вайнберг Б, 1999, Səh. 207)

İran mifologiyasının bir çox ünsürləri turanlılardan əxz edilmişdir.

Qemoll İran mifologiyasında tanrılardan biri olan Tahmura ilə Mesopotamiyadakı Tamuru eyniləşdirir. O qeyd edir ki, İran miflərində Tahmuras Ay tanrısıdır. Tahmuras Avestada Pişdadilərin ilk hökmdarı Huşəngin oğlu və Yimanın qardaşıdır. "Zamyad yaşta"da yazıldığına görə Tahmuras öz düşmənlərinə qalib gələrək onların ram etdiyi rəhbəri, əjdaha şəklində təsvir olunan Əhrimənin üzərinə minərək 30 il ərzində yer üzərində hərəkət edib hökm sürmüşdür. Lakin bir dəfə Elbruz dağının üzərində uçarkən Əhrimən Tahmurası üstündən yerə salmış və sonra onu yemişdir. Sonra Cəmşid Əhriman obrazındakı əjdahanı öldürərək Tahmurası onun qarnından çıxarmışdır.

"Bundaxşin"də isə Tahmurasın ram etdiyi Sarsaoq adlı nəhəng öküz insanları arilərin müqəddəs vətəni olan Xvarinasdan digər ölkələrə öz üzərində daşıyır. Yəni arilər dünyaya öküzün üzərində yayılırdılar. Babil tarixçisi Berozun yazdığına və digər qaynaqların da təsdiq etdiyi kimi Midiyanın səkkiz kralı Xaldeydə, yəni Babildə hökmranlıq etmiş, Babil və Assuriyada Tamir tanrısına etiqadın əsası onların zamanından qoyulmuşdur. Anadoludakı Kilikiyadan köçüb Kiprdə yerləşən hökmdar sülaləsi də Tamuras adlanırdı. Gemoll Temur adının massaqetlərin kraliçası Tomir adı ilə eyniyyət təşkil etdiyini yazır. (Gemoll Martin, 1911, Səh. 2)

Tamir-Temur-Tehmuras adları əslində sumerin metal və dəmir anlamındakı Tibir eponiminin dəyişik fonetik şəkilləridir. Tibir akkad dialektində Dimir şəklində ifadə olunur.

Bu miflərin hər iki variantında həm Əjdaha, həm də nəhəng öküz Sarsaoq arilərin düşməni olan turları təmsil edir. Fikrimizə görə Sarsaoq sözü qədim turan öntürk dilində "Sarisal-uq", yəni sarı öküz sözünün arxaik fonetik ifadəsidir. (ДТС, 1969, Səh. 606)

İranlıların ulu hökmdarı Cəmşid ana tərəfdən turanlı idi. Cəmşidin arvadını turanlı Zöhhaq qaçırtdıqdan bir müddət sonra o Təbəristan dağlarına geri dönmüş və orda Cəmşidi doğmuşdur. Cəmşid sonradan öz atası Zöhhaqdan intiqam alaraq onu Dəmavənd dağında zəncirə vurmuşdur. (Spigel F. 1863, Səh. 68)

Ərəb müəllifi Yaqub ibn Nədim kitablarında Cəmşidin Şüstər, yəni Susina/Şuşa şəhəri yaxınlığında doğulduğunu və atasının adının Unç Xan olduğunu yazır. Bura avropalıların Anşan adlandırdıqları Anzan ölkəsi idi. Ərəblər Cəmşidi Metosalih adı ilə tanıyırlar. Əslində Cəmşid bir türk anzanit hökmdarı idi və Günəşə etiqad edirdi, Azərbaycanda qızıl taxta oturaraq hökmdar olmuşdur.

İran dastanlarında təsvir edilən hadisələr əslində şərqdən gələn turanlı Əfrasiyabın ordusu ilə Anşan və ya Elamdakı yerli türklər və assurlar arasında baş verən

mübarizələr əks olunmuşdur. Həmin qədim dövrlərdə iranlılar hələ Ön Asiyada tarix səhnəsinə qədəm qoymamışdılar. (Yusif Hikmət Bayur. 1930, Səh. 340, 341)

Cəmşidin Azərbaycanda, yəni dağlıq bir ölkədə taxta oturması sumer əfsanələrinə uyğundur. Sumer yaradılış əfsanəsinə görə hökmdarlara qızıl taxt müqəddəs dağların arxasında verilirdi. Bu dağlıq ərazi Aratta, daha doğrusu Azərbaycan ərazisində yerləşirdi.

J.Koyajenin "Qədim İran və Çinin kult və əfanələri" əsərində Turanlı sak əfsanələrinin İran və Çin əfsanələrinə təsiri haqqında bəhs olunur. Qərbin görkəmli iranist tarixçiləri Makvard, Noldeke və Hertsfeldin rəyinə görə Parfia tarixinin mühüm qismi Şahnamədə Kəyanilərin tarixi şəklində qələmə verilmişdir. Sasani salnaməçilərinin istəksiz davranmasına rəğmən, onlar Kəyanilərin tarixindəki boşluqları doldurmaq üçün nifrət etdikləri parfların farslar üzərində beş əsr davam edən şanlı tarixini öz tarixləri kimi qələmə verməyə məcbur oldular. Nəticədə Qudarz, Qiv və Karen kimi parfia hökmdarları və şahzadələri onlara hər baxımdan yabançı olan və tamamilə başqa zaman və məkanda hökmranlıq etmiş Keyxosrov və onun əcdadlarının qulluğunda duran cəngavərlər kimi qələmə verilmişlər. (J. C.Coyajee. 1936, Səh. 185)

Farslar bununla da kifayətlənməyərək onları fars milli dastanının qəhrəmanları kimi təqdim etməklə Parfia tarixini istismar etmişlər. Şahnamədə parfların tarixi rəvayətləri sakların əfsanələri ilə qarışdırılaraq dəyişik salınmışdır. Bu qarışıqlıqlardan təəccüblənməyə dəyməz, ona görə ki, çox zaman saklar və parflar xarici istilaçılara, o cümlədən kuşan və digərlərinə qarşı çiyin-çiyinə birlikdə vuruşurdular.

Zərdüştlük dini dualist xarakter daşıyırdı və Hörmüzd ilə Əhrimanın timsalında xeyirlə şərin mübarizəsi bu dini etiqadın əsas ideyasını təşkil edirdi. Əhrimanın timsalında ilan eyni zamanda Əfrasiyabı təmsil edirdi. Əfrasiyab iranlılar gəlmədən öncə Midiyanın bir çox vilayətlərində tanrı kimi qəbul olunurdu. Zərdüşt dinini qəbul edən iranlılar Midiyaya gəldikdən sonra burdakı turanlı maqlar Əhrimanla eyniləşdirilən Əfrasiyabı, yəni Əhrimanı Hörmüzd ilə barışdırmaq istəyirdilər.

İranlılar xeyir allahı kimi etiqad etdikləri Hörmüzün əksinə olaraq onların Midiyada yerləşmələrinə qarşı kəskin müqavimət göstərən Əfrasiyabın timsalında şər obrazı yaratdılar.

İranla Turan arasında mübarizə Əfrasiyabdan sonra da davam etmişdir. İranda Zərdüşt tərəfindən böyük dini dəyişikliyin həyata keçirilməsi xəbəri Turan padşahı Ercaspa da məlum olmuşdu. O Geştaspa bir məktub göndərərək Zərdüştün dininə etiqad etməməyi və əvvəlki dinə geri dönməyə dəvət etmişdir. Əks halda İranı darmadağın edəcəyini xəbərdarlıq etmişdi.



Geştaspın əyanları Zərir, İsfəndiyar və Camasp Ərcaspa layiqli cavab verməyi və Turana ilk öncə özlərinin hücum etməli olduqlarını Geştaspa təlqin etmişdilər. İki dövlət arasında başlanan savaşda öncə turanlılar üstün gəlmiş, lakin İsfəndiyarın döyüşə qatılması ilə turanlılar məğlub edilmişlər.

Turan və İran arasında dini əsasda baş verən bu savaş Avestada da öz əksini tapmışdır. Orda Viştasp və Ərcasp dua edirlər ki, düşmən üzərində qələbə çalmağa kömək etsin, lakin Ahuramazda Ərcaspın duasını qəbul etməmişdir. Turanlıların İrana hücumu zamanı Ercaspın ordu sərkərdələrindən biri olan Turberatur (Turbaqatur) məbəddə Zərdüşt peyğəmbəri qılıncla öldürmüşdür. (Spigel F. Band I, 1871, Səh. 706)

İranlılar Ön Asiyaya gəldikdən sonra burda Assuriyadan təbiətin böyük və ali allahı olan Milita və ya Anahiti özlərinə allah kimi qəbul etdilər. Anahit Friqiya və Xappadokiyanın allahlar Anası və Finikiyalıların Astarta (Sumer-akkadlarda İştarta) allahı ilə eyni idilər. Xappadokiyanın Allahlar anasının daş üzərindəki barelyefi Midiya ilə Assuriyanın sərhəddi olan Malatyanın Yazılı qaya adlı yerində, Midiyanın Anadoluda ən ucqar ərazisində qaya üzərində həkk olunmuşdur. Çəkinmədən demək olar ki, bu əsər midiyalılara məxsusdur. Herodotun Mitranı Venera ilə eyniləşdirməsi tamamilə yanlışdır. (Lenormant F., 1887, Səh. 414)

Y.Halevi arilərin mifoloji aspektinə tənqidi yanaşaraq qədim sanskrit əsərlərinin guya şifahi şəkildə nəsldən-nəslə ötürülərək yaşadıldığı fikrini kəskin tənqid edir və Avestanın Əhdi Ətiqin təsiri altında yazıldığını və Zərdüştün təkallahlılıq ideyasının sami mənşəli olduğu fikrini irəli sürürdü. (Cooper J. 1993, Səh. 183)

Samilər Zaqros dağı yaylalarında geniş ərazidə və çay vadisində yaşayan Qud/Quti xalqını Quzlar adlandırırdılar. Tarixin sonrakı dövrlərində də sami ərəblər Türkistanda və Volqaboyunda rastlaşdıqları Oğuz boylarını da tarixi ənənəyə uyğun olaraq Quz və ya əl-Quziyyə adlandırırdılar.

Yunanlar da Zaqros dağları yaylalarında yaşayan Susianadakı xalqı Kossi və ya Ukusi adlandırırdılar. Strabon Susiananı Farsistandan ayıran dağı Ukisi dağı adlandırırdı. Həmin ərazilər bu gün də oğuzların yurdudur. Orda farslaşmış türklər olduqları qəbul edilən Bəxtiyarilərlə yanaşı çoxsaylı oğuz türk boyları yaşamaqdadırlar.

Qədim İran tarixinin ən maraqlı personajlarından biri Zöhakdır. O Ərəbistandan onu hər zaman müşaiyət edən 10 min nəfər cangüdəni ilə gəlmişdi və Bivarasp ləqəbini qəbul etmişdi. Deyilənə görə o sadə bir qoyun sürüsü sahibinin oğlu idi və Orta Asiyanı da işğal edərək Babili özünə paytaxt seçmişdi. O min il hakimiyyət sürmüş, sonra dəmirçi Gavənin yardımı ilə Firudin tərəfindən taxtından salınaraq Cəmşidin sülaləsinin hakimiyyəti bərpa edilmişdir. Zöhhakla əlaqədar ən maraqlı cəhət onun ilanlara sitayişin mövcudluğu haqqında heç nə bilmədiyi-

miz Ərəbistandan gəlməsi idi. Mümkündür ki, Ərəbistan dedikdə burda yalnız Fəratın aşağısındakı sağ sahil nəzərdə tutulur. (James Fergusson. 1868, Səh. 41)

J.Ferqussonun qeyd ettiyi Fəratın sağ sahili qədim dövrlərdə turanlı kassi və digər tayfaların yaşadıqları ərazi idi. Zöhhak isə yuxarıdada qeyd edildiyi kimi fars tayfalarını özünə tabe edərək əsarət altında saxladığı üçün ilan və ya əjdaha surətində təqdim edilən mənşəcə subir və Midiyanın ilk kralı Deyyok idi.

Sasanilərin dövründə dəmirçi Gavənin Zöhhaka qarşı mübarizədə qaldırdığı dəri bayrağı Sasanilər Parfiya dövlətinə qalib gəldikdən sonra daş-qaşlarla bəzəyərək özlərinə bayraq etdilər və Zərdüştiliyi yenidən bərpa etdilər. Qədim əfsanələrdə əjdaha quraqlığın və qıtlığın simvolu idi. İranda isə o həmçinin mənəvi zülmün və şərin rəmzi idi. Avestada Aji Dahaka üç başlı, altı gözlü və buynuzlu görkəmi ilə daha bədheybət və qorxunc görünüşə malikdir. Şahnamədə də qədim İranın bayrağı "Daravaşi Qavia"nın uzun illər ərzində Midiyanın tabeliyində olan İrana Deyok dövründən miras qaldığı qeyd olunmaqdadır. (J.Coyajee, 1936, Səh, 245)

İranlılar Mihr ayının 16-da hər il Mihraqan adlı 5 gün davam edən bayram keçirirlər. İranlıların əfsanəsinə görə bu bayram Firudin tərəfindən təyin edilmişdir. Guya həmin gün dəmirçi Gavə zülmkar Ajdaha Bevarasba qarşı üsyan qaldıraraq xalqı onun zülmündən azad etmişdir. (Maquart J. 1905, Səh. 134)

İranlıların samilərdən əxz etdikləri yaradılış əfsanələrində iranlıların uydurduqları və İranın ilk hökmdarı hesab olunan İrəcin samilərin ulu əcdadı Sam və turanlıların ulu əcdadı Tur tərəfindən öldürüldüyü haqqındakı rəvayət iranlıların intiqam məqsədilə turanlılara və samilərə qarşı mübarizələrinə haqq qazandırmaq üçün yaradılmışdı.

Firudinin üç oğlu haqqındakı əfsanədə İrəcin öldürülməsi İran və Turan arasında qan intiqamına səbəb olmuşdu. Firudin də özündən əvvəlki şahlar kimi mifik obraz idi. Onun dövründə İranla Turan arasında, xüsusən də onun türklərdən ibarət qolu ilə əsrlərlə fasiləsiz davam edən müharibələrin başlanması dövrüdür. Turanlılar Yaksart çayından şimalda ucsuz-bucaqsız düzənliklərdə hakim idilər. Tarıxçi Justin Asiyanın skif-turan irqinin tarixini 1500 il daha geriyə atır. Bir çox müəlliflər, o cümlədən Ferqusson və Lenorman ən qədim dövrlərdə ilanın turanlıların dini etiqadında böyük rol oynadığını yazırlar. Turanlıların ali tanrısı hesab olunan böyük ilanı (əjdaha) Zərdüştlükdə sonradan şərin simvolu kimi Aqrimanyunun bayrağının gerbi edilmişdi. İran əfsanələrində Əfrasiyab ilan adlandırılır. (Lenormant F. 1887, Səh. 376)

Alman iranşünası F.Şpiqel yazır ki, İranlılar Avestada dünyanın yaradılması haqqında əfsanəni samilərin Bibliyada Yaradılış haqqındakı əfsanələrindən götürmüşlər. Bu əfsanənin ən qədim kökü Sumerlərə bağlıdır. Tufan haqqındakı Hind əfsanəsi də İran vasitəsilə Babil sami əfsanəsindən, daha doğrusu sumer əfsanəsindən götürmüşlər. (F.Spigel, Band 1, 1871, Səh. 442, 458)



Mazdeizmdə və Avesta mətnlərində böyük ilan Aqramanyunun timsalında şərin simvolu kimi təqdim olunur. Zərdüştliyin dualizm sistemində turanlıların timsalında şər ruhunu təmsil edən ilan Aqrmanyu, Ahuramazdanın simasında xeyirə qarşı mübarizə aparır. O göydən yerə yenərək Mitra ilə döyüşür, Mitra, nəhayət ona qalib gəlib üç min il müddətinə zəncirə vurur. (Lenormant F. 1882, Səh. 109)

F.Lenorman turanlı xalqların ilana sitayiş kultunun kökləri haqqında yazırdı: "Çox güclü əlamətlər bizi belə bir fikrə gəlməyə vadar edir ki, turan tayfaları içərisində ilan allahlarına sitayiş mövcud idi. Akkadlar ilanı özlərinin Göyü təmsil edən baş ilahi atributlarından birinə çevirmişdilər. İran dini ənənələrində qədim Midiyalıların İlan obrazındakı allahları şərin, zülmətin təmsilçisi kimi təqdim olunurdu. İlan cildinə girmiş Aqromanyu Ahuramazdanın səma cənnətinə daxil olmuşdur. İran mifologiyasında Traeton/Firudin Əj Dahaka və ya ilan Dahakaya qarşı mübarizə apararaq ona qalib gəlsə də, sonda özləri də Əjdahaya sitayişi qəbul etmişlər. Bu əfsanədə Əj-Dahaka ariləri uzun illər boyu öz hakimiyyətləri altına almış ilan tanrısına sitayiş edən turanlı midiyalıları təmsil edir.

Xorenli Moisey öz əsərində Ermənistanı öz əsarətləri altına almış turanlı midiyalıların ilana sitayişlərini nəzərdə tutaraq Midiya hökmdarı Astiyaqı Əjdaha ilə eyniləşdirir. (Lenormant F. 1877, Səh. 233)

Lenorman yazır ki, Ajdaha və ya Anqromanyu Turanlıların milli tanrıları idi və o Ahuramazdadan üstün idi. Turanlıların ilana sitayiş kultu Hind miflərinə də sirayət etmişdir. İranlı arilər kimi hind-arilər də düşmənləri olan turanlıları ilan obrazında təqdim edərək onlara qarşı mübarizəni öz miflərində əsas süjet xəttinə çevirmişlər. Arilərin Hind miflərində də təbiətdəki dağıdıcı gücləri ilə yaradıcı bərəkət gətirən gücləri arasındakı mübarizə İndira və Ahi arasındakı mübarizə şəklində öz əksini tapmışdır. İndira təmiz günəşli göy səmanı, ilan simasında olan böyük ilan Ahi isə tufan gətirən buludları təmsil edərək göydə süzərək artıb yayılır və dağıdıcı gücünü işə salır. İndira göndərdiyi ildırım zərbəsi ilə onu məhv edir və bərəkət gətirən suların qarşısını açır. (Lenormant F. 1882, Səh. 111)

Zərdüşt peyğəmbərin əsl adının Azərdüşt olduğu fikrini irəli sürən araşdırmaçı Aydın Qasımlı Ahuramazdaya fərqli bir baxış açısından yanaşaraq onu türklərin tək tanrı ideyasının təcəssümü olan Tenqri Menqü adının pers dilinə tərcüməsi kimi dəyərləndirərək yazır: "Azərdüşt tərəfindən "Doğru Düşüncə, Doğru Söz və Doğru Əməl" üzərində qurulan "Avesta" sonrakı bütün dinlərin ana prinsipi olmuşdur. Tək Tanrı ideyası məhz bu qədim Türk-Muğların təfəkkürünün məhsuludur. Azərdüştlüyə görə insanlığı vahid Tanrı olan Tenqri Mengü (Perscə tərcümələrdə Ahura Mazda-Hörmüz – A.M.) idarə edir. Azərdüşt tək Tanrı olan Tenqri Mengünün ali məziyyətlərini həyata keçirən Peyğəmbərdir. O, bu dini öz dini deyil, Tanrının dini adlandırmış, bir Peyğəmbər kimi həmişə Tanrıya müraciət etmişdir". (Aydın Qasımlı, 20121. Səh. 85-95)

Fikrimizə görə Ahuramazda tanrı adı Kassilərin kökü sumerlərin Aura və kassilərin Buqaş eponimlərinin sintezindən ibarət olan ifadədir. Tenqri Menqi ifadəsi doğru təsbit olsa da, Türk tarixinin daha gec dövrlərinə aiddir.

E.q. 900-cu ildə tərtib olunmuş Avesta mətnlərindən məlum olur ki, iki düşmən xalq arasında sərhəd problemləri mövcud olmuşdur. Mətndə deyilir ki, Ahuramazda baş verən sərhəd anlaşılmazlığını İran naminə yoluna qoymaq üçün nəhəng bir öküz yaratdı və İranla Turan arasında sərhəd o öküzün dırnaqları ilə qazdığı yerlə müəyyən olundu. (A Manual on the Turanians and Pan-Turanianism. 1920. Səh. 13)

Farslar təkcə Əfrasiyabı və onun turanlı xalqını deyil, turanlıların sonrakı davamı və varisləri hesab etdikləri Parflarm Arsaq dövləti hökmdarlarını da özlərinə düşmən və ilan surətində təqdim edirdilər. İlana sitayişin sonuncu maddi təsvirini biz Persapol yaxınlığındakı Nəqşi Rüstəm barelyefində görürük. Orda şahlıq çələngini Sasanilərin ilk hökmdarı Ərdəşir Babəkana təqdim edən Hörmüzd təsvir olunmuşdur. Allahın üstündə oturduğu atın ayaqları altında başında iki qıvrılmış ilanın olduğu təsvir sonuncu Parf hökmdarı Adrdəvana həsr olunmuşdur. Heykəltaraş bununla parfiyalıları lənətlənmiş Əhrimanın tərəfdarı olan Zöhakın nifrətamiz irqinin mənsubları kimi təqdim etmişdir. Zərdüştliyin allahı olan Hörmüzd lənətlənmiş Əhrimanı atının ayaqları altına alaraq kral emblemini atəşpərəstliyə etiqad edən Sasaniyə təqdim edir. (James Fergusson. 1868, Səh. 42)

Diqqətlə yanaşdıqda belə bir amil nəzərə çarpır ki, İranın bütün qədim tarixində dualizm təkcə dini xarakter daşımayıb, böyük dərəcədə etnoqrafik mahiyyət daşıyır. İranın Turana qarşı, Zöhakın Zərdüştə qarşı, Hörmüzün Əhrimana qarşı müxalifəti tarixi etnoqrafik səciyyəyə malikdir. Ari irqinin ölkəsini işğal edən və ilana sitayiş edən Turan mənşəli xalqa qalib gəldikdən sonra onların dinini ləğv və rədd etmək əvəzinə onları öz dinlərinə etiqad etməyə məcbur etmək iki dinin qeyri təbii kombinasiyasının meydana gəlməsinə səbəb olunmuşdur. (James Fergusson. 1868, Səh. 43)



# XXII FƏSİL. Hindistan və Turuşka türkləri

Arilər gəlmədən min illər öncə turanlı tayfalar bir neçə axınla Orta Asiyadan gələrək Hindistanda yerləşmiş və ilkin mədəniyyətin əsasını qoymuşdular.

Anauda arxeoloji qazıntı aparmış Pumpelli yazır ki, bu qədim mədəniyyətin əsasını qoyan insanların bir qolu burdan 6000 mininci ildə Sumerə, ikinci bir qolu isə e.q. 3468-ci ildə Çin xronologiyasına əsasən Hindistana və Doğu Asiyaya getmişlər. (Raphael Pumpelly. 1908. Səh. 440)

Orta Asiya çöllərinin köçəriləri dünya tarixində mühüm rol oynamışlar. Onlar tarix ərzində 20 dəfə Turan yaylasından hərəkət edərək Hind və Qanq vadilərini, Dəclə və Fərat vadilərini işğal edərək ucqarların durğunlaşmış mədəniyyət mərkəzlərinə yeni insan axını əlavə etməklə canlılıq gətirmişlər. Xaqların bu köçləri böyük tənzimləyici gücə malik idi. Bu insan axını çayların dağlardan vadilərə axması kimi coğrafi qanunun bənzəri idi. Qədim mədəniyyətə malik müxtəlif xalqları vahid hakimiyyət altında birləşdirən türk və tatarlar mədəniyyətlərin çulğalaşmasına səbəb olurdular. (R.Grosset. 1921, Səh. 6)

Amerikalı tədqiqatçılar E.Bryant və L.Pattonun 2005-ci ildə "Hind ari mübahisələri" adlı əsərdə yazdıqlarına görə e.q. 1500-cü illərdə Şərqi Avropadakı hind-avropa kütləsinin bir qolunu təşkil edən hind-arilər Xəzər dənizinin quzeyindən Şərqə doğru Ural üzərindən hərəkət edərək Türkistana yenmiş, burda iki qola ayrılmışlar, onların hind-ari qolu şərqə doğru gedərək Hindistanda məskunlaşmışlar.

Arilər bura gəldikləri zaman indiki Pakistanın Pəncab vilayətində əsası e.q. XXVII əsrdə turanlılar tərəfindən qoyulmuş Harappa, digəri isə İnd çayı vadisindəki Mohenco-Daro adlı yüksək inkişafa malik mədəniyyət mərkəzləri artıq mövcud idi.

Sumerlər Orta Asiyadan Mesopotamiyaya doğru hərəkət edərkən Ön Türklərin bir qolu da Hindistanın quzeyinə Hind çayı vadisinə doğru istiqamət götürərək orda məskunlaşmış və e.q. 3400-cü illərdə Mohenco-Daro və Harappa şəhər uyqarlıqlarını qurmuşdular. Lakin e.q. 1800-ci ildə bu əraziyə soxulan hind-avropalılar bu şəhərləri viran qoyaraq amansızlıqla məhv etmişlər. (Reha Oğuz Türkkan. Türk Tarih Tezleri, Türkler, cilt 1. Səh. 601)

Müasir dövrdə qədim tarix üzrə ən nüfuzlu nəşr hesab edilən İngiltərədə "Kembric qədim tarix" əsərində də Hind çayı vadisindəki Hrappa və Mohenco Daro mədəniyyətlərinin e.q. 1950-1650 illəri arasında buranı işğal edən arilər tərəfindən məhv edilmiş olduğu yazılmışdır. (The Cambridge ancient, V-1, PART 2, 1970, Səh. 155)

İrəli sürülən "Ari istilası nəzəriyyəsi"nə görə Hindistana soxulan arilər burdakı yerli xalqa qarşı amansızlıq göstərmiş və onun orijinal mədəniyyətini, o cümlədən Xarappa şəhərini və onun mədəniyyətini dağıtmış və kasta sistemi tətbiq etməklə

ölkə əhalisini hüquqsuz vəziyyətə salaraq özlərinə tabe etmişlər. (Edwin Bryant and Laurie Patton. 2005, Səh. 235)

Arxeoloqlar tarixəqədərki dövrdə Ön Asiyada turan mədəniyyətinin mərkəzi olan Sumerlə Hindistan arasında geniş ticarət əlaqələrin mövcud olduğunu aşkar etmişlər. Sumerlərə aid mixi yazı mətnlərdə Hindistan Meluha ölkəsi adlandırılır. Bu ticarət əlaqələri iki uzaq məsafədə yerləşən ölkələr arasında iqtisadiyyatın və mədəniyyətin daha da inkişafına səbəb olmuşdur.

Arilər Pəncab tərəfdən-şimaldan Hindistana daxil olduqları zaman burda məskunlaşmış qeyri ari xalqın müqaviməti ilə qarşılaşmış və arilərin kralı Sadas həmin xalqla vuruşmuşdu.

Hindlilərin qəhrəmanlıq dastanları olan Vedalarda Kavya Uçanas İran və arya əfsanələrində Kavya Uçan şəklində əks olunmuşdur. Bu ari qəhrəmanının adı göyə, tanrıya yüksələn, uçan anlamındadır. (Spigel F. Band 1, 1871, Səh. 441)

Harappa şəhər mədəniyyətinin yaradıcılarının burda bulunan heykəlciklərin üz təsvirləri və Çingiz xan sayağı saç düzümləri təsvirlərindən də göründüyü kimi Orta Asiya türk tipinə bənzəyirlər. Mahenco-daroda Su kultu hakim olmuşdur, ölüləri suda dəfn etməklə günahlarından təmizləmək, suda ölməyi şərəfli ölüm saymaq və su ruhlarına inanmaq Amudərya və Sırdərya arasında yaşayan əski türklər arasında quvvətlə yayılmışdı. (Z.V.Togan, 1981, Səh. 23)

Hindistanda ən qədim zamanlardan məskunlaşmış türk etnosunun bir qolunu da subirlər təşkil edirdilər. Z.V.Toqan Ön Asiyada çox qədimlərdən mövcud olan Subar və Subari etnonimlərinin əslində sub-er və sub-eri şəklində olduğunu və bu adın sü-er (Sumerləri nəzərdə tutaraq) şəklində də deyilə biləcəyini mümkün hesab edir. Subarların Hindistana köçərək hindlilərə qarışanlar "Subar oğulları" şəklində adlandırılırlar. Subarların Hindistandakı qalıqları Munda qəbiləsinin dağınıq oymağı şəklində Madras və Kalkutta arasında yaşamaqdadırlar.

Qədim dövrlərdə Hindistanın bütün ərazisində turanlı türklərin məskunlaşmış olduqlarını təsdiq edən Biruni Hind yarımadasının cənubundakı körfəzin Turan dənizi adlandığını yazır. (A.Бируни, 1963, Səh. 196)

Harappa və Mohenco-Daro mədəniyyətlərinin yaradıcılarından sonra da turanlı tayfaların Hindistana axınları davam etmişdi. Bu turanlı öntürk tayfaları tarixi mənbəlrərdə turvaşa, yadu, saka və s. adlanırlar.

Turvaşa Riqvedada və ondan sonrakı qədim mifoloji mətnlərdə adı çəkilən Pançacana, yəni beşlik adlanan xalqın beş tayfasından biri idi. Digər tayfalar Yadu, Druhyu, Anu və Puru idilər. Turvaşa və Yadu Yayatinin Devayanadan olan oğlanları idi. Yayatinin beş oğlu, o cümlədən Yadu və Turvaşa öz krallıqlarını yaratdılar. Turvaşa və onun qardaşı Yada Hindistanın sanskritcə Som adlanan Ay sülaləsinə mənsub idilər. Ay adı eyni ilə türk dilindəki Ay səma cisminin adı ilə eyni mənə daşıyır.



Ay sülaləsinin Riqvedada və Purana mətnlərində əsl adı Ayla kimi yazılmışdır və bu ada uyğun olaraq hind tarixi ədəbiyyatında Ayla sülaləsi kimi qeyd olunur. Sülalə onların ulu anası Aylanın adı ilə Ayla sülaləsi adlanırdı. Göründüyü kimi Ay sülaləsinin adı təmiz türkcə Ay adından götürülmüşdür və Öntürklərin Ay tanrısına etiqadla əlaqədardır. (Pargiter M.A. 1972, Səh. 84-87)

Yadu boyu türklərdə hakimiyyət rəmzi sayılan yada daşına sahib və ondan istifadə haqqına malik olan boyun Hindistandakı qolunu təşkil edirdi.

Turvaşalar Hindistanın güney-doğu bölgəsində Sarasvati çayının sahilində yaşayırdılar. Güney Hindistanın tarixi əfsanələrinin toplusu olan Puranada yazıldığına görə Panya və Çera tayfaları Turvaşadan törəmişdilər. Hər iki qardaşdan Hindistanın Yadalar və Turvaşalar adlı sülalələri meydana gəlmişdir. Purana mətnlərinə əsasən Yadular Hindistanın cənub-qərbində, Turvaşalar cənub-şərqində Qanqa və Camna çaylarının vadilərində hakimiyyət qurmuşdular.

Riqvedada kral Abhyavartin Turvaşa Vrikivantaya Srincaya dağının zirvəsində qalib gəlir (Turvaşa Riqvedada türklərə verilən addır). Turvaşa adı Riqvedada həmişə Yada və ya Yakşi adı ilə yanaşı çəkilir və Turanlıları nəzərdə tutulur. Oksford Sanskrit əlyazmalarında Hindistanın quzeyində Mustaqiri adlı dağ yaylaları haqqında bəhs olunur ki, heç şübhəsiz Muzdaq, yəni pamir və ya Bolor dağ silsiləsidir. (H.Brunnhofer, 1889, Səh. 93)

Riqvedada Hindistana hücum edən və uzaqdan gələn Turvaşa xalqı atlı süvari turanlılardır. Bir çox qərb və hind müəllifləri, o cümlədən S.Levi qədim hind mənbələrində adları çəkilən Turuşka və Turvaşa tayfa adlarının Türk demək olduğu fikrini irəli sürürlər.

Hindistanda qədim tarixi dövrdə uzun illər davam edən Saka erası adlanan tarixi dövr mövcud olmuşdur. Sakların Aryavata adlı hökmdarı uzun illər ərzində hindliləri öz əsarəti altında saxlamışdır.

Saklar Hindistana quzey tərəfdən Biltay adlanan Kiçik Tibet tərəfdən keçərək öncə Kəşmirdə məskunlaşmış sonra aşağı Hind hövzəsinə doğru enmişlər. Hindistana gələn saklar şübhəsiz ki, Çinin Xan salnaməsində adları çəkilən və yue-çilərlə qarşıdurmada məğlub olan Say-Van sakları idi (Say hökmdarı). Sakların bir qolu daha öncələri Kopen hövzəsində artıq yerləşmişdilər. Beləliklə, Hindistanda sakların iki dövləti və iki önəmli şəhəri var idi. Şimalda Kəşmirdə Taksila və cənubda Qanq çayının sahilində Mathura şəhəri. Hər iki sak dövlətinin arasında onlara düşmən münasibətdə olan yunan və hind knyazlıqları yerləşmişdi.

Təxminən e.q. 120-ci illərdə Hindistanın mərkəzi Mathula olan dövlətində hökmdarlar Parfiya ilə münasibətdə satrap ünvanına malik Haqan və ondan sonra Haqanmaş olmuşdur ki, onların adına sikkələr kəsilmişdir. Mərkəzi Kəşmirdəki Taksila olan Sak dölətinin satrapı Liaka Kusuluk idi. Onun adına kəsilən sikkələr

e.q. 100-cü ilə aiddir. Sikkələrdə yazılan Sakya adı Buddanın adı olan Sakya Muni adını xatırladır. (H.Rawlinson. 1912, Səh. 104)

Sakya Munu bir sak şahzadəsi olmuş, lakin sakların hökmdar taxt-tacının varisliyindən imtina edərək hindistandakı turanlılara məxsus Budda dinini yaratmışdır.

Saklar e.q. II-I yüzilliklərdə öz yurdlarını tərk edib Hindistanda Kapisa-Qəndəhar bölgəsində öz hakimiyyətlərini qurduqdan sonra Hindistanın quzeyinin böyük hissəsini öz hakimiyyətlərinə tabe etmişdilər. Ancaq sakların hökmdar Kşaharata sülaləsinin Satrapal ailəsi öz hakimiyyətlərini Hindistanın qərbindəki Dekan və Maharaçta əyalətlərinə də yaymışdılar. Onların təzyiqinə davam gətirə bilməyən Satavahana kralı öz ölkəsini tərk edib cənuba doğru qaçmağa məcbur oldu.

Hindistanın geniş ərazisində hakimiyyət quraraq sak dövlətini yaratmış Kşaharata hakimiyyət sülaləsinin əsl adı Karatay idi və türklərin məhşur Karatay tayfasına mənsub idilər, onların adı Ptolomeyin əsərində də qeyd olunur. (H.Raychaudhuri. 1927, Səh. 305)

Hindistanda sakların digər bir hakimiyyət sülaləsi Kşatrapaların Uccayn knyazlığı idi. Ptolomey Uccayn adının əslində Ozen olduğunu yazır ki, Uzen sakların Kaştana dövlətinin paytaxtı idi. Uccayn şahzadəsi Ysamotika Satavahana dövlətinə sahib olmaq istəyirdi. Sülalənin banisi Kaştana eramızın 78-ci ilində taxta çıxmışdı. (H.Raychaudhuri. 1927, Səh. 316)

Sakyalar quzey tərəfdən Himalayın əhatə etdiyi ərazinin güneyində Rohinl çayının vadisində yerləşmişdilər. Onlar özlərinin Günəş (Aditya) irqinə və İkşvaku ailəsinə mənsub olduqlarını irəli sürürdülər. Onlar Koliya tayfası ilə qonşuluqda yaşayırdılar və əkinlərini suvarmaq məsələsinə görə daima bir-birləri ilə mübarizə aparırdılar. (Smith V. 1914, Səh. 117)

Yueçilər tərəfindən məğlub edildikdən sonra Sakların bir qolu Əfqanistan ərazisində Hilmenddə, indi Sistan adlanan əsl adı isə Sakistan adlı ərazidə yerləşib öz dövlətlərini qurdular. Hindistan ərazisinə keçən saklar isə Pəncab əyalətindəki Taksilada və Camnada yerləşdilər. Onlar burda kralları Mauasın başçılığı altında öz dövlətlərini yaratdılar sonradan Parfiya dövləti tərkibində Sak satraplığı kimi mövcud oldular. (Smith V. 1914, Səh. 227)

Taksilada yunanların hakimiyyəti təxminən yüz il davam etdi. Sakistanda məskunlaşmış saklar öncə e.q. 95-ci ildə Araxosiyanı və digər ölkələri zəbt etdikdən sonra Hind çayını keçərək Pəncabı işğal etdilər. Sakların bir hissəsi Araxosiyada qalaraq burda parfiyalı sak Vononun başçılığı altında öz dövlətlərini yaratdılar. Bir neçə ildən sonra Sakların digər başçısı Mauesin başçılığı altında şərqə doğru hərəkət edərək Taksilanı zəbt edib yunanlıları ordan qovdular. Maues e.q. 58-ci ildə I Azes adı ilə artıq Taksilada hökmranlıq edirdi və Araxosiyadakı kökmdar Vanon ailəsi ilə sıx bağlı idi. Azes Hindistanın Camna sahillərini də əhatə edən quzey-batı ərazilərini sakların hakimiyyəti altında birləşdirmişdi. Hakimiyyəti altındakı Pəncab ərazisini o satraplıq idarə formasında idarə edirdi. Taksilanın və Mathuranın sak hökmdar ailələri bir biri ilə sıx əlaqədə idilər.

II Azesin ölümündən sonra Taksila və Araxosiya vahid hakimiyyət idarəsi altında birləşdirilərək Parfiyanın Qondofarlar hakimiyyətinə tabe edildi. (Marshall A. 1918, Səh 13)

Hindistanın tarixinin müəyyən bir dövrünü Saka və ya Sakakala erası təşkil edir. Sakların Aryavata adlı hökmdarı uzun illər ərzində hindliləri öz əsarəti altında saxlamışdır.

Çin müəlliflərinə Hiunqni adı ilə məlum olan köçəri türk tayfaları eyni mənşəyə malik olduqları qonşu tayfaları e.q. 165-ci ildə ağır məğlubiyyətə uğratdılar. Yue-çi adlanan və Çinin quzey-batısındakı Kansu vilayətində yaşayan həmin tayfalar öz yurdlarını tərk edib yeni otlaqlar axtarmaq üçün batı istiqamətinə doğru hərəkət etdilər. Kuça istiqamətində hərəkət edən Yue-çilər Təklə məkan səhrasının quzeyində məskunlaşmış Usun tayfaları ilə qarşılaşdıqları zaman aralarında toqquşma baş verdi. Toqquşmada Usun xanı yue-çilər tərəfindən öldürüldü.

Yueçi xanları Kanişkanın və Huvişkanın sikkələrdəki təsvirlərindən göründüyü kimi yueçilər monqol deyildilər. Usunlarla qarşıdurmada qalib gələn yueçilər Böyük Yueçi və Kiçik Yueçi olmaqla iki ordaya bölündülər. Kiçik yueçilər Tibet sərhəddində məskunlaşdılar. Böyük yueçilər batıya doğru hərəkət edərək Sırdəryanın quzeyində məskunlaşmış Sak tayfaları tərəfindən müqavimətlə qarşılaşdılar və qarşıdurmada məğlub olan saklar öz yerlərini tərk edib quzeydəki dağ aşırımlarından keçib Hindistan tərəfə hərəkət etmişdilər. (Smith V. 1914, Səh. 249)

Yueçilərin öldürdükləri Usun hökmdarının oğlu çin salnamələrində Hiunqni adlanan hunların dəstəyi ilə yueçilərə hücum edib atasının intiqamını aldı. Yueçilər bu məğlubiyyətdən sonra hərəkət edib Oksus çayının vadisinə gələrək Baktriya ərazisində yerləşdilər. Hindikuş dağlarından quzeydə yerləşən yueçilər bir müddət sonra güclənərək başçıları I Kadfis bütün yueçi tayfalarını vahid hakimiyyət altında birləşdirdi.

Çin salnaməsində Kuşan dövləti "Kouey-çoanq" şəklində yazılmışdır, onun ilk hökmdarı Kujulu Kadfis adı isə "Tieu-kseu-kio" kimi əks olunmuşdur ki, əsl adı Kuzuluk Kadafes ola bilər. (H.Raychaudhuri. 1927, Səh. 292)

Kuşan dövlətinin ilk hökmdarı Kujulu Kadfisin adı qədim türkcə Kuzuluk Kadas adının təhrif olunmuş formasıdır. (ДТС, 1969, Səh. 403)

Çinin quzey-batı ərazilərində məskunlaşmış Yue-çilər m.ö. 170-ci ildə öz yurdlarından sıxışdırılaraq öncə Baktriyanı, sonra isə Oksus vadilərini zəbt edib Kuşan adı altında öz dövlətlərini qurdular. Sonra onlar Kabul vadisini və, nəhayət, Hindistanın quzey düzənliklərini ələ keçirdilər. Böyük və qüdrətli Kanişkanın dövrün-

də Kuşan dövləti özünün ən əzəmətli dövrünü yaşadı. Kanişka Puruşapuru, indiki Peşavəri özünə paytaxt etmişdi. Onun hakimiyyəti Mərkəzi Asiyadan başlayıb Benqal sərhədinə qədərki böyük bir ərazini əhatə edirdi.

Miladın birinci əsrində Böyük Kanişkanın hakimiyyəti dövründə Kabuldan başlayaraq Qaşqara və Yarkəndə, Hindistanda isə Qucarat və Aqranı əhatə edən, Kəşmir mərkəz olmaqla, Turanlı Yue-çilərin dövləti böyük bir imperiyaya çevrildi. Kanişka buddizm dininə etiqad edirdi. Yue-çilərdən sonra V əsrdə Hunlar Hindistanı istila etdilər. (Romesh Dutt, Vol. 1, 1893, Səh. 17-24)

Əl Biruni Kəşmir əhalisinin türklərdən ibarət olduğunu yazır. Onlar Kəşmirdə yerləşən Bolor və Şamilan dağlarının yaylalarında yaşayan Bhattavar tayfasıdır, onların hökmdarları Bhatta şah titulu daşıyır. Onların Gilgit, Asvira və Şiltas adlı şəhərləri vardır. Onların dili türk dilidir. (Alberunis İndia. Vol 1, 1910. Səh. 207)

Kanişka özünü Şahənşah adlandırırdı. Onların sikkələrdə əks olunmuş dik burunlu, iri gözlü, az sıx saqqallı, qalın və qabarıq dodaqlı təsvirləri yue-çiləri monqollardan çox türk tipinə daha çox bənzədir. Hərbi istedadları və hind, iran mədəniyyətini assimlyasiya edə bilmək qabiliyyətləri yue-çiləri türklərlə eyniləşdirir. Yue-çilərə hind müəlliflərinin verdikləri Turuşka və ya Turukha adı onların Türk olduqlarını bir daha sübut edir. Beləliklə, yue-çilər və türklər eyni paralel dövrdə mövcud olan bir-birinə oxşar və ya eyni tayfalar ola bilərlər. Böyük müsəlman-türk alimi Biruni də qədim zamanlarda hindlilərin padşahlarının türk irqinə mənsub olduqlarını və onların içərisində Kanişkanın da adını qeyd edir. (Enciklopedia Britanika. 1910-1911)

Biruni Kanişkanın adını Kanik kimi yazmışdır. Biruninin Hindistan haqqındakı əsərini tərcümə edən və ona şərh yazan ingilis alimi Edvard Sachau Kanişka adının orta hind dili ləhcəsində Kanikhu, sanskritcə isə Kanişka şəklində yazıldığını qeyd edir. Türk adı orta hind dili ləhcəsində Turukkhu şəklində, sanskritcə isə Turuşa şəklində yazılır. (Al Berunis İndia, Vol 1, 1910, Səh. 361)

Ayla tayfaları bütün şimali Hindistanı əhatə edirdilər və orda yeddi krallıq qurmuşdular.

Haihayi sülaləsinə mənsub Böyük Arjunya Kartavinya Hindistanın şimalında geniş bir ərazini tutaraq Himalayın aşağısında böyük bir hakimiyyət sülaləsinin əsasını qoymuşdu. Arjuna böyük bir ərazini öz hakimiyyəti altına almışdı və onun varisləri Dehlini də öz ərazilərinə qatmışdılar. (Pargiter M.A. 1922, Səh. 152-153)

Hindistanın qədim tarixində mifik böyük qəhrəman olan Arjunya adı Artunqa adının saniskrit dilində dəyişik fonetik formasıdır və Turan padşahı Alp Ər Tunqa adının ekvivalentidir. Hindistanın şimalında hakimiyyət sürən turanlı öntürklər öz hakimiyyət sülalələrini və hökmdar titullarını Arjunya-Artunqa adlandırırdılar. Mahabharatada Panda krallarının öz mənşələrini Arjunadan götürdükləri yazılmışdır.



Göründüyü kimi Turan xaqanı Alp Ər Tunqa uzun illər ərzində hakimiyyət sürmüş, tarixi şəxsiyyət olmuş və onun adı sonrakı tarixi dövrlərdə də təkcə Mərkəzi Asiyada hökmdarı olduğu Turanda deyil, digər turanlı hökmdarların da hakimiyyət tituluna çevrilmişdir. Qaraxanlı, Səlcuk kimi Türk hakimiyyət sülalələri kökləri xaqaniyyə sülaləsinə, onun banisi Əfrasiyaba bağladıqları kimi, Hindistandakı Türk hakimiyyət sülalələri də köklərini ulu xaqan Əfrasiyab-Ərtunqaya bağlayırdılar.

Hindistanda əhalinin arilərdən fərqli bir qolunu təşkil edən Dravidlər də türklər və monqollar kimi Turan irqinə mənsubdurlar və yue-çi, monqollar və türklər kimi şimali şərqdən Hindistana gəlmişlər və burda qara rəngli irqdən olan Kolh və ya Kolar adlı tayfalarla o qədər içdən qaynayıb qarışmışlar ki, bədənlərinin quruluşu və rənginə görə onlardan fərqlənməməkdədirlər. Kohl tayfaları sonradan dravidlər tərəfindən şərqə doğru sıxışdırılmışlar. Dravidlər öncə yaşadıqları Belucistan tərəfdən arilər tərəfindən sıxışdırılaraq Hindistana köçməyə məcbur olmuşlar. (A.Wirth, 1905, Səh. 5)

Hindistanda Şakya xalqı Himalay dağlarının ətəyində eyni adlı dövlət qurmuşdular. Həmin krallığın Şahzadəsi Qautama Buddizm dininin əsasını qoymuşdur. O, Qautama Şakyamuni adını daşıyırdı. Sanskritcə Şakyamini şəklində yazılan bu sözün əsli Sakdır və turanlı sak tayfalarıdırlar.

Avropanın bir çox müasir müəllifləri, o cümlədən Maykl Vitsel və Kristofer Bekvit Şakyaların Orta Asiyadan gəlmə saklar olduqlarını elmi dəlillərlə sübut edirlər. (J.Attwood, 2012, Səh. 47-69)

Turanlılar ilk dəfə Hindistana daxil olduqları zaman arxitekturanın burda təməlini qoydular və onlar güclənib geniş yayıldıqca arxitekturanın da təsir dairəsi genişlənərək ölkənin dərinliklərinə yayılaraq daha mükəmməl forma aldı. Hindistanda arilərlə turanlıların fərqi ondadır ki, ədəbiyyat arilərə məxsusdur, arxitektura isə turanlılara. (Fergusson J, 1868, Səh. 78 )

Görkəmli arxeoloq və arxitektura tarixçisi, qədim dinlərin tədqiqatçısı C.Fergussona görə Buddizm Turan irqinin dinidir. Şakyamuninin yerli Turanlıların dinini yenidən bərpa etməsi dini baxımdan təkcə Hindistanda deyil, bəşəriyyətin bütün Turanlı ailəsində çox önəmli nəticələrə səbəb oldu. Ferquson yanlışlıqla Şakyamunini bir aryalı hesab edir. (Fergusson J., 1868, Səh. 62)

Buda dinin bir şamanist dini olduğu Biruni tərəfindən XI əsrdə söylənmişdir. V.Ruben də buddizmdəki türklərə aid ağac totemlərinin və ikili krallıq sisteminin mövcudluğunu təsbit etmişdir. Eyni zamanda bu dinə mənsub olanların çoban və dəmirçilik vərdişlərinin də türklərə aid xüsusiyyət olduğunu göstərmişdir. (Z.V. Togan, 1981, Səh. 23)

Öncələri arilər tərəfindən tətbiq edilmiş kasta sisteminə görə aşağı kastalar olan kşatriyalar tərəfindən qəbul edilən buddizm mühüm islahatlara məruz qaldı, tu-

ranlılara xas əcdadlara sitayiş kultu aradan qaldırıldı, ilana sitayiş ləğv edildi, lakin ağaca sitayiş ən yüksək səviyyəyə qaldırıldı. Turanlılarda kasta sistemi olmadığından, o buddizmin tərkibinə daxil edilmədi. Lakin arianizmin təsiri ilə sonradan edilən dəyişikliklərdə şivaizmin və vişnaizm bütün əcaiblikləri birlikdə Hindistan dini panteonuna daxil edildi. (Fergusson J. 1868, Səh. 63)

Stupalar və ya Topalar buddizmin ən mühüm əlamətlərindən biridir. Stupa kərpicdən və ya daşdan ibarət bütöv dairəvi piramidadır. Uyğun şərtlər altında onlar Misirdə də ucaldıla bilirdi. Stupalar məzarların üzərində qurulan Tumulların varisləridirlər. Tumulları ən erkən dövrlərdən Turan irqinə mənsub olan insanlar öz ölülərinin məzarları üzərində ucaldırdılar. Bu cür Tumullar Asiyanın şimalında, Kiçik Asiyada geniş yayılmışdır, onları Etrusklar öz məzarları üzərində ucaldırdılar, Yunanıstanda, Germaniyada və Fransanın qərbində, Skandinaviyada və bütün Avropada onlara çox rast gəlmək olur. (Fergusson J., 1868, Səh. 80)

İngilis Tarixçisi H.Rauilson Stupaları kurqan təpələrlə eyniləşdirirdi və istər stupaları, istərsə də onların mənsub olduğu etiqadı özündə əks etdirən buddizmin hindlilərə məxsus olmadığını bildirirdi. O Qautamanın mənsub olduğu şakyamuni tayfasının arilərin ardınca zaman-zaman davamlı axınlarla Hindistana daxil olan Saklardan ibarət olduqlarını yazırdı. Rauilson sanskrit mətnlərindəki Stupa sözünü türklərin təpə və ya kurqan sözündən götürüldüyünü yazır. Stupaların incə şəkildə yonularaq dairəvi formaya malik quruluşu Asiyanın mərkəzində sak başçılarının məzarları üzərində torpaqdan ucaldılmış təpə-kurqanların təkrarı olduğunu yazır.

Tumulların turanlılara aid qədim abidələr olduğu fikrini irəli sürən Ferqusson Hindistanda da yəqin ki, tumulların mövcud olduğunu, lakin onların çay selləri və leysan yağışlarının yuyub aparmış ola biləcəyini yazır. Əfqanistanda isə tumullar var. Hindistan Topalarını tumullardan fərqləndirən cəhət onları kərpicdən və ya daşdan tikilməsi nəticəsində dairəvi formaya malik olmalarıdır. (Fergusson J. 1868, Səh. 80)

Ferqusonun yazdığına görə Kəşmir bütün tarixi zamanlarda Hindistanda turanlılara xas dini etiqad olan ilana sitayişin əsas mərkəzlərindən biri olmuşdur. Hindistan və Çin ilana sitayişi ümumi bir mərkəzdən, cənub tərəfdəki Tibetdən və ya şimal tərəfdəki Tatariyadan götürə bilərlər. (Fergusson J. 1868, Səh. 53)

Hindistanda Budda məbədlərinin qarşısında "toran" adlı hündür arka-giriş qapısı inşa edilirdi. Tör sözü də türklərdə qapı, evin girişi mənasındadır və evin içərisində qapı ilə üzbəüz olan yer fəxri yer hesab olunurdu və tör adlanırdı. Hindistandakı məbədlərin qarşısında arka şəklində inşa edilən və qapı anlamında "toran" adlanan sözü də qədim türkcədir və hindistandakı saklara aiddir.

Sakların qədim zamanlardan etibarən məskən salıb dövlət qurmuş olduqları Mathura və Taksiladakı abidələrdə çoxsaylı qartal təsvirlərinə rast gəlmək olur, bu



qartalların bir neçəsi iki başlı təsvir olunmuşdur. İki başlı qartal təsviri ilk dəfə Ön Asiyada hitit heykəllərində rast gəlinir. Sonrakı dövrlərdə iki başlı qartal xüsusən də iskit-saklarla əlaqədar olmuşdur. Heç şübhəsiz iki başlı qartal motivini Taksilaya saklar gətirmişlər. İki başlı qartal gerbi iskit-saklardan Avrasiya imperiya dövlətlərinə və Almanlara keçmişdir. (Marshall J.A. 1918, Səh. 74)

Hindistanda türklərin mövcudluğunu və onun mədəniyyətinin bir çox cəhətlərinin türk xarakterinə malik olmasını Qəznəvi türk dövləti (1002-1026-cı illər) və Babur dövləti dövrü ilə əlaqələndirilməsi yanlış bir yaxlaşımdır. Yuxarıdakı tarixi dəlillərdən də aydın şəkildə məlum olur ki, Hindistanda türklərin mövcudluğu hind-arilərin bu əraziləri işğal etmələrindən min illər öncəki dövrləri əhatə edir.

# XXIII FƏSİL. Çin mədəniyyətinin Turani mənşəyi

Tarixi ədəbiyyatda Çində ilkin mədəniyyətin əsasını qoyanların öntürklər olduğu haqqında elmi fikirlər mövcuddur və bu haqda tarixi qaynaqlara əsaslanan çoxsaylı əsərlər yazılmışdır.

E.q. III minillikdə və hətta neolit dövründə Türklərin və türklərə qohum tayfaların Orta Asiyanın doğu hissəsində yaşadıqları bir gerçəklikdir.

Dörd min il əvvəl indiki Çin ərazisində mövcud olan mədəniyyət bu gün bizim gördüyümüz Çin mədəniyyəti deyildi. Qədim Çin əfsanələrinin və din tarixinin tədqiqi sonucunda müəyyən olunmuşdur ki, Çin tarixində bəhs olunan əsgi imperatorlar həqiqi imperatorlar olmayıb, sonradan çinli salnamə tarixçiləri tərəfindən gerçək imperator və qəhrəmanlar kimi təqdim etdikləri mifik qəhrəman və tanrılardırlar.

Görkəmli sinoloq bilim adamı V.Eberhardın gəldiyi qənaətə görə Çinin gerçək tarixi e.q. 1400-1050-ci illəri əhatə edən "Şanq dövrü" adlanan dövrlə başlayır. Çünkü istər arxeoloji qazıntılar zamanı aşkar edilən artefaktlar, istərsə də klassik Çin ədəbiyyatı bu tarixin mövcudluğunu təsdiq edir. Çin mədəniyyəti haqqında ancaq e.q. 1050-ci ildən etibarən bəhs oluna bilər. Ondan əvvəlki mədəniyyətlər protoçin mədəniyyətləri adlanmalıdır. E.q. III əsrdə Çin adlanan coğrafiyada nə çinli adlı vahid bir xalq, nə də bu xalqı təmsil edən vahid bir Çin mədəniyyəti mövcud deyildi. Onların yerində müxtəlif dillərdə danışan və fərqli mədəniyyətlərə malik tayfalar yaşmaqda idilər. Onların içərisində tibetlilərin və monqolların əcdadları, həmçinin türklər də vardılar. (Eberhard W. Türklər. C-1, 2002, Səh. 793)

Türklər bu gün Ordos adlanan bölgənin batısındakı Kansu əyalətində və güneydə Vey çayına qədər uzanan ərazidə yaşayırdılar. Şanqlar təkcə Çində deyil, Doğu Asiyada dövləti quranlardır və bu dövləti quranlar Türklərdir.

Çinin neolit dövrünə aid olan və şimal-şərq bölgələrində meydana gələn Yanq-Şao arxeoloji mədəniyyəti (e.q. 5000-3000-cü illər) etnik mənşə baxımından öntürklər olduqları sübut olunmuş və ilkin tarixi dövrdən etibarən həmin ərazidə məskunlaşmış Chüan-yülərə məxsus mədəniyyətdir.

Türkmənistanın paytaxtı Aşqabad yaxınlığındakı Anauda aparılan arxeoloji qazıntılar zamanı aşkara çıxarılan və e.ə. 4500-cü ilə, bəzi məlumatlara görə isə 9000 il bundan öncəyə aid olan qədim mədəniyyəti haqqında Z.V.Toqan yazır ki, "Bura o dövrdəki Ön Asiyanın Sumer və Sus, güney Asiyada Hindistanın Sind çayı hövzəsindəki Mahonco-Daro və Xarappa, Uzaq Şərqdə Çinin Yuanq-şao və Mancuriyada mövcud olmuş mədəniyyətlər üçün ilk başlanğıc, mərkəz və ocaq rolunu oynamışdır". (Z.V.Togan. 1981, Səh. 7)



Vey çayı vadisində hələ e.q. 2200-ci ildən başlayan zəngin bir mədəniyyət mövcud olmuşdur. Yanq-Şao adlanan bu arxeoloji mədəniyyət Ön Asiyanın boyalı saxsı qablar mədəniyyəti ilə qohumdur və bu mədəniyyət Çinin şimal-qərbini, Monqolustanı, qismən Mancuriyanı və qərbdəki Türkistanın sərhəd ərazilərini əhatə edib türklərə aid olduğu yəqindir. Belə nəticə hasil olur ki, bu boyalı qablar mədəniyyəti yalnız türklərin məskunlaşmış ərazilərdə yayğın olmuşdur. E.q. 1100-cü ildə türk boyları Çinin qərbində digər tayfaları əhatə edən böyük birlik kimi təşəkkül tapmış və güclü hərbi təşkilata malik Çou adlı bir dövlət qurmuşdular. E.q. 1050-ci ildə bu Çou dövləti Doğudakı dövləti də özünə birləşdirən qüdrətli bir dövlətə çevrildi. Çou dövləti 200 il mövcud olmuşdur. Türklərin hökmran olduğu bu Çou dövləti müxtəlif tayfaların və mədəniyyətlərin qarışımından ibarət gerçək bir Çin mədəniyyətini meydana gətirmişlər. Türklərin və onların mədəniyyətlərinin təsiri olmadan Çin mədəniyyətinin meydana gələ biləcəyini düşünmək yanlış olar. Çinlilərin bir türk tayfası olduqlarını söyləmək də yanlışdır, ona görə ki, çinlilər monqoloid irqinə mənsubdurlar, türklər isə heç bir zaman bu irqə mənsub olmamışlar. (Eberhard, səh. 798)

Çou sülaləsinin hakimiyyət dövrünü tədqiq edən çinli tarixçi Çhin-Çhunq-Mien Çouların dinləri, yazıları və əlaqədə olduqları tayfalar haqqındakı araşdırmalarının sonucunda Çouların Türk olduqlarını təsdiq etməkdədir. (Özkan İzgi. Türkler C-1, 2002, Səh. 678)

Təbərinin yazdığına görə Firudin dünyanı öz oğulları arasında bölüşdürərkən Türklərin, Xəzərlərin və Çinin üzərində krallığı oğlu Tura vermişdir. Makvart öz qeydində Turun bu ünvanının yanlışlıqla "faqfur" şəklində ifadə olunduğunu, əslində isə Çincə "Baqapur" adlandığını yazır. (J.Marquart, 1905. Səh. 6)

Bu o deməkdir ki, Çində ilk dövlətin qurucuları Bak və digər ön türk tayfaların Ön Asiyadan köçərək Mərkəzi Asiyada yerləşmələri və burda Çou adlı dövlətləti qurmaları gerçək bir tarixi hadisə kimi İran əfsanələrinə də yansımışdır. Baqapur Baqatur adının təhrif olunmuş şəklidir və özündə kassi tanrısının adını əks etdirir.

Qədim Çində yüksək mədəniyyətin təşəkkülündə və inkişafında Türklərin atlı çoban köçərilərinin rolu arxeoloji kəşf və araşdırmalar sayəsində aşkara çıxarılmışdır. (Koppers W. Türklər, C. 1, Səh. 444)

Çou və Şanq dövlətlərinin və bütövlükdə Çində uyqarlığın Ön Asiya sumer-elam, yəni öntürk mənşəli olduğunu Avropanın Eberhard, Kopper, Tarriyen de Lukaperi, C.Ball, D.Litt kimi bir çox assuroloq və sinoloqları öz əsərlərində elmi dəlillərə əsaslanaraq sübut etmişlər.

İngilis sumeroloq və siniloqları C.Ball və D.Litt "Çin və Sumer" adlı əsərdə sumerlərin e.q. 4000-ci ildə Mesopotamiyaya köçlərindən öncə Mərkəzi Asiyada Çinlə qonşu bir ərazidə yaşamış ola biləcəkləri fikrini irəli sürürlər.

Onların gəldikləri nəticəyə görə mixi yazıdan öncə sumerlərin yazı sistemi piqtoqrafik və heroqlif formasında olub təsviri xarakter daşıyırdı. Sumerlər bu yazı sisteminə hələ Mesopotamiyaya köçmədən öncə Mərkəzi Asiyadakı öz ilkin vətənlərində malik idilər. Sumer dilində və yazı sistemində dağlıq ərazini əks etdirən bir sıra xüsusiyyətlərə malikdir ki, onların şərqdən bir dağlıq ərazidən köçüb gəldiklərini sübut edir. Sumerlərin və çinlilərin əcdadları Orta Asiyanın dağlıq bir ərazisində yanaşı yaşamışlar. Çinlilər heroqlif yazı sistemini öz qonşuları sumerlərdən götürmüşdülər.

Ceyms Ball və Devid Litt çin dilində yüzlərlə sözü və onlardan yaranan söz birləşmələrini sumer dilindəki sözlərlə müqayisə edərək onların məna baxımından eyniliyini müəyyən etmişlər.

Onların hər iki dildə müəyyən etdikləri eyni mənalı sözlərdən bir neçə nümunəni nəzərdən keçirək: Çin dilində *nqu/qiu* öküz demək olduğu kimi, sumer dilində də ona bənzər şəkildə *Qu/Qud* öküz deməkdir. Çin dilində *yet/nyit* günəş demək olduğu kimi, sumer dilində də *Ud, Utu* günəş deməkdir. Çin dilində *hek/hi/ koku* gecə-qara demək olduğu kimi, sumer dilində *Qe/Qiq/Kukku* gecə və qara deməkdir. Çin dilində *huk/uk* günəşli/gündüz deməkdir, sumer dilində də *Uq* gündüz deməkdir. Çin dilində *ki* torpaq, dünya deməkdir, sumer dilində də *Ki* torpaq və dünya deməkdir. Çin dilində *kuan/kun/kon* rəhbər, ağa, başçı deməkdir, sumer dilində *Qun/U-qun* ağa/rəhbər, xanım, xanım əfəndi, deməkdir. (C.J.Ball; D.Litt. 1913, Səh. 2-4)

London Universitetinin sinoloq professoru Terriyen de Lukaperin qədim Çin mədəniyyətinin Turanlı köklərinin araşdırılmasına 1888 və 1894-cü illərdə yazdığı iki fundamental əsər həsr etmişdir. Lukaperin yazdığına görə e.q. 2300-ci ilə yaxın Elam kralı Kudur-Naxuntanin dövründə Elam və Babilin sərhəddində məskunlaşmış olan "Bek tayfası" adlanan yüz Turanlı tayfa birliyi öz yurdlarını tərk edib Şan irqinin (tibetli siyamlar) yaşadığı Çin ərazisinə gələrək özləri ilə gətirdikləri mixi yazının əsas elementlərini onlara vermiş və özləri də fiziki və linqvistik cəhətdən onlarla qaynayıb qarışmışdılar.

T. de Lukaperi turanlı Bak tayfasının Çin sərhəddindəki Türkistanda yerləşmədən öncəki dövrlərdə uzun illər ərzində Mesopotamiya-Elam və Çin arasında ticarətlə məşğul olduqlarını yazır. O "Qədim Çin mədəniyyətinin qərbli mənşəyi" əsərində yazırdı: "E.q. 2300-cü ildə Xaldey (Sumer) Xorasan, Bədəxşan və Şərqi Türküstan üzərindən Çinə yaqut, gümüş, asbest, turkoaz, qalay, tünd və ağ nefrit-yada daşı ticarəti edilirdi. Şərqlə qərb arasında ticarət müntəzəm olmasa da daima mövcud olmuşdur. E.q. 2300-cü ildən başlayaraq quru vasitəsilə, m.ö. 700-cü ildən etibarən isə dəniz vasitəsi ilə də ticarət davam etmişdir. Böyük coğrafi məsafəyə və uzun zaman sərf olunmasına baxmayaraq, Çin heç bir vaxt qərb mədəniyyətinin tərəqqisindən kənarda qalmamış, bu tərəqqidən daima yararlanmışdır. Batı



Asiyadakı yeniliklər və dəyişikliklər Çinə öz təsirini göstərirdi və bu təsir həmişə birtərəfli və qarşılıqsız olurdu, çünki Çinin batıya ipəkdən və bir neçə meyvədən başqa verəcəyi önəmli bir şeyi yox idi". (Terrien de Lacouperie. 1894, Səh. X)

Lakouperi salnamələrə əsasən Çini mədəniləşdirən bu Bak tayfasının sarı irqə mənsub olmadıqlarını özəl əlamətlərə əsasən onların mavi gözlü, saçlarının qara rəngdə olduğunu, başlarını incələşdirdiklərini, dillərinin sumer-akkad dilinə bağlı və ümumən Turan-iskit dil ailəsinə mənsub olduqlarını yazır. Bu tayfaların içərisində Bak tayfası ilə bərabər Ön Asiyanın eyni bölgəsində yaşayan və Kassilərə mənsub olan Ketsa adlı tayfa da vardı. O Bak tayfalarının geniş bir ərazini əhatə etdiyini Elamın Susian yaxınlığında, Xəzər dənizinin cənub-şərqində və Hindiquşun qərbində məskunlaşdıqlarını və Bak etnosunun məskunlaşdıqları ərazilərə öz adlarını verdiklərini və tərkibində "Bak" sözü olan və bu gün də mövcud olan Bakti (Baktriya), Baktan, Baktiyari, Baqdat, Baqistan kimi toponim və etnonimlərin bu tayfa ilə əlaqədar olduğunu yazır. Beləliklə, Bak tayfaları əcdadlarının ilkin yurdu olan Ön Asiyanı tərk etdikdən üç və ya iki il sonra Öz yeni vətənlərinə çatmışdılar ki, bu vaxtın bir ilini Karaşarda keçirmişdilər. Onların öz yeni vətənlərinə çatdıqları il təxminən m.ö. 2282-ci ilə uyğundur. (Terrien de Lacouperi. 1894, Səh. 326)

Araşdırıcıların böyük əksəriyyəti yada/yeşim daşını tarixən türklərlə əlaqələndirirlər. Bu daş ilahi mənşəyə malik olub türklərdə müqəddəs hesab olunurdu və bu daşla əlaqədar çoxlu tarixi faktlar və əfsanələr mövcuddur.

Tədqiqatlar turanlı tayfalar olan Bak tayfalarının nefrit/yada ticarəti ilə olan əlaqəsini aşkar etmişdir. Onlar bu ticarəti məhz Türkistan üzərindən aparırdılar. Avropalıların nefrit türklərin isə yada/yeşim adlandırdıqları daşın Çinlə olan ticarət marşrutu Bak qəbiləsi başçılarına məlum idi və onlar öncədən tanış olduqları bu ticarət yolu vasitəsilə Türkistana və Çinə səfər etmişdilər. Yada daşının Çində mədənləri yoxdu və bu daş Çində və ümumiyyətlə, şərqdə çox dəyərləndirilirdi, ona hakimiyyət simvolu kimi baxırdılar.

Çin salnamələrində nefrit-yada ticarətinin Türkistan üzərindən aparıldığı haqqında çoxlu məlumatlar vardır və yada daşından Çin sarayı üçün hazırlanan məmulatlar Şansu və Kansu vilayətlərində emal olunurdu və bu vilayətlərə məhz Türkistandan aparılırdı. Salnamələrdə yazıldığına görə imperator yada daşından hazırlanmış hədiyyələri günün batdığı dağların arxasındakı qərb ölkəsindən alır. (Terrien de Lacouperi. 1894, Səh. 32, 33)

Çinə səfər edən Bak və ya Bek tayfalarının Elam hökmdar tituluna uyğun olaraq Naqhunta adlanan başçısı (müasir Cin dilində Nai Huanq ti) öz xalqını indiki Çin Türkistanına gətirmiş və sonra Qaşqarda və Tarım çayının sahillərində yerləşdirmişdir. Bura sonra Çinin çiçəklənən Lob nur adlı bir bölgəsinə çevrilmişdir. Nahuntanın səfəri ilə bağlı bu Çin rəvayətində coğrafi əlamətlər və adlar öz əksini

tapmışdır. Bak tayfası bir başçının rəhbərliyi altında səfər etsələr də, bir neçə qola bölünmüşlər və heç də hamısı son mənzillərinə eyni zamanda çata bilməmişlər.

Lakouperi tarixi qaynaqlara əsasən Çində Şanq və Çou sülaləsinin əsasının qərbdən gələrək Çin sərhəddində yeləşən turanlı Bak tayfaları tərəfindən qoyulduğunu yazır. Çində hakimiyyətə gələn Şanq və Çou tayfaları öz adlarını yüz illərlə davam edən hakimiyyət sülaləsinə vermişdilər. Şanq sülaləsi adından göründüyü kimi ticarətlə məşğul olurdular və qərb mənşəyinə malikdilər. Bu iki sülalənin zamanında yada daşı ticarəti vasitəsilə qərbin bir sıra ideya və təsəvvürləri də Çinə daxil olmuşdur. Şanqları e.q. XI yüzillikdə hakimiyyətdən qovan Çou xalqı qırğız mənşəli idi və uzun əsrlər boyunca Çinin şimal-şərq sərhəddində məskunlaşmışdılar və yada daşının istifadəsi və onun ticarəti ilə əlaqədar idilər. (Terrien de Lacouperi. 1894, Səh. 78)

Hvanqtinin nəticəsi və varislərindən olan Ti Kuh Kao Sin Bak tayfalarının qurmuş olduğu Şərq və Mərkəzi qanadlarını vahid dölət şəklində birləşdirdi. Beləliklə, Bakların Çindəki hakimiyyəti quzey-batıdan başlayaraq Mərkəzdəki Şansini də əhatə edən böyük bir əraziyə yayılaraq möhkəmləndi.

Çində Bak tayfasının Mərkəzi dövləti şərq və qərb qanadından ibarət olan dual hakimiyyət sisteminə malik idi. Bakların ali aristokratiyası mərkəzi hakimiyyət səlahiyyətinə malik olub hər iki qanad üzərində ümumi nəzarəti həyata keçirirdilər. (Terrien de Lacouperie, 1894, Səh. 386)

Lakouperi yazır ki, Çinin hökmdarlarından birini adı Çunqli qədim yazı üsuluna görə Tunqli adlanırdı və türkcə Tunqri-Tenqri adının ekvivalenti idi. Heç şübhəsiz o mənşə etibarı ilə türk olmuşdur. O türklərdə bir çox anlayış və bilgilərin kökünü Bak tayfası ilə əlaqələndirirdi. Uyğurlarda qütb ulduzu Altın kazık adlanırdı, cağataylar isə onu Dəmir Kazık adlandırırdılar.

Kiçik Ayı bürcünün ulduzları Göy Bozat və Ağ Bozat adlanırdılar. Arkan yılduz adlı bürcün ulduzları Kəndir yıldız və Yeddi karakçı, yəni yeddi quldur adlanırdı. (Terrien de Lacouperi. 1894, Səh. 289)

Zaqros dağları və Elam tərəfdə yaşayan Bak tayfaları üçün köçün istiqaməti məsələsi çətinlik törətmirdi. Onlar üçün yeni məskən salmağa ən uyğun yer quzeydoğu istiqaməti ola bilərdi. Bu istiqaməti onlar malik olduqları ticarət səfərləri təcrübəsindən yaxşı öyrənmişdilər. Yəqin ki, onlar Xorasanın, Bədəxşanın və Şərqi Türkistanın mədənlərinə aparan yolla gedirdilər. Sumer-elam yazı mətnlərində cənubi-qərbə, şimali-şərqə və geriyə olan istiqaməti əks etdirən müəyyən idioqram işarələr Bak tayfalarına məlum idi. Oksun yuxarı axarı, Şərqi Türkistan və Tarım hövzəsindəki nefrit-yada mədənlərinə aparan yol Xorasan, Baktriya, Bədəxşan, Pamir və Kiu-su/Aksu üzərindən keçirdi. Baktriyada aşkar edilən mixi şəklindəki yazı və Pamirdə tapılan mixi yazılı silindir bu istiqamətin doğruluğunu təsdiq edir. (Terrien de Lacouperi. 1894, Səh. 320, 322)



Baklar Çində yerli şəraitə uyğun olaraq Mesopotamiyadakı kimi gil lövhə və silindr üzərində deyil, bambuk qabığı üzərində bıçaqla yazırdılar. Bu yazı ilkin formasından müəyyən dərəcə fərqliliklərə məruz qalmışdı və vertikal şəkildə yazılırdı. İki yüz qədim çin heroqlif işarəsinin 85-i piktoqrafik-mixi yazı işarələrinin əslində olduğu kimi saxlanmışdı. (Terrien de Lacouperi. 1894, Səh. 14)

E.q. 240-cı ildə Çində hakimiyyətə gələn yeni sülalənin banisi Şi-huanti 213-cü ildə ölkədə bütün qədim əsərləri və kitabları məfv etdi. (F.Hommel, 1889, Səh. 98)

Öncə Sin adlı dövlətin hökmdarı olan Şi-huanti e.q. 221-ci ildə yeddi Çin dövlətini öz hakimiyyəti altında birləşdirərək vahid Çin dövlətinin imperatoru oldu. Şin-huanti dövlətinin ərazisini hunların müntəzəm hücumlarından qorunmaq üçün Böyük Çin səddini inşa etmişdir.

Çinlilər elmin və incəsənətin bir çox sahələrini, yenilik və ideyaları Bak tayfasının vasitəçiliyi ilə sumerlərdən öyrənmişdilər. Günəş ilini, onun on iki aya bölünməsini, yeddi günlük həftə bölgüsünü, ilin dörd fəslə bölünməsi haqqındakı bilgiləri onlar İkiçayarasının qədim sakinlərindən əldə etmişdilər. Hər on iki ildən bir hadisələrin təkraralanmasını, falabaxma ənənəsini uğurlu və uğursuz günlər haqqında xurafi baxışları, rəqəmlərin harmoniyasının gizəmliliyi, ulduzların və o cümlədən qütb ulduzunun adlarını, Babilin standart ölçü və çəki vahidlərini, on iki musiqi qammasını, akkadların onluq rəqəm sistemini və buna bənzər bir çox şeyləri öyrənmişdilər. (Terrien de Lacouperie, 1894, Səh. 10)

Çinlilərin 6 səma ruhu Elamın ikinci dərəcəli altı tanrısının adları ilə eynidir. Qədim Çində hakimiyyət idarəçiliyi 12 inzibati-əraziyə bölünərək 12 rahib tərəfindən idarə edilirdi. On ikilik inzibati idarəçilik sistemi Mao-tunun Hun dövləttində və Oğuz xaqanın dövründə də mövcud idi.

Şərqdə odun sürtünmə ilə əldə edilməsinin əksinə olaraq, odun fırlatma üsulu ilə əldə edilməsi, daş əvəzinə inşaatda gil kərpicdən istifadə edilməsi, kanalların çəkilməsi, suvarma şəbəkəsinin yaradılması, buğdadan istifadə və əkinçiliklə məşğul olmağı məhz bak tayfaları keçmiş təcrübə və biliklərinə əsaslanaraq Çinə yerləşdikdən sonra tətbiq olunmuşdur. Dəmir emalı və metal tökmə sənəti, atçılıq və döyüş arabasından istifadə, şəxsi möhürdən istifadə, bütün bunlar Çinə köçərək orda məskunlaşmış turanlı bek tayfalarının istifadə etdikləri və kökləri Mesopotamiyaya dayanan elmi və təsərrüfat təcrübəsinin tətbiqi nəticəsi idi. (Terrien de Lacouperi. 1894, Səh. 11)

T.Lukaperi kitablarında əks etdirdiyi dəlilləri Çin mənbələrindən və araşdırdığı mixi yazı mətnlərindən əldə etdiyini və onların mötəbərliyi haqqında heç bir şübhəyə yer olmadığını yazır. Çünki heç bir sinoloq hələ Çin mədəniyyətinin qərb, yəni Turan mənşəli olmadığını sübut edə bilməmişdir.

Çinin qədim tarixinin ən məhşur bilicilərindən Huanq-Pu-Mu III yüzillikdə belə bir qədim rəvayətdən bəhs edir ki, çinlilərin Şennunq adlandırdıqları Sarqon döv-

lətinin zamanında Huanq-ti araba və qayıqlar hazırlayaraq onu müşaiyət edən şəxslərlə birlikdə 900 min li uzaq bir məsafə qət edərək qərbdən şərqə, dünyanın o başında yerləşən Çinə səfər etmişlər. (Terrien de Lacouperie. 1894, Səh. 2)

Çinin gələcək sakinləri olan Bak tayfası Ur kralı Dunqinin və Laqaşın rahib kralı Qudeanın dövründə Susun sərhəddindəki ərazidə yaşayırdılar və Babildə yayılmış mixi yazı sənətini öyrənmişdilər. Sonra onlar şərq tərəfə Çinə köçdükləri zaman bu yazı sənətini və xaldey mədəniyyətinin bir çox ünsürlərini özləri ilə apardılar. Onlar Çində mədəniyyətin əsas daşıyıcıları olmuşlar. Bak tayfaları geniş ərazidə, o cümlədən Elamın-Susian yaxınlığında, Xəzər dənizinin cənub-şərqində və Hindiquşun qərbində məskunlaşmışdılar.

Şərqə doğru hərəkət etdikləri zaman Bak tayfalarının bir neçə qolu ayrılaraq şimala, Yeniseyin şimal hövzəsinə doğru hərəkət etmişlər. Məhz həmin yerdə qədim yazı nümunələri aşkar edilmişdir.

Qədim Çin salnamələrində Bak tayfasının özləri ilə gətirdikləri Assur-Babil hakimiyyət sülalələrinə mənsub kral adları da öz əksini tapmışdır.

Bak tayfasının özü ilə Çinə apardığı yazı sistemi Elamda e.q. XXIII əsrə qədər istifadə olunan mixi yazı öncəsi piktoqram yazı sistemi idi. Akkad çarı Sarqon e.q. 2300-cü ildə Elama hücum edib 13 şəhəri işğal edərək öz dövlətinə qatdı. Sarqonun işğalçı hücumları və Mesopotamiya və ətraf əraziləri öz hakimiyyətinə tabe etdirmək fəaliyyəti digər tayfalarla birlikdə Bak tayfa birliyinin də öz yerlərini tərk edib köçlərə məruz qalmasına səbəb olmuşdur.

Çinin öz ölkələrini Orta krallıq və öz əhalisini qarabaşlılar adlandırmaları tamamilə Assur-Babil ənənəsinə uyğun bir hal idi.

T.D.Lukaperi "Babilin qədim xarakteri və onun çincə törəvləri" adlı əəsərində Turani Elam-xaldey dilinin və mixi yazısının çin dilinin və çin heroqliflərinin formalaşmasında oynadığı önəmli rolu və hər iki dildə bir çox paralelləri çoxsaylı müqayisələrlə təsbit etmişdir.

İki yüz qədim çin heroqlif işarəsinin 85-i babil yazı işarələrinin əslində olduğu kimi saxlanmışdır. Çin salnamələrində yazıldığına görə çinlilərin Dunqı adlandırdıqları Dunkit 640 mixi işarəsi və idioqram müəyyən etmişdir. Bu işarələr əsasında yaradılmış çin heroqliflərinin sayı uzun əsrlər boyunca elmin, mədəniyyətin və ədəbiyyatın inkişafı nəticəsində 10 minə çatmışdır. Mixi yazı mütəxəssisləri Babil-xaldey mixi işarələrinin sayını 496 və ya 556-ya kimi, Misir heroqliflərinin sayını isə 500-ə yaxın müəyyən etmişlər. (Terrien de Lacouperie, 1888, Səh. 13)

Çində yazılar gil lövhələrin əksinə olaraq qamış və ya bambuk qabığı üzərində, Misirdə isə papirus üzərində yazılırdı.

Lukaperi ilə yanaşı alman alimi A.Billerbek də Elamdan, Sus ətrafinda yaşayan Bak tayfalarının Çinə köçlərindən bəhs edir, lakin onları monqol mənşəli adlandırır: "Sus dövlətinin əsasını qoymuş monqol tayfasının bir hissəsi Kudur Naqhunta Babildə hakimiyyəti ələ aldığı zaman Şərqi Asiyaya və Çinə doğru ağır bir səfərə başlayaraq Çində Xuanxe çayının quzey sahillərində indiki Şansi və Çili vilayətlərinin ərazisində dövlətin və mədəniyyətin əsasını qoymuşlar. Uzaq batıdan gələn, Çində dövlətin və mədəniyyətin əsasını qoyan bu tayfanın adı Bak tayfası idi. Bu tayfanın Çində əsasını qoyduğu beş kamiyyətin beş hökmdarı Hoanqti adını daşıyırdı, qədim çin dilində həmin hakimiyyət ünvanının ifadə forması isə Kon-ti şəklində idi. Onların nəsli Nak və ya Nan adını daşıdıqları üçün qədim səlnamələrdə adları Nak-kon-ti kimi ifadə olunurdu". (A.Billerbeck, 1893, Səh. 48, 49)

E.q. IV əsrdən etibarən Çində Xuanxe çayının şımalı türklərin yaşadıqları ərazi olmuşdur. Çinlilər isə Xuanxenın cənubunda yaşayırdılar. Xuanxe bir türk çayı idi və onun türkcə "coşqun" mənasında olan Kuyankı adı çincə Xuanxe şəklində ifadə olunurdu. (Закирзянов Кайрат. 2012. Səh. 20)

Yada daşı türklərdə olduğu kimi çinlilərdə də müqəddəs hesab olunurdu. Yadadan tanrı və imperatorların, əfsanəvi qəhrəmanların heykəlləri və müqəddəs hesab olunan müxtəlif əşyalar düzəldilirdi. İlan və əjdaha etiqadı da çin inanc sistemində önəmli yer tuturdu. Turanlı sumerlərin hökmdarları tanrısal xarakter daşıyıb tanrılarla eyniləşdirildiyi kimi, Çin imperatorları da tanrının övladları hesab olunurdular.

Əjdaha Çinin dini və siyasi həyatında mühüm rol oynayır. Çinin məbədlərindəki mifik surətlərin və bəzəklərin təsvirində, imperatorların geyimlərində və bəzəklərində, ordunun bayrağındakı təsvirlərdə önəmli yer tutur və onun universal təsvirlərinin arxasında nə isə müəmmalı bir simvolika gizlənmişdir.

Avropa səyyahlarının müşahidələrinə əsasən çinlilərin təsəvvürlərinə görə əjdahalar yüksək dağlarda yaşayırlar, onlar xoşbəxtliyin atalarıdır və buna görə də onların şərəfinə məbədlər ucaldırlar. Ferquson Hindistan və Çində ilana sitayiş etiqadının ümumi bir mərkəzdən, cənub tərəfdəki Tibetdən və ya şimal tərəfdəki Tatariyadan-Türkistandan götürülə biləcəyi fikrini irəli sürür. (Fergusson J. 1868, Səh. 52)

İngilis mənşəli Hindistan araşdırmaçı J.Koyajenin "Qədim İran və Çinin kult və əfanələri" əsərində sak əfsanələrinin İran və Çin əfsanələrinə təsiri haqqında bəhs olunur. Sak əfsanələrində və tarixində bəhs olunan bir çox hadisələr və qəhrəmanların obrazları İran tarixi dastanlarının təsiri ilə çin əfsanələrinə daxil olmuşdur. Misal üçün Keyxosrov çinin əfsanəvi hökmdarı Cho-Vanq ilə oxşar cəhətlərə malikdir.

İranın Dağlara, quşlara, suya, küləyə, hökmdarlara sitayiş kultu ilə çindəki eyni inanclar arasında bənzərliklər vardır.

Mərkəzi Asiyada uzun illər ərzində hökmranlıq etmiş sak etnosu qonşu xalqlar üzərində böyük təsir gücünə malik olmaqla onların qəhrəmanlıqları haqqındakı hekayətlər fars əfsanələrinə də böyük töhvələr verməklə yanaşı çin mifologiyasını

da zənginləşdirmişdir. Saklar Çin və İran arasında malik olduğu əlverişli coğrafi mövqeyinə uyğun olaraq öz əfsanələrini hər iki dövlətə mənəvi dəyər kimi töhfə vermişdir.

Güclü, döyüşkən və romantik ruhlu bir tayfa olan Sakların qəhrəmanlıq dastanları-hekayətləri Mərkəzi Asiyada və Şərqi İranda onu söyləyən və dinləyənlər üçün böyük bir cazibə qüvvəsinə malik idi.

Çinin və İranın sak əfsanələrini özəlləşdirmələrinin səbəbi onların tarixində böyük bir boşluğun mövcud olması idi. Onların tarixi xalqı məmnun edəcək dərəcədə dolğun və qəhrəmanlıq süjetləri ilə zəngin deyildi. Bu baxımdan Sakların Rüstəm, Zal və digər qəhrəmanları haqqındakı hekayətləri cazibə qüvvəsinə malik olub, bu xalqlar üçün öz qəhrəmanlıq dastanlarının yaradılmasında bir təqlid mənbəyi təşkil edirdi. (J.C.Coyajee. 1936, Səh. 186)

Uyğur tarixçisi Turqun Almas 1989-ci ildə Doğu Türkistanda yazdığı "Uyğurlar" adlı əsərində Çin və Türklərin tarixi münasibətlərinə aid dəyərli bilgilər verir.

Çinlilər şimal və qərb ərazisində yaşayan türkləri "Hu" heroqlifi ilə ifadə edirdilər və onlara məxsus əşyaların adlarına da "hu" kəlməsi əlavə edirdilər. Çinlilər hunları "Hu-yunqni" adlandırırdılar.

Çin ölkəsi qədim zamanlardan etibarən uzun illər ərzində Türk dövlətlərindən asılı vəziyyətdə olmuşdur. Türk xaqanları özlərindən asılı və tabe vəziyyətdə olan Çin dövlətini Tabğaç adlandırırdılar. VII əsr Bizans tarixçisi Smokatta bu haqda yazırdı ki, Tabqaç Turanlıların müstəmləkəsidir. Çin Dövləti Tanq sülaləsi dövründə Orxun Uyğur dövlətinə vergi olaraq hər il 20 min top ipək parça ödəmişdir. Bu iş 750-ci ildən başlayaraq 840-cı ilə qədər, tam yüz il davam etmişdir. (Turgun Almas-Uzgurlar. İstanbul. Selenge yayın. 2010. səh. 590-591)

Çin imperatorları bütün dövrlərdə öz şahzadə qızlarını Türk xaqanları ilə evləndirməyə böyük cəhd göstərirdilər. Bunda məqsəd Çin şahzadə qızları vasitəsilə Türk xaqanlığı daxilində baş verən hadisələrdən xəbərdar olmaq, çinli qızlardan doğulan türk şahzadələri vasitəsilə Türk dövlərini öz nüfuzları altına almaq və lazım gəldikdə onların vasitəsilə hakimiyyət daxilində intriqa və münaqişələr yaratmaq.

Çin hökmdarları da Türk şahzadə qızları ilə evlənirdilər. Çin tarixçiləri ölkənin tarixində parlaq bir dövrü təşkil edən Tanq xanədanının qurucusu Li-şih minin anasının və nəvnəsinin türk olduğunu qeyd edirlər.

Yuxarıda da qeyd etdyimiz kimi tarixin müxtəlif dövrlərində sumer, türk dillərindən Çin dilinə çoxlu sözlər keçmişdir. Çin alimlərinin müəyyən etdiklərinə görə yabançı dillərdən çin dilinə 10 min söz keçmişdir. Çin dilinə Hunların dilindən 28, türklərdən 52, uyğurlardan 83, digər türk xalqları olan qazax, qırğız, özbək, tatar dillərindən çin dilinə 40 kəlmə keçmişdir.



Zəngin ədəbiyyat ənənələrinə malik olan türk ədəbi əsərlərindən bir çox örnəklər çin ədəbiyyatına daxil olmuşdur. Bunlardan biri "Tura şərqisi"dir. Bu nəğmə çin dilində "Çhi le qe", yəni Türk şərqisi adı ilə çox məhşurdur. Yapon alimi Masao Moriyə görə bu nəğmə eramızın 546-cı ilində Quzey Qi dövlətinin bir generalı Hu Lüçin (Altun) tərəfindən bəstələnmişdir. Tarixçi Turqun Almas Hu Lüçinin əsl adının Hoqursur Altun olduğunu və milliyətcə uyğur olduğunu yazır. Hoqursur Altunun rəsmi Qu dövləti zamanında yaşamış məhşur uyğur rəssamı Sao Sonqda tərəfindən çəkilmişdir. Bu gün də çində hamının əzbər bildiyi bu şərqinin sözləri də təmiz türk ruhunu özündə əks etdirir.

Şərqinin türkcə mətni belədir "Tura vadisi, Çoğay ətəyi göy üzünü əhatə edən dörd bucaqlı çadıra bənzəyir. Göy üzü masmavi, əngin çöllərdə yel əsib otlar baş əyməkdə, görünür arada qoyun və sığır". Bundan əlavə də uyğur ədəbiyyatının, musiqisinin və rəsm sənətinin bir çox möhtəşəm nümünələri Çin mədəniyyətinə daxil olaraq onu daha da zənginləşdirmişdir. Məhşur uyğur alimi Abliz Muhəmmət Sayrami "Sui, Tanq sülalələri dövründə yaşamış məhşur Uyğur tarixi şəxsiyyətləri" adlı əsərində eramızın VI-VII əsrlərində mövcud olmuş bu sülalələr dövründə yaşamış uyğur türklərinin tarixi şəxsiyyətləri, şair, musiqiçi və rəssamları haqqında geniş bilgilər vermişdir.

# XXIV FƏSİL. Yaponiya və Turan

Etnoqrafik araşdırmalar yaponların Turanın çox erkən ayrılan bir qolu olduğunu təsdiq edir. (Smith P. The Ancient History oft he East, Səh. 380).

Leon de Rosni Yaponların Turan irqinə mənsub olduğunu yazırdı.

Görkəmli Yaponya tarixçisi Eqami Namionun yazdığına görə eramızın III əsrində Yapon adalarında ilk dövlətin əsasını Yamoto adı altında Altaydan gələn köçərilər tərəfindən qoyulmuşdur. İlk yapon imperatorunun adı türkcə olub – Meyman idi. (Закирьзянов Кайрат. 2012, Səh. 141)

Yaponiyanı tatarlar m.ö. 1196-cı ildə, Koreyanı 1122-ci ildə çin şahzadəsinin rəhbərliyi altında məskunlaşdığı salnamələrdə qeyd olunmuşdur. Şimali Asiya xalqlarının kökünü arktik və ural-altay xalqları təşkil edir. (A.Wirth, 1905. Səh. 94)

Yaponiyanın ən qədim sakinləri olan aynlar antropoloji cəhətdən yaponların monqoloid tipə mənsub digər əhali qruplarından fərqlənirlər. Aynlarda monqoloidlik olduqca zəif şəkildə özünü biruzə verir və daha çox avropoid tipə bənzəyirlər. Ayn sözü xalqın öz dilində "insan və ya əsl insan" deməkdir. Aynların ilkin vətəni Sibirin güneyində Amur çayının sahili hesab olunur.

Aynların qalıqları Asiya materikində Uzaq şərqin Amur çayı, Saxalin və Kuril adaları ərazilərində son dövrlərə qədər yaşamaqda davam edirdilər. Türklər kimi avropoid tipə malik olan Aynlar uzun illər ərzində monqoloid yaponların ağalığına qarşı mübarizə aparmışlar. Aynlar özlərini yoldaş anlamında "utari" adlandırırlar, bu sözün kökü qədim türk dulində "ut", yəni "yanaşı, bərabər" və ar/er sözü də insan deməkdir. Utari sözü aynlarda olduğu kimi türk dilində də yoldaş-yanaşı gedənlər deməkdir. (ДТС, 1969, Səh. 617)

Yapon dilində Kun başçı, rəhbər anlamı daşıyır.

Yaponlar yeganə ölkədir ki, Buddizm və Sintoizmdən sonra Tenqriçilik rəsmi din kimi etiqad olunur və ölkədə çoxsaylı Tenriçilik məbədləri mövcuddur.

Türklərdə Şadlar zadəgan əsgər qvardiya təbəqəsini təşkil etdikləri kimi, Aynlardan ibarət Samuraylar da yaponların zadəgan əsgər qvardiya təbəqəsini təşkil edirdilər.



# XXV FƏSİL. Saxta ermənistan tarixi və turanlı ermən xalqı

Ermənilər Orta əsrlərdən başlayaraq özlərini Ön Asiyanın avtoxton və ən qədim xalqları olduqlarını dünya ictimaiyyətinə qəbul etdirmək üçün erməni Qriqoryan kilsə rəhbərlərinin təşəbbüsü və rəhbərliyi ilə müxtəlif monastrlarda ermənilərin qədim tarixinə aid bir çox uydurma tarixi əsərlər yazmış və onları avropa xalqlarının müxtəlif dillərinə tərcümə etdirmişlər.

Erməni tarixi tarix elmində mövcud olan saxtakarlığın ən bariz nümunəsidir. Onların bu saxtakarlıqları XIX və XX əsrdə Avropanın bir çox görkəmli tarixçiləri tərəfindən ciddi tənqidə məruz qalmışdır. Lakin sovet dövründə ermənilərin tarix elmindəki bu saxtakarlıqları Kommunist Partiyası və rəsmi sovet tarix elmində ciddi surətdə dəstəklənmiş və müdafiə edilmişdir. Ermənilərin qədim tarixi haqqındakı uydurma tarixi əsərlərin və erməni tarixçilərinin Azərbaycan, Gürcüstan və Türkiyə tarixini saxtalaşdırmağa doğru yönəlmiş əsərlərinin tənqidi burjuaziya ideologiyasının təzahürü kimi dəyərləndirilir və pantürkizm ittihamına məruz qalırdı.

Biz Erməni tarixinin bəzi məqamlarını onların qədim tarixinə dair keçən əsrlərin görkəmli Avropa tarixçilərinin irəli sürdükləri konsepsiyalar doğrultusunda konkret faktlara əsasən gözdən keçirəcəyik.

Ermənilərin bütün cəhdlərinə baxmayaraq Avropada qədim tarix üzrə görkəmli bilim adamları ermənilərin Kiçik Asiyanın daha doğrusu Anadolunun avtoxton xalqı olmadıqlarını və onların qərbdən gələrək bu ərazidə məskunlaşdıqları haqqında fikirlər irəli sürmüşlər. Ermənilər Balkanlardan Anadoluya gəlmədən öncə bu ərazidə artıq min illər ərzində müxtəlif turanlı öntürk tayfaları məskunlaşmışdılar.

Danimarkalı tarixçi Makus Nibur yazır ki, haylar samiləşmiş arilər və ya ariləşmiş samilərdir və bizim erməni adlandırdığımız tayfalar isə haylardan daha öncə bu ərazidə məskunlaşmış əsl turanlı-tatarlar idilər. (Nibuhr M. Geschichte Assurs und Babels, 1857, Səh. 144)

Sovet dövrünün görkəmli tarixçisi İ.Dyakonov 1963-cü ildə "Erməni xalqının mənşəyi" haqqında bir əsər yazmışdır. Əsərdə rəsmi sovet tarixşünaslığında hakim olan nəzəri müddəalara uyğun olaraq ermənilərin tarixinin bəzi cəhətləri ermənilərin xeyrinə saxtalaşdırılmış olsa da, bütövlükdə obyektiv xarakter daşıyırdı. Dyakonovun bu əsəri ermənilər tərəfindən böyük düşmənçiliklə qarşılanaraq və ciddi tənqidlərə məruz qalmışdır. Dyakonovun bu əsərinin ən barışmaz tənqidçilərindən biri də hind-avropalıların ilkin vətənlərinin Anadolu olduğu haq-

qında Avropa bilim adamlarının da ciddi tənqidlə qarşıladıqları uydurma nəzəriyyənin müəllifləri T.Qamkrelidze və V.İvanov olmuşlar.

Dyakonov bu əsərində ermənilərin ilkin vətənlərinin Anadoluda Xett dövründəki Hayasa adlanan ölkə olduğu haqqında ermənilərin iddialarını elmi dəlillər əsasında təkzib etmişdir. O, öz əsərində Armeniya və ya Ermənistanı bir ölkə kimi deyil, coğrafi ərazi olaraq Armeniya dağlıq ərazisi adlandığını qeyd edir.

Armeniya adlanan dağlıq ərazidə yaşayan tayfalar və ölkələr haqqında ən geniş məlumat e.q. XIV əsrə aid olan Xett mənbələrindədir. Xett çarlığının ən şimal nöqtəsindəki ərazi kaşka tayfa birliyinin şərqində yerləşmiş ölkə Hayasa-Açzi adlanırdı. İndiyə qədər dəqiq məlum deyil, Hayasa və Açzi bir-biri ilə sıx əlaqədə olan tayfa birliyi idi, yoxsa eyni tayfanın müxtəlif adları idilər.

Dyakonov Kiçik Asiyaya Balkanlardan gəlmə olan friqlərdən fərqli olaraq ermənilərin özlərinin etnik köklərini bu ərazinin qədim avtoxton əhalisi olan Hayaslara bağlamaq cəhdlərini elmi dəlillərlə rədd edir. O varlıqlarına e.q. XIII əsrdə son qoyulmuş Hayasaların ermənilərin etnogenezində rol oynaması haqqındakı fikirləri təkzib edərək yazır ki, hayasaların köçüb Ermənistan yaylasında yerləşmələri haqqında salnamələrdə hər hansı bir bilgi yoxdur. Hayasların mədəniyyət baxımından ermənilərə təsiri və onlar arasındakı etnik əlaqə haqqında tarixi qaynaqlarda heç bir bilgi mövcud deyil.

Dyakonov yazır ki, Erməni dili ilə Hayas tayfalarının dili arasındakı varislik əlaqələri isbat olunmamışdır, bu iddialar yalnız Hayas adı ilə ermənilərin özlərini adlandırdıqları "hayk" adı arasındakı zahiri bənzərlikdən ibarətdir. Lakin bu zahiri bənzərlik bu terminlərin orqanik əlaqəsini sübut etmir.

Dyakonov ermənilərin və digər müəlliflərin Hayasanın bugünki Ərzincan və Ərzurum yaxınlığında Fərat çayının yuxarı hövzəsindəki ərazidə yerləşdiyi haqqındakı fikirləri yanlış hesab edir. Xett çarı II Mursilin (e.q. 1321-1295) annallarından da aydın göründüyü kimi Hayasa Qara dənizin cənub sahilində yerləşirdi. Annallarda yazıldığına görə Hayasa-Açza dağlıq ərazidə deyil, vadidə yerləşirdi. Yəqin ki, Hayasa və Açza iki qonşu vadidə ayrı-ayrılıqda yerləşərək konfederativ dövlət təşkil edirdilər. Erməni tarixçilərinin Hayasanın dəniz kənarında deyil, Ərzurum yaxınlığında hansısa bir bataqlıq ərazidə yerləşdiyi haqqındakı fikirləri inandırıcı deyil. Açzi dənizin yaxınlığındakı Harşit çayının vadisində, Hayasa isə Bayburtdan şimalda, Çoroh çayının vadisində yerləşirdi. İddia edildiyi kimi Hayasa-Açza krallıq deyil, tayfa birlikləri idilər. Açzilərin və hayasların bizə gəlib çatmış şəxs adlarının təhlili onların hurri və ya hansısa bir hind-avropa tayfasının dilinə məxsus olduğu haqqındakı erməni müəlliflərinin iddiaları gerçəkliyə uyğun deyil. Heç bir müəllif indiyədək hayasların dilinin erməni dilinə mənsub olduğu haqqında hər hansı bir tutarlı dəlil təqdim edə bilməmişdir. (И.Дьяконов, 1968, Səh. 53)



Erməni tarixçisi Kapantsyanın guya qədim Hayas mənşəli erməni adlarının etimologiyasını hurri, xett, palay, luvi və gürcü dillərinin qarışımı kimi təqdim etməsini Dyakonov qeyri elmi yanaşma, hipotetik bir dil hesab edir və yazır ki, hər hansı bir dil bir neçə deyil, yalnız bir əsas kökə bağlı ola bilər.

Dyakonova görə erməni tarixçisi Kapansyanın təqdim etdiyi və erməni mənşəli hesab etdiyi beş qədim Hayas şəxs adı hurri mənşəlidir və erməni dilinə və ermənilərin də aid olduğu hind-avropa dilinə heç bir aidiyyəti yoxdur. (Дьяконов И. 1968, Səh. 149-150)

Dyakonov, beləliklə, ermənilərin öz etnik köklərini və dillərini Kiçik Asiyanın avtoxton Hayas tayfasına bağlamaq haqqında irəli sürdükləri nəzəriyyəni isbat olunmayan və mahiyyət etibarı ilə mümkün olmayan bir iddia kimi dəyərləndirərək elmi əhəmiyyətini heçə endirmişdir. (Дьяконов И.М. 1968, Səh. 150)

İ.Dyakonov Xorenli Moiseyin və müasir erməni tarixçilərinin sakların hind-avropa mənşəli olduqlarına əsaslanaraq guya ermənilərin ilk çarı Prayrun sak mənşəli olduqları və sakların hökmdarı Partatua adı ilə eyniyyət təşkil etdiyi haqqında fikirlərini uydurma və qeyri ciddi hesab edir. Dyakonovun yazdığına görə ermənilərin özlərinin ilk çarı hesab etdikləri Prayr sak Sakaydurun oğlu idi. (Дьяконов И. 1968, Səh. 137)

Dyakonov ermənilərin Balkan mənşəli olduqları ideyasını qəbul edərək yazır ki, e.q. XIII əsrin ortalarında dəniz xalqları adlanan tayfaların Yunanıstan və Balkan yarımadası tərəfdən Kiçik Asiyaya hücumları haqqında tarixi mənbələrdə məlumatlar əks olunmuşdur. Bu tayfaların içərisində Balkanlardan gələn hind-avropa mənşəli fraklar və friqlərin içərisində proto erməni tayfaları da ola bilərdi. (Дьяконов И. 1968, Səh. 68)

Dəniz xalqlarının hücumları nəticəsində ilk öncə Kiçik Asiyadakı Troya dövləti sonra isə onun müttəfiqi Xett dövləti süquta uğradı və frak-friqiya tayfa birlikləri artıq e.q. IX əsrdə möhkəmləndilər və friqlər VIII əsrdə öz dövlətlərini yaratdılar. Friqlər gəlmədən öncə artıq Hayasa-Açzi tayfa birliyi dağılmışdı və onun yerində hurrilərin Dayaeni dövləti yaranmışdı. Friqiya dövlətinin digər adı Muşku idi. (Smith P. 1888, Səh. 484)

Dyakonov Ksenofontun Armeniyaya şəxsən səyahəti və guya adı məlum olmayan erməni çarının Midiya hökmdarı Kiaksara tabe olmayıb xərac verməkdən imtina etməsi haqqındakı məlumatlarına şübhə ilə yanaşaraq gerçəkliyi əks etdirmədiyini yazır.

Dyakonov həmçinin erməni tarixçisi Xorenli Moiseyin əsərində yalnız ona məlum olan suriyalı uydurma tarixçi Mar Abas Katinə istinad edərək erməni tarixi haqqında uydurma əfsanələr nəql etməsini istehza ilə qarşılayır. Dyakonov Xorenli Moiseyin istinad etdiyi yunan müəlliflərini, midiya və erməni çarlarının ad-

larmın suni şəkildə onun tərəfindən uydurularaq gerçəkliklə heç bir əlaqəsinin olmadığını yazır. (Дьяконов И. 1968, Səh. 107)

Erməni tarix elminin atası hesab olunan Moisey Xorenlinin saxta tarixçi olduğunu bir çox görkəmli tarixçilər də sübut etmişlər.

Müasir dövrdə qədim tarixə aid ciddi araşdırma hesab olunan, Kembric universitetinin nəşr etdiyi "Kembric qədim tarix" əsərində yazılmışdır ki, Friqlərin e.q. XII yüzilin sonlarında şərqə doğru hərəkət edərək Armeniyanın güneyində məskunlaşmaları və son nəticədə öz dillərini modernləşmiş formada ermənilərə verdikləri haqqında fikir heç bir əsasa malik deyil. I Tiqlatpalasar qarşısında ağır məğlubiyyətdən sonra friqlərin müəyyən qisminin Armeniyanın cənubunda yaşamaqda davam etdikləri haqqında Urartu və Assur mənbələrində heç bir sübut yoxdur. (The Cambridge Ancient History, Vol. 1, 1971. Səh. 142)

Fransız tarixçi R.Qrosset ilkin vətənləri Balkanlarda olan friqlərin və haykların sonradan Bosforu keçib Anadolunun mərkəzində məskunlaşdıqlarını və Friqiyalıların bir qolu olan erməni-hayqların sonra daha da şərqə doğru hərəkət edib təxminən e.q. 626-cı ildə Van gölü ətrafında məskunlaşdıqlarını yazır. (Grosset R. 1921, Səh. 29)

J.Morqan Herodotu əsas götürərək ermənilərin friqiyalılarla birlikdə Kiçik Asiyaya gəldiklərini, sonra onlardan ayrılaraq Urartu dövlətinin xarabalıqlarında məskunlaşdıqlarını yazır. (J.Morgan. 1925, Səh. 1850)

Erməni tarixçilərinin ən böyük uydurmalarından biri də onların özlərini hititlərin varisləri adlandırmalarıdır. İranşünas Jensenin yazdığına görə ermənilərin milli adları olan Hayik adı xettlərin "yaşlı" və ya "qoca" anlamındakı *Hati-k* sözünün erməni dilinin fonetik qaydalarına uyğun şəkildə ifadəsidir.

Ermənilərin və xettlərin fiziki tiplərində heç bir oxşarlıq yoxdur. Armeniya bir ölkə adı kimi ilk dəfə Daranın kitabəsində qeyd olunmuşdur. (The Cambridge Ancient History, Vol. 1, 1971, Səh. 143)

Bu əsərdəki şərhdən də göründüyü kimi ermənilərin Hayk adının Hayasa ölkəsi adı ilə heç bir əlaqəsi yoxdur.

Almaniyanın görkəmli tarixçisi E.Meyer yazır ki, Ermənilər Friqlərlə birlikdə Balkanlarda Makedoniyanın qonşuluğunda məskunlaşmışdılar. Onlarla birlikdə Kiçik Asiyaya Lidiya ölkəsinə gəlmiş. Sonra isə Fərat çayı sahillərində yerləşmişlər. Hübşmanın araşdırmaları sübut etmişdir ki, Ermənilərin dili Laqardenin və digərlərinin iddia edildiyi kimi qətiyyən iran dilinə aid deyildir. Erməni dilindəki iran sözləri onların uzun əsrlər boyu Parfiyalı Arsaqilərin və Sasanilərin hakimiyyəti altında yaşamları nəticəsində yaranmışdır. Onların dili hind-avropa dil ailəsinə aiddir. Hübşmanın araşdırmaları həmçinin ermənilərin qədim Armeniya ölkəsinə və xalqına aid olduqları haqqında Kipertin tezislərini də bir mənalı şəkildə puça çıxarmış oldu.



Kipert erməni tarixçilərinin belə bir fərziyyəsinə haqq qazandırdı ki, guya onlar ilk öncə yerləşdikləri quzey-doğudakı Araz sahillərindən gələrək Kiçik Asiyada yerləşmişlər. Lakin yunan müəlliflərinin Əhəməni və Selevkilər dövrünə aid məlumatlarında da yazıldığı kimi ermənilər qərbdən gəldikləri zaman ilk öncə Fərat çayının hər iki tərəfində Halisə qədərki ərazidə məskunlaşmışlar. (Eduard Meyer. 1913, Səh. 691)

Hititlərin baş tanrısı olan Tarkuya Kiçik Asiyanın bir çox xalqları tərəfindən etiqad olunurdu ki, bu onların etnik mənşə baxımından qohum olduqlarını sübut edirdi. Kiçik Asiya xalqları içərisində Tarxun adı geniş yayılmışdı. (Eduard Meyer. 1913. Səh. 702)

Xappadokiyada Kayseriyyə yaxınlığında tapılmış və e.q. XV əsrə aid olan qaya üzərində həkk olunmuş barelyefdə taxt üzərində oturmuş hökmdarı təsvir olunur. Onun yanında kobud xətt ilə yazılmış və qismən pozulmuş mətn tarixi bir hadisəni əks etdirir. Artes adlı yabançı başçı əsir edilərək adamlarının müşaiyəti ilə öz paytaxtından Qauz tayfasına məxsus olan Erime ölkəsinin Tarqontim adlı işğalçı kralının hüzuruna gətirilmişdir. (Conder R. 1898, Səh. 42)

Mətndən göründüyü kimi Erime ölkəsi Anadolunun şərqində yerləşirdi, Hitit mətnindən də aydın olur ki, bu ölkə Quz tayfalarına mənsubdur və kralın da titulu türklərdə olduğu kimi Tarkun adlanır. Bu ölkə yunan mətnlərində Arima və Armeniya adlanmışdır. Hayklar friqiyalıların tərkibində Balkanlardan gələrək bu ölkədə yerləşmişlər və ölkənin qədim coğrafi adına uyğun olaraq erima/ermən/armen adlanmışlar.

Alman assuroloqu Huqo Vinklerin də yazdığına görə Assur kralı Salmannasar digər bölgə dövlətlərinin hpkmdarları ilə yanaşı Kummix Hökmdarı Qudaspi, Quzi hökmdarı Arimedən də xərac alırdı. (Hugo Winckler. 1892, Səh. 193)

Bu sitatdan da aydın göründüyü kimi Arime turanlı öntürklər olan Quzi ölkəsinin hökmdarı olmuşdur.

İngili assuroloqu R.Konder Arilərin bir qolu olan Avropalı friqlərin Frakiyanın vifiniləri ilə birlikdə təxminən e.q. 1000-ci ildə Kiçik Asiyanın quzeyini işğal etdiklərini, ermənilərin friqiya mənşəli olduqlarını və e.q. V yüzillikdə şərqə doğru hərəkət etmiş olduqlarını yazır. (Conder R.A. Vol. 19, 1890, Səh. 89)

C.Mellori yazır ki, ermənilərin friqlərlə birlikdə geniş miqrasiya halında Kiçik Asiyaya gəlməsi onların etnoqenezi məsələsini ümidsiz bir şəkildə çıxılmaz bir vəziyyətə salır. Tarixi məlumatlar friqlərin Kiçik Asiyaya e.q. XII əsrdə deyil, e.q. IX əsrdə gəldiklərini təsdiq edir.

Herodotun və Strabonun yazdıqları kimi əslində briq adlanan lakin Kiçik Asiyaya gəldikdən sonra yerli dialektlərdə friq adlanan xalqın ilkin vətəni Makedoniyanın şimalındakı Peoniya ərazisi olmuşdur. Arxeoloji məlumatlar da friqlərin Kiçik Asiyanın şimalındakı Vifiniya ərazisində məskunlaşdıqlarının e.q. IX əsrə

aid olduğunu sübut edir. Vifinililər, daha doğrusu şimal friqləri özlərini strimonlar adlandırırdılar, yəni özlərini Makedoniyadakı Strimon çayının sahillərindən gəlmə olduqlarını bildirirdilər. Friqlərin digər bir qolu olan muşk və ya mislər şimal friqləri vifinilərdən fərqli olaraq cənuba doğru hərəkət etmiş və Fəratın şimal hövzəsində məskunlaşmışdılar. Briq adı friq adının dəyişik fonetik formasıdır. Yunanlar briqləri öz dil xüsusiyyətlərinin *b-f* əvəzlənməsinə uyğun olaraq friq adlandırırdılar. (Клейн Л. 2007, Səh. 110)

Assuroloq F.Smit Mesopotamiyadan şimalda Xappadokiyadan Qafqaz dağlarına qədər olan ərazinin Armeniya adlandığını, lakin bu ölkənin əhalisinin turanlılar olduğunu yazır.

F.Smit erməni tarixçi Moisey Xorenlinin verdiyi qədim erməni çarları siyahısına və Erməni dövlətini qədim Babil çarları İsmi Daqan və Hammurapi ilə eyni dövrə, e.q. XVIII yüzilliyə aid etməsinə şübhə ilə yanaşır. O Misir foronu III Tutmosun (e.q. 1504-1450) dövründə Misirin işğalçılıq yürüşü zamanı Mesopotamiyada rutenləri məğlub etdiyini və Remenləri öz dağlarında təqib etdiyini yazır. Misirin 18-ci fironlar sülaləsi dövründə mübarizə apardıqları Remen adlı xalqın adı özündə Armeniya ölkəsində məskunlaşmış əhali qrupunun qədim adının izini daşımaqdadır. Sonradan Hami irqinə mənsub bir qrup əhali dillərin bir-birinə qarışmasından sonra Hayqın başçılığı ilə Babil düzənliklərindən köçüb Armeniyada yerləşdilər. Bunun nəticəsində Armeniya adı Hayastan (Hayq adından) adı ilə əvəz olundu. Assuriya imperiyası dövründə Armeniyada Turan irqinə mənsub əhalinin əksəriyyət təşkil etmələri Van gölü ətrafında aşkar edilmiş mixi yazı mətnlərinin dialekti və yerli hökmdarların turanlı adları ilə də təsdiq olunur. Bu ərazidə ari xalqlarının üstünlük qazanması e.q. VII əsrdə iranlıların qərbə doğru böyük köçləri nəticəsində mümkün olmuşdur. (Smith P. 1888, Səh. 481, 484)

Mesopotamiyanın qədim tarixinin önəmli tədqiqatçılarındam olan Q.Bertin fikrinə görə Ninevianın işğalına qədər Kiçik Asiyadakı Armeniya dağları adlanan ərazidən başlayaraq Bəsrə (Kəngər) körfəzinə qədər olan ərazidə heç bir ari tayfası yaşamamışdır. (Conder R. Vol. 19. 1890, Səh. 50)

Dyakonov Armeniya adının ermənilərə bağlamaq haqqındakı fikirləri istehza ilə qarşılayır, yazır ki, elmdə uzun illərdir belə bir görüş hakimdir ki, ermənilər və Armeniya adı bu xalq e.q. VI əsrdə həmin dağlıq əraziyə gəldikdən sonra belə adlanmağa başlanmış və erməni xalqının tarixi də həmin dövrdən başlanır. Bu baxışları çox sadəlöhv və qeyri qənaətbəxş hesab edirəm. (Дьяконов И. 1968, Səh. 143)

Avropanın böyük assuroloqlarından olan Rauilsona görə Armeniya ilk dövrdən etibarən aşkar şəkildə bir Turan ölkəsi olmuşdur, oranın yazısı, dili, dini bütünlüklə bunu göstərirdi. E.q. VII əsrdə bu ölkənin simasında bir dəyişiklik baş verir, Herodotun yazdığına görə Avropadan gələn ari irqinə mənsub friqiyalıların bir qolu olan ermənilər bu ölkədə məskunlaşırlar. Anahidə sitayiş hayların məskunlaşdıqları Armeniyada daha populyardı, burda qızlar onun şərəfinə fahişəlik edirdilər ki, məbədlər bundan böyük gəlir əldə edirdilər. (Rawlinson H.C. 1912, Səh. 13)

Yunan mənbələrinin yazdığına görə ermənilər, trerlər və bitaynlar Fessaliya vilayətindən xald ərazisinə (Van gölü tərəfləri) və qonşu ərazilərə köçmüşlər. M.ö. 650-ci illərdə Armeniyanın ərazisinin ariləşməsi başa çatmışdır. Bu əraziyə yeni gələn xalq özünü "hai" adlandırırdı, cəm halda isə "hayk" adlanırdılar. Bu günki Ermənistanın söz ehtiyatı turan sözlərindən ibarətdir, lakin milli rəvayətlərinin ruhu aridir. (A.Wirth, 1905, Səh. 50)

İ.Dyakonovun konsepsiyasına görə friqlər onların bir qolu olan və assurların "muşk" adlandırdıqları mizilər e.q. XII yüzillikdə Xett imperiyasının dağılma mərhələsində Balkanlardan Kiçik Asiyaya gəlmiş və burda xettlərin hakimiyyəti altında məskunlaşmışlar. Assuriya sərhədlərində müəyyən narahatçılığa səbəb olan muşklar mədəniyyət səviyyəsi baxımından özlərindən daha yüksəkdə olan xettlərlə qaynayıb qarışaraq özlərinə ermen-xett kimliyi qəbul etmiş və özlərini bu xett kimliyi ilə qonşu sami və hurri xalqlarına tanıtmışlar. İlkin xattilərdən fərqli olaraq onlar xett adı ilə tanınmışlar. Fərat çayının yuxarı axarlarında məskunlaşmış xettlərin qalıqları olan muşk/mizilər e.q. VI yüzilliyin başlarında Urartu dövlətinin dağılması ərəfəsində kiçik xalqların dağınıq şəkildə yaşadıqları Van gölü ətrafına hərəkət etmiş buranı zəbt edərərək burda məskunlaşmış və müxtəlif dialekt qarışımından ibarət friq dilinə yaxın olan hind-avropa dillərini də özləri ilə bu əraziyə gətirmişlər. (Клейн Л. 2007, Səh. 109)

Ermənilər Sovet alimləri Qamkrelidze və İvanovun Kiçik Asiyanın hind-avropalıların ilkin vətəni olması haqqındakı elmi cəhətdən əsassız uydurma nəzəriyyəsini rəhbər tutaraq özlərinin bu ərazinin avtoxton xalqı olduqları və friqlərlə hər hansı bir qohumluğa malik olduqlarını inkar etməyə cəhdlər göstərmişlər. Ermənilər özlərini nə qədər Qafqazın avtoxton xalqı kimi qələmə versələr də, İ.Dyakonovun və digər tarixçilərin elmi dəlillər əsasında gəldikləri nəticəyə görə onlar friqlərlə birlikdə Kiçik Asiyaya Şərqi Avropadan konkret olaraq Balkanlardan gəlmişlər. İ.Dyakonovun ermənilərin friqlərlə birlikdə Kiçik Asiyaya gəlməsi haqqındakı konsepsiyası ermənilərin kəskin etirazına səsəb olmuşdur. (Клейн Л. 2007, Səh. 109)

Erməni və sovet tarixçilərinin saxtalaşdırmaya məruz qoyduqları qədim tarixi dövr Urartu tarixidir. Sovet dövründə Urartu tarixi araşdırılması ermənilərin inhisarına verilmişdi ki, bu Türkiyəyə qarşı yönəlmiş sırf siyasi məsələ idi.

Etnik kök və dil quruluşu baxımından Turanlı öntürklərə məxsus Urartunun nə etnik mənşə, nə də dil mənsubiyyəti baxımından ermənilərə heç bir aidiyyəti yox idi. Müasir dövrün assuroloqlarından Aleksey Kassian bu haqda yazır ki, Ermənilər heç bir əsaslı elmi dəlil gətirmədən özlərini hurri və urartuluların varisləri

elan edirlər. Lakin müasir dövrün genetik və linqvistik ararşdırmaları bu iddiaların tamamilə əsassız olduğunu sübut etmişdir. (Alexey Kassian. 2011, Səh. 384)

Dəclə çayının yuxarı axarlarında Anadolunun şərqində Amid, Şubriya, Urmu adlı dövlətlər mövcud idi. Urmu adını bəzən Arme şəklində də yazırlar. Van gölünün şərqində Urartu dövləti yaranmışdı. Onlar özlərini Biayneli adlandırırdılar.

Dyakonov Arime və Urume adlarının eyni ölkənin fərqli yazılış formaları olduğunu yazır. Arime/Urume urartu adı idi. Məlum olduğu kimi Pers dövlətinin məmurları arameylərdən ibarət idi və pers dilində mətnlər tərtib olunarkən Urume adı aramey dilinin ifadə şəklinə uyğun olaraq sözün əvvəlinə aramey dilindəki uzun "a" hərfi artrılmaqla bu ad Arminia şəklini almışdır. (Дьяконов И, 1968, Səh. 127)

Əhəmənilərin XIII satraplığını təşkil edən və pers mətnində Armini şəklində yazılan adı Daranın Bisütun kitabəsinin assur mətnində Oralt şəklində yazılmışdır. Daranın kitabəsində adı çəkilən sərkərdə Dadrşişin mənşəcə erməni olması iddiası gerçəkliyə uyğun deyil, o Urartulu idi. (Дюяконов И. 1968, Səh. 177)

Urartu tezliklə güclənərək indiki Ermənistan və Naxçıvan ərazisini də öz tərkibinə daxil etmişdir.

E.q. VIII-VII əsrlərdə Urartu və Manna dövlətlərinin sosial quruluşunda azad icma birlikləri xüsusi rol oynayırdılar. Bu icmalar xüsusən çay vadilərinin əkinçiliyə əlverişli ərazilərində formalaşırdı. Bu icmalar Şureli adlanırdı. Şureli adının mənası "silahlılar və ya qarnizon" idi, digər bir mənası da tayfa demək idi və həm də tayfaların hərbi birliyi mənasında işlədilirdi. Şureli adlanan bu icma-tayfa birlikləri təsərrüfat fəaliyyəti ilə yanaşı müharibə zamanı hərbi birliklər təşkil edərək hərbi mükəlləfiyət daşıyırdılar. Naxçıvan ərazisindəki Şərur adının da ilkin ifadə forması Şəril-Şureli şəklində olmuşdur və xalqın arasında da o Şəril kimi ifadə olunur. Şureli/Şəril adlanan bu icmalar adətən özünü idarə statusuna malik divarlarla əhatə olunmuş şəhər-qalaların ətrafında formalaşırdılar. (Дьяконов И. 1968, Səh. 84)

E.q. 676-675-ci ildə Urartu çarı II Rusa Kimmerilərin hökmdarı Tuqdamme ilə ittifaq bağlayıb Friqiya üzərinə hücum etdi. Friqiya kralı Midas öldü və kimmerlər Urartu ilə birlikdə bu ölkəyə sahib oldular.

İ.Dyakonov erməni dili haqqında yazır ki, Ermənilər öz əcdadları olaraq arim, arme, urme, urumları və hətta sami əsilli arameyləri adlandırırlar. Qədim Erməni dilinin tərkibini əsas etibarı ilə parfiya dili, ən az isə orta fars dili və az miqdarda qədim fars dili təşkil edir. Onda iskit və qərbi iran dilinin heç bir izi yoxdur. (Дьяконов И. 1968, Səh. 145)

Fransız tarixçisi Q.Masperonun yazdığına görə Kiyaksar kimmerilərlə savaşlarda gücdən düşmüş Urartunu və qonşu dövlətləri tabe etdi. Fəratın batısında yaşayan Turan tayfaları Musk və Tuballar Qara dəniz tərəfə və Qafqaza köç etdilər



və onların yerini hayklar (ermənilər) və iran mənşəli digər tayfalar tutdular. (G. Maspero, 1876, Səh. 477)

G.Hüsinq Əhəməni şahlarının kitabələrində iran adlarının oxunuşuna tənqidi təhlil baxımından yanaşaraq bir çox adların oxunuşunda yanlışlığa yol verildiyini qeyd edir. O Əhəmənilərin Bisütun kitabəsində keçən Armina adının əslində babil dilində həmin dialektə uyğun olaraq mətndə Uraştu şəklində yazıldığını və bunun assur dilində dialekt fərqi ilə Urartu adının *r*-*ş* dəyişimi ilə meydana gəldiyini yazır. Nəticədə kitabəni yazan katibin səhvi üzündən Urartu adı pers dilindəki mətndə mixi işarələrin yanlış yazılışı ilə Armin şəklində ifadə olunmuşdur. (Georg Hüsing, 1987, Səh. 17)

Ermənilərin kobud şəkildə təhrif edərək saxtakarlığa məruz qoyduqları və özləşdirdikləri turanlı sakların Arsakilər dövlətidir. Ermənilər Arsakların tarixindəki bir çox hadisələri təhrif edərək mənimsəmiş, bir çox sak qəhrəmanlarını özləşdirmişlər.

O.Donner Parfların və onların Arsak sülaləsinin sak türkləri olduğunu yazır. "Midiyanın və Susiananın ərazisi sonra parf adlanan iskitlərin nəzarətinə keçmişdi. Antik müəlliflərin məlumatlarından da göründüyü kimi parflar xarakter etibarı ilə bu gün də Türkistanda yaşayan türk tayfaları ilə eynidirlər. Onların türklərlə qohumluğu hökmdarlarının adlarının sonundakı arilərə məxsus olmayan, türklərə aid "ak" sonluğu ilə də məlum olur. Arsak, Sinnak, Vasak, Pratak". (Donner O. 1936, Səh. 30)

J.Makvart Moisey Xorenatsinin Mamikonyanlarla əlaqədar bir sıra hadisələri özündən uydurduğunu yazır. Sonuncu Parf kralı Artavanın dövründə Ermənistana gələn yabançı (türk-sak) mənşəli Mamik və Konaqı Moisey Xorenatsi erməniləşdirir və onlar haqqında gerçəkliklə uyğun olmayan müxtəlif anaxronizmlərdən istifadə edir, erməni mənşəyinə yad olan Mamikonyanları erməni tarixində möhtəşəm hakimiyyət sülaləsinə çevirir. (J.Marquart. 1905. Səh. 239)

Mamik və Konak şahzadə qardaşları Türkistanda 226-240-cı illər arasında Cen ölkəsində taxt-tac uğrunda siyasi mübarizədə ögey qardaşları Çenbakirə məğlub olaraq çoxsaylı köçəri ulusu ilə Parfların hökmdarına pənah gətirmiş və kral onları Armeniya adlanan Slak-Oxçular yurdu olan Bitlis-Muş-Əhlat bölgəsinə göndərmişdir. Mamiki ermənilər Mamikonyanlar sülaləsi edərək erməniləşdirmişlər.

E.Qibbonun yazdığına görə sak ordasının başbuğu Mamik Çin sərhəddində öz eli ilə məskunlaşmışdı. O Çin imperatoruna tabe olmaqdan imtina etmişdir və çinlilərin təqibindən qurtulmaq üçün Okus çayının vadisində yerləşmişdir. Lakin burda da çinlilər onu təqib etdiyindən Parfiya hökmdarının himayəsinə sığınmışdır. Çin imperatoru Parfiya kralından ona qarşı üsyan etmiş sakların başbuğu Mamiki geri tələb etmiş, lakin Parfiya kralı onu geri verməkdən imtina edərək Armeniyaya göndərmişdir. Ermənistandakı Parfiya canişini cəsur xarakterə malik Ma-

mikin xidmətlərindən istifadə etmək məqsədilə onun ordasına yerləşmək üçün otlaq ərazisi ayırmışdır.

Ermənilərin bir çox hakimiyyət sülalələri də uydurma olub digər xalqlara məxsus soylardan olmaqla erməniləşdirilmişdir. (Gibbon E. 1988)

Erməni tarixində Baqratunilər adlanan və 885-ci ildən 1045-ci ilədək hakimiyyət sürmüş sülalənin banisi milliyətcə yəhudi olmuşdur. Erməni tarixçisi Moisey Xorenatsinin və Musa Kalankaytuklunun yazdıqlarına görə guya ermənilərin ulu əcdadı Hayk Şambat adlı bir əsir yəhudi şahzadəsini özü ilə Ermənistana gətirmişdir və Baqratuni hakimiyyət sülaləsinin kökü həmin o yəhudi şahzadəsinə bağlıdır.

Fikrimizə görə Baqratuni adının kökü kas/kus türklərinə bağlıdır və Baqa-ertu eponiminin təhrif olunmuş şəklidir. Adın mənası Baqa insanlarının ölkəsi anlamındadır. Baqa kassilərin ən önəmli tanrısı idi.

Toqarmların və Toqarm ölkəsinin ermənilərə aid edilməsi erməni tarixi saxtakarlığının növbəti mərhələsini təşkil edir. Yəhudi mənbələrindəki Toqarma adı, Assuriya mənbələrində adı çəkilən xett ərazisindəki Teqarama adı ilə eyniyyət təşkil edir. Taqarma ölkəsi III Salmanassarın salnaməsində indiki Elbistan və Malatya ərazisində yerləşdiyi göstərilir. Taqarma adını yunanlar Qaureana, ibranilər Toqarma, ərəblər Tarxama, ermənilər Torqam şəklində ifadə edirdilər.

Toqarm adı Sumerlərə aid Turqumannu adının sami-ibrani mənbələrində təhrif edilmiş şəklindən başqa bir şey deyil. Yuxarıdakı bölümdə izah etdiyimiz kimi Turquman adının sumer dilində anlamı "insan oğlu" deməkdir. Türkman adının kökünü də bu Turquman eponimi təşkil edir. Bu bir etnonimdir və sumerlərə aiddir. Təbii iqlim şəraitinin əlverişsizliyi və samilərin davamlı təcavüzləri nəticəsində öz məskənlərini tərk edən sumerlərin bir qismi öncədən ticarət münasibətlərində olduqları və bu məqsədlə kaloniyalar yaratdıqları Anadolu ərazisində məskunlaşmağa məcbur olmuş və burda Torqam şəhər dövlətinin əsasını qoymuşlar. Bibliyada bəhs olunan Toqarma adı ilə türklər nəzərdə tutulur. Yəhudi mənbələri Türkiyəni qədim türklərin bu adına uyğun olaraq Torqam adlandırırlar. Avropa assuroloqlarının əsərlərində bu haqda kifayət dərəcədə bilgilər vardır. Yəhudi mənbələri və o cümlədən İosif Flavinin əsərlərində, İossipon kitabı-Xalqlar cədvəlində Torqam və əsl adı ilə Turqum haqqında geniş məlumat verilmişdir. Xəzər xaqanı İosifin ispaniyalı ravvin Xasdaya məktubu da bu məsələyə aydınlıq gətirmişdir. Xəzər xaqanı İosif məktubda özünü təkcə Xəzərlərin deyil, bütün Toqarmın kralı olduğunu və Xəzər/Quzərin Toqarmın yeddinci oğlu olduğunu yazır. O yəhudi ənənəsinə uyğun olaraq bütün Toqarmın xaqanı dedikdə Toqarmın 10 oğlunun adlarında ifadə olunmuş türk boylarının məskunlaşdıqları ölkələri, daha doğrusu Turanı nəzərdə tuturdu.



Ərəb coğrafiyaçısı Saadiyə Qaon əl-Fayyumi (862-942) yazır ki, Torqarmalar xəzərlərdir, Xəzərlər isə türkmənlərdir. Digər bir əfsanədə İbrahimin arvadı Keturanın oğlanları ilə xəzərlərin Xorasanda qarşılaşmasından bəhs edilir. Bu ənənəyə görə Keturanın törəmələri türklərdir. (Zhivkov Boris. 2015Səh. 42, 47)

Erməni mənbələrindən daha güvənirli olan və qədim qaynaqlara əsaslanan bu üç mənbə Torqam/Turqumun türk olduğu və onun övladlarının da hamısının da türk boylarının adını daşıyan eponimlər olduğu aydın şəkildə göstərilmişdir.

Moisey Xorenli başda olmaqla, Aqafanqel, Bizanslı Faust və s. saxta erməni tarixçiləri özlərinin Anadoluda və Ön Asiyada qədim köklərə malik olduqlarını sübut etmək üçün qədim mənbələrdə öz əksini tapmayan şəcərə uyduraraq köklərini Torqoma bağlayırlar.

Xalqların Bibliyada təsvir olunmuş şəcərə cədvəlinə əsasən Torqam və ya Turqum Yafəsin oğlu Qimer/Kimridən olan nəvəsi, Rifat və Aşkenazın qardaşlarıdır. Qədim mənbələrə əsasən Torqamın 10 oğlu olmuşdur və hamısı Xəzər, Türk, Bacanaq, Bulqar, Uz, Quz, Barsil, Savir, Abar, Alan kimi türk adları daşımaqda və türk boylarını təmsil etməkdədirlər. Lakin saxta olduğu bir çox müəlliflər tərəfindən sübut edilmiş gürcü tarixçisi Leonti Mroveli uydurma "Kartlis Tsoxreba" adlı əsərdə Torqamı erməni və gürcü xalqının əcdadı elan edərək bu iki xalq haqqında saxta şəcərə uydurmuşdur.

Bir çox qədim yəhudi dini kitabların şərhlərində Torqamın türk ölkəsi olduğu yazılmışdır. XII əsr ispanyalı yəhudi səyyahı və mütəfəkkiri Benyamin ben Tudela "Tudelalı Benyaminin səyahəti" əsərində Kiçik Asiyaya gələrkən Toros dağlarını Xappadokiyaya qədər olan ərazini Armeniya adlandırır, Xappadokiyadan sonrakı ərazini Toqarm adlandığını və türklərin ölkəsi olduğunu yazır. (Книга странствий Рабби Бенямина. 2004)

Avropa tarixçiləri tərəfindən ən çox tənqidə məruz qalan erməni tarixçisi Xorenli Moisey və onun "Erməni tarixi" əsəridir. Ermənilərin "erməni tarixinin atası" və "ermənilərin Herodotu" adlandırdıqları Xorenli Moisey özünün uydurma tarix əsərində yol verdiyi ifrat saxtakarlıq tarixçilərin istehza obyektinə çevrilmişdir.

Almaniyanın görkəmli iranşünas alimi Markvart Ermənilərin tarix əsərlərində bir çox saxtakarlıqları, o cümlədən peyğəmbər Maninin öldürülməsi ilə əlaqədar erməni tarix əsərlərindəki uydurmaları ifşa edir. Moisey Xorenatsinin tarix əsərində istinad etdiyi Mar Abas uydurma bir tarixçidir və Moisey Xorenatsinin də tarix əsəri IX əsrdə knyaz Baqrat Taraunlunun zamanında yazılmışdır. Daha doğrusu ermənilərin Böyük Aşot adlandırdıqları və ərəb xəlifəsi Əl Mustinin 862-ci ildə ermənistana satrap təyin etdiyi Aşot Baqratuninin zamanında yazılmışdır. (J. Marquart, 1905, Səh. 235)

XIX əsr Alman orientalisti Şərq və İran tarixi üzrə bir çox əsərlərin müəllifi Alfred Qutşmid Erməni tarixinin təhlilinə aid "Xorenli Moiseyin Erməni Tarixinin

inandırıcılığı" xüsusi bir məqalə həsr etmişdir. Qutşmid Xorenli Moiseyin yazdığı erməni tarixinin gerçəkliyini şübhə altına alaraq onun şərq və qərb mənbələrindən bir çox hadisələri saxtalaşdıraraq erməniləşdirməyə çalışdığını qeyd edir. Qutşmid yazır ki, Moiseyin tarixi hadisələri saxtalaşdırması o dərəcədə əndişə doğurucudur ki, onları oxuyanda yer adamın ayaqları altından qaçır. O ermənilərin Erməni tarixinin atası və "ermənilərin Herodotu" adlandırılan Moisey Xorenlinin erməni tarixinə aid əsərini tarixi faktlara əsasən dərindən təhlil edərək belə nəticəyə gəlir ki, Xorenlinin istinad etdiyi Mar Abas Katin uydurma bir şəxsiyyətdir və Moiseyin nəql etdiyi erməni tarixi Parf hökmdarlarının tarixinin saxtalaşdırılaraq erməniləşdirilmiş tarixindən başqa bir şey deyil. (Gutschmid A. 1876, Səh. 1-43)

Armeniya dağlıq ərazisi ən çox Parfiyanın Arşakilər sülaləsinin hakimiyyəti altında mövcud olmuşdur. Ermənilərin uzun əsrlər boyu arameylərlə qonşuluqda və iç-içə yaşadıqları səbəbi ilə dillərində aramey sözləri də qarışmışdır. Sülalənin ilk hökmdarı sakların Aparn boyuna mənsub I Arsak olmuşdur. Dövlətin əsl banisi isə II Arsak adı ilə hakimiyyət sürmüş I Trdat (e.q. 248-211) olmuşdur. Arsakların imperiyası dövrünün qüdrətli dövlətlərindən biri olmuş və Xorasan, cənubi Qafqaz və Anadolounun şərq ərazilərini də əhatə edirdi. Arsakilər dövləti "Böyük Arsaklar" və "Kiçik Arsaklar" olmaqla iki hissədən ibarət idi. Armeniyanı da əhatə edən Kiçik Arsak dövlətinin qurucusu Val-Arsak (e.q. 127-114) olmuşdur və ermənilər onu Vağarşak kimi təqdim edirlər.

Erməni tarixçiləri Arsakiləri Bahlavunilər adlandırırlar. Bahlav/Pahlav və Parf adı Türkistanda Bəlx/Balik çayı və onun sahilində mövcud olmuş qədim Bəlx şəhərinin təhrif olunmuş şəklidir. Arsakilər Armeniya adlanan ərazini də öz dövlətlərinin tərkibinə qatmış və ora öz sülalələrindən olan hökmdarlar təyin edirdilər. Bu hökmdarlardan da birinin adı Arsak olmuş və erməni tarixçiləri onu Arşakuni adı ilə erməniləşdirərək erməni hökmdarı kimi qələmə vermişlər.

Tarixçi Fəxrəddin Kırzıoğlu "Bahrül Ənsab" adlı tarixi əsərə istinadən erməni tarixçilərinin Arsakilər haqqındakı hekayətlərinin əslində oğuz dastanlarında bəhs olunan tarixi hadisələrin erməniləşdirilməsindən ibarət olduğunu yazır.

F.Kırzıoğlunun yazdığına görə e.q. 249-cu ildə Türkistanda dövlət quran Oğuzlar Sak-türk birliyinə bağlı boylarla birləşərək Arsaklar, yəni Parflar adı ilə İran ərazisində dövlət qurmuşlar.

Selevkilərin sərkərdəsi olan I Artaşes e.q. 190-cı ildə taxtı ələ keçirmişdir. Bu tarixdən etibarən o Roma imperiyası tərkibinə qatılan Armeniyanın kralı təyin edilmişdir. O Armeniyanın sərhədlərini genişləndirərək Araz çayının sahilində yerləşən Artaşat şəhərini özünə paytaxt etmişdir. Romalılar imperiyanın tərkibinə daxil etdikləri Kür-Araz hövzəsini və Van gölü ətrafını Armeniya adı ilə öz satraplığına çevirmişlər. Orta Asiyada iskit axınlarının güclənməsi ilə əlaqədar Parfiya hökmdarı II Mitridat e.q. 120-ci ildə batı ərazilərində yerləşən Armeniya torpaqlarını ələ keçirərək Artaşes sülaləsini hakimiyyətdən devirmiş öz dövlətinin tərkibinə qatmışdır. Vəliəhd II Tiqranı isə əsir alaraq Həmədana aparmışdır. Ermənistanda Kiçik Arsakilər adı ilə Arsakilər sülaləsinin hakimiyyəti bərqərar olmuşdur. (F.Kırzıoğlu, 2000)

Alman filosof-tarixçisi Osvald Şpenqler ermənilər haqqında yazır ki, Armeniyada qədimdə çoxlu dil qalıqları mövcud idi. Qafqazın əksinə olaraq burda həmin dillərin hamısı ortadan qeyb oldu. Burda yüzlliklər ərzində öz rəsmi hakimiyyət dilləri və yazıları ilə böyük siyasi birliklər mövcud olmuşdur. Yunan müəllifləri də Armeniyada çoxlu dillərdə danışıldığını qeyd edirlər. Bu ərazidə yaşayan Qutilər ermənilərin başa düşmədikləri bir dildə danışırdılar. Armeniyadakı çoxlu dil qalıqlarından biri olan erməni dili bir dini təriqət dili olduğu üçün bu günə qədər yaşaya bilmişdir.

Erəməni dili manixey dili və nestorian dilləri kimi bir təriqət dili olub miladın V əsrindən etibarən xristan kilsə icmalarından birinin dili idi. Armenia Daranın bir inzibati ərazilərindən birinin adı idi.

Erməni dili mənşə etibarı ilə hind-avropa dilinə aid olmayan, lakin xristian dövrünün başlanması ilə ora daxil olaraq korlanmış bir dildir. Şpenqler də Armenia adının ilk olaraq Pers krallığı dövründə meydana çıxdığını ondan öncə bu ərazinin Urartu adlandığını yazır. Herodot erməniləri friqlərə qohum hesab edir və Avropadan birlikdə gəldiklərini yazmışdır.

Armeniya adının kökünü təşkil edən Ramman və ya Araman aramilərin eponimi idi. O ildırım tanrısı Teşubun ekvivalenti idi. Roma dövründə Armeniya krallığının dili erməni dili olmamışdır. (Oswald Spengler. 1966. Səh. 212-218)

Erməni dili Ermənistan yaylasının qədim avtoxton əhalisi olan hurri və urartu dilləri ilə qohum dil olmadığı üçün deməli bu dil həmin əraziyə kənardan gətirilmişdir. Erməni dili e.q. III-II minillikdə Ön Asiyaya gələn hind-avropa dillərinə mənsub olmadığı üçün, deməli, ermənilər bu əraziyə ya həmin dövrdən öncə, ya da sonra gəlmiş ola bilərlər.

Erməni dili e.q. XII əsrdə Kiçik Asiyaya gəlmiş hind-avropa mənşəli frak-friq dil ailəsinin xüsusi bir qolunu təşkil edir.

E.q. VIII-VII əsrlərdə bütün Kiçik Asiya ərazisi qüdrətli dövlətlərin hakimiyyəti altında idi və onlar bu ərazidə önəmli etnik yerdəyişmələrə imkan verməzdilər. Həmin dövrdə yalnız şimaldan kimmerlər və iskitlər Qafqaz tərəfdən hərbi yürüşlə əraziyə daxil ola bilmişlər ki, onların ermənilərlə hər hansı bir qohumluğu istisna olunur.

Qədim ermənilər Ermənistan yaylasına kimmer və iskitlərin Ön Asiyaya hərbi yürüşləri dövründə, Urartu və Assuriya dövlətlərinin süqutu və Midiya dövlətinin möhkəmləndiyi və sonradan Əhəmənilərin hakimiyyəti ələ keçirdikləri qarışıq dövr olan e.q. 635-590-cı illər arasında gəlib yerləşmişlər.

Armeniya adı qədim tarixə malik olsa da, Erməni dili eramızın V əsrindən məlumdur. Alman antropoloqu Eykştadt "Armenoid" adlandırdığı Anadolu irqini Turan irqindən Dinar irqinə keçid mərhələsi adlandırır və qarışıq irq hesab edir. Ermənilər Kiçik Asiyanın tipik dağlı xalqıdırlar və yəhudilər onları "əmioğlu xalq" adlandırırlar. (Eikstadt Egon, 1934, Səh. 163)

Aykştadtın şərhindən göründüyü kimi friqlərlə birlikdə Balkanlardan gələn mizilər Kimmerlərin friq dövlətini ağır məğlubiyyətə uğratmasından sonra güneyə doğru hərəkət etmiş, Fəratın quzey bölgəsində məskunlaşaraq orda sami-arameylərlə qarışmışlar. Urartunun dağılmasından sonra Van gölü ətrafında onların gəlişindən öncə qədim zamanlardan etibarən Armeniya adlanan ərazidə məskunlaşaraq burdakı Hayaza adlı yerli xalqla qaynayıb qarışmışlar. Sonrakı dövrlərdə yaşadıqları coğrafi ərazinin Ermən/Armen adına uyğun olaraq onlara qonşuları tərəfindən armen və ya ermən etnonimi aid edilmişdir.

Flieqer Ermənilərin sami mənşəyə malik olub Assurlara çox bənzəməkdədirini yazır. Onlar irandilli olsalar da, assurlarla sıx şəkildə qarışmış ola bilirlər. (Flieger C. 1877, Səh. 41)

Yəhudilər hay/ermənilərin sami assurlarla qohumluq münasibətini bildikləri səbəbilə onları "əmioğlu" adlandırırlar. Bilim adamları erməni dilində onlardan öncə həmin ərazidə yaşamış olan turanlı xalqlarının dilinə məxsus çoxlu sözlər aşkar etmişlər.

Erməni dili ari təsirinə nə qədər məruz qalsa da, onda sak-iskit ünsürləri nəzərə çarpır. Müasir Gürcü dili sak-iskitlərin ən bariz örnəyidir. (Norris E. 1852, Səh. 234)

Erməni dili hind-avropa dilləri ailəsi içindəki yeri tam müəyyən olunmamışdır. Bu dilin tərkibində yalnız 400 söz bu xalqın orijinal dilindədir, bütün yerdə qalan sözlər digər dillərdən alınmadır. Erməni dili xett dilinin tərkibindən ayrılmadır. (The Cambridge Ancient History, Vol. 1, 1971, Səh. 139)

Etrusk dilini erməni dili ilə müqayisə edərək etrusk dilində ermənicə sözlər aşkar edən ingilis alimi Robert Ellis erməni dilindəki bu sözlərin əksəriyyətinin turan dillərindən alınmış olduğunu etiraf etməyə məcbur olmuşdur. (R.Ellis, 1870, Səh. 58)



# XXVI FƏSİL. Qədim Turan yurdu Azərbaycan

Azərbaycan tarixinə həsr olunmuş bu bölümdə məqsədimiz Azərbaycan tarixinin bütün dövrlərinin şərhini vermək deyil, onun ən qədim tarixinə dair keçən əsrlərin Avropa tarixçilərinin qədim mənbələrə əsasən ölkəmizin tarixi haqqında yazdıqları, lakin tarixşünaslığımızda öz əksini tapmamış fikirlərinə və tariximizin bəzi məqamlarına diqqəti cəlb etməkdir.

Azərbaycan tarixin ən qədim dövrlərindən etibarən turanlı öntürklərin məskunlaşmış olduqları önəmli bir coğrafiyadır. Tarixin ilkin dövrlərində öz ilkin yurdları Ural-Altay və Mərkəzi Asiyadan güney və doğu istiqamətində hərəkət edən turanlı öntürk boylarının qovuşma yerini Azərbaycan təşkil edirdi. Burda məskunlaşıb güc toplayan turanlılar sonradan daha batı istiqamətinə hərəkət edərək Zaqros dağları, İkiçayarası, Anadolu və Aralıq dənizi hövzəsini məskunlaşmış, Mərkəzi Asiyadan sonra burda ikinci bir mədəniyyət mərkəzini meydana gətirmişlər. Müxtəlif səbəblər üzündən Mesopotamiyadakı yurdlarını tərk etmək məcburiyyətində qalan Sumer və digər etnosların şimal və şərq istiqamətində geriyə dönüş zamanı da Azərbaycan yenə də onların üzərindən keçdikləri və müəyyən qismlərinin məskunlaşdıqları güzargah olmuşdur.

Ön türklərin tarixin ilkin dövrlərində Sibirin güneyindəki öz ilkin vətənləri Turandan hərəkət edərək Azərbaycan ərazisində məskunlaşmaları hadisəsini arxeoloji və antropoloji dəlillərlə yanaşı genetik uzmanlarının araşdırmaları əsasında da izləmək mümkündür.

Müasir dövrün görkəmli genetika uzmanı Anatoliy Klyosov yazır ki, R1b qaploqrupunun daşıyıcıları olan türkdilli tayfalar 6000 il öncə Cənubi Sibirdən Orta Volqa və Samara üzərindən hərəkət edərək Qafqaza gəlmiş və bir qismi burda yerləşdikdən sonra Anadolu istiqamətində hərəkət etmişlər. (Анатолий Клесов. 2010. T. 3. №1, Səh. 3-58)

A.Klyosov Rusiyanın "Den Tv" internet kanalının "Yasaqlanmış tarix. Slavyanlar və türklər minillik boyunca" adlı verilişdə türk dilinin tarixi, onların DNA geneologiyasına əsasın yayılma arealları haqqında bəhs edərkən Ön türklərin Azərbaycanda məskunlaşması və onların mənşəyi məsələsi haqqında da bəhs etmişdir.

Prof. A.Klyosov bir çox qarşı iddialara rəğmən türk dillərinin sumer və elam dilləri ilə yaxınlığa malik olduğunu vurğulamışdır. O türk dillərinin 1500 il yaşı olduğu haqqındakı iddialara tənqidi münasibətini ifadə etmiş və akademik dairələrin iskitləri hind-avropalı və xüsusən irandilli hesab etmələrini yanlış hesab etdiyini bildirmişdir. O sak/iskitlərin türklər olduğunu və dillərinin də 1500 il bundan öncəki türk dili olduğunu qeyd etmişdir. O həmçinin DNA araşdırmalarına əsasən ermənilərin bu günki Anadolu türkləri ilə eyni olduqlarını vurğulamışdır.

O Azərbaycan əhalisi haqqında bəhs edərkən onu bir neçə qədim miqrasiyanın varisləri adlandırmış və azərbaycanlıların əcdadlarının ilk miqrasiyasının 9-10 min il öncə baş verdiyini söyləmişdir. İkinci miqrasiya təxminən 7-8 min il öncə sumerlər tərəfindən baş vermişdir. Üçüncü miqrasiya 4-5 min öncə Avropadan olmuşdur və azərbaycanlıların əksəriyyəti bu üç köçmənin qarışımından ibarətdir. Klyosov Sumer dövlətinin yaradıcılarının qədim türklər olduğuna heç bir şübhə yeri qalmadığını və sumerlərin sonradan Azərbaycanda məskunlaşdığını söyləmişdir. Azərbaycanın əhalisinin Qafqazda ən qədim xalq olduğunu vurğulamışdır. Azərbaycan əhalisinin Aralıq dənizi və Yaxın şərq qaploqrupuna mənsub olduğunu qeyd edən Klyosov bu qrupa mənsub insanların 7000 il öncə metal və faydalı qazıntılar ardınca Qafqaza, xüsusən də Azərbaycana gəldiklərini qeyd etmişdir. Klyosov Altay nəzəriyyəsinə tənqidi münasibət bəsləyərək türklərin 1000 il öncə, X-XI əsrlərdə gəlib Azərbaycanda yerləşdikləri fikrini qətiyyətlə rədd edir. (İnterfaks Azerbaidjan. 01.03.2018)

## Sumer və Azərbaycan

Sumer ilə Azərbaycan arasında tarixin ilkin dövrlərindən etibarən geniş əlaqələr mövcud olmuşdur. Kökü Türkmənistanın Anau uyqarlığına bağlı olan sumerlər müxtəlif səbəblər üzündən öz yerlərini tərk edib qərbə doğru hərəkət etdikləri zaman ilk məskunlaşdıqları ərazi S.Kramerin də qeyd etdiyi kimi dağlıq bir ərazi, yəni Aratta və Azərbaycan ərazisi olmuşdur. Sumerlərin Mesopotamiyanın şimal-şərqindəki bir dağlıq ərazidən gəldikləri mixi mətnlərdə də öz əksini tapmışdır. Bu ərazi coğrafi baxımdan Azərbaycan ərazisinə uyğundur. Sumerlər uzun zaman ərzində burda yaşadıqdan sonra Mesopotamiyaya yenmiş və İkiçayarasının güneyində məskunlaşmılar.

Çex assuroloq və arxeoloqu Bedrix Hroznu arxeoloji və linqvistik dəllilərə əsasən Sumerlərin Mesopotamiyaya iki dalğa şəklində gəldikləri fikrini irəli sürür. İlk gələnlər Ubeyd mədəniyyətini, ikinci gələnlər isə Uruk mədəniyyətinin yaradıcılarıdırlar. Uruk mədəniyyətinin yaradıcıları Sumerə şimal-şərqdən gəlmişlər. Bütün dəlillər sübut edir ki, e.q. VI minillikdə sumerlər Türküstanın və Qazaxıstanın şərqində yaşayırdılar. Onlar Altay dağlarının yamaclarından və İrtış çayının hövzəsindən keçərək Azərbaycana, Cənubi Qafqaza gəlmişdilər. Sumerlərin yüz illər ərzində məskunlaşdıqları Xəzər dənizinin qərbindəki Azərbaycan ərazisi onların ilkin vətəni deyildi. Onlar sonra burdan hərəkət edərək Səncər dağlarından aşıb Mesopotamiyanın güneyində məskunlaşmışlar. Yüzillər sonra onların başqa bir qrupu olan Suburlər yenə də Qafqazları keçib Azərbaycana gəlmiş və burdan hərəkətlə Anadoluya, Suriya və Babilə keçmişlər. Onlar üzerindən keçdikləri güzərgah olan Azərbaycanda yerləşərək yüzillər davam edən uzunmüddətli dayanacaq qurmuş və yeni mədəniyyətlər yaratmışlar. B.Hroznu sumerlərin Qafqazın güneyində, daha doğrusu Azərbaycanda məskunlaşdıqları zaman burdakı ustalardan metalçılıq işini mükəmməl öyrəndiklərini yazır. (B.Hrozni. 1953, Səh. 39-40)

Ə.Elçibəy tarixi dəlillərə əsaslanaraq Kür-Araz uyqarlığının əsasının Sumerlər tərəfindən qoyulduğunu yazır və qədim Azərbaycan tarixinin ümumbəşəri dəyərini də dünyanın siyasi, mədəni tarixinin özülü sayılan Sumerin yaranması və inkişafında böyük rol oynamasında görür.

Yuxarıda Sumerlə əlaqədar bölümdə bəhs etdiyimiz kimi istər vəhşi sami tayfaları olan amorilərin dağıdıcı basqınları nəticəsində, istərsə də iqlim dəyişikliyi üzündən Sumer əhalisi öz yurdlarını tərk edib dünyanın müxtəlif ərazilərinə yayılmış ve məskunlaşdıqları yeni ərazilərdə mədəniyyətin inkişafına səbəb olmuşdular. Bir çox müəlliflər bu hadisəni Uruk şəhərinin ikişafı, əhalinin artımı nəticəsində baş verdiyi fikrini də irəli sürürlər.

E.q. V-IV minilliklərdə Qafqazın güneyinə və quzeyinə Sumerin Uruk şəhərindən böyük miqrant axını baş vermişdir. Onların gəlişi güneydə Kür-Araz və Quzeydə Maykop arxeoloji mədəniyyətinin inkişafına səbəb olmuşdur. Bu sumer türklərinin nə zamansa tərk etdikləri öz qədim yurdları Azərbaycana təkrar dönüşləri idi.

Tarixi ədəbiyyatda "uruk expansion" və ya Uruk genişlənməsi adlanan bu hadisənin təsiri ilə Qafqazın Kür-Araz mədəniyyəti geniş inkişafa məruz qalıb e.q. IV-III minilliklərdə bütün Qafqazı, Şərqi Anadolunu, İran yaylasının şimal ərazilərini, Yaxın Şərqi və hətta Avropanı əhatə etmişdir. Uruk miqrantları Qafqaza doğru iki istiqamətdə hərəkət etmişlər, bir istiqamət Anadolunun şərqi ilə Fərat çayı axarı boyunca Arslan təpə üzərindən Axalsix-Abastuman istiqamətində şimala doğru hərəkət etmiş. Sonra Baqdadi-Kutaisi isiqamətində irəliləyərək Rioni çayına çatmışlar. Onlar burda Abastumani, Orçoşani, Ağ mağara, Dzudzuan mağarasında, Samekledlde, Samertsxledlde arxeoloji mədəniyyətlərin əsasını qoymuşlar. Urukun sumerli miqrantların bir qolu Rioni və Kvirila çayları hövzəsindən keçərək şərqə doğru hərəkət edərək Kvemo Kartli adlanan və azərbaycan türklərinin tarixi əraziləri olan Başkeçid, Bolnisi, Marneuli, Qarayazı, Salka, Tetri Tskaro ərazilərində məskunlaşmışlar.

Uruk dövrünün xarakterik abidələri Xəzər dənizinin sahillərindəki Qafqazın şimal-şərq ərazilərində də geniş şəkildə təmsil olunmuşdur. Uruk miqrantlarının Qafqaza doğru ikinci marşrutu İran yaylası üzərindən hərəkət edərək Azərbaycanın Leyla təpə, Böyük kəsik, Poylu I-II, Mişarqaya, Alxan təpə, Çinar təpə, Şomul təpə, Adsız təpə, Xocasənli və digər ərazilərində qədim şəhər mədəniyyətlərinin və o cümlədən Abşeron yarımadasında Üç təpə, Soyuq bulaq kurqanların yaradıcıları olmuşlar. (Konstantine Pitskhelauri. Vol. 6. №2, 2012, Səh. 153-157)

Azərbaycanın Naxçıvan bölgəsində e.q. IV-III minilliklərinə aid Kür-Araz mə-

dəniyyəti Kültəpə I-II, Aşağıdaşarx, Ovçular, Maxta I-II, Xələc, Ərəbyenqicə, Dizə, Qarabulaq arxeoloji abidələrini əhatə edən qədim yaşayış yerləri və nekrapollarla təmsil olunmuşdur. Şərur rayonunun Arpaçay sahilində yerləşən Ovçular təpəsi arxeoloji abidəsi xalkolit dövrünə, son daş və erkən bürünc dövrünə aid olub əsası e.q. 4300-ci ildə qoyulmuşdur. Güney Azərbaycan ərazisində Naxçıvan arxeoloji abidələri ilə bənzərlik təşkil edən abidələr Həsənli, Köhnə təpə, Pasqah təpə, Haftafan təpəsi arxeoloji mədəniyyətləridir. (Akbar Abedi. 2015. Səh. 91-107)

Bir çox müəlliflərin qeyd etdiyinə görə Sumer şəhər dövlətləri həmin ərazidə məskunlaşan boy birliklərinin adını daşıyırdılar. Yuxarıdakı bölümlərdə bəhs etdiyimiz kimi Kəngərlər Sumerin hökmran sülaləsini təşkil edən boy idi. Qədim dövrlərdən etibarən Azərbaycan türkləri Bəsrə körfəzini onun ən əski adı ilə Kəngər körfəzi adlandırırlar. Kəngərlər bir çox türk xalqlarının tərkibində boy birliyi şəklində mövcud olsalar da, onların əsas vətənləri Azərbaycandır və indi də kompakt şəkildə Azərbaycanda yaşamaqdadırlar. Sumer etnosunun kökünü Su boy birliyi təşkil edirdi. Avropanın görkəmli assuroloq və sumeroloqları Mesopotamiyada, Zaqros dağları yaylalarında və Anadoluda məskunlaşmış subir, kas/kuz, qut, namri, bars, kheta, aqban, qarqar, tibir, mesek, qədim turanlı tayfa və xalqların etnik mənşə baxımından sumerlərə bağlı olduqlarını yazmışlar.

Elam tarixi haqqında dəyərli araşdırmaların müəllifi olan alman assuroloqu Georq Hüzinq Azərbaycan ərazisində çox qədimdən etibarən türk tayfalarının məskunlaşdığı haqqında bəhs edərək yazır: "Yəqin ki, qədim zamanlarda İranın şimal-şərqində turanlı altay tayfalar yaşayırdılar. Qədim zamanlarda Ardilanda da türklər məskunlaşmışdılar ki, Qizılbunda, Marunda və buna bənzər türk dilində olan qədim yer adları bunu sübut edir. Yaxınlıqdakı Qafqaz regionunda mövcud olan türk dili dialektləri də bunu təsdiq edir. Bu əraziyə gələn iran tayfaları onlara yabançı olan bu xalqların məskunlaşdığı ərazilərdən keçərək gəlmiş və onların bir çoxunu öz yerlərindən sıxışdırmışlar. (Georg Hüsing. 1916, Səh. 13)

Digər alman iranşünası A.Qutşmidə görə də Azərbaycan türklərin qərbə doğru yürüşlərində başlıca qapı rolunu oynayırdı və türklər ilk öncə burda məskunlaşırdılar. (Alfred Gutschmid. 1888, Səh. 21)

Alman tarixçisi Şpiqelin yazır ki, Anariyalar, yəni türklər ən qədim zamandan arilərlə yanaşı Midiyada və Atropatenada – Azərbaycanda məskunlaşmışdılar.

Antropoloqlar Azərbaycan türklərini, türkmənləri və bütövlükdə türklərin böyük əksəriyyətini Turan, Alp və Aralıq dənizi irqinə aid edirlər.

Turan irqi nəzəriyyəsini bəşəriyyətin müstəqil irqi kimi ilk dəfə elmi ədəbiyyata fransız antropoloqu XX əsrin əvvəlində Josef Denker gətirmişdir. Denker Türklərin Turan irqinə aid olduqlarını və bu irqə türk dilində danışan xalqların mənsub olduqlarını yazır. Türk dilində danışan və turanlı adlandırılan xalqlar Asiyanın yarısını, Şərqi Avropanın böyük hissəsini, Şimal buzlu okeanının sahillərini, İran yaylasını, Mərkəzi Rusiya və Qafqazın böyük hissəsini əhatə edən ərazilərdə yaşayırlar. (J.Deniker. 1913. Səh. 375)



Azərbaycan türklərini Turan irqinə aid edən alman antropoloqu Eykştedt Turanın indiki Türkmənistan və Qazaxıstanın yerləşdiyi ərazi olduğunu yazır. Turanlılar güneyə doğru hərəkət edərək İran və Anadolu üzərindən geniş ərazilərə çıxdılar bura tundrada olduğu kimi rütubətli şərait mövcud idi. Lakin sonradan Turanlılar burda protoaralıqdənizi insanları timsalında bir rəqiblə qarşılaşdılar. Turanlıların İran üzərindən qərbə doğru yürüşləri sonrakı tarixi dövrlərdə dəfələrlə təkraralandı. (Egon von Eikstedt. 1934. )

Qədim Turanın ən önəmli ərazisini təşkil edən Azərbaycanda Turan adlı çoxsaylı toponimlər mövcuddur.

Türklərin tarixən ağdərili və avropoid altaylılardan hesab edən C.Kuna görə Türkmənlər, azərbaycanlılar, osmanlı türkləri, səlçuklular ağ rəngli avropoidlər olub əsl türklərdirlər və onlar heç bir zaman monqoloid qarışığına malik olmamışlar. Xəzər dənizinin şərqində və Aral dənizinin cənubunda yaşayan türkmənlər Orta Asiyada Aralıq dənizi irqinin davamçılarıdırlar. Türkmənlər əsas etibarı ilə dolixokefaldırlar. Türkmənlərə ən yaxın qohum xalq olan Qafqazda və İranın böyük ərazisində məskunlaşmış azərbaycan türkləri monqoloidliyə daha az məruz qalmışlar. Azərbaycanlıların böyük hissəsi türkmənlərlə eynidirlər, az bir hissəsi yerli qafqazlılarla qaynayıb qarışmışlar. Azərbaycanlıların böyük hissəsi uzun qafalı dolixokefaldırlar, az hissəsi monqoloidlərlə qarışmış broxikefal tipinə mənsubdurlar. (C.S.Coon. 1939, Səh. 239, 424)

V.Ripli Avropanın Alp irqinin Asiya kökənli olduğunu və türkmənləri Azərbaycanlıları, Şimali Qafqaz türkləri ilə yanaşı tatarları Alp irqinə aid edir. (Ripley W. 1899. Səh. 419)

Azərbaycan təkcə dünyanın ən qədim tarixi ərazisi və mədəniyyət mərkəzi kimi deyil, həmçinin təbiətinin insan yaşayışı üçün ən əlverişli olması və füsünkar gözəlliyi ilə də diqqətləri cəlb etmişdir. Bir çox tarixçilər qədim dini kitablarda bəhs olunan müəyyən hadisələri Azərbaycanla əlaqələndirirlər. Araşdırmalar nəticəsində Yəhudilərin müqəddəs kitabı olan və çox zaman tarixi mənbə kimi də istinad olunan Bibliyada təsvir olunan Cənnətin yerləşdiyi yerin Azərbaycanda olduğu müəyyən olunmuşdur.

Həmin araşdırıcılardan biri də görkəmli alman assuroloqu "Cənnət harda yerləşir" əsərinin müəllifi Fridrix Deliçdir. O Bibliyada haqqında bəhs olunan Cənnətdəki çayların Araz və Kür çayları olduğunu qeyd edərək yazır: "Cənnətin yerləşmiş olduğu ikinci qrup ərazi Bibliyada bəhs olunan Qafqazda yerləşən Pisxon və Qixon çaylarının vadiləridir. Qixon adlanan və Ərzrumdan başlayıb axan və Qarsda keçən Araz çayının sol sahillərində yerləşən Culfa, Ordubadın Eden bağ-

larını əks etdirir, sonra o Kür çayına qovuşur və Xəzər dənizinə tökülür. (F.Deliztsch. 1881, Səh. 33)

Cənnətin yerləşdiyi ərazinin araşdırılması ilə məşğul olan digər bir müasir tədqiqatçı isə ingilis arxeoloqu və misirşünası David Rohldur. O araşdırmaları nəticəsində Bibliyada bəhs olunan cənnətin Xəzər dənizi və Urmiyə gölü arasında Qərbi Azərbaycanda yerləşdiyini qeyd edir. Rohl cənətdəki Eden bağının və mərkəzinin Təbrizdə olduğunu təsdiq edir. O Araz çayının qədim mənbələrdə haqqında bəhs olunan və Xəzər dənizinə tökülən Ceyhun çayı olduğu fikrini irəli sürür. Bibliyada deyildiyinə görə Edendən dörd qol çay ayrılırdı. Bu qolların ən başlıcası Təbrizdən keçərək Urmiyə gölünə tökülən Meydan çay idi. Urmiya gölü Bibliyada təsvir olunan dörd Cənnət çayının mənbəyini təşkil edirdi. Geoloji proseslər nəticəsində çayların bir neçəsi öz mənsəbini dəyişə bilərdilər. David Rohl Cənnətin Binbliyada təsvir olunan coğrafi kordinatlarının və təbii şəraitinin heyrətləndrici dərəcədə Təbrizə uyğun olduğunu qeyd edir. Təbrizin Edemin mərkəzi olması 2006-cı ildə fəzadan virtual çəkiliş zamanı da təsdiq olunur. Bu çəkilişdə füsünkar dağlıq ərazidə yerləşən Təbrizin Cənnətin mərkəzi olmasını bir daha təsdiq edir. David Rohl Təbrizin cənubunda yerləşən 4 min metr hündürlüyə malik Səhənd dağının Bibliyada peyğəmbər İzekilin bəhs etdiyi cənnətdə mövcud olan Tanrı dağı olduğunu təsdiq edir.

Bibliya xronologiyasına əsasən insan övladının cənətdən qovulması hadisəsi e. q. 5000-ci ildə baş vermişdir. Bu tarixi xronologiyaya əsasən neolit dövrünə uyğun gəlir. Həmin dövrdə insanlar köçəri və ovçuluq vərdişlərindən imtina etmiş və ilk yüksək mədəniyyətlər meydana çıxmışdır.

Cənnətin yerləşdiyi ərazidə aşkar olunmuş Qöbəkli Təpə dünyanın ən qədim ibadətgah məbədidir. Orda daş üzərində Cənnətin simvolu olan ağaca sarılmış ilan təsviri aşkar edilmişdir. (Der Spigel. 3 juni 2006)

## Azərbaycan adının mənası və Azərbaycanda mövcud olmuş qədim dövlətləri

Azərbaycan adının izahına keçmədən öncə qeyd edək ki, Azərbaycanın Arazdan şimalda yerləşən ərazisi qədim dövrlərdən etibarən iki müxtəlif adla, Albaniya və Aran adlanmışdır. Bu adların heçbiri etnonim xarakteri daşımayıb coğrafi terminlərdir. Albaniya ölkə adı kimi Kür çayından yuxarı dağlıq əraziləri, Aran isə Kür və Araz çayları arasındakı düzənlik ərazini əhatə edirdi. Güney Azərbaycanı əhatə edən dağlıq ərazidə qədim mənbələrdə "dağlıq ölkə" anlamı daşıyan Arteya adlanmışdır. Landsberqer, Unqnad və digərləri mixi yazı mətnlərinə əsasən Zaqros dağlarının yaylalarında mövcud olan Alban və ya Aqvan ölkəsinin mövcudluğu haqqında bəhs edirlər. Assur və Urartu kralları öz kitabələrində Alban və ya Aqvan ölkəsinə etdikləri hərbi yürüşləri təsvir edirlər.



Sovet dövrü tarixşünaslığında Azərbaycanı türk dünyasından qoparmaq məqsədi güdən və onun xalqını türkləşmiş irandilli tayfalardan ibarət bir etnos kimi qələmə verən görüş hakim idi. Bu tezisə görə Azərbaycan əhalisi mənşə etibarı ilə irandilli tayfalardan ibarət bir ölkədir və Azərbaycan adı da Əhəmənilərin Kiçik Midiyada satrapı olan Atropatın adından yaranmışdır. Beləliklə, gerçək tarixlə heç bir əlaqəsi olmayan bu tezisə görə Azərbaycan xalqı etnik mənşə baxımından tarixin gec dövrlərində guya türkləşməyə məruz qalmış irandilli tayfalardan ibarət olmuşlar, hətta Azərbaycan adının özü belə etimoloji baxımdan fars dilində olduğu iddia edilməkdədir. Akademik Ziya Bünyadov "Azərbaycan tarixi" dərsliyinə yazdığı ön sözdə bu məsələyə münasibət bildirərək yazır: "Xalqımızın etnik tarixini subyektiv baxımından izah edən və müəyyən siyasi məqsədlər güdən tendensiyalar uzun müddət öz mövqeyini saxlamış və təəssüf ki, indi də saxlamaqdadır. Guya azərbaycanlılar türk dillərinin birində danışan xalq kimi bu torpaqlara yaxın keçmişdə gəlmişlər... Lakin Azərbaycan xalqının yaranması və formalaşmasında bilavasitə iştirak edən türk etnoslarının qədimdən burada yaşamaları və qonşu ərazilərdə türk etnoslarının məskun olması fikrini tarixi qaynaqların təhlili də təsdiq edir. (Azərbaycan tarixi, 1994, Səh. 3)

Azərbaycan tarixşünaslığında Atropatena tezisinin ən böyük müdafiəçisi və Azərbaycan xalqının türk kimliyinin ən barışmaz əleyhdarlarından biri İqrar Əliyev idi.

Azərbaycan adının Atropat şəxs adından yaranması fikrini hələ sovet dövründə bir çox bilim adamları o cümlədən Rafiq Qurban, Q.Qeybullayev, M.Seyidov, A.Fərzəli və başqaları təkzib etmişlər. Azərbaycan tarixində də yazıldığı kimi Azərbaycanın Atropata tabe olması barəsində məlumat Strabondan başqa heç bir qaynaqda rast gəlinmir. Azərbaycan adının Atropatın adından yarandığı haqqında Arianın uydurma tezisi görkəmli tarixçilər Z.Bünyadov və Y.Yusifovun rəhbərliyi ilə nəşr olunmuş "Azərbaycan tarixi" kitabında da, ciddi tənqidə məruz qalaraq əsassız bir iddia kimi rədd edilir.

Midiyada Atropat adlı bir hökmdarın olması və Aturapatakan adlı bir ölkə adı yunan müəlliflərinin bir uydurması və ya ölkənin gerçək adının yunan dilində təhrif olunmuş şəklidir.

Pəhləvi dovründə Ərdəşir Babakan tərəfindən başlanmış Zərdüştlik dini intibahından bəhs olunan zaman Adarbad Marespandın da adını çəkirlər. Onun əsl rühani ünvanı Atarpat Marespandan (290-371-ci illər) idi. Aturpat satrap deyil, Sasanilər dövründə İranda atəşpərəstlərin Möbədan möbədi, yəni baş kahini olmuşdur. Adurbad və ya bəzi müəlliflər tərəfindən Azərbad adlanan Marespandan Ərdəşirdən sonra Sasani II Şapurun dövründə onun baş naziri olmuş və dini islahatları həyata keçirilməsinə, daha doğrusu Avesta mətnlərinin təhrif edilərək

onun Sasanilərin mənafeinə uyğun şəkilə gətirilməsi işinə rəhbərlik etmişdir. (The Journal of the K. R. Cama Oriental, Səh. 40)

Bir çox müəlliflər yunan mənbələrinə əsasən Azərbaycanın qədim dövrdəki adını Atropaten şəklində ifadə edirdilər. Lenormana görə Klassik dövrdə "anarian", yəni ari olmayanlar adlandırılan Atropatenanın qədim Turanlı tayfaları sonradan Midiyanı zəbt etmiş iranlılar tərəfindən Xəzər dənizinin sərhədlərində yerləşən dağlara (Qafqaz dağları) tərəf sıxışdırılmışlar. (Lenormant F. 1895, Səh. 309)

Avropanin bir çox görkəmli tarixçi və linqvistləri Azərbaycan adının Atropaten adından yaranmasına şübhə ilə yanaşırdılar.

Almaniyanın məhşur iranşünas alimi Mayrhofer yazırdı ki, Persopolis mətnlərində "Atrpata" və "Atərəpata" adları keçir, yalnız bu ölkə adı deyil, atəşgələrdə xidmət göstərən kahinlərə məxsus terminlərdir. (Mayrhofer M. 1973, Səh. 321)

Almaniyanın məhşur iranşünas alimi Alfred Qutşmid Azərbaycan adının mənasının fars dili ilə əlaqələndirilməsinə etiraz edərək yazır ki, Azərbaycan adının odlar ölkəsi adlanması yanlış bir etimologiyaya əsaslanır. Azərbaycan türklərin qərbə doğru yürüşlərində başlıca qapı rolunu oynayırdı və türklər ilk öncə burda məskunlaşırdılar. (Gutschmid A. 1888, Səh. 21)

Almaniyanın görkəmli assuroloqu və iranşünası Köniq yazır ki, Atropatenanın yunan dövründən Atropat adlı bir hakim tərəfindən idarə olunduğu yazılmışdır. Lakin mən mixi yazı mətnlərində bu ada uyğun bir ölkə adına rast gəlmədim. Bu ad bugünki Azərbaycan adı ilə eyniləşdirilir. Mən mixi yazılı mətnlərdə Antarpatti və Andirpattiani adlı iki yer adına rast gəldim, lakin onlar ölkə adları deyil, kiçik qala adları idilər. (König F. 1934, Səh. 7)

Alman iranşünas bilim adamı Hübşman Azərbaycan adının qədim suriya dilində Adarbaiqan şəklində yazıldığını və Atropatena ölkə adının bu adın sonrakı dövrdə fonetik dəyişikliyə uğramış şəkli olduğunu yazır. (Hübschman H. Persische studien. 1895, Səh. 143)

Məhşur Fransalı iranşünas alimi E.Benveniste iranlıların istifadə etdikləri bir çox şəxs adlarının və titulların Elam dilindən alındığını yazır. O İranlıların Atarapat-Aturpat adının Elam dilindəki "Hatarpatta" adından yarandığını qeyd edir. İranlılarda Atar adı elam dilindəki "Haturadda" sözündən yaranmışdır. Sözün əvvəlindəki "h" elam dilinə xas şəkilçidir. (Benveniste E. 1966, Səh. 83)

Elam dilində hər iki sözün "h" şəkilçisinin nəzərə alınmadan açılışı Atur-Ata və ya Atar-ata deməkdir. Əslinə baxıldıqda iran dillərinə aid edilən və od anlamı daşıyan Atar sözü sumerlərin od və günəş tanrısı Utun həmin dildə təhrif edilmiş variantıdır.

Yuxarıdakı sitatlardan da göründüyü kimi mixi mətnlər haqqında dərin məlumatı olan qədim tarixin görkəmli uzmanları Azərbaycan adının Atropat və Atropatakan adı ilə əlaqələndirilməsinə və həmçinin onun mənasının "odlar yurdu"



şəklində izah edilməsinə qarşı çıxaraq bu şərhləri qəbul etmirlər. Yunan müəlliflərindən fərqli olaraq qədim dövrlərdən etibarən Azərbaycanla sıx əlaqələrə malik olmuş qədim suriyani və ərəb mənbələrində Azərbaycan adı Adarbaiqan şəklində ifadə olunur.

Heç şübhəsiz yunan müəllifləri onlar üçün dəqiq ifadəsi çətin olan yabançı dildəki Aturbayqan/Adarbayqan adını İran dilindəki atəşpərəslik kahinlərinin adı olan Aturpatın adı ilə eyniləşdirərək təhrifə uğratmışlar və tarixi ədəbiyyata da bu şəkildə daxil etmişlər.

Dərbəndin qədim qala divarında Aturen adı həkk olunmuşdur. Niberq Aturen adını şəxs adı kimi izah edir. (Тревер К. В. 1959. Səh. 335)

Yəqin ki adı qədim Azərbaycan şəhəri Dərbəndin qala divarı üzərində həkk olunan Aturen Azərbaycan türklərinin ən qədim eponimlərindən biri olmuşdur.

Azərbaycan adının qədim variantlarından biri ola biləcək Aduruban və ya Adurebani yer və şəxs adları assur və hitit mətnlərində də əks olunmuşdur. B. Landsberqer Assur mətnlərindəki adların sonundakı "an" şəkilçisinin quti xalqının dilinə xas bir sonluq olduğu fikrindədir.

Athuruşna bir krallıq, ölkə adı assur mətnlərində keçən həm də şəhər adıdır. Adın sonundakı "uşna" assur dilinə xas sonluqdur və sözün kökü Athurdur. Athur şəhəri Anadoluda Ürqüpdə və ya yaxınlığında olduğu təxmin edilir. (Remzi Kusuoğlu. 2007, Səh. 39, 189)

Sumer dilində *Atura* eponimi mövcuddur və anlamı anadan doğulan yer Ana yurd, vətən mənasındadır. *Turan* sözü də burdan yaranıb. *A* - Sumer dilində bir çox mənalarla yanaşı həmçinin ata, nəsl, əcdad, cinsi maye deməkdir. (Halloran J. 1999, Səh. 74)

Atura eponimi müəyyən fonetik dəyişikliyə uğrayaraq Ön Asiyanın digər xalqlarının dilinə Turan, Adur və Adar şəklində keçərək teonim, eponim, yer, şəhər, ölkə adları kimi istifadə olunmuşdur.

Qvendolzun yazdığına görə Attar tanrısı sami-aramey tanrısı idi və Adar, Atur tanrısı ilə əlaqədar idi və "sulanan, suvarılan torpaq" anlayışı ilə əlaqədar idi. Sübh ulduzu tanrısı Veneranın erkəklik təcəssümü idi. (Gwendolzn Leick. 1991. Səh. 15)

E.Şrader Mesopotamiyanın quzeyində İllipin və Araziasın yaxınlığında Ardiya adlı ölkənin yerləşdiyini yazır. (Schrader E. 1878, Səh. 174)

İ.Dyakonov və digər müəlliflər Urartu mətnlərində Aturiya ölkəsi haqqında bəhs olunduğunu yazırlar. Aturiya ölkə adı Əhəmənilərin Bisütun qaya kitabələrində də öz əksini tapmışdır. Bisütun yazısının bütün mətninlərində Aturiya (Auturiyaus) adlı ölkənin adı çəkilir. Bisütun mətnlərini oxuyub təhlil edən E.Norris pars dilindəki mətndə Aturiyanın Armeniyada yerləşən bir vilayət oluğu yazıldığını, lakin sak-midiya dilindəki mətndə Armeniya adının qeyd olunmadığını ya-

zır. Onun fikrinə görə Aturiya ölkəsi və onun harada yerləşdiyi sak tayfalarına yaxşı məlum olduğundan Armeniya adının yazılmasına ehtiyac duyulmamışdır. Armeniya adı Assur mətnində də verilməmişdir. (Norris E. 1852, Səh. 164)

Rəşidəddinin "Oğuznamə"sində Azərbaycan adının etimologiyası ilə əlaqədar yazılmışdır ki, Oğuz xaqan Azərbaycan vilayətini tutduqdan sonra orada olduqları vaxt əmr elədi ki, təpə yaratmaq üçün hərə öz ətəyində torpaq gətirsin və onu bir yerə töksün. Əvvəl o öz ətəyində torpaq gətirib tökdü. Döyüşçülər də onun kimi bir ətək torpaq gətirib tökdülər. Böyük bir təpə düzəldi və adını Azərbayqan qoydular. "Azər" türkcə uca deməkdir, "bayqan" varlıların, böyüklərin yeri mənasını verir. Bu ölkə belə adla tanındı və elə buna görə də bu gün Azərbaycan adlanır. (Oğuznamə, 2003, Səh. 22)

Oğuznamənin Azərbaycan dilinə tərcüməçisi R.Şükürova 48 nömrəli şərhdə heç bir əsaslı səbəb göstərmədən yazır ki, Azərbaycan adının Oğuznamədəki izahı mətnə sonradan salınmışdır və Azərbaycan toponiminin etimologiyası qondarmadır. (Oğuznamə. R. Şükürovanın tərcüməsi, 2003, Səh. 66)

Z.V.Toqanın tərcüməsindəki Oğuznamədə Azərbaycan adının yaranması hadisəsi nəql edilərkən Azərbaycan adı mətnin əslində olduğu kimi "Azərbaynan" şəklində yazmışdır və sözün sonundakı "baynan" (Şükürova bu sözü "bayqan" kimi yazmışdır) kəlməsinin varlıların, ulularin yeri anlamı daşıdığı yazılmışdır. (Oğuz Destanı, Reşideddin Oğuznamesi, 1982. Səh. 30).

Burda ulu dedikdə yaş etibarı ilə boyük olan deyil, ali, əzəmətli, müqəddəs əcdad nəzərdə tutulur. Toqan Azərbaycan adının yaranması etimologiyasına münasibət bildirərkən onun izahına etiraz etmir, lakin bu məsələyə aid izahda onun Atropatın adından yaranmasını tamamilə uydurma olduğunu qeyd edir. (Z.V.Togan, Oğuz Destanı, 1982. Səh. 91)

Şərq dillərinin o cümlədən fars dilinin böyük bilicisi və son dərəcə məlumatlı bir tarixçi olan Toqanın Oğuznamə tərcüməsində Şükürovanın tərcüməsindən fərqli olaraq Azərbaycan adının izahının mətnə sonradan əlavə olunduğu və onun etimologiyasının qondarma olduğu haqqında heç bir əlavə qeyd yoxdur. (Z.V.Togan, Oğuz Destanı, 1982, Səh. 99)

Toqanın tərcüməsindəki Azərbaynan adındakı "baynan" sözü urartuluların "Biayn" adına tam uyğundur. Urartu kitabələrinin də yazıldığı mixi yazı sistemində "*g*" hərfini ifadə edən mixi işarəsi sağır nun yəni "nq" şəklində oxunur. Buna görə də Baynan sözü həm də Baynqan kimi ifadə olunur.

Yuxarıdakı şərhləri nəzərə alaraq Azərbaycan adının kökünün sumer dilində "ulu əcdadın doğulma yeri, əcdad yurdu" anlamı daşıyan *Atura* eponiminin təşkil etdiyi görüşündəyik. Sumerlər öz ilkin vətənlərini, əcdad yurdlarını dağlıq bir ölkə olduğuna möhkəm inamları vardı və dağ onlar üçün son dərəcə müqəddəs hesab olunurdu və e-kur (dağ evi) adlanan məbədləri dağ formasındakı suni təpə



üzərindəki yüksəklikdə inşa edirdilər. Kökləri sumerə bağlı olan Urartu, Midiya və digər xalqların dilində də Aturiya sözü dağlıq ölkə anlamı daşıyır. Uratu dilindəki *Biayneli* "Biay" bəy və ya hökmran, əsilzadə deməkdir və Biay və Bəylər Urartuda hökmran sülalə idi. Sözün sonundakı *li-* urartu, sumer və türk dillərində *li-li-lu* mənsubiyyət şəkilçiləridir və sumer dilindəki *lu* sonluğuna uyğundur. Atura Urartu dilində "dağ" anlamı daşıyır, sumer dilindəki bu söz akkad dili vasitəsilə samilərə də keçmişdir. Oğuznamədə də doğru olaraq Azər adının türkcə yüksək, uca kimi izah olunması, onun dağ anlamındakı Atur-Adar-Adər şəklində dəyişikliyə məruz qalaraq sami dilində *d-z* əvəzlənməsinə uyğun olaraq Azər şəkli aldığını sübut edir. İbrahim peyğəmbərin atası Turahın adı da təhrifə uğrayaraq sami dilində Azər kimi ifadə olunur.

Turanlı peyğəmbərlər tanrı ilə ünsiyyəti və onlara ilahi vəhylər dağların zirvəsində nazil olurdu. İbrahim peyğəmbərə ilahi vəhylər Tura adlı dağda verilirdi, Zərdüşt peyğəmbərə ilahi vəhy Savalan dağında nazil olmuşdur, Xızır peyğəmbər də Savalan dağında qeyb olmuşdur. Atura dağ mənasında qədim türk dilində Art şəklində ifadə olunur.

Fikrimizə görə urartu dilində ifadə şəkli olan Aturabaynan və onun digər ifadə şəkli olan Adurabaynan sözü Azərbaycan adının ilkin variantını təşkil edir. Atura eponim olaraq müxtəlif dil və dialektlərdə Adur-Adar şəklində fonetik dəyişikliyə uğramışdır. Sonrakı dövrlərdə bu ada "baynan və ya bayqan" sözü əlavə olunmaqla Adarbayqan-Adərbayqan və Azərbaycan sözləri yaranmışdır. Bəzi müəlliflərin qeyd etdiyi kimi Adarbayqan adı turan dilləri ilə yaxınlığı olmayan yunan müəllifləri tərəfindən təhrif olunmuş şəkildə Aturpatakan formasında ifadə olunaraq yanlış yozumlara səbəb olmuşdur. Adarbayqan adı sonrakı dövrlərdə ərəb dilinin ifadə qaydalarına uyğun olara *d-z* dəyişikliyi ilə Azarbayqan və Azərbaycan şəklini almışdır. Fikrimizə görə Azərbaycan adının iddia edildiyi kimi As və Aser sözləri ilə də heç bir əlaqəsi yoxdur.

Mixi mətnlərdə Sumerin Mesopotamiyanın şimal-şərqini əhatə edən ərazisi, yəni Azərbaycan Şanqar, şimal-qərb isə Subir adlanırdı. Beləliklə, bu adlar Sumer xalqının Babiləqədərki qədim dönəmdə iki hissəsini təmsil edirdi. (B.Hrozni. 1953, Səh. 39-40)

Zaqros dağlarının Azərbaycanı da əhatə edən quzey və doğu silsiləsi Elam dilində Sunqur adlanırdı və mənası "Kral və ya hökmdar dağları" deməkdi. Sunqur Şanqar eyni adın dəyişik fonetik ifadələridir. (Georg Hüsing. 1908, Səh. 19, 20)

Sumer dövründən etibarən Aratta adlanan Azərbaycan ərazisi hökmdarlara tanrı tərəfindən hakimiyyət kutunun verildiyi və hakimiyyət simvolu olan qızıl taxtın əta olunduğu müqəddəs ərazi kimi tanınmışdır.

Sumer əfsanələrinə görə hökmdarlara hakimiyyət səlahiyyət kutu tanrı tərəfindən göydən göndərilən qızıl taxt vasitəsilə onlar üçün müqəddəs olan Zaqros dağ-

ların arxasında verilirdi. Zaqos dağlarının arxası Azərbaycan ərazilərini təşkil edir. Sumer mifologiyasında hakimiyyət kutu Azərbaycanda yerləşən Aratta dağlarının arxasından əta olunurdu. Sumerlər inanırdılar ki, yeraltı dünyaya giriş Zaqros dağlarından şərqdə günəşin çıxdığı ərazidədir. Onların miflərinə görə yeraltı dünya-Kur tanrıların ziyarət etdikləri və hakimiyyət kutu almaq istədikləri dağ Zaqrosdan şərq tərəfdədir. (Jeremy Black and Anthony Green. 1998, Səh. 114)

Senkovski ərəb müəlliflərinin əsərlərinə əsaslanaraq Alban/Aqvan adının mənasının "Qızıl Taxt" olduğunu yazır. O Kür çayının qədim adının da Qurzan olduğunu və mənasının yenə də "Qızıl taxt" olduğunu qeyd edir. Sekovskinin bu təsbitləri tarixi gerçəkliyi əks etdirir. Yuxarıdakı bölümlərdə qeyd etdiyimiz kimi turanlı öntürklərin dilində çay çox zaman Quzan adlanırdı. Taxt məsələsinə gəldikdə isə sumer və digər turanlı dillərdə müqəddəs qızıl taxt Quzan adlanır. Sözün bu mənası Qızıl taxt haqqındakı əfsanənin kökünün sumerlərə bağlandığının göstərgəsidir. Sumer yaradılış əfsanəsində hakimiyyət tanrı tərəfindən seçilmiş şəxslərə göydən yendirilən qızıl taxt əta olunaraq verilirdi. Hakimiyyət dəyişikliyi zamanı bu taxta növbəti hökmdar sahib olurdu. Hakimiyyət kutu müqəddəs Aratta dağının arxasından əta olunurdu. Yəni hakiyyətin simvolu olan Qızıl Taxt müqəddəs dağda yerləşirdi. Quzan ölkəsi də həmin ərazidə – Azərbaycanda yerləşirdi. Belə olduğu təqdirdə Qızıl taxtın əta olunduğu müqəddəs dağlıq ərazi sumer dilində qızıl taxt anlamında olan Quzan adı ilə eyniyyət təşkil edir.

Alban və Aqvan eyni adın *l-q* əvəzlənməsi ilə yaranan dialekt variantlarıdır. Yüksək dağlıq anlamı daşıyan Aqvan adının digər yazılış şəkli Aquzan formasındadır və anlamı Sumer dilidə "taxt-taxta malik olan, tac-taxtın sahibi, taxtın olduğu yer" kimi izah edilir. (Daniel Patterson, 2018, Səh. 308)

Ərəblər Alban ərazisini bəzən öz dillərində yenə də mənası "Qızıl taxt" olan Sərir adlandırırlar. Sərir sözü "Aquzan" adının sami ərəb dilinə tərcüməsidir.

Rəvayətə görə Pers şahı Bəhram Çubin Albaniyada bir sənətkarın hazırladığı "Qızıl taxtı" ələ keçirmək üçün Albaniyaya hücum etmiş və o taxtı ələ keçirmişdir. (Сенковски, 1859, Səh. 184).

Bir çox müəlliflər onun adını doğru şəkildə Bəhram Çoban kimi ifadə edirlər. Bəhram Çoban mənşə etibarı ilə qədim kas/kuzların Mehran/Mahran boyuna mənsub idi və yəqin ki Qızıl taxt haqqında qədim turanlı əfsanə haqqında bilgiyə malikdi.

Digər bir rəvayətə görə Cəmşid hökmdarlığı Azərbaycanda, yəni Albaniyada qızıl taxtın üzərinə oturaraq əldə etmişdir. Cəmşid yanlışlıqla əfsanəvi İran hökmdarı kimi təqdim olunsa da, o əslində, Ön Asiyanın qədim turanlı xalqlarına kassi-quti və ya elamlılara mənsub olmuş eponimdir.

Herodotun yazdığına görə Deyok midiya tayfalarının toplantı yeri, yəni qurultay yeri olan Ekbatanda tayfalar birliyinin rəisi seçilmişdi. Tayfa birliyi rəislərinin



hökmdarların, xan və xaqanların qurultaylarda, qenqeşlərdə seçilməsi ənənəsi Türk-Monqollar zamanında da davam etmiş, tarixi ənənəyə uyğun olaraq Azərbaycanın Muğan bölgəsi hökmdarların seçildiyi tarixi qurultay yeri olmuşdur. Dyakonov Hanqmatana adını "ham"-birlikdə və "qam"-getmək şəklində izah edir. (Дьяконов, T I, 2012, Səh. 199)

Sumerlərin dilində şərq dağ anlamında *im kur-ra* şəklində ifadə olunurdu. Sumer dilində Aralli və akkad dilində Arallu adı "yeraltı dünya" və ya tanrıların doğulduğu "dünya dağı" anlamındadır. Arallu *t-l* dəyişikliyi ilə Arattu şəkli almışdır. Arattu sumerdə müqəddəs dağlıq ölkə hesab olunurdu. Peyğəmbər İsayiyə görə o şimalda yerləşirdi. Sumer dilində bu dağın adını Ural şəklində müəyyən etmək olar. Sumer dilində *a* və *u* hərfləri bir-birlərini tez-tez əvəz edirlər. Arallu dağları assurlar tərəfindən qızıl mədənlərinə malik dağ kimi təsbit edilmişdir. Eyni şəkildə *Kaphusi* (kaspi və ya kaphus Sumer dilində gümüş deməkdir) dağları adını da Qafqaz adı kimi qəbul edirik. Qızıl Qafqaz dağlarında olduğu kimi Ural dağlarında da var. Yəni sumerlilər şimal dağı deyildikdə qızılla zəngin Qafqaz dağlarını da nəzərdə tuta bilərdilər. (B.Hrozni. 1953, Səh. 55)

Bad-Tibira Sumerin ən mühüm şəhər dövlətlərindən biri, metal emalının və əsas mərkəzi idi. Tibira sumer kökünə bağlı bir eponim təşkil edərək bir çox etnonimlərin, o cümlədən Tibir, iber, ibir, imir adlarının kökü metalla əlaqədar olub Tibira adına bağlıdır.

A.Virth tibirlərin bir qisminin Azərbaycanda məskunlaşdıqlarını və Təbəristan adı kimi Təbriz adının da Tiber/Tibir adı ilə əlaqələndirir. Kiçik Asiyanın dəniz xalqlarından Lukilər, kuyilər, moşlar, xaliblər, Tabal və ya Tibarlar bu ərazidə məlum olan tayfalar Turan dünyasına mənsub idilər. Tibarlar Bibliyada Tubal adlanırlar, Tabriz və Tabaristan adları ehtimal ki, Tibar və ya Tubal adlarından yaranmışdır. Midiyanın və Marqiananın qeyri ari Tapur tayfası Mərkəzi Asiyanın indiki türk xalqlarından olan Tobalarla qohumdurlar. (Wirth A. 1905, Səh. 27)

İran və Güney Azərbaycan ərazisində tibar adı ilə əlaqədar Tebərian, Tebərik, Çeşmətəbər, Tebər, Tebərək, Tebərə, Tebərabad kimi yer adları mövcuddur.

Tapurlar arilərəqədərki bir xalq idi. Aleksandrın səfərlərində onların Semnandan şimalda Elbrus dağları ətrafında yaşadıqlarını göstərilir. Onların digər bir qolları Hirkaniyada yaşayırdılar və özlərini Tabaran adlandırırdılar. Xorasan və ya Tos vilayətinin paytaxtı Tabaran (İndiki Məhşəd) adlanırdı. Strabonun yazdığına görə Tabaranların Atropatenanın şimalında geniş ordası mövcud idi. Markvart da Tapurların, yəni Tibarenlərin mənşə etibarı ilə Midyalılar olduqlarını qeyd edir. (J.Marquart. 1905. Səh. 29)

Məlum olduğu kimi Tibar/Tibir adı sumer emesal dialektlərində "dimir" şəklində də ifadə olunur və metal anlamı daşıyır. Tibir adı türkçə dəmir/timir adı ilə ekvivalen təşkil edir. Sibirin Tobalar və digər xalqları içərisində tibir adlı boylar

mövcuddur. Roberts metalla əlaqədar olan Tibarın sumer dilində həm də güclü demək olduğunu yazır. Tibar dağ adıdır və Diyala yaxınlıqlarında Qazur və ya Qurzan bölgəsində yerləşir. (Roberts J. 1939 )

Samilərin hitit/xett adlandırdıqları Kheta dövləti ilə Azərbaycan arasında geniş əlaqələr mövcud olmuşdur. Azərbaycan ərazisində khetalara aid dəyərli artefaktlar aşkar edilmişdir.

İngilis hititşünası və arxeoloqu Kouli Xettlərin Qafqazdan gələrək Kiçik Asiyada məskən salmaları haqqında fərziyyələrin mövcud olduğunu və Seys, Jensen, Rastovsevin xettlərin Qafqaz mənşəli olduqları faqqındakı fərziyyələrin müəllifləri olduqlarını yazır.

Mitanni dövləti və onun xalqı özlərini adlandırma, dil və din baxımından Kheta/hititlərlə qohum idilər.

Samilər və misirlilər onları "Naharain", yəni su ölkəsi adlandırırdılar, bu ad sonradan Nairi şəklini almışdır. (Eduard Meyer. 1913Səh. 671)

Mixi mətnlərdə Mitanni adı *Maitani* şəklində yazılmışdır və bu türkcə "meydan" sözünün ekvivalentidir. Xettlərə aid ən mühüm artefaq olan və üzərində Boğazköydə aşkar edilən xett emblemlərindəki təsvirlərlə eyniyyət təşkil edən təsvirlər həkk olunmuş bürünc kəmər Rusiyanın cənubunda, yəni Qafqazda aşkar edilmişdir. Qafqazdan gələn xettlər öncə Kiçik Asiyada Boğazköydə məskunlaşmış sonra batıya doğru yayılmışlar. Kouliyə görə Xett sənətinin özünəməxsus üslubu onu özü ilə bərabər gətirən qalib Turan irqinin xarakterindən irəli gəlir. Onlar öz heroqlif yazılarının ilkin formasını da özləri ilə bərabər Qafqazdan gətirmişdilər. Qərbdəki abidələr də onlara məxsusdur. Qafqazda Azərbaycanın Gədəbəy rayonunda 1899-cu ildə üzərində müxtəlif təsvirlər olan Xett hökmdaraına məxsus əsa tapılmışdır. (Cowley A.E. 1929. Səh. 24, 34)

R.Konder həmin gümüş əsanın üzərində "Tarkutimme Sar Mat Erime", yəni "Erime ölkəsinin kralı" sözlərinin yazıldığı və simmetrik şəkildə altı uzun əbalı kahin və əlində nizə tutmuş kral təsvirinin həkk olunduğu və hitit emblemini əks etdirən hökmdar əsası olduğunu yazır. Mətn iki dildə hitit və akkad dilində yazıldığı üçün hitit şifrəsini açmaq mümkün olmuşdur. (Conder R.A. 1898, Səh. 156)

Rus tarixçisi Abraşkin Kheta dövlətininə mənsub tayfaların e.q. V-VI əsrlərdə müxtəlif köçəri tayfaların təzyiqi ilə Kiçik Asiyadakı yurdlarını tərk edərək müxtəlif ərazilərdə, o cümlədən Çinlə sərhəd ərazidə məskunlaşdıqlarını yazır.

Mümkündür ki, kheta tayfalarının bir qolu da Gədəbəy ərazisində məskunlaşaraq öz adlarını bu əraziyə vermişlər.

Gədəbəydəki çoxsaylı arxeoliji abidələr Azərbaycanın qədim Gədəbəy-Xocalı arxeoloji mədəniyyətinə aid olub onun ilk dövrü e.q. XIV-XIII əsrləri əhatə edilir. Gədəbəydə aşkar edilmiş siklopik abidələr menqir, kromlex və dolmenlər burda tarixin ilkin dövrlərindən yaşayış məskənlərinin mövcud olduğunu sübut edir.



Arxitektura tarixçisi və arxeoloq Ferqisson dolmen, menqir, kromlex kimi abidələri yaradıcılarının turanlılar olduğunu sübut etmişdir.

Gədəbəydəki Mahrasa məbədinin adı olduqca maraq doğurur. Marhası e.q. III minillikdə Elamda mövcud olmuş qədim şəhərdir. Marhasi Mesopotamiya ilə Orta Asiya və Qafqazla ticarət əlaqələrində önəmli yer tuturdu və dövrünün yüksək inkişaf etmiş ticarət və siyasi mərkəzlərindən biri və şəhər dövləti idi. Marhasini akkad kralı Naram-suen də işğal etmişdi. Xocalıda assur çarı Adadnirarinin adı yazılmış boyunbağının aşkar edilməsi də Azərbaycan ərazisinin Mesopotamiya ilə sıx bağlara malik olduğunu sübut edir.

Gədəbəydə çoxsaylı qədim qala qalıqları bu gün də mövcuddur. Fikrimizə görə turanlı öntürklərə mənsub Kheta boyu yuxarıda da qeyd edildiyi kimi öz ana yurdları olan Güney Qafqazdakı Azərbaycanı tərk etdikdən yüz illər sonra gəlib yenidən öz doğma yurdlarında məskunlaşmışlar. Alban tarixçisi Muxtar Qoş "Albaniya xronikası" əsərində (1206-cı il) Gədəbəy əyalətinin adını "Getabey" kimi ifadə edib. Sözün ilkin forması Qetabeqü də ola bilər. *Beqü* sözü qədim türk dilində "yüksək, yüksəkdə olan" deməkdir. Bu fakt Gədəbəy adının kökünün Kheta etnoniminin təşkil etdiyini bir daha təsdiq edir. Ehtimal etmək olar ki, "Khetta/Gettabey" sözü sonradan deformasiyaya uğrayaraq Gədəbəyə çevrilib. Kheta/Getta xalqı öz adını qədim Gədəbəy qalasına, Gədəbəy çayına və Gədəbəy elinə vermişdir. Gədəbəydə kheta/subar xalqına bağlı, qədim turanlı öntürk boyu olan Qarqarların adı ilə bağlı bir neçə yaşayış məskəni mövcuddur.

Gədəbəy əhalisinin "ayrım" adı da onların çox qədim tarixə malik olmalarını sübut edir. Ayrım tayfasının kökü Urartu dövrünə gedib çıxır. Urartu dövlətinin əsas etnosundan biri urumlar idi. Urmiyə gölü də öz adını qədim turanlı ön türk etnosu olan Urum tayfasının adından götürmüşdür. Urim, Ura, Urair, Uram, Babil, assur və hitit mətnlərində adları keçən yer və şəhər adları sumerin qədim Ur şəhərinin adı ilə bağlıdır və Ur şəhəri əhalisinin köçərək yerləşdiyi ərazilərə verilən adlardır. (Remzi Kuzuoğlu. 2007. Səh. 169-170)

Oğuz dastanında da Oğuz xaqan Ön Asiyaya səfəri zamanı Urum ölkəsini də fəth etmişdir. Bu hadisə əslində Sakların Urartu dövlətri ilə savaşlarını əks etdirən hadisələrin tarixin gec dövrlərində Oğuz dastanındakı təsviridir.

Z.V.Toqan Urumlara çox zaman Ayrum da deyildiyini yazır. Ayrum/urum adının digər bir ifadə şəkli Eymur şəklindədir. Eymurlar Anadolunun dağlıq ərazilərində, Ayrumlar isə əsas etibarı ilə Güney Azərbaycanın Urmiyə gölü ətrafındakı dağlıq ərazilərdə və Gədəbəy ərazisində məskunlaşmış və bu ərazilər Urum/Ayrum/Eymurların ən qədim dövrlərdən etibarın tarixi məskənləridir. Oğuz qəbiləsi olan Azərbaycandakı Ayrumlar yanlışlıqla bəzən erməni mənşəli kimi qələmə verilir. Eymur və Ayrumlar adətən dağ yamaclarında yaşayırdılar və evlərinin arxası oyulmuş torpağın içirisinə daxil olaraq tikilirdi. Bu formadakı evlərə Eymur və

ya Ayrim evləri deyilirdi. Eymur və ya Ayrım tayfaları bəyləri Oğuz xanlarının dövründə baş vəzir vəzifəsinə təyin olunurdular. (Z.V.Togan. Oğuznamə, 2013, Səh. 99)

Gədəbəy ərazisi tunc və dəmir dövrünə aid çoxlu yaşayış yeri, istehkam-qalalarla, əlvan metallarla, mis, qızıl yataqları ilə zəngindir. Buna görə də Azərbaycan ən qədim dövrlərdən insanların diqqətini özünə cəlb etmişdir. Azərbaycanla Sumer arasında geniş ticarət əlaqələrinin mövcud olduğu və onun ərazisindən çıxarılan metalların Mesopotamiyaya aparıldığı haqqında mixi mətnlərdə bilgilər mövcuddur.

Kiçik Asiyanın güneyində Kheta/Xatti boylarının yaşadıqları ərazidə *Şamhara* adlı Kassi tayfası da məskunlaşmışdı. (Марина Редина-Томас, 2018, Səh. 31)

Şamhara etnonimi Azərbaycanın Şamxor adına uyğundur ancaq nədənsə xalq tərəfindən öz ilkin gerçək adına uyğun şəkildə qədim zamanlardan etibarən Şamxor adlandırılan bu qədim yaşayış yeri sonradan təhrifə məruz qalaraq Şəmkir adlandırılmışdır. Bir çox tarixçilərin qədim mətnlərə əsasən yazdıqları kimi Assuriyanın şimaldakı və şərqdəki ölkələri tabe etmək üçün uzun illər ərzində apardıqları dağıdıcı müharibələr xalqların böyük yerdəyişmələrinə səbəb olmuş və digər etnoslar kimi Şamhara/Şamxor və Kheta qohum turanlı öntürk boylarının öz yerlərini tərk edib Azərbaycanda yerləşmələrinə səbəb olmuşdur. Şamxor boyu yerləşdiyi ərazidə Şamxor çayı, Şamxor sıra dağ silsiləsi, qədim Şamxor qalası və Şamxor elinə öz adını vermişdir.

Azərbaycanın Ön Asiya qədim boyları ilə əlaqədar digər bir yer adı da Şamaxı şəhərinin adıdır. Kiçik Asiyanın güneyində kheta/xattilərin Şamaha boyu adını daşıyan Şamaha/Şamuha ticarət kaloniyası, yaşayış yeri adı assur və hitit mətnlərində əks olunmuşdur. (Remzi Kusuoğlu. 2007, Səh. 135)

Fikrimizə görə Şamaha bu adı daşıyan kheta/xatti boyunun yaşayış məskəni olmuşdur. Digər boylar kimi öz yurdlarını tərk edən Şamaha boyu Azərbaycanın məskunlaşmış və öz adını qədim Şamaxı şəhərinə vermişdir. Şamaxı şəhəri ən qədim zamanlardan Azərbaycanın ən önəmli ticarət mərkəzi olmuş və onun sakinləri xalqın tacir zümrəsinin mühüm təbəqəsini təşkil etmişdir.

Samux qədim yer adının da turanlı xatti, kheta etnosuna mənsub Samuha etnonimi ilə əlaqədar olması mümkündür.

Azərbaycanda Kassi dili əsasında izah ediləcək geniş yayılmış toponimlərdən biri də Kosalı yer adlarıdır. Kassilərdə və hurrilərdə *Kaşali* boyu mövcud olmuşdur və Azərbaycanda geniş ərazilərdə məskunlaşmış Kosalı boyu öz kökü etibarı ilə bu kassi boyu ilə əlaqədar ola bilər.

Azərbaycan türkcəsində *Qada-Qadam* sözü mövcuddur. Qada sözü kassi və hurrilərdə Qadaşman və Qandaş hakimiyyət titullarının kökünü təşkil edir. Fournet bu titulların kökündəki *qadi/qada* sözünün durduğunu və anlamının "kral



hökmdar, hökm edən" kimi izah edir. (Arnaud Fournet. 2011, Səh. 11)

Keçmiş əsrlərin bir çox assuroloqları kimi müasir dövrün görkəmli amerikalı assuroloqu və linqvisti Billerbek qədimlərdən etibarən Azərbaycan və Ardilanda kassilərin məkunlaşdıqlarını yazır. (Billerbek A. 1893, Səh. 50)

Müasir dövrün görkəmli assuroloqu Arnoud Fournet subar, kassi, hurri, khatti və urartuluların vahid etnik mənşəyə malik olduqlarını və onların dillərini də qarşılıqlı müqayisəli şəkildə araşdıraraq eyni kökə malik olduğunu sübut edir. O Anadolunun qədim tarixində önəmli rol oynamış və tarixi ədəbiyyatda Nazi adlandırılan, lakin adlarının mixi mətnlərdə Nuzahe şəklində yazılan xalqın adının çox zaman müxtəlif dialektlərdə Naqi və Nahi şəklində də ifadə olunduğunu yazır. Nuzi/Nuzahelər ümumi Hurri, Xett və Urartu mənşəyinə malik idilər. (Arnaud Fournet. 2011, Səh. 13)

Mixi mətnlərin diqqətlə araşdırılması göstərir ki, Nazi və ya Nahilər əsilzadə sülalə boyu kimi Hurri, Xatti və Urartu dövründə də öz hökmran rollarını qoruyub saxlamışdılar. Bu əzəmətli boyun məskunlaşdığı ərazilər Nahiyə adlanırdı. Fournet Kassi dilində *Nahuia* sözünün mənasını idarə edənin, hakimin, idarəçinin oturduğu yer və ya müdafiə yeri, istehkam, inzibati mərkəz anlamları daşıdığını yazır. Fikrimizə görə dilimizdə inzibati ərazi, mahal mərkəzi anlamı daşıyan Nahiyə termininin kökü kassilərin Nahuiya termini ilə əlaqədardır.

İndiyə kimi Naxçıvan adının etimologiyasının bir neçə uğursuz izahı verilmişdir. Bir çox rus və erməni müəllifi Naxçıvan adının etimalogiyasını erməni dilində uğursuz izahına cəhd edirlər.

Fikrimizə görə Naxçıvan da kassi və onlardan sonra da urartu dövründə Nazi və ya Nahi/Naqi boyunun məskunlaşdığı bölgənin inzibati mərkəzi olmuş və buna uyğun olaraq da *Nahiaban*i olaraq adlandırılmışdır. Ərəb müəllifləri də çox zaman Naxçıvanı Naşaba adlandırmışlar və bu ad sonradan fonetik dəyişikliyə uğrayaraq Nahiçıban-Naxçıvan şəklini almışdır. Çeçen tədqiqatçılar Naxçıvan adını çeçenlərin "naxçı" boyu ilə əlaqələndirməyə cəhd göstərmişlər.

Meşşaninov urartu dilində Ebanien sözünün ölkə demək olduğunu və sözün kökünün "ban və ya van" kəlməsinin təşkil etdiyini və mənasının "qurmaq, məskən salmaq, məskən" demək olduğunu yazır. Sondaki "ien" sonluğu isə Meşşaninova görə ümumi yafetik şəkilçi, yəni turan dillərinə xas hallanma şəkilçisidir. (Мещанинов И. И. 1927, Səh. 235)

Eramızın I-II əsrlərində yaşamış İskenderiyyeli yunan coğrafiyaçısı Klavdi Ptolomey Naxçıvan adının əslinin *Naxouana* olduğunu yazır ki, bu da şəhərin Nahibani/Nahivana şəklindəki qədim variantına uyğundur. (Птолемей Клавдий. Вестник древней истории. 1948, V)

Azərbaycanda Urartu ilə əlaqədar digər bir yer adı Şərur bölgəsi ilə əlaqədardır. Şərur adını yerli xalq hər zaman doğru şəkildə Şəril formasında ifadə etmiş-

dir. Şurele Urartuda əhalinin tam hüquqlu azad insan təbəqəsinə deyilirdi. Şureli şəhər-qala qarnizonları və ətrafında yaşayan konkret tayfa və ya icmaya mənsub azad, savaş zamanı hərbi mükəlləfiyət daşıyan silahlı insanlar idi. Azad insanların məskunlaşdığı belə bir inzibati qala mərkəzi Şərur bölgəsində mövcud olmuşdur. Şərur və ya Şəril Urartunun yüksək dağlıq ərazilərdə, Dərələyəzdə və Göyçə gölü ətrafı ərazilərdə mövcud olan qala və yaşayış məskənlərinə gedən yolun üzərində yerləşən strateji əhəmiyyətə malik bir ərazisi idi.

"Qiş şurele" silahlı azad insanlar demək idi. II Sardur savaş zamanı silahlı qoşunu təşkil edən və əsgəri mükəlləfiyət daşıyan şureli azad insanların iqtisadi vəziyyətlərini yaxşılaşdırmaq üçün onlardan alınan vergiləri azaltmışdı. (Дьяконов И.М. 1963. Səh. 82-83)

Urartuşünas Zimanskinin yazdığına görə Urartulular özlərini çox zaman Şuri və Şurel-ini, yəni Şuri ölkəsi adlandırmışlar. Bu ad urartu krallarının titullarında "Şuri ölkəsinin kralı" kimi öz əksini tapmışdır. (P.Zimansky, 1985, Səh. 51)

Azərbaycan, Türkiyə və indi Ermənistan adlanan ərazidə qədim dövrlərdən Noraşen/Nurşen adlı çoxsaylı toponimlər mövcuddur. Toponimin əslini subar-urartu dilində Navarşen adı təşkil edir. Türkiyədə Nurşen adlı qədim yaşayış yeri mövcuddur. Şərur/Şəril bölgəsində və Azərbaycanın digər ərazilərindəki Noraşen/Nurşen adı ilə çoxsaylı toponimlər mövcuddur və onların kökü də bu qədim Navarşen adına bağlıdır. Qutilərin ölkəsində yerləşən bölgə kiçik ölkə olmuşdur. Şen-subar dilində qardaş deməkdir. (Ungnad A. Subartu. 1936, Səh. 143)

Qərbin ensiklopedik ədəbiyyatında Naxçıvanın Neolit dövrünün e.q. 6000-4000-ci illərindən etibarən mövcud olan qədim yaşayış yeri kimi qeyd edirlər, yəni Naxçıvan rəsmi olaraq dünyanın ən qədim yaşayış məskənlərindən biri kimi qəbul edilir. Bir sıra xarici ensiklopediyalar qədim mənbələrdə Naxçıvanın artıq e.q. 1500-ci ilin əvvəlindən şəhər kimi mövcudluğunun təsbit olunduğunu qeyd edirlər. Erməni və rus müəllifləri Naxçıvan adını Nuh peyğəmbərin adı ilə əlaqələndirib onu Nuhun şəhəri kimi təqdim edirlər. Erməni, xristian və yəhudi müəllifləri Nuhu tufan əfsanəsi ilə əlaqədar ilk insan nəslinin atası kimi təqdim edir və onun kökünü sami Babillərin tufan haqqındakı əfsanəsində Nuhun prototipi olan Utnapiştimə bağlayırlar və samilərin tufan haqqındakı əfsanəsinin turanlı sumerlərin tufan haqqındakı əfsanəsinin sami dilinə tərcümə variantı olduğu haqqında susmağa üstünlük verirlər. Nuh tufanı və tufan haqqındakı əfsanənin kökünü Sumerin tanrısal kral Ziusudranın Böyük tufandan öncə tanrı Enkinin göstərişi ilə böyük gəmi hazırlayıb insanları tufandan xilas etməsi haqqındakı əfsanə təşkil edir. Yəni tufan əfsanəsinin kökü samilərə deyil, turanlılara bağlıdır.

Bir çox müəlliflər kimi Alman filosofu və tarixçisi Şpenqler Babilin Samiram dastanı, Abramın (İbrahim peyğəmbər) və Nuhun Turanlı mənşəyə malik olduqlarını yazır. (Oswald Spengler. 1966. Səh. 203)



Şpenqlerdən bu sitatı gətirməyimizdə məqsəd Naxçıvan adının Nuhçıxan şəklində Nuh peyğəmbərə bağlanmasına aydınlıq gətirmək, Nuh və onun tufanının da əslində turanlı mənşəyə malik olduğunu göstərməkdir.

Ermənilərin və digər xristian müəlliflərinin Nuhun gəmisinin yan aldığı Ararat dağı məsələsini çox şişirtdiklərini və əslində bu dağın adının uydurma və Urartu adının təhrif olunmuş şəkli olduğunu qeyd etməyi lazım görürük. Ararat dağı adı uydurma bir addır və tarixi əsası yoxdur. Filip Smit tarixi mənbələrə əsasən bu dağın əsl qədim adının Ararat deyil, "Argeus və ya "Argiş dağ" olduğunu və "ağ dağ" anlamı daşıdığını yazır. (Smith P. 1888, Səh. 417)

Lakin qədim türk dilində *Ağrı* sözü "ikiyə bölünmüş, haça" deməkdir. Bu söz iki sissədən ibarət Ağrı dağın adına tamamilə uyğundur. (ДТС, 1969, Səh. 15)

E.q. I əsrdə yaşamış tarixçi Dəməşqli Nikolay Nuhun gəmisinin dayandığı dağı Bars dağı adlandırır və Mannadan yuxarıda yerləşdiyini yazır. Ümumiyyətlə, türklərə məxsus dağ adı olan Bars adı geniş yayılmışdır. Elburs adlanan Daməvənd dağ silsiləsinin də əsl adı Əl-Barsdır, bu dağın qərb hissəsi bu gün Quru Bars adlanır. Qafqaz dağlarındakı Elburs – El Bars dağının adı da eyni kökə bağlıdır.

Türk ellərində geniş yayılmış El-Burs dağ adı ən maraq doğuran qədim toponimlərdən biridir. Xakasiyada Sayan dağlarında Barıs dağ silsiləsi, Böyük Barıs və Kiçik Barıs mövcuddur. Xakas əfsanəsinə görə böyük tufan zamanı hər yeri su basmış və Barıs adında bir şəxs qayıqda dağın başında xilas olmuşdur və həmin dağ o şəxsin şərəfinə Barıs adlanmışdır. Onun xilas olduğu sal əfsanəyə görə həmin dağın başında daşa dönmüşdür və İmay-tas adlanan Humay məbədinin yaxınlığında yerləşir. Əfsanəyə görə Sayan-Altay türkləri uşaqlarının ruhları Barıs dağında yerləşir. (Бутанаев В. 1995. Səh. 9)

Fikrimizə görə Alp dağ adı bütövlükdə əsas məskənləri dağ yamaclarında olan vəhşi öküz bizon və yakın sumer-akkad dilindəki Alup adı ilə əlaqədar olduğu kimi, türklərdə dağ adının digər bir variantını təşkil edən El-Bars adı da cəsur və atılqan heyvan olan Bars adı ilə əlaqədardır. Əsas məskənləri dağ yamaclarında olan Bars türklərin ən önəmli totem əcdadlarından olmuşdur.

Əgər biz Bibliyadakı Nuhun tufanının əslində Sumer dövründə baş verdiyini və tufan haqqındakı əfsanənin samilərə və Bibliyaya Sumerlərdən keçdiyini (əslində elə gerçəklikdə də belədir) nəzərə alsaq, deməli, Ağrı dağına yan alaraq bəşəriyyəti tufandan xilas edən və elmdə turanlı öntürklər kimi qəbul edilən Sumerli kral Ziusudra və sumerlər olmuşlar.

Qədimlərdən etibarən tarixi Azərbaycan ərazisi hesab olunan Luristanda e.q. II minillikdə yaşayan kassilərə məxsus bürüncdən hazırlanmış əşyalar və qabartmalı silindrik qədəhlər bura Azərbaycandan və Mannadan gətirilmişdir. Luristanda aşkar edilmiş e.q. II minilliyə aid heyvan stilindəki bürünc əşyalar Ordos mənşəlidir. Ordos bürüncü daxili Monqolustana xas heyvan stilli özəl bürünc əş-

yalar qrupudur. Ordos heyvan stilinə xas içi boş olaraq bürüncdən tökülmüş və üzərində Adad Nirari yazılmış boyunbağı ilə birlikdə quş fiquru Azərbaycanın Qarabağ bölgəsində Xocalı qəsəbəsində aşkar edilmişdir. Adad-nirari I (e.q. 1307-1275) Assuriyanın əzəmətli krallarından olmuşdur. (E.Herzfeld. 1941Səh. 166, 170)

Bütün bu tarixi dəlillər Azərbaycanın ilkin tarixi dövrlərdən etibarən Mesopotamiyanın və Bütövlükdə Ön Asiyanın ən qədim mədəniyyətlətləri ilə sıx əlaqədə olduğunu və həmin ərazilərin turanlı etnosu ilə vahid etnik kökə bağlı olduğunu sübut edir.

Turanlı öntürklərin ən qədim boy birliklərindən olan Sak boyunun Ön Asiyada məskunlaşmalarının tarixi müxtəlif şəkildə yozulur. Onların Ön Asiyaya yürüşlərini e.q. VII əsrə aid edir və burda 28 il hökmran olduqlarını yazırlar. Yunan tarixçisi Justin İskit/sakların Ön Asiyada güman edildiyindən daha qədim dövrdən mövcud olduqlarının və 1500 il hökm sürdüklərini yazır. Sak boyları Azərbaycan ərazisində ən qədim zamanlardan məskunlaşmışdılar. Azərbaycanın Həsənli ərazisində aşkar edilən arxeoloji dəlillər sakların bölgədə güman edildiyindən daha qədim zamanlarda yerləşmiş olduqlarını sübut edir.

İskit/Sak boylarının Assur salnamələrində ifadə şəkli olan Aşquz və ya İşquz etnoniminin izahı müxtəlif formada şərh olunur. Tarix elmində onun ilk gerçək izahı XIX əsrin axırlarında A.Virth tərəfindən verilmişdir. Onun yazdığına görə Aşquza adındakı As tərkibi türklərin köçəri tayfasının adıdır, Quz isə yenə də türk tayfasının adından ibarətdir. Aşkuza adı yunan dilində təhrifə uğrayaraq Skythen şəklini almışdır. (Wirth A. 1905, Səh. 52)

Fransız assuroloqu Lenorman iskit/sak məsələsinə mixi yazı mətnlərinə əsasən aydınlıq gətirərək yazır ki, "Aşşurbanipalın assur mətnlərində Bibliyadakı Qoq-Maqoqdan daha qədimlərdə Araratdan şimalda yerləşən Sakların Sakasen adlı ölkəsinin Qoq adlı hökmdarından bəhs edilir, o Yezekil Peyğəmbərin dövründə yaşamışdır. Maqoq Qafqaz dağlarını aşıb gələn Qara dənizin şimalındakı iskitlər idilər, onlar gəlmədən daha qədim zamanlardan saklar Azərbaycan ərazisində artıq məskunlaşmışdılr. İskitlər Kiyaksara məğlub olub öz yurdlarına geri döndülər. lakin sakların Azərbaycandakı dövləti Sakasenin döyüşçüləri Makedoniyalı isgəndərin İranla müharibəsi zamanı Daranın qoşunu tərkibində ayrıca dəstə kimi döyüşürdülər. (Lenotmant F, 1895, Səh. 309)

Lenorman iskitlər haqqında yazırdı ki, iskitlərin ən mühüm tayfalarından olan və mənası müdrük-ağıllı demək olan saklar Kür çayının yuxarı vadilərində Qafqazın cənubunda məskunlaşmışdılar. Aşşurbanipal Qafqaza yürüşü zamanı Sakların ölkəsinə çataraq onlara zərbə yendirdi. Aşşurbanipal bu hərbi səfər ilə əlaqədar tərtib etdirdiyi kitabədə yazir ki "Mənim hakimiyyətimi qəbul etməyən Sak kökmdarı Qoqun oğlu Sarati və Parithanı məğlub etdim. Mən onların yetmiş beş güclü şəhərini tutdum və qalalarını dağıtdım, çoxlu qənimət ələ keçirdim. Mən



onları diri tutdum və hakimiyyətimin paytaxtı Nineviyaya gətirdim". (Lenormant F. 1887, Səh. 431)

Aşşurbanipalın Sakasenə hərbi yürüşü e.q. 660-cı ildə baş vermişdir. Assurların saklara qarşı bu yürüşü bir müddət şimal tərəfdən sakların dağıdıcı hücumların qarşısını aldı. Lakin Böyük İskit dövləti sakların timsalında cənubdan onlara qarşı hücumlardan qoruyan bəndin yarıldığını gördükdə Atlarına minib Midiyaya doğru hərəkət etdilər. Assuriyanın vassallığı altında olan Kiyaksar onların qarşısını almaqda aciz idi və ilk döyüşdə məğlub oldu və Asiyanı böyük hissəsini uzun illər ərzində öz hakimiyyətlərinə tabe edən skiflərə hər il xərac ödəməyi qəbul etdi. (Lenormant F. 1887, Səh. 431)

Lenormana görə Madinin üzərində qələbə çaldığı kimmerlər Avropa iskitləri idilər, onları özlərinə tabe edən Asiya iskitlri kimmer adlanan həmin iskitləri də özləri ilə bərabər hərbi yürüşlərə cəlb etmişdilər. Attila da özünə tabe etdiyi digər köçəri tayfaları özü ilə bərabər yürüşlərə qatılmağa sövq eləmişdi.

Beləliklə, Qafqazın cənubunda Azərbaycanda Kürün yuxarı vadilərində yerləşmiş iskitlərə bağlı olan kimmerlər onlarla qaynayıb qarışmışdılar. Kür çayı boyunca Azərbaycanda yerləşən bu saklar erkən dövrlərdən etibarən Asiyada sami əhali qruplarına qarşı kimmerlərlə birlikdə əsdirdikləri terrorlardan yaxşı məlumdur. (Lenormant F. 1887, Səh. 470)

İ.M.Dyakonov sakların dövləti Sakasenin yerləşdiyi ərazini belə müəyyən edir: "Sakasen keçmiş Skif çarlığının nüvəsini təşkil edən ərazinin Midiyalılara görə rəsmi adıdır. Beləliklə, biz bu ərazini Gəncədən şimalda Kür çayından başlayaraq Arazdan cənubda Urmiyə gölü ətrafında yerləşmiş Manna əraziləri arasında axtarmalıyıq. (И.М.Дьяконов, 2012)

Göründüyü kimi sakların yerləşdiyi ərazi Urmiyyə gölü ətrafından başlayaraq Qafqaz dağlarının ətəklərinə qədər Azərbaycanın böyük bir ərazisini əhatə edirdi.

Sak/kimmerlərin Azərbaycanın indi Ermənistan adlanan Qimri şəhəri və ətrafını əhatə edən ərazisində İşqi-uquli adlı ölkəsi və dövləti mövcud olub Urartuya daxil idi. (Дьяконов И. 1988, Səh. 95)

Kimmer-sak dövləti olan və Urartu dövlətinin tərkibində konfederasiya təşkil edən İşqiqulu bəylik dövləti Urartu ilə birlikdə Assuriyaya qarşı hərbi yürüşlərdə iştirak edirdi. Türkiyənin Topraqqala ərazisində aşkar edilən bir mixi yazılı bəlgədə İşqiqulu kralının oğlu Saqa-Dumu-Tar Urartu kralı Arqiştinin oğlu Rusa ilə birlikdə Mana ölkəsinə gedərək Assuriyaya qarşı hərbi yürüşə qatıldıqları bildirilməkdədir. (Suzan A. Mutlu. 2017, Səh. 232)

Qimri şəhəri və vilayəti də öz adını bu sak/kimmerlərdən və ya gerçək adları ilə Qimir türklərindən almışdır.

Rus tarixçisi M.İ.Artomonov atlı köçəri boy birliyi olan turanlıların skif, sak, iskit kimi müxtəlif adlarla adlanmalarına münasibət bildirərək yazır ki, skiflər tə-

rəfindən işğal olunan ərazinin sak ölkəsi adlandırılması, orda skiflərinmi və ya saklarınmı yerləşmiş olduqlarını aydınlaşdırmağa heç bir ehtiyac yoxdur, çünki onlar bir birlərinə o qədər yaxındırlar ki, onlardan birinin adı çox asanlıqla digərinə keçə bilir. ((M. И. Артомонов, 1974)

Lenorman şərqin ucqar məntəqəsindən başlayıb Azərbaycanı və Anadolunu da əhatə edən böyük ərazidə məskunlaşmış əhalinin turanlılardan ibarət olduğunu vurğulayaraq yazır ki, "Tədqiq etdiyimiz Assur yazılarında böyük sayda qeyd olunan coğrafi adlar və şəxs adlarının mənşəyi bizə bölgənin şərqdəki sonuncu ölkəsindən başlayaraq Kiçik Asiyanın qəlbinə qədər uzanan ərazidə məskunlaşmış əhalinin zəncirvarı şəkildə bir-birinə bağlı olduğunu və onların Midiyanın ilkin sakinləri kimi eyni irqə mənsub olduqlarını görməyə imkan verir. Klassik dövrdə "anarian", yəni "ari olmayanlar" adlandırılan Atropatenanın qədim Turanlı tayfaları sonradan Midiyanı zəbt etmiş iranlılar tərəfindən Xəzər dənizinin sərhədlərində yerləşən dağlara (Qafqaz dağları) tərəf sıxışdırılmışlar". (Lenormant F. 1895, Səh. 309)

H.Roulinson Bisütun mətnlərində "Ar" sözünün dağ anlamı daşıdığını yazır və bu sözlə başlayan yer adlarını dağla əlaqədar olduğunu qeyd edir. Raulinson Arminiya adının da bu anlamda dağlı ölkə demək olduğunu qeyd edir. Raulson İrandakı Arburz dağ adının da bu sözlə əlaqədar olduğunu yazır. (Rawlinson H. C. 1849, Səh. 33).

Bu söz qədim türk dilində dağ və dağ beli demək olan "Art" sözü ilə eyniyyət təşkil edir. Halbuki bu ad türkcə Ariq, Arqu, Arqa sözlərinə uyğundur və təmiz, arxa, dağlar arasındakı vadi kimi mənalar daşıyır. Arqu adlı türk boyu movcud olmaqla bərabər qədimdə Talasla Balasaqun arasındakı ərazi Arqu adlanırdı. (ДТС, 1969, Səh, 51, 53)

Yunanlıların Artakserks adlandırdıqları Əhəməni şahının Bisütun kitabəsində əsl adı Artakşatradır.

Raulinson bu adı ari və sanskrit dilində izah etməyə çalışır. Daranın generallarından birinin adı da Artabardır. Daranın Suzdakı sarayı "Ardastana" adlanır və təpənin üzərində yerləşən bu sözün də mənası Art üstü, yəni Dağın üstündə yerləşən deməkdir. (Rawilson H. 1849, Səh. 35, 36)

Burdakı "astana" sözünün mənası yastı, düzənlik və ya terras anlamındadır. Evin giriş hissəsindəki yastı, düz meydança da astana və ya digər bir ifadə ilə "kandar", yəni evin kənarı adlanır. Bu söz fars dilinə evə, əsas yaşayış məskəninə yurda aid olmayan, mərkəzdən kənar mənasında "ostan" şəklində keçmişdir.

Ardabil, yəni Ərdəbil sözünün əvvəlindəki Ard sözü dağ mənasındadır və bütövlükdə Ardabil sözü "Dağ beli-Ard beli" deməkdir. Raulinson da Ardabil adını "Çoban təpəsi" kimi izah edir. Raulson Bisütun kitabəsində dəfələrlə Armin-a Armin-am, Armin-via adlarında sözün kökünün Armin olduğunu və bunun bir etnik titul olduğunu yazır. (Rawlinson H. C. 1849Səh. 41)



Norris Armeniya coğrafi məfhumunu şərti ad kimi qeyd edir, belə ki, Avropa tarixçiləri çox zaman Armeniya adlanan coğrafi əraziyə bütövlükdə Anadolunun şərqini, indiki Ermənisatanı və Azərbaycanın Kür çayından cənubdakı ərazisini də şamil edirdilər. XIX əsr Avropa tarixçiləri çox zaman Azərbaycan ərazisində mövcud olan Sakaşen dövlətinin də coğrafi baxımdan Armeniyada yerləşən bir ərazi kimi qeyd edirdilər. Ümumiyyətlə, Aturiya ölkəsi Əhəməni şahlarına aid mixi yazı mətnlərində dəfələrlə əks olunmuşdur. Sak dilindəki mətndə Armeniya adı ona görə verilməmişdir ki, yəqin Aturiya sakların öz ölkəsi olub Sakaşeni öz dillərində Aturiya adlandırırdılar və mənası turların ölkəsi deməkdir. Parslar isə bu ölkəni Sakaşen adlandırırdılar. (Norris E. 1852, Səh. 164)

Amerikalı sosyal antropoloq M.Çzapliçka etnoloji baxımdan yanaşılsa İran türklərinin əsl Turanlılar olduğunu yazmışdır. (Czaplicka M. 1982, Səh. 23)

Avropa müəllifləri Azərbaycan və qonşu ərazilərdə qədim dövrdən etibarən məskunlaşaraq Azərbaycan türklərinin etnogenezində önəmli rol oynanış alban/aqvan, padar, qarqar, quzan, subir və digər xalq və tayfalar haqqında dəyərli məlumatlar verirlər.

Mixi yazı mətnlərində Azərbaycanın güneyində Urmiyyə gölü ətrafı və Zaqros dağları yaylalarında turanlı öntürk mənşəyə malik bir çox bəylik dövlətlərinin adları çəkilir.

## Alban/Aqvan/Alpan və Qarqar

Aşşurbanipalın mixi yazılı lövhələr kitabxanasında Kassilərin hökmdarlarına aid lövhələr də mövcuddur. Kassi hökmdarlarından Aqum-rim özündən əvvəlki hökmdar olan atası Aqum-rabinin adını çəkir. O özünü "Kaşşu və Akkadın, Babili, Uliaşın, Padan və Albanın, Qutinin kralı" adlandırır. (H.Winckler. 1892, Səh. 80)

F.Hommel, B.Landsberqer, A.Unqnad və İ.Qelb kimi görkəmli assuroloqlar Mari mixi mətnlərində Zaqros dağı yayalalarında mövcud olan subirlərə məxsus bu Aqvan/Alban, Padan və Qarqar adlı ölkələrdən bəhs edir və o ölkələrdəki xalqların özlərinə məxsus dövlətləri olduğunu və assurların və sonra bura gəlib yerləşən arilərin təzyiqi ilə öz yerlərini tərk edərək şimala, yəni indiki Arazdan yuxarıdakı Azərbaycana köçdüklərini yazırlar. (Landsberger B. 1924, Səh. 233)

Görünür Hüzinqin də təsbit etdiyi kimi iranlı arilərin bölgədə başlatdıqları istila fəaliyyətləri bir çox turanlı boylarının o cümlədən Aqbanların, subirlərin və digər tayfaların öz yerlərini tərk edərək Qafqaz istiqamətində quzeyə köç etmələrinə səbəb olmuşdur. Bir çox müəlliflərin də qeyd etdikləri kimi Aqban və Alpan adları *q-l* əvəzlənməsi nəticəsində yaranan eyni adın fonetik formalarıdır və hər

ikisi də yüksəkliyi, ucalığı, dağ yayalasını bildirir.

Frits Hommelin yazdığına görə Qədim Babilin şəhər adları siyahısında Karkara adlı şəhərin adı çəkilir. Bu ad Sumer dilində Qu-barra adının dəyişik fonetik formasıdır və mənası səhra ölkəsi və ya səhra tərəfi deməkdir. Ərəb coğrafiyaçılarının yazdığına görə İraqın Kufa və Bəsrə arasındakı ərazisi qədimlərdə Kaşqar adlanırmış. Bu ərazidə araşdırma aparan Raulinson da ərəb əsərlərində Kaskar adlı belə bir yerin mövcudluğunu təsdiq edir. Parisdə saxlanan bir Babil silindirində Karkar ölkəsinin kralı "Adda-ki-qi aria" haqqında bəhs olunur. Yüksək Ehtimala görə Karkar Ur şəhəri və onun ətraf ərazisini əhatə edirdi. Uru adı sumer dilində Uru-umma adının qısaldılmış şəklidir. (Hommel F. 1885, Səh. 217)

Hommelin yazdığından da məlum olur ki, Qarqarların ilkin vətəni Subir ölkəsində Bəsrə və Kufə arasında yerləşmişdir. Qarqarlar Subirlərin Aqvan və ya Alban tayfa birliyinə daxil idilər.

Aqvan tayfalarından olan qarqarlar bu dövlətin ən önəmli etnik ünsüründən birini təşkil etmişlər. Hommelin də yazdığına görə Karqar adı sami dilindəki yazılı mətnlərdə *r-ş* hərf dəyişikliyi ilə Kaşqar şəklində də ifadə olunur. Qarqarın Kaşqar adı ilə ekvivalent təşkil etməsi Qarqarları erməni mənşəli tayfa kimi təqdim etmə cəhdlərini heçə yendirir.

Sumer mətnlərində Zaqros dağı yaylasında Kirmanşahda yerləşən Karaxar Assur mətnlərində Qarqar şəklində yazılır. Assur kralı Salmanasarın mətnlərində Qarqar Midiya, Meşu və Araziasla yanaşı göstərilir. Sarqonun annallarında da, Qarqar və ya Xarxar Elamın şimalında, Midiyada, Ellipi krallığının qonşuluğunda Zaqros dağlarının mərkəzində göstərilir. Karaxar Simmurumun yaxınlığında yerləşirdi. (Daniel Patterson, 2018. Səh. 112)

İşkur Sumer hava tanrısıdır, Anın oğlu və Enkinin ekizidir. Samilər onu Adad adlandırırlar. Onun kult-etiqad mərkəzi Karkarda idi. O tufan yaradır, onu "əzəmətli-böyük öküz" adlandırırlar. (Gwendolzn Leick. 2003, Səh. 96)

Mixi mətnlərində Qarqar adının Xarxar şəklində də yazılması bu etnonimin Azərbaycanda çox yayqın olan Xalxal adı ilə də eyniyyət təşkil etdiyini və adın yazılışındakı fərqliliyin *r-l* əvəzlənməsi ilə baş verdiyi yəqindir.

İ.Meşşaninov Urartu kralı II Sardurun (m.ö. 764-735) Azərbaycan ərazisinə Kür-Araz çayları arasına yürüşü zamanı bu ərazinin Kuxa-Albani adlandığını yazır, onun fikrinə görə Sardurun kitabəsində qeyd olunan bu ad Albaniya adının əks olunduğu ən qədim abidədir. (Мещанинов. И.И. 1927, Səh. 33)

Assurbanipalın doğu ölkələrinə hərbi səfərindən bəhs edən Alman assuroloqu E.Şrader yazır ki, Barsuadan doğuda Arazias yerləşirdi. Araziasdan doğuya İllipin yanında Qarqar adlı şəhər və ölkəsi yerləşirdi. Quzeydə isə Ardiya yerləşirdi. Sarqon 28 Midiya tayfasının başçısını İllipdə qəbul etmişdi. (Schrader E. 1878, Səh. 174)



Arazias Barsuadan doğuda Azərbaycan ərazisində yerləşən bəylik dövləti idi. O çay adı daşımaqla bərabər həm də ölkə adı idi. Arazias adı Ara-uz sözünün fonetik şəklidir, sumer dilində mənası "Aradakı su və ya çay" deməkdir. "Uz" sözü sumer dilində çay və axın anlamı daşıyır və "ukuz" sözünün tərkib hissəsini təşkil edir. Yunanlar Araz adını Arakis/Arakses şəklində ifadə edirlər ki, bu sumercə "Ara-uquz" adının yunan dilinə uyğun ifadəsidir. Türkistandakı Aral dənizi və qərbdəki Aralıq dənizinin adı da sumerin Arali adına bağlıdır. Türk dillərində dağların əhatə etdiyi düzənlik ərazi, Kür və Araz çayları arasındakı ərazi Aran, yəni ortada, arada olan mənasındadır. Aran sözü sumer dilində Aral sözünün *l-n* əvəzlənməsi ilə yaranmışdır.

A.Unqnad və F.Hommel sumer dilində Aralli adını "arada olan, orta, aralıq" anlamı daşıdığını və türk dilində "Aral, ara" sözü ilə eyni mənaya malik olduğunu yazırlar. Aralu sumer dilində arada olan düzənlik deməkdir. Bad-Tibira və Uruk arasındakı düzənlik belə adlanırdı. (Gwendolzn Leick A. 1991, Səh. 13)

Çay adının sumer və ona qohum dillərdə digər ifadə şəkli "Quzan" şəklindədir bu hidronim sumer dilində "Uquzan" sözünün qısaldılmış formasıdır. Ön Asiyada bir neçə çay Quzan adlanır, bu çayların sahilində yerləşən ölkələr isə Bit-Quzan adlanırlar.

Ön Asiyada ən qədim zamanlardan məskunlaşmış bir çox boy və xalqlar yüz illər sonra daşıdıqları eyni etnonimlərlə Qafqazda, Sibirdə və Mərkəzi Asiyada türk etnosunu təşkil edən boylar şəklində tarix səhnəsinə qədəm qoymuşlar.

## Qafqaz Albaniyası və Mihranilər sülaləsi

Alban və ya Albaniya bir çox tarixi mənbələrdə Aqvan kimi də ifadə olunur. Albaniya Kür çayından quzeydəki dağlıq ərazini əhatə edirdi. Aran isə Kür və Araz çayları arası dağlarla əhatə olunmuş düzənlik əraziyə verilən addır. E.q. II minillikdə Alban və ya Aqvan adında digər bir ölkə və dövlət Zaqros dağlarının şərqində Urmiyə gölünün güneyində, Diyala çayının yuxarı axarında Padan ölkəsi ilə yanaşı yerləşirdi.

B.Landsberqer Mari mixi mətnlərində Aqbani adlı bir subar dövlətinin adının çəkildiyini yazır bu haqda Qelb və Unqnad da bəhs edirlər. (Landsberger B. 1924, Səh. 233)

Kassilərin ilk kralı hesab olunan kral Kara-indaş (m.ö. 1430) özünü Babillə yanaşı Padan və Alban/Alman ölkəsinin kralı adlandırırdı. Bir çox müəlliflər qədim mixi mətnlərə əsaslanaraq Padan və Alban ölkəsinin əhalisinin kas/kus xalqından ibarət olduğunu yazırlar. Hammurapi sülaləsinin başçılıq etdiyi Babil dövləti dağıldıqdan sonra Padan və Alban kassiləri güney-batıya doğru yürüş edib Babil dövlətini ələ keçirərək burda kassi sülaləsinin əsasını qoydular. Kassi kralı II Aqum

və digərləri özlərini ilkin vətənlərinin yerləşdiyi Qutinin kralı kimi də təqdim edirdilər. (Eckart Frahm. 2013)

Tarixi qaynaqlar Elamın qonşuluğunda yaşayan Kassilərin dağlılar olduqlarını və çadırlarda yaşadıqlarını qeyd edirlər. (Daniel Brinton. The Protohistoric of Western Asia. səh. 92)

F.Hommel də Zaqros dağlarında Quti və Sutilərin yerləşdiyi ərazinin ortasında Alban və Padan adlanan xalqların yaşadıqlarını qeyd edir. (F.Hommel. 1887, Səh. 38)

Bir çox müəlliflər alban/aqvan, qarqar və padanları subar və kassi mənşəli hesab edirlər.

Assuriya kralı Assurbanipal (e.q. 669-627-ci illər) öz kitabəsində şərq ölkələrinə, Zaqros dağları yaylaları ərazisinə hərbi yürüşləri zamanı burda yerləşən Alban, Padan və digər dövlətlərdən xərac aldığını yazır. Kassi hökmdarları və o cümlədən II Aqum Kakrim (e.q. 1530) özünü digər ölkələrlə yanaşı "Kassinin, Albanın, Padanın və Qutinin kralı" adlandırırdı. Kassi kralı Qandaşın digər oğlu və kral I Aqum (e.q. 1730-1709-cu illər) Mahri ünvanı daşıyırdı. (Winkler H. 1892, Səh. 80)

Aqumun titulu olan Mahri adı sumer dilində böyük deməkdir. Ona görə də tarixçilər onu Böyük Aqum adlandırırlar. Kassi dilinin tədqiqatçısı Arnaut Fournet Aqum sözünü "başçı, rəhbər" kimi tərcümə edir ki, bu türk dilindəki Aqam sözü ilə ekvivalent təşkil edir. (Arnaut Fournet, 1978, səh. 6)

Kembric Universitetinin İran tarixinə həsr olunmuş əsərində yazılmışdır ki, Assuriya çarı Asurhaddonun e.q. 675-ci ildə şərq ölkələrinə, yəni Zaqros dağı yaylalarında yerləşən ölkələrə yürüşünə həsr olunmuş kitabədə deyilir: "Mən Barnaku ölkəsini ayaqlarımın altına aldım, xain düşmənlər Tilaşuri sakinlərini və onların Mihranilər tərəfindən idarə olunan Pitani adlı böyük şəhərini dağıtdım". (The Cambridge History of Iran. Vol. 2. 1968, Səh. 100-101)

Kitabda həmin fəslin müəllifi İ.Dyakonov Barnaku ölkəsinin mənbələrdə qeyd olunan və Elamın şimal-qərbində yerləşən Bit-Bunaki ilə eyniləşdirir və yazır ki, Tilaşuri ərazi adı Silxazi adı ilə birlikdə Babillərin qalası kimi III Tiqlatpalasarın kitabəsində də qeyd olunur. Tilaşurini Həmədanın qərbində axtarmaq lazımdır. Pitani isə qədim Padan ölkəsidir.

Tilaşuri yer adı Dərəşorlu adının qədim fonetik şəklidir. Dərəşorlu e.q. VII əsrdə olduğu kimi bu gün də həmin ərazidə, Zaqros dağlarının şərqində yerləşir. Dərəşorlu böyük Qaşqay elinin tərkibində ən böyük beş tayfadan biridir və öz tərkibində 42 tirəni birləşdirir. Silxazı isə bu gün də Dərəşorluların yaylaq əraziləri olan Şiraz adının qədim fonetik şəklidir. Yuxarıdakı sitatdan məlum olur ki Mehranilər Padan adlı şəhərə malik idilər. Bizim fikrimizə görə Padan adı n-r dəyişikliyi ilə Padar adına çevrilmişdir. Padarlar Ön Asiyanın qədim turanlı xalqları olan Alban və Qarqar tayfaları ilə yanaşı Azərbaycan türklərinin etnogenezində önəmli rol oynamışlar.



E.q. VII əsrdə Assur mənbələrində tarixi Midiya ölkəsinin qərb hissəsində Mihrani dili haqqında bəhs edilir. Həmin ərazidə kassilər yaşayırdılar. (The Cambridge History of Iran. volume 2. 1968, Səh. 44)

İran tarixinin görkəmli araşdırıcısı alman Fridrix Şpigel yazır ki, Mehrani süləsinin ilkin məskunlaşdığı ərazidə yaşayan Gündüzlü türk tayfası əfşarlara aid olub Bəxtiyarilərlərlə birlikdə yerli avtoxton xalqdır. (F.Spigel. 1863. Səh. 11)

Yuxarıdakı tarixi dəlillərdən də göründüyü kimi Mehranilərin iran və ya parf/arsaklı mənşəli kimi qələmə verilməsi tarixi yanlışlıqdır. Onlar Ön Asiya-Zaqros dağlarının qədim turanlı öntürk boylarına mənsub olmuş və mənşəcə subar/sabir, kassi mənşəlidirlər. Mehranilər Arsaklar imperiyası dövründə Midiya dönəmindən qalma yerli qüdrətli sülalə kimi hakimiyyət ierarxiyasında yüksək mövqeyə malik olmuş və Arsaklarla qaynayıb qarışmışlar.

Asurhaddonun adını çəkdiyi Mihranilər Parfiya və Arşakilərin hakimiyyəti dönəmində 7 qüdrətli ailədən biri idi və sonrakı tarixi mənbələr onları Arşaklar mənşəyinə malik olduqlarını yazırlar. T.Nöldeke yazır ki, Mihranilər ailəsinin yaşayış yeri Farsistan əyalətində Ərdəşir-Kvarx vilayətində Dəşti-Bərən bölgəsinin Abrüvən kəndi və ətrafı idi. Mihranilər həmin kəndi və qonşuluqdakı Şapur kantonundakı Qireh kəndini irsən həmin ərazilərə sahib olan ulu əcdadlarından miras almışdılar.

Şapur yer adını bəzən yanlışlıqla Sasani Şapurun adı ilə əlaqələndrirlər. Əslində, Şapur bölgə adı Subar/Sabar adının təhrif olunmuş şəklidir.

T.Nöldeke Mihran ailəsinə mənsub Bahram Çubin (Vahram Çeban) adının əslində Çoban olduğunu yazır. Bahram Çubin (Çoban) və Piran Quşnasb Qreqoire mənşə etibarı ilə Raidən idilər və Mihran çayının adı da onların şərəfinə adlanmışdı. (Nöldeke T. 1879, Səh. 6) Mihranilər digər 6 ailə ilə birlikdə Sasani dövlətinin əsas hakimiyyət bünövrəsini təşkil edirdilər.

Hakimiyyəti Arsakilərdən xəyanət yolu ilə mənimsəmiş Sasanilərin ən çox ehtiyat edib çəkindikləri sülalə qüdrətli Mihranilər olmuş və onlar Mihranilərə qarşı daimi münaqişədə olaraq sülalənin öndə gələnlərini qətl etməklə bərabər onların qadınları ilə evlənmək yolu ilə münasibətləri normallaşdırmağa çalışmışlar. Mihranilər sülaləsi tarixi mənbələrdə eramızın ilk əsrlərində İran ərazisində və Qafqazdakı Albaniy və digər bölgələrində hakimiyyət sürmüş qüdrətli bir nəsldir.

Mihranilərin qüdrətli nümayəndəsi sərkərdə Bəhram Çubin İstəmi xaqanın nəvəsi tarixdə Türkzadə ləqəbi ilə məhşur Sasani şahı IV Hörmüzdə qarşı 590-cı ildə üsyan qaldırdığı zaman Mihranilər sülaləsi onu müdafiə etmişdir. Bəhram Çubin müvəqqəti olaraq Sasani hakimiyyətinə yiyələnmiş, lakin Hörmüzdün oğlu II Xosrov tərəfindən məğlub edilmişdir.

II Xosrov hakimiyyətə gəldikdən sonra Mehranilərin başçısı Mehran, şahın ondan intiqm alacağından ehtiyat edərək 591-ci ildə öz nəslinə mənsub 30 min ailə

ilə Xəzərlərin tərəfinə keçmək üçün Qafqaz Albaniyasının Girdman vilayətinə gələrək yerləşmiş, ermənilərdən ibarət hökmran sülalənin 12 görkəmli nümayəndəsini qətl edərək hakimiyyətə yiyələnmişdir. Mehranın törəməsi olan Cəsur Vardanın oğlu Vraz Qriqor (628-642-ci illər) Alban katalikosu Vironun himayəsi ilə Sasani şahı II Xosrov tərəfindən "Girdmanın ağası və Alban ölkəsinin knyazı" adlandırılmışdır. Varaz Qriqorun ölümündən sonra onun oğlu Cavanşir (642-681-ci illər) Alban knyazı olur. Mehranilərin xəzərlərlə münasibəti yaxşı olmuş və onlar çox zaman Xəzər xaqanları tərəfindən himayə olunmuşlar.

Cavanşirin əsl adı tarixi mənbələrdə qeyd olunmur. Fikrimizə görə Alban hökmdarının Cavanşir adı onun titulu olan Cavaşiqar adından yaranmışdır. O alban hökmdarı kimi Xəzər xaqanının vassalı statusuna malik idi. İbn Fadlanın yazdığına görə Xəzərlərdə hakimiyyət nərdivanində möhkəm subardinasiya qaydası hökm sürürdü. Dövlətin başında ali hökmdar Böyük Xaqan dururdu, onun müavini Xaqan bəy tituluna sahib idi, Xaqan bəydən sonra Kündür xaqan ondan sonra isə Cavşiqar tituluna malik idarə edici gəlirdi. (P.Golden. Khazar studies. 1980, səh. 191)

VII yüzilliyin ortalarında Cənubi Qafqazda, xüsusilə Albaniyada xəzərlərin nüfuzu o qədər artmışdır ki, Alban çarı Cavanşir öz şimal qonşuları ilə sülh münasibətləri yaratmaq üçün hətta Xəzər xaqanının qızı ilə evlənməyi və beləliklə, xəzər türklərilə qohum olmağı məqsədəuyğun hesab etmişdir. Alban çarı Cavanşir 669-cu müəmmalı şəkildə öldürüldüyü zaman Xəzər hökmdarı Alp İltver çarın qisasını almaq üçün çoxsaylı qüdrətli ordu ilə Albaniyaya yürüş etmişdir. (Bünyadov Z. 207, Səh. 17-18)

## Padan-Padar

B.Landsberqer və digər assuroloqlar Zaqros dağları bölgəsində mövcud olan digər bəylik dövlətləri ilə yanaşı Padan və Aqvan/Alban/Alman dövlətlərinin də adını qeyd edirlər.

Kassilərin ilk kralı hesab olunan Kara-indaş (m.ö. 1430) özünü Babillə yanaşı Padan və Alman ölkəsinin kralı adlandırırdı. Padan və Alman Diyala çayının yuxarı axarında yerləşən ayrıca kassi bəylik dövlətləri idilər və əhalisi kassilərdən ibarət idi. Hammurapi sülaləsinin başçılıq etdiyi Babil dövləti dağıldıqdan sonra Padan və Alman kassiləri güney-batıya doğru hərəkət edərək Babil dövlətini ələ keçirmiş və burda kassi sülaləsinin əsasını qoymuşdular. Kassi kralı II Aqum özünü ilkin vətənlərində yerləşən Qutilərin kralı kimi təqdim edirdilər. Aqum sözü kassi dilində başçı, rəhbər, kral deməkdir. (Eckart Frahm. 2013)

Fikrimizə görə Padan etnonimi Padar adının dəyişik fonetik şəklidir. Padan/Padarlar Ön Asiyanın Bars, Aqvan, Saqartu, Qarqar, Quzan və s. boyları ilə birlikdə Assurların bölgəyə yapdıqları çoxsaylı hərbi səfərlərinin təzyiqi altında öz məskunlaşdıqları ərazini tərk edərək daha təhlükəsiz yerlər tapmaq məqsədi ilə şimala doğru Qafqaz istiqamətində hərəkət etmiş və bu ərazilərdə məskunlaşmışlar.



Orta əsr müsəlman tarixçiləri Padarların Azərbaycan ərazisində yerləşmələri haqqında müxtəlif versiyalar irəli sürürlər. Fəzlullah Rəşidəddin Padarları On-Uyğurların tayfa siyahısında 6-cı tayfa kimi göstərir. Padarlar qədim zamanlardan etibarən Azərbaycanın geniş ərazilərində məskunlaşmışdılar. Bu gün də Azərbaycanda Padar etnonimini özündə əks etdirən çoxlu toponimlər mövcuddur. Məhəmmədhəsən Vəliyev-Baharlı yazır ki, Səfəvilər Dağıstanlı tayfaları itaətə gətirmək üçün Padarların bir qismini onunla sərhəd ərazilərdə yerləşdirmişlər.

Padar etnonimini yanlışlıqla monqolların sərkərdəsi Baydar noyanın adından götürüldüyü fikri irəli sürülmüşdür. Halbuki Padar-Padan adı etnonim olaraq daha qədim dövrlərdən mövcuddur. Kassi dilində Badar öküz deməkdir. Badar-öküz Padanlı öntürklərin totemi olmuş və bu eponim sonrakı dövrlərdə Padan-Padar şəklində ifadə olunmuşdur. Yəqin ki, Padarlar Ön Asiyanın çoxsaylı qədim oğuz boylarından biri olmuşdur.

Tarixin qədim dövrlərində Azərbaycan ərazisində Padan və Alban/Aqban dövləti ilə yanaşı əhalisinin etnik mənşə baxımından ön türklərdən ibarət olan Quzan, Turukku, Quti, Simurrum, Saqartu, Atlila, Bit Kapsi, Bit Qubati, Subir, Su, Barsu, Urumu, Arazias kimi bəylik dövlətlər konfederasiyaları mövcud olmuşdur.

## Azərbaycan-Xəzərbaycan və Xəzərlər

Azərbaycan ərazisində yaşayan avtoxton əhali ən qədim zamanlardan etibarən onların qonşusu olan iran dilli xalqlar və ermənilər tərəfindən türk adlandırıldığı kimi digər qonşu xalqlar tərəfindən fərqli şəkildə adlandırılmışlar. Gürcülər azərbaycan türklərini-tatarı adlandırırlar, osetinlər tatayraq, abxazlar isə atatar adlandırırlar. Gürcüstandakı qreklər azərbaycanlıları turkos, qaraçay-balkarlar türkli, ləzgilər türk adlandırırlar. Qaraçay-balkarlar və çeçenlər azərbaycanlıları qacarlı, kumıklar, lak və darqinlər isə qacar adlandırırlar. Çeçenlər azərbaycanlıları həmçinin qisalo və quzalo adlandırırlar. Avarlar, andilər, çamallar, arçilər azərbaycanlıları padar adlandırırlar. Dağıstanın rutul, saxur xalqları və avarların bir hissəsi muqal adlandırırlar. (Волкова Н.Г. 1980, Səh. 208-209)

Fikrimizə görə çeçenlərin xalqımıza verdikləri Quzalo adı Quz-eli adının fonetik şəklidir.

Dağıstanın rutul, saxur və avar xalqlarının xalqımızı verdilkləri Muqal adı Moğol adı ilə əlaqədardır. Moğol və ya monqol adı Çingiz xanın döründə onun öz ölkəsinə verdiyi addır. Bu adın müasir Xalxa-monqollarla heç bir əlaqəsi yoxdur. Özlərini Xalxa adlandıran bu xalq Çingiz xana qədər heç zaman özlərini monqol adlandırmamışlar. Etnik mənşə baxımından türk olan Çingiz xan öz ölkəsini Men-

qi-el, yəni əbədi el-əbədi ölkə adlandırırdı. Monqol adı Menqiel adının təhrif olunmuş şəklidir.

Avar və andilərin xalqımıza verdikləri Padar adı Azərbaycanın şimal ərazilərində qədimlərdən etibarən məskunlaşmış Padan-Padar boyunun adı ilə əlaqədardır. Türkmən qardaşlarımız ən qədim zamanlardan etibarən Azərbaycanı Xəzərbaycan adlandırırlar. Bir çox ərəb müəllifləri isə Azərbaycanı əl-Xəzəriyyə adlandırmışlar.

Bir ölkəni hansısa bir etnosun adı ilə adlanması üçün o etnosun həmin ərazidə yüz illərlə yaşayaraq dərin izlər buraxması gərəkir. Azərbaycan və xəzər türkləri arasında əlaqə qədim köklərə malikdir. Azərbaycan və xəzərlər arasındakı münasibətlər bir çox bilim adamının elmi araşdırmasının mövzusunu təşkil etmişdir. Azərbaycanda bu məsələ ilə əlaqədar akademik Z.Bünyadovun "Azərbaycan VII-IX əsrlərdə" əsəri böyük elmi dəyərə malikdir. Digər önəmli əsər Fərda Əsədovun "Xəzərlər və Azərbaycan" əsəridir. F.Əsədov ərəb müəlliflərinin əsərləri başda olmaqla çoxsaylı qaynaqlardan yararlanaraq dəyərli bir arşdırma ərsəyə gətirmişdir.

Xəzərlər haqqında qədim mənbələrdəki məlumatlar və bu mövzuya həsr olunmuş araşdırmaların təhlili türkmən qardaşlarımızın Azərbaycanı Xəzərbaycan adlandırmaqda haqlı olduqlarını təsdiq edir.

Bir çox qaynaqlarda xəzərlərin Qafqazda, o cümlədən Qafqaz Albaniyasında mövcudluğunu hətta hunlardan qabaqkı dövrə, e.q. dönəmlərə aid edilir. Gürcü mənbələrinə görə xəzərlər Xəzər bölgəsinə e.q. gəlmişlər. Gürcü kralı Mirvan (e.q. 167-123-cü illər) xəzərlərə qarşı mübarizə aparmış və onlardan qorunmaq üçün Dəryal dərəsində istehkamlar qurmuşdur. (Phlip L. Gell, Vol. V, 1911, Səh. 775)

Erməni mənbələrinə əsasən eramızın 198-ci ilində xəzərlər barsillərlə birlikdə Armeniyaya hücum etmişlər. IV əsrdən etibarən isə Güney Qafqazda daima məskunlaşmış xəzərlər Bizans imperiyasına qarşı Sasanilərin müttəfiqi kimi mübarizə aparmışlar. (Phlip L. Gell, 1911, Səh. 775)

Maraqlı cəhət ordadır ki, İbn əl-Əsir 514-cü ildə xəzər gürcülərin islam ölkələrinə hücum etdiyini yazır. O, Xəzərlər gürcülərdir demir, gürcülərin xəzər olduğunu yazır. Əl-Əsirin yazdığı 514-cü ildə hələ Xəzər dövləti mövcud deyildi. Əl-Əsirin kitabının digər bir əlyazma nüsxəsində gürcü adı aydın şəkildə Gürzan kimi ifadə olunur. (Kuzgun Şaban, 1993, Səh. 19)

Gürcülərin xəzərlərlə eyniləşdirilməsi ondan irəli gəlirdi ki, ərəblər gürcülər Qürzan adlandırırdılar.

Ziya Bünyadov 1126-cı ildə farsca tərtib edilmiş bir əsərdə "Azərbaycan qədimdən türklərin əlində olan bir ölkə" adlandığını yazır. Həmin əsərin müəllifi Himyari padşahlarından biri olan Raiş haqqında məlumat verərkən deyir ki, bu ölkə türklərin əlindədir. (Bünyadov Z. 2007, Səh. 203).



Türk araşdırıcı Şaban Kuzqun da bu haqda bəhs edərək yazır ki, Ərəblərin xəzərlərlə təması Xəzər dövlətinin qurulduğu VII əsrdən daha öncələrə, qədim ərəbistandakı Himyarilər və Nabatlılar zamanına yəni e.q. I minilliyin ortalarına təsadüf edir. (Kuzgun Şaban. 1993, səh. 15)

Himyari krallığı Ərəb yarımadasının güneyində indiki Yəmən ərazisində e.q. 110-cu ildə qurulan qədim dövlət olub öz varlığını eramızın 570-ci ilinə qədər davam etdirmişdir.

Atillanın Hun dövləti yarandıqdan sonra xəzərlər onun tabeçiliyinə daxil olmuş, Atillanın ölümü və Hun dövlətinin dağılmasından sonra xəzərlər Güney Qafqazda öz mövqelərinə geri dönmüş və Sasanilərə qarşı mübarizə aparmışlar. 457-ci ildə xəzərlər Qafqazda Kür və Araz çayları vadilərini əhatə edən ərazilərdə öz hakimiyyətlərini qurmuşlar. Xəzərlərlə mübarizədə uğur qazana bilməyən Anuşirvan onlarla dostluq münasibəti yaratmaq üçün öz qızını Xəzər Xaqanına ərə vermişdir. Əl-Bəlazuri həmin hadisələrdən bəhs edərək yazır ki, xəzərlər Dinavərə qədər irəliləyərək Cürzana və İrana sahib olmuşdular. (Phlip L.Gell. Khazars. Vol. V, 1911, Səh. 775)

Göytürk imperiyası dönəmində xəzərlər dövlətin batı qolunu təşkil edirdilər. 630-cu ildə Göytürk dövləti süquta uğramışdır. Zəki Vəlidi Toğanın yazdığına görə xəzərlər öz dövlətlərini 558-ci ildə Aşina sülaləsinə mənsub xaqanın başçılığı altında qurmuşlar.

Ərəb müəllifi Əl Bəlazuri də İranla müharibələr zamanı Aran və Qurzan (Gürcüstan) hər zaman xəzərlərə aid olduğunu yazır. Əl Bəlazuri Qəbələ şəhərini əl-Xəzər, yəni Xəzər şəhəri adlandırır. A.Krımski əl-Bəlazurinin bu məlumatına əsaslanaraq yazır ki, əl-Xəzəruyyə adlanan Qəbələ xəzərlərin Cənubi Qafqazda inzibati mərkəzi olmuşdur. (Fərda Əsədov. 2018, Səh. 66)

Ensiklopediya Britanikada Xəzər dənizinin adının Kaspi adı ilə yanaşı qədim perslərin onu Dəryayi Kuzur və Qurzem adlandırdıqları yazılmışdır. Eyni zamanda tatarların bu dənizi Ak dəniz adlandırırdılar. Dərbənd şəhərinin yerləşdiyi dəniz və quru arasındakı dar zolaq Kaspi qapısı və ya Alban qapısı adlanırdı. (Phlip L. Gell. Vol. V, 1911, Səh. 45)

Sasanilərlə Araz çayından cənubdakı ərazilərdə baş verən çoxsaylı savaşlar gedişində xəzərlər uğursuzluğa düçar olduqları təqdirdə Kür çayından şimalda yerləşən Xəzəriyyə adlandırdıqları Qəbələ və ətraf əraziləri təşkil edən mərkəzlərinə geri dönürdülər. Ziya Bünyadov Xəzərlərin 150 il Azərbaycanın şimalında hökm sürdüklərini yazır.

O ayrı-ayrı mənbələrdəki məlumatları incəliyərək belə hesab edirdi ki, Qubadın hakimiyyəti dönəmində Sasanilər ordusunun xəzərlərə qarşı apardıqları hərbi yürüşlər zamanı xəzərlər Azərbaycan ərazisini tərk etməmişdilər. Ölkənin şimal ərazilərini təşkil edən Albaniyada özlərinə mərkəz etdikləri və Xəzəriyyə adlan-

dırdıqları Qəbələ və ətraf ərazilərə çəkilmişdilər. Onlar burdan qərbdəki Tiflisə qədər və güneydə Kür çayına qədər Albaniya ərazisini öz hakimiyyətləri altına alaraq nəzarətdə saxlayırdılar. Dərbənd keçidi də Xəzərlərin hakimiyyət ərazisinə aid idi. (Zıya Bünyadov. 2007, Səh. 34)

627-ci ildə Xəzərlər Bizans ilə ittifaqda Sasaniləri Azərbaycandan qovmaq üçün xaqanın oğlu Şadın başçılığı ilə böyük bir ordu göndərdilər. Azərbaycanın mərzbanı qorxusundan qaçdı və Alban dövlətinin faktik başçısı katalikos Vira ölkəni dağıntı və fəlakətdən xilas etmək və danışıqlar aparmaq üçün qiymətli hədiyyələrlə Şadın qərərgahına getdi. Xaqanın oğlu Şad katalikosdan tələb etdi ki, bütün qaçqın əhali öz yerlərinə qayıdıb işləri ilə məşğul olsunlar və vəd etdi ki, bundan sonra Xəzər xaqanının əbədi mülkü sayılan bu ölkənin dağıdılmasına imkan verməyəcəkdir.

Viro Albaniyanın xəzərlərin tabeçiliyinə keçdiyini və xalqın artıq Xəzər xaqanının təbəələri olduğunu təsdiq etdi və əsirlərin azad edilməsini xahiş etdi. Şad bütün əsirləri azad etdi. (Zıya Bünyadov. 2007, Səh. 61)

Xəzər xaqanlığının Azərbaycanda nüfuzu o dərəcədə güclənmişdi ki, Albaniya hakim dairələri Sasanilərin zülmündən və ağır vergi əsarətindən xilas olmaq üçün xəzərləri özlərinə ümid hesab edirdilər. 664-665-ci illərdə xəzərlərin Azərbaycana yürüşləri zamanı Albaniya hökmdarı Cavanşir Xəzər xaqanının qızı ilə evlənməklə sasanilər qarşısında öz mövqeyini möhkəmləndirmək, xəzərlərin vassallığını qəbul etməklə ölkənin təhlükəsizliyini təmin etmək məqsədi güdürdü. (Zıya Bünyadov. 2007, Səh. 87)

681-ci ildə Alban knyazı Cavanşir sui-qəsd nəticəsində öldürüldüyü zaman Xəzər ordusu onun intiqamını almaq üçün xaqan Alp İlutvərin başçılığı ilə Albaniyaya hücum etdi. Cavanşirin yerinə keçmiş I Varaz Trdat qiymətli hədiyyələrlə xaqanın hüzuruna getdi və Cavanşirin albanlar tərəfindən deyil, xain düşmənlər tərəfindən öldürüldüyünü dedi və öz itaətini bildirərək dağıntıların qarşısını aldı. (Zıya Bünyadov. 2007, Səh. 116)

Xəlifə I Validin dövründə (705-715ci illər) Ərəb xilafətinin Azərbaycan ərazisinə hücumları genişləndi. Xəzər xaqanı Azərbaycanı ərəblərin işğallarından qorumaq üçün dəfələrlə böyük ordu ilə ərəblərə qarşı hərbi yürüşlər təşkil etmişdir. 730-731-ci illərdə xəzər ordusu Barçukun komandası altında ərəblərə qarşı hücuma keçib ərəbləri geri çəkilməyə məcbur etdilər. Savalan dağı yaxınlığında iki qoşun qarşı-qarşıya gəldi və ərəblər ağır məğlubiyyətə uğradılar və sərkərdələri əl-Cərrah döyüş zamanı öldürüldü. Xəzərlər Ərdəbil şəhərinə sığınmış ərəbləri mühasirəyə aldılar və çoxlu əsir götürdülər. Xəzərlər ərəb qoşununu təqib edərək Mosul və Diyarbəkiri də onlardan azad etdilər. (Zıya Bünyadov. 2007, Səh. 125)

Azərbaycanın şimal hissəsi ərəb istilasından əvvəl və sonra kifayət qədər uzun müddət ərzində Xəzər xaqanlığının nəzarəti altında olmuşdur. Ərəb qaynaqları



xəzərlərin Cənubi Qafqazda, o cümlədən Azərbaycan ərazisində oturaq həyata keçməsi barədə çoxsaylı məlumat verirlər.

F.Əsədov Qafqazda Xəzər siyasi ittifaqının başlanğıcını Xosrov Ənuşirvanın Xorasan türklərini Cənubi Qafqaza köçürülməsi ilə qoyulduğunu ehtimal edir.

Bizim fikrimizə görə Xorasan türkləri adlanan Quzər türklərinin Cənubi Qafqaz ərazilərinə köçürülməsi burda öncədən mövcud olan Quzər etnik birliyinin sayının daha da artmasına səbəb olmuşdur.

Akademik Ziya Bünyadov Azərbaycan xalqının etnogenezi məsələsindən bəhs edərək yazır ki, Türkləri Azərbaycan ərazisinə kənardan gəlmiş bir ünsür hesab etmək səhvdir, çünki onda yerli böyük və çox yığcam türk tayfa təşəkküllərinin varlığına göz yumulur. Azərbaycanda türkləşmə prosesi burda mövcud olan türk aboriqenlərin cənubdan gələn oğuzlar və şimaldan gələn qıpçaqlarla qarışması nəticəsində başlandı və getdikcə sürətlənib XI-XII əsrlərdə qurtararaq, Azərbaycan və Arran ərazisində müasir Azərbaycan millətini əmələ gətirən türkdilli Azərbaycan xalqının təşəkkül tapması ilə nəticələndi. (Bünyadov Z. 2007, Səh. 200)

F.Əsədov Azərbaycanda yəhudilərin məskunlaşması və yerli xalqın tərkib hissəsinə çevrilməsini iudaizm dinini qəbul etmiş xəzərlərlə bir başa əlaqədar olduğunu yazır. (Fərda Əsədov. 2018, Səh. 59)

Əslində isə Xəzər türkləri ilə yəhudilərin ilkin tanışlığının Əhəməni şahı III Artakserks (e.q. 359-338-ci illər) zamanında nüfuzlu yəhudi toplumunun yaşadığı Cürcanda, yəni Qurqanda baş verdiyini ehtimal edilir. Xəzərlərin yəhudilərlə münasibətləri bir çox qədim mənbələrdə öz əksini tapmışdır. Ərəb coğrafiyaçısı Saadiyə Qaon əl-Fayyumi (862-942-ci illər) yazır ki, Torqarmalar xəzərlərdir, Xəzərlər isə türkmənlərdir. Digər bir əfsanədə İbrahimin arvadı Keturanın oğlanları ilə xəzərlərin Xorasanda qarşılaşmasından bəhs edilir. Bu əfsanəyə görə Keturanın törəmələri türklərdir. (Zhivkov Boris. 2015Səh, 42, 47)

Tövratda İbrahim peyğəmbərin Ketura (Kantura) adında üçüncü bir arvadının olması haqqında rəvayət vardır. Türklərin İbrahim peyğəmbərin üçüncü arvadı Kanturanın (Ketura) soyundan gəldiyi haqqında rəvayətlər mövcuddur. Sara Həcərin oğlu İsmayılın onun oğlu İsaqa varislikdə rəqib olacağını görüb İbrahimə Həcəri oğlu ilə birlikdə evdən qovmasını istədi. Rəvayətə görə İbrahim peyğəmbər arvadı Həcəri oğlu İsmayılla birlikdə Məkkədə qoyaraq Saranın yanına geri dönmüşdür. Saradan olan oğlu İsaqı öz yanında saxlayan İbrahim peyğəmbər Sara öldükdən sonra evləndiyi üçüncü arvadı Kanturadan olan oğlanlarını uzaq susuz çöllərə göndərmişdir. Rəvayətə görə oğlanları ağlayaraq onları o uzaq yerlərə göndərməməsini xahiş etdiyi zaman İbrahim bunun Allah tərəfindən əmr edildiyini bildirmişdir. Tövratın şərhçilərindən Yalkut Şimoni İbrahimin birinci arvadı Saranın Nuhun böyük oğlu Samın qızı, Həcərin Hamın qızı, Kanturanın isə Yafəsin qızı olduğunu yazır. Kantura Yafəsin soyundan olduğu üçün oğlanları da Orta Asiya-

ya göndərilmişlər. Onun birinci arvadı Saradan İsrail oğulları, yəni yəhudilər, ikinci arvadı Həcərdən İsmail oğulları, yəni ərəblər, Kanturadan isə türklər törəmişlər.

Kantura-Qanturalı eponiminin kökü Sumerə bağlıdır. Qaturalı Sumer tanrılarından biri olmuşdur. Kanturanın Yafəsin qızı olması haqqındakı rəvayət də bəzi gerçək tarixi faktları əks etdirir. Əbülfəzl Allami də Yafəsin Su-ku Samani ölkəsindən olduğunu yazır. Su-ku Samani Su ölkəsi deməkdir, Samani isə Sumer adının müsəlman mənbələrində Sumerə verilən adıdır.

Yuxarıda bəhs etdiyimiz kimi bir çox müəlliflər tarixi mənbələrə əsaslanaraq İbrahim peyğəmbərin mənşə baxımından qutilərə mənsub olduğunu yazırlar.

XI əsrdə yaşamış Yəhudi səyyahı Ravin Venyaminin yazdığına görə çar Davudun nəslinə mənsub olan ravin Daniil Xasday Abbasilər xəlifəsi tərəfindən knyaz titulu verilərək bütün ölkələrdə, o cümlədən Fars, Xorasan, Ararat dağı ətrafını da əhatə edən Quti, Alan, Şirvan və bütün Toqarm-türk ölkələrində yaşayan yəhudilərin rəhbəri təyin olunmuşdur.

Xəzərlərin və daha dəqiq ifadə ilə Quzərlərin yəhudilərlə təmas və ünsiyyətlərinin tarixi Əhəmənilərdən daha qədim dörlərə aiddir.

Fikrimizə görə xəzərlər Azərbaycana gəlmə deyil, onun ən qədim sakinləridir. Azərbaycanın quzey və güney hissəsində Xəzər və Quzan, Qusar adlı toponimlər çox qədim köklərə malikdir və kökü Ön Asiyanın qədim Quz-ər Oquz-ər etnosu ilə əlaqədardır. Xəzər dövləti yaranmadan öncə də Quzərlər Azərbaycanda mövcud idilər. Xəzərlər Ön Asiyadan köçərək Qafqazda Qıpçaq çöllərində, Sibirin güneyində yerləşmiş Quzər-Oğuz boylarının gec dövrlərdə tarix səhnəsinə qədəm qoymuş varisləri idilər.

Amerkan tarixçisi Edvard Lutvak xəzər adının qədim yəhudi dilində "Kuzari" şəklində yazıldığını qeyd edir. (Edward Luttwak. 2009)

İspan yəhudisi ravvin Yudah Halevi "Saferhai Kuzari" Kuzar ölkəsinə, yəni Xəzər ölkəsinə səyahət haqqında əsər yazmışdır.

Çex bilim adamı B.Hrozni yəhudilərin quz və ya kuz adlandırdıqları Qutların e.q. 2255-ci ildə ölkəyə soxulub Sumeri və akkadı tamamilə işğal etdiklərini və Qutilərin qədim Xəzər dənizi mənşəyinə malik olduqlarını yazır. (B.Hrozni. 1953. Səh. 56)

Quzərlərin bir hissəsi Xorasanda yerləşmişdilər. Peter Qolden ərəb müəllifi İbn əl-Fəquh əl-Həmədaniyə əsaslanaraq Xəzərlərin Xorasan türkləri ilə qohumluq əlaqələrindən bəhs edir.

Samilər Zaqros dağı yaylalarında geniş ərazidə və çay vadisində yaşayan Qud Quti xalqını Quzlar adlandırırdılar. Tarixin sonrakı dövrlərində də sami ərəblər Türkistanda və Volqaboyunda rastlaşdıqları Oğuz boylarını da tarixi ənənəyə uyğun olaraq Quz və ya əl-Quziyyə adlandırırdılar.



Yusif Hikmət Bayur Xuzistan adının Quzistanın təhrif olunmuş şəkli olduğunu yazır.

Fikrimizə görə Xorasan adı Quzar adının sonuna mənsubiyyət bildirən "an" şəkilçisinin artırılması ilə yaradılmaqla adın təhrif olunmuş şəklidir və Xorasan qədimdən Quzərlərin vətəni olmuşdur. Həmin ərazidə qədim dövrlərdə mövcud olmuş Turan dövlətinin paytaxtı da Quzdar adlanırdı. Ərəb müəllifləri də haqlı olaraq Cürcan türklərini Xorasan türkləri, yəni Quzaran türkləri adlandırırdılar. Əhəmənilər dövründə perslər öz dillərinin xüsusiyyətinə uyğun olaraq Zaqros dağları, yaylaları və Elamda məskunlaşmış Quzların yaşadığı ölkəni Xuzistan quzları isə Xuzi adlandırırdılar. Bu ənənəyə uyğun olaraq perslər nə vaxtsa köçüb Xəzər dənizinin cənub-şərq ərazilərində məskunlaşmış quzların ərazisini də Xuzaran, yəni quzların ölkəsi adlandırırdılar. Mesopotamiyadakı samilər Qut/Quzları öz dillərində Quzran və ya Qurzan adlandırırdılar. Samilərin sonrakı varisləri olan ərəblər Qurzan/Quzan adını öz dialeklərinə uyğun olaraq Cürcan şəklində ifadə edirdilər. Ərəb müəllifləri və o cümlədən əl-Məsudi Cürcan adını çox vaxt Cürzan kimi yazırlar.

Ərəb mənbələri Sasani Xosrov Ənuşirvanın Cürcan və Dihistandan, yəni Xorasanda Sul xalqı adlanan türklərin bir qismini köçürdərək Albaniya ərazisində yerləşdirdiyini yazırlar. (Fərda Əsədov. 2018, Səh. 69)

Yəhudi tarixçisi İosif Flavi yazır ki, e.q. 722-ci ildə Assuriya kralı V Salmanassar İsraili işğal edib Yerusəlimi zəbt etdi və Ezekiyin dövlətinə son qoyduqdan sonra ona müqavimət göstərmiş on yəhudi tayfasını əsir edib Midiyaya və Persiyaya sürgün etdi. Salmanassar bu yəhudilərin əvəzinə dağlarda yaşayan və Qut adı daşıyan çayın sahilində yerləşən Qutların ölkəsindən onların beş tayfasını gətirib İsraildə və Samarrada yerləşdirdi. İbranilərin Qutlar adlandırdıqları bu xalqı yunanlar Samarralılar adlandırırlar. Bu qutların hər bir tayfasının öz tanrısı vardı. Yəhudilərin yerləşdiyi Qut/Quzların ölkəsi Mesopotamiyanın şimalında Quzar və ya Quzan çayının sahillərindən başlayaraq Zaqros dağlarının şimal yaylalarını, Urmiyə gölünün ətrafındakı əraziləri əhatə edən Quzar ölkəsi idi. Digər bir Quzan ölkəsi yenə də Urmiyə gölünün şimal-şərqində, sonrakı tarixi dövrlərdə Qiziluzən adlanan Quzan çayının sahilində yerləşirdi. Bu köçürmə nəticəsində yəhudi və quzerlər arasında qaynayıb qarışma baş vermişdir. (Flavus Josephus. Judische Altertümer. Wiesbaden 2002. X, 14, 1)

Samaraya köçürülmüş Qutilər və Quti ölkəsinə köçürülmüş yəhudilər bir-biri ilə qaynayıb qarışmışlar. İsraildəki qutilər yerli yəhudilərlə qarışaraq iudaizmin Samarilər təriqətini, Quti ölkəsinə köçürülən yəhudilər isə burda qutilərlə qarışaraq Qutilər təriqətini meydana gətirmişlər.

Onu xüsusilə qeyd etməyi lazım bilirik ki, Quzərlərin Mesopotamiyanın şimalındakı Quzar çayının sahilində yerləşən çoxsaylı quti tayfalarının yalnız beş tay-

fasını İsrailə köçürülmüşlər. Qutilərin özəyini təşkil edən əksər tayfalar isə Qutilərin mərkəzi əraziləri olan Zaqros dağlarının yaylalarında, onun şərq hissəsində və Urmiya gölünün ətrafında məskunlaşmışdılar.

Əhəməni şahı II Kir (e.q. 559-530-cu illər) Babili işğal etdikdən sonra yəhudilərin yenidən öz ölkələrinə geri dönmələrinə izn vermişdir. Lakin yəhudilərin müəyyən hissəsi öz vətənlərinə geri dönməyib Mesopotamiyanın şimalında Quzar çayı sahillərində yaşamaqda davam etmişlər.

Tarixi mənbələrə əsasən e.q. 345-ci ildə Əhəməni şahı III Artakserks ona qarşı üsyan qaldırmış finikiyalılıları və yəhudiləri məğlub etmiş və yəhudiləri ölkənin şərq ərazilərinə Qəzvindən başlayaraq Hirkaniya, Xorasana və Orta Asiyaya sürgün etmişdir. (Штерн М. 1997-2002)

Xəzərlərin yəhudiliyinin kökündə əslində bu tarixi fakt dayanmaqdadır. Həmin ərazidən köçürülmüş insanlar qarışıq quzer-yəhudi qarışımından ibarət olmuşdur.

İspaniyanın Tudel şəhərindən ravvin Veniamin Tudel on üç il (1160-1173-cü illər) ərzində yəhudilərin dünyanın müxtəlif yerlərində məskunlaşdıqları ərazilərə səyahət edərək bu ərazilərin tarixi haqqında dəyərli məlumatlar vermişdir.

Venyamin Tudel Samarilər adlanan İsraildəki yəhudilərin mənşə etibarı ilə yəhudi olmadıqlarını Quti olduqlarını yazır. O Samari qutilərinin XI əsrdə hələ də Fələstində Harizm və Hevalom dağlarının arasında yaşadıqlarını yazır. Samarilər yəhudilərdən fərqlənən öz dialektlərinə uyğun olaraq "hey", "xet", "ayn" hərflərini birləşdirərək "əlif" kimi ifadə edirlər və bu onların mənşəcə yəhudi olmadıqlarını göstərir. Veniamin Mesopotamiyanın şimalındakı Habur çayının Qozan çayına töküldüyünü və onun sahilində 200 yəhudinin yaşadığını yazır. O həmin ərazini Qut ölkəsi adlandırır. Talmudda yazıldığına görə Quti ölkəsi yəhudilərin Abram adlandırdıqları İbrahim peyğəmbərin doğulduğu ölkədir. O burda hakim olan dini qəbul etmədiyi üçün üç il həbs olunmuş və sonra sürgün olunmuşdur.

Yəhudi səyyahı Qalatlı İosif Estampe yəhudilərin Orta Asiyadakı Amudərya-Okus çayını Quzan çayı adlandırdıqlarını yazır. Ravvin Veniamin də Nişapurdan şimalda yerləşən bu çayı Quzan çayı adlandırır. Veniamin Təbəristanda, Qəzvin dağlarından başlayaraq Nişapur adlandırdığı Xorasanda israillilərin dörd tayfasının: Dana, Zavulona, Asira və Neffalima tayfalarının yaşadığını qeyd edir və onlar haqqında geniş bilgi verir. (Три еврейских путешественника. М. 2004)

Ravin Veniamin digər ravin Moşenin dilindən ən qədim zamanlardan Xorasan yəhudiləri ilə türklər arasındakı dostluq münasibətləri haqqında yazır ki, bir dəfə türklər Pers hökmdarının Rey şəhərinə hücum edərək dağıtmış və qarət etmişlər. Pers kralı türklərin ölkəsinə Xorasan üzərindən hücum edərkən ordakı yəhudilərdən kim olduqlarını soruşmuşdur. Yəhudilər onun sualını cavablandıraraq demişlər ki, onlar heç bir yabançı hökmdara tabe deyillər və öz knyazları tərəfindən idarə olunurlar.

Pers hökmdarı onlardan Quzun oğlu Türklər haqqında soruşduqda yəhudilər cavab vermişlər ki, "Quzun oğlu türklər bizim müttəfiqlərimizdir, onlara düşmən münasibət bəsləyənlər bizə bəsləmiş olurlar".

Xorasanda məskunlaşmış yəhudi tayfaları İsrailin şimalında yaşayan və Salmanassar tərəfindən Quti ərazisinə köçürülərək Haburda, Qozan çayının sahilində, Midiya şəhərlərində yerləşdirilmiş və qutilərlə qaynayıb qarışmış levit tayfa birliyinə mənsub idilər. Burda onların şəhərləri və məskənləri vardır. Ravin Venyaminin bəhs etdiyi bu dörd yəhudi tayfası III Artakserksin Xorasana və Buxaraya köçürdüyü yəhudilərdir. Bu yəhudilər İran ərazisində yaşasalar da, onlara ravin İosiv Amarkela rəhbərlik edir. Ravin Venyamin Xorasan yəhudilərinin Levitlər tirəsinə mənsub olduqlarını yazır, levitlər yəhudilərin aşkenaz qoluna mənsubdurlar. Qenetik araşdırmalara görə aşkenaz yəhudləri 52% R1a1a qaploqrupuna aiddirlər. Sak/iskit və digər türk boylarında da R1a1a qaploqrupu üstünlük təşkil edir. Məhşur yəhudi genetik uzmanı Eran Elhaik 2013-cü ildə apardığı genetik araşdırmalar nəticəsində belə bir sonuc əldə etdi ki, vaxtilə Şərqi və Mərkəzi Avropada məskunlaşmış yəhudilərin böyük əksəriyyəti xəzər mənşəyinə malikdirlər. O aşkenazların genetik baxımdan yəhudi olmadıqlarını, lakin ata xətti ilə yəhudilərlə qarışmış olduqlarını sübut etmişdir. E.Elhaik "Aşkenaz" adının "asquz" adından yarandığı fikrini dəstəkləmiş və bu adı saklarla əlaqələndirmişdir. (Газета.ру, 19 январ 2013)

Böyük sumerşünas alim Landsberqer Qutilərin mənşə etibarı ilə türklər olduqlarını və Qut adının əslində Quz olduğunu yazmışdır.

Azərbaycanın istər güneyi və istərsə də quzeyində mövcud olan Quzan, Quzər, Qarqar, Aqvan/Alban/Alpan, Padan/Padar adları ilə əlaqədar toponim və etnonimlər Xəzər dövlətinin yaranmasından daha qədim dövrlərə aiddir. Bu tayfaların ilkin vətənləri Kassi/Kusi və Qut/Quz etnoslarının məskunlaşdıqları Zaqros dağları yaylaları onun ətraf ərazilərin təşkil edən Güney Azərbaycanda idi. Görkəmli assuroloqlar F.Hommel, B.Landsberqer, A.Unqnad və digərləri adlarını qeyd etdiyimiz bu boyları Subar etnosuna aid edirlər. Sumer və Subar/Subirlər Mesopotamiya da daxil olmaqla Ön Asiyanın ən qədim Turanlı öntürk qohum etnoslarıdır. Sumirlər Mesopotamiyanın güneyində, Subirlər isə şimalında və Zaqros dağlarının yaylalarında məskunlaşmışdılar.

Xəzər dövləti qədim quz və ya oğuz boylarının yayıldığı Volqa boyu və Cənubi Sibir yaylalarında təşəkkül tapmışdır və dövlətin başlıca aparıcı ünsürünü Türk xaqanlığı dövründə oğuzların yabqu ünvanı ilə idarə olunan vassal dövləti təşkil edirdi. Hakimiyyət dövrü VI əsrin ikinci yarısına təsadüf edən Kazar yabqu Xəzər xaqanlığı yaranmadan öncə Göy Türk xaqanlığının qərb qolunun tərkibində vas-

sal sifəti ilə mövcud olan quz/oğuz dövlətinin ilk hökmdarı olmuşdur. Kazar adı Quzer adının dəyişik fonetik şəklidir.

Yuxarıda e.q. dövrlərdə quzərlərin yəhudilərlə əlaqəsi və xəzərlərin əslində quzərlər olduğunu qeyd etdik. Kazar xanın adı Bibliyanın Yaradılış kitabında Yafəsin nəvəsi Xəzərin adında öz əksini tapmışdır. Xəzərlərin xaqanı İosif öz məktubunda Yafəsin oğlu Toqarmın törəmələri olduqlarını, ulu əcdadlarının Toqarmın yeddinci oğlu Xəzər olduğunu qeyd edir. O Toqarmın on oğlunun sırasında başlıca türk boylarının əcdadları olan Avarın, Tirasın, Savirin, Barsilin, Quzun və s. adlarını da çəkir. (Коковцев П.К., 1932)

İosipponun Xalqlar cədvəlində Xəzər adı əslində olduğu kimi, yəni Kozar şəklində yazılmışdır. Türklərin geneologiyasından bəhs edən bir çox mənbələr, o cümlədən Xəzər xaqanı İosifin məktubunda, İosipponun Xalqlar cədvəlində, Misir müəllifi əl-Kəlbinin əsərində Xəzər dövlətinin qurucu boyları olan Xəzər, Barsil, Savir və Quz Toqarmanın oğulları və qardaşlar kimi təqdim olunurlar.

Barsillərin məskunlaşdığı ərazi birinci Sarmatiya adlanan Asiya Sarmatiyasına bitişik ərazidə Xəzərin şimalında İtil çayından başlamış Dağıstan da daxil olmaqla Qafqazın şimal ərazilərini əhatə edirdi. (Флюссер Д. Книга Иоссипон. 1978, Səh. 3-9)

Bibliyanın xalqların mənşəyi bölümünə şərhlər yazan yəhudi müəlliflərin demək olar ki, hamısı Torqamanın türklərin ulu əcdadı olduğu fikrini yekdilliklə qəbul edirlər. Yuxarıdakı bölümlərdə Torqumannu sözünün sumer mənşəli olduğunu və Toqarma adını Torkoman/Türkmən adının qədim fonetik şəkli olduğunu yazmışıq.

Bibliyanı rus dilinə tərcümə edənlər onun Yaradılış kitabında Qomerin oğlunun Torqam şəklində yazılmış adını yanlışlıqla, ya da bilərəkdən Toqarma kimi yazırlar. Avropa dillərindəki tərcümədə bu ad orijinalda olduğu kimi Thorqama şəklində yazılır. Göründüyü kimi sözün kökünü Torq, yəni Tork/Türk adı təşkil edir. Ön Asiyanın ən qədim turani xalqlarından olan xristian aysorların dini kitablarında Torqam adı düzgün yazılışla Turqam şəklində yazılır və onun adı Xristos, Mariya, Pavel, Pyotr kimi xristian müqəddəsləri ilə bir sırada çəkilərək liturgiyalar ona həsr olunmuş müqəddəs himnlər oxunur.

Xəzər etnoniminin kökünü quz və ya xuz kəliməsi təşkil edir. Uyğurların VIII əsrə aid Eletmiş Bilgə xaqana həsr olunmuş Tesin və Terxin kitabələrində oğuzların Kadır Kasar adlı başçılarından və onun ölümündən bəhs edilir. (Текст Тесинской стелы. 1983, №6, Səh. 76-91)

Quzların yabqusu Kadır Kazar Türk xaqanlığının banisi Bumın xaqan 552-ci ildə öldükdən sonra barsillərin başbuğu Bedi Barsillə bərabər üsyan qaldırmış və qarşıdurmada öldrülmüşdü. Kitabədən də məlum olur ki, Kadir Kazar və Bedi Barsil qardaşdırlar və hər ikisi də oğuzlara mənsubdurlar. Bu qarşıdurmadan və



oğuzların başbuğunun ölümündən sonra Türk Elində 20 il davam edən iç savaş başlamış və Böyük Türk xaqanlığının özəyini təşkil edən türküt-oğuz hakimiyyət ikiliyinə son qoyulmuşdur. Kadır Kazardan sonra onun varisləri Kazar adını sülalə adı kimi qəbul edərək digər türk boyları Aşinalar, Səlçuqlar, Qaraxanilər kimi öz boy birliyini və sonradan dövlətlərini Kazar və ya Xəzər adı ilə adlandırmışlar. Kazar adındakı Kadır sözü türkcə olub mənası güclü, qüvvətli, sərt anlamındadır və qədim türklər Kadır xan adıyla xaqanların ən güclüsünü, ən sərtini, Xaqaniyə ulusunun xaqanlarını adlandırırdılar. (Mahmud Kaşğari, C I, 2006, Səh. 369)

Fikrimizə görə Kazar adı daha qədim köklərə malik olub Kassilərin Quzer tanrı adına bağlı bir eponimdir.

Bedi Barsilin adındakı Bedi sözü türkcə Bedü sözünün dəyişik fonetik formasıdır və mənası böyük və böyümüş deməkdir. Mahmud Kaşğarinin atası da Bars adını daşıyan bu Barsqan şəhərindəndir.

Barsil adını Turana və Əfrasiyaba bağlayan bir fakt Barsqan/Barsxan adıdır. Mahmud Kaşğari Barsqanın Əfrasiyabın oğlu olduğunu və onun adı ilə Barsqan şəhərinin mövcud olduğunu yazır. Barsqan adı Bars xan adının fonetik variantıdır və barsil boyunun adı ilə əlaqədardır. Barsil boyu, görünür, Əfrasiyabın oğlunun adını eponim olaraq qəbul etmişdir.

Müasir tarixşünaslıqda xəzər türklərinin vətəni məsələsi dəqiq müəyyən olunmamışdır.

Xəzərlərin ilkin məskunlaşdıqları ərazi kimi qəbul edilən və Qafqazın şimalından başlayaraq Xəzər dənizi və Azov dənizi arasındakı əhatə edən bölgəyə nə zaman gəldiklərinin dəqiq tarixi məlum deyil. Onlar haqqında ilkin məlumat verən gürcü və bizans qaynaqları onların bu regionda miladdan öncə və miladın ilk illərində bu bölgədə məskun olduqlarını xəbər verirlər. Xəzərlər Avrasiyada mövcud olan Böyük Turan dövlətinin dağılmasından sonra onun öz mövcudluğunu qoruyub saxlayan bir parçası idi.

Yuxarıda izah etdiyimiz kimi Xəzər adının kökünün Quzər eponim və etnoniminin təşkil etdiyini və quzərlərin ilkin vətəninin Mesopotamiyanın şimalı və Zaqros dağlarının şimalını və şərqini, həmçinin Urmiyə gölünün ətrafını əhatə edən Güney Azərbaycan ərazisidir. Fikrimizə görə Xəzər/Quzər etnoniminin kökünü Quzər eponimi təşkil edir. Kassi dilində *Quzar* tanrı adıdır, bu adla Quzar Buqaş, Quzar ilu kimi tanrı adları yaranmışdır. Quzər teonimi Quz xalqının etnoniminə çevrilmişdir.

Quzan adı ilə Azərbaycanda çoxsaylı toponimlər mövcuddur. Quzan adının anlamı Quzların ölkəsi deməkdir. Heç şübhəsiz Assuriya mətnlərində adı keçən və Azərbaycanda yerləşən bu Quzan ölkəsi quz-oğuz tayfaları xəzərlərlə əlaqədardır.

Bir çox mənbələrdə Türk, islam və Yaxın Şərq xalqlarının dini inanclarında Xızır, Xıdır və Hıdır adlı müqəddəs şəxs haqqında bəhs olunur və çox zaman o peyğəmbər adlanır. Qurani Kərimdə adı çəkilməyərək Musa peğəmbərə elm öyrədən müdrik müəllimdən bəhs edilir. Araşdırıcılar həmin şəxsin Xızır olduğu fikrini irəli sürürlər. Çox zaman Xızırı Nuh peyğəmbərlə əlaqələndirilir və Xızır adını onun təxəllüsü hesab edərək onun müsəlmanlaşmış şəcərəsini Talya ibni Məlkan ibni Abir ibni Ərfəxşəd ibni Sam ibni Nuh kimi qeyd edirlər. Xızır adı Xızır Nəbi və Xızır İlyas olaraq daha geniş yayılmışdır.

Xızır peyğəmbərin Savalan dağında qeyb olması haqqında əfsanə mövcuddur. Dini rəvayətlərdə Xızır və ya Quzarın yəhudilərin Musa peyğəmbər ilə eyniləşdirilməsi, Quti tayfalarının Assuriya krallarının Fələstinə sürgün olunması və 11 yəhudi/sami tayfasının ordan sürgün olunaraq Qutilərin ölkəsi Quzanda eyni adı daşıyan çayın sahilində yerləşdirilməsi hadisəsi ilə əlaqədardır.

Yəhudilər Qutiləri Quzer/Khuzar adlandırırdılar. Onlar doğru olaraq köklərini Qut/Quz tayfalarının təşkil etdiyi Xəzərləri də Khuzer adlandırırdılar.

Quzar Kas/kusların ən önəmli tanrısı idi və onun adı digər tanrı adlarına əlavə olunaraq Quzer Buqaş, Quzar İlu şəklində ifadə olunurdu. Xızır peyğəmbərin adı da Kassilərin Quzar tanrısının fonetik şəklidir.

Quzar tanrı adı buddizmə etiqad edən türk, monqol/buryat və tibet xalqlarının eponimləri və epos qəhrəmanı olan Qeserin prototipini təşkil edir. Qeser həmin xalqların miflərində savaş tanrısı, göydən yendirilmiş Göyün oğlu, göydən yendirilmiş süvari qəhrəman kimi təqdim olunur. Heç bir əsas olmadan Qeser adını iran-soqda mənşəli söz kimi təqdim etməyə cəhd göstərirlər.

Kas/Kassilərin Quzar tanrı adı sonradan yunalılar vasitəsilə Avropada Kesar/kayzer şəklində imperator-kral tituluna çevrilmişdir.

Quz və ya quzərlər Ön Asiyada dövlətlər və xalqlar arasında baş verən qarşıdurmalar və özəlliklə Assuriya dövlətinin qonşu ölkələri öz əsarəti altına almaq üçün başlatdıqları və uzun illər ərzində davam edən müharibələr nəticəsində bölgənin digər tayfaları kimi öz vətənlərini tərk etmək məcburiyyətində qalmış və Qafqaz üzərindən şimal ərazilərinə, şərq istiqamətində isə Xorasana və Orta Asiyaya köç edərək məskunlaşmışlar.

Xəzər etnosunun ağ xəzərlər və qara xəzərlər olmaqla iki etnik qrupun birliyi olduğu haqqında fikir irəli sürülmüşdür. Əslində isə bu bölgü etnik xarakter deyil sosial xarakter daşıyır ona görə ki, türk etnoslarının bir çoxu, o cümlədən hunlar, qırğızlar, tatarlar və başqaları da eyni şəkildə ağ və qara adlanan bölgüyə məruz qalmışlar.

Xəzər dövlətinin əsas etnik kökünü quzlar və barsillər və sabar/savirlər təşkil edirdilər. Böyük Turan dövlətinin mövcudluğu dövründə barsillər və quz/oğuzlar dövlətin əsas hakimiyyət qollarını təşkil edərək Sibirin cənubundan Qafqazın şimalındakı ərazilər də daxil olmaqla boy ittifaqı şəklində öz dövlət təşəkkülünü qoruyub saxlamışdılar. Barsillər dövlətin qərb qolunu təşkil edirdi və onların hakim olduqları ərazi tarixi mənbələrdə Barsiliya dövləti adı ilə məlumdur.

Türklərdə ekzoqamiya ciddi törə ənənsi idi və hər bir boy yalnız dış boyla evlənə bilərdilər. Türklərdə hökmdar tayfanın yönəticiləri adətən əyan tayfalardan biri ilə bacanaq-kürqən ittifaqı quraraq yalnız ondan qız alıb evlənirdilər. Beləliklə, onlar dövləti həmin əsilzadə bacanaq tayfası ilə birlikdə idarə edirdilər. Barsillər və kuzər/quzərlər xaqanlıqda hakimiyyətin iki əsas qolunu təşkil edirdilər. Türklərin yaratdıqları bir çox tayfa birliyi dövlətlərində olduğu kimi Xəzər xaqanlığında da hakimiyyətin özəyini təşkil edən xəzərlər və barsillər arasında bacanaq/kürəqen münasibəti mövcud idi və Xaqan yalnız barsillərdən qız alıb evlənməli idi. Barsilllər isə Xəzər xaqanlığının hakimiyyət sülaləsini təşkil edən Quzerlər üçün kürqen/bacanaq boyu idilər. Pritsak buna uyğun olaraq tarixdən nümunə gətirib qeyd edirdi ki, Şərqi Göy Türk xaqanı Doqquz Oquz boyundan qız alırdı, Qərbi Göy Türk xaqanı On Oklardan qız alırdı, Karluklar Üç Oklardan qız alırdı, On Uyğurlar Doqquz Oquzladan evlənirdilər. Beləliklə, bacanaq-kürqən tayfaların başçıları bu evlilik ittifaqı ilə öz hakimiyyətlərini qoruyub saxlayır və dövlətin federativ idarəçiliyində iştirak edirdilər. (Peter Golden, 1980, Səh. 40)

Xəzər xaqanlığı Qərbi Türk xaqanlığınndan sonra 650-969-cu illər arasında Böyük Turan ərazisində təşəkkül tapmış qüdrətli türk dövlətlərindən biri idi. Xəzərlər ilk öncə Qafqaz dağlarında Azov və Xəzər dənizi arasındakı əraziyə sahib idilər. Burda onların İtil, Səməndər, Bələncər, Sarkel kimi önəmli şəhərləri mövcud idi. Krım Xəzər xaqanlığının tərkibində önəmli ərazilərdən biri idi. 560-cı ildən Xəzər xaqanlığı Böyük Türk xaqanlığının tərkibində vassal dövlət kimi mövcud olmuşdur. Bu dövlət süqut etdikdən sonra Müstəqil dövlətə çevrilərək öz ərazilərini genişləndirən Xəzər xaqanlığı şərqdə Azov ətrafını, indiki Qazaxıstanın şimal-qərb ərazilərini, Volqaboyunu, Dnepərqədəki əraziləri əhatə edirdi. Şimali Qafqazı hakimiyyəti altına alan xaqanlıq Azərbaycan və Qafqazın cənubundakı digər ərazilər uğrunda Bizans, Sasanilər və sonradan Ərəb xilafəti ilə daima mübarizə şəraitində idi. Sasanilər İranı və Ərəb xilafətinin təcavüzlərinə qarşı öz cənub ərazilərini qorumaq üçün ümumi adla xəzər adlanan boylara mənsub minlərlə insanı Azərbaycanda və Qafqazın cənubundakı digər bölgələrə yerləşdirilmişdilər.

Öz siyasi ənənələrini və hakimiyyət titullarını xəzərlər Türk xaqanlığından irsən almışdılar. Xaqanın hakimiyyəti sakral xarakter daşıyırdı və hakimiyyətin xaqana Tanrı tərəfindən verildiyi güman olunurdu. Xaqan tanrının yerdəki təmsilçisi idi və təbəələrinin nəzərində fövqəladə keyfiyyətlərə malik idi. Xaqanın ilahi keyfiyyətlərə malik olması onun üzərinə böyük məsuliyyət qoyurdu və xaqan ölkəyə qarşı baş vermiş uğursuzluqlar zamanı günahlandırılaraq vəzifədən kənar edilirdi. Xaqan vəzifəsi irsi xarakter daşıyırdı.

İlk zamanlar xəzərlərin dini etiqadını bütün türklərdə olduğu kimi Tanrıya olan inam təşkil edirdi. Xaqan Tanrının yerdəki təcəssümü hesab olunurdu. O Tanrı tərəfindən verilmiş hakimiyyət mənbəyi olan kuta sahib idi, kut eyni zamanda xalqın həyat enerjisini və səadətini təşkil edirdi.

Təxminən 740-cı ildə xəzərlərin ən böyük sərkərdəsi olan Bulan və onun ətrafı iudaizm dinini qəbul etdilər. Onun oğlu Obadiyə xəzər bəyləri Tərəfindən şad və bəy ünvanı ilə dövlətdə yüksək idarəçilik səlahiyyətləri verilmişdi. Xəzər dövlətinin iudaizm dinini qəbul etməsi təsadüfi xarakter daşımırdı. Yuxarıda geniş şəkildə izah etdiyimiz kimi Xəzər dövlətinin yaradıcı hakimiyyət boylarından olan Quzların yəhudilərlə istər Mesopotamiyada, istərsə də ordan köçlərə məruz qalaraq məskunlaşdıqları Xorasan və Türkistanda yüz illər ərzində yaxın münasibətlərə malik olub qaynayıb qarışmışdılar.

Türklərin şad ünvanını yəhudilər melex, müsəlmanlar məlik adlandırırdılar. Şad dövlətdə ikinci dərəcəli rol oynayırdı. Dövlətin əsas ali rəhbəri xaqan idi. Xaqanlar ənənəvi olaraq türkütlərin-göytürklərin nəsli olan Aşina soyundan seçilirdi. Xəzər xaqanlığında şadın və xaqanın timsalında ikili-dual idarəçilik sistemi mövcud idi. Şad öz mövqeyini getdikcə gücləndirərək real siyasi gücə çevrilmiş və xaqanın hakimiyyəti nominal xarakter daşımışdır.

Xəzər dövlətində ən yüksək zümrəni qəbilə aristokratiyası və onların içərisində ali təbəqə olan hökmdar nəslinin qohumlarından ibarət tarxanlar təşkil edirdi, onlardan aşağıdakı zümrə vassal xalqların hökmdarları olan eltəbərlər idi.

Əl-Məsudinin yazdığına görə Xəzər dövlətində məhkəmə hakimlərinin tərkibi yeddi nəfərdən ibarət olmuşdur, iki nəfər müsəlmanları təmsil edirdi, ikisi törə qanunlarına görə mühakimə edən xəzər idi, ikisi ordakı xristianları incil əsasında mühakimə edənlər idi, biri isə ruslar, slavyanlar və digər bütpərəstlər üçün idi. Bütün müsəlmanlar bu ölkədə larsi adlanırdılar. Bizim bütpərəst adlandırdığımız rus və slavyanlar saklab adı ilə çarın qoşununda xidmət edib onun xidmətçilərindən ibarətdirlər. (Гаркави А. Я. 1870, Səh. 63)

VII-VIII əsrlərdə Bizans imperiyasında yəhudilərin təqib edilməsinin güclənməsi onların kütləvi surətdə Qafqaza və xüsüsəndə Krıma və Qaradənizin şimal sahillərinə köçlərini gücləndirmişdi. Bu köçlər müxtəlif dinlərə qarşı tolerant münasibətin mövcud olduğu Xəzər dövləti ərazisində yəhudilərin sayının getdikcə artmasına səbəb oldu.

IX əsrin əvvəllərində Bulanın varislərindən Obadiya dövlətdə xaqandan sonra ikinci hesab olunan bir vəzifə əldə etdi və ölkədə real hakimiyyətə sahib oldu. Bu hadisə Xəzər xaqanlığında dual hakimiyyət sisteminin yaranmasına səbəb oldu. Xaqan hökmdar sülaləsinin təmsilçisi kimi nominal olaraq ölkədə ali hökmdar olsa da, ölkənin əsas siyasi gücü olan bəyləri hakimiyyətdə təmsil edən Bulanidlər



dövlətin gerçək idarəsinə sahib idilər. Ölkədə mövcud olan qarşıdurma vəziyyətindən narazı olan xəzərlərin kavar qolu hakimiyyətə qarşı üsyan qaldırdılar.

Xəzər dövlətində tolerantlıq mövcud olub dini konfessiyalar arasında uyum saxlansa da, yeni dinin qəbul olunması və dini fərqliliyin mövcud olması ölkədə tədricən qarşıdurmalara səbəb oldu.

Xəzər bir etnonim deyil, xaqanlığa verilən ümumi addır, Xəzər xaqanlığı bir neçə türk boyunun birləşərək yaratdığı siyasi bir təşəkkül idi. Xəzər dövləti konfederativ xarakter daşıyırdı. Xəzər etnosunun ən başlıca gücünü quzlar və savirlər təşkil edirdilər.

Yüksək savada, geniş ticarət əlaqələrinə və təcrübəsinə malik olan yəhudilər xəzər xaqanının sarayında və bəylərinin iqamətgahlarında mühüm vəzifələr əldə edir, nüfuzlu təbəqəyə çevrilərək şəhər əhalisinin mühüm hissəsini təşkil edirdilər. Lakin xəzərlərin yalnız bir qismi, onun hakim elitası iudaizm dininə etiqad edirdi. Xəzər xaqanlığı süqut etdikdən sonra yəhudi xəzər türkləri Avropada bir çox yəhudi kökənli xalqların əcdadı oldular.

IX əsrin əvvəllərində şərqdən qərbə doğru başlayan Xalqların yeni bir böyük köç dalğası nəticəsində çoxlu tayfalar, o cümlədən quzlar, polovetslər, macarlar Volqa çayını keçərək Qara dənizin şimal ərazilərində məskunlaşdılar. Onların tərkibində hərəkət edən macarlar xəzərlərin hakimiyyətini qəbul etdilər. Macarların başçısı Lebediy xəzər şahzadə qızlarından biri ilə evlənərək xaqanla qohumluq münasibətləri qurdu və xaqan tərəfindən macarların xanı titulunu əldə etdi.

889-cu ildə macarlar xəzərlərlərin önəmli boylarından olan kavarlar və digər üç tayfa ilə ittifaq qurdular və peçeneqlərlə qarşıdurmada öz yerlərini tərk edərək indiki vətənləri olan Pannoniyada yerləşdilər. X əsrin əvvəllərində müsəlmanlığı qəbul edən Volqa Bolqar dövlətinin güclənməsi, xaqanlığın ərazisindəki türk tayfalarının mərkəzi hakimiyyətə qarşı mübarizəsi, varyaqların basqınlarının artması və onların yaratmış olduqları Kiyev dövlətinin artmaqda olan təcavüzləri Xəzər xaqanlığının süqutuna səbəb oldu.

Ərəb mənbələri Xəzər xaqanlığının rusların 969-cu ildə geniş hücumları nəticəsində dağıldığını yazırlar. İbn Xaukalın yazdığına görə ruslar hücum edərək Volqa boyunda xəzərlərə, burtaslara və bulqarlara aid bütün məskənləri dağıdaraq onlara sahib oldular. İtilin sakinləri Bab əl Əbvaba qaçdılar, onların xəzər xaqanına qohum olan hökmdar təbəqəsinin əsas qolundan biri olan yəhudi aristokratiyası da meydandan yox oldu. Avropanın bir çox ərazilərində məskunlaşmış yəhudi əsilli karaim və krımçaq türkləri Yəhudi xəzərlərin varisləridirlər. Qafqazın şimalındakı qədim türk etnosu olan kumıklar xəzər türklərinin birbaşa varisləri hesab olunurlar.

Xəzər dövləti dağıldıqdan sonra mənbələrdə xəzər adlı hər hansı bir boya rast gəlinmir. Lakin xaqanlığın yaranmasında iştirak etmiş quz, savir, burtas, bulqar,

barsil boylarının bu və ya digər hadisələrdə iştirakı tarixi qaynaqlarda öz əksini tapmışdır.

Artur Kostler "On üçüncü qəbilə" adlı əsərində xəzər yəhudilərinin tarixindən bəhs edir və xəzərləri yəhudilərin qeyb olmuş 13-cü tayfası adlandırır. Bir çox tarixçilərin görüşünə görə ilkin orta əsrlərdə yəhudilərin əsas kütləsini Xəzər ölkəsindən çıxanlar təşkil edirdi. Avropanın şimali Fransa, Almaniya, Macarıstan və slavyan ölkələri ərazisində yaşayan yəhudilər Aşkenaz, İspaniya və Portuqaliyada yaşayan yəhudilər isə onların əksinə sefard yəhudiləri adlanırdılar. Elmdə qəbul olunan əsas nəzəriyyəyə görə Aşkenaz yəhudiləri Xəzər xaqanlığı dövründə *yəhudiliyi qəbul etmiş türklərin varisləridirlər.* X əsrdə varyaqların yaratdığı Kiyev rus dövləti zamanında knyaz Svyatoslavın (Sventos) hücumu nəticəsində Xəzər xaqanlığının varlığına son qoyulduqdan sonra Xəzər yəhudiləri Avropa ölkələrinə köçməyə məcbur olmuşdular. (A.Köstler. Der dreizehnte Stamm. 1976)

Aşkenazlar mənşə etibarı ilə türk irqinə mənsub olub Yafəsin nəvəsi idi. Aşkenaz etnonimi mənşə etibarı ilə türk sözüdür və iki cür izah olunur Aş-kuz, yəni İç Oğuz və As-quz, yəni As oğuzları. Qədim dövrlərdə Babildə və Assuriyada iskitlər Aşquz adlandığı kimi Almaniya da sami dilində Askuz və ya Aşkuz adlanırdı və bu ad altında adətən iskitlər nəzərdə tutulurdu. Qədim və ilkin orta əsr tarixi mənbələrində german tayfalarının iskit-sak mənşəli olduqları haqqında çoxlu məlumatlar öz əksini tapmışdır. Aşkenazlar alman dilli yəhudilərdir.

XVII əsrdə Ukrayna ərazisində məskunlaşmış və Xəzər xaqanlığı dövründən etibarən Ukrayna ərazisində yaşayan aşkenaz-xəzər mənşəli çox saylı yəhudilərin qalıqları 1648-ci ildə B.Xmelnitskinin silahlı dəstələri tərəfindən həyata keçirilən kütləvi qırğınlar və talanlar nəticəsində Ukraynanı və Polşanı tərk edib Qərbi Avropa ərazilərinə yayıldılar.

VI-X əsrlərdə oğuzlar Aral gölü ətrafından başlayaraq Xəzər dənizinin şimalını əhatə edən böyük ərazidə məskunlaşmış və burda sonradan Oğuz Yabqu dövlətini meydana gətirmişdilər. Xəzər xaqanlığı dönəmində oğuzlar barsillərlə birlikdə hakimiyyətin əsas qollarından birini təşkil edirdilər. Oğuzlar Xəzər xaqanlığının şərq ərazilərində məskunlaşmışdılar. Kiyev knyazlığının hücumları və Xaqanlığın aristokrat təbəqəsi ilə oğuzlar arasında baş verən nifaq nəticəsində Xəzər dövləti süquta uğradı. Oğuzlar Xaqanlığın Xəzər dənizinin şimalından Aral gölü ətrafını əhatə edən ərazidə yeni bir Oğuz yabqu dövləti yaratdılar.

Həmin dövrdə kanqlıların bir qolu da peçenek/bacanaq adıyla Oğuz birliyinə daxil idi. Kanqlılarla aralarında baş verən nifaq nəticəsində Oğuz yabqu dövləti tənəzzülə uğramış və oğuzlar əsasən Aral gölu, Sırdərya, Amudərya çayları vadilərində məskunlaşmışlar. Oğuzlardan ayrılan bacanaq-kanqlılar qərbə doğru hərəkət edərək kumanlarla birləşmiş və Qıpçaq boy birliyini meydana gətirərək qonşuları üçün təhlükə təşkil edən qüdrətli, döyüşkən bir topluma çevrilmişlər.



Öncə Oğuz çölü adlanan Xəzər dənizinəqədərki şimal əraziləri burda məskunlaşan qıpçaqların adı ilə Qipçaq çölü adlanmağa başlamışdır.

Oğuz xaqan dastanında da kanqlıların Oğuz birliyinə daxil olduqları qeyd olunmuşdur. Qıpçaqlar tarix səhnəsinə Oğuzlarla *aralarında yaranan ixtilafdan* sonra IX-XI əsrlər arasında çıxmışlar. Qıfçaq və ya Qıpçaq adı aralarında yaranan düşmənçilikdən sonra oğuzların öncə bacanaq adlandırdıqları kanqlı/kəngər boy birliyinin bir *qisminə verdikləri* təhqiramiz addır. Oğuzların Qədim oğuz dialektində "qıpçaq/qivçak" sözünün anlamı "uğursuz" və ya "bədbəxt/talehsiz" deməkdir. (ДТС, 1969, Səh. 449)

Yaqutların bir çox dialektində Oğuz adı öqüz, öküz, öqiz şəklində ifadə olunur. Bir çox müəlliflər yanlışlıqla Öküz sözünü hind-avropalı toxarların dilindəki oxso, yəni öküz sözündən yarandığını qeyd edir və bu sözün digər hind-avropa dillərinə oks və ochs şəklində keçdiyini iddia edir. (A.M. Щербак. 1973. Səh. 36)

Yuxarıdakı bölümlərdə qeyd etdiyimiz kimi Ukus sözü sumerlərə məxsus olub sumer dilində öküz anlamındakı Qud/Quz sözünə "u" önşəkilçi artırmaqla meydana gəlmişdir. Öküz türk dilində həm çay, həm də öküz/buğa anlamı daşıyır və bu söz digər dillərə türk dilindən keçmişdir.

Mesopotamiyanın *sami xalqları turanlı* Qut xalqını Quz adlandırırdılar, farslar "xuz", yunanlar isə "uksi" adlandırırdılar.

# XXVII FƏSİL. Gürcüstan-Sakartvelo-Barseli

Sovet dövrü tarixşünaslığında Gürcüstan və Ermənistanın tarixləri qədim Turan və türk tarixi hesabına başdan-başa saxtalaşdırılmış və bu xalqlar üçün süni tarix yaradılmışdır.

Gürcü tarixi haqqındakı ilkin mənbələr "Kartlis tsxovreba" adlı gürcü salnamələr toplusunda şərh olunur. İki hissədən ibarət olan "Kartis tsxovreba"nın qədim dövrü əhatə edən hissəsi Nuhdan başlayaraq XIV əsrə qədərki dövrü, yeni dövr tarixini əhatə edən ikinci hissəsi isə Gürcüstanın XIV əsrdən XVIII əsrə qədərki dövrü əhatə edilir.

Avropanın bir sıra tarixçilər bu salnamələri orijinal hesab etmirlər. Polyak tatixçisi Senkovski bu salnamələrin iddia edildiyi kimi heç də qədim dövrdə deyil, XVIII əsrdə Gürcü çarı VI Vaxtanqın göstərişi ilə tərtib edildiyi fikrini irəli sürür. Senovskinin yazır ki, "Gürcülər özlərini çox qədim bir xalq kimi qələmə verirlər və tarixlərini ilk çarları hesab etdikləri Parnabazın e.q. 268-ci ildəki hakimiyyət dövründən başlayırlar və 1800-cü ildə XIII Georginin hakimiyyətinə qədər davam etdirirlər". (Сенковски. T. VI, 1859, Səh. 172)

Bu xronologiyanı saxta hesab edən Senkovski istehza ilə yazır ki, bu cür qədim tarixə yalnız çinlilər iddia edə bilərlər. Gürcü salnamələrinin həqiqiliyinə şübhə ilə yanaşan Senkovskinin yazdığına görə gürcülər Makedoniyalı İsgəndərin dövründən başlayaraq öz tarixlərində 98 hökmdar müəyyən edirlər. Lakin İsgəndərin dövründən Böyük Pyotra qədərki dövrdə onlar hər hansı bir salnaməyə malik deyillər. Yalnız XVIII əsrdə Gürcü çarı VI Vaxtanq gürcülərin tarixini Nuhdan başlayaraq XIV əsrə qədər əhatə edən bir salnamə tərtib etmişdir. Vaxtanq salnaməsini yazarkən özündən əvvəlki heç bir qədim salnamə və xronikaya istinad etmədiyi halda, onun oğlu Vaxuşti atasının işini davam etdirərək hansısa özündən əvvəlki salnamələrə və sənədlərə istinad etdiyini, lakin onların sonradan izsiz qeyb olduqlarını qeyd edir və illərin xronikasını da göstərir. (Сенковски, T. VI, 1859, Səh. 173)

Senkovski gürcülərin bir etnos kimi XII əsrdən öncə mövcud olmaları haqqında gətirdikləri tarixi dəlillərə şübhə ilə yanaşır. Onun qənaətinə görə gürcülərin özlərinə əcdad hesab etdikləri İber adlı xalq mövcud olmamışdır. İber adı iskit, sarmat, alman, alan, german və s. tayfaları öz tərkibində birləşdirən ümumi ad olmuş və İberiya hər hansı bir etnik birlik deyil, Tiflisdən başlayaraq Kür çayı arxasındakı əraziləri əhatə edən ölkə adı olmuşdur. İberiya öz tərkibində ermənilər, medləri, massagetləri və türkləri birləşdirmişdir və onlar bütövlükdə alban adlanırdılar. (Сенковски, T. VI, 1859, Səh. 175)

Alban və ya Aqban adına aydınlıq gətirərək qeyd etmək lazımdır ki, B.Landsberqer, F.Hommel, A.Unqnad və digər assuroloqlar Zaqros dağları bölgəsində mövcud olan digər bəylik dövlətləri ilə yanaşı Padan və Aqvan/Alman dövlətlərinin də adını qeyd edirlər.



Telavidən quzeydə və Alazandan solda yerləşən Alan düzənliyi Aqvan adını qoruyub saxlamışdır. Albaniya adı müxtəlif dövrlərdə müxtəlif əraziləri əhatə etmişdir. Strabon Kaxetiya və Dağıstanı da Albaniya adı altında birləşdirir və bu ölkənin kral Oresesin (Oreses Əfrasiyabın qardaşı Aruzun yunanca təhrif edilmiş şəklidir. Dədə Qorqudda o At ağızlı Aruz qoca kimi adlanır) başçılığı altında 70 min döyüşçü ilə Pompeyin Roma qoşununa qarşı mübarizə apardığını yazır.

İndiki Ermənistanı əhatə edən və gürcülərin Somxeti adlandırdıqları ölkə Tayk və Quqark əyalətlərini əhatə edir. Ermənilər onlara aid olmayan bu ərazini Vratstan adlandırırlar. (Mari Brosset, 1858, Səh. X)

Gürcülər özlərini kartli, ölkələrini isə Sakartvelo adlandırırlar. Sakartvelo etnoniminin etimalogiyasının dəqiq izahını bu günədək vermək mümkün olmamışdır.

Fikrimizə görə Sakartvelo adı Saqarteli adının dəyişik fonetik şəklidir. Mənşə etibarı ilə Barsilllərlə birlikdə turanlı öntürk tayfaları olan və Borçalıdan şərqdə, Gürcüstanın mərkəzi ərazisində yerləşən Saqartu və ya Saqarteli tayfası sonradan gürcü dövlətinin hakim təbəqəsini təşkil etmiş və Sakartvelo şəklində dəyişikliyə uğrayaraq gürcülərin ölkəsinin adına və ümumiləşdirici etnonimlərinə çevrilmişdir. Azərbaycandakı Zaqatala adı da əslində Saqarteli adının fonetik dəyişikliyə uğramış şəklidir. Qədim gürcü dilində ölkənin adı Sakartueli/Sakartuelni şəklində yazılırdı.

Tarixi mənbələrə əsasən Saqarta Qutilərdən yuxarıda yerləşən və saqar adlı dağlı tayfaların yaşadığı ölkədir. Yuxarıdakı bölümdə bəhs etdiyimiz kimi bir çox müəlliflər Saqarta adını "dağlı saklar" şəklində izah edirlər. Turanlı öntürklərdən ibarət olan Artalılar təkcə Saqartanın deyil, Barsuanın da etnik kökünü təşkil edirdilər.

Babil mətnlərində o "Kur Saqarta", Elam mətnlərində "Assakarti", yəni Saqartalar ölkəsi adlanır. Saqarta Barsua ilə qonşuluqda yerləşirdi və Zaqros dağları yaylalarında məskunlaşmış digər xalqlar ilə qohum idilər. II Sarqonun öz kitabəsində Saqartanın Zaqros dağlarının şimalında yerləşdiyini yazır.

Saqartu Assur mixi yazılı mətnlərində Zikurtu şəklində yazılmışdır. Saqartu bəylik dövlətinin mövcudluğu e.q. 750-520-ci illərdə mixi yazı mətnlərində qeyd olunmuşdur. Saqartu Manna dövlətinin tərkibində olub Zaqros dağlarının şimalında, Manna dövlətinin şərqində yerləşirdi. Qədim Saqartu dövlətinin ərazisi Azərbaycanın Qızıl Üzən çayı və ona birləşən digər çayların vadilərini, Ağdağ, Elburs və Səhənd dağlarının ətəklərini və Takab bölgəsi də daxil olmaqla dağlıq ərazidən ibarət idi.

Saqartunun hökmdarı Matati e.q. 716-cı ildə yaşamışdır. Saqartunun hökmdarı Matatti Midiya şahzadəsi idi və o Urartu tərəfdarı bir siyasət yürüdərək, Baqdati

və Talusin ilə birləşib Midiya ilə ittifaq yaratmış və Assur çarı II Sarqona və müttəfiqi olan Manna hökmdarı Azaya və onun oğlu İranzuya qarşı üsyan qaldırmışdılar.

E.q. 720-ci ildə Mannada siyasi vəziyyət dəyişikliyə uğradı. Urmiyə gölünün şimal hissəsində yerləşən ərazilər Urartu dövləti tərəfindən zəbt olundu. Manna dövləti konfederativ quruluşa malik idi və tərkibində indiki Marağa və Xərək ərazilərində yerləşən Uiş Diş, mərkəzdə Qızıl Üzən vadisində Saqartu, Qızıl Üzənin yuxarı vadisində isə Deyokun Maday bəylik dövləti yerləşirdi. Bu bəylik dövlətləri konfederasiyasını təşkil edən Manna Urartuya qarşı Assuriya ilə müttəfiq idi.

E.q. 715-ci ildə Assur kralı II Sarqon Mannaya qarşı ittifaq yaradaraq hərbi əməliyyatlara başlayan Saqartu, Uş Diş və Andini cəzalandırmaq üçün hərbi yürüş təşkil etdi. O bu ölkələri tabe edərək 4200 qiyamçını əsir aldı və çoxlu qənimət ələ keçirdi.

Saqartalar Maday tayfalarından hesab olunurlar. Assurlar Saqarta elçiləri ilə Manna dili tərcüməçiləri vasitəsilə danışırdılar və Saqarta elçilərinin adları iranlı adları deyildilər.

Bir çox müəlliflər bu ərazidə yerləşən tayfa bəylik dölətlərini Midiyalılara aid edir, midiyalıların da öz növbəsində isə Subar olduqları qəbul görmüşdü. Saqartanın ikinci paytaxt şəhəri indiki Ərbil şəhəridir. Ərbilin əsl qədim adı Arbela və ya Artabeladır. Bu adın mənasını müasir dövrdə sami/ərəb dilindəki "Arbaala", yəni dörd şəhər kimi izah edirlər. Lakin şəhərin adı qədim Turan öntürk dilindədir. Ar/Art sözü türk dilində dağ mənasındadır və şəhərin adı "dağ beli" deməkdir. Ərdəbil adı da, eyni ilə bu mənanı daşıyır.

E.q. 715-ci ildə Midiya hökmdarı Kiaksar bir midiya bəyliyi olan Saqartanı öz hakimiyyəti altına almışdır. Əsas məskunlaşdıqları ərazi Zaqros dağları olan Saqarta hökmdarı Assuriyaya qarşı mübarizədə göstərdiyi sədaqətə görə Ərbil ərazisi də onun idarəsinə verilmişdi. Ptolomey Saqartanın Midiyada yerləşdiyini yazır. Bizanslı Stefanos Xəzər dənizində Saqarta adlı yarımadanın olduğunu və saqartalıların köçəri heyvandar tayfa olduğunu yazır. (Markwart J. 1905, Səh. 228)

E.q. 615-ci ildə Saqarta Midiya və Babillə birlikdə Assuriyaya qarşı müharibədə iştirak edirdi. E.q. 539-cu ildə II Kir Midiyada hakimiyyəti ələ keçirdikdən sonra Saqartanı da Əhəməni dövlətinin tərkibinə qatmışdır.

Bisütun kitabəsini oxuyub ilk tədqiq edənlərdən biri İngilis assuroloqu Edvard Norris Əhəməni kitabələrindəki mətnləri araşdıraraq "Arta" adının Bars ölkəsi əhalisinin özadlandırmaları olduğu fikrini irəli sürür. Herodotun bəhs etdiyi Saqarta adının kökü də bura bağlıdır və Herodot saqartların Zaqros dağları ərazisində yaşayan köçərilərlə eyni dildə danışdıqlarını yazır. Artalar köçəri sak tayfaları idi. Sak dilindəki mətnlərin məhz Artaların yaşadıqları ərazidə mövcud olması belə bir ehtimal doğurur ki, Kirin əcdadları və onların mənsub olduqları tayfa bu dağlı saklara mənsub olmuşlar. (Norris E. 1852, Səh. 201)



Norrisin şərhindən belə nəticəyə gəlmək olur ki, Saqarta adının mənası Saq artlar, yəni sakların art boyu "dağlı" artlar deməkdir.

Daranın Bisütün kitabəsində yazıldığına görə Əhəmənilərə qarşı üsyan edən Saqarta hökmdarı Turtantahmas özünü midiya hökmdarı Kiaksarın varisi adlandırmış və Daraya tabe olmaqdan imtina etmişdir. Daranın öz dilindən ifadə edilərək kitabədə əks olunan bu tarixi fakt Saqartaların həqiqətən də midiya tayfa birliyinə mənsub olduqlarını təsdiq edir.

Assuriyanın Zaqros dağlarında məskunlaşmış bəylik dövlətlərini itaət altına almaq məqsədilə təşkil etdiyi çoxsaylı hərbi yürüşlər nəticəsində Assur zülmündən xilas olmaq üçün Barsua, Zamua, Subir, Aqvan, Padan, Qarqar, Quzan tayfaları ilə birlikdə Saqartalıların da bir qismi öz yurdlarını tərk edərək Barslarla birlikdə şimal ərazilərinə doğru hərəkət etmiş və Subir, Aqvan, Quzan və Qarqar tayfaları Güney Qafqaz və o cümlədən Quzey Azərbaycan ərazisində məskunlaşmışlar. Barslar Saqartalılarla birlikdə indiki Gürcüstan şərq ərazisində məskunlaşmışdılar. Güney Qafqazda Kür çayının yuxarı vadilərindəki ərazilərdə məskunlaşmış Saqarta və Barsil tayfalarının adından gürcülər özlərini Sakartelo, yəni Saqart-eli, Saqar ölkəsi adlandırmışlar. Gürcüstan ərazisinin digər hissəsi isə Barsların adından Barseli adlanmışdır, bu ad gürcü dilininin fonetik ifadə şəklinə uyğun olaraq Barçalı/Borçelo şəklini almışdır. Barsillərin böyük qismi də quzeyə doğru hərəkət edərək Xəzərin şimalında və onun şimal-şərq ərazilərində məskunlaşmışdılar.

Sonradan danışıq dilində Borçalı və Bozçala kimi adlanan Azərbaycan ərazisindəki Barselilərin bir hissəsi qədim yurdları Urmiyə gölü ətrafında bu günədək yaşamaqda davam etmişlər. Borçalılar və ya Bozçalılar bu günki Gürcistanla yanaşı Azərbaycanın güneyindəki Sulduz bölgəsində, Həmədan vilayətində, İranın Mərkəz ostanında Ərak vilayətində Bozçalı nahiyəsi, Qomican, Təfriş, Fərahan, Növbəran, Famən kimi şəhərlərində də yaşamaqdadırlar. Borçalıları yanlışlıqla monqolların türkləşmiş Aralat boy birliyinə aid hesab edirlər. (Rəcəb Albayrak. 2016, Səh. 591)

Bir çox müəlliflər bütövlükdə gürcüləri orda qədimdən məskunlaşan turanlı tayfalara görə Turan irqinə mənsub hesab edirlər. Bir çox antropoloqlar hititləri onların qafataslarının son dərəcə yumru olduğunu müəyyən etmiş və qafqaz-gürcü xalqı ilə yaxın əlaqədə olduqları fikrini irəli sürürdülər. Alman assuroloqu Artur Ungnadın fikrincə Hitit dövlətinə mənsub olanların böyük əksəriyyəti istər ərazi, istər dil mənsubiyyəti və istərsə də dini etiqad baxımından subarlılar idilər. Bu insanların hititli olması yalnız onların Hitit dövləti təbəələri olması ilə müəyyən olunurdu. (Artur Ungnad, 1936, Səh. 175, 176)

Turanlı öntürk tayfaların çox qədim zamanlardan etibarən indiki Gürcüstan ərazilərində məskunlaşdıqları bir çox qədim mətnlərdə də öz əksini tapmışdır. Salnamələrdə yazıldığına görə Pişdadian sülaləsindən Keyxosrov türklərə qarşı mübarizə apararkən 28 türk ailəsi qurtulmaq üçün Gürcüstanda sığınacaq tapmış və Mamasaklilər sülaləsi onları Mtsxeti yaxınlığındakı ərazilərdə yerləşdirmişlər. Bu tarixi fakt ilk dəfə Klaprot tərəfindən irəli sürülmüş və sonradan San Martin bu rəqəmi öz salnamə nüsxəsində aşkar etmişdir. Lakin Rumyantsev muzeyində saxlanılan bir salnamə əlyazmasında Gürcüstana sığınan bu türklərin 28 deyil, 28 min ailə olduğu yazılmışdır. Vakhouct bu yerləşdirilən türklərin 2800 evdən ibarət olduğunu qeyd edir. Salnamələrdə bu türklər Barbaslar adlandırılır. (Mari Brosset, 1858, Səh. XXIII)

Keyxosrovla əlaqədar bu tarixi hadisə İranlı arilərin e.q. VIII əsrdə şərqdən gələrək Urmiyə gölündən güneydə məskunlaşmış turanlı Bars, Saqarti, Qurzan, Aqvan, Qarqar tayfalarının ərazilərinə basqınları nəticəsində bu tayfaların öz yerlərini tərk edib şimala-Qafqaz istiqamətində hərəkət edərək Qafqazın cənub ərazilərində yerləşmələrini əks etdirir. Salnamələr Mamasaqilərin himayə etdiyi bu türkləri yanlışlıqla Barbas adlandırırlar, heç şübhəsiz onların əsl adları Barsdır və onlar Urmiyə gölünün yaxınlığındakı Bars/Parsua ölkəsinin turanlı xalqıdır. Yuxarıda qeyd etdiyimiz kimi Barslar da etnik mənşə baxımından Arta sakları olub Bars adı onların eponim totemləri idi. Bir çox tarixi mənbələrdə yazıldığı kimi e.q. 900-cü ildə şərqdən gələn iranlı arilər ilk öncə həmin Barsua ölkəsində yerləşmiş və yerli turanlı əhali önlara qarşı mübarizə şəraitində öz yurdlarını tərk edib quzeye doğru köç etmişlər.

Yadelli İranlı tayfaların bu ərazidə yerləşmələri onlarla yerli turanlı tayfalar arasında gərgin mübarizəyə səbəb olmuş və sonradan Barsada yerləşən irandilli tayfalar da assurların təzyiqinə davam gətirməyərək yerli turanlı artaların bir qolu olan Akaman ailəsinin rəhbərliyi altında güneyə doğru hərəkət edərək indiki Fars vilayətində yerləşmiş və Parsua/Parsamaş adlı yeni bir krallığın əsasını qoydular.

Borçalı elinin adının izahı bəzi toponimik lüğətlərdə və Vikipediyada "börü çala" kimi izah olunması fikrimizə görə toponimin adının gerçək anlamına uyğun deyil.

Borçalının adının Bars adından ibarət olduğu ərəb coğrafiyaçısı Yakut Həməvinin əsərində də əks olunmuşdur. Yakut yazır ki, Barşəliyyə Arranda yer adıdır və Pers şahlarının salnamələrində də onların adı çəkilir. (Иакут-ал-Хамави. Муджам ал-Булдан. T II, 1983. Səh. 127)

Barşəliyyə adı Barseli adının ərəb dilindəki fonetik şəklidir.

Qədim dövrlərdən etibarən özünü müstəqil el kimi idarə edən, sonradan Gəncə bəylərbəyliyinin bir hissəsi olan Borçalı eli Qacarların Ziyadoğulları qolunun idarəsində idi. Nadir xan onun hakimiyyətini tanımayan Ziyadoğullarını cəzalandırmaq üçün tarixi bir yanlışlığa imza ataraq Borçalını Gəncə bəylərbəyliyindən ayıraraq 1736-cı ildə idarəsini Əfşar dövlətinin tabeçiliyində olan Kartli-Kaxeti çarına vermişdir.



Gürcü etnoniminin mənası da çox maraq doğuran bir məsələdir. Bu adın mənası müxtəlif şəkillərdə izah olunur. Fransız Mari Brosse "gürcü" etnoniminin iddia edildiyi kimi Müqəddəs Georqun adından deyil, Kur/Kür çayının adından yaranması versiyasına üstünlük verir. Brosse Aqvan və ya Alban adının mənasının ermənicə "şirin" demək olduğu fikrin qətiyyətlə əleyhinə çıxır. (Mari Brosset, Histoire de la Georgie, Səh. VI)

Gürcülərə türklər və farslar tərəfindən verilən *Gürcü* ekzoetnoniminin kökünü təşkil edən *Qurq/Qurğ* adının mənası iran dillərindən alınma söz olaraq qurd kimi izah olunur. Gürcistan adının mənası "Qurdlar ölkəsi" kimi şərh olunur. Gürcüstan adı Xəzər dənizinin Cənub şərqində yerləşən və adı eynilə "Qurdlar ölkəsi" anlamında Gürqan və ya Hirkaniya, sonradan Astrabad olan əyalətin adı ilə əlaqələndirilir. Lakin Xəzərin cənubunda yerləşən Gürqan ilə Gürcüstan arasında tarixən hər hansı bir bağlılıq müəyyən etmək mümkün olmamışdır. Fikrimizə görə türklərin, farsların ifadə etdikləri Gürcü və Gürcüstan adının mənasının fars dilindən alınma və anlamının qurd olduğu "qurq" sözündən götürüldüyü haqqındakı fikirlər gerçəkliyi əks etdirmir.

Ərəb tarixçisi Yakut Həməvi Tiflis haqqında yazır ki, bu şəhəri Arrana da aid edirlər və o Qurzan ölkəsinin paytaxtıdır. Ərəblər Qürzan adını "Cürzan" şəklində də ifadə edirdilər. (N.M.Vəlixanlı. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı, 1974).

Digər Ərəb müəllifləri də Gürcüstan adını "Qurcan/Qurzan/Cürzan" kimi ifadə edirdilər. Qurzan və ya Quzan Assur və Urartu mixi yazılı mənbələrində Urmiyənin şimal şərqində və Diyala çayının sahilində yerləşən ölkə və bəylik dövlətlərinin adıdır. Qurzan, Bars, Aqvan, Qarqar, Saqartilər turanlı tayfaların yaşadıqları ölkələr və onların yaratmış olduqları bəylik dövlətləri idilər.

B.Landsberqer, F.Hommel, A.Unqnad və digər assuroloqlar Zaqros dağları bölgəsində mövcud olan digər bəylik dövlətləri ilə yanaşı Padan və Aqvan/Alman dövlətlərinin də adını qeyd edirlər.

Ön Asiyada Quzan və ya Qurzan adında iki ölkə mövcud idi. Biri indiki Suriya-Türkiyə sərhəddində yerləşən Tell-Halaf adlı xarabalıqların yerində əsl adı Quzan olan Habur çayının sahilində yerləşirdi, digəri isə Urmiyə gölünün quzey-batısında Qızıl Üzən çayının sahilində yerləşirdi. Habur çayı ətrafında yerləşən Quzan şəhəri e.q. II minilliyin ortalarında Hurrilərin paytaxtı olmuşdur. Sonradan burda arameylər yerləşmişlər. E.q. VIII əsrdə Quzanı işğal edən Assuriya İsraildən yəhudilərin bir qismini gətirib burda yerləşdirmişdi. Yəqin ki, Assuriyanın zülmündən

xilas olmaq üçün Quzan əhalisinin bir qismi köçərək Kiçik Asiyanın şimal ərazilərində yerləşmişlər.

İlk öncə İranlı arilərin şərqdən gələrək Zaqros dağları yaylalarında məskunlaşması nəticəsində bu ərazidə yaşayan yerli turanlı tayfaların bir qisminin öz ərazilərini tərk edərək şimala doğru köçlərinə səbəb olmuşdur. Bu bəylik dövlətlərinin məruz qaldıqları ikinci köç dalğası Assuriya qoşunlarının bu dövlətləri özlərinə tabe etmək üçün təşkil etdikləri çoxsaylı hərbi yürüşlərin təzyiqi altında baş vermişdir.

Yunan əfsanəsinə görə də Gürcü dilində pələng *Vepkhvi* deməkdir, qurd *Mqeli* deməkdir. Rustavelinin əsəri kimi təqdim edilən "Pələng dərisi geymiş pəhləvan" əsəri əslində Barsillərin dastanıdır və əsl adı Bars dərisi geymiş pəhləvandır. Pələng Bars adının fars dilinə tərcüməsidir. Bars Saq/Sak turanlı öntürklərin totemionqonu olmuş və sakların hökmran boyu Bars adını daşımışdır. Bars və Tonqa adları pələng adının türk dilinin fərqli dialektindəki adlarıdır. Samilər onlarla qonşuluqda, Zaqros dağı ilə Dəclə çayı arasında məskunlaşmış olan Basları Namri adlandırırdılar. Sak qəhrəmanları olan Əfrasiyab və Rüstəm Zal qədim miniatürlərdə başından kürəyinə qədər Bars dərisi ilə örtülmüş geyimdə təsvir olunurlar.

Mari Brosse yazır ki, Azərbaycana gələn Nimrud burda yerləşdi və sonra özünün 60 nəhəngin başçılığı ilə böyük bir ordunu Torqamın övladlarının üzərinə göndərdi. Namri Barsın sami dilindəki adıdır. Bibliyada yazıldığına görə Nimrud Sinnarda və Sumerdə dünyada ilk imperatorluğun əsasını qoymuşdur. Nimrud sami dilindən tərcümədə Bars deməkdir. Avropanın bir çox tarixçiləri Nimrudun mənşə etibarı ilə turanlı olduğunu təsdiq edirlər.

Gürcüstanın İberiya adlanan ərazisinin də tarixi öntürklərin iber boyu ilə əlaqədardır. İber sözü mənşə etibarı ilə Tiber adından yaranmışdır.

Tiberlər Kiçik Asiyanın mərkəzində məskunlaşmış turani tayfalar idi. Tiber adı sumer mənşəyinə malikdir. Bad-Tibira şəhəri Sumerdə Urukun yaxınlığında bir şəhərdir. Tufan nəticəsində Tiberlərin bir hissəsi digər sumer tayfaları birlikdə Mesopotamiyadan şimaldakı ərazilərə köçüb yerləşmişdilər. Əsas peşələri dəmirçilik və dəmir emalı olan tiber/iberlər Anadoluda da dəmirçiliklə məşğul olmuşlar. Bibliyada adı çəkilən Tubal tayfası Tiber adının dəyişik fonetik şəklidir. Gürcüstanda yerləşən iberlər Tiberlərin bir hissəsidir və burdakı dağlıq ərazilərdə metal emalı və dəmirçiliklə məşğul olan xalq idi. Yunanlar Tiberləri İber adlandırırdılar.

"Hurri dilində ta-ibira sözünün sumer dilindən alındığı haqqında fikirlər mövcuddur. Sumer dilində Ta-ibira dəmirçi və mis əridən deməkdir, bu söz hurri dilində "əritmək", "qəlibə tökmək", "xəlitə" kimi sumer dilində olduğu kimi oxşar mənalar daşıyır. Ta-ibira sumer dilində o qədər qədim bir sözdür ki, Sumer tarixinin ilkin dövrünə aid Bad-Tibira adı da bu addan yaranmışdır. (Dennis R. Campbell M. 2020, Səh. 204)



Bad-Tibir şəhəri əhalisinin bir qismi də Uruk və sumerin digər şəhərlərin əhalisi kimi samilərin təzyiqi ilə İkiçayarsından köçərək şimal ərazilərinə Anadolunun cənub və mərkəzi ərazilərində yerləşmişdilər. Həmin şəhərlərin əhalisi tibir/tubal, urume kimi turanlı tayfaların özəyini təşkil etmişdilər.

Gürcüstan ərazisində yerləşmiş saqarta, barsil və Tiber/iber tayfaları turanlı tayfalar idilər və e.q. VI əsrdə Gürcistanda Kartli-İberiya dövlətinin əsasını onlar qoymuşdular.

Dyakonov Tabal adının gürcücə göl anlamındakı "tba" sözündən yarandığı fikrini qəbul etmir və qeyd edir ki, Taballların ərazisində göl yox idi. O Tabal adının iber və tiberlər adı ilə əlaqəsini təsdiq edir. (Дьяконов И, Səh. 1968, 170)

Senkovskinin yazdığına görə qədim iberiya/iveriya adı bir etnonim olaraq izsiz şəkildə silinib getməmişdir, *b-m* hərf əvəzlənməsinə uyğun olaraq İber sözü İmer şəklini almış və İberiya İmeretiya şəklində bu gün də mövcuddur. (Сенковски, Т 6, 1859, Səh. 175)

İber-Sibir qədim tayfa birliyinin kökü Sibirə bağlıdır və ərəb mənbələri bu ərazidə Sibir-İbir yer adından bəhs edirlər. İber adının fonetik şəkli olan İmir eponiminin kökü turanlı öntürklərə bağlıdır və german-skandinav mifologiyasında İmir ilk insandır və asların düşməni obrazındadır. Nəhəng və güclü İmiri mübarizə zamanı Odin və onun qardaşları tərəfindən öldrülmüşdür.

Gürcüstan ərazisində geniş yayılmış İmir kişi adı İber adının fonetik dəyişik formasıdır. Qəribə burasıdır ki, bu ada gürcü kişi adları arasında rast gəlinmir.

Qədim erməni mənbələrində Gürcüstanın adı "İver aşxarx" kimi qeyd olunmuşdur. Heç şübhəsiz ermənilər İver adını yunan mənbələrindən götürmüşlər. Sonrakı dövrlərdə ermənilər Gürcüstanın adını qısaldılmış şəkildə "Veratsi" və "Virai" şəklində ifadə etmişlər. Qədim Gürcüstanı Farslar "Vrakan/Virkan" adlandırırdılar, sözün kökü olan Vira İver adının qısaldılmış şəklidir, sondakı "an" isə yer bildirən suffiksdir.

Gürcüstan tarixinin fransız tədqiqatçısı və gürcü salnamələrini araşdıran ilk avropalı alim Mari Brosse yazır ki, Verhin adı, Aqbaniya və ya Ağvan adının yunan və ya latın variantıdır. (Mari Brosset, 1858, Səh, IV-V)

İtalyan tarixçisi Emanuel Kelesia Gürcüstanda mövcud olan İberiyanı İspan İberlərinin kaloniyası hesab edir. (Emanuelle Celesia. 1863, Səh. 14).

Gürcüstanın tarixində önəmli rol oynayan tayfalardan biri də tarixçilərin əksəriyyətinn turanlı hesab etdikləri Mesexlər və ya Moşklar idi. Gürcüstandakı Mesxet bölgəsi və Gürcüstanın qədim paytaxtı Mtsxet şəhərinin adı, Mesxeti vilayəti və bir çox digər toponimlər də mesex tayfasının adı ilə əlaqədardır. (История Грузии, 1962, Səh. 21)

Gürcü tarixçisi P.İoseliani Tiflis adının mənasını gürcü dilində "isti" anlamında olan *tbili* sözündən yarandığı və keçmişdə Tiflis yaxınlığında isti bulaqların

olduğu fikrini irəli sürür.

Yafəsin oğlu Tibar və onun Tibarlar adlanan törəmələri Kiçik Asiyada Qara dənizin Cənub-şərqində məskunlaşmışdılar. Tibarlar Bibliyada Tibal və ya Tubal adlanırlar. Əsas peşələri metalçılıq olan Tibarlar Finikiyanın paytaxtı olan Tir və bəzi mənbələrdə adlandığı kimi Tur şəhəri ilə ticarət edərək ora bürünc və qullar göndərirdilər. Bibliyada və Assur mətnlərində Mesex və Tubal/Tiber tayfalarının adları həmişə yanaşı çəkilir.

VIII-IX əsr Uels tarixçisi Nenniy "Brittlərin tarixi" adlı əsərində Tubalı ispanların və italyanların etnik kökünü təşkil edən iberlərin əcdadı hesab edir. Yəhudi tarixçisi İosif Flaviy Tiberləri İspanların və italyanların əcdadı hesab edir.

"Bibel Lexikon" adlı Bibliya sözlüyü əsərində Tbilisi adının Tubal/Tibir adından və və yunan dilində "us" şəkilçisindən ibarət olan Tubalus adından ibarət olduğu yazılmışdır.

Sonrakı şərhində P.İoseliani də Tiflis şəhərin adının Tubal adından götürüldüyü fikri ilə razılaşır. (Платон Иоселиани, 1964, Səh. 11)

Onu da qeyd etmək yerinə düşər ki, Təbriz adı da Tubal/Tiber adından yaranmışdır.

Mesex və ya mosklar tarixçilərin Aloroid adlandırdıqları turani tayfalardan idilər və hatti/hurri tayfa birliklərinə daxil olub Mesopotamiyadan gələrək Anadoluda yerləşmişdilər.

Məlum olduğu kimi əsl adı Gök olan Qoq Azərbaycanda yerləşən Sakasen ölkəsinin şahzadəsi olub Parattinin oğlu idi. Mixi yazı mətnlərində Assuriyalıların "Sakların oğulları olan Qoqa qarşı" mübarizəsindən bəhs edilməkdədir.

A.Virth Bibliyada iskit/sakların turanlılar olduğu aydın şəkildə ifadə edildiyini və Qoqun bilavasitə saklara bağlı olduğunu Bibliyada Mesex Yafəsin oğlu və onun kimi turanlı mənşəyə malik, Madayın, Qomerin, Maqoqun, Tubalın, Yavanın və Tirasın qardaşıdır. Mesexin adı mənbələrdə həmişə Tubal, yəni Tibirlə yanaşı çəkilir. Gürcüstanda da Mesex və Tibir/iberlər Gürcü İber-Kartli dövlətinin əsasını qoymuşlar.

Bibliyada peyğəmbər Ezekil Mesexi və Tubalı Qoqla, yəni saklarla əlaqələndirir və Qoqu Göq/Göy xaqanı Mesex və Tubal xalqlarının böyük knyazı adlandırır. Mesexin və Tubalın İkiçayarası əraziyə qaranlıqlar ölkəsindən, yəni Şimaldan gəldikləri fikri irəli sürülür

Bir çox müəlliflər Mesex və ya Mesek tayfasının Moskva şəhərinin də əsasını qoyduqları haqqında fikir yürüdürlər.

Kiçik Asiya yaylasının şərqində və şimal şərq hissəsində Turanlılar məskunlaşmışdılar. Klassik müəlliflər onların qalıqlarını Moşe (Meşex) və Tubal (Tebel) adlandırırdılar. Assuriya mixi yazı lövhələrində onların adları Muskai və Tuplai şəklində və paytaxtları Mazakanın adı e.q. XII-VII yüzilliklər arasında Xappadokiya düzənliyinin sakinləri kimi hər zaman yanaşı qeyd olunur. Mixi yazılarda Mesexlərin krallarının adları Turan mənşəlidir. İosif Flavinin yazdığına görə onları sonradan xappadokiyalılar bu regiondan şimala, Gürcüstan tərəfə qovmuş və ordan da onlar Qara dənizin şimal sahillərinə və Rusiyanın cənub ərazilərinə yayılmışlar. Moskavi və ya Moskova şəhərinin adı onlardan qalan yer adıdır. Qədim müəlliflər onları Turanlı iskitlər adlandırırlar. Maks Müller qədim Gürcüstanınn və digər Qafqaz xalqlarının dialektlərini Turan dil ailəsinin görkəmli, ancaq pozulmuş ləhcələri hesab edir. Nəzərə almaq lazımdır ki, Yafəsdən törəyən irq Turanlılardan ibarət olmuşdur. (Smith Philip. 1888, Səh. 420)

Alman tarixçisi keşiş V.Krüqer Mesexi turanlı tayfalar olan Massaget, tatar, alanlarla eyniləşdirir. Müəlliflərin böyük əksəriyyəti Mesexlərin vətəninin Kiçik Asiyada indiki Türkiyədə olduğuna həmfikirdirlər. Tarixçi və arxeoloq Morris Jastrov Mesexlərin Xorsabad mətnlərində və Sarqonun annallarında adları Muşki kimi qeyd olunan xalqla eyni olduqlarını qeyd edir. (W Krücker. 1837, Səh. 35)

"Kartlis Tsoxreba" adlı gürcü salnaməsində yazıldığına görə ilk gürcü kralı Parnavaz mesexlərin "mamasaqeli" tayfasına mənsubdur. Arrian Parnavazın sak mənşəli olduğunu yazır.

Mamasaklilər Gürcüstanda hakimiyyətdə olan turanlı hökmran sülalə olub etnik mənşə baxımından Ön Asiyanın qədim Meseq/Mesex turanlı boyuna mənsub idilər. Metsxeti yer adı da Mesexlərin məskunlaşdığı ərazi olaraq onların adından yaranmışdır.

Fikrimizə görə Mesex adı Me-Saq adının sami-ibrani dilinə uyğunlaşmış ifadə formasıdır. Sözün önündəki Me-sumer dilində yer və mənsubiyyət bildirir və Meseqin mənası Saqlara mənsub olan deməkdir. Gürcüstanın qədim əhalisi olan Mesxeti türkləri turanlı mesexlərin bir başa varisləridirlər. Ma-masaklilər də qədim dövrlərdən etibarən Gürcüstan adlanan ölkəni idarə edən hakimiyyət sülaləsini təşkil etmişlər. Ma-masakilərin sözünün əvvəlindəki "Ma" ölkə anlamı daşıyır.

Görkəmli alman assuroloq tarixçisi Albrext Virth digər müəlliflərlə yanaşı Mesexləri və Tuballarıı Kiçik Asiyanın turan mənşəli xalqları adlandırır. O turanlıların dilində "Ma" sözünün ölkə anlamı daşıdığını yazır. Ma-Qoq adının da Qoqun ölkəsi demək olduğunu yazır. (Wirth A. 1905, Səh. 20, 54)

Gürcü dilində Mamasakilər sülalənin etimologiyasının başqa qane edici bir izahı mövcud deyil.

Bir çox tarixçilər Gürcü İberiya dövlətinin banisi Parnavazı (m.ö. 302-237) Makedoniyalı İsgəndərin dövründəki Sak hökmdarı Parazman ilə eyniləşdirirlər.

Roma tarixçi Arrian Flaviy Parazmanı sak və Xarəzmlərin hökmdarı adlandırır. Onun Makedoniyalı İsgəndərə həsr olunmuş əsərində yazıldığına görə İsgəndər Əhəmənilərə qalib gəldikdən sonra Xarəzmilərin (o yanlışlıqla Sakları Xarəzm adlandırır) hökmdarı sak Parazman 1500 atlı ilə İsgəndərin hüzuruna gələrək

onun ölkəsinin Kolxların və Amazonkaların Qara Dənizə qədər uzanan ərazidəki ölkələrin sərhədində yerləşdiyini demişdir. O İsgəndərə bu ölkələri özünə tabe etmək istədiyi təqdirdə ona dağlardan keçmək üçün bələdçilər verə biləcəyini və onun ordusunu ərzaqla təmin edəcəyini bildirmişdi. Lakin İsgəndər sak hökmdarının bu təklifini ehtiramla rədd etmiş və Hindistanı işğal etməyin əsas məqsədi olduğunu bildirmişdir. İsgəndər Parazmanı Baktriyaya satrap təyin etdiyi friqiyalı dostu II Artabazla tanış etmiş və sonra geriyə öz ölkəsinə göndərmişdir. (Аппиан Флавий. 1962. Qlava VII)

Bir çox yunan və Roma tarixçiləri sakların yaşadıqları əraziləri Mərkəzi Asiyadakı Xarəzmlə eyniləşdirirlər. Əslində, Kolxların və Amazonların ölkələri ilə qonşu olan dövlət Azərbaycanda yerləşən sakların Sakaşen dövləti idi və Arrianın Parazman adlandırdığı sak hökmdarı da o zaman Azərbaycandakı sak dövlətinin hökmdarı olan Əfrasiyabın nəvəsi Urazxaqana uyğun gəlir.

Gürcüstan tarixində yazıldığına görə Gürcü xalqı məhz Kartli-iberiya qohum tayfalarının birləşməsi nəticəsində gürcü xalqının rüşeymini təşkil etmiş və Şərqi Gürcüstanda ilk dövlətin əsasını qoymuşdur. Gürcüstanın digər bir tarixi ərazisini kolxların məskunlaşdıqları Kolxida təşkil edir.

Gürcü tarixçiləri e.q. XII əsrdə adı Urartu və Assur mətnlərində keçən Qulha bəylik dövlətini gürcü Kolx tayfalarının və Kolx dövlətinin özəyini təşkil etdikləri iddiasını irəli sürürlər.

Lakin həmin qədim mətnlərdə Qulha bəylik dövlətinin Araz çayı sahilində yerləşdiyi qeyd olunur və biz Qulhanın indiki Culfa şəhəri ərazisində yerləşdiyi fikrini irəli sürürük və Culfa adının Qulha adının fonetik şəkli olduğunu ehtimal edirik. Culfa ərazisindəki qədim Urartu qalasında Urartu kralları Menua və Arqiştiyə məxsus mixi yazı kitabələrinin aşkar edilməsi də bunu sübut edir.

Əgər Qulha gürcü tarixçilərinin iddia etdikləri kimi onların dəniz sahilində yerləşən Kolxida ölkəsi olsaydı, Urartu kralı II Sardurun kitabəsində bu bəyliyin Qara dəniz sahilində yerləşdiyi mütləq qeyd olunardı. Lakin II Sardurun kitabəsi Culfada aşkar edilmişdir.

Qədim yunanların arqonavtlar haqqındakı əsatirlərində Kolxida və onun mərkəzi şəhəri Qara dənizin sahilində Rion çayının dənizə töküldüyü ərazidə yerləşir.

Urartu ərazisi Culfadan şərqdə yerləşən Ələmdara qədərki ərazini əhatə edirdi və orda da urartuya aid mixi yazılı kitabələri aşkar edilmişdir. Culfanın yaxınlığında yerləşən Ordubad da Urartu qarnizonunun yerləşdiyi istehkamlardan biri idi. Ordubad adı urartu dilində "irdu və bad" sözlərindən ibarətdir və mənası "ordu və ya qarnizon qalası və ya istehkamı" deməkdir.

Qədim gürcü və erməni ərazilərində hakimiyyətin elit təbəqəsini təşkil edən Aznaurlar Urartu dövründə Nairi ölkəsinin hakimiyyət təbəqəsini təşkil edirdilər. Urartu dövlətinin başlıca tərkib hissəsindən birini təşkil edən Nairi dövlətinin və



ölkəsinin əsas mərkəzi hissəsini Aşağı Nairi adlanan Urmiyə gölü ətrafı təşkil edirdi. Bu ölkənin hakim tayfası isə Urum boyu idi ki, Urmiyə gölünün adı da bu boyun adından götürülmüşdür. Aznauri sözünü gürcücə "azoneli"-nəcabətli və ermənicə "azniv"-görkəmli mənasında izah edirlər. Aznauri adının erməni və gürcü dilində etimologiyası gerçəkliyi əks etdirməyən uğursuz cəhdlərdir. Gürcüstanda bir çox yer adları və terminlərdə olduğu kimi Aznauri urartu dilində Aznahueuri sözündən yaranmışdır və mənası "ağa, idarə edən, başçının yeri" deməkdir. (Arnaud Fournet. 2011, Səh. 13)

Brosse gürcü səlnamə mətnlərinin erməni dilinə tərcümələri zamanı özlərinin xeyrinə mətndə mövcud olmayan çoxlu əlavələr etməklə erməniləşdirdiklərini yazır. Q.Melikişvilinin redaktorluğu və müəllifliyi ilə yazılmış "Gürcüstan tarixi" əsərində də, urartuluların Arale tanrı adının, Evri sözünün və qüdrətli, güclü anlamındakı Taru sözünün və "vermək" anlamında olan Ari sözünün gürcü dilinə urartu dilindən keçdiyi qeyd olunmuşdur. (История Грузии, 1962, Səh. 15)

Bütün bu sözlər subar, Subir, kassi və urartu mənşəli sözlərdir.

Eristav və aznaur adları gürcü dilinə urartu dilindən alınma sözdür. Eristav sözünün əsli Evri sözüdür və urartu dilində ağa-rəhbər deməkdir. Eristav sözünün gürcü dilində qarşılığı "mtavar" və aznaur sözünün qarşılığı "pitiax"dır. (История Грузии, Тбилиси, 1962, Səh. 36)

Gürcüstanın qərbində e.q. II minilliyin sonu, I minilliyin əvvəllərində qafqaz dilli minqrel-çan tayfaları məskunlaşmışdı. Şərqdə isə saqartalar məskunlaşmışdılar. Gürcü dövlətinin banisi olan V əsrdə yaşamış İberiya çarı və Tiflis şəhərinin də əsasını qoyan gürcülərin I Vaxtanq Qorqosal adlandırdıqları V Mitridatın oğlu Qurd Aslan (440-502-ci illər) adının fars dilində "Qurd başlı" anlamı daşıdığı iddia olunur.

VI əsr Bizans tarixçisi Mirineyli Aqafi "Tarix" əsərində yazdığına görə Samtredidə Telefis şəhərinin yaxınlığında Tsenis-Tsxali çayının sahilində hunların dövründən qalmış On Oqur qalası mövcud idi. (Агафий Миринейский. 1953)

Vakurinin oğlu Mitridatın dövründə On Oqur qalasında oqurların xanının iqamətgahı yerləşirdi və xristianlığı qəbul edən oqur türkləri burda Xan adlanan ilk xristian məbədinin əsasını qoymuşdular. (Платон Иоселиани, 1843, Səh. 25)

Fikrimizə görə gürcü çarı Qurq Aslan adındakı Qurq sözü iddia edildiyi kimi Qurd mənasında deyil, əslində, Oqur Aslan deməkdir. Oqur Aslan mənşəcə On Oqur türklərinə mənsub olub Hunların dövründə yerləşdikləri Gürcüstanda Oqur dövlətinin əsasını qoymuşdur.

Gürcüstan ərazisində məskunlaşmış turanlı boylardan biri də Kaspi tayfası olmuşdur. Bu etnonim öz adını Kaspi şəhərinin adında qoruyub saxlamışdır. Kaspi orda aparılan arxeoloji qazıntılara əsasən Bürünc dövründən (e.q. XXII-VIII) etibarən önəmli yaşayış məskənlərindən biri olmuşdur.

Zaqros dağlarının digər bir xalqı yunanların Kossi, Assurların Kassi adlandırdıqları xalqıdır. Yunanlar bu adı Kaspilər şəklində də ifadə edirlər. Güney Elam ləhcəsində Kussi adlanan bu xalq bəzən kissi də adlanırdılar.

Coğrafiyaçı Strabon kassiləri Kaspi qapılarına qədər olan ərazilərdə yaşadıqlarını, kaspi tayfasının kassilərlə eyni olduqlarını, Kazvin şəhərinin və Kaspi dənizinin onların adından yarandığı fikrini irəli sürür. Kasiapların, yəni kassilərin məskunlaşdığı ərazi indiki Azərbaycan ərazisini təşkil edirdi. Onlar Urmiyə gölünün quzey əraziləri üzərindən gələrək tədricən gölün doğu və güney istiqamətlərində genişlənmiş və Həmədandan Elam üzərindən Babilə gedən karvan yollarının keçdiyi əraziləri də öz nəzarətləri altına almışlar. Şərqdə Xəzərin güneyində Qurkaniya və hətta Hindistana qədər olan ərazi kassi və ya kussilərin məskunlaşmış olduqları ərazilər idilər.

Onların Anubani tanrısına etiqad Xəzər dənizindən başlayaraq Bəsrə körfəzinə qədər olan ərazidə yayılmışdı. Kassilər Kaspi adlı tanrıya etiqad edirdilər, o kassilərin Ay tanrısı ola bilər, çünki Kaspi sözü babil dilində "gümüş" deməkdir. (Georg Hüsing. 1908, Səh. 28)

Qıpçaq ordasının xanı Atrak (Taturun babası) gürcü çarı IV Qurucu Davidin dəvəti ilə onun müttəfiqi kimi Səlçuklara qarşı mübarizədə 40 minlik qoşunu ilə onun xidmətinə daxil olmuş və indiki Qazax-Borçalı bölgəsində, hətta Tiflisdən Bərdəyə qədər olan ərazidə yerləşmişdi. David Atrakın qızı Turanduxt ilə evlənərək qıpçaqlarla qohumluq əlaqəsi qurmuşdur. Ona görə də Gürcüstan xronikası "Kartlis tsxovreba"da həmin ərazi taturların yaşadığı ərazi və azərbaycan türklərini də tatarlar adlandırmaqdadır. (Жизнеописания царя Давида. 1990. Səh. 134)

Gürcü tarixçisi Leonti Mroveli uydurma "Kartlis Tsoxreba" adlı əsərdə Yafəsin oğlu Qomerin Torqamı erməni və gürcü xalqlarının əcdadı elan edərək bu iki xalq haqqında saxta şəcərə uydurmuşdur.

Lakin yəhudi mənbələrində və o cümlədən Yozef Flavinin "Yəhudi qədimliyi" əsərində Torqamın on oğlunun hamısı türk adları daşıyırlar və onun gürcü və erməni olan heç bir oğlunun adı qeyd olunmamışdır. Bir çox qədim yəhudi dini kitabların şərhlərində Torqamın türk ölkəsi olduğu yazılmışdır.

Almaniyanın görkəmli assuroloq tarixçisi A.Virth Qoqu Fələstinə və Misirə hücumda müşaiyət edən Torqarm insanlarını türklərlə eyni olduqlarını yazır. (Wirth A. 1905, Səh. 54)



# XXVIII FƏSİL. Misir uyqarlığı və onun Turanlı kökləri

Misir uyqarlığı Sumerdən sonra ikinci qədim bəşər uyqarlığı hesab olunur.

Bir çox müəlliflər Misir uyqarlığının yaranmasında turanlı tayfaların böyük qatqısı olduğu haqqında bəhs etmişlər. Mərkəzi Asiyada təşəkkül tapmış Turan uyqarlığına mənsub ön türklər müxtəlif səbəblər üzündən öz ilkin yurdlarını tərk edərək yer üzərinə yayılmış və ilkin turan mədəniyyəti rüşeymlərini dünyanın müxtəlif ərazilərinə, o cümlədən Misirə daşımışlar.

Türkistanda qədim Anau uyqarlığını aşkar edən R.Pumpelli bu arxeoloji mədəniyyətin Misir uyqarlığının yaranmasındakı rolu haqqında bəhs edərək yazır ki, Anauda tapılan bir çox artefaktların Misirdə aşkar edilmiş artefaktlarla müqayisəsi Misirin qədim əhalisinin misirşünasların əksəriyyətinin də qəbul etdikləri kimi Orta Asiyadan Qırmızı dəniz vasitəsilə köçərək Misirdə yerləşdiklərini sübut edir. Onlar özləri ilə Anau və Orta Asiya üçün xarakterik olan it cinsini və iri buynuzlu heyvanları da götürmüşlər. Həmçinin Yunanıstanda və Mərkəzi Avropada və Avstriyada Anau üçün xarakterik it cinsinin aşkar edilməsi xalqların miqrasiya istiqamətini və qədim dövrdəki ticarət münasibətlərini göstərir. (Raphael Pumpelly. 1908. Səh. 354)

Pumpelliyə görə Anau tayfaları batıya doğru köçləri zamanı əhliləşdirdikləri heyvan növlərini, o cümlədən öküzü e.q. 6000 mininci ildə Ön Asiyaya, ordan Misirə və Afrikaya aparmaqları nəticəsində orda yayılmışdır. Öküz kultunun ilk olaraq Babildə, Hindistanda və Misirdə yaranmış olduğu iddia edilsə də, bu etiqadın ilkin vətəni heç şübhəsiz ki, öküzün ilkin əhliləşdirildiyi ərazi, yəni Anaudur.

Misir mumiyalarını və misirlilərin qədim köklərini tədqiq edən yəhudi əsilli etnoloq Elliot Smitin gəldiyi nəticəyə görə sumerlər fironlar sülalələrinə qədərki Aralıq dənizi irqinə mənsubdurlar. Bu irqin doğu qolu Hindistana qədər, batı qolu isə Böyük Britaniya və İrlandiyaya qədər yayılmışdır. (D.Mackenzie. 1915. Səh, 4-6)

Fransanın XIX əsrdəki böyük tarixçisi Qaston Maspero Qədim xalqları tarixinə həsr etdiyi əsərində Misirin qədim xalqının Mərkəzi Asiya mənşəli olduğunu yazır: "Misirin şimalında və şərqində Aralıq dənizi, Qara dəniz, Qafqaz, Xəzər dənizi, Hind çayı və dəniz sularının yuduğu Asiyanın cənub sahilləri arasında fironlara məlum olmayan müxtəlif dillərdə danışan, lakin təməldən eyni ənənə ətrafında birləşmiş xalqlar yaşayırdılar. Bu xalqların yaddaşında əcdadlarının dünyaya yayılmadan öncə yaşamış olduqları ilkin vətənləri haqqındakı xatirələr dumanlı əfsanə şəklində həkk olunaraq yaşamaqda idi. Ora yüksək bir dağ və ya dağ yaylasından ibarət idi. Bu yer Himalayın Pamir yaylası ilə birləşdiyi yerdəki dağ silsiləsini təşkil edən ərazi olub Asiyanın müqəddəs Oksus, Yaksart, Gilmənd və Hind çayları-

nın öz başlanğıclarını götürdükləri yer, Pamir yaylası və ya dağ silsiləsinin mərkəzini təşkil etdiyi ərazidir. (Caston Maspero. 1876, Səh. 132)

Lenorman Misirdə metaldan istifadə etmək ənənəsinin əsasını Okus çayının sahilində təşəkkül tapmış və sonra Ön Asiyanı arilərin böyük köçlərindən öncə doldurmuş olan, lakin qədim zamanlarda geri çəkilməyə məcbur olan turanlılar tərəfindən qoyulmuş olduqlarını yazır. (Lenormant F. 1895, Səh174)

Qədim Misir uyqarlığı əhalisinin dilində ölkənin adı *Ku Mat* şəklində yazılır və sözün sumer dilində mənası "çay sahilindəki ölkə" deməkdir. "Ku" sumer dilində "çay sahili" və "mat" "ölkə" deməkdir. Ölkənin "Ku Mat" adı sami akkad dilində "Tu meru" kimi ifadə olunub eynilə "çay ölkəsi" deməkdir. Misir sonrakı dövr əhalisi olan qoptların dilində bu ad "Ta Kemet" şəklində ifadə olunur. Coğrafi baxımdan iki hissədən ibarət olan Misirin yuxarı hissəsi "Ta şemeav", aşağı hissəsi isə "Ta mehev" adlanırdı. (B.J.Henry; Peter A. Piccione. 2001, Səh. 76, 40)

Qədim Misir dilində ölkənin adının Kemet şəklində "çay ölkəsi" adı daşıması mərkəzi ərazisi Nil çayının geniş deltası və onun ətrafını əhatə edən adına daha uyğundur. Kem adı türk dillərində də çay anlamı daşıyır və Sibirdə bu adla çoxlu çaylar mövcuddur.

Qədim misirlilər öz ölkələrini torpağın münbit tünd rənginə görə "Ta Kemit", yəni "qara ölkə" adlandırırdılar. Lakin ola bilsin ki, bu əraziyə şərqdən gəlmiş yadelli tayfalar qədim Misir əhalisini ya dərilərinin rənginə görə, ya da hökmran idarəedici təbəqə kimi tabeliklərində olan əhalini "Ta Kemit", yəni "qaralar ölkəsi" və ya "qara xalqın və ya insanların" ölkəsi aslandırırdılar. Kemit sözü semit etnoniminin *s-k* əvəzlənməsi ilə yaranan fonetik şəkli də ola bilər. Bu ad qədimlərdə Mesopotamiya və Nil çayı deltasına basqınlar edən vəhşi sami tayfalarına Sumer və Misirin hökmran təbəqəsi tərəfindən verilmiş ümumi ad idi. Turanlı Sumerin hökmran sülalə boyu olan "əsilzadə ağalar" olan Kəngərlər onlara tabe olan əhali kütləsini ümumi adla "qara başlar" adlandırırdılar.

Çünki Sumer ənənəsinə görə Tanrı tərəfindən qızıl taxt verilərək xalq üzərində hökmran təyin edilən kral və ya luqal mifik anlayışa görə "qarabaşlı qoyun sürüsü" kimi təsəvvür edilən sadə xalqın "çobanı" tituluna malik idi. Tanrı tərəfindən hakimiyyət kutu verilən "çoban kral" titulu ənənəsi Sumerlərdən akkadlara, kassilərə və Misirlilərə keçmişdi. Misir fironları, o cümlədən Horoz və digərləri də özlərini "çoban hökmdarlar" adlandırırdılar.

Türk dillərində istifadə olunan "Kem" ifadəsi bir çox sözlərin kökünü təşkil edir. Həmçinin kömür sözünün əsli Kemir deməkdir, Türk dillərində Kem "qara", "ir" isə daş demək olub anlamı "qara daşdır". Ümumiyyətlə, bu söz tünd və qara rəngi, xəstəliyi ifadə edir. (Этимологический словарь тюркских языков. 1997, Səh. 33-34; ДТС, 1969, Səh. 211)



Çingiz xanın Monqol-tatar dövlətində əhali iki təbəqəyə bölünürdü "Ağ kemik" yüksək hökmran təbəqəni "qara kemik" isə qara camaatı əhatə edirdi.

Misir tarixi haqqında əsas mənbəni heroqlif mətnlərlə yanaşı e.q. IV-III əsrdə yaşamış və yunan dilində yazmış misirli tarixçi Manefin əsəri təşkil edir. Misirin XII sülaləsinin hakimiyyət dövründə prins Knum Hotep üçün tikilmiş sərdabədə yazılmışdır ki, şərqdən gələn 37 yabançı tayfa özlərinin heyvanları, ailələri və köç eli ilə birlikdə Nil deltası sahillərində yerləşmək üçün icazə istəmişlər. Onlar sonradan Misirə axınlar edərək Aşağı Nil hövzəsində yerləşən ordanın ilk dəstəsini təşkil edirdilər. Misir salnamələrində bu yadellilər "bəsləyici" və ya "bəslənən" anlamı daşıyan "mertion" adlanırdılar. Onlar həmçinin "sutu", yəni "Asiya çobanları" və "at-tu" "bəla və baş bəlası" kimi heç də sevimli olmayan adlarla ifadə olunurdular.

Şərqdən, Suriya tərəfdən gələn Hiksoslar öncə Nil deltasında və sonra bütün Misirdə hakimiyyəti ələ keçirərək e.q. XVIII-XVI əsrlərdə mövcud olmuş "çoban krallar" adlanan XII-XVII sülalələrin əsasını qoymuşlar. Dikerman Yunanlıların Hik-sos adlandırdıqları xalqın qanına iskit qanı qarışmış olduğunun istisna olmadığını yazır. Seys Hiksosların Xattilər olduğunu və onların Misirdən qovulduqlarından sonra Fələstində Yerusəlim şəhərini saldıqlarını yazır. Heykəl təsvirlərindəki almacıq sümüklərinin və sifətlərinin enliyi, burunlarının yastılıq əlamətləri hiksosları xattilərlə eyniləşdirməyə əsas verir. Hiksoslar Misirlə bərabər Fələstin və cənubi Suriyanı da öz hakimiyyətlərinə tabe etmişdilər. Həm Hiksoslar, həm də Xattilər Suti adlı tanrıya etiqad edirdilər.

İkibaşlı qartal Khattilərin emblemi idi. Sonradan bu emblem turkman xanlarının emblemi oldu. Misir fironu II Ramzes və Khatti kralı arasında bağlanmış müqavilədə Khattilərin tanrılarının adının Suti və ya Sutex olduğu yazılmışdır. Misirin Avaris mətnlərində də Hiksos krallarının tanrılarının adının Suti/Sutex olduğu qeyd edilmişdir. Misirin Hiksos "çoban kralları" özlərinə tanrılarının titulları olan Setu ünvanı götürürdülər. XV Hiksos sülaləsinin banisi Set-Pehati adlanırdı və mənası "Qudrətli Set", "Qızıl Set" demək olan titullar daşıyırdılar. (Lysander Dickerman. 1889, vol. 21, Səh. 325-358)

Suti və ya Sutu tanrı adı Hiksosları Zaqros dağlarından Misir sərhəddinə qədər böyük bir ərazidə məskunlaşmış turanlı Sutu xalqı ilə eyniləşdirmək ehtimalı doğurur. Sutu adlandırılan Su xalqı Suriyanın şimalından Misir sərhəddinə qədər olan ərazidə öz döyüşkən ruhu ilə seçilən və qonşu dövlətlərə daima təhlükə törədən xalq idi.

Hititlərə bir neçə əsər həsr etmiş rahib Sezare De Karaya görə Hititlər pelasqlardırlar və eyni zamanda Misiri işğal etmiş hiksoslar da pelasqlardırlar. De Kara Hititləri bir xalq yox, Misirə, Babilə və ya Assuriyaya birləşmiş bir çox xalqlardan ibarət siyası konfederasyon adlandırır. De Karaya görə Hititlərin ibtidai dağılma

bölgələri Suriyanı, Kiçik Asiyanı, Skifiyanın cənubunu, yəni Qara dəniz ətrafını və Azovu əhatə edirdi. (G.Sergi, London, 1901, Səh. 146)

A.Virth adları piramidlərdə qeyd olunan Takkarların Homerin bəhs etdiyi Teukrlara uyğun olduğunu yazır. (Wirth A. 1905. Səh. 28)

Müəlliflərin bir çoxu Homerin Teukrlarını türklər olduğunu yazırlar. Eyni şəkildə də Misir sərdabələrində bəhs olunan Takkarların Türk adının misir heroqlifləri ilə ifadə forması kimi qəbul edirlər.

"Çoban kral" ünvanının kökü tarixən Sumerə bağlı olan ənənədir. Sumerlə əlaqədar olan və Misirdə hakimiyyətə yiyələnmiş turanlı tayfaların təsiri ilə bu ənənə Misirdə də bərqərar olmuşdur. Misiri firon III Amenemin zamanında işğal etmiş hiksosların adı misir dilində "hik"-kral, "sos" isə çoban deməkdir və mənası "çoban kral" olan hiksos tayfası köçəri tayfa idi. (Elizebet Sewell. 1862, Səh. 28)

Görkəmli assuroloq A.Virth Misirə bir çox yenilikləri gətirənlərin turanlı öntürklər olduğunu və bu ölkəni yüzillər ərzində idarə edən hiksosları turşa/türklər və uyğurlarla eyniləşdirərək yazır: "Misiri işğal edən süvari və atlı arabaya malik Hiksoslar bu Günbatan ölkəsinə atı ilk dəfə gətirənlərdir. Huk və ya Hik xalqı bizə öncədən tanış olan Qoy və ya Quti xalqıdır. Onlar çin salnamələrində Hu, Hui və Qoat şəklində ifadə olunmuşdur və bəzi tədqiqatçılar onları yue-çilərlə eyniləşdirirlər. Biz isə onları "uyğur" adlandırırıq. Uyğurların çincə digər bir adları "kaukü" şəklindədir və eynilə Qoq adına uyğundur. Qədim Misir mənbələrində bəhs edilən köçəri xalq "Şasu" və ya "Qaz" kaukülərlə eyni ərazidə yaşayırdılar. İskitlərin Asiyanı Misirə qədər idarə edən kralı İdanthirsin adındakı "thirsen" onun turşa adlı xalqın öndəri olduğunu göstərir. Uyğurlar və ya huyilər də İden tayfasına mənsub idilər. (Wirth A. 1905, Səh. 56)

Q.Maspero və A.Virth kassiləri Kuşilərlə eyniləşdirirlər və onların vətəninin Mərkəzi Asiya hesab edirlər. E.q. IV minillikdən etibarən Turan irqinə mənsub Kas tayfası Avropaya və Afrikaya doğru köç etmişlər. Bu ilk turanlı axını idi. M.ö. II minillikdə isə Ön Asiyaya və Misirə doğru ikinci axın Qoqlar və Huklar (Huksos) olmuşlar. Turanlıların bu ikinci köçləri iskitlərin e.q. VII əsrdə iskitlərin iflasına və Qoqun Fələstindəki uğursuzluğuna qədər davam etmişdir. Turanlıların üçüncü axını Avropanı lərzəyə salan hun axınları olmuşdur. (A.Wirth. 1905, Səh. 231)

A.Virth yazır ki, Misiri işğal edən və əsl adları Huk olan köçəri hiksoslara qohum olan Kassilər Mesopotamiyanın və qonşu ölkələrin tanınmış ağaları idilər. Sumer və Babil mətnlərində kassilər "dünyanın dörd tərəfinin hökmdarları" adlanırlar. Onlar Nil ölkəsini də işğal etmişdilər.

"Huk adının əslində Bibliyadakı Qoq olduğuna inanıram. Kassilər atı özləri ilə Ön Asiyaya və Misirə gətirmişlər. Kassilərin qohumları Xattilər Homerin yazdığı kimi qatırın ilk sahibləri və onu yetişdirənlər olmuşlar". (A.Wirth, 1905, Səh. 21)



Eduard Meyer Misirdə hakimiyyəti ələ keçirən Hiksosların "Çoban krallar" hakimiyyətini Hunların və Monqolların qurduqları böyük İmperiyaları xatırlatdığını və onların Xanların öndərliyi altında Babilə gələrək orda məskunlaşıb çiçəklənmə dövrünə ulaşdıqdan sonra Misirə gəlib orda öz hakimiyyətlərini qurmuş olduqlarını yazır. (Eduard Meyer. 1913, Səh. 319)

Misir tarixi haqqında yazan müəlliflərin böyük əksəriyyəti Hiksosları turanlı mənşəli olduqları fikrini irəli sürürlər. Bir çox müəlliflər Hiksosları xatti və hurrilərlə də eyniləşdirirlər. Yuxarıda bəhs etdiyimiz kimi tarixi ədəbiyyatda xatti və hurilərin eyni etnik kökə malik olduqları fikri çoxlu tərəfdarlara malikdir. Bəzi müəlliflər isə Misiri işğal etmiş hiksosların başlıca etnik tərkibinin xettlərdən ibarət olduğunu yazırlar. Xettlərin baş tanrısı Sutex hiksosların da tanrısı idi. Hiksoslar Misirdən qovulduqdan sonra fironlar özləri Asiya tərəfə işğalçı yürüşlər edirdilər. Misirlilər uzun illər ərzində əsas rəqibləri olan xettlərlə mübarizə aparırdılar.

Misir foronu Naharin xett şahzadəsi Ti ilə evlənmişdi və o Misir tanrısı Amona etiqad etməkdən imtina etmişdi. Tinin oğlu IV Amonhotep anasının təsiri ilə Misirdə dini çevriliş edərək xettlərin tanrısı olan Günəş dairəsi kultunu rəsmi din elan etdi. (Глаголев С. 1902, Səh. 168)

II Ramzes də xettlərə qarşı hərbi yürüşə başlasa da uğur qazana bilmədi və xettlərlə bağlanan sülh sazişinə görə xett kralının qızı Kheta Sir ilə evləndi. Misirdə "Çoban krallar" dövrü e.q. 1840-cı ildən başlayıb 1640-cı ilə qədər davam etmişdir.

Rouilson Misiri müttəfiqləri ilə birlikdə işğal edən Hiksosların Kheta/xattilər olduğunu və bunun həmin dövrdə hakimiyyətdə olan "çoban kralların" dini etiqadlarının xarakteri ilə də müəyyən olduğunu yazır.

Rauilson Hiksosların Misir mədəniyyətinə və ədəbiyyatına realist ünsürlər gətirdiklərini və onun inkişafına yeni impuls verdiklərini yazır. "Çoban kral" sülaləsi bütün köçərilərdə olduğu kimi mükəmməl bir dövlət hakimiyyəti təşkilatına malik idilər. Monqol-tatarların Hindistanda və türklərin Avropada olduğu kimi "çoban krallar" hakimiyyəti də Misirə mükəmməl dövlət təşkilatı gətirdilər. Onlar bütün ölkədə hərbi və vergi sistemi tətbiq etdilər və Misir üçün böyük fəlakət olan "əyalətçilik" bəlasına son qoydular. Bütün ölkədə monarxın timsalında mərkəzləşmiş dövlət strukturu yarandı. Hiksosların hakimiyyəti gec dövr İmperiyasının yüksəlişinə səbəb oldu". (Rawlinson G.H. 1882, Səh. 195)

Yuxarı və Aşağı Misiri öz hakimiyyəti altında birləşdirən və fironların atası hesab olunan ilk Misir fironu Menes (təxminən e.q. 3200-3000) Horus ünvanı daşıyan ilk firondur. Turin fironlar siyahısında onun adı fironların əcdadı kimi qeyd olunmuşdur. Menesi Misirin digər bir fironu Narmerlə eyniləşdirirlər. XIX əsrin İngilis rahib və misiroloqu Corc Faber Menesi Böyük tufanla əlaqələndirir və onu Misirin Nuhu hesab edir.

Mesopotamiyadakı ilkin Sumer uyqarlığı Böyük Tufan nəticəsində dağılınca Sumerli Ön Türklərin bir qolu oranı tərk edərək Misirin Nil çayı vadisinə köçmüş, ordakı Hami tayfalarını tabe edərək e.q. 3315-ci ildə Menesin başçılıq etdiyi ilk firon sülaləsinin əsasını qoymuş və orda ilkin Sumer mədəniyyətinin özülünü qoyaraq inkişaf etdirmişdilər. Lakin çoxluq təşkil edən yerli xalq Sumer mədəniyyətini mənimsəyərək onu daha da inkişaf etdirmiş və yeni bir Misir uyqarlığının formalaşmasına nail olmuşdular. (Reha Oğuz Türkkan. Türkler, C. 1. 2002, Səh. 601)

İngilis assuroloqu L.Vaddell Misir heroqliflərinin turanlı Sumerin piktoqrafik xətti işarələri əsasında yarandığı fikrini irəli sürür. O Misir uyqarlığının kökünün Sumer uyqarlığına bağlı olduğunu yazır. (Waddell L.A. 1930. Səh. 20)

Vaddell Misirin birinci firon sülaləsinin banisi Menesin əfsanəvi şəxsiyyət olduğunun əleyhinə çıxaraq onun sumer mənşəli olub tarixi şəxsiyyət olduğu fikrini irəli sürür. O Misirin 1-ci sülaləsinin banisi firon Menesi Krit adasının kralı Minosla eyniləşdirir. Minos mənşəcə dəniz xalqlarından pelasqlara mənsub idi. Sumer kralı Manis də Minos kimi dənizçi admiral olaraq Aralıq dənizi və ölkələrinin imperatoru idi. Krit kralı Minosun həyata keçirdiyi müdrik qanunları Zeusdan (Zevs) almışdı, sumerlilər və onların hökmdarı Manisin də tətbiq etdikləri qanunlarını tanrı Zaqqidən və ya Saksdan almışdı. (Waddell L.A. 1930. Səh. 72)

Vaddel Misir mifologiyasının kökündə Sumer mifologiyasının dayandığını tarixi dəlillərlə əsaslandırır.

Krit hökmdarı Minosun oğlu Minataur, yəni "Öküz adam" adlanırdı. Menesin və ya Menisin oğlu da Misir və sumer dilində "Güclü, vəhşi Öküz" demək olan Nar-am adlanırdı. Kritli Zeusun əlamətlərindən biri ikiağızlı balta olan təbərzin idi. Təbərzin həmçinin sumerin ata tanrısı Zaqqın və ya Sakın əlamətlərindən biri idi. Zaq sumer dilində təbərzin balta anlamı daşıyırdı. Zeusun adının sumer mənşəli olduğu şübhəsizdir. (Waddell L.A. 1930, Səh. 73, 74)

Vaddell sumerin günəş tanrısının AsaTur adlandığını və onun adının Misirdə İsida kimi ifadə olunduğunu yazır. AsaTur adı Ukusi kimi də yazılırdı. Sumerlərin tanrıları Asar misirlilərdə günəş tanrısı Osiris kimi, Aser isə İsis kimi ifadə olunurdu. (Waddell L.A. 1930. Səh. 164)

L.Kinq də Misir və Sumer mifologiyası arasındakı bənzərliklər təsbit etmişdir. Misir mifologiyasında öküzü təmsil edən Apis kultu Osirisi, yəni Aseri təmsil edir və o hər il qurban verilirdi. Öküz misir heroqlif yazısında "ka" kimi ifadə olunurdu. Apisin simvolu olan Ay öküzü təmsil edirdi. O həmçinin Osirisi təmsil edən tanrı idi. Apis eyni zamanda Nil çayındakı suyu təcəssüm edirdi. Sumer tanrısı Asari Mesopotamiyanın tanrıları Marduk və Asarla, Misir tanrısı Osirislə eyniləşdirilmişdi. Sumerin şəhər mənasındakı Uru işarəsi eyni ilə Misirlilər tərəfindən istifadə olunurdu. (Leonard W. King. 1916. Səh. 325)



Misir tarixində və mifologiyasında Horus tanrısı və Horus ünvanına malik kral-fironlar önəmli yer tutur. Misir mifologiyasında Yeri və Göyüzünü iki ayrı-ayrı tanrı təmsil edirdi. Göyüzü *Pet* adlanırdı və qadın başlanğıcını təmsil edirdi, Yer isə *To* adlanırdı və kişiliyi, erkək başlanğıcı təmsil edirdi.

Günəşin doğuşu səma İnəyindən doğan buzov kimi təsəvvür olunur ki, səma öküzü bu zaman ata kimi təcəssüm olurdu. Hər gün səhər tanrısal inək və öküz öz övladları günəşi buzov timsalında dünyaya gətirirdilər.

Şahin surətində təsvir olunaraq göydə uçan səhər günəşinin tanrısı Horusun sağ gözü günəşi, sol gözü isə ayı təcəssüm edirdi. Horus "üfüqdəki günəş", yəni şəfəq günəşi adlanırdı və şahin quşunu təmsil edirdi. Onun digər bir adı yenə günəş tanrısı olan və insan cildində təcəssüm olan Atum adlanırdı. Bu ad ilk insan "ata" adının misir dilində ifadəsidir. İstər Horus, istərsə də Atum mahiyyət etibarə ilə eyni varlığı təmsil edirdilər və həmçinin kral ünvanları kimi istifadə olunurdular. Tanrılar günəşin gün ərzində müxtəlif dövrünü təmsil edirdilər. Horuz şəfəq günəşini, Re günortanı, Atum isə axşam günəşini təcəssüm edirdi. (Erman. 1885, Səh. 7-11)

Horus həmçinin savaş tanrısı idi və fironlar onun yer üzündəki təcəssümləri kimi təsəvvür olunurdular. Fironlar Horus tituluna malik olub tanrı krallar idilər.

Misirin müxtəlif ərazilərində fərqli kultlara etiqad olunurdu. Horus tanrılar Atum və Renin oğlu kimi günəş kultuna mənsub idi. İsisin və Osirisin oğlu kimi isə Osiris kultuna mənsub idi. Tanrı kral timsalındakı Horus şahin surətində təcəssüm olunurdu və şahin fironların simvolu və totemi idi.

Şəfəq günəşini təcəssüm edən tanrı Horuzun dilimizdəki Xoruz adı ilə eyniyyət təşkil etməsi böyük maraq doğurur və bunu təsadüfi bənzəyiş hesab etmək olmaz. Çünki xalqımızın mifik təsəvvüründə də Xoruz günəşi təmsil edir və günəşin saçdığı ilk şəfəqin carçısı və xəbərçisidir. Qədim Misirdə döyüşkən şahin quşu Horuz adlanmışdır. Hiksosların etnik mənşəyinin turanlı ön türklərə bağlanması bu ehtimalı daha da qüvvətləndirir.

XVII sülalənin hökmdarı Kamose Nubiya tayfaları ilə ittifaq bağlayaraq hiksosların paytaxtı Avaris şəhərinə hücum edərək Hiksosların 200 illik hakimiyyətinə son qoymuş və hiksosları ölkədən qovmuşdur.

Misir fironları 240 minlik hiksos qoşununu Mesopotamiyanın şimalındakı Kadeş və Karxemişə qədər qovalıyaraq təqib etmişlər. Ehtimal olunur ki, Suriyanın şimalındakı Karxemış Hiksosların ilkin vətəni olmuşdur. Hiksoslar Xattilərlə hər cəhətdən sığ bağlara malik olmuşlar.

Misiri işğal edən digər bir turanlı tayfa birliyi də e.q. XIII əsrdə Anadoludan başlayaraq Misir də daxil olmaqla böyük fəlakətlərə səbəb olan "dəniz xalqlar" idilər. Dəniz xalqları haqqında bilgiləri tarix elminə Q.Maspero gətirmişdir. Misir heroqlifləri ilə yazılmış Karnak kitabəsində Misirə hücumlar edən "dənizin yabançı xalqları" haqqında bilgi verilməkdədir.

E.q. 1276-1178-ci illərdə Aralıq dənizinin sahil ölkələrinə basqınlar törədən dənizçi döyüşkən tayfalar olan dəniz xalqları bir neçə dövlətin çökməsinə səbəb olmuşdular. Misir iki fironun hakimiyyəti dövründə e.q. 1208-1176-cı illər ərzində dəniz xalqlarına qarşı dörd dəfə savaşmış və sonda qalib gəlmişdilər.

Dəniz xalqlarının etnik tərkibinin Kiçik Asiyanın hind-avropalılara qədərki xalqlarından, daha doğrusu öntürklər olduğu fikri elmdə qəbul olunmuşdur. Lakin Avropa tarixçilər onları öntürklər adlandırmaqdan ehtiyat edirlər. Şerdan, çakkal, tirsen, sekeş, aka, dan, qaramant, teukir, filistim bu tayfalar birliyinə qədim mənbələrdə turşalar adlanan ön türklər rəhbərlik edirdilər. Tirren qrupu adlandırılan bu dəniz xalqlarının Troya müharibəsində axeylərə məğlub olaraq dünyaya dağılan etrusklar olduqları haqqında elmdə fikirlər mövcuddur.

Eduard Meyer Turşalar məsələsinə aydınlıq gətirərək yazır ki, Fukidid və digər müəlliflər Pelasqları Tursenlərlə eyniləşdirirlər. Pelasqlarla eyniləşdirilən və Lemnosda yaşayan Tursenlər heç şübhəsiz məhşur dəniz quldurlarıdırlar. Herodotun da yazdığına görə tursenlər və pelasqlar eyni dildə danışırlar. Əgər biz Herodota inansaq, Lemnosun və Pelaskiyanın tursenləri etruskca danışırlar. 1888-ci ildə Lemnosda aşkar edilən yazı e.q. VI əsrə aiddir və yunan dili ilə heç bir əlaqəsi yoxdur.

Bu yazı heç şübhəsiz bir etrusk dili dialektində yazılmışdır. Lemnosdakı tursenlər və italiyada yaşayan etrusklar eyni tursen adı daşıyırlar. Hər iki Tursen və Etrusk sözünün kökü "Turs" və ya "Trus" olub və ondan "E-trur-ia" adı yaranıb. Hər iki adın şəkilçisiz kökünü "Turşa" və ya "Turuşa" təşkil edir. Turşalar Misir fironları Merneptah və III Ramzesin dövründə digər quldur dəniz tayfaları ilə birlikdə Nil vadisinə hücumlar təşkil etmişdilər. Herodot etruskların Lidiya mənşəli olduqlarını yazır. Etrusklar şərqdən qərbə doğru səfər edərək Ege dənizində quldurluqla məşğul olmuş və sonra dənizin məskunlaşmamış adalarını zəbt etmişlər. (Eduard Meyer. 1892, Səh. 27)

Kheta/Xattilərin dəniz xalqları ilə etnik birliyə malik qohum xalqlar olduqlarının göstəricisi idi ki, Misir fironu şərqə doğru xettlər üzərinə yürüş təşkil etdiyi zaman xettlərin çağırışı ilə etrusklar, dardanlar, sardinlər, Troyalılar, siciliyalılar müharibəyə qatıldılar. (Willis Boughton. 1897, Səh. 102)

Bir çox müəlliflər bu xalqlara rəhbərlik edən turşaların türklər olduğu haqqında həmrəydirlər. Martin Qemol Misir və Assur mənbələrində adları qeyd olunan Kheta tayfaları, hiksoslar və dəniz xalqları adlanan tayfaları turanlı axının tərkib hissəsini təşkil etdiyini yazır. (Martin Gemoll. 1911, Səh. 2)

Yunanların Tursenlər adlandırdıqları, Hitit mətnlərində Turuaş kimi qeyd olunan, II Ramzesin bəhs etdiyi Misirə hücum edən və Dəniz xalqlarından olan Turşalar Bibliyada Tiras və ya Turas şəklində ifadə olunmuşlar. (Geoffrey W. Bromiley. 1988-2000)



# XXIX FƏSİL. Avropanın Turanı

Avropanın Turanı dedikdə tarixin ilkin dövründə hind-avropalıların tarix səhnəsinə qədəm qoymalarından öncə turanlı xalqların Avropada məskunlaşdıqları ərazilər və onların ölkələri, yaratdıqları dövlət qurumları nəzərdə tutulur. Turanlı öntürklərin şərqdən Avropaya doğru hərəkət edərək onun müxtəlif ərazilərində məskunlaşmaları bir neçə axınla baş vermişdir. Tarixçi və etnoloqlar bu axını gerçəkləşdirənlərin tarixə qədərki dövrdə Turan və Alp irqinə mənsub insanlar adlandırırlar.

Müasir dövrün görkəmli genetika uzmanı Anatoliy Klyosov genetik araşdırmaların nəticələrinə əsasən yazır ki, 16 min il ərzində "türkdilli" R1b qaploqrupuna mənsubluğunu qoruyub saxlamış insanlar öz ilkin vətənləri Cənubi Sibirdən müxtəlif istiqamətdə hərəkət etmişlər. Onların qərbə doğru yönələn qolu orta Volqa, Samara, Xvalın arxeoloji mədəniyyətlərini yaratmaqla təxminən 8000 il öncə Qafqaz üzərindən hərəkət edərək, Yaxın Şərq, Şimalı Afrika istiqaməti ilə irəliləyib Cəbəllütariq boğazı üzərindən keçərək 3750-il öncə Priney yarımadasına çatmış və ordan hərəkət edib təxminən 3800-3350 il öncə Britaniya yarımadası və İrlandiyaya yerləşmişlər. Sonra onların bir hissəsi Kontinental Avropaya doğru istiqamət götürərək təxminən 4150-ci ildə Finlandiyaya və 4250-ci ildə İsveçə gəlmişlər. Buna paralel olaraq "türkdilli" R1b qaploqrupunun daşıyıcılarının izlərinə təxminən 4050-ci illərdə Balkanlarda, 4125-ci illərdə isə İtaliyada rast gəlinir. Bu tarixlər Türk dillərinin Avropada yayıldığı və 10 min il öncə Avropada məskunlaşmış "proto hind-avropa" R1a1 qaploqrupunun Avropadan yox olmasının başlanğıcıdır.

A.Klyosovun yazdığına görə R1a1 qaploqrupuna mənsub hind-avropalıların ilkin vətəni 12000 il öncə Balkanlar olmuş və onlar tədricən Baltik dənizi istiqamətində yayılmışlar. Hind-avropalıların öntürklər tərəfindən tamamilə assimliyasiya olunmasının qarşısını alan amil ondan ibarət olmuşdur ki, onlar turanlı öntürklərin təzyiyiqi ilə e.q. 3000-ci ildə Avropanı tərk edərək Rusiya çöllərinə keçmiş, Baltik dənizi və Qara dəniz arası ərazidə məskunlaşmışlar. Hind-avropalılar 4500 il öncə Qafqaza keçmiş, 3600 il öncə, yəni e.q. 1500-1600-cı illərdə isə Anadoluya yerləşmişlər.

Beləliklə, A.Klyosovun genetik, arxeoloji və linqvistik araşdırmalara əsasən gəldiyi nəticəyə görə təxminən 4500-4000 il öncə R1a1 qaploqrupunun daşıyıcıları olan hind-avropalılar Avropadan tamamilə yox olmuş və artıq e.q. 2000-ci ildə Avropa bütünlüklə R1b qaploqrupunun türkdilli daşıyıcılarına məxsus olmuşdur. Avropada türk xalqlarının tam hökmranlığı e.q. 1500-ci ilə qədər davam etmişdir. (Анатолий Клесов. T. 3, №1, Səh. 3-58)

Rus araşdırıcı "Qədim Avropa tarixinin Türk dövrü" əsərinin müəllifi Y.Drozdov Avropa xalqlarının etnonimlərinin etimologiyasını araşdıraraq belə nəticəyə gəlmişdir ki, Antik və ilkin Orta əsr Avropanın yunan, latın dilindəki yazılı mənbələrində və ərəb müəlliflərinin əsərlərində əks olunmuş qədim Avropa xalqları və tayfalarının etnonimləri təmiz türkcə və ya təhrif olunmuş türk adlarından ibarətdir. Onların içərisində yunan, latın və müasir Avropa xalqlarının dilində izah oluna biləcək heç bir ada rast gəlmək mümkün olmur. Bu o deməkdir ki, Avropa əhalisinin böyük əksəriyyəti ən qədim dönəmlərdən başlamış X-XII əsrlərə qədər türkdilli olmuşdur. (Дроздов Ю. 2008. Səh. 5)

Y.Drozdov qədim dövrlərdən etibarən türklərin bir etnos kimi Avropada oynadıqları dominant rola uyğun olaraq Avropanın X-XII əsrə qədərki tarixini Türk dövrü adlandırır.

XVIII-XIX əsrlər və sonrakı dövr tarixçiləri Avropanın İtaliya, İspaniya və digər ərazilərində ilk məskunlaşan turanlı xalqların iberlər və liqurlar olduqlarını yazırlar. Son axın isə Avropanı lərzəyə salan Hun axını olmuşdur.

XIX əsrin alman tarixçisi F.Kaufman Avropanın qədim tarixini şərh edərək yazır ki, Hind-avropalıların vətəni Skandinaviyanın cənubu və Almaniyadır. Buzların əriməsi bu ərazidə daha gec dövrlərdə baş verdiyi üçün mədəniyyət burda daha gec dövrlərdə yaranmışdır. Avropanın mərkəzi və şimalı qədim dövrün mədəni inkişaf baxımından dünyanın Mərkəzi Asiya və Mesopotamiya bölgələri ilə müqayisədə uyqarlığın ən gec bərqərar olduğu bir bölgədir. (Kauffmann F. 1913)

İtalyanın XIX əsrdə görkəmli arxeoloqu və paleontoloqu Françesko Molon Avropada ilk öncə məhz turanlıların məskən saldıqlarını qeyd edir: "Buzluqların əriməsi ilə insanların şimaldan cənuba doğru hərəkəti başlamışdır. Onlar Cənuba doğru hərəkət edərək bir qolu Himalaydan şərqə Hindistan və Ərəbistana doğru, digər qolu isə İran üzərindən Qafqaza və daha irəliyə doğru hərəkət edərək həmin əraziləri məskunlaşdırmışlar. İlk olaraq Turan irqi Ural dağları üzərindən batıya və güney-batıya doğru hərəkət edərək Avropaya gəlmişlər. Turanlılar ilk öncə Avropanın güney bölgələrinə doğru hərəkət etdikləri zamanı müxtəlif ərazilərdə dayanaraq məskən salmış və bir müddətdən sonra irəliləməyə davam etmişlər. Onlar ilk növbədə Aralıq dənizi hövzəsinə doğru enmiş, Avropanın güney ərazilərində yerləşən İtaliyanı, İsveçrəni, Fransanın cənubunu və İspaniyanı məskunlaşdırmışlar. (Francesco Molon, 1880, Səh19)

Piktilər Britaniya adalarında, iberlər Priney yarımadasında, liqurlar Fransada və Alp dağları ölkələrində məskunlaşmış Avropanın ən qədim xalqları hesab olunurlar. Liqurlar tarix öncəsi dövrdə Fransada, İtaliyanın şimalında və İsveçrədə geniş yayılmışdılar. Keltlər Avropaya yayıldıqları zaman liqurları sıxışdıraraq onların yerini tutmuşlar. Liqur dili Avropanın hind-avropa irqinə aid olmayan dildir. Laplar şimalda, Skandinaviya ərazisində ən qədim əhalini təşkil edirdilər.



Germanlar onları daha şimala doğru sıxışdıraraq köçlərinə səbəb olmuşlar. Laplar fin dil qrupuna aiddirlər. Finlər hind-avropalılara qədərki qədim dövrdə Alp dağlarından şimala doğru Avropanın ən qədim əhalisi idilər. Onların ilkin vətənləri Ural dağlarıdır. (Friedrich Kauffmann. 1913. Səh. 3-4)

Türk bilim adamı Yusif Ziya yazır ki, əgər biz tarixin ilkin dövrlərində insan irqinin Yer üzərində yayılma mərkəzini axtarmaq istəsək arxeoloji tədqiqatlar o mərkəzin Turan və Sibir olduğunu göstərməkdədir. Tarixin ilkin dövrlərində Sibirdən və Orta Asiyadan Avropanın güneyinə və batısına köçmüş İber, Liqur, Tartus, Latin, Oksi, Sabin, Yapiq, Leleq, Pelasq, Akey, Min tayfalar Türk mənşəli boylar idilər. (Yusif Ziya Özer. 1932, Səh. 4)

Avstriya etnoloqu C.Flieqerə görə Yeni daş dövründə Qərbi Avropanın qədim əhalisi liqurlardan və iberlərdən ibarət olmuş və onlar sonradan Quzey-batı istiqamətində də hərəkət edərək bu ərazilərdə yayılmışlar. Onlar Britaniyada da yerləşmişdilər, burda aşkar edilən insan qalıqları da bunu sübut edir. Turanlılar Avropanın arilərdən öncə sakinləri idilər. Alman alimi Karl Müllenhof da liqurları Qərbi Avropanın hind-avropalılara qədərki qədim əhalisi olduqlarını və bu ad altında bir çox qədim əhalinin o cümlədən keltlərin birləşdiklərini yazır. (Flieger C. 1877, Səh. 50)

XIX əsr Alman tarixçi və etnoloqu Baron Bunzen yazır ki, Turan əhalisinin bölünərək yayılması ari irqinin öz ilkin yurdlarını tərk etməsindən daha öncə başlamışdır. Buna görə də arilər şərqə və ya qərbə hansı istiqamətə getsələr orda Turun köçəri varislərinə rast gəlirdilər.

Alman assuroloq tarixçisi A.Virth də bu fikri dəstəkləyərək turanlıların yayıldığı coğrafiyanı belə müəyyən edir, Arilər öz ilkin vətənləri olan Ural çayı ilə Şimal dənizi arasındakı ərazidən Şimal-qərbə doğru hərəkət etmiş və Aşağı Reyn və Baltik dənizi və İsveçin cənubu və Volqa çayı arasındakı ərazidə məskunlaşmışlar. Hind-avropalılar qərbə doğru hərəkət etdikləri zaman burda elə bir ciddi müqavimətlə qarşılaşmamışlar. O zaman Avropada başqa irqə mənsub olan finlər, liqurlar, pelasqlar və iberlər məskunlaşmışdılar. Yunan mənşəli tayfalar xatların ordusunda muzdlu hərbi dəstələr kimi iştirak edirdilər. Sonradan onlar dənizə doğru hərəkət edərək e.q. 1210-cu ildə öz arzuları ilə su vasitəsilə Nil ölkəsinə və dənizdəki digər ərazilərə yayıldılar. Hellen yunanlar qərbə doğru hərəkət etdikləri zaman özlərinə yabançı irq olan turanlı pelasqlarla qaşı-qarşıya gəldilər. (Wirth A. 1905, Səh. 32

Danimarka filoloqu Rasmus Rask qədimlərdə Asiyanın, Avropanın və Amerikanın şimal ərazilərində məskunlaşan əhalinin turan və ya iskit mənşəli xalqlar olduğunu və fin dilinin də daxil olduğu turan dilinin əsas danışıq dili olduğu fikrini irəli sürmüşdür. Onun qənaətinə görə Ağ dənizdən başlayaraq Qafqazı da əhatə edən böyük ərazidə turan-iskit dili hakim olmuşdur. Bu dil eyni zamanda

Qrenlandiya da daxil olmaqla Avropanın şimalındakı Finlandiyanı, Britaniyanı, Qalliyanı və İspaniyanı da əhatə etmişdir. Bu Turani dil substratının bütövlüyü keltlərin, slavyanların axınları nəticəsində pozulmuş və Asiyanın ayrı-ayrı bölgələrində kompakt şəkildə öz mövcudluğunu qoruyub saxlayaraq inkişaf etmiş və sonradan iskit axınları şəklində ari məskənlərini və şəhərlərini lərzəyə salmışlar. Rask fin və tatar/türk dillərinin yaxınlığı ideyasını müdafiə edərək bu yaxınlığın təkcə leksioqrafik xarakter daşımadığını daha dərin bağlara malik olduğunu fikrini irəli sürür. (G.J.Bunzen. 1854, C 1, Səh. 273)

İskitlər Finlandiyadan başlamış Amur sahillərinə qədərki ərazidə məskunlaşmışdılar və Turan irqinə mənsub idilər. Q.Maspero dünyanın ən qədim xalqlarından olan turanlıların indinin özündə də, yəni XIX əsrdə Avropanın şimalında və Asiyada yaşamaqda olduqlarını yazır. Turanlılar qarışıq irq olub tərkibində ağ irqi və sarı irqi birləşdirmişdi. Turan ailəsinə daxil olan xalqların əksəriyyəti ümumi mənşəyə malikdirlər, etnik mənşə birliyinə malik olmayanların bir çoxu isə vahid dilə mənsubdurlar. Turan birliyi dil birliyindən çox əməli birliyə söykənməkdədir. (Gaston Maspero. 1876, Səh. 135)

Baron Bunzen Turan məvhumunu tarixi ədəbiyyata ilk gətirən bilim adamıdır. O yazır: "Asiya və Avropanın sami və iranlı olmayan bütün xalqları ən qədim dövrdə təşəkkül tapmış üçüncü bir ailəni meydana gətirir. Bu ailəni mən 1847-ci ildə cəsarət göstərərək Turanlı adlandırdım. Sami dili öz kökləri ilə daha qədim olan xami dilinə bağlı olduğu kimi, iran dili də öz kökləri ilə daha qədim olan Turan dilinə bağlıdır. Bütövlükdə bir-biri ilə orqanik şəkildə bağlı olan Asiya və Avropanın dilləri bir kökdən gəldiyi kimi insan irqi də vahid bir kökədən yaranmışdır. (G.J.Bunzen, C. 2, Səh. 4)

Bunzen turanlıların Avropa xalqlarının etnik mənşəyində oynadıqları önəmə diqqəti yönəldərək dünyanın müasir tarixi və xronoloji zaman kəsiyində də Turanın öz töhvəsini verdiyini Avropanın şərqində və qərbində, şimalında və cənubunda müasir kökünü təşkil edən qədim kelt mədəniyyətinin əsasını Turan təbəqəsinin təşkil etdiyini yazır. O dünya xalqlarının etnik tarixində önəmli rol oynayan iskit/sakları Bibliyaya əsasən bəşər tarixində ilk monarxiyanın və imperiyanın əsasını qoyan Nimrudun turanlı işğalçı varisləri olduğunu və onların qədim iran imperiyasını narahat edərək həyəcanlandıran, daha gec dövrdə yunan mədəniyyətinə təsir edərək onun enerjisini artıran qüdrətli etnos adlandırır. Bunzen turanlı Hunnların qədim Roma imperiyasının yıxılmasına vəsilə olduqlarını, German və germanlaşmış dövlərtlərin yaradıcılarının məhz Turanlılar olduqlarını yazır. (G.J.Bunzen. 1854, C. 2, Səh. 26)

Françesko Molon Mərkəzi Asiyadan gələn liqur və iberləri Turanlıların ural-altaylılara mənsub qolu adlandırır və onları laplandlar və finnərdən sonra Avropaya gələn ikinci miqrasiya hesab edir. Ural və Altay arasında yaşamış olan turanlı xalqlar əhliləşdirmiş olduqları ev heyvanlarını da özləri ilə Avropaya gətirmişdilər. Molon keltlərin turanlılardan xeyli zamanlar sonra Avropaya miqrasiya etdikləri fikrini irəli sürür. Turanlılar arilərdən fərqli olaraq ölülərini dolmen və timullarda dəfn edirdilər. (Francesco Molon. 1880, Səh. 32, 33)

Dünyanın böyük hissəsində dolmen və tumulları araşdıran və onları turanlılara xas bir memarlıq abidəsi hesab edən arxeoloq və arxitektura tarixçisi C.Fergusson yazırdı: "Tumulları ən erkən dövrlərdən Turan irqinə mənsub olan insanlar öz ölülərinin məzarları üzərində ucaldırdılar. Bu cür Tumullar Asiyanın şimalında, Kiçik Asiyada geniş yayılmışdır, onları Etrusklar da öz məzarları üzərində ucaldırdılar, Yunanıstanda, Germaniyada və Fransanın qərbində, Skandinaviyada və bütün Avropada onlara çox rast gəlmək olur". (Fergusson J. 1868, Səh. 80)

C.Ferqusson İspaniyadakı çoxsaylı dolmenlərin yaradıcılarının oranın ilk mədəni əhalisi olan turanlı iberlər olduğunu yazır. Bu etnosu bəzən liqur-iber də adlandırırlar. İberlər e.q. III minillikdən etibarən İtaliyanın quzeyindəki Liquriyadan başlayaraq Fransanın güneyi də daxil olmaqla Mərkəzi İspaniyaya qədər yayılmışdılar". (Fergusson J. 1868, Səh. 80)

İtaliyanın şimalındakı liqurlar və Fransadakı akvitanlar iberlərin müxtəlif qollarını təşkil edirdilər. İberlərlə ilk əlaqəni e.q. XI əsrdə İspaniyada ilk ticarət kaloniyaları yaratmış olan Finikiyalılar qurmuşlar. E.q. VI yüzillikdə Yunanlılar İspaniyaya gələrək burada öz ticarət kaloniyalarını yaratmışlar. Metal emalı və metal ticarəti digər turanlı xalqlar kimi iberlər üçün də xarakterik fəaliyyət sahəsi olmuşdur. İberlər mixi yazıya bənzər öz yazı sistemlərinə malik olmuşlar. İspaniya iberlərin adı ilə İberiya yarımadası adlanmışdır.

Avropada məskunlaşmış ikinci böyük qədim turanlı subetnos iskitlər olmuşlar.

Herodotun yazdığına görə iskitlər öncə Asiyada yaşayırdılar, massaqetlər onları öz yurdlarından qovduqdan sonra Rusiyanın cənubundakı çölləri işğal etdilər. Kimmer keltlər Qaradəniz (Pont Euksin) ətrafındakı öz yurdlarından tatarlar tərəfindən qovulmuşlar. Bu hadisə m.ö. XVI yüzillikdə baş vermiş və kelt xalqı bütün Qərbi Avropaya yayılaraq Qalliyanı və Bretaniyanı işğal etmişdilər. İskitləri də öz yurdlarından köçməyə məcbur edənlər massaqetlər də tatarlar idilər.

Oppert sakaları və skutaları eyni xalq hesab edir. Saklar sanskritcə Çakastan, yəni fars dilində Sakastan adlanır. Oppert sakları yunanlıların Skutha adlandırdıqlarını yazır. Nəqşi Rüstəm kitabələsində də onlar Çakas kimi yazılır. Massaqet adı tatar (türk) dilində mix-saqqatoi, yəni ordu başçısı deməkdir. (J.Oppert. 1857, Səh. 18)

Etnoloq və tarixçilər Turan irqinə mənsub insanların həm braxikefal-yumrubaş, həm də dolixokefal-uzunbaş antropoloji tipə mənsub olduqlarını yazırlar. Bu antropoloji qarışım tarixin ilkin dövrlərində baş vermişdir.

Avropanın böyük tarixçilərindən olan ingilis İsak Teylor braxikefal Turan irqinin ilkin dövrlərdə Avropanın Macarıstan ərazisinə qədərki ərazisində məskunlaşdıqlarını, lakin sonradan digər ərazilərinə də yayıldıqlarını yazır. Almaniyanın Vürtemberq əyalətində braxikefal insan qalıqlarının aşkar edilməsi burda qədimlərdən Turan və ya "sarmat" irqinə mənsub insanların məskunlaşmış olduqlarını göstərir.

İsaak Teylora görə Sezarın dövründə Qalliyada üç irq: akvitanlar, keltlər və belqlər mövcud olmuşlar. Reyndən şərqdə isə germanlar yaşayırdılar. Bu dörd insan nəslindən yalnız biri arilər ola bilərdi, digər üçü isə qeyri ari mənşəli olub sadəcə ari dilində danışanlar idilər. (İsaac Taylor. 1898. Səh. 67)

Turanlı braxikefal Keltlər Skandinav dolixokefal insanlarını şimala doğru sıxışdırdılar, braxikefal Turanlı liqurlar isə dolixikefal iberləri cənuba və qərbə doğru sıxışdırdılar. Bunun nəticəsində Mərkəzi Avropada braxikefal, şimal və cənubda isə dolixokefal tip üstünlüyə malikdir. (İsaac Taylor. 1898, Səh. 216)

Teylor broxikefal Turan irqinə mənsub sumerlərin 7000 il öncə yüksək mədəniyyət yaratdıqlarını və Avropada da uyqarlığın və dilin braxikefal turnalılar tərəfindən yaradıldığını qeyd edir. (İsaac Taylor. 1898, Səh. 241)

Tarixçilərin çoxu kimi İ.Teylor da turanlı mənşəyə malik iber və liqurları Avropanın ən qədim sakinləri adlandırır. Umbr və latin xalqlarının gəlişinə qədər İtaliyada liqurlar və iberlər məskunlaşmışdılar. Fransanın əsas əhalisi də liqurlar gəlmədən öncə iberlər olmuşlar. (İsaac Taylor. 1898, Səh. 93)

İberlər İtaliyanın güneyi, Sardiniya, Korsika və Siciliyada da məskunlaşmışdılar. Avropa tarixçi və etnoloqları keltlərin mənşəyi haqqında fərqli görüşlər irəli sürürlər. Lakin əksəriyyət onların turanlı olduqları fikrini müdafiə edir.

Avropada kurqanlar öz qruluşuna görə fərqlənirdilər. İberlərin uzunsov kurqanları ilə turanlıların dairəvi kurqanlarını asanlıqla ayırd etmək olar. Dr.Turnam dairəvi kurqanlara malik irqi keltlərlə əlaqələndrir və "Turan" irqi adlandıraraq Belçika qallarının bir qolu hesab edir. Mərkəzi və Şərqi Avropanın, Asiyanın bu braxikefal əzəmətli tayfalarını Dr.Turnam monqoloid tipə aid edir, bu tipi kimberlərlə əlaqədar "Kimbriq" tip də adlandırırlar. Prof. Rolleston da keltləri Turan irqinə mənsub hesab edir, antropoloq Frans Prüner onları həm də monqoloid tipə aid edir. (İsaac Taylor. 1898, Səh. 70)

Qədim Turanın varisləri olan sak-iskit tayfalarının heyvandarlıqla əlaqədar olan köçəri həyat tərzinin məskunlaşmamış geniş ərazilərə və çay vadilərinin geniş otlaq sahələrinə davamlı olaraq böyük tələbatı vardı. Ona görə də turan tayfaları çox geniş ərazilərə yayılaraq böyük bir çoğrafiyada məskunlaşmışlar ki, bu Avrasiyanın ucsuz bucaqsız məkanında arxeoloji qazıntılar nəticəsində əldə edilən artefaktların oxşarlığı ilə də öz təsdiqini tapır: "Arxeoloji qazıntılar nəticəsində əldə edilən "İskitlərə xas silah tipləri, at qoşqu ləvazimatları, xarakterik iskit geyimi və incəsənətdə "heyvan stili" Xuanxedən Dunaya qədər olan geniş ərazidə e.q. IX-VIII əsrdə formalaşaraq eramızın VIII əsrə qədər davam etmiş eyni kökə malik mədəni icmanın mövcudluğunu təsdiq edir. (Кляшторный С. Г.; Т. И. Султанов. 2009)

Tarixçi Justinin yazdığına görə Asiya 1500 il iskitlərin tabeçiliyində olmuşdur. Yer kürəsinin Asiya adlanan bu hissəsi öz adını da iskitlərdən almışlar. Visladan Ural dağlarına qədərki ərazidə bəzi antik müəlliflərin Skifiya, digərlərinin Sarmatiya adlandırdıqları etnoərazi mövcud idi. Antik mənbələrdə əks olunan ən qədim avropa etnonimi "kimmerilər" idi. Bu etnoterminin semantik-etimoloji təhlili onun tipik türkdilli tayfa adı olduğunu göstərdi. Antik ədəbiyyatda aydın şəkildə kimmerilərin iskit xalqı olduğu və onların sonradan hun adlandıqları göstərilir.

Rus araşdırıcı Y.Drozdov Avropa xalqlarının etnik tarixinə həsr olunmuş əsərində iskitlərin oda sitayiş etdiklərini və özlərini "as" adlandırdıqlarını yazır. İskit tayfa etnonimlərinin təhlili onların türk olduqlarını göstərir. Bu ilkin orta əsr avropa müəlliflərinin əsərlərindəki məlumatlarla da təsdiq olunur. Bununla bərabər iskitlər antropoloji tip etibarı ilə avropoid idilər. Skiflərin, o cümlədən hun, bulqar, avar və digər tayfaların ilkin olaraq Avropada məskunlaşdığı yerlər orta Volqa və Kama çayı ətrafı idi. Bu tayfalar təxminən e.q. III minillikdən etibarən burda mövcud idilər. Sonradan onlar Volqadan Dona qədərki geniş əraziyə yayıldılar. Bu ərazi As adlanan bu tayfaların ümumuiləşdrici adı ilə Asiya adlanmışdır. Təxminən e.q. III minilliyin axırlarından etibarən bu tayfalar Orta Volqadan Mərkəzi, qərbi və şimali Avropaya yayılmağa başladılar. Beləliklə, antik dövrün çox dərinliklərindən etibarən Avropa xalqlarının əksəriyyətini türkdilli xalqlar təşkil edirdilər. (Дроздов Ю. Н. 2011, Səh. 13)

Tiras Bibliyada türklərin ulu əcdadı kimi qəbul edilən və tarixi ədəbiyyatda "Türk oğlan" adlandırılan Yafəsin kiçik oğludur. İosif Flavinin yazdığına görə o Trakların ulu əcdadıdır.

Ayzek Əzimov Tirası Etruskların, yəni Tirsenlərin ulu əcdadı hesab edir. Tirası dəniz xalqlarından olan və Misirə hücum edən Turşalarla da eyniləşdirirlər. Turşaların türklər olduğu bir çox müəlliflər tərəfindən təsdiq edilməkdədir.

Tiras öz adını bir sıra yer, hidronim və etnonimlərə vermişdir. Turas hidronimi iki sözün "Tur" və "as" sözlərinin birləşməsindən yaranmışdır. Turlara mənsub as tayfasının adını əks etdirir. Turan xalqı olan sak/iskitlərin qədim zamanlarda məskunlaşdıqları Orta Asiyadan başlamış bütün cənubi Sibir və Rusiya çölləri Avropa ərazisi də daxil olmaqla böyük bir coğrafiyada tərkibində Tur etnonimi daşıyan saysız hesabsız topoformatlar mövcuddur. E.q. I əsrdə yaşamış müəllif P. Mela öncələri də Herodotun qeyd etdiyi Yirklərin yerləşdiyi ərazilərdə, Volqa və Ural çayları boyunca yaşayan Turcia adlı tayfalardan bəhs edir.

Strabon Cənubi Buq və Qara dəniz arasında və Tursen (Dnestr) çayının hər iki

sahilini əhatə edən geniş ərazidə məskunlaşan Turanqet (Turan tayfanın adı, qet isə sakların dilində boy, qəbilə deməkdir) tayfaları haqqında bəhs edir. Onlarla qonşuluqda isə Dak tayfaları məskunlaşmışdılar.

Avropada Buq adlı hidronimlər öntürklərin dilində çay anlamındakı Bulq/Baliq sözündən götürülmüşdür.

Tiras və ya Turas sözünün mənası "arzu edilən" kimi izah edilir. Lakin bu eponim əslində Turas və ya Turşa adının dəyişik ifadə şəklidir. Troas, Taurus, Troad, Tirren, Trak, Türk, Troya, Toskan, Etrusk Adları bu sözdən yaranmışdır. Öküz anlamındakı Tuar sözü də kök etibarı ilə bura bağlıdır. Yunanların İliadada bəhs etdikləri troyalılar Keltlərin kökünü təşkil etmişdilər. Abbat Mak Qeoqeqan "İrland tarixi" əsərində Bibliyadakı qimirri/kimmerləri Qərbi Avropa xalqlarının ulu əcdadı hesab edir. Aser tayfaları e.q. 90-cı ildə Qafqazdan Baltik dənizi sahillərinə və ordan İsveçə getmişlər. Vanir tayfaları da onlarla birlikdə hərəkət etmişlər. Aserlər german tayfaları olan Quter tayfaları ilə ticarət edirdilər. Romalılar Quter tayfalarını Qot, Aser tayfalarını Svear, Vanir tayfalarını Danir və ya Danlar adlandırırdılar. Svear və Dan tayfaları Baltikin digər tayfalarından fərqli olaraq daha uca boylu və ağ rəngli idilər. (Christian Churches of Good. Sohns of Japheth: Part. VIII Tiras, №46, 2008)

Orta əsrdə Avropa xalqlarının tarixi salnamələrini yazan bir çox müəlliflər o cümlədən Frank mənşəli tarixçi Fredeqardın 660-cı ildə yazdığı "Merovinqlər xronikası" və İsveç tarixçisi Snori Sturlusonun "Edda" xronikasında Troyalıları türklərin əcdadları, yəni türk hesab edirlər. Fredeqard Müharibə zamanı Troyanı tərk edən Eneyin nəslini frank xalqının və türklərin əcdadı hesab edir. 1453-cü ildə Türklərin Konstantinopolu tutduqları dövrdə Avropalıların Troyadan qaçan əhalinin törəmələri olduqları ideyası geniş yayılmışdı. Sultan Mehmet Fatih İstambulu aldıqdan sonra Roma papası və Fransa kralına məktub yazaraq onlara bildirmişdi ki, romalılar və franklar olaraq siz Troyanı dağıtmış yunanlılardan 25 əsr sonra intiqam aldığım üçün mənə təşəkkür etməlisiniz. (Thomas J. MacMaster. 2014, Səh. 2)

Britaniya tarixçisi Cefri Momunt da britaniyalıların Troya hökmdarlarından Eneyin nəvəsi Brutun törəmələri olduğunu yazır.

XVI əsr tarixçisi Verqili Troyalıların ulu əcdadının Tukri adlandığını qeyd edir, bu ad özündə Troyalıların etnik kimliyini əks etdrir. Tukrilər Avropa xalqlarının əsas etnik kökünü təşkil edən trakların əcdadlarıdır. Onlar Troyadan köçdükdən sonra Balkanlarda yerləşərək Trak xalqını meydana gətirmişlər. Tukriya adı latınca Turkiya (Turcia) şəklində ifadə olunur. Bu ad Truk/Türk adı ilə eynilik təşkil etdiyindən avropalılar Trakiyanın yunan dilində deyiliş forması olan Frakiya variantından istifadə etməyə üstünlük verirdilər. Priam Troyadan qaçıb xilas olan frankların ilk çarı olmuşdur. Priamın əcdadlarının bir qolu Balkanlara gedib orda makedoniyalılara yardım edərək yerləşdilər və İsgəndərin hərbi yürüşlərində iştirak etdilər, digər bir qolu öncə Friqiyada yerləşmiş və sonra Reyn və Dunay arasında məskunlaşmışlar. German tayfalarının əsas qollarından birini təşkil edən traklar Merovinq sülaləsinin hakimiyyəti altında frank dövlətini yaratdılar.



Fredeqard yazır ki, troyalıların böyük qolu qərbə doğru hərəkət etməyib Dunay çayı, Frakiya və Okean arasında yerləşdilər, onlar özlərinə Türkvot adlı kral seçdilər ki, türklərin adı həmin kralın adından götürülmüşdür. Troyalılar Trakyada bütün ailələri ilə birlikdə yerləşdikləri əraziləri döyüşərək əldə etmişdilər.

Troyalıların başqa bir qolu Eneyin başçılığı altında İtaliyaya hərəkət edərək orda latınların Roma dövlətinin əsasını qoydu.

İsland tarixçisi Sturluson Edda əsərində yazır ki, Priam Troyanın ən əzəmətli kralı və özünün türklərdən ibarət qoşununun rəhbəri idi. Sturlusonun Türklandı ilə Fredeqardın Türk ölkəsi eyni ilə Qara dənizin şimalı və Dunay ətrafı ərazidə yerləşirdi. Dunay çayının qədim adı Tiras olmuşdur.

Sturlusonun bəhs etdiyi türklər türk miflərini, qanun və adətlərini İsveçə türklərin vətəni olan bu ərazidən aparmışdılar. Sturluson yazır ki, təkcə İsveçin və Norveçin hakim sülaləsi Türklərdən ibarət deyildilər, Danimarka, Saksland (Almaniya) və İngiltərə xalqı da türklərdən törəyərək onların dilində danışırdılar. Şotland araşdırıcı Tomas MakMaster Troyanın türklərlə əlaqələndirilməsini təbii hesab edir, çünki Troya ərazi baxımından da Türkiyənin Hisarlıq adlı ərazisində yerləşir. (Thomas M. Master. 2014. Səh. 3)

Avropa coğrafiyasında "Tur" kökü ilə başlayan çoxsaylı toponimlər, hidronimlər və etnonimlər mövcuddur. Onlar içərisində ən maraq doğuranı isə "Turon" etnonimidir.

Turan adının fərqli fonetik forması olan Turon etnoniminin mənası turlar deməkdir. Tur və Turan adlarının Avropada toponim və etnonim olaraq geniş şəkildə yayılması yüz illər ərzində turanlıların və türklərin bu ərazinin əsas əhalisi olduğunu sübut edir.

Avropa ilə əlaqədar Turon etnonim adı ilk dəfə miladın II əsr müəllifi olan Klavdi Ptolomeyin "Coğrafiya" əsərində çəkilmişdir. Turan adlı digər bir qədim german tayfası Xattenin indiki Hessen əyalətinin güney və güney-doğusunda məskunlaşmışdı. Bu turan tayfası german və kelt tayfalarının qarışımından ibarətdir. Mənşə etibarı ilə kelt olan Turonların sonradan germanlarla qarışmış ola biləcəyi güman olunur. Almaniyanın qədim vilayətlərindən olan Turinqiya da öz adını turon adından götürmüşdür, turonlar indiki Türingiya meşələri ilə Mayn çayı arasında məskunlaşmışdılar. Fransanın Touran vilayəti ilə Turinqin eyni kökdən olduğu məlumdur. İndiki Belqiyada da german Tonqer tayfasının adını daşıyan şəhərin yaxınlığında Tourn şəhəri mövcuddur. (Hoops Johannes. Reallexikon. Band. 4, 1915-1916, Səh. 342-343)

Turon xalqı Qalliyada (indiki Fransa) Avropanın qədim kelt-qall tayfasıdır. Turonlar Fransanın ən uzun çayı olan Luaranın sahillərində məskunlaşmışdılar. Onların mərkəzi şəhəri Tur adlanır.

Turon və ya Turan xalqı qədim kelt-qalların mühüm bir qolunu təşkil edirdilər. Turonlar Romanın Qalliya əyalətində Fransanın indiki Luvr şəhəri və ətrafında məskunlaşmışdılar.

Qara dəniz ətrafında iskit/sakların bir qolu yunan mənbələrində Taur adlandırılır. Bu söz rus tarixi ədəbiyyatında Tavr kimi yazılır. Hər halda bu sözün əslinin Tur olduğu yəqindir. Taur öntürklərə aid bir termindir. Anadolunun güneyindəki eyni adı daşıyan Taur/Toros dağları Turan ərazisində yerləşirdi.

VI əsr tarixçisi Psevdo Arrian qotların dilinin taur dili olduğunu yazır. Herodotun yazdığına görə iskit-iran müharibəsində Taurlar Əhəməni ordusuna qarşı iskitlərlə birlikdə mübarizə aparırdılar. Yunan mifalogiyasında Taurların kralı r-s əvəzlənməsi ilə Taus adlanır. İskitlər öz qardaş boyları olan taurlarla birləşərək Krımda İskit-taur dövlətini yaratmışdılar.

Qədim öntürk sumer tanrısı Tur günəş tanrısı Utunun öküzü adlanırdı və Kassi hakimiyyəti dövründə Marduk şəklində ifadə olunurdu. O Xattilərdə hava tanrısı Tura, Taru, Tarhu, şimali german və skandinav xalqlarının göyüzü, hava və savaş tanrısı olub Tur adlanırdı. Onu yunanların Zeus və romalıların Yupiter tanrısı ilə eyniləşdirirlər.

Alman tarixçiləri qədim kelt xalqını almanların etnogenezinin önəmli tərkib hissəsi hesab edirlər. Kelt axınları Xəzər və Qaradənizin şimalından keçərək Avropaya doğru istiqamət götürdülər və burda məskunlaşmış turanlıları qitənin şimalına, iberləri isə cənubuna doğru sıxışdırmışdılar. Alp dağları ilə Adriatik dənizi ətrafında məskunlaşan iberlər burda liqur və toskan adları altında məskunlaşdılar. (Robert Ellis, 1875, Səh. 154)

Astur və ya Asatur 1972-ci ildən İslandiyada xristianlığın çərçivəsində yenidən bərpa olunan dini etiqaddır. Bu dini etiqadın kökləri skandinavların As tanrısına olan etiqada söykənir. Astur bu dini etiqadda baş tanrı kimi qəbul olunur. Astarta Ön Asiyanın turanlı Kheta/Xatti xalqının tanrısı idi. İslandiyada yerləşən qədim turanlı tayfalar Astartaya inamı da özləri ilə gətirmişdilər.

Alman Reyn çayı sahilində yaşayan tayfalar içərisində os/as və arevi etnonimləri diqqəti cəlb edir. Tasit bu tayfaların öncə vahid etnos olduqlarını sonra isə ayrıldıqlarını qeyd edir. Onların dili, adətləri və yaşayışları eynidir. (Корнелий Тацит. Анналы. 1993, Səh. 28)



# XXX FƏSİL. Germanlar və onların Turanlı mənşəyi haqqında

Avropa xalqlarının etnogenezinin formalaşmasında german tayfalarının mühüm rolu olmuşdur. Skandinaviyanın güneyində və Avropanın ortasında məskunlaşmış tayfalar birliyi Germanlar adlandırılırdılar. Bizim dilimizdə onların adı Alman şəklində ifadə olunur. Alleman tayfası German tayfa birliyinin indiki Fransa ərazisində məskunlaşmış kiçik bir qrupunu təşkil edirdi və Alman adı bizə fransızlardan keçmişdir. Almanlar özlərini Deutsch/Doyç adlandırırlar. Polyaklar və ruslar onları Nemets, Yəhudilər almanları Aşkenaz adlandırırlar.

Arxeoloji tədqiqatların nəticəsinə əsasən e.q. I minilliyin ikinci yarısında Reyn və Elba çaylarının mənsəbləri arasındakı bütün sahil zonası ərazilərində, özəlliklə də ənənəvi olaraq əsl alman əraziləri hesab olunan Frislandiya və Aşağı Saksoniyada Laten-kelt və Yastorf-german mədəniyyətindən tamamilə fərqlənən vahid bir mədəniyyət yayılmışdı. Bu mədəniyyətin bizim eramızdakı germanların timsalında hind-avropa etnik mənşəyinə aid olmasını sübut etmək mümkün olmamışdır. Bəhs olunan dövrdə o mədəniyyətin yaradıcısı olan yerli əhalinin dili nə kelt, nə də german dilləri deyildi. (А.Л.Монгайт. 1974, Səh. 331)

"Germanlar" etnonimi ilk dəfə yazılı mənbədə e.q. I əsrin birinci yarısında yunan filosofu və tarixçisi Posidoniy tərəfindən qeyd olunmuşdur. Bu ad e.q. I əsrinin ikinci yarısında Yuli Sezarın Qalliya müharibələrinə həsr olunmuş əsərində Reynin şərqi və Dunayın aşağı və yuxarı axarı boyunca yaşayan xalqa aid edilən ad kimi şöhrət tapmışdır.

Əsas German tayfaları Qotlar, Bastarlar, Boylar, Burqundlar, Saksonlar, Franklar, Alamanlar, Lanqobard, Markomann, Türinqlər, Vandallar, Suevlər hesab olunurlar. Bu tayfalar müxtəlif çoxsaylı qollara bölünürlər.

German tayfaları nə qədər hind-avropalı hesab olunsalar da, tarixi mənbələrdəki məlumatlar, müxtəlif müəlliflərin gətirdiyi dəlillər və german tayfa etnonimlərinin semantikası onların böyük əksəriyyətinin turanlı ön türk mənşəli olduqlarını isbat edir.

Avropa və o cümlədən Alman tarixçilərinin bir çoxu German tayfalarının etnogenezində iskit, sak, sarmat və hun tayfalarının önəmli rol oyadıqlarını təsdiq edərək bu məsələnin tədqiqinə xeyli əsərlər həsr etmişlər. German Skandinav saqalarında German tayfalarının türk mənşəyini özündə əks etdirən tarixi hekayətlər əfsanələşmiş şəkildə əks olunmuşdur.

Alman tarixçisi A.Virt yazırdı: "Germanların qanına Turan qanının qarışması yeni dəlillərlə müəyyən olunmuşdur. Germanlarrın bütün tarixi turanlılarla sıx

bağlı olmuşdur. Onlar turanlıların əhatəsində yaşamış, onlarla yaxın ünsiyyətdə olmaqla yanaşı həm də savaşmışlar". (A.Wirth, 1905, Səh. 188)

"Germania" adlı məhşur tarix əsərinin müəllifi Tasit germanların əsas əcdadları hesab olunan Bastarnları onların german dilinə aid olduqları haqqındakı məlumata rəğmən german deyil, sarmat olduqlarını yazır. Bastarnların başçılarının Klondiq, Tevtaqon, Kottoy kimi adları da german adları deyillər. (Siegmund Feist. Germanen und kelten in der Antiken Überlieferung, Halle, 1927, səh. 7)

Görkəmli etnoloq Baron Bunsenin yazdığına görə Hunlar qədim Roma imperiyasının yıxılmasına vəsilə oldular. German və germanlaşmış dövlərtlərin yaradıcıları Turanlılar oldular. (C.J.Bunsen. Vol. 2, 1854, Səh, 26)

Skandinav saqası Eddada deyildiyinə görə etrusk Turşalar germanlara at bəsləməyi öyrətmişlər.

Herodotun yazdığına görə iskitlər öncə Asiyada yaşayırdılar, massaqetlər onları öz yurdlarından qovduqdan sonra Rusiyanın cənubundakı çölləri işğal etdilər. Böyük Hind-german ailəsindən qopan ilk arilər olan kimmer keltlər Qaradəniz (Pont Euksin) ətrafındakı öz yurdlarından tatarlar tərəfindən qovulmuşlar. Bu hadisə e.q. XVI yüzillikdə baş vermiş və kelt xalqı bütün Qərbi Avropaya yayılaraq Qalliyanı və Bretaniyanı işğal etmişdilər. İskitləri də öz yurdlarından köçməyə məcbur edənlər massaqetlər də tatarlar idilər. Massaqet adı tatar (türk) dilində miks-saqqatoi, yəni ordu başçısı deməkdir. (J.Oppert. 1857, Səh. 18)

Maks Müllerin yazdığına görə keltlərin varisləri olan almanlar, yunanlar, slavyanlar, italiyanlar, farslar və induslar sami və turanlılardan ayrıca bir dam altında yaşayırdılar. (G. Rawlinson. 1883, Səh. 176)

German tayfalarının önəmli qollarından birini Xattlar təşkil edirdilər. Atlı süvarilər olan Xattlar möhkəm bədən qruluşuna, qorxunc görkəmə, sarsılmaz ruha malik, ən döyüşkən xalqdır. Digər alman tayfaları ilə müqayisədə xattlar olduqca sağduyulu və tədbirlidirlər, hərbi rəislərini özləri seçirlər və ona tabe olurlar. Yüksək hərbi intizama malikdirlər, qoşunun sayından çox hərbi başçılarına daha çox güvənirlər. Sürətlə hücum etdikləri kimi sürətlə də geri çəkilirlər, döyüşdə şücaətə üstünlük verərək meydandan qaçmırlar. Xattların bir qolu olan cəsur batavlar sonra onlardan ayrılaraq Reyn çayının sahilində yerləşdilər. (Корнелий Тацит. T-1, 1993, Səh. 30)

Xattlar Kiçik Asiyanın qədim turanlı xalqı olan Kheta/xattilərin Avropaya miqrasiya etmiş tayfalarından biri ola bilər. Avropaya mühacirət etmiş Troyalıların kökünün də xattilərin təşkil etdiyi haqqında elmi mülahizələr mövcuddur.

Tarixi mənbələrdə german tayfaları kimi təqdim olunan qədim turani türk tayfalarından biri də antik müəlliflər tərəfindən kimvirlər adlandırılan qədim qimrilər, yəni kimmerlərdir.



Almaniya çıxıntısında Okeanın yaxınlığında keçmişdə böyük şöhrətə malik məhşur və qüdrətli indi sayları xeyli azalmış kimvir xalqı yaşayır.

1891-ci ildə Danimarkanın Hammerland bölgəsində e.q. II-I əsrlərə aid 69x42 sm. həcmində gümüş bir qazan tapılmışdır. Keltlərə aid edilən bu gümüş qazanın qurban kəsmə rütualları zamanı istifadə olunduğu bildirilir. Bu gümüş qazan öz böyüklüyünə və üzərindəki təsvirlərin mənasına görə eynilə iskit və kimmer qazanlarını xatırladır. Qazanın üzərində tanrı olduğu güman edilən, başında buynuzlu dəbilqə olan insan təsviri vardır, o öküzü qurban verərkən təsvir olunmuşdur. Öküz kultu iskit/sak, kimmer və sarmatlar içərisində geniş yayılmışdı.

G.Rauilson kimmerlərlə keltləri eyniləşdirərək yazır ki, Kimmerlər Roma dövrünün kimvirləri ilə eyniləşdirilir, onlar böyük kelt irqinin bir parçasıdırlar. Britaniyaya gələn romalılar burdakı yerli əhalini kimberlər adlandırdılar, ölkəni isə Kimbriya. Onların varisləri hələ də Britaniyada yaşayırlar və özlərini kimvirlər adlandırmaqda davam edirlər. Baxmayaraq ki, biz onları Uels adlandrırıq. Onların yaşadıqları dağlıq ərazi indi də Kimberland adlanır. Yaradılış kitabında Yafəsin övladı olan Qimri böyük kelt irqini təmsil edir. Maqoq və ya Qoq Qafqazda və Mesopotamiyada 30 ilə qədər üstün mövqedə olan Avropa iskitləridirlər. (G.Rawlinson. 1883, Səh. 171)

Alman tarixçisi Ziqmund Fayst Kimmerlərin vətəninin Yutland yarmadasındakı Himmerland adlı ərazidə olduğu haqqındakı iddiaları rədd edir və onun həqiqətə uyğun olmadığını bildrir. Kimber adı bir german adı deyil. (S.Feist. 1927)

Özündə Türk etnonimini daşıyan Turklinqlər qədim germanların ən önəmli hökmran tayfalarından biri idi. Turklinqlər Skir tayfa birliyinin hakimiyyət sülaləsini təşkil edirdilər. Tukrlinqlər haqqında ən geniş məlumatı Jordan vermişdir. Turklinqlərin hakimiyyət sülaləsinin banisi Edekon idi, onun Odeakr və Onoulf adlı iki oğlu var idi. Turklinqlərin ən önəmli öndəri Odeakr idi. Ondan sonra turklinqlərin öndəri onun qardaşı Onoulf olmuşdur. Bəzi alman tarixçiləri turklinqləri germanların turinq boyu ilə eyniləşdirirlər.

Tarixi mənbələrdə öncə Baltik dənizi yaxınlığında yaşayan skirlərin bastarlarla birlikdə qot tayfalarına mənsub olduqları yazılmışdır. II əsrdə bu tayfalar birlikdə Qara dəniz sahillərinə köçdülər. Hunlar gəldikləri zaman türklinq qəbiləsinə mənsub Odekon (Otakan/Ataxan) skir tayfasının başbuqu kimi Attilanın ən yaxın silahdaşı və təmsilçisi oldu və skillər hunların tabeçiliyinə girdilər. Prisk Otakanın mənşəcə hun və Attilanın ən etibarlı sərkərdəsi olduğunu yazır. (Приск Панийский. 1948)

453-cü ildə Attila öldükdən sonra skirlər Odekonun rəhbərliyi altında Pannoniyada bir dövlət qurdular. 469-cu ildə ostqotlarla müharibədə Odekon öldürüldü və qurduğu dövlət dağıldı. Odekonun iki oğlu vardı, Odoakr və Hunulf (Hun oğlu). Hunulf Şərqi Roma dövlətinin xidmətinə keçərək yüksək hərbi rütbəyə təyin

olundu və ordu sərkərdəsi kimi ostqotlara qarşı mübarizəyə başladı. Odoakr da onun gələcəkdə böyük adam olacağını söyləyən falçı qadının sözlərinə uyaraq tayfası ilə birlikdə yaşadığı Pannoniyadan 470-ci ildə Romaya gedərək Qərbi Roma imperatorunun xidmətinə daxil oldu və tezliklə onun mühafizə alayına başçılıq etdi. İmperator ona qarşı başlayan üsyanın yatırılmasını Odoakra həvalə etdi. Döyüş zamanı üsyançıların tərəfində vuruşan german muzdlu döyüşçüləri Odoakrın tərəfinə keçdilər. 480-ci ildə Qərbi Roma imperatoru Yuliy Nepotun öldürülməsindən sonra Odoakr bütün hakimiyyətə sahib oldu. Odoakr 489-cu ildə oğlu Telunu Romada imperator elan etdi, Şərqi Roma imperatoru Zenon bundan bərk narazı qalaraq ostqotların rəhbəri Teoderixi Odoakra qarşı mübarizəyə sövq edə bildi. Qısa qarşıdurmadan sonra Teoderix Odoakra ölkəni birgə idarə etmək şərti ilə müttəfiqlik təklif etdi. 493-cü ildə barışıq ziyafəti zamanı Teoderix Odoakrı fəxri yerə oturtdu və sonra qəflətən qılınc zərbəsi ilə onu qətlə yetirdi. Beləliklə, türk-hun mənşəli Odoakrın Romada 13 illik hakimiyyəti sona çatdı. Onun dövründə daxili əmin-amanlıq və xarici sülh şəraitində yaşayan Qərbi Roma imperiyası yenidən hərc-mərclik və qanlı toqquşmalar dövrünə qədəm qoydu. Odoakrın etnik mənşəyi haqqında müəyyən mübahisələr mövcuddur. Odoakrn mənsub olduğu və german tayfası kimi tanınan turklinqlərin əslində türk və hun olduqları haqqında fikirlər mövcuddur. 1946-cı ildə "American Historical Review" adlı bir amerikan akademik dərgidə irəli sürülən bir nəzəriyyəyə görə Odoakr əslən german deyil və bu adın almanca bir etimologiyası yoxdur. Müəlliflərin fikrinə görə Odoakr Türk dilində olan bir sözdür, yəni mənşəcə türkdür və adın mənası "Ottoqar", yəni oddan doğan və ya "Otqar", yəni at çobanı deməkdir. (R.L.Reynolds, R. E. Lopez. Vol. 52, 1946, Səh. 45)

Bizim fikrimizə görə Odoakr türkcə Ot-oqra sözündən ibarət olub anlamı at kişnərtisi deməkdir. (Древнетюркский словарь, 1969, Səh. 369)

Antik mənbələrdə germanların böyük tayfa birliklərindən biri kimi "suevi/suebi tayfasının adı çəkilir. Tasitin və digər müəlliflərin verdiyi məlumata görə germanların ən qədim tayfa birliyi olan suevlər öz tərkibində müxtəlif mənşəyə malik bir çox tayfanı birləşdirərək ölkənin böyük bir hissəsində məskunlaşmışdılar. Nədənsə bəzi müəlliflər bu etnonimin orijinal adından fərqli olaraq onu sveb formasında ifadə etməyə üstünlük verirlər. Latın mənbələrində ilk dəfə bu ad Sezarın Qall müharibələrinə həsr olunmuş əsərində "suevi" şəklində əks olunmuşdur. Tasit bu tayfanın adını "suebi" formasında yazır. Tədqiqatçılar bu adın mənasını indiki alman və digər hind-avropa dillərində izah etməyə uğursuz cəhd göstərərək onu "sveb" sözü əsasında rusca "svobodnıy (azad)", almanca "slep-yuxulu geridə qalmış", "sweb-uçmaq, yüksəlmək", hind-avropa dillərində "sueboz-əsl özü" kimi izah edirlər. (Ю.К.Кузменко. 2011, Səh. 19-20)



Lakin bunların heç biri suev/sueb etnoniminin əsl izahını verə bilmir. Sezar suevləri germanların ən böyük və ən döyüşkən tayfası adlandırır. Sezara görə suevlər (sveb) Reyn çayının arxasında, indiki Vürtemberq, Bavariya və Türinqiya ərazisində yaşayırdılar.

Strabon suevləri Almaniyanın şimal ərazisində Elba çayının hər iki sahilində və onunla Reyn çayının arasındakı ərazidə yerləşdirir. Tasit özünün ifadə etdiyi şəkildə sueblərin Karpat dağlarından Baltik dənizinə qədər olan geniş ərazidə məskunlaşdıqlarını yazır.

Antik müəlliflərin yazdığına görə suevlər tayfa birliyi formasında mövcud olmuşlar. Suev tayfaları bu günki alman xalqının əsas qollarından biri olan Şvab almanlarının kökünü təşkil edir. (Кузменко Ю.К., 2011, Səh. 21)

Sueblər bir etnos kimi Baltik dənizi ətrafında, xüsusən də Elba və Oder çaylarının arasında və ətraf sahillərində təşəkkül tapmışdılar. Ona görə də, Tasit Baltik dənizinin Suev dənizi (Mare Suebicum) adlandığını yazır. Ptolomeyə görə Oder çayı onun sahilində yaşayan sueblərin adından Sueb çayı adlanırdı. Çay və su kənarlarında təşəkkül tapmış etnos olan Sueb/Suevlərin adı da buna uyğun şəkildə izah oluna bilər. Suev etnonimi iki tərkibdən: su+ev ibarət olub hər ikisi təmiz öztürkcədir və mənası su sakinləri (eb/ev türkcə ev, sakin) anlamındadır. (Древнетюркский словарь, 1969, Səh. 162)

Sturlusonun yazdığına görə Suevlər Baltik dənizi sahillərində yaşayan qohum tayfalar olan ayst/estlərlə uzun zaman davam edən şiddətli müharibə aparmışlar. Suevlər estlərin çoxsaylı piyada qoşunu qarşısında davam gətirə bilməmiş, onların kralı İnqvar döyüşdə öldrülmüş və qoşun dağılaraq qaçmışdır. (Дроздов Ю. H. 2011. Səh. 151)

Müasir tarix elmi suev tayfasını isveç xalqının etnik kökünü təşkil edən etnik qrup adlandırır. Tasit, Jordan və Bremenli Adam bu tayfanın adını sueb, suev və svear şəklində qeyd edirlər. Bu eyni suev/sueb adının müxtəlif şəkildə ifadəsindən ibarətdir. İsveç (Svealand) adı bu tayfanın adından götürülmüşdür.

Alman tarixşünaslığında alman xalqının etnogenezinin formalaşmasında turanlı iskit-sakların və sarmatların oynadığı önəmli rola konkret əsərlər həsr edilmişdir.

Avropa tarixçiləri bir çox dünya xalqları ilə yanaşı avropalıların da etnogenezində önəmli rol oynamış iskitləri və sakları eyni xalqın müxtəlif adları kimi qəbul edirlər.

F.Smit sakları tamamilə türklər hesab edir və yazır ki, Saklar Astarabaddan başlayaraq Bəlxə qədər İranın şimal sərhədlərində məskunlaşnış köçəri xalq olub indiki özbəklərin və türkmənlərin əcdadları idilər. Saklar görünür monqol qarışığına malik türklər idilər. Pers mixi yazılarında Saklar iki növə ayrılır, Saka-tiqrahuda və Saka-humavarqa, onlar babil qədim yazılarında iskit oxçuları adlanırlar.

Saklar Persiyanın sərhədləri boyunca məskunlaşmış köçəri Turan tayfaları idilər. İskitlərin Qərbi Asiyadakı ağalığını Turan tayfalarının müvəqqəti hökmranlığı kimi dəyərləndirmək olar. (Smith P. 1888, Səh. 473, 474)

Alman tarixçisi A.Virth tarixşünaslıqda böyük mübahisələrə səbəb olan sak və iskit məsələsinə tam aydınlıq gətirmişdir. İskitləri Herodot Skolot adlandırır. Farslar Saka adlandırırlar. Xaldi dilində "lot" xalq deməkdir. Skut-iskitlər mixi mətnlərdə Aşkuza/Askuza adlandırılır, Bibliyada onlar Aşkenaz adlanırlar. İskitlərin başçısı Partatua adlanır ki, o türklərdə Baqatur şəklindədir. Aşquza adındakı As tərkibi türklərin köçəri tayfasının adıdır, Quz isə həmçinin türk tayfasının adıdır. Aşkuza adı yunan dilində təhrifə uğrayaraq Skythen şəklini almışdır. (A. Wirth, 1905, Səh. 52)

Göründüyü kimi Sak və İskit eyni xalqın müxtəlif dillərdə adlanmasıdır. Rus tarixçiləri yunan dilindəki Skythen sözünü Skif şəklində ifadə edirdilər.

Alman tarixçisi Yohannes Fressl 1886-cı ildə "İskit Saklar Germanların ulu əcdadı" adlı bir əsər yazmışdır. Fressl gətirdiyi tarixi dəlillərə əsasən germanların Turan mənşəli və İskit Sakların qədim germanların ulu əcdadları olduqlarını yazır. Qədim germanlar olan İskit Saklarm vətəni Mərkəzi Asiyada yerləşən Turan, yəni İmaus və digər adla Tyan-şan dağlarını əhatə edən ərazilərdir. İskitlər məhz burdan dünyaya yayılmışlar. German İskitlər qərbə yayılmadan öncə çay sahilləri, yəni Çu, Talas, Narin, Yaksart və ya Oksus adları daşıyan çay sahilləri onların qədim vətənləri olmuşdur. (Fressl J. 1886, Səh. 315)

Fressl qırmızı saçlara, mavi və ya yaşıl gözlərə malik olan qırğızların, Amur çayının sağ sahilində məskunlaşmış cunqar və ussurların və İrtış, Ob və Yenisey çayları sahillərində və Türkistanda yaşayan insanların iskit-sak germanlar olduqlarını, lakin Türklərlə qarışdıqlarını yazır.

Y.Fressl germanları və iskit-sakları iranlı deyil, Turanlı adlandırır. Turanlı sak-iskitlər germanların əcdadlarıdırlar. O, Yunan və romalıların, turanlı sakların varisləri olan germanları yüz il ərzində bu ölkələrə etdikləri basqınlara görə barbar və quldur adlandırılmalarına etiraz edir, onların bəşəriyyətə elm və mədəniyyət gətirmiş qüdrətli xalq adlandırır. O türklərin adının əslində Turuk olduğunu və onların da Turanlı kökə malik olduqlarını qəbul edir, lakin türklər turanlı almanlardan fərqlənsələr də eyni iskit-sak qanı daşıyırlar.

Fressl Sakların Əhəməni şahına qarşı mübarizə aparan hökmdarı Zarinanın adının mənasının sarışın olduğunu və buna görə də onu əsl turanlı german sak hesab edir. Gerçəklikdə də, Zarina adı türkcə Sari/Sarışın adına tam uyğundur.

Fressl qədim germanlar olan sak-iskitləri xarici görünüş və irqi əlamətlərinə görə əsl turanlı hesab edir. (Fressl J. 1886, Səh. 268)

Fressl İranlıların da ari olduqlarını, lakin Turanlı mənşəyə malik german iskitlərdən fərqləndiklərini yazır. İran və Turan müharibəsində turanlı Human və iranlı Bijan tərcüməçilər vasitəsilə danışırlar. Bu onların müxtəlif dillərə malik olduğunu sübut edir. İskit-saklar da İranla savaş zamanı onların sərkərdələri tərcüməçilər vasitəsilə danışırdılar. Fressl fars və baktriyalıları ari hesab etsə də, onların qədim germanlar olan iskit-sak kimi turanlı hesab etmir. O Samı əsl sak-iskit turanlı hesab edir. (Fressl J. 1886, Səh. 263, 264)

Turanlı germanlar olan iskit saklar Sakit okeandan başlamış Qara və Xəzər dənizlərin sahillərini əhatə edən böyük əraziyə malik idilər. Fressl Turan padşahı Əfrasiyabı Xotanı, Çini, Maçini, Tibeti və Kidanı öz hakimiyyəti altında birləşdirən Şərqi iskit-sak dövlətinin hökmdarı və qədim germanlar olan iskit-sakların qəhrəmanı hesab edir. Turanlı german iskit-saklar öz hakimiyyətlərini Sakit okeanın sahillərinə qədər genişləndirmiş və Yaponlar üzərində də təsirə malik olmuş və orda öz izlərini buraxmışlar. Germanların ataları olan iskit-sakların yaponlara təsiri linqvistik abidələr şəklində mövcuddur. (Fressl J. 1886, Səh. 275, 277)

Beləliklə, Fresslin ən sensasiya doğuran fikri onun yaponlarla germanlar arasında etnik qohumluq əlaqələrinə malik olduqları haqqındakı iddiasıdır. Onun gəldiyi qənaətə görə ilk germanlar olan iskit-saklar Sakit okeanına qədər irəliləyərək öz dillərini yaponlara vermişlər. O Sinto dininin kökünün iskit germanlara bağlı olduğunu və bunun Sinto kultuna aid linqvistik abidələrlə də isbat olunduğunu iddia edir. Yaponlar dünyanın ən qədim mədəni xalqlarındandırlar. Yaponlar çinlilərlə qaynayıb qarışmış olsalar da, onların ən qədim qolu olan aynlar özəl xüsusiyyətlərə malikdirlər.

Fressl Yaponyanın sinto dinini german iskitlərlə əlaqələndirir və onlara aid əfsanələrində iskit qermanların izlərini araşdırır. O yapon dilində "Ak-ai" sözünü açıq-qırmızı anlamı daşıdığını və "ak" sözünün turanlıların dilində "ağ və açıq" rəng anlamında işləndiyini bununla əlaqədar "ağ su, ağ dağ" sözlərinin mövcud olduğunu yazır.

Yapon dilində "Kun" sözünün başçı demək olduğunu, çin dilində "kuin" şəklində ifadə olunan bu sözün qədim germanlarda Kon-unqr, yəni "kral" anlamı daşıyan sözün kökünü təşkil etdiyini yazır.

Fressl yaponların öz iskit german qardaşlarından uzun illər ərzində ayrı düşdüklərindən dillərində müəyyən fərqliliklərin yarandığını, lakin Sinto dinindəki "sint" sözünün alman dilində "send" "yol, səyahət, getmək" anlamı daşıdığını və keltlərin, qədim irlandların dilində "set" və kimbirlərin dilində "hint" şəklində mövcud olduğunu qeyd edir. (Fressl J. 1886, Səh. 291-296)

Fresslin yaponların ən qədim etnosu olan aynlar haqqında dedikləri tarixi gerçəkliyi əks etdrir.

Germanların etnogenezinin formalaşmasında Sakların önəmli rol oynaması faktı onların ən böyük etnik birliyi olan Saksların timsalında mövcuddur. Almaniyanın keçmişdə ayrı-ayrı dövlətlər şəklində mövcud olan Aşağı Saksoniya, Sak-

soniya və Saksonoya-Anhalt kimi əyalətlərinin əhalisi saklardan ibarət olmuşdur. Keçmişdə qədim irlandlar və hal hazırda da Fin və Estonlar Almaniyanı "Saks ölkəsi" adlandırırlar.

Türklərdə Şadlar zadəgan əsgər qvardiya təbəqəsini təşkil etdikləri kimi Aynlardan ibarət Samuraylar da yaponların zadəgan əsgər qvardiya təbəqəsini təşkil edirdilər.

Germanların turanlı mənşəyə malik olduqları haqqında digər bir əsərin müəllifi Raynhard Şmoekeldir. Müasir dövrün alman tarixçisi Raynhard Şmoekel germanların etnik mənşəyinin tarixinə dair çoxsaylı əsərlərin müəllifidir. O "Sarmatlar. Avropanın naməlum atası" adlı əsərində avropa xalqlarının etnik mənşəyinin formalaşmasında turanlı sarmatlarm önəmli rol oyadıqlarını tarixi dəlillər əsasında şərh edir. Şmoekel Alman rəsmi tarixşünaslığında Frank dövlətinin mənşəyini Troyalı traklara bağlayan rəsmi konsepsiyanın əksinə olaraq, onların sarmat mənşəyinə malik olmaları haqqında özünün yeni tezisini irəli sürmüşdür.

## Qotlar

Alman tarixşünaslığında Qot tayfaları Keltlərlə yanaşı German xalqlarının etnogenezində önəmli rol oynayan boy birliyi kimi təqdim olunur. Bir çox bilim adamı Qot adının etimalogiyasının iskitlərlə əlaqədar olduğunu yazırlar.

Alman tarixçisi Karl Fişerə görə "Qet" və "qeta" sözləri iskit dilində tayfa anlamı daşıyırdı, əsasən sözbirləşmələri şəklində ifadə olunurdu və sözün əvvəlində bu tayfanın yaşadığı ərazinin və ya bölgənin adı qeyd olunurdu. Məsələn, Muranqetai-Muran qetləri, Taranqetai-Taran qetləri, Turaqetai-Tura çayının qetləri, Tissaqetai-Tissa çayının qetləri, Turanqetai-Turan qetləri, Massaqetai-Böyük və ya baş qetlər. (Karl Fischer. 1917. Səh. 28)

Tarixçi Jordan və digər müəlliflər German tayfaları hesab edilən və Avropanın şərqində yaşayan Qotları, Bastarnları, Qreytunqları və həmçinin Türk xalqları olan Hunları və Kumanları da İskitlər adlandırır. (Siegmund Feist, 1927, Səh. 52)

Antik mənbələrdə eramızın I əsrindən etibarən Roma imperiyasının sərhədlərində meydana çıxan şərqi german tayfaları adlandırılan qot tayfalarından bəhs edilir.

Tarixi mənbələrə əsasən İskitlərin önəmli bir qolunu təşkil edən Qotlar Qara dənizin şimalında və Dunay ətrafındakı Skifiya adlı vətənlərini tərk edərək Skandinaviya yarımadasında məskunlaşmışdılar.

Eramızın II əsrində Skandinaviyadan Beriqin başçılığı altında hərəkət edən qotlar Baltik dənizinin cənubunda sahilə çıxıb Oder və Visla çaylarının arasında Qotskandza adını verdikləri ərazidə yerləşdilər. O ərazi yaxınlığında yaşayan ulmeriqləri yerlərindən qovaraq ərazilərini ələ keçirdilər və qonşuluqdakı vandallarla birləşdilər. Burda artıb çoxalan qotlar kralları Flimerin başçılığı ilə qoşun və ailələri ilə birlikdə yaşamaq üçün əlverişli məkan və rahat ölkə axtarışı ilə iskitlərin öz dillərində "Oyum" adladırdıqları qetlərin və iskitlərin ölkəsinə gələrək burda yerləşdilər.

İskitlərin və onların bir qolu olan qetlərin ölkəsinin adı da türkcə "evim" deməkdir ki, bu söz indi də bəzi türk ləhcələrində "oy", "öy", "ev" şəklində ifadə olunur. Qotların öndəri Beriqin adı türk dilində "möhkəm, güclü" deməkdir. Dnepr və Azov dənizi arasında yerləşən qotların bir hissəsi 230-cu illərdə Qara dəniz ətrafına endilər.

Tarixi mənbələrdə qotların özlərinə "Qut" dedikləri məlumdur. Qot və ya qut sözünün öz dillərində mənasının "tökmək", "süzmək" olduğu fikri irəli sürülür. Qotların skandinav mənşəli olduqları deyilsə də, köklərinin daha əsgilərə dayandığı qədim mənbələrdə əks olunmuşdur. Qut sözünün mənşə baxımında türkcə "kut" sözündən ibarət olduğu ehtimal olunur.

Avropadakı Qutların Ön Asiyanın qədim turanlı öntürk Qut xalqının bir qolu ola biləcəyini ehtimal etmək olar.

Romalılarla ilk toqquşmadan sonra qotlar Ostqotlar (Qreutunqlar) və Visqotlara (Tervinqlər) olmaqla iki hissəyə bölündülər. Qotlar iskitləri məğlub edərək Bosfor çarlığı daxil olmaqla Qara dənizin şimal sahillərini işğal etdilər. Ostqotlar Krım, Azov ətrafı, Dnepr və Don sahillərində məskunlaşmışdılar. Lakin hunlarla döyüşdə məğlub olan qotlar öz yerlərini tərk edərək Dunay çayını keçib Balkanlarda yerləşdilər. Şərqi Avropaya hun axınları ilə Xalqların böyük köçü adlanan xalqların yerdəyişməsi başlandı. 370-ci ildə Don ətrafına gələn hunların qotların ərazilərinə hücumları Qot-Hun müharibəsinin Başlanmasına səbəb oldu. Qot kralı Qermanarix hunlarla döyüşdə öldürüldü və ostqotlar hunlara tabe olaraq onlarla birləşdilər. Atillanın ölümündən sonra ostqotlar Pannoniyada yerləşərək öz dövlətlərini yaratdılar və Şərqi Roma dövləti ilə federat yaradaraq müttəfiq oldular. Ostqotların kralı Teoderix vandallarla ittifaqda dəfələrlə İtaliyaya dağıdıcı basqınlar etmişdir, döyüşlərin birində o Odoakrı öldürərək İtaliyada hakimiyyəti ələ keçirdi. Lakin Teoderix kral deyil, Şərqi Roma imperiyasının canişini kimi hakimiyyət sürürdü. Teoderix xristianlığın ariyan təriqətini Qəbul etmişdi və bu dini fərqlilik Ostqot krallığı ilə ortodoks (pravoslav) Şərqi Roma imperiyası arasında dini zəmin əsasında ciddi qarşıdurmalara səbəb oldu. 526-cı ildə Teoderixin ölümü ilə Ostqot krallığının sürətli çöküşü başlandı. Teoderixdən sonra onun varisləri Atalariq, Amalasun, İldebad, Teyin və Erariqin zamanında da Roma imperiyasının istilasına qarşı mübarizə davam etdi. İmperator Yustinyanın dövründə 554-cü ildə imperiya qoşunlarına məğlub olan Ostqot dövlətinin varlığına son qoyuldu.

256-ildə Dunay çayını keçərək Balkan yarımadasında yerləşən qotlar Visqotlar adını aldılar.

Qərbi Roma imperiyasının visqotlara qarşı mübarizəsi romalıların məğlubiyyəti ilə nəticələndi və visqotlar Dakiyanı ələ keçirdilər. 322-ci ildə Böyük Konstantinin dövründə Visqot dövləti federativ əsasda Roma ilə müttəfiqlik müqaviləsi bağlayıb müəyyən muzd müqabilində onun sərhədlərini qorumağı öhdəsinə götürdü. Hunların güclü təzyiqləri qarşısında vesqotlar öz yerlərini tərk edərək imperator Valentinin razılığı ilə Frakiyada yerləşdilər. Lakin romalı canişinlərin və məmurların qotlara qarşı özbaşınalıqları visqotların üsyanına səbəb oldu. 378-ci ildə Qotlarla döyüşdə romalıların ordusu darmadağın edildi, imperator Valent və sərkərdələri öldürüldü. Qotlar bir neçə il İtaliya şəhərlərini basqınlara və dağıntılara məruz qoydular. Vestqotların başçısı Atanariq ilə yeni imperator arasında razılıq əldə edildi və qotlar Roma qoşunlarının tərkibinə daxil edilərək yüksək hərbi mövqelərə təyin olundular. Vestqotların kralı Alariqin dövründə qotlarla Şərqi və Qərbi Roma dövlətləri arasında qanlı toqquşmalar baş verdi. Alarix faktiki olaraq İtaliyada hökmran idi. Onun ölümündən sonra Ataulf Vestqotların kralı oldu və onun İtaliyada öz hakimiyyətini möhkəmləndirmək cəhdləri baş tutmadı. O Roma qoşunlarına məğlub olaraq bütün vestqot xalqı ilə birlikdə Cənubi Qalliyaya (Fransanın cənubu) yerləşdi. Burda onlar öz dövlətlərini yaratdılar. Attilanın qərbə doğru yürüşləri Roma imperiyası ilə Vestqotları yenidən əməkdaşlığa sövq etdi. Roma imperatoru Akvitaniyanın idarəsini də vestqotlara verdi. 451-ci ildə hunlar və vestqotlarla romalıların birləşmiş orduları arasındakı məhşur Katalon döyüşündə Attila üstünlük əldə edə bilmədi. Döyüş zamanı vestqotların kralı Teoderiq də öldürüldü. Qalliyada frank tayfalarının simasında vestqotların yeni bir rəqibi meydana çıxmışdı. Vestqotların və ostqotların birləşmiş qoşunları franklarla döyüşdə məğlub oldular və Akvitaniyanı əldən verən vestqotlar Priney yarımadasında indiki İspaniyada yerləşdilər.

Franklarla birləşən Bizans qoşunları burda da vestqotları sıxışdırmağa başladılar. Franklara, Suevlərə, basklara qarşı mübarizədə zəifləyən vestqot dövləti 711-ci ildə İspaniyaya daxil olan ərəblərlə mübarizədə tam məğlubiyyətə uğradılar və Vestqot dövlətinin varlığına son qoyuldu.

Qotların məskunlaşdıqları ərazi Meotid (Azov) gölünün ətrafı və Tanaisin aşağı axarları kimi qeyd olunur. Onlar tez-tez Balkanlara və Kiçik Asiyaya soyğunçu basqınlar edirdilər. V əsrdə bu qotların bir hissəsi İtaliyanın şimalında məskunlaşaraq orda Ostqot krallığını yaratdılar, digər hissəsi isə Cənubi İspaniyaya və Qalliyaya doğru hərəkət edərək orda Vestqot krallığını meydana gətirdilər. Rəsmi tarix konsepsiyasına görə qotlar "şərqi german tayfaları" birliyinə mənsubdurlar.

Antik müəlliflərin əsərlərində qotlar haqqında verilən məlumatlar, qot etnonimlərinin və onlara aid onomastikanın təhlili əsasında qəti şəkildə müəyyən edilmişdir ki, qot adlandırılan bütün tayfalar əslində türkdilli tayfalardır. Antik müəlliflərin əsərlərində qotların iskitlər olduğu aydın şəkildə ifadə edilmişdir.



III əsrdə yaşamış Afinalı Afanasiy Deksip "İsgəndərdən sonrakı Makedoniya" adlı əsərində yazır: "Qot adlanan iskitlər İstr çayını keçib, Dekiyin dövründə böyük bir izdahamla hücum edərək Roma dövlətini viran qoydular". (Византийские историки, 2008, Səh. 15)

Digər bir tarixçi Zosim Afinanın iskit-qotlar tərəfindən alınıb viran qoyulduğunu yazır. Başqa bir tarixçi Trebelliy Qallien zamanında iskit-qotların Qara dəniz vasitəsilə İstr çayına daxil olaraq Roma ərazisində böyük dağıntılar törətdiklərini qeyd edir. (Византийские историки, 2008, Səh. 21)

Roma imperatorlarının həyatlarını qələmə alındığı məcmuənin müəlliflərindən biri Yuliy Kapitolin IV əsrin axırı V əsrin əvvəllərində "İki Qalliena" adlı bölümdə yazır: "Valerianın əsir alındığı və qalların böyük hissəsinin mühasirədə olduqları zaman, Odenat savaşla üzərlərinə getdi, qotlar və ya iskitlər (Gothi siva Skythae) yuxarıda adlandıqları kimi savaşı qazandılar". 365-ci ildə doğulmuş tarixçi Filostorqiy də bu haqda yazır: "Mənşəcə iskit olan, indi isə qot adlanan Tribiqild də bütün bunlara qoşuldu. İstrin qarşı tərəfində yaşayan və indi qot adlanan Urfil adlı iskit çox sayda əhalini Roma ərazisinə köçürdü". (Византийские историки, 2008, Səh. 41)

Bütün bu deyilənlərdən göründüyü kimi III-IV əsrlərdə "qotlar" adı çəkildiyi zaman onların iskit olduqları xüsusi olaraq vurğulanırdı. Kesariyalı Prokopiy qotlar haqqında bəhs edərək yazırdı: "Meotiy (Azov) bataqlığının qarşı tərəfində, onun Evkin Pontuna tökülən sahilində qədim zamanlardan etibarən qot-tetraksitlər yaşayır, onlardan xeyli uzaqda isə qot-vizqotlar, vandallar və qotların yerdə qalan digər tayfaları məskunlaşıblar. Onların hamısı əvvəlki zamanlarda ümumi adla iskit tayfaları, digərləri isə sarmatlar və melanxlenlər (qarabaşlıqlı) adlanırdılar". Həmin dövrdəki tarixi hadisələrin şahidi olan qədim müəlliflərin əsərlərindən təqdim olunan məlumatlar qotların iskitlərə, daha doğrusu türklərə mənsub olduqlarına heç bir şübhə yeri qoymur. (Византийские историки, 2008, Səh. 42)

İordanın "Qotların tarixi və əməlləri" adlı əsərində qeyd etdiyi qot adlarının böyük əksəriyyəti türk dilindədir. Bu adlardan bəzi nümunələri təqdim edirik: Hunuil-Hunoğul, Atal, Aqiulf-Aqiul, Amal-Amul, Alarix-Alariq; Aorix-Ayarıq; Ardarix-Ordarıq; Ariarix-Arıarıq; Atalarix-Atalarıq, Atanarix-Atanariq; Germanarix-Emənariq; Qunerix-Günarıq. (Иордан. 1997, Səh. 77)

İosif Flaviy qotların kökünün Maqoqa bağlı olduğunu yazır. A.Virth Maqoq adının Qoqların ölkəsi demək olduğunu yazmışdır.

Eramızın I əsrində yaşamış Korveyli Vudukind "Saksların əməlləri" əsərində, hunlarla qotların eyni kökə malik olduqlarını yazır. VI-VII əsr tarixçisi Sevilyalı İsidor "Qotların, vandalların və svevlərin tarixi" əsərində yazır ki, qotların tarixi qədimdir və Yafəsin oğlu Maqoqa gedib çıxır. Alimlər onları "Qoq-Maqoq" deyil, "Qot" adlandırmağa adət etmişlər. Bizim dilimizdə onların adının mənası "örtük"

adlanır və bu sözlə onların cəsurluğunu göstərirlər. Həqiqətən də yer üzərində onlar qədər Romaya çətinliklər yaratmış ikinci bir xalq yoxdur. İsgəndər onlardan kənar gəzir, Sezar onlardan qorxurdu. (Исидор Севильский. 2009 səh. 3)

Qotlarla iskitləri eyniləşdirən İsidor yazır ki, Qotlar Yafəsin oğlu Maqoqdan törəmişlər və iskitlərlə eyni kökdəndirlər. Ona görə də onların adında da elə bir fərq yoxdur. Bir hərif dəyişir, digəri isə yox olur, "Getai"-dən "Scythae" yaranır. Onlar qərbin qarlı zirvələrində və dağ döşlərində digər xalqlarla birlikdə yaşayırdılar. Hunların hücumları ilə öz yerlərindən qoparaq Dunayı keçdilər və Romaya sığındılar. Lakin onların ədalətsizliklərinə dözməyə artıq gücləri qalmadığında silaha sarıldılar Frakiyanı tutaraq İtaliyaya soxuldular, Romanı mühasirəyə alıb ələ keçirdilər, Qalliyaya girdilər, Prineyə keçərək İspaniyaya daxil olub orda məskunlaşdılar və öz hakimiyyətlərini qurdular. Qotların üzərində ilk hakimiyyət quran Atanarix oldu. 443-cü ildə mənşəcə iskit olan, barbar vəhşiliyinə və bütlərə sitayiş edən qotların kralı Radaqays 200 minlik qoşunla İtaliyaya basqın etdi. (Исидор Севильский, 2009, Səh. 6)

Baltlar qədim turanlı öntürk tayfalarıdır. Baltların ilkin vətəni Dnepr sahilləri olmuşdur. Onların varisləri bu gün də Sibirdəki Beltir boyudur.

Baltik ətrafı regionda yaşayan və müasir tarix elmində "balt" adlandırılan tayfalar türk etnonimlərinə malik olub, türk dilində danışırdılar və orta əsr müəllifləri onları "litov" adlandırırdılar. Bir neçə mürəkkəb tayfa adlarının tərkibində mövcud olan "as" kəliməsi bu tayfaların bir-biri ilə qohum olduqlarını və Don ilə Ural arasındakı Asiya adlı etnik ərazidən gəldiklərini sübut edir. Bu ərazi as etnonimi daşıyan qədim türk tayfalarının ilkin vətənidir. Tarixin müəyyən dövründə Baltik ətrafı ərazinin Aşağı Dauqava bölgəsinə qall tayfaları köç edərək yerli əhali ilə qarışmış və latqal, zemqal və digər tayfaları meydana gətirmişlər. Ehtimal ki, XVII-XIX əsrlər arasında bu tayfalar türk dilindən müasir latış dilinə keçmiş, lakin öz türk etnonimlərini qoruyub saxlamışlar. Bu gün də müasir Litvanın ərazisində ana dili türk dili olan yerli əhali kompakt qruplar halında yaşamaqdadır. Litva və ya lipka tatarları adlanan bu etnos türk mənşəli yatvyaq və litovların birbaşa varisləridirlər. Analoji vəziyyət Polşa ərazisində də mövcuddur. Burda ölkənin şimal-şərqində yaşayan əhali qrupu türk dilində danışırlar və polşa tatarları adlanırlar. (Дроздов Ю.Н. 2011, Səh. 112)

Baltik dənizinin sahilində yaşayan və balt tayfa birliyinə aid olan Germanların əsas qollarından hesab edilən prusslar bura gəlməmişdən öncə Don ətrafındakı iskit ərazisində yaşayırdılar. Almaniya Federativ Respublikası əhalisinin mühüm hissəsi özlərini pruss mənşəli hesab edirlər. Pruss adı qonşuların bu tayfa birliyinə verdikləri addır və hər pruss tayfasının da öz adı vardı. Prussların yaşayış tərzləri və adətləri iskitlərin və türklərinki ilə eynidir. Antik mənbələrdə yazıldığına görə prusslar da atçılıqla məşğul olur, at əti yeyir, at südü və at qanı içirlər.



Baltik dənizinin cənub-şərqində yaşayan iskitləri Qelmold ümumi adla "slavlar" (Slavorum) adlandırır. Bu slavların ilk tayfalarından biri ruqi (Ruci) adlanır, onun əsərini ruscaya tərcümə edənlər bu sözü "rus" kimi qeyd etmişlər, halbuki adın əsli "ruqi"dir. Qeyri slavyan xalq olan ruqlar indiki Baltik ətrafı respublikaların ərazisində yaşayırdılar. Onlardan cənub qərbdə Qelmoldun slavlara aid etdiyi pruss tayfaları, Prusslardan cənubda polanlar (Polani) yaşayırdılar. Bu sözün türkcə qarşılığı "bolın" sözüdür, mənası çəmən, çəmənlikdir. Skifiya-Sarmatiya ərazisinin qonşuluğunda yaşayan tayfalardan biri bohemlərdir (bohemia), onların adı Qelmoldun orijinal mətnində Boemi formasında, Tasitdə isə Boii şəklində yazılıb. Bu adın türkcə əsası "boy" sözündən ibarətdir və müxtəlif mənalarda, qəbilə, "insan boyu", "sahil boyu" anlamlarında işlədilir. (Дроздов Ю, 2011, Səh. 111)

Qelmold Slavyanlara aid olan dıgər bir tayfa kimi unqarnların adını qeyd edir, bu ad nədənsə rus tərcüməsində "uqr" kimi yazılır. Halbuki söhbət macar hunqar xalqının etnik köklərindən birini təşkil edən Kama çayı ətrafından Pannoniyaya köç edən türk mənşəli "unqarn" tayfasından gedir. Rus tarixçisi Tatişşev də unqarnların türk mənşəli olduqlarından əmin idi. (Дроздов Ю., 2011, Səh. 112)

Qelmold və antik tarixçilər qədim zamanlarda Ural ətrafından və Volqa boyundan Mərkəzi Avropanın cənubuna köçmüş sklavenlərin skif və türklər olduqlarını qeyd edirlər.

German tayfalarının yerləşdiyi etnik ərazini miladın I əsrinin 2-ci yarısı və II əsrin əvvəllərində yaşamış Tatsit germanları sarısaçlı, göy gözlü iri bədənli hündür boylu kimi təsvir edərək müasir alman etnik tipi ilə eyniləşdirir. Tatsitin yazdığından belə nəticə çıxır ki, onun dövründə bütün Mərkəzi Avropa ərazisi okean sahillərinə qədər Almaniya, yəni Germaniya ərazisi idi. Tasit germanları həmin ərazidə yaşayan yerli əhalisi hesab edir və çox az saylı xalqların onlara qarışdığını yazır. Lakin mənbələr Tatsitin Germaniya adlandırdığı ərazidə tamamilə fərqli etnik tərkibə malik xalqların yaşadıqlarını qeyd edirlər. Alman tarixçisi Uve Topper Tatsitin Avropanı təhrif olunmuş şəkildə germanlaşdırdığını yazır. (Топпер Уве. 2004. Səh. 47)

Almanların bir etnos olaraq formalaşmasında türk mənşəli iskit/sak tayfalarının oynadıqları rol qədim mənbələrdə öz əksini tapmışdır. Böyük Pliniy Dunayın şimalında yaşayan xalqlar haqqında bəhs edərkən onların hamısının iskitlər olduqlarını qeyd edir: "İskit adı daima germanlara və sarmatlara aid edilir".

Rus tarixçisi V.N.Tatişev almanların sarmatlar olduğunu qeyd edərək yazır: Bütün Almaniya qədimdən etibarən dəlilə sübuta ehtiyac duyulmadan sarmatlarla eyni xalq hesab olunmuşdur, əgər hamısı olmasa da, onların Elba yaxınlığında yaşayan hissəsi". (Татищев В.Н. Ч. 1, М. 1768)

IX əsr coğrafiyaçısı Məhəmməd əl Xavərizmi yazır ki, "İrmaniyyə (Germaniya) ölkəsi əs-saklabiyyə (iskit) ərazisidir". (Дроздов Ю. 2011, Səh. 125)

Tatsitin yazdığına görə germanlar saqalarında öz mənşələri haqqında əfsanələrini də əks etdirmişlər. Bu əfsanəyə görə germanlar Tuist tanrısından törəmişlər. Tuistin Manna adlı oğlundan germanların üç tayfası törəmişdir. Okeanın kənarında yaşayanlar inqevon, ortada yaşayan qermion və digərinin adı istevon olmuşdur. Bu adların hər birindən alman tayfaları törəmişdir. (Дроздов Ю. , 2011, Səh. 124)

Tatsitin qeyd etdiyi Tuist adlı tanrı alman və skandinav əfsanələrində Tur (Tyr) şəklində yazılır və əsli də "Antik Alman leksikonu" lüğətində "Tur/Tyr" kimi ifadə olunmuşdur. Tur almanların göyüzü və savaş tanrısıdır. (Johannes Hoops. Reallexikon. 1915-1916, Səh. 369)

Yuliy Sezar "Qall müharibələri haqqında qeydlər" əsərində yazdığına görə germanlarda kəhanətlə ailənin anası məşğul olur, o bunu püşk çubuqları atmaqla edir. Onun yazdığına görə germanlarda qallarda olduğu kimi kahin-druidlər yoxdur. Onlar Allah timsalında yalnız təbiət qüvvələrinə, günəşə, aya və oda sitayiş edirlər. (Гай Юлий Сезар. 2016. Книги: 6, 21)

Germanların bu kəhanət və fala baxma üsulu iskit/sak şamanlarının söyüd çubuqları ilə fala baxma forması ilə eynidir. Şimalın german tayfaları olan skandinavların XII əsrə aid olan mifləri tarixi mənbələrdə germanların dini inanışları haqqındakı məlumatlara uyğun deyil.

Bir çox türk ləhcələrində olduğu kimi alman dilində də, "Tür" sözü qapı, keçid mənasındadır. Almanlar bütün cəhdlərinə baxmayaraq, öz dillərində və digər avropa dillərində bu sözün inandırıcı etimalogiyasını və onun alman dilinə necə keçdiyini izah edə bilmirlər. (Reallexikon, s. 367-368)

Antik müəlliflər Baltik dənizinin şərqində est/aist/ast tayfalarının məskunlaşdıqlarını yazırlar. Balt tayfa birliyinə daxil olan Qədim litov, letland və pruss tayfaları est/aistlərə mənsub idilər. Aestlər və sklavlar balt tayfaları idilər. Tatsit estlərin mənşəcə sueb (sveb) tayfalarına yaxın olduqlarını və qədimdə Kama ətrafındakı Böyük Svitoddan (Skifiya) köçüb gəldiklərini yazır. Göründüyü kimi estonlar tərkibində As etnonimini daşıyan digər tayfalar kimi Böyük Turanın As tayfalarına mənsubdurlar. Estonların qonşuluğunda yaşayan finlərin etnogenezində mühüm rol oynayan Suomi tayfası da mənşə etibarı ilə türkdürlər. "Suomi" sözü iki tərkibdən ibarətdir su-omi, Su eynilə türkcədə su sözündəndir, "omi" isə ömə imə sözünün fonetik variantı olub icma deməkdir ki, bu söz dilimizdə iməcilik kəlməsində mövcuddur. Finlandiyanın keçmiş paytaxtı və ən əsas liman şəhəri Turku da türk sözündən ibarətdir.

XII əsr ərəb coğrafiyaçısı Əl İdrisi Qara dənizin şimalında Alan ölkəsində və as tayfalarının məskunlaşdığı Askasiyə, Askal, Astabriyə şəhərlərinin adını qeyd edir. O Avropada Baltik dənizi ətrafında asların yaşadıqları ən şimalda yerləşən Tabast ölkəsinin adını çəkərək bu ölkədə çoxlu kənd və becərilmiş torpaqlar olduğunu, şəhərlərin isə böyük olmadığını, qarın və yağışın fasiləsiz yağaraq çox soyuq olduğunu yazır. İdrisi Tabast ölkəsindən cənubda Anxu və Kaluri kimi gözəl şəhərlərin mövcud olduğu Asland ölkəsini təsvir edir. (Ал Идриси. Нузхат ал Муштак, 2006)

Ölkənin adından göründüyü kimi rus tədqiqatçıların iddia etdiyinin əksinə olaraq xalqın adı eston deyil, astdır. Qeyd etdiyimiz kimi as və ya ast sözləri as etnoniminin müxtəlif fonetik formalarıdır. As tayfaları Avropa xalqlarının etnogenezində mühüm rol oynamışdır.

Rusiyalı tədqiqatçı Y.Drozdov Astı etnonimini *as-tı* olmaqla iki tərkibdən hesab edir. *As* – qədim türk tayfasının özünü adlandırmasıdır, *tı* isə sözdüzəldici formantdır. Beləliklə, *as-tı* etnoterminin semantikası as tayfası deməkdir, as sözünün mənasını aşağı demək olduğunu qəbul etsək, sözün hərfi tərcüməsi "aşağılara mənsub", "aşağı axına mənsub olanlar" anlamındadır. (Дроздов Ю., 2011, Səh. 114)

Bizim fikrimizə görə as sözünün mənası bu tayfanın onqonu olan qədim türkcə as-sincab adındandır.

Fin və Baltik ətrafının önəmli xalqlarından biri karellərdir. Bu etnonim kar-el olmaqla iki tərkibdən ibarətdir. "Kar" sözü türkcə eynilə qar deməkdir, "el" isə yenə türkcə el/xalq sözündəndir. Karelin mənası qarlı el, qarlı ölkə deməkdir ki, burda sərt qış mövsimi və bolluca qar yağması adın mənasına uyğun gəlir. (Дроздов Ю., 2011, Səh. 115-116)

As etnosunun bir qolu da İspaniyada məskunlaşmış və orda öz dövlətlərini yaratmışdılar. İspaniyanın Asturiya krallığının kralı VIII əsrdə hakimiyyətdə olmuş Pelaqius (Pelayo) olmuşdur. Onun etnik mənşəyi tam bəlli deyil. Qot xronikaları onu "nəcabətli qot" adlandırır.

Pelaqius adı mənşə etibarı ilə qədim prototürk pelasq etnoniminə bağlıdır. O öncə vestqot kralı Roderixin şəxsi mühafizə dəstəsinin rəhbəri idi. Asturiyanın əsas əhalisi asturlar idi.

## Tunqerlər

Tunqer/Tonqer (lat. Tunqri) almanların ən qədim tayfalarından biri olub Aşağı Reyn sahilində məskunlaşmışdılar. Tunqerlərin kök etibarı ilə keltlər və ya keltlərlə qarışmış bir tayfa olduğu ehtimal olunur. Romalılar tunqerlərin ərazisini işğal etdikdən sonra döyüşkən tunqerlərdən ibarət min nəfərlik "Ala Tungrorum" adlı hərbi süvari alayı təşkil etmişdilər. Tunqerlərdən ibarət bu ordu hissəsi Böyük Britaniyadakı xalqı itaət altında saxlamaq üçün həmin adada yerləşdirilmişdi.

Adından da göründüyü kimi romalıların ordu terminləri türk əsgəri terminləri ilə eyniyyət təşkil edir, bu İtaliya ərazisində qədimlərdən məskunlaşmış türk mən-

şəli tayfaların təsiri ilə izah oluna bilər. Latınca olduğu qeyd edilən "Ala" sözü türklərin alay sözü ilə eyni məna daşıyır. Aladan, yəni alaydan kiçik olan ordu hissələri romalılarda "Turmae" adlanırdı. Bu termin də yenə mənşə etibarı ilə türk sözüdür və türk dilində "türmə/durma", durulan yer, hərbi düşərgə mənasındadır. Roma regionerləri kiçik dəstələrlə turmaelər olaraq hərbi düşərgələrdə xidmət edirdilər.

Romalıların işğal etdikləri İspaniya ərazisindəki Asturiyada romalı olmayan yabançılardan təşkil etdikləri legionlardan biri də yenə döyüşkən asturlardan ibarət "Ala Asturum" adlı ordu birliyi idi. Bu hərbi birlik Balkanlar və Dunay ətrafındakı Dakiyada və Massiyada yerləşdirilmişdi.

Yuli Sezar "Qall müharibələri" adlı əsərində e.q. 54-53-cü illərdə Mozel və Rayn çaylarının ətrafında Tunqerlərin başçılıq etdiyi və german tayfaları adlandırdığı əslində isə mənşə etibarı ilə kelt tayfaları olan Kondr, Ebur, Kaer, Paem tayfalarını gərgin mübarizədən sonra itaət altına aldığını yazmışdır.

Tunqer adı Tunq-er olmaqla iki tərkibdən ibarətdir. Həmin ərazidə e.q. XV əsrdə romalılar Tonqeren adlı indi Belçika ərazisində yerləşən şəhərin əsasını qoydular. Tasit tunqer tayfası haqqında yazır ki, onlar çay kənarında yaşayan vəhşi heyvan dərisi geyirdilər. Tunqa və tonqa türk dilində bars-pələng deməkdir və bu heyvan çay kənarlarında qamışlıq ərazilərdə yaşayırlar. Bir çox mənbələrdə alman lüğətlərində bu ad Tunqer şəklində yazılır. (Reallexikon. band 4, səh. 367)

Drozdov Tatsitin tunqerlər haqqında verdiyi məlumata əsaslanaraq tunqer adının mənasını "kürk geyənlər" şəklində izah edir. (Дроздов Ю., 2011, Səh. 129)

Tonqra qədim türklərin Kültəkin abidəsində adı çəkilən ən məşhur türk boylarından biri idi. Tonqa Ər adı qədimlərdə türk qəhrəmanlarına verilən ad olmuşdur. Görünür Tunqa/bars germanlara aid edilən bu qədim boyun totemi olmuş və onun dərisindən hazırlanmış paltar onların əsas geyim vasitəsini təşkil etmişdir. Tunqa türk sözü olduğundan heç şübhəsiz, bu tayfa türk mənşəyili olmuşlar. Bəzi araşdırıcıların german etnonimini Uels və irland dillərində "yaxın, qonşu" anlamı daşıdığı haqqındakı fikirləri gerçəkliyi əks etdirmir. Qədim miniatürlərdə Sak hökmdarı Əfrasiyab və Rüstəm Zal bars-tunqa dərisindən geyimdə təsvir olunurlar.

Alman tarixçiləri Strabona əsaslanaraq yazırlar ki, "germani" adı romalıların dilində "əsl-həqiqi" deməkdir. Onlar bu adı "əsl" keltlər anlamında qəbul etmişlər. Bu adı bəzən "saf irq" kimi də izah edirlər. (Siegmund Feist, 1927, Səh. 5)

Lakin latın dilində "əsl-həqiqi" sözün qarşılığı "verus", "certus" şəklindədir. I-II əsr Roma tarixçisi Tasitin də yazdığına görə ilk olaraq tunqerlər cəsarət göstərərək Reyn çayını keçib qalları qovmuş və göstərdikləri qəhrəmanlığa görə onlara "əsl ər, qalib" mənasında german adı verilmişdir və bu ad sonradan bütün german tayfalarına aid edilmiş və xalq özünü german adlandırmışdır. German sözü



türk dilindəki Herman/erman sözünün fərqli fonetik formasıdır və türk dilində əsl igid/qəhrəman ər" mənasındadır. Er/ər türk dilində kişi, döyüşçü, ər mənasındadır, "man" isə türk dilində böyütmə, artırma və ya mənsubiyyət şəkilçisidir. Yunan dilində "h" hərfi ilə başlanan sözlərin başındakı "h" hərfi "g" ilə əvəz edilirdi və əslində Herman/Erman olan ad German kimi yazılırdı. Əvvəli "e" ilə başlayan xarici sözlərin önünə yunan dilində "h" hərfi artırılırdı.

Alman dilində də ayrıca bir "Hermann" sözü vardır ki, bu söz Herimann adının fonetik variantıdır. Sözün birinci hissəsi olan Hari/Heri qədim almancada "savaşçı/döyüşçü və qoşun" mənasında işlədilir. Harilər German vandal tayfa birliyinə daxil olan döyüşkən liqurların legionuna qoşun dəstəsinə deyilirdi və bu dəstəyə liqurların hakimiyyət sülaləsi olan Asdinqlər tərəfindən rəhbərlik edilirdi. Asdinq sözünün türkcə mənası uca, yüksək, ali Aslar deməkdir. Hari sözü bəzi mənbələrdə Chari şəklində də yazılır (Johannes Hopps. Reallexikon. 1913-15. Səh. 450)

Heri sözü türk dillərində çeri/çəriq, yəni qoşun sözü ilə eyni anlam daşıyır. Bu mənaya uyğun olaraq da Heriman sözünün mənası türkcəmizdə "mənim döyüşçülərim, mənim qoşunum" anlamı daşıdığı ehtimal olunur.

*Hari* qədim alman mifologiyasında savaş allahı idi. Vandalların krallarından birinin adı Hildimir-İldəmir digər kralları isə Hilderix/İlteriq idi. (Schönfeld M. Wörterbuch. 1911. Səh. 135-136)

Reyn çayı yaxınlığında və Mozel çayının aşağı hövzəsində yaşayan böyük german tayfalarından biri treverlər idi. Mənbələr treverləri qall tayfası hesab edirlər. Alman müəllifləri trever adının *tre-vero* olmaqla iki tərkibdən hesab edərək sözün kimvr/kimri mənşəli olub "güclü" mənasında olduğunu yazırlar. İsveçrəli linqvisti Rudolf Turneyzen kelt dilində "treuero" olan bu sözün avropa dillərinə "teruero" şəklində keçdiyini və trever etnoniminin "çay vadisi insanları" anlamında olduğunu yazır. (Rudolf Thurneysen. 2003, Səh. 188-192)

Həqiqətən də trever tayfasının adı təmiz türk dilində olub mənası "tere eri", yəni "dərə eri" insanları deməkdir. Treverlər Reyn və Mozel çayının vadilərində, yəni dərələrdə yaşayırdılar. (Древнеисландский словарь, 1969. Səh. 553)

Qədim Qərbi Qalliya indiki Almaniya ərazisində yerləşən Trier şəhəri öz adını trever tayfasının adından götürmüşdür. Trier şəhəri Mozel çayı vadisində yerləşir. Trever tayfasının keltlərə aid edilən bir etnik qrupu iskit-türk mənşəli olduğu adından məlum olan Aresak boyu idi. Gerçək adları Ersak, yəni ərsak adını daşıyan bu tayfa treverlərdən bir az aşağıda Rayn-Hessen bölgəsində indiki Mayns şəhəri ərazisində yaşayırdılar.

Y.Drozdov trever sözünü türkcə əkin mənasında olan tari/tarla sözü ilə əlaqələndirir və onu tarıber – əkin insanı kimi izah edir. (Дроздов Ю., 2011, Səh. 131)

## Vandallar

Vandallar ən məhşur german tayfalarından biridir. Tarixçilər onların məskunlaşdıqları ərazini Oder və Visla çayları arasında yerləşdirirlər. Qotların tarixinin bilicisi İordan qotların I-II əsrlərdə Skandinaviyadan Baltik dənizinin cənub sahillərinə yenərək ordakı vandal və ulmeruqları özlərinə tabe etdiklərini və sonra onların Germaniyanın cənubuna Roma sərhəddi tərəfə yendiklərini yazır. Böyük Piliniy vandalların qotlardan olduğunu yazır.

Vandal etnoniminin mənasını indiyədək qane edici izahı mümkün olmamışdır. Vandallar haqqında ilk məlumatı verən antik yunan tarixçiləri onların adını qədim yunan dilində Bandiloi/Bandaloi şəklində verirlər. Vandal adı onun təhrif olunmuş şəklidir. Qədim Türk dilində Bantali sözü mövcuddur və anlamı "basqınçı dəstəsi və ya talançılar birliyi" deməkdir. (ДТС, 1969, Səh. 81, 528)

Heç şübhəsiz Vandallar iskit-sakların çoxsaylı qollarından biri olmuşdur.

VIII əsrdə yaşamış "Lanqobard tarixi" müəllifi Pavel Diayakon vandalların başçıları Ambri və Assinin Avropanın şimalında skandinaviyanın qohum qot tayfalarından olan lanqobardlarla müharibəsindən bəhs edir. Hər iki tayfa da Odinə etiqad edirdilər. Vandalların hökmdarı Assinin adından və Odinə etiqadlarından onların mənşəcə as tayfalarına mənsub olduqlarını görsənir. Alman tarixçiləri vandalların ilkin vətənlərinin və etnik mənşəyinin bir o qədər də aydın olmadığı fikrindədirlər. Görünür vandallar kök etibarı ilə qeyri hind-avropalı və turanlı olduqlarından alman araşdırıcılar onların etnik mənşəyini aşkar etməyi lazım bilməmişlər.

406-cı ildə vandallar alanlar və suevlərlə birlikdə Reyni keçərək Qalliyanı (indiki Fransa) istila etdilər və orda bir neçə kiçik dövlətlər qurdular. Vandallar qotların hücumundan xilas olmaq üçün İspaniyaya keçdilər. Vandalların kralı Alarix 410-cu ildə yenidən Romanı ələ keçirdilər. Roma imperiyasının sərhədlərinə doğru yenən vandallar 455-ci ildə Romanı ələ keçirərək oranı viran qoydular. Bu hadisə tarixdə vandalizm adı ilə qeyd olunmuşdur. (Roland Steinacher. 2002. Səh. 115)

Qeysəriyəli Prokopinin yazdığına görə vandallar öncə Azov dənizi sahilində yaşayırdılar, aclıq üzündən franklar adlanan germanlarla birləşərək Reyn çayı tərəfə getdilər, burda qot tayfaları olan alanlarla birləşdilər. Qotların tərəfinə keçən qallar kralları Ataulfun (Ataulu) başçılığı altında İspaniyaya hücum edərək vandalları darmadağın etdilər, vandalların müttəfiqi alanların kralı Ataks döyüşdə öldürüldü. Qotlar qələbədən sonra Qalliyaya geri döndülər. Vandalların yeni kralı Qunderix 422-ci ildə roma qoşununu məğlub etdi. 428-ci ildə Qunderix öldükdən sonra onun yerinə keçən qardaşı Qeyzerix 429-cu ildə vandal və alanlarla birlikdə İspaniyanı tərk edərək Hibraltar üzərindən Afrikanın şimalına keçdilər. Vandalların Afrikaya gedişinin səbəbləri müxtəlif tərzdə izah edilir və əsas səbəb kimi vizqotların İspaniyaya soxulması kimi göstərilir. Qayzerixin hakimiyyəti dövründə vandallar Tunis, Əlcəzair və Liviya ərazilərini ələ keçirdilər. Onlar hətta Aralıq dənizinin bir çox adalarını, o cümlədən Siciliyanı öz hakimiyyətləri altına aldılar. Vandallar döyüş zamanı Roma imperiyasının birləşmiş dəniz donanmasını məhv etdilər. 533-cü ildə Bizans kralı Yustinyanın 15 minlik qoşunu Afrikaya girdi və vandalları ağır məğlubiyyətə uğradaraq onların paytaxtı Karfaqeni ələ keçirdi, vandalların kralı Qelimer əsr alındı. Vandallar Bizansa tabe olduqdan sonra onların iki min nəfərlik dəstəsi bizans ordusuna qatıldı və Pers dövləti ilə müharibəyə qoşuldu. Yüz illik vandal-alan dövlətinin mövcudluğuna son qoyuldu. (Lüdwig Schmidt. 1970. Səh. 56)

## Franklar

Franklar germanların ən böyük tayfa birliklərindən birini təşkil edirlər. Alman lüğətlərində bu etnonimin mənası "cəsur, cürətli" kimi izah olunur. Frankların adı tarixi mənbələrdə ilk dəfə 242-ci ildə çəkilir. Həmin il Reynin aşağısındakı Qalliya ərazisinə hücum edən frank tayfaları Roma tribunu, gələcək imperator Avrelian tərəfindən dağıdılır. German tayfaları kimi təqdim olunan franklar xatt, hamavam, tenkter, brukter və siqambr tayfalarını öz tərkibində birləşdirən böyük tayfalar birliyini təşkil edirdilər.

German tayfaları olan və franklara aid edilən Brukteri və ya Brokterilər indiki Almaniya ərazisində Lippe və Ems çayları hövzəsində məskunlaşmışdılar. Bu tayfa sonradan germanların mühüm qolunu təşkil edən frankların formalaşmasında rol oynadılar. Brukteri sözü iki tərkibdən ibarət olub, sözün kökü Türkcə "börk"-papaq mənasındadır, sözün ikinci hissəsi isə teri/dəridir və etnonimin mənası Dəripapaqlılar deməkdir.

Alman mənbələrində german tayfaları kimi təqdim olunan frankların ən qədim tarixi haqqında susmağa üstünlük verərək onların tarixini ilkin orta əsrlərdən başlayaraq şərh edirlər. Tarixi mənbələrdə frankların iki qoldan ibarət olduqları yazılır: dəniz sahilində yaşayan salilər və çay kənarında yaşayan ripalar.

Frakiyanın əsl adı Trakiyadır, yunan dilində "F" hərfi qalın "T" kimi oxunur (Θράκες və Thraces), lakin sonradan yunan qrammatik qaydalarına fikir verməyən müəlliflər bu hərfi və latın dilində sözün əvvəlindəki "Th" hərf birləşməsini "F" kimi tələffüz etmişlər. Franklar və ya düzgün oxunuşla traklar Troyadan gəlmişdilər. Boğazköydə tapılmış xett mixi yazı tabletlərində Troya adı Tariuş şəklində yazılmışdır. *III Ramzesin dövrünə aid zəfər tağında* da Troya adı "Turşa/Tursa" şəklində yazılmışdır. Frank adının əsli Trak olduğundan bir çox müəlliflər bu sözü haqlı olaraq *Turk/Turak* şəklində yazmağı uyğun görürlər.

Antik mənbələr frankların tarixinin daha qədimlərdən başlandığını köklərinin Kiçik Asiyaya və Troyaya gedib çıxdığını qeyd edirlər. Anonim müəllif tərəfindən yazılmış "Frankların tarixi" adlı əsərində yazıldığına görə yunanlılar Troyaya hücum etdikləri zaman tiran Eney on il mübarizə etdikdən sonra böyük tələfat verdi və öz xalqını götürüb İtaliyaya getdi. Troyanın Priam və Antenor kimi digər başçıları yerdə qalan on iki min qoşunu gəmilərə doldurub Don sahillərinə gəldilər.

Onlar Meotid (Azov) bataqlığından keçərək nəhayət Pannoniyaya (indiki Macarıstan) gəldilər və burda öz əcdadlarının xatirəsi şərəfinə Siqambriya adlı bir şəhər saldılar və uzun illər ərzində burda yaşayaraq artıb çoxaldılar. Tədqiqatçılar Siqambrianın Macarıstanda keçmişdəki Avink, indiki Buda olduğunu güman edirlər. Alanlar həmin dövrdə Roma imperatoru Valentinə qarşı üsyan qaldırdıqları zaman troyalılar alanlara hücum edib onları Dunayın arxasına qovdular. Bu cəsurluqlarına görə guya Valentin onlara frank cəsur/cürətli adını verdi. (Das Buch von der Geschichte der Frankov, Darmstadt. 1982)

On ildən sonra Valentin franklardan vergi ödəmələrini tələb etdikləri zaman, onlar alanlara qalib gəlib romanı müdafiə etdikləri üçün vergi verməkdən imtina edib, vergi toplayanları öldürdülər. Roma imperatoru bundan hiddətlənərək frankların üzərinə böyük bir qoşun göndərdi. Döyüş zamanı frankların başçısı Priam öldürüldü və franklar romalıların böyük ordusuna qalib gəlməyin mümkünsüzlüyünü görüb Siqambriyanı tərk etdilər. Franklar Priamın oğulları Sunno və Atenarın başçılığı ilə çox uzaqda yerləşən aşağı Reyn ətrafındakı Germaniya şəhərlərinə gələrək burda suqambr, xatt, xamav, brukter tayfaları ilə birləşərək artıq III əsrdən etibarən german tayfaları adı ilə tanındılar. Frankların ən məhşur tayfaları bunlardır Daklar, Besslər, Triballar, Qetlər, Odrislər, Diilər, Kikonlar, Dardanlar, Pevkinlər.

"Fredeqar xronikası" adlı əsərdə yazıldığına görə Troyanın məğlubiyyətindən sonra Priam Makedoniyaya gəlir, burda frank adını almış troyalılar iki yerə bölünürlər. Avropa frankları indiki Fransaya gedirlər, kral Turkonun başçılıq etdiyi frankların digər qolu isə türklər adlanaraq burda yaşamağa davam edirlər. Trakiya adı da Turkonun adından yaranmışdır.

Məhşur Alman tarixçisi Markvart yazır ki, Fransada Frank sülaləsinin atası olan Suqambrilər avropalıların Kimber adlandırdıqları Kimmerlər idilər. Fransada hakimiyyət sülaləsinin əsasını qoymuş Sukambriya xalqının adının mənası "oraq qılınclı kambirlər" deməkdir. (J. Marquart. 1905, Səh. 251)

Fikrimizə görə turanlı Kimvir/Kimmerlərin Dunay ətrafında yerləşən qolu olan Sukimmerilər Qara dəniz Kimmerlərindən fərqli olaraq uzun zaman ərzində məskunlaşdıqları Ön Asiyadan gəlmişdilər.

Suqambr tayfası frank tayfa birliyinin ən mühüm qolunu təşkil edirdi. Bu etnonim "su" və "qambr" olmaqla iki tərkibindən ibarətdir və sözün mənası kelt dilində Su-qambr "Çayın qalibi" demək olduğu yazılmışdır. Su sözünün kelt dilində "güc-qüvvət" mənasında işləndiyi də məlumdur. (Johannes Hoops. Reallexikon, 1915-1916, Səh. 426)

Strabon suqambrların kral və başbuğlarından Baytoriks qardaşlarının və Deudoriksin adlarını qeyd edir. Baytoriksin türkcə Baytur, Deudoriksin də Doydur və ya Daydur olduğu aşkar şəkildə görünməkdədir. German dillərində "rix-riq" sonluğu mənsubiyyət bildirir.

Suqambrlar Reyn çayı ilə Lippe çayı arasında məskunlaşmışdılar. Strabon suqambrları kimvrlərlə eyni tayfa birliyinə mənsub olduqlarını yazır. Kimvrlər Şimal dənizi sahilində, onlardan aşağıda suqambrlar və onların aşağısında isə ubilər məskunlaşmışdılar. German tayfa birliyinin ilk krallığını suqambrilər yaratmışdılar. (Страбон, География. 1994, 7, 1, 4)

E.q. 55-ci ildə Yuli Sezar german tayfaları olan tenkterləri və usipetləri romalılardan qoruyan suqambrlara qarşı savaşmışdı. İmperator Avqustun zamanında e. q. 16-cı ildə suqambrlar Reyn çayını keçərək Qalliyada romalıları ağır məğlubiyyətə uğratdılar. Lakin imperator Tiberinin dövründə suqambrilər aldatma yolu ilə tabe edildilər. E.q. 7-ci ildə 40 min suqambr indiki Almaniya və Belqiya sərhəd ərazisinə müasir Aaxen şəhərinin olduğu yerə köçürüldü. Suqambrlar Germaniya və Avropa tarixində mühüm rol oynayaraq 466-cı ildə kral I Xlodviqin hakimiyyətə gəlməsi ilə onların Merovinqlər nəsli Frank dövlətində hakimiyyət sülaləsinin əsasını qoydu. Merovinqlərin digər maraq doğuran cəhəti odur ki, onların sülaləsinin kökünün İsus Xristosa-İsa peyğəmbərə bağlı olduğu fərz olunur. Siqambir etnoniminin maraqlı bir tarixi Əhəməni şahı Dara ilə əlaqədardır. Antik müəlliflərin verdiyi məlumata görə Daranın anası Xuzistanın uksi tayfasına mənsub olub adı Sisiqambir idi və Makedoniyalı İsgəndər tərəfindən əsir götürülmüşdü.

## Hunlar Frank dövlətinin qurucuları

Bir çox tarixçilər Almanların Frank dövləti və onun hakimiyyət sülaləsi olan Merovinqlər haqqında rəsmi tarixşünaslığın təqdim etdiyi versiyanın tarixi gerçəkliyi əks etdirmədiyini yazırlar. Tarixi ədəbiyyatda Hun imperatoru Atillanın ölümündən sonra onun varislərinin taxt-tac uğrunda epizodik qarşıdurmalarından bəhs edilir və bu qüdrətli dövlətin sonrakı taleyi və izlərinin tarix səhnəsindən səssiz-soraqsız silinməsi məsələsini susqunluqla qarşılayırlar.

Merovinqlərin mənşəyi məsələsi katolik kilsəsi və onun tarixçiləri tərəfindən daima sükutla qarşılanmışdır. Macar araşdırıcı Qyula Toth "İskitlərdən Məğribə qədər" adlı əsərində yazdığına görə Hunların kralı Atilla kiçik oğlu Cəbəni (Çaba) özünə varis təyin etmişdi. Atilla 454-cü ildə öldükdən sonra alman qadını Krimhildadan doğulan böyük oğlu Aladar öz qardaşı ilə taxt-tac uğrunda mübarizəyə

başladı və qalib gəldi. Macar xronikalarında yazıldığına görə bu qarşıdurmada uduzan Cəbə öz tərəfdarları ilə öncə Yunanıstana, sonra isə Skifiyaya qaçdı. Lakin necə oldu ki, Avropanın yarısına sahib olan Hun hökmdarı Aladar birdən-birə tarix səhnəsindən silindi. Bu sualın cavabı ondadır ki, Hunların hökmdarı Aladar 457-ci ildə xristianlığı qəbul edərək Xilderix adı ilə Trak, yəni Frank dövlətini yaratmış və gizəmli Merovinqlər sülaləsinin əsasını qoymuşdur. Xristian kilsəsi və Orta əsr Avropa tarixçiləri bu baxımdan hər zaman Avropada qüdrətli Frank dövlətinin əslində bir hun dövləti olduğunu və onların hakimiyyət sülaləsi Merovinqlərin Atillanın əcdadları olması faktını 1500 il ərzində gizlətməyə çalışmışlar. (Zsolt Nemeth. Zeitensprünge 1/2014. )

Xilderik adının əsli Elteriş şəklindədir və Aladar bu türk hakimiyyət titulu ilə Hun Frank dövlətinin taxt-tacına sahib olmuşdur. Hunların Merovinqlər sülaləsi 457-751-ci illər arasında 300 il ərzində Avropanın ən qüdrətli dövləti olan Frank dövlətini idarə etmişlər.

Suqimbirlər Reyn çayının sahilində məskunlaşmadan öncə e.q. 400-ci ildə Qara dənizin şimal-qərbində Skif ölkəsində Kimmer kralları olaraq hakimiyyət sülaləsini təşkil edirdilər. Sonra onlar hansı səbəblərdənsə Reyn çayının sol sahilində məskunlaşmışlar. Merovinqlərin paytaxtı Touran şəhəri idi. Fransanın Tourin şəhərinin yaxınlığında Şampan-Ardenna adlı yerdə arxeoloqlar e.q. I əsrə aid Merovinq krallarına məxsus məzarda bir çox artefaktlarla yanaşı hakimiyyət simvolu olan və Böyük "Turku" adlı qızıldan hazırlanmış halqa və dağ kristalından hazırlanmış qeometrik kub aşkar etmişlər.

E.q. 40-13-cü illərdə suqumbrilər öz krallarının şərəfinə özlərini Frank əslində isə Traklar adlandırmışlar.

Suqimbirlər uzun illər ərzində Roma təcavüzünə qarşı Roma sərkərdəsi Sezarın hücumu qarşısında german tayfaları ilə birləşmişlər. Frankların romalılara qarşı mübarizəsi germanların qəhrəmanlıq saqalarında öz əksini tapmışdır.

Tarixi mənbələrdə Merovinqlərin sehrbazlıq keyfiyyətlərinə, qədim simvollara və sehrbazlıq vasitələrinə malik olduqlarını, boyunlarında "Turku" adlanan qızıldan hazırlanmış sehrli halqa gəzdirdiklərini və müxtəlif ovsunlarla havaya təsir edə bilirdiklərini yazır. Uzun saç saxlayıb üzlərində ritual kəsiklər olan Merovinqlər gələcəyi görmə, loğmanlıq və telepatik ünsiyyət qabiliyyətinə də malik idilər. (Usch Henze, Die Merovinger, 2010)

## Sarmat Türkləri avropalıların Ulu Ataları

Bəzi müəlliflər Avropanın əzəmətli dövləti olan Frank dövlətinin Merovinqlər sülaləsinin sarmat mənşəli olduqları fikrini irəli sürürlər.



Müasir alman tarixçisi Raynhard Şmoekel Almanların etnik mənşəyi haqqında bir neçə əsərin müəllifidir. 1999-cu ildə ilk dəfə İsveçrəli araşdırıcı U.Quqqenblühl elmi populyar jurnalda yazmışdır ki, Frank dövlətinin Xlodviqlər hakimiyyət sülaləsi Sarmatlar olmuşlar. Fransada yaşayan ukraynalı müəllif Y.Lebedinski "Sarmat" adlı əsərində yazdığına görə Avropadakı Sarmatlar ilkin orta əsrlərdə izsiz-soraqsız yox olmamışlar, onlar Avropadakı bir sıra xalqların kökünü təşkil etmişlər. Lakin Avropadakı universitetlərin tarixçiləri bu araşdırmalara diqqət göstərmək istəməmişlər. O, Merovinqlərin və kral Xlodviqin kökünün sarmatlara bağlı olduğunu sübut etdiyini yazır. (Reinhard Schmoeckel, 2016, Səh. 11)

Şmoekel Avropa müasir rəsmi tarixşünaslıq ənənələrinə uyğun olaraq sarmatları fars mənşəli hesab etsə də, digər müəlliflər sarmatların türklər olduqları haqqında qəti fikir bildirmişlər. Bu günə qədər sarmatların pers-iran mənşəli olduğu haqqında hər hansı bir ciddi linqvistik və etnoqrafik dəlil ortaya qoyulmamışdır. Avropa xalqları içərisində bu faktı sübut edə biləcək heç bir irandilli etnik qrup aşkar edilməmişdir. Lakin sarmatların türk mənşəli olduqları haqqında çoxsaylı linqvistik, etnoqrafik, etimoloji dəlillər mövcuddur.

Şmoekelə görə Saksların kralı Vidukund german deyil və onun adı kral Aleksandr adı ilə əlaqədardır. G.Rauilson Aleksandr adının turanlıların Askander adından yarandığını və sonrakı ifadə və danışıq gedişində dəyişikliyə uğradığını yazır. (G.H.Rawlinson. 1883, Səh. 201)

Tarixçi Siciliyalı Diodor yazır ki, iskit çarları əsarət altına aldıqları tayfalarını öz yurdlarından köçürdərək başqa ərazilərdə yerləşdirirdilər. Bu köçürmələrdən ikisi daha mühüm idi. Onlar Assuriyadan köçürülən bir tayfanı Pflaqoniya və Pont arasındakı ərazidə yerləşdirmişlər. Midiyadan köçürülən digər bir tayfa isə Tanais (Dunay) çayının sahilində yerləşdrildi. Savromat adlanan bu tayfa bir neçə il ərzində güclənd ikdən sonra Skifiya ərazisinin mühüm hissəsini viran qoyaraq məğlub etdikləri skifləri ucdan tutma məhv etmişlər. (Д.Сицилийский, 2008, Кн. 2. 43)

Qara dənizin şimal-qərbində məskunlaşmış kimmerlər Sarmatların ulu əcdadlarıdırlar. Kimmer adı bu gün Krım yarımadasının adında öz mövcudluğunu davam etdrir.

Sarmatlar iskitlərlə qohum xalqlar idilər. Antik müəlliflər İskitlərlə Sarmatları eyniləşdirirlər. German tayfaları olan Qotlar da Sarmatlardan daha sonralar şimaldan Qara dəniz şimalındakı çöllərə yenmişdilər. Baltik dənizi Orta əsr müəllifləri tərəfindən Sarmat dənizi Karpat dağı isə Sarmat dağları adlanırdı. (Reinhard Schmoeckel, 2016, Səh. 20)

Sarmatları fin-türk mənşəli olduqlarını qəbul edən İngilis bilim adamı Karl Bekker Sarmatların hind-avropalılar üzərində böyük təsirə malik olduqlarını və istər dəmir, istərsə də bürünc dövründə matallurgiya mədəniyyəti varisləri olaraq bir çox metal silah, dəbilqə və digər zirehli hərbi geyimlərini ilk dəfə tətbiq etdiklərini

yazır. Bekker kral Artur və onun Ekskalibur qılıncı haqqındakı mifin də Sarmat, yəni türk mənşəli olduğunu yazır. (Carl J. Becker. 2005, Səh. 37-38)

Sarmatların əsilzadə sülalə boyu ilkin orta əsrlərdə Almaniyanın Festfaliya, Saksen, Türinqen və Şvab ölkələrində xalqın kökünü təşkil etmişlər. Şmoekel Karolinqlərin hakimiyyətindən sonra yaranan Şərqi Frank dövlətinin, Müqəddəs Roma İmperiyasının Hohenştaufenlər sülaləsinin və Hohenzollernlər sülaləsinin sarmat mənşəli olduqlarını yazır. (Reinhard Schmoeckel, 2016)

Katolik kilsəsi və Avropa tarixçiləri Merovinq sülaləsi və Frank dövlətinin yaradıcılarının almanlar deyil, hunlar və ya sarmatlar olduğu, Almaniyada və İngiltərədəki Saksonların və onların kral sülaləsinin hun və ya sarmatlardan ibarət olduğu, Türinq və şvabların german deyil, sarmat və ya hun olduqları haqqındakı bilgiləri uzun əsrlər böyu böyük sirr kimi hifz edərək onların mənşəyi faqqında bir çox əfsanələr uydurmuşlar.

Franklar haqqında belə bir əfsanə mövcuddur ki, Frankların Merovinq kral sülaləsinin kökü yunanların Troya şəhərinə basqını nəticəsində öz şəhərlərini tərk edən troyalılara bağlıdır.

Strabon Dneprin qərbində məskunlaşmış Sarmatları "çar sarmatları", daha doğrusu Basillər adlandırır ki, basillər Sarmatların hakimiyyət sülalə boyunu təşkil edirdilər. "Çar sarmatları" ifadəsi türk dilində "Bas-il" etnoniminin yunan dilinə tərcüməsidir və sözün anlamı "İlin, yəni Elin başı" deməkdir. Təkcə bu sözün özü Sarmatların türklər olduğunu sübut edir.

Sarmat etnonimi Sar və mat tərkiblərindən ibarətdir. Sar sumer-akkad dilində hökmdar/kral deməkdir "Mata" isə ölkə anlamı daşıyır.

Frank dövlətini yaradan hökmran sülalənin və onların Merovinqlər kral ailəsinin hun və sarmat olması haqqındakı tarixi gerçəklik uzun illər ərzində katolik kilsə rəhbərliyi tərəfindən böyük bir sirr kimi qorunub saxlanmışdır. Katolik kilsəsi heç cür razılaşa bilmir ki, Avropanın mərkəzində ilkin qüdrətli dövlət olan Frank dövlətinin yaradıcıları sarmat və ya hunlar olmuşlar. Lakin müasir araşdırıcılar bu məsələnin kökünü araşdıraraq Frank dövlətinin yaradıcıları Merovinqlərin mənşə etibarı ilə sarmat və hun türkləri olduğunu təkzib edilməz dəlillərlə sübut etmişlər.

Şmoekelin yazdığına görə hun və ya sarmat Xlodviq 500-ci illərə yaxın Frank kralı seçilib xaç suyuna çəkilərkən onunla Katolik kilsəsi rəhbərliyi arasında gizli bir saziş imzalanmışdır. Bu sazişə görə Xlodviq öz əsl adı ilə deyil, ona kilsə tərəfindən verilmiş adla hakimiyyət sürəcək və heç bir zaman öz əsl etnik mənşəyini Qara dəniz ətrafında iki əsr davam etmiş iskit-sarmat yüksəlişi e.q. II əsrin əvvəlində sona çatdı, Don çayının şərqində məskunlaşmış digər köçəri tayfaların təzyiqi ilə Dneprin şərqində yaşayan iskit-sarmatlar öz yerlərini tərk etməyə məcbur oldular. Onların bir qolu qərbə doğru hərəkət etdilər, digər bir qolu isə Krıma yenib burda iskit-taur krallığının əsasını qoydular. İskit-sarmatların Krımda yaratdıqları dövlətin Bosfor çarlığı üzərində də böyük təsiri vardı. Bu dövlətin yaranması və inkişafı sayəsində iskit-sarmatlar oturaq əhaliyə çevrilmiş, ticarət və müxtəlif məmulatların emalı ilə məşğul olmuşlar. Bunun nəticəsində onlar boy tamqalarından geniş surətdə istifadə etmişlər ki, bu tamqalar həmin ərazidə aşkar edilmiş "sarmat tamqaları" adı ilə məhşurdur. Bu tamqaların böyük əksəriyyəti türk boylarının tamqaları ilə eyniyyət təşkil edir.

V əsrdə franklar iki hissəyə bölündülər, Ripa və ya Reyn frankları vahid hakimiyyət altında birləşərək mərkəzi Köln olan dövlət yaratdılar. Frankların Sali adlanan digər şimal qolu isə Kiçik knyazlıqlara bölündülər. Sali frankları flamand xalqının və hollandların etnik kökünü təşkil etmişlər. V əsrdə franklar Xlodviqin başçılığı altında Qalliyanın əsas hissəsini ələ keçirərək Frank krallığını yaratdılar. Frankların hakimiyyət sülaləsi Merovinqlər adlanır. Sülalənin banisi əfsanəyə görə dəniz canavarı ilə qadının izdvacından doğan Merovey Xlodviqin atası idi. Rəsmi tarixşünaslığa görə Fransa dövlətinin əsasını german tayfaları hesab edilən franklar tərəfindən qoyulmuşdur.

Çexiya ərazisindəki Bohemiya adının kökü Boi/Bai sözündəndir. Bai qədim kelt xalqının bir tayfası idi. Bohemiya Bailərin məskəni deməkdir. Alman etimoloji lüğətlərində izah edildiyinə görə sözün əsli yunanca və latınca "Baioi", yəni Baylar deməkdir. Sonraki dövrlərdə Baioi sözündəki "oi" hərf birləşməsi german dilində "e"-yə çevrilmiş və qarşısına "h" hərfi artırılmışdır. Almaniyanın indiki Bavariya əyalətinin də adı Bai etnonimi ilə əlaqədardır. Bai tayfası Almaniyanın cənubuna Bohemiyadan köçüb yerləşmişlər. Bavariya sözünün əsli almanca Bayerdir (Bai-er) və Bai/bay sözünün türkcə mənası ağa, varlı, zəngin deməkdir. Etnonimin anlamı Bai insanları deməkdir. (Schönfeld M. Wörterbuch 100, Band 2, 1911, Səh. 42, 43)

## Keltlər və Qallar

Avropa xalqlarının etnoqenezində kelt, qot və qall tayfaları önəmli rol oynamışlar. Alman rəsmi tarixşünaslığında German adının keltləri və iskitləri özündə birləşdirən genel etnoloji termin kimi qəbul edilir. Yəni qədim tarixin bu iki önəmli etnosunu German etnosunun formalaşmasında iştirak edən iki əsas qol kimi təqdim edirlər.

Keltlərin adı tarixə e.q. 600-cü ildə yunanların indiki Fransanın cənubunda Massiliy (Marsel) Kaloniyası saldıqdan sonra məlum olmuşdur ki, həmin ərazilər Alp dağlarının cənub ətəkləri də daxil olmaqla keltlərin yaşayış məskənləri idi. Romalılar Massiliyadan yuxarıda yaşayan keltləri qallar adlandırırdılar. E.q. 390-cı ildə keltlər Romaya hücum edərək onu qarət etdilər və deyilənə görə o vaxta

qədər mövcud olmuş Roma tarixi yazılarını da yandırdılar. Dunay ətrafında məskunlaşmış Şərqi keltlər e.q. 281-ci ildə şərqə doğru hərəkət edərək Yunanıstanın şimalında Frakiyaya yerləşən keltləri yunanlar "qalat" adlandırırdılar. M.ö. 278-ci ildə on min kelt ailələri ilə birlikdə Vifini çarının dəvəti ilə sülalə daxili mübarizədə ona kömək etmək üçün Kiçik Asiyaya dəvət edilərək orda yerləşdilər. Sonradan həmin keltlər Mərkəzi Anadoluda, Friqiya və Xappadokiyada e.q. 230-cu ilə qədər mövcud olan Qalatiya dövlətini yaratdılar. Keltlərin boi/boy adlanan bir hissəsi romalılar tərəfindən sıxışdırılaraq İtaliyanın şimalına və Çexiyada Bohemiya adlanan əraziyə sığındılar.

Qalliya (lat. Gallia, Gallus) Avropanın keltlər yaşayan tarixi ərazisinə romalıların verdikləri addır. Qalliya ərazisi Appenin dağlarından başlamış cənubda Aralıq dənizi, şimalda və qərbdə Atlantik okeanı və Priney yarımadası arasındakı ərazini əhatə edirdi. Roma yazılı mənbələrində qalların adı ifadə olunduğu zaman artıq bu ərazinin böyük hissəsi kelt tayfaları tərəfindən məskunlaşmışdı ki, romalılar onların hamısını ümümi adla qallar adlandırırdılar.

Türk araşdırıcı Yisif Ziya Özer türk hesab etdiyi Qall tayfalarının Avropa xalqlarının etnogenezində önəmli rol oynadığını qeyd edir. Fransa keçmişdə bu tayfaların adı ilə Qalliya adlanmışdır, İspaniyanın keçmişdə qalların məskunlaşdığı ərazi Qalisiya vilayəti adlanır. Fransada Turan tayfalarının məskunlaşdığı ərazi indi də Touran adlanır. Fransanın paytaxtı Paris adı türklərin Bars tayfasının adını daşıyır. Fransız dilində kelt və latın dilinə aid edilən çoxsaylı sözlər əslində türk dilindədir. Böyük Britaniyanın böyük bir hissəsini Qall tayfaları təşkil edirdi. Yusif Ziya Özər Kiçik Asiyanın Qalatiya ərazisinin mənşəcə türk olan qall tayfalarının adından yarandığını yazır. Qalatlar İzmirdən Ankaraya qədər olan ərazidə məskunlaşmışdılar. Qalat tayfa birliyi Tektosaq, Torkm və Tolistboy adlı tayfalardan ibarət idi. Torkmlar Anadolunun qədim türk sakinləri olan Torqomların varisləri idilər. Tolisboyları Türkistanın Tolis boyunun qədim əcdadlarıdır. (Yusif Ziya Özer. 1932, Səh. 349)

Kiçik Asiyanın Qalatya ərazisində m.ö. III-IV əsrlərdə kelt tayfaları məskunlaşmışdılar. İrəli sürülən digər bir versiyaya görə qall adı german dilində yabançılara, yəni german olmayan xalqlara verilən "walha" sözündən götürülmüşdür. Bu söz fransız dilində "w", "q" əvəzlənməsi ilə qall şəklini almışdır.

Keltlər və qallar qədimdə Roma dövründən də məlum olduğu kimi qısa ətəkli paltar geyirmişlər. Bu ənənə bu gün də keltlərin varisləri olan və qısa ətəkli paltar geyən şotlandlar tərəfindən davam etdrilməkdədir. Fikrimizə görə kelt adı qədim türk dilində olduğu kimi bugünki bir çox türk ləhcələrində kelte, yəni qısa sözündən yaranmışdır. (Radlov, T. II, 1899, Səh. 1121-1122)

Alplardan Dunaya qədər olan qədim İberiya ərazisində məskunlaşmış olan iskitləri keltlər adlandırırdılar və o keltlərdən də germanlar törəmişdir. Alp dağları ilə Priney arasında qalan iskitlər qalatlar və ya qallar (xoruz) adlanırdılar. (Cenac Mancaut, C II, 1875, Səh. 67, 68)

Keltləri öz ilkin vətənlərində iskit və ya köçəri adlandırırdılar, çünki evləri yoxdu və ağacların kölgəsində və ya meşələrdə yaşayırdılar. (Miguel Cortes Lopes. 1836, Səh. 11)

Qall sözünü ilk dəfə e.q. 168-ci ildə Böyük Katon İtaliyanın Alp dağları ətəyindəki Padan düzənliyini işğal edən keltləri nəzərdə tutaraq ifadə etmişdir. Bir versiyaya görə qallus adı latın dilində xoruz deməkdir və bu ad keltlərə başlarına qoyduqları dəbilqənin üzərinə yapışdırılmış xoruz pipiyinə bənzər daraq kimi uzunsov fırçaya görə verilmişdir.

Öz ərazisini işğal etdiyi yeni torpaqlar hesabına genişləndirmək siyasəti Roma imperiyasının Qallarla uzun sürən müharibələrinə səbəb olmuşdur. Yuli Sezar e. q. 58-ci ildə Qalliyanı işğala etməyə başladığı zaman onun ərazisini Akvitaniya, Keltika və Belqika olmaqla üç hissəyə bölmüşdü. Qalliya uğrunda müharibəni Sezar onları döyüşkən helveti tayfasının hücumlarından qorumaq bəhanəsi ilə başlatmışdı.

Diodor qalların öz düşmənlərin başlarını kəsərək atlarının yəhərlərindən asdıqlarını yazır və kəsilmiş başın çoxluğu qall əsgərinin şücaətinin göstəricisidir. Romalılar qalları və onların qonşuluğunda yaşayan keltləri ümumi adla qall adlandırırlar. Qalların içərisində öz döyüşkənliyi, qüvvətləri və qəddarlığı ilə seçilən bir tayfaları vardır ki, onları kimmerilər adlandırırlar, onlar bütün Asiyanı başdan başa keçərək bura gəlmişlər və onlara indi onların adına təhrif olunmuş şəkildə "kimvir" deyirlər. Kimvirlər german tayfalarının tərkibinə qarışmış sonrakı kimmerlər idi. (Диодор Сицилийский, Кн. 2. М. 2008. 5, 19, 40)

Keltlərin və skiflərlə eyni kökə malik olmaları, yəni türk mənşəli olmaları Strabon tərəfindən də təsdiq edilir. Strabon yazır: "Mən qədim ellinlərin rəyinə əsaslanaraq təsdiq edirəm ki, Homer şimal ölkələrinin tanınmış xalqlarını necə nomad (köçəri) və iskit adlandırırsa, qərb ölkələrinin də həmin tanınmış xalqları bir vahid ad altında keltiber və ya keltiskit adlanırlar". (Страбон, География, 1994)

Aurali Ekkehard "Ekkehardın ümumi xronikası" adlı əsərində Misir fironunun iskitlərə qarşı müharibəsindən bəhs edərkən Asiyanı fəth edən bu iskitlərin "indi qet" və ya qot adlandırılan xalq olduğunu yazır. (Всеобщая хроника Эккехарда. пер. И. Дьяконов, М. 2008)

Tit Liviy və Efesli Zenedot qeyd edirlər ki, Adriatikadakı venetlər Pfloqoniyadakı enetlərin varisləridirlər. Strabon da Pflaqoniyadakı enetlərin yox olması məsələsini şərh edərkən onları Adriatika sahillərinə getdiklərini yazır. (Страбон, География. 1994, 12, 3)

Qay Yuli Sezar qallar haqqında yazdığı əsərdə onlardan bəhs edərkən yazir ki, "öz dillərində onlar özlərini kelt adlandırırlar, bizim dildə isə qall adlanırlar". Se-

zar özü mənşə etibarı ilə qədim etrusk kökə malik olub Troya müharibəsi nəticəsində İtaliyaya qaçan kral Eneyin oğlu Askani Yulun törəməsi idi. Ona görə də Sezar bizim dil dedikdə, etrusk dilini nəzərdə tuturdu, çünki qall sözü latınca deyil və etimoloji lüğətlərdə mənşəyi məlum olmayan söz kimi izah edilir. Virqilyanın yazdığına görə Askaniyin bir adı da Yul və ya İlion idi. E.q. V-IV əsrlərdə Yuli sülaləsi patrisiya zümrəsinə mənsub olaraq Romanın siyasi həyatında mühüm rol oynayırdılar. Sezar öz ulu əcdadı Troya prinsi və sonradan İtaliyada Alba Lonqa şəhər dövlətini quran Yulin törəmələrindən idi.

Sezar adının mənası müxtəlif cür izah olunur, ən inandırıcı etimalogiya isə onun etrusk dilində "aisar-aser", yəni tanrı sözündən yarandığı haqqındakı mülahizədir. (Ernout A., Meillet A. Caesar. Dictionnaire etimologique. 2001, Səh. 84)

Aser sumer tanrısı idi və bir ehtimala görə etrusklar da sumer mənşəyinə malik idilər. Mənşə etibarı ilə Troyadan olduqları ehtimal olunan skandinavların da allahları aslar və ya aserlər adlanırdılar. Etrusk dili prototürk dili kimi qəbul olunduğundan "Qall" etnonimi də türk dilində izah oluna bilir.

Drozdov Kelt sözünü türkcə "kəltə" – kərtənkələ mənasında keltlərin totem heyvanı və əjdaha obrazında ola biləcəyi şəkildə izah edir. (Дроздов Ю.Н. 2011, Səh. 169)

Siciliyalı Diodorun yazdığına görə keltlər də iskit/saklar kimi öldürdükləri düşmənlərinin başını kəsərək atlarının yəhərlərinə və ya boyunlarına asırdılar.

Sezar qall tayfa birliyi içərisində turon, and, parisi (bars) və boy adlarını da qeyd edir. Bu Boy etnoniminin qall/kelt tayfa birliyi içərisində mövcudluğu digər faktlarla birlikdə onların türk mənşəli olduqlarını bir daha sübut edir. Keltlərin Sezar tərəvindən adı qeyd olunan bir boyu da helvetilər adlanırdı. Helvetilər I əsrdə Almaniyanın cənubunda və İsveçrənin mərkəzində məskunlaşmışdılar. Helvetilər altı qola ayrılmışdılar, onların içərisində verbiqlər, tiquri, toiqelər və ya tevtonlar adlanan tayfalar vardı. İsveçdə məskunlaşmış tiqurilər kimvr/kimmerlərlə eyni mənşəyə mənsub olduqlarına görə də onlarla birlikdə e.q. 101-102-ci illərdə Alp dağlarını keçərək romalılara qarşı döyüşdükdən sonra yenidən öz vətənlərinə geri döndülər. Tiquri sözü irland/kelt dilində "tiqern" ağa demək olduğu kimi kimmer dilində də "teyrn" ağa mənasındadır ki, hər iki söz türk dilində tenqr/teyri, yəni tanrı teonimi ilə səsləşməkdədir. Tiqurlərin İsveçrədə əsas yerləşim məskəni qədimdə Turik adlanan indiki Cenevrə idi. Ümumiyyətlə, bir çox müəlliflər Avropada məskunlaşmış kelt və german tayfaları kimi təqdim olunan tunqern, tevton, turinq, touron, turon, taurisk, turs, tiqurin kimi etnonimlərin eyni kökdən olub eyni etnonimin fərqli fonetik deyiliş formalar olduğunu Qeyd edirlər. (Die Schweiz in römischer Zeit, 1927)

Kelt mifologiyasında bir çox tanrı adları türk adları ilə səsləşməkdədir.



Bir neçə kelt/qall tanrı adlarını nümunə üçün göstərmək olar: Aqaun, Ayne, Aylil, Alator, Albior, Alboriq, Alpin, Amorq, Anu/Ana, Ardu, Artos, Daqda, Muqain, Mata, Mil, Tanar, Taran, Tarvos, Ukse (В.П.Калыгин. 2006)

Keltlərin mifalogiyasına görə onların baş tanrısı göy gurultusu və müharibə allahı Taranis adlanırdı. Keltlərdə Taran göy gurultusu və ildırım tanrısı olduğu kimi Skandinav mifologiyasında Tor aslardan biri idi və skandinavların göy gurultusu və ildırım tanrısı idi. O baş tanrı Odin və yer tanrısı Yerdin böyük oğlu idi. Tur tanrısına etiqadın kökü etruskların mifalogiyasına bağlıdır. Skandinav mifalogiyasında Mirdqard (Mert qart) insanların yaşadığı dünya, Asqard isə tanrı asların yaşadığı aşağı-alt dünya olaraq ikiyə bölünürdü.

German tayfaları kimi təqdim olunan qotlar 268-270-ci illərdə ostqot və vestqot olmaqla iki qola ayrılmışdı. Ehtimal edildiyinə görə Qotlar Dneprin hər iki sahilində yerləşərək çayın sağ və sol sahili olmaqla iki yerə, ostqot və vestqotlara ayrılmışlar. Ostqotlara Amal qəbilə sülaləsi, vestqotlara isə Balt qəbilə sülaləsi hakim olmuşlar.

Qotların qollarından biri olan ostqot tayfa birliyinin digər adı "qreytunq" adlanır. Qreytunq Türk sözüdür. Türk dilində "quriya" qərb deməkdir, tunqa isə yenə türklərin ən məhşur boylarından biridir, etnonimin türkcə mənası "batı tungları" deməkdir. Qreytunqlar çöldə məskunlaşan xalqlar idilər. Vestqotlar isə adətən meşə xalqı adlanır. Dnestr və Dnepr çayları qotları bir-birindən ayıran təbii sərhəd idi. Ostqot-qreytunqlar Krımda və Azov ətrafı çöllərdə, Dneprlə Don arasındakı ərazidə məskunlaşmışdılar. Osqot-qreytunqlar krallığının banisi Amal sülaləsinə mənsub Ermenariq (Qermenarix) hesab olunur. Qotların ulu əcdadı Qaut olmuşdur. Skandinav saqalarındakı Odinin adı german versiyasında Qaut adlanır. Qautdan sonra qotların hakimiyyət sülaləsinin əsasını Amal qoymuşdur. Qaut və Amal adları türk mənşəli sözlərdir, "qaut/qavut" sözünün türkcə mənası möhtəşəm, ləyaqətli deməkdir, amal/amul sözünün mənası isə "sakit", "dinc" deməkdir. (ДТС, 1969, Səh. 438, 41-42)

Germanların və o cümlədən skandinav xalqlarının milli dastanları olan saqa adının türk dilində olması mümkündür. Qədim türk dilində "saqi" sözü fikir, düşüncə, təsəvvür etmək, xəyalında canlandırmaq anlamında işlədilir. Bu da əcdadlar haqqında düşüncə, nağıl, hekayət anlamında olan saqa sözünə tamamilə uyğundur. (ДТС, 1969, Səh. 486)

"Saqa" sözü skandinav xalqlarının öz tarixi rəvayətlərində də bəhs olunduğu kimi mənşə etibarı ilə mənsub olduqları sak/saq etnonimi ilə də əlaqədar ola bilər.

Sevilyalı İsidorun yazdığına görə Suevlər kralları Qermerixin başçılığı ilə alanlar və vandallarla birlikdə İspaniyaya gəldilər və bütün Qalisiyanı tutdular. Vandallar Afrikaya getdikdən sonra suevlər Qermerixin başçılığı altınada 32 il İspaniyada ağalıq etdilər. (Исидор Севильский. 2009, Səh. 18)

Bizim Alman kimi tanıdığımız "Aleman" tayfası german tayfalarından olub adı ilk dəfə Roma kralı Karakallanın 213-cü ildə Mayns ətrafında bu tayfalarla mübarizəsi ilə əlaqədar çəkilir. Alemanlar İndiki fransa ilə sərhəd ərazilərində Reyn çayı ətrafında məskunlaşmışdılar. Aleman tayfaları suev tayfaları ilə eyni kökə malik idilər, ona görə də bəzən bu adlar sinonim kimi istifadə olunurdu. VI əsrdən etibarən sueb adı tədricən alemann adı ilə əvəz olunur və fransızlar germanları bütünlüklə Alleman adlandırırlar. Alemanlar kök etibarı ilə indiki alman şvabları, yəni keçmişdəki sueblərdirlər. Suev tayfa birliyi alemanlar da daxil olmaqla I əsrdə kralları Ariovitsin başçılığı altında Elba tərəflərindən köçüb Mayn və Reyn çayları ətrafında məskunlaşmışdılar. X əsrə qədər şərqi frank ərazisində Aleman hersoqluğu mövcud idi. Alemanlar tədricən franklar və şveblər içərisində ərimişlər.

Aleman adının mənasını alman dilli lüğətlərdə "ümumən insan", "Qəhrəman adam" və ya "Güvənilən adam" kimi izah edirlər. (Hoops Johannes. Reallexikion, 1915-1916. Səh. 57-58)

Halbuki bu etnonimin adı təmiz türkcədir və "alaman" xalq, ordu mənasındadır. (Этимологический словарь Тюркских языков. 1997, Səh. 134)

Alp/Alb adının keltlərin dilində olduğu ehtimal olunur, etimaloji baxımdan türk dilində olduğu heç bir şübhə doğurmayan və türklərin ulu qəhrəmanlarını təmsil edən Alp adının keltlərə də şamil edilməsi onların türk mənşəli olduqlarını bir daha sübut edir. Keltlərin ən önəmli tayfalarından biri olan suevlər Alp ətəklərində yaşayırdılar və ona görə də bu dağ həmçinin Suev Albı adlanırdı. Sonradan alb sözündə *b-p* əvəzlənməsi baş vermiş və latın dilində Alp şəklində ifadə olunmuşdur. Prototürk dilindən latın dilinə keçmiş Alb sözünün mənası ağ deməkdir. Alp kəlməsinin türk dilində ən gerçək mənası yüksək, ali, igid və qəhrəman deməkdir. Alman lüğətlərində yüksəklikdə yerləşən çəmənlik, Alp dağ çəmənliyi adlandırılır. (Hoops Johannes. Reallexikon, səh. Bund 1. 1915-1916. Səh. 55). Alp adının geniş izahını əvvəlki bölümlərdə vermişik.

Germanların böyük və məhşur tayfası kimi bastarnların da adı qeyd olunur. Bastarnların mənşəyi məsələsi müəyyən mübahisələrə səbəb olmaqdadır. Müəlliflərin bəziləri onları german, digərləri kelt və sarmat-iskit mənşəli hesab edirlər. Bastarnlar tarix səhnəsinə ilk qədəm qoyan german tayfası kimi qeyd olunur. Bastarnların e.q. III əsrindən, Miladın III əsrinə qədərki dövrdə Dunayın aşağı axarları və Karpat ətrafından başlayaraq Dneprin ortalarına qədər geniş bir ərazidə məskunlaşdıqları tarixi mənbələrdə öz əksini tapmışdır. Bu ərazilər tarixən iskitlərin, kimmerlərin və sarmatların məskunlaşmış olduqları ərazilərdir. E.q. 182-ci ildə Makedoniya kralı Filipp ölkəsini xarici müdaxilələrdən qorumaq üçün bastarnları sərhədlərinə yaxın ərazidə yerləşmələrinə izn vermişdi. Bastarnlar öz qəbilədaşları pevkinlərlə birlikdə dəfələrlə Frakiyaya və Roma imperiyasının digər ərazilərinə soyğunçu basqınlar edirdilər. Bastarnlar çox zaman digər alman tay-



fası skirlərlə birlikdə hərəkət edirdilər. Antik müəlliflərdən Tit Liviy bastarnları keltlərlə eyniləşdirərək onların adət-ənənə və dil baxımından çox yaxın olduqlarını yazır. (Т.Ливи, 1989, кн. I, T I, 9. 40, 57)

Roma imperatoru Oktavian Avqust zamanında romalılarla savaşan bastarnları Dion Kassi Dunay arxasında yaşayan iskit tayfaları adlandırır.

Strabon bastarnları german və tireqetlərlə qonşuluqda yaşadıqlarını yazır və onların atoman, sidon, roksolan və pevrin tayfalarının adını çəkir. Sarmat mənşəli olmaları heç bir şübhə doğurmayan roksolonların bastarnlara aid edilməsi bastarnların da sarmat mənşəli olduqları fikrini dəstəkləməkdədir. Strabon bastarnların frakiyalılarla, Tasit isə sarmatlarla qarışmış olduqlarını yazır. (Страбон, География. 1994, 7, 3, 17; Тацит. О присхождении германцев, Səh. 46)

Roma hökmdarları bastarnların və onların müttəfiq tayfalarının basqınlarının qarşısını almaq və öz sərhədlərinin təhlükəsizliyini təmin etmək üçün dəfələrlə hərbi yürüşlər təşkil etmişlər. Klavdiy Ptolomey II əsrin ortalarında bastarnların Avropa Sarmatiyasının ən mühüm xalqlarından olduğunu yazır. Eramızın 280-ci ilində imperator 100 min bastarnanı Frakiya ərazisinə köçürdü. 391-ci ildə bastarnlar romanın görkəmli sərkərdəsi Promotu öldürdülər və bu hadisə bastarnlara qarşı kütləvi cəza tədbirlərinə səbəb oldu. Bastarnlar tədricən german tayfaları içərisində və bu ərazidə yaşayan digər tayfalara qarışaraq assimilya oldular. Bastarn tayfalarının etnik mənşəyinə gəldikdə onların hələ german tayfaları formalaşmadan öncə kelt tayfalarının tərkibində Dunay ətrafında yerləşdiklərini yazırlar.

Tit Liviy bastarnların keltlərdən olduğunu yazır. Pliniy, Strabon və Tasit də əminliklə olmasa da bastarnların germanlardan olduğunu yazırlar. Bastarnların həyat tərzi, hərbi-döyüş sistemi və adlarının semantikası onların türk və iskit/sarmat mənşəyə malik olduqlarını isbat edir. Bastarnlar da iskit və kimmerlər kimi ailəcə arabalarda yaşayırdılar, piyada və atlı qoşuna malik idilər. Alman lüğətlərində və tarixi ədəbiyyatında bastarn adının inandırıcı bir izahı mövcud deyil və bu adın mənşəyinin qeyri müəyyən olduğu fikri irəli sürülür. (Hoops Johannis. Reallexsikon, 1915-1916. Səh. 177-178)

Böyük tayfa birliyinə rəhbərlik edən Bastar adı fikrimizcə türkcə Baştur, yəni "başda duran" sözündən ibarətdir. Bastarların Kotton, Kolonduk və Deddon adları da türkcədir.

# XXXI FƏSİL. Böyük Britaniya-Kimmer Öntürklərin dumanlı albionu

Britaniya adasının qədim dövrlərdən etibarən müxtəlif xalqlar və tayfalar tərəfindən məskunlaşması tarixi antik müəlliflərin əsərlərində anqlo-saks xronikalarında və IX əsr müəllifi Nenninin "Brittonların tarixi" əsərində öz əksini tapmışdır. Britaniya adasında hind-avropalı anqlo-sakslardan öncə turanlı tayfaların məskunlaşdıqları qədim salnamələrdə və bir çox müəlliflərin əsərlərində öz əksini tapmışdır.

Nenni Britaniyanı məskunlaşdıran tayfalar haqqında bəhs edərək yazır ki, "adada dörd tayfa yaşayır: skottlar, piktilər, saksonlar və həmçinin brittonlar". Nenniyin yazdığına görə Britaniyanı ilk məskunlaşdıran xalq brittlər olmuşlar. (Нонний. История бриттонов. 1984)

Anqlo-saksların xronikasında bu xalqların sayı beşdir: ingilislər, britlər, skottlar, piktilər, latınlar. Arxeoloji məlumatlara və yazılı mənbələrə əsasən e.q. I minillikdə keltlər (qallar) və belqilər Britaniya sahillərində məskunlaşmışlar. (Бела Достопочтенный. 2001, Səh. 221)

Almanıyanın XIX əsr görkəmli etnoloqu Baron Bunzen keltlərin Avropada yayılma istiqamətindən bəhs edərək yazır: "Mənə elə gəlir ki, keltlər Avropaya Asiya Skifiyasından müxtəlif dövrlərdə iki köç axını ilə gəlmişlər. Cənub-şərq istiqamətində gələnlər Suriyadan və Misirdən keçərək Afrikanın şimal sahilləri ilə irəliləmiş, Herakl sütunları tərəfdən Avropaya girmiş, İspaniya və Qalliyada üç qola ayrılmışlar. Şimal istiqamətində irəliləyən qolun hərəkəti Britaniya və İrlandiyada başa çatmışdır, Onlar Britaniyada və İrlandiyada üç əsas ana tayfanın əsasını qoydular və onların eponimlərinə çevrilən tayfa allahlarının adları adaların üç adla adlanmasına səbəb oldu 1-Alvion\Albion-Alauni-Alani Alv allahının adından, 2-Aed allahının adından Aedui, Eyddin-Edinburq adı, 3-Brit adlı allahlarının adından Britaniya və ya Böyük Britaniya". (C.J.Bunsen. 1854. Vol. 1, Səh. 149)

Xronikada yazıldığına görə brittlər Britaniyaya Armorikadan gəlmişdilər. Armorika Qalliyanın (Fransa) şimal-qərb sahillərinə latın-romalıların verdiyi addır. Britlər İngiltərəyə bu ərazidən gəlmişdilər və onların bir hissəsi həmin ərazidə qalmağa davam etdiklərindən ora indi Kiçik Britaniya və ya Fransa Britaniyası adlanır.

Brittlərin öz rəvayərlərinə və roma annallarına görə Britaniya öz adını Yafəsin nəslindən olan Alanın oğlu, İsikonun oğlu Brittdən almışdır. Nenniy ümumiyyətlə, Avropaya gələrək oranı məskunlaşdıran ilk insanların Yafəsin törəməsi olan Alan və onun dörd oğlu olduğunu yazır. Bələliklə, Avropaya ilk gələrək oranı məskunlaşdıranlar Yafəsin nəslindən olan Alan və övladlarıdır. Burada Alan adı



Odin adı ilə ekvivalent təşkil edir, çünki hər ikisini də kökü Aslara bağlıdır. (Нонний. История бриттонов. 1984, Səh. 173)

Alanları irandilli xalq kimi təqdim edənlərin cəhdlərinə rəğmən özlərini aslar adlandıran alanların Türk mənşəli tayfalar olduqları inkaredilməz tarixi bir gerçəklikdir. Britin mənşə etibarı ilə troyalı olduğu tarixi salnamələrdə öz əksini tapmışdır.

Roma versiyasına görə Britt Troya müharibəsinin qəhrəmanlarından Eneyin nəslindəndir. Eney müharibə nəticəsində yunanlılar tərəfindən dağıdılan Troyadan öz oğlu Askaniylə (digər adı Yul) bərabər İtaliyaya gəlmişdir. Askaniyin burda Silviya adlı oğlu olmuşdur. Lavina adlı qızla qeyri-qanuni əlaqəyə girən Silviyanın Britt (bəzi müəlliflərə görə Brut) adlı oğlu olur. Uşaq doğulmadan öncə kahinlər onun öz anası və atasının qatili olacağını söyləyirlər. Doğuş zamanı Brittin anası ölür, o hədd buluğa çatdıqdan sonra ov zamanı oxla təsadüfən atasını da öldürür. Qohumları Britti törətdiyi məşum cinayətə görə ölkədən qovurlar. Yunanıstana gələn Britt burda çoxlu troyalı əsirlə qarşılaşır və bir müddət sonra o həmin troyalılarla birlikdə Qalliyaya, yəni indiki İspaniyaya gələrək burda turonlar üçün Turon şəhərini salır. Uzun müddət Qalliyada yaşadıqdan sonra Britt troyalılarla birlikdə o zaman Albiona adlanan Britaniya adasına gəlirlər. Troyalılarla birlikdə adanı gəzdikdən sonra Brut Temza çayının sahilində Troya adlı yeni bir şəhər salır. Burada Brutun Lukrin, Albanakt və Kambr adında üç oğlu olur. Britaniyanı üç oğlu arasında bölərək hər əyalətə oğlanlarından birinin adını verir. Mərkəzi əyaləti böyük oğlu Lukrinin adı ilə Loeqriya adlanır, Kimberlend, indiki adı ilə Uels ikinci oğlu Kambrə verilir, indi Şotlandiya adlanan Albaniya üçüncü oğlu Albanakta verilir. (Гальфрид Манмутский, 1984, Səh. 21)

Tarixi qaynaqlardan da göründüyü kimi skandinavlarda olduğu kimi britanıyalıların da kökündə troyalılar və aslar durur. Çünki britaniyalıların ulu əcdadı Eneyin oğlu Askaniyadır.

Britaniyanın digər bir qədim xalqı olan skotlar öncə İberniya adlandırdıqları İrlandiyada məskunlaşmış, sonra onların bir hissəsi Britaniyaya köçmüşdülər. Nenniy bu haqda yazır: "Nəhayət, minlərlə kişi və qadından ibarət olan Skotlar Bartolomun (Partolom) başçılığı ilə İspaniya əyalətlərindən köçüb İberniyada yerləşdilər". (Нонний. История бриттонов. 1984, səh. 175)

Nonniy skotların Britaniyaya gəlmələrinin maraqlı bir rəvayətini nəql edir və onların etnik kökünün iskitlərə, yəni türklərə bağlı olduğunu yazır. Onun bəhs etdiyi rəvayətə görə tanınmış iskit bir zamanlar öz çoxsaylı qohumları və xidmətçiləri ilə birlikdə ölkəsi Skifiyadan qovulduqdan sonra Misirə pənah gətirərək orda məskunlaşmışdılar. Misirlilər yəhudiləri ölkədən qovarkən iskitlər onlara dəstək vermədilər, bundan hiddətlənən misirlilər onları ölkədən qovdular.

Skif öz adamları ilə Afrikada 42 il uzun bir məsafə qət etdikdən sonra Herakl dirəkləri adlandırılan Hibraltar boğazına çatdılar və gəmilərlə dənizi keçərək İspaniyada yerləşdilər. Uzun illər ərzində burda artıb çoxalan və artıq skott adını almış skiflərdən minlərlə kişi və qadın Bartolomun başçılığı altında İspaniyanı tərk edərək İrlandiyaya Köçmüş və m.ö. I minilliyin birinci yarısında skot adı ilə burda yerləşmişdilər. (Манмутский, 1984, Səh. 176)

Skot adı İskitlərin yunanca Scythia adından yaranmadır. Skotlar İrlandiyada piktilər ilə birləşərək brittlərə hücum etdilər və onlara qalib gəlib indiki Şotlandiyada, yəni Scotlandda yerləşdilər. Şotlandiya tarixdə bir neçə adla adlanmışdır: Albaniya (Alban), Qalliya, Kaledoniya və Skotland (Şotlandiya). Şotlandiyanın yaxınlığında Arran adası mövcuddur. Viskinin vətəni əsasən bu ada olmuşdur. Arran keltlərin britt tayfalarının vətənidir. Piktilər Şotlandiyanın ən qədim əhalisi idi və hind-avropalılar gəlməmişdən min illər öncə burda məskunlaşmışdılar. Onların İberiyadan Britaniya adasına gəlmiş ən qədim keltlər olduğu ehtimal olunur.

Jordan Britaniyada məskunlaşmış kaledon və silurların da adını qeyd edir. Şotlandiyanın qədim adlarından olan Kaledoniya kaledon tayfasının adından götürülmüşdür. Kaledon adını kelt adı ilə əlaqələndirirlər və burda yaşayan pikti, britt, skot tayfalarını ümumi adla kaledonlar adlandırırdılar. Eramızın 83-84-cü illərində Kaledoniyalıların başçısı Kalqak adaya hücum edən romalılara qarşı uzun müddət mübarizə aparmışdır və romalılar Şotlandiyanın şimalında yaşayan döyüşkən kaledonları itaət altına ala bilməmişdilər. Ölkəsini yadellilərdən daima qoruyan Kalqakın adı türkcə Qalkanq/Qalxan adındandır, sözün sonundakı sağır nun "nq" *k* şəklində tələffüz etdildiyindən ad Kalqak formasını almışdır. Jordan silurları rənginin tünd, saçlarının isə qıvrım olduğunu yazır. Silur etnonimi türklərin salur boy adı ilə ekvivalent təşkil edir.

Romalıların Yuli Sezarın başçılığı altında Britaniyanın işğalı asanlıqla başa gəlmədi. Sezar əvvəlcə Qalliyanı tabe etdi bə britlərə qarşı savaş uzun müddət davam etdi. Britlərin başçısı Karaktaq romalıların elçilərini öldürdü və xalqı romalılara qarşı səfərbər etdi. Cəsarətlə göstərdiyi müqavimətə baxmayaraq, Karaktaq güclü roma ordusu qarşısında məğlub oldu və əsir alınaraq Romaya göndərildi.

Keltlər və qallar eyni xalqa verilən müxtəlif adlardır. Romalılar keltləri qallar adlandırırdılar.

İngilis tarixçi və linqvist Jeyms Kennedi linqvistik dəlillərə əsaslanaraq İngiltərədə məskunlaşmış etnosların mənşəyini və yayılma coğrafiyasını araşdırmışdır. Keltlərin bir hissəsi Britaniyaya gedib orda Uels ölkəsində kimvr adı ilə tanındılar, digər hissəsi isə Fransanın induki Bretan vilayətində bretan adı ilə yaşamağa davam etdilər. Kimvrlərin qalan hissəsi isə Avropanın müxtəlif yerlərində məskunlaşmışdılar. Kimbirlər İngiltərənin bütün şərq ərazilərində məskunlaşaraq öz adlarını Kimberland şəklində bu ərazidə əbədiləşdirdilər. Kimvrlər bura özlərindən öncə gəlmiş qohum tayfaları olan bretanlarla qaynayıb qarışdılar. (Kennedy James. 1855, Səh. 163-164)



İngiltərədə məskunlaşan əhalinin müəyyən hissəsi Qalliyadan gəlmişdilər və Sezarın "kelti" adlandırdığı xalqa mənsub idilər. Avropa xalqlarının böyük əksəriyyəti mənşə etibarı ilə Romalıların qall adlandırdığı xalqa mənsub idilər.

Kennedi kelt sözünü kimvrlərin dilində "kelt", "meşə sakini" və geyim tərzlərinə görə "örtüklü adam" demək olduğunu yazır. Keltlərin druidlər (şamanlar) adlandırılan kahin zümrəsi kimvrlərə, yəni kimmerlərə mənsubdurlar. Kimvrlər öz allahlarını Oqam (Aqam) adlandırırdılar. Onların göy gurultusu allahlarını "Taran" adlanırdı. (Kennedy James, 1855, Səh. 171)

Bu ad türk dilində dağıtmaq mənasında olan "tara" sözündən ibarətdir və göy gurultusunun dağıdıcı gücünü özündə əks etdirir. Bu söz rus dilinə də taran etmək, dağıtmaq şəklində türk dilindən keçmişdir. (M.Kaşğari, C. III, 2006, Səh. 177)

Sezar qallarla mübarizə apardığı əsas ərazilərdən biri olan Alp dağlarının bir silsiləsinə Alauda adını vermişdi. Yəqin o bu sözü kimmerlərdən və ya qallardan öyrənmişdi. Alauda adı Türkcə Alatau və ya Aladağ adlarının dəyişik fonetik ifadə şəklidir. Sezar Alp dağlarında qallara qarşı müharibədə iştirak edən ordusunda muzdlulardan ibarət adı qallca "Alleman" olan xarici legion təşkil etmişdi. (Kennedy James, 2006. Səh. 171-172)

Almaniya adı da qalların dilində "Alleman" sözündən götürülmüşdür. "Alaman" sözü qədim türk dilində xalq və ordu mənası ilə yanaşı soyğunçu və basqınçı anlamında da işlədilirdi. (Этимологический словарь тюркских языков, 1997, Səh. 134)

Tarixi ədəbiyyatda kimvirlər germanların ən qədim və məhşur tayfalarından biri kimi qeyd olunur. Strabonun yazdığına görə yunanlar kimmerləri kimvir adlandırırdılar. O germanların Şimalda Okean sahilində (Baltik dənizi) Elba və Reyn çayları arasında yaşadıqlarını və onların ən məhşur tayfalarının kimvrlər və suqambrlar olduğunu yazır. Qetlər və daklar eyni dildə danışırlar. (Страбон География, Книга VII. 3. 12. 1994)

Qədim müəlliflər german və digər avropa xalqlarının etnogenezində kimvr/kimmer tayfalarının önəmli rol oynadıqlarını qeyd edirlər. Tatsit və digər müəlliflər Yutlandiya (Danimarka) yarımadasında kimvrlərin məskunlaşmış olduqları ərazinin Himmerland adlandırırlar ki, onlar sonra burdan cənub tərəfə hərəkət etmişlər. İgilis tarixçisi Manmutlu Qatfrid "Brittlərin tarixi" adlı əsərində kimvrlərin Britaniya adasında İndi Uels adlanan əyalətində yaşayan xalqın özəyini təşkil etdiklərini və bu ərazinin onların adı ilə Kimverland (Kimberland) adlandığını yazır. Plutarx kimvr adını qall dilində "soyğunçu-quldur" kimi izah edir. Kimvrlərin əslində skiflərlə savaşdan qaçaraq Avropada yerləşmiş kimmer/qimir türkləri olduqları tarixi həqiqətdir. (Гальфрид Манмутский. 1984, Səh. 173)

Kimvrlərin adı tarixi mənbələrdə almanca "kimbir", latınca "cimbri", yunanca "kimbroi" kimi oxşar adlar daşıyırdılar. Kimvrlərin etnik mənşəyi haqqında da müəyyən mübahisələr mövcuddur. İstər antik müəlliflər, istərsə də müasir tədqiqatçılar kimvrlərin german və kelt mənşəli olduqlarına dair qəti fikrə gələ bilməmişlər, çünki kimvrlər digər böyük tayfalarla birlikdə german adının və german tayfa birliyi anlayışının meydana çıxmasından daha öncələri bir etnos kimi mövcud olub tarix səhnəsinə qədəm qoymuşdular. Kimvr adlarının semantikası və etnoqrafik dəlillər də onların germanlara və ya keltlərə mənsubluğunu heç bir vəchlə isbat edə bilmir.

Alman tarixçisi Fayst Kimmerlərin vətəninin Yutland yarımadasındakı Himmerland adlı ərazidə olduğu haqqındakı iddiaları rədd edir və onun həqiqətə uyğun olmadığını bildrir. O Kimber adının bir german adı olmadığını yazır. (Siegmund Feist. 1927)

Tarixi mənbələrdən aydın olur ki, keltlər və qallar eyni kökdən olub hər ikisi avropalıların kimvr adlandırdıqları kimmerlərin iki qolunu təşkil edirlər. Tarixdən məlumdur ki, iskit/saklar Qara dəniz ətrafına gələrkən kimmerlər iskitlərə qarşı savaşmaq, yoxsa öz yurdlarını tərk etmək məsələsində razılığa gələ bilməyərək iki hissəyə bölünmüş və aralarında qanlı toqquşma baş vermişdir. Mümkündür ki, öz yurdlarında qalıb skiflərin hakimiyyətini qəbul edərək öz hökmdarlarına tabe olmayan hissə "qallanlar", yəni qall adını almışdılar.

Kimmerlərin iskit ağalığını qəbul etməyən və hökmdarları ilə birlikdə öz yurdlarını tərk edib Dunay çayını keçərək qərbə doğru gedən qolu kelt adını almışlar. Kimvir adlanan kimmerlər Britaniya tarixində önəmli yer tutur. Ölkənin böyük bir ərazisi bu xalqın adı ilə Kimberland adlanır. Kimberlər Britaniyanın Roma işğalına qarşı ən şiddətli müqavimət göstərən xalq olmuşdur.

G.Rauilson Kimmerlərin Roma dövrünün kimvirləri ilə eyni olduqlarını və böyük kelt irqinin bir parçasını təşkil etdiklərini yazır. "Britaniyaya gələn romalılar burdakı yerli əhalini kimberlər adlandırdılar, ölkəni isə Kimbriya. Onların varisləri hələ də Britaniyada yaşayırlar və özlərini kimvirlər adlandırmaqda davam edirlər, baxmayaraq ki, biz onları Uels adlandırırıq. Onların yaşadıqları dağlıq ərazi indi də Kimberland adlanır. Yaradılış kitabında Yafəsin övladı olan Qimri böyük kelt irqini təmsil edir. Maqoq və ya Qoq Qafqazda və Mesopotamiyada 30 ilə qədər üstün mövqedə olan Avropa iskitləridirlər". (G.Rawlinson, 1883, Səh. 171)

İgilis tarixçisi Manmutlu Qatfrid "Brittlərin tarixi" adlı əsərində kimvrlərin Britaniya adasında İndi Uels adlanan əyalətində yaşayan xalqın özəyini təşkil etdiklərini və bu ərazinin onların adı ilə Kimverland (Kimberland) adlandığını yazır. Plutarx kimvr adını qall dilində "soyğunçu-quldur" demək olduğunu yazır. Kimvrlərin əslində skiflərlə savaşdan qaçaraq Avropada yerləşmiş kimmer/qimir türkləri olduqları gerçək tarixi həqiqətdir.



İngiltərənin qədim adlarından biri də Albion adlanır. E.q. VI əsrdə ölkənin adı Britaniya deyil, Albon və ya Abaniya adlanırdı. Albion indiki Şotlandiya ərazisini və İrlandiyanın bir hissəsini əhatə edirdi. Tarixçilər bu adın mənasını "ağ" və "ölkə" kimi izah etməyə çalışsalar da, bu izah özünü doğrultmamışdır. Tarixi mənbələrə əsasən qədim dövrlərdə İspaniyanın şimalında Asturiya yaxınlığında Alp adlı xalqın yaşadığını və həmin xalqın köçərək Britaniya adasında məskunlaşdıqlarını yazırlar. Alp və ya Alb adı yüksəkliyi, ucalığı, dağlıq ərazini bildirir. Britaniyanın şimalında yerləşən Şotlandiya dağlıq, təpəlik ərazi olub daima dumanla əhatə olunurdu və bu onun "dumanlı Albion" adlanmasına səbəb olmuşdur. Zaqros dağlarında Albaniya, Azərbaycanın qədimdə dağlıq ərazisini təşkil edən Albaniya da dağlıq ərazi mənasını ifadə edirdi.

Alb və ya Alp adının digər bir izahı etnonimlə əlaqədardır. Bilim adamları Alpları bəşəriyyətin insan irqlərindən biri hesab edir və qədim turanlılarla əlaqələndirirlər.

Serviy Qonorat "Virgili haqqında qeydlər" adlı əsərində Sezarın itirilmiş "Efemerida" adlı əsərinə istinadən yazır ki, bir dəfə Yuli Sezar qallara əsir düşdüyü zaman onu tanıyan qall başçılarından biri onu bu vəziyyətdə görüb istehza və lağ edərcəsinə "Kaezer/Kaezer" deyə səslənmişdir. Əsir Sezarı mühafizə edən qall əsgərləri bu sözü Sezarı azad etmək mənasında başa düşərək onu sərbəst buraxmışlar. (Kennedy James. 1855, Səh. 169)

Avropanın bir çox tədqiqatçıları Sezarın əsirlikdən xilas edilməsinə səbəb olan və qall dilində Kaezer sözünə bənzəyən o sehirli sözü müəyyən etməyə çalışsalar da bir nəticə hasil olmamışdır. Çünki qall dilində olan bu sözün izahını türk dilində, deyil bununla heç bir əlaqəsi olmayan tamam başqa dillərdə axtarırdılar. Kaezer sözünə uyğun olan və qall əsgərlərini çaşdıraraq Sezarın əsirlikdən azad olmasına səbəb olan bu sehrli söz türkcə "gezer" sözü idi. Mənşəcə türk olan, lakin dünyanın qall kimi qəbul etdikləri əsgərlər Kaezer sözünü öz türk dillərində "gezer" kimi qəbul edərək Sezarı sərbəst buraxmışdılar.

Sezarın adı dilimizdə rus dilindən alınaraq yanlış şəkildə yazılır, əslində onun adı Keaser şəklindədir. Virgilinin əsərinə şərh yazan Serviy Qonorat Yuli Sezar adının mənasını izah edərək yazır ki, bu ad ona doğuş zamanı anasının qarnından cərrahi əməliyyatla, yəni kəsik açılaraq çıxarıldığı üçün verilmişdir. (Сервий Гонорат. 2001, Кн. I, stix 283, II Sezar)

Tibbi dildə bu söz "keseur kəsiyi", yəni kəsərək çıxarma adlanır. Aydın göründüyü kimi Keseur/Keser sözü təmiz türk dilindədir və kəsmək felindən yaranmışdır. Keser sözü sonradan fonetik dəyişikliyə uğrayaraq Sezar şəklini almışdır.

İngiltərənin və Şotlandiyanın bir çox çayları kimvrlərin dilində Quz (Guith) və "uz" adlanır. Qallar Uelsə İspaniyadan gəlib burda kimvrlərin qonşuluğunda yerləşmişdilər. Ölkənin ən böyük çayı olan Temza çayının adı kelt dilində Tame-uz,

digər böyük çay Qreyt-uz, Ti-uz. (Kennedi, Səh. 174; Mills A.D. Dictionaru of British. 2003)

Məlum olduğu kimi Quz, uz və Okuz türk dillərində çay anlamı daşıyır. Yerlərindən qovularaq Britaniyaya gəlmədən öncə kimvrlərin bir hissəsi Akvitaniyada yaşamışdılar və buna görə də kimvr və akvitan dilləri bir-birinə çox yaxındırlar.

İspaniyada yer adlarının sonundakı "tani" sözü bu bölgələrdə yaşayan əhalinin eyni etnik kökə malik olduqlarını göstərir. Bunlara misal olaraq Uksitan, Akvitani, Turdetani, Luzitani, Bastatani, Varetani, Edetani, Kontestani, Orretani, Kennedi bu toponimlərdəki "tan" və ya "tani" sonluğunun qall dilində olub ölkə və ya el mənası ifadə etdiyini yazır. (Kennedy James, 1855, Səh. 176)

Yuxarıda göstərilən yer adlarındakı "tan" sonluğu bu adlarının türk mənşəli olduqlarını sübut edir. Qədim türk dilində Divani lüğət-it Türk əsərində də qeyd olunduğu kimi *ta, tan* şəkilçisi yerlik halı bildirir və Akvitan, Turdetan, Uksitan və s. yer adları Akvi eli, Turd və ya Tur eli, Uksi eli anlamı daşıyır. (Mahmud Kaşğari, C V, 2006, Səh. 188, 189)

Akvitan dilində bir çox sözlər türk dilində də eyni mənanı daşımaqdadır. Bu dildə donuz mənasında işlədilən "tolos" sözü vardır ki, türk dilində olduğu kimi donuz anlamındadır.

İspaniyadan köçüb İrlandiyaya gələn qallar sonradan Britaniyanın şimalına Şotlandiyaya gedərək ora öz adlarını verdilər (Scotland-qotlar), ona görə də irlandlarla şotlandların dilləri Akvitaniyadakı qalların dili ilə eynidir. (Kennedi J, 1855, Səh. 177)

Şotland sözünün əsasını təşkil edən "Scots" sözü ilə skiflərin adalandırıldığı Scuite-Skythen sözləri eyni məna kəsb edir. Strabon da skif (Skythen) sözünü köçəri mənasında işlətmişdir. Bu söz sonradan kolt-kelt (Skots) şəklində sonrakı dövr köçəri xalqlara aid edilmişdir. Kelt, Skot, Qot adları mənşə etibarı ilə skiflərin yunanca Skuth adından fonetik dəyişikliyə uğramış variantlarıdır və bu addan törənmişlər. İngiltərədə keltlərin vətəni olan ərazi Şotlandiyadır. İrlandiyanın ilk sakinləri İspaniyadan gəlmişdilər. Sonra onlar İngiltərəyə keçərək ora öz adlarını vermişlər (Britaniya) və ölkənin şimalında məskunlaşaraq öz adları ilə oranı Şotland (Scotland-keltlərin vətəni) adlandırmışlar. (Kennedi James, 1855, Səh. 178)

Tarixçi Nonniyin İngiltərənin qədim əhalisi olan britlərin sak mənşəli olduqları və Skifiyadan gəldikləri haqqındakı qeydləri linqvistik dəlillərlə də öz təsdiqini tapır. Əslində, skif-saklar Avropanın geniş ərazilərinə yayılmışdılar. Britaniyanın digər qədim xalqı piktilər də anqlo-saks xronikalarında yazıldığına görə Skifiyadan gəlmişdilər. Gəmilərlə Skifiyadan gələn piktilər İrlandiyanın şimal hissəsində sahilə çıxdılar. Lakin o zaman İrlandiyanın sakinləri olan skotlar onları qəbul etmədilər və Britaniya adasına getməyi məsləhət gördülər və müqavimətə rast gəldikləri təqdirdə onlara hər cür yardım göstərəcəklərini vəd etdilər. Piktilər evlənmək üçün skotlardan qadın istədikdə onların qarşısında belə bir şərt qoyuldu ki, pikti kralları daima skot qadınları ilə evlənəcəklər. İrlandiyadan ayrılan piktilər Britaniya adasının şimal sahillərinə yan alaraq burda yerləşdilər. Britaniyanın cənubunda britlər məskunlaşmışdılar. (Англо-саксонские хроники. Церковная История. M. 2001, səh. 221)



Antik dövrlərdə və ilkin orta əsrlərdə Baltik dənizi Barbar və ya Skifiya dənizi adlanırdı. Ona görə ki, Qelmoldun da yazdığı kimi bu dəniz kəmər kimi iskit torpaqlarının ortasından zolaq kimi uzanırdı və iskit əraziləri ilə əhatə olunmuşdu. (Гельмольд. Кн. I, 1963, Səh. 34)

Beləliklə, piktilərin də Baltik ətrafındakı Skifiyadan gəldikləri və etnik kök baxımından iskit türkləri olduqları tarixi qaynaqlarda öz təsdiqini tapmışdır.

V əsrdən başlayaraq Almaniya ərazisindən Britaniya adalarına rəsmi tarixşünaslıqda german tayfaları adlanan Anqllar, Sakslar və Yutlar tədricən köçərək məskunlaşmış və İngilis xalqının etnik tərkibinin formalaşmasında önəmli rol oynamışdılar. Saksların yarısı Almaniya ərazisində qalmaqda davam etmişlər. Sakslar İngiltərədə Usseks, Esseks, Susseks və Middlseks vilayətlərinin əsas əhalisini təşkil edirdilər. Bir çox müəlliflər saksların sak və ya sarmat mənşəli olduqlarını tarixi faktlara əsasən sübut edirlər. Müasir alman araşdırıcı Şmoekel Saksların sarmat mənşəli olduqlarını və bu xalqın Almaniyanın və Britaniyanın etnik təşəkkülündə önəmli rol oynayaraq bir çox etnik birliklərin və hakimiyyət sülaləsinin özəyini oluşdurduqlarını yazır.

Avropa tarixində britlərin qəhrəmanı adlandırılan kral Artur qəhrəmanlıq simvolu kimi önəmli yer tutur. Kral Arturun şəxsiyyəti və etnik mənşəyi uzun illər ərzində müzakirə mövzusu olmuşdur.

Alman tarixçisi K.Fişerin yazdığına görə Sarmatların qoşunlarının bir qismi Roma tərəfindən Britaniya adasına göndərilmişdi. Sarmatların bu qoşununa Artur adlı sarmat sərkərdəsi başçılıq edirdi. Fransız alimi Jorj Dyumezil də Arturun türk olduğunu təsdiq edir. Arturun göydən yenən əfsanəvi "Ekskalibur" adlı qılıncı ilə əlaqədar bir əfsanə də Hun hökmdarı Atilla üçün söylənməkdədir. Əfsanəyə görə İrtış çayı sahilində ona xərac verməkdən imtina edən Çin Vey sülaləsi hökmdarını cəzalandırmaq üçün çayı keçməyə hazırlanırkən göydən bir qılınc düşərək yerə sancılmışdır. Onu yerdən çəkib çıxarmağa heç kimin gücü çatmamışdır. Onu yalnız Atilla çıxara bilmişdi, qılıncın parlaq ülgücündə "Əsgini yendir" sözü yazılmışdı, bu köhnə qayda və hakimiyyətləri yendirib dünyada yeni qayda və hakimiyyət başlatmaq haqqında göylərin ona əmri idi. (Karl Fischer, səh. 114)

Alman tarixçisi Uve Topper Kral Arturun əsl adının Arqus/Ərquz olduğunu yazır. O Arturun V əsrdə yaşamış tarixi şəxsiyyət kimi qəbul edir. İngilis tarixçisi Ceffri Eş də Arturu V əsrin tarixi şəxsiyyəti adlandırır. (Топпер Уве. Великий обман. Выдуманная история Европы. səh. 68)

# XXXII FƏSİL. Skandinavlar

Skandinaviya etnik ərazisinə Skandinav yarımadası ilə bərabər Danimarkanın yerləşdiyi Yutlandiya yarımadası və İslandiya adası da daxildir. Orta neolit dövrünün sonunda e.q. II minillikdən başlayaraq Skandinaviya cənub tərəfdən baltalarla silahlanmış köçəri maldar tayfalar daxil olaraq yerli tayfaları sıxışdırmışlar. Skandinav xalqlarının ilkin tarixləri saqa adlandırdıqları milli əfsanə və rəvayətlərində əks olunmuşdur. Skandinav saqaları əslində isveçlilərin etnik kökünü təşkil edən şimali german tayfalarının tarixi hekayətləridir. Bu saqalar yalnız İsveçə aid olmayıb, həmçinin Danimarka, İslandiya və Norveçi də əhatə edir.

Saqalar German və Skandinav xalqlarının yalnız mifik hekayətləri mahiyyəti daşımayıb bir çox tarixi hadisələri əfsanələşmiş şəkildə özündə əks etdirir. Saqalarda həmçinin dünyanın bir çox qədim xalqları haqqında etnocoğrafi məlumatlar da öz əksini tapıb. Bu saqaların çoxunun Snorri Sturluson kimi konkret müəllifləri olduğu kimi bəziləri naməlum müəlliflər tərəfindən qələmə alınmışdır. Saqalar German, İsveç, Danimarka və İslandiya xalqlarının etnik mənşəyi və dini inancları haqqında dəyərli məlumatlar verirlər.

Naməlum müəllifin "Skyoldunqlar haqqında saqa" adlı əsərində deyilir ki, Asiyadan gələn Odin yerli xalqı tabe edərək Avropanın şimalındakı Saksoniya, Danimarka və İsveçdə hökmranlıq etməyə başladı. Bu zaman o Danimarkanı oğlu Skyolda, Sveçi (İsveç) isə digər oğlu İnqona verdi. Sveç (İsveç) adı Odinin gəldiyi Meotid bataqlığından şimalda yerləşən qədim skandinavların Böyük və Soyuq Svitod adlandırdıqları yerin adından götürülmüşdür. (Стурлусон С. Младшая Эдда. 1970. Səh. 254)

XII əsrdə yaşamış İsland şairi, tarixçisi və siyasət adamı Snorri Sturluson bir çox əsərlərin, o cümlədən "Kiçik Edda" adlı tarixi əsərin müəllifidir. Sturlusson öz əsərlərində As adlandırdığı türklərin öz vətənləri Asalandı və Türklandı tərk edərək şimal ərazilərinə getdiklərini və Skandinaviya ölkələrini məskunlaşdırdıqlarını nəql edir. Onun müəllifi olduğu "İnqlinqlər haqqında saqa" da yazılmışdır: "Asiyanın Tanakvisladan şərqdəki torpaqları Asaland adlanır. Bu ölkənin baş şəhəri isə Asqarddır. Şəhərin xyodvinqi Odin adlanırdı. Odin böyük döyüşçü idi və çox səyahət edərək çoxlu dövlətlər ələ keçirmişdi. Böyük dağ silsiləsi şimali-şərqdən cənubi-qərbə doğru uzanır və böyük Svitodu digər ölkələrdən ayırır. Bu dağlardan cənubda Türkland uzaq deyil. Orda Odinin böyük mülkləri var idi. O zamanlarda Roma xyodvinqləri bütün yer üzərinə yürüşlər edirdilər və bütün xalqları özlərinə tabe edirdilər. Odin ovsunçu və kahin olduğu üçün o bilirdi ki, onun nəsli yerin şimalında yaşayacaqdır. O qardaşları Veni və Vilini Asqarda hökmdar təyin etdi və özü digər xalqlarla birlikdə yola düzəldi. O əvvəlcə qərbə Qardarikiyə gəldi, sonra cənuba Sakslanda getdi. O Sakslandda çoxlu torpaq ələ keçirdi



və öz oğullarını ora hömkdar təyin etdi. Sonra o şimala, dəniz tərəfə getdi və orda bir adada məskən saldı. İndi həmin ada Odinsey adlanır". (Снорри Стурлусон. Edda. Мельникова Е.А. 1986. Səh. 65)

Sturluson "Kiçik Edda" əsərində Odin və qardaşlarının Aslandda Asqard adlı şəhər saldıqlarını və onun bu şəhəri Troya adlandırdığını yazır. Sturlusonun Svitodu (Skifiyanı) digər ölkələrdən ayıran şimali-şərqdən cənubi qərbə uzanan dağ silsiləsi Ural və Qafqaz dağları ola bilər ki, hər ikisi bu coğrafiyaya uyğun gəlir. Odinin vətəni olan Asland və ya Türkland bu dağın cənubunda yerləşir və bu ərazi Qafqazın cənubunda Azərbaycana uyğun gəlir. Odin və arvadının peyğəmbərlik qabiliyyəti vardı və onlara əyan olmuşdu ki, onun adı şimal ərazilərində məhşur olacaq və bütün kronunqlardan daha şöhrətli olacaq. Ona görə də, onlar Türklərin ölkəsini tərk edərək yola düşməyi qərara aldılar. Odinin gəldiyi Asaland qədim türk tayfası olan asların ölkəsidir. Asiya adı da asların adından götürülmüşdür. Qədim Assuriya dövlətinin adı da ehtimal ki, asların adı ilə əlaqədardır.

Aslar şimala doğru hərəkət etdikləri zaman ilk rast gəldikləri yer Yutland yarımadasıdır. Odin Dan adlı oğlunu burda hökmdar təyin etdi və xalq da onun adı ilə danlar adlanır ki, ölkənin Danimarka adı burdan götürülmüşdür. (Дроздов Ю. Н. 2011, Səh. 142)

Sturluson asların Almaniyaya-Sakslanda şimaldan daxil olduqlarını yazır ki, bu yalnız Baltik dənizi tərəfdən ola bilərdi. Saqalardan da məlum olduğu kimi asları Türklanddan və ya Asalanddan Skandinaviyaya Odin gətirmiş və burdakı ilk hakimiyyət sülaləsinin əsasını qoymuşdu. Aslar burda artıb çoxaldılar, müxtəlif tayfalara bölünərək çoxsaylı xalqları meydana gətirdilər. As etnonim adı tədricən istifadədən çıxsa da aslar ilahiləşdirildi və onlar haqqındakı təsəvvür və xatirələr saqalar şəklində insanların yaddaşında qorunub saxlandı. Skandinav xalqları Asları özlərinin tanrıları kimi qəbul etdilər və ulu ata əcdadları olan Odini baş tanrı kimi tanıdılar.

Abbat Mak Qeoqeqan "İrland tarixi" əsərində Bibliyadakı qimirri/kimmerləri Qərbi Avropa xalqlarının ulu əcdadı hesab edir. Aser tayfaları e.q. 90-cı ildə Qafqazdan Baltik dənizi sahillərinə və ordan İsveçə getmişlər. Vanir tayfaları da onlarla birlikdə hərəkət etmişlər. Aserlər german tayfaları olan Quter tayfaları ilə ticarət edirdilər. Romalılar Quter tayfalarını Qot, Aser tayfalarını Svear, Vanir tayfalarını Danir və ya Danlar adlandırırdılar. Svear və Dan tayfaları Baltikin digər tayfalarından fərqli olaraq daha uca boylu və ağ rəngli idilər. (Christian Churches of Good. Sohns of Japheth: 2008)

Müasir dövrün amerikan dil tarixçisi Karl Bekker "Dillərin təkamülü haqqında müasir nəzəriyyələr" adlı əsərində Odinin Asiya mənşəli olduğunu və adının türk dilində "Od" sözü ilə əlaqədar olduğunu yazır. Odin öz gəlişi ilə şimaldakı xalqların həyat təcrübəsinə Orta Asiyadan-Asqarddan gətirdiyi yeniliklər daxil etmiş-

dir. Gəldiyi Türklanddan özü ilə metalçılıq üzrə təcrübəsini də İsveçə gətirən Odin adı "od" və metalçılıqla əlaqədardır". ( Carl J. Becker. 2005, Səh. 62)

"Skyeldunqlar haqqındakı saqa" adlı əsərdə də qeyd olunduğu kimi Danimarkanın ilk hökmdarı Odinin oğlu Skyeld olmuşdur. Tarixi mənbələrdə Skandinav adı Skandza şəklində qeyd olunur. Skandinaviya adı ilk dəfə Böyük Plininin "Təbiət tarixi" əsərində "Scaduniauia" formasında çəkilir. VI əsr Qot tarixçisi Yordan "Qotların mənşəyi və əməlləri" adlı əsərində qotların vətənin şimalda böyük dənizdə olan Skandza adası olduğunu yazır.

Bütün bu tarixi linqvistik faktlardan belə bir nəticə çıxarmaq olar ki, Skandinav, Skandza və Skyeld adlarının kökünü "sak/saq" etnonimi təşkil edir. İsveç tarix elminin atası hesab olunan XVIII əsrdə yaşamış prof. Sven Laqebrinq məhşur "Svea rikes historia" adlı fundamental əsərində Türk mədəniyyətinin İsveçlilərin üzərində önəmli təsirə malik olduğunu etiraf edir.

Müasir tarix elmi suev tayfasını isveç xalqının etnik kökünü təşkil edən etnik qrup adlandırır. Tasit, Jordan və Bremenli Adam bu tayfanın adını sueb, suev və svear şəklində qeyd edirlər. Bu eyni suev/sueb adının müxtəlif şəkildə ifadəsindən ibarətdir. İsveç (Svealand) adı bu tayfanın adından götürülmüşdür. İsveçlərin etnogenezində mühüm rol oynayan digər bir tayfa sveonlardır. İsveçin cənubunda, dəniz sahilində məskunlaşan sveonlar gəmiqayırma işində məharətli olan dənizçi tayfa kimi mükəmməl bir donanmaya malik idilər və ətraf bölgələrə tez-tez basqınlar edərək Baltik ətrafının şərqində və qonşu ərazilərdə üstün mövqeyə malik olmuşdular. Svearları bəzən Roslar da adlandırırlar. Qəribə görünən odur ki, bu rosların hökmdarı xaqan ünvanını daşıyırdı. Tarixi ədəbiyyatda vikinq və ya normanlar adlandırılan svear/roslar mahir dənizçilər olaraq müxtəlif ölkələrə basqınlar edir, qənimətlər ələ keçirirdilər. Onlar hətta Xəzər dənizi vasitəsilə Azərbaycana da basqınçı yürüşlər etmişdilər.

Gec antik dövr və ilkin orta əsr yazılı mənbələrində sveonların adı tədricən rus (ros) etnonimi ilə əvəz olunur. Ros/rus tayfası haqqında ilk məlumat Bertin annallarında bəhs olunur. Bizans imperatoru Feofil 839-cu ildə Frankların kralı Lyudovikin yanına bir elçi heyəti göndərmişdir. Bu münasibətlə kral dəftərxanasında aparılan qeyddə yazılmışdır ki, imperatorun göndərdiyi elçi heyətinin tərkibindəki bir neçə şəxs onların xalqının digər xalqlar tərəfindən Ros (Rhos), krallarının isə Xaqan adlandırıldıqlarını söyləmişlər. Əslində, elçilərin tərkibindəki həmin şəxslər İsveçin Saam adasında yaşayan sveonlar olmuşlar. Bu sveonlar İsveçin digər sveon tayfalarından fərqli olaraq ros/rus adını daşıyırdılar. Rus adı daşıyan və slavyan kimi qələmə verilən tayfaların əslində skandinavlı sveonlar olduğu ərəb mənbələri tərəfindən də təsdiq olunmaqdadır. Ərəb müəllifi Əl Yaqut 844-cü ildə məcusi (maqoq) rus tayfasının Kordova çayı vasitəsilə İspaniyanın Sevilya



şəhərinə basqın edərək çoxlu əsir aldıqları, soyğunçuluq edərək qənimət ələ keçirdikləri və insan öldürdükləri haqqında bəhs edir. (Бертинские Анналы. 1989)

İskit\Saklar kimi hər hansı bir mülkiyyətə malik olmayan rusların əsas dolanışıq mənbəyini Samur və digər qiymətli heyvan xəzlərinin satışından əldə edilən gəlir təşkil edirdi. Al Xanafinin yazdığına görə ruslar türklərdən ibarət böyük xalqdır. Onlar gölün ortasında adada yaşayırlar və su qala kimi onları düşmənlərdən qoruyur. Sarı misi onlar Hindistana və Çinə aparırlar. Bu xalqın saçları sarışın, dərisi açıq rəngli və hündür boyludurlar. Ərəb tarixçilərinin rusların məskunlaşdıqları dəniz ortasındakı ada Tasitin dəniz ortasında yaşayan sveonlar haqqında verdiyi məlumatlara uyğun gəlir və isveç svion tayfasının ərəblərin bəhs etdikləri türk mənşəli ruslarla eyni olduqları heç bir şübhəyə yer qoymur. Lakin təxminən IX-X əsrdən başlayaraq rus etnonimi Baltik ətrafı regionla əlaqədar yazılı mənbələrdə artıq istifadə olunmur. Rus adının yazılı mənbələrdən yox olması iki səbəbdən baş verə bilər ya onların məskunlaşdıqları ərazi başqa tayfalar tərəfindən işğal olunmuş, ya da onlar başqa yerlərə köçmüşlər. Qədim zamanlardan etibarən Saaremaa adasında yaşayan svean-rusların başqa yerə köçdükləri haqqındakı variant daha doğru görünür. (Drozdov, səh. 174)

Norveçin dünya şöhrətli səyyahı və tədqiqatçısı Tur Heyerdal Skandinaviyada məskunlaşmış Odinin və as-türklərin izlərini aşkar etmək üçün 2001-ci ildə Azov dənizi sahilindəki Azov qəsəbəsində arxeoloji qazıntı işləri aparmış və bu məqsədlə Azərbaycanda da olmuşdur. O bu ərazilərdə mövcud olan yer adları ilə Odin əfsanəsində əks olunmuş adlar uyğunluqlar aşkar etmişdir. O Azov adını "As-hof" şəklidə Aslarla əlaqələndirmişdir. Heyerdal Odin adını Azərbaycandakı Udinlərlə, Asər adını Azərbaycanla, Tor adını türklərlə əlaqələndirmşdir.

Bütün bu tarixi məlumatları nəzərə alaraq Skandinaviyanın qədim dövrdən etibarən türkdilli As tayfaları tərəfindən məskunlaşdığı nəticəsinə gəlmək olar.

İsveçli professor Tor Georg Yakobsen genetik tədqiqatlar zamanı Skandinav kişilərinin 4% genlərində türk xalqlarına xas Q qaploqrupunun aşkar edildiyini və bunun hunlarla bağlı olduğunu yazır. Onun araşdırmasına görə Hunların Atillanın rəhbərliyi altında Şərqi Avropada hökmranlığı zamanı sakandinav-german xalqları olan Herul, Qot, Vandal, Anql, Sakson, Lanqobard və Burqund tayfalarını da özlərinə tabe etmiş və onlardan öz rəhbərlikləri altında ordu dəstələri təşkil etmişlər. Hun dövləti dağıldıqdan sonra həmin xalqlardan olan əsgərlər hunların böyük qismi ilə Skandinaviyaya gəlib yerləşmiş və yerli əhali ilə qarışmışlar. Beləliklə, Skandinav xalqlarının 4% özlərində Atillanın və hunların genlərini daşımaqdadırlar. Hunların hakimiyyəti altında olan digər bir german tayfası da Burqundlar olmuşlar. Burqundlar sonradan hunlarla birlikdə Fransanın şərqində Burqundiya krallığında məskunlaşmışlar. Burqundlar da hunlarla qaynayıb qarışmış german xalqıdır. (Torkhid G. Yakobsen. Never Mary a Swede. 8.01.2013)

# XXXIII FƏSİL. İberlər və İspaniyanın Turanlı xalqları

İlkin tarixi dövrlərdən başlayaraq Avropaya doğru baş vermiş turanlı axınlarının son məntəqəsini İberiya yarımadası, yəni indiki İspaniya təşkil etmişdir. Bu axınların bir qismi müxtəlif təsirlərin nəticəsində sonralar Britaniya adalarına doğru yönəlmişdir. İrlandiyanın qədim annallarında yazıldığına görə e.q. 261-ci ildə İspaniyanın Biskay körfəzindən silur tayfası Britaniyaya köçərək orda briqlər adı ilə məskunlaşmışlar. (Fergusson J. 1872. Səh. 442)

İspaniyada məskunlaşaraq burda uyqarlığın ilkin bünövrəsini turanlılar qoymuşdular. Avropaya bir çox mədəniyyət ünsürlərinin o cümlədən metalçılıq ənənəsinin, cilalanmış daşın, misin və tuncun turanlılar tərəfindən gətirildiyini təsdiq edən məhşur tarixçi Jak Morqan "Tarixəqədərki bəşəriyyət" adlı əsərində yazır: "Rusiya çöllərindən keçərək Asiyadan gələn dalğa cilalanmış daşın, misin və tuncun emalını Atlantik okeanının qumsallıqlarına qədər gətirmişdir. Bu dalğanın təsiri əsrlər boyunca liqurlara qədər gəlib çatmışdır, bundan sonra onun Hallştat (Avstriya Alpları) mədəniyyətində dəmir emalını formalaşdırdığı izlərinə rast gəlirik. Sonra onlar Keltlər üzərindən Dunay vadisinə keçmiş, ordan Ukrayna, Qafqaz, Xəzər dənizi və İranda da izlər buraxmışdır. Getdikcə şərqə doğru uzanan bu izlərin uzaq yerlərdə məskunlaşmış o insanlara aid olduğu məlum olmuşdur. ( Jacques de Morgan, 1921, Səh. 316)

Yuxarıdakı bölümlərdə bəhs etdiyimiz kimi Avropanın, o cümlədən də İspaniyanın ən qədim sakinləri XVIII-XIX əsrin bir çox tarixçi və etnoloqlarının turanlılar adlandırdıqları liqurlar və iberlər olmuşlar. Tarixin qədim dövrlərində İspaniyada əhalinin başlıca etnosunu iberlər təşkil etdiyindən ölkənin adı İberiya adlanmış və hal-hazırda da coğrafi termin olaraq İberiya yarımadası adlanır.

İngilis tarixçisi Mayor Konder Turan irqinin Avropada buraxdığı tarixi izlərdən bəhs edərək yazırdı ki, Asiyadan gələn turanlıların izlərini biz uzaq İspaniyanın Prineyindəki iberlərdə, basklarda görə bilirik. Bu izləri Tirolda və İtaliyanın quzeyindəki sabinlərin və toskanaların arasında da görürük. (Conder R. 1890, Səh. 43)

İngilis tarixçisi və etnoloqu Robert Ellis iberləri turanlıların quzey qolu, sumer-akkadları isə cənub qolu hesab edir və hər ikisini də iskit irqinə aid edir. İskitlərin vətəni İmaus dağının (Pamir və Tyanşan) batısındakı Yarkənd ölkəsi olmuş və burdan dünyaya yayılmışlar. İberlər isə İmaus dağı ilə Xəzər dənizi arasındakı ölkədə məskən salmışdılar. Mərkəzi Asiya ilə batı Asiya arasında yerləşən Qobi səhrası güneydə yaşayan turanlılarla gələcəkdə Amerikanın yerli əhalisi olacaq quzeydə yaşayan turanlıları bir-birindən ayırırdı. (R.Ellis. 1875, Səh. 153)

Ellis tarixin ilkin dövrlərində turanlılar tərəfindən məskunlaşdırılan dünyanın



etnocoğrafiyasının geniş hüdudlarını belə müəyyən edir: "Turan irqinin bir qolu olan İberlər öz yurdlarını tərk edərək Avropada və Kiçik Asiyada məskunlaşdılar. Əsas qolu təşkil edən Turanlılar isə Asiyanın güneyində böyük çaylar boyunca hərəkət edərək Çini, Hindistanı və Cənubi-Şərqi Asiyanı işğal etdilər. Turanlı iskitlərin başqa bir qolu Asiyanın quzeyində Sibirə yayıldılar, digər bir qolu isə ordan Amerikaya doğru hərəkət edərək oranı öz məskənlərinə çevirdilər. Arilər və turanlı iskitlər bəşər tarixinin erkən dövrlərində İmaus dağının ətrafında birlikdə yaşayaraq sıx təmasda olmuşdular. Arilər İmaus dağındakı öz ilkin yurdlarından kelt axınları şəklində hərəkət etdilər. Onlar Xəzər dənizinin və Qara dənizin şimalından keçərək Avropaya doğru istiqamət götürərək burda daha qədim zamanlarda məskunlaşan turanlıları şimala doğru, turanlıların digər qolu olan iberləri isə cənuba doğru sıxışdırdılar. İberlər Avropanın cənubunda iberlər, toskanalılar, liqurlar adı altıda məskunlaşdılar. Ellis Cənubi Avropa xalqlarının arilərə qədərki dillərinin iber dili olduğunu, Bask və likiya dillərini də iber dili adlandırır və hamısını ümumi iskit dili ailəsinə aid edir. (R.Ellis, 1875, Səh. 155)

İspaniyanın arilərə qədərki əhalisi olan turanlı iberlərin təşəkkülü və yayılma tarixini, onların Peru və Boliviyanın yerli əhalisi olan keçua xalqı ilə tarixi əlaqəsini və dilləri arsındakı paralelləri araşdıran Ellis "Peru Skifiyası və Perunun Keçua dili" adlı əsərində keçua xalqı, qədim iberlər və turanlı türklər arasındakı qohumluq əlaqələrini elmi faktlarla sübut etmişdir. O Qrinlandiya yerlilərinin dilini turanlıların dili ilə Amerika yerlilərinin dili arasında keçid mərhələsini təşkil etdiyini yazır. İstər rəqəmlərdə olsun, istər sə də şəxs əvəzliklərində Amerikanın keçua xalqının dilində, turan və iber dillərində yaxın paralellik mövcuddur. Lakin ari və sami dilləri ilə ələqədar bu paralellik mövcud deyil. (Robert Ellis, 1875, Səh155)

E.Norris də iberləri və baskları iskitlərə aid edir. "Sak-iskitlər Suriya üzərindən Kiprə, Siciliyaya və Fransanın cənubu və İberiyaya (İspaniya) yayılmışlar, müasir bask dili iberlərin sak-iskit mənşəyini sübut edir. Kiprdə, Siciliyada, Numidiyada və İspaniyada aşkar edilən kelt-iber mixi yazı nümunələrinin hamısı qədim iskitlərə məxsusdur. Avropadakı böyük sak-iskit axınının kökünü tirren-pelasqlar, yəni etruskların təşkil etdiyini, makedoniyalılar, epirlər və albanlar, hellen-yunanlılar istisna olmaqla bütün İlliriya xalqlarının sak-iskitlərə mənsub olduqlarını qeyd edir". (Norris E. 1852, Səh. 234)

Antropoloq G.Sergi iberlərin kəllə sümüklərini tədqiq edərək onları pelasqlara aid edir. O hesab edir ki, yumrubaşlı braxikefal iberlər asiya tipinə aiddirlər və onlar neolit dövrünün sonu və metal dövrünün başlanğıcında Asiyadan hərəkət edərək Rusiyanın cənubundan keçməklə Avropanın mərkəzinə, Aralıq dənizi regionuna və İberiya yarımadasına yayılmışlar. (G.Sergi. 1901, Səh. 160)

İber etnonimini Eber çayı, Eber dağ silsiləsi və İberiya yarımadası adında mövcuddur. İber adı ispan tarixi ədəbiyyatında finikiyalıların dilində "dünyanın axı-

rı" mənası daşıyan ibrim sözündən yarandığı haqqında fikirlər mövcuddur. Bu söz etnonimin dəqiq izahını verə bilmir. (Cenac Moncaut, T. II, 1875, Səh. 27)

Fikrimizə görə İber etnoniminin kökünü Sumerin Ta-ibira şəhər adı təşkil edir. Ta-İbira Sumerdə metalçılığın mərkəzi idi. Bəzi müəlliflər iberlərin kökünü tufan nəticəsində həmin şəhərdən köçüb gələn insanların təşkil etdiyi fikrini irəli sürürlər. Sumer dilinin dialektində Tibira sözü "timir", yəni metal anlamında dəmir kimi ifadə olunur. Sibirdə ən qədim zamanlardan Sibir-İbir yer adı mövcud olmuşdur. Radlov Sibir türklərində, tatar və qırğızlarda tubal, tibir və temir boylarının mövcud olduğunu yazır. Bir çox müəlliflər Təbriz və Təbəristan adlarını da iber/tiber adı ilə əlaqələndrirlər.

Müasir araşdırıcı Mixail Zilberman İber adının maraqlı etimologiyasını təqdim edir. O da İber adının sumerlərin Ki-ibiri tayfasının adından götürüldüyünü və mənasının ibirlərin yeri, ölkəsi demək olduğunu yazır. Ki sumer dilində yer və ölkə deməkdir. Sumerdə Ti-İber şəhər dövləti mövcud idi ki, bura metalçıların şəhəri idi. Ərəblərin İbrahim adlandırdıqları Abram adı sumerlilərin İber/Eber adının yəhudiləşdirilmiş fonetik şəklidir. Qədim ivrit mətnlərində Abramın adı "Ae-iberam" şəklində yazılmışdır. Mənası Eber xalqı deməkdir. İosif Flaviy Eber adının mənasını "keçid, keçid yeri" kimi izah edir. "Ebir" sözü türk dilində də eynilə "yan keçmək, yan keçid" anlamı daşıyır. Sumerin Kiş şəhərinin e.q. 2500-2400-cü illərdə II sülaləsinin hökmdarlarından birinin adı İber/Eber idi. (Зильберман М. О., 2016)

Qədim İberiya müxtəlif metal mədənləri ilə zəngin olmuş və dəmir və digər metal emalı işi burda yüksək inkişaf etmişdir. İberiya Aralıq dənizi limanları vasitəsilə Karfagen, Finikiya, Yunanıstanla metal məmulatlarının geniş ticarət əlaqələrinə malik idi.

İspaniyanın bir çox qədim tarixçiləri yəhudi tarixçisi İosif Flaviyə əsaslanaraq iberləri Yafəsin oğlu Tubalın törəmələri hesab edirlər. Müasir tarixçilərin fikrinə görə geniş bir ərazidə yayılmış iberlər e.q. XV əsrdə Afrikanın şimalını, İspaniyanı, Fransanın cənubunu, İtaliyanın şimalını, Korsikanı, Siciliyanı əhatə edən böyük bir iber-liviya imperiyası yaratmışdılar. Bu imperiya Aralıq dənizində ağalıq uğrunda misirlilər və finikiyalılarla mübarizə aparırdılar. Kiçik Asiyada iberlərə qohum xalq olan xettlər bu mübarizədə onların müttəfiqi idilər. E.q. XII-XI əsrlərdə bu mübarizədə məğlub olan iberlərin imperiyası süquta uğradı və kiçik dövlətlərə parçalandı. İberlər İspaniyada onlara qohum xalq olan liqurlarla qonşuluqda yaşayırdılar. (Рафаель Альтамира-и-Кревеа. T1, 1951)

İspaniyanın şimalında Altamir adlı dağ çəmənliyi ərazisindəki mağarada qədim daş-paleolit dövrünə aid çoxlu petroqlif qaya rəsmləri aşkar edilmişdir. Altamir adının mənasını hind-avropa dillərində izah etməyə uğursuz cəhdlər olmuşdur. Bu sözü hind-avropa dilllərinə əsasən "mira" hidronimi və "alt" ön şəkilçisindən ibarət heç bir anlam daşımayan sözbirləşməsi kimi izah edirlər.



Lakin bu sözün türk dilində izahı mümkün olan qədim turanlı iberlərdən qalma sözdür. Altemir sözünün mənası türk dilində Al aşağı deməkdir, Temir isə dəmir deməkdir. Sözün mənası dəmir mədəni, yəni altda, aşağıda olan dəmir mənasındadır. (ДТС, Səh. 32, 551)

Tiber sözü sumer dilində metalla əlaqədar sözdür və fonetik dəyişikliyə uğrayaraq türk dillərinə temir/dəmir şəklində keçmişdir. İberlərin yaşadıqları bütün ərazilər metal emalı və metalçılıqla əlaqədar olmuşdur. Qədim İberiya ərazisi Avropada dəmirlə və digər metalla ən zəngin ərazi idi. Burda çıxarılıb istehsal olunan müxtəlif metal növləri finikiyalılar, yunanlılar vasitəsilə digər ölkələrə aparılırdı. Altamir yer adları İspaniyada geniş yayıldığı kimi bu toponim ispanların məskunlaşdıqları Latın Amerikası ölkələrində də geniş yayılmışdır.

Tatar tarixçi Baxşi İman İber adının metalla zəngin olan ölkələrə və dağlara bulqar, yəni qədim türk dilində verilən ad olduğunu yazır. Bu cür metalla zəngin dağlar Qafqazda, Uralda, Altayda və Prineydə mövcud idi və hamısı İber adlanırdı. Sibirdə Pur çayı da İber çayı adlanır. (*Бахши Иман. Джагфар тарихи.* 1993)

Böyük Plininin (e.q. 77-ci il) yazdığına görə iberlər 500 tayfadan ibarət olmuşlar. Deməli, onların dili də çoxlu ləhcələrə malik olmuşdur. Strabonun yazdığına görə mədəni xalq olan iberlərin özlərinə məxsus əlifbaları olmuşdur və onların əfsanələrində deyildiyinə görə onlar İspaniyaya 6 min il öncə gəlmişlər. İberlərin İspaniyaya Aralıq dənizinin doğusundan və Afrikanın quzeyindən gəldikləri haqqında iki müxtəlif görüş mövcuddur. Lakin onların Aralıq dənizinin doğusundan gəldikləri haqqındakı fikirlər daha üstünlüyə malikdir.

Məlum olduğuna görə iberlərin bir hissəsi İspaniyadan e.q. 2000-ci ildə Britaniya adasına gedərək məskunlaşmış və ordan da İrlandiyaya yayılmışlar ki, İrlandiyanın ən qədim adı da Hibernia olmuşdur. İberlərin digər bir hissəsi isə Fransanın batısında Bretanın güney sahillərində Kuiberiaon adlı yarımadada yerləşmişlər. İberlərə qohum xalq olan piktalar da İspaniyadan Britaniya adasına, Şotlandiyaya gedib yerləşmişlər. Bir çox müəlliflər tarixi, arxeoloji, linqvistik və etnoloji dəlillərə əsaslanaraq İberlərin və onlara qohum xalq olan baskların turanlı mənşəyə malik olduqları fikrini irəli sürürlər. Genetik araşdırmalar turan irqinə mənsubluğu təsdiq edilmiş R1b1 qaploqrupunun şotlandlarda və uelslərdə 80-90%, basklarda 92% və irlandlarda 95-96% olduğunu göstərir.

Linqvistik araşdırmalar nəticəsində sumer-iber-ingilis-şotland dillərində eyni mənalı çoxlu sözlər aşkar edilmişdir. Kelt əfsanəsinə görə İberiya yarımadasından Britaniya adasına köçən ilk tayfanın başçısının adı Eber olmuşdur. İberlərdə sumer və türklərdə olduğu kimi qəbilə-tayfa qruluşu önəm daşıyırdı. Onlar böyük ailə icması şəklində yaşayırdılar. Sumerdə olduğu kimi iberlərdə də türklərin el

məclisləri-kenəş formasında icma məclisləri fəaliyyət göstərirdi. İcma ağsaqqalları şurası önəmli rol oynayırdı.

İspan alimi Rodriqes Ramos və digərləri İber dili ilə bask dilinin eyni mənşəyə malik olduğu fikrini irəli sürürlər. Basklarla iberlərin etnik mənşə baxımından da eyni kökə malik olduqları genetik və etnoqrafik dəlillərlə isbat olunmuşdur. İber, bask və sumer dilləri ümumi aqqlütativ qrululuşa malik hecalı dilərdir. Baskların ölkəsi İspaniyada 4 bölgədən, Fransada isə 3 bölgədən ibarətdir. Fransadakı Bask bölgələrindən biri Suberoa adlanır ki, bu Subar adı ilə eynilik təşkil edir.

Baskların yaradılış əfsanəsinə görə onlar İspaniyaya doğudan gəlmişlər və ulu əcdadları Suqaar olmuşdur. "Suq" Sumer dilində qayıtmaq və ya qaytarmaq, "aar" isə sumer dilində tərifləmək-öymək deməkdir, beləliklə, Suqaar sözünün mənası sumercə "nüfuz qazanmış" və ya nüfuzlu deməkdir.

Tarixçi və assuroloq Zilbermana görə Bask ölkəsinin ilk hökmdarları Suqarın törəməsi Xuan və ya Kian olmuşdur. Sumer dilində Ki dost deməkdir, An isə göyüzü tanrısıdır. Kian sözünün Sumercə mənası Tanrının dostu deməkdir. (Зильберман М. О Шумеро-аккадском вкладе в этногенезе западных иберов)

Ki-an sözünün sumer dilində digər bir izahı isə "yer və göy" birliyi deməkdir. Ki-an sözünün yer və göy birləşməsi anlamı İspaniyanın timsalında özünü doğruldur. Ona görə ki, qədim insanların təsəvvüründə İspaniya və ya qədim adı ilə İberiya dünyanın sonu, yer ilə göyün birləşdiyi yer hesab olunurdu.

İberlərin İspaniyaya haradan gəldikləri haqqında fərqli fikirlər mövcuddur. Rəsmi tarixşünaslıqda onların Aralıq dənizinin şərqindən və ya Afrikanın şimalından gəldikləri haqqında fərziyyələr irəli sürülür. İberlərin İspaniyaya gəlmədən öncə Aralıq dənizinin şərq sahillərində çox qədim tayfa olan liqurlarla eyni substrat təşkil etdiklərini və onların liqurların bir hissəsi ilə bərabər İspaniyaya gəlib yerləşdikləri ehtimal olunur. Liqur dili də aqqlyütativ dil ailəsinə aiddir. İberlər metal, o cümlədən bürünc emalı səriştəsinə və əkinçilik ənənələrinə malik idilər. İspaniyanın cənubi-şərqində Aralıq dənizi sahilində m.ö. 1800-1550-ci illərdə mövcud olan, Avropanın erkən bürünc dövrünə aid Al-Arqar arxeoloji mədəniyyətinin qədim iberlərə məxsus olduğu təsbit olunmuşdur. Al-Arqar mədəniyyəti İspaniyanın böyük bir sahəsinə yayılmışdır. İberlər haqqında ilk yazılı məlumat m.ö. VI əsrdə yunan kolonistləri tərəfindən qeydə alınmışdır. Daha gec zamanlarda e.q. I minilliyin əvvəllərində İspaniyaya gəlmiş keltlərin üzərində iberlərin böyük təsiri olmuş və onların qarışması nəticəsində qarışıq keltiberi etnik qrupu meydana gəlmişdir. İberlərin bir qolu olan piktilər sonradan Şotlandiyaya köçmüşlər. Mənbələr iberlərin olduqca döyüşkən bir xalq olduqlarını və romalıların onları çətinliklə tabe edə bildiklərini yazırlar. İberlər silahqayırma sənətində böyük şöhrətə malikdilər. Strabon öz yazıları və qanunları olan iberlərin bu dildə şeir və nəsr yazdıqlarını, bu yazı ənənəsinin 6 min il yaşı olduğunu qeyd edir.



Mütəxəssislər iber dilinin aqqlütativ-hecalı dil olduğunu qeyd edirlər. İber dili və əlifbası İspaniyanın tartes dili və əlifbası ilə böyük bənzərlik təşkil edir. İstər iber, istərsə də tartess dilində məlum olan sözlərə diqqətlə yanaşdıqda onların turk dilində izahını vermək olur. Hər iki dildəki sözlərin hind-avropa dilləri əsasında izahı heç bir inandırıcı nəticə verməmişdir.

İberlərdə monarxiyalı hakimiyyət üsulu mövcud olsa da, türk xaqanlarında olduğu kimi kral ölkəni kişilərdən ibarət təşkil olunmuş şura ilə birlikdə demokratik prinsip əsasında idarə edirdi. Ölkənin sosial təşkilatı hər biri dörd nəsldən təşkil olunmuş ailə qruplarından ibarət idi. Cəmiyyət həyatında hüquqi və siyasi fərqlilikləri özündə əks etdirən müəyyən olunmuş qaydalar sistemi mövcud idi. (Historia de Aragon. 1989)

E.q. II əsrin ortalarında başlamış Pun müharibələri zamanı Karfagen qısa müddət ərzində İberiyanı əsarət altına alaraq döyüşkən iber və keltirberi əsgərlərindən ibarət Romaya qarşı hərbi dəstələr düzəltmişdilər.

"Karfagenlilər Valensiyada və Mursiyada məskunlaşmış yerli turanlıları qul etmək istəyirdilər. Bir çox tayfalardan ibarət olan turanlı iberlər təhlükədən xilas olmaq üçün ölkənin dərinliklərinə şimal, mərkəz və qərb istiqamətinə doğru hərəkət etməyə məcbur oldular. Daha mütəşəkkil hərbi gücə malik olan romalıların gəlişi daha fəlakətli oldu. Roma nəyin bahasına olursa-olsun İspaniyanı öz hakimiyyəti altına almaq istəyirdi və onun ağalığını qəbul etmək istəməyən iberlər Portuqaliyanın ucqar bölgələrinə, Asturiyaya və şimal dağlıq ərazilərə köçməyə məcbur oldular. Bir çoxları isə təhlükədən qorunmaq üçün dənizin qarşı tərəfinə keçdilər. Karfagenlilərin zülmü, romalıların tiranlığı və xristian dini dözümsüzlüyü təpəliklərdə məskən salmış bədbəxt yerli turanlıları zülmdən xılas olmaq üçün okeana üz tutub adalara sığınmağa məcbur etdi". (Ferqisson J. 1872, Səh. 379)

XIX əsr İngilis müəllifi C.Kennedi hind-avropa tayfalarının İspaniyaya gəlməsindən öncə yarımadanın ən qədim yerli əhalisi olan turanlı tayfaların dilində bu günə qədər bir çox sözlərin mühafizə olunduğunu yazır. Bu sözlərdən biri də onun yazdığına görə qədim mənbələrdə yerli xalqın adını bildirən "Erdederak" (Erdederac) sözüdür. (Kennedi James, 1855, Səh. 181)

Bu söz türkcəmizdə "Erde turaq", yəni yerində durmuş, yerində duran, oturaq şəklində mövcuddur. (Древнетюркский словарь, 1969, Səh. 586-587)

İspaniyada çox qədim zamanlardan Trubadur adlı musiqiçiləri, ozanlar mövcud olmuşlar. Bu sözün türkcə "Tur-batur" sözündən yarandığı haqqında fikirlər mövcuddur. Cüzeppe verdinin operasında da Trubadur aristokrat zümrəsinə mənsub olan qraf oğludur. Bu ozanlar zümrəsi İspaniyanın cənubunda Kataloniyanın şimal tərəflərində məskun olan Uksi xalqına mənsubdurlar. Uksilər qədim zamanlarda İtaliyadan İspaniyaya köç etmişlər. İtaliyanın şimalında bir çox əyalətləri içərisinə alan Uksi vadisi mövcuddur. Uksilər italiyanın qədim xalqlarından-

dır. Onların bir qismi Fransada və İspaniyada yaşayırlar və bu ölkələrdəki həmin ərazi Uksia adlanır. Bu vadi İtaliyada Pyemont, Turin, vilayətlərini də birləşdirərək Alp dağlarının cənub hissəsində yerləşir. Maraqlı cəhət orasıdır ki, İtaliyanın bu Uksi vadisinin bir hissəsi də Sus vadisi adlanır və Paytaxtı Susa şəhəridir. Bu fakt təkzib olunmaz şəkildə uksilərin Zaqros dağlarındakı turanlı öntürk Elamlılara mənsub olduqlarını sübut edir. Uksilərin ən qədim vətəni Kəngər/Bəsrə körfəsinin şərqində Zaqros dağlarının cənub hissəsini təşkil edən və qədim müəlliflərin Uksi dağlarının körfəz sahilindəki vadilərini və dağ yaylalarındakı ərazilər idi. Görünür qədim Ön Asiyanın bir zamanlar Elam dövlətinin mərkəz ərazisini təşkil edən Xuzistan vilayətinin sakinləri olan və quz/oğuzlar ilə eyniləşdirilən uksilərin bir qolu müxtəlif səbəblər üzündən Alp dağlarının cənub ətəklərinə köç etmişlər. İtaliyadakı Susanın e.q. 500-ci illər tarixi məlum olsa da, daha qədim tarixi məlum deyil.

Yusif Ziya Yürükoğlu qədim mənbələrə əsaslanaraq Yafəsin Yavan adlı oğlundan olan Alişa, Kitim, Dodonim və Tarsis haqqında məlumat verir. Alişa Salurların dörd qəbiləsindən biridir, Tarsis/Tarduş Orta Asiyadakı önəmli türk qəbilələrindən biridir. Onların bir qolu e.q. 2000-ci illərdə İspaniyaya gedərək orda Tartes adıyla məhşur olmuşdur. (Yusif Ziya Yürükoğlu, 1934)

Müasir tarixçilərin araşdırmasına görə e.q. I minillikdə mövcud olan və turların tarixi ilə əlaqədar olan Tartes şəhər mədəniyyətinin əsasını Kiçik Asiyadan gələn Etrusklar qoymuşlar. Alman alimi A.Şulten Tartesi etrusk kaloniyası hesab edir. İspaniyanın cənubunda yerləşən tayfa birliyinin mərkəzi olan Tartesin əsas əhalisini turdul və turdetan adlı tayfalar təşkil etmişdir ki, hər iki etnonimin kökünü "Tur" eponimi təşkil edir. Tartes şəhərinin əsası e.q. 1100-cü ildə qoyulmuşdur.

Tartesin, o cümlədən onun qədim əhalisini təşkil edən turdul və turdetanlar dil və irq baxımından hind-avropalılara mənsub olmayıb İspaniyanın iber dövrünə qədərki qədim əhalisidir. Turdul və Turdetanların dili quruluş etibarı ilə aqqlütativ-bitişik dildir. Tartes yüzillər ərzində Afrika və Avropa ilə geniş ticarət əlaqələrinə malik olmuş böyük ticarət mərkəzi idi. Qədim müəlliflərdən Herodot, Strabon və başqaları Tartes, Turdetan və Turdul haqqında ətraflı məlumat verirlər. Strabon Turdetanların və Turdulların eyni xalq olduqlarını yazır. Tarteslilərin və ya turdetanların özlərinə məxsus qədim əlifbaları vardı və yazı işarələrinin bir çoxu türk damğalarını xatırladır.

Tur eponimi ilə əlaqədar İspaniyanın şimalında yaşayan digər bir xalq Turmodiqlərdir. Hind-avropa dil ailəsinə mənsub olmayan bu kiçik xalqın mənşəyi indiyədək naməlumdur. Lakin etnonimin əvvəlindəki Tur kökü onların Turdul və Turdetanlarla eyni kökdən olduqlarını göstərir.

İspaniyanın şimalında və Fransanın cənubi-qərbində yerləşən Bask ölkəsində yaşayan basklar özlərini Yafəsin oğlu Tubalın törəmələri hesab edirlər. Məsudi



"Nurucu əl Zəhəb" əsərində baskların iskitlər olduğunu yazır. K.Bouda bask dilini sumer və batı Qafqaz dilləri ilə müqayisə edir. A.Vinkler və Joze Alemani isə bask dilini ural-altay və türk dili ilə müqayisə edir. Özlərini "eusko", ölkələrini isə "Eusko hurria", yəni eusklar ölkəsi adlandıran basklar dil və etnik mənşə baxımından hind-avropalılara aid deyillər.

Bask dialeklərindən biri qədim əcdadı Fransanın Akvitaniya əyalətində yaşayan akvitanların dilidir. Akvitan dilində türk dilində eyni məna verən bir çox sözlər mövcuddur. Məsələn: Atta-ata, bors-beş, ar-kişi, ər, erkək, və. s. Bask dilində sözlər: aba-ata, herri-ölkə, aberri-ata yurdu, vətən, equn-gün, equzki-günəşli, harran-vadi, İspaniyanı Fransadan ayıran Pireney dağ silsiləsində Aran, Astor, Alba, Tukon, Astaz, Kayrat, Turon, Alqas, Kasko, Besiber, Buqarak kimi bir çox dağ zirvələri türk dilinə uyğun adlar daşıyırlar.

İspaniyanın Kataloniya vilayətinin şərqini təşkil edən ərazi ümumi adla Jer munisipaliteti, yəni inzibati ərazisi adlanır. Bu sözün türk dilindəki yer adının fonetik forması olduğu yəqindir. Bu munisipalitet "Başa Serdanya" rayonunun tərkibinə daxildir. Fransada turani tayfaların məskunlaşdığı bir çox yer, insibati bölgə olan departament və kommuna, çay adları da Jer/Yer (fr. Ger) adlanır.

Bu adlardakı Yer və Baş sözləri eynilə türk dilində malik olduqları anlamları daşıyırlar. Ərazidəki Serdan, Alp, İsivol, Urus, Das, Burul kimi toponimlər də türk adları ilə eyniyyət təşkil edirlər. Misal üçün Fransada təpəlik, dağlıq ərazidə yerləşən bir inzibati rayon-kommuna Jer Belestan adlanır. Türk dilində "bel" sözü təpə və ya dağ yamacına deyilir, Yer Belestan Türk dilində anlamı təpəli, dağlı yer deməkdir.

Fransanın cənub-qərbində Uksitaniya bölgəsinin tərkibindəki Jer departamentinin inzibati mərkəzi Öş şəhəridir və o eyni zamanda tarixi Qaskon əyalətinin baş şəhəridir. Departamentin rayonlarından biri İl Jurden adlanır və bu yer adı türkcə El Yurdu sözü ilə eyni məna daşıyır.

İspaniya adının (lat. və yun. Hispania) da mənasını hind-avropa və sami dillərində izahını vermək mümkün olmamışdır və onu fnikiya dilində "işpanim", yəni "daman sahili" (daman kiçik məməli heyvanın) adından götürüldüyünü yazırlar.

Sumer dilində *İzi* sözü isti deməkdir, *ban/van* isə Ön asiyanın sumerlərə qohum urartu/hurri dillərində yer/məkan anlamı saşıyır. (Delitsch F. 1914, Səh. 26)

Beləliklə, İspaniya adının anlamı "isti yer və ya ölkə" anlamı daşıyır. İspan adının türkcə izahı da İsi-pan tərkiblərindən ibarət olmaqla mənası "isti ölkə" deməkdir. Turan dünyasının ən qədim xalqlarından olan uyğur dilində "pan/pana" digər türk dillərində "ban" sözü yurd/məskən/sığınacaq deməkdir. Sözün bu izahı Avropanın ən isti və quraqlıq ölkəsi olan İspaniyanın iqlim şəraitinə də uyğun tam gəlir. (*Уйгурско-русский словарь*, 1968, Səh. 245)

Bibliya rəvayətlərinə əsasən Yafəsin övladları iki istiqamətdə hərəkət etmişlər. Bir hissəsi şimal və şərq istiqamətlərinə yayılaraq ordakı əraziləri məskunlaşdırmış, ikinci hissə isə qərbə və şimali qərbə doğru hərəkət etmişlər. Yafəsin törəmələrindən Tobal Afrikanın şimalından hərəkət edərək Nil çayını keçmiş, o zaman Afrika və Avropanı birləşdirən indiki Hibraltar boğazının olduğu quru sahəsini keçərək İspaniyaya gəlmiş, öz nəvəsi Tarsisi ordakı Betik İberiyasında Tartess adlı yerdə yerləşdirərək özü bütün aralıq dənizi sahillərini məskunlaşdırmaq üçün şərqə doğru getmiş və Alp dağlarını və İtaliyanı məskunlaşdırmışdır. Sonra Dunay, Almaniya istiqamətində hərəkət etmiş, burda iskitlərin və trakların atası olan Maqoqun ərazisini məskunlaşdırmışdır. (Migues Cortes Lopes, C II, 1836, Səh. 28)

İberlərin runik işarəli əlifbası türk runik əlifbası ilə böyük zahiri bənzərlik təşkil edir. İberlər üçün xarakterik cəhət onlara məxsus ərazilərdə çoxsaylı meqalitlərin və dolmenlərin mövcud olmasıdır. Meqalitlər bir və ya bir neçə işlənməmiş və ya cüzi işlənmiş böyük daşlardan ibarət olur. Meqalitlər hər hansı əlavə yapışdırıcı məmulat istifadə olunmadan bir-birinə bitişmə üsulu ilə bir araya gətirilir. Meqalitlər əsasən iki qrupdan ibarət olur: hər hansı bir dayaq istifadə olunmadan dik duran tək daş menqir adlanır. Bir neçə daşdan ibarət dairə şəklində düzülənə isə kromlex deyilir. Meqalitin digər növü dolmenlərdir. Dolmenlər böyük yastı sal daşların şaquli vəziyyətdə yerə basdırılması və üstlərinin yenə sal daşla örtülməsi ilə yaranan düzbucaq qəbirlərdir. Bu qəbirlər tək, iki mərtəbəli və dəhlizlə birləşən qəbirlər sırası şəklində olur. Azərbaycanda da dolmenlər Lənkəranda, Xocalıda və digər bölgələrdə aşkar edilmişlər. Turan xalqlarının təşəkkül tapmış olduğu Rusiya ərazisində Sibirin cənubu, Ural dağlarının cənubu, Qafqaz, Xəzər və Qara dəniz ətrafı, Dunay ətrafı ərazilər dolmenlərlə çox zəngin olan bölgələrdir.

Dünyanın bir çox yerlərində, o cümlədən İspaniyada dolmenləri tədqiq edən J. Ferquson dolmenlərin mövcud olduğu bütün ərazilərdə onların yaradıcılarının turan qanı daşıyan insanlar olduğunu yazır, onun fikrinə görə hətta Fələstində İordaniyada və s. yerlərdə mövcud olan dolmenlərin turanlılar tərəfindən yaradılmışdır. (Ferquson J. 1872, Səh. 448)

Dolmen mədəniyyətinin turanlılara məxsus olduğunu qeyd edən Ferqusson onların yaranmasının tarixi ardıcıllığını reqionlar üzrə izləməklə turanlıların dünyaya yayılma coğrafiyasını müəyyən etmişdir. Onun fikrinə görə Turan irqi öz ölən əcdadlarının dəfninə münasibətdə daha sayqılı olmuşlar. İspaniyada həmçinin iberlərin yaşadıqları ərazilərdə dolmenləri tədqiq edən Ferqisson bu dolmenlərin yaradıcıları olan iberləri turani irqə mənsub xalq hesab edir. Onun yazdığına görə İspaniyanın yerli əhalisi olan iberlərin bir qismi karfagenlərin, keltlərin və sonra romalıların zülmünə və qətliamlara məruz qaldıqları üçün öz yurdlarını tərk edib okeandakı adalara və Britaniya adasına sığınmağa məcbur olmuşlar. Əcdad kultuna etiqad edən insanlar İspaniya yarımadasında uzaq tarixi dövrlərdən eti-



barən məskunlaşmışdılar. "Onlar Kastiliyanın otlaq düzənliklərində, Valensiya və Andaluziyanın məhsuldar çöllərində, Qalisiya və Asturuyanın çılpaq təpələrində məskunlaşmışdılar. Bu gün onlar kelterberilər, iberlər və ya ümumi adla turanlılar adlandırılır. Ölən əcdadalarının ruhuna etiqad edən bu insanlar tarixə qədərki dövrdə öz əcdadlarının məzarlarını daşla bəzəməyi öyrənmişdilər". (Ferqisson J. 1872, Səh. 379)

Leon Kahun Avropada turani irqin mənşəyinə dair tədqiqat aparmış, bu haqda 1873-cü ildə "Fransada Ari dillərindən öncə mövcud olmuş ləhcənin turani mənşəyi" adlı kitab yazmışdır. Alp Tekin təxəllüsü daşıyan Leon Kahun Turan tarixinə aid bir neçə əsərin müəllifidir. Əsərlərini fransız dilində yazan L.Kahun Turanlı öntürklərin bəşər tarixində önəmli rol oynadıqları, bəşəriyyətin ilkin dilinin türk dili olduğu haqqında fikirlər irəli sürmüş və Avropada ilk türkçü olaraq tanınmışdır. Turanlıların Avropada bir çox maddi və mənəvi mədəniyyət sahələrinin yaranmasındakı ilkin rolunu təsdiq edərək Kahunla həmfikir olan digər bilim adamı J. Morqandır. Kahuna görə tarix öncəsi dövrdə Avropada turanı ləhcənin izini ilk aşkar edən ingilis-şotland diplomatı və arxeoloqu Ferqusson olmuşdur. Daş meqalit abidələrlə onların mövcud olduğu ərazilərdəki yer adları arasında müəyyən əlaqə aşkar etmiş Ferqusona görə Akvitaniyada tapılan qədim insan qalıqlarının antropoloji təhlili qədim akvitanların ari və sami olmadıqlarını təsdiq edir. O Akvitaniya vilayətinin qədim sakinlərinin dilindən "ak" sonluğu ilə bitən yer adlarını təsbit etmiş və bu sonluqla bitən bütün sözlərin həmin yerli turani xalqa aid olduğunu müəyyən etmişdir. Onun irəli sürdüyü nəzəriyyəyə görə hansı ərazidə meqalit və dolmen abidələr yığını mövcuddursa, orda yer adları "ak" (lat. ac) sonluğu ilə bitir və bu söz "yer" anlamı daşıyır. Harada "ak"la bitən yer adına rast gəlinmirsə, orda meqalit abidələr də mövcud deyil. (Fergusson J, 1872, Səh. 331)

Ferqusonun bu nəzəriyyəsindən çıxış edən L.Kahun Fransada sonu "ak"la bitən Aqonak və Bainak yer adları üzərində araşdırma aparmışdır. Ari dillərdə bu sözlərin kökünü aşkar edə bilməyən Kahun türk dillərinə müraciət etmişdir. Onun yazdığına görə cağatay türkcəsində "akmak" feli, uyğurcada "akmak" kəliməsi və yakutcada ak/aqə kökləri "çıxmaq", "yüksəkdə olmaq" mənasını ifadə edir. Sözün ikinci hissəsini təşkil edən "bai" kəlməsi bu dillərdə istər gerçək mənada, istərsə məcazi mənada "alt", "aşağı", "alçaq" sözlərinə uyğundur. Kahun "Aqonak" yer adını da fin və yapon dillərinə uyğun şəkildə izahının "yuxarı", "yüksək" anlamında olduğunu yazır. Lakin "aq" sözü türk dillərində də "yüksəlmək", "qalxmaq" anlamı daşıyır. Beləliklə, Fransadakı "Aqonak" yer adının tükcə anlamı Kahuna görə "yüksək yer", "yuxarı axıntı yer", "Baillak" isə "aşağı yer", "aşağı axıntı yer" anlamı daşıyır. Kahun hərbi xəritə üzərində araşdırma apararaq Aqonak adlı yerin öz mənasına uyğun olaraq həqiqətən də yüksək bir təpənin üzərində, Baillak adlı yerin isə bir dərədə, çuxurda yerləşdiyini təsbit etmişdir. Bu təsbitdən sonra

Kahun belə bir nəticəyə gələrək yazır: "Zənn edirəm ki, minlərcə il əvvəl Fransada yaşamış qədim insanların eynilə Yüksək Asiyanın turanlıları kimi yuxarıya "ako", aşağı üçün "bai" dediklərinə heç bir şübhə yeri yoxdur. İndi mən Avropanın arilərdən əvvəlki dillərinin açarının Orta Asiyada olduğunu, XIII əsrə qədər fərqli bir memarlıq tipi meydana gətirən, istər maddi, istərsə mənəvi sahədə yaratmış olduqları əsərlərə bu gün hər bir ölkədə rast gəldiyimiz bu irqin mənşəyini də orda axtarmaq lazım olduğunu iqrar və iddia edirəm". (L.Cahun. 1930, Səh. 20)

Ferqusonun və Kahunun müəyyən etdikləri "ak" sözünün türk dilində eyni məna daşıdığı kimi "bay/bai" sözü də türk dilinə aid sözdür. Bayil sözü türk dilində aşağı, dağın ətəyi anlamı daşıyır. Bakı şəhərindəki Bayıl adı dağın aşağısı və ya ətəyi deməkdir.

Ferqusonla yanaşı 1874-cü ildə "Priney xalqlarının və dövlətlərinin tarixi" əsərində turanlı iberlərə aid "ak" sonluqlu yer adları haqqında fransız tarixçisi Kenak Monkaut da bəhs edir. O İspaniya ərazisində "ak" sonluğu ilə bitən çox sayda yer adları müəyyən edərək onların siyahısını tərtib etmişdir. (Cenac Moncaut. T.I, 1874. Səh. 313, 314)

İberiyalı adlandırdığımız turanlıları İspaniyadakı məskənlərində ilk narahat edənlər e.q. V-IV əsrlərdə Qalliyadan İspaniyanın indiki Kataloniya ərazisinə gələn keltlər oldular. Keltlər gəlmədən öncə Kataloniya iberlərin vətəni idi. İberlər keltlərin təzyiqi ilə şimal əraziyə köçüb öz adları ilə adlanan İber (Ebur) çayının ətrafında məskunlaşdılar.

İspan tarixçisi Miguel C.Lopes Mesapotomoyadan gələn iberlərin bir hissəsinin Skifiyadan gələn və mənşə etibarı ilə iskit olan keltlərlə İspaniyada qarşılaşaraq birləşdiklərini və bu qarışımdan yeni bir kelterberi xalqının meydana gəldiyini yazır. Görünür iberlər və keltlət etnik mənşə baxımından qohum xalqlar olmuşlar. (Miguel Cortes Lopes, C II, 1836, Səh. 341-342)

Keltlərdən sonra digər turani xalqlar olan kimmerlər, sarmatlar və traklar da hərəkər edərək İberiyanın şimal və qərb ərazilərində yerləşdilər.

Turanlı iskit-keltlər öz gəlişləri ilə Avropaya şəhər-qala anlamında yeni istilah olan briqa/burq sözünü gətirdilər. İberiyada və digər ərazilərdə ilkin istehkamlar şəklində yaradılan qala-şəhərlərin yerləşdikləri yerin və onu ucaldan şəxsin adının sonuna briqa və ya burq sonluğu əlavə edilirdi. (Eduardo Chao. 1849, Səh. 163)

Avropada qorunmaq üçün istehkam və qala kimi inşa edilən ilk şəhər qalaların adlandığı və keltlərə və traklara aid edilən briqa/burq sözü türk dilindədir və türkcə, möhkəmlənmiş, bərk mənasında olan Berik sözünün fonetik variantıdır. Türkcə "burq" sözü ilə eyni məna təşikl edən digər bir söz bina və tikili anlamında "Barq" sözüdür. (ДТС, 1969, Səh. 84, 95)

İberlərin ən əzəmətli tayfası ilerqetlər idilər. Onların məskənləri Sinka və Seqre çayları arasındakı vadilərdə yerləşirdi. Mərkəzi şəhərləri İltirda və Atanaqrum idi.



E.q. 264-241-ci illər arasındakı Birinci Pun müharibəsindən sonra İberiya yarımadası da daxil olmaqla Bütün Aralıq dənizi sahilləri karfagenlilər tərəfindən işğal olunmuşdu. Kralları İndibilin zamanında ilerqetlər Karfagen və Roma arasındakı müharibədə iştirak edərək öz əlverişli strateji mövqelərindən istifadə edib gah birinin, gah da digərinin tərəfində vuruşurdular. Romalıların müharibədə qalib gəlməsindən sonra iberlər tədricən Roma imperiyasının tərkibinə qatıldılar. Lakin tezliklə iberlər kralları İndibil və Mandonin başçılığı ilə Roma ağalığına qarşı üsyan qaldırdılarsa da üsyan yatırıldı.

İlerqetlərin tərkibindəki ən önəmli tayfalardan biri Sayar çayı sahilində məskunlaşmış Barquz tayfası idi. Karfagen və Roma işğalına qarşı uzun illər ərzində mübarizə aparmış Barquzların ən mühüm qalası Berk adlanırdı. Tarixi mənbələr İberlərin Bastul, İlerqet, İlerkan, Kossetan, İliberi, İliturg, İlliki, Oba və s. tayfalarının adlarını qeyd edirlər. Bu etnonimlərin mənası türk dilində Aydın şəkildə izah oluna bilir. İspaniyanın Araqon vilayətinin də adı türklərin arqun boyunun adı ilə səsləşir. İspaniyada qədim dövrlərdə sahilə yaxın adaların biri Lasmatas adlanırdı ki, onun türk dilində Yaşmadaş adlanması mümkündür.

Yuxarıda qeyd etdiyimiz kimi turani bir xalq olan iberlərin dili də quruluş etibarı ilə aqqlütativ-hecalı dildir. İber dilinin türk dili ilə bənzərliyinə əmin olmaq üçün bu dildəki "iltir", "ekier" kimi bir çox söz nümunələri onun türk dili ilə yaxınlığını göstərir. İber dilində "iltir"-şəhər və qala deməkdir ki, türk dilində il/el sözü el/xalq/vilayət mənasında işlənilir, Tir isə eynilə türk dilində yaşamaq, məskən salmaq anlamındadır, türk dilində buna uyğun digər söz də qala, istehkam mənasında olan "tura" sözüdür. (ДТС, 1969, Səh. 561, 587)

İber dilində etmək mənasında olan "ekier" sözü türk ləhcələrində "iyqer/iqer" şəklində mövcuddur və mənası bənzər şəkildə etmək, yerine yetirmək, öhdəsindən gəlmək anlamı daşıyır. (Этимологический словарь тюркских языков. 1997 T 1, Səh. 237)

İberlərin ildırım tanrısı Taran, Oqmi, Belen, Hesus adları daşıyan tanrıları vardı. (Cenac-Moncaut. Histoire, T. I, 1874, Səh. 32-33)

Bu tanrı adlarının bir çoxu Ön Asiyanın turanlı xalqlarının Tura, Turan, Tarhu, Aqam, Teşub tanrıları adlarını xatırlatmaqdadır.

Əkinçi xalqlar olan kantabrlar, keltiberlər və iberlər kollektiv şəkildə vəhşi öküzlərin ritual xarakter alan xüsusi ovunu təşkil edirdilər. İberlərin dini etiqadlarında öküz kultu böyük önəm daşıyırdı. Öküz kultu Mərkəzi Asiyadakı Turandan başlayaraq Mesopotamiya və Ön Asiyada turanlı, Sumer, Kassi, Khatti, Qut, Manna və digər xalqlar üçün xarakterikdir. İberlər ənənəvi olaraq öküz dərisindən bütün bədənlərini sıx əhatə edən başlıqlı uzun plaş geyirdilər. İspanlara xas öküz döyüşü olan korrida (corrido de toros) ənənəsi bu vəhşi öküzlərin ovundan qalan ənənədir. İspan dilində öküz/buğa sumer dilində olduğu kimi tor/tur adlanırdı. Buy-

nuz aypara şəklində təsvir olunurdu və Astarta (Asturta) adlanaraq öküzü təmsil edirdi. Kataloniyada öküzü təmsil edən buynuzlu və dörd gözlü insan başı təsviri tapılmışdır. Akvitaniyada İber (Ebro) çayının sahilində Alteya adlı qədim şəhər mövcud idi. (Cenac Moncaut. T. I, 1874. Səh. 41-43)

İberlər və akvitanlar eyni xalqın müxtəlif qollarını təşkil edirdilər. İber ailəsinə mənsub olan akvitanlar öz qardaşlarının məskunlaşdıqları İber vadisindən inkişaf etmiş mədəniyyəti digər əarazilərə daşıdılar. Akvitanlar metal məmulatlar hazırlayır, gümüş və qızıl emal edir, qonşu xalqlarla ticarət mübadiləsi edir, elmin və incəsənətin müxtəlif sahələrini inkişaf etdirirdilər. Akvitanlar Qalliyada sivilizasiyanın başında durduqları kimi iberlər də öz döyüşkənlikləri ilə Makedoniyalı İsgəndərin ordusunun ön səflərində yer alırdılar. (Cenac-Moncaut. T.I, 1874, Səh. 37-38)

İberlər və onların bir qolunu təşkil edən akvitanlarda hərb sənəti və ordu ənənəsi türk gələnəklərinə uyğun olub hər boy əsgəri birlik formasında ordunun müxtəlif qollarını təşkil edirdilər. Akvitanlar iyirmi iber tayfasını birləşdirərək onların içərisindən özlərinə bir başçı seçirdilər.

Bu başçı müharibədə və dinc həyatda iberləri idarə edirdi. Onun əsgərləri öz rəhbərlərinə son dərəcə sədaqətli olub qələbəni və ölümü onunla birgə bölüşməyə həmişə hazır idilər. Öz vətənlərinə dərin məhəbbət bəsləyən bu insanlar romalılara, franklara, vestqotlara qarşı uzun illər ərzində apardıqları mübarizədə böyük cəsarət və qəhrəmanlıq nümayiş etdirirdilər. İberlərin cinayətkarlara qarşı sərt cəza qanunları vardı. Ağır cinayətkarları qayaların zirvəsindən atır, ata qatillərini daşqalaq edirdilər. (Cenac Moncaut. T. I, 1874, Səh. 38-39)

İberiyanın şimalında yüksək dağlıq ərazi olan Keltiberiyada ispan dilində Taqus adlı bir şəhər qədim iber dilində Daq və ya Taq adlanırdı. Bu şəhər yüksək dağ zirvəsində Taqus adlı çayın sahilində yerləşir və qədim mənbələrdə yazıldığına görə bu yaşayış məskənində insanlar uzun zaman evlərdə və ya çadırlarda deyil, çoxlu mağaralarda məskunlaşmışdılar. Taq şəhər adının mənasını ispan tarixi ədəbiyyatında qədim mənbələrə əsaslanaraq hansısa şərq dilində "balıq" adlandığı qeyd olunmuşdur. Bu maraqlı izah yenə də türk dilində şəhər-məskən və çay mənasındakı "balıq" sözünə tam uyğun gəlir. Ola bilsin ki, çox qədimlərdə şəhərin türkcə adı Taqbalıq olmuşdur. Akomiya şəhərinin yaxınlığındakı çay isə Duero, ondan cənubdakı çay isə Douro adlanır, iber dilində "duru" sözü çay və su mənasındadır. Digər şəhərlər isə Tarkon və Suber adlanır. (Migues Cortes Lopes, C III, səh. 94, 95, 406-407, 412)

Tarkon türklərin Tarxan, Suber adı isə yenə türklərin Subir və ya Suvar adına uyğundur.

Portuqaliyada Lissabon şəhərindən şimalda qədim Luzitaniya ərazisində okean sahilində yerləşən dağ silsiləsi Monte Taqro, yəni Taq dağları adlanır. Ümumiyyətlə, Alp dağlarının İsveçrə ərazisində, Portuqaliyada və İspaniyada bir sıra dağ sahələri türk dilində olduğu kimi eynilə Daqro, Taqus, Taq və Daq adlanırlar ki, bu qədim toponimlər həmin ərazidə qədim zamanlarda məskunlaşmış turanlı türklərin verdikləri adlardır.

Piriney dağlarının İspaniya və Fransa tərəfini əhatə edən böyük bir ərazidə romalılar bura gəlmədən öncə akvitanların məskunlaşdığı Akvitaniya dövləti mövcud olmuşdur. Sezar və digər müəlliflər Akvitaniyanın qədim əhalisinin auski (bask) tayfa birliyindən ibarət olduğunu yazırlar. Bu birliyin tərkibində ona başçılıq edən auskilərdən başqa biqerrlər, tarbellər, ptianlar, vasatlar, tarusatlar, elusatlar, qatlar, qarumlar, sibulatlar, kokosatlar daxil idilər. Ausko etnonimi Bask xalqının özlərinə verdikləri addır.

Akvitania adının kökü qədim uksi dilində "aki ten" sözündən ibarət olduğu haqqında fikirlər mövcuddur. Akvitan adının hind-avropa dillərində inandırıcı izahını vermək mümkün olmamışdır. Bu adın etimalogiyasını latın dilində su anlamında olan aqua sözü kimi izah edirlər.

Fikrimizə görə bu söz qədim türk dilində "akı-tenq" söz birləşməsindən meydana gəlmişdir və mənası axıntılı bataqlıq və göl mənasındadır. Tarix öncəsi üzəri okean suları ilə örtülmüş Akvitaniya ərazisində dəniz suları çəkildikdən sonra çoxlu bataqlıq və göllər qalmışdı. Akvitaniya Piriney dağlarının ətəyində okeana tökülən böyük Atur və Qarumna çaylarının vadilərində və dağdan axıb gələn, bataqlıq və sellər yaradan çoxsaylı kiçik çayların axdığı ərazidə yerləşmişdi. Yuli Sezar Akvitaniyanın ərazisinin Qarumna çayından başlayaraq İspaniyadakı Priney dağlarına qədər davam etdiyini yazır. (Г. Юлий Сезар. Галлская война. Кн 1, S. 1)

Dağlıq ərazi olan Akvitaniya adının digər bir izahı Qaskoniya bölgəsinin Atur çayının sahilində yerləşən paytaxtı Daksi şəhərinin adında mühafizə olunmuşdur. Daksi adı Atur adı ilə eyni mənalı sözlərdir və hər ikisi də türk dilində "dağ və yüksəklik" anlamı daşıyır.

Fransanın qədim əyalətlərindən biri olan Akvitaniya VI əsrin başlanğıcına qədər vestqotların hökmranlığı altında idi. Sonra oranı franklar zəbt etsələr də qısa müddət sonra Akvitaniya müstəqillik əldə etdi. Akvitaniya krallığının hakimiyyət sülaləsini qaskonlar təşkil edirdilər. Akvitaniyanın ən qədim əhalisini özləri də turani kökə malik olan kimvirlər və qallardan öncə də turani tayfalar təşkil edirdilər. Heyvandarlıqla məşğul olan Akvitaniyanın qədim turani əhalisi olan iberlərdən çoxlu meqalitlər və dolmenlər qalmışdır.

Sezar və Strabon qeyd edirlər ki, Fransanın cənubunda yaşayan akvitanlar bir çox cəhətdən keltlərdən fərqlənirlər və iberləri xatırladırlar. Akvitaniyada dolmenləri tədqiq edən Ferqusson onların turanlılara məxsus olduğunu və akvitanların turanlı olduqlarını qeyd edir. Dolmenlər Akvitaniya ilə yanaşı həmçinin Priney dağları ərazisində və Asturiyada da mövcuddur. Priney dağlarının hər iki,

Fransa və İspaniya tərəflərində məskunlaşanlar qədim turani xalqların varisləri olan akvitanlardır. Priney sözü qədim latın və yunan mənbələrində əslində olduğu kimi "Purnu" və "Puren" şəklində yazılmışdır. Priney dağlarındakı dərələr sərt şəkildə deyil, dağ belinə doğru tədricən pilləvari çıxıntılar şəklində çölməkvari dərə vadiləri yaradaraq yüksəlirdi, belə dərə vadilərini yerli priney sakinləri qədimlərdən "oule" və ya "houle" adlandırırdılar. (Cenac-Moncaut, T.I, 1874, Səh. 313)

Pirin adlı dağ qədim türk yurdu olan Bolqarıstanda da mövcuddur. Prineyin gerçək adı olan Purnu/Puren qədim turan dilindən qalmadır və bugünki türk dilindəki "burun" adının dəyişik fonetik formasıdır və dağ burnu anlamındadır. Priney dağlarının qədim turanlı sakinləri olan yerli xalqı iber akvitanların dərələrə verdikləri "oule" sözü türk dilində "oyul" və "oyuq" kəlmələrinin tam qarşılığını təşkil edir. (Mahmud Kaşğari, C I, 1874, Səh. 297, 397)

İspaniyanın turanlılarla əlaqədar digər bir bölgəsi adından da bəlli olduğu kimi Asturiyadır. Avtonom inzibati vilayət olan Asturiya İspaniyanın şimalında Qalisiya və Kenterberiyanın arasında yerləşir. Qədim asturların əsas məşğuliyyəti əkinçilik və dağ yüksəkliklərində heyvandarlıqla məşğul olaraq qoyun və keçi sürüləri bəsləyir və at ilxıları saxlayırdılar. Asturkon adlı atları qısa boylu monqol atları adlanan Mərkəzi Asiya at cinsindəndirlər.

Turanlılara məxsus meqalit və dolmen abidələri Asturiyada da mövcuddur. Asturiyanın avtoxton əhalisi olan asturları formal olaraq kelt mənşəli hesab edilsə də, etnik kökləri tam aydınlığa qovuşmamışdır. Rəsmi tarix bu məsələnin üzərindən sükutla keçsə də, asturlar kimmerlərin və ya sakların qərbə doğru axınları zamanı burda yerləşmişlər və ön türklərin qədim astur qoluna mənsubdurlar. Astur toponiminin türklərin qədim yaşayış yerləri olan Xəzər və Qara dənizin şimalı, Balkan və Dunay ətrafı ərazilərdəki yayılma arealını nəzərə alsaq, onun bir türk boyu olduğu aydınlaşır. Astur adını onun ərazisindən axan Astura çayının adından götürüldüyünü, kökünü sanskritcə və bir çox avropa dillərində də mənası "geniş", yəni keçilməz çay demək olan "Steur" kəlməsinin təşkil etdiyini ehtimal edirlər. Asturiyada aşkar edilmiş mədəniyyəti e.q. VI əsrə aid edilir. Asturların e. q. XI əsrdə keltlərin Qalisiyaya ilk gələn sayf tayfası ilə qaynayıb qarışdıqları qeyd olunur. Asturlar qədim dövrlərdən etibarən İrlandiya və Britaniya ilə bağlı olmuşlar. Astur tayfasının adı zamanla tayfa birliyinə daxil olan pesik, tibur və xiqur adlı qədim tayfaları da əhatə edərək ölkənin ümumi adına çevrilmişdir. Asturlar arxeoloji mədəniyyət baxımından e.q. II minilliyə aid olan Qalştat dəmir dövrü mədəniyyətinə aid edirlər.

Antik müəlliflərin məlumatına görə Troya müharibəsindən sonra İspaniyaya gələn troyalılardan Astur adlı birisi öz yoldaşları ilə birlikdə Astur çayının sahilində Asturiya adlı yerləşim yerinin əsasını qoymuşdur. Asturlar son dərəcə döyüşkən xalq olmuşlar və özləri kimi döyüşkən kenterberilərlə birləşərək romalılara qarşı uzunmüddətli mübarizə apararaq onlara böyük tələfatlar vermişlər. (Miguel Cortes Lopes, T. II, 1836, Səh, 177)



Qalştat Arxeoloji mədəniyyəti Mərkəzi Avropada və Balkanlarda formalaşmışdı və onun əsas daşıyıcıları keltlər, illiriylər və traklar (fraklar) olmuşlar. Asturların da e.q. VI əsrdə Bohemiyadan İspaniyaya gələrək Asturiyada məskunlaşmış və bura öz adlarını vermişlər. Asturiya krallığı 711-ci ildə yaranmışdır. Asturiya İspaniyanın önəmli bölgəsini təşkil edir və 1388-ci ildən etibarən Asturiya prinsi ünvanı İspan kralı vəliəhdinin tituludur. İspaniyada üç yüz illik ərəb hökmranlığı dövründə Asturiya krallığı öz müstəqilliyini qoruyub saxlamışdır. Asturiya dili rəsmi statusa malik olmasa da, yerli xalq tərəfindən əsas ünsiyyət dili kimi istifadə olunmaqdadır.

İspaniyanın digər turani xalqları ölkənin cənubunda İberiya ərazisində məskunlaşmış turdetanlar, turdullar və tartesslərdir. Bu tayfa birliyinin əsas xalqı olan tartesslər dəniz sahilində e.q. 1100-cü ildə bölgədə əsas ticarət mərkəzi olan Tartess şəhərinin əsasını qoymuşlar. Arxeoloqlar Tartess mədəniyyətini iberlərə məxsus olan bürünc dövrünün El-Arqar mədəniyyətinə aid olduğu fikrini irəli sürürlər. Tartesslərin mənşə etibarı ilə etrusklardan olduqları haqqında fikirlər mövcuddur. Tartes, turdetan və turdulların dilləri qohum dillərdir. Bölgəni əhalisi İberiyada zəngin olan metal mədənlərindən çıxardıqları gümüşü, misi və qurğuşunu emal edərək Tartess üzərindən Aralıq dənizi ölkələri ilə, hətta Assuriya ilə ticarət edirdilər. Tartes Aralıq dənizində ticarət ağalığı uğrunda uzun illər ərzində Karfagenlə mübarizə aparmışdır. Herodot Tartesin ən məhşur qüdrətli hökmdarının e. q. 630-550-ci illərdə hakimiyyət sürmüş Arqantonis olduğunu yazır ki, o tartes, turdul və turdetan konfederasiyasının ümumi hökmdarı idi. (Herodot, 2012, I, 163)

İspaniyadakı Tartess şəhəri Bibliyada əsl deyilişinə uyğun olaraq Tarşiş adlanır. Tarşişin Finikiyanın Tir və ya Tartus şəhəri ilə ticarət əlaqələrindən bəhs olunur. Tartessin əsasının e.q. I minillikdə Etrusklar tərəfindən qoyulduğu antik mənbələrdə öz əksini tapmışdır. Arxeoloji qazıntılar Tartessin əsasının e.q. 1100-cü ildə qoyulduğu məlum olmuşdur. Tartess İspaniyanın cənubunda qədim Betis çayının dənizə töküldüyü mənsəbində yerləşirdi.

Müasir adı Huelva olan Onuba şəhərinin əsası tarix öncəsi dövrdə iberlər zamanında qoyulmuşdu. Arxeoloji qazıntılar onun tarixinin e.q. 3000-ci il və daha qədim dövrlərə aid olduğunu, təkcə İspaniyanın deyil, Avropanın ən qədim şəhərlərindən biri olduğunu göstərir. Onun qədimliyi Onuba Asturia adından da məlumdur. Asturlar qədim turanlı iber xalqının bir qolu idi. Onlar İspaniyanın və Fransanın hind-avropalılara qədərki əhalisinin önəmli etnik tərkibindən birini təşkil edirdilər. (Christian Kisch. 2011)

Onuba adının hind-avropa dillərində izahı mümkün olmamışdır. Fikrimizə görə şəhərin Onuba adının etimologiyası təmiz türkcə olub mənası "on oba № deməkdir.

Digər bir qədim şəhər Qadir şəhəridir, onun əsasının da finikiyalılar tərəfindən qoyulduğu güman edilir. İspanlar bu şəhəri Romalıların ifadə etdiyi kimi Kadis adlandırırlar. Qadir şəhəri dənizdə sərt qayalıqlardan ibarət adada yerləşir. Qadir adı türkcə sərt, çətin keçilən yer, sıldırım yer deməkdir. Şəhərin əsasının e.q. XIII əsrdə Troya müharibəsindən sonra etrusklar tərəfindən qoyulduğu güman edilir. Qadir şəhərini Heraklla da əlaqələndirirlər. Lakin şəhərin etrusklarla əlaqələndirilməsi onun əsasının Turşalar tərəfindən qoyulduğunu təsdiq edir. Qazıntılar zamanı aşkara çıxarılmış bir sarkofaqda sol əlində qədəh tutmuş əzəmətli kişi təsviri vardır və Sak hökmdarını xatırladır.

Strabon turdetanları yalnız İberiyanın deyil, bütün Avropanın ən mədəni və savadlı xalqı adlandrır və onların 6 min il öncə yazıya və ədəbiyyata malik olduqlarını yazır. O turdetan və turdul adlarının eyni məna daşıdığını qeyd edir. (Por Eduardo Chao. 1849, Səh. 213)

İspan tarixi ədəbiyyatında turdul, turdetan və tartes/turtes etnonimlərinin eyni xalqa mənsub olduğunu və mənasının turla, yəni öküzlə bağlı olduğunu yazırlar. Turdullar heyvandar xalq idi və onların bəslədikləri öküzlər çox məhşur idi, öküzlər müxtəlif dini mərasimlərdə qurban kəsilirdi. Bu adların mənasını öküz kultu ilə əlaqədar ivrit dilində tur-daluha, yəni yücə, ulu öküz kimi izah edirlər. (Miguel Cortes Lopes, T. III, 1836, Səh. 445-446 )

Bizim fikrimizcə turdul etnoniminin türkcə mənası tur-döl\töl olmaqla iki tərkibindən ibarətdir, tur-öküz, döl/töl isə doğmaq, törəmək mənasındadır. Qədim turani iberlərin dini inanclarında öküz kultu böyük önəm daşımışdır və onu öz totemləri hesab edirdilər.

Arqantonis e.q. VI əsrdə Tartosun iber mənşəli əzəmətli kralı olmuş və hakimiyyətinin 80 il davam etdiyini və Herodotun yazdığına görə 120 il ömür sürdüyü məlumdur. Herodotun yazdığına görə Kiçik Asiyanın Aralıq dənizi sahilindəki Fokaya şəhəri Tartosla geniş ticarət əlaqələrinə malik idi və burda öz ticarət kaloniyalarını yaratmışdılar. Əhəmənilər Fokeyi işğal etmək istədiyi zaman Arqontos yaxın münasibətdə olduğu fokeylilərə çoxlu qızıl göndərmişdi ki, şəhəri möhkəm hasarla əhatə etsinlər və onları yaşamaq üçün öz ölkəsinə dəvət etmişdir.

Arqantonis adının kökü "Arqanton"dur. Fikrimizə görə Arqanton bu kralın əsl adı olmayıb onun hakimiyyət tituludur və anlamı qədim türk dilində Arqan – "çox yaşayan" deməkdir və bu titul onun uzun ömürlü olmasına görə verilmişdir. (ДТС, 1969, Səh. 54)

Məhşur ispan filoloqu Don Joaxin Valve qədim ərəb mənbələrində Atlantis kaloniyası olduğu iddia edilən Andaluziyanın ərəbcə olan "Cəzirət əl Andalus" adının tərcüməsinin "Atlantus adası" demək olduğunu yazır. Digər mənbələrdə ərəblər Andaluziyanı "Cəzirət əl Atlasi" kimi də yazırlar. Bu o deməkdir ki, ərəblər Andaluziyanın Atlantis adasının bir parçası olduğunu bilirdilər. (V.Joaquin. 1986)

Cənubda Aralıq dənizi sahillərinə yaxın bölgə olan Tartess qədim İberiyanın ən məhsuldar əkinçilik ərazisidir. Tartess regionunda qədim iber tayfaları turdetan və turdul tayfaları məskunlaşıblar. Əhalisi qədim dövrlərdən əkinçiliklə məşğul olan Tartess adının türk dilində etimalogiyası tari-tarla əkmək-əkin sözü ilə əlaqədardır. (ДТС, 1969, Səh. 537 )

İspan tarixçisi Kenak Monkaut da Tartess adını türklərlə əlaqələndirir və onun tatar adından yarandığını qeyd edir və Tartariyanın uzaq qaranlıq ölkədə yerləşdiyi kimi Tartess də qərbdə günün batdığı və zülmətin Başlandığı ərazidə yerləşdiyini qeyd edir. O Tartesi İspaniya ərazisində ən qədim şəhər adlandırır. (Miguel Cortes Lopes, T. III, 1836, Səh. 412)

Yusif Ziya Avropanın qədim xalqlarını türk mənşəli hesab edərək yazır ki, tarixin ilkin dövrlərində Sibirdən və Orta Asiyadan Avropanın güneyinə və batısına köçmüş İber, Liqur, Tartus, Latin, Oksi, Sabin, Yapiq, Leleq, Pelasq, Akey, Min tayfaları Türk mənşəli boylar idilər. İspaniyada məskunlaşmış Tarteslər Göytürklər dövründəki Tarduslarla, İberlər qədim İbir-Sibir boyuna, Aralıq dənizinin qədim Minos mədəniyyətinin yaradıcıları Türkistanın Minq boyu ilə, Ege dənizinin qədim Axey boyu türklərin Aka boyu ilə eyniyyət təşkil edirlər. (Y.Z.Özer. 1932, Səh. 3)

İspanyanın Aralıq dənizinin qərb sahilində Andaluziyanın Almeriya bölgəsində Alqaida adlı Sahil şəhərinin yerində iberlərin qədim Turania şəhəri mövcud olmuşdur. (Miguel Cortes Lopes, T. III, 1836, Səh. 438)

Öz yazı sisteminə malik olan turdetanları Strabon sivil bir xalq hesab edir. Romalılara qarşı şiddətli mübarizə aparan turdetanlar bunun üçün kelterberilərdən ibarət muzdlu döyüşçülər cəlb edirdilər. Tarsis, turdet, turdul xalqlarının mənşə etibarı ilə qədim dəniz xalqları adlanan turanlı etrusk, tursen və tarişa xalqları ilə əlaqələri şübhə doğurmur.

Avropanın qədim turani tayfalarından olan uksilərin məskunlaşmış olduqları ərazi İtaliyanın şimalından başlamış Fransanın cənubi-şərqində Aralıq dənizi sahili və İspaniyanın Kataloniya vilayətinin şimalı da daxil olmaqla şimalda Atlantik okenın sahilinə qədər geniş bir ərazini əhatə edərək Uksitaniya (Oksitaniya) adlanır. Qədim mənbələrdə sözün əsli "Uksitan" şəklində yazılmışdır və mənası uksilərin yurdu deməkdir.

Uksitaniyada və uksilərin yaşadıqları bütün bölgələrdə qədim turanlılara məxsus maddi mədəniyyət abidələri olan çoxsaylı meqalitlər və dolmenlər mövcuddur. Bu abidələrin sahibləri olan və kelt/qallardan öncə bu ərazidə yaşamış tayfaların adları qədim mənbələrdə iberlər, uksilər, aranlar, kimvrlər, liqurlar, basklar və s. kimi qeyd edilirlər. Uksitaniyanın paytaxtı Karona çayının sahilində yerləşən

Tuluz şəhəridir. Öz başlanğıcını Priney dağlarından götürərək Uksitan ərazisindən keçib Biskay körfəzinə tökülən Karona çayı qədim mənbələrdə Karun adlanır. Tuluz şəhəri Fransada qədimlərdə mövcud olmuş Uz vilayətinin ərazisində yerləşirdi. Bu baxımdan Uksi adının Uk-uz adından yaranmış ola biləcəyi böyük ehtimal doğurur. Maraqlı cəhət ondan ibarətdir ki, Uksiya adlı digər bir ölkə də Zaqros dağları yaylasında yerləşmişdi. Uksiya ölkəsi haqqında Herodot və digər qədim müəlliflər bəhs etmişlər və Ön Asiyada Zaqros dağları yaylasında yerləşən bu ölkə mənbələrdə Uquz və ya Oğuzların ölkəsi adlanır. Uksiya və ya Oquz da mənbəyini Zaqros dağlarından götürüb Bəsrə körfəzinə tökülən və eynilə Karun adlanan çayın vadilərində yerləşirdi. Oquzların əcdadı olan quz və ya uz turanlı tayfaları həmişə çay kənarlarında məskunlaşmışlar və Okuz-quz-uz adı həm çay, həm də çay sahilində yaşayan xalq anlamı daşıyır.

Roman dillərinin böyük təsirinə məruz qalmış uksitan dili uksilərin uzun illər ərzində apardıqları mübarizə nəticəsində 1999-cu ildə Fransanın Uksitaniya bölgəsində və İtaliyanın uksilər yaşadığı bölgələrdə rəsmi dil statusu almışdır. İspaniyada Kataloniya bölgəsinin şimalında uksilərə məxsus Val de Aran inzibati bölgəsində uksi dili onun bir ləhçəsi olan aran dili adı ilə 1987-ci ildə rəsmi status almışdır. Katalon dili də uksi və aran dili ilə qohum dil olub iber dil ailəsinə aid edilir.

Maraqlı burasıdır ki, Aran sözü uksi dilində azərbaycan türkcəsində olduğu kimi eyni ilə düzənlik yer-vadi deməkdir. Aran dili uksi və qaskon dillərinin bir dialektidir. Fransanın Uksitania tarixi bölgəsinə Akvitaniya, Qaskoniya, Provans, Lanqedok və s. kimi boyük vilayətlər daxildir.

İtaliyada uksi dilində danışan geniş bölgə Alp dağlarının ətəklərində yerləşir və Pyemont, Turin, Liquriya, Kalabriya və Kuneo kimi vilayətlər bu bölgəyə daxildir.

Kataloniyanın ilk sakinləri iberlər olmuşlar. Kataloniyanın paytaxtı məhşur Barselona şəhərinin ərazisində turanlı iberlərin layetan tayfası məskunlaşmışdı. Laytanlar və Laktanlar eyni tayfanın müxtəlif qolları idilər. Layetanlar indiki Kataloniya ərazisində e.q. VIII əsrdən etibarən yaşadıqları tarixi mənbələrdə təsbit olunmuşdur. Layetanın Barselona ilə yanaşı Aylur (Ailur), İltur (İlturo), Baytul (Baitulon), Barken (Barceno), Eqar (Egara) kimi adları aydın şəkildə türkcə səslənən şəhərləri vardı. Heyvandarlığın inkişaf etdiyi iberlərin Laytan bölgəsində qədimlərdən etibarən yoqurtun eyni olan süd məhsulu başlıca ərsaq növündən biri kimi emal edilirdi. (Sanmarti J, Santacana J. 2005)

Kataloniyanın ən mühüm şəhərlərindən biri Turiya və ya Duriya çayının sahilində dağlıq ərazidə yerləşən Teruel adlı şəhəri və inzibati rayondur. Teruel/Turuel adının iber dilində "itur-elu" sözündən yarandığı və mənasının "turun yeri, doğulduğu, yarandığı yer" kimi izah olunur. (Miguel Cortes y Lopes. C III, 1836)



Sözün türk dilində izahı da eyni mənanı verir. Toponimin birinci hissəsini təşkil edən tur-öküz mənasındadır, ikinci tərkib hissə olan "elu" isə türk dilində eli olmaqla turların eli, yəni yeri şəklində izah oluna bilər.

Teruel və ya Turuel şəhərinin və inzibati bolgənin gərbində və bayrağında öküz, yəni tur təsviri həkk olunub. İber və ya indiki katalon və bask dilində bayraq "bandera" adlanır, bu söz qədim türk dilində bayraq adının "Badraq" formasına uyğundur. Maraqlı cəhət odur ki, turanlı kassilərin dilində də öküz "badar" adlanırdı.

Barselona adının etimalogiyası indiyədək inandırıcı bir şəkildə izahını tapmamışdır. Bizim fikrimizə görə Barselona adının kökünü təşkil edən Barsel adı türklərin qədim Barsel etnonomonin ekvivalentidir. Kataloniya vilayətinin adındakı sözün kökü kataul olub, türkcə qala mühafizəçisi anlamındadır. Özbək türklərinin tərkibində kataul tayfası indi də mövcuddur. (B.B.Радлов, T. 2. C. 1899, Səh. 1053)

Antik mənbələrdə İspaniyada qədimdə mövcud olmuş Turoka, Touran, Turiqa, Turiya kimi şəhərlərin adları qeyd olunmuşdur.

A.Virth Kataloniya adını Alanlarla əlaqələndirir. "Alanlar hunların təzyiqi altında öz yerlərindən köçərək qərb istiqamətində hərəkət edib Şərqi Avropaya yerləşdilər və bir hissəsi Dunay ətrafında məskunlaşdı, digər hissəsi burdan da qərbə doğru hərəkət edib 406-cı ildə germanların ərazilərinə yayıldılar və son məskən saldıqları yer Qalliya və İspaniya oldu. İspaniyanın Kataloniya bölgəsinin adı alan adından yaranaraq Qot və alan deməkdir". (A.Wirth, 1905, Səh. 320)

Kataloniyadan şimalda İspaniyanın mərkəzi dağlıq əyaləti qədimlərdə krallıq olan Kastiliya vilayətidir. Kastiliya adının mənası "qalalar ölkəsi" kimi izah olunur. Kastiliyanın yerləşdiyi ərazi İberiya dağlıq massivi (Masta İberia) adlanır. Fikrimizə görə Kastilya adı türk dilində kaş-tala sözünün fonetik ifadəsidir Türk dilində qaş/qaş sözü dağ yaylası, vadisi anlamındadır, "tala" isə düzənlik deməkdir. Kastil adının mənası türk dilində "dağ talası" və ya yaylasında yerləşən ölkə deməkdir. (ДТС, 1969, Səh. 431)

Qədim ərəb mənbələrində də Kastil adı türk dilindəki mənaya uyğun olaraq əslinə uyğun şəkildə "Qaştala" (قشتالة) kimi qeyd olunmuşdur. Kastiliya adı ərəblərin öz dilində al-Manşara kimi ifadə olunur və mənası "düzənlik ölkə" demək olub "qaş tala" adının tərcüməsidir. Kastiliya həqiqətən də 600-900 metr yüksəklikdə yerləşən böyük ərazini əhatə edən dağ yaylası və düzənlikdən ibarətdir. Bu baxımdan Kastiliya adı türkcə dağ yaylası anlamında "Qaş talası" adını doğruldur. İspan tarixi ədəbiyyatında Kastil adı latın dilində "qalalar ölkəsi" kimi izah olunur ki, bu adın gerçək izahına uyğun deyil.

İspaniyanın və fransanın ən qədim əhalisi turani tayfalar olmuşdur, onların dilindən qalma ən qədim türk sözlərindən biri olan "kasak" sözü yerli xalq olan qaskonların (qaskun) adında mövcuddur. II əsr tarixçisi Peripetli Dionis kimmerlərin

Qafqazda Kerket tayfaları ilə qonşuluqda yaşadıqlarını yazır. Qara dənizin Taman (Tuman) yarımadasında və Kuban çöllərində yaşayan Kerketlərin ən geniş yayılmış yerli adı Kassoqlar idi. Mənbələrin verdiyi məlumata görə Qassoqlar Kubandan köçərək Qara dənizin şimal ərazilərində yerləşmişlər. Görünür, sonradan onlar kimvir/kimmerlərin tərkibində qərbə doğru hərəkət etmiş və sonda Fransada məskunlaşmışlar. Kassoqlar yeni məskənlərində Qaskon adı ilə tanınmışlar.

İstər Qara dənizin şimalındakı çöllər, istərsə də Kuban və Don arası ərazilər Quz boylarının ən qədimdən məskunlaşdıqları ərazilər olmuşdur. Qassoqların Kuban çöllərindən gəlməsi haqqındakı fikir də bunu doğrulamış olur. Kuban, Don və Ukraynanın digər ərzilərində yaşayan Kazaklarla Qazaxıstan ərazisində yaşayan qasaxlar eyni etnik kökə malik olub Qus və ya Oğuz etnosuna mənsubdurlar. Sadəcə qazax türkləri yüz illər ərzində monqoloid tayfalarla qaynayıb qarışmaları nəticəsində öz ilkin avropoid Quz/Oğuz tipindən fərqli bir görünüşə malik olublar. Ukrayna və Don kazakları, qaqauzlar və Azərbaycan türkləri monqolların təsirinə məruz qamadıqlarından öz ilkin avropoid Quz/Oğuz antropoloji tiplərini qoruyub saxlamışlar.

Yuxarıda da qeyd etdyimiz kimi Uksilərin, Qaskonların və aranların yaşadıqları ərazilər qədimlərdə Uz adlanırdı. Qskonlar həm Fransa, həm də İspaniya ərazisində məskunlaşmışdılar.

Qaskoniya Fransanın cənub-şərqində Aralıq dənizi və Atlantik okeanı arasında yerləşən və İspaniya ilə sərhəd olan Akvitani vilayətinin tərkibində özəl bir bölgədir. Fransanın ən qədim əhalisi hesab olunan qaskonlar zaman-zaman formal olaraq Akvitaniyanın tərkibinə qatılsa da, həmişə öz müstəqilliklərini qoruyub saxlamışlar. Döyüşkən qaskonlar Fransaya deyil, İngiltərəyə daha çox bağlı olmuşlar. Qaskoniyanın qədim əhalisini təşkil edən kimvrlər və qalların bir hissəsi Britaniyaya köçüb getsə də, aralarında əlaqə daima mövcud olmuşdur. Ona görə də Qaskoniya əhalisi həmişə Britaniyaya meyl etmişlər. Zaman-zaman Qaskon hersoqları Akvitaniyada hakimiyyəti ələ keçirmişlər. 1154-cü ildən 1453-cü ilə qədər Qaskoniya İngiltərənin tərkibində olmuşdur.

Vilyam Humbolt və digər müəlliflər hesab edirlər ki, basklar İspaniyanın keltlər gəlmədən öncə ən qədim əhalisidir. Baskların içərisində belə bir inam vardır ki, onların əcdadları Bibliya əfsanəsindəki Tubalın rəhbərliyi altında Afrika üzərindən İspaniyaya Sumerdən gəlmişlər. Sumer dili və Bask dili ilə türk dilləri arasında mövcud olan yaxınlıq bu versiyanın gerçəyə uyğun olduğunu isbat edir. (Kennedy James, 1855, Səh. 181)

Françesko Molon yazır ki, Liqurlarla linqvistik və antropoloji cəhətdən yaxın qohumluq əlaqələrinə malik olan iberlər baskların məskunlaşdıqları Priney yarımadasının dağlıq şimal ərazilərinə müdaxilə etməyərək bütün İspaniyaya yayıldılar. Strabonun da yazdığı kimi liqurları özlərinə mənşə etibarı ilə qardaş hesab edən



iberlər İspaniyanın Turdetaniya adlanan cənubi İberiyada məskunlaşaraq 6 minillik tarixə malik qabaqcıl sivilizasiyanın əsasını qoydular. Liqurların iberlərlə eyni mənşəyə malik olmaları İspaniyadakı çoxlu yer, çay, dağ adları ilə də təsdiq edilir. Liquriyanın kitabxanalarındakı qədim manuskriptlərin dili də bunu təsdiq edir.

Fransanın liqurları öz etnik xüsusiyyətlərini İtaliya liqurları ilə müqayisədə daha az mühafizə edə bildilər. Fransaya axın edən keltlər Akvitaniyadakı liqurlarla qaynayıb qarışaraq onları assimiliyasiyaya uğrada bilmişlər. (Francesco Molon. 1880, Səh. 45)

İspan araşdırıcılar ölkələrində hind-avropalılara qədərki dönəmdə etrusklara aid etdikləri "ipo", "urqi", "uba" sonluqları ilə bitən çoxlu qədim toponimlər aşkar etmişlər. Heç şübhə yoxdur ki, bu sonluqlar türk dilinə aid olub "urqi"-uruk, "uba"-oba sözlərinin qədim fonetik formalarıdır. İspaniyada bu sözlərdən yaranan toponimlər Kordoba-Qurd oba, Onuba-On oba, Ossonoba-Uzun oba kimi türk sözlərindən ibarətdir. "Urqi" sonluğu ilə bitən toponimlər İsturqi-Üst uruq, Konisturqi-Qonqus uruq kimi türk sözlərindən ibarətdir. (Martin Almagro-Gorbea. La colonizacion Tartesica: 2010, Səh. 187-199)

Avropanın bir çox müəllifləri Tuballarıı Tibir və iberlərlə eyniləşdirirlər və bask dilini iber dili hesab edirlər. Bask adı bu xalqa qonşuların verdiyi addır və onlar özlərinin bask adlanmalarını qətiyyətlə rədd edir və öz xalqlarının adını Euskaldunac, dillərini isə Euscara adlandırırlar.

# XXXIV FƏSİL. İtaliya – Turanlı liqurların, iberlərin və etruskların vətəni

Appenin yarımadasında yerləşən və dünyanın ən qədim ölkələrindən olan İtaliya min illər ərzində əsas etibarı ilə Anadolunun cənubundan və şimaldan Alp dağları üzərindən gələn xalqlar tərəfindən məskunlaşdırılmışdır. İtaliya adı ilk zamanlar yarımadanın orta hissəsində yaşayan itali xalqının adını daşıyan kiçik bir vilayət olmuşdur. İtaliya ərazisində hind-avropalılardan öncə məskunlaşan tayfalar Turanlılar olmuş və bu ərazidə ilkin mədəniyyətin yaradıcılari da onlardır.

İtaliyanın XIX əsrdə böyük şəxsiyyətlərindən olan antropoloq və tarixçi Frančesko Molon Avropanın və İtaliyanın qədim tarixi və antropoligiyasına dair bir çox əsərlərin müəllifidir. Molon Avropanı məskunlaşdıran qədim tayfaların ilkin vətənləri, onların miqrasiyası və yerləşdikləri ərazilərin etnocoğrafiyanın müəyyən etmişdir. Molon tarixin ilkin dövrlərində Asiyanın böyük hissəsində Turan irqinin məskunlaşdığını və Buzluq erası sona çatdıqdan sonra ilk olaraq Turan irqinin Ural dağları üzərindən batıya və güney-batıya doğru hərəkət edərək Avropaya gəldiklərini yazır: "Turanlılar ilk öncə Avropanın güney bölgələrinə doğru hərəkət edərkən müxtəlif ərazilərdə dayanaraq məskən salmış və bir müddətdən sonra irəliləməyə davam etmişlər. Onlar ilk növbədə Aralıq dənizi hövzəsinə doğru yenmiş, Avropanın güney ərazilərində yerləşən İtaliyanı, İsveçrəni, Fransanın cənubunu və İspaniyanı məskunlaşdırmışlar". (Francesco Molon, 1880, Səh. 19)

"Ural və Altay dağları arasında yaşayan Turan xalqları əhliləşdirdikləri ev heyvanlarını getdikləri ərazilərə özləri ilə gətirmişdilər. Mərkəzi Asiyadan gələn Turanlıların ural-altaylılara mənsub liqur və iber qolu laplandlar və finlərdən sonra Avropaya gələn ikinci miqrasiya axını idi". (Francesco Molon. 1880, Səh. 22)

İtaliyanın XIX əsrdə digər görkəmli tarixçisi Arturo İssel samilər və arilər tarix səhnəsinə çıxmadan öncə liqur və iber etnik birliyinə daxil olan tayfaların Aralıq dənizi hövzəsinin geniş ərazilərində, o cümlədən Avropanın quzey-batı istiqamətində uzanan geniş ərazilərində məskunlaşdıqlarını yazmışdır. (Arturo İssel, Vol 2, 1892, Səh. 75)

Emanuel Kelesia Liqurların öz ilkin vətənləri olan Ural və Himalay dağ silsilərindən gəldikdən sonra öncə Fərat və Dəclənin yüksək yaylalarında məskunlaşdıqlarını, sonra İtaliyaya gələrək yerləşmiş olduqlarını yazır. Liqurlar öncə yaşadıqları Mesopotamiya ərazisindən bir çox adları da özləri ilə İtaliyaya gətirmişlər. Kimvirlərin varisləri olan liqurlar və digər tayfalar İtaliyanın yeddi vilayətində yaşadıqları XX əsr ərzində öz dillərini qoruyub saxlamışlar. (E.Celesia. 1863. Səh. 8)

Frančesko Molon 1887-ci ildə dərc olunan "İtaliyanın paleoantalogiyası" adlı əsərində liqurların və baskların Aralıq dənizi ətrafında məskunlaşmış turanlı tayfaların qalıqları olduqlarını çoxlu linqvistik, etnoqrafik və antropoloji dəlillərlə sübut edir. Molon bask və liqur dillərini müqayisə edərək onların eynilə turanlı və ural-altay mənşəyə malik olduğunu qeyd edir. Molonun bu fikirlərini İtaliyanın digər görkəmli tarixçisi Nikolucci də dəstəkləyirdi. Alman alimi Fon Eys də bask dili ilə türk dillərinin müqayisəli təhlilini və qrammatik qruluşunu araşdıraraq bask dilinin ural-altay dil ailəsinə mənsubluğu haqqında Molonun fikirlərini müdafiə etmişdir. (Francesco Molon, 1887, Səh. 76)

İber və liqurlardan ibarət iki qohum xalq Bəsrə körfəzinə qədər bütün Aralıq dənizi hövzəsinə yayılaraq İtaliyada, İsveçrədə, Fransada və İspaniyanın güneyində məskunlaşmış, lakin onlardan öncə gəlib yerləşmiş olan qohum xalq Baskların dağlarla əhatə olunaraq qorunan ərazisinə müdaxilə edə bilməmişlər. Mərkəzi Asiyadan gələn Turanlıların ural-altaylılara mənsub liqur və iber qolu laplandlar və finlərdən sonra Avropaya gələn ikinci miqrasiya idi. Liqurların turanlılara mənsub olduğu fikrinin ilk müəllifi də Nikolucci olmuşdur.

Nikoluccinin 1875-ci ildə yazdığına görə liqurlar İtaliyada neolit dövründən məskunlaşmışlar. Sonrakı dövrlərdə umbrilər, etrusklar, latinlər onları geniş ərazilərdən Pyemont tərəfə sıxışdırmışlar. Liqur tayfaları Alp dağları üzərindən gələrək ilk öncə Po çayı vadisində yerləşmiş, sonra bütün Appenin yarımadasına və hətta adalara yayılaraq məskunlaşmışlar. Liqurlar Oski (Uksi), Volski, Falski, Equa, Marsi, Sannit, Auronçi, Sabelli, Sikuli, Enet və s. tayfalardan ibarətdilər. (Francesco Molon F. 1887, Səh. 34)

Antropoloqlar Liqurları turanlı Alp irqinə mənsub olmuş bir etnos kimi qəbul edirlər. Liqurların məskunlaşdığı ərazilərdə Alp yer adları geniş surətdə yayılmışdı. Kökünü "Alb" sözünün təşkil etdiyi Alba, Albano, Alban toponimləri liqurların məskunlaşdığı ərazilərdə geniş yayılmışdır. Pampanio Melanın Albion adının Saturnun oğlunun adından götürüldüyü haqqındakı fikri inandırıcı deyil. Albano xalqı liqur mənşəlidirlər və Appenin yarımadası boyunca yayılaraq Latium (Latsio) ərazisində də məskunlaşmışdılar. (Emanuele Celesia. 1863. Səh. 14)

Emmanuele Kelesia Liqur sözünün önündəki "li"-nin ön şəkilçi olduğunu və etnonomin "gur" və ya "quri" ola biləcəyini yazır. Bizim fikrimizə görə isə Liqur adındakı "l" italyan dilinə xas ön şəkilçidir və "iqur" uqur-uqor etnoniminin qədim fonetik şəklidir.

Kelesia Alp dağlarının qarlı yamaclarında məskunlaşmış liqurların bu dağları öz dillərində alp-alb-alpi adlandırıldıqlarını yazır. Sözün mənası "ağ" və ya "ala yerlər" deməkdir. (Emanuele Celesia. 1863. Səh. 14)

İtalyan xalqının etnik kökünü Asiya mənşəli olduğu məsələsini araşdıran ingilis alimi Robert Ellis "Alp" sözünün turan dillərində "buz" və ya "qar" anlamı daşıdığını və bu sözün Uraldan və ya Qafqazdan köçüb gələn turan tayfalarından birinə məxsus ola biləcəyi fikrini irəli sürür. (R.Ellis, 1870, Səh. 22)

İtaliyanın ən böyük tayfalarından olan liqurlar iberlərlə birlikdə Avropanın arilərə qədərki ən qədim Turanlı etnosunu təşkil edirdilər. Liqurların e.q. I minilliyin ortalarında İtaliyanın şimalında dəniz sahillərində və Qalliyanın cənubi-şərqində böyük bir ərazidə yayılmaları yazılı mənbələrdə öz əksini tapmışdır. IV əsr müəllifi Avienin yazdığına görə liqurlar Şimal dənizinə qədər böyük bir ərazidə məskunlaşmışdılar. Lakin keltlər onları Aralıq dənizi sahillərinə sıxışdırdılar. Liquriya İtaliyanın şimalında Po çayı hövsəsində və Alp dağlarının cənub ətəklərində yerləşmiş böyük vilayətdir və liqurlarm bir hissəsi İsveçrədə və Fransanın Marsel bölgəsində də yaşamaqdadırlar. Keltlərlə qaynayıb qarışan liqurlar kelto-liqurlar adlanan yeni bir etnik birlik formalaşdırmışlar. Liqurların dili Romayaqədərki qeyri hind-avropa dillərinə və kelt dil qrupuna daxil edirlər. Liqurların germanların etnogenezinin formalaşmasında iştirak etdikləri də məlumdur.

Qədim zamanlardan Alp dağlarının ətəklərində yaşayan və dillərinin hind-avropa dil ailəsinə aid olmadığı qədim liqurların dilində alba/alp sözünü proto hind-avropa dilində Albis "ağ", Hal-bh "su" və Sumer-akkad dilində halbia-yaz, su qaynağı, su kütləsi kimi izah etməyə cəhd göstərirlər. (F.Perono. 2013, № 2, 15)

Lakin Avropanın və o cümlədən İtaliyanın turani xalqlarından olan liqurların dilindəki bu söz türkcədir. Alp sözü türkcə igid, cəsur, qəhrəman mənası ilə yanaşı dağlara aid edildiyi zaman həm də yüksək, ali, nəhəng anlamı da daşıyır. Alp/alb sözü çaylara aid edildiyi zaman yenə türkcə çətin, qorxulu anlamı da daşımaqdadır ki, o çayın keçilməsinin çətin və qorxulu olduğunu nəzərdə tutur, bu xüsusən dağlardan axan gur və sürətli çaylara aid edilirdi. Alp/alb sözünün izahı öncəki bölümlərdə verilmişdir.

Tədqiqatçıların diqqətini cəlb edən digər bir protoliqur sözü "qenu" sözüdür, bu sözü çənə/ağız (rus dilində podborodok) kimi tərcümə edirlər və çay ağzı olaraq mənalandırırlar, çünki liqurların şəhəri olan Genua və isveçrədəki Genova (Cenevrə) şəhərləri də çay ağzında yerləşmişdilər. (Delamarre X. 2003)

Göründüyü kimi liqurların dilindəki "qenu" sözü türk dialektlərində eyni məna daşıyan "çənə/çuna" sözünün fərqli fonetik variantıdır.

Roma liqurları tabe etmək üçün uzun müddət onlarla mübarizə aparmalı olmuşdur. Döyüşkən liqurlar apuan, dekiet, inqaun, oksubi, statiel kimi böyük tayfa birliyinə başçılıq edirdilər. Fikrimizcə turanlı hökmdar tayfa olan liqur adının türkcə digər bir izahı elin başçısı, hökmdarı mənasında olan Eliqür sözü ilə əlaqədar ola bilər. (ДТС, 1969, Səh. 170)

Liqur xalqı müxtəlif tayfalara bölünüb çeşidli dialektlərə malik olsalar da, onlar etrusklardan fərqli olaraq öz canlı dillərini qoruyub saxladılar. Alplardan Siciliyaya qədər məskunlaşmış liqurların dilləri vahid dil ailəsini təşkil edirdi. (Molon F. 1887, Səh. 36, 38)



Liquriya və Venesiya (Venetia) nə qədər bir-birlərindən uzaq olsa da eyni dilin fərqli dialektində danışırdılar. Po çayının ətrafındakı Albion, Ambron, Abelion, Berqion, Penn, Borman kimi yer adları qədim liqur dilindədir. (Molon F. 1887, Səh. 39)

Venetlər də liqur xalqının tərkib hissəsi kimi qəbul olunur.

İtaliyanın və Fransanın liqurları ayrı-ayrı tayfalardan olsalar da, onlar iberlərlə eyni ailəyə mənsub olub eyni xalq idilər. Sezar və Strabon liqurların və iberlərin dil, etnik mənşə və xarici görünüş baxımından eyni olub digər xalqlardan tamamilə fərqləndiklərini yazırlar. Hesiod malik olduqları qohumluq əlaqələrinə görə bütün Aralıq dənizi xalqlarını liqurlar adlandırırdı.

Françesko Molon İtaliyanın Liquriya və digər bölgələrində mövcud olan onlarca toponimi İspaniyanın İberiya bölgəsindəki yer adları ilə müqayisə edərək onların cüzi hərf dəyişikliyi ilə eyniyyət təşkil etdiklərini yazır. Misal üçün italiyadakı Albenqa, Asti, Astura, Kortona, Ebro, Lquriya, Norba, Oski, Tarkuniya, Tiber, Valenza yer adları İspaniyada uyğun olaraq Albeninqa, Asta, Asturia, Kortonensi, Ebro, Liqustina, Norbia, Oska, Taracco (Türk), Hiber, Valensia eyni şəkildə təkrarlanmaqdadır. (Molon F. 1887, Səh. 46)

İtaliya və İspaniya ərazisindəki xalqların üzərindən uzun illər keçməsinə baxmayaraq, iberlərlə liqurların timsalında öz varlıqlarını qoruyub saxlayan yaxınlığı onların eyni etnik mənşəyə malik olduqlarını sübut edir. Liquriyanın liqurları, Fransanın Akvitania və Sequan bölgələrindəki Provans, Dofin, Lanqedok liqurları arasındakı bənzərlik təkcə ölkə, bölgə omonimləri arasında və hidronim, yer, dağ toponimlərindəki zahiri bənzərlikdən ibarət olmayıb, hər iki xalqın dillərinin də bənzərliyə malik olduğunu və eyni etnik kökə mənsub olduqlarını sübut edir.

Liquriya mənşəli Akvitanlar yunan, qall və kelt etnik ünsürlərindən həmişə fərqlənmişlər. Akvitanlar Qalliyanın Sezara qarşı üsyanında iştirak etməmiş və buna görə də Avqustun dövründə Roma imperiyası çərçivəsində Qalliyanın digər ərazilərindən fərqli olaraq öz qanunlarına və inzibati quruluşlarına malik bir dövlət qurumuna malik olmuşlar. (Molon F. 1887, Səh. 47)

Avropanın bir çox müəllifləri iber və liqurlardan sonra italiyada məskunlaşan qədim xalqın turanlı mənşəyə malik pelasqlar, sonra umbrlar və toskanlar olduğunu yazırlar. E.Norris etruskları da pelasq və iskit-sak mənşəli hesab edirdi. "Avropadakı böyük sak-iskit axınının kökünü tirren-pelasqlar, yəni etrusklar təşkil edir. Buna şübhə edənlərə qarşı bunu deyə bilərəm ki, makedoniyalılar, epirlər və albanlar, hellen-yunanlılar istisna olmaqla, bütün İlliriya xalqları sak-iskitlərə mənsubdurlar". (Norris E. 1852, Səh. 234)

Robert Ellisə görə Toskaniyalılar və pelasqlar İtaliyanın aboriqen xalqları olub turanlılar idilər. Ümumiyyətlə, mümkündür ki, etrusklar və trakiyalılar qan-mənşə etibarı ilə daha çox turanlı idilər, nəinki onların dilləri. Sonradan bölgəyə köç edən qafqazlılar onlarla qarışaraq vahid xalq meydana gətirərək dillərinin korlan-

masına səbəb olmuşlar. Etrusk dili trakiya dilidir, ingilis dili isə alman dilidir. Etrusk dili Trakiyanın aristokrat dili idi. (Robert Ellis, 1870, Səh. 58)

Ən qədim zamanlardan Alp dağlarından axan çayların mənsəbindən başlamış Ankonaya qədər və Adriatik dənizindən Tirren dənizinə qədər olan ərazidə umbrlar məskunlaşmışdılar. Lakin Tessalikadan və Epirdən gələn pelasqlar onlara qalib gələrək bütün İtaliyada və həmçinin Etruriyada yayılaraq məskunlaşdılar. Pelasqlar Koroton şəhərini ələ keçirdilər və özləri də bir neçə şəhərin əsasını qoydular. Pelasqların bir hissəsi sonradan İtaliyanı tərk edərək Yunanıstana və digər ölkələrə getdilər. Sonrakı dövrdə e.q. 1100-cü ildə pelasqlar yenidən Lidiya sahillərindən İtaliyaya gələrək umbrları İtaliyanın yuxarılarına və orta ərazilərinə qovdular və öncələri burda məskunlaşmış pelasqların qalıqları və umbrlarla qarışaraq etrusk xalqını meydana gətirdilər. (Koch M. 1853, Səh. 5)

Ferqusson arxitektura və digər səbəblərə əsaslanaraq Pelasqların və Etruskların eyni turanlı mənşəyə malik olduqlarını, yalnız Turan dilinin fərqli dialektlərində danışdıqlarını qəbul edirdi.

İtaliyada məskunlaşmış digər xalqlardan biri də qallar idi. Onlar ölkənin şimalında Po çayının sahilləri boyunca məskunlaşmışdırar. Qallar iki qola bölünmüşdülər, Alp dağlarının arxasında yerləşmiş Transalp qalları və Alpların cənub ətəklərindəki Çizalp qalları. Po çayı ətrafında qalların qonşuluğunda liqurlar, venetlər və retlər də məskunlaşmışdılar.

Müasir tarix elminin gəldiyi nəticəyə görə qədim dövrlərdə İtaliyada dörd əsas tayfa birliyi mövcud olmuşdur: qallar, italilər, etrusklar və yunanlar. Bu tayfa birliklərinin tərkibində olan liqurlar, sambrinlər, umbrlər, latinlər, oskilər, messaplar İtaliya xalqının etnoqenezini təşkil edən qədim etnoslardır.

Hind-avropa mənşəli italilər Appenin yarımadasına daha gec dövrlərdə gəlmişdilər. Onların bu ərazidə yerləşmələrindən öncə Appenin yarımadasında artıq liqurlar, iberlər, pelasqlar və etruskların simasında Turan mənşəli xalqlar yüksək mədəniyyətin əsasını qoymuşdular. İtalilər əsası turanlılar təfindən qoyulmuş Roma mədəniyyətinin yaradıcıları deyil, onun davamçıları idilər. İtalilər ilkin dövrdə Abruzzo bölgəsində yaşayan üç əsas tayfadan ibarət idilər: Sabinlər, Samnitlər və Umbrilər. İtalilər Appenin yarımadasına e.q. II minillikdə Alp dağlarının arxasından gəlmişdilər. Tarixin sonrakı dövrlərində İtali adı tədricən bütün ölkəyə aid edildi.

Kiçik Asiyada ən önəmli xalq turanılar olmuş və onların böyük qismi qədim dövrlərdə ərazidə baş vermiş qarşıdurmalar nəticəsində öz yerlərini tərk edərək İtaliyada, Yunanıstanda və Aralıq dənizinin adalarında məskunlaşmışdılar. Turanlıların tərk etdiyi Kiçik Asiya ərazilərinə tədricən Balkanlardan hind-avropa mənşəli tayfalar gəlib yerləşmişlər.



Robert Ellis Adriatik dənizi və Alp dağları arasında yaşayan qətim Buqanları (euqanlar) İtaliyada turanlıların ən qədim qalıqları hesab edir və onların nə qallara, nə də venesiyalılara mənsub olmadıqlarını yazır. Euqanlar İtaliyanın ən qədim sakinlərindən idilər və ya liqur tayfa birliyinə mənsubdular və Adriatik dənizi ilə Alp dağları arasında məskunlaşmışdılar, onların burda 34 şəhəri vardı. Ərazini işğal edən venetlər euqanları Alp dağlarına sıxışdırıb yerlərindən qovdular. Onların əsas tayfaları stonlar və ya sitçenlər idi. Euqenlərin liqurlar olduğunu Pliniy və bir çox qədim tarixçilər təsdiq edir. (Robert Ellis, 1870, Səh. 22, 23)

Ellisin İtaliyanın qədim tayfalarından olan euqanları turanlı və liqurlara aid etməsi və onları "buqan" adlandırması böyük maraq doğurur, çünki Buqan adının mənası türkcə öküz deməkdir və buqanlar kassi tayfaları idilər.

Bir çox turanlı və türk tayfaları italiya xalqının etnogenezində müəyyənedici rola malik olmuş, çoxsaylı bilim adamlarının tarixi, arxeoloji, antropoloji və linqvistik dəlillərə əsasən türk mənşəli kimi qəbul etdikləri etrusklar Roma mədəniyyətinin formalaşmasında önəmli rol oynamış və bu dövlətini bünövrəsini qoymuşdular. Onlardan biri də Venetlər idilər. Venetlər əslində Anadolunun qədim turani xalqlarından olan enetlər idilər və Şərqi Avropaya köçdükdən sonra burda venet adı ilə tanındılar.

Venetlər Adriatik dənizinin şimal sahillərində Po çayının şimal-şərqində yerləşmişdilər. Antik müəlliflərin yazdıqlarına görə venetlər İtaliyaya e.q. XII-XI əsrlərdə Kiçik Asiyadan gəlmişdilər. Lakin qədim müəlliflər venetlərin əcdadları olan enetlərin Qara dənizin cənubunda Pflaqoniyada yaşadıqlarını yazırlar. Homer (e. q. 850-ci il) "İliada" dastanında e.q. 1250-ci il Troya müharibəsi zamanı enetlərin Pflaqoniyada yaşadıqları və bu müharibədə troyalıların müttəfiqi olan enetlərin çarı Pilemenin öldürüldüyünü yazır. Herodot da İliadada yaşayan venetlərin adını çəkir.

Tit Liviy yazır ki, çarları Pilemen öldürüldükdən sonra enetlərə rəhbərlik edən Atenor öz xalqını Pflaqoniyadan çıxarıb Adriatik dənizi ilə Alp dağları arasındakı əraziyə gətirdi və troyalılar ilə birlikdə bu torpaqlara sahib oldular. (Titus Livius. Ab Urbe Condita. 1986, liber I, 1)

Enetlərin hər iki kralının adı türkcədir. Pilemen adı Bilmən adının, Atenor isə Atiner adının Qədim fonetik formalarıdır. Pilemenin atası Paflaqoniya çarının adı Bisalt türkcə Basat adının qədim fonetik şəklidir. (ДТС, 1969, Səh. 67)

Enetlər qədim prototürk tayfaları idi, enet etnoniminin mənası nişanı olan, işarəli anlamındadır ki, görünür bu tayfalar bədənlərindəki hansı bir nişana, əlamətə görə isə digərlərindən fərqlənirdilər. (Mahmud Kaşğari, 2006, C 3, səh. 239)

Roma yazıçısı Yustin tussk (Troya) xalqının İtaliyaya Lidiyadan gəldiklərini, enetlərin isə indi yaşadıqları Yuxarı (Adriatik) dənizin sahillərinə Troya mühari-

bəsindən sonra öz başçıları Atenor tərəfindən gətirildiklərini yazır. (Марк Юниан Юстин. "История Флиппа". С-П. 2015, XX. 1. 7-8)

Efesli Zenedot yazır ki, venetlər Troya müharibəsində öz başçılarını itirdikdən sonra Avropadakı Frakiyaya getdilər və burda uzun zaman dolaşdıqdan sonra Adriatik Venesiyasına gəldilər.

Venetlər Frakiyaya getdikdən sonra Baltik sahilləri də daxil olmaqla geniş bir əraziyə yayılmışdılar. Onların bir hissəsi sonra Alp dağlarını aşaraq Adriatik dənizinin sahillərinə yendilər və sonradan bu dənizin sahillərində qüdrətli ticarət şəhəri olan Venesiyanın əsasını qoydular. Baltik dənizi sahillərində yaşayan venetlər slavyanlarla qonşuluqda məskunlaşmışdılar və uzun illər ərzində onlarla qaynayıb qarışdılar. Bu səbəbdən də bir sıra tarixçilər venetləri slayvyan mənşəli hesab edirlər.

İtaliya tarixində və etnogenezində önəmli rol oynamış Anadolu mənşəli xalqların, o cümlədən troyalı və turanlı türklərin məsələsi daha gec dövrə aid siyasi münasibətlərdə və diplomatik yazışmalarda da öz əksini tapmışdır.

İtaliyaya şəhər mədəniyyətini gətirən Etrusk tayfa birliyinin təşəkkül tapmasında Qərbi Anadoludan köçən Troyalıların mühüm rolu olmuşdur. İtaliyada birləşən saklar və troyalılar qaynayıb qarışaraq Etrusk adlı Türk boy birliyini meydana gətirmişlər.

Türk sultanı II Mehmet Fatih Roma papası II Piyo yazdığı məktubda deyirdi: "İtalyanların mənə düşmən olmalarına təəccüb edirəm. Biz də İtalyanlar kimi Troyalıların soyundanıq, yunanlılardan Hektorun intiqamını almaq onların da borcudur, lakin onlar yunanlıları müdafiə edərək mənimlə döyüşürlər". Atatürk də Troya savaşına münasibət bildirərək demişdir ki, "Dumlıpınarda Yunanlılardan Troyalıların intiqamını aldıq". (Yasemin Şiraz. 2006, Səh. 59)

Bir zamanla Avropa tarixçiləri Troyalıların Türk olduqlarını qəbul edərək onların köklərinin troyalı sərkərdə Turkusa bağlasalar da, sonradan Osmanlıların Avropadakı zəfərlərindən qorxuya düşüb bu fikirlərindən imtina etməyə başladılar.

İtaliyanın qədim tarixi ilə əlaqədar ən maraqlı mövzularından biri onun cənubunda mövcud olmuş Subaris dövlətinin tarixi ilə əlaqədardır.

Qədim müəlliflər Herodot, Diodor və Strabon e.q. VIII əsrdən başlayaraq İtaliyanın cənubunda Subar (Subaris) adlı şəhərin tarixi haqqında geniş bilgilər verirlər. Herodotun Tarix əsərində İtaliyanın cənubunda Subaris (Subar) şəhəri haqqında bəhs olunur və bu şəhərin qonşu Kraton şəhəri və ona yardım edən Sparta çarı Dorieus tərəfindən məhv edildiyi yazılmışdır. (Herodot, 2012, V, 44-46)

Bütün müəlliflər Subaris adının yunan və italyan dilində olmadığını etiraf etdikləri halda onun mənasını hind-avropa dillərində "su qovuşağı" şəklində izah etməyə çalışırlar. Krati və Subari çayları arasında yerləşən Subaris sözü türk dilində "su arası" deməkdir. Subaris adının İlliyada yerləşən dak-midiya mənşəli olduğu



da ehtimal kimi irəli sürülür. Şəhər Thuri adı ilə yenidən bərpa olunsa da, uzun müddət Subaris adı ilə adlanmağa davam etmişdir. Heç şübhəsiz Subarın və onun yerində yaradılmış Thuri şəhərlərinin Ön Asiyadakı qədim subar və hurri tayfaları ilə çox sıx bağları mövcuddur. (Н.Брагинская. Отечественные записки. №5, 2004)

## İtaliya və Turanlı Etrusklar

Etrusklar turanlı mənşəyə malik olub Avropada qədim və möhtəşəm mədəniyyətin, dünyanın ən böyük imperiya dövlətlərindən olan Roma imperiyasının yaradıcılarıdır. İtaliya və Etrusk tarixini araşdıran görkəmli tarixçilər etruskların mənşə etibarı ilə Avropa və Ön Asiyanın ən qədim etnoslarından olan turanlı pelasqlar olduğu fikrini irəli sürürlər. İngilis tarixçisi Smit Pelasqların Yunanıstanın və İtaliyanın cənubunun hind-avropalılara qədərki dövrdə məlum olan ən qədim turanlı sakinləri olduğunu, İoniya və onun qonşuluğundakı adaların ilkin dövrlərdə pelasqlar tərəfindən məskunlaşdırıldıqlarını yazır. (Smith Philip. 1888-Səh. 424)

Müasir dövrün tədqiqatçılarından amerikalı Emelina Riçardson etruskları birbaşa Turanla əlaqələndirərək yazır ki, İtaliyanın Kreton şəhəri pelasqların İtaliyada yerləşdikləri ilk şəhər olmuşdur. Pelasqlar İtaliyada yerləşdikdən sonra Thirsen adlanmağa başladılar. Kortona şəhəri İtaliyanın mərkəzində yerləşirdi, Umbriyada yerləşən və latinlərə məxsus olan bu şəhərdə məskunlaşmış Thirsenlər latinlər tərəfindən Etrusk adlandırılırdı. Thirsenoi adının yunanca deyiliş forması Turannosdur və kökü Turandır. Turan Kiçik Asiyanın batı sahillərini əhatə edən Lidiyada bir yer adı idi. Turan lidiya dilində şahzadə anlamı daşımaqla bərabər Turan Etrusklarda tanrı idi və yunanlar ona Afrodita deyirdilər. (Emeline Richardson. 1964, Səh. 5)

Etruskların mənşəyi haqqında ən geniş yayılmış versiya onların Kiçik Asiya və Troya mənşəli olmalarıdır. Bu versiyaya görə yunanlıların Troya şəhərinə qarşı müharibəsi və şəhərin işğal edilərək dağıdılması nəticəsində onlar öz yurdlarını tərk edərək Appenin yarımadasına sığınmışlar.

Troyalıları türk hesab edən XV əsr bizans müəlliflərinin fikirlərinə uyğun olaraq Etruskların Troya şəhərinə verdikləri "Truia" adı ilə iranlıların türkləri "Tura" adlandırmaları arasında mütləq bir bağlılıq vardır. Hər iki ad öntürklərin mixi yazılarda ifadə olunan Tur eponimi ilə əlaqədardır. Etrusk adı italyanca "Etruschi", latın dilində "Tusci", yunan dilində "Turronoi" şəklində yazılır.

Elmdə Etruskların özlərini Rasenna və ya Rasna adlandırdıqları haqqında yanlış bir fikir mövcuddur. Halikarnaslı Dionisin yazdığına görə etrusklar onlara başçılıq edən Rasena adlı rəhbərlərinin adı ilə özlərini rasena adlandırırmışlar. Lakin etrusk tarixini geniş tədqiq edən alman bilim adamı R.Lepsius etruskların mənşəyi məsələsinə dair özündən öncə söylənmiş fikirlərə tənqidi yanaşaraq belə

nəticəyə gəlmişdir ki, Dionisidən başqa heç bir tarixçi və şair etruskların özlərini Rasenalılar adlandırdıqlarını qeyd etməmiş və bütün Roma aləmində onlar etrusklar və ya Tusklar adlanmışlar. Bu faktları inkar edə biləcək hər hansı bir dəlil mövcud deyil, onlar tam gerçəkliyi əks etdirirlər. Etrusklara verilən Rasena adı bir falsifikasiya və saxtalaşdırmadır.

Tasitin təqdim etdiyi bir sənədə görə Kiçik Asiyadakı Sardisdən gələn bir nümayəndə heyəti Roma senatı qarşısında onların Tirrendən və Lidiyadan İtaliyaya köçüb gələn etrusklarla qan qohumluğuna malik olduqları və onların bir hissəsi kimi hələ də Kiçik Asiyada yaşadıqlarını ərz etmişlər. (Koch M. 1853, Səh. 8-9)

Rasena ideyasını ortaya atmaqda məqsəd diqqətləri etrusk sözünün Trusk və ya Türk adından ibarət olduğu haqqındakı gerçəklikdən yayındırmaqdır.

Etruskların etnik mənşəyi haqqında digər bir ehtimal onların kök etibarı ilə Sumerlərə bağlı olmalarıdır. Etruskların Kiçik Asiyadan gəldikləri haqqında ehtimal mövcuddur. Sumerin akkad çarı Sarqon tərəfindən işğalından sonra sumerlərin bir hissəsinin öz yurdlarını tərk edərək müxtəlif ərazilərdə, o cümlədən Kiçik Asiyada məskunlaşdıqları haqqında tarixi dəlillərə əsaslanan görüşlər irəli sürülmüşdür. Etruskların İtaliyada yaratdıqları 12 şəhərin ittafaqı əsasında etrusk dövləti yaranmışdır.

E.q. VII-V əsrlərdə öz qüdrətli yüksəliş dövrünü yaşayan etrusk dövlətinin sərhədləri Alp dağlarından başlayaraq Apenin yarımadasının ortasında Neapola qədər ərazini əhatə edirdi. Cənubda Pompey, Serranto, Herkulanium şəhərləri və Salerno körfəzi onlara məxsus idi.

Roma şəhərinin salındığı ərazi də etrusklara məxsus olmuşdur. Əfsanəyə görə Romanın əsası e.q. 754-753-cü illərdə Rem və Romul qardaşları tərəfindən qoyulmuşdur. Roma şəhərinin çiçəklənmə dövrü etruskların Tarkvinlər sülaləsinin e.q. 616-509-cu illərdəki hakimiyyəti zamanında olmuşdur. Sülalənin ilk hökmdarı Lutsiy Tarkviniy Prisk olmuşdur.

Romanın simvolu olan qurd heykəli e.q. VI əsrdə Roma yaxınlığındakı Vey şəhərinin ustaları tərəfindən hazırlanmışdır. Bu heykəlin tam eyni olan bir heykəl arxeoloji qazıntılar zamanı Türkistandakı Usruşanı dövlətinin Buncikət şəhərinin qazıntıları zamanı aşkar edilmişdir.

XX əsrdə Roma Forumunda qazıntılar zamanı içərisində etrusklara məxsus kremasiya külləri olan çadıra bənzər çoxlu urnlar aşkar edilmişdir. Bu urnlar forma etibarı ilə türk çadırları ilə eyniyyət təşkil edirdilər. (Ш.Миннразов. 2007, Səh. 149-150)

İtaliya tarixində böyük rol oynamış Etruskların yarımadaya gəlmə tarixi mübahisələrə səbəb olmuşdur. Etruskların İtaliyaya gəlişi ümumi olaraq e.q. I minillik qəbul olunur.



Qədim Etruriya indiki Toskana bölgəsində Appenin yarımadasının şimali-qərb ərazisində Arno və Tibr çaylarının arasında yerləşirdi. Avropa mədəniyyətinin əsası iddia edildiyi kimi hind-avropalı yunan/ellinlər tərəfindən deyil, turanlı ön türk mənşəyə malik etrusklar tərəfindən qoyulmuşdur. Etrusklar öz dövrlərində əsasını qoyduqları mədəniyyət müasir Avropa mədəniyyətinin özülünü təşkil edir. Etruriyanın mərkəz şəhəri Tarkviniya idi. Şəhər öz adını etruskların ulu əcdadı Tirrenin qardaşı və ya oğlu Tarxunun adından götürmüşdü. Likofron Lidiyadan köç edərək İtaliyaya gələn və Heraklın qanını daşıyan Tarxunun və Tirsenin ulu əcdadının "qızılı-boz rəngli qurd" olduğunu yazır. Əfsanəyə görə Tarxun və Tirsen Heraklın oğlu Telefdən törəmişdilər. (Немировски А.М. 1983, Səh. 23)

Herakl bir ellinli deyildi, o öz damarlarında turanlı qanı daşıyırdı.

E.q. V əsrdə yaşamış yunan tarixçisi Herodot etruskların İtaliyaya Kiçik Asiyadakı Lidiya ərazisindən gəldiklərini yazmışdır. Onun yazdığına görə tirren və ya tirsen adlandırdığı etrusklar fəlakət dərəcəsindəki quraqlıq və aclıq nəticəsində öz yerlərini tərk etməyə məcbur olmuşdular. Onlar öncə Umbriyada Veyi şəhərində yerləşmişdilər. Arxeoloqlar dəniz vasitəsilə belə bir köçün mümkün olmadığı düşüncəsi ilə Herodotun bu məlumatını şübhə altına almışdılar.

2004-cü ildə İtaliyanın Turin şəhərindən Alberto Piazza e.q. VII-III əsrlərdə yaşamış etrusklara aid 80 iskelet üzərində DNA genetik araşdırması apararaq onu türklərin genləri ilə qarşılaşdırmış və etruskların Türkiyədən İtaliyaya köçdüklərini sübut etmişdir.

Alman misirşünas alimi A.Erman etruskları e.q XIII-VII əsrlərdə Aralıq dənizinin şərqində yaşayan "dəniz xalqı" olan və Misirə basqınlar edən əfsanəvi Turşa xalqı ilə eyniləşdirir və Turşaların dəniz xalqlarının rəhbərləri olduğunu yazır. (Adolf Erman, 1885)

Tarixçi Mirsilin yazdığına görə Lesbos adasının sakinləri tirren adlanırdılar, lakin onlar uçan quşlar kimi ətraf ərazilərə tez-tez səfərlər etdiklərindən onlara pelasqlar deyilirdi (pelasq sözü yunanca durna kimi izah edilir).

Pelasqların adı Misirə basqınlar edən yeddi "dəniz xalqının" sırasında çəkilir. Herodot yazır ki, ellinlər gəlmədən öncə Ellada Pelasqiya adlanırdı. Başqa bir tarixi versiyaya görə tirrenlərlə pelasqlar eyni xalqdır və pelasqlar ellinlər tərəfindən Yunanıstandan qovulduqdan sonra İtaliyaya gələrək burda Kroton şəhərini ələ keçirmiş tirrenlərlə, yəni etrusklarla qaynayıb qarışmışlar. Lesboslu Qellanikanın yazdığına görə ilk zamanlar tirrenlər pelasqlar adlanırmışlar, onların axırıncı kralları Nanın dövründə ellinlər tərəfindən öz yerlərindən qovularaq gəmilərlə İoniya körfəzinə getmiş və ölkənin dərinliklərində Kroton şəhərini salmışlar. İndi həmin yerlər Tirreniya adlanır. Qazıntılar zamanı Lemnos adasından tapılan yazı nümunələri qrammatik quruluş etibarı ilə etrusk dilinə çox bənzəyir. Etruskların və ya tirrenlərin İtaliyaya gəlişi Troya müharibəsindən sonra Eneyin öz

adamları ilə bu ölkəyə gəlişi ilə eyni vaxta təsadüf edir. Tit Liviy etruskların şimal tərəfdən Alp dağlarını aşaraq gəldiklərini və onların alplardakı ret xalqı ilə qohum olduqlarını yazır.

Bibliyanın xalqların mənşəyi bölümündə Yafəsin Qomer, Maqoq, Maday, Yavan, Tubal, Mesex və Tiras olmaqla yeddi oğlu olduğu bildirilir. Burda Tiras adı mənbələrdə adları qeyd olunan Tirren və Tursen adları ilə eyniyyət təşkil edir. Misir fironları Menatep və III Ramsesin kitabələrində Misirə e.q. XIII-XII əsrlərdə hücum edən "dəniz xalqları" içərisində Turşa xalqının da adı qeyd olunmuşdur. XIV əsrə aid Misir mənbələrində Yan-Tursa adında bir saray məmurunun adı çəkilir. Yan sözü misirlilərin dilində ölkə demək olduğundan burda Tursa adlı bir xalqdan və ya ölkədən bəhs olunur. (Phlipp Ammon, 1956, Səh. 6)

Latinlər İtaliyanın ən qədim xalqlarından hesab olunur. Latin bölgəsi Appenin yarımadasının mərkəzində Tiber çayının aşağı axarlarında yerləşir. Alban dağ silsiləsi və Alban gölü Latina ərazisində yerləşir. Əfsanəyə görə Troyadan İtaliyaya gələn Eney Latiya kralının qızı ilə evlənmişdi. Sonradan Eneyin oğlu Askaniy Latinya ərazisində Alba gölünün sahilində Alba Lonqa adlı şəhər salmışdı və Latiyanın mühüm şəhərləri olan Asturu, Arisiyanı, Qabiini, Tibur, Tuskulum və digər şəhərlərin ittifaqını yaratmışdı. E.q. VI əsrdə latinlər qüvvətlənərək digər italik tayfaları ilə birləşib etruskları Romadan qovaraq mərkəzi hakimiyyəti ələ keçirdilər. Latinlərin ən mühüm şəhərlərindən biri Tirren dənizinə tökülən Astur çayının ağzında yerləşən Astur şəhəri idi. Adından göründüyü kimi bu qədim şəhər qədim türk etnonimilə əlaqədar olub iki qədim eponimi As və Turu öz tərkibində birləşdirmişdir.

İtaliyanın qədim tayfalarından biri Latsia vilayətində məskunlaşmış rutullardır. Rutullar Adriatik dənizinin sahillərində İtaliyanın orta ərazisində məskunlaşmış latin tayfa birliyinə daxil idilər. Rutulların çarı Turn Vergilin "Eneya" poemasının qəhrəmanıdır. Eney Troya müharibəsindən sonra atası Anxis və oğlu Askani ilə birlikdə İtaliyaya gəlmişdilər və Latinlərin kralı onu səmimiyyətlə qarşılamışdı.

Vergilin təqdim etdiyi rəvayətə görə Turn kral Latinin qızı Laviniya ilə evlənmək istəmişdir. Lakin Latin qızını Troya müharibəsindən sonra İtaliyaya köçüb gəlmiş Eneyə verir. Bu məsələ Turnla Eney arasında savaşa səbəb olur və Eney döyüşdə qalib gələrək Turnu öldürür. Turnu öldürdükdən sonra Eney Latinin qızı Laviniya ilə evləndi və Silviya adlı bir oğulları oldu. Eney arvadının şərəfinə Lavini adlı bir şəhər də saldı, lakin oğlu Askani bir neçə ildən sonra bu şəhərdən çıxıb e.q. 1152-ci ildə Alba Lonqa adlı yeni bir şəhər saldı və Yuli adını qəbul edərək İtaliyanın məhşur Yulilər sülaləsinin əsasını qoydu. İlk roma imperatoru Yuli Sezar da Askanoyin törəməsi olub bu sülaləyə mənsub idi. Eneyin nəticələri Rem və Romul e.q. 753-cü ildə Roma şəhərinin əsasını qoymuşdular.



Askaniy Yul adının etimalogiyasına gəldikdə bu ad türk dilində izah edilə bilən As-kan olmaqla iki tərkibdən ibarətdir. As qədim türk tayfasının adıdır, kan isə xan sözündən ibarət olub hakimiyyət tituludur. Yul sözü isə türk dilində Ulu sözünün fonetik variantıdır. Beləliklə, Askaniy Yuli adının mənası Asların Ulu Xanı anlamındadır. Yuli sözü sonradan Ulu mənasında Roma hökmdarlarının və hakimiyyət təmsilçisi olan digər yüksək rütbəli sərkərdə və əyan patrislərin adlarına titul kimi əlavə olunurdu.

Askaniyin oğlu Silviyanın varislərindən olan Prikanın Numitor və Amuliy adında iki oğlu olmuşdu. Atası Silviyalılar sülaləsinin varisi kimi Numitoru təyin etmişdi. Lakin Amuliy qardaşına qarşı qısqanclıq hissi bəsləyərək onu hakimiyyətdən uzaqlaşdırdı və onun bütün kişi nəslini məhv elədi. Qardaşı qızı Rey Silvianı rahibəliyə məhkum edərək məbədə göndərdi. Lakin qız sirli bir şəkildə hamilə qaldı və iki ekiz oğlan doğdu. Amiliy uşaqları Tibr çayına atmağı öz xidmətçilərinə həvalə edir. Uşaqları çaydan dişi qurd xilas edərək əmizdirir və bu halda uşaqları bir çoban tapır. Çoban uşaqları evinə gətirir və Larentsiya adlı arvadına verir. Larentsiya latın dilində dişi qurda deyilir. Dişi qurd bəslədiyi Rom və Romul əfsanəsi iki uşağı əmizdirən dişi qurd heykəlində öz əksini tapmışdır. Əfsanəyə görə Romul onu öz südü ilə bəsləyən dişi qurda ehtiram əlaməti olaraq kürəyində qurd dərisi ilə gəzərmiş. Bu əfsanə Türkü xilas etmiş Aşina əfsanəsi ilə bənzərlik təşkil edir.

Romul və Rem adını alan və çobanlıqla məşğul olan uşaqlar ovçuluqda mahir güclü və cəsur gənclərə çevrildilər. Bir çox macəradan sonra öz ətrafına tərəfdarlarını toplayan Romul və Rem qardaşları babaları Numitor ilə barışır və öz hakimiyyətlərini genişləndirmək üçün Roma şəhərinin əsasını qoyurlar. Mübahisə zamanı Romul qardaşı Remi öldürür və Romanın yeganə hökmdarı olur. (Тит Ливий. 1989, кн. I, Т I, 9)

Tit Liviyin yazdığına görə Etrusk Roma dövlətinin ilk çarı Lutsiya Tarkvini Prisk (m.ö. 616-578) olmuşdur. Tarkviniy yunan Lukamonun və etrusk zadəgan qızı Tanakvilin oğlu idi. Tarkviniyin varisləri zamanla dövlətin sərhədlərini genişləndirərək e.q. 525-ci ildə on iki şəhər dölətinin ittifaqını yaratdılar. Targunius adı Etruskların Tarxu adının latın dilində ekvivalentidir. Tarqunius adı sonradan Romada Etrusk aristokrat əyan sülaləsinin tituluna çevrilmişdir. Etruskların Atria şəhəri öz adını Adriatik dənizinə vermişdir. (Emeline Richardson, 1964, Səh. 66)

E.q. 509-cu ildə latınlar Etrisk çarı Qürurlu Tarkviniyi hakimiyyətdən devirdilər. Bununla da Romada hakimiyyət forması tiranlıqdan Respublika idarəçilik formasına çevrildi və iki konsul tərəfindən idarə olunmağa başladı. Romada hakimiyyətin əldən verilməsi etruskların getdikcə daha da zəifləməsinə səbəb oldu.

Romalılar arxitekturada, incəsənətdə, dini etiqad, mifologiya və qladiator döyüşləri kimi bir çox sahələrdə əldə etdikləri nailiyyətlərini, hətta dəfn adətlərini

etrusklardan irsən qəbul etmişdilər. Bir çox tədqiqatçılar da Roma dövlətinin qurucularının etrusklar olduğu fikrini müdafiə edirlər. Roma şəhərinin əsasının e.q. 753-cü ildə qoyulması tarixi etruskların tarix səhnəsinə qədəm qoyması dövrünə təsadüf edir. Yazılı qaynaqlarda əks olunmuş əfsanələr də sonuncu Roma hökmdarlarının etrusk-korint mənşəyə malik olduqları göstərir.

İsveçrəli tarixçi Filipp Ammon "Roma Rasna-Romanın etrusk kökləri" adlı əsərində arxeoloji və yazılı mənbələrə əsaslanaraq Roma dövlətinin və mədəniyyətinin yaranmasında etruskların iştirakını sübut edir. O Romul haqqındakı əfsanənin etrusk mənşəli olduğunu və ilkin dövrlərdə Qurd təsvirləri etrusk sənətində mühüm yer tutduğunu qeyd edir. Etrusk ərazilərində üzərində iki uşağı əmizdirən dişi qurd təsviri olan etrusklara aid güzgü və heykəl aşkar edilmişdir. Romalılar dişi qurdun əmizdirmə səhnəsini təsvir edən qədim totem motivlərini Etrusklardan mənimsəmişdilər. (Phlipp Ammon. 1956, Səh. 1)

Romul və Rom Roma şəhərinin əsasını Kvadrat adlı bir yerdə qoymuşdular. İlk bünövrəni qazarkən göydə on iki quzğun peyda olmuşdur. Əfsanəyə görə bu quşun gəlişi bədbəxtliklə nəticələnir. Həqiqətən də iki qardaş arasında şəhərin bünövrəsi məsələsində mübahisə baş verir və Romul Remi öldürür. Onların dostları arasında da toqquşma qanla nəticələnir. Plutarxın yazdığına görə qanlı qarşıdurmada Remin öldrülməsində ittiham edilən Romulun dostu əslən etrusk olan Zerel vətəni Etruriyaya qaçdığı üçün ona "keler" adı qoymuşlar və bu ənənəyə uyğun olaraq romalılar hər bir çevik, cəld və ayaqdan yüngül adamı "keler" adlandırırdılar. (Плутарх. Ромул. 1994, T1, Səh. 9-13)

Romanın Romuldan Tarqinius Superbusa qədərki yeddi əfsanəvi kralından dördü etrusk mənşəli idi. Romada hakimiyyət sülaləsinin əsasını qoymuş Romulun etruskca adı Rumle olmuşdur.

Romulilər ilkin onaltı yerli tayfaların birincisi idilər. Romul dövləti idarə etmək üçün Senat adlı dövlət quruluşu müəyyən etmişdi və onun 30 Kuridən ibarət vətəndaş bölməsini yaratmışdı və bunlar etruskca Ramne, Titi və Lukri adlanan üç tayfanı təmsil edirdilər. Roma inzibati ərazi bölgüsünə uyğun olaraq triba adlanan üç tayfa ərazisinə bölünmüşdü və hər tribaya, cəmiyyət içərisində müəyyən təsir gücünə və hörmətə malik tribun adlanan görkəmli əyanlar/patrisilər başçılıq edirdilər. Hər bir triba kuriy adlanan on quruluşa və ya hissəyə bölünmüşdü və hər birinə kurion adlanan yenə nüfuzlu şəxslər başçılıq edirdilər.

Latın dilində triba sözü özü, aid olan, mənsub olan mənasındadır və konkret bir tayfaya mənsubluğu bildirir. Fikrimizcə triba öz təyinatına uyğun olaraq türk dilində "tirə" sözünün dəyişik fonetik formasıdır və Roma xalqını təşkil edən tayfa bölgüsünü, yəni tirələrə bölgünü özündə əks etdirir.

Kuri sözünün latınca lüğəti mənası "kişilər birliyi" deməkdir və on genin birləşdiyi icmaya kuriya deyilirdi. Kuriya inzibati bölgü quruluşunun mühüm mərhələsini təşkil edirdi və nüfuzlu patrisilərin birliyindən ibarətdi. Fikrimizə görə kuriya sözünün kökünü türkcə "qur" və ya "kuru" sözləri təşkil edir və qurmaq, qurulmuş anlamı ilə yanaşı, ləyaqətli, şöhrətli mənası daşıyıb həmçinin titul kimi istifadə olunurdu. (ДTC, 1969, Səh. 467) Hər Kuriya on genin, yəni nəslin ləyaqətli kişilərindən – patrisilərdən qurulan birliklər idi.

Roma dövlətinin idarə edicilər təbəqəsi əsl adları latınca "patrikis" və ya "patrikios" olan patriklər romanın əsilzadə nəsillərinə mənsub idilər. Patrikis adı türk dillərində "batur və kişi" olmaqla iki tərkibdən törəmişdir və mənası igid, qəhrəman insanlar deməkdir. (ДTC, 1969, Səh. 89)

Roma xalqının digər bir hissəsi patrisilərdən fərqli olaraq cəmiyyətin aşağı təbəqəsini təşkil edən plebeylər adlanırdılar. Plebeylər roma xalqının ilkin kökünü təşkil edən üç qurucu tayfa olan latin, sabin və etrusklara aid deyildilər. Plebeylər daha gec zamanlarda köçmən olaraq gəlib roma əhalisinin tərkibinə qatılan insanlar idilər. Plebeylər ikinci dərəcəli insanlar hesab olunurdular, vətəndaşlığa malik deyildilər və dövlətin idarəsində iştirak etmirdilər. Patrisilərə qarşı uzun mübarizədən sonra plebeylər də bir çox siyasi və vətəndaşlıq haqları əldə etdilərsə də, yenə də bir çox məsələlərdə patrisilərdən aşağı haqlara malik idilər.

Plebey sözünün latınca əsli plebis və plebes kimi ifadə olunur və sözün lüğəti mənası "dolmuş" və ya "dolu, çoxlu" daha dəqiqi, artıb çoxalmış deməkdir və bu söz sonradan sadə xalq və kütlə mənası daşımışdır. Sözün bu cür mənalandırılmasının səbəbi sonradan roma ərazilərinə köçüb gələrək romanın köklü xalqı ilə müqayisədə azlıq təşkil edən xalqların öz hüquqlarını müdafiə etmək üçün patrisiya adlanan yerli hakim xalqa qarşı birlik yaratmalarıdır. Lakin tədricən artıb çoxalaraq say baxımından üstünlük qazanmış, vətəndaşlıq və siyasi hüquqlar əldə edərək yerli xalqa qoşulmuş və əhalinin ikinci əsas təbəqəsini meydana gətirmişdilər.

Halikarnaslı Dionisiy yazır ki, Romul dövləti idarə etmək üçün qədim roma tayfalarının böyükləri olan patrisilərdən ibarət yüz nəfər üzvü olan senat təsis etdi. Senat kəliməsi latınca senatus sözündən olub ümumi mənası "ağsaqqallar şurası" və "qoca" deməkdir. Senat dövlətin ali orqanı idi. Senat öz qruluşu etibarı ilə dövləti idarə etməkdə malik olduğu səlahiyyətlərə görə türklərin kengeşi ilə bənzərlik təşkil edirdi. Kenqeşdə olduğu kimi senatın da yaradılmasında məqsəd xalqın nüfuzlu təbəqəsini dövlətin kollektiv idarəçilik sisteminə daxil etmək idi.

Roma vətəndaşlarına məxsus "toqa" adlanan və yundan toxunmuş xüsusi bir üst geyim forması mövcud idi. Bu ağ rəndə ellips formasında olub bədənin ətrafına sarılırdı. Öncə bütün Roma vətəndaşları olan insanlar bu geyimdən istifadə edirdilər sonradan o yalnız kişilərə aid bir geyimə çevrildi və onun rəngi əhali zümrəsinin təbəqələrinə uyğun şəkildə müəyyən olundu.

Dövlətdə yüksək vəzifəyə malik olanlar kandida adlanan ağ rəngli toqaya bürünürdülər. İmperator, sərkərdələr və triumviratlar mor rəngdə toqa geyinirdilər. Toqa sözü türk ləhcələrində toxuma mənasında tokı/toka sözünün ekvivalentidir və bu yundan toxunan parça idi. (Радлов, T V, 1998, Səh. 1145)

Sumer və xattilərdə də toxunan parça, paltar Tuq/toq adlanır. (Edzard D. Sumerian Grammar. Səh. 9)

Maraqlı cəhət ondan ibarətdir ki, etrusklarda olduğu kimi hititlərdə də parça, qumaş sözü "Tuq" kimi ifadə olunurdu. Türklərdə yun "tüq" adlanırdı.

İlk öncə ali icra edici səlahiyyətlərə malik olan konsullar yalnız hakim təbəqə olan patrisilərdən seçilirdilər, lakin plebeylərin inadlı mübarizəsindən sonra konsullardan biri plebeylərdən seçilməyə başlandı. Roma imperiyaya çevrildikdən sonra konsullar öz hakim mövqelərini əldən verdilər və konsulluq məşvərətçi bir orqana çevrildi.

Etrusk dini inanclarının və mifologiyasının Yunan və Roma mifalogiyası üzərində böyük təsirə malik olmuşdur. Etrusk dini sistemində kahinlik və oncəgörmə-kəhanət önəmli yer tuturdu. İki növ kahinlər vardı: Ayqurlar-quşun uçmasına görə baş verəcək hadisələri müəyyən edirdilər, Haruspiklər isə heyvanın qara ciyəri ilə baş verəcək hadisələri kəhanət edirdilər. Etrusklarda da, sak və türklərdə olduğu kimi çubuqlarla da fala baxma ənənəsi mövcud idi.

Etruskların Ayuqur kahin zümrəsinin kökü Anadoluda Xatti xalqının Auqur kahinlər təbəqəsinə bağlı idi. Auqurlar qədim dövrlərdə quşları və heyvanları seyr edərək tanrıların iradəsini şərh edir, baş verəcək hadisələri yozur, gələcəkdən xəbər verirdilər. Auqurlar Hatti cəmiyyətində önəmli nüfuza və mövqeyə malik bir zümrə təşkil edirdilər. Onlar kahinliklə yanaşı Hatti ordusunda və dövlət idarəçiliyində yüksək rütbəli məmurlar kimi önəmli vəzifələr də tuturdular. (Daliah Bawanzpeck. 2006)

Yunan mifalogiyasına Herakl adı ilə tanınan Etruskların mifiq qəhrəmanı Herakl türk dilində Erkliq sözünün fonetik şəklidir və mənası güclü, qüdrətli deməkdir. (ДТС, 1969, Səh. 180) Herakl tanrı adı Türklərin ilk insan və tanrıları olan Erlik adı ilə də bənzərliyə malikdir.

Etrusk tanrılar panteonunda türk eponim və ya teonimlərini xatırladan tanrı adları mövcuddur.

1. Tin – etruskların ali tanrısı olub ildrım və göyüzü tanrısıdır, onun anlamı "işıqlı gün" deməkdir, tin sözü dilimizdə dan yeri, sübh işığı anlamında "dan" sözünün fonetik şəklidir. Tin sumer dilində ruh anlamı daşıyır.

2. Turan – etrusklarda gözəllik, məhəbbət və doğurqanlıq tanrıçasıdır. A-Tura sumerlərdə *ana bətni*, doğulma yeri deməkdir.



3. Taq – etruskların qəhrəmanı və eponimi idi və mənası torpaq kimi izah olunur. Əfsanəyə görə əkin zamanı torpaqdan bir uşaq çıxmış və insanlara yeni bir dini təlim etmiş və möcüzəvi şəkildə yox olmuşdur.

4. Alpan – çobanları himayə edən tanrı, müalicəvi, səmavi su kultu ilə əlaqədardır. Alup sumer-akkadlarda öküz anlamı daşıyır.

5. Ayta – yeraltı dünyanın tanrısı.

6. Usil – etrusk günəş tanrısı idi.

Yunan mifalogiyasının digər qəhrəmanı Odisseyin etrusk mifalogiyasında prototipi latın şriftləri ilə "Uthste" kimi, etrusk yazısı ilə "ouste" şəklində yazılır. Bu söz türk dilində "üstün" və ya "üstdə" sözünün eynidir və üstün olan, üstünlük qazanmış mənasındadır.

Etrusk dilində Troya Truia şəklində yazılır, troyalı sözünün etrusk dilində yazılışı isə Truial formasındadır, sözdəki "l" sonluğu Türk dillərinə xas "li" mənsubiyyət şəkilçisinin qısaldılmış formasını əks etdirir.

1885-ci ildə Yunanıstanın Lemnos adasında Kaminia kəndində bir kilsə divarında tapılmış daş lövhə üzərindəki yazılar etrusk dili ilə cüzi fərqlə eyniyyət təşkil edirdilər. Qədim yunanlar bu yazı sahiblərini barbar adlandırırdılar. Mətndəki sözləri etrusk dili əsasında izah etmək mümkün olmuşdur. Mətndən anlaşıldığına görə *yazının* sahibi olan lemnosluların mədəniyyəti e.q. II minilliyə aid olub Miken mədəniyyəti arealına mənsub idi və sonrakı illərdə ada yunanlılar tərəfindən işğal olunmuşdu. Qədim lemnoslular adanı Ramaniya adlandırırdılar. Etrusklarda Murina soyadı geniş yayılmışdı və bu soyadı daşıyanları Murinal, yəni "l" mənsubiyyət şəkilçisi əlavə etməklə Murinalı adlandrırdılar. (P.Ammon, Die Etrsk, səh. 5)

Lemnosun tapılmış həmin daş kitabədə Etrusk adı etrusk dili üçün xarakterik olan sözün əvvəlinə "e" səsi artırılmadan qədim deyiliş forması ilə "Turçai" şəklində yazılmışdı. Etrusk dil araşdırıcılarının gəldikləri qənaətə görə sözlərin əvvəlinə "e" hərfi əlavə etmək etrusk *dili* üçün xarakterik özəllikdir. Bu qaydaya uyğun olaraq etrusklar Tursai adının əvvəlinə "e" hərfini qoşaraq adı Etrusai şəklində ifadə edirdilər. (Phlipp Ammon, 1956, Səh. 5)

Flipp Ammonun fikrinə görə Roma *adı da kök etibarı* ilə etrusk məşəlidir və etruskca Ruma *sözündən götürülmüşdür. Ruma tusklar tayfasına mənsub Romullar sülaləsinin* əsasını qoymuşdu. Ovidi əmizdirənlərin tanrıçasının Rumina adlandığını yazır. Bu tanrıçaya məxsus əncir ağacının altında tərk edilmiş ekiz Romul və *Remi dişi qurd* əmizdirmişdi.

Aisar (as-ər) sözü *etrusk dilində* tanrı deməkdir. Bir çox qədim xalqların və o cümlədən etruskların Aisar tanrı adının kökü *sumerlərin* Asar əkinçilik tanrısına bağlıdır.

II əsr tarixçisi Suetonun yazdığına görə Roma imperatoru Avqustun heykəlini ildırım vuraraq heykəlin potstamentindəki Kaiser (Caiser) sözündəki "k" hərfini

salmış və yerində etruskca allah mənasında olan "aiser" sözü qalmışdır və bir müddətdən sonra Avqust ölmüşdür. Etrusk kahinləri olan haruspiqlər bu hadisəni ilahi əlamət kimi yozmuşdular. II-III əsr müəllifi Dio Kassinin yazdığına görə etrusk dilində allah "ais" deməkdir və aiser cəm halını bildirir və allahlar mənasındadır. (Phlipp Ammon, 1956, Səh. 28)

Etruskların "Ais" adlandırdıqları tanrı Ön Asiya turanlı xalqlarının As tanrısı ilə eyniyyət təşkil edir. Ais tanrısı türklərin As tanrısı adı ilə Skandinaviya xalqlarının etiqad etdikləri tanrıları olmuşdur.

Etruskların etnik mənşə baxımından yafetik dil ailəsinə, yəni türklərlə eyni dil ailəsinə mənsubluğu fikrini ilk dəfə N.Marr irəli sürmüşdür. O etrusk etnosunun yafetik etnik qrupların iki dalğa şəklində Qafqazdan və Anadoludan İtaliyaya köçməsi nəticəsində formalaşdığı fikrini müdafiə edirdi. Onun irəli sürdüyü tezisə görə etruskların etnogenezini formalaşdıran etnik qollardan biri olan rutenlər Van gölünün cənubundan Lidiyaya gedərək orda məskunlaşmış, sonra isə Egey adalarına yayılmışdılar. Etruskların digər bir etnik qolunu təşkil edən rasenlər isə Şimali Qafqaz yolu ilə hərəkət edərək Qara dənizin şimal sahilləri boyunca Balkanlara yenmiş və ordan İtaliyaya keçmişdilər. N.Marr sonradan siyasi motivlər səbəbi ilə etruskların yafetik mənşəyi haqqındakı öz nəzəriyyəsindən imtina etdi.

Etruskların türk mənşəli olduqları haqqındakı digər bir nəzəriyyənin müəllifi alman tarixçisi Vilhelm Brandenştayn idi. Brandenştayn etruskların mənşəyinə həsr olunmuş iki kitabın müəllifidir.

"Etruskların mənşəyi" adlı ilk kitabını 1937-ci ildə nəşr edən Brandenştayn linqvistik, tarixi və mifoloji dəlillərə əsaslanaraq ilk dəfə olaraq konkret şəkildə etrusk dilində çoxlu türkizmlər aşkar etdi. Türk mənşəli bu sözlərə və apardığı tədqiqatlara əsaslanaraq Brandenştayn belə bir nəzəriyyə irəli sürmüşdür ki, etruskların əcdadları olan türklər e.q. II minillikdə Mərkəzi Asiyada yaşamışdılar. Onlar sonradan Kiçik Asiyanın şimal-şərqinə köçərək burda məskunlaşmış və tədricən heyvandar tayfalardan dəniz quldurlarına çevrilmişlər. Etruskların İtaliyaya köçlərini Brandenştayn e.q. 900-800-ci illərə aid edir. (Brandenstein W. 1937)

İkinci dünya müharibəsindən sonra siyasi təzyiqlər nəticəsində Brandenştayn etruskların Türk mənşəli olduqları haqqındakı öz nəzəriyyəsindən imtina etməyə məcbur oldu.

Sumer-Akkad dilinin fin dili və ümumiyyətlə, Turan dilləri ilə əlaqəsini müəyyən edən böyük alim İsak Teylor Etruskların da Altay irqinə aid olduğunu sübut etmişdir. Etruskların sumerlərlə əlaqəsinin müəyyən edilməsi Midiya və Hititlər kimi bir-birindən uzaq məsafədə yerləşən xalqlar arasında da sıx əlaqənin mövcudluğunu sübut edir. Teylor öz araşdırmalarında Etrusk və sumer-akkad dillərini müqayisə edərək xeyli uyğun sözlər aşkar etmişdir. O həmçinin Etrusk dilini Kiçik Asiyanın Lid, Kari, Luki dilləri ilə müqayisə edərək onların qohum dil olduqlarını müəyyən etmişdir. Konder də 43 Etrusk, Akkad və Hitit sözünün qarşılıqlı müqayisəsini verərək onların bir-biri ilə 90% məna uyğunluğunu müəyyən etmişdir. Müasir türk və fin dillərindəki sözlərin qədim Etrusk dilindəki sözlərlə eyniyyət təşkil etməsi Altay dilinin dəyişikliyə məruz qalmadığını göstərir. Turan dillərinin konservativliyi və dəyişikliyə az məruz qalması onun önəmli xarakterlərindən birini təşkil edir. (Conder, Altaic Heroglips and Hittite İnscription, Səh. 253-254)

Qədim mənbələrdə İtaliyada, o cümlədən Roma imperiyasının digər ərazilərində yaşayan xalqların türk mənşəli və turani irqinə mənsub olduqları haqqında çoxlu məlumatlar öz əksini tapmışdır. Qədim romalılara məxsus yuxarıda araşdırdığımız şəxs adları, toponimlər və müxtəlif terminlər belə bir nəticəyə gəlməyə imkan verir ki, İtaliyanın qədim etnosunun tərkibində Turani öntürk tayfaları önəmli payı təşkil etmiş, qədim Roma mədəniyyətinin təşəkkülündə başlıca rol oynamışlar.

# XXXV FƏSİL. Turanlı pelasqların ölkəsi Yunanıstan

Yunanlılar və Yunanıstan tarixi ərzində bir çox adlar daşımışlar. Yunanlılar özlərini Hellen və ya Ellen adlandırırlar, lakin bu onların qədim adı deyil. E.q. VIII əsrə aid edilən Homer öz eposlarında Hellen adından istifadə etmir. Hətta klassik dövrdə belə yunanlar özlərini ümumi hellen adı ilə adlandırmamışlar. Hər bir yunanlı özünü yaşadığı şəhərin adı ilə afinalı, korinfli, spartalı və s. adlandırırdılar. E.q. 480-ci ildə Əhəmənilərin Yunanıstanla savaşındakı Fermopil döyüşündə öldürülən spartalıların məzarı üzərinə ellinlər adı yazılmışdır. Ellin adı xristianlıq qəbul edildikdən sonra bütpərəst yunanlılar üçün istifadə olunurdu. Gec Antik çağdan Orta əsrlər dövrünün 1453-cü ilinə qədər yunanlar özlərini Rhomaioi, yəni romalılar adlandırırdılar. Yunanlılar vahid etnik birliyə və eyni xalqa mənsubluq anlayışına sahib olmadıqları üçün tarix ərzində özlərini çeşidli adlarla adlandırmışlar. Avropalıların onlara verdikləri Qrechia adı e.q. VIII əsrdə bu ərazidə məskunlaşmış Qraya adlı Beoyti tayfasının adından götürülmüşdür. Qraya İtaliyada Romanın güneyində bir şəhər idi və Beoyti tayfasının qraya qəbiləsi həmin şəhərdə məskunlaşmışdılar və ona görə də italyanlar Roma dövründən yunanıstana köçmüş Beoytilərin qraya tayfasının adı ilə yunanlıları Qraya adlandırmış və bu ad sonradan Qrekiya formasında ifadə edilmişdir. Homer də "İliada" əsərində Qraya şəhərinin adını çəkir. Türklərin qreklərə verdikləri Yunan adı Kiçik Asiyada yerləşən və perslərin müharibə etdikləri 12 şəhər birliyindən ibarət olan İoniya adından götürülmüşdür. İonları yunan mənşəli hesab edirlər.

Alman dilində 1884-cü ildə nəşr olunmuş "Yunan və Roma mifologiyasının müfəssəl lüğəti" adlı əsərdə Yunanlıların özlərinin ulu əcdadı hesab etdikləri Ellenin əslən Kiçik Asiyada Lidiya ölkəsindən, yəni lidiyalı olduğu yazılmışdır. Tarixi mənbələr lidiyalıları turanlı öntürklər hesab edirlər. Ellenin atası Kleytonu yunanlılar hücum etdikləri Troyada öldürmüş və Ellen canını qurtarmaq üçün Peloponnes adasına qaçmışdı. (Ausführliches Lexikon, 1884-1886, Səh. 2031)

Beləliklə, Peloponnes adasında məskunlaşan hind-avropa mənşəyə malik olmayan lidiyalı Ellen öz adını Yunanıstana vermişdir. Qədim müəlliflər Peloponnes yarımadasını və bir çox adaları onların yunanlardan öncəki sakinləri olan pelasqların adı ilə Pelasqiya adlandırırlar.

Avropa tarixçiləri qədim yazılı mənbələrə və arxeoloji dəlillərə əsasən hind-avropalı yunanlılardan Öncə Peloponnes yarımadasının və dənizdəki adaların sakinlərinin turanlılar və xüsusən də onların qədim etnoslarından olan pelasqlar tərəfindən məskunlaşdırılmış olduğunu yazırlar. Hətta yunan adlandırılan bir çox tayfalar mənşəcə turanlı olub öntürklərin qədim vətəni Lidyadan Pelopennes yarımadasına köçərək məskunlaşdıqları tarixi dəlillərlə sübut olunmuşdur.



Yunanlıların etnik kimliyi və Avropa mədəniyyətinin yaradıcıları məsələsi uzun illər ərzində bilim adamlarının geniş müzakirə və mübahisə mövzusuna çevrilmişdir. Hind-avropalıların bəşər uyqarlığının əsas yaradıcıları olduqları haqqında iddiaları əsaslandırmaq üçün avropasentrizm ideologiyasının hakim olduğu müasir tarix elmində bəşər mədəniyyətinin iki mərkəzi hesab edilən Avropada Yunanıstan və şərqdə Əhəməni-İran dövləti haqqında iki mif yaradılmışdır.

Qədim Arxitekturanın və mifologiyanın böyük tədqiqatçılarından olan ingilis C.Ferquson Yunanıstan mədəniyyətinin kökünün Turan mənşəli olduğu vurğulayaraq yazır ki, Yunanıstanın qədim keçmişində onların Turan irsinə tam şəkildə pərəstişə qapıldıqlarını görürük. Əgər Yunanıstan əhalisinin böyük bir qismi Turan ailəsinə mənsub deyilsə, o zaman onların dilləri və dinləri ari irqi ilə yaxın qohumluq əlaqələri nümayiş etdirməlidir. Lakin yunan panteonunun antrop mifalogiyası ancaq yunan əhalisinin böyük qisminin turan irqinə mənsubluğunu qəbul etmək şərti ilə izah oluna bilər. (J.Fergusson, 1868, Səh. 12)

Türk araşdırıcı Yusif Ziya Özerin alman dilində yazdığı əsərində deyildiyi kimi Avropa bilim adamları ilkin mədəniyyətin turanlılar tərəfindən yaradılaraq sonradan bütün dünyaya yayıldığını açıq şəkildə etiraf etməkdən ehtiyat edirlər. Çünki bunu etiraf etdikləri təqdirdə ari irqinin keçmişinə böyük kölgə düşər və onların "bəşər mədəniyyətinin yaradıcıları" şöhrətinə zərbə vurulmuş olardı. Lakin bu çox yanlış təsəvvürdür, ona görə ki, arilərin əcdadı olan Ar tayfası da Tur tayfası kimi Türk boylarındandır. (Yisif Ziya Özer. 1932, Səh. 539)

Almaniyanın görkəmli assuroloqu Aleksandr Virt arilərin və ya hind-avropalıların ilkin vətəni məsələsinin böyük mübahisələr doğurduğunu yazır. Onun fikrinə görə əgər arilərin Asiyadan gəlmiş olduqları qəbul edilmiş olsa, o zaman Avropa Yaxın şərqlilərin bir kaloniyası durumuna düşmüş olur və Yunanıstanın bütün dünya mədəniyyətinin beşiyi olması haqqında ideya iflas etmiş olur.

Qədim tarixin mükəmməl bilicisi olan İngilis assuroloqu A.Seys bəşər mədəniyyəti yaradıcılarının məhz turanlılar olduğu gerçəkliyini bildiyindən bunu qəti şəkildə inkar edə bilmir və kompromis variant təklif edərək yunanların turanlılar (aloroidlər) və arilərdən ibarət qarışıq xalq olduqlarını yazır. A.Virth Helenlərin hind-avropalı deyil, şərqli mənşəyə malik olmalarının həmişə nəzərə çarpdığını və hətta Yunanlıların bir çox tanrı adlarının, o cümlədən *kralları Tarkontimotos* adını, etruskların isə *Targun adının* turanlı (aleroid) elamlıların külək tanrısı Tarxunun adından götürmüş olduqlarını yazır. (A.Wirth, 1905, Səh. 31, 29)

Assuroloq Filip Smit Yunanıstanın ilkin sakinləri məsələsinə aydınlıq gətirərək *Pelasqların* Yunanıstanın və İtaliyanın cənubunun hind-avropalılara qədərki dövrdə məlum olan ən qədim turanlı sakinləri olduğunu yazır. İoniya və onun qonşuluğundakı adalar ilkin dövrlərdə pelasqlar tərəfindən məskunlaşmışdılar. (Smith

P. 1888, Səh. 424)

Təkcə Almaniyanın deyil, Avropanın da böyük tarixçilərindən Eduard Meyer yazır ki, Antik müəlliflərin verdiyi məlumatlara görə Attikanın ilk sakinləri barbar mənşəli Pelasqlar olmuşlar və Afinanın divarlarını və Akropolisi onlar tikmişlər. Lakin sonradan onlar Afinaya gələn yunanlılar tərəfindən qovulmuşlar və yeni ərazi axtaran pelasqlar Lemnos adasına gələrək burda məskunlaşmışlar. (E.Meyer, Band I. 1892, Səh. 7)

Antropoloq G.Serqi də Pelasqların öncə Yunanıstanda, Peloponnes yarımadasında və dənizdəki adalarda məskunlaşmış olduqlarını, sonradan İtaliyaya və ordan Kiçik Asiyaya keçərər orda Khatti və ya Hitit adıyla yayıldıqlarını yazır. Zamanın gedişatında qarşılıqlı mübarizə, hökmranlıqlar və istilaların təsiri ilə bir çox xalqların adları dəyişikliyə məruz qalmış, digərləri öz adlarını qoruyub saxlamışlar. Pelasqiya Yunanıstan adlanmış, Khatti ölkəsi Finikiyaya çevrilmişdir. (G. Sergi. 1901. Səh. 33, 34)

Qədim Misir tarixi mütəxəssisi alman Adolf Erman Misiri işğal edən və sonradan Aralıq dənizi sahillərindəki ərazilərdə və adalarda məskunlaşan "dəniz xalqlarının" turanlı və etrusklar olduqlarını və onlara türklüklərindən şübhə doğrulmayan Turşaların rəhbərlik etdiklərini yazır.

Antik müəlliflərin bir çoxunun yazdığına görə Yunanıstanın ellinlərdən əvvəlki qədim əhalisi pelasqlar olmuşlar. Ellinlər yunanıstana gəldikləri zaman pelasqlarla olan qarşıdurmada qalib gəlmiş və pelasqlar Yunanıstanı tərk etməyə məcbur olmuşlar. Pelasqlar Peloponnes yarımadası ilə birlikdə onun ətrafındakı çoxlu adada məskunlaşmışdılar. (Adolf Erman. 1885)

Pelasqların Peloponnes yarımadası və adalarda məskunlaşmasının tarixi e.q. 3000 illikdə baş vermişdir. Həmin dövrdə hind-avropalıların Avropanın güneyində mövcudluğu mümkün deyildi. Köçmən bir xalq olan pelasqlar Yunanıstanda mədəniyyətin və şəhər salmanın əsasını qoymuşdular. Herodot yazır ki, yunanlar böyük bir millət olduqları və böyük mədəniyyətə sahib olduqları üçün pelasqlara borcludurlar.

Qədim müəlliflər Fukidid və digərləri Pelasqları Tursenlərlə eyniləşdirir və Lemnosda yaşayan Tursenləri heç şübhəsiz məhşur dəniz quldurları olduqlarını yazırlar. Herodotun da yazdığına görə tursenlər və pelasqlar eyni dildə danışırdılar.

E.Meyer yazır ki, əgər biz Herodota inansaq, Lemnosun və Pelaskiyanın tursenləri etruskca danışırlar. 1885-ci ildə Lemnosda aşkar edilən və e.q. IV əsrə aid olan qədim yazının iddia edildiyi kimi yunan dili ilə heç bir əlaqəsi yoxdur. Bu yazı heç şübhəsiz bir etrusk dili dialektində yazılmışdır. Lemnosdakı tursenlər və italiyada yaşayan etrusklar eyni tursen adı daşıyırlar. Hər iki Tursen və Etrusk sözünün kökü "Turs" və ya "Trus" şəklindədir, "E-trur-ia" adı bu sözdən yaranıb. Hər iki adın etrusk dilinə xas "e" şəkilçisiz kökünü "Turşa" və ya "Turuşa" təşkil



edir. Turşalar Misir fironları Merneptah və III Ramzesin dövründə digər quldur dəniz tayfaları ilə birlikdə Nil vadisinə hücumlar təşkil etmişdilər. Herodot etruskların Lidiya mənşəli olduqlarını yazır. Etrusklar şərqdən qərbə doğru səfər edərək Ege dənizində quldurluqla məşğul olmuş və sonra dənizin məskunlaşmamış adalarını zəbt etmişlər. (E. Meyer, Band I. 1892, Səh. 27)

Turşa Yunan mifologiyasında Teukr adı ilə ifadə olunur. Teukr əfsanəsi Yunan mifologiyasında önəmli yer tutur. Teukr Troyanın və ya Turuvanın ilk kralı Sukamandrosla İdayanın oğludur. Sukamandros yunan mifologiyasında Su və çay tanrısıdır və üç tərəfdən su ilə əhatə olunmuş, yunanlıların Troado adlandırdıqları yarımadadakı dövlətin, yəni Troada dövlətinin ilk kralıdır. Turuva və ya Troya həmin yarımadada bir şəhər idi. Troya savaşında Sukamandr Troyaya dəstək vermişdir. Sukamandr Frankların Merovinqlər dövlətinin hakimiyyət sülaləsi olan Suqambrlar boyunun əcdadıdır. Əfsanəyə görə Teukr Troyanın ilk kralı olmuş və troyalılar onun adı ilə teukrlar adlanmışlar. Troya məhv olduqdan sonra Teukr atası ilə birlikdə Kiçik Asiyanı tərk edərək Trakiyaya keçərək orda məskunlaşmış və Trak xalqının əsasını qoymuşdur. Yunanlar Trakiyanı Frakiya şəklində ifadə edirdilər. İsveçli tarixçi Sturlusson troyalıları və trakları türklər adlandırır. Teukrlər "dəniz xalqlarının" tərkibində onlara rəhbərlik edən Turşalar, yəni türklərdir. Türk adını bir çox xalqlar Turşa, qədim yunanlar isə Teukr kimi ifadə edirdilər.

Antik tarixçi Pompey Troq da Teukrlərin Troya mənşəli olduqlarını yazır. Onlar da Misirə hücum edən dəniz xalqlarına mənsub idilər. Teukr xalqının adı onların ulu əcdadı Teukrin adındandır. Əfsanəyə görə Egey dənizindəki Salamin adasının kralı Telemonun iki oğlu Aias (ruslar onu Ayaks kimi yazır) və Teukr yunanlıların tərəfində Troyaya qarşı müharibədə iştirak edirlər. Döyüşlərin birində ağlını itirən Aias özünü öldürür. Teukr geri döndüyü zaman atası Telemon qardaşını qoruya bilmədiyi üçün onu qəbul etməkdən imtina edir. Teukr əsir troyalılarla birlikdə Kipr adasına gəlib Axey sahilləri adlanan yerdə yeni bir Salamin şəhəri salır və teukrlər sülaləsinin əsasını qoyur. Bu əfsanə əslində Kiprin e.q. 1190-cı ildə "dəniz xalqlarına" mənsub türk mənşəli teukrlər tərəfindən məskunlaşdırıldığını əks etdirir.

Yustinin "Pompey Troqun Epitoması" əsərində *yazıldığına* görə atasının ölümündən sonra Teukr qardaşının oğlu Eyrusakla birlikdə öz vətəni Salaminə geri dönür, lakin *salaminlilər* və Eyrusak atasının hakimiyyət varisi olmağa ona imkan vermirlər və Teukr İspaniyaya gedərək orda Yeni Karfagen adlı yerdə məskunlaşır, sonra isə Qallisiyaya gedərək burda onun adını daşıyan teukr Tayfasının əsasını qoyur. (Юстин. Эпитома Помпей Трога, 2005)

Müasir dövrdə Krit-Miken və Salamində aşkar edilən qədim insan qalıqlarının DNA testləri yunanlıların DNA testləri ilə və Anadoludakı türklərin testləri ilə

müqayisə edilmişdir. Testlərin müqayisəsi nəticəsində Krit-miken və Slaminli dəniz xalqı teukrlərin yunanlılarla deyil, türklərlə qohumluğu müəyyən olunmuşdur.

Troya şəhərinin yerləşdiyi Troada yarımadası bu gün Biqa yarımadası adlanır. Yarımada Bizans dönəmində Piqai adlanırdı. Fikrimizə görə bu ad Buğa adının yunan dilinə uyğunlaşdırılmış şəklidir. Yunan dilində qədim adı Turuva olduğu üçün yarım adanın əslində Tur-ova, yəni Tur ovalığı adı daşıdığı bir gerçəklikdir. Bu ad sonradan Troada, Turuva və Troya şəklinə donüşmüşdür. Yarımadanın müasir Biqa və Bizans dövründəki Piqai adı da yarımadanın və şəhərin gerçək adının Buğa və Turova olduğunu sübut edir.

Pelopennesdə aşkar edilmiş Miken mədəniyyəti Tunc dövrünün son dönəmlərinə, e.q. 1600-1100-illərə aid olub Yunanıstanda mövcud olmuş ən qədim mədəniyyət kimi qəbul olunur və tarixşünaslıqda Yunan uyqarlığının kökünün Miken mədəniyyətinin təşkil etdiyi fikri qəbul olunmuşdur. Miken mədəniyyəti böyük bir ərazini, o cümlədən Anadolu yarımadasının dəniz sahillərini əhatə etsə də o arxeoloji mədəniyyətin aşkar edildiyi Miken şəhərinin adı ilə adlanmışdır. Miken şəhərinin qalıqları Afinanın cənub-qərbində Mora yarımadasında mövcuddur. Miken mədəniyyətinin yaradıcıları Akalar hesab olunur. Kiçik Asiya mənşəli Akalar e.q. 1600-cü ildə hücum edərək indiki Yunanıstanın güneyində Mora yarımadasını işğal etdilər və 12 şəhəri əhatə edən konfederasiya yaratdılar və Ege dənizini tamamilə öz nəzarətləri altına aldılar. Akaların Kiçik Asiyada yerləşən Khati konfederasiyasına aid Akhiyava ölkəsindən gəldikləri güman olunur.

Yusif Ziya Aralıq dənizinin qədim Miken-Minos mədəniyyətinin yaradıcılarının Türkistanın Minq boyu ilə, Ege dənizinin qədim Axey boyu və türklərin Aka boyu ilə eyniyyət təşkil etdiklərini yazır. (Yusif Ziya Özer. 1932, Səh. 3)

Axxiyava və ya Akhiyava Bibliyada Hitit, lakin mixi yazı mətnlərində Kheta adlanan Anadolu ərazisində mövcud olmuş konfederativ dövlətin qərb ərazisində yerləşən bəylik dövləti idi. Akhiyava indi Ege, əslində isə Akhiyava dövləti və xalqının adı ilə Aka adlanan dənizin sahillərində yerləşirdi. Akiyava qüdrətli dəniz dövləti olaraq ərazisi təkcə Ege dənizinin Anadolu yarımadası sahillərini deyil, həmçinin Peloponnes yarımadasının müəyyən hissəsini, Kipri və bir çox adaları əhatə edirdi. Homerin eposunda Akhiyavalar Akai adı ilə təmsil olunurlar. Yunanıstanda aşkar edilən Miken mədəniyyətinin yaradıcıları da Khati kitabələrində adları qeyd olunan Akhiyava və Homerin bəhs etdiyi Akalar idilər. Homer Akaların Dana və Arqoslarla birlikdə Troyaya hücumda və mühasirəsində iştirak etdiklərini yazır.

Yuxarıdakı bölümlərdə bəhs etdiyimiz kimi bir neçə hind-avropa mənşəli kral adına əsaslanaraq Khtati dövlətini Mitanni adı ilə hind-avropalılara aid etmək cəhdlərinə baxmayaraq böyük tarixçi assuroloq və hititşünaslar Khatiləri turanlı öntürklər hesab edirlər.



İlk dəfə 1924-cü ildə İsveçrəli görkəmli hititoloq Emil Forrer Akalar və Akhiyavaların eyni olduqlarını elmi dəlillərlə sübut etmişdir. Forrer həmdə hitit mətnləri əsasında sübut etdi ki, yanlışlıqla Axxiyava kimi təqdim olunan Khati tayfalarının əsl adı Akhai şəklindədir. (Emil Forrer. 63-1924, Səh. 1-24)

Akalar Misir mənbələrində adları "akyaşa" kimi qeyd olunan və Turşaların rəhbərlik etdiyi "dəniz xalqları" və ya "dəniz quldurları" adlanan basqınçı tayfalar birliyinə daxil idilər. Müasir dövrdə uzun mübahisələrdən sonra artıq orientalist tarixçilər və hititoloqlar Akhai və Akaların eyni xalq olduqlarını təsdiq edirlər. (Gary M. Beckman, Trevor Bryce, Eric H. 2011)

Yunanıstandakı Aka dövlətinin, yəni Miken mədəniyyətinin varlığına əslən hind-avropalı yunan tayfalarından olan Dorlar tərəfindən son qoyulmuşdur.

Yunan miflərinin və dini etiqadlarının kökünün Ön Asiyanın turanlı xalqlarının mif və dini etiqadlarına bağlı olduğu fikri Yunan mifologiyasını araşdıran bilim adamlarının çoxsaylı əsərlərində öz əksini tapmışdır.

Öncəki bölümlərdə bəhs etdiyimiz kimi bir çox avropalı müəlliflər siyasi səbəblərə görə bəzən turanlıların türklər olduğunu birbaşa söyləməkdən ehtiyat edərək onları monqol və ya fin kimi qələmə verirdilər. İngilis tarixçisi Mayor Konder də yunan miflərinin Turan mənşəli olduğinu yazır və onları monqollarla eyniləşdirir.

Yunan mifologiyasında ən önəmli qəhrəmanlardan biri yunanların baş tanrısı Zeusun oğlu Herakldır. Zeusu romalılar Yupiter adlandırırlar. Yunanların bir çox miflərini finikiyalılardan götürdüklərini, fikiyalıların da öz növbəsində onları Kiçik Asiyanın qədim turanlılarından və ya monqollardan götürdükləri fikrini irəli sürən Konder Yunan qəhrəmanı kimi qələmə verilən Heraklın əslində sumerli, yəni xaldey olduğunu yazır. Xaldeyli qəhrəman Herakl yunan qəhrəmanı kimi okeanı keçərək Hesperid bağında həyat ağacının meyvələrini dərmək istəyir, lakin onu qoruyan ilanlar buna imkan vermir.

Kondere görə Herakl (Herkules) adı ari dilində qaneedici şəkildə izah oluna bilmir. O xaldeylərin İzdubar, Gilqameş adlı qəhrəmanlarının və ya doğan günəşin ruhu olan Uddumasın timsalıdır. Kentavr da ari yunanlılardan çox qədim turanlı monqollara məxsusdur və akkadların heyvan-adam obrazını əks etdirir. Qanadlı at Peqas hititlərin emblemlərində əks olunmuşdur. Bir çox yunan mifləri, o cümlədən Persey, Qanimed, Akteon, Prometey kimi miflər kök etibarı ilə Kiçik Asiyaya məxsusdur və turanlı monqol mənşəlidirlər, yunanlar onları Xappadokiyanın sərhədlərində yaşayan xalqlardan öyrənmişlər. (Conder R. 1889, Səh. 120, 122)

Yusif Ziya da Herakl məsələsinə aydınlıq gətirərək yazır ki, Yunan mifologiyasında Herakl çoxlu sərgüzəştlərə malik bir qəhrəman və yarım allah keyfiyyətlərinə malikdir. Romalılar onu Herkul adlandırırdılar. Etimoloji baxımdan Herkul adı aramey dilində "Arqal" adından yarandığı ehtimal olunur. Əslində isə hər iki

sözün kökünü türkcə əzəmətli, möhtəşəm, qüdrətli, hökmlü anlamı daşıyan Erkil sözü təşkil edir. Yusif Ziya da Herakl sözünü türkcə bu anlamda izah edir. (Yusif Ziya Özer. 1932, Səh. 300) Herakl sumerlərin Enki tanrısının prototipidir. Enki həmçinin türklərdə yeraltıdünyanın tanrısı Erkilin ekvivalentidir.

Dünyanın bir çox ərazisində qədim arxitekturanı və xalqların mifologiyasını araşdıran Ceyms Ferquson qədim arxitektura və mifologiyada bir sıra qanunauyğunluqlar və ənənələr müəyyən etmişdir. Onun gəldiyi nəticəyə görə ilana, ağaca sitayiş və əcdad məzarları üzərində ucaldılan qədim tumul və meqalitlər istisnasız olaraq turanlılara məxsusdur. O yunanıstanda da araşdırmalar aparmış və belə nəticəyə gəlmişdir ki, yunan arxitektura sənəti tarixinin araşdırılması burda tarixin eyni dövründə bir-birinə zidd, tamamilə fərqli olan iki irqin mövcud olduğu faktına rast gəlirik. Bir irq qədim şəhərlərin çoxbucaqlı meqalit divar hörgüləri və Miken xəzinələri və ya məzarlıqları ilə təmsil olunmuşlar. Digər irqə isə Dori ordeninin ismətli incə dərrakəli, zəngin bəzədilmiş ioniya sistemi uyğundur. Birinci təsvir olunan tikililər pelasqlara məxsusdur, onların etnik mənşəyi və hardan gəldikləri müəyyən mübahisələr doğursa da, bu irqə mənsub olan insanlar ellinlərdən tamamilə fərqlənirlər və son nəticədə onlar tərəfindən də yerlərindən sıxışdırılıb çıxarılmışlar. Əleyhinə hər hansı başqa bir dəlil göstərilmədiyindən onları Turan irqinə mənsub hesab etmək olar. (J.Fergusson, 1868, Səh. 12)

Arxitekturada olduğu kimi qədim Yunanıstanın mifologiyasında da belə bir fərqlilik mövcuddur. Biz Yunanıstanın qədim tarixi dövründə bu və ya digər dərəcədə üstünlüyə malik olan ağac və ilana sitayiş haqqında bəhs etdiyimiz zaman Yunan mifalogiyasının kökündə Turan elementlərinin durduğu haqqındakı fərziyyəyə daha çox ehtiyac duyuruq. Yunanların bütün erkən miflərində ilanın və ya ilan cinsindən olan canlının məhv edilməsindən bəhs olunur. Bu Heraklın törəmələri olan Heraklidlərin Yunanıstana geri dönmələrinə qədər davam edir ki, bu yunanlıların üstünlüyü təmin olunur. Bundan sonra ilan orakula çevrilərək şəhərin qoruyucusu və şəfa tanrısı olur. (Fergusson J, 1868, Səh. 13) İran mifologiyasında ari-iranlıları Turan ərazisində məskunlaşmalarına qarşı çıxan turlar ilan obrazında təqdim olunduğu kimi, İlan, yunan mifologiyasında hind-avropalı yunanlıların daim mübarizə apardıqları turanlı pelasqları təmsil edir.

Belə hesab olunur ki, ilanların dağıdıcısı kimi təqdim olunan Herakl özünün İlan qadın Exidna ilə izdvacı nəticəsində ilanlara sitayiş edən bütün iskit irqinin əcdadı olmuşdur. Burda heç bir ziddiyyət yoxdur. Onun yaşadığı əsr iki svilizasiya arasında keçid dövrünü təşkil edir. Yunanıstanda ilana tapınan qədim Turan irqi aradan qalxmış və onun yerində yeni ari xalqı meydana çıxmışdır. Herakl bu dövrdə bütün sevilən miflərin ən populyar mifiq qəhrəmanı idi. Əsgi dinin aradan qaldırılması onun adı ilə bağlanmışdı, çünki o bu dinin təmsilçisi olan ilana qarşı daima mübarizə aparmışdı. (Fergusson J. 1868, Səh. 13)



İlan sonrakı dövrlərdə də yunan mifalogiyasında tanrıların təmsilçisi və ya öz orakulunu yayan, müqəddəs yerləri və əşyaları qoruyan obrazında çıxış edir. Plutarxın təsvir etdiyi kimi İsgəndərin doğulması tarixi kimi daha cəsarətli bir hadisə təsəvvür etmək mümkün deyil. Onun anası Olimpiya evdə əl ilanları bəsləyirdi. Onun yaşadığı ölkə olan İlliriyada kifayət dərəcədə çox olan ilanlara sitayiş böyük önəm daşıyırdı. Olimpianın yatağında ilanı görən Filip İsgəndərin əsl atasının ilan olduğuna inanmışdı. İsgəndərin generalı Ptolomey zəhərli yaradan xəstələndiyi zaman Olimpianın hamisi olan ilan ağzında bir ot kökü yuxuda görünmüşdür. İsgəndərin atasına o ilan həmin otun yerini göstərmiş və xəstə həmin otun vasitəsilə sağalmışdır. (Fergusson J., There and Serpent, 1868, Səh. 15)

Ferquson Yunan mifologiyası haqqındakı təhlilinə yekun vuraraq yazır ki, beləliklə, biz yunan mifologiyasında ağaca və ilana sitayişin nə dərəcədə mühüm rol oynadığını gördük. Bunlara əlavə olaraq biz qeyd edirik ki, şahidi olduğumuz kimi yunanlıların mifoloji panteonlarında və dillərində təmiz ari irqindən çox az şey mənimsənmişdir. Bu ölkənin sakinlərinin damarlarında müxtəlif vilayətlərdə fərqli dərəcədə olsa da çox böyük ölçüdə turanlı qanı axmaqdadır. (Fergusson J., 1868, Səh. 17)

Yunan mifologiyasında ən çox bəhs olunan əzəmətli tanrı Zeusdur (ruslar onu Zevs adlandırırlar). Baş tanrı Zeus yunan mifologiyasında bütün dünyanı idarə edən göyüzü, ildırım və şimşək tanrısıdır.

Eduard Meyerin yazdığına görə Zeus kultunu və tanrılar panteonunun əksər ünsürlərini yunanlar Krit-Miken mədəniyyətindən, yəni turanlı pelasqlardan əxz etmişlər. Strabon Zeusun yunan mənşəli deyil, pelasqlara aid olduğunu yazır. Öküz kultunu da yunanlar Krit-miken mədəniyyətindən əxz etmişdilər. Qədim Minosda öküz hakimiyyət və güc simvolu idi. Poseydon öz qardaşları üzərində qələbə çalması üçün kral Minosa ağ öküz göndərmişdi. Zeus kultu Krit adasında yunanlardan öncə mövcud idi və onun ilkin vətəni Kiçik Asiya və Mesopotamiya olmuşdur. Zeus bu bölgələrdə müxtəlif atributlara malik idi, burda insanlara müxtəlif adlarla məlum olan Zeus hava/təbiət tanrısı kimi qəbul olunurdu. Onun atributları ildırım və öküz idi. (E.Meyer, Band 1, 1892)

Zeusun əsasən öküz obrazında təcəssüm olunur. Alman mifologiyasında Zeus öküz anlamı daşıyan Tur adlanır. Əfsanəyə görə Zeus pelasqların vətəni olan Kreta (Krit) adasında Dikt adlı dağdakı bir mağarada doğulmuşdur. Zeus adı qədim yunan mətnlərində "dze-us" şəklində yazılır. Fikrimizə görə Zeus adı sumer mənşəyinə malik olub sumerin Ukus və ya Quz tanrı adının yunan dilində ifadə şəklidir. Zeus sumerlərin göyüzü tanrısı öküz obrazında təcəssüm olan An-Dinqirin prototipidir. Zeusun ekiz oğlanları Herkul və İfkl sumer tanrıları iki qardaş Enki və Enlilin ptototipləridir.

Tanrıça Avropa yunan mifologiyasında Finikiya kralının şahzadə qızıdır. Onun gözəlliyinə vurulan Zeus öküz cildinə girərək onu Finikiyadakı Turia şəhərindən qaçırmışdır. Avropa yunan mifologiyasında çox zaman Ayı təmsil edir. Avropa sözünü yunan dilində geniş, üz, sifət mənasında, akkad dilində batmaq mənasında olan "erebu" sözündən yarandığını iddia edirlər.

Yusif Ziya Avropa sözünün türkcə işıldamaq, parıldamaq mənasındakı "yarub" sözündən yarandığını qeyd edir. (Yusif Ziya. 1932, Səh. 207; Mahmud Kaşğari, Cilt III, səh. 79).

Bizim fikrimizcə yunanca Europe adı türkcə "Ei" və "yarub" olmaqla iki tərkiblərindən ibarət olub, mənası Ay kimi parlaq, işıqlı deməkdir. Kiçik Asiyanın hett, urartu və digər qədim turani dillərində türkcəmizdəki Ay sözü Ai/Ei şəklində ifadə olunurdu və bu söz yunan dilinə keçmişdir.

İlk vətənləri Anadoluda olan Trakların tanrısı kimi tanınan Zaqros yunan mifologiyasında Zeusun oğludur. O öküzbaşlı doğulmuşdur. Zaqrosun yunanca adı Dionisdir. Əfsanəyə görə titanlar Zaqrosu öldürdükdən sonra onun külündən üzüm tənəkləri yaranmışdır. Zaqros şərabçılıq tanrısıdır. Zaqros onun adını daşıyan dağlara yunanlılar tərəfindən verilmiş addır. Sumer dilində "zaqr" müqəddəs yer, pir, ziyarətgah deməkdir. (Arno Poebel. 1910, Səh. 36)

Dağ kultunun böyük önəm daşıdığı Sumerdə Zaqros dağları "şərqdəki dağlar" adlandırılır və ora "Zaqr", yəni müqəddəs yer, ziyarətgah hesab olunurdu. Tarixi qaynaqlara görə e.q. 5400 və 3500-cü illərdən etibarən Zaqros dağlarında üzüm yetişdirilərək şərab istehsal edilirdi. Zaqros sözünün etimologiyasını heç bir dildə izah etmək mümkün olmamışdır. Zaqros sözünün kökü sumercə "Zaqr"dır, "os" sonluğu isə yunan şəkilçisidir.

Yisif Ziya şərabçılıq tanrısı olan Zaqros adının mənasını türk dilində Çaxır sözündən yarandığını qeyd edir. (Yusif Ziya Özer. 1932, Səh. 261)

Athena yunan mifologiyasında müdriklik, incəsənət və zəfər tanrıçasıdır. Athena (ruslar Afina kimi yazırlar) yunanların və Kiçik Asiyada onlara qədərki qədim turanlı xalqların baş Tanrısı olan Zeusun qızı idi. Bu ad mənşə etibarı ilə bir yunan adı deyil. Yunanlılara qədərki Miken xalqının dilində əsli Atana şəklindədir. Athena adının qədim deyiliş mənasına görə "Tanrının hədiyyəsi" deməkdir. Yan Best də bu adı eynilə türk dilindəki mənasına uyğun tərcümə etmişdir. (Jan Best. 1989, Səh. 30). Yusif Ziya Athena adının mənasını Kattun və ya Atun şəklində izah edir.

Lemnos adasındakı Kamina qəsəbəsində aşkar edilmiş və üzərində yazı olan daş stelanın e.q. VII əsrə aid olduğu müəyyən edilmişdir. Həmin dövrdə ada pelasqlara məxsus idi. Lemnos yazısını araşdıran Raymond Blox Etrusk dilinin bir dialektinə aid edilən həmin yazının aqllütativ-bitişik quruluşa malik olduğunu müəyyən etmişdir. Bu həmin yazının hansı müasir dilə aid ola biləcəyi fikrini doğurmuşdur. Türkiyəli araşdırıcı Adilə Ayda həmin yazını incəliyərək onun öntürk dilinə aid olduğunu təsbit etmişdir. Pelasqların tarixini incələyən Adilə Ayda Yunanıstanın və ətraf bölgənin ən qədim xalqlarından olan pelasqların öntürklər olduqlarını və bu məsələdə görkəmli etruskoloq Kristofor Hamptonun da onunla həmfikir olduğunu yazır. Prototürk pelasqların Yunanıstanda məskunlaşmaları türklərin burda yerləşmələrinin ilk və son gəlişləri deyildi. Türklər minillər boyunca dəfələrlə hunlar, peçeneklər, avarlar, kumanlar Avropanın güneyində və o cümlədən Yunanıstanda məskunlaşmışdılar və bunun son örnəyini osmanlı türkləri təşkil etmişdir.

Avropa müəllifləri əksəriyyət etibarı ilə yunan miflərinin turanlı mənşəyə malik olduğu məsələsində susmağa üstünlük verirlər. (Adile Ayda. Cilt: XLVI. 1982. Səh. 475-487)

# Son söz

Diqqətinizə təqdim etdiyimiz "Dünya tarixinin Turan dövrü" əsəri Turanın bütövlükdə tarixini deyil onun ərazilər üzrə tarixi xülasələrini və tarixşünaslığını əks etdrir. Əsərdə XVIII-XIX əsr və XX əsrin başlarında fəaliyyət göstərmiş Avropa müəlliflərinin arxivlərdə saxlanılan və yalnız bir dəfə nəşr olunaraq elmi dairələrin diqqətindən kənarda qalıb unudulan çoxsaylı kitab və elmi məqalələrindən istifadə olunmuşdur. Bu dəyərli elmi əsərlərdə Turanın və Ön Türklərin tarixinə aid çox önəmli elmi fikirlər və dəlillərin bir çoxu ilk dəfə olaraq bu kitabda öz əksini tapmışdır.

Dünya tarixinin Turan dövrü hələ sami və hind-avropa irqinin tarix səhnəsinə qədəm qoymasından min illər öncəki dövrdən başlayaraq dünyanın böyük ərazisində təşəkkül tapmış Osmanlı və Qacar dövlətlərinin süquta uğradıqları XIX əsrin 20-ci illərinə qədərki böyük bir tarixi dövrü əhatə edir.

Bir çox müəlliflər tarixdən öncəki dövrdən başlayaraq eramızın X-XII əsrlərinə qədərki Avropa tarixini "Avropanın türkdilli tarixi" dövrü adlandırırlar. Bu dövrdə Turanlı ön türklər və onların danışdıqları dil Avropada dominant rol oynamışlar.

Avropanın XVIII-XIX əsr və XX əsrin əvvəllərinin görkəmli sumeroloq, orientalist, tarixçi, arxeoloq və etnoloqların əsərlərində əksini tapmış elmi dəlillər, aşkar edilən artefaktlar nəticəsində Turan ölkəsinin güman edildiyi kimi irandilli dastan, əfsanə və miflərdə əks olunmuş xəyal məhsulu deyil, tarixi bir gerçəklik olduğu sübut olunmuşdur.

Tur sözü kök etibarı ilə ön türk sumerlərə bağlıdır və irandilli ədəbiyyatda Tur və Tura ilə əlaqədar hadisələr sumerlərdən əxz edilərək iran-ari əfsanələri kimi qələmə verilmişdir. Böyük assuroloq J. Oppert Tura ilə əlaqədar əfsanələrin sanskrit ədəbiyyatına sumerlərdən keçdiyini elmi dəlillərlə sübut edərək Sumerin elə Turan olduğunu yazır.

Turan və Türk adlarının kökündə də sumerin Tur eponimi durur. Asiyanın və Avropanın böyük ərazisində kökü Tura bağlı olan çoxlu toponim və eponimlər mövcuddur.

Sami tayfalarının dağıdıcı basqınları nəticəsində Sumer uyqarlığının iflasa uğraması sumerlərin geniş bir coğrafiyaya yayılmalarına səbəb olmuşdur.

Görkəmli alman assuroloqu Albrext Virth ən qədim dövrlərdən etibarən çayların adlanma ənənəsinin türkcə olduğunu yazır. Böyük Britaniya və İspaniyadan başlamış Sakit okeana qədər böyük bir ərazidə çaylar turanlı öntürklərin dilində Uz, Baliq, İd/Ud, Okus, Quzan, Quz adları daşımış və ya çay adlarının komponentlərindən birini təşkil etmişlər.



Fikrimizə görə dağların adlanma ənənəsi də, ən qədim dövrlərdən etibarən turanlı ön türklərin dilində olmuşdur. Dünyanın böyük ərazisində dağlar kökünü ön türkcə Alp, Kapasu, Bars, Kar, Daq, Tau, Balık, Tur sözlərinin təşkil etdiyi Qafqaz, Bars, Karpat, Kəpəz, Balkan, Alp, Tura dağ adları kök etibarı ilə türk dilinə bağlıdır.

Avropasentrizm ideologiyasına görə müasir dünya mədəniyyətinin kökünü təşkil edən iki mərkəz mövcud olmuşdur: şərqdə İran və qərbdə Yunanıstan.

Lakin hər iki mədəniyyətin kökünü güman edildiyi kimi hind-avropalılar deyil, turanlı ön türklər qoymuşlar. İran mədəniyyətinin və dövlətçiliyinin əsasını Midiyanın maday türkləri qoymuşlar.

Avropasentristlər və iranistlər midiyalıları ciddi cəhdlə iranlı kimi qələmə verirlər, çünki Əhəməni dövlətinin və İran mədəniyyətinin kökünü Midiya dövləti və maday türklərinin yaratmış olduğu mədəniyyət təşkil edir. Keçən əsrlərin görkəmli assuroloqları Oppert, Norris, Lenorman, Modtmann Bisütun kitabəsindəki ikinci mətnin midiya dilində yazıldığını və aqlütativ qruluşa malik olduğunu və bu dilin elam dilinə qohum olduğunu və əslində qədim türk dilində olduğunu sübut etmişlər.

Lakin müasir avropasentrist bilim adamları bu gerçək faktı inkar edərək kitabədəki ikinci mətnin midiya deyil, elam dilində olduğunu ciddi-cəhdlə sübut etməyə çalışırlar. Çünki bu mətnin midiya dilində olduğu etiraf olunarsa midiyalıların iranlı deyil, turanlı türklər olduğu təsdiq olunacaq və Əhəmənilərin Midiyada hakimiyyəti xaincəsinə zəbt edib öz dövlətlərini midiyalı türklərin dövləti üzərində qurduqları və İran mədəniyyətinin orijinal bir iran-ari mədəniyyəti deyil, turanlı türklərə məxsus bir mədəniyyət olduğu aşkar olacaqdır.

Avropasentristlərin iftixar etdikləri Yunanıstan mədəniyyətinə gəldikdə isə Avropanın görkəmli bilim adamlarının elmi faktlarla sübut etdikləri kimi yunan mədəniyyətinin yaradıcıları turanlı pelasqlardır. Yunanlı hellenlər öz ilkin vətənləri Balkan dağlarından Peloponnes yarımadasına gələrək yerləşmiş, pelasqları tədricən sıxışdıraraq qovmuş və onların qurduqları şəhərlərə və mədəniyyətlərinə yiyələnmişlər. Roma mədəniyyətinin və dövlətinin də əsasını da turanlı etrusk türkləri qoymuşlar.

Ümumiyyətlə, Avropanın görkəmli bilim adamlarının da elmi dəlillər əsasında sübut etdikləri kimi bəşər mədəniyyətinin kökünü sami və hind-avropa irqinə mənsub insanlar tarix səhnəsinə qədəm qoymadan min illər öncə Turanlı ön türklər qoymuşlar.

# İstifadə olunmuş ədəbiyyat siyahısı

*Türk dillərində.*


1. Adile Ayda. Pelasglar kim idiler? Türk Tarih Kurumu Belleten. Cilt: XLVI. 1982.
2. Adile Ayda. Türklerin İlk Ataları. Ankara, 1987.
3. Ağayev Ramil. Türkman anlayışı və onun etimologiyası ərəb və fars dilli müəlliflərin əsərlərində. Geostrategiya jurnalı №3, May-iyun, 2015.
4. Albayraq Rəcəb, Türklərin İranı, Cild. 1. Bakı, 2016.
5. Anadol Cemal. Orta Asiya Türk Devletleri tarihi. İstanbul, 1996.
6. Aydın Qasımlı. Türklərin dini görüşləri və inancları. Bakı, 2021.
7. Aysun Ata. Orhun Türkcesi. Eskişehir, 2011.
8. Azərbaycan tarixi. Z.Bünyadov və Y. Yusifovun redaktorluğu ilə. Bakı, 1994.
9. Balkan Kamal. Kas Tarihinin ana hatları. Türk tarih kurumu Belleten c. XII, Ankara, 1948.
10. Bang W. Rahmeti G. R. Oğuz Xagan Destanı, 1936.
11. Bartold V. Eski Türk Tarihi və Kültürü Üzərinə Düşüncələr. Türklər, c. III. Ankara, 2002.
12. Bartold V. Orta Asiya Türk Tarixi haqqında dərslər. Ankara, 1975.
13. Bayat Fuzuli. Türk Mitolojik Sistemi. Ontolojik ve Epistemolojik Bağlamda Türk Mitolojisi, Türkler. C 1, İstanbul, 2002.
14. Bayat Fuzuli. Oğuz kaqan dastanı üzərinə yeni düşünceler. Türklər, cild 3. Ankara, 2002.
15. Fizuli Bayat. Saka etnoniminin etimolojisi üzerine. Kara Deniz Araşdırmaları Balkan, Kafkas, Doğu Avropa və Anadolu İncelemeri Dergisi, 2004.
16. Bayur Yusif Hikmet. Türk tarihinin ana hatları. İstanbul, 1930.
17. Beşikçi Buket, Muhammet Akdoğan, Assur və Urartu arasındakı tampon devletler və Bingöl. Bingöl universitesi Araşdırmalar dergisi. C. 4, 2018.
18. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 2007.
19. Cemal Anadol. Türkler. İstabul, 1996.
20. Çetingaya Nihat, İgdır Tarihi, İstanbul, 1996.
21. Orhan Varol. Civi yazılı bəlgələr işığında Urartu dilinin yapısal özellikleri. İstanbul, 2005.
22. Çilingiroğlu A. Urartu krallığı tarihi və sanatı, İstanbul, 1998.
23. Çığ Muezzez İlmiye. Sumerler və Türklerin bir koludur. İstanbul, 2018.
24. Çığ Muazzez İlmiye. Sumerli Lidingirra, İstanbul, 1996.
25. Çığ Muezzez İlmiye. Kuran, İncil və Tövratın Sumerde kökeni. İstanbul, 1996.





26. Diker Selahi. Türk Tarihi Sumerde başlar, Orkun dergisi, 1 Temmuz 2001.
27. Eberhard W. Eski Çin Kültürü və Türklər. Türklər. C-1, 2002.
28. Ekrem Memiş. Eski Çağ Türkiye tarihi. İstanbul, 2007.
29. Elçibey Ebülfez. Bütöv Azərbaycan yolunda. Ankara, 1997.
30. Elçibəy Əbülfəz. Azərbaycandan başlayan tarix. Bakı, 2003
31. Erich Feigl. Ermeni Mitomaniyası. İstanbul, 2007.
32. Ercilasun Ahmet Bican. Oğuz adının etimolojisi. Oğuzlar: Dilleri, Tarihleri və Kültürleri.
33. Uluslararası Türkiyat Araşdırmaları Sempezyumu Bildrileri. Ankara, 2015.
34. Esin Emel. Kotuz ikinci Göktürk sülaləsinin tamğası. Ankara, 1985.
35. Fərda. Xəzərlər və Azərbaycan. Bakı, 2018.
36. Gökyay Orhan Şaik. Divani Lüğətit Türk və Alp Ər Tonga. Türk Dil Kurumu Yayınları. Ekim 1962. №253.
37. Günaltay Ş. Yakın Şark II, Nihat Çetinkaya, İgdır Tarihi, İstanbul, 1996.
38. Güneri Semih. Türk-Altay kuramı. İstanbul, 2018.
39. Herodot. Tarih. İstanbul, 2012.
40. Herodot. Tarix. Bakı, 1998.
41. İbrahim Mahir Demirel. Sumerce tabletlər. Mitoloji öyküler. academia. edu.
42. İnayet Alimcan. Uygur söcügünün Kökeni ve Anlamı üzerine Yeni bir Yaklaşım. Türk Dil Kurumu 20-24 Ekim 2014, VI Türk Dili Kurultayı Bildrileri.
43. İnterfaks Azerbaidjan. 01.03.2018.
44. İsmail Mizi-Ulu. Merkezi Qafqazın Etnik Tarihinin Köklərine Doğru. İstanbul, 1993.
45. İzgi Özkan. Orta Asiyanın En Eski Kültürleri ve Çin medeniyyeti ile İlişkileri. Türkler C I. Ankara, 2002.
46. Kafesoğlu İbrahim. Türkmen Adı, Manası ve Mahiyeti. Türkler C. IV. Ankara, 2002.
47. Kahun Leon. Fransa'da Ari Dillere Tekaddüm Etmiş Olan Lehçenin Turani Menşei, Tercüme Ruşen Eşref, İstanbul, 1930.
48. Karatay Osman. İran ile Turan. İst. 2003.
49. Kırzıoğlu Fahrettin. Dede Korkut Oğuznameleri. Ankara, 2000.
50. Kroll Stephan. İrandakı Urartu şehirleri. Urartu Doğuda Degişim. İstanbul, 2011.
51. Koppers W. Etnolojiye dayanan Cihan tarihinin işığı altında ilk Türklük və İndo-germenlik. Türklər, C I. Ankara, 2002.
52. Köroğlu K.Urartu Krallığının kuzey yayılımı ve Qulha ülkesinin tarihi coğrafyası, Belleten, 2001, LXIV/241.
53. Kuzgun Şaban. Hazar ve Karay türkləri: Türklerde yahudilik ve Doğu Avropa yahudilerinin Menşei meselesi. Ankara, 1993.

54. Kuzuoğlu Remzi. Eski Assurca metnlərdə geçen coğrafi adlar. Ankara, 2007.
55. Qasımlı Aydın Mədətoğlu. Azər peyğəmbər. BAO.
56. Landsberger B. (K. Balkan) Eski Ön Asiyada Qut halkının dili ile Eski Türkcə arasındakı benzerlikler. Erdem, 6 (16), 1-64 1990.
57. Mahmud Kaşğari. Divanü Luğat-it Türk. Tərcümə və nəşrə hazırlayan Ramiz Əsgər. C. I, Bakı, 2006.
58. Mahmud Kaşğari. Divanü Luğat-it Türk. Tərcümə və nəşrə hazırlayan Ramiz Əsgər. C II. Bakı, 2006.
59. Mahmud Kaşğari. Divanü Luğat-it Türk. Tərcümə və nəşrə hazırlayan Ramiz Əsgər. C III C. Bakı, 2006.
60. Mahmud Kaşğari. Divanü Luğat-it Türk. Tərcümə və nəşrə hazırlayan Ramiz Əsgər. C. IV C. Bakı, 2006.
61. Mahmud Kaşğari. Divanü Luğat-it Türk. Tərcümə və nəşrə hazırlayan Ramiz Əsgər. C. V. Bakı, 2008.
62. Mizi-Ulu İsmail. Merkezi Qafqazın Etnik Tarihinin Köklerine Doğru. İst. 1993.
63. Mirzə Bala. Azərbaycan tarixində Türk Albanya"Ankara, 1952.
64. Mirzo Uluğbek. Dört Ulus Tarihi. (Özbekce). Taşkent, 1994.
65. Məmmədov Aydın. Sumer-Türk leksik paralelləri. Azərbaycan dilinin erkən tarixinə dair materiallar. Azərbaycan Filologiya Məsələləri. Bakı, 1983.
66. Mutlu Suzan A. Asur ve Urartu devletinin Manna ülkesi üzerindeki hakimiyyet politikası, Akademik Tarih ve Düşünce Dergisi. C IV, sayı XI-Mayıs, 2017.
67. Nihat Çetinkaya. İgdır Tarihi. İstanbul, 1996.
68. Oğuz Destanı, Reşideddin Oğuznamesi, tercüme ve tahlili, Z. V. Toganin, 2 baskı. İstanbul, 1982.
69. Oğuznamə. Bakı, 2003.
70. Ögel Bahaeddin, Türklerde Devlet Anlayışı. C. 1, İstanbul, 1982.
71. Ögel Bahaeddin. Türk Mitolojisi. C I, Ankara, 2010.
72. Pelliot Paul. Uygur yazısıyla yazılmış Uğuz xan dastanı üzerine. Ankara 1995.
73. Rasonyi Laslo. Tarihte Türklük. Türkler. cilt 1
74. Rəcəb Albayraq, Türklərin İranı, C. 1, Bakı, 2016.
75. Sadi Bayram. Kaynaklara göre Güney-Doğu Anadoluda Proto Türk İzleri. İstanbul, 1980.
76. Salvini M. Uratu tarihine genel bir bakış: Urartunun doğudaki degişimi, 2011.
77. Sinor Denis. Oğuz Kagan Destanı Üzerinde Bazı Mulahzalar. İstanbul Universitesi Edebiyat Fakultesi Türk Dili ve Edebiyatı Dergisi. c. 4, sayı. 1-2, Nis. 2012.
78. Sithçin Zecharia. Zaman başlarken. İstanbul, 1993.
79. Sithçin Zecharia. 12 Gezegen, İstanbul, 2016.



80. Sithçin Zecharia. İlahi karşılaşmalar, İstanbul, 2007.
81. İbrahim Mahir Demirel. Sumerce tabletlər. Mitoloji öyküler. academia.edu.
82. Sümer Faruk. F. Sümer, Oğuzlar, Bakı, 1992.
83. Şiraz Yasemin. Troya Savaşlarına Qatılan Qavimlərin Kimlikləri və Kökənləri, Konya, 2006.
84. Taberi. Milletler ve Hükümdarlar Tarihi. C. I, İstanbul, 1991.
85. Taberi. Milletler ve Hükümdarlar Tarihi. C II, İstanbul, 1991.
86. Tarixi Fexruttin Mübarəkşahi. Arif İsmayıl-İsmayılniya, 2019.
87. Toğan Zeki Velidi. Umumi Türk Tarihine giriş. İstanbul, 1981.
88. Toğan Zeki Velidi, Rəşidəddin Oğuznaməsi. İstanbul, 2013.
89. Tuna Osman Nedim. Sümer ve Türk dillerinin tarihi ilgisi ilə Türk dilinin yaşı meselesi. Türk Dil Kurumu Yayınları, sayı 561, Ankara, 1997.
90. Türkkan Reha Oğuz. Türk Tarih Tezleri. Türkler cild 1, Ankara, 2002.
91. Türk və Turan Tarihi: www.kıbrıs1974.com.
92. Yürükoğlu Yusif Ziya. Dil Tetkiklerinden Samiler-Turaniler. İstanbul, 1934.
93. Yusif Yusifov. Qədim Şərq tarixi. Bakı, 1992.
94. Zakiri Hüccətullah. Sumerlər. Hazılayan Əkbər Həmidiəlyar. Tehran, 2007.
95. Zehtabi M. T. İran türklərinin əski tarixi. İstanbul, 2010.

*Avropa dillərində.*

96. Abedi Akbar. Kura-Araxes exploitation og animal resources in North-western İran and Nakhcivan. Groningen, 2015.
97. Abedi Akbar. İranian Azerbaijan patway from the Zagros to the Kaukasus, Anatoliya and Nordhern Mesopotamia: Dava Göz New Neolithic and Chalcolothic site in Nw İran. Mediterranean Archaeologi and Archaeometry, Vol 17, №1, 2017.
98. Alberunis İndia. Vol I, London, 1910.
99. Alberunis İndia. Vol II, London, 1910.
100. Altheim F. Geschichte der Hunnen, 1959.
101. Andreas Johandi The God Asar-Asalluhi in the early Mesopotamian panteon. Tartu, 2019.
102. Anor Netanel. Josef Halevy, Racial Sholarschip and the „Sumerian problem". Philological encounters №2 (2017). Berlin. Səh. 321-345.
103. A Manual of the Turanians and Panturanism, London, 1920.
104. Ancestry and demography and descendants of İron Age nomads oft he Eurasian Steppe. internet saytı.
105. Anthony D. Migration in Archelogy: The Baby and the Bathwater. American Anthtopologist, Vol. 92, №4, Januar 1990.

**106.** Arnaud Fournet. Kassite Language İn a Comporative Perispective with Hurrian and Urartea. The Macro-Comporative Journal Vol. 2№1. 2011.
**107.** Arnoud Fournet. Kassite Language İn a Comporative Perispective with Hurrian and Uratean. American Oriental seiens 37. New Haven, 1978.
**108.** Arnaud Fournet and Allan R. Bomhardt. The indo-european Elements in Hurrian. Colombes/Charleston, 2010.
**109.** Arnaud Fournet. A Manual of Hurrian, 2013.
**110.** Arno Poebel. Die Sumerische personen namen. Breslau, 1910.
**111.** Attwood J. Posible İranians Origin fort he Şakyas and Aspects of Buddhism. JOCBS, 2O12.
**112.** Ascalone. Enrico. Sistemi d`ingerazione culturale tra la fine del III e l`inizio del II millenio A. C. Jirfot e le regioni del l`Oxus. Roma 2018. Contributi e Materiali di Archeologia Orientale XVIII. 2018.
**113.** Ausführliches Lexikon der Grechischen und Römischen Mithologie. Band 1, Leipzig, 1884-1886.
**114.** Bahrani Zainab. Rituals of War: The Body and Violence in Mesopotamia, 2008.
**115.** Baker R. Joon. Race, London, 1974.
**116.** Becker J. Carl. A Modern Theory of Language Evolution. New York, 2005.
**117.** Best Jan. Lost Languages from the Mediterranean. Leiden, 1989.
**118.** Ball C. and Litt D. Chinese and Sumerian. Oxford-London, 1913.
**119.** Batiuk Stephan Denis. Migration Teory and the Distribution of the Early Transcaucasian Culture. Toronto, 2015.
**120.** Baumann Hans. İn the Land of Ur: The Discovery of Ancient Mesopotamia. New York, 1969.
**121.** Becker J. Carl. A Modern Theory of Language Evolution. New York, 2005.
**122.** Bekwith Christopher. The Tibetan Empire in Central Asia. Princeton New Jersey, 1987.
**123.** Benveniste E. Titres et noms propres en İranien ancien. Paris, 1966.
**124.** Billerbeck A. Susa eine studie zur Alten Geschichte Westasiens. Leipzig, 1893.
**125.** Biskione Rafaele, The North Eastern frontirt Urartians and non-Urartians in the Sevan Lake basin. Roma, 2002
**126.** Black Jeremy and Green Anthony. An İllustrated Dictionary Gods And Demons. London, 1998.
**127.** Boyce Marya. The History of Zoroastrianism. vol 2, Leiden-Köln, 1982.
**128.** Boungtoun Willis. History Ancient of Peoples. London, 1897.
**129.** Brandenstein W. Herkunft der Etrusker. Leipzig, 1937.
**130.** Breasted J. Henry; Peter A. Piccione. Ancient Records of Egypt. İllinois, 2001.





**131.** Brinton G. Daniel. The Protoistoric Ethnographi of Western Asia. Read byefore the Amerikan Philosifical Society, April, 19, New York, 1895.
**132.** Daniel G. Brinton, Races and Peoples: Lectures oft he Science of Ethnographi. New York, 1890.
**133.** Brosset Mari. Histoire de la Georgie, 1858.
**134.** Brunnhofer Hermann. Urgeschichte Arien in Vorder und Centralasien. Leipzig, 1893.
**135.** Brunnhofer H. İran und Turanien. Leipzig, 1889.
**136.** Bruno Poizat. L`Arameen-Les langues et les littEretures Arameennes, 2007.
**137.** Bryant Edwin and Laurie Patton. The İndo-Arian Conterversy. New York, 2005.
**138.** Boule Marcellin. Les Hommes Fosilles Elementis de Paleontologie Humaine. Paris, 1921.
**139.** Buccellati Giorgio. Apiru and Minnabtutu-The Stateless of the First Cosmopolitan Age. Journal of Near Eastern Studies. The Universitet of Chicago, 1977, Vol. 36.
**140.** Bunzen G. J, Outlines of the Philosophy of Universal History, Language und Religion. vol 1. London, 1854.
**141.** Bunzen G. J, Outlines of the Philosophy of Universal History, Language und Religion. London 1854, vol. 2.
**142.** Burkert W. Greek religion: Archaic and classical, 1987.
**143.** Cameron G. History of Early İran. Chicago, 1936.
**144.** Carlos Quiles. A Came of Clans-A clash of Chifs. Badajos, 2019.
**145.** Christensen Artur. Les Kayanides. Kopenhagen, 1931.
**146.** Christensen Artur. L`iran sous les Sasanides. Copenhaque, 1936.
**147.** Christian Churches of Good. Sohns of Japheth: Part. VIII Tiras. №46, 2008.
**148.** Christian Kisch. Der strategischen geschichte. Freiburg, 2011.
**149.** Christian Liebhardt: Der Zug der Kimbern und Teutonen: Hintergründe, Ablauf und Rückschlüsse. Saarbrücken, 2013.
**150.** Clauson G. An Etimalogical Dictonary of pre-thirteehnth-century Turkish. Oxford, 1972.
**151.** Conder R A. Altaic Heroglips and Hitites İnscriptions. New York, 1889.
**152.** Conder R. A., Hittite and their Language. New York, 1898.
**153.** Conder R. A. The Early Races of Western Asia. The Journal of the Antropological İnstitute of Great Britain and İreland. Vol. 19. London, 1890.
**154.** Cordier H. Histoire Generale de la Chine. Vol. I, Paris, 1920.
**155.** Coyajee J. C. Cult and Legend of Ancient İran and China. Bombay, 1936.
**156.** Coon S. Carlton. The Races of Europa. New York, 1939.
**157.** Cooper Jerold. The curse of Agade. Johns Hopkins University Press, 1983.

**158.** Cooper Jerold. Sumerian and Arian: Racial teory, Academik Politics and Parisian Assyroloqy. Revue de l Histoire des Religions. Paris, 1993.
**159.** Cooper Jerold. Epics of Sumerian Kings the Matter of Aratta, Atlanta, 2003.
**160.** Cowley Artur Ernst. The Hittites. London, 1929.
**161.** Czaplicka M. The Turks of Central Asia in History and at the Present Day. Oxford, 1918.
**162.** Daliah Bawanzpeck. Die Auguren und das Hetitische Heer. Krig und Frieden in Alten Vorderasien. Münster, 2006.
**163.** Das Buch von der Geschichte der Frankov, Darmstadt, 1982.
**164.** David S. Noss, Blake Grangaard. A History of the World`s Religions. Routledge, 2016.
**165.** Delamarre X. Dictionaire de la Langue Gauloise. Paris, 2003.
**166.** Delitzsch Friedrich. Assyrische Handwöterbuch. Leipzig, 1896.
**167.** Delitzsch Friedrich. Sumerisches Glossar. Leipzig, 1914.
**168.** Delitzsch F. Kleine Sumerische Sprachlehrer. Leipzig, 1913.
**169.** Deliztsch F. Die Sprache der Kossäer. Leipzig, 1884.
**170.** Deliztsch F. Wo lag das Paradies. Leipzig, 1881
**171.** Denker J. The Races of Man. New York, 1913.
**172.** Dennis R. Campbell M. Huurian, Ancient Near Eastern Languages, Hoboke, 2020.
**173.** De Morgan, Jacques. La prehistoire orientale. Paris, 1925.
**174.** De Roosi. The Great King Zuzu of Alahzina. Arnhem, 2015.
**175.** Der Spigel. 3 juni 2006.
**176.** Die Schweiz in Römischer Zeit, Kelten in der Schweiz. Zurich, 1927.
**177.** Diffenbach Lorens. Die Alten Völker Europas. Frankfurt am Mein, 1861.
**178.** Donner O. Sur l`origine de l`alphabet Turc du nord de l`asie. Oxford, 1936.
**179.** Dossin G. An. Ka. Di, le dieu supreme de Der. Səh. 76-78. Kramer Annivesary Volume. Neukirchen, 1976.
**180.** Dossin G., Les archives epistolaires du palais de Mari. İn Suria., T 19, Paris, 1938.
**181.** Dossin G. Correpondance de Samsi-Addu. Archives Royales de Mari. IV, Paris, 1938.
**182.** Duglas Miller, Mark Shipp. An Akkadian Handbook. İndiana, 1996.
**183.** Eckart Frahm. Geschichte des Alten Mesopotamien. Stuttgart, 2013.
**184.** Edward Chiera and Ephraim E. Speiser. A New factor in the History of the Ancient East. The Annual oft he American Schols of Oriental Research. Vol 6, (1924-1925).
**185.** Edzard, Ditz Otto. Sumerian Grammar. Leiden-Boston, 2003.
**186.** Egon von Eikstedt. Rassenkunde und Rassen geschichte der Menscheit. Stutgart, 1934.
**187.** Ellis Robert. The Asiatic Affinites of the old İtalians, 1870.
**188.** Ellis Robert. Peruvian Scythika the Qhuichua Language of Peru. London, 1875.
**189.** Elfebein J. H. A periplous of the brahui problem. Studia İranika. 16. 1987.
**190.** Emanuelle Celesia. Dell Antichissimo İdioma de Liguri. Genova, 1863.
**191.** Emeline Richardson. The Etruscans, Their art and Civilization. Chicago, 1964.
**192.** Enciklopedia Britanika. 1910-1911. Cambridge, 1910-1911.
**193.** Erman Adolf. Egypten und Egyptische leben in Altertum. Tübingen, 1885.
**194.** Ernout A., Meillet A. Caesar. Dictionnaire etimologique de la language latine. 4e ed. P. Klincksieck, 2001.
**195.** Evans Georg. An Eassu on Assyrologi. London, 1983.
**196.** Ferrar F. An Essay on the origin of language. London, 1860.
**197.** Fergusson J. Rude stone Monuments. London, 1872.
**198.** Fergusson J. Three and Serpent Worship: or illustrations of Mythologi and Art in İndia. London, 1868.
**199.** Fischer Karl. Erklärung Skhitische-Sarmatische Namen und Wörter. Berlin, 1917.
**200.** Flavius Josephius. Judische Altertümer. IX, 14, 2, 3. Wiesbaden, 2002.
**201.** Fleming Johannes. Die Grosse Steinplatteninschrift Nebukadnezars II. Göttingen, 1883.
**202.** Flieger C. Zur Prahistorischen Ethnologien İtaliens. Wien, 1877.
**203.** Francesco Perono. Water Place Names in the pre-latin ligurian context. Вопросы ономастики. 2013, №2, 15.
**204.** Fressl J. Die Skythen Saken Die Urvater Der Germanen. München, 1886.
**205.** Forrer Emil. Stratification des langues et des peuoples dans le proche-orient prehistorique. Journal Asiatuque, Paris, 1930 okt-dec.
**206.** Forrer Emil. Geschichtliche Texte aus dem Alten und Neuen Chatti. Leipzig, 1926.
**207.** Forrer Emil. Vorhomerischen Griechen in Keilschrift Texten von Bogazköy. Mitteilungen der Deutschen Orient-Geselschaft zu Berlin, 63-1924.
**208.** Frankfurt H. La Civiliation de L`Oxus et les İndo-İraniens et İndo-Aryens en Asie Centrale. Aryas, Ariens et İraniens en Asie Centrale. Paris, 2005.
**209.** Frankfort H. The Birth of Civilization in the Near East. London, 1951.
**210.** Frankfurt H. The Central Asien dimension of the symbolic sistem of im Bactria and Margian. Cambridge University Press: 1994.
**211.** Frayne Douglas. Old Babylonian Period. Torronto, 1990.
**212.** Frayne Douglas. Sargonik and Gutian Periods. Toronto-London, 1993.

213. Freshfield Douglas. The Exploration of the Caucasus. band I, London, 1896.
214. Gary M. Beckman, Trevor Bryce, Eric H. Cline. The Ahhiyawa Texts. Society Biblical Literature. Atlanta, 2011.
215. Gelb İ. "Studies in the topography of Western Asiens". The American Journal of Semitic Languages and Literatures. 1938, Vol. 55.
216. Gelb İ. Hurrians and Subarians. Chicago, 1944,
217. Gemoll Martin. Die İndogermanien im Alten Orient. Leipzig, 1911.
218. Geoffrey W. Bromiley. The İnternational standard Bible Encyclopedia. 1988-2000.
219. Gibbon E. The History of the Decline and Fall of the Roman Empire. Cambridge, 1988.
220. Gmelch G. Return Migration. Annual Review of Antropology, vol. 9, 1980.
221. Golden Peter. Khazar. Budapesht, 1980.
222. Grosset R. L Empire des Stepes. Paris, 1938.
223. Grosset R. Historie de l'Asie. Paris, 1921.
224. Gutscmid A. Geschichte İranians und seiner Nachbarländer. Tübingen, 1888.
225. Gutschmid A. Über die Glaubwürdigkeit der Armenischen Geschichte des Moses von Khoren. Berichte übür dei Verhandlungen der Königlich Sächsischen Wissenschaften. Leipzig, 1876.
226. Gwendolyn Leick. A Dictonary of Ancient Near Eastern Mythology. New York, 2003.
227. Halloran J. Sumerian Lexicon, 1999.
228. Hall H. R. The ancient history oft he Near East. London, 1913.
229. Hall William, Simpson William Kelli. The Ancient Near East. New York, 1971.
230. Handbuch der Orientalistik. Keilschriftforschung und alte Geschichte Vorderasiens. 2 band, Köln, 1969.
231. Helfenstein Alfred. Das Namengut des Pilatusgebites Luzern, 1982.
232. Henning W. B. The firs İndo-Europeans in history. Ulmen, 1978.
233. Herzfeld Ernst. İran in the Ancient East. London-New York, 1941.
234. Herzfeld Ernst. Archeoloqische Mitteilungen aus İran. Band 19, 1986.
235. Herzfeld Ernst. Archeogical History of İran. London, 1935.
236. Hilprecht H. V. The Babylonium Expedition. Philadelphia, 1908.
237. Hinks Edward. On the Poliphonia of the Assyrio-Babylonian Cuneiform Writing. Dublin, 1863.
238. Hitzig F. Assurische sprache. Leipzig, 1871.
239. Historia de Aragon. Zaragoza, 1989.
240. Hommel F. Geschichte Babyloniens und Assyriens. Berlin, 1885.
241. Hommel F. Geografi und Politische Geschichte des klassische Altertum. Nordlinge, 1889.



242. Hommel F. Geschichte des Alten Orientis. Nordlingen, 1887.
243. Hoops Johannes. Reallexikon Der Altgermanische Altertumskunde. Strasburg, 1915-1916.
244. Hrozny B. Die älteste Geschichte Vorderasiens und İndiens. Prag, 1940.
245. Hrozni B. Ancient History of western Asia, İndia and Crete. New York, 1953.
246. Hübschman H. Persische studien, 1895.
247. Hüsing Georg. Die einheimischen quellen zur geschichte Elams, 1916.
248. Hüsing Georg, Der Zagros und seine Völker, 1908.
249. Hüsing Georg. Die İranischen Eigennamen in den Achämeniden inschridten. Leipzig, 1987.
250. İsaac Taylor. The origin oft he Aryans. London, 1898.
251. İssel Arturo, Liguria Geologica e Preistorica. Vol. 1. Genova, 1908.
252. İssel Arturo. Liguria Geologica e Preistorica, Vol. 2. Genova, 1892.
253. Jacques de Morgan. La prehistoire orientale. Paris, 1925.
254. Jacques de Morgan, "L'humanité Préhistorique. Paris, 1921.
255. Jakobsen Thorkild. Primitive Democracy in Ancient Mesopotamia. Journal of Near Easten Studies. Chicago, 3/2, Juli 1943.
256. Jacobsen Thorkild. The Sumerian King List. Chicago, 1973.
257. Jacobsen Thorkild. The Harps that Once: Sumerian Poetrz in Traslation, New York, 1987.
258. Jakobsen Thorkild. Never Mary a Swede. Popular Social Science. 8.01.2013.
259. Jensen P. A. Über einige Sumero-akkadische und Babilionisch-assurische Götternamen. Zeitschrift für Assyrologie, 1886.
260. Jensen P. Die Kosmologieder Babylonier. Strassburg, 1890.
261. Jensen P A. Hittiter und Armenir. Strassburg, 1898.
262. Johannes Renz. Assurien Bibelwisseschaft-de, 2016.
263. Josef Halevy and tha "Sumerian Problem": A case of Essentialist Approax towards Race, Language And culture in 19th Century Science. Oxford, 1990.
264. Justi F. İranische Namenbuch, Marburg, 1895,
265. Emmanuel. Dell Antichissimo İdioma de Liguri, 1863.
266. Kassian Alexey. Hurru-Urartian from the Lexicostatistical Viwpounit. Ugarit forschungen. Münster, 2011.
267. Kauffmann Friedrich. Deutsche Altertumskunde. München, 1913.
268. Kennedy James. On the Ancient Languages of France and Spain. Transactions oft he Philological Siciety. London, 1855. №11.
269. Khazars. The Enciclopedia Britanica, V, Cambridge. 1910-1911.
270. King W. Leonard. A History of Sumer and Akkad. London, 1916.
271. Klaprot J. Asia Poliglotta. Paris, 1823.

**272.** Kleinschmit Max, Kritische untersuchungen zur geschichte von Subaris. Hamburg, 1894.
**273.** Koch M. Alpen Etrusker. Leipzig, 1853.
**274.** Koch John. Celtic Culture: A Historical Enciclopedia. Ceredigion Wales, 2005.
**275.** Konrad Volka. A Sumerian Reader. Roma, 1999.
**276.** König F. W. Älteste Geschichte der Meder und Perser, Leipzig, 1934.
**277.** Köstler Arthur. Der dreizehnte Stamm. Das Reich der Khasaren und sein Erbe. München, 1976.
**278.** Kramer S. Sumerians. Chicago, 1963.
**279.** Krücker W. Erklärung der Völkertafel im ersten Buch Moses. Bonn, 1837.
**280.** Landsberger B: Assyrische Königliste und "Dunkles Zeitalter", In: Jounal of Cuneform Studies 8, 2, 1954.
**281.** Landsberger B. Die Fauna des Alten Mesopotamien. Leipzig, 1934.
**282.** Landsberger B. Über die Völker Voderasiens im Dritten Jahrtausend. Zeitschrift für Assyrologie, 1924.
**283.** Landersdorfer S. Sumerische sprachgut im Alten Testament. Leipzig, 1916.
**284.** Leander P. Die Sumerischen Lehnwörter im Assurischen. Upsala, 1903.
**285.** Lee E. A Theori of Migration. Population Studies Center Series in Studies of Human Resources. №1, Kansas, 1966.
**286.** Lectyres on the History of Turks. Dublin, 1854.
**287.** Lenormant F. Origines Historiques de l Humanite. Paris, 1895.
**288.** Lenormant F. Chaldean Magic: İts Origin and Devolopment. London, 1877.
**289.** Lenormant F. La Langue Primitive De La Chaldee. Et Les İdiomes Touraniens. Paris, 1875.
**290.** Lenormant F. Bginnings of History. New York, 1882.
**291.** Lenormant F. Histoire des Peoples Orientaux. Paris, 1884.
**292.** Lenormant F. Histoir Ancienne de l`Orient. Paris, 1887.
**293.** Leon de Rosny. La Civilisation Japonese. Paris, 1883.
**294.** Les Indo-Evropeens. Payot, 1995.
**295.** Lysander Dickerman. The Hittites. Journal oft he American Geografical Society of New York, 1889.
**296.** Liverani Mario. The Ancient Near East. New York, 1988.
**297.** Luttwak Edwrd. The Grand Strategy of the Byzantine Empire. Massachusetts, 2009.
**298.** Lüdwig Schmidt. Geschichte der Wandalen. München, 1970.
**299.** Mackenzie D. Myths of Balylonia and Assyria. London, 1915.
**300.** Madison Grant. The passinc of the great race. New York, 1916.
**301.** Mallory J. P, Victor H. The Tarim Mummies. London, 2000.



**302.** Marcellin Boule. Les Hommes fosilles elements de Paleontologie Humaine. Paris, 1921.
**303.** Marquart J. Untersuchungen zur Geschichten von Eran. Leipzig, 1905.
**304.** Marshall A. Guide the Taxsila. Calkutta, 1918.
**305.** Marşhall Ross. The İndian King Lists. Academia-edu, 2008.
**306.** Martin Almagro-Gorbea. La colonizacion Tartesica: Toponimia y Arqueologia. Serta Paleoispanica J. de Hoz Paleoispanica. 10 -2010.
**307.** Mayrhofer M. Onamastica Persopolitana, Wien, 1973.
**308.** Maspero G, Histoire Ancienne des Peuples de L`Orient. Paris, 1876.
**309.** Matt Waters. Ancient Persia: A Concise History of the Achemenid Empire. London, 2015.
**310.** Meissner Bruno. Babylonien und Assyrien. Heidelberg, 1920.
**311.** Meyer Eduard. Geschichte Des Altertums, 1892.
**312.** Meyer Eduard. Geschichte der Altertums, Stutgart-Berlin, 1913.
**313.** Meyer Eduard. Forschungen zur Altengeschichten. band 1, Halle, 1892.
**314.** Meyer Eduard. Sumerier und semiten in Babylonien. Berlin, 1906.
**315.** Miguel Cortes Lopes Diccionario georafico historico, de la Espana anticua Tarraconense betica. Madrid, 1836. T. I.
**316.** Miguel Cortes Lopes, Diccionario georafico historico, de la Espana anticua Tarraconense betica. Madrid, 1836. T. II.
**317.** Miguel Cortes y Lopes. Diccionario geografico historiko de la Espana anticua Tarraconense betica. T. III, Madrid, 1836.
**318.** Miller D. and M. Shipp. İn Akkadian Handbook. İndiana, 1996.
**319.** Mills A. D. Dictionaru of British Pleace names. Oxford, 2003.
**320.** Mierop Marc. A History oft he Ancient Near East., ca. 3000-325 BC. Oxford, 2015.
**321.** Mikael Reuter. Hurrako "hurri", Helsinki Sanomat vom 23 November, 1999.
**322.** Molon Francesco, Al Popolo Ligure. Preistorici Contemporane. Milano, 1880.
**323.** Molon Francesco. Paletnologia italiana. İ nostri antenati, 1887.
**324.** Moncaut Cenac, Histoire des Peuples et des etats Pyreneens. Paris, T. II, 1875.
**325.** Moncaut Cenac. Histoire des Peuples et des etats Pyreneens. Paris, T. I, 1874.
**326.** Moulton H. James. Early Zoroastrianism. London, 1926.
**327.** Müller M. Lectures of the science of language. New York, 1862.
**328.** Müller M. Letter to Chevalier Bunsen, on the classification oft he Turanian Languages. London, 1854.
**329.** Müllenhoff Karl. Deutsche Altertmskunde. Vol. 3, Berlin, 1892.
**330.** Mürtder F. Geschichte Babylioniens und Assyriens. Stutgart, 1891.
**331.** Narasimhan V. The formation of humans populations in South and Central Asia. Jour. Science, vol. 365, 2019.

332. Nemeth Zsolt. Bischof Gregor von Tours über die Gestrnbewegungen. səh. 140-141. Zeitensprünge, 1/2014. Bamberg.
333. Nibuhr Markus Karsten. Geschichte Assurs und Babels. Berlin, 1857.
334. Nirvi R. Petojen nimytset kosinta-ja hääsanastossa. Suomalaisen kijallisuuden seura. Helsinki, 1982.
335. Norris Edwin. Memoir on the Scythic version of the Behistun İnscription. London, 1852.
336. Nöldeke T. Über die namen Assyriens. Zeitschrift für Assyrologie und verwandte gebiete. Berlin, 1886.
337. Nöldeke T. Geschichte der Perser und Araber zur zeit Sasaniden. Leiden, 1879.
338. Oppert J. Reponse Ernst Renan. De La Revue Orientale Et Americaine. Paris, 1898, №11.
339. Oppert J. Sumerien ou Rien, Journal Asituque, Paris, 1875, V-5.
340. J. Expedition Scientifique En Mesopotamie. T. II, Paris, 1851-1854.
341. Oppert J. Expedition Scientifique En Mesopotamie. T I, Paris, 1854.
342. Oppert J. Historie de Empires Chaldee d Assyrie. Paris, 1865.
343. Oppert J. Raport a Son Excellence M. le Ministrede l İnstruction publique et des Cultes. Journal Asitique 5-9, 1857.
344. Oppert J. Sumerien ou Accadien, Journal Asiatique, 1875, T V.
345. Oppert J. Über die sprache der alten Meder. Leipzig, 1876.
346. Oppert J. Melanges Perses. Paris, 1872.
347. Özer Yusif Ziya. Arier und Turanier. İstanbul-Zellith, 1932.
348. Raychaudhuri H. Political History of Ancient İndia. Calcutta, 1927.
349. Reynolds R. L; Lopez R. E. Odoaker German or Hun. American Historical Reviw. cilt 52, 1946.
350. Rawlinson G. H. The origin of Nation. New York, 1883.
351. Rawlinson G. H. Five Great Monarchies oft he Ascient Eastern World. London, 1862.
352. Rawlinson G. History of ancient Egypt. vol 1, Boston, 1882.
353. Rawlinson H. C. The Persien Cuneiform inscription at Behistun. Journal of the Asiatic Societe. London, 1849.
354. Rawlinson H C. Bactria the History of Forgotten Empire. London, 1912.
355. Reade Julian. Mesopotamia. British Museum press, 2000.
356. Reade J. E. Kassites and Assyrians in İran. Journal British instityte of Persian stydies. XVI, 1978.
357. Reallexikion der Germanischen Altertumskunde. Band 34. de Gruyter. Berlin/New York, 2007.
358. Reinhard Schmoeckel. Sarmaten: Unbekannte Väter Europas. Bonn, 2016.

359. Renate Marian van Dijk-Coombes. Mesopotamian Gods and The Bull. Sociedades Precapitalistas, 8(1), Stellensh University Sudafrica, 2018.
360. Reuter Mikael. Hurrako "hurri", Helsinki Sanomat vom, 23 November 1999.
361. Ripley William Z. The Races of Europa. New York, 1899.
362. Roberts J. J. The earlist semitic phanteon a study of the semitic deities attested in Mesopotamia before Ur III. London, 1939.
363. Roland Steinacher. Studien zur vandalischen Geschichte. Wien, 2002
364. Romesh Dutt, A History Civilisatzion Ancient İndia, Vol- 1, Delhi, 1893.
365. Rubio Gonzalo. On the alleged „Pre-Sumerian substratum". Journal of Cuneiform Studies. Vol. 51(1999).
366. Rubio Gonzalo. From Sumer to Babylonia: Topics in the History of Southern.
367. Mesopotamia. Publications of Association of Ancient Historians 8. 2007, Səh. 5-51.
368. Rudolf Thurneysen. Reinische Landesmuseum Trier, 2003.
369. Parpola Simo. Etimological Dictionary oft he Sumerian Language I-II. Eisenbrauns, 2016.
370. Parpola Asko. The Roots of Hinduism: The Early Aryans and the Indus Civilization, Oxford University Press, 2015.
371. Pargiter M. A. Ancient İndian Historycal Tradition. Delhi, 1972.
372. Patterson Daniel, Elements of the Neo-Sumerian Military. Pensylvania, 2018.
373. Peiser F. E. Die Hettitischen inschriften. Berlin, 1892.
374. Peter de B. Damgaard. The first horse herders and the impact of Early Bronze Age steppe expansions into Asia. Jour. Science 29 juni 2018.
375. Phlip L. Gell. Khazars. The Enciclopedia Britanica, V, Cembridge, 1911.
376. Phlipp Ammon. Die Etruskische Wurzeln Roms. Berlin-Darmstadt, 1956.
377. Pitskhelauri Konstantine. Uruks migrants in the Caucasus. Bulletin of the Georgian Academy of Sciences. vol. 6. №2, 2012.
378. Poebel A. Grundzüge der Sumerischen Grammatik. Rostok, 1923.
379. Por Eduardo Chao. Cuadros de la Geografia Historica de Hespana. Madrid, 1849.
380. Potts D. T. Elamites and Kssites in the Persian gulf. The University of Chicago. 2006.
381. Potts D. The Archeologi of Elam. Cambridge Universitet Press, 1999.
382. Potts D. Gopatshah and the human-headed bulls of Persopolis, 1996.
383. Potts D. T. Mesopotamian civilization. The Material foundation. London, 1997.
384. Praschek. J. V. Geschichte der Meder und Perser. Bis zu Makedonischen eroberung. I Band. Gotha, 1906.

**385.** Praschek. J. V. Geschichte der Meder und Perser. Bis zu Makedonischen eroberung. II Band. Gotha, 1906.
**386.** Pritchard James. Ancient Near Eastern Texsts Relating to the Old Testament. Princeton, 1955.
**387.** Pumpelly R. Explorations in Turkestan. Prehistoric Civilizationc of Anau. Washington, 1908.
**388.** Salvini M. Eine Urartaische Felsinschirift in der Region Nachiçevan, Rom, 1998.
**389.** Salvini M. The Eastern provinces of Urartu and the beginning of history in İranian Azerbeijan. Səh. 505, 2009, www.academia.edu.
**390.** Sanmarti J, Santacana J. Els ibers del nord. Barselona, 2005.
**391.** Sayce A. H. A Primer of Assyrology. Oxford, 1885.
**392.** Sayce A. H. The Ancient Empires oft he East. New York, 1884.
**393.** Sergi G. The Mediterranean Race. London, 1901.
**394.** Sewell Elisebet, Ancient History in Egypt, Assyria and Babylonia. London, 1862.
**395.** Siegmund Feist. Germanen und kelten in der Antiken Überlieferung. Halle, 1927.
**396.** Simons Frank. The Goddes Kusu. Revue d`Assyrologie, volume, CXII, 2018, SƏH. 123-148.
**397.** Smith G. The Chaldean Account of Genesis. New York, 1880.
**398.** Smith G. Assyrian Discoveri. New York, 1875.
**399.** Smith Philip. The Ancient History oft he East. London, 1888.
**400.** Smith Phlip. History oft he World, Vol. 1, New York, 1865.
**401.** Smith P. Histoire ancient oft he Orient, 1888.
**402.** Smith Sidney. Early history of Assyria. London, 1928.
**403.** Smith Vincent. Early History İndia. Oxford, 1914.
**404.** Schrader Eberhard. Der Assyrisch-Babylionischen Keilschriften. Leipzig, 1872.
**405.** Schrader Eeberhard. Keilinschriften und Geschichteforschung. Giefsen, 1878.
**406.** Schramm W. Akkadische logogramme. Göttingen, 2010.
**407.** Soltysiak A. Physikal Anthropologi and the "Sumerian problem". Studies in Historical Antropology, vol 4, 2004.
**408.** Spayser A. Mesopotamian origin. The basic popylation oft he Near East. London, 1930.
**409.** Spengler Oswald. Frühzeit der Weltgeschichte. München, 1966.
**410.** Spigel F. İranische Alterthumskinde. Band 1, Leipzig, 1871.
**411.** Spigel F. Eran das land Zvischen İndus und Tigris. Berlin, 1863.
**412.** Spence Lewis. Myths of Babylonia and Assyria. Delhi, 2015.



**413.** Steinkeller Piotr. On the Identity of the Toponym LU. Su: Journal oft he American Oriental Society 108/2, 1988.
**414.** Steiner Rudolf. Aus der Akascha Chronik. Berlin, 1986.
**415.** Stiebing H. William. Ancient Near Eastern History and Culture. New York, 1994.
**416.** Schenkel D. Bibel -Lexikon. Leipzig, 1875.
**417.** Streck M. Assyrbanipal und letzten Assyrischen Könige. Leipzig, 1916.
**418.** Schott W. Über das Altaische oder Finnisch-tatarischen Sprachengeschlecht, 1849.
**419.** Schönfeld M. Wörterbuch der Altgermanischen Personen und Völkernamen. Band 2, Heidelberger, 1911.
**420.** Schwarz F. Turkestan. Die Wege İndogermanische Völker.
**421.** Schwarz P. İran im mittelalter nach den Arabischen geographen. Zwickau, 1932.
**422.** Tamm E. Beringian Stand Still and Spread of Native Americans Founders. Plos. one, journal. Pone, 2007.
**423.** Taracha Piotr: Religions of Second Millenium Anatolia. Wiesbaden, 2009.
**424.** The Chicago Assyrian Dictonary, vol. 17, Š part. III, 1992.
**425.** The Cambridge Ancient History, Vol. 1, 1971.
**426.** The Cambridge Ancient History. Prologemona and Prehistory. V 1, P I. 1970.
**427.** The Cambridge History of İran. vol. 2. London, 1968.
**428.** The Electronic text Corpus of Sumerian Literature.
**429.** The Journal of the K. R. Cama Oriental.
**430.** The Riese oft he Turks. The Pan-Turanian Movement. London, 1919.
**431.** Thomas J. MacMaster. The Common Trojan Origins of Francs and Turks in the Chronicle of Fredegar. Atlantide, 2014. Academia.edu.
**432.** Thureau -Dangin. Une Relation de la Huitieme Campagne de Sargon. Paris, 1912.
**433.** Thureau-Dangin. Die Sumerischen und Akkadischen königsinschriften. Leipzig, 1907.
**434.** Terrien de Lacoperie. Westerin Origin of the Early Chinese Civilization. London, 1894.
**435.** Terrien deLacouperie. The old Babilonian Charakters and Chinese Derivates. Paris, 1888.
**436.** Tiele C. P. Babylonisch-Assyrische Geschichte. I Teile, Gotha, 1886.
**437.** Titus Livius. Ab Urbe Condita. liber I, 1, 1986.
**438.** Touran-www. clever-geek.github.io. Country. Turan.
**439.** Topper Uwe. Das Erbe der Giganten: Untergang und Rückkehr der Atlanter. Walter, 1977.

440. Trabazo V. G. Jose. Hetitische Tarkummae ein etymologische vorschlag. Proceedings oft he Eigth İnternational Congress of Hittitology. Warsaw, 2014.
441. Trevor Bryce. The Routledge Handbook of the peoples and Places of Ancient Western Asia. Routledge, 2009.
442. Ungnad Artur, Die Ältesten Völkerwanderungen Vorderasien. Breslau, 1923.
443. Ungnad Artur. Subartu. Beitrage zur Kulturgeschichte und Völkerkunde Vorderasiens, Berlin/Leipziq, 1936.
444. Usch Henze. Die Merovinger, 2010.
445. Valve Joaquin. La dvision territorial de la Espana musulmana. Madrid, 1986.
446. Vanistiphout Herman. Epics of Sumerian Kings the Matter of Aratta, Atlanta, 2003.
447. Van J. Dijk, 2Die dynastischen Heiraten zwischen Kassiten und Elamern. Eine verhängnisvolle Politik, Orientalia 55, 1986.
448. Waddell L. Egiptian Civilization: its Sumerian origin. London, 1930.
449. Waddell L. The Makers of Civilization in Race and History. London, 1929.
450. Wamberi H. Das Türkenvolk. Leipzig, 1885.
451. Wamberi H. Die Alttürkischen İnschriften der Mongolei und Sibiriens. Helsingfors, 1898.
452. Wathson William. China. New York, 1966.
453. Watson G. Wilfred. Additional Names for Animals in the Ugaritic textes. Historiae. №4, 2007.
454. Wiggermann. Nergal. Reallexikon der Assyrologie und Vorderasiatischen Archälogie, 1999.
455. Weisbach P. N. Die Sumerische Frage. Leipzig, 1898.
456. West E. W. Dina-i Minoq-i Khirad. Pahlavitexsts. Oxford, 1885.
457. Wilhelm Gernot. Grundzüge der Geschichte und Kultur der Hurriten. Darmstadt, 1982.
458. William B. Fisher, İlya Garschevitch. The Cambridge History of İran. The Medien und Achameniden period, 1985.
459. Winkelmann Silvia: Animali e miti nel Vicino Oriente Antico. Animals and mythis in Ancient Near East, 2008.
460. Winckler H. Geschichte Babylionenis und Assyries. Leipzig, 1892.
461. Wirth A. Geschichte Asiens und Osteuropas, 1905.
462. Woolley Leonard. The Sumerians. Oxford, 1928.
463. Woolley, Leonard, Ur of the Chaldees, Penguin Books, Washington, 1938.
464. Zadok Ran. Anatolians in Neo-Assyrians Documents. Pax Hetitica. Stydies ob the Hitites and their Neighbours in Honour of İtamar Singer. Pp. 411-434. Wisbaden, 2010.



465. Zadok Ran. The Ethno-Linguistic Character of Northwestern İran and Kurdistan in the Neo-Assyrian Period. İran. Journal of the British Institute of Persian Studies. Vol. 40. №1. 2002.
466. Zimansky P, Ecology and Empire: The Structure oft he Urartian State. Chicago, 1985.
467. Zimansky P. Uratian material culture as state assemblage. Bulletin American Association Oriental Research. 299, 1995.
468. Zhivkov Boris. Khazaria in the Ninht and Thent centuries. Leiden-Boston, 2015.
469. Zeuss Kaspar. Die Deutschen und die Nachbarstämme. München, 1837.
470. Zoological Mithology or Legends and of Animals. By Angelo de Gubernatis. Vol. 1. London, 1872.
471. Zoological Mithology or Legends and of Animals. By Angelo de Gubernatis. Vol. 2. London, 1872.

*Rus dilində.*

472. Абаев И. Б. Из Иранской ономастики. История Иранского государства и культуры. М. 1971.
473. Абул Фазл Аллами. Акбарнаме. Самара, 2003.
474. Абрашкин А. Скифская Русь. М. 2008.
475. Абу Райхан Бируни. Индия. М. 1995.
476. Абу Райхан Бируни. Собрание сведений для познания драгоценностей (минералогия). М. 1963.
477. Абу Райхан Бируни. Индия. М. 1995.
478. Авдиев В. История древнего востока. М, 1970.
479. Агафий Миринейский. О царствования Юстиняна. М. 1953.
480. Ал Идриси. Нузхат ал Муштак. Ал Идриси о странах Восточной Европы, М. 2006.
481. Алексеев Н. А. Шаманизм Тюркоязычных народов Сибири, Новосибирск, 1984.
482. Андреа Дондора. Венецианская Хроника. Кн. IV. ч. 9, перевод И. В. Дьяконова.
483. Англо-саксонские хроники. Церковная История. М. 2001.
484. Аполлоний Родосский. Аргонавтика. М., 2001.
485. Аристов Н.А. Труды по истории и этническому составу тюркских племен, Бишкек, 2003.
486. Арриан Флавий. Анабасис Александра. М-Л 1962.
487. Артомонов М. И. Киммерийцы и скифы. Л. 1974.

488. Ата Мелик Джувейни. Tarikh-i Jahan Gusha. М. 2004.
489. Бариев Р. Х. Волжские булгары: история и культура. С-Петербург, 2005.
490. Бахши Иман. Джафгар тарихи. Оренбург, 1993.
491. Беда Достопочтенный. Хроника англо-саксов. М. 2001.
492. Бертинские Анналы. Латиноязычные источники по истории древней Руси. Вып. М. 1989.
493. Брагинская Нина. Сибарис и двадцать пять веков его утопии. журн. Отечественные записки. №5, 2004.
494. Бутанаев В. Топонимический словарь Хакасского-Минусинского края. Абакан, 1995.
495. Вайнберг Б. Этногеография Турана в древности: VII в. до н. э. - VIII в. н. э. М. 1999.
496. Верхотуров В. Т. Идея Сибирской самостоятельности вчера и сегодня. 2009.
497. Верхотуров В. Т. Покорение Сибири: мифы и реальность. 2005.
498. Византийские историки: Дексипп, Эвнапий, Олимпиодор, Малх, Петр Патриций, Менандр, Кандид, Ноннос и Феофан Византиец, переведенные с греческого Спиридоном Дестунисом. М. 2008.
499. Вилхельм Горнот. Хурриты. М. 1981.
500. Волкова Н. Г. О названиях азербайджанцев на Кавказе. Ономастика Востока. М. 1980.
501. Всеобщая хроника Эккехарда. пер. И. Дьяконов, М. 2008.
502. Гай Юлий Сезар. Записки о галльской войне. 2016.
503. Газета. Ру. 19 январ 2013.
504. Гальфрид Манмутский. История бриттов. Жизнь Мерлина. М. 1984.
505. Гаркави А. Я. Сказания мусульманских писателей о славянах и русских. СПб, 1870.
506. Гельмольд. Славянская хроника. Кн. I, М. 1963.
507. Глоголев С. Очерки по истории религий, М. 1902.
508. Гумилев Л. Тысячелетие вокруг Каспия. Баку, 1991.
509. Гумилев Л. Древаяя Русь и Великая степь. М. 1992.
510. Григорев С.А.Древные индоевропейцы: опыть исторической реконструкции. Челябинск, 1999.
511. Григорев С. Археологические основания Ближновосточной локализации индоевропейской прародины на территории Евразии. Вестник Челябинского Университета 2003, серия 10, №2.
512. Диодор Сцилийский, Кн. 2. М. 2008.
513. Диокон Лев. История. М. 1988.



514. Джикиев А. Очерк этнической истории и формирования населения Южного Туркменистана. Ашхабад, 1977.
515. Древнетюркский сдоварь. Ленинград, 1969.
516. Дьяконов И. М., Старостин С. А. Хуррито-урартские и Восточнокавказские языки. Древний Восток: этнокультурные связи. Москва, 1988.
517. Дьяконов И. М. Восточный Иран до Кира. История Иранского государства и культура. М. 1971.
518. Дьяконов И. М. История Мидии. Т I, Баку, 2012.
519. Дьяконов И. М. История Мидии. Т II, Баку, 2012.
520. Дьяконов И. М. Предистория Армянского народа, Ереван, 1968.
521. И. М. Общественный и государственный строй древнего Двуречья. Шумер, 1959.
522. Дьяконов И. М. О языках древней Предней Азии. Вопросы языкознания. Серия 5, сентябрь-октябрь, М. 1954.
523. Дьяконов И. М. Урартские письма и документы, Ленинград, 1963.
524. Дроздов Ю. Тюркская этнонимия древнеевропейских народов. М. 2008.
525. Дроздов Ю. Н. Тюркоязычный период европейской истории. М. 2011.
526. Жизнеописания царя Давида. Восток: история и современность. Баку, 1990.
527. Жиракузиев Н. И. Мифический камен Яда в литературе и фольклоре Тюркских народов. Современная Тюркология: Язык, литература, история и культура Тюркских народов. Материалы VII Международной Тюркологической конференции. Елабуга, 2014.
528. Закирьзянов Кайрат. Под знаком волка. Алматы, 2012.
529. Закирьянов К. К. Фактор или вселенная тюрков. Вестник КазНУ. Серия историческая. №1(68). Алматы, 2013.
530. Зильберман М. О Шумеро-аккадском вкладе в этногенезе западных иберов. 2016.
531. Ибн Фадлаллах Ал Омари. Масалик ал-абсар фи мамалик ал-амсар. Сборник материалов, относящихся к истории Золотой Орды, Т 1, Извлечения из сочинений арабских. СПб, 1884.
532. Ибн Хордадбех. Книга путей и стран. Перевод Н. Велихановой. Баку, 1986.
533. Ибрагимова К. А. Идеология Иранского обществ эпоху Ахеменидское державы. Електронное научное издания АльманахПространство и Время. Т. 5, Вып. 1, ч. 2, 2014.
534. Иордан. О происхождении и деяниях гетов. Спб. Алетейя. 1997.
535. Исидор Севильский. История готов, вандалов и суевов. М. 2009.
536. Ирвинг Финкел. Ковчег до Ноя. Москва, 2016.

537. История Грузии, Тбилиси, 1962.
538. Йакут-ал-Хамави. Муджам ал-Будлан. Источники по истории Азербайджана. Т II, Баку, 1983.
539. Калыгин В. П. Этимологический словарь кельтских теонимов. М. 2006.
540. Камолиддин Ш. С. Кnвопросы о присхождении Саманидов. Часть 1. Бахрам Чубин. Ташкент, 2008.
541. С. Касумова. Южный Азербайджан в III-VII вв, Баку, 1983.
542. Клейн Л. Древние миграции и происхождение индоевропейских народов, Санкт Петербург, 2007.
543. Клесов А. Основная загадка во взаимоотношениях индоевропейской и тюркской языковых семей и попытка ее решения с помощью с ДНК -генеологии. Вестник Российской Академии ДНК -генеологии. 2010.
544. Клесов А. ДНК генеологии Тюрков. Вестник Российской Академии ДНК-генеалогии. М. 2010. Т. 3. №1.
545. Кляшторный С. Г, Султанов Т. И. Государства и народы Евразийских степей: от деревности к Новому времени. //СПб. Петербургское Востоковедение, 2009.
546. Кляшторный С. Г. История Центральной Азии и памятьники рунической письма. СПб. 2003.
547. Кляшторный С. Г. Мифологические сюжеты в древнетюркских памятниках. Тюркологический сборник. М. 1977. Стр. 117-138.
548. Кляшторный С. Г. Проблемы ранней истории племени Тюрк (ашина). Новое в советской археологии. МИА. №130. М. 1965.
549. Книга страствий Раби Бенямина. Три еврейских путешественника. М. 2004.
550. Коковцев П. К. Еврейско-хазарская переписка в Х веке. Л. 1932.
551. Кононов А. Н. Опыть анализа термина Турк. Советская Етнография. М. Л. 1949.
552. Корнелий Тацит. Анналы. Т-1, Корнелий Тацит. О присхождении германцев М. 1993.
553. Ктесий. История Персии. Перевод Д. В. Мещанский.
554. Кузменко Ю. К. Ранние германцы и их соседи. С-Петербург, 2011.
555. Культура сувар-булгар. Етническая религия и мифологические представления. Чебоксары, 2013.
556. Кызласов И. Л. Гора-прародительница в фольклоре Хакасов. Советская Этнография. 1982. №2.
557. Латышев В. В. Известия древних писателей греческих и латинских о Скифии и Кавказе. СПб. 1893.
558. Лелеков Л. А. Авеста в современной науке. М. 1992.



559. Андрей Леонов. Потомки "туранцев" в европейском этногенезе: от саков до фрягов. Megamatrix.Ru.
560. Маккуин Джеймис. Хетти и их соседи. М. 1983.
561. Малов С. Е. Енисейская письменность Тюрков, Səh. 21, М-Л 1952
562. Материалы по истории Туркмен и Туркмении. Т. 2, М-Л 1938.
563. Мезолитические комплекси памятника Туткуал. Русская Археология, 2015, №2.
564. Мельникова Е. А. Древнескандинавские географические сочинение. М. 1986.
565. Менандр Протектор. История: О посольствах тюрков к персам и византийцам 568г. Перевод Жданович О. П. УИЖ. №5, 2002.
566. Мещанинов И. И. Халдоведение. История древнего Вана. Баку, 1927.
567. Мингазов Шамил. Этруски и тюрки, Воронеж. Тюркский сборник. Воронеж, 2007.
568. Мирчи Элиаде. От Залмоксиса до Чингисхана. журнал "Кодры", 1991, №7.
569. Моллаев Т. Новый взгляд на историю осетинского народа. Нальчик, 2010.
570. Монгайт А. Л. Археология Западной Европы. Бронзовый и Железный века. М. 1974.
571. Муратов. Б. А. Прототюрки и протоиндоевропейцы. Локализация их прородины. БЭИП "Суюнь". Том. 2 Май 2015, Уфа-Урал, №4 (1).
572. Мурзоев Э. Словарь народных географических терминов. М. 1984.
573. Мухаметдинов Р. Тюрки в истории мировой цивилизации. Казан, 2018.
574. Мухаммад Наршахи. История Бухары. Ташкент, 1897.
575. Немировски А. М. Этруски. М. 1983.
576. Нонний. История бриттонов. Гальфрид Манмутский. История бриттов. Жизнь Мерлина. М. 1984.
577. Носовский Г. В., Фоменко А. Г. Империя. М, 1995.
578. Паркер Едуард. Татары. М. 2010.
579. Пиотровски Б. Б. Ванское царство (Урарту). М. 1959.
580. Платон Иоселиани, Описание древности города Тифлиса, Тифлис 1964
581. Платон Иоселиани, Краткая история Грузинской церкви, С. Петербург, 1843.
582. Плиний. Эстетственная история. VI, XIX, М. 2008.
583. Плутарх. Сравнительные жизнеописание. Ромул. Т. I, М. 1994.
584. Пьянков И. В. Некоторые вопросы этнической истории древней Средней Азии. ж-л Восток. №6, 1995.
585. Пьянков И. В. Иранцы и Тюрки в Евразийских Степях Скифского и Персидского Времени.

586. Пьянков И. В. Иранцы и тюрки в Евразийских степях скифского и предскифского времени. Степи Северной Евразии: Материалы VI Международного симпозиума, 2012 года. Оренбург, 2012.
587. Потанин Г. Н. Очерки Северо-западной Монголии. Т. 1, С. Петербургъ, 1881.
588. Приск Панийский. Готская история. Вестник древней истории. №4, 1948.
589. Птолемей Клавдий. Географическое руководство / Латышев В. В. Известия древних писателей о Скифии и Кавказе. Ч. 1. Греческие писатели // Вестник древней истории. 1948, V.
590. Радлов В. В. Опыть словаря тюркских наречий. Т 3. С. Петербург, 1998.
591. Радлов В. В. Опыть словаря тюркскихъ наречий, Т 1. С. Петербургъ, 1899.
592. Радлов В. Из Сибири. М. 1989.
593. Рагозина З. История Мидии. С. Петербург, 1903.
594. Рагозина З, История Халдея. СПб. 1902.
595. Рафаель Альтамира-и-Кревеа. История Испании. Т1, Москва, 1951.
596. Редина-Томас М. А. Провинциальная администрация в Касситской Вавилонии XIV-XIII вв. до н. э. СПб. 2018.
597. Ртвелидзе, Бактрийский Гопадшах. Вестник Древней истории, Nr:1, Москва, 1995.
598. Сенковски. (Барон Брамбеус) Собрание Сочинений. Т. VI, 1859.
599. Сервий Гонорат. Комментарии к "Энеиде" Вергиля. Кн. I, stix 283, II Sezar. M. 2001.
600. Стурлусон Снорри. Круг Земной. М. 1980.
601. Стурлусон Снорри. Младшая Эдда. Издание подготовил. Стеблин-Каменский М. 1970.
602. Стурлусон Снорри. Edda. Мельникова Е. А. Древнескандинавские Географические сочинения. М., 1986.
603. Страбон География, Книга XI. М. 1994.
604. Страбон. География. Латышев. Известия древних писателей греческих и латинских о Скифии и Кавказе. С-П. 1890.
605. Султанов Турсун. Поднятие на белой кошме. Потомки Чингиз хана. Алматы, 2001.
606. Татищев В. Н. История Российская. Ч. 1, М. 1768.
607. Текст Тесинской стелы. Пер. С. Г. Кляшторный. Советская Тюркология. Баку. 1983, №6, Səh. 76-91.
608. Тит Ливий. История Рима от основания города. М. 1989, кн. I, Т I, 9.
609. Толстов С. П. По древним дельтам Окса и Яксарта. М. 1962.
610. Толстов С. П. По следам Древнехорезмийской Цвилизации. М-Л 1948.
611. Толстов С. П. Города Гузов. Советская Этнография. 1947. №3.



612. Топпер Уве. Великий обман. Выдуманная история Европы. СПб. 2004.
613. Торланбаева К. У. О некоторых племенах Западных Тюрков и Тюргешей. Сборник Материалов Международной Научной Конференции Кипчаки Евразии: История Язык и писменные памяники. Астана, 2013.
614. Тревер К. В. Очерки по исторри и культуры Кавказской Албании, Москва, 1959.
615. Три еврейских путешественника. М. 2004.
616. Уйгурско-русский словарь. М. 1968.
617. Флюссер Д. Книга Иоссипон. Таблица народов. Пер. П. В. Петрухина, Я. Д. Эйделькинда. М. 1978.
618. Фоменко А. Т. Новая хронология Греции. М. 1995.
619. Фрай Р. Наследие Ирана. М. 2002.
620. Хафизи Таныш Бухари. Шараф намайи Шахи. Ч. 1, Перевод Салахетдиновой М. А. Москва, 1983.
621. Хлобыстина М. Д. Древнейшие южносбирские мифы в памятниках окуневских искусств. - В сб.: "Первобытное искусство" Новосибирск, 1971.
622. Щербак А. М. О тюркском вокализме. Тюркологические исследования. Москва-Ленинград, 1973.
623. Штерн М. Греческие и Римские авторы о евреях и иудаизме. Москва-Йерусалим, 1997-2002.
624. Этимологический словарь тюркских языков. Т. I, Под ред. Севортяна. Москва, 1997.
625. Юсифов Ю. Об актуальных проблемах этнической истории Азербайджана. Проблема изучения источников по истории Азербайджана. Баку, 1988.
626. Юстин Марк. Эпитома сочинения Помпея Трога. книги I-II, Санкт-Петербург, 2005.
627. Юстин Марк. Эпитома сочинения Помпея Трога «История Флиппа. С-П. 2015, XX. 1.
628. Юстин Марк. Эпитома Помпей Трога. История Филиппика. XLIV, 3, С. Петербург, 2005.

facebook.com/kohlanpress
instagram.com/kohlanpress
twitter.com/kohlanpress
kohlanpress@gmail.com
055 3599923

# KİTABIN SPONSORU HAQQINDA MƏLUMAT



Kitabın nəşrinə sponsorluq edən Vidadi Vilayət oğlu Hüseynov 1971-ci ildə Bakı şəhərində doğulmuş və peşəkar hərbçi ailəsində vətənpərvər ruhda tərbiyə görmüşdür. 1978-ci ildə Bakı şəhərində 157 №-li məktəbdə Orta təhsil almışdır. 1988-92-ci illərdə Türkmənistan respublikasının Aşqabad şəhərində Dəmir Yolu İnstitutunda ali təhsil almışdır. 1991-ci ildə Rusiyanın Krasnoyarsk şəhərində Sovet ordusu sıralarında hərbi xidməti başa vurmuşdur. Hərbi xidmətdən vətənə döndükdən sonra könüllü olaraq Milli Ordu sıralarına yazılmış və erməni qəsbkarlarına qarşı 1-ci Qabağ savaşında fəal iştirak etmiş, Fizuli, Qubadlı və Laçın uğrundakı döyüşlərin iştirakçısı olmuşdur.

Milli Qvardiya sıralarında döyüş yolu keçmiş Vidadi Hüseynov cəsarət nümunəsi göstərərək ağır döyüşlərin birində düşmən güllәsindən həlak olmuş komandiri Milli Qəhrəman Əfqan Hüseynovun cəsədini həyatını təhlükə altına ataraq döyüş bölgəsindən çıxarmışdır. Döyüşlərdə aldığı xəsarət nəticəsində müalicə üçün Almaniya Federativ Respublikasına getmiş və müalicədən sonra bir neçə il orda yaşamışdır. Almaniyada qaldığı müddət ərzində Nəqliyyat və Dağ mədən sektorunda biznes fəaliyyəti ilə məşğul olmuşdur. Azərbaycan prezidenti İlham Əliyevin xarici ölkələrdə fəaliyyət göstərən azərbaycanlı iş adamlarına müraciətlə vətənə geri dönüb vətənin inkişafı naminə fəaliyyət göstərmək müraciətinə cavab olaraq 2006-cı ildə Azərbaycana geri dönmüş, dövlətinin inkişafı naminə burda şirkət quraraq iş adamı kimi Dağ Mədən sahəsində fəaliyyətini davam etdirmişdir. Novator ruhuna sahib, yeniliyə, inkişafa önəm verən Vidadi Hüseynov öz ixtisasını təkmilləşdirmək üçün Ukraynanın Xarkov Politexnik İnstitutunda Avtomobil və Avtomobil təsərrüfatı üzrə ikinci ali təhsil almışdır.

Vidadi Hüseynov evlidir, iki övladı vardır.

Müəllif, Azərbaycan milli xeyriyyəçilik ənənələrinə uyğun olaraq kitabın nəşrinə etdiyi maliyyə yardımına və elmimizin inkişafına verdiyi dəstəyə görə sarsılmaz milli ruha və türkçü-turançı duyğusuna sahib Vidadi Hüseynova öz dərin minnətdarlığını bildirir.